# E-Məqalələr

- **Əmiraslanov, Əhliman.** Alim və şəxsiyyət ömrü: [Zərifə xanım Əliyeva haqqında] / Ə. Əmiraslanov // Azərbaycan. - 2024.- 16 aprel. - № 75. - S. 9.
- **Nəcəfxanlı, Əli.** Akademikin parlaq və unudulmaz obrazı: [akademik Zərifə xanım Əliyeva haqqında] / Ə. Nəcəfxanlı // Xalq qəzeti. - 2024.- 16 aprel. - № 75. - S. 6.
- **Aslanov, Novruzəli.** Peşəkarlıq, səmimiyyət və qayğıkeşlik örnəyi: akademik Zərifə Əliyeva yüksək keyfiyyətləri ilə insanların rəğbətini və məhəbbətini qazanıb / N. Aslanov // Respublika. - 2024.- 16 aprel. - № 75. - S. 5.
- **Paşayeva, Təranə.** Nurlu ömrün qürurlu salnaməsi: [Akademik Zərifə xanım Əliyeva haqqında] / T. Paşayeva // İki sahil. - 2024.- 16 aprel. - № 64. - S. 3.
- **Məmmədova, Mətanət.** Azərbaycanın qürurla andığı qadın: Zərifə xanım Əliyeva / M. Məmmədova // Səs. - 2024.- 16 aprel. - № 64. - S. 4.
- **Ələddinqızı, Nəzakət.** Ziyalı ömrünün işığı – Zərifə xanım Əliyeva / N. Ələddinqızı // Səs. - 2024.- 10 aprel. - № 63. - S. 4.
- **Bayramova, Zümrüd.** Görkəmli oftalmoloq-alim, böyük ziyalı - Zərifə xanım Əliyeva / Z. Bayramova // Səs. - 2024.- 7 aprel. - № 61. - S. 3-4.
- **Əliyev, Ziyadxan.** Nəciblik və şəfqətin uğurlu təcəssümü: Akademik Zərifə Əliyevanın yeni portreti haqqında düşüncələr // 525-ci qəzet. - 2023. - 22 dekabr. - № 232. - S. 10.
- **Səfərova, Samirə.** Zərifə Əliyeva şəxsiyyəti, tibbdə fenomenallıq və Azərbaycan oftalmologiya elmi: "Bir ömür xidmətinizdə..." // Bakı Xəbər. - 2023. - 8 dekabr. - № 223. - S. 13.
- **Sultan, Səadət.** Nurlu ömrün yolları: Bütün varlıqların zirvəsi Ana // Azad Azərbaycan.-2023.-7 dekabr.-№40.-S.4.
- **Ağaşahqızı, Yaqut.** Azərbaycan səhiyyəsinin nuru: Yüksək mənəviyyata, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə sahib olmuş Zərifə xanım Əliyeva həyatı və əməlləri ilə hələ sağlığında əbədiyyət qazanmış bir şəxsiyyətdir // İki sahil.-2023.-29 noyabr.-№218.-S.5.
- **Mehralı, Lalə**. İki prezidentin həyatına toxunan həkim – Zərifə Əliyeva // Səs.-2023.-28 noyabr.-№217.-S.3.
- **Rzayeva, Məlahət.** Titrəməyən əllər: Zərifə xanım zərifliyi, biliyi, bacarığı insanlara işıq, xoşbəxtlik bağışlayırdı // Şərq. - 2023. - 28 noyabr. - № 216. - S. 5.
- **Təranə, Tağızadə.** İnsanların taleyinə nur saçan görkəmli oftalmoloq: Yüksək əqidə - örnək həkim amalı // Respublika. - 2023.- 21 may. - № 106. - S. 6.
- **Bünyadzadə, Könül.** Zərif ruhun güclü təcəssümü: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan. - 2023.- 29 aprel. - № 87. - S. 8.
- **Mirzəyeva, Esmira.** Gözlərə nur verən həkim // Respublika. - 2023.- 29 aprel. - № 87. - S. 9.
- **Qəhrəmanov, Zahir.** İnsanlara işıqlı həyat bəxş etmiş görkəmli alim // Respublika. - 2023.- 29 aprel. - № 87. - S. 9.
- **Əmiraslanov, Əhliman.** Şəxsiyyət zirvəsi: [Zərifə xanım Əliyeva-100] // Azərbaycan. - 2023.- 28 aprel. - № 86. - S. 4.
- **Qafarova, Sahibə.** Nəsillərə örnək olan həyat yolu // Xalq qəzeti. - 2023.- 28 aprel. - № 86. - S. 1,7.
- **Süleymanova, Elmira.** Nurlu ömrün işığında // Azərbaycan. - 2023.- 28 aprel. - № 86. - S. 6.
- **Musayeva, Yasəmən.** Vətənin zərif rəmzi: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan. - 2023.- 28 aprel. - № 86. - S. 1,8.
- **Sadıqlı, Flora.** Zavodda... oftalmologiya lab: oratoriyası: Bunu böyük alim Zərifə Əliyeva fəhlələrin gözlərinin sağlamlığı üçün yaratmışdı // Azərbaycan. - 2023.- 28 aprel. - № 86. - S. 8.
- **Həbibbəyli, İsa.** Azərbaycan oftalmologiya elmi məktəbinin banisi // Azərbaycan. - 2023.- 28 aprel. - № 86. - S. 7.

- **Quliyev, Vilayət.** Bitməyən bir eşq hekayəti // Xalq qəzeti. - 2023.- 28 aprel. - № 86. - S. 9.
- **Aslanov, Novruzəli.** Görkəmli alim, dəyərli ziyalı, fədakar ana // Azərbaycan. - 2023.- 28 aprel. - № 86. - S. 7.
- **Əliyeva, İradə.** Böyük qəlbin işığı: [Zərifə xanım Əliyeva-100] // Azərbaycan. - 2023.- 28 aprel. - № 86. - S. 5.
- **Əliyeva, Züleyxa.** Şəfqət işığına bürünən nurlu insan // Azərbaycan. - 2023.- 28 aprel. - № 86. - S. 8.
- **Quliyev, Musa.** Sadəlik, xeyirxahlıq və kübarlıq mücəssəməsi: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Xalq qəzeti. - 2023.- 28 aprel. - № 86. - S. 8.
- **Qurbanqızı, Zümrüd.** Xoş xatirələrin işığında... // Respublika. - 2023.- 28 aprel. - № 86. - S. 8.
- **Qəlbinur, Paşa.** Ümid ünvanı...: Unudulmaz müəllimim akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə… // Respublika. - 2023.- 28 aprel. - № 86. - S. 8.
- **Hüseynova, İradə.** Böyük alim və mənəvi paklıq timsalı // Respublika. - 2023.- 28 aprel. - № 86. - S. 9.
- **Məsud, Rəfiqə.** Xeyirxahlıq, nəciblik mücəssiməsi // Respublika.- 2023.- 28 aprel.- № 86.- S. 10.
- **Əmiraslanov, Əhliman.** Zərif ömrün işığı: [Zərifə xanım Əliyeva-100] // Respublika. - 2023.- 28 aprel. - № 86. - S. 7.
- **Bayramova, Zümrüd.** Böyük ziyalılıq və xeyirxahlıq nümunəsi – Zərifə xanım Əliyeva. Prezident İlham Əliyev: "O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir" // Səs.-2023.-28 aprel.-№72.-S.4.
- **Allahverdiyev, Mübariz.** Qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, böyük alim, əsl müəllim // Azərbaycan müəllimi. - 2023. - 28 aprel. - № 16. - S. 7.
- **Musayev (Qəlbinur), Paşa.** Qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, böyük alim, əsl müəllim: Akademik Zərifə Əliyevanı tələbələri belə xatırlayırlar // Azərbaycan müəllimi. - 2023. - 28 aprel. - № 16. - S. 6.
- **İsmayılqızı, Xuraman.** Gözlərə işıq, qəlblərə nur bəxş edən böyük alim: Bu gün görkəmli oftalmoloq alim Zərifə Əliyevanın 100 illik yubileyidir: Həmkarları kimi, xəstələri də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanı belə xatırlayırlar // İki sahil.-2023.-28 aprel.-№72.-S.5.
- **Əsgərov, Asif.** Azərbaycan oftalmologiyasını dünyada şöhrətləndirən alim // Xalq qəzeti. - 2023.- 27 aprel. - № 85. - S. 8.
- **Əfəndıyeva, Humay.** Şərəfli ömür yolu və zəngin yaradıcılıq // Respublika. - 2023.- 27 aprel. - № 85. - S. 5.
- **Kərimov, Kərəm.** Millət Anası: [Zərifə xanım Əliyeva-100] // Respublika. - 2023.- 27 aprel. - № 85. - S. 6.
- **Qasımov, Ramiz.** Nəcib insan, əzəmətli ana, unudulmaz şəxsiyyət: Dünyaşöhrətli alim akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə // Olaylar.-2023.-21-27 aprel.-№15.-S.5.
- **Hacıyev, Rasim.** Zərifə xanımın yetirmələri onu qədirbilənliklə xatırlayırlar // Xalq qəzeti. - 2023.- 26 aprel. - № 84. - S. 7.
- **Akademik Zərifə Əliyeva haqqında elektron resurs:** [Prezident Kitabxanası Akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən elektron resurs hazırlamışdır] // Mədəniyyət. - 2023.- 26 aprel. - № 31. - S. 2.
- **Qəlbinur, Paşa.** NUR - Unudulmaz müəllimim akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə... // Ədəbiyyat qəzeti.-2023.-21 aprel.-№15.-S.2.
- **Paşayeva, Qənirə.** Əziz ana - Zərifə xanım Əliyeva // İqtisadiyyat.-2023.-20-26 aprel.-№15.-S.5.
- **"Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva: həkimlik andı və vətəndaş missiyası** // Azərbaycan. - 2023.- 20 aprel. - № 82. - S. 9.
- **Bayramova, Zümrüd.** Nurlu ömrün böyük salnaməsi – Zərifə xanım Əliyeva // Səs.-2023.-18 aprel.-№66.-S.3.

- **Əliyeva, Mehparə.** Görkəmli elm xadimi, nəcib insan, qayğıkeş ana: 15 aprel dünyaşöhrətli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anım günüdür // Respublika. - 2023.- 15 aprel. - № 78. - S. 6.
- **Cavadzadə, Nəzrin.** Tibb elminin inkişafında misilsiz xidmət // Respublika. - 2023.- 15 aprel. - № 78. - S. 6.
- **Naibova, Tamilla.** Böyük alim, gözlərə nur bəxş edən insan: [Zərifə xanım Əliyeva-100] // İki sahil.-2023.-15 aprel.-№65.-S.14.
- **Fərəcova, Zöhrə.** Görkəmli alim, təkrarsız insan ömrünün işıqlı xatirələri // Azərbaycan. - 2023.- 15 aprel. - № 78. - S. 8.
- **Yüksək əqidə: Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı:** [Zərifə xanım Əliyeva-100] // Azərbaycan. - 2023.- 15 aprel. - № 78. - S. 1,7.
- **Quliyev, Vilayət.** Bitməyən bir eşq hekayəti: Xalq yazıçısı Elmira Axundovanın "Əbədiyaşar məhəbbət" kitabına sözardı // 525-ci qəzet. - 2023. - 15 aprel. - № 65. - S. 16-17.
- **Məmmədova, Mətanət.** Zərifə xanım Əliyeva: Azərbaycanın qürurla andığı qadın // Səs.-2023.-15 aprel.-№65.-S.4-5.
- **Abbasova, Günel.** Qayıt, əzizim...: [Zərifə xanım Əliyeva-100] // Yeni Azərbaycan.-2023.-15 aprel.-№65.-S.4.
- **Abdıyeva, Yazgül.** Azərbaycanın ilk oftalmoloq akademiki: Zərifə xanım Əliyeva – 100 // Xalq qəzeti. - 2023.- 16 aprel. - № 79. - S. 5.
- **Yüksək əqidə: Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı:** [Zərifə xanım Əliyeva-100] // Azərbaycan. - 2023.- 14 aprel. - № 77. - S. 7.
- **Qurbanlı, Dəmir.** Xalqımız qarşısında xidmətləri olan alim: Əbədiyaşar dünyəvi ictimai-siyasi xadim bəşər tarixinə aftolmologiya elminin banisi olaraq daxil olmuş Zərifə xanım Əliyevanın xalqımız qarşısında, dünya xalqları qarşısında xidmətləri daim yüksək qiymətləndirilir // Azad Azərbaycan.-2023.-13 aprel.-№ 8.-S.4.
- **Mehralı, Lalə.** Evdən yox, eldən gedən insan – “Zərifə Əliyeva-100”: Həmkarlarının və pasiyentlərinin “qoruyucu mələk” adlandırdığı görkəmli alim // Səs.-2023.-11 aprel.-№61.-S.8-9.
- **Görkəmli alim, mərhəmətli insan, müqəddəs ana:** Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə elmi konfransı: [Zərifə xanım Əliyeva-100] // Azərbaycan. - 2023.- 9 aprel. - № 73. - S. 4-5.
- **Paşayeva, Təranə.** Xatirələrdə yaşayan böyük alim, dəyərli ziyalı: Zərifə xanım Əliyeva – 100 // İki sahil.-2023.-8 aprel.-№60.-S.11.
- **Görkəmli alim, mərhəmətli insan, müqəddəs ana:** Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə elmi konfransı: [Zərifə xanım Əliyeva-100] // Azərbaycan. - 2023.- 8 aprel. - № 72. - S. 1,6-7.
- **Məmmədova, Mətanət.** Xalqına müzəffər sərkərdə bəxş edən ana // Səs.-2023.-6 aprel.-№58.-S.4.
- **Qəlbinur, Paşa.** Ürək odu – göz işığı: Unudulmaz müəllimim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə… // Xalq qəzeti. - 2023.- 5 aprel. - № 69. - S. 5.
- **Əliyeva, İradə.** Nurlu şəxsiyyət: [Bu il aprelin 28-də akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümüdür.] Azərbaycan. - 2023.- 3 fevral. - № 24. - S. 10.
- **Məmmədova, Mətanət.** Bir xanım, bir həkim, bir həyat yoldaşı, bir ana tanıdıq… - Təhlil // Səs.-2023.- 26 yanvar .-№ 14.-S. 8-10.
- **Qurbanqızı, Zümrüd.** O, işığını itirmiş gözlərə nur bəxş etdi: [Akademik Zərifə xanım Əliyeva - 100] // Respublika. – 2022.- 16 noyabr. – № 249. – S. 6.
- **Hüseynova, İradə.** Zərifə Əliyeva fenomeni: Zəkanın nuru və xeyirxahlığın genetik yaddaşı // Azərbaycan. – 2022.- 27 aprel. – № 87. – S. 1,5.
- **Nəcəfxanlı, Əli.** Yüksək əqidə paklığının mücəssəməsi // Xalq qəzeti. - 2022.- 16 aprel. - № 78. - S. 5.

- **Fərəcov, Ədalət.** Zərifə Əliyeva tarixə yalnız istedadlı alim, elm təşkilatçısı deyil, eyni zamanda gözəl pedaqoq kimi daxil olub //İki sahil. - 2022.- 16 aprel. - № 66. - S. 7.
- **Əmiraslanov, Əhliman.** Nurlu ideallarda yaşayan alim // Azərbaycan. – 2022.- 15 aprel. – № 77. – S. 6.
- **Urud, Musa.** Akademik Zərifə xanım Əliyeva zəriflik və kübarlıq mücəssəməsi idi // Xalq qəzeti. – 2021.- 28 aprel. – № 88. – S. 9.
- **Abdullayeva, Mehriban.** Zərifə Əliyeva dünyası – nur və şəfqətlə dolu bir aləm // 525-ci qəzet. – 2021. – 21 aprel. – № 69. – S. 12.
- **Gərayzadə, Leyla.** Yüksək mənəviyyat və daxili zənginlik simvolu // Xalq qəzeti. – 2021.- 16 aprel. – № 78. – S. 3.
- **Bayramova, Zümrüd.** Nurlu ömrün böyük salnaməsi – Zərifə xanım Əliyeva // Səs.-2021.-15 aprel.-№65.-S.4.
- **Əliyeva, Nurlana.** Günəş timsallı insan: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan. - 2020.- 28 aprel. - № 81. - S. 5.
- **Abbasov, İlham.** Nəciblik və sədaqət örnəyi // Xalq qəzeti. – 2020.- 15 aprel. – № 70. – S. 5.
- **Qasımov, Elmar**. İşıq, nur və xeyirxahlıq mücəssəməsi // Xalq qəzeti.-2019.-28 aprel.-№92.-S.3.
- **Qasımov, Nazim.** Mənəvi ucalığın zirvəsində dayanan alim // Azərbaycan.-2019.-28 aprel.-№92.-S.1,3.
- **Abdullayev, Mübariz.** İnsanlara sevgi ilə keçən mənalı ömür yolu: Bu gün dünya şöhrətli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümüdür // Yeni Azərbaycan.-2018.-28 aprel.-№82.-S.4.
- **Urud, Musa.** İşıq, gözəllik və xeyirxahlıq mücəssəməsi: Görkəmli oftalmoloq alim, ictimai xadim, akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyinə // Xalq qəzeti. – 2018.- 28 aprel. – № 95. – S. 5.
- **Azadə, Günel.** Nurlu ömrün bitməz dastanı: Ona olan məhəbbət xalqın ürəyində sevgi abidəsi kimi ucalacaq // Kaspi. – 2018.- 28-30 aprel. – № 76. – S. 7.
- **Əliyeva, Nurlana.** Nur heykəli: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan. – 2018.- 28 aprel. – № 95. – S. 1,5.
- **Bayramova, Zümrüd.** Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz salan ziyalı qadın: Bu gün görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın doğum günüdür // Səs.-2018.-28 aprel.-№82.-S.3.
- **Qəlbinur, Paşa**. Sevgi onun ən böyük məziyyəti idi: Akademik Zərifə Əliyeva – 95 // Xalq qəzeti. – 2018.- 15 aprel. – № 84. – S. 5.
- **Səttarova, Cəmilə.** Xoş xatirələrlə yad edilir: [Zərifə Əliyeva – 95] // Azərbaycan. – 2018.- 15 aprel. – № 84. – S. 3.
- **Məhərrəmova, Təranə.** Mehriban ana, gözəl insan, görkəmli alim. Ədilə Namazova: "Zərifə Əliyeva böyük fəlsəfi fikirlərə malik şəxsiyyət idi, həmişə sadə insanların arasında olurdu" // Kaspi. - 2018.- 14-16 aprel. - № 66. - S. 8.
- **Ələddinqızı, Nəzakət.** Nəciblik və mənəvi paklıq timsalı: [Zərifə Əliyeva – 95] // Səs. – 2018.- 14 aprel. – № 72. – S. 3.
- **Nasir, Şəfəq**. Qəlblərə nur saçan insan: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Respublika.-2017.-3 may.-№93.-S.8.
- **Qasımov, Elmar.** Azərbaycan səhiyyəsinin unudulmaz siması // Respublika.-2017.-29 aprel.-№90.-S.5.
- **Gəraybəyli, Gəray.** Alim müdrikliyi, həkim şəfqəti: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2017.-28 aprel.-№89.-S.3.
- **Süleymanova, Elmira.** Gözlərə nur bəxş edən alim // Respublika.-2017.-28 aprel.-№89.-S.5.
- **Qasımov, Nazim.** Mənəvi ucalığın zirvəsində: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Xalq qəzeti.-2017.-28 aprel.-№89.-S.3.

- **Ələddinqızı, Nəzakət.** Oftalmologiyanın mirvarisi, nəciblik və mənəvi paklıq timsalı // Səs.-2017.-19 aprel-№ 67.-S.5.
- **Allahverdiyev, Mübariz.** Dünya şöhrətli oftalmoloq-alim // Xalq qəzeti.-2017.-15 aprel.-№78.-S.3.
- **Əmiraslanov, Əhliman.** Nurlu ömrün işığı: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2017.-15 aprel.-№78.-S.7.
- **Əmiraslanov, Əhliman.** Dünya şöhrətli alim-oftalmoloq // Azərbaycan.-2016.-28 aprel.-№90.-S.15.
- **Allahverdiyev, Mübarız.** Nəsillərə nümunə olan ömür yolu: Akademik Zərifə xanım Əliyeva – 93 // Xalq qəzeti.-2016.-28 aprel.-№90.-S.4.
- **Əliyeva, Nurlana.** İnsanlara nur bəxş edən şəxsiyyət: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2015.-28 aprel.-№ 89.-S.5.
- **Abasoğlu, F.** Müdrik alim, qayğıkeş ana: Akademik Zərifə Əliyevanın xatirəsi sonsuz məhəbbətlə yad edilir // Kaspi. - 2016.- 28 aprel. - № 72. - S. 7.
- **Allahverdiyev, Mübariz.** Xeyirxahlıq və humanizm mücəssəməsi: Akademik Zərifə Əziz qızı Əliyeva-92 // Xalq qəzeti.-2015.-28 aprel.-№ 89.-S.4.
- **Mirələmov, Hüseynbala.** Nur heykəli: [Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan. - 2015.-15 aprel. - № 78. - S. 6.
- **Mirələmov, Hüseynbala.** Əbədiyyətə qovuşan ömür: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2014.-27 aprel.-№ 86.-S.5.
- **Ağayev, Böyükkişi.** İşıqlı xatirələrdə yaşayır: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2014.-25 apre.-№ 84.-S.3.
- **Salahova, Zərifə.** Zəkasının işığı hələ də görünür: [Oftolmoloq alim Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2014.-15 aprel.-№ 75.-S.7.
- **Məsud, Rəfiqə.** Xalqa dayaq olan nəcib insan: [Zərifə xanım Əliyeva haqqında] // Respublika.-2013.-30 aprel.-№ 90.-S.8.
- **Əmiraslanov, Əhliman.** Nura can atan böyük qəlb sahibi // Azərbaycan.-2013.-28 aprel.-№ 90.-S.7.
- **Əliyeva, Nurlana.** Bir ömrün sönməz işığı: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2013.-27 aprel.-№ 89.-S.7.
- **Mirələmov, Hüseynbala.** Böyük sevginin adı: [Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2013.-26 aprel.-№ 88.-S.10.
- **Hüseynova, Hicran.** Nurlu insan: [Zərifə Əliyeva - 90] // Azərbaycan.-2013.-25 aprel.-№ 87.-S.9.
- **Əliyeva, Nurlana.** Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva haqqında düşünərkən // Səs.-2013.-23 aprel.-№ 72.-S.12-13.
- **Rüstəmov, İlqar.** Sevgisinin və peşəsinin mücahidi: Zərifə Əliyeva – 90 // Xalq qəzeti.-2013.-20 aprel.-№ 83.-S.5.
- **İsmayıl, Zülfiyyə.** Zərifə xanım Əliyeva öz səxsiyyətində Azərbaycan xanımna layiq anahq əzəməti, qadınlıq ləyaqəti nümayis etdiıir / R. Qasımov // İki sahil.-2013.-18 avqust.-№ 67.-S.20.
- **Əlizadə, Akif.** Böyük insan, unudulmaz alim: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2013.-16 aprel.-№ 79.-S.8.
- **Heydərova, Adilə.** Böyük qəlbin işığında: [Zərifə Əliyeva - 90] // Azərbaycan.-2013.-14 aprel.-№ 78.-S.5.
- **Əmiraslanov, Əhliman.** Dünya şöhrətli alim, görkəmli oftalmoloq, qayğikeş insan: Akademik Zərifə Əliyeva – 90 // Xalq qəzeti.-2013.-14 aprel.-№ 78.-S.5.
- **Loğmanoğlu, Səlim.** İnsanlara nur bəxş edən böyük oftalmoloq alim… // Yeni Azərbaycan.-2013.-4 aprel.-№ 57.-S.4.
- **Hüseynova, Rəfiqə.** Zərifə Əliyeva – 90 // Səs.-2013.-3 aprel.-№ 58.-S.4.

- **Hacızadə, Nahid.** Ömrü dastana çevrilmiş insan haqqinda həyat hekayəti // Respublika. - 2012.-30 dekabr. - № 293. - S. 10.
- **Musayev, Surxay.** Kamillik və müdriklik mücəssəməsi // Azərbaycan. - 2012.-28 aprel. - № 92. - S. 6.
- **Qasımov, Elmar.** Ürəklərdə izi var…: [Oftolmoloq alim Zərifə xanım Əliyeva haqqında] // Xalq qəzeti.-2012.-15 aprel.-№ 81.-S.3.
- **Mirələmov, Hüseynbala.** İnsanlara qalan nur: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan.-2012.-15 aprel.-№ 81.-S.4.
- **Şərəfli ömür yolu:** [Akademik Zərifə xanım Əliyeva haqqında] // Xalq qəzeti.-2011.-28 aprel.-№ 90.-S.3.
- **Hüseynova, T.** O, əsl gözəllik mücəssəməsi idi: [Oftolmoloq alim Zərifə xanım Əliyeva haqqında] // Xalq qəzeti. - 2011.-16 aprel. - № 80. - S. 6.
- **Aslanov, Kamran.** Gözlərə nur, qəlblərə mərhəmət bəxş edən böyük insan // Azərbaycan. - 2011.-15 aprel. - №79. - S. 6.
- **Əliyeva, İradə.** İşıqlı insan: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Azərbaycan. - 2010.-19 sentyabr. - № 204. - S. 4.
- **Sadıqova, Afət.** Dəyərli alim, qayğıkeş ana, sədaqətli həyat yoldaşı // Azərbaycan.-2010.-28 aprel.-№ 90.-S.4.
- **Hüseynova, Hicran.** Humanizm mücəssəməsi: [Zərifə xanım Əliyeva haqqında] // Xalq qəzeti. - 2010.-28 aprel. - № 90. - S. 3.
- **Ələddinqızı, Nəzakət.** Analar tarix yaşadır: [Akademik Zərifə xanım Əliyeva haqqında] // Səs. - 2010.-27 aprel. - № 72. - S. 4.
- **Nurlana, Əliyeva.** Mənəviyyat tariximizin örnəyi // Yeni Azərbaycan. - 2010.-27 aprel. - № 72. - S. 5.
- **Şəmsizadə, Nizaməddin.** Böyük nəslin dastanı: [Akademik Zərifə xanım Əliyeva haqqında] // 525-ci qəzet. - 2010.-26 aprel. - № 74. - S. 4.
- **Əmiraslanov, Əhliman.** Elmin və insanlığın zirvəsi: Görkəmli elm xadimləri: [Akademik Zərifə xanım Əliyeva haqqında] / E. Qasımov // Azərbaycan.-2010.-15 aprel.-№ 79.-S.6.
- **Hüseynova, İradə.** Zərif bir insandı gözdə nur kimi... // Xalq qəzeti. - 2010.-15 aprel. - № 79. - S. 5.
- **Mirzəzadə, Reyhan.** Oftalmologiyada mühüm elmi yeniliklərə imza atmış böyük alim: Akademik Zərifə Əliyeva SSRİ səhiyyəsində Averbax mükafatını alan ilk xanım idi // Xalq qəzeti.-2010.-26 yanvar.-№ 19.-S.5.

* * *

- **Великая женщина:** Состоялся вечер памяти, посвященный 100-летию выдающегося азербайджанского ученого-офтальмолога, - академика Зарифы Алиевой // Бакинский рабочий. - 2023. - 17 марта. - № 49. - С. 9.
- **Многогранная личность** // Бакинский рабочий. – 2022. – 5 ноября. – № 203. – С. 4.
- **Великие азербайджанки** // Новое время. – 2022. – 4 августа. – № 104. – С. 13.
- **Алиева, Галия.** Свет неугасимый: Профессиональное кредо Зарифы Алиевой – поиск новых направлений науки // Каспiй. – 2019. – 27 апреля. – № 76. – С. 8.
- **Алиева, Эльмира.** Глашатай высоких человеческих качеств: Ко дню рождения Зарифы ханым Алиевой // Каспiй.-2018.-28 апреля.-№76.-С.9.

## Bir xanım, bir həkim, bir həyat yoldaşı, bir ana tanıdıq… - TƏHLİL

**Mətanət Məmmədova**

Bəli, elə bir xanım, elə bir həkim, elə bir həyat yoldaşı, elə bir ana tanıdıq ki, bu gün qarşımızda bütün bu titulların üstün və gözəl cizgilərindən yaranmış bir portret var: Zərifə xanım Əliyevanın portreti. Bu portret nur saçır ətrafa. Ötən bir əsrdə ən gözəl xanım, ən bacarıqlı həkim, ən dəyərli həyat yoldaşı və ən gözəl ana ömrünü yaşayan və bu gün hər bir azərbaycanlı qadın üçün nümunəyə çevrilən Zərifə xanım Əliyevanın nurlu həyat yolu ətrafa işıq yayır o portretdən. Baxdıqca qürur duyur, nə gözəl bir insan tanımışıq, deyirik.Bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli və eyni zamanda ən yüksək insani dəyərlərə malik həkim, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, ölkəmizə müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana Zərifə xanım Əliyevanın bu il 100 yaşı tamam olur.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında” 3 noyabr 2022-ci il tarixdə Sərəncam imzalamışdır. Sərəncamda deyilir: Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

### İşıqlı ideallara doğru

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmış, zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi. Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təva¬zökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi.Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında həmişə yüksək fikirdə olublar. Akademik A.Nesterov: “Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm”.Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.Trutneva: “Bu cür tədqiqatlar həcminə və vacibliyinə görə seçilsə də, çox zəhmət tələb etsə də, sosial-iqtisadi baxımdan əvəzsizdir. Bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalışanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyələr işlənib hazırlanmış, istehsalata tətbiq edilmişdir. Zərifə xanımın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarətdir”.Tibb elmləri doktoru, professor Z.Skripniçenko: “Zərifə xanımın elmi maraq dairəsi çox geniş idi. O, bir ümumi dəftərə yeni kitab üçün nəzərdə tutduğumuz fikirləri qeyd etmişdi. Bunlar əsasən toksik kataraktalara və toksik qlaukomalara həsr olunmuş elmi işlərdən, tələbələr və oftalmoloq həkimlər üçün nəzərdə tutulan məruzələrdən ibarət idi”.

### Həkim insanlara günəş qədər lazımdır

Tələbəlik illərində fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və o, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır. Zərifə xanım ilk növbədə həkim idi, bu peşəni çox uca tuturdu. Həkimi günəşə bənzədərək deyirdi: “Həkim insanlara günəş qədər lazımdır”. O, ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Zərifə xanımın başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən

səbəbləri aşkar edib aradan qaldırmaq, onun optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi. Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstə¬liyin qarşısının alınmasında başlıca rol oynamışdır.Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstə¬liklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır.Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq, indi də tətbiq edilir və insanlara nur bəxş edir.

**Dosentlikdən akademikliyə qədər**

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümum¬ittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" əsərləri bu qəbildəndir.Görkəmli alimin qələmə aldığı "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların bir şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.Zərifə xanım Əliyevanın "Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı. Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.Akademik Zərifə xanım Əliyeva göz xəstəlikləri mütəxəssisi kimi Azərbaycanda bu sahədə elmin əsas yaradıcılarındandır. O, göz xəstəliklərinin müalicəsi problemini elmi məktəb səviyyəsinə çatdırmışdır.Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndərimiz deyirdi: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".

**Xəstənin əzablarını öz əzabları bilən həkim**

Zərifə xanımın gözəl insani dəyərlərə malik olmasını onun daim həkim-xəstə münasibətinə xüsusi diqqət yetirməsində görmək mümkündür. O, dəfələrlə demişdir ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır.Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində yazırdı: "Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?".Bəli, xəstənin ümid yeri həmişə həkim olub. Onun gözləri daim həkimini-onun şəfası ola biləcək insanı axtarıb. Həkim xəstənin son ümididir. Və xəstənin həkimdən gözlədiyindən böyük gözlənti ola bilməz. Bu səbəbdən də Zərifə xanımın dəyərli kəlamları bir tərəfdən onun iç dünyasının həssaslığının, insani keyfiyyətlərinin, gözəl duyğularının göstəricisidirsə, digər tərəfdən də bir həkimlik məktəbinin dərsidir. Hər bir həkim üçün gərəkli olan dərsdir. Bütün dövrlərdə həkimlərinin öyrənməli, yaddaşlarına həkk etməli olacağı dəyərdir. Yalnız bu dəyərləri əxz etməklə əsl həkim olmaq, Zərifə xanım Əliyeva kimi həm tarixdə, həm də qəlblərdə yaşamaq olar.

**Əsl məhəbbət haqqında**

Zərifə xanım Əliyevanın bu gün baxdıqca baxdığımız portretində görünən əsas cizgilərdən biri də onun sədaqətli, vəfalı ömür-gün yoldaşı olmasıdır. Zərifə xanım Əliyeva ona İlahi bəxşişi olan nuru həm ailəsinə, həm övladlarına, həm peşəsinə, həm də həyatda insanlarla münasibətinə o qədər bərabər şəkildə paylaya bilmişdi ki, əhatəsində olanların hər biri bu nurun işığında onu ali bir insan kimi görürdü. Görürdü ki, o, həm ailəsi, həm də cəmiyyət üçün dəyərlidir. Dəyərli olduğu qədər də səmimidir. Bu səmimilik isə onun sadəliyindən, həssaslığından və ailəsində aldığı tərbiyədən irəli gəlirdi.Deyirlər ki, hər bir kişinin arxasında güclü bir qadın vardır. Bəli, çox yerində deyilmiş fikirdir. Ümummilli Liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsinə etibarlı dayaq olmuşdur. Daim yüksək vəzifələrdə çalışan ulu öndərin, iki övladının və xəstələrinin qayğıları Zərifə xanımın mənalı ömrünün eyni ahəngli akkordları olmuşdur. Bütün bunlar haqqında Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə tamaşa edəndə baxmayaraq ki, orta nəsil bu böyük şəxsiyyətlərin nümunəvi, gözəl, səmimi münasibətlərinin şahidi də olublar, lakin bu film insanın qəlbində dəruni hissləri oyadır. Ümummilli Liderin Zərifə xanımı xatırlamasındakı bütün cümlələr qarşısında onun ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbətə heyran qalırsan. Bəli, əsl məhəbbət budur: illərin dəyişə bilmədiyi məhəbbət...

**Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur**

Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".Ömrün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də o cəhətdən xoşbəxt idi ki, xalqımız, dövlətimiz üçün gərəkli olan iki övladın anası idi. Zərifə xanım Azərbaycana onun xilaskarını bəxş etmişdir. 30 illik işğal altında qalan torpaqlarımızın qurtuluşçusunu bəxş etmişdir. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmağı bacaran, müzəffər sərkərdə, sevilən lider olan Ali Baş Komandanımızı bəxş etmişdir.Prezident cənab İlham Əliyev bu gün Azərbaycanı dünya dövlətləri içərisində sözü və yeri olan bir ölkə kimi tanıdıb. Heydər Əliyev ideyalarını davam etdirməklə Azərbaycanı inkişaf etmiş ölkələrdən birinə çevirib.Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Zərifə xanımın sevimli gəlini Mehriban xanım Əliyeva onun ənənələrini davam etdirir. Hər iki ailədən aldığı yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördükləri işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının yüksək intellektual səviyyəsini və vətənpərvərliyini, eyni zamanda bu ailənin ənənələrinin davam etdirildiyini təsdiq edir.

**Bir ailənin iki 8 noyabrı**

İlləri ayrı-ayrı olsa da, iki 8 noyabr Azərbaycan xalqının azadlığı, müstəqilliyi, var olması uğrunda fədakarlıqlar göstərən Əliyevlər ailəsinin həyatında əlamətdarlığı ilə eyni rəqəmlərdir. 1954-cü ilin 8 noyabrı Ulu

Öndər Heydər Əliyev və Zərifə xanım Əliyevanın evlilik tarixi, 2020-ci ilin 8 noyabrı isə "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir",- deyən Ulu Öndərin işğal altında olan torpaqlarımızla bağlı narahatlığına son qoyulan gündür. Qarabağın baş tacı Şuşanın işğaldan azad olunduğu, Qarabağ savaşının bitdiyi, Zəfər bayrağının qaldırıldığı, ata vəsiyyətinin yerinə yetirildiyi gündür.8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.Beləliklə 8 noyabrın bu ailənin taleyinə yazılması heç də təsadüfi deyilmiş... Hər zaman qürur duyduğumuz ailə.

**Səs**.- 2023.- 26 yanvar .-№ 14.-S. 8-10.

## O, işığını itirmiş gözlərə nur bəxş etdi

**Zümrüd Qurbanqızı**

**Azərbaycan Prezidenti İlham Əliyev akademik Zərifə Əliyevanın 2023-cü ildə 100 illiyinin keçirilməsi barədə Sərəncam imzalayıb.**

O, təkcə Azərbaycanda deyil, ümumilikdə Şərq dünyasında qadın fəallarının ən parlaq simalarından biri idi. Görkəmli alim-oftalmoloq Zərifə xanım tibb elminin həmin dövrdə bir qədər təzadlı vəziyyət almış bir sahəsində tədqiqatlar aparırdı. Bu sahə ağır olmaqla, təkcə oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgi, ən əsası isə yüksək təşkilatçılıq bacarığı tələb edirdi. Bütün bu keyfiyyətlər isə Zərifə xanımda birləşmişdi. Beləliklə, onun səyi nəticəsində görmə orqanının peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıldı. O vaxta qədər belə bir laboratoriya mövcud deyildi. Təbii ki, hər işin başlanğıcı çətin olur. Elə yox yerdən elmi laboratoriya yaratmaq da o qədər asan olmadı. Əlbəttə, birdən-birə əmək fəaliyyətinin bütün sahələrini əhatə etmək və hər sahədə görmə qabiliyyətinin mühafizəsi üçün əsasən hansı tələblərin olduğunu müəyyənləşdirmək çətin idi. Belə məqamda heç şübhəsiz, istinad nöqtəsi tapmaqdan, nədən başlamaqdan çox şey asılı idi. Və Zərifə xanım istədiyinə nail oldu: kimya sənayesində göz xəstəliyinin yaranma səbəblərini öyrənməyə başladı. Bu sahə mürəkkəb idi, az öyrənilmişdi, amma eyni zamanda elmi-tarixi inqilablar dövründə mövzu olduqca aktual idi.

1976-cı ildə Helmqolts adına İnstitutun İxtisaslaşmış Elmi Şurasında onun tibb elmləri doktoru alimlik dərəcəsi adı almaq üçün etdiyi dissertasiya müdafiəsini sonralar həmkarları böyük rəğbətlə xatırlayaraq qeyd edirdilər ki, əgər əcəl Zərifə xanıma bir neçə il də möhlət versəydi, o, elm aləmində yeni bir istiqamətin yaradıcısı və rəhbəri ola bilərdi. Bu elmi məktəbi isə "peşə oftalmologiyası", yaxud "sosial oftalmologiya" adlandırmaq mümkün idi…

Əgər ömür vəfa etsəydi… Nəcib bir ailədə – ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmış, 1923-cü il aprelin 28-də doğulmuşdu. Atası Əziz Əliyev xalqı qarşısında ictimai borcunu dərindən dərk edərək daim öz xalqına ləyaqətlə xidmət göstərmiş, övladlarını da bu ruhda böyüdüb ərsəyə çatdırmışdı. Azərbaycan dövlətinin inkişafı üçün əlindən gələni əsirgəməyən Əziz Əliyev qızı Zərifə xanımı da belə yüksək mənəvi dəyərlər zəminində tərbiyə etmişdi.

Zərifə xanım çoxları üçün mərhəmət ünvanı idi, ona pənah gətirənləri ümidsiz qaytarmazdı. İşinin çoxluğuna baxmayaraq, dəvət edildiyi bütün tədbirlərdə iştirak etməyi özünə borc bilirdi. İnsani keyfiyyətləri, hər şeyi incəliyi ilə qiymətləndirmək bacarığı, adamlarla dil tapmaq qabiliyyəti ictimai işdə Zərifə xanımın köməyinə çatırdı. O, uzun müddət Sülhü Müdafiə Komitəsinin, Azərbaycan "Bilik" Cəmiyyətinin, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Bütün bunlar böyük enerji tələb edirdi, lakin Zərifə xanıma "ictimai yük" ifadəsini aid etmək düzgün olmazdı, çünki bu, onun təbiəti üçün adi hal idi…

Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq qalırdı, özünün cazibədarlığı, mülayimliyi, heyranlığı ilə… Zərifə xanımın ailəsinə böyük sevgisi vardı. Bunu onu yaxından tanıyanların hamısı duyur, görür və dəyərləndirirdi. Əlbəttə, təəccüblərini də gizlətmirdilər: "Axı, o, bütün bunlara necə nail olurdu?".

Görkəmli alim, gözəl qadın, qayğıkeş ana, etibarlı, sədaqətli ömür-gün yoldaşı, ailəsinə dayaq olan insan idi Zərifə xanım. Onun bu məziyyətlərinə ümummilli lider Heydər Əliyev də yüksək dəyər verirdi.

Zərifə xanım üçün ailə qayğıları birinci növbədə idi. Həyatını mənalandıran nə vardısa – onun elmi fəaliyyəti, ailəsi, xeyirxahlığı, səmimiyyəti, insanlara doğma münasibəti – hamısı bu nəcib qadının ruhundan, nurundan şölələnmiş, görkəmli övladlar tərbiyə etmişdi. Bu isə qadın, ana üçün böyük xoşbəxtlik idi. Övladlarına çox bağlı idi, Zərifə xanım. Onun şəxsiyyətinə yaxından bələd olanlar Zərifə xanımın qızı Sevil xanımla münasibətini xüsusi qeyd edirdilər. Onlar yaxın dost, rəfiqə, bəlkə də dərd ortağı idilər. Elə bu səbəbdən də, Zərifə xanımın itkisi Sevil xanıma böyük mənəvi zərbə olmuşdu. O, içinin ağrısını, acısını, kədərini, sevgisini sonralar nota çevirmiş, hamının sevə-sevə dinlədiyi "Ana" mahnısını bəstələmişdi.

Bu həyatı çox tez tərk etdi, çox şeyləri görmədi. Həmişə dəstək olduğu ömür-gün yoldaşı Heydər Əliyevin uğradığı haqsızlıqları, yaşadığı sarsıntıları görə, təsəlli verib qəmini-qüssəsini dağıda bilmədi. Sonralar haqqın, ədalətin zəfər çaldığını, xalqın təkidli xahişi ilə Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıtdığını da görmək qismət olmadı ona. Sevimli oğlu İlham Əliyevin atasının siyasətini uğurla davam etdirdiyini, xalqının müasir və əvəzolunmaz liderinə çevrildiyini görüb, Prezident anası kimi onunla qürur duya bilmədi. Ancaq ruhu duydu bunları yəqin ki…

Zərifə xanımı itirmək Heydər Əliyev üçün də əsl sarsıntı idi: "Zərifə xanım böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması,

övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam".

Heydər Əliyev Zərifə xanım haqqında danışanda kövrəlirdi. Elə 1997-ci il aprelin 15-də Ömər Eldarovun akademik Zərifə Əliyevanın xatirəsini əbədiləşdirən "Elegiya" əsərinin təqdimat mərasimində də ulu öndərin rəsmi görkəmində bir həzinlik, kövrəklik duyulurdu. Əsərin yaranmasından, müəllifin əməyindən söz açır, abidənin insanı valeh edən, xoş duyğular yaradan cəhətlərindən, fəlsəfəsindən, məna yükündən danışır, içindəki qəm, qüssə, kədər hissini bəlli etməməyə çalışırdı.

Yeri gəlmişkən deyək ki, Zərifə xanımın büstü onun ölümündən bir qədər sonra hazırlanmış, lakin müəyyən səbəblərdən səkkiz il emalatxanada qalmışdı. Heydər Əliyev bu illərdə dəfələrlə emalatxanaya gələr, saatlarla dayanıb ona heyranlıqla tamaşa edərdi. Qarşısındakı bu sənət əsəri onun üçün adi daş, mərmər parçası deyildi, ürəyinin parası, həyat ortağının qırılıb qalmış ömür çırpıntıları, sevdiyi, dəyər verdiyi insanın daşlaşmış varlığı, vücudu idi. Bəzən onun cansızlığını da unudurdu…

Həmin gün ulu öndər çıxışını bu sözlərlə bitirmişdi: "Bu gün bizim üçün əziz, eyni zamanda kədərli gündür. Əzizdir o mənada ki, Zərifə xanımın xatirə günüdür. Kədərlidir, o mənada ki, Zərifə xanım 12 ildir ki, bizdən ayrılıbdır. Ancaq bu hadisə bu gün buraya toplanmağımızda bir məna daşımır. Ailəmiz üçün bir xatirə günü olaraq biz bu günü həmişə yad edirik. Eyni zamanda, bu gün Zərifə xanımın surətini əks etdirən gözəl bir incəsənət, heykəltəraşlıq əsəri nümayiş etdirilir…".

Zərifə xanım bütün ömrünü insanlara işıq bağışlamağa həsr etmişdi. Bu ömrün mənası zülmət və qaranlıqla mübarizə aparmaqdan ibarət idi. İşığını itirmiş gözlərə nur çiləmək istəyi onun parlaq obrazını ilahi bir nəcibliyə qovuşdururdu. Cismən bizdən ayrılsa da, onun qoyub getdiyi yadigar işıq yenidən günəşi görmək imkanını qaytardığı insanlarda, onunla bağlı kövrək xatirələrdə əbədiləşib…

**Respublika**. – 2022.- 16 noyabr. – № 249. – S. 6.

## Zərifə Əliyeva fenomeni

Zəkanın nuru və xeyirxahlığın genetik yaddaşı

**İradə Hüseynova,**
AMEA-nın vitse-prezidenti, akademik.

Azərbaycan xalqının milli özünüdərkinin ən önəmli amillərindən biri xatirə anlayışına, unudulmazlıq məfhumuna sədaqətidir. Xalqımız şəxsiyyəti, əməlləri, yaratdıqları, davamçıları ilə tarix yazmış görkəmli simaları, nəcib insani keyfiyyətlərə, yüksək ali dəyərlərə malik şəxsiyyətləri əbədi yaddaşına ona görə bu qədər israrla həkk edir ki, onlarla qürur duysun, öyünsün, bu insanların varlığı ilə millət olduğunu dərk etsin və özünə güvənsin.

Yüksək elmi nailiyyətləri, milli mənəvi-əxlaqi dəyərlərə, eyni zamanda müasirlik və inkişafa bağlılığı, xeyirxah və nəcib əməlləri ilə xalqımızın yaddaşında həmişəyaşarlıq qazanmış görkəmli elm və səhiyyə xadimi, AMEA-nın həqiqi üzvü, tibb elmləri doktoru, professor Zərifə Əziz qızı Əliyevanın adı Azərbaycanın XX əsr tarixinin ən görkəmli və yaradıcı simaları sırasına qızıl hərflərlə yazılmışdır.

Tanınmış ziyalı nəslin layiqli davamçısı, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim və xeyirxah insan kimi şərəfli bir ömür yaşamış Zərifə xanımın həyatının hər bir anı mənəvi kamillik və müdriklik məktəbidir. Geniş dünyagörüşü, fitri istedadı və intellekti ilə seçilmiş bu böyük insan ömrünü zərrə-zərrə xalqının və vətəninin gələcəyi üçün şam kimi əritmiş, insanlara sevgisi, geniş dünyagörüşü və dərin bilikləri sayəsində böyük uğurlara imza atmışdır.

Həyatı hər bir alim və tibb işçisi üçün başdan-başa örnək olan akademik Zərifə Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvanın Şahtaxtı kəndində Azərbaycanın səhiyyə və dövlətçilik tarixində özünəməxsus yeri ilə seçilən ictimai və dövlət xadimi, Əməkdar həkim, professor Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Ulu Tanrının ən yüksək mənəvi xüsusiyyətlər bəxş etdiyi Zərifə xanım müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – Ulu Öndər Heydər Əliyevin məslək, əqidə və əməl silahdaşı, vəfalı ömür-gün yoldaşı olmuş, şəfqətli ANA kimi müasir Azərbaycanın lideri, millətin müzəffərlik və qalibiyyət tarixinə yeni-yeni səhifələr yazan görkəmli dövlət xadimi, Prezident İlham Əliyevin şəxsiyyət kimi formalaşmasında həlledici rol oynamışdır.

Zərifə xanım oftalmologiya elminin korifeyi, ziyalı və işıqlı bir şəxsiyyət olmaqla görmə problemli insanlara və ümumən ətrafındakı hər kəsə sözün həm həqiqi, həm də məcazi mənasında nur paylayan, gözlərə işıq, qəlblərə həyat eşqi bəxş edən, ətrafına gözəlliklər saçan mələk misallı bir insan olmuşdur. Görkəmli alim və təbibin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Məlumdur ki, Minilliyin İnkişaf Məqsədləri özündə 8 əsas vəzifəni birləşdirir ki, onlardan biri də bu gün bütün tərəqqipərvər bəşəriyyəti narahat edən "gender bərabərliyinin təşviqi və qadınların rolunun gücləndirilməsi"dir. Bu vəzifənin icrası istiqamətində mühüm addım kimi BMT Baş Assambleyasının 2015-ci il dekabrın 22-də qəbul etdiyi qətnaməyə əsasən, fevralın 11-i "Qadınlar və Qızlar Elmdə" Beynəlxalq Günü elan edilmişdir və o vaxtdan hər il bütün dünyada bu tarix geniş şəkildə qeyd olunur. Dünya birliyinin qadınların elmə cəlb olunmasının vacibliyinə bu qədər diqqət ayırmasından onilliklər əvvəl xalqımız beynəlxalq miqyasda tanınmış, vətənimizə və dünya elminə böyük töhfələr vermiş onlarca qadın alim yetişdirmişdir. Zərifə Əliyeva, Aida İmanquliyeva, Ədilə Namazova, İzzət Orucova, Zəhra Quliyeva, Rəfiqə Əliyeva və digər elm korifeylərinin adlarını fəxrlə çəkmək olar. Alim qadınlar ölkənin ictimai-siyasi həyatında da hər zaman fəal iştirak etmiş, təhsilin, mədəniyyətin, müxtəlif elm sahələrinin inkişafı üçün çox iş görmüşlər.

"Qadınlar və Qızlar Elmdə" günü ilə bağlı 2021-ci və 2022-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən təşkil edilmiş konfranslarda bir sıra aktual məsələlərlə yanaşı, Azərbaycan qadınlarının elmdəki rolu da geniş müzakirə mövzusu olmuşdur. Hər iki mötəbər tədbirdə xüsusi qeyd edilmişdir ki, Azərbaycanda elmi işçilərin 56, fəlsəfə doktorlarının 51, elmlər doktorlarının 46 faizi, ali təhsil ocaqlarında və AMEA-da təhsil almış magistrantların 54 faizindən çoxu, AMEA əməkdaşlarının 60 faizi qadınlardır. Bizim ölkədə hər hansı cəmiyyətin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsi olan elm və texnologiyalar üzrə təhsil alanların 40 faizi qızlardır, halbuki dünyada bu rəqəm 35 faizdən yuxarı deyildir, əksər ölkələrdə isə heç 5 faizi də keçmir. Bu nəticələrə nail olmaq üçün Azərbaycan uzun bir yol keçmişdir və bu yolun uğurlarında akademik Zərifə Əliyevanın da böyük töhfələri vardır.

Qadınların ali təhsilə və elmə çox da kütləvi müraciət etmədikləri bir dövrdə – İkinci Dünya müharibəsinin ən gərgin vaxtlarında orta məktəbi bitirən gənc Zərifə Əliyeva həyatını insanların sağlamlığına həsr etməyi qərara almış və Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur. 1947-ci ildə institutu bitirdikdən sonra Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisas kursunu keçmişdir.

Qarşısına qoyduğu məqsədlərə sadiqliyi və elmi tədqiqatlara böyük marağı Zərifə xanımı Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Oftalmologiya İnstitutuna gətirdi və o, 1949-cu ildə bu institutda elmi işçi kimi fəaliyyətə başladı. 1950-1953-cü illərdə aspiranturada təhsil aldıqdan sonra Zərifə Əliyeva 1960-1967-ci illərdə həmin institutda böyük elmi işçi vəzifəsində çalışdı.

1950-ci illərdə Azərbaycanda traxoma kimi göz xəstəliyi geniş yayılmışdı. O zaman hələ bu infeksiyanın effektiv müalicə üsulları işlənib hazırlanmamışdı və qeyd olunan xəstəliyə qarşı mübarizə təkcə oftalmologiya deyil, bütövlükdə respublikanın səhiyyə sistemi üçün mühüm əhəmiyyət kəsb edirdi. Zərifə xanım traxoma ilə mübarizə üzrə müalicə-profilaktika tədbirlərinin təşkilində və həyata keçirilməsində fəal iştirak edirdi. O, təcrübi təbiblik fəaliyyəti ilə yanaşı, Azərbaycanın traxoma xəstəliyinin xüsusilə yüksək olduğu rayonlarına səfərlər edir, oftalmoloqlara mühazirələr oxuyur, əhali ilə söhbətlər aparırdı.

Zərifə xanımın ilk tədqiqatının mövzusunu yaşadığı dövr özü diktə etmişdi. Onun elmi-tədqiqat işi traxomanın müalicəsi ilə bağlı bir sıra məsələlərə, daha dəqiq desək, traxomanın və onun fəsadlarının müalicəsində o zamanlar yeni antibiotikin – sintomisinin effektiv istifadə imkanlarının öyrənilməsinə həsr olunmuşdu. Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə uğurla müdafiə etdiyi “Traxomanın sintomisinlə digər terapiya üsulları ilə birgə müalicəsi” mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etmişdi. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən gənc alimə “Oftalmologiya” ixtisası üzrə baş elmi işçi elmi adı verilmişdi.

Zərifə Əliyeva 1967-ci ildə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti vəzifəsinə dəvət olunmuşdu. Ömrünün sonuna kimi burada çalışan Zərifə xanım 1983-cü ildə kafedranın müdiri vəzifəsinə seçilmişdi. Həmin illərdə alim-təbib tibbi fəaliyyətlə məşğul olmaqla yanaşı, çoxsaylı mürəkkəb əməliyyatları icra edir, xəstələrə məsləhətlər verirdi. Onun elmi-pedaqoji fəaliyyəti bununla məhdudlaşmır, bütün oftalmoloji müəssisə və şöbələri, kadrların təkmilləşdirilməsi prosesini də əhatə edirdi.

Qeyd etmək lazımdır ki, Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin elmi təcrübəsini öyrətmiş, onlara diqqət və qayğıkeşliklə yanaşmışdır. Ümumiyyətlə, Zərifə Əliyeva hər zaman ətrafına gənc bacarıqlı və savadlı həkimləri toplamaqla elmi-tədqiqat işlərini uğurla təşkil edirdi. 1977-ci ildə onun təşəbbüsü ilə ilk dəfə olaraq Bakıda keçirilən Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun təşkilati işləri böyük təcrübə və idarəçilik qabiliyyəti tələb edirdi və Zərifə xanım bunun öhdəsindən uğurla gələ bilmişdi. Bu plenum həm Azərbaycanda, həm də keçmiş ittifaqın tanınmış akademik müəssisələrində oftalmoloji xidmətin inkişafında, elmi və elmi-pedaqoji kadrların hazırlanmasında böyük rol oynamışdı.

Milli oftalmologiyanın əsasını qoymuş, 1968-ci ildən görmə orqanının peşəkar patalogiyaları ilə məşğul olmuş və bu istiqamətdə bir çox yeni elmi ideyanın müəllifi kimi bütün dünyada tanınmış Zərifə Əliyeva sonrakı illərdə bu sahədə apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələrinə həsr edilmiş “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda doktorluq dissertasiyasını 1976-cı ildə Moskvada, nüfuzlu elmi mərkəz kimi tanınan M.Helmholts adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmiş, bir il sonra SSRİ Nazirlər Kabineti yanında Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adını almışdır. 1983-cü ildə isə o, elmi və elmi-təşkilati fəaliyyətində və kadr hazırlığında əldə etdiyi mühüm nailiyyətlərə, onların sosial-iqtisadi əhəmiyyətinə görə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmişdir.

Görkəmli alim oftalmologiyanın müxtəlif istiqamətlərinə aid 150-dən çox elmi məqalənin, 14 monoqrafiyanın, 12 səmərələşdirici təklifin müəllifi kimi dünya tibb elmində silinməz izlər buraxmışdır. Bir alim kimi çox böyük zirvələri fəth etməyi bacarmış Zərifə Əliyevanın əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını qoruyub saxlamaqla oftalmoloqların stolüstü kitablarına çevrilmişdir.

Akademik Zərifə Əliyeva çoxillik gərgin elmi axtarışlar və eksperimental tədqiqatlar nəticəsində istehsalatda aşağı intensivlikli zərərli maddələrin görmə orqanına təsirinin mühüm qanunauyğunluqlarını aşkar etmişdir. Onun çoxşaxəli elmi fəaliyyətinin əsas istiqamətlərini traxoma xəstəliyinin klinikası, görmə orqanının fiziologiyası və peşə xəstəliklərinin təsiri nəticəsində baş verən göz patologiyalarının profilaktikası, diaqnostikası və müalicəsi, kimya sənayesi müəssisələrinin işçilərində görmə orqanının vəziyyəti, herpetik göz xəstəlikləri, ağır virus konyunktivitləri, gözün hidrodinamik sisteminin fizioloji-anatomik xarakteristikası, göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi, şəkərli diabet zamanı göz xəstəlikləri, terapevtik oftalmologiya, iridodiaqnostikanın əsasları, qlaukoma problemləri və s. təşkil etmişdir. Onun Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyması və buna nail olması hesab edilə bilər.

Zərifə Əliyeva həmçinin göz zədələrinin qarşısının alınması və onlara nəzarət imkanlarını öyrənmişdir. O, gözün zədələnməsinin nəticələrinin cərrahi müalicəsinə mövcud metodoloji yanaşmaları təhlil etmiş və onların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr vermişdir. Bundan əlavə, Zərifə xanım gözün bəzi bədxassəli

şişlərinin diaqnostikası və müalicəsinə də diqqət göstərmiş, eyni zamanda göz melanomasının klinik gedişatının xüsusiyyətlərini öyrənmişdir. Onun daktriologiyaya dair monoqrafik əsərləri – "Göz yaşı drenajının fiziologiyası", "Göz yaşı axmasının cərrahi müalicəsinin müasir üsulları", "Göz yaşı yollarının ehtiyatlı cərrahiyyəsi" təkcə oftalmoloqların deyil, həm də fizioloqların stolüstü kitabına çevrilmişdir. Zərifə Əliyevanın həmmüəllifi olduğu "Terapevtik oftalmologiya", "İridologiyanın əsasları", "Oftalmologiyanın aktual məsələləri" nadir monoqrafik əsərləri həm praktiki oftalmoloqlar, həm də müəllim və tələbələr üçün bu gün də böyük maraq doğurur.

Zərifə Əliyeva tibbi etika məsələləri ilə də maraqlanır, həkimlərin cəmiyyətdəki roluna, müvafiq peşə fəaliyyətində əxlaqi prinsiplərin tərbiyəsinə xeyli vaxt ayırırdı. Onun həkimin etik davranışı haqqında çox dəyərli fikirləri, bu mövzuda çoxsaylı məqalə və çıxışları, o cümlədən "Uca çağırış" adlı kitabı həkim şəxsiyyətinin formalaşması işinə mühüm töhfələr vermişdir.

O, yüksəkixtisaslı həkim və alim olmaqla yanaşı, çox mehriban, xeyirxah bir insan idi. Zərifə xanımın bütün fəaliyyəti, atdığı hər bir addım insan amilinə əsaslanırdı. Bu məqam görkəmli alimin bütün tibbi fəaliyyətinin əsasında dururdu. O, sadə insanlara həmişə xüsusi diqqət və qayğı ilə yanaşır, onların problemlərini dinləyir və həll etməyə çalışırdı.

Tibb elmində "peşə oftalmologiyası"nın əsasını qoymuş Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya elminə görmə orqanının peşə xəstəliklərinin öyrənilməsi və profilaktikası üçün yeni üsulların işlənməsi kimi elmi yenilik gətirmişdir. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə dünya miqyasında böyük şöhrət qazandırmışdır.

Hələ 1977-ci ildə Bakıda keçirilmiş Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu Zərifə xanımın Azərbaycanda görmə orqanının peşə patologiyasının tədqiqi üzrə ilk ixtisaslaşmış elmi-tədqiqat laboratoriyasının yaradılması təşəbbüsünü dəstəkləmişdi. Bununla da Bakı Məişət Kondisionerləri Zavodunda unikal elmi laboratoriya yaradılmışdı. Burada klinik və funksional diaqnostika ilə yanaşı, cərrahiyyə bölməsi də fəaliyyət göstərirdi.

Zərifə Əliyeva tərəfindən aparılmış və görmə orqanına ətraf mühit amillərinin göstərdiyi təsirin mexanizm və qanunauyğunluqlarına həsr olunmuş elmi araşdırmalar biotibb elminə yaxın sahələrin, ilk növbədə multidissiplinar formatda fiziologiya elminin cəlb edilməsinə, gözün fiziologiyası haqqında təsəvvürlərin genişləndirilməsinə ehtiyac yaradırdı. Məhz bu səbəblərdən Zərifə Əliyevanın keçdiyi uğurlu elm yolunun əhəmiyyətli bir hissəsi AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu ilə bağlı olmuşdur. Zərifə xanımın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1979-cı ildə həmin institutda SSRİ-də ilk dəfə olaraq Görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası yaradılmışdır.

Laboratoriyanın ilk tədqiqat işlərinin "Müxtəlif kimyəvi faktorların təsiri şəraitində işləyən insanların görmə orqanının kliniki-fizioloji və morfohistokimyəvi xüsusiyyətləri" mövzusu ətrafında qurulması da təsadüfi olmamışdır. 1970-ci illərdə Azərbaycan keçmiş SSRİ məkanında kimya sənayesinin əsas mərkəzlərindən biri sayılırdı və bu səbəbdən laboratoriyada aparılan tədqiqatların məqsədi istehsalatda iştifadə edilən müxtəlif kimyəvi maddələrin görmə orqanına uzunmüddətli xroniki təsirinin kompleks analizi və bu təsirin nəticəsi kimi baş verə biləcək dəyişikliklərin erkən diaqnostikası olmuşdur. O dövr səhiyyənin, tibb elminin qarşısında duran fundamental problemlərdən biri peşə ilə bağlı az zərərli amillərin, aşağı dozaların xroniki təsiri altında orqanizmdə baş verən qeyri-spesifik patologiyaların öyrənilməsi idi. Başqa sözlə, ətraf mühitin əlverişsiz təsiri zamanı orqanizmin adaptiv-kompensator mexanizmlərinin öyrənilməsi ön plana çıxmışdı. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini də öyrənmiş və bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Zərifə Əliyevanın dünyada analoqu olmayan elmi tədqiqatları uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisəsini, neftayırma zavodlarını əhatə etmişdir. Ümumilikdə müayinələrə 4000-dən çox fəhlə və mütəxəssis cəlb olunmuşdur. Zərifə xanımın təxminən 40-50 il bundan əvvəl apardığı həmin tədqiqatlarda müasir elm qarşısında qoyulan əsas tələblərdən birinin, yəni elmlə istehsalatın sıx əlaqəsinin təmin edilməsinin bariz nümunəsini görmək mümkündür.

Yuxarıda qeyd edilən tədqiqatlardan aldığı uğurlu nəticələrə görə, akademik Zərifə Əliyeva qadın mütəxəssislər arasında ilk dəfə olaraq 1981-ci ildə oftalmologiya sahəsində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Görkəmli alim gözün çoxsaylı oftalmoloji müayinələri ilə yanaşı, ilk dəfə olaraq elektrofizioloji metodlardan da geniş istifadə etmişdir. Toksik maddələrlə təmasda olan işçilərin gözlərinin elektroretinoqrafik, elektrookuloqrafik, reooftalmoqrafik müayinəsi torlu qişanın müxtəlif hüceyrə elementlərinin funksional vəziyyətində baş verən dəyişiklikləri üzə çıxarmağa imkan yaradırdı. Paralel olaraq aparılan eksperimental tədqiqatlarda toksik maddələrin və bəzi fiziki amillərin gözün torlu qişasında funksional vəziyyətə, sərbəst radikal proseslərə, neyromediatorların səviyyəsinə təsiri öyrənilirdi. Həmin tədqiqatların nəticələri bu gün də mütəxəssislər arasında böyük maraq doğurur.

Zərifə Əliyevanın rəhbərliyi ilə Salyan rayonunun kənd təsərrüfatı müəssisələrində çalışan və əmək fəaliyyəti zamanı pestisidlərlə təmasda olan 500-ə yaxın insanı əhatə edən unikal tədqiqat nəticəsində ilk dəfə

olaraq kənd təsərrüfatı işçilərində görmə orqanının vəziyyəti haqqında müvafiq biliklərin əldə edilməsinə imkan yaranmışdı. O cümlədən göstərilmişdi ki, gözün ön şöbəsində iltihab xəstəliklərinin tezliyi pestisidlərin təsiri altında əhəmiyyətli dərəcədə yüksəlir.

Zərifə Əliyevanın elmi maraq dairəsində görmə orqanının, görmə analizatorunun yaşla bağlı dəyişikliklərinin tədqiqi də xüsusi yer tuturdu. Görkəmli rus oftalmoloq-alimi, akademik A.Brovkina Zərifə xanımın "Gözün və görmə-sinir traktının yaş dəyişmələri" kitabı haqqında demişdi: "Bu elmi əsər mahiyyət etibarilə oftalmologiyada yeni bir istiqamətin – oftalmoloji herontologiyanın başlanğıcını qoyur". Kitab AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda bu gün həyata keçirilən herontoloji tədqiqatlar fonunda daha da aktual və dəyərlidir.

Onu da qeyd etmək lazımdır ki, Zərifə xanımın laboratoriyasının əməkdaşları 80-ci illərin sonunda "Uzunömürlülük fenomeni" beynəlxalq əməkdaşlıq proqramı çərçivəsində həm Azərbaycanın yüksək uzunömürlülük indeksi ilə fərqlənən Qazax və İsmayıllı rayonlarında, həm də keçmiş SSRİ-nın bəzi regionlarında, o cümlədən Krımda həyata keçirilmiş beynəlxalq herontoloji elmi ekspedisiyalarda fəal iştirak etmiş, yaşı 90-ı ötmüş 900-ə yaxın insanda görmə orqanının yaşla bağlı dəyişikliklərini öyrənərək bu gün də mütəxəssislər üçün böyük əhəmiyyət kəsb edən bir sıra elmi əsərlər nəşr etdirmişlər.

Akademik Zərifə Əliyeva SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" cəmiyyətinin idarə heyətinin və elmi tədqiqatlar komitəsinin rəyasət heyətinin, SSRİ Oftalmoloqlar Cəmiyyətinin üzvü, "Oftalmologiya bülleteni" jurnalının redaksiya heyətinin üzvü kimi geniş elmi-ictimai fəaliyyətlə də məşğul olmuşdur.

Bu böyük alim və şəxsiyyətin dövlət və xalq qarşısında xidmətləri layiqincə qiymətləndirilmiş, o, orden və medallarla təltif edilmiş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

1990-cı illərin əvvəllərində keçid dövrünün problemləri ilə bağlı elmin inkişafında da ciddi durğunluq və tənəzzül yaşanırdı. Həmin dövrdə bir sıra elmi qurumlar, o cümlədən Zərifə xanımın laboratoriyası da öz fəaliyyətini dayandırmalı olmuşdu. Yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə akademik elmin səviyyəsini və inkişaf tempini artırmağa, elmi tədqiqatların texniki və texnoloji təminatını müasirləşdirməyə zəmin yarandı. Bu müsbət tendensiya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə daha da genişləndi və beləliklə, elmin bütün sahələrində olduğu kimi, biotibb sahəsində də geniş spektrli nəzəri-tətbiqi problemlərin, o cümlədən peşə və sosial əhəmiyyətli xəstəliklərin kompleks tədqiqinə, Zərifə xanımdan bizə miras qalmış elmi ideyaların inkişafına geniş imkanlar açıldı. Bu imkanları gerçəkləşdirmək məqsədilə həyata keçirilən islahatlar çərçivəsində AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda Zərifə xanımın laboratoriyasının fəaliyyətini bərpa etmək məqsədilə 2016-cı ildə "Görmənin fiziologiyası" yaradıcı qrupu təşkil edilmişdir. Qrupun əməkdaşları görmə orqanının fiziologiyası və yaşla bağlı patologiyası sahəsində Zərifə xanım tərəfindən əsası qoyulmuş tədqiqatların davamı kimi neyrodegenerativ xəstəliklərlə görmə sistemi strukturları arasındakı mürəkkəb əlaqələri araşdırmağa başlamışlar. Onlar Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə artıq bir beynəlxalq əməkdaşlıq proqramını müvəffəqiyyətlə həyata keçirmişlər. Belarus MEA-nın Fiziologiya İnstitutu ilə birgə icra edilən proqram neyrodegenerativ xəstəliklər zamanı görmə funksiyasının pozulma mexanizmlərinin kliniki-neyrofizioloji tədqiqinə və bu pozulmaların reabilitasiyası üçün innovativ üsulların işlənməsinə istiqamətləndirilmişdir. Sevindirici haldır ki, AMEA Rəyasət Heyətinin 6 aprel 2021-ci il tarixli qərarı ilə bu qrupun bazasında AMEA-nın Fiziologiya İnstitutunun strukturunda Görmə orqanının və neyrodegenerativ xəstəliklərin neyrofiziologiyası laboratoriyası yaradılmışdır.

Zərifə xanım əsl ziyalılığın genetik yaddaşına malik bir insan idi. Ziyalı zəkası onun bilik və təhsilində, ətrafına yaydığı işıqda, zəriflik, təmkin və nəcibliyində, insanlığa və insanlara sevgisində, sevimli peşəsinə və ailəsinə bağlılığında özünü göstərirdi.

Bəşəriyyətin ən qiymətli sərvəti olan xeyirxahlıq, həya və saflıq fani aləmdə əbədiyyəti, daimi mənəvi ucalığı təmin edir. Yüksək mənəviyyata, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə sahib olmuş Zərifə xanım Əliyeva həyatı və əməlləri ilə hələ sağlığında müqəddəslik qazanmış bir şəxsiyyətdir. Onun malik olduğu və qazandığı nə varsa, Allah tərəfindən verilmiş nemətlərdir. "Qurani-Kərim"də deyildiyi kimi: "…Həqiqətən, nemət Allahın əlindədir və onu istədiyi şəxsə bəxş edir…"

Peşəkarlığı, sadəliyi, qayğıkeşliyi və səmimiyyəti ilə daim seçilmiş oftalmoloq-alimin ideyaları zaman keçdikcə öz aktuallığını daha da artırır, müstəqil Azərbaycanın davamlı inkişafına və yeni uğurlar qazanmasına real töhfələr verir. Sağlığında olduğu kimi, bu gün də şöhrəti sərhədləri aşan akademik Zərifə Əliyevanın elm, təhsil və səhiyyədə qoyub getdiyi izlər əsla silinməmişdir. Yaratdığı elmi məktəbin nümayəndələri sağlam cəmiyyət naminə çalışmaqla bu gün də insanların gözlərinə işıq verməkdə, müxtəlif peşələrdən olan pasiyentlərin görmə qabiliyyətini bərpa etməkdədirlər.

Bu gün xalqımız zəkası, elmə sədaqəti, yüksək daxili mədəniyyəti, insanlıq qarşısında məsuliyyəti ilə qəlblərə yol tapmış Zərifə xanım Əliyevanı, onun işıqlı obrazını özünün qan yaddaşına əbədi həkk etməklə, parlaq xatirəsini daim ehtiramla anır. Heç şübhəsiz ki, bütün həyatını insanlara, onların gözlərinə və qəlblərinə nur

səpməklə kamillik zirvəsini fəth etmiş Zərifə xanım Əliyevanın xeyirxah əməl dəftəri heç zaman bağlanmayacaq, nur çeşməsi əsla qurumayacaq, əziz xatirəsi isə qürur mənbəyimiz kimi dünya durduqca yüksək tutulacaq.

**Azərbaycan.** – 2022.- 27 aprel. – № 87. – S. 1,5.

## Nurlu ideallarda yaşayan alim

**Əhliman Əmiraslanov,**
akademik, SSRİ Dövlət Mükafatı laureatı

Hər bir xalq öz şəxsiyyətləri ilə ucalır. Onların ömür nümunələri böyük ideallara aydın istiqamət verir. Xalqın yaddaşında əbədilik qazanmış belə şəxsiyyətlər fərqli zamanlarda, ayrı-ayrı məkanlarda yaşayıb yarada bilərlər. Tale onların sənət yollarını, fəaliyyət sahələrini də fərqli istiqamətlərdə müəyyənləşdirə bilər. Amma aradakı bütün fərqliliklərə rəğmən bu insanları birləşdirən bir çox ümumi cəhətlər var: Tanrının bəxş etdiyi ömür payını ləyaqətlə yaşamaq, həyatın mənasını nəcib, xeyirxah əməllərdə tapmaq, bütövlükdə vətəninin, elinin-obasının tərəqqisinə, maariflənməsinə əvəzsiz töhfələr verməyə çalışmaq, zəngin mənəviyyata sahib olmaq.

Məhz bu keyfiyyətlər, insanlara və insanlığa fayda gətirən əməllər bu şəxsiyyətləri zamanın fövqünə qaldırır, əbədi abidələrini ucaldır. Xalqımızın belə əbədiyaşar şəxsiyyətlərindən biri də zəmanəsinin görkəmli oftalmoloq alimi, akademik Zərifə Əziz qızı Əliyevadır.

Mənalı ömür yolu, peşə fəaliyyəti və elmi yaradıcılığı ilə mənəviyyat, kamillik, müdriklik örnəyinə çevrilmiş Zərifə xanım Əliyeva bu gün də milyonlarla insanın qəlbində yaşayır, adı daim dərin ehtiramla, rəğbətlə anılır. O, tibbin mühüm istiqamətlərindən olan oftalmologiya sahəsində uzun illər dəyərli tədqiqatlar aparmış, elmə sanballı töhfələri, intellektual səviyyəsi, özünəməxsus tədqiqatçılıq məharəti ilə yüksək zirvələri fəth etmişdir.

### Ailə ocağı

İnsan nə valideynlərini, nə dünyaya gəldiyi zamanı, nə də yaşadığı mühiti özü seçir. Bununla bərabər istənilən fərdin öz dövrünün qabaqcıl düşüncəli insanlarının, cəmiyyəti irəli aparan şəxsiyyətlərin ailəsində dünyaya gəlməsi, onların yaratdığı mühitdə böyüyüb tərbiyələnməsi xoşbəxtlikdir. Çünki görkəmli şəxsiyyətləri bu insanların böyüyüb boya-başa çatdığı, yaşadığı mühit formalaşdırır. Bu mənada tale öz lütfünü Zərifə xanımdan əsirgəməmişdir.

O, hər cəhətdən örnək olan nəcib bir ailədə – Azərbaycanın tanınmış ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Əziz Əliyev ixtisasca həkim idi. Onun həkimliyi təkcə insanların fiziki müalicəsi ilə məhdudlaşmırdı. Tale onun üzərinə cəmiyyəti də mənəvi xəstəliklərdən sağaltmaq üçün çalışmaq missiyasını qoymuşdu. Bu baxımdan Əziz Əliyevi təkcə görkəmli tibb xadimi deyil, həm də "cəmiyyəti müalicə edən həkim" hesab edən mərhum akademik Mustafa bəy Topçubaşov öz fikrində tam haqlı idi. Əziz Əliyev yüksək vətəndaşlıq ruhunun daşıyıcısı kimi ictimai məsuliyyət duyğusunu bir an da olsun unutmur, daim xalqımıza, dövlətimizə ləyaqətlə xidmət etməyə çalışırdı. Ömür-gün yoldaşı Leyla xanımla birgə ailə ocaqlarında böyüyən övladlarını da belə bir ruhda tərbiyələndirirdi.

### Tale seçimi

Zərifə xanım 1923-cü ilin 28 aprelində Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Sonralar ailə Əziz müəllimin işi ilə əlaqədar Bakıya köçüb. 1932-1942-ci illərdə orta təhsil alıb. Məktəbin son siniflərində Zərifə xanım artıq gələcək peşə seçimini müəyyən etmişdi. O, da atası Əziz Əliyev kimi həkim olmaqda qərarlı idi. Bu bir tərəfdən atasının sənətinə vurğunluğundan irəli gəlirdi, digər tərəfdən də həkimliyin insan həyatı üçün nə qədər vacib olmasını dərk etməsindən, insanların bu müqəddəs peşə sahiblərinə böyük ehtiyacını duyub hiss etməsindən qaynaqlanırdı.

1941-1942-ci illər ən ağır, ən məşəqqətli dövr idi. Böyük Vətən müharibəsi yenicə başlanmışdı. Bakıdakı bir çox binaları hospitallara çevirmişdilər. Zərifə xanımın yaşadıqları evin yaxınlığında da bir neçə hospital vardı. Buralar cəbhədən gətirilmiş yaralı hərbçilərlə dolub-daşırdı. Onların müalicəsi üçün tibbi heyət çatışmırdı. Zərifə Əliyeva dərsdən sonra rəfiqələri ilə birgə bu hospitallara gəlir, həkimlərə, tibb bacılarına kömək etməyə çalışır, yaralı hərbçilərə öz ailələrinə məktub yazmaqda kömək göstərirdi.

Zərifə xanımın yaşın erkən çağlarından şəxsiyyət kimi formalaşmasında böyüdüyü ailənin də çox mühüm rolu vardı. Azərbaycanın o dövrdə yaşayıb-yaratmış bir çox tanınmış elm və mədəniyyət xadimləri Əziz Əliyevin yaxın dostları idilər. Onun evində tez-tez qonaq olardılar. Məktəbdəki yüksək təhsildən əlavə bu evdə mövcud olan sağlam düşüncə mühiti, aparılan söhbətlər Əziz Əliyevin övladları üçün böyük bir universitet təhsilinə bərabər idi. Bu mənada həkimlik sənəti erkən yaşlarından Zərifə xanım üçün tale seçiminə çevrilmişdi.

### Göz həkimi

Zərifə xanım Əliyeva 1942-ci ildə orta məktəbi bitirib Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil oldu. O, fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə ona dərs deyən müəllimlərin də, tələbə yoldaşlarının da dərin rəğbətini qazanmışdı. İnstitutda təşkil olunan tələbə

elmi toplantılarında məruzələrlə çıxışlar edir, sərbəst mülahizələr yürüdür, dəyərli nəticələr çıxararaq tanınmış alimlərlə fikir mübadiləsi aparırdı.

Zərifə Əliyevanın özünə ixtisas kimi məhz göz həkimliyini seçməsi də təsadüfi deyildi. Onda bütün dünyada və Azərbaycanda traxoma xəstəliyi geniş yayılmışdı. Problemin miqyası haqqında təsəvvür yaratmaq üçün Ümumdünya Səhiyyə Təşkilatının həmin dövr üçün bir hesabatına diqqət yetirək: hesabatda bütün dünyada 400 milyona qədər insanın traxoma xəstəliyinə tutulduğu, bunun nəticəsində 80 milyondan çox adamın korluğa düçar olduğu bildirilirdi.

Bu xəstəlik Azərbaycanın bölgələrində xüsusilə tüğyan edirdi. Görmə orqanını sıradan çıxaran, bəzən hətta insanların tam korluğuna səbəb olan bu infeksion xəstəliyə qarşı təsirli vasitələr lazımi səviyyədə deyildi. Tibb elmi yenicə inkişafa başlamışdı. Bu sahədə elmi nailiyyətlər hələlik tibbin başqa istiqamətlərində özünü göstərdiyindən, oftalmologiyada vəziyyət o qədər də parlaq deyildi. Üstəlik, müharibədən yenicə çıxmış ölkədə sosial iqtisadi vəziyyət, insanların rifah səviyyəsi çox aşağı idi. Xəstələrin müalicəsi, yerlərdə traxomaya qarşı effektiv iş üçün peşəkar tibbi kadrlar da çatışmırdı. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə məsələsi təkcə oftalmologiya elminin deyil, bütövlükdə respublika səhiyyəsinin qarşısında həllivacib olan problem kimi dururdu. Belə bir zamanda Zərifə xanım Əliyeva məhz oftalmologiyanı seçdi.

**Xəstəliyə qarşı mübarizə: yeni üsul, uğurlu nəticələr**

1947-ci ildə gənc həkim Azərbaycan Tibb İnstitutunda təhsilini başa vurub Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçməyə getdi. Buradakı iki illik kurs onun üçün böyük bir məktəb oldu. Zərifə xanım ixtisasına daha mükəmməl yiyələndi. 1949-cu ildə Vətənə döndü. Həmin ildən Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başladı. 1950-ci ildə isə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlara da başladı. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini məhz traxoma xəstəliyinin müalicəsinə həsr etdi. O illərdə gənc həkim bu xəstəliyə qarşı mübarizə aparan həmkarları sırasında traxoma xəstəliyinə qarşı həyata keçirilən müalicəvi və profilaktik tədbirlərin ön cərgəsində idi. Konkret müalicə təcrübəsindən əlavə, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirmə işləri aparırdı. Həmin dövrdə respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını, profilaktika tədbirlərini işləyib hazırlamaq da ciddi tələbata çevrilmişdi. Bu zərurəti görən Zərifə xanım elmi axtarışlarını əzmlə davam etdirirdi. Əsl vətəndaş mövqeyində dayanaraq ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlayaraq həyata keçirirdi. İşin çətinliyinə, məsuliyyətinə baxmayaraq, tezliklə bu sahədə böyük nəticələr əldə etdi. Bacarıqlı tədqiqatçı traxomanın müalicəsində o dövrün güclü antibiotiklərindən hesab edilən "Sintomisin"dən isifadə etməklə, yeni üsul tətbiq etmiş, uğurlu nəticələrə nail olmuşdu.

Zərifə Əliyeva apardığı elmi tədqiqatların nəticələrini 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edib tibb elmləri namizədi elmi dərəcəsi aldı. Onun təklif etdiyi müalicə metodunun tezliklə bütün respublikada tətbiqinə başlandı. Beləliklə, bu xəstəliyə qarşı mübarizədə ciddi dönüş əldə olundu. Bu baxımdan, dünya oftalmoloqları traxomanın sosial xəstəlik kimi ləğvində Zərifə Əliyevanın tarixi xidmətlərini bu gün də böyük ehtiramla qeyd edirlər.

**Tibb elminə böyük töhfələr**

Namizədlik dissertasiyasının müdafiəsindən sonra o, 1960-cı ildən 1967-ci illədək Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışdı. Bu illərdə Zərifə Əliyeva praktik həkimlik fəaliyyəti ilə məşğul olur, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələri qəbul edirdi. Bir sözlə, fəaliyyəti təkcə klinikada qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını əhatə edirdi. Göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparır, elmi tədqiqatları üzərində çalışırdı. Zərifə xanım xüsusilə qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı mühüm elmi nəticələr əldə etmişdi.

1967-ci ildə oftalmoloq alim Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət alır. 1968-ci ildən o, sistemli şəkildə həmin dövrə qədər çox az tədqiq olunmuş mövzu – görmə orqanının patologiyası məsələləri ilə məşğul olmağa başlayır. Ümumiyyətlə, peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemi bütün ömrü boyu bu fədakar alimin maraq dairəsində idi. Zərifə xanım yod-sənaye müəssisələrində, neft-kimya zavodlarında çalışan şəxslərin görmə orqanına təsir edən amillərə xüsusi diqqət yetirməyə başlayır.

Alim bu problem üzərində iş apararkən çox vaxt sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Bununla da genişmiqyaslı

klinik və təcrübi tədqiqatlar nəticəsində alim zərərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

Alimin çoxillik elmi araşdırmalarının nəticəsi olaraq kimya sənayesi işçilərinin göz xəstəliklərinin tədqiqini ümumiləşdirən, ciddi elmi nəticələr doğuran "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasını 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla müdafiə edir. O, öz tədqiqatı zamanı şin və yod istehsalı sahəsində çalışan 1500-dən çox insan üzərində müşahidələr aparmış, spesifik iş şəraitinin, sanitar-gigiyenik durumun görmə orqanlarına mənfi təsirini elmi dəlillərlə sübuta yetirmişdi. Dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilmişdir.

**Elm fədaisi: həyat uğurları**

Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov xatirələrində yazır: "O, tibb elmi sahəsində elə tədqiqatlar aparırdı ki, fikrimcə, burada vəziyyət bir qədər paradoksal şəkil almışdı… Bizim zəmanədə tam dəyərli əmək fəaliyyəti üçün görmə vəziyyətinin yaxşı olması nəinki çox vacibdir, həm də müasir cəmiyyətdə ona tələbat ildən-ilə artır. Bununla yanaşı, indiyə qədər həmin mövzuya həsr olunmuş ümumiləşdirilmiş elmi əsərlər yoxdur, yalnız ayrı-ayrı fraqmentlər mövcuddur ki, bunlar da elmi sistemdən hələ ki, çox uzaqdırlar. Zərifə Əziz qızı kimi sosial həssaslığa malik olmaq lazım idi ki, öz istedadını olduqca çətin, mürəkkəb və xeyirxah, eyni zamanda heç də həmişə layiqincə qiymətləndirilməyən bir məsələnin xidmətinə sərf edəsən".

Zərifə xanımın elmi araşdırmaları əmək müəssisələrinin ekologiyası məsələsini gündəmə gətirir və günümüz üçün də son dərəcə aktualdır. Elmi tədqiqat işlərinə paralel olaraq Zərifə Əliyeva pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında əvvəlcə kafedranın dosenti, professoru, daha sonra müdiri vəzifəsində çalışmışdır. Həkimlərin diplomdan sonrakı hazırlıqlarının tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmışdır. Onun təkmilləşmə kursu keçən həkimlərə oxuduğu mühazirələrin, apardığı praktik məşğələlərin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi kimi mühüm istiqamətlər təşkil edirdi.

Bu illərdə Zərifə xanım praktik həkimlik fəaliyyətindən də bir an olsun kənar qalmırdı: müntəzəm şəkildə cərrahiyyə əməliyyatları aparır, xəstələrin müalicə və müayinəsi ilə məşğul olurdu. Görkəmli alim həm də əsl elm təşkilatçısı idi. O, burada ətrafına istedadlı gənc həmkarlarını toplayaraq elmi-tədqiqat işlərini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bilmişdi.

Zərifə xanım oftalmologiyanın qlobal problemlərinin elmi həlli yolunda bir sıra konkret təşəbbüslərlə çıxış etmiş, 1977-ci ildə onun təklifi ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Belə bir möhtəşəm tədbir respublikamızda ilk dəfə keçirildiyindən böyük təşkilatçılıq bacarığı, gərgin zəhmət və təcrübə tələb edirdi. Akademik Zərifə Əliyeva bu işlərin öhdəsindən uğurla gəlmiş, Bakıda yüksək səviyyədə təşkil olunmuş plenum ümumən keçmiş ittifaqda böyük maraqla qarşılanmışdır. Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü də bəyənmişdir. Zərifə xanımın elmi nailiyyətlərinin bir çoxu Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutu ilə bağlıdır. Çünki onun təklif etdiyi laboratoriya 1979-cu ildə burada yaradılmışdı. Bu laboratoriya Azərbaycan oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi sayılırdı. İndi də həmin məktəbin yetirmələri Zərifə xanımın elmi ənənələrini davam və inkişaf etdirirlər. Laboratoriyanın tədqiqat bazası Bakı Məişət Kondisionerləri Zavodu idi. Burada elmi tədqiqatlarla yanaşı, müalicə işləri də aparılırdı. Bu mənada, Zərifə xanım Əliyeva alimlik istedadı ilə həkimlik bacarığını mahir şəkildə özündə birləşdirmişdi. Akademik həm görmə patologiyasının müalicə metodlarını təkmilləşdirmiş, həm də özünün kəşf etdiyi görmə aparatı vasitəsilə kompleks diaqnostika və erkən cərrahi müalicə üsullarının müvəffəqiyyətlə tətbiqinə başlamışdı.

**Kitablarda yaşayan ömür**

Akademik Zərifə Əliyeva böyük elmi məktəb yaratmış alimlərdən idi. Onun fədakar zəhməti sayəsində ərsəyə gəlmiş dərs vəsaitləri, dərsliklər, monoqrafiyalar bu gün də təkcə Azərbaycanda deyil, ümumən dünyada oftalmologiya elminin inkişafına xidmət edir. Gənc ixtisaslı həkimlərin və bu sahədə tədqiqatlar aparan alimlərin yetişməsinə kömək göstərir. "Kəskin virus konyunktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və digər əsərləri Zərifə xanımın tibb elminə sanballı töhfələridir. Alim göz yaşı aparatı xəstəliklərinin öyrənilməsinə də xüsusi diqqət yetirmiş, bu mövzuya həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı

yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının banisinə çevrilmişdir.

Zərifə xanım tibb elminin nadir sahələrindən olan iridodiaqnostika və iridoterapiya problemlərinə də diqqət yönəltmişdir. Onun bu mövzuda iki monoqrafiyası çapdan çıxmışdır. Bunlar "İridodiaqnostikanın əsasları" və "İridodiaqnostika" monoqrafiyalarıdır. Onu da xüsusi qeyd edək ki, dünya miqyasında iridodiaqnostikaya dair ilk kitablar məhz akademik Zərifə Əliyevaya məxsusdur.

1980-ci ildə Zərifə Əliyevanın "Şin istehsalında gözün peşə patologiyası", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri" adlı üç monoqrafiyası çapdan çıxmışdır. Alimin daktriologiyadan bəhs edən – "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların deyil, həm də fizioloqların diqqətini cəlb etmişdir. Alim müasir dövrdə də hər bir oftalmoloqun stolüstü kitabı olan "Terapevtik oftalmologiya" əsərinin müəlliflərindən biridir. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi onun professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə qələmə aldığı "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında öz əksini tapmışdır.

**Həkim etikası**

Həkimlik etikası Zərifə xanım Əliyevanı daim maraqlandıran əsas məsələlərdən idi. Çünki o, özü həkimklik sənətini bu peşənin yüksək etikası işığında sevmişdi. Onun üçün əsl həkimlik meyarı atası Əziz Əliyevin bütöv şəxsiyyəti idi. Uşaqkən gördüyü, insanların sağlamlığı, milli səhiyyəmizin inkişafı üçün hər cür fədakarlığa qatlaşan həkimlər idi. Zərifə xanım həkimliyi bu insanların nurlu simasında təsəvvür edirdi və özü də həkimlik etikasını uca tuturdu. İnsan sağlamlığını ictimai sərvət, insanların gözlərinə nur bəxş olunmasını bəşəri humanizm kimi səciyyələndirirdi. O, belə bir ali dəyəri gənc həkimlərə də ötürməyə çalışırdı. Onların mənəvi tərbiyəsi, həkimlərin peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsi və həlli üçün əməyini əsirgəmirdi. Zərifə xanımın bir çox məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuşdu. Alimin "Yüksək etimad" kitabı bu gün də "Hippokrat andı"na sadiq qalan, özünü əsl tibb işçisi kimi yetişdirmək istəyən həkimlərin stolüstü kitabıdır. Zərifə xanım bu kitabında həkimlə xəstənin birbaşa əlaqəsinin müalicənin əhəmiyyətini yüksəltdiyini, xəstəyə ümid verdiyini, orqanizmin xəstəliyə qarşı müqavimətini artırdığını, bəzən dava-dərmandan da güclü təsir göstərdiyini yazır. Alim kitabında həkim və xəstənin qarşılıqlı münasibətlərinin başlıca qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Akademik Zərifə Əliyeva həmkarlarına həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi insanı sağaltmaqla onu öz məninə qaytarmaq idi. Bu baxımdan, alim hesab edirdi ki, tibb elminin fəlsəfəsini dərk etmək üçün, ilk növbədə, sağlam mənəvi-intellektual mühit, bütün tibb ictimaiyyətinin mənəvi-əxlaqi meyarlara yiyələnməsi tələb olunur.

Zərifə xanım bütün bunları təkcə yazmırdı. Özü də həyat və şəxsiyyəti, insanlara münasibətilə əsl həkim olmağın parlaq örnəyini yaradırdı. Tanınmış həkim A.P.Nesterov bu keyfiyyətlərini nəzərə alaraq onunla bağlı xatirələrində yazırdı: "Mən onu öz sahəsinin böyük alimi sayıram: həm oftalmologiya, həm də xüsusilə peşəkar oftalmologiya sahəsində. Oftalmologiya sahəsində o, bir nömrəli alim idi. Peşəkarlıq zirvəsinə Zərifə xanım ona görə yüksələ bilmişdi ki, həkim olmaq, insana tibbi yardım göstərmək məsuliyyətinin əxlaqi-fəlsəfi mahiyyətini bütünlüklə dərk etmiş, bunu tam dünyagörüşü dəyərinə çevirə bilmişdi. Belə bir peşə amalı hər kəsə müyəssər olmur".

**Vətən sevgisi**

Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini idi. Bu sahədə fədakarcasına çalışırdı. Bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirir, dəyərli çıxışlar, məruzələr edir, dünya xalqlarını hər çıxışında sülhə, əmin-amanlığa səsləyirdi. O, respublika "Bilik" cəmiyyəti idarə heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti idarə heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü kimi maarifçilərimizdən gələn ənənələri də uğurla davam etdirirdi.

Zərifə xanım Əliyevanın tibb elminin inkişafı və pedaqoji kadrların hazırlanması sahəsindəki xidmətləri daim yüksək qiymətləndirilmişdir. 1980-ci ildə bu xidmətləri nəzərə alınaraq ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. 1981-ci ildə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işləri, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyası oftalmologiya sahəsində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Onu da qeyd edək ki, Zərifə xanım keçmiş SSRİ-də belə yüksək mükafata layiq görülən ilk qadın alim idi. 1983-cü ildə isə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir.

Həyatın, taleyin ona bəxş etdiyi ən böyük mükafat isə Zərifə Əliyevanın malik olduğu və elmi-ictimai işlərinin gərginliyinə rəğmən hər zaman qoruduğu qadın incəliyi və zərifliyi idi. Zərifə xanım Əliyeva qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı missiyasını da uğurla yerinə yetirirdi. O, Ümummilli Lider Heydər Əliyevin ən sadiq silahdaşı olmuşdur. Ulu Öndər bu böyük insanın xatirəsini hər zaman hörmətlə anaraq deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam".

Zərifə xanım Əliyeva Vətənimiz üçün iki layiqli övlad tərbiyələndirmişdi. Bu gün Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirmiş dövlət rəhbərimiz cənab İlham Əliyevdə bu torpağa, bu Vətənə tükənməz sevgi aşılamış anadır.

Zərifə xanımın ictimai fəaliyyətini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva daha geniş miqyasda davam etdirir. İrəli sürdüyü təşəbbüslərlə, həyata keçirdiyi layihələrlə dünyada sülhün təmin olunmasına, tolerantlıq, mədəniyyətlərarası dialoq, multikulturalizm dəyərlərinin yayılmasına töhfə verir.

Akademik Zərifə xanım Əliyeva ilə bağlı düşüncələrdən bir həqiqəti dərk edirsən ki, ömrünü böyük mənəvi ideallara həsr etmiş şəxsiyyətlər heç zaman unudulmur. O ideallar yaşadıqca, var olduqca Zərifə xanım kimi şəxsiyyətlər də yaşayır. Dəyərli alimin ruhu qarşısında baş əyirik!

**Azərbaycan.** – 2022.- 15 aprel. – № 77. – S. 6.

## Akademik Zərifə xanım Əliyeva zəriflik və kübarlıq mücəssəməsi idi

**Musa Urud,**
Milli Məclisin deputatı

Ulu Tanrı yaratdıqlarının hərəsinə bir bəxt, bir qabiliyyət verir. Yalnız seçilmiş bəndələrini insanlığa nümunə kimi yaradır və onlardan heç nəyi əsirgəmir: ağıl, istedad, gözəllik, xoş xasiyyət verir. Bu etalon insanlar həm yaşadıqları zaman kəsimində, həm də ondan sonrakı uzun dövrdə cəmiyyətin kamilləşməsi, xeyirxah olması , insanlığın yüksəlişi üçün faydalı nümunələr yaradırlar. Belə şəxsiyyətlər öz parlaq həyat yolu, yüksək mədəniyyəti, mükəmməl savadı, dərin ağlı, xeyirxah əməlləri ilə milyonlarla insana nümunə olur, insan münasibətlərini daha yeni, daha yüksək mərtəbəyə daldırmaqla təkcə mənsub olduqları xalqa deyil, bütün bəşəriyyətə xidmət göstərmiş olurlar.

XX əsrdə respublikamızın elminin, mədəniyyətinin, ictimai-siyasi mühitinin yetişdirdiyi ən işıqlı, humanist, xeyirxah, yenilikçi və faydalı fəaliyyəti ilə minlərlə insana xoşbəxtlik bəxş etmiş, Azərbaycan oftalmologiya məktəbinin yaradıcılarından biri olan akademik Zərifə xanım Əliyeva, məhz belə etalon şəxsiyyətlərdəndir.

Öz dövrünün görkəmli həkim və səhiyyə təşkilatçısı, pedaqoq, SSRİ məkanında sayılıb-seçilən oftalmoloq alimlərdən biri olan Zərifə xanım Əliyeva həm də fəal içtimai xadim, humanist və kübar bir xanım, xeyirxah bir ziyalı, mehriban həyat yoldaşı, qayğıkeş ana, yüksək mədəniyyətə və incə zövqə malik Azərbaycan qadını kimi yaddaşlarda yaşayır.

Zərifə xanımın o qədər də uzun olmayan ömründə keçdiyi parlaq həyat yolunu, tibbi, elmi, pedoqoji, ictimai fəaliyyətini öyrəndikcə, onun haqqında müasirlərinin xatirələrini oxuduqca, xüsusi ilə, gözünə işıq verdiyi, nur çilədiyi sadə insanların minnətdarlıq məktubları ilə tanış olduqca, bir daha bu qənaətə gəlirsən ki, bu cür insanları Tanrı cəmiyyətə nümunə üçün yaradır. İnsanlara xeyirxahlığın, şəfqətin, alicənablığın fərdin və cəmiyyətin həyatında nə qədər ali hisslər və ülvi məqsədlər olduğunu inandırmaq üçün yaradır.

Heç şübhəsiz ki, həyatda uğur qazanmaq, sevilmək, hörmət-izzət sahibi olmaq həmişə xoş xatirələrdə yaşamaq üçün insanın şəxsi keyfiyyətləri ilə yanaşı, onun əsil-nəcabətinin, doğulub böyüdüyü, tərbiyə aldığı, yaşadığı, fəaliyyət göstərdiyi mühitin əhəmiyyəti və təsiri vacib şərtdir.

Zərifə xanım Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvanın Şahtaxtı kəndində, maarifçi-ziyalı bir ailədə – Əziz Məmmədkərim oğlunun ailəsində dünyaya göz açmışdır.

Zərifə xanım Əliyevanın babaları Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvanın sayılıb seçilən əsilzadələrindən olmuşlar. 1918-ci ildə erməni daşnaq dəstələrinin hücumları nəticəsində İrəvanın digər Azərbaycanlı sakinləri kimi Əziz Əliyevin ailəsi də doğma yurdlarından didərgin düşür, əvvəl Naxçıvanda daha sonra isə Cənubi Azərbaycanın Ərəblər kəndində ağır qaçqın həyatı yaşamalı olur. 1920-ci ildə yenidən Naxçıvanın Şahtaxtı kəndinə qayıdan ailə tezliklə Bakıya köçür.

Zərifə xanım Əliyeva Azərbaycan dövlətçilik və səhiyyə tarixində mühüm xidmətləri olan görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində, böyük ziyalı və intellektual-mənəvi mühit içərisində böyümüşdür. Azərbaycanın elm, ədəbiyyat və incəsənət xadimlərinin bir çoxu ilə tanış olan, onların irəli çəkilməsində rolu olan professor Əziz Əliyevin evində tez-tez elmi-ədəbi diskussiyalar, söhbətlər, görüşlər olurdu.

Bu görüşlərdə Əziz Əliyevin yaxın dostları – Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev kimi görkəmli xadimləri iştirak edirdilər. Məhz belə bir mühitdə böyüyən Zərifə xanım Əliyeva gözəl ailə tərbiyəsi almış, musiqi, ədəbiyyat, incəsənət ilə yaxından tanış olaraq vətənpərvər bir gənc kimi yetişmişdir.

Zərifə xanımn həkimlik sənətini seçməsində də yəqin ki, ailə ənənələrinin böyük təsiri olmuşdur.

Gəncliyi və tələbəliyi İkinci Dünya müharibəsinin ağır illərinə düşən Zərifə Əliyeva 1942-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakultəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir.

Tibb İnstitutunu bitirəndən sonra mükəmməl bir göz həkimi olmaq arzusu ilə Zərifə xanım Əliyeva Moskva şəhərinə yollanır və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnir. O, Moskvada təhsilini müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə qayıdır, 1949-cu ildən başlayaraq Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır, 1950-ci ildə isə aspiranturaya daxil olur, praktik əməli həkim fəaliyyəti ilə yanaşı elmi axtarışlarını davam etdirir.

Tələbəlik illərindən Zərifə xanımla dostluq edən, onun peşə həmkarı Azərbaycan oftalmologiya məktəbinin başqa bir görkəmli nümayəndəsi professor Zəhra Quliyeva öz xatirələrində yazır: "O, xeyirxah, təkrarolunmaz şəxsiyyət idi. Tez-tez həkimlik sənəti barədə diskussiyalar edər, sevincli, kədərli düşüncələrimizi bölüşərdik. Xəstələr gözlərə nur bəxş edən Zərifə xanımın vurğunu idi, onu çox istəyirdilər, çünki qayğıkeş həkim onların əsil ürək dostuna, sirdaşına çevrilmişdi."

Zərifə xanım Əliyevanın bütün tibbi və elmi fəaliyyəti ictimai və dövlət əhəmiyyəti kəsb edən xəstəliklərlə mübarizəyə həsr olunmuşdu. Əgər o, tibbi fəaliyyətinin ilk illərində İkinci Dünya müharibəsindən sonra dünyada və Azərbaycanda olduqca geniş yayılmış, 400 milyon insanın gözünü zədələyən, 80 milyondan çox insanı isə dünya işığından məhrum edən dəhşətli traxoma xəstəliyi ilə mübarizəyə həsr etmişdisə, sonraki illərdə Zərifə xanımın elmi tətqiqatları və tibbi təcrübələri əsasən insanların görməsinə və əmək qabiliyyətinə mənfi təsir göstərən peşə xəstəliklərinə həsr olunmuşdu.

Zərifə xanım Əliyevanın ilk əmək fəaliyyətinə başladığı vaxtlar ölkənin ağır illəri idi. Böyük Vətən müharibəsi təzəcə qurtarmışdı, dağıntıları bərpa etmək lazım idi, işçi qüvvəsi, o cümlədən, həkim çatışmırdı, sosial-iqtisadi gerilik hökm sürürdü, tibbi xidmətin keyfiyyətindən isə danışmağa dəyməzdi.

Məhz həmin dövrdə Azərbaycanda geniş yayılmış, gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi ilə mübarizə olduqca çətin şəraitdə aparılırdı. Ona qarşı təsirli dərman vasitələri və müalicə üsulları yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı.

Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirici söhbətlər aparırdı.

Zərifə xanım Əliyevanın xəstəliklərin profilaktikası sahəsində tibbi biliklərin geniş yayılması, maarifləndirmə işində jurnalistlər və təbliğatçılarla yanaşı peşəkar ixtisaslı həkimlərin iştirakının vacibliyi barədə fikirləri o vaxtkı SSRİ-də səhiyyə maarifi sahəsində ciddi yeniliklərdən biri idi. Bu barədə Zərifə xanım Əliyevanın müasiri SSRİ Dövlət mükafatı laureatı, professor A.F.Brovkina yazırdı: “Zərifə xanım əhali arasında tibbi biliklərin təbliğ olunmasında kütləvi informasiya vasitələrinin gördüyü işi yüksək qiymətləndirirdi. Bununla yanaşı, jurnalistin təkbaşına mübahisəli və səhiyyənin mürəkkəb problemlərinin həllini öz üzərinə götürməsini düzgün hesab etmirdi. Jurnalist faktları şərh etməli, və hər iki tərəfin fikirlərini əks etdirməli, eyni zamanda, həkim kimi son qərar çıxarmağa tələsməməlidir”.

Zərifə xanımın həkimlik və alimlik fəaliyyətinin böyük bir hissəsi, o cümlədən, doktorluq dissertasiyası sənaye sahələri sürətlə inkişaf edən Azərbaycanda gözün yeni bir spesifik xəstəliyinin–peşə xəstəliyinin müalicə və profilaktikasına həsr edilmişdir.

Ötən əsrin 60-70-ci illərində Bakı və Sumqayıt regionun ən böyük sənaye mərkəzlərinə çevrilmişdi, burada onlarla neft-maşınqayırma, kimya zavodları fəaliyyət göstərirdi. Bu zavodlarda istehsal edilən, istifadə olunan müxtəlif kimyəvi maddələrin gözə təsirinin öyrənilməsi, qarşısının alınması və müalicəsi sahəsində o vaxtkı SSRİ miqyasında öncüllərdən biri, bəlkə də birincisi akademik Zərifə xanım Əliyeva olmuşdur.

Zərifə xanım Əliyeva 1968-ci ildən başlayaraq elmi fəaliyyətinin əsas hissəsini professional oftalmologiyanın problemlərinin öyrənilməsinə həsr etmişdir. Azərbaycanlı alim dünyada ilk dəfə olaraq peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuşdur. Apardığı tədqiqatların gedişində “Göz yaşının axmasının fiziologiyası”, “Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri”, “Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti” və s. kimi onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirmişdir.

Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli alimin “Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti” mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmiş və bu tədqiqatlara görə Zərifə xanım Əliyeva 1977-ci ildə tibb elmləri doktoru elmi adına layiq görülmüşdür.

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşmüşdür.

Zərifə xanım Əliyevanın həkimlik və alimlik fəaliyyətində özünün xarizmasından və şəxsi keyfiyyətlərindən irəli gələn yüksək mədəniyyət, ziyalılıq, kübarlıq, alim və vətəndaş məsuliyyəti kimi yüksək insani keyfiyyətlər həmişə diqqəti cəlb etmiş, həmkarlarına və tələbələrinə gözəl bir nümunə olmuşdur. Zərifə xanım Əliyeva ilə yaxından elmi əməkdaşlıq etmiş, birgə araşdırmalar aparmış SSRİ Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun göz kafedrasının müdiri, əməkdar elm xadimi professor Nina Borisovna Şulpina öz alim həmkarı haqqında böyük səmimiyyətlə deyirdi:

“Zərifə xanım elə bir insan idi ki, bir dəfə ünsiyyətdə olan adam onu ömürboyu unuda bilmir. Bu cür şəxsiyyətlər yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi yadda qalır. Zərifə xanım Əziz qızı haqqında ürəyimdən keçənləri ifadə etməyə söz tapmıram. Obyektivlik naminə qeyd etmək lazımdır ki, Zərifə xanım Əziz qızı elmi tədqiqatların rəhbəri, alim, pedaqoq, həkim, ictimai xadim kimi öz missiyasını yüksək səviyyədə yerinə yetirməklə yanaşı, həm də gözəl ana və həyat yoldaşı idi. O, bütün varlığı ilə həyat yoldaşının, daha sonra isə nəvələrinin də qayğıları ilə yaşayırdı”.

Akademik Zərifə Əliyevanı həmişə həkim etikası və tibbi deontologiya məsələləri düşündürmüşdür. O, gənc həkimlərin insan və vətəndaş kimi yetişməsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə böyük diqqət vermiş, həkim xəstə münasibətlərinin tədqiqi sahəsində xeyli elmi araşdırmalar aparmışdır. Onun çoxsaylı məqalələri, çıxışları, məhz bu məsələyə həsr olunmuş, "Yüksək etimad" kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir.

Zərifə Əliyeva səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Onun həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Zərifə xanım, haqlı olaraq, belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını, məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Özünün zəngin tibbi təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin sözlə müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir.

Tibb elminin inkişafına verdiyi böyük töhfələrə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Z.Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir.

Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Dünya şöhrətli oftalmoloq, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru, akademik M. Krasnov Zərifə xanım Əliyeva haqqında xatirəsində yazırdı: "Zərifə xanım qeyri-adi insan idi, başqa istedadlı şəxsiyyətlər kimi o da hər cəhətdən istedadlı idi. Mənim anlamımda isə hər şeydən öndə həyat istedadı və insaniyyət dayanır. Biz böyük insanı itirdik. Sağlığında da onun yeri görünürdü, ölümündən sonra da! Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım deyərdim: o həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi… Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu "Əvəzolunmaz insan haqqında povest" adlandırardım".

Əbəs yerə demirlər ki, insanın böyüklüyü onun sadəliyindədir. Bir təbib, bir müəllim, bir alim, bir ictimai xadim kimi qazandığı şöhrətinin ən yüksək zirvədə olduğu vaxtlarda da akademik Zərifə xanım Əliyeva belə də qaldı: qayğıkeş, mehriban, gülərüz, xeyirxah…

Həkimlik peşəsi, müəllimlik və alimlik fəaliyyəti ilə yanaşı, Zərifə xanımın çiyinlərində həm də böyük bir ictimai məsuliyyət yükü var idi. Öz xarizması, yorulmaz fəaliyyəti və prinsipiallığı ilə təkcə Azərbaycanda deyil, bütün SSRİ məkanında şöhrət qazanmış, umummill lider Heydər Əliyevin sevimli qadını, övladlarının anası, həyat yoldaşı olmaq nə qədər xoşbəxtlik idisə, o qədər də məsuliyyət və kamillik tələb edən bir tale, tanrı qisməti idi. Ondan hamı razı idi, hamı ağızdolusu danışırdı, hamı ona, ailəsinə, balalarına duaçı idi: tələbələri də, xəstələri də, övladlarının müəllimləri də, Respublikanın rəhbərinin sürücüsü də, hökumət evinin xidmətçisi də, bağbanı da…

Bəlkə də bəşər tarixində nadir şəxslərə qismət olmuşdur ki, dövlət xadiminin övladı, həyat yoldaşı və anası kimi şöhrətin ən uca mərtəbəsinə yüksəlsin, lakin özünün qazandığı insanlıq zirvəsini bütün şan-şöhrətlərdən uca tuta bilsin. Məhz akademik Zərifə xanım Əliyeva insanlığın zirvəsində qərar tutmuş əbədiyyət yolçusudur. Zərifə xanım Əliyeva həm də ona görə xoş taleli və unudulmaz bir şəxsiyyətdir ki, onun humanist həkimlik peşəsi, alim, ictimai xadim kimi fəaliyyəti, ləyaqətli həyat yoldaşı, ana, nənə missiyası bu gün də, sözün əsl mənasında, yaşayır, ulu öndər Heydər Əliyevin ocağında Mehriban xanım Əliyevanın şəxsində daha böyük miqyasda davam edir. Hörmətli Mehriban xanım Əliyeva da istedadlı göz həkimi, görkəmli alim və səhiyyə təşkilatçısı, dövlət xadimi kimi şərəfli missiyanı uğurla davam etdirir, öz yorulmaz fəaliyyəti ilə milyonlarla insana ümid işığı, firavanlıq, can sağlığı və gələcəyə inam bəxş edir.

Akademik Zərifə Əliyeva dünyadan çox tez köçdü. Heç şübhəsiz ki, hər bir insan kimi Zərifə xanımın da həyatı, ailəsi, yaxınları barədə bir çox arzuları var idi. Fikrimcə, bu işıqlı insanın və böyük alimin ən gözəl arzularından biri Bakıda müasir, hər cür şəraiti olan Oftalmoloji Mərkəzin yaradılması idi. Belə bir mərkəzin açılması üçün ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ötən əsrin 80-ci illərin əvvəllərində məqsədyönlü işlər görülsə də, Heydər Əliyevin 1982-ci ildə iş yerinin Moskvaya dəyişməsi ilə əlaqədar bu işlər ləngidi sonrakı illərdə isə tamamilə dayandırıldı. Yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər

Əliyevin səyləri nəticəsində Milli Oftalmologiya Mərkəzi tikilib başa çatdırıldı. 2009-cu il 22 may tarixində cənab Prezident İlham Əliyevin iştirakı ilə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin yeni binasının açılışı oldu.

Sovet və Azərbaycan oftalmologiya elminin görkəmli xadimlərindən biri, 12 monoqrafiya və dərs vəsaitinin, 150-ə yaxın elmi işin, bir ixtira və 12 səmərələşdirici təklifin müəllifi, yüzlərlə yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında böyük əməyi olan akademik Zərifə xanımın adının əbədiləşdirməsi sahəsində lazımi işlər görülmüş, Bakıda, Naxçıvanda, Gəncədə və digər şəhərlərimizdə onun adına küçələr, parklar salınmışdır. Hazırda regionun ən böyük tibb ocaqlarından biri olan akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi görkəmli alim və böyük insan Zərifə xanım Əliyevanın xatirəsini və arzularını yaşadan qiymətli bir abidədir.

Zərifə xanımın ən böyük abidəsi isə gözünə nur verdiyi, şəfqət bəxş etdiyi insanlar, onların övladları, yetişdirdiyi tələbələr, yazdığı kitablar, insanlıq üçün irs qoyub getdiyi zəriflik və alicənablıq, xeyirxahlıq və insan sevgisidir.

Xoşbəxt o kəslərdir ki, yaddan çıxmırlar, unudulmurlar, hörmətlə, məhəbbətlə anılırlar. Bir də ki, işığın ömrü sonsuzluğa qədərdir. İşıqlı, nurlu insanların ömrü kimi.

**Xalq qəzeti**. – 2021.- 28 aprel. – № 88. – S. 9.

## Zərifə Əliyeva dünyası – nur və şəfqətlə dolu bir aləm

**Mehriban Abdullayeva,**
Pedaqogika elmləri namizədi

Azərbaycanın müasir tarixində və dünya oftalmologiya elmi sahəsində parlaq, silinməz izlər qoymuş unudulmaz insan, böyük alim, akademik Zərifə xanım Əliyeva aprel ayında dünyaya gəldiyi kimi, bu ayda da dünyasını dəyişib. Lakin cahana həyat bəxş edən Günəş bir damla suda əks olunduğu kimi, Zərifə xanım Əliyevanın da uca adı, təkrarsız şəxsiyyəti, ali insanlığı onun yadigar sözlərində, işıqlı əməllərində öz əksini taparaq yaşayır.

Bir insanın, qadına, anaya, ömür-gün yoldaşına, alim və vətəndaşa xas olan bütün mükəmməl cizgiləri özündə cəmləməsi, yalnız, Tanrı vergisi ola bilər. Əllərinin şəfası, dərin savadı, xüsusilə də, incə qəlbi, şəfqət, sevgi dolu rəftarı ilə minlərlə gözə nur verən Zərifə xanım Əliyeva, sözün əsl mənasında, Tanrı vergisinə sahib insan idi.

Zərifə xanım 98 il əvvəl, Azərbaycan dünyasının naxışı sayılan Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açanda kimsənin ağlına gəlməzdi ki, o, dünya tibb elmində yeni səhifə açan görkəmli həkim, akademik olacaq, qadın oftalmoloqlar arasında ilk dəfə akademik M.İ.Averbax adına Tibb Elmləri Akademiyasının mükafatına layiq görüləcək. Və ən əsası isə, Azərbaycan tarixinin möhtəşəm səhifələrinin yazılmasında xüsusi rol oynayacaq.

Orta məktəb illərindən başlayaraq özünün sonsuz çalışqanlığı və məsuliyyətli ilə seçilən Zərifə Əliyeva həm müəllimlərinin, həm də məktəb yoldaşlarının dərin rəğbətini qazanmışdı. Ailəsindəki mehriban münasibət, bir-birinə qayğı hissi özünü sinifdə də gözəl təcəssüm etdirirdi.

Tələbəlik illərində də Zərifə xanım öz qeyri-adi istedadı, yüksək intellekti və qabiliyyəti ilə seçilib. Tələbə yoldaşları onu çox sadə, nəzakətli, gülərüzlü, qayğıkeş bir insan kimi dərin hörmətlə xatırlayıblar hər zaman.

Tibb İnstitutunu bitirdikdən sonra çalışmaqla yanaşı, aspiranturada oxuyub və sonralar həmin institutda elmi işçi kimi fəaliyyətə başlayıb. Bu illərdə də Zərifə xanım öz ali, nəcib missiyasına sadiq qalaraq ordinatorlara da təmənnasız diqqət və qayğı göstərib, onların problemlərinin həllinə dəstək olub. Tələbə yoldaşı X.A.Rəcəbli qeyd edirdi ki: “Zərifə xanımın müasir cəmiyyətdə həkimin rolu və yeri ilə bağlı ideyaların öyrənilməsi, işlənib hazırlanması, inkişaf etdirilməsi və təbliği sahəsində apardığı böyük işi qeyd etməmək mümkün deyil. 1979-cu ildə Oftalmoloqlar Cəmiyyətinin Moskvada keçirilmiş iclasında Zərifə xanımın möhtəşəm çıxışını xatırlayıram. O, parlaq bir natiq kimi həkimin mənəvi tərbiyəsi, müasir tibb etikası və mənəviyyatı məsələləri haqqında çox maraqlı məruzə ilə çıxış etdi. Çıxışdan sonra Sovet oftalmologiyasının patriarxı, akademik M.M.Krasnov ona yaxınlaşaraq qarşısında baş əydi və əlindən öpüb: “Sözüm yoxdur! Heyranam!” – dedi.

Zərifə xanım Əliyevanın çalışdığı Qelmqolts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu SSRİ-nin tanınmış elm mərkəzlərindən biri idi, orada ölkənin ən yaxşı oftalmoloqları toplaşmışdılar. Zərifə xanımın gələcək elmi fəaliyyəti üçün buradakı elmi mühit çox əhəmiyyətli idi. Bu mühitdə o, öz orijinal elmi yolunu tapmış və mühüm axtarışların istiqamətinə yönəlmişdi.

Rusiyalı məşhur oftalmoloq, tibb elmləri doktoru, professor Z.M.Skripçenko Zərifə xanım Əliyeva haqqında xatirələrində onu “Qoruyucu mələk” adlandıraraq deyir: “Bir dəfə Zərifə xanımla birlikdə həmkarlarımızın evində qonaq idik. O, yüksək intellektli adamların əhatəsində öz cəlbedici sadəliyi və həyat eşqi ilə seçilirdi: fortepianoda musiqiyə xüsusi rəng verərək populyar melodiyalar, rəqslər ifa edirdi… Zərifə xanım dinləyiciyə əsərin varlığını, mahiyyətini çatdırmağı bacarırdı.

Zərifə Əliyevanın tələbələri ona professionallığın və müdrikliyin canlı nümunəsi olan professor kimi baxırdılar. O, həmişə məntiqli və eyni zamanda, səmimi danışırdı, yüksək nitq mədəniyyəti ilə seçilir və tələbələrində xüsusi həvəs yaradırdı”.

Zərifə xanım əsl azərbaycanlı qızı kimi milli mühitdə, xalqımıza xas ən ülvi dəyərlərlə zəngin əhatədə böyümüşdü. Atası – görkəmli alim və ictimai-siyasi xadim Əziz Əliyev ailəsi ilə birlikdə, İrəvanda yaşayan əksər azərbaycanlılar kimi, qaçqınlıq taleyilə üzləşərək Naxçıvana köçmüşdü. Hamının rəğbət və hörmət bəslədiyi Əliyevlər ailəsi bütün qohum-əqrəbanın, dost-tanışın ümid ünvanı, pənah yeri idi. Zərifə xanımın xarakterində olan qayğıkeşliyi, mehriban münasibəti, imkansızlara yardım əli uzatmağı irsi və fitri keyfiyyət olmaqla bərabər, həm də belə mühitdə böyüdüyü üçün formalaşmışdı. Anası Leyla xanım bəy qızı olmağına baxmayaraq, vaxtsız gələn qonaqları belə, gülərüzlə qarşılayar, zəhmətlərinə qatlaşar, ümidsiz yola salmazmış. Zərifə xanım da anası Leyla xanımda olan bütün bu kimi müsbət keyfiyyətləri ondan miras alaraq layiqincə yaşadıb.

Tale gənc həkim Zərifə xanımı o zaman Təhlükəsizlik sistemində zabit kimi xidmət edən Heydər Əliyevlə qarşılaşdırdı. Bu ülvi münasibət əslində, Azərbaycanın müasir mənəvi və ictimai-siyasi tarixində böyük dönüş nöqtəsi oldu. Zərifə Əliyevanın taleyinə daha bir ali missiya – Heydər Əliyev kimi dahi şəxsiyyətin, müdrik dövlət başçısının həyat yoldaşı, əqidədaşı olmaq yazıldı. Və o, bu möhtəşəm missiyanı öz zərif, ancaq dəyanətli çiyinlərində ömrü boyu sonsuz qürurla, tükənməz fərəhlə daşıdı. Çağdaş müstəqil Azərbaycan dövlətinin memarı, Azərbaycan xalqının xilaskarı və Ümummilli lideri mövqeyinə yüksəlmiş Heydər Əliyevin bu uğurlu həyat və

fəaliyyət yolunda, heç şübhəsiz, onun fədakar yoldaşı, sadiq sirdaşı olan Zərifə xanım Əliyevanın da özünəməxsus rolu vardı.

Analıq kimi ali missiya da Zərifə xanımın şəxsində özünün yeni bir parlaq nümunəsini qazandı. Onunla Heydər Əliyevin müqəddəs ailə ocağında dünyaya gələn Sevil xanım Əliyevanın şəxsində çağdaş Azərbaycan qadınlığının son dərəcə nəcib, dəyərli obrazını görürük. Bu möhtəşəm ailənin ikinci övladı olan cənab İlham Əliyev isə Azərbaycanı yeni yüksəliş mərhələsinə yüksəldən görkəmli siyasi lider, müdrik dövlət xadimi, torpaqlarımızı işğaldan qurtaran müzəffər Ali Baş Komandanımızdır.

Çox təəssüf ki, amansız ölümün bizdən erkən qopardığı Zərifə xanım Əliyeva onun dahi ömür-gün yoldaşı Heydər Əliyevin və əziz oğlu İlham Əliyevin rəhbərliyilə müasir Azərbaycanda baş verən misilsiz dəyişikliklərin, yüksək inkişafın canlı şahidi ola bilmədi. Lakin heç şübhəsiz, onun işıqlı ruhuna əyan oldu ki, Ulu öndərimiz Heydər Əliyev Azərbaycanı bəlalardan xilas edərək dövlətçiliyimizin möhkəm təməlini qoydu, ölkəmizi geniş, davamlı inkişaf yoluna çıxardı. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyev isə bu aydın yolu böyük uğurla davam etdirərək tariximizin ən parlaq səhifələrinə fateh sərkərdə, qalib rəhbər kimi imza atdı. Heç şübhəsiz, Zərifə xanımın saf ruhu sonsuz bir sevinc duyur ki, onun qəlbən bağlı olduğu, bütün varlığı ilə sevdiyi Azərbaycan indi dünyanın ən güclü dövlətlərindən biri, doğma xalqı isə azad edilmiş torpaqlarında yaşayan, öz müdrik rəhbərinə ürəkdən inanan xoşbəxt xalqdır. Sözsüz ki, unudulmaz Zərifə xanım Əliyevanın pak ruhunu sevindirən çox mühüm bir cəhət də var: Ulu öndər Heydər Əliyevlə Zərifə xanımın müqəddəs ocağının işığı, hərarəti Prezidentimiz cənab İlham Əliyevin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın sayəsində bütün Azərbaycana yayılıb.

**525-ci qəzet.** – 2021. – 21 aprel. – № 69. – S. 12.

## Yüksək mənəviyyat və daxili zənginlik simvolu

**Leyla Gərayzadə,**
Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru

Akademik Zərifə xanım Əliyeva bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş xoşbəxt insanlardan olmuşdur. O, geniş və parlaq ürək sahibi, yüksək mənəviyyat və daxili zənginlik simvolu idi. Zərifə xanım qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı.

Ölkəmizdə oftalmologiya elminin inkişafında Zərifə xanımın misilsiz xidmətləri danılmazdır. Görkəmli alim vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar aparmışdır.

Qeyd etmək lazımdır ki, Zərifə xanım Əliyeva yüksək ixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

Zərifə xanım Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, “Vestnik oftalmologii” (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. 1981-cı ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əziz qızı Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd etmək lazımdır ki, Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın olmuşdur.

Apardığı elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilərək, 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan SSR EA-nın akademiki seçilmişdir. Görkəmli alim, fəal ictimai xadim Zərifə xanım Əliyeva xidmətlərinə görə orden və medallarla təltif olunmuş, Əməkdar elm xadimi kimi yüksək fəxri ada layiq görülmüşdür.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açmış Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva, eyni zamanda, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

…Tale mənə həyatda nəcib və kübar missiya daşıyan bu böyük qəlb sahibi ilə təmasda, ünsiyyətdə olmaq xoşbəxtliyi nəsib etmişdir. Ona qarşı hələ uşaq və yeniyetmə yaşlarımdan qəlbimin ən dərin guşələrində yer alan dərin minnətdarlıq duyğularımı çoxdan qələmə almaq istəyirdim. Zərifə xanım barədə səmimi düşüncələrimi bu gün hörmətli oxucularla bölüşməyi özümə mənəvi borc bildim.

1959-cu il idi. Qazaxıstana sürgün olunan ailəmiz, nəhayət ki, bəraət alıb Vətənə qayıtdı. Uzun illərin ayrılığı öz işini görmüşdü. “Vətən xaini”nin övladları kimi bizi Bakıda nə gözləyirdi? Əvvəlcə bizi Pirşağı qəsəbəsinə gətirdilər.

Atam Dövlət Təhlükəsizlik Komitəsinə gedib qeydiyyatdan keçəndə Qazaxıstandan sürgündən gələnlərin yerləşdirilməsi ilə məşğul olan gənc zabit Heydər Əliyev ilə görüşmüşdü. Həmin gündən bizim üçün yeni həyat başlandı. Hər an biz onun qayğısını hiss edirdik.

Pirşağıya gələndə yay idi. Tikanlı məftillərin o biri üzündə dustaqlar ev tikirdilər, əks tərəfdə isə kənd adamları məhsul toplayırdılar. Atam istəyirdi ki, biz oxuyaq, savadlı olaq, buna görə də yenə Heydər Əliyevin yanına getdi.

Günlərin bir günü bizim yaşadığımız yerdə əsl təntənə vardı. Heydər Əliyev Zərifə xanımla görüşümüzə gəlmişdi. Zərifə xanımın maşından düşüb toplaşanlara tərəf getməyi indi də yadımdadır. Güllü paltarda idi. Asta addımlarla yaxınlaşıb üzündə təbəssüm, mehriban baxışlarla bir-bir onu qarşılayanlarla görüşdü. Bizə “Vətən xaini” kimi baxanlar da vardı. Ona görə də onların bizə baş çəkmələri qəlbimizdə ümid çırağı yandırmışdı. Sevinirdik ki, əzizlərimiz bizə baş çəkiblər. Zərifə xanım hamı ilə görüşüb atama yaxınlaşdı. Mehribanlıqla salamlaşıb hal-əhval tutdu. Sonra mənzilimizə keçdi. Atamın icazəsi ilə biz onlarla salamlaşdıq. Zərifə xanım bizə əl uzatdı. Biz ona əl verib sonra əlindən öpdük. Güldü, heyrətini gizlətmədi: “Bunlar adət-ənənə ilə görüşürlər ki…”Sonra rusca danışdığımızı görüb “Rus dilində nə yaxşı danışırlar”, – dedi.

Mən Azərbaycanca dilləndim: “Biz rusların içində yaşamışıq, axı”. Azərbaycanca danışdığımızı biləndə təəccübünü gizlətmədi. Başımıza sığal çəkib “Hələ azərbaycanca da bilirlər ki, nə yaxşı uşaqlarsınız, mən sizə kömək edəcəyəm, oxuyub savadlı olacaqsınız”,–deyib bizə arxa-dayaq olacağını bildirdi.

Sevincimizin həddi-hüdudu yox idi. Sonra onlar içəri otağa keçdilər. Biz böyüklərin olduğu yerə keçmədiyimizdən söhbətlərini eşitmədik. Amma nədən söhbət getdiyini bilirdik. Onlar bu görüşdə bizim gələcəkdə hansı peşəyə yiyələnəcəyimizlə də maraqlandılar. Qardaşım təyyarəçi, mən isə müəllim olmaq arzumuzu bildirdik. Həmin gün yeni həyatımızın başlanğıcı oldu. Heydər Əliyev atamı qardaşı Həsən Əliyevlə tanış etdi, kömək etməsini tapşırdı.

Bir gün Həsən Əliyev atamı götürüb Bakının rayonlarını gəzməyə çıxdılar. Bütün sürgündən qayıdan azərbaycanlıların arzularını nəzərə alıb yeni yaşayış məskəni üçün yer axtarırdılar. Razin (indiki Bakıxanov) qəsəbəsini seçdilər. Qəsəbənin mərkəzində kirayə ev tutmuşduq. Zərifə xanım bizim o evimizə də tez-tez gəlirdi. Çay süfrəsi arxasında onun o qədər məsləhətlərini dinləmiş, maraqlı söhbətlərinə qulaq asmışıq ki…Hər sözünü, hərəkətini yaddaşıma hopdururdum.

Bir gün məsləhət gördü ki, kişilər ilə birgə bacarıqlı cavanlar da işə getsinlər. Zərifə xanım bunu o qədər qayğıkeşliklə, mülayimcəsinə məsləhət edirdi ki, onun sözündən çıxmağı bir kimsə ağlına gətirmirdi. O çətin illərdə hamının işə düzəlməsində onun böyük rolu oldu. Maşınqayırma, şin, çörək zavodları sürgündən gələnlərin üzünə bu xeyirxah insanın köməyi ilə açıldı. Neçə ailənin sevincinin ünvanı oldu Zərifə xanım!

Hədsiz dərəcədə səmimiliyini, qayğıkeşliyini hiss edirdik. O, bəzən zavodlara gedir, oradakı kimyəvi maddələrin işçilərin görmə qabiliyyətinə mənfi təsirinin olub-olmaması ilə maraqlanırdı. Tək biz yox, bütün Qazaxıstandan gəlib özlərinə yeni yuva quranlar onun ana qayğısını hiss edirdilər. Qardaşım onların köməyi ilə Saratov şəhərinə ali təyyarəçilik məktəbinə oxumağa göndərildi. Mən özüm Zərifə xanımın məsləhəti ilə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil oldum. Bir sözlə, həyatda qazandığımız hər bir nailiyyət bu böyük şəxsiyyətlərin adları ilə bağlı idi.

İnstituta qəbul olunduğumu bilən gün atam dedi: “Gedin, Zərifə xanıma təşəkkür edin”. Zərifə xanım qardaşıma və mənə istədiyimiz gün onlara gəlməyimizi tapşırmışdı. Qardaşımla həyətdə əkdiyimiz qızılgüllərdən böyük bir dəstə bağladıq, elektrik qatarına minib şəhərə gəldik.

Mənzilə daxil olanda Zərifə xanımın bizi necə mehribanlıqla qarşıladığını kaş görəydiniz. Bağrına basıb öpdü. Bizə süfrə açdırdı. Süfrəyə çörək, müxtəlif şirniyyatlar düzdürdü. Uşaqlarını çağırıb bizimlə söhbətə başladı. Heydər Əliyev elə bu zaman gəldi. Bizi görüb “Bizim Leyla instituta daxil olub, təbrik etmisinizmi?” – dedi. Zərifə xanım gülləri göstərdi: “Gör nə gözəl güllər gətiriblər”.

O söhbət yadıma düşəndə indi də düşünürəm ki, insanda nə qədər mədəniyyət, alicənablıq, ən xırda şeyə də müsbət reaksiya və qiymətləndirmək bacarığı olmalıdır ki, qarşısındakını ucaltsın. Zərifə xanımın dahiliyi bunda idi.

O, ana idi, qayğıkeş, mehriban ana! Başqalarına da öz övladlarına yanaşan kimi yanaşırdı. Mən onun qızı ilə necə mehriban söhbət etməsini, yaşamağımızla bağlı ən xırda detalları öyrənmək istəməsini indi də unutmuram.

Onunla bir dəfə 6 nömrəli məktəbdə görüşdüm. Zərifə xanım uşaqlarını aparmağa gəlmişdi. Mən isə həmin məktəbdə təcrübə keçirdim. Məni görən kimi qucaqlayıb, bağrına basdı, “Siz Leylanı tanımırsınız, o çox yaxşı qızdır, onların ailəsi o qədər əzab-əziyyət çəkib ki…” – deyə bizim həyatımız barədə oradakı müəllimlərlə söhbət etdi. Zərifə xanım haqqımda elə xoş, dəyərli sözlər söyləyirdi ki, mən onun verdiyi qiymətə layiq olmağa çalışırdım, Allaha yalvarırdım ki, ondakı keyfiyyətlərin bir hissəsi də məndə olaydı. Geyimimdə, davranışımda ona bənzəməyə çalışırdım.

Qazaxıstanda mən gənc yaşında həyatını dəyişən əziz anamın məzarını və ağır, dözülməz, hətta təhqiramiz sürgünlük illərinin olduqca acı xatirələrini qoyub gəlmişdim. Bu gün Bakı Dövlət Universitetinin professoruyam, filologiya elmləri doktoruyam. Auditoriyalarda sevimli tələbələrimə A.S.Puşkin, M.Y.Lermontov, L.N.Tolstoy, F.M.Dostoyevski və başqa böyük ədiblərin həyat və yaradıcılığı barədə mühazirələr oxuyuram. Övladlarım, nəticələrim var. Əldə etdiyim uğurlara görə həyatda mənə, qardaş və bacıma arxa, dayaq, pasiban olan Heydər Əliyevin ailəsinə, Zərifə xanım kimi nəcib insanlara borcluyam.

Bu məqamda hər bir azərbaycanlının qəlbini riqqətə gətirən bir məqamı qeyd etməmək ədalətsizlik olardı. O da budur ki, Heydər Əliyevin və Zərifə xanımın xoşbəxt ailəsində dünyaya göz açaraq yüksək savad, bilik və əxlaqi dəyərlər əxz edən, illər keçdikcə isə böyük siyasətçi və görkəmli tarixi şəxsiyyət kimi yetişən Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyev xalqımıza Qarabağda şanlı zəfər tarixini yaşatmışdır.

Mən bu gün o keçmiş günlərə qayıdanda, ötənləri yada salanda gözlərim dolur. “Kaş bu müstəqil Azərbaycanımızı görəydiniz, Zərifə xanım!”, – deyirəm. Akademik, həkim, müəllim, nə olursa-olsun, elmdə, cəmiyyətdə hansı mərhələyə yüksəlirsə yüksəlsin – mən Zərifə xanım Əliyevanın adını böyük hərflərlə yazılmağa layiq insan adlandırıram. Xalq arasında deyilən yaxşı adam ifadəsi, məhz Zərifə xanımın boyuna biçilib. O, xeyirxahlıq mücəssəməsi, təmizlik simvolu, qeyrət nümunəsi kimi ürəyimdə özünə əbədi yer tutub. Onun qəlbindən payladığı nurdan insanların gözləri işıqlanırdı.

**Xalq qəzeti.** – 2021.- 16 aprel. – № 78. – S. 3.

## Nurlu ömrün böyük salnaməsi – Zərifə xanım Əliyeva

**Zümrüd Bayramova**

Qeyri-adi peşəkarlığı ilə şöhrətlənən, dünya oftamologiya elminə töhfələrini verən, böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyeva öz əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək, onlara bu dünyanın gözəlliyini görmək kimi böyük xoşbəxlik bəxş etmişdir. Hər insan əməli fəaliyyətində bu səadətə – insanlara nur bəxş etmək səadətinə qovuşa bilmir. Böyük istedad, zəhmət və geniş qəlb insanı bu yüksəkliyə ucalda bilir. Gərgin əməyi ilə uzun illər elmi nailiyyətlərə imza atan Zərifə xanım elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınır.

Elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə dünya oftamologiya elmində öz möhrünü vurub. Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftamoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın bu gün anım günüdür. Alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani kefiyyətləri, elmi fəaliyyəti təkrarsız bir insan olaraq hər zaman xatırlanır. Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. O, elm sahəsində elə bir yüksək zirvədədir ki, zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Özü də yaşadığı illərdə araşdırmalar aparmış, elmi zəkası ilə gəldiyi qənaətlər və nəticələr böyük uğurlara yol açmışdır. Bu uğur bir şəxsin olmuş olsa da, bundan minlərlə, milyonlarla insan bəhrələnmişdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir.

Onun keçdiyi həyat və elmi yoluna nəzər salaq. Şərəfli bir ömür yolu. Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu elə bir zaman idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi. Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Öz həyatını tibb elminə bağlayan Zərifə xanım mərhələ-mərhələ buna nail olub. Onun elmi nailiyyətlərinə nəzər saldıqda nə qədər böyük əhəmiyyətə malik olduğunu görürük. Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən – “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi” monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, “İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbüssündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə

Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N.Dobromislovun və başqalarının yazılarında alimin şərəfli və zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb. Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!". Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır.

Onun elmi nailiyyətləri ilə yanaşı, ziyalı işığı da daim insanlara nur, qüvvət verib. Zərifə Əliyevanın hər sözü, hər bir hərəkəti nümunəyə çevrilib. Hətta həmkarlarına verdiyi tövsiyələr onun ziyalılığının nümunəsidir. İnsana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir kimi tövsiyələri diqqəti çəkir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verib. Çox alimlər, ziyalılar onun ünvanına – şəxsiyyətinə, elmi uğurlarına, tədqiqatlarına yüksək fikirlərini bildiriblər. Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu qeyd ediblər. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın kimi mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda, bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, bir alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə və zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan əlvan çalarlı ömrünü yazılı salnamələrdə əks etdirdi. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq iki övlad böyüdüb – ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevirildi. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Səs.**-2021.-15 aprel.-№65.-S.4.

## Nəciblik və sədaqət örnəyi

**İlham Abbasov**

**Zərifə xanım mənə xoşbəxtlik bəxş etmişdi. …Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.**

***Heydər Əliyev***
***Ümummilli lider***

35 il əvvəl, 1985-ci ilin aprelində Azərbaycanın da daxil olduğu Sovet İttifaqının paytaxtı Moskva şəhərinin Novodeviçye qəbiristanlığında xalqımızın sevimli övladı, ölkə miqyasında tanınan oftolmoloq alim, tibb elmləri doktoru, akademik, o zaman Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın dəfn mərasimi keçirilmişdi. Həmin mərasimdə iştirak etmiş bir dostum Moskva əhalisinin, SSRİ-nin görkəmli elm, sənət adamlarının, ictimai xadimlərin Zərifə xanımın xatirəsini böyük hörmət və ehtiramla yad etdiklərini danışandan sonra mərasimdə iki məsələyə heyrətləndiyini vurğulamışdı. Birincisi odur ki, dövrün və cəmiyyətin normalarına uyğun olaraq, bu səviyyəli dəfn mərasimlərinin, demək olar ki, hamısının dini rituallardan uzaq, mülki qaydalarla keçirilməsinə baxmayaraq, "Moskvanın ortasında" Heydər Əliyev xanımının dəfnini seyxülislam Allahşükür Paşazadənin iştirakı ilə, İslam qaydalarına tam uyğun şəkildə keçirmişdi. Dostum onu heyrətə salan ikinci cəhəti isə belə ifadə etdi: "Ömrümdə birinci dəfə idi ki, KİŞİNİ ağlayan gördüm, heç təsəvvür etməzdim…"

Zərifə Əliyeva Azərbaycanın görkəmli elm və dövlət xadimi Əziz Əliyevin qızı idi. Onun təbiətindəki sadəlik və səmimilik, kübarlıq və nəcabət ailəsinin, nəslinin genetik köklərindən gəlirdi. İrəvan gimnaziyasını bitirdikdən sonra Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə Rusiyanın ən nüfuzlu ali məktəblərindən biri olan Sankt- Peterburq Hərbi Tibb Akademiyasında təhsil alan Əziz Əliyev 1918-ci ildə Vətənə dönməli, ailəsini erməni qırğınından xilas etmək üçün İrəvandan Naxçıvanın Şahtaxtı kəndinə köçürməli olur. Sovet dövründə Ə.Əliyev müxtəlif vaxtlarda Azərbaycan Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, respublikanın səhiyyə naziri, Azərbaycan KP MK-nın katibi, Dağıstan Muxtar Respublikası Partiya Komitəsinin birinci katibi, Sov.İKP MK-nın inspektoru, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləmişdi. İşlədiyi bütün vəzifələrin öhdəsindən bacarıqla gələn Ə. Əliyev nüfuzlu rəhbər, qətiyyətli və vicdanlı bir insan kimi xalq arasında böyük hörmət qazanmışdı.

Böyük Vətən müharibəsi başlanandan sonra o, bir müddət İrana yeridilmış sovet qoşunlarının siyasi rəhbəri vəzifəsində xidmət edir. Orada Cənubi Azərbaycan milli oyanış hərəkatının təşkilatlanmasına ciddi kömək göstərir. Müharibənin ən ağır dövründə Dağıstan partiya təşkilatının rəhbəri vəzifəsinə təyin olunan Ə. Əliyev digər Şimali Qafqaz xalqlarından fərqli olaraq, Dağıstan əhalisinin Sibirə deportasiya edilməsinin qarşısını almağa müvəffəq olur. Dağıstan camaatı onun mərdanəliyini bu gün də unutmur, bu respublikadan ölkəmizə gələn hər bir nümayəndə heyəti mütləq Fəxri xiyabanda Əziz Əliyevin məzarını ziyarət edir.

Ə. Əliyevin gündən-günə artan nüfuzundan ehtiyat edən respublika rəhbəri M. C. Bağırovun göstərişi ilə 1952-ci ildə o, tutduğu bütün vəzifələrdən kənarlaşdırılaraq Sabunçu xəstəxanasına sıravi həkim vəzifəsinə göndərilir. Bu hadisə yalnız Ə. Əliyevin bioqrafiyası üçün deyil, 40-cı illərin axırlarında tanış olmuş, aralarında saf və səmimi məhəbbət duyğuları yaranmış Heydər Əliyevlə Zərifə xanımın taleyi üçün də ciddi bir sınaq idi. Gənc təhlükəsizlik xidməti zabitinin "xozeyin"in gözdən salmağa çalışdığı bir kişinin qızına sevgi hissləri bəsləməsi onun karyerasını risk altına qoyurdu. DTK rəhbərliyi ona bu barədə xəbərdarlıq da etmişdi. Ancaq Heydərlə Zərifənin sevgisi də, şəxsiyyəti də taleyin bu sınağından şərəflə çıxdı. Qurduqları ailədə illər uzunu nümunəvi münasibət, vəfa və etibar hökm sürdü.

Ulu öndərimiz sevimli xanımının insani keyfiyyətlərini qürur hissi ilə xatırlayır, çox yüksək qimətləndirirdi: "O, mənə sadəcə ömür-gün yoldaşı deyildi. O mənə dost, dayaq idi. İşimin çətin olduğu bütün dövrlərdə ailəm haqqında çox rahat düşünürdüm. Çünki mənim Zərifə Əliyeva kimi sədaqətli, cəfakeş, fədakar ana olan ömür-gün yoldaşım var idi. Mənim üçün o, birinci növbədə, böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır."

Ömür yolları Zərifə xanımı Heydər Əliyevlə rastlaşdırmasaydı belə, öz əməlləri, ailə mənsubluğu, elmi-pedaqoji və həkimlik fəaliyyəti, yüksək intellekti və ziyalılıq məziyyətləri onun adının xalqımızın müasir tarixinin şanlı bir səhifəsinə yazılmasını təmin edə bilərdi. Lakin bu insan özünün ali həyat missiyasını, varlığının,

mövcudluğunun mənasını məhz ümummilli liderin adına layiq ömür-gün yoldaşı olmaqda görürdü. Sovet dövründə siyasi rəhbərlərin xanımları ictimai həyatda o qədər də fəal nəzərə çarpmırdılar. Zamanın davranış norması belə idi. Bəlkə də onların bir çoxu, həqiqətən də "evdar qadın" səviyyəsindən kənara çıxa bilmirdi. Lakin Zərifə xanım həyat yoldaşının tutduğu mənsəbdən asılı olmayaraq, bir insan və şəxsiyyət kim, öz-özlüyündə çox yüksək dəyərə və statusa malik idi. Dövlət idarəçiliyi işlərinə, Heydər Əliyevin siyasi fəaliyyətinə qarışmasa da, onun varlığı, ulu öndərin yanında olması hər məqamda duyulur, hiss olunurdu. Onun həssas ürəyi, həlim xasiyyəti Heydər Əliyevin sərt və ötkəm xarakterini xeyli yumşaldır, rəftarını mülayimləşdirir, gəldiyi qərarları, atdığı addımları daha xeyirxah, humanist edirdi. O, ulu öndərin, sadəcə, xanımı yox, həm də dostu, məsləkdaşı idi. Ömür boyu öz zəkasını, bacarığını, duyğu və düşüncələrini böyük missiya daşıyıcısı olan həyat yöldaşının xidmətinə qoymağı bacarmış, bununla da onun insanların yalnız beynində deyil, qəlbində də əbədi yer tutmasına yardımçı olmuşdu. Zərifə Əliyeva bir qadın və insan kimi öz xoşbəxtliyini, həyatının mənasını məhz bunda tapmışdı.

Buna görə polad iradəli Heydər Əliyevin ömür yoldaşını haqq dünyasına yola salarkən sarsılmasını, göz yaşlarına hakim ola bilməməsini anlamaq olardı. Ulu öndər özü Zərifə xanımın doğum günündə bu duyğuları belə ifadə etmişdi: "O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm – ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm.

İllər keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür… Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda, qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm."

Həyatda qadın varlığının ən ali mərtəbəsi analıq məqamıdır. Dünyaya övlad gətirmək, onların yolunda min bir cəfaya dözmək, yuxusuz gecələr keçirmək qadın yaşamının ən böyük mənasıdır. Zərifə xanım bu baxımdan da xoşbəxt bir insan idi. Dünyanın müasir tarixində bir dövlət başçısının xanımı, digərinin anası olmaq az-az qadınların qismətinə düşən bir həyat naxışıdır. Zərifə xanım dünyadan vaxtsız köçəndə yeganə oğlu İlhamın cəmi 24 yaşı vardı. Ancaq tale anaya oğlunu özü kimi nəcabətli bir qızla evləndirmək imkanı vermişdi. Bu mənada Zərifə xanım dünyadan ürəyi toxtaq gedirdi. Ana oğlunun yetkinlik çağlarını, atasının əqidə və əməl yolunu necə qətiyyətlə davam etdirdiyini cismən görə bilməsə də, onun ruhu, yəqin ki, şaddır. Tale onun oğluna hər bir ananın öz övladı üçün arzulaya, Uca Yaradandan diləyə biləcəyi hər şeyi verdi…

Maraqlıdır, Azərbaycan Prezidenti İlham Əliyevin anası barədə ürək sözləri ulu öndər Heydər Əliyevin xanımı haqqında dediyi fikirlərlə necə də üst-üstə düşür: "Zərifə xanım böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər, əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq…

Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar insan idi."

Ata ilə oğulun anaya, ömür-gün yoldaşına, demək olar ki, eyni sözlərlə bu qədər yüksək dəyər verməsi və mövqelərində bu cür həmrəy olmaları ailənin də, atanın da, ananın da, oğulun da xoşbəxtliyini sübut edən bir dəlildir.

**Xalq qəzeti**. – 2020.- 15 aprel. – № 70. – S. 5.

## İşıq, nur və xeyirxahlıq mücəssəməsi

**Elmar Qasımov**,
Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru,
AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor

Dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş görkəmli oftalmoloq alim, insanlara nur bəxş edən, həyatlarını işıqlandıran akademik Zərifə xanım Əliyevanın bu gün anadan olmasının 96-cı ildönümüdür. Adı hər zaman fəxrlə, sonsuz qürur hissi ilə səslənən akademik bu gün də insanların qəlbində işıq və nur bəxş edən görkəmli şəxsiyyət kimi yaşayır. Akademik Zərifə Əliyeva peşəkar həkim və alim olmaqla yanaşı, həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Bu adların, mükafatların hər biri qürur, iftixar mənbəyidir. Ən şərəflisi isə böyük iftixarla daşıdığı Ana adıdır. Azərbaycanda tibbin inkişafına əvəzsiz töhfələr verən görkəmli alim Zərifə xanım Əliyeva gənclərimiz üçün də mənəvi paklıq nümunəsidir. O, insanlara örnək olan mənəvi baxımdan zəngin bir həyat yaşayıb. Zərifə xanım yazıb-yaratdığı dəyərli elmi əsərləri pedaqoqluq səriştəsi ilə, ideal bir həkim, alim və insan kimi xatirələrdə yaşayır və daim yaşayacaq. O, gözlərinə işıq verdiyi, nur bəxş etdiyi saysız-hesabsız insanların qəlbində əbədi heykəlini ucaldıb.

İşıq və nur gözəllik, xeyirxahlıq mücəssəməsidir. Bu keyfiyyətləri özündə birləşdirən adamlar isə – Allahın sevimli bəndəsidir, öz ömründən qat-qat və uzun şərəfli ömür yaşamağa haqqı olanlardır. Akademik Zərifə xanım Əliyeva kimi…

Ötən əsrdə topçubaşovlar, hacıbəylilər, şadlinskilər, rəfibəylilər, bədəlbəylilər, şahtaxtinskilər kimi ailələr Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynamış və dərin izlər qoymuşlar. Bu sırada akademik Zərifə xanım Əliyevanın ləyaqətlə təmsil olunduğu Əliyevlər ailəsinin də şərəfli yeri vardır.

Tibb elmində gur çıraq kimi şölələnən Zərifə xanım Əliyeva fitri istedada malik alim, Ulu Tanrının xalqımıza bəxş etdiyi heyrətamiz dərəcədə pak və nadir insan idi. Geniş dünyagörüşü, yüksək ziyalılığı, tədqiqatçılıq bacarığı ilə hamının rəğbətini qazanmış Zərifə Əliyevanın mənalı ömür yolu hər bir azərbaycanlı, elm adamı və tibb işçisi üçün əsl həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Azərbaycan tibb elminin, xüsusilə onun az inkişaf etmiş oftalmologiya sahəsinin inkişafında müstəsna xidmətləri olan Zərifə xanım yorulmaz fəaliyyəti ilə insanlara xoşbəxtlik, çöhrələrə nur, gözlərə işıq bəxş edib. Onun şəfalı əlləri ilə minlərlə xəstə müalicə olunub.

Zərifə xanım Əliyeva görkəmli alim olmaqla yanaşı, həm də kövrək qəlbli insan, qayğıkeş və sevimli həyat yoldaşı, övladlarına gözəl tərbiyə verən mehriban ana olub. Dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş görkəmli oftalmoloq alim Zərifə xanım Əliyeva Tanrının əbədiyaşarlıq haqqı verdiyi seçilmişlərdəndir.

Zərifə xanım çox mükəmməl bir şəxsiyyət olmuş, gözəl, yaraşıqlı qadın, qayğıkeş həyat yoldaşı, mehriban ana, humanist həkim, fədakar alim, sevimli müəllim kimi xatirələrdə silinməz izlər qoymuşdur. Onun nəsil şəcərəsi Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvanın əsilzadə mühitində sayılıb– seçilən bir ailəyə bağlıdır. Ata babası Məmmədkərim Qurbanəli oğlu da, ana babası İbrahim bəy Süleymanbəyov da İrəvanın məşhur əsilzadələrindən idilər.

Təəssüf ki, Məmmədkərim Qurbanəli oğlunun İrəvan yaxınlığındakı Hamamlı kəndindəki mülkü də, İbrahim bəy Süleymanbəyovun İrəvandakı göz oxşayan imarəti də 1918-ci ildə erməni-daşnak quldurları tərəfindən qəsb olundu, dağıdıldı. O torpaqların özü qədər gözəl, xeyirxah olan sakinləri dədə-baba yurdlarından didərgin düşdülər və bir daha doğma ocaqlarına qayıda bilmədilər. Daşnakların azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı Zərifə xanımın atası Əziz Əliyevi 1918-ci ildə Sankt-Peterburqdakı təhsilini yarımçıq qoyub İrəvanda təqiblərə məruz qalmış ailəsini Şahtaxtı kəndinə köçürməyə məcbur etdi. Məhz burada 1923-cü il aprelin 28-də Zərifə xanım dünyaya göz açdı. 1923-cü ilin may ayında Əziz Əliyev Bakıya köçdü və sonrakı taleyini bu böyük şəhərlə bağladı.

Fövqəladə ağlı, istedadı, biliyi və çalışqanlığı sayəsində öz adını Azərbaycanın səhiyyə və dövlətçilik tarixinə qızıl hərflərlə yazdırmış professor Əziz Əliyevin digər övladları kimi Zərifə xanım da yüksək mədəniyyət və ailə tərbiyəsi görmüş, təhsil almış, elm öyrənmiş, öz peşəsinin dərin bilicisi kimi xalqına ləyaqətlə xidmət etmiş, insanların hörmətini və sevgisini qazanmış, görkəmli alim, ictimai xadim kimi respublikamızın hüdudlarından kənarda da tanınmış və sevilmişdir. Heç şübhəsiz ki, bu uğurların əsasında soy-kökdən gələn istedadla yanaşı, ailə ənənələrindən doğan çalışqanlıq, məsuliyyət, məqsədyönlülük, daxili intizam və mədəniyyət dayanırdı.

İrəvanın kübar-ziyalı mühitindən qaynaqlanan ailə ənənələri görkəmli dövlət xadimi və səhiyyə təşkilatçısı professor Əziz Əliyevin Bakıda, Cənubi Azərbaycanda, Dağıstanda, Moskvada yaşadığı illərdə dostluq etdiyi Azərbaycanın və o vaxtki SSRİ-nin tanınmış ziyalıları, elm və mədəniyyət xadimlərinin təsiri ilə daha da zənginləşmişdir.

Burada Əziz Əliyevin 100 illik yubileyinə həsr edilmiş təntənəli gecədə ümummilli lider Heydər Əliyevin nitqindəki fikirləri xatırlatmaq yerinə düşərdi: "Bütün tibb professorları onun dostları idi. Onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı."

Akademik Zərifə xanımın həkimlik sənətini seçməsi də ailə ənənəsi ilə əlaqədar olmuşdur. Atası Əziz Əliyev, əmisi Ziyad Əliyev, qardaşları Tamerlan və Cəmil, bacısı Ləzifə xanım ilə yanaşı, bibiləri Göyçək xanım, Şamama xanım Ələsgərovalar, bibisi oğlanları Qurban Əliyev (o, uzun illər respublikamızın ali və orta ixtisas təhsili naziri olmuşdur), Yusif Əliyev görkəmli həkim, səhiyyə təşkilatçısı və tibb alimləri olmuşlar.

Atalarının həkim və böyük səhiyyə təşkilatçısı olması, ailədəki nüfuzu övladlarının peşə seçimində mühüm rol oynadı. Qardaşları Tamerlan və Cəmil də həkim oldular. Zərifə xanımın böyük qardaşı Tamerlan Əliyev (1921-1997) respublikamızın ən yaxşı endokrinoloqlarından biri idi. Atasının yoluna sadiq qaldı, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor kimi adlar aldı. Görkəmli alim 250-dən çox elmi əsərin, 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifi idi.

Zərifə xanımın tələbəlik və gənclik illəri ağır müharibə dövrünə düşsə də, onun atasının yüksək dövlət vəzifələrində çalışması, heç şübhəsiz ki, bu ailənin üzvlərinin statusu başqalarından fərqlənmir, bu üstünlüyü hiss etdirmir, bəlkə heç özü də hiss etmirdi. Onun tələbə yoldaşlarının çoxsaylı xatirələri bunu söyləməyə əsas verir. Səbəb isə çox sadə idi. Əsilzadə nəcabəti, ailə tərbiyəsi və şəxsi keyfiyyətlər. Məhz bu xarakter Zərifə xanımın bütün həyatı boyu onu müşayiət etdi, onu milyonlarla insana sevdirdi. Əbəs yerə demirlər ki, insanın böyüklüyü onun sadəliyindədir. Təbib, müəllim, alim, ictimai xadim kimi qazandığı şöhrətinin ən yüksək zirvədə olduğu vaxtlarda da akademik Zərifə xanım Əliyeva belə də qaldı: qayğıkeş, mehriban, gülərüz, xeyirxah…

İnsan ətraf mühitdən qəbul etdiyi informasiyanın 80 faizini görmə orqanı – gözləri vasitəsilə alır. Buna görə də göz insanın duyğu orqanlarının ən əhəmiyyətlisidir. İşığı sönmüş gözlərə nur vermək Günəşin Yer üzünü işıqlandırması qədər müqəddəs bir işdir. Məhz akademik Zərifə xanım Əliyeva öz həkimlik fəaliyyəti boyu minlərlə sadə insana bu səadəti bəxş edib, təmənnasız böyük bir insan xeyirxahlığı, həkim qayğıkeşliyi ilə… Onu da qeyd edək ki, bəzən qısa müddətdə bütöv ailələri dünya işığından məhrum edən bu xəstəliklə mübarizə tarixində Zərifə xanım Əliyevanın adı qızıl hərflərlə yazılmışdır.

1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu əla qiymətlərlə bitirən Zərifə Əliyeva daha artıq praktik biliklərə yiyələnmək üçün Moskvaya – Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna getdi. Bu gedişin daha bir məqsədi var idi: Azərbaycanı bürümüş traxoma epidemiyası! Ölkəyə məhz bu yöndə ixtisaslı həkimlər çox lazım idi. Zərifə xanım isə ümumi müalicə fakültəsini bitirmişdi. Göz xəstəlikləri üzrə ixtisaslaşmaq üçün mütləq əlavə təhsil zəruri idi. Həm də göz viruslarının regional fərdiliyi də var idi və infeksiya ilə mübarizə həm də bu fərdiliyi fundamental şəkildə öyrənməyi tələb edirdi. Zərifə xanım məhz bunu qarşıya məqsəd qoydu.

Odur ki, yenə oxumaq və öyrənmək lazım idi, elmin zəhmət tələb edən qapısından keçmək, nur elmi olan oftalmologiyaya dərindən yiyələnmək lazım idi. Xəstəyə diaqnoz qoymaq, xəstədə inam yaratmaq üçün iki min ilə yaxın tarixi olan bu elmi dərindən öyrənmək zəruri idi. Zərifə xanım həkimliyin bu sirlərini cavan yaşından dərk etmişdi.

1947-ci ilin Moskvası gənc mütəxəssis üçün yeni bir aləm oldu. Bəzi problemlər Bakıdakı kimi idi, məsələn, müharibədən qalmış yoxsulluq və qıtlıq, əlillərin sayının çoxluğu. İnsanların əksəriyyəti cəbhədən gəldikləri geyimdə idilər. Çünki həm təzə libas yox idi, həm də almaq üçün vəsait. Yoxsulluq hər addımda görünürdü. Amma bu, bədbinlik yaratmırdı. Müharibədən sonra insanlarda daha böyük həyat eşqi vardı. Hər yanda tikinti və bərpa işləri gedirdi. Moskva Zərifə xanım kimi gəlmələrlə dolu idi. Böyük, ucsuz-bucaqsız ölkənin hər yerindən bura təhsil almağa gəlmişdilər. Ölkədə müasir biliklərin əhəmiyyəti düzgün təyin edilmişdi. İnsanlar metroda belə, əli kitablı idilər, fürsət düşən kimi hamı kitab oxuyurdu. Ən başlıcası, insanlar arasında səmimiyyət, sabaha inam və ümid var idi. Müharibədən qalib çıxmış ölkədə belə də olmalı idi.

Zərifə xanımın qəlbinə sadə ailələrdən çıxmış gənclər daha yaxın idi. Onlarla daha tez ünsiyyət bağlayır, dostlaşır və rəfiqə olurdu. Moskvada Zərifə xanım o dövrün məşhur tibb alimləri ilə tanış oldu. Bir də göz cərrahiyyəsinin sürətli inkişafı onun nəzərindən yayınmadı. Müharibə tibbin cərrahiyyə sahəsinə böyük təkan vermişdi, ağlasığmaz əməliyyatlar həyata keçirilirdi. Professorlardan biri demişdi ki, cərrahiyyə – müharibələrdən doğmadır. Həqiqətən müharibədən sonra tibbin, xüsusilə cərrahiyyənin misilsiz inkişaf etməsi bunun əyani təsdiqi idi.

Zərifə xanım Moskvada iki il yaşadı, elmi işçi kimi püxtələşdi. Özünə elmi mühitdə çoxlu dost tapdı, onlara bağlandı, bəziləri ilə sonralar müştərək tədqiqatlar apardı, kitablar çap etdirdi. Belə dostların əksəriyyəti sonralar onun elmi işlərinin rəyçiləri və opponentləri oldular, onun barəsində məqalələr və səmimiyyət dolu xatirələr yazdılar. Məhz Moskvada Zərifə xanım həyatın və elmin çətin yoluna çıxdı. Bu, böyük həyat, fasiləsiz yüksəliş yolu idi.

1949-cu ildə Bakıya qayıdanda o, artıq yüksək ixtisaslı göz həkimi idi. Onu Elmi-Tədqiqat Oftalmologiya İnstitutuna elmi işçi göndərdilər. Bu, ürəyincə oldu. Azərbaycanda traxoma virusunun qarşısını almaq və sonra isə onun kökünü kəsmək, həm praktik, həm də fundamental araşdırmaların kəsişdiyi yerdə həyata keçə bilərdi.

Zərifə xanım həkimlik və alimlik fəaliyyətini daha çox ictimai əhəmiyyətli göz xəstəliklərinin müalicə və profilaktikasına həsr etmişdir. Zərifə xanımın doktorluq dissertasiyası isə artıq sənayesi sürətlə inkişaf edən Azərbaycanda gözün yeni bir spesifik xəstəliyinə – peşə xəstəliyinə həsr edilmişdir. Ötən əsrin 60-70-ci illərində Bakı və Sumqayıt regionun ən böyük sənaye mərkəzlərinə çevrilmişdi, burada onlarca neft, maşınqayırma, kimya zavodları fəaliyyət göstərirdi. Bu zavodlarda istehsal edilən, istifadə olunan müxtəlif kimyəvi maddələrin gözə təsirinin öyrənilməsi, qarşısının alınması və müalicəsi sahəsində o vaxtki SSRİ miqyasında ilk öncüllərdən biri, bəlkə də birincisi Zərifə xanım olmuşdur.

1979-cu ildə SSRİ miqyasında görkəmli oftalmoloq kimi tanınan alimin həyatında yeni əlamətdar hadisə baş verdi. Zərifə xanımın təşəbbüsü ilə Elmlər Akademiyasının Ə.Qarayev adına Fiziologiya İnstitutunda Azərbaycanda ilk dəfə professional göz xəstəliklərini öyrənən laboratoriya açıldı və Zərifə xanım onun rəhbəri oldu. Əslində, bu, dünya şöhrətli alimin elmi məktəbi idi. Bu dövrdə onun şin və yod istehsalında göz patologiyasına həsr olunmuş iki monoqrafiyası çıxdı və yüksək qiymətlər aldı. Alim virus mənşəli göz xəstəlikləri barədə də qiymətli əsərlər yazdı. Həmçinin göz cərrahiyyəsi, həkim etikası, gənc kadrların hazırlığı ilə bağlı problemlər onu ömrü boyu narahat edir, bu mövzularda dəyərli əsərlərin yaradılması ilə nəticələnirdi. 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçildi. Bu, onun elmə verdiyi töhfələrin təsdiqi idi.

Yeri gəlmişkən, onu da qeyd etmək istəyirəm ki, müasir Azərbaycan oftalmologiyasının inkişafının əsasını qoyanlardan biri də akademik Zərifə xanım Əliyevadır. Milli Oftalmologiya Mərkəzinin binasının tikilməsinin, regionlarda filialların inşası və müasir tibbi avadanlıqla təmin edilməsinin, yüksəkixtisaslı yeni nəsil oftalmoloqların yetişdirilməsinin… təşəbbüskarı məhz Zərifə xanım olmuşdur.

Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuşdur. Apardığı tədqiqatların nəticəsi olaraq “Göz yaşının axmasının fiziologiyası”, “Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri”, “Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti” və s. kimi onlarla elmi məqalə və monoqrafiyalar çap etdirmişdir.

Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin “Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti” mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil edib. 1976-cı ildə Q.Helmholts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndirdilər.

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına Mükafatına layiq görülmüşdür. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşmüşdür. Akademik Zərifə Əliyevanın elmi-tədqiqat işlərinin bir qismi qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun “Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası”, “Yaşla bağlı gözün əsəb yollarının dəyişilməsi” və digər monoqrafiyaları göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi” və digər monoqrafiyaları isə daktriologiyaya həsr edilmişdir. Z.Əliyevanın digər müəlliflərlə birgə qələmə aldığı fundamental “Terapevtik oftalmologiya”, “Oftalmologiyanın aktual məsələləri”, “İridodiaqnostikanın əsasları” və sair kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdəndir.

Olduqca humanist və qayğıkeş insan olan Zərifə xanımı həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin peşə etikasının düzgün formalaşmasına, tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə həmişə böyük önəm vermişdir. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, “Yüksək etimad” kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir.

Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: “Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir”.

Akademik Zərifə Əliyeva səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə xüsusi həssaslıqla yanaşırdı. Onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Onun həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Özünün zəngin tibb təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin "sözlə" müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmannasızlıq təşkil edir.

Akademik Zərifə Əliyeva 150-dən artıq elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitinin müəllifidir. O, onlarca elmlər doktorunun və elmlər namizədinin elmi rəhbəri olmuşdur. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi tutarlı nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. O, həmçinin çoxillik elmi, pedaqoji, müalicəvi, ictimai fəaliyyəti nəticəsində qazandığı uğurlara görə bir sıra orden və medallarla, fəxri fərmanlarla təltif edilmişdir.

Bəlkə də bəşər tarixində nadir şəxslərə qismət olmuşdur ki, dövlət xadiminin övladı, həyat yoldaşı və anası kimi şöhrətin ən uca mərtəbəsinə yüksəlsin, lakin özünün qazandığı insanlıq zirvəsini bütün şan-şöhrətlərdən ucada tuta bilsin. Ümummilli lider Heydər Əliyev dünyasını vaxtsız dəyişən ömür-gün yoldaşını həmişə böyük məhəbbətlə və ehtiramla xatırlayırdı: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla ailə həyatı quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür. Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib".

Ulu öndər Heydər Əliyev xatirələrində deyirdi ki, mən Zərifə xanım kimi həyat yoldaşımın olması ilə xoşbəxt idim. Bu qibtə doğuracaq bir etiraf idi! Üç böyük tarixi şəxsiyyətin həyatında izi olan Zərifə xanım həm də ailə və övlad dəyərləri ilə yaşadı. Bir də insanlara dünya işığı verən həkim sənətini davam etdirdi, tədqiqatlar apardı. Haqqında oxuduğum sənəd və xatirələrin, məqalə və yazıların hamısında onun sadəliyi, xalq ruhuna və dəyərlərinə bağlılığı barədə heyranlıqla danışılır. Elmi mövqeyinə görə söz və nüfuz sahibi olan məsum insan həmişə öz daxili xarakterinə, tərbiyə aldığı ailədən əxz etdiyi dəyərlərə sadiq qaldı. Sevindirici haldır ki, görkəmli alimin mənəvi və irsi davamçıları onun işlərini, arzu və ideallarını uğurla davam etdirirlər.

İnsan nə qədər xatırlanırsa, o qədər də yaşayır. Zərifə xanım kimi insanlara nur bəxş edən alim, xoş əməl sahibi olan şəxsiyyətlər heç zaman unudulmur. Onun davamçıları bu gün də akademikin irsindən faydalanırlar.

**Xalq qəzeti.**-2019.-28 aprel.-№92.-S.3.

## Mənəvi ucalığın zirvəsində dayanan alim

**Nazim Qasımov**,
Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor

Akademik Zərifə xanım Əliyeva təkrarsız bir insan idi. Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də hər kəsə yalnız nur bəxş edirdi. Zərifə xanımın təbib əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir və onu tanıyan adamların mənəvi dünyasına daim işıq salır.

**Ailə dəyərlərinə sadiqlik**

Akademik Zərifə Əliyeva mühazirələrində həmişə deyirdi ki, işıq zülmətin, fəna və heçliyin qənimidir. O, xeyrin, həqiqətin, düzgünlüyün xidmətində dayanmağı özünə bir ömürlük missiya kimi müəyyənləşdirmiş, həyatını dünyamıza düşən işığın haləsini genişləndirməklə, hər kəsi gələcəyə ümidləndirməklə, sülh naminə çalışmaqla keçirmişdir. Ona görə də akademik Zərifə Əliyeva bir meyardır. Qismətinə düşən ömür payına bütöv bir tarix kimi yanaşan və bu ömrü tarix kimi yaşayan böyük şəxsiyyətlər kimi…

Zərifə xanım ziyalı bir ailə mühitində – görkəmli dövlət xadimi, Azərbaycanın böyük səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində anadan olmuşdur. Bu böyük insanın əksər xüsusiyyətləri qızı Zərifə xanımın xarakterində öz əksini tapmışdır. Ən yüksək keyfiyyətlər – səmimiyyət, alicənablıq, qayğıkeşlik, birinci növbədə özünə, daha sonra ətrafdakılara qarşı tələbkarlıq, sözü ilə işinin birliyi, vətənpərvərlik, xalqına, torpağına sönməz məhəbbət bu zərif ziyalı xanıma xas cəhətlər idi.

Zərifə xanım Əliyeva Tibb İnstitutunu bitirdikdən və Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçdikdən sonra 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda fəaliyyətə başlamışdır. Ordinatorluqdan baş elmi işçiyə qədər yaradıcılıq yolu keçərək o, əsl mütəxəssis kimi formalaşmışdır. Elmi fəaliyyətinin ilk dövründə Zərifə Əliyeva traxomanın erkən diaqnostikası, müalicəsi və profilaktikasına dair aktual elmi araşdırmalar aparmışdır. Namizədlik dissertasiyasında əksini tapmış bu axtarışların nəinki elmi, həmçinin böyük praktik əhəmiyyəti vardır. Minlərlə insanın korluqdan xilas olaraq ictimai faydalı əməyə qayıtmasını mümkün edən həmin elmi tədqiqatlar dövrün ən sanballı, böyük nailiyyətləri idi. Beləliklə, Azərbaycanda traxoma xəstəliyinin ləğvinə yönəldilmiş kompleks tibbi tədbirlər məhz Zərifə Əliyevaya məxsusdur. Malyariya və traxomaya qarşı fədakar mübarizə aparan Əziz Əliyev estafeti qızına vermişdi. Fundamental elmi axtarışlardan maksimum praktik nəticə əldə etmək xüsusiyyəti gənc həkimin sonrakı işləri üçün də xarakterik olmuşdu.

Zərifə xanımın fəaliyyəti tibb elminin nailiyyətlərinin oftalmologiyada tətbiqinə yönəlmişdir. Bununla yanaşı, o, həmişə oftalmologiyada kliniki istiqamətin tərəfdarı olmuşdur.

**O, elmin zəhmət tələb edən qapısından keçmişdi**

Alim ötən əsrin 60-cı illərində dünya təcrübəsində birincilər sırasında görmə üzvünün peşə xəstəlikləri problemi üzrə geniş elmi axtarışlara başlamışdır. Sənaye zərərlərinin görmə orqanına toksik təsirinin öyrənilməsinə bir sıra elmi əsərlər həsr edilsə də, kimya istehsalının müxtəlif inqrediyentlərinin görmə orqanına təsiri az işıqlandırılmışdır. Bu sahələrlə əlaqədar peşə xəstəlikləri xüsusilə az öyrənilmişdi. Halbuki kimyəvi inqrediyentlərin müxtəlif kombinasiyaları insan orqanizminə və əsasən görmə orqanına daha çox zərərli təsir göstərir. Kimyəvi maddələrin uzunmüddətli kompleks təsiri nəticəsində orqanlarda distrofik, proliferativ proseslər əmələ gəlir. Bir çox inkişaf etmiş ölkələrdə şin və yod istehsalı yüksək səviyyədə olsa da, bu sahələrdə istehsal tullantılarının görmə orqanına toksik təsirinin öyrənilməsinə aid müfəssəl işlər yox idi.

Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının əsas istiqamətlərindən biri də məhz yod və şin sənayesinin zərərli təsirlərindən gözün zədələnməsinin öyrənilməsi olmuşdur. Dünyada bu fundamental tədqiqatın analoqu yoxdur. Həmin problem üzrə Zərifə Əliyevanın elmi tədqiqatlarının nəticələri haqqında dərc olunmuş 30-dan çox elmi işdə tetraxloretilen, pestisid, stirol buxarlarının orqanizmə xroniki təsiri zamanı görmə üzvünün və onun funksiyalarının vəziyyəti əks etdirilir. Məhz bu dövrdən başlayaraq alimin elmi axtarışlarının əsas mövzusu Azərbaycanın kimya sənayesinin bəzi sahələrində çalışan fəhlələrin görmə orqanının vəziyyətini tədqiq etmək olmuşdur.

Zərifə xanım əldə olunmuş nəticələrlə kifayətlənməyərək tədqiqatların mövzusunu daha da dərinləşdirmiş və dünyada ilk dəfə görmə orqanına müxtəlif peşə amillərinin təsirini aşkar etmişdir. Alim apardığı elmi axtarışların nəticələrini mütəmadi olaraq tələbələri ilə təhlil edərək onları elmi məqalə, məruzə və metodik tövsiyə formasında nəşr etdirirdi.

Aparılmış fundamental elmi işlərin nəticələri Zərifə xanımın 1976-cı ildə Helmqolts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil edirdi. Bu məşhur institutun görkəmli alimləri və ixtisaslaşmış şuranın üzvləri işə yüksək qiymət verməklə çoxillik tədqiqatların nəticələrini monoqrafiya, dərs vəsaiti və metodik tövsiyə şəklində çap etdirməyi məsləhət görürlər.

Yaradıcılıq uzaqgörənliyi və həyatın nəbzini düzgün tutmaq bacarığı görkəmli alimə dünya praktikasında ilk dəfə olaraq istehsalat şəraitində – Bakı Məişət Kondisionerləri Zavodunun sexlərində elmi-tədqiqat laboratoriyasını yaratmağa imkan verdi. Bu laboratoriya elmi axtarışlar aparmaqla yanaşı görmə orqanı xəstəliklərinin erkən aşkar olunmasında və müalicəsində böyük rol oynayırdı. Bu laboratoriyanın topladığı elmi materiallar Zərifə Əliyevanın üç tələbəsinin namizədlik dissertasiyasının mövzusunu təşkil edirdi. Alimin elmi fəaliyyətinin çoxistiqamətliyini onun rəhbərlik etdiyi kafedra və elmi-tədqiqat laboratoriyasının müasir oftalmologiyanın aktual problemlərinə həsr edilmiş müxtəlif tədqiqatları sübut edir.

**Axtarışlar, yeni üfüqlər…**

Zərifə xanım elmi axtarışlarda müəyyən qanunauyğunluğa riayət edirdi. O deyərdi: "Tədqiqatları təkmilləşdirməklə biz daha bir pillə yüksəlir və qarşımızda yeni geniş üfüqlər açılır". Zərifə xanım hərbi-səhra cərrahı N.İ.Piroqovun sözlərini tez-tez tələbələrinə xatırladırdı: "Elmi axtarışlarda istiqamət və metod – ən əsasdır. Düzgün üsulları və istiqaməti tapmadan çox vaxt itirməklə özün də çaşırsan".

Elmi ədəbiyyatla gözəl davranan Zərifə Əliyeva kafedra və elmi-tədqiqat laboratoriyasında elmi axtarışlarını səylə aparırdı. Buna səbəb Zərifə xanımın yüksək erudisiyası, çalışmaq mədəniyyəti, çox dəqiq məqsədyönlülüyü və prinsipiallığı idi. O, məlum hadisələri yeni baxımdan görmək qabiliyyətinə malik idi. Məhz alimin şəxsiyyətinin bu xüsusiyyətləri onun orijinal klinik və elmi fəaliyyətini müəyyən edirdi. Zərifə xanımı həkimlərin mənəvi tərbiyəsi, tibbi etika və deontologiyası da düşündürürdü. Bu sahəyə "Yüksək istedad" adlı monoqrafiyasını həsr etmişdi. Öz mühazirələrində Zərifə xanım Əliyeva təkmilləşmə kursları dinləyicilərinə həkimlik deontologiyası barədə belə deyirdi: "Xəstə sənin əlini sıxıb səmimi qəlbdən "Həkim, çox sağ ol!" deyəndə öz elminin nailiyyətinə sevin". O, elmi və elmi-pedaqoji kadrların hazırlanması və tədqiqatların aparılması üçün kafedra və laboratoriyanın təchizatına böyük diqqət verirdi. Çox qısa vaxtda kafedra və laboratoriyanın maddi-texniki bazasını zənginləşdirmişdi.

Akademikin və tələbələrinin apardığı çoxşaxəli elmi tədqiqatların və bu oftalmoloji məktəbin ümumi cəhəti onun klinik-eksperimental istiqaməti idi. Görmə orqanının peşə patalogiyası sahəsində çoxsaylı işlərində Zərifə xanım qeyd edirdi ki, elmi problemlərin işlənməsi nəinki xəstənin ciddi müayinə və müşahidəsindən, həmçinin fiziki amillərin, orqanizmin fizioloji statusunun, biokimyəvi və mübadilə proseslərinin, ətraf mühit amillərinin təsirinin tədqiqindən asılıdır. Bir amil şübhəsizdir: Zərifə xanım öyrənilən prosesin dərinliyini aşkar etməyə, şəxsi fikir və mülahizələrin yaranmasına böyük diqqət verirdi.

Görkəmli həkim Zərifə Əliyeva və onun yetirmələrinin elmi fəaliyyətlərinin xüsusiyyətini əməkdaşların möhkəm nəzəri hazırlığı üzərində qurulan klinik təcrübə təşkil edirdi. Onun çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiya, 160-dan çox elmi iş, bir ixtira və 12 səmərələşdirici təklifdə öz əksini tapır. Belə çoxşaxəli axtarışları aparmaq məhz Zərifə Əliyeva kimi böyük alimə qismət ola bilər. Məsələ yalnız göz xəstəliklərinin müxtəlif bölmələrini əhatə edən elmi işlərdən deyil, problemin həllinə xüsusi yanaşmadan ibarətdir. Bu xüsusiyyət Zərifə xanımın aktiv surətdə inkişaf etdirdiyi yaradıcılıq birliyini əks etdirən faktlarda sübutunu tapır. Mübaliğəsiz demək olar ki, 1970-1985-ci illərdə oftalmologiya sahəsində aparılan birgə yaradıcı axtarışların əsası Zərifə xanım tərəfindən qoyulmuşdur. Buna ll Moskva Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri, Rusiya Tibb Elmləri Akademiyasının akademiki, professor A.P.Nesterov, Rusiya Diplomdansonrakı Təhsil Akademiyasının Oftalmologiya kafedrasının müdiri professor L.K.Moşetova, Rusiya İridoloqlar Assosiasiyasının vitse-prezidenti, Rusiyanın əməkdar elm xadimi, professor N.B.Şulpina və digər görkəmli alim-oftalmoloqlarla yaradılan elmi əlaqələr canlı sübutdur.

Oftalmologiyanın mühüm problemləri üzrə kompleks tədqiqatlar və nəşrlər öz qiymətli nəticələrini verməklə yanaşı, müasir dövrə qədər davam edən birgə əməkdaşlığın əsasını qoydu.

Yeri gəlmişkən qeyd etmək istərdim ki, Zərifə xanım elmi əməkdaşların – klinisistlərin müasir müayinələrə yiyələnməsinə ciddi fikir verməklə yanaşı, həkimlərdə klinik müşahidə və klinik analizi ön plana çəkirdi.

Alim-oftalmoloqların formalaşması və əməkdaşlığı sahəsində mühüm rolu 1977-ci ildə Zərifə xanımın təşəbbüsü ilə keçirilən Oftalmoloqların Ümumittifaq Elmi Cəmiyyətinin plenumunun keçirilməsi oynadı. Bu yüksəksəviyyəli forumda oftalmologiyanın aktual problemlərinin kompleks öyrənilməsi geniş müzakirə olundu. Plenum təbabətin bu sahəsinin təşkili və inkişafında, həmçinin elmi-pedaqoji kadrların hazırlanmasında mühüm yer tutdu.

**Tədqiqatları məşhur alimlər tərəfindən yüksək qiymətləndirilirdi**

Zərifə Əliyevanın əmək fəaliyyətinin böyük bir hissəsi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu ilə bağlıdır.

1977-ci ildə tibb elmləri doktoru Zərifə Əliyeva Əziz Əliyev adına Az.DHTİ Göz xəstəlikləri kafedrasının professoru seçilir, pedaqoji işlə bərabər daha effektli elmi-tədqiqat işinin təşkilinə böyük enerji ilə başlayır. 1974-cü ildə "Gözün herpetik xəstəliyi" və "Kəskin virus konyunktivitləri" əsərləri həkimlər üçün dərs vəsaiti kimi dərc olunmuşdur. 1980-ci ildə isə alim tərəfindən "Rezin istehsalında gözün peşə xəstəliyi", "Gözün hidrodinamik

sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri" və 1981-ci ildə "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" adlı monoqrafiyaları dərc olunmuşdur.

1980-ci ildə professor Zərifə Əliyevaya xidmətlərinə və elmi pedaqoji kadrların hazırlanmasına görə "Azərbaycanın əməkdar elm xadimi" fəxri adı verilmişdir. 1981-ci ildə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işlərinə, o cümlədən "Rezin istehsalında gözün peşə patologiyası" monoqrafiyasına görə SSRİ Elmlər Akademiyası tərəfindən Zərifə Əliyeva akademik M.İ.Averbax adına mükafata layiq görülmüşdü. 1982-ci ildə professor Əziz Əliyev adına Az.DHTİ-nin Oftalmologiya kafedrasına müdir seçilmişdi. Bu dövrdə onun elmi fikirləri və kompleks elmi tədqiqatları daha geniş vüsət alır. Alimin rəhbərlik etdiyi kafedra və klinika oftalmologiyanın aktual problemlərinin, xəstənin müasir klinik müayinə üsullarının işlənib hazırlanması üzrə Azərbaycanın aparıcı mərkəzinə çevrilir.

Zərifə Əliyevanın klinikası və kafedrası ilə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun digər profilli kafedra və klinikalarının, həm də Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun kollektivləri arasında elmi yaradıcılıq əlaqələri daha da genişlənir. Akademikin məktəbinin yetirmələri və davamçıları olan, kafedranın və görmə üzvünün fiziologiyası və peşə patologiyası elmi-tədqiqat laboratoriyasının bütün əməkdaşları elmi yaradıcılıqlarının rəngarəngliyi ilə özlərini istedadlı həmfikirlər kimi göstərirlər.

Professor Zərifə Əliyeva gözəl mühazirəçi idi. Onun məruzələri, çıxışları həmişə yeniliyi və orijinallığı ilə diqqəti cəlb etmişdir. O, böyük həvəslə öz biliyini gənc həkimlərə və elmi işçilərə vermişdir.

Zərifə xanımın praktik həkimlik fəaliyyəti xüsusi qeyd olunmalıdır. O, həmişə əməkdaşlarından xəstələrə böyük məhəbbət və hörmət göstərməyi tələb edirdi, çox vaxt təkrar edirdi: "Müalicə həkimi xəstənin ən doğma adamıdır".

Akademik Zərifə xanımın rəhbərliyi ilə keçirilən həkimlərin səhər konfransları həqiqi məktəb idi və həmişə canlı, dolğun və əhatəli olurdu. Müalicə həkiminin xəstə haqqında çıxışı çox vaxt auditoriya qarşısında imtahana çevrilirdi. Onun tərəfindən həyata keçirilən kliniki araşdırmalar, konsultasiyalar, xəstələrə baxışlar oftalmoloq-həkimlərin ixtisasının artırılmasında və tibbi davranışında böyük rol oynayırdı.

1982-ci ildə professor Zərifə Əliyevanın Moskva alimləri ilə əməkdaşlığı sayəsində "İridodiaqnostikanın əsasları" və "Şəkərli diabet zamanı göz xəstəlikləri" kimi nəhəng elmi işləri çapdan çıxdı.

Professorun dərin elmi-pedaqoji və kliniki təcrübəsi 1983-cü ildə "Oftalmologiyanın aktual problemləri" əsərinin nəşr olunmasına imkan verdi. Bu kitab da, "Terapevtik oftalmologiya" kimi, Tibb və Həkimləri Təkmilləşdirmə İnstitutunun müəllimlərinin və praktik həkimlərin stolüstü kitabına çevrildi.

Zərifə Əliyevanın tibb elmindəki böyük xidmətləri yüksək qiymətləndirilir və o, 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilir.

**O, tibb elminin və səhiyyənin ön sıralarında idi**

Akademik Zərifə Əliyeva ömrü boyu tibb elminin və səhiyyənin ön sıralarında olmuş, bütün varlığı ilə xalqının yüksəlişinə can atmışdır. İnsanlara böyük qayğı və diqqətlə yanaşmışdır. O, Oftalmoloqların Ümumittifaq Elmi Cəmiyyətinin və Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü və Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini olmuşdur. "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinə daxil idi.

Akademik Zərifə Əliyevanın birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Böyük alim heç zaman gərgin işdən usanmamış, ürəklə çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiyyəti və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Əziz Əliyev adına Az.DHTİ-nin professor-müəllim heyəti minnətdarlıq hissi ilə Zərifə Əliyevanın xatirəsini daim yad edir. O öz yaradıcılıq enerjisi ilə instituta hərarət vermiş və onun sonrakı inkişafını müəyyən etmişdir. Zərifə xanım Əliyeva yaradıcı insan idi. Bu böyük şəxsiyyətin xəstələrinə məhəbbəti sonsuz idi.

Akademik Zərifə Əliyeva xidmətlərinə görə bir sıra orden və medallarla təltif edilmişdir. O, tarixə istedadlı alim, elm təşkilatçısı, eyni zamanda, gözəl pedaqoq və yeni alimlər nəslinin ustadı kimi daxil olmuşdur. Azərbaycanda aparıcı oftalmoloji məktəblərdən birini o yaratmışdır. Minlərlə həkim onun rəhbərliyi altında insanlara sağlamlıq və yaradıcı əmək sevincini bəxş etməyi öyrənmişdi.

Ulu öndər Heydər Əliyev xatirələrində deyirdi ki, mən Zərifə xanım kimi həyat yoldaşımın olması ilə xoşbəxt idim. Bu, qibtə doğuracaq bir etiraf idi! Zərifə xanım insanlara dünya işığı verən həkim sənətini davam etdirməklə, böyük tədqiqatlar aparmaqla yanaşı, çox böyük ailə və övlad dəyərləri ilə yaşamışdı. Xatirələr, məqalə və yazıların hamısında onun sadəliyi, xalq ruhuna və dəyərlərinə bağlılığı barədə heyranlıqla danışılır. Bu gün görkəmli alimin davamçıları onun işlərini, arzu və ideallarını uğurla davam etdirirlər.

**Azərbaycan.**-2019.-28 aprel.-№92.-S.1,3.

## İnsanlara sevgi ilə keçən mənalı ömür yolu

***Bu gün dünya şöhrətli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümüdür***

**Mübariz Abdullayev**

***Sadə insan, böyük ictimai xadim və görkəmli alim Zərifə xanım Əliyevanın ömür yoluna nəzər salıb bu barədə yazı hazırlamaq həm asandır, həm də çətindir. Asandır ona görə ki, bu işıqlı şəxsiyyətin həyatı zəngin və bənzərsizdir. Onun ömür yoluna, xalqına, Vətəninə, insanlara həsr olunan fəaliyyətinə aid ibrətamiz faktlar istənilən yazı üçün geniş və cəlbedici mövzu ola bilər. Zərifə xanım Əliyeva barədə yazı yazmaq ona görə çətindir ki, o, uca zirvədə dayanan bir şəxsiyyətdir. Bu böyük və işıqlı insan haqqında yazılan hər yazı onun portretinin heyrətamiz ştrixlərini əhatə etməli, çoxşaxəli fəaliyyətinin miqyasına uyğun gəlməlidir.***

**Şəcərədən gələn alicənablıq**

Zərifə xanım Əliyeva bahar təravətli apreldə dünyaya gəlib. Burada həm də bir möcüzəli, sirli-sehrli harmoniya var. Zərifə xanımın alicənab təbiəti elə idi ki, o, ünsiyyətdə olduğu bütün insanlara xoş ovqat bəxş edirdi. Ətrafındakılar ondan həmişə müsbət enerji alırdılar.

Təbii ki, Zərifə xanımın bu qayğıkeşliyi, həssaslığı, alicənablığı təsadüfi deyildi, insanın əhatə olunduğu mühit, təmas qurduğu insanlar onun formalaşmasına təsir edən çox mühüm faktorlardır. Eyni zamanda, gen amili insanın yalnız fiziki görünüşündə üzə çıxmır, həm də onun xarakter xüsusiyyətlərində təzahür edir.

Zərifə xanım 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Atasının ömür yolu onun üçün əsl həyat məktəbinə çevrilib. Azərbaycanın görkəmli simalarından olan Əziz Əliyevin ailəsi barədə geniş söhbət açmağa lüzum yoxdur. Xeyirxahlıq, nəciblik kimi xüsusiyyətlər və milli dəyərlərə böyük önəm verilməsi, necə deyərlər, bu ailənin təməl prinsipləri idi. Yox, bu kimi keyfiyyətləri ailə üzvlərinə kim isə kənardan xüsusi olaraq aşılamırdı, sadəcə, ailədə götür-qoy belə idi, ailə üzvləri arasında münasibətlər belə qurulmuşdu və hamı da qeyd olunan keyfiyyətləri özü üçün sövqi-təbii olaraq bir çərçivə sanırdı. Ailəni Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri – Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və digərləri ilə sıx əlaqələr bağlayırdı. Əziz Əliyevin evi bu görkəmli simalar üçün bir növ ocaq yerinə çevrilmişdi. Onlar tez-tez bura yığışır, saatlarla müzakirələr aparır, fikirlərini bölüşür, xalqın inkişafı, maariflənməsi ilə bağlı yeni ideyalar irəli sürürdülər. Azərbaycanın görkəmli şəxsiyyətlərinin bu ailə ilə dostluğu və mənəvi yaxınlığı Əziz müəllimin uşaqlarının tərbiyəsinə, dünyagörüşünə müsbət təsir göstərib, onların yaddaşında silinməz izlər qoyub.

Zərifə xanım Əliyeva məhz belə bir mühitdə tərbiyə alır və böyüyürdü. Yetişdiyi mühit, şəcərədən gələn xüsusiyyətlər onda möhkəm iradə, eyni zamanda, nəciblik və xeyirxahlıq formalaşdırdı. Onun ailədə də, cəmiyyətdə də davranışlarında, ünsiyyətlərində diqqəti cəlb edən və ona qarşı dərin rəğbət oyadan bir kübarlıq var idi. Bu böyük insan üçün sanki doğma və ögey anlayışları yox idi. O, öz övladlarına, yaxınlarına olduğu kimi, təmas qurduğu digər bütün insanlara da son dərəcə qayğı və xeyirxahlıqla yanaşırdı. Onun çevrəsində daim mehriban, xoş ünsiyyət yaranırdı. Zərifə xanımı bir dəfə görmək və tanımaq kifayət idi.

Zərifə xanımın əziz xatirəsinin uzun illərdən sonra da insanların qəlbində yaşaması da elə bununla bağlıdır. Görkəmli alim az yaşayıb. O, 1985-ci il aprelin 15-də Moskvada vəfat edib. Lakin illər ötsə də, Zərifə xanımın nurani çöhrəsi, işıqlı xatirələri insanlardan uzaqlaşmır. Əksinə, onun yeri daha aydın görünür, xidmətləri daha dərindən və daha geniş miqyasda dərk olunur. Zərifə xanım haqqında xoş xatirələri anarkən düşünürsən ki, dünyamızın belə xeyirxah insanlara böyük ehtiyacı var.

**İnsanlara sevgi Zərifə xanım Əliyevanın həyatını həkimliyə bağladı**

İnsanlara olan sevgi hissi Zərifə xanım Əliyevanın həyat yolunun müəyyənləşməsində də əsas oldu. O, qəlbinin hərarətini ehtiyacı olan insanlara ötürmək üçün həkim olmağı qərarlaşdırdı. Həm də onun gözləri önündə canlı nümunə var idi – atası Əziz Əliyev həkim idi.

Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. O zaman bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə isə nəinki oftalmologiya elmi üçün, hətta bütünlükdə Azərbaycan Respublikası üçün mühüm məsələyə çevrilmişdi. Göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini məhz traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib. Zərifə xanım nəzəri axtarışları ilə yanaşı, praktiki fəaliyyətini də geniş miqyasda davam

etdirirdi. O, Azərbaycanın böyük tibb müəssisələrinə, eiəcə də respublikamızın ən çox traxoma xəstəliyi yayılmış rayonlarına səfərlərə gedir, oftalmoloq-həkimlər qarşısında traxoma və başqa göz xəstəliklərinin müayinə və müalicəsinə dair məruzələr edir, əhali ilə çoxsaylı söhbətlər aparırdı.

Zərifə Əliyevanın traxoma xəstəliyi ilə bağlı apardığı elmi axtarışlar və səmərəli praktiki fəaliyyəti bütün respublika miqyasında böyük maraqla izlənilirdi. Gənc alim tezliklə Oftalmologiya Elmi-Tədqiqat institutunda böyük elmi işçi seçildi. O, paralel şəkildə qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı bir sıra tədqiqat işləri apardı. Həmin tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin mətbuatda dərc olunması klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin genişlənməsinə kömək etdi. 1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Əliyeva Oftalmologiya institutunda böyük elmi işçi vəzifəsində çalışıb. Apardığı tədqiqatların nəticələri olaraq Zərifə xanım Əliyeva 1960-cı ildə namizədlik dissertasiyasını uğurla müdafiə edib. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona "Oftalmologiya" ixtisası üzrə böyük elmi işçi adı verib. 1967-ci ildə Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə institutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunub. Bu institut ömrünün son illərində həmin kollektivə rəhbərlik etmiş mərhum professor Əziz Məmmədkərim oğlu Əliyevin – Zərifə xanımın atasının adını daşıyırdı. Həmin dövrdə Zərifə Əliyeva fəal həkimlik fəaliyyəti ilə məşğul oludu: bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verir, üstəlik, onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edirdi. Bununla yanaşı, o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparırdı. Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə çox ciddi məşğul olmasına baxmayaraq, Zərifə xanım Əliyeva elmi tədqiqat işlərinin davam etdirilməsinə böyük əhəmiyyət verir və oftalmologiyanın bir sıra aktual məsələlərinə diqqət yetirirdi. Bu məsələlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi də xüsusi yer tuturdu. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının patologiyası daha çox cəlb edirdi. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin, demək olar ki, elmi şəkildə tədqiq olunmaması ilə əlaqədar idi.

1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva professional oftalmologiyanın problemləri ilə ciddi məşğul olub. Bu sahənin əhatə dairəsinin çox geniş olmasına baxmayaraq, gözün peşə xəstəlikləri probleminə dərin və çoxsahəli marağını Zərifə xanım Əliyeva bütün həyatı boyu itirməyib. Alim dünyada ilk dəfə olaraq peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktiki olaraq elm aləmində yeni bir istiqamətin -peşə oftalmologiyasının əsasını qoyub. Apardığı tədqiqatların gedişində "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiliklər", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" və s. kimi onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirib.

Zərifə xanım Əliyeva həmçinin yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə diqqət yetirirdi. Zərifə xanım bu problem üzərində iş apararkən çox vaxt bilavasitə sənaye müəssisələrində olur, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Bununla yanaşı, Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilirdi. Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil edib. 1976-cı ildə Q. Helmqolts adına Moskva Göz Xəstəlikləri institutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet ittifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndiriblər. Zərifə xanım Əliyevanın dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almaqla yanaşı, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri idi. 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi alan alim bir qədər sonra Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilir, 1983-cü ildə isə həmin kafedranın müdiri olur.

1977-ci ildə professor Zərifə xanım Əliyevanın təklifi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti idarə Heyətinin plenumu keçirilib. Belə bir tədbir Bakıda ilk dəfə keçirilirdi və təbii ki, böyük təşkilatçılıq bacarığı və zəngin təcrübə tələb edirdi. Plenuma hazırlığın və onun keçirilməsinin bütün ağırlığı Zərifə xanımın üzərinə düşürdü. Bu plenumun keçirilməsi həm Azərbaycanda, həm də keçmiş ittifaqın ən yaxşı akademik müəssisələrində oftalmologiya xidmətinin inkişafında, habelə, elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynadı".

**Akademik Zərifə xanım Əliyevanın elmi tədqiqatları bu gün də öz aktuallığını saxlayır**

Görkəmli alim Zərifə xanım Əliyevanın qələmindən davamlı axtarışlarının və praktiki fəaliyyətinin nəticəsi olaraq bir sıra sanballı elmi əsərlər çıxıb. "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalar buna misaldır. Bu əsərlər dünyanın elmi ictimaiyyətinin diqqətini cəlb edib və dəfələrlə nəşr olunub.

Akademik Zərifə xanım Əliyevanın görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri və həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri bu gün də öz aktuallığını itirməyib. Onun “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi” monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini özünə cəlb edib. Zərifə xanım Əliyeva fundamental “Terapevtik oftalmologiya” kitabının müəlliflərindən biridir və bu kitab indi də hər bir oftalmoloq üçün stolüstü kitab olaraq qalır. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını (gözün əlvan təbəqəsində dəyişikliyi, iridodiaqnostikanı) ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr edib. Dünyada ilk tibbi vəsait olan “İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərin müəlliflərindən biridir. Həmin kitab bu gün həkimlərin iş təcrübəsində əvəzolunmaz elmi vəsaitdir. Zərifə xanım Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında (professor N.B. Şulpina və L.F. Moşetova ilə birlikdə) öz əksini tapıb. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün böyük əhəmiyyət kəsb edir. Leninqrad Gigiyena İnstitutunun Göz Xəstəlikləri kafedrasının müdiri, professor A.N. Dobromislov Zərifə Əliyevanın əsərlərinin önəminə diqqət çəkərək yazıb: “Zərifə xanımın daxili aləmi, vəzifə borcuna, xəstələrə və ətrafdakılara münasibəti 1983-cü ildə nəşr etdirdiyi “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri” əsərində özünü daha parlaq büruzə verir. Bu mövzuya həsr olunan çıxışlarında Zərifə xanım bilik və təcrübəsini həkim həmkarlarına çılğınlığı ilə, inam hissi ilə aşılayırdı. Qeyd etmək lazımdır ki, onun çap etdirdiyi elmi əsər mahiyyət etibarilə daha geniş əhəmiyyət kəsb edir, təkcə səhiyyə aləmində deyil, məişət və ailə əlaqələri də daxil olmaqla, bütövlükdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm rol oynayır”.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görüldü. Azərbaycanlı professor Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın oftalmoloq idi.

**Zərifə xanım Əliyeva qayğıkeş ana, sədaqətli ömür-gün yoldaşı idi**

Zərifə xanım Əliyeva bir alimin, bir həkimin əldə edə biləcəyi ən böyük uğurlara nail olub. O, Azərbaycanda oftalmologiya üzrə ilk dəfə akademik adını qazanıb. Zərifə xanım gözəl həkim olmaqla yanaşı, həm də böyük ictimai xadim idi. O, uzun illər Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan “Bilik” Cəmiyyətinin və Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü kimi fəaliyyət göstərib.

Lakin Zərifə xanım Əliyeva nə qədər böyük şan-şöhrət qazansa da, həyatda bütün titullarından ucada dayanan bir missiyası da var idi ki, bu da onun Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı, ana olması ilə bağlı idi. Zərifə xanım Əliyeva ailə dəyərlərinin yüksək tutulduğu bir ailədə dünyaya göz açıb tərbiyə almışdı. Və təbii ki, özü də milli adət-ənənələrimizin, xalqımızın əsrlərin sınağından keçərək bu günümüzədək gəlib çatan ailə dəyərlərinin yaşamasına və yeni çalarlarla daha da zənginləşməsinə böyük önəm verirdi. Biz Zərifə xanım Əliyevanın timsalında öz ailəsinə və övladlarına hədsiz bağlı olan fədakar bir ana obrazını görürük. O, övladlarının yaxşı təhsil və tərbiyə almaları, müasir düşüncəli intellektual gənclər kimi böyümələri, formalaşmaları üçün hər bir çətinliyə dözməyə hazır idi. O, həkim kimi hər gün onlarca xəstəni müayinə və müalicə edirdi, çox yorulurdu. Lakin bütün bu yorğunluqlar heç vaxt onun evinə daxil olmurdu. Zərifə xanım işdə olduğu kimi, ailədə də bütün vəzifələrini yüksək səviyyədə yerinə yetirməyə çalışırdı və buna nail olurdu. O, həmişə övladları ilə daha çox vaxt keçirməyə, malik olduğu yüksək mənəvi keyfiyyətləri onlara ötürməyə çalışırdı. Onun oğlu – son 15 ildə müstəqil Azərbaycanın sükanını inamla idarə edən, ölkəmizə böyük uğurlar qazandıran Prezident İlham Əliyevin yüksək mənəvi keyfiyyətlərinə, daxili zənginliyinə istinadən deyə bilərik ki, Zərifə xanım Əliyeva ailədə qarşısına qoyduğu məqsədə – övladlarına yaxşı tərbiyə verməyə nail olub. Milli köklərə bağlı olan Zərifə xanım Əliyevanın tərbiyəsini əxz edən Prezident İlham Əliyev Azərbaycanın inkişafı, müstəqilliyinin möhkəmlənməsi, dünyanın sayılıb-seçilən dövlətləri sırasında yer alması naminə möhkəm iradə və qətiyyət nümayiş etdirir.

Professor O.P. Dobromislova Zərifə xanım Əliyeva haqqında müşahidələrini ümumiləşdirərək belə yazıb: “Zərifə Əziz qızı təkcə görkəmli alim, istedadlı pedaqoq və tərbiyəçi, fəal ictimai xadim deyildi, həm də kövrək qəlbli insan, qayğıkeş və sevimli qadın, ana, nənə idi, qeyri-adi şəxsiyyət idi. Onun şəxsiyyəti ictimai və fərdiliyin bir vəhdəti idi. Öz xatirələrimdə əsasən Zərifə Əliyevanı insan və qadın kimi səciyyələndirmək istərdim”.

Zərifə xanımın xalqımızın Ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı olması isə onun üçün ikiqat məsuliyyət yaradırdı. Bu iki unikal şəxsiyyəti böyük sevgi telləri birləşdirirdi. Ulu öndərin Özü dəfələrlə ömür-gün yoldaşına gənclik illərindən başlayan və ömrünün sonunadək tükənməyən böyük məhəbbətini etiraf edib. Zərifə xanım Əliyeva həyat yoldaşının ona qarşı səmimi hisslərdən yaranan münasibətini həyatının ən əziz dəyəri kimi qorumağa və gücləndirməyə çalışırdı. O, Ulu öndərə yalnız ömür-gün yoldaşı olmayıb, həm də Ona silahdaşlıq edib.

**Yeni Azərbaycan.**-2018.-28 aprel.-№82.-S.4.

# İşıq, gözəllik və xeyirxahlıq mücəssəməsi

**(Görkəmli oftalmoloq alim, ictimai xadim, akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyinə)**

**Musa Urud**,
Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini

***Dünya bərqərar olandan işıqla-zülmətin, yaxşı ilə pisin, xeyirlə-şərin mübarizəsi gedir. Həyatı da, insanlığı da var edən, mənalandıran bu mübarizədir. Kim işığın tərəfindədirsə, üz-gözünə haqqın nuru çilənir, olur işıqlı adam. Kim yaxşılığın tərəfindədirsə, pisliklə işi yoxdursa, içi imanla dolur – olur yaxşı adam. Kim xeyrin tərəfindədirsə, hamıya, hər zaman təmənnasız köməyini əsirgəmir, vaxtını, əməyini, malını ehtiyacı olanlardan əsirgəmirsə, Vətəninin və millətinin xeyri üçün çalışırsa olur xeyirxah adam.***

İşıqlı adam – xoşbəxt adamdır.

Yaxşı adam – xoşbəxt adamdır.

Xeyirxah adam – xoşbəxt adamdır.

Bu üç keyfiyyəti özündə birləşdirən adamlar isə – Allahın sevimli bəndəsidir və öz fiziki ömründən qat-qat uzun ömür yaşamağa haqqı olanlardır.

… Dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş görkəmli oftalmoloq alim, gözəl ziyalı, mehriban ana, vəfalı ömür-gün yoldaşı akademik Zərifə xanım Əliyeva Tanrının əbədiyaşarlıq haqqı verdiyi seçilmişlərdəndir.

İnsanın kimliyi üçün əsil-nəcabət vacib şərtdir. Ötən əsrdə topçubaşovlar, hacıbəylilər, şadlinskilər, rəfibəylilər, bədəlbəylilər, şahtaxtinskilər kimi ailələr Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynamış və dərin izlər qoymuşlar. Bu sırada akademik Zərifə xanım Əliyevanın ləyaqətlə təmsil olunduğu əliyevlər ailəsinin şərəfli yeri vardır.

Zərifə xanımın nəsil şəcərəsi Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvanın əsilzadə mühitində sayılıb seçilən bir ailəyə bağlıdır. Ata babası Məmmədkərim Qurbanəli oğlu da, ana babası İbrahim bəy Süleymanbəyov da İrəvanın məşhur əsilzadələrindən idilər.

Təəssüf ki, Məmmədkərim Qurbanəli oğlunun İrəvan yaxınlığındakı Hamamlı kəndindəki mülkü də, İbrahim bəy Süleymanbəyovun İrəvandakı göz oxşayan imarəti də 1918-ci ildə erməni-daşnak başkəsənləri tərəfindən qəsb olundu, dağıdıldı, o torpaqların özü qədər gözəl olan sakinləri dədə-baba yurdlarından didərgin düşdülər və bir daha doğma ocaqlarına qayıda bilmədilər. Daşnakların azərbaycanlılara qarşı həyata keçirtdiyi soyqırımı Əziz Əliyevi 1918-ci ildə Sankt-Peterburqdakı təhsilini yarımçıq qoyub İrəvanda təqiblərə məruz qalan ailəsini Şahtaxtı kəndinə köçürməyə məcbur edir. Məhz burada 1923-cü il aprelin 28-də Zərifə xanım dünyaya göz açır. 1923-cü ilin may ayında Əziz Əliyev Bakıya köçür və sonrakı taleyini bu böyük şəhərlə bağlayır.

Fövqəladə ağlı, istedadı, biliyi və çalışqanlığı sayəsində öz adını Azərbaycanın səhiyyə və dövlətçilik tarixinə qızıl hərflərlə yazdırmış professor Əziz Əliyevin digər övladları kimi Zərifə xanım da yüksək mədəniyyət və ailə tərbiyəsi görmüş, təhsil almış, elm öyrənmiş, öz peşəsinin dərin bilicisi kimi xalqına ləyaqətlə xidmət etmiş, insanların hörmətini və sevgisini qazanmış, görkəmli alim, ictimai xadim kimi respublikamızın hüdudlarından kənarda da tanınmış və sevilmişdir.

Heç şübhəsiz ki, bu uğurların əsasında soy-kökdən gələn istedadla yanaşı ailə ənənələrindən doğan çalışqanlıq, məsuliyyət, məqsədyönlülük, daxili intizam və mədəniyyət dayanırdı.

İrəvanın kübar-ziyalı mühitindən qaynaqlanan ailə ənənələri görkəmli dövlət xadimi və səhiyyə təşkilatçısı professor Əziz Əliyevin Bakıda, Cənubi Azərbaycanda, Dağıstanda, Moskvada yaşadığı illərdə dostluq etdiyi Azərbaycanın və o vaxtki SSRİ-nin tanınmış ziyalıları, elm və mədəniyyət xadimlərinin təsiri ilə daha da zənginləşmişdir.

Burada Əziz Əliyevin 100 illik yubileyinə həsr edilmiş təntənəli gecədə ümummilli lider Heydər Əliyevin nitqindəki fikirlər necə də yerinə düşür:

"Bütün tibb professorları onun dostları idi. Onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı."

Akademik Zərifə xanımın həkimlik sənətini seçməsi də ailə ənənəsi ilə əlaqədar olmuşdur. Atası Əziz Əliyev, qardaşları Tamerlan və Cəmil, bacısı Ləzifə xanım ilə yanaşı bibisi Göyçək xanım, əmisi Ziyad Əliyev, bibisi Şamama xanım Ələsgərova, bibisi oğlanları Qurban Əliyev (o, uzun illər respublikamızın Ali və Orta ixtisas təhsili naziri olmuşdur), Yusif Əliyev görkəmli həkim, səhiyyə təşkilatçısı və tibb alimləri olmuşlar.

Dövrün amansız sınaqları bu ailəni böyük çətinliklərlə üz-üzə qoysa da, həm Əziz müəllim, həm də onun ailə üzvləri bu sınaqdan ləyaqətlə çıxmışlar

Zərifə xanımın tələbəlik və gənclik illəri ağır müharibə dövrünə düşsə də, onun atasının yüksək dövlət vəzifələrində çalışması, heç şübhəsiz ki, bu ailənin üzvlərinin statusunun başqalarından yuxarı olması şansını

şərtləndirirdi. Lakin Zərifə xanım heç nə ilə digər tələbə yoldaşlarından fərqlənmir, bu üstünlüyü hiss etdirmir, bəlkə heç özü də hiss etmirdi. Onun tələbə yoldaşlarının çoxsaylı xatirələri bunu söyləməyə əsas verir.

Səbəb isə çox sadə idi. Əsilzadə nəcabəti, ailə tərbiyəsi və şəxsi keyfiyyətlər. Məhz bu xarakter Zərifə xanımın bütün həyatı boyu onu müşayiət etdi, onu milyonlarla insana sevdirdi. Əbəs yerə demirlər ki, insanın böyüklüyü onun sadəliyindədir. Təbib, müəllim, alim, ictimai xadim kimi qazandığı şöhrətinin ən yüksək zirvədə olduğu vaxtlarda da akademik Zərifə xanım Əliyeva belə də qaldı: qayğıkeş, mehriban, gülərüz, xeyirxah…

İnsan ətraf mühitdən aldığı informasiyanın 80 faizini görmə orqanı – gözləri vasitəsi ilə alır. Buna görə də göz insanın duyğu orqanlarının ən əhəmiyyətlisidir. İşığı sönmüş gözlərə nur vermək günəşin yer üzünü işıqlandırması qədər müqəddəs bir işdir. Məhz akademik Zərifə xanım Əliyeva öz həkimlik fəaliyyəti boyu minlərlə sadə insana bu səadəti bəxş edib, təmənnasız böyük bir insan xeyirxahlığı, həkim qayğıkeşliyi ilə…

Belə bir deyim var ki, hər kəsin xoşbəxtliyinin ölçüsü başqalarını xoşbəxt etdiyi qədərdir. Yüz minlərlə insana günəş işığını, göz nurunu qaytarmaqdan böyük xoşbəxtlik, yaxşılıq nə ola bilər ki… Zərifə xanım o insanlardandır ki, onun haqqında danışanda epitetlər əhəmiyyətsiz olur. Onu tanıyan hər kəsin yaddaşında “Zərifə xanım” kəlməsi bəlkə də dünyanın ən qiymətli, ən uca sözüdür.

Zərifə xanım həkimlik və alimlik fəaliyyətini daha çox ictimai əhəmiyyətli göz xəstəliklərinin müalicə və profilaktikasına həsr etmişdir. Onun gənc həkim, alim kimi işə başladığı dövrlərdə Azərbaycanda ağır göz xəstəliyi olan traxoma geniş yayılmışdı. Bəzən qısa müddətdə bütöv ailələri dünya işığından məhrum edən bu xəstəliklə mübarizə tarixində Zərifə xanım Əliyevanın adı qızıl hərflərlə yazılmışdır.

Zərifə xanımın doktorluq dissertasiyası isə artıq sənayesi sürətlə inkişaf edən Azərbaycanda gözün yeni bir spesifik xəstəliyinə-peşə xəstəliyinə həsr edilmişdir. Ötən əsrin 60-70-ci illərində Bakı və Sumqayıt regionun ən böyük sənaye mərkəzlərinə çevrilmişdi, burada onlarca neft, maşınqayırma, kimya zavodları fəaliyyət göstərirdi. Bu zavodlarda istehsal edilən, istifadə olunan müxtəlif kimyəvi maddələrin gözə təsirinin öyrənilməsi, qarşısının alınması və müalicəsi sahəsində o vaxtki SSRİ miqyasında ilk öncüllərdən biri, bəlkə də birincisi Zərifə xanım olmuşdur.

Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuşdur. Apardığı tədqiqatların nəticəsi olaraq “Göz yaşının axmasının fiziologiyası”, “Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri”, “Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti” və s. kimi onlarla elmi məqalə və monoqrafiyalar çap etdirmişdir.

Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin “Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti” mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil edib. 1976-cı ildə Q. Helmholts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndiriblər.

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşmüşdür. Akademik Zərifə Əliyevanın elmi-tədqiqat işlərinin bir qismi qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun “Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası”, “Yaşla bağlı gözün əsəb yollarının dəyişilməsi” və digər monoqrafiyaları göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi” və digər monoqrafiyaları isə daktriologiyaya həsr edilmişdir. Z.Əliyevanın digər müəlliflərlə birgə qələmə aldığı fundamental “Terapevtik oftalmologiya”, “Oftalmologiyanın aktual məsələləri”, “İridodiaqnostikanın əsasları” və sair kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdəndir.

Olduqca humanist və qayğıkeş bir insan olan Zərifə xanımı həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin peşə etikasının düzgün formalaşmasına, tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə həmişə böyük önəm vermişdir. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, «Yüksək etimad» kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir.

Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: “Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir”.

Akademik Zərifə Əliyeva səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə xüsusi həssaslıqla yanaşırdı. Onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir.

Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə

göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Özünün zəngin tibb təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin "sözlə" müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmannasızlıq təşkil edir.

Akademik Zərifə Əliyeva 150-dən artıq elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitinin müəllifidir. O, onlarca elmlər doktorunun və elmlər namizədinin elmi rəhbəri olmuşdur. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi tutarlı nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. O, həmçinin çoxillik elmi, pedaqoji, müalicəvi, ictimai fəaliyyəti nəticəsində qazandığı uğurlara görə bir sıra orden və medallarla, fəxri fərmanlarla təltif edilmişdir.

Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Zərifə xanım çox mükəmməl bir şəxsiyyət olmuş, gözəl, yaraşıqlı qadın, qayğıkeş həyat yoldaşı, mehriban ana, humanist həkim, fədakar alim, sevimli müəllim kimi xatirələrdə silinməz izlər qoymuşdur.

Tələbəlik yoldaşı və həmkarı, professor Zəhra Quliyeva onu belə xatırlayırdı: "Zərifə xanım qeyri-adi bir qadın idi. O, heç də hamıya qismət olmayan böyük bir qabiliyyətin sahibi idi. Bu sevə bilmək qabiliyyəti idi. Həyatda nə edirdisə, sevgi ilə edirdi. Onun sevgisinin qüvvəsi öz ailəsinin hüdudlarında daha parlaq əks olunur, daha artıq duyulurdu. O, uşaqlarına, sonra isə nəvələrinə sevgisində özünü unudurdu. Zərifə xanım Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin ləyaqətli ömür-gün yoldaşı, sədaqətli dostu, sevimli qadını və əqidə yoldaşı idi. Bacımızın xatirəsi ilə bağlı ötən günlərimiz heç vaxt yadımdan çıxmır. Yaddaşımda tələbə Zərifənin şən və qayğısız siması, gəlin Zərifənin xoşbəxtliyi və həyəcanı, ana Zərifənin nəvazişkarlığı, ictimaiyyətçi Zərifənin ehtiraslı, alovlu fəaliyyəti, alim Zərifənin müdrikliyinə aid nə qədər fakt və hadisələrlə əyaniləşib".

Bəlkə də bəşər tarixində nadir şəxslərə qismət olmuşdur ki, dövlət xadiminin övladı, həyat yoldaşı və anası kimi şöhrətin ən uca mərtəbəsinə yüksəlsin, lakin özünün qazandığı insanlıq zirvəsini bütün şan-şöhrətlərdən ucada tuta bilsin.

Ümummilli lider Heydər Əliyev dünyasını vaxtsız dəyişən ömür-gün yoldaşını həmişə böyük məhəbbətlə və ehtiramla xatırlayırdı:

"Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla ailə həyatı quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür. Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib".

Zərifə xanım çox erkən, 62 yaşında dünyasını dəyişmişdir. İslam aləmində 62 yaş müqəddəs sayılır. Peyğəmbər yaşıdır. Bir də ki, xeyirxahlığın, müqəddəs əməl sahiblərinin yaşı olmur. İnsan nə qədər xatırlanırsa, o qədər yaşayır. Zərifə xanım kimi işıqlı, nurlu, xoş əməl sahibi insanlar isə heç zaman unudulmur.

**Xalq qəzeti.** – 2018.- 28 aprel. – № 95. – S. 5.

## Nurlu ömrün bitməz dastanı

### Ona olan məhəbbət xalqın ürəyində sevgi abidəsi kimi ucalacaq

**Günel Azadə**

Ömrünü sevdiyi peşəsinə həsr edən, daxili keyfiyyətləri ilə daim seçilən, xalqın yaddaşında yaşayan şəxsiyyətlər həmişə qürur hissi ilə yad edilir. Öz varlığı ilə bu millətin, xalqın gələcəyinə nur saçan biri, çətin ki, unudulsun. 28 Aprel Azərbaycanın tarixində silinməz iz qoyan qadınlardan biri – Azərbaycanın görkəmli oftalmoloqu, akademik Zərifə Əliyevanın doğum günüdür. Zərifə Əliyeva istedadlı alim, qayğıkeş ana, tanınmış ictimai xadim, bacarıqlı və bilikli alim kimi tarixdə öz layiqli yerini tutub.

**Analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən qadın**

Əsl Azərbaycan qadınının obrazını öz simasında təcəssüm etdirən Zərifə Əliyeva, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı, mənəvi dayağı olub. O, hər şeydən əvvəl, bir qadın, bir ana idi. Görkəmli alim övladlarına çox bağlı, onların tərbiyəsi üçün bütün enerjisini sərf edən valideyn olub. Analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən bu xanımı bir qadın, bir alim və həkim kimi cəmiyyətin inkişafına xidmət edən ailəsindən ayrı düşünmək mümkün deyil. Ailəsinə bu qədər bağlı bir xanımın ölümü nəinki yaxınlarına, hətta Azərbaycan xalqına da böyük hüzn vermişdi. Azərbaycan Prezidenti İlham Əliyev 1995-ci ilin oktyabrında yerli mətbuata verdiyi müsahibəsində Zərifə xanımın ölümünün bütün ailənin həyatını dəyişdiyini qeyd edir: “Onun vəfatından sonra mənim həyatım, bütün ailəmizin həyatı dəyişildi. Yəni indi mən o vaxtlardakı kimi gülə bilmirəm, baxmayaraq ki, onun həyatdan getməsindən on ildən çox vaxt ötür. Mənim həyatımda xoşbəxt hadisə olanda düşünürəm: o da bunun üçün sevinərdi. O, vəfat edəndə mənim böyük qızımın bir yaşı vardı. Yəni mənim qızlarım öz nənələrini görməyib, bu, onların tərbiyəsində böyük itkidir”.

**Onun şəxsiyyəti, həyatı, ömür yolu daha geniş təbliğ olunmalıdır**

Onun timsalında ideal qadın, əsl Azərbaycan xanımı obrazı canlanır. Əbəs yerə deyil ki, Milli Məclisin deputatı, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva bu xanımın həyat yolunu gənclik üçün nümunə hesab edir: “Zərifə Əliyevanın keçdiyi həyat yolu bizim gənc xanımlarımızın həyatının formalaşması baxımından parlaq nümunədir. Buna görə də, onun şəxsiyyəti, həyatı, ömür yolu daha geniş təbliğ olunmalıdır ki, bugünkü xanımlarımız nümunə götürsünlər. Həqiqətən də, bu xanım davranışı, həyat tərzi, insanlarla rəftarı, övladlarına verdiyi tərbiyə, həkim kimi xəstələrə münasibəti baxımından insanlığın parlaq siması kimi dəyərləndirilməlidir”.

Millət vəkili Zərifə xanımın ana kimi də əvəzolunmaz biri olduğunu qeyd edir: “Zərifə Əliyeva bir ana kimi gözəl insan idi. O, ailədə iki övlad böyüdüb, onlara yüksək tərbiyə verib, vətənə layiqli vətəndaş kimi yetişdirib. Bu gün ölkəmizə rəhbərlik edən Prezident İlham Əliyev Zərifə xanımın övladıdır, ailədə ondan ana tərbiyəsi alıb. Eyni zamanda, bu ailənin digər övladı olan Sevil xanımla mən tələbə yoldaşı olmuşam, onunla beş il bir qrupda ali təhsil almışıq. Bu illər ərzində mən Sevil xanımda elə xüsusiyyətlər müşahidə etdim ki, bunların hamısı ailədən, ananın verdiyi tərbiyədən irəli gəlirdi. İlk növbədə, onda dərin millilik var idi, Zərifə Əliyeva qızını da əsil azərbaycanlı xanımı kimi böyütmüşdü. Oxuduğumuz qrupda Sevil xanım özünün milliliyi, sadəliyi, davranışı, milli adət-ənənələrimizə diqqət və hörməti ilə hamıdan fərqlənirdi. Mən başa düşürdüm ki, bunların hamısı ailədən gələn məsələlərdir. Sevil xanım insanlara, o cümlədən ətrafına, tələbə yoldaşlarına qarşı diqqətcil və qayğıkeş idi”.

**Dost kimi, sirdaş kimi insanların güvənini qazanmışdı**

Təbiət sanki ona fərqli bir qadın cazibədarlığı bəxş etmişdi. Ətrafındakılar onu heç vaxt qəzəbli, əsəbi görmədiklərini deyirlər. O, həmişə gülərüz və xeyirxahlığı ilə digər qadınlardan seçilirdi. Zərifə xanımın həyat kitabı parlaq səhifələrlə zəngindir. Yaxınlarının dediklərinə görə, kifayət qədər düşüncəli, ünsiyyətcil xanım idi. Onunla söhbətdən sonra insan sanki rahatlıq tapırdı. Bu ağıllı qadın həmişə çalışırdı ki, insanlara kömək etsin, onların dərdinə əlac olsun. Danışığında daim səmimilik, mülayimlik müşahidə olunurdu. Dost kimi, sirdaş kimi insanların güvənini qazanmışdı. Ömrünü insanların sağlamlığının qorunmasına həsr etmiş bu nəcib xanım, məhz bitkin keyfiyyətlərinə görə, hər zaman, hər kəs tərəfindən sevilir, əziz xatirəsi ehtiramla yad edilir.

**Elmi fəaliyyəti**

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, dünyagörüşü, biliyi oftalmologiya sahəsinin də inkişafına böyük töhfə verib. Onun bu sahədəki xidmətlərinə və çoxcəhətli fəaliyyətinə nəzər salsaq, genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olar. Akademik oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib. Bu xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi-tədqiqatlar aparıb.

Zərifə xanımın elmi fəaliyyətinin digər sahələrindən biri klinik diaqnostik istiqamətdə apardığı tədqiqatlardır ki, onların da nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmlənib. Bu əsərlər arasında “Kəskin virus konyunktivitləri”, “Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar”, “Qlaukoma və gözün hipertenziyası”, “Görmə orqanının zədələnməsi”, “Göz yaşı axmasının fiziologiya və histologiyası”, “Şəkərli diabetdə göz xəstəlikləri”, “Gözün mikrocərrahiyyəsi”, “Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası” və başqaları oftalmoloji elmi-ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanıb. Alim göz yaşı aparatının xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi “Yaşaparıcı yolların fiziologiyası”, “Yaşaparıcı yolların cərrahi müalicəsi”, “Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları” və başqa əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoyub.

**Bu sahənin ilk pioneri**

Zərifə xanım Əliyevanın elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də peşə oftalmologiyasına həsr edilmişdir. Akademik sözün əsl mənasında, bu sahənin ilk pioneri olub. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin- “peşə oftalmologiyası”nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və dünya oftalmologiyası məkanında məşhurlaşmasına səbəb olub.

YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva müsahibələrinin birində Zərifə xanım Əliyevanın zəngin elmi irsinin dünya oftalmologiyasına mühüm töhfələr verdiyini deyir: “Onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu sahə olduqca ağır idi. Onun araşdırılması, təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi biliklər tələb edirdi. Bu keyfiyyətlər isə Zərifə Əliyevada var idi. Peşə oftalmologiyasının pioneri sayılan Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb. O, artıq elmin zirvəsində idi. 1983-cü ildə Zərifə Əliyevanın Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi bunun təsdiqi oldu. O həm də keçmiş SSRİ-də ilk qadın həkim olaraq Tibb Elmləri Akademiyasının akademik Aberbax mükafatına layiq görüldü”.

Rektor həmçinin qeyd edir ki, insanlarla mehribanlığı, dərin humanizmi Zərifə xanımın peşəsinə münasibətində də özünü aydın göstərirdi: “Zərifə xanım haqlı olaraq hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: “Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir””.

**Xalqın ürəyində bir sevgi abidəsi**

Professor Zərifə xanım Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir, onun yazıb-yaratdığı monumental əsərləri, qoyub-getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, mədəni irsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərlərinin mövzusuna çevrilir. Zərifə Əliyevanın adını əbədiləşdirmək, bu görkəmli qadının xalqımız yolundakı fədakarlığını qiymətləndirmək naminə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də öz növbəsində mütəmadi təlimlər, müsabiqələr, maarifləndirici kampaniyalar həyata keçirir. Müsabiqələrin keçirilməsində məqsəd gənc nəslin, məktəblilərimizin belə ziyalıların, alim və ictimai xadimlərin həyat və yaradıcılığını öyrənməsi, onlardan nümunə götürülməsidir. Komitənin sədri Hicran Hüseynova bildirir ki, ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam və inkişaf etdirərək, Azərbaycanda birinci xanım institutunun daha da möhkəmləndirilməsi üçün çalışır. Akademikin hər il aprelin 28-də doğum günü, 15-də isə anım gününün qeyd olunması, xalqın ona olan böyük məhəbbətinin bariz nümunəsidir. İnanırıq ki, zaman keçdikcə, nəsillər dəyişdikcə bu məhəbbət xalqın ürəyində bir sevgi abidəsi kimi ucalacaq”.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanımın mənəvi dünyasına yaxından bələd olan insanlar "sənsiz günəşsiz qaldı günlər" deyirlər.

**Kaspi.** – 2018.- 28-30 aprel. – № 76. – S. 7.

## Nur heykəli

**Nurlana Əliyeva,**
YAP Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin rektoru, professor

Hələ neçə əsr əvvəl Yunanıstan filosofu Homerin qəhrəmanı Axilles öz anası ilə məsləhət edir ki, müharibəyə getsin, ya getməsin? Anası cavab verir ki, müharibəyə getsən tezliklə həlak olacaqsan, amma Yunanıstan tarixində qəhrəman kimi əbədi yaşayacaqsan! Getməsən, adi insan ömrü sürüb vəfat edəcəksən. Hansını daha şərəfli hesab edirsənsə, onu seç!

Axillesin adı bu gün də Yunanıstanın şərəfli tarixini yaratmış qəhrəman kimi bütün dünyada məşhurdur!

Torpaqlarımızı işğaldan azad edə biləcək yeganə şəxsiyyət ümumxalq məhəbbəti qazanmış, xalqın mərd oğlu, sərkərdəsi, lideri, Ali Baş Komandanı, Prezident İlham Əliyevin müdrik siyasəti dünyamızı intibaha yönəltdi,Vətənimizə yeni sima, yeni ucalıq, hörmət, ehtiram gətirdi, bütöv bir xalqı bəxtiyar, xoşbəxt həyata qovuşdurdu. Bütün dünya ermənilərinin dəstəklədiyi, öz xalqına acınacaqlı bir tale yaşadan Serj Sarkisyanı "öz müdrik" siyasəti ilə süquta, məhvə düçar etdi. Bir inkaredilməz həqiqət aydın olur ki, bütün qəhrəmanların taleyində ana ucalığı, ana tərbiyəsi əvəzedilməz rol oynayır. "Bir bacarıqlı həkimin həyatı çox adamın həyatına əvəzdir". Zərifə xanım Əliyeva haqqında düşüncələrimi qələmə almağa başlayarkən ən çox bu məsələləri xatırlayıram. Onun şəxsiyyəti əzəmətilə gözlərim önündə canlanır. Bu nurlu simada, işıqda gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim ucalıqlarını bir araya gətirən insanın obrazı görünür. Prezident İlham Əliyev kimi bir qəhrəman oğul tərbiyə edib boya-başa çatdıran ana obrazı görünür.

Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca bir daha fərqində oluruq ki, ulu Tanrının yüksək mənəvi xüsusiyyətlər əta etdiyi bu şəxsiyyət təkcə həkim kimi insanların gözlərinə nur gətirməyib. Nəcib əməlləri, örnək davranışları ilə könüllərdə işıq yandırıb, Azərbaycana, xalqımıza İlham Əliyev kimi qəhrəman oğul yetişdirib, dünyamızı nura qərq edib.

Akademik Zərifə Əliyeva xeyirin, həqiqətin, bərabərliyin, düzgünlüyün xidmətində dayanmağı özünə bir ömürlük missiya kimi müəyyənləşdirmişdi. Bütün ömrünü belə bir niyyətlə yaşamışdı. Həyatını insanlara şəfa bəxş etməklə, dünyamıza düşən işığın haləsini genişləndirməklə, hər bir kəsi gələcəyə ümidləndirməklə, sülh naminə çalışmaqla keçirmişdi. Ona görə də Zərifə xanım Əliyeva bir meyardır. Qismətinə düşən ömür payına sadəcə, bir-birini əvəz edən günlər, həftələr, aylar, illər kimi yox, bütöv bir tarix kimi yanaşan və bu ömrü tarix kimi yaşayan bütün böyük şəxsiyyətlər kimi.

***

Akademik Zərifə Əliyeva bir çox mənəvi keyfiyyətlərini onu dünyaya gətirmiş ANA-dan, Leyla xanımdan əxz etmişdi.

Atası – XX əsr tariximizdə özünəməxsus yeri olan görkəmli ictimai-siyasi xadim Əziz Əliyev nüfuzlu bir insan idi. Onun ömrü təkcə öz ailəsinə, nəslinə, evinin divarları arasına aid ömür deyildi. Bu ömür müxtəlif məkanlarda çətin mübarizələrdə, ağır sınaqlarda, sadə insanlara xidmətdə və bu ömürdən pay alanların sevincindən yaranan xoş məmnuniyyət duyğularında yaşanmışdı.

Əziz Əliyev ocağında böyüyən uşaqların, o cümlədən Zərifə xanımın tərbiyəsi, təlimi ilə əsasən, Leyla xanım məşğul olurdu. O, ana dilimizin, folklorumuzun, Azərbaycan milli düşüncə xəzinəsinin canlı daşıyıcısı idi. Dünyaya gətirdiyi övladlar bu nəcib qadından həm də kübarlıq, xeyirxahlıq, sadəlik, adət-ənənələrə hörmət dərsi alırdılar. Şəxsiyyət kimi formalaşmalarında Əziz Əliyevdən mənimsənilmiş dəyərlərin, bu böyük ictimai-siyasi xadimin övladı olmağın məsuliyyətinin də mühüm rolu vardı.

Deyirlər ki, insanın uşaqlıqdan əhatə olunduğu sevgi onu ömürlük xoşbəxt edir. Zərifə xanım da körpəliyindən doğmalarının sevgisi ilə əhatə olunmuşdu. Azərbaycan xalqının tarixində mühüm iz qoymuş bu ailə sovet dövrü Azərbaycan elitasının tipik nümunəsi idi. Bu ailənin yolu Azərbaycanın ucqarından – Naxçıvanın Şahtaxtı kəndindən başlamışdı. Zərifə xanımın atası da öz həkimlik fəaliyyətinə burada başlamışdı. İlk övladı bu məkanda dünyaya gəlmişdi. Tibb elmi bu ailə üçün dəyərli bir seçim idi. Əziz Əliyev 1935-ci ildə Azərbaycan Tibb İnstitutunun rektoru təyin olunanda Zərifənin on üç yaşı vardı. Amma o, gözünü açandan evlərində insan sağlamlığı, həkimin xalqa xidməti barədə söhbətlər eşitmişdi. Görünür, tale özü Zərifə xanımı bu minvalla həkim olmağa hazırlayırmış.

1939-cu ildə Əziz Əliyev Azərbaycanın səhiyyə komissarı təyin olundu. Atalarının həkim və böyük səhiyyə təşkilatçısı olması, ailədəki nüfuzu övladlarının peşə seçimində də mühüm rol oynamışdı. Onlardan yalnız Dilbər xanımla Gülarə xanım fərqli sahə seçdilər. Dilbər xanım Azərbaycanın görkəmli mühəndis-rabitəçilərindən oldu. Gülarə xanım korifey musiqiçilərimizdən biri kimi tanındı. Konservatoriyanı bitirdikdən sonra 1966-cı ildə "Dan

ulduzu" instrumental ansamblını yaratdı, "Əməkdar incəsənət xadimi" adına layiq görüldü. Musiqi nəzəriyyəsi kafedrasının müdiri oldu. Ansambl xalq musiqisinin inkişafında və təbliğində mühüm rol oynadı.

Zərifə xanımla birgə, böyük bacısı Ləzifə Əliyeva, qardaşları Tamerlan və Cəmil isə atalarının yolunu davam etdirdilər. Zərifə xanımın böyük qardaşı Tamerlan Əliyev (1921-1997) respublikamızın ən yaxşı endokrinoloqlarından biri idi. O, əməkdar elm xadimi, dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor kimi yüksək adlar aldı. Görkəmli alim 250-dən çox elmi əsərin, 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifi idi.

Zərifə xanımın kiçik qardaşı Cəmil Əliyev isə tibbin ən çətin sahəsini – onkologiyanı seçdi. Bu sahədə elmi avtoritetə çevrildi. O, tibb elmləri doktoru, professordur. 2001-ci ildən Milli Elmlər Akademiyasının həqiqi üzvüdür. Cəmil Əliyev həmçinin Nyu York Elmlər Akademiyasının üzvü, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Rusiya Federasiyasının Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, İngiltərə Nammersmit Kral Universitetinin professoru, Anderson adına xərçəng əleyhinə Mərkəzin professorudur. Görkəmli alimin 230-dan çox elmi əsəri çapdan çıxıb. 80-nə yaxın elmi əsəri xaricdə çap olunub. Uzun illərdir respublika Milli Onkologiya Mərkəzinə rəhbərlik edir.

***

O zamanlar da təhsilin, məktəbin, müəllimin nüfuzu çox yüksək idi. Yaxşı oxumaq, savada, biliyə can atmaq gənc yaşlarından insanların sosial statusunu, şəxsi nüfuzunu müəyyənləşdirirdi.

Onda bahalı geyimlə, ya maşınla fərqlənmək imkanı və arzusu yox idi. Qürurlu və çalışqan bir qız olan Zərifə Əliyeva təhsildə atasının adından, şəxsi nüfuzundan istifadə etməyi qətiyyən istəmirdi. Böyük səylə oxuyur, kitabı əlindən yerə qoymurdu. O, bacısı Gülarə kimi paralel olaraq fortepiano dərslərinə də gedirdi. Musiqi istedadını təkmilləşdirirdi. Musiqiyə maraq onlara atalarından keçmişdi. Ədəbiyyat və musiqi sənətinin görkəmli simaları tez-tez onların evlərində qonaq olurdular. Zərifə xanım gözünü açıb evlərində Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Səməd Vurğun, Bülbül kimi böyük şəxsiyyətləri görmüşdü. Onların sözü, söhbəti daim yaddaşında idi. Belə ünsiyyət heç bir hafizədə izsiz qala bilməzdi və qalmadı. Bütün bunlar Zərifə Əliyevada şəxsiyyət olmaq, xalqın ümumi işi üçün nə isə etmək istəkləri yaratdı, onu maarifə və elmə bağladı.

Zərifə xanım orta məktəbi bitirəndə 1942-ci il idi. Sovet-alman cəbhəsində vəziyyət getdikcə gərginləşirdi. Atası da daim əsgər şinelində idi, evdə üzünü az-az görürdülər. Dövlətin onun qarşısında qoyduğu vəzifələri yerinə yetirmək üçün çətinliklərin üzərinə gedir, ən çətin bölgələrdə – İranda, daha sonra isə Dağıstanda siyasi iş aparırdı. Müharibə ağır bir sınaq idi. Bunların hamısına dözmək tələb olunurdu. Belə şəraitdə büdrəmək, gileylənmək olmazdı. Başqalarına nümunə göstərmək lazım idi. Zərifə xanım da buna çalışırdı. O zaman Bakıdakı bir çox binaları hospitala çevirmişdilər. Bu binalar cəbhədən aramsız göndərilən yaralılarla dolurdu. Onların müalicəsi, yaralılara tibbi qulluq üçün bəzən həkim personalı kifayət etmirdi. Məktəbdə keçirilən dərslər, gərgin imtahan hazırlıqları ilə yanaşı, Zərifə rəfiqələri ilə birgə tez-tez hospitallara gedir, yaralıların müalicəsində, onlara sanitar xidmətdə tibb heyətinə kömək göstərir, əli qələm tutmayan yaralıların adından onların ailələrinə məktublar yazır, bir sözlə, bacardığı qədər gərəkli olmağa çalışırdı.

O, ağır və mürəkkəb bir dövrdə orta məktəbi uğurla başa vurub, 1942-ci ilin yayında qəbul imtahanlarını müvəffəqiyyətlə verdi. Artıq Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə fakültəsinin tələbəsi idi. Hələ tələbəlik illərində görkəmli həkim, institutun müəllimi Umnisə Musabəyova çalışqanlığını görüb, ona göz xəstəlikləri üzrə ixtisaslaşmağı məsləhət bilmişdi. Həyat göstərdi ki, müdrik müəllimə öz tövsiyəsində yanılmayıb. Zərifə xanım bütün ömrü boyu bu seçimə sadiq qaldı. Minlərlə insanın gözünün şəfasına çevrildi. Praktik həkimlik fəaliyyəti ilə yanaşı, fundamental əsərləri ilə oftalmologiya elmini zənginləşdirdi, gözlərə nur, qəlblərə sevinc bəxş etdi.

***

1947-ci ildə ali məktəbi əla qiymətlərlə bitirən Zərifə Əliyeva daha çox praktik biliklərə yiyələnməkdən ötrü Moskvaya Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna getdi. Bu gedişin daha bir məqsədi vardı: Azərbaycanı bürümüş traxoma epidemiyasına qarşı mübarizə arzusu! Ölkədə məhz bu yöndə ixtisaslı həkimlərə çox böyük ehtiyac duyulurdu. Zərifə xanım isə ümumi müalicə fakültəsini bitirmişdi. Göz xəstəlikləri üzrə ixtisaslaşmaq üçün mütləq əlavə təhsil zəruri idi. Həm də göz viruslarının regional fərdiliyi də vardı və infeksiya ilə mübarizə həm də bu fərdiliyi fundamental şəkildə öyrənməyi tələb edirdi. Zərifə xanım məhz bunu qarşıya məqsəd qoydu. Onun ezam olunduğu Helmqolts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu bu sahədə SSRİ-nin aparıcı elmi müəssisəsi sayılırdı. Orada keçmiş İttifaqın ən nüfuzlu göz həkimləri çalışırdılar. Gələcək elmi fəaliyyət üçün buradakı elmi mühit çox münasib idi. Heç bir elmi avtoritetin bütləşdirilmədiyi, hər kəsin elmi tənqidlərə açıq olduğu və beləliklə, ənənələr üzərində yeniliklərin inkişaf etdiyi bu mühitdə Zərifə xanımın gəldiyi

əsas qənaət ondan ibarət oldu ki, elmdə öz yolunu tapmaq üçün ancaq oxumaq, öyrənmək, təcrübəli alimlərdən görüb-götürmək lazımdır.

O illərin Moskvası da gənc həkim üçün böyük bir həyat məktəbinə çevrilmişdi. Bu mühit mənəvi cəhətdən onun şəxsiyyət kimi inkişafında böyük rol oynadı. 24 yaşına qədər ailə mühitində, doğmalarının əhatəsində yaşayan gənc azərbaycanlı qız evdən-ocaqdan uzaqlarda müstəqil həyata qədəm qoydu. Burada onun üçün yeni bir aləm açıldı. Ətrafda müharibədən qalmış məhrumiyyətlər, qıtlıq, kasıblıq hökm sürsə də, insanların gözləri gələcəyə ümidlə dolu idi. Yoxsulluq, ağır həyat şərtləri heç kimdə bədbinlik yaratmırdı. Çünki ölkə faşizmə qarşı müharibədən qələbə ilə çıxmışdı. Bu qələbə ruhu hamını gələcəyə aparırdı. Müharibədən sonra adamlarda daha böyük həyat eşqi vardı. Hər yanda tikinti-quruculuq işləri gedirdi. Moskva Zərifə xanım kimi təhsil ardınca gəlmiş gənclərlə dolu idi. Faşizmi böyük qanlar və qırğınlar bahasına əzmiş bu nəsil gələcəyə, çətinliklərin aradan qalxacağına, insanların əmin-amanlıqla dolu bir dünyada xoşbəxt yaşayacaqlarına inanırdı.

Müharibə tibbin cərrahiyyə sahəsinə də böyük təkan vermişdi. Ağlasığmaz əməliyyatlar həyata keçirilirdi. Moskvada Zərifə xanım o dövrün məşhur tibb alimləri ilə tanış oldu. Göz xəstəliklərinin müalicəsində, göz cərrahiyyəsində tətbiq olunan yenilikləri tez bir zamanda mənimsədi. Bu şəhərin elmi mühitində özünə çoxlu dostlar tapdı, onlara bağlandı, bəziləri ilə sonralar müştərək tədqiqatlar apardı, kitablar çap etdirdi. Belə dostların əksəriyyəti sonralar onun elmi işlərinin rəyçiləri və opponentləri oldular.

***

1949-cu ildə Bakıya qayıdandan sonra Zərifə Əliyeva yüksək ixtisaslı göz həkimi kimi Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda işə başladı. Azərbaycanda geniş yayılmış traxoma virusunun qarşısını almaq onun elmi tədqiqatlarının və praktik fəaliyyətinin əsasını təşkil edirdi. 1950-ci ildə əla qiymətlərlə aspiranturaya daxil olduqdan sonra da namizədlik dissertasiyasının mövzusu kimi məhz bu istiqaməti seçmişdi.

Hələ inqilabdan əvvəl Azərbaycanın şoran ərazilərində, Kürqırağı məntəqələrdə, küləyin güclü olduğu yerlərdə göz xəstəlikləri kütləvi hal almışdı. İkinci Dünya müharibəsinin sıxıntılarından sonra bu bəla 50-ci illərdə daha da güclənmişdi. Bu xəstəlik epidemiyaya yoluxan kütləvi sayda insanın simasını eybəcərləşdirir, bəzən eyni ailənin bir neçə üzvünü dünya işığına həsrət qoyurdu. Bu bəlanın qarşısını almaqdan ötrü həkim briqadaları Azərbaycanın müxtəlif rayonlarına elmi ekspedisiyalara çıxırdı. Bu ekspedisiyaların ən fəal könüllülərindən biri də məhz Zərifə xanım Əliyeva idi. Onlar infeksiyanın ən kütləvi xarakter aldığı yerlərə gedir, öz sağlamlıqlarını riskə qoyaraq insanları traxoma bəlasından xilas etməyə çalışırdılar. Ağır xəstələri müalicə edir, elmi mühazirələr oxuyur, evlərə gedib maarifləndirmə işləri aparırdılar. Bununla da xəstəliyin yaranma səbəblərini araşdırır, xəstəlik ocaqlarında kompleks şəkildə müalicə-profilaktik tədbirlər həyata keçirirdilər. Böyük alim uşaq evlərində tərbiyə alan kimsəsiz uşaqlar arasında yayılan traxoma xəstəliyinin qarşısının alınması üçün xüsusilə böyük səy göstərirdi. Bu sahədə uğurlu tədqiqatların nəticələri Zərifə xanımın 1960-cı ildə müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edəcəkdi. Onun irəli sürdüyü müalicə metodu tezliklə bütün respublikada tətbiq olunacaq və ölkə əhalisi bu xəstəlikdən qurtulacaq, beləliklə, Zərifə xanım Azərbaycanda traxoma bəlasının ləğvinə müyəssər olmuş alim kimi adını tarixə yazacaqdı. Bütün bunlar bir neçə il sonra baş verəcəkdi.

Hələliksə, 1947-ci il idi və Moskvada təcrübə keçən Zərifə xanımı gələcək taleyini müəyyənləşdirəcək maraqlı bir təsadüf gözləyirdi.

***

Ulu öndər Heydər Əliyevin böyük qardaşı Həsən Əliyev Əziz Əliyevlə ailəvi dost idi. Heydər Əliyevlə Zərifə Əliyevanın tanışlığına da bu münasibət vəsilə olmuşdu. Onlar ilk dəfə 1947-ci ildə Kislovodskda rastlaşmışdılar. Ulu öndər o günü belə xatırlayırdı: “Böyük qardaşım akademik Həsən Əliyev Kislovodska dincəlməyə gedəndə məni də dəvət etdi… Orada heç kimi tanımırdım, qardaşımınsa çoxlu tanış-bilişi vardı. Gözümə bir qız dəydi, sonra tanış olduq. Məlum oldu ki, böyük qardaşım onun ailəsini, atasını yaxşı tanıyırmış. Mənim tanışlığım qısa olsa da, bu qız nədənsə ürəyimi tərpətdi…”

Onda Heydər Əliyev baş leytenant idi. Bu tanışlıqdan az sonra onu perspektivli zabit kimi Leninqrada, SSRİ DTN-nin rəhbər kadrlarının hazırlanması üzrə məktəbə göndərdilər. Hazırlıq kursunu başa vurub Bakıya qayıtdıqdan sonra tale onları yenidən rastlaşdırdı. Göygözlü, ucaboylu, hərbi mundirli, yaraşıqlı zabit gənc qızın xəyallarına uyğun idi. Onlar həyat yollarını birləşdirməyə qərar verdilər.

Lakin hələ Stalin sağ, Mir Cəfər Bağırov isə öz taxtında idi. Gənclərin romantik münasibətləri sınaqlardan keçməli oldu. Repressiya dalğası Əziz Əliyevdən də yan ötməmişdi. Əziz Əliyevə ictimai ehtiramı gözü götürməyən Mir Cəfər Bağırov bu böyük şəxsiyyətin timsalında özünün rəqibini görürdü. Çünki müharibə illərində siyasi rəhbər kimi İranda gördüyü işlər, daha sonra Dağıstan Vilayət Partiya Komitəsi rəhbərliyində ona tapşırılmış vəzifələri uğurla yerinə yetirməsi Əziz Əliyevə Kremldə də yüksək etimad yaratmışdı. Bunun fərqində

olan Mir Cəfər Bağırov isə onu müxtəlif repressiv metodlarla sıradan çıxarmağa, karyera yollarını bağlamağa çalışırdı. O, bundan ötrü ən hiyləgər metodlardan istifadə edirdi. Əvvəlcə Moskvaya dalbadal məktublar yazıb Əziz Əliyevi baş nazirin müavini vəzifəsinə gətirməyə nail oldu. Lakin vəzifəyə təyin olunan kimi DTK-da ona qarşı iş açdırdı: Əziz Əliyevi "millətçi"likdə və sosial mənşəyini gizlətməkdə ittiham etdilər. Tezliklə partiya töhməti verib ən kiçik bir vəzifəyə keçirdilər. Heydər Əliyevlə Zərifə xanımın tanışlığının ilk illərində Əziz Əliyev ailəsinin hətta Qazaxıstana sürgün olunmaq təhlükəsi vardı. Ailənin hər bir üzvü nəzarətdə saxlanırdı. Həmişə qonaq-qaralı olan bu ocaqdan çoxları repressiya qorxusundan ayağını üzmüşdü. Belə bir vaxtda təhlükəsizlik xidməti zabitinin şəxsi həyatı ilə bağlı göstərdiyi yüksək cəsarət yuxarılara xoş gələ bilməzdi.

O çətin günlər barədə 1997-ci ildə, Əziz Əliyevin 100 illik yubileyinə həsr olunmuş mərasimdə ulu öndər Heydər Əliyev özü danışdı. 1952-ci ildə o zaman Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olan Yemelyanov onu iki dəfə kabinetinə çağırır. Tələb qısa idi: yuxarıların gözündən düşmüş Əziz Əliyevin evinə gedib-gəlmək, onun qızı ilə görüşmək məsul işdə çalışan zabit üçün arzuolunmazdır, işini itirə bilər. Gənc zabit çətin vəziyyətdə qalmışdı. Amma o, asan təslim olanlardan deyildi. Zərifəni sevirdi və ondan ayrılmağı təsəvvürünə də gətirmirdi. Bu mülahizələri o, açıq şəkildə nazir Yemelyanova dedi. O isə eyham vurdu ki, Mir Cəfərin tapşırığını icra edir, qəti qərar qəbul etməksə cavan zabitin öz işidir.

Sonralar Heydər Əliyev o illərin düşüncələrini etiraf kimi dilə gətirəcəkdi:

"Bilirsiniz necə fikirləşirdim? Mən DTK-da işləyirdim və bilirdim ki, onun atasının ətrafında nələr baş verir, onu necə izləyirlər. Və mən bilirdim, eşitmişdim ki, onların ailəliklə Qazaxıstana sürgün edilməsi planı var. Mən fikirləşirdim ki, əgər onları sürgün eləsələr, mən Zərifənin ardınca Qazaxıstana gedəcəyəm, ola bilsin orada mənə iş tapmaq buradan daha asan oldu". Amma ulduzlar sevgililərin tərəfində idi… Yemelyanovla Heydər Əliyevin söhbətindən yarım il sonra – 1953-cü il martın 1-də Stalin Moskvadakı bağ evində huşunu itirdi. Martın 5-də isə onun vəfatı xəbəri bütün dünyaya elan olundu. Bu, Mir Cəfər Bağırov hakimiyyətinin də sonu demək idi. Tezliklə Azərbaycan xalqına qarşı repressiya cinayətləri törətmiş bir çoxları kimi o da, Yemelyanov da ədalət mühakiməsi qarşısında dayanaraq layiq olduqları cəzaya çatdılar. Bu, ədalətin təntənəsi idi. Xeyir şər üzərində zəfər çaldı. Heydər Əliyevlə Zərifə xanım Əliyevanın məhəbbəti qismətlərinə düşən sınaqlardan açıq çıxaraq öz ziyası ilə onların ailə ocağını nurlandırdı. 1954-cü ilin noyabrında onlar kəbin kəsdirdilər. Dövlətin bir müddət əvvəl Heydər Əliyevə verdiyi mənzildə sadə bir toy mərasimləri oldu.

…Bu, yığcam, rəsmi tələblərə uyğun musiqisiz bir məclis idi. Toyda Əziz Əliyev, Həsən Əliyev, akademik Murtuza Nağıyev, bəylə gəlinin anaları və yaxın qohumları iştirak edirdilər. Qarşılıqlı məhəbbət üzərində qurulan ailə xoşbəxt idi. Onlar bir-birinin timsalında sevgilərinə qovuşmuş, mənəvi dayaq tapmışdılar.

***

Heydər Əliyevin məşğul olduğu iş ondan böyük zaman tələb edirdi. O, öz işini sevir, çalışmaqdan yorulmurdu. Zərifə xanımın da işi az deyildi. Xəstələrin müayinə və müalicəsi, ekspedisiyalar, elmi axtarışlar, dissertasiya üzərində iş… Amma əsl Azərbaycan qadını kimi onun üçün də ailə qayğıları, həyat yoldaşına kömək hər şeydən öndə gəlirdi. Atasının taleyindən bilirdi ki, dövlət adamlarının əsas dayağı ailədəki sabitlikdir. Dövlət işində tez-tez baş verən fırtınalar qarşısında davam gətirmək üçün böyük liderlər ən çox ailənin rahat, hərarətli mühitinə, doğmalarının sevgisinə ehtiyac duyurlar. 1955-ci ildə ilk övladları Sevil dünyaya gəldi. Gənc ailənin sevincinin həddi-hüdudu yox idi. Evdə eşidilən körpə səsi onların dünyasını fərəhlə doldurmuşdu. 1961-ci ilin dekabrında isə tale bu ailəyə ikinci övladları İlhamı bəxş etdi. Zərifə xanım övladlarının qayğıları və tərbiyəsi ilə özü məşğul olurdu. O, bundan böyük zövq alırdı.

İlhamın yeddi yaşı olanda Heydər Əliyev respublikanın birinci şəxsi seçildi. Bu, gənc ailəyə doğma olan bütün insanlar üçün böyük sevinc və təntənə idi. Zərifə xanım isə bu nailiyyətin böyük məsuliyyət hissini də yaxşı dərk edirdi. Çünki ətrafda yüksək vəzifəni başqalarından seçilmək, müxtəlif sosial imtiyazlar qazanmaq, kənara təkəbbür göstərmək, harınlıq kimi başa düşənlər o zaman da kifayət qədər idi. Zərifə xanım isə anlayırdı ki, ailə başçısının yüksək ictimai statusuna baxmayaraq, sadəlikdə, səmimiyyətdə, insanlara xoş münasibətdə, davranışda başqalarına nümunə olmaq, xüsusilə övladları heç bir güzəşt və üzgörənlik olmadan tərbiyə etmək, onlara ən yüksək təhsil vermək gərəkdir. Birinci növbədə isə zəhməti, məktəbi, təhsili sevməyi öyrətmək, sadəliyi və xeyirxahlığı tərbiyə etmək lazım idi. Bu ana borcu idi və Zərifə xanım öz borcunu ləyaqətlə yerinə yetirirdi.

***

Respublikanın birinci şəxsinin həyat yoldaşı olmaq Zərifə xanımın üzərinə böyük ictimai vəzifələr qoyurdu. Onu diqqət mərkəzinə gətirirdi. Amma o, bütün ömrü boyu özünə də, başqalarına da təlqin etdiyi həyat prinsiplərini əsla dəyişmədi. İctimai yerlərdə, dövlət tədbirlərində diqqəti cəlb etməməyə, sadə həyat tərzini davam etdirməyə çalışdı. Dəyişən isə yalnız Zərifə xanımın insanlara daha çox kömək etmək imkanına sahib

olması idi. O, iş yoldaşlarının, kömək üçün müraciət edən şəxslərin müəyyən məişət problemlərinin həlli üçün imkanı daxilində müxtəlif orqanlara müraciətlər göndərirdi. İnsanlara kömək etməkdən zövq alırdı.

Zərifə xanım illərdən bəri üzərində çalışdığı namizədlik dissertasiyasını hələ 1960-cı ildə uğurla müdafiə edib tibb elmləri namizədi elmi dərəcəsi qazanmışdı. Sonra isə oftalmologiya elmi üçün vacib olan digər bir istiqamətə – qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı tədqiqatlara başlamışdı.

1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışdı. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona “Oftalmologiya” ixtisası üzrə böyük elmi işçi adı verdi. 1967-ci ildə isə o, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olundu. Bu institut ömrünün son illərində həmin kollektivə rəhbərlik etmiş mərhum professor Əziz Məmmədkərim oğlu Əliyevin – Zərifə xanımın atasının adını daşıyırdı.

1968-ci ildən Zərifə xanım Əliyeva görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Zərifə xanım bu problemi tədqiq edərkən çox vaxt bilavasitə sənaye müəssisələrində olur, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Eyni zamanda, Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

1977-ci ildə Zərifə Əliyeva Moskvada Helmqolts adına Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda “Azərbaycan kimya sənayesinin bəzi müəssisə işçilərinin görmə orqanlarının vəziyyəti” mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edərək tibb elmlər doktoru elmi dərəcəsi aldı. Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında əvvəl professor, sonra isə kafedra müdiri seçildi.1979-cu ildə isə görkəmli oftalmoloqun təşəbbüsü ilə daha bir əlamətdar hadisə baş verdi. Azərbaycan Elmlər Akademiyasının Ə.Qarayev adına Fiziologiya İnstitutunda Azərbaycanda ilk dəfə professional göz xəstəliklərini öyrənən laboratoriya açıldı. Zərifə xanım həmin laboratoriyanın rəhbəri oldu. Əslində, bu, dünya şöhrətli alimin elmi məktəbi idi. Bu dövrdə onun şin və yod istehsalında göz patologiyasına həsr olunmuş iki monoqrafiyası çıxdı və yüksək qiymətlər aldı. Alim virus mənşəli göz xəstəlikləri barədə də qiymətli əsərlər qələmə almışdı. Həmçinin göz cərrahiyyəsi, həkim etikası, gənc kadrların hazırlığı ilə bağlı problemlər onu ömrü boyu narahat edirdi. Bu mövzularda dəyərli əsərləri indi də aktuallığını qoruyur.

***

Ulu öndər Heydər Əliyevin də, akademik Zərifə xanım Əliyevanın da əldə etdikləri uğurların təməlində onların bir-birinə qarşılıqlı dəstəyi dururdu. Azərbaycan qadınının cəmiyyət həyatındakı yerini və rolunu daha yüksəklərdə görmək istəyən Heydər Əliyev ailə başçısı kimi də belə bir yanaşma sahibi idi. Ailə həyatının ilk günlərindən o, həyat yoldaşını məişət qayğılarını mümkün qədər məhdudlaşdırıb elmi fəaliyyətini gücləndirməyə həvəsləndirirdi. Ona mənəvi köməyini əsirgəmirdi. Həyat yoldaşının dəstəyi, özünün əzmkarlığı sayəsində Zərifə xanım gənc vaxtlarından alim kimi axtardığı yolunu, elmin böyük yolunu nəhayət, tapmışdı. Onun oftolmologiya sahəsində qazandığı uğurlar Azərbaycan tibb elminin böyük nailiyyəti idi. Bütün bunlar 1983-cü ildə Zərifə Əliyevanın Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə elmi etirafını tapdı. Onun alim şöhrəti artıq Azərbaycanın sərhədlərini çoxdan aşmışdı.

1982-ci ildə ulu öndər Heydər Əliyev Siyasi Büronun üzvü seçildi və Moskvada SSRİ hökuməti sədrinin birinci müavini təyin olundu. Zərifə xanım uşaqlarla birgə Moskvaya köçdü. Onlar bu böyük şəhərdə yeni bir həyata başlamışdılar. Zərifə xanımın böyük arzu və ümidləri, yeni elmi layihələri vardı. Əfsus ki, tale aman vermədi. Çarəsiz xəstəlik 1985-ci ildə onun ömrünə son qoydu. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bu itkinin acısını müsahibələrinin birində belə dilə gətirəcəkdi: “Təəssüf ki, mənim Zərifə xanımla ünsiyyətim qısa oldu. Biz 1983-cü ildə tanış olduq, 1985-ci ildə Zərifə Əliyeva həyatdan getdi. Bu istedadlı və gözəl qadınla bağlı xatirələr hələ də mənim qəlbimdə yaşayır.” Təbiətin amansız hökmləri var. O, vəfat edərkən sevimli İlhamının hələ iyirmi dörd yaşı vardı. Həyatda o, ən çox övladları ilə fəxr etmək istəyirdi. Gözünün nuru olan əziz İlhamının uzun illər təhsilinə, tərbiyəsinə, kamil insan kimi yetişməsinə ana kimi özünü həsr edən Zərifə xanıma bu gün övladının Prezident kimi ümumxalq məhəbbətini qazanaraq bu yüksək zirvəyə ucalmasını görmək qismət olmadı. Bu fərəhi bu gün bütün Azərbaycan yaşayır. Bu, Zərifə xanımın tərbiyəsinin təntənəsidir! Onun şəfqətinin, məhəbbətinin yaratdığı xarüqələrdir.

Bu gün Zərifə xanımın övladı ilə bütün Vətən fəxr edir. Bu fərəhdə və iftixarda ömrünü övladlarına həsr etmiş bir ləyaqətli anaya millətin məhəbbəti böyükdür! Bu gün bu məhəbbət nur heykəlinə çevrilərək xalqın yollarına işıq saçır, xoşbəxt gələcəyə körpü salır…

**Azərbaycan.** – 2018.- 28 aprel. – № 95. – S. 1,5.

## Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz salan ziyalı qadın

***Bu gün görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın doğum günüdür***

**Zümrüd Bayramova**

***"Cənnət anaların ayağı altın dadır" ulu peyğəmbərimizin buyurduğu kəlam anaya, qadına verilən qiymətin ən ali dəyərdir. Azərbaycan qadınları çoxəsrlik mənəvi, əxlaqi dəyərləri, milli adət-ənənələrimizin qoruyucusu, dünya sivilizasiyasına öz töhfələrini verən varlıq kimi bu dəyərlərin içində ən ülvi sevgiyə layiq olmuşlar. Bir qadın ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, bacı, həyat yoldaşı, Vətən keşiyində duran elmli, zəkalı ziyalı. Ali və ülvi hisslər uğrunda fədakarlıq göstərən, müdriklik dolu bir ömür yaşayan qadınlar doğma ocağın istisinə sığınaraq, övlad tərbiyə edir, bir ailənin məsuliyyətini, yükünü üzərində daşıyırlar. Tarixən Azərbaycan qadınlarını fərqləndirən dəyərləri onları dünya miqyasında şöhrətləndirib.***

Elm, ədalət, səxavət, səbir, həya, ismət kimi keyfiyyətlər Azərbaycan qadınlarının həyat simvoluna çevrilib. Bu dəyərlər içərisində Azərbaycan qadını güclüdür, fədakardır. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz salan qadınları sırasında əməlləri ilə seçilən və sevilən, ən yüksək bir pillədə dayanan Zərifə xanım Əliyevanın adı əbədidir. Yaşanılan ömür yolunun sərlövhələri onu zamanımızın seçilən xanımı olması ilə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirib.

### Onun ömür işığında qaranlıq dünyalara şəfa verildi

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur. Onun olduqca zəngin və şaxəli həyat yolu bir çox istiqamətlərdə özünü büruzə verir. Bu həyat yoluna nəzər saldıqda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, tədqiqatçı ömrü, həkim ömrü, alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çalarlı bir ömrünü yazılı salnamələrdə əks etdirdi. Onun ömür işığında qaranlıq dünyalara şəfa verildi. Zərifə Əliyeva… Duyğulu, düşüncəli, fərqli bir dünyası ilə zamanla əqidəsini bir vaxtda cəmləşdirib həyat fəlsəfəsinin silinməyən izlərini özü də hiss etmədən gərgin axtarışları, zəhməti, elmi biliyi ilə bu aləmə həkk etdi. Bu ömrün yazılmış səhifələrində Zərifə xanımın portretini sezməmək mümkün deyildi. Qəlb dünyasının işığı onun Azərbaycan məkanında tanınmasına gətirib çıxardı. Sonralar bunun coğrafi məkanı daha da genişləndi. Sərhədləri ilə tanınan dünyamızı yaratdığı əsərləri, elmi kəşfləri, axtarışların nəticəsi birləşdirdi.

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Görkəmli alim, ictimai xadim, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya institutunun laboratoriya rəhbəri, Azərbaycanın əməkdar elm xadimi, Tibb Elmləri Akademiyası mükafatı laureatı, Sülhü Müdafiə Komitəsinin üzvü, "Bilik" Cəmiyyəti Rəyasət Heyətinin üzvü Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Kimya sənayesində göz zədələnmələrinin öyrənilməsinə və praktikasına dair orijinal əsərlər silsiləsinə görə Tibb Elmləri Akademiyası onu akademik M.İ. Averbax adına mükafatla təltif etmişdir. Zərifə Əliyevanın Azərbaycan EA-nın akademiki seçilməsi Onun böyük xidmətlərinin, çoxillik səmərəli elmi tədqiqat işinin etirafıdır.

### Zərifə xanım həm xeyirxah, həm ağıllı, həm də qüdrətli idi!

Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun "Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyevanın elmi fəaliyyətini, peşəkarlığını yüksək qiymətləndirmişdilər. Belə ki, Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A. Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M. Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm Xeyirxah idi, həm Ağıllı idi, həm də Qüdrətli idi!"

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, onun fədakar ana

olmasından irəli gəlirdi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında dərindən və qabarıq duyulurdu.

***Əziz anam, şirin sözlü anam,***
***Qəlbin kövrək, eşqin solmaz bahar.***
***Gülər üzlü, qara gözlü anam,***
***Hara getsəm gözün mənə baxar.***
***Ana qəlbin layla otar gəzər,***
***Doğma səsin ömrü-günü bəzər.***

Müasirləri onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu vurğulayırlar. Zərifə xanım Əliyeva işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq mülayimliyi ilə, həssaslığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Ümumiyyətlə, Zərifə xanımın həyatı Azərbaycan qadınları üçün bir məktəbdir. Elə bir məktəbdir ki, uzun illər boyu öyrəniləcəkdir. Unudulmaz və əziz xatirəsini yad etdikcə bu parlaq şəxsiyyətin elmimizə, səhiyyəmizə, milli və mənəvi varlığımıza bəxş etdiyi dəyərləri təkrarən dərk edir, Onun ölməz ruhu qarşısında bir daha baş əyirik. Dünya şöhrətli şəxsiyyət Zərifə xanımın ömür-gün yoldaşı Ümummilli Lider Heydər Əliyev Azərbaycan qadınları haqqında deyirdi: "Azərbaycan qadını mərd, sədaqətli, qeyrətli, namuslu qadındır. Mən dünyanın çox yerini gəzmişəm, dünya qadınlarını görmüşəm, fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir".

Bəli, bunu çox doğru söyləmişdi Ulu Öndər. Çünki Azərbaycan qadınları dünyada yaxşı nə varsa ona layiqdir. İnsanlığa və insanlara qiymət verməkdə mahir, səriştəli olan müdrik siyasətçi Ulu Öndər Heydər Əliyev bu cəhətdən də gözəl sədaqətli həyat yoldaşı, peşəkar alim, qayğıkeş ana, mehriban nənə kimi Zərifə xanım Əliyeva seçimində yanılmamışdır. Zərifə xanım Azərbaycan xalqına məxsus, milli-mənəvi, əxlaqı dəyərləri özündə cəmləşdirmiş bir Ana idi. O, həmişə yüksək səviyyədə evdarlığı, qayğıkeşliyi və mehribanlığı ilə başqalarından fərqlənirdi. Qayğılar içərisində olan Zərifə xanımın gözəl övladlar yetişdirməsi və ictimai fəaliyyəti bu gün də örnək olacaq bir fəaliyyətdir. O, əməli işin xoş təəssüratları ilə hamının qəlbində daim örnək olaraq yaşayır və yaşayacaqdır. Zərifə xanım zaman- zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. Bu gün Azərbaycan qadınının xeyirxahlıq, Analıq simvoluna çevrilmiş akademik Zərifə xanım Əliyevanın həyat yolu alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandırır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir.

**Səs.**-2018.-28 aprel.-№82.-S.3.

# Sevgi onun ən böyük məziyyəti idi

## Akademik Zərifə Əliyeva – 95

**Paşa Qəlbinur**,
Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının müdiri, professor

***ANA! Bu sözün canlı varlıqlarda gücü, anlamı eynidir. Övlad yolunda, dünyaya gətirdiyinin xatirinə həyatından belə keçmək qüdrəti. Mütləq məhəbbətin bir nümunəsi. Gəlin etiraf edək ki, bu qan yaddaşından gələn məhəbbətin də dərəcələri olur. Belə deyək ki, daha böyükləri, nəhəngləri var. Və bu nəhəng hisslər, sevgilər zərif analarımızın kövrək qəlbindədir. Analar övladlarını laylalarla, bayatılarla oxşayırlar. Övladlar analarını onlara qoşulmuş şeirlərlə əzizləyirlər.***

Zərifə xanım haqqında bir ana kimi danışanda öz müşahidələrimdən başqa, xatirələri mənə həmişə əziz olan iki gözəl insanın – müəllimlərim professor Zəhra xanım Quliyeva və dosent Ləzifə xanım Əliyevanın (Ləzifə Əliyeva Zərifə xanımın böyük bacısı idi) sözləri yada düşür. Onlar danışırdılar ki, Zərifə xanım övladlarına ülvi məhəbbət bəsləyən bir ana idi. İşdə müxtəlif kabinetlərdəki telefonlardan (çox nəzərə çarpmasın deyə) ara vermədən zəng edib, evdə qoyub gəldiyi ciyərparalarını soruşardı. Və bu telefon danışıqlarından yalnız birini dinləyən adam heç vaxt onu unutmaz, bir ananın övladlarına olan məhəbbətinin ifadəsini ömrü boyu özüylə gəzdirərdi…

Onun həyat yoldaşı – o zamanlar Azərbaycan KP MK-nın birinci katibi işləyən Heydər Əliyevə olan münasibətindən bir məqamın şahidi olmuşdum: Ləzifə xanımgildə balaca nəvəsi Eminin ad günündə (anam İldız xanımla mən də orada idim) bir gün əvvəl televiziya ilə verilən iclasda Heydər Əlirza oğlunun parlaq çıxışından söhbət düşəndə Zərifə xanımın gözlərinin, üzünün ifadəsini heç zaman unutmaram. Bircə onu dedi ki, mən nəfəsimi dərmədən bütün çıxışı dinlədim, heyran olmuşdum.

Zərifə xanım yeri gələndə çox incə yumorla danışardı. Gülarə xanım da doğmaları, yaxınları ilə şux zarafatlar edərdi. O məclisdə Ləzifə xanım bir az soyuqlamışdı. Gülarə xanım bunu bilib gülə-gülə dedi ki, Ləzi bacı (o Ləzifə xanımı mehribancasına belə çağırardı) eybi yoxdu, keçib gedəcək, təki xəstələnək, ancaq ölməyək. Zərifə xanımın yerində olan incə yumorlarından Zəhra xanım, Ləzifə xanım, kafedramızın onunla həmyaş olan dosentləri Səkinə xanım, Rəfiqə xanım saatlarla danışardılar. İncə, zərif, yerinə düşən yumor yüksək zövq sahiblərinə, geniş dünyagörüşlü əsilzadələrə məxsus əlamətdir və çox təəssüf ki, bu hamıya nəsib deyil. Bu səadət Zərifə xanımın saysız-hesabsız üstünlüklərindən, tale vergilərindən biri idi.

Allah-taala onu valideynlərindən də yarıtmışdı. Dünyanın ən xeyirxah kişilərindən, alimlərindən, siyasi xadimlərindən, ləyaqət sahiblərindən, nəhayət, seçilmişlərindən biri olan Əziz Əliyevin ailəsində dünyaya gəlmişdi Zərifə xanım. Anası Leyli xanım xanımlar xanımı, ağlı-zəkası dünyanı idarə edə biləcək bir hikmət, nur idi. Leyli xanımın da könüllərdə qoyduğu izlər heç vaxt unudulmayacaq gözəllikdə idi. O söhbətlərdən bir epizodu, bir yarpağı xatırladım. Leyli xanım danışırdı ki, həyat yoldaşı Əziz müəllim uzun müddət Vətəndən uzaqda işləyirmiş. O vaxt uşaqların böyüyü Ləzifənin (Leyli xanımın dilindən deyirəm – P.Q.) əlindən tutub Mircəfərin (Mircəfər Bağırov) qəbuluna getdim, xahiş elədim ki, Əzizi Azərbaycana qaytarsın, nə iş verir-versin, lap adi iş olsun. O da qayıtdı ki, Leyli xanım, Əziz Azərbaycana gəlsə, o heç bir yerdə işləyə bilməz, ona layiq olan yer ancaq mənim yerimdir, onu da mən tutmuşam. Bunu deyib bir xeyli susdu. Mən də gözləmədiyim cavabdan sonra heç bilmədim nə deyəm, sağollaşıb gəldim evimizə.

Zərifə xanımın böyük qardaşı, professor Tamerlan Əliyev Tibb Universitetində terapiya kafedrasının müdiri idi. Ürəyimdə bir kitablıq söz, məhəbbət var onun ünvanına. İnşallah, ömür vəfa eləsə, yazacağam. Ancaq bircə onu deyim ki, bu yaşıma qədər doğmalarım, dostlarım, müəllimlərim qarışıq lap yaxından tanıdığım insanların bir siyahısı var ürəyimdə. Mən Allahımı heç vaxt unutmaram, ancaq o adamların Tanrı dərgahındakı hörmətlərinə güvənib dara düşəndə yalnız ürəyimdə pıçıltı ilə Allahdan sonra köməyimə çağırıram. O kiçik siyahıda Hüseyn babam da var. Olanlardan biri də Tamerlan müəllimdir. Çox böyük ləyaqət sahibi, nur daşıyıcısı olan professor Tamerlan Əziz oğlu Əliyev! Mənim üçün həmişə canlı olan müqəddəs insan! Bu böyük ailənin, nəsil-şəcərənin Zərifə xanımla bağlı hər bir üzvü – Dilbər xanım, akademik Cəmil Əliyev haqqında da saatlarla danışmaq imkanım var. Ancaq bu xatirə yazının çərçivəsinə uyğunlaşmalıyam.

Bir ailənin iki üzvü – olduqca böyük şəxsiyyətlərdən dünyaya gələn övladların genetik varisliyi valideynlərin və övladların böyük xoşbəxtliyidir.

Sevil xanımın qeyri-adi, çoxşaxəli istedad, savad, təvazökarlığında, mədəniyyətinin bu səviyyədə olmasında atasının və Zərifə xanımın müstəsna rolu olmuşdur. Uzun illər bundan əvvəl Zərifə xanımla anamın arasında olan bir söhbəti unuda bilmirəm. O söhbət Ləzifə xanımgilin evində Ləzifə xanım, qızı Svetlana xanım və Gülarə xanımın yanında olmuşdu. Zərifə xanım deyirdi ki, Sevil (o vaxtlar Sevilin 16-17 yaşı olardı – P.Q.) bir tikə pendir çörəyi qalanda belə atmır, tullamır, büküb qoyur ki, sonra yeyərəm. Atası ölkənin birinci yox, lap

yüzüncü adamı olan qız ya oğlandan bu cür nümunə, hətta deyərdim ki, müqəddəs davranış nadir hadisə idi, lap elə indinin özündə də heyrət və qibtə doğurardı…

Zərifə xanım alim idi. Zamanı qabaqlayan, onun fövqündə dayanan, adı böyük hərflərlə yazılan ALİM. Onun bir neçə istiqamətdə apardığı işlər illər keçəndən sonra daha da aktuallaşır, gərəkli olur, qiyməti daha da artır. Məsələn, gözün peşə xəstəlikləri ilə əlaqədar Sovetlər Birliyində yaradılan ilk sanballı elmi laboratoriya. Onun rəhbərlik etdiyi, böyük ideyaları reallaşdıran bu kollektivin gördüyü işlərin elmi nəticələri bütün dünyada qəbul olunurdu. Əslində, akademik Zərifə xanım Əliyeva dünyada bu elmi istiqamətin pioneridir. Heç də təsadüfi deyil ki, o, SSRİ Tibb Elmləri Akademiyasının yüksək Averbax mükafatına layiq görülmüşdü. Akademik Zərifə xanım Əliyevanın məşğul olduğu elmi istiqamətlərdən biri də iridodiaqnostikaya həsr olunan ilk elmi monoqrafiyanın aparıcı müəlliflərindən olması idi.

Zərifə xanım bu günü uzun illər əvvəl görüb, tibbi deontologiyaya aid qiymətli elmi-fəlsəfi əsərlər yazıb mərkəzi mətbuatda çap etdirirdi. Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A. N. Dobromıslovun dediyi kimi, Zərifə xanımın daxili aləmi, vəzifə borcuna, xəstələrə və ətrafdakılara münasibəti 1983-cü ildə nəşr etdirdiyi “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri” əsərində özünü daha parlaq büruzə verir. Bu mövzuya həsr olunan çıxışlarında Zərifə xanım bilik və təcrübəsini həkim həmkarlarına çılğınlığı, inam hissi ilə aşılayırdı. Qeyd etmək lazımdır ki, onun çap etdirdiyi elmi əsər mahiyyət etibarilə daha geniş əhəmiyyət kəsb edir, təkcə səhiyyə aləmində deyil, məişət və ailə əlaqələri də daxil olmaqla, bütövlükdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm rol oynayır.

Dünyaya gəldiyi gündən ölənə kimi insanlar bu və ya digər səbəbdən həkimlə, tibb bacısı ilə tez-tez üz-üzə gəlməli olurlar. Aydındır ki, səhiyyə işçilərinin vəzifə borcunu yerinə yetirməsi təkcə xəstəliyin müalicəsi və profilaktikasından ibarət deyil, həm də peşə bacarığından asılıdır. Zərifə Əziz qızı tibb işçisinin ətrafındakıların tərbiyəsində mühüm rol oynadığını, cəmiyyətin əxlaq etalonu olduğunu qeyd edirdi. Həkimin borcu Yer üzünün sülh və həyat uğrunda, insanın xoşbəxtliyi və səadəti naminə çalışmaqdır. Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin həyati mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: “ Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir”.

Özünün zəngin tibbi təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə Əziz qızı həkimin xəstə ilə necə davranmasına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin “sözlə” müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir. Mən bir dəfə Zərifə Əziz qızının xəstələri necə qəbul etdiyinin şahidi oldum. Xəstələr üzlərində təbəssüm, müayinə olunduqdan və müalicə təyin edildikdən sonra tezliklə sağalacaqlarına ümidlə professora Zərifə Əliyevaya inam hissi ilə otağı tərk edirdilər… Zərifə xanımın, bəlkə də, heç özü də bilmədən zəngin təcrübəsi zəncirvari reaksiya kimi beləcə başqalarına ötürülürdü.

O, Moskvada nəşr olunan o zamankı Sovet İttifaqının ən nüfuzlu oftalmoloji elmi dərgisi “Vestnik oftalmoloqii” jurnalının redaksiya heyətinin üzvü idi. Həmin jurnalın baş redaktoru Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun direktoru, akademik M. M. Krasnov idi. Həmin illərdə mən bu elm ocağında aspiranturada, sonra isə doktoranturada təhsil alırdım. Zərifə xanımla vaxtaşırı həmin elmi mərkəzdə, müxtəlif elmi toplantılarda, ya da jurnalın redaksiya heyətinin yığıncaqlarına gələndə görüşərdik. Bu qısa görüşlərdə o, çox səmimi olaraq, qayğılarımla maraqlanırdı.

Bir dəfə mənə dedi ki, Heydər Əliyeviç də sənin uğurlarını izləyir, sənin haqqında evimizdə söhbətlər olur. Mən qədirbilənliklə ona və Heydər Əlirza oğluna təşəkkür etdim. Bir müddət sonra Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun təqdimatı ilə elm sahəsində Ümumittifaq Lenin komsomolu mükafatına layiq görüləndə Heydər Əlirza oğlu Moskvadan Bakıya zəng edərək məni şəxsən təbrik elədi.

Heydər Əliyev illər keçəndən sonra mənfur M. Qorbaçovun həsədinə tuş gəlib, istefaya çıxıb Bakıya dönəndə Filarmoniyada yazıçıların qurultayında təsadüfən mənə yaxın oturacaqda, Xəlil Rza ilə yanaşı əyləşmişdi. Görüşdük. Fasilədə həmin zəngə görə bir daha təşəkkür etdim. Və bir də dedim ki, Siz Moskvadan məni təbrik etdiniz, ancaq burada Kamran Bağırov heç elə bil ki, yoxuymuş. Gülümsündü: “Fikir vermə, hamı bir olmaz ki…” – dedi.

Akademik Zərifə xanım Əliyevanın elmi-pedaqoji, ictimai fəaliyyəti haqqında yazılanlardan fərqli, qısaca öz müşahidələrimi qələmə aldım. O, bir övlad kimi, bir evin, bir kişinin xanımı kimi, bir ana kimi, alim, müəllim, vətəndaş kimi, həmişə ucadaydı. Elmi konfranslardan sonrakı toplantılarda, ya bayramlarda, ad günlərində əksər hallarda unudulmaz Gülarə xanım da iştirak edərdi, həmişə birinci mahnı sifarişi “Anamın anasısan, Azərbaycan” olardı. “Ana” və “Azərbaycan” sözlərini heç kim onun kimi tələffüz elə bilməzdi.

Akademik Zərifə xanım Əliyeva bir Prezidentin xanımı, digər Prezidentin anasıdır. Bu, onun taleyi idi. Böyük, olduqca böyük həssaslıqla duymaq, görmək, heyran olmaq, insanları, Vətəni sevmək onun böyük istedadı idi.

Böyük sevgidən yaranıb, böyük məhəbbətlə insanları, Vətəni sevənlər əbədi yaşayanlardır!

**Xalq qəzeti.** – 2018.- 15 aprel. – № 84. – S. 5.

## Xoş xatirələrlə yad edilir

**Cəmilə Səttarova**,
Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, əməkdar mədəniyyət işçisi

Hər bir insanın öz ömürnaməsi, həyat tarixçəsi olur. Bu ömürnamə zamanın hansı bir tarixində isə başlayır, hansında isə bitir. Görkəmli oftalmoloq, minlərin gözlərinə nur bəxş etmiş istedadlı həkim, yorulmaz alim, akademik Zərifə Əliyevanın ömürnaməsi baharda başlamışdı. Cəmi 62 il davam etmişdi. O, 1923-cü il aprelin 28-də dünyaya göz açmışdı. 1985-ci il aprelin 15-də dünyadan köçmüşdü. Zərifə Əliyeva o insanlardan idi ki, onun haqqında "həyat tarixçəsi bitdi" demək olmaz. Əksinə, 33 il əvvəl ailəsini, doğmalarını, dostlarını, pasientlərini, onu sevən xalqını tərk edərkən əbədiyyətə, tarixə qovuşmuşdur.

Zərifə xanım Əliyeva haqqında bir həkim, alim, pedaqoq, əsl Azərbaycan qadını kimi çox danışılıb, çox yazılıb. Bununla belə, onu vaxtilə yaxından tanıyanların, ünsiyyətdə olanların qəlbində elə xatirələr yaşayır ki, həmin xatirələrin çözülməsi bu işıqlı, nurlu xanımın necə böyük bir insan və alim olduğunu bir daha aydın göstərir.

Mənə də akademik Zərifə Əliyevanı yaxından tanımaq, onunla ünsiyyət saxlamaq xoşbəxtliyi qismət olub. Anam, professor Zəhra Quliyeva ilə yaxın rəfiqə, dost idilər… Odur ki, mən Zərifə xanımın necə şəxsiyyət olduğunu həm gördüyüm hadisələrdən, həm də anamın söhbətlərindən, xatirələrindən eşidib bilmişəm.

Onların tanışlığı ilk gənclik dövründən, hələ N. Nərimanov adına Dövlət Tibb İnstitutunun divarları arxasındakı tələbəlik illərindən başlamışdı. Anam təkcə Zərifə xanımı deyil, onun atası, görkəmli ictimai xadim Əziz Əliyevə, mehriban və xeyirxah qadın olan anası Leyla xanıma da böyük hörmət bəsləmiş, onları ürəkdən sevmişdi. Bundan əlavə, Zərifə Əliyevanın böyük bacısı Ləzifə xanım Tibb İnstitutunda onlara dərs demişdi. Anam danışırdı ki, onun gözünü oftalmologiya elminə Ləzifə xanım açıb. Üstəlik, Zərifə xanımın qardaşı – ensiklopedik biliyə malik, sonralar tanınmış həkim və alim olan Tamerlan Əliyev də onlarla eyni dövrdə təhsil almışdı.

Zərifə xanım Əziz Əliyevin sevimli övladı, onun böyük ailəsinin, necə deyərlər, gözü idi. O, hər şeydən öncə şəfalı əlləri, dərin biliyi olan həkim idi. 1947-ci ildə ali tibb təhsilini başa çatdırdıqdan sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə kurs keçmişdi. Elmi tədqiqatlara gənc yaşlarından böyük marağı olmuşdu. Bu səbəbdən də Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda həkim-ordinator kimi işə başlamışdır. 1950-ci ildə aspiranturaya daxil olmuş, oranı bitirdikdən sonra sözügedən institutda elmi işçi kimi çalışmışdı.

Bu, o illər idi ki, Azərbaycanda traxoma xəstəliyi baş alıb gedirdi. O zaman həmin xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Odur ki, problemin həlli təkcə oftalmologiya sahəsi üçün deyil, bütövlükdə Azərbaycan səhiyyəsi üçün prioritet hesab edilirdi. Bax, belə bir dövrdə Zərifə Əliyeva bu xəstəliyə qarşı aparılan müalicə və profilaktika tədbirlərinin təşkilinə və həyata keçirilməsinə fəal qoşulmuşdu. Klinikalarda xəstələri müalicə etməklə yanaşı, gənc alim traxomanın geniş yayıldığı rayonlara ezamiyyətlərə gedir, orada çalışan həmkarları qarşısında məruzələr edir, əhali arasında söhbətlər aparırdı.

Başqa sözlə, onun tədqiqatlarının mövzusunu zaman özü müəyyənləşdirmişdi. Alimin həmin istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə edilən "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası ilə nəticələndi. Bundan sonra Zərifə xanım çalışdığı elm ocağında böyük elmi işçi olmuşdur və 1967-ci ilə qədər bu institutda elmi fəaliyyət göstərmişdir.

Zəhra Quliyeva öz xatirələrində həmin illəri belə təcəssüm etdirmişdir: "Zərifə xanım tədqiqat üçün elmi mövzular seçərkən məsələlərə milli və dövlətçilik maraqlarından yanaşırdı. Onun namizədlik dissertasiyası o dövrdə oftalmologiya üçün sosial baxımdan aktual sayılan traxoma ilə mübarizəyə həsr edilmişdi. Traxoma korluq hallarının ən geniş yayılan səbəblərindən biri kimi dəhşətli ictimai bəlaya çevrilmişdi. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, dünyada 400 milyon nəfər traxomaya tutulmuş, 80 milyon insan isə bu səbəbdən kor olmuşdu. Azərbaycanda traxomanın aradan qaldırılması məsələsində Zərifə Əliyevanın araşdırmaları əvəzsiz rol oynamışdı. O, həmin namizədlik işi üzərində işləyərkən yüzlərlə, minlərlə xəstəyə şəfa vermişdi. Öz araşdırmalarını bir neçə müəssisədə aparmışdı. Biz oftalmoloqlar yaxşı bilirik ki, tədqiqatın klinikadan, institutdan kənarda aparılması hansı əziyyətlər hesabına başa gəlir. Bunlara dözüb, ortaya gərgin əməyin uğurlu yekunu olan sanballı bir əsər çıxarması Zərifə xanımın yüksək daxili mütəşəkkilliyindən, məqsədyönlülüyündən xəbər verirdi".

1967-ci ildə Zərifə Əliyevanı Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsində çalışmağa dəvət etmişdilər. Pedaqoji fəaliyyətlə, həkim kadrların təkmilləşdirilməsi ilə məşğul olmasına baxmayaraq, o, yorulmadan tədqiqatlarını da davam etdirmişdi. Oftalmologiyanın o zaman aktual sayılan sahələrinə müraciət edərək onların həllinə var gücü ilə çalışmışdı. Bunlar diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi və s. idi.

Getdikcə alimi oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının patologiyası məşğul edir. Bu problemin aktuallığı sənayedə yaranan bir çox yeni birləşmələrin görmə orqanına təsirinin elmi

şəkildə tədqiq olunması ilə bağlı idi. Odur ki, Zərifə xanım 1968-ci ildən başlayaraq məqsədyönlü şəkildə görmə orqanının patologiyasını daha dərindən öyrənməyə qərar vermişdi.

Zərifə Əliyevanın elmi yaradıcılığı oftalmologiyanın bir sıra digər sahələrini əhatə etsə də, ömrünün sonuna qədər peşə ilə əlaqədar yaranan göz xəstəlikləri ilə müntəzəm maraqlanmış və məşğul olmuşdu. Bu məqsədlə yod-sənaye, neft-kimya müəssisələrində çalışan insanların görmə orqanlarına təsir edən amilləri dərindən öyrənmişdi. Ən maraqlı və qeyd olunmalı məsələ odur ki, bu problemlər üzərində işləyərkən Zərifə xanım bilavasitə sənaye müəssisələrinin özündə olurdu, zərərli peşə sahiblərini istehsal sahələrində müayinə və müalicə edirdi. Bakı şin və kondisioner zavodlarının, eləcə də paytaxtın və Sumqayıtın digər müəssisələrinin veteran işçiləri həmin günləri yəqin ki, yaxşı xatırlayırlar.

Çoxillik tədqiqatları, gəldiyi nəticələr Zərifə xanımın doktorluq dissertasiyasının əsasını təşkil etmişdi. Belə ki, 1977-ci ildə o, artıq tibb elmləri doktoru elmi dərəcəsini almışdı. Təsadüfi deyil ki, akademik Zərifə Əliyevanın peşə xəstəliklərinə aid yazdığı bir sıra əsərlər, o cümlədən “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” və s. monoqrafiyaları bu gün də aktuallığını itirməyib.

Xatırladım ki, doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə xanım Əliyeva Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdi, 1983-cü ildən isə həmin kafedranın müdiri vəzifəsində çalışmışdı.

1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya sahəsində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Abervax adına mükafatına layiq görülmüşdü. O, həmin mükafatı alan ilk alim qadın idi.

Zərifə xanım istedadlı oftalmoloq, böyük alim olmaqla yanaşı, çox yüksək etikaya malik, xəstələrini sevən, onlara qayğı, səmimiyyət və nəvazişlə yanaşan mehriban həkim idi. Müayinə və müalicə etdiyi xəstələr onu bu xüsusiyyətlərinə görə də heç vaxt unutmurdular.

O, eləcə də həmkarlarına qayğı ilə yanaşırdı, bildiklərini, təcrübəsini onlardan əsirgəmirdi. Vəzifəsindən asılı olmayaraq tabeliyində işləyənlərin hamısı onun qayğısını hiss edirdilər. Kömək əlini uzatmağa hər an hazır olan humanist, alicənab bir insan idi.

Zərifə xanıma verilmiş ömür payında tale tərəfindən ona böyük və şərəfli missiya da həvalə olunmuşdu. O, dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bu missiyanı da layiqincə yerinə yetirmişdir, həyat yollarında ulu öndərlə birgə addımlamış, onun dostu, silahdaşı, məsləkdaşı, həmdəmi olmuşdur.

Zərifə xanım övladlarını bütün varlığı ilə sevən əsl Azərbaycan qadını idi. Mən deyərdim ki, o, övladlarını fədakarcasına sevirdi. Uşaqlarını Tanrının ona verdiyi əvəzsiz bir pay, bir səadət sanırdı. Onlara qəlbinin odunu bəxş edirdi. Bu münasibətin, bu sevginin, bu tərbiyənin bəhrəsi bu gün göz qabağındadır!

Zərifə xanım həm də vəfalı, sədaqətli dost idi. Anamla gənclik illərindən başlayan dostluğunun sonacan davam etdiyi buna əyani misallardan biridir. Biz atamı tez itirdik. O vaxt anam çox cavan idi, mənim isə on yaşım vardı. Ağır günlərimizdə Zərifə xanım ailəmizin dərdinə şərik oldu. Evimizə gələrək anama təsəlli, ürək-dirək verdi… Onlar bir-birinin fəaliyyətini, elmi yaradıcılığını izləyir, uğurlarına sevinirdilər. Zərifə xanım ailəsi ilə birlikdə Moskvada yaşadığı illərdə də anamla əlaqələri kəsilməmişdi.

Bizim ailə kitabxanamızda oftalmologiya və bu sahənin fədailəri haqqında çoxsaylı kitablar qorunub saxlanmaqdadır. Təbii ki, bunları vərəqləyəndə Zərifə xanımın həm öz əsərlərinə, həm də onun haqqında yazılan xatirələrə də rast gəlirəm. Belə xatirələrin birində Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, dövlət mükafatı laureatı M. M. Krasnov yazır: “Bəlkə də Zərifə xanım çarəsiz xəstəliyə düçar olduğunu bilirdi, amma bunu ətrafdakılara hiss etdirməməyə çalışırdı. 1984-cü ildə tibb işçiləri günü qeyd olunurdu. Zərifə xanım həmin dövrdə dəhşətli xəstəliyi ilə mübarizə aparırdı və onun müalicəsi mümkün olmayan xəstəliyə tutulduğunu az adam bilirdi. Mən Rəyasət Heyətində əyləşmişdim. Birdən onun zalda ən çox sevdiyi bir professor həmkarı ilə (o da istedadlı bir qadın idi) yanaşı oturduğunu gördüm. Hər ikisi deyib-gülür, bir-biri ilə ünsiyyətdən zövq alırdılar. Zərifə xanımda bu güc, həyat eşqi haradan idi?! Ölümünə iki həftə qalmış o uzaq bir ezamiyyətə getməyə hazırlaşırdı. Deyirdi ki, aspirantlarıma kömək etmək lazımdır… Bəlkə də mən bu xatirələri başqa cür yazmalıydım. Bəlkə də bir həmkar kimi peşə, sənət çərçivəsindən kənara çıxmamalı, elm haqqında, işdən, uğurlardan, şagirdlərdən söz salmalıydım. Amma belə alındı. Zərifə xanım qeyri-adi insan idi, başqa istedadlı şəxsiyyətlər kimi o da hər cəhətdən istedadlı idi. Mənim anlamımda isə hər şeydən öncə həyat istedadı və insanilik dayanır. Biz böyük insanı itirdik. Sağlığında da onun yeri görünürdü, ölümündən sonra da!..”

İnsanın özündən sonra yeri görünürsə, deməli, o, unudulmayıb. Unudulmayıbsa, deməli, qoyduğu irs, xeyirxah əməlləri haqqında xoş xatirələr yaşayır.

**Azərbaycan.** – 2018.- 15 aprel. – № 84. – S. 3.

## Nəciblik və mənəvi paklıq timsalı

**Nəzakət Ələddinqızı**

Elm aləmində nadir istedadlı elə şəxsiyyətlər var ki, onların elmə gətirdiyi yenilik və çəkdikləri zəhmətin tam həcmi zaman və elmi təfəkkür inkişaf edib zənginləşdikcə, aydın dərk edilir. Azərbaycan qadını kimi Xeyirxahlıq, Ziyalılıq, Analıq simvoluna çevrilən akademik Zərifə xanım Əliyevanın həyat yolu və fəaliyyəti kimi. Alimləri sabaha inamla, gələcəyə – ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani keyfiyyətləri, elmi fəaliyyəti nurdan yaranan, varlığı nur olan təkrarsız bir insan olaraq xatırlanır. Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyət də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir.

Zərifə xanım Əliyeva zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Beynəlxalq aləmdə cəm olunaraq bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycanın səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda ona qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apradığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicə işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Eyni zamanda, o, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirmişdir. Zərifə xanım bu problem üzərində iş apararkən, çox vaxt, bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində, alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

### AKADEMİK M.İ.AVERBAX ADINA MÜKAFATA LAYİQ GÖRÜLƏN İLK QADIN

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyanın əsasını təşkil etmişdir. Zərifə xanım “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Elmi tədqiqatarın nəticəsi olaraq, Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən, “Şin istehsalında gözün peşə patologiyası”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” monoqrafiyalarını çap etdirməyə nail oldu. “Xroniki yod intoksikasiyasında oftalmologiya” mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü gördü. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Tibb elmləri

doktoru Zəhra Əliyevanın, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N. Dobromislovun və başqalarının yazılarında alimin şərəfli, zəngin elmi fəaliyyətinin nailiyyətərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb.

Moskva oftalmoloji məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım deyərdim: O, həm Xeyirxah idi, həm Ağıllı idi, həm də Qüdrətli idi!"

Zərifə Əliyeva həkimlik etikası ilə bir nümunə idi. Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verirdi.

## SƏDAQƏTLİ ÖMÜR YOLDAŞI VƏ QAYĞIKEŞ ANA

Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu vurğulayırlar. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında dərindən və qabarıq duyulurdu.

*Əziz anam, şirin sözlü anam,*
*Qəlbin kövrək, eşqin solmaz bahar.*
*Gülər üzlü, qara gözlü anam,*
*Hara getsəm gözün mənə baxar,*
*Ana qəlbin layla olar gəzər,*
*Doğma səsin ömrü-günü bəzər.*

Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq, iki övlad böyüyüb – ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Zərifə xanım ən yüksək mənəvi hazırlığa malik bir xanım və ana idi.

Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq, ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli, zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbir, həya, ismət kimi keyfiyətlər Onun həyat simvoluna çevrildi. Bu dəyərlər içərisində güclü, fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyələri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.

**Səs.** – 2018.- 14 aprel. – № 72. – S. 3.

## Qəlblərə nur saçan insan

**Şəfəq Nasir**

Həyatda elə şəxsiyyətlər olur ki, fiziki yoxluğundan sonra onlar sanki dünyaya yenidən gəlir, göz yaddaşından qəlb yaddaşına köçürlər. Özü də belə şəxsiyyətlər bəzən bir tayfanın, bir elin yox, milyonlarla insanın yaddaşından boylanır, işıqlı əməlləri ilə daim xatırlanırlar. Bu, bəzən özünü bütünlükdə bir kökün, nəslin qol-budağında da göstərir. O səbəbdən ki, insanın həyat dərslərindən faydalandığı ilk məktəb doğulub boya-başa çatdığı, tərbiyə aldığı ailədən başlayır. Düzgün qurulan övlad-valideyn münasibəti, uşaqların milli, bəşəri dəyərlər ruhunda tərbiyə olunması bir növ onları xalqın canlı sərvətinə çevirir. Tale də insanı həyatın ilk pilləsindən başlamış yaşam boyu bərkə-boşa salaraq çətin sınaqlardan çıxarır, böyük amallar uğrunda mübarizəyə səsləyir. Bir insanın qazandığı uğurlar vətənə, mənsub olduğu xalqına böyük fayda gətirir. Xalqın yaddaşında ikinci həyat, yaşam haqqı da belə bir gerçəklikdə yaranır.

Onlar da seçilmişlərdən olub, nəsillikcə həyatın çətin sınaqlarından çıxaraq öz zəhmətləri sayəsində xalqın etimadını, inamını, sevgisini qazanmışlar. Haqqında söhbət açacağımız qəhrəmanın mənsub olduğu kökün özü isə, yaşadığı ömür yolu ilə təkcə övladları üçün deyil, bütünlükdə Azərbaycan gəncliyi üçün bir örnək olmuş görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru Əziz Məmmədkərim oğlu Əliyev idi. Bu mənada ilkin olaraq onu yada salmaq, xatırlamaqla xalqın taleyində böyük əhəmiyyət kəsb etmiş bu ailəyə elə xalq sevgisini ifadə etmiş olarıq. Çünki belə böyük şəxsiyyətin ocağında dünyaya gəlmiş, ilk olaraq ailənin, sonradan mənsub olduğu xalqın yaddaşında yaşamaq haqqını qazanmış, akademik Zərifə Əliyeva da bu məktəbdə tərbiyə aldığı, formalaşdığı üçün kökün bütün xüsusiyyətlərini düşüncəsində daşımış, ona özünün elmi-pedaqoji, ictimai fəaliyyətilə başucalığı gətirən bir şəxsiyyət kimi yetişmişdir.

1897-ci ildə qədim yurd yerlərimizdən olan İrəvan quberniyasının Hamamlı kəndində, kəndli ailəsində doğulmuş Əziz Məmmədkərim oğlu Əliyevin həyatı əziyyətli, çətin yollardan keçmişdir. O, ibtidai təhsilini rus-tatar (Azərbaycan) məktəbində aldıqdan sonra İrəvan gimnaziyasında davam etdirmiş və buranı qızıl medalla bitirmişdir. Bu gəncin qəlbi daim oxumaq, inkişaf etmək istəyilə çırpınırdı. Hətta yaşadığı ailənin maddi imkansızlığı buna imkan verməsə də, yenə təhsilini davam etdirmək üçün yollar axtarırdı. O zaman xalqın övladlarına əl tutan, başqa ölkələrdə təhsil almalarına yardım edən imkanlı şəxslər haqqında bəzi məlumatlara malik olduğundan qəlbinə dolmuş bir ümidlə Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə məktubla müraciət edir. Və xeyirxah insanın köməkliyi ilə Sankt-Peterburqda Hərbi Tibb Akademiyasına daxil olur. Bir ildən sonra yay tətilinə buraxıldıqda İrəvana qayıdır. Bu o zamandı ki, onun doğma yurdunda milli münaqişələr baş alıb gedirdi. 1918-ci ildə erməni daşnakları əhalisinin çoxluq təşkil etdiyi azərbaycanlılara qarşı amansızlıq edir, qanlı faciələr törədirdilər. Yurd sahiblərinin evlərini, bağ-bağatlarını yandırır, öz halalca torpaqlarından didərgin salırdılar. Bütün bu amansızlıqların şahidi olan Əzizgilin ailəsi də əvvəlcə Naxçıvanın Şərur rayonuna keçərək burada yaşayır, az müddətdən sonra isə Şahtaxtı kəndinə köçürlər. Ermənilərin burada da törətdiyi qırğınlardan sonra Arazı keçib, Cənubi Azərbaycanın Ərəblər kəndinə pənah aparırlar. Bir müddətdən sonra yenidən Şahtaxtıya qayıdırlar. İlk gəncliyi əziyyətlər, qovğalar içində keçən Əziz Əliyevin 1923-cü ilin may ayından Bakı həyatı başlayır. O, yarımçıq qalmış təhsilini Azərbaycan Dövlət Universitetinin tibb fakültəsində davam etdirir. Yeri gəlmişkən, sonradan həmin universitetin bazasında Azərbaycan Dövlət Tibb İnstitutunun yaradılmasında onun böyük rolu olur. Əziz Əliyev ömrün məşəqqətli yollarında fədakar çalışmaları sayəsində özünəinamı ilə özünü təsdiq edə bilir.

Azərbaycan Klinik İnstitutunun rektoru (1929-1932) olduğu vaxtlarda Azərbaycan səhiyyəsinin təşkilində Əziz Əliyevin misilsiz xidmətləri olmuşdur. Xalq səhiyyə komissarı kimi bu sahədə yaranan problemlərin aradan qaldırılmasında xüsusi səy göstərmişdir. Tibb Universitetinin rektoru işlədiyi vaxtlarda (1932-1935) 45 adda dərslik və dərs vəsaiti Azərbaycan dilində latın qrafikası ilə məhz onun rəhbərliyi altında hazırlanaraq nəşr edilir. Əziz Əliyev ölkənin siyasi-ictimai həyatında yorulmadan çalışdığı vaxtlarda elmi fəaliyyətini də davam etdirir. 1929-cu ildə namizədlik, 5 il sonra isə doktorluq dissertasiyasını müdafiə edir. Onun dövlət xadimi kimi fəaliyyəti də ölkənin, xalqın taleyi ilə qırılmaz surətdə bağlı olmuşdur.

Əziz Əliyev İkinci Dünya Müharibəsi dövründə alay polkovniki rütbəsində sovet əsgərləri ilə birlikdə siyasi rəhbər kimi Cənubi Azərbaycana göndərilir. Təbriz, Urmiyə, Ərdəbil, Mərənd və Zəncanda olur. Vətənə qayıtdıqdan sonra istedadlı, bacarıqlı, prinsipial dövlət xadimi Azərbaycan KP MK-nın katibi (1941-1942) vəzifəsinə irəli çəkilir. Səlahiyyət və imkanlarından yararlanan Əziz Əliyev burada da fəaliyyətini xalqın üzləşdiyi problemlərin həllinə həsr edir. Həmin dövrdə bacarıqlı, təcrübəli kadrlar azlıq təşkil etdiyindən o, cəmi bir neçə ay işlədiyi vəzifədən ayrılaraq, Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsinə təyin olunur. Altı il (1942-1948) bu vəzifədə çalışan Əziz Əliyev çətin illərdə Dağıstan camaatını bir çox bəlalardan qoruyur, bir rəhbər kimi onların qeydinə qalır. Xalqın böyük etimadını, sevgisini qazanır. Xalq bu böyük insana minnətdarlığını bildirməkdən ötrü üzərində Əziz Əliyevin əksi həkk olunmuş xüsusi medalyonu bu fədakar insana sevgilərinin rəmzi olaraq bağışlayırlar. Bundan sonra o, Moskvada ÜİK (b)P MK-nın inspektoru (1949-1950),

Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini (1950-1951), sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləyir.

1960-cı ildə Əziz Əliyev "Azərbaycan SSR əməkdar həkimi" fəxri adına layiq görülür. Əziz Əliyev I-II çağırış SSRİ Ali Sovetinin deputatı seçilib. O, həmçinin Azərbaycan SSR Ali Sovetinin I-III çağırış, Dağıstan MSSR Ali Sovetinin II çağırış deputatı olub. O, iki dəfə "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, "I dərəcəli Vətən müharibəsi" ordeni və bir çox medallarla təltif edilib.

Görkəmli dövlət xadimi, unudulmaz insan Əziz Əliyevin tərcümeyi-halına yazılmış bu tarixi fakt və hadisələri, zəhmətlə və şərəflə yaşanılan ömür yolunu yada salmaqda məqsədimiz bu kökün Azərbaycanın tarixi taleyində yerini və rolunu nəzərə çatdırmaq idi. Çünki bir qədər əvvəldə qeyd etdiyimiz kimi, akademik Zərifə Əliyevanın da keçdiyi həyat yolunun xariqüladə əməllərini göz önündən keçirəndə ataların bir məşhur kəlamını xatırlayırıq: Ot kökü üstə bitər…

Zərifə Əliyeva 1923-cü il aprelin 28-də, ılıq bir yaz səhərində Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində doğulmuşdur. Göz açdığı ailənin zəhmətsevərliyi, sadəliyi, işgüzarlığı, bütün bunlarla yanaşı, dəst-xətti Zərifə xanımın erkən yaşlarından ruhuna, düşüncəsinə işıq təki saçılmışdı. O, həyatda bu işığın aydınlatdığı yolla cəsarətlə addımlamış, üzərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışmışdır. Ağlı kəsəndən atasının həyat yolunu görən, izləyən və bu yolun onu da arzularına doğru aparacağını bir gənclik fəhmi ilə duyan gənc və gözəl Zərifə anladı ki, zəhmətlə yaşanılan ömür, Vətənə və xalqa əməli işlə xidmət etmək həyatda ən düzgün yoldur. Bu yol insanı xoşbəxt edir, mənəvi ucalığa yüksəldir…

Zərifə xanım ixtisas seçimində də atasının davamçısı olacağını qərara aldığından qəlbən bağlandığı həkimlik sənətini seçmiş, N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunda təhsil almışdır. Ümumiyyətlə, bu kökün, ailənin xəmiri sanki həkimliklə yoğrulmuşdu. Əliyevlər nəslində bu sənətin sahibləri peşələrinin əsl xiridarı olmuşlar.

Onun əmək fəaliyyətini əks etdirən tərcümeyi-halı olduqca parlaqdır. Zərifə Əliyeva institutu bitirdikdən sonra, 1947-ci ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. 1969 -cu ildən isə Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

Zərifə xanımın şəxsi həyatında ülvi məhəbbətə söykənmiş bir məqamı -Azərbaycanın taleyində yeni olan Birlik və İnkişaf dövrünün təməlini qoymuş ictimai-siyasi xadim Heydər Əliyevlə birgə ömrü xatırlamaq da bir zərurətdən doğur. Özünün mənəvi-əxlaqi dəyərləri, əsl Azərbaycan qadınına xas olan isməti, abır-həyası, kübarlığı, sadəliyi, səmimiliyi ilə seçilən Zərifə xanımın belə bir İnsanla izdivacı hər ikisi üçün Tanrının lütfü idi. Birgə həyatları "Böyük ömrün dastanı"nda mükəmməllik, qüdrət və ləyaqət kəsb edən iki böyük şəxsiyyət qoşa qanadlar kimi Azərbaycan cəmiyyətində xalqın adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini özlərinin yaşam tərzində, həyat vərdişlərində daşıdıqlarından sağlam düşüncəli nümunəvi ailə kimi tanındılar. Onlar şəxsi və ictimai həyatda qədərin imkan verdiyi vaxta, vədəyəcən hər zaman bir yerdə oldular. Vətən və xalq üçün görülən böyük işlərdə bir-birinə dayaq durdular. Möhkəm özüllər üstə halal, ziyalı bir ocaq yaratdılar, layiqli övladlar yetişdirdilər. Fədakar ömür yaşadılar…

Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın elmi-pedaqoji və ictimai fəaliyyəti səhiyyənin, eləcə də Azərbaycanda oftalmologiya elminin inkişafına öz təsirini göstərmişdir. Onun elmi fəaliyyəti, əsərlərinin dəyəri bir ümmandır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, elmi əsərlərin – məqalə və monoqrafiyaların, dərslik və dərs vəsaitinin, ixtira və səmərələşdirici təkliflərin müəllifidir. Bu sırada onun bəzi əsərlərini xatırlamaq da yerinə düşər. "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi", "Göz yaşının axmasının cərrahi müalicəsinin müasir üsulları", "Göz yaşının axmasının fiziologiyası", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları", "Görmə orqanının peşə patologiyası"… üst-üstə gəldikdə, deməliyik ki, alim 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi olmuşdur.

Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib. Z.Əliyeva yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına da böyük əmək sərf etmişdir.

Onun həyat yolunu işıqlandıran sənədlərdən məlum olur ki, Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqii" (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. 1981-ci ildə yüksək elmi

nailiyyətlərinə görə SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafata layiq görülmüşdür. Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan "Bilik" Cəmiyyətinin üzvü, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə Əliyevanın ömrü ölkəmiz, xalqımız üçün mühüm əhəmiyyət kəsb edən mərhələlərdən keçir. Hansı ki, bunları bir ömrə sığışdırmaq, bir taleyin yazısı kimi yaşamaq, fəaliyyət göstərmək hər kəsin gücü, ağlı, təfəkkürü müqabilində deyil. Zərif, incə, duyğulu, həssas bir qadının həcmcə böyük olan elmi, ictimai yükü öhdəsinə alması və onu cəsarətlə, ləyaqətlə daşıması əsl fədakarlıqdır. Zərifə xanım həkimlik peşəsində çalışan hər bir insan üçün vacib olan cəhətlərdən danışarkən demişdir: "Xəstələr həkimin yanına pənah gətirəndə, onunla görüşmək istəyəndə, ona ərklə müraciət eləyəndə adam başa düşür ki, sən insanlara lazımsan, onlara faydan dəyə bilər". Bu fikirlər onun həkimlik sənətinə, insanlara son dərəcə həssaslıqla yanaşdığını söyləməyə əsas verir.

Onun haqqında yazılan bir çox xatirələrin sadəcə başlıqlarına göz yetirəndə bu insanın öz peşəsində, elmdə, pedaqoji sahədə, ümumiyyətlə, cəmiyyətdə necə böyük nüfuza, humanizmə, xeyirxahlığa malik bir insan olduğunu duyur, hiss edirik. "Alim, pedaqoq, insan", "Amalı, niyyəti saf olan insan", "Azərbaycanın gözəl qızı", "Bir damla suda günəş", "Zəriflik və böyük qüdrət", "Akademik Əliyeva və yaxud insan və qadın taleyi haqqında", "O, dünyaya insanları sevmək üçün gəlmişdi", "Oftalmologiyamızın tükənməz xəzinəsi", "İnsanlara nur bəxş edən ləyaqət mücəssəməsi"… Təbii ki, bu xatirələr ayrı-ayrı görkəmli şəxslər tərəfindən müxtəlif vaxtlarda yazılmışdır. Bu yazıların, demək olar ki, əksəriyyəti ilə tanışlıq zamanı müəlliflərin xatirəsində qəhrəmanına münasibəti, təəssüratında müəyyən mənada oxşarlıqlar diqqəti cəlb edir. Biz bunu normal qəbul edirik. Çünki Zərifə xanımın işinə məsuliyyəti, elmi axtarışlarında inadkarlığı, təşəbbüsləri, təcrübədə gözəl nəticələr əldə etməsi, bir qadın, həyat yoldaşı, ana olaraq böyük fədakarlıqla çalışması, onunla ünsiyyətdə olan, əməkdaşlıq, dostluq edən insanların gözü qarşısında olduğundan bu oxşarlıqların, daha doğrusu, güclü və həssas müşahidələrin söz-təsvirlə ifadəsi təbii səslənir. Deməli, Zərifə xanımın xarakterindəki ali keyfiyyətlər hər zaman xalqın gözündə, nəzər-diqqətində olmuşdur. Axı o, "cəmiyyəti müalicə edən həkim" (M.Topçubaşov) Əziz Əliyevin qızı idi!

Yazı üzərində işləyərkən araşdırma xarakterli bir sıra əsərlərin arasında görkəmli alimlərin Zərifə xanım haqqında söylədiyi fikirləri diqqətimi cəlb etdi. Bu nəcib xanımda olan bir çox keyfiyyətlər – zəhmətsevərlik, humanizm, alicənablıq, qəlbinin işığı ilə nurlanan xoş sima, ılıq, saf təbəssüm, təvazö, xeyirxahlıq, ülvi duyğular Yaradanın ona bəxş etdiyi xoşbəxtlik idi. Onun şəxsiyyətində, xarakterində, simasında bu kimi xüsusiyyətlərin yer alması bizə olduqca xoş təsir bağışladı. Belə isti, səmimi xatirələr qədərincədi. Bu insanlar ölkəmizdə və keçmiş SSRİ məkanında, eləcə də onun sərhədlərindən kənarda özlərinin elmi-pedaqoji fəaliyyətləri, böyük ixtiraları ilə şöhrət tapmış insanlardır. K.V.Trutneva, Z.M.Skripniçenko, V.V.Şmelyeva, M.C.Cavadzadə, A.Mirqasımov, A.P.Nestevov, Ə.Əmiraslanov, Z.T.Quliyeva, A.N.Dobromıslov… Sözün bu məqamında həmin xatirələrdən bəzi iqtibaslar edərək oxucuların nəzərinə çatdırmağı məqsədəuyğun sayırıq.

M.C.Cavadzadə: "Hədsiz əməksevərliyi, yüksək təşkilatçılıq bacarığı, xeyirxahlığı, şəxsi qayğıkeşliyi, hər bir əməkdaşını müdafiə etməyə daim hazır olması onun işgüzar zabitəsi ilə bir ahəngdə çulğaşırdı. Qüdrətli alimə yaraşan bu xüsusiyyətləri Zərifə xanıma imkan verirdi ki, institutdakı işi ilə eyni zamanda, SSRİ-də ilk dəfə Avropadakı analoji müəssisələrdən ən böyüyü sayılan Bakı Məişət Kondisionerləri Zavodunda işçilərin görmə orqanının patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyasına da rəhbərlik etsin. Azərbaycan sənayesinin müxtəlif sahələrinə aid peşələrlə əlaqədar göz xəstəlikləri üzrə onun apardığı tədqiqatlar xaricdə də bir sıra alimlərin diqqətini cəlb etmişdi. Zərifə xanım bir sıra əsərlərində əldə olunmuş nəticələri ümumiləşdirmişdi. Onun məsləhət və tövsiyələri istər oftalmoloq alimlər, istərsə də təcrübi fəaliyyətlə məşğul olan həkimlər üçün böyük əhəmiyyət daşıyırdı. Tibb Elmləri Akademiyası Zərifə Əliyevanı oftalmologiya sahəsində ali mükafatla – akademik Averbax mükafatı ilə təltif etmişdi. İnstitutumuzun kollektivi bu mükafatı həm şəxsən Zərifə Əziz qızı Əliyevanın, həm də bütövlükdə göz xəstəlikləri kafedrasının aktual, nəzəri cəhətdən maraqlı, təcrübi baxımdan səmərəli işinin yüksək qiymətləndirilməsi kimi qəbul etdi".

O.P.Dobromıslova: "Biz heç vaxt Zərifə xanımla onun şəxsi həyatı, əri ilə münasibətləri haqqında danışmamışıq. Amma biz görüşəndə, müxtəlif mövzularda söhbət edəndə, hətta məktublarını oxuyanda artıq məndə qəti şəkildə belə bir təsəvvür yaranmışdı ki, o, görkəmli dövlət xadimi olan ərinin bütün çətinliklərinə şərikdir. O, əri ilə həmfikir idi və onun yüksək siyasi, elmi və mədəni səviyyəsi bütün işlərdə ərinə kömək edirdi. Ərinin işdəki uğurlarını, sevincini özününkü bilirdi. Bu yerdə yenə də istər-istəməz A.Gertsenin sözləri yada düşür: "ərini narahat edən məsələlərdən kənarda qalan, fikirlərini bölüşməyən qadın olsa-olsa kənizdir, sözün əsl mənasında həyat yoldaşı deyil. Zərifə xanım ər üçün həm həyat yoldaşı, həm də dost, yoldaş idi. O, əri haqqında böyük hörmətlə danışır, şəxsi münasibətlərini və hisslərini müzakirəyə çıxarmır, xırdalamırdı…".

M.M.Krasnov: "Zərifə Əziz qızının səyləri nəticəsində ilk dəfə görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıldı. O vaxta qədər belə bir laboratoriya mövcud olmamışdı. Necə deyərlər, "yox yerdən" elmi laboratoriya yaradanlar bunun nə qədər qüvvə və bacarıq tələb etdiyini yaxşı bilir. Əlbəttə, birdən-birə əmək fəaliyyətinin bütün sahələrini əhatə etmək və hər sahədə görmə qabiliyyətinin

mühafizəsi üçün başlıca olaraq hansı tələblərin olduğunu müəyyən etmək çətin idi. Belə məqamda, heç şübhəsiz, istinad nöqtəsi tapmaqdan, nədən başlamaqdan çox şey asılıdır. Və Zərifə xanım istədiyinə nail olur: kimya sənayesində göz xəstəliyi – bu sahə mürəkkəbdir, az öyrənilib, amma böyük kimya və elmi-texniki inqilablar dövründə bu mövzu olduqca aktualdır!".

K.V.Trutneva: "Zərifə xanım hər şeydən əvvəl görkəmli alim-oftalmoloqdur. Təkcə oftalmoloqmu?! O, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik yüksək təşkilatçılıq bacarığı da vacibdir. Məhz bütün bu keyfiyyətlər Zərifə xanım Əliyevaya xas idi.

Şəxsən mən Zərifə Əliyevanı ailəsindən ayrı düşünə bilmirəm. Zərifə xanım həm görkəmli alim, həm də gözəl qadın, qayğıkeş ana idi. Çoxillik işgüzar və səmimi ailəvi görüşlər mənim qəlbimdə dərin iz buraxıb və həmin görüşlərdə bir daha əmin olmuşam ki, Zərifə xanım ailəsinə dayaq olan əsl İnsan idi; həyat eşqi, xeyirxahlığı, qayğıkeşliyi ilə! İşinin çoxluğuna, cəmiyyətdə tutduğu yüksək mövqeyə baxmayaraq, həmişə, birinci növbədə ailəsinin, habelə adamların qayğıları ilə yaşayırdı".

Z.T.Quliyeva: "Zərifə xanım qeyri-adi bir qadın idi. O, heç də hamıya qismət olmayan böyük bir qabiliyyətin də sahibi idi. Bu, sevə bilmək qabiliyyəti idi. Həyatda nə edərdisə, sevgiylə edərdi. Onun sevgisinin qüvvəsi öz ailəsinin hüdudlarında daha parlaq əks olunur, daha artıq duyulurdu. O, uşaqlarına, sonra isə nəvələrinə sevgisində özünü unudurdu. Zərifə xanım Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin ləyaqətli ömür-gün yoldaşı, sədaqətli dostu, sevimli qadını və əqidə yoldaşı idi. Bacımızın xatirəsi ilə bağlı ötən günlərimiz heç vaxt yadımdan çıxmır. Yaddaşımda tələbə Zərifənin şən və qayğısız siması, gəlin Zərifənin xoşbəxtliyi və həyəcanı, ana Zərifənin nəvazişkarlığı, ictimaiyyətçi Zərifənin ehtiraslı, alovlu fəaliyyəti, alim Zərifənin müdrikliyi nə qədər fakt və hadisələrlə əyaniləşib".

Onun itkisi, Azərbaycan qadınına xas olan ali keyfiyyətlərinə dəyər verən qədirbilən xalqımızın qəlbini ağrıtsa da, yaddaşından silinmədi, əksinə, bu adın malik olduğu mənəvi ucalıq olduğu və göründüyü kimi yaddaşlara ötürüldü. Onun əziz xatirəsi ömür-gün yoldaşı, ruhdaşı, əqidədaşı olmuş bir insanın – Heydər Əliyevin son nəfəsinə qədər xatirindən gün belə, dəqiqə belə silinmədi.

Heydər Əliyev: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür…

… Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda, qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm".

Bu, zərif təbiətli, incə zövqlü, humanist bir xanıma, xeyirxah əməllər sahibinə, müqtədir insana verilən dəyərdi. O, həyatında dan ulduzu kimi doğulmuş, ona vəfa, sədaqət, ülvilik, birlik bəxş etmiş qadınının səsini, nəfəsini özü ilə haqq dünyasına apardı…

Həyatda bir həqiqət də var: Milli-bəşəri dəyərləri əməlində yaşadanlar insanların qəlbində ikinci, əbədi ömrünü yaşayırlar. Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyeva kimi…

**Respublika**.-2017.-3 may.-№93.-S.8.

"

## Azərbaycan səhiyyəsinin unudulmaz siması

**Elmar QASIMOV,**
tibb üzrə elmlər doktoru, professor, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru.

Görkəmli alim, yüksək mənəvi keyfiyyətlərə malik insan, Azərbaycan oftalmologiya elmini yüksəklərə qaldıran akademik Zərifə Əliyeva respublikanın görkəmli siyasi, dövlət və ictimai xadimi, səhiyyənin böyük təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində anadan olmuşdur.

1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda təhsilini tam yekunlaşdırdıqdan sonra Zərifə xanım Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursunu bitirmiş və əmək fəaliyyətini 1949-cu ildə Azərbaycan elmi-tədqiqat oftalmologiya institutunda ordinator vəzifəsində başlamışdır. 1950-1953-cü illərdə akademik Z.Əliyeva institutun aspiranturasında elmi hazırlığını keçib, burada kiçik elmi işçi vəzifəsində fəaliyyətinə başlamışdır.

XX əsrin 40-50-ci illərində Azərbaycanın bir çox cənub rayonlarının əhalisi arasında traxoma xəstəliyinin şiddətli yayılması ilə əlaqədar Zərifə xanım Azərbaycan ET Oftalmologiya İnstitutu tərəfindən bu xəstəliyə qarşı aparılan mübarizədə fəal iştirak etmişdir, ona həvalə edilmiş Əlibayramlı (indiki Şirvan – red.) rayonunda, çətinliklərə baxmayaraq, traxomaya qarşı tədbirlər kompleksini yerinə yetirmişdir.

Aparılan böyük praktiki iş Zərifə xanımın ilk elmi əsərlərinin əsası oldu. Fəal elmi axtarışlar traxomanın və onun fəsadlarının bir neçə müalicə üsullarının işlənilməsi ilə nəticələnmişdir. 1959-cu ildə Z.Əliyeva "Traxomanın sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

Zərifə xanım Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda 1967-ci ilə qədər 18 il ərzində böyük əmək yolu keçmişdir. Həmin illərdə o, virus və bakterial konyunktivitləri, keratitlər və gözün ön kəsiyinin digər kəskin və xroniki xəstəliklərinə dair bir sıra elmi əsərlər yaratmışdır, o cümlədən "Kəskin virus konyunktivitləri" və "Gözün herpetik xəstəliyi".

1960-cı illərin sonunda Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına keçmiş və burada əvvəl assistent, sonralar professor və 1982-ci ildə kafedra müdiri vəzifələrini tutaraq, oftalmologiyanın yeni istiqaməti olan görmə üzvünün peşə patologiyası problemi ilə yaxından məşğul olmağa başlamışdır.

O, müxtəlif peşə zərərlərinin, o cümlədən toz, talk, his, kanifol, tabaşir kimi şin istehsalının, yod istehsalının toksik amillərinin, respublikada inkişaf etmiş kimya istehsalının digər toksik maddə və məhsullarının görmə orqanına zərərli təsirinin biokimyəvi mexanizmini öyrənmiş və bir çox yeni elmi faktlar aşkar etmişdir. Dünya ədəbiyyatında belə fundamental tədqiqatların analoqu yoxdur.

Bu klinik-eksperimental tədqiqatlar Zərifə xanımın 1976-cı ildə Helmholts adına Moskva ET Göz Xəstəlikləri İnstitutunda müvəffəqiyyətlə müdafiə olunmuş "Kimya sənayesinin bəzi müəssisələrinin işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının materialını təşkil etmişdir.

1979-cu ildə Zərifə xanımın böyük təşkilatçılıq qabiliyyəti sayəsində, şəxsi təşəbbüsü və iştirakı ilə Azərbaycan Elmlər Akademiyasının A.İ.Qarayev adına Fiziologiya İnstitutunda istehsalatla kompleksdə olan görmə üzvünün fiziologiyası və peşə patologiyası üzrə problem laboratoriya yaradılmışdır. Burada Zərifə xanım müxtəlif kimyəvi maddələrin və istehsalat tullantılarının görmə üzvünə və onun əlavə aparatına xroniki təsiri mexanizminin tədqiqi, bu təsirə qarşı profilaktik tədbirlərin və tətbiq üsullarının işlənilməsində böyük müvəffəqiyyətlər qazanmışdır.

Gənc, qabiliyyətli, geniş elmi planlarını həyata keçirməyə qadir olan mütəxəssisləri öz ətrafında toplayaraq, Zərifə xanım zərərli maddələrin fəhlələrin görmə orqanına təsirini hərtərəfli öyrənmişdir. Müayinə edilmiş kontingentdə göz qapaqları, konyunktiva, göz yaşı yollarının dəyişikliklərinin, buynuz qişanın həssaslığı zəifləməsinin, tor qişanın, damarlı yolun, gözün görmə sinir aparatının distrofik dəyişikliklərinin, işıq-rəng duyğularının zəifləməsi tezliyinin artması təsdiq olunmuşdur. Stirol buxarının təsirindən əmələ gələn inadlı, residiv verən və qapaqların dermatiti ilə müşayiət edilən peşə konyunktivitinin klinikasını məhz Zərifə xanım ilk dəfə təsvir etmişdir.

Zərifə xanım kimya istehsalatının müəssisələrində işçilərin gözlərinin peşə zədələnmələrinə qarşı kompleks sanitar-gigiyenik tədbirlərin işlənilməsi və həyata keçirilməsinə nail olmuş, əmək şəraitinin yaxşılaşdırılması üçün misilsiz işlər görmüşdür.

Onun görmə üzvünün peşə patologiyası probleminə həsr olunmuş fundamental tədqiqatlarının nəzəri və təcrübi əhəmiyyəti çox böyükdür. Bu tədqiqatlar 1980-ci ildə çap olunmuş "Şin istehsalatında görmə üzvünün peşə patologiyası" monoqrafiyasında, 1981-ci ildə isə dərc edilmiş "Xroniki yod intoksikasiyası nəticəsində oftalmopatologiya" monoqrafiyasında öz əksini tapmışdır.

Kimya istehsalında görmə üzvünün zədələnmələri profilaktikasına həsr olunmuş orijinal elmi əsərləri silsiləsinin çap olunması ilə əlaqədar, 1981-ci ildə Z.Əliyeva keçmiş Sovet İttifaqının Tibb Elmləri

Akademiyasının oftalmoloqlar üçün ən nüfuzlu olan akademik M.İ.Averbax adına mükafatla təltif edilmişdir. Zərifə xanım bu yüksək mükafata layiq görülmüş ilk alim qadın olmuşdur.

Görkəmli alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də göz yaşı aparacaq aparatının fiziologiyasının, göz yaşı yollarının xəstəlikləri patogenezinin öyrənilməsi və onların cərrahi müalicəsi üsullarının işlənilməsi olmuşdur. Zərifə xanımın rəhbərliyi altında dakriosistitin yeni, daha effektiv və fizioloji cərrahi müalicə üsulları işlənilmiş və təcrübədə tətbiq edilmiş, həmin cərrahi əməliyyatların aparılması üçün yeni alətlər ixtira olunmuş və hazırlanmış, göz yaşı kisəsi fleqmonasının kompleks müalicə üsulu işlənilmişdir. Bu problemə Zərifə xanımın bir sıra elmi əsərləri həsr olunmuşdur, onların arasında "Göz yaşı axmasının fiziologiyası" monoqrafiyası xüsusi yer tutur.

Zərifə xanım oftalmomorfoloji, histomikroskopik və histokimyəvi tədqiqatlara həsr olunmuş elmi əsərlərin də müəllifi olmuşdur, onların arasında "Gözün və görmə-sinir yolunun yaşla əlaqədar dəyişiklikləri" və "Gözün hidrodinamik sisteminin anatomik-fizioloji xüsusiyyətləri" monoqrafiyalarını qeyd etmək olar.

Onun elmi fəaliyyətinin bir istiqaməti də klinik-diaqnostik müayinələr olmuşdur ki, bunların nəticəsində həkimlər üçün hazırlanmış bir sıra tədris kitablar nəşr edilmişdir, ilk növbədə "Terapevtik oftalmologiya" və oftalmoloji cəmiyyətdə böyük məmnuniyyətlə qəbul edilmiş "Oftalmologiyanın aktual problemləri" kimi gözəl monoqrafiyaları qeyd etmək lazımdır. Zərifə xanım deontologiya və həkim etikası məsələləri ilə yaxından məşğul olmuş və bu haqda öz fikirlərini "Yüksək vəzifə" adlı gözəl monoqrafiyasında yekunlaşdırmışdır.

Z.Əliyevanın elmi fəaliyyətinin çox maraqlı və perspektiv istiqamətlərindən biri iridodiaqnostika və iridoterapiya problemi olmuşdur. Bu tədqiqatların əhəmiyyəti oftalmologiya çərçivəsinin həddindən çıxır. Zərifə xanımın elmi axtarışlarının nəticəsi "Gözün bəbək haşiyyəsinin adaptasion-qoruyucu vəzifəsi haqda" elmi işinin və o zaman Sovet İttifaqında ilk dəfə çıxan, tayı olmayan iki monoqrafiyanın nəşr edilməsi olmuşdur. Bu monoqrafiyaların biri "İridodiaqnostikanın əsasları" Bakıda "Azərnəşr" nəşriyyatında, ikincisi – "İridodiaqnostika" – Moskvada, "Mediüina" nəşriyyatında çapdan çıxmışdır.

O, buynuz qişa, sklera, büllur kimi parairidal strukturların patoloji dəyişiklikləri və qüzehli qişada olan markerlər arasında olan diaqnostik əlaqələrin mövcudluğu haqda gözəl fikirlər söyləmişdir, bu da yeni maraqlı tədqiqatların başlanğıcı üçün bir təkan olmuşdur.

Zərifə xanım Əliyevanın tibbi elm və təcrübəyə, tibbi kadrların hazırlanması işinə əmanəti çox böyük və qiymətli olub. Onun elmi irsinə 14 monoqrafiya, 170-dən artıq elmi əsər, o cümlədən ixtiralar, metodik tövsiyələr və səmərələşdirici təkliflər daxildir. Zərifə xanım çoxtərəfli elmi fəaliyyətinin, nəzəri və təcrübi təbabəti zənginləşdirmiş şəxsi əmanətinin, elmi və həkim kadrlarının hazırlanması işinin etirafı 1983-cü ildə onun Azərbaycan Respublikasının Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi olmuşdur.

Gərgin elmi fəaliyyəti ilə yanaşı Zərifə xanım müəllimlik işinə və tədris prosesinin təşkilinə böyük diqqət yetirirdi. O, istedadlı müəllim və çox gözəl mühazirəçi olmuşdur, gənc həkimlərə və elmi əməkdaşlarına öz geniş biliklərini böyük məmnuniyyətlə çatdırırdı. Üslubunun sadəliyi və gözəl, bədii ifadəsi, fikir dərinliyi və aydınlığı, yüksək nəzəri səviyyəsi, qeyri-adi erudisiyası, məharətlə hazırlanmış əyani material, zəngin klinik təcrübəsindən çəkilmiş misallar, ziyalı siması dinləyiciləri heyran edirdi.

Zərifə xanımın təcrübi, həkimlik işini də xüsusi qeyd etmək lazımdır. Məntiqli zəkaya, aydın təfəkkürə malik olaraq, Zərifə xanım çox gözəl, diqqətli, xəstəliyin gözə çarpmayan əlamətlərinin axtarışında yorulmaz bir diaqnost və klinisist olmuşdur. O, müşahidələrini bir anda ümumiləşdirməyi bacarırdı və yeganə düzgün qərara gələ bilirdi. Akademikin praktiki oftalmologiyada geniş bilikləri, bir çox dərman preparatlarının xüsusiyyətlərinə əla bələd olması xəstələrin müalicəsini yüksək səviyyədə aparmağa imkan verirdi.

Onun prinsipiallığı, vətəndaş cəsarəti Elmi Şuranın iclaslarındakı, konfrans və qurultaylardakı, digər yüksək səviyyəli toplantılardakı gözəl çıxışlarında həmişə öz əksini tapırdı.

Akademik Z.Əliyeva böyük ictimai işi də aparırdı. O, sabiq İttifaqın Sülhü Müdafiəsi Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiəsi Komitəsinin sədr müavini, "Bilik" Ümumittifaq cəmiyyətinin idarə heyətinin üzvü, Ümumittifaq Oftalmoloqlar Cəmiyyətinin rəyasət heyətinin üzvü, "Vestnik oftalğmoloqii" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Akademik Z.Əliyevanın xidmətləri orden və medallarla qeyd edilmişdir. Ona Azərbaycan Respublikası Əməkdar elm xadimi Fəxri adı verilmişdir. 2001-ci ildən Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu akademik Z.Əliyevanın adını daşıyır.

Zərifə xanım Əliyeva bütün şüurlu həyatını, əməli fəaliyyətini milli oftalmologiyanın inkişafına həsr etmişdir, Azərbaycan oftalmologiyasının əsl fədaisi olaraq, dünyada onun tanınmasında mühüm rol oynamışdır. Onun oftalmologiyanın inkişafında xidmətləri çoxdur, onlardan biri 1977-ci ildə Bakıda yeni Oftalmoloji Mərkəzin tikintisi haqqında irəli sürülmüş təşəbbüsüdür. Belə mərkəzin yaradılması Zərifə xanımın arzularından biri olmuşdur. Vaxtilə Zərifə xanım və ulu öndərimiz Heydər Əliyev bu arzunun həyata keçirilməsi üçün böyük səy göstərmişlər, onların sayəsində mərkəzin təməli hələ SSRİ dövründə qoyulmuşdur. Hazırda həmin arzu artıq həyata keçmişdir. Bu çətin işdə instituta Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva kömək göstərmişlər. Yüksək keyfiyyətli, dünya səviyyəli

diaqnostik və cərrahi avadanlıqla təchiz edilmiş Mərkəz səkkiz ildən artıqdır ki, fəaliyyət göstərir. Burada oftalmologiya sahəsində bütün texnoloji yeniliklərin tətbiqi nəticəsində elmi tədqiqatların və müalicə prosesinin dünya oftalmologiyasında qəbul olunmuş səviyyəsinə yüksəldilməsi məsələsinin həll edilməsi üçün hər bir şərait yaradılıb. Mərkəzin istifadəyə verilməsi ilə Azərbaycanda oftalmoloji xidmət inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyalarını tətbiq etməklə keyfiyyətcə yeni bir mərhələyə qədəm qoymuşdur.

Mərkəzdə ən müasir texnologiyalar əsasında işləyən diaqnostik avadanlıq və üsulların istifadəsi görmə orqanının anatomik və funksional parametrlərinin daha dürüst öyrənilməsini mümkün etmişdir ki, bu da göz xəstəliklərinin diaqnostikası və müalicəsinin keyfiyyətini, gözün müəyyən strukturlarında aparılan cərrahi əməliyyatların funksional nəticələrini qat-qat yüksəltmişdir.

Mərkəzdə yeni yaradılmış vitreoretinal cərrahiyyə və gözdə şəkərli diabetin fəsadları şöbəsində yeni ən müasir diaqnostik və cərrahi avadanlığın (gözün arxa kəsiyi üçün optik koqerent tomoqraf, flyuoressent angioqrafiya üçün cihaz, fundus kamera, mikroperimetr, müxtəlif növ lazer cihazları, gözün arxa kəsiyinin vizualizasiyası üçün BİOM sistemi, müxtəlif müasir mikroskoplar və s.) istifadəsi şüşəvari cismin və tor qişa təbəqələrinin müəyyən mənşəli zədələnmələrinin sahəsi, dərinliyi və incəliklərinin təyin edilməsi, qansızmalar, tor qişanın qopmaları, distrofiyaları, zədə nəticəsində pozulmaları, cərrahi əməliyyatların fəsadları zamanı gözün arxa kəsiyində və şüşəvarı cisimdə irəli təsəvvür edilə bilməyən mürəkkəb cərrahi müdaxilələrin həyata keçirilməsi üçün imkanlar açmışdır.

Respublikamızda ilk dəfə olaraq yaradılmış gözün optik qüsurlarının eksimer-lazer cərrahiyyəsi şöbəsində unikal olan avadanlığın (femtosekund və diqər lazer cihazları, gözün ön kəsiyi üçün optik koqerent tomoqraf, gözün aberrasiyaları analizatoru, keratotopoqraf, mikrokeratom və s.) istifadəsi görmə orqanının refraksiyası pozulmalarının anatomik incəliklərinin aşkara çıxarılmasını, buynuz qişada aparılan olduqca incə cərrahi manipulyasiyalar ilə toxumasına xüsusi implantların yeridilməsi ilə formasının korreksiyasının həyata keçirilməsini və minlərlə pasiyentlərin görməsinin əyani artmasını mümkün etmişdir.

Aparıcı cərrahlarımız MDB-də ilk dəfə olaraq Mərkəzin gündəlik işində dünyanın qabaqcıl oftalmoloji müəssisələrində aparılan unikal cərrahi əməliyyatları tətbiq edirlər, katarakta zamanı süni büllurun ən müasir növlərinin implantasiyasını, uşaq qlaukoma zamanı ideal olan müştərək trabekulotomiya-trabekuloektomiya operasiyasını, buynuz qişanın müxtəlif mənşəli zədələnmələri zamanı endotelisenin hissəvi əvəzi ilə aparılan tikişsiz keratoplastika və keratoplastikanın digər növlərini, qüzehli qişanın zədə nəticəsində pozulmaları zamanı plastikası və digər optik-rekonstruktiv operasiyaları, qlaukoma zamanı müxtəlif növ implantların, buynuz qişanın tam geridönməz bulanması zamanı kor insana görmə verən Boston keratoprotezin implantasiyası cərrahi əməliyyatlarını həyata keçirirlər.

Mərkəzdə yeni müasir laborator xidməti qurulmuşdur ki, nəticədə görmə orqanının müxtəlif zədələnmələrinin etiologiyasının müəyyənləşdirilməsi, müalicənin məqsədyönlü təyini, yanaşı patologiyanın aşkarlanması olduqca asanlaşmışdır.

Bir neçə ildir ki, Masallı rayonunda, 2016-cı ildən isə Gəncə şəhərində Mərkəzin filialları açılmışdır. Bu filiallar da ən müasir oftalmoloji avadanlıqla təchiz edilmişdir. Mərkəzin əməkdaşları növbə ilə bu filiallara gələrək, regionun əhalisinə yüksəkixtisaslı cərrahi və konservativ yardım göstərirlər. Eyni zamanda, əməkdaşlarımız əhali arasında gözün ağır, xroniki göz patologiyası olan xəstələri aşkara çıxarmaq üçün dispanser işini, uşaqlarda görmə orqanının optik qüsurlarının korreksiyası işini də aparırlar.

Mərkəz Heydər Əliyev Fondu ilə sıx əlaqələr yaratmışdır və Fondun humanitar işində yaxından iştirak edir. Mərkəzin əməkdaşları ayrı-ayrı xeyriyyə aksiyaları şəklində və gündəlik işdə yüzlərlə yoxsul, aztəminatlı xəstələrə, əlillərə, Böyük Vətən müharibəsi, Əfqan və Qarabağ müharibələri veteranları və əlillərinə, Çernobıl iştirakçılarına, qaçqın və məcburi köçkünlərə oftalmoloji yardım göstərirlər.

Respublika əhalisinə humanitar yardımın göstərilməsi çərçivəsinə Mərkəzin Səyyar klinikasının da fəaliyyəti daxildir. Səyyar klinika müasir diaqnostik və cərrahi oftalmoloji avadanlıqla, muxtar elektrik, istilik, kondisioner sistemləri ilə təchiz edilmiş iriqabaritli avtobus olaraq, hər bir şəraitdə işləyə bilir, burada xəstənin müayinəsi və lazım gəldikdə cərrahi əməliyyatının aparılması üçün bütün imkanlar yaradılıb. Bu klinika səkkiz ildən artıqdır ki, ölkəmizin ən ucqar rayon və kəndlərinə müntəzəm şəkildə gedərək, əhalisinə yüksəkixtisaslı, müasir texnologiyalı cərrahi və terapevtik oftalmoloji yardım göstərir, Bakı şəhərinin müxtəlif ali tədris və digər müəssisələrində, məktəblərində və uşaq bağçalarında dispanserizasiya işini aparır. Bu günə qədər Səyyar klinikada minlərlə xəstə müayinə olunmuş, yüzlərlə xəstədə cərrahi əməliyyat aparılmışdır.

Mərkəzin əməkdaşları dünyanın bütün böyük oftalmoloji yığıncaqlarında yaxından iştirak edir, çıxışlarında görmə orqanının müxtəlif növ patologiyasının terapiya və cərrahiyyəsində öz şəxsi təcrübə, oftalmologiyanın aktual problemlərinin həllində əldə etdikləri nəticələri beynəlxalq oftalmoloji cəmiyyətə çatdırırlar.

Mərkəzin gənc mütəxəssisləri dünyanın ən nüfuzlu oftalmoloji ocaqlarda təcrübi hazırlıq keçirir, gözün müxtəlif xarakterli patologiyası müalicəsinin ən müasir üsullarına yiyələnir və sonralar bu təcrübəni öz işlərində müfəffəqiyyətlə tətbiq edirlər.

Zərifə xanım milli oftalmologiyanın məhz belə gələcəyini arzulamışdır. Hazırda onun bu arzusu gerçəkləşib.

Mərkəzin həyatı Zərifə xanımın adı ilə əbədi bağlıdır. Görkəmli alimə və həkimə, tibb elminin və milli səhiyyənin xadimi akademik Z.Əliyevaya yüksək keyfiyyətlər xas idi. Məhz bu xüsusiyyətlər akademik Zərifə xanım Əliyevaya ölkəmizdə və onun sərhədlərindən kənarda oftalmoloqların və pasiyentlərin hörmətini və məhəbbətini, bütün Azərbaycan xalqının etimadını qazandırmışdır.

Zərifə xanım sözün əsl mənasında İnsan olmuşdur, onun həyatı bizim üçün əbədi nümunə olaraq qalacaqdır, xatirəsi, gözəl, nurlu siması həmişə qəlbimizdədir.

**Respublika**.-2017.-29 aprel.-№90.-S.5.

## Alim müdrikliyi, həkim şəfqəti

**Gəray GƏRAYBƏYLİ**,
Azərbaycan Tibb Universitetinin rektoru, professor

Xalqımızın fəxr etdiyi, adını daim uca tutduğu görkəmli elm xadimi, tibb elmləri doktoru, professor, dünya şöhrətli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan elminin parlaq səhifələrini təşkil edir. Bu böyük insanın keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Bu gün şöhrətli alimin əziz xatirəsi xalqımız, tibb ictimaiyyəti və səhiyyə işçiləri, o cümlədən məzunu olduğu Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti və çoxminli tələbələri tərəfindən böyük hörmət və ehtiramla yad edilir. Alicənablığına, səmimiyyətinə, xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə xalqının məhəbbətini qazanmış akademik Zərifə Əliyeva ilk növbədə əsl ziyalı və nurlu bir şəxsiyyət idi.

Hər bir tədris ocağı görkəmli məzunları ilə fəxr edir. Azərbaycan Tibb Universiteti də fenomen intellekti, mənəvi zənginliyi, bəşəri xidmətləri ilə dünya şöhrəti qazanmış məzunu – Zərifə xanım Əliyeva ilə daim qürur duyur. Böyük alim sıravi həkim kimi ilk addımlarını atanda da, elmin zirvəsini fəth edib, akademiklik səviyyəsinə yüksələndə də divarları arasında tibbin əsaslarına yiyələndiyi doğma təhsil ocağını, onun əməkdaşlarını, professor-müəllim heyətini, tələbə-gənclər kontingentini heç vaxt unutmayıb. Azərbaycan Tibb Universiteti də sədaqətli məzununun xatirəsini həmişə əziz tutur.

O, 1923-cü ilin 28 aprelində Azərbaycanın əsrarəngsiz gözəlliklərə malik diyarlarından olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində görkəmli dövlət və elm xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Valideynləri elə həmin ilin mayında Naxçıvandan Bakıya köçüblər. Bundan sonra gələcəyin görkəmli oftalmoloq-aliminin Bakı həyatı başlayıb. Orta məktəbi əla qiymətlərlə başa vuran Zərifə Əliyevanın gəncliyi 1941-1945-ci illərin ağır müharibə dövrünə təsadüf edib. Belə qlobal çətinliklərə baxmayaraq o, bilik diapazonunu genişləndirmək, ali məktəbə daxil olmaq, həkimlik sənətinə yiyələnmək üçün daim çalışır, öz üzərində işləyirdi.

Zərifə xanım Əliyeva 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (hazırkı Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsinin birinci kursuna daxil olanda ondan iki yaş böyük olan qardaşı Tamerlan Əliyev həmin institutun üçüncü kursuna keçmişdi. O dövrdə – İkinci Dünya müharibəsinin çətin illərində orta məktəbi bitirib Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olanların əsas amallarından biri də ali tibb təhsilinə yiyələndikdən sonra darda olan vətən övladlarına, xalqa layiqli xidmət göstərmək idi.

Zərifə Əliyevanı yaxından tanıyan həmkarları qeyd edirlər ki, o, tələbəlik illərində dərsdən sonrakı vaxtlarında tez-tez rəfiqələri, qrup yoldaşları ilə birlikdə Bakı şəhərinin müxtəlif təxliyə hospitallarındakı yaralı əsgərlərə baş çəkir, tibb bacılarına, sanitarlara yaxından kömək göstərir, çox vaxt onları əvəz edir, bütün gecəni səhərədək ağır yaralıların palatasında növbə çəkir, hətta ağır işləri görməkdən çəkinmirdi. O bilirdi ki, həkimin yolu hamar olmur. Bu yoldakı çətinlikləri dəf etmək üçün zəngin biliyə və təcrübəyə sahib olmaq lazımdır.

Nəhayət, 1947-ci ildə institutu bitirmək vaxtı gəlib çatanda Zərifə Əliyeva ixtisasseçmə dilemması ilə üzləşmədi. Əslində bunu güllə yarası aldıqdan sonra gözünün nurunu itirmiş yaralı döyüşçülərə qulluq edərkən artıq müəyyənləşdirmişdi. Ona görə də tərəddüd etmədən tibbin ən çətin, lakin şərəfli və şəfqətli yollarından birini seçərək həkim-oftalmoloq ixtisasına yiyələnməyə üstünlük verdi. Lakin Zərifə xanım başa düşürdü ki, yaxşı həkim-oftalmoloq olmaq üçün mütləq keçmiş Sovetlər Birliyinin qabaqcıl ali tibb məktəblərindən birində diplomdansonrakı təhsilini davam etdirməli, zərgər dəqiqliyi tələb edən praktik oftalmologiyanın sirlərinə daha dərindən yiyələnməlidir. Elə bu arzu ilə o, 1947-ci ildə Moskvaya gedərək oradakı Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının təkmilləşmə kursunda fəaliyyətə başladı. Həmin institutda çalışan görkəmli professorlarla tanışlıq Zərifə xanımın qəlbində silinməz izlər qoydu və o, bütün həyatı boyu bu institutla sıx əlaqəsini davam etdirdi.

İki il müddətində həmin institutda çalışan və oftalmologiya elminin sirlərini həm nəzəri, həm də təcrübi cəhətdən tam mənimsəyən Zərifə Əliyeva 1949-cu ildə Bakıya qayıdır, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi kimi fəaliyyətini davam etdirir. Həmin dövrdən etibarən diqqətini ağır müharibə illərindən sonra Azərbaycanda yenidən traxoma xəstəliyinin yayılmasının qarşısının alınmasına, diaqnostika, profilaktika və müalicəsinə yönəldir. 1950-ci ildə aspiranturaya daxil olur. Gənc tədqiqatçı Azərbaycanın traxoma xəstəliyi ocağına çevrilmiş bölgələrində, eləcə də bu infeksion xəstəliyin ehtimal olunduğu digər rayonlarda əhali arasında maarifləndirici tədbirlər həyata keçirir, dəyərli məsləhətlərini verir, profilaktik tədbirlərin nələrdən ibarət olduğu barədə proqramlar tərtib edir. Yerinə yetirilən profilaktik tədbirlər və geniş miqyasda ciddi müalicə işlərindən sonra ölkədə traxoma xəstəliyinin yayılmasının qarşısı etibarlı şəkildə alınır. XX əsrin ikinci yarısının əvvəllərində, güclü antibiotiklərin, lazımi dərman preparatlarının, səmərəli maddi-texniki bazanın, əlverişli cihaz və avadanlıqların olmadığı bir dövrdə çox ağır infeksion xəstəliklərdən sayılan traxoma xəstəliyinin yayılmasının

qarşısının alınması yollarının tapılması hər kəsə müyəssər olan iş deyildi. Zərifə xanım həyatının ən gözəl çağlarını – gənclik illərinin on ilə yaxın bir dövrünü bu istiqamətə həsr etdi və istəyinə çatdı. O, buna həm ürəyinin şəfqəti, həm əllərinin şəfası, həm də püxtələşmiş alim-həkim təxəyyülü, apardığı məntiqli elmi axtarışları sayəsində nail oldu. Belə ki, bacarıqlı həkim bir sıra terapiya üsulları ilə birlikdə həmin illərin yeni antibiotiklərindən sayılan sintomisindən də istifadə edərək kompleks müalicə üsulu icad etdi. Traxoma xəstəliyinin müalicəsində bundan geniş istifadə edildi və gözlənilən nəticə əldə olundu. Yalnız bundan – qarşısına qoyduğu məqsədə çatdıqdan sonra o, 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsinə layiq görüldü. Bu dissertasiya işi rəyçilər, opponentlər tərəfindən də yüksək qiymətləndirilirdi və doktorluq dissertasiyası mövzusuna layiq bir iş qədər dəyərləndirilirdi. Zərifə Əliyeva bununla Azərbaycanda yeni bir elmi istiqamətin, elmi məktəbin bünövrəsini qoydu.

Gənc alim 1960-1967-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışdı, apardığı tədqiqatların uğurlu nəticələrini kliniki təcrübəyə geniş tətbiq etdi və formalaşdırdığı elmi məktəbin bundan sonra daha böyük zəfərlər qazanacağına əsaslı zəmin yaratdı.

Alimin yaradıcılıq diapazonu getdikcə genişlənirdi və bir sıra tibb təhsili müəssisələrindən də onun adına dəvətlər gəlirdi. 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutundan (ADHTİ) aldığı dəvəti gənc alim məmnuniyyətlə qəbul edir. O, həmin ildən ADHTİ-nin Oftalmologiya kafedrasının dosenti vəzifəsində fəaliyyətə başlayır. Zərifə xanımın dəvəti qəbul etməsinin səbəblərindən biri də bu institutu da özünə çox doğma sayması idi. Çünki atası professor Əziz Əliyev həyatının son illərində əvvəlki işlərində olduğu kimi bu instituta da bacarıqla rəhbərlik etmişdi. Görkəmli alimin ölümündən sonra institut artıq Əziz Əliyevin adını daşıyırdı. Böyük həvəs, xüsusi entuziazm, yenilməz əzmkarlıqla ADHTİ-nin Oftalmologiya kafedrasında çalışan Zərifə xanım Əliyeva burada dosentlikdən kafedranın professoru və onun müdiri vəzifələrinə yüksəldi, tibb elmləri doktoru elmi dərəcəsinə, "Əməkdar elm xadimi" fəxri adına layiq görüldü, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçildi.

Daim qurub-yaratmaq, xəstələrə nurlu şəfqət paylamaq yolunu tutan alimə bütün vəzifələr, elmi dərəcə və fəxri adlar, yüksək rütbələr, mükafat və təltiflər hələ sonralar veriləcəkdi. Alim bu uğurlara çətin yollardan keçərək, gərgin çalışaraq, böyük zəhmətlərə qatlaşaraq çatacaqdı. Qeyd etmək lazımdır ki, Zərifə xanım bir işə başlayanda heç vaxt onu elmi dərəcə, yaxud elmi ad almaq, şan-şöhrət qazanmaq naminə etmirdi. Bu insanı tanıyanların hamısı təsdiqləyir ki, o, son dərəcə təvazökar, həddindən artıq fədakar, vətəni və xalqı üçün daim qurub yaratmağa, ona fayda verməyə can atan, ölkəsinə, xalqına uğur qazandırmağa çalışan alim, həkim, müəllim idi. Şahidlər söyləyirlər ki, akademik Zərifə Əliyeva işlərinin həddən artıq çox olmasına baxmayaraq, heç bir halda vaxt azlığından şikayətlənməzdi. O, elmi axtarışlar aparmağa da, beynəlxalq miqyaslı konfrans və simpoziumlar təşkil etməyə də, uşaqları və nəvələri ilə məşğul olmağa da, dünya şöhrətli siyasətçi Heydər Əliyev kimi dahinin qayğısını çəkməyə, ona möhkəm dayaq olmağa da vaxt tapırdı.

Əziz Əliyev adına ADHTİ-də çalışan Zərifə xanım aramsız olaraq cərrahiyyə əməliyyatları aparır, gözlərə nur bəxş edir, xəstələrə maarifləndirici təlimlər keçir, keçmiş SSRİ-nin müxtəlif respublikalarından, o cümlədən Azərbaycanın regionlarından təkmilləşmə kurslarına gəlmiş müdavimlərə mühazirələr oxuyur, praktik məşğələlərə geniş yer ayırırdı. Onun tibbin oftalmologiya sahəsi üzrə yetişdirdiyi kadrlara keçmiş Sovetlər Birliyinin, eləcə də dünyanın bir çox ölkələrinin tibb müəssisələrində rast gəlmək olur.

Zərifə Əliyeva dövrün, zamanın nəbzini düzgün tutmağı bacarmaq istedadına malik həssas qəlbli həkim idi. Keçən əsrin 60-70-ci illərində Azərbaycanda neft-kimya sənayesinin inkişafı ilə əlaqədar ölkədə peşə xəstəliklərinin artdığını və bunun görmə orqanında ağır fəsadlar törətdiyini açıqlayır və ona etinasız qala bilmirdi.

Görkəmli alim Azərbaycanda peşə patologiyalarının görmə orqanında yaratdığı ağırlaşmaların qarşısını almaq, insanları bu kütləvi bəladan xilas etmək üçün yeni elmi istiqamətin axarına düşür. O, insan orqanizmi üçün zərərli sənaye müəssisələrində çalışan insanların oftalmoloji müayinədən keçirilməsinə nail olur. Alim peşə amili etiologiyalı göz xəstəliklərinin yayılma miqyasını daha dəqiq müəyyənləşdirmək məqsədilə işə başlayır, Bakı Şin Zavodunda, yod sənayesi müəssisələrində, Sumqayıt "Üzvi sintez" İstehsalat Birliyində, Mingəçevir "İzolit" və rezin-texnika məmulatları zavodlarında, Gəncə gil-torpaq kombinatında və bir sıra digər müəssisələrdə çalışan insanların görmə orqanlarının kütləvi surətdə peşə xəstəliyinə mübtəla olduqlarını müəyyənləşdirir. Bundan sonra peşə ilə əlaqədar meydana çıxan göz xəstəliklərinin ölkə daxilində yayılma dərəcəsi təhlükəsini aşkar edir və belə xəstəliklərin profilaktikası, diaqnostikası, müalicəsi ilə ciddi məşğul olmağı təxirəsalınmaz hal kimi qarşıya qoyur.

Zərifə Əliyeva peşə amillərinin görmə orqanlarına mənfi təsir göstərmələrini, onların etio-patogenezini, yaranma mexanizmini elmi cəhətdən tam əsaslandırdı və bu növ ağır peşə xəstəliklərinin qarşısını almaq, xalqı bu bəladan xilas etmək məqsədilə geniş layihələr, proqramlar hazırladı. Çəkdiyi zəhmət öz bəhrəsini verdi və bu, onun doktorluq dissertasiyası işinin mövzusunu təşkil etdi.

Görkəmli alim 1976-cı ilin 27 mayında M.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda dünya miqyasında tanınmış məşhur oftalmoloq-alimlərin iştirak etdiyi Elmi Şurada "Azərbaycanın

bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi. Bu müdafiənin doğurduğu təəssüratdan danışan Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Piroqrov adına II Moskva Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri, akademik A.P.Nesterov yazır: "Bu zəngin elmi-tədqiqatların müəllifini görmək və eşitmək arzusunda idik… Kürsüyə bəstəboy, qara saçlı, suyuşirin, irigözlü, qaynar baxışlı bir qadın qalxdı. Onun nitqi dəqiq və aydın tələffüzü ilə, ən çətin məsələləri belə sadə dildə ifadə etmək bacarığı ilə seçilirdi. O, məruzənin ayrı-ayrı məqamlarına rəngli slaydlarla, qrafiklərlə, cədvəllərlə aydınlıq gətirirdi. Zərifə Əziz qızının məruzəsi Şurada diqqətlə dinlənildi. Rəsmi və qeyri-rəsmi opponentlərin rəyləri yekdil idi. Gizli səsvermə yolu ilə Şura yekdilliklə Zərifə Əziz qızı Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi vermək barədə qərar çıxardı… Zərifə Əziz qızının tədqiqatlarının üstün cəhəti fundamental elmlə səhiyyə təcrübəsinin sıx əlaqəsində idi".

Zərifə xanımın yüksək səviyyədə keçən dissertasiya müdafiəsi tələbkar rus alimlərinin böyük marağına səbəb olmuş, onların müzakirə obyektinə çevrilmişdi. Möhtəşəm müdafiədən sonra doğma vətəninə qayıdan alimin professor elmi adı təsdiq olundu.

1977-ci ilin 21-22 oktyabrında professor Zərifə Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin VII plenumu keçirildi. Bu plenumun vətənimizin paytaxtında keçirilməsi Azərbaycan alimləri ilə keçmiş SSRİ-nin qabaqcıl tibb alimləri arasında işgüzar əlaqələrin yaranmasında, Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinin başlanmasında mühüm əhəmiyyət kəsb edirdi. Plenumda çıxış edən Zərifə Əliyeva Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə İxtisaslaşdırılmış Elmi-Tədqiqat Laboratoriyası yaradılması haqqında təklif irəli sürdü. Bu təklif plenum iştirakçıları tərəfindən yekdilliklə qəbul edildi.

Bundan sonra, 1979-cu ildə Zərifə Əliyevanın təklifi və təşkilatçılığı ilə Bakı Məişət Kondisionerləri Zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Elmi-Tədqiqat Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı laboratoriya yaradıldı. Üç şöbədən ibarət olan laboratoriya Azərbaycanda görmə orqanının peşə xəstəliklərinin profilaktikası, diaqnostikası və müalicəsi mərkəzinə çevrildi. Şöbələrdən birində görmə orqanının vəziyyəti yoxlanılır, ikincisində diaqnostik-funksional müayinələr aparılır, üçüncüsü isə cərrahi əməliyyatlar keçirmək məqsədinə xidmət edirdi. Zərifə xanımın bu təşəbbüsü keçmiş SSRİ-nin digər oftalmoloji müalicə müəssisələrində də bəyənilərək təcrübəyə tətbiq edildi. Alimin elmi-tədqiqat işlərinin nəticələri "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarında və digər əsərlərində öz əksini tapıb.

1981-ci il 8-9 oktyabr tarixində Ümumittifaq Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin VIII plenumunda iştirak edən Zərifə Əliyeva yeni bir elmi istiqamət üzrə – həkim deontologiyası haqqında çıxış edərək fikirlərini plenum iştirakçıları ilə bölüşdü. Görkəmli alimin məruzəsi böyük marağa səbəb oldu, mövzu ətrafında qızğın müzakirələr aparıldı, Azərbaycan aliminin bu istiqamətdəki deontoloji fikir və təklifləri alqışlarla qarşılandı. Zərifə xanım bu kontekstdə qələmə aldığı "Yüksək Etimad" kitabını həm həkimlər, həm müəllim və tələbələr, həm də gələcək nəsillər üçün nəzərdə tutmuşdu. Kitabın əsas məğzini təşkil edən həkim-xəstə münasibətlərinin etik normaları o qədər kamil işlənib ki, kitab bütün dövrlərdə aktuallığını saxlaya bilən bir inci təsiri bağışlayır.

Zərifə Əliyeva harada işləməsindən, harada olmasından asılı olmayaraq, həmişə ATU-nun rəhbərliyi, professor-müəllim heyəti və tələbələri ilə sıx əlaqə saxlayırdı. O, Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda çalışanda ATİ-nin Oftalmologiya kafedrasının əməkdaşları ilə sıx ünsiyyətdə olurdu. Bu kafedra o vaxtlar Dövlət Filarmoniyası binasının yaxınlığındakı ET Oftalmologiya İnstitutunun bazasında yerləşdirilmişdi. O, kafedranın bütün işçilərinə böyük qayğı ilə yanaşır, onlara elmi-tədqiqat işlərinin yerinə yetirilməsində yaxından kömək göstərirdi. Həmin vaxtlar – Zərifə xanım ET Oftalmologiya İnstitutunun böyük elmi işçisi vəzifəsində çalışanda, bacısı Ləzifə xanım Tibb İnstitutunun müəllimi idi və o, ATİ-nin Oftalmologiya kafedrasının dosenti vəzifəsində çalışırdı. Bu iki tanınmış həkim eyni binada yerləşən Elmi-Tədqiqat İnstitutu ilə ATİ-nin Oftalmologiya kafedrası arasında sıx əlaqələr yaratmışdılar. Görünür, Zərifə xanımla sonralar uzun illər ATİ-nin Oftalmologiya kafedrasının müdiri və institutun rektoru vəzifələrində çalışmış Zəhra xanım Quliyeva arasındakı yaxın dostluq münasibətlərinin təməli də elə həmin illərdə, o tarixi binanın divarları arasında qoyulmuşdu.

1977-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunda professor Əziz Əliyevin anadan olmasının 80 illiyi təntənə ilə qeyd edilmişdir. Akademik Zərifə Əliyeva ATİ-də keçirilən həmin yubiley tədbirində çıxış etmiş, səmimi ürək sözlərini söyləmişdir.

1981-ci ildə ölkəmizin tibb elmi, tibb təhsili və bütövlükdə səhiyyə sistemində mühüm tarixi hadisə baş verdi. Moskvadan alınan xoş xəbərdə qeyd edilirdi ki, Azərbaycanın dünya şöhrətli alimi və şəfqətli həkimi, professor Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülüb. Təbii ki, bu mükafat təkcə səhiyyə işçilərinin deyil, bütövlükdə Azərbaycan xalqının başını uca edən dəyərli bir mükafat idi. Beynəlxalq aləmdə çox nüfuzlu sayılan akademik M.İ.Averbax mükafatının təltifçisi

professor Zərifə Əliyevanın bu mükafatı təkcə onun özünə deyil, XX əsrin ikinci yarısında Azərbaycan oftalmologiya elminə verilən qiymət idi.

1982-ci ildə Zərifə Əliyevanın Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının müdiri vəzifəsinə seçilməsi oftalmoloqların diplomdansonrakı təhsillərinin keyfiyyətinin artırılmasına, bu kafedranın beynəlxalq əlaqələrinin genişləndirilməsinə, elmi-tədqiqat işlərinin nəticələrinin səhiyyə praktikasına tətbiqi səviyyəsinin yüksəldilməsinə gözəl zəmin yaratdı.

1983-cü ildə Azərbaycan oftalmoloq alimləri arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilən ilk oftalmoloq-alim olması Zərifə xanımın simasında ölkə oftalmologiya elminə böyük nüfuz qazandırdı.

Elmi-tədqiqat işlərinin spektr dairəsi çox geniş olduğuna görə görkəmli alim oftalmologiyanın bütün sahələri, bütün istiqamətləri üzrə araşdırmalar aparıb və bu da bir sıra monoqrafiya və kitabların yazılmasının dayaq nöqtəsinə çevrilib. Akademik Zərifə Əliyevanın yazdığı "Herpetik göz xəstəlikləri", "Ağır virus konyuktivitləri", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi", "Göz almasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi", "Oftalmologiyanın aktual məsələləri" və başqa əsərlər hazırda da öz aktuallığını saxlamaqdadır.

Zərifə xanım çoxsaylı monoqrafiya və kitabların, elmi əsərlərin, elmi-kütləvi məqalələrin, ixtira və səmərələşdirici təkliflərin müəllifi, onlarla gənc həkimin doktorluq və namizədlik dissertasiyası işlərinin elmi rəhbəri və məsləhətçisi olub.

Akademik Zərifə Əliyeva ölkəmizin ictimai-siyasi həyatında da yaxından iştirak edib. Belə ki, o, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini vəzifələrini yüksək səviyyədə yerinə yetirərək, ölkəmizdə və xaricdə sülhməramlı elçi kimi çoxsaylı məruzələr, çıxışlar edib, respublikamızın sülhsevər ölkə kimi tanınması yolunda böyük xidmətlər göstərib. Görkəmli alim həmçinin respublika "Bilik" Cəmiyyəti idarə heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çap edilən "Oftalmologiya Xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olub.

Akademik Zərifə Əliyeva 1985-ci il aprel ayının 15-də, yaradıcılığının ən məhsuldar çağında əbədiyyətə qovuşub. Bu tarixdən 32 ilə yaxın vaxt keçsə də, bütün Azərbaycan xalqı kimi, Azərbaycan Tibb Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və çoxminli tələbələri də özünün dünya şöhrətli məzununun xatirəsinə həsr olunmuş anım tədbirləri və elmi konfranslar keçirir.

Dünya şöhrətli alim-oftalmoloq Zərifə xanım Əliyevanın zəngin yaradıcılıq irsi həm bugünkü, həm də gələcək nəsillər, ölkəmizin bütün səhiyyə işçiləri üçün parlaq nümunədir.

**Azərbaycan**.-2017.-28 aprel.-№89.-S.3.

# Mənəvi ucalığın zirvəsində

**Nazim Qasımov,**
Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə institutunun rektoru, professor

***Ülvi insani keyfiyyətləri ilə mənəvi ucalığın zirvəsinə ucalaraq əbədiyyətə qovuşmuş, unudulmaz Zərifə xanım Əliyeva məhz nurdan yaranan, bütün varlığı ilə nur olan təkrarsız bir insan idi. Elə buna görə də təsadüfi deyil ki, onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək amalına xidmət edirdi. Onun təbib əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. Geniş qəlbindən və dərin zəkasından çağlayan nur seli onu tanıyan insanların mənəvi dünyasına daim işıq salır.***

Tarix bizə bir şəxsin simasında rəhbərlik və elmi tədqiqatçılıq istedadının, tükənməz əməksevərlik və ramedici nəzakətliliyin xoşbəxt vəhdətini birləşdirən çox az nümunələr vermişdir. Akademik Zərifə xanım Əliyeva məhz belə keyfiyyətlərə malik olmuşdur. Uca dağlar silsiləsinin zirvələri olduğu kimi, Zərifə xanım da müasir Azərbaycan oftalmologiya elminin əsas zirvələrindəndir.

Zərifə xanım Əliyevanın həyatının mənasını təşkil edən nə varsa – gözəl ailəsi, elmi, davranışı, bütövlükdə əxlaqı hamısı onun nuruna qərq olmuşdu. Şübhə yoxdur ki, bütün potensial imkanlarını realizə etmək və inkişaf etdirmək onu formalaşdıran mühitdə mümkün olmuşdur. Axı Zərifə xanım istedadlı və gözəl bir ailədə – görkəmli dövlət xadimi, Azərbaycanın böyük səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində anadan olmuşdur. Belə ki, bu böyük insanın xüsusiyyətləri, təbii ki, qızı Zərifə xanıma da keçmişdir.

Ən yüksək keyfiyyətlər – səmimilik, alicənablıq, qayğıkeşlik, ilk növbədə özünə, daha sonra ətrafdakılara qarşı tələbkarlıq, sözü ilə işinin birliyi, vətənpərvərlik, xalqına, Vətəninə və torpağına tükənməz məhəbbət Zərifə xanım Əliyevaya xas cəhətlər idi.

Tibb İnstitutunu bitirdikdən və Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmoloğiya üzrə ixtisaslaşma kursu keçdikdən sonra 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi fəaliyyətə başlayaraq, ordinatorluqdan baş elmi işçiliyə qədər yaradıcılıq yolu keçmiş və böyük mütəxəssis kimi formalaşmışdır.

Elmi fəaliyyətinin ilk dövründə Zərifə xanım tərəfindən traxomanın erkən diaqnostikası, müalicəsi və profilaktikasına dair aktual elmi araşdırmalar aparılmışdır. Namizədlik dissertasiyasında əksini tapmış bu araşdırmaların nəinki elmi, həmçinin böyük praktik əhəmiyyəti vardı. Minlərlə insanın korluqdan xilas olaraq ictimai faydalı əməyə qayıtmasını mümkün etməsi bu elmi tədqiqatların mühümlüyünə dəlalət edirdi. Beləliklə, Azərbaycanda traxoma xəstəliyinin ləğvinə yönəldilmiş kompleks tibbi tədbirlər məhz Zərifə xanım Əliyevaya məxsusdur. Onu da qeyd edək ki, malyariya və traxomaya qarşı fədakar mübarizə aparan professor Əziz Əliyev estafeti qızına vermiş oldu. Fundamental elmi axtarışlardan maksimum praktik nəticə əldə etmək xüsusiyyəti gənc alimin həm bu, həm də sonrakı işləri üçün xarakterik idi.

Zərifə xanımın bütün sonrakı fəaliyyəti tibb elminin nailiyyətlərinin oftalmologiyada tətbiqinə yönəlmişdi. Bununla birgə, o, həmişə oftalmologiyada kliniki istiqamətin tərəfdarı olmuşdur.

Z.Əliyeva keçən əsrin altmışıncı illərində dünya təcrübəsində birincilər sırasında görmə üzvünün peşə xəstəlikləri problemi üzrə geniş elmi axtarışlara başlamışdı. Sənaye zərərlərinin görmə orqanına toksik təsirinin öyrənilməsinə bir sıra elmi əsərlər həsr edilsə də, kimya istehsalının müxtəlif inqrediyentlərinin görmə orqanlarına təsiri az işıqlandırılmışdı. Kimya istehsalının bəzi yeni sahələri ilə əlaqədar olan peşə xəstəlikləri xüsusilə az öyrənilmişdi. Halbuki, kimyəvi inqrediyentlərin müxtəlif kombinasiyaları bir çox hallarda insan orqaniziminə və görmə orqanına zərərli təsir göstərir. Kimyəvi maddələrin uzunmüddətli kompleks təsiri nəticəsində orqanlarda distrofik, proliferativ proseslər əmələ gəlir. Bir çox inkişaf etmiş ölkələrdə şin və yod istehsalı yüksək səviyyədə olsa da, bu sahələrdə istehsal tullantılarının görmə orqanına toksik təsirinin öyrənilməsinə aid müfəssəl işlər yox idi. Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının əsas istiqamətlərindən biri də məhz yod və şin sənayesinin zərərli təsirlərindən gözün zədələnməsinin öyrənilməsi olmuşdur. Dünya ədəbiyyatında bu fundamental tədqiqatın analoqu yoxdur. Bu problem üzrə Zərifə xanımın elmi tədqiqatlarının nəticələri haqqında dərc olunmuş 30-dan çox elmi işdə tetraxloretilen, pestisid, stirol buxarlarının orqanizmə xroniki təsiri zamanı görmə üzvünün və onun funksiyalarının vəziyyəti əks etdirilir. Məhz bu dövrdən başlayaraq, Zərifə xanımın elmi axtarışlarının əsas mövzusu Azərbaycanın kimya sənayesinin bəzi sahələrində çalışan fəhlələrin görmə orqanının vəziyyətini tədqiq etmək olmuşdur.

Bu problem üzrə Z.Əliyevanın elmi tədqiqatlarının səciyyəvi yaradıcılıq axtarışlarının genişliyi, təhlillərin dərinliyi və elmi uzaqgörənliyidi. Bu tədqiqatların nəticələri haqqında dərc olunmuş 30-dan çox elmi işdə görmə orqanının vəziyyəti və onun funksiyasına stirol, tetraxloretilen, pestisid və digər peşə yönümlü istehsalat amillərinin təsiri əks etdirilmişdir.

Zərifə xanım əldə olunmuş nəticələrlə kifayətlənməyərək, tədqiqatlarının mövzusunu daha da dərinləşdirmiş və dünyada ilk dəfə olaraq görmə orqanına az miqdarda olsa da, peşə amillərinin təsirini aşkar etmişdir. Qeyd etmək lazımdır ki, o, elmi axtarışlarının nəticələrini mütəmadi olaraq tələbələri ilə təhlilini apararaq, onları elmi məqalə, məruzə və metodik tövsiyə formasında nəşr etdirirdi.

Aparılmış fundamental elmi işlərin nəticələri Zərifə xanımın 1976-cı ildə M.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil edirdi. Bu məşhur institutun alimləri və ixtisaslaşmış şuranın üzvləri işə yüksək qiymət verməklə çoxillik tədqiqatların nəticələrini monoqrafiya, dərs vəsaiti və metodik tövsiyə şəklində çap etdirməyi məsləhət görmüşlər. Z.Əliyevanın doktorluq dissertasiyası müdafiəsinin şahidi kimi xatirimdə elmi şuranın sədri tərəfindən deyilən ifadə qalır: “Əməkdar elmlər doktorunu parlaq müdafiə münasibətilə təbrik edirəm”. Bu, böyük xoşbəxtlik idi!

Yaradıcılıq uzaqgörənliyi və həyatın nəbzini düzgün təyin etmək bacarığı Zərifə xanım Əliyevaya dünya təcrübəsində ilk dəfə olaraq istehsalat şəraitində – Bakı Məişət Kondisionerləri Zavodunun sexlərində elmi-tədqiqat laboratoriyasını yaratmağa imkan verdi. Bu laboratoriya elmi axtarışlar aparmaqla yanaşı, görmə orqanı xəstəliklərinin erkən aşkar olunmasında və müalicəsində mühüm rol oynayırdı. Laboratoriyanın topladığı elmi materiallar Z.Əliyevanın üç tələbəsinin namizədlik dissertasiyasının mövzusunu təşkil etdi.

Zərifə xanımın elmi fəaliyyətinin çoxistiqamətliliyini onun rəhbərlik etdiyi kafedra və elmi-tədqiqat laboratoriyasının müasir oftalmologiyanın aktual problemlərinə həsr edilmiş müxtəlif tədqiqatları sübut edir. Onun elmi axtarışlarının indiki dövrdə belə aktuallığını keçmiş İttifaqın alimləri tərəfindən həmin monoqrafiyanın təqdim olunması haqqında mənə dəfələrlə olunan müraciətləri təsdiqləyir.

Zərifə xanım elmi axtarışlarda müəyyən qanunauyğunluğa riayət edirdi. O deyirdi: “Tədqiqatları təkmilləşdirməklə biz daha bir pillə yüksəlirik və qarşımızda yeni geniş üfüqlər açılır”. O, hərbi-səhra cərrahı N.İ. Piroqovun sözlərini tez-tez tələbələrinə xatırladırdı: “Elmi axtarışlarda istiqamət və metod ən əsasıdır. Düzgün üsulları və istiqaməti tapmadan çox vaxt itirməklə özün də çaşırsan”.

Elmi ədəbiyyatla gözəl davranan akademik Z.Əliyeva kafedra və elmi-tədqiqat laboratoriyasında elmi axtarışlarını səylə hazırlayırdı. Buna səbəb Zərifə xanımın yüksək erudisiyası, işləmək mədəniyyəti, məqsədyönlülüyü və prinsipiallığı idi. O, məlum hadisələri yeni baxımdan görmək qabiliyyətinə malik idi. Məhz Zərifə xanımın şəxsiyyətinin bu xüsusiyyətlərinin cəmi onun orijinal klinik və elmi fəaliyyətini müəyyən edirdi.

Zərifə xanımı həkimlərin mənəvi tərbiyəsi, tibbi etikası və deontologiyası düşündürürdü. Bu sahəyə “Yüksək istedad” adlı monoqrafiyası həsr edilmişdi. Öz mühazirələrində Zərifə xanım Əliyeva təkmilləşmə kurslarında dinləyicilərinə həkimlik deontologiyası barədə belə deyirdi: “Xəstə sənin əlini sıxıb səmimi qəlbdən: Həkim, çox sağ ol ! – deyəndə öz elmi nailiyyətinə sevin”.

O, elmi və elmi-pedaqoji kadrların hazırlanması və tədqiqatların aparılması üçün kafedra və laboratoriyanın təchizatına böyük diqqət verirdi. Çox qısa vaxtda o, kafedra və laboratoriyanın maddi-texniki bazasını zənginləşdirdi.

Z.Əliyevanın və tələbələrinin apardığı çoxşaxəli elmi tədqiqatları və bu oftalmoloji məktəbin ümumi cəhəti onun klinik-eksperimental istiqaməti idi. Görmə orqanının peşə patalogiyası sahəsində çoxsaylı işlərində Zərifə xanım qeyd edirdi ki, elmi problemlərin işlənməsi nəinki xəstənin ciddi müayinə və müşahidəsindən, həmçinin fiziki amillərin, orqanizmin fizioloji statusunun, biokimyəvi və mübadilə proseslərinin, ətraf mühit amillərinin təsirinin tədqiqindən asılıdır. Bir şey şübhəsizdir: Zərifə xanım öyrənilən prosesin dərinliyini aşkar etməyə, şəxsi fikir və mülahizənin yaranmasına böyük diqqət verirdi.

Akademik Z.Əliyeva və onun tələbələrinin elmi fəaliyyətinin xüsusiyyətini əməkdaşların möhkəm nəzəri hazırlığı üzərində qurulan klinik təcrübə təşkil edirdi. Onun çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiya, 160-dan çox elmi iş, bir ixtira və 12 səmərələşdirici təklifdə öz əksini tapır. Belə çoxşaxəli axtarışları aparmaq məhz Zərifə xanım kimi böyük alim və klinisistə nəsib ola bilər. Məsələ yalnız göz xəstəliklərinin müxtəlif bölmələrini əhatə edən elmi işlərdə deyil, problemin həllinə xüsusi yanaşmadan ibarətdir. Bu xüsusiyyət Zərifə xanımın aktiv surətdə inkişaf etdirdiyi yaradıcılıq birliyini əks etdirən faktlarda sübutunu tapır. Mübaliğəsiz demək olar ki, 1970-1985-ci illərdə oftalmologiya sahəsində aparılan birgə yaradıcı axtarışların əsası Zərifə xanım Əliyeva tərəfindən qoyulmuşdur. Buna İkinci Moskva Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, professor A.P.Nesterov, Rusiya Diplomdansonrakı Təhsil Akademiyasının oftalmologiya kafedrasının müdiri, professor L.K.Moşetova, Rusiya İridoloqlar Assosiasiyasının vitse-prezidenti, Rusiyanın Əməkdar elm xadimi, professor N.B.Şulpina və digər məşhur alim-oftalmoloqlarla yaradılan elmi əlaqələr canlı sübutdur.

Oftalmologiyanın mühüm problemləri üzrə kompleks tədqiqatlar və nəşrlər öz qiymətli nəticələrini verməklə yanaşı, müasir dövrə qədər davam edən birgə əməkdaşlığın əsasını qoydu.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, Zərifə xanım elmi əməkdaşların-klinisistlərin müasir instrumental müayinələrə yiyələnməsinə böyük fikir verməklə, həkimlərdə klinik müşahidə və klinik analizi ön plana çəkirdi.

Alim-oftalmoloqların formalaşması və əməkdaşlığı sahəsində mühüm rolu 1977-ci ildə Zərifə xanımın təşəbbüsü ilə keçirilən SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumunun keçirilməsi oynadı. Bu

yüksək səviyyəli forumda oftalmologiyanın aktual problemlərinin kompleks öyrənilməsi geniş müzakirə olundu. Plenum təbabətin bu sahəsinin təşkili və inkişafında, həmçinin elmi-pedaqoji kadrların hazırlanmasında, şübhəsiz, mühüm yer tutdu.

Zərifə xanım Əliyevanın əmək fəaliyyətinin böyük bir hissəsi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (Az.DHTİ) ilə bağlıdır. Əvvəl o, göz xəstəlikləri kafedrasının dosenti, sonra professoru və ömrünün sonuna kimi müdiri vəzifəsində çalışmışdır.

1977-ci ildə tibb elmləri doktoru Z.Əliyeva Əziz Əliyev adına Az.DHTİ göz xəstəlikləri kafedrasının professoru seçilmiş, pedaqoji işlə bərabər daha effektli elmi-tədqiqat işinin təşkilinə böyük enerji ilə başlamışdır. Belə ki, 1974-cü ildə “Gözün herpetik xəstəliyi və kəskin virus konyunktivitləri” həkimlər üçün dərs vəsaiti kimi nəşr edilmişdir.1980-ci ildə isə Zərifə xanım Əliyeva tərəfindən üç monoqrafiya çap olunmuşdur – “Rezin istehsalında gözün peşə xəstəliyi”, “Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası”, “Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri”. 1981-ci ildə onun “Xroniki yod intoksikasiyası zamanı oftalmologiya” monoqrafiyası nəşr edilmişdir.

1980-ci ildə elmi xidmətlərinə və elmi-pedaqoji fəaliyyətinə görə Zərifə xanıma “Azərbaycanın Əməkdar elm xadimi” fəxri adı verilmişdir. 1981-ci ildə kimya istehsalatında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işlərinə, o cümlədən “Rezin istehsalında gözün peşə patologiyası” monoqrafiyasına görə Zərifə Əliyeva SSRİ Elmlər Akademiyasının akademiki M.İ.Averbax Mükafatına layiq görülmüşdür. 1982-ci ildə professor Z.Əliyevanı Ə.Əliyev adına ADHTİ-nin oftalmologiya kafedrasının müdiri seçmişlər. Bu kafedra və klinika oftalmologiyanın aktual problemlərinin, xəstənin müasir incə klinik müayinə üsullarının işlənib hazırlanması üzrə Azərbaycanın aparıcı mərkəzinə çevrilmişdir.

Zərifə xanım Əliyevanın klinikası və kafedrası ilə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun digər profilli kafedra və klinikaları, həm də Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutu kollektivləri arasında elmi yaradıcılıq əlaqələri çox məhsuldar olmuşdur. Z.Əliyeva məktəbinin yetirmələri və davamçıları olan, kafedranın və görmə üzvünün fiziologiyası və peşə patologiyası elmi-tədqiqat laboratoriyasının bütün əməkdaşları elmi yaradıcılıqlarının rəngarəngliyi ilə özlərini göstərmişlər.

Professor Zərifə xanım Əliyeva gözəl mühaziərçi olmuşdur. Onun mühazirələri, çıxışları həmişə yeniliyi və orijinallığı ilə diqqəti cəlb etmişdir. O, aydın danışıq və ifadə mədəniyyətinin zirvəsinə çatmışdır.

Mühazirə və çıxışlarındakı yığcamlıq, fikirlərinin məntiqi ardıcıllığı, yüksək ümumi və nitq mədəniyyəti, insanlara diqqəti dinləyicilərində həmişə zəngin təəssüratlar yaratmışdır. İnstitutun Elmi Şurasının yığıncaqlarında, elmi konqreslərdə, simpoziumlarda, konfranslarda çıxış edərkən Zərifə xanım öz prinsipiallığı, savadlılığı, geniş düşüncəsi, ideya yeniliyi, yüksək humanizmi ilə seçilmişdir.

Zərifə xanımın praktik həkimlik fəaliyyətini xüsusən qeyd etmək istəyirəm. O, əməkdaşlarından xəstələrə böyük məhəbbət və hörmətlə yanaşmağı tələb edirdi: “Unutmayın ki, müalicə həkimi xəstənin ən doğma adamıdır”.

Zərifə xanım Əliyevanın rəhbərliyi ilə keçirilən həkimlərin səhər konfransları həqiqi məktəb idi və həmişə canlı, dolğun və əhatəli keçirdi. Müalicə həkiminin xəstə haqqında çıxışı çox vaxt auditoriya qarşısında imtahana çevrilirdi. Onun tərəfindən keçirilən kliniki araşdırmalar, konsultasiyalar, xəstələrə baxışlar oftalmoloq həkimlərin ixtisasını artırmasında və tərbiyəsində mühüm rol oynamışdır.

1982-ci ildə professor Z.Əliyevanın Moskva alimlərinin əməkdaşlığı ilə “İridodiaqnostikanın əsasları” və “Şəkərli diabet zamanı göz xəstəlikləri” kimi nəhəng işləri çapdan çıxmışdır.

Professor Z. Əliyevanın zəngin elmi-pedaqoji və kliniki təcrübəsi 1983-cü ildə “Oftalmologiyanın aktual problemləri” əsərinin nəşr olunmasına imkan vermişdir. Bu əsər də “Terapevtik oftalmologiya” kimi həkimləri təkmilləşdirmə institutunun, tibb institutunun müəllimlərinin və praktik həkimlərin masaüstü kitabıdır.

Professor Z.Əliyeva və onun tələbələrinin gözyaşı problemləri sahəsində elmi tədqiqatları xüsusilə müvəffəqiyyətlidir. Bu problem üzrə 1983-cü ildə professor Z.Əliyeva və tibb elmləri doktoru, professor M.Sultanov tərəfindən hazırlanmış iki monoqrafiya – “Gözyaşı axıtmanın fiziologiyası” və “Gözyaşı axıtmanın cərrahi müalicəsinin müasir üsulları” çapdan çıxmışdır.

Professor Zərifə xanım Əliyevanın tibb elmi sahəsindəki böyük xidmətləri 1983-cü ildə onun Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsinə səbəb oldu.

Akademik Z.Əliyevanın tələbələri öz müəllimi tərəfindən vəsiyyət olunmuş qabaqcıl mövqeyini qoruyub saxlamış və o cümlədən digər elmi kollektivlərlə əməkdaşlığı davam və inkişaf etdirmişlər.

Zərifə xanım Əliyeva bütün ömrü boyu tibb elminin və səhiyyənin ön sıralarında olmaqla yanaşı, ictimai işlərdə də fəallıq göstərmişdir. O, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü və Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Oftalmoloqların Ümumittifaq Elmi Cəmiyyəti və “Bilik” Cəmiyyəti rəyasət heyətlərinin, habelə Moskvada çıxan “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü idi.

Ə.Əliyev adına Az.DHTİ-nun professor-müəllim heyəti Zərifə xanımı minnətdarlıq hissi ilə yad edir, onun xatirəsi önündə baş əyir. O, öz yaradıcılıq enerjisi ilə institutun sonrakı inkişafını müəyyən etmişdir. Zərifə xanım

Əliyeva yaradıcı insan idi. Onun insanlara məhəbbətdən qidalanan əməyi onlara mübarizədə və qalib gəlməkdə kömək etməyə yönəlmişdi.

Akademik Z. Əliyevanın xidmətləri qiymətləndirilmişdir. O, orden və medallarla təltif edilmişdir. Zərifə xanımı yaxından tanıyan elm və mədəniyyət xadimləri də onun xidmətlərini yüksək dəyərləndirmişlər.

Zərifə Əliyeva tarixə nəinki istedadlı alim, klinisist, elm təşkilatçısı, eyni zamanda, gözəl pedaqoq və yeni alimlər nəslinin tərbiyəçisi kimi daxil olmuşdur. Azərbaycanda aparıcı oftalmoloji məktəblərdən birini o yaratmışdır. Yüzlərlə həkim onun rəhbərliyi altında insanlara sağlamlıq və yaradıcı əmək sevinci bəxş etməyi öyrənmişlər.

Görkəmli dövlət xadimi, böyük siyasətçi Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı olan Zərifə xanım ümummilli liderimizə xalqı işıqlı ideallara qovuşdurmaq yollarındakı qətiyyətli mübarizəsində etibarlı dayaq olmuş, cəmiyyətimiz üçün dəyərli övladlar bəxş etmişdir.

Xalq qəzeti.-2017.-28 aprel.-№89.-S.3.

## Gözlərə nur bəxş edən alim

**Elmira Süleymanova**,
professor, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman).

Hər bir ölkənin, xalqın tarixində elə şəxslər vardır ki, onlar bu xalqın taleyinə öz təsirini göstərir, müəyyən dövrdə sanki bu tarixin səhifələrini yazır, yaradır, sonra isə özlərinin adı da tarixin ən parlaq səhifəsinə çevrilir.

Belə şəxsiyyətlər sırasında Zərifə xanım Əliyeva xüsusi yer tutur. Zərifə xanım qayğıkeş ana, sadiq həyat yoldaşı, tanınmış həkim, görkəmli alim və ictimai xadim kimi mənalı həyat yolu keçmişdir. Bu şərəfli ömrə nəzər yetirsək, Zərifə xanımın hər zaman həyatda onun üzərinə düşən hər bir vəzifəni layiqincə yerinə yetirdiyinin şahidi olarıq.

Zərifə xanım Əliyeva dövrünün görkəmli dövlət və ictimai-siyasi xadimi, elm fədaisi, böyük şəxsiyyət Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Görkəmli dövlət xadimi, əməkdar həkim Əziz Əliyev şərəflə yaşadığı ömür yolunda istər ziyalı, alim olaraq, istərsə də mühüm vəzifələrdə çalışarkən hər zaman xalqın üzləşdiyi problemlərin həllinə köməklik göstərmiş, insanlara yardım etmiş, gənc kadrların hazırlığını önə çəkmiş, böyük nüfuz qazanmışdır. Bu, bəzən özünü bütünlüklə bir kökün, nəslin qol-budağında da göstərir.

Dünyaya gələn Zərifə valideynlərində Vətənə layiqli övlad olacağı, xalqına xidməti hər şeydən ümdə biləcəyi arzular oyatmış, ümid çırağı yandırmış və onunla bağlı ümidləri doğrultmuşdur. Bu arzuları çin oldu. O, ömrü boyu bu əqidəyə sadiq olaraq ailənin adını daha da ucalıqlara qaldırdı.

Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun kimi görkəmli şəxsiyyətlər ilə ünsiyyətdə olan ailə mühitində böyüdükcə Zərifə uşaqlıq və gənclik yaşlarından Azərbaycan ziyalısının ən gözəl məziyyətləri ilə boy atır, böyüyürdü.

Bunun bəhrəsi isə yüksək mədəniyyət, geniş intellekt, insanpərvərlik, vətənpərvərlik zirvələrinə can atması və yiyələnməsi olmuşdur. Şübhəsiz ki, bu keyfiyyətlərini özündə ehtiva edən Zərifə xanımın bir şəxsiyyət kimi yetişməsinin rüşeymləri ən əvvəl onun zəngin genetik köklərinə bağlıdır.

Zərifə xanım atasının həyatda keçdiyi ömür yolunu özünə örnək götürmüşdür. Azərbaycan qadınına xas olan daxili gözəllik, milli xüsusiyyətlər tərbiyə, davranış, ailəyə bağlılıq, sədaqət kimi dəyərlərdən, o, anası Leyla xanımın tərbiyəsindən, nəvazişindən yiyələnmişdir.

Ömrünü tibb elminə həsr etməyi və insanlara şəfa verməyi qarşısına məqsəd qoyan Zərifə orta məktəbi bitirdikdən sonra ixtisasını yaşamaq hüququnun özülündə duran sağlamlıq hüququna həsr etmək niyyəti ilə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur, mükəmməl təhsil alaraq, 1947-ci ildə institutu əla qiymətlərlə bitirir. İnstitutu bitirərək insanların gözünə nur verən nəcib bir sənət seçib, göz həkimi kimi kamil mütəxəssis olur. Zərifə xanım nursuz gözlərə işıq paylamaq, dünyanın füsunkar gözəlliyinə həsrət qalan insanlara həyat eşqini qaytarmaq arzusunda idi. Bu çətin peşənin həyata keçirilməsində də o, asan yollar axtarmır. Elə bu məqsədlə də, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və həyata keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən faydalanaraq, ölkəmizdə traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu maarifləndirici söhbətlər aparırdı.

Ölkəmizi bürüyən bu bəla ilə daha mükəmməl mübarizə aparmaq məqsədilə Zərifə xanım elmi işçi kimi fəaliyyətə başlamış, aspiranturaya daxil olmuş, praktik əməli həkim fəaliyyəti ilə yanaşı elmi axtarışlarını davam etdirmişdir. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi axtarışlarını da ilk əvvəl traxoma infeksion xəstəliyini dərindən öyrənməyə və müalicəsinə həsr edir.

Bir sıra ciddi elmi məsələlər sırasında Zərifə xanım ömrü boyu insanların peşə və iş şəraiti ilə bağlı əmələ gələn göz xəstəlikləri problemlərinə xüsusi diqqət yetirmişdir. Odur ki, o, bir sıra məsələlərə, o cümlədən yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqəti yönəltmiş və dəyərli tövsiyələr vermişdir. O zaman, Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində və laboratoriya şəraitində elmi müşahidələr və təcrübələr aparmışdır. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluqlarını müəyyən etmişdir.

Həmin dövrdə Zərifə Əliyeva həm də həkim kimi uğurlu cərrahiyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verir, fəaliyyəti bütün oftalmologiya müəssisələrini əhatə edirdi. Bununla yanaşı o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarında dinləyici həkimlərlə də pedaqoji iş aparır.

Zərifə xanımın həyatını həsr etdiyi elmi və həkim kimi fəaliyyətindən çox yazmaq olar. Yalnız onu deyə bilərəm ki, o, öz fəaliyyəti və elmi yenilikləri ilə Azərbaycan oftalmologiyasının adını bütün dünyada ucaltmışdır.

1977-ci ildə onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Dünya şöhrətli alimlərin və mütəxəssislərin iştirak etdiyi bu mötəbər tədbir Azərbaycanda tibb elminin bu sahəsinin gələcəyi, onun inkişafı naminə ən tanınmış elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlanması üçün böyük imkanlar yaratmışdı.

Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilir, lakin bu istiqamətdə yorulmadan fəaliyyət göstərir, insanların gözlərinə nur qaytarırdı.

Azərbaycan oftalmologiya elminin yüksəlişində böyük xidmətləri, tibbin bu sahəsinə dair fundamental elmi əsərlərin müəllifi olan Zərifə xanım gənc alimlərin yetişməsində də mühüm səylər göstərmişdir.

Onun elm və səhiyyə sahəsindəki çoxşaxəli, səmərəli fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən öz layiqli qiymətini almışdır. Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinin nəticələrinə görə professor, SSRİ Tibb Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 200-ə yaxın elmi publikasiyanın, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi olan Zərifə xanımın fəaliyyətinə daim yüksək qiymət verilmiş, bir sıra orden və medallarla təltif olunmuş, Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Bu uğurlarının səbəbi isə həm seçdiyi sahə üzrə böyük elmi fəaliyyəti, axtarışları, nəticələri, tapıntıları, həm də bunları təcrübədə tətbiq edib, minlərlə insana gözünün nurunu qaytarması olmuşdur.

Görkəmli oftalmoloq alim Zərifə xanımın həyat amalı və həkim mövqeyi bu gün də bir örnəkdir. O, belə deyirdi: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

İctimai fəallığı ilə də fərqlənən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin və keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin fəal üzvü olmuşdur.

Bütün bu geniş elmi fəaliyyəti, xəstələrə qayğısı ilə yanaşı Zərifə xanım eyni zamanda vəfalı həyat yoldaşı və qayğıkeş ana olmuşdur.

Zərifə Əliyevanın xanımı olduğu ailə Azərbaycan dövlətinə iki Prezident bəxş etmişdir. O, həm ulu öndər Heydər Əliyevin həyat yoldaşı, həm də Prezidentimiz İlham Əliyevin anası olmuşdur. Bu ailənin möhkəm və uzun ömürlülüyünün zəmanəti isə qarşılıqlı məhəbbət, sədaqət, əqidə və saflıq üzərində qurulduğu olmuşdur.

Zərifə xanımın Azərbaycan xalqının çətin dövrlərdə xilaskarı olan dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin vəfalı həyat yoldaşı olmuşdur. O, yorulmadan ölçüyəgəlməz gərgin fəaliyyət göstərən Heydər Əliyevlə Azərbaycanın inkişafı yolunda çiyin-çiyinə həyat yolu keçmiş və hər zaman ona mənəvi dəstək olmuşdur. Ulu öndər Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədə çox kövrəkliklə söylədiyi kimi: "…Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır…".

Akademik Zərifə xanımın həyatda layiq görüldüyü və əldə etdiyi çoxsaylı fəxri adların, diplomların, statusların ən layiqlisi onun ANA olması idi. O, gündəlik işinin gərginliyinə baxmayaraq, daim övladlarının tərbiyəsinə xüsusi diqqət yetirən və böyük ürəyi olan ana idi. Cənab İlham Əliyev anasının 90 illik yubileyində bu sözləri demişdi: "Zərifə xanım böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə – Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi."

Bu xanım xalqımızın zəngin milli-mənəvi dəyərlərini öz şəxsi həyatında yaşadan və gələcək nəsillərə ötürən, əqidəsinə sadiq bir şəxsiyyət idi. İllər boyu harada çalışmasından, hansı vəzifəni tutmasından asılı olmayaraq, onun sadəliyini, təvazökarlığını, nəcibliyini və kübarlığını heç nə dəyişə bilməmişdi. Həmişə insanlarda müsbət keyfiyyətlər görməyə çalışır, yaxşılara dəyər verməyi bacarırdı.

Azərbaycan Elmlər Akademiyasında elmi katib kimi çalışdığım dövrdə akademik Zərifə xanımın Rəyasət Heyətinin iclaslarında iştirak edərək, gənc elmi işçilərə tövsiyələrinin və onun insanlarla səmimi ünsiyyətinin şahidi olmuşam.

Zərifə xanımın fəaliyyəti hər zaman parlaq olmuşdur. O, bütün həyatı boyu xeyriyyəçiliklə məşğul olmuş, onun simasında yüksək mədəniyyət, əsl ziyalılıq, alicənablıq – bütün bu gözəl amillər birləşmişdi.

Tam əminliklə demək olar ki, Zərifə Əliyeva Azərbaycan xanımına xas olan bütün xüsusiyyətləri özündə toplamış, gözəl həyat yoldaşı, ana və nənə olmuşdur.

Heydər Əliyevin sözlərinə görə, "o mənə sadəcə ömür-gün yoldaşı deyildi. O mənə dost, dayaq idi. İşimin çətin olduğu bütün dövrlərdə ailəm haqqında çox rahat düşünürdüm. Çünki mənim Zərifə Əliyeva kimi sədaqətli, cəfakeş, fədakar ana olan ömür-gün yoldaşım var idi".

Bu ailənin möhkəmliyinin özülündə qarşılıqlı məhəbbət, mənəviyyat, əqidə, həyatı yaşamaq və dərk etmək tərzi, insani keyfiyyətləri üzərində bir-birinin qarşılıqlı olaraq həmahəngliklə düşünməsi və tamamlaması olmuşdur.

Onların milli dəyərlərimizə əsaslanmış ailə ənənələri, bir-birinə ən çətin gündə belə dayaq olmaları bu gün də hər bir Azərbaycanlı ailəsi, xüsusilə də gənc ailələr üçün böyük örnək və kamillik məktəbidir.

Zərifə xanımı tanıyanlar, həmkarları, xarici ölkələrin alimləri onu bir dost, sədaqətli, alicənab, sadə və xeyirxah insan kimi xatırlayır, görkəmli alim və tanınmış həkim olduğunu, ona müxtəlif məsələlərlə bağlı müraciət edənləri təmkinlə dinləyərək mümkün köməkliyi göstərdiyini bildirirlər. Həm də onlar Zərifə xanımı heç də hamıya qismət olmayan hər bir insanı sevmək kimi böyük bir qabiliyyətin sahibi, fəal ictimaiyyətçi və nəvazişkar insan olaraq xatırlayırlar.

Təəssüf ki, Zərifə xanımın həyatı çox uzun sürmədi, tez qırıldı. Lakin, o, qısa dövrdə böyük ömürlərə sığmayan şərəfli və mənalı bir həyat yaşadı. Onun əməlləri ilə adı bu gün də nəinki yaxınlarının və həmkarlarının, hər bir soydaşımızın xatirəsində qalır. Bu gün Zərifə xanımın vaxtilə yaşadığı küçə, onun Azərbaycana böyük töhfəsi olan Oftalmologiya Mərkəzi, paytaxtda və regionlarda bir çox təhsil və səhiyyə ocaqları onun adını daşıyır.

Alim kimi böyük zirvələri fəth edən akademik Zərifə xanım Əliyevanın elmi nailiyyətlərindən, yaratdığı böyük elmi məktəbdən bu gün də Azərbaycan səhiyyəsi və insanları yararlanır. Onun elm sahəsində davamçıları alimin irsindən indi də faydalanırlar. Özündən sonra qoyduğu elmi yeniliklərin müasir dövrdə tətbiq edilməsi, əsərlərinin, monoqrafiyalarının, dərsliklərinin bu gün də öz aktuallığını itirməməsi onun böyük alim olduğunu bir daha sübut edir.

Azərbaycanı dünyada tanıdan, ölkəmizin hərtərəfli uğurlu inkişafına nail olan və bayrağımızı daim zirvələrdə yüksəldən möhtərəm Prezidentimizin insanlara yönəlik fəaliyyəti, həyat kredosunun formalaşması, vətənpərvərliyi, insanpərvərliyi, ailəsinə münasibəti də şübhəsiz ki, valideynlərinin təsiri altında yetişməsi olmuşdur.

Bu ailənin ənənələrini yaşadan, bütün sahələrin inkişafına xüsusi diqqət yetirən, səhiyyəmizin, təhsilimizin, mədəniyyətimizin inkişafına böyük töhfələr verən, Zərifə xanım Əliyevanın qoyduğu nəciblik və xeyirxahlıq yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti də xalq tərəfindən yüksək qiymətləndirilir. Tanınmış ailənin övladı və daha sonra belə nüfuzlu bir ailənin gəlini olan Mehriban xanımın bugünkü fəaliyyəti də müasir dövrdə Azərbaycan xanımının simasını dünyaya tanıdır.

Zərifə xanım həyatı boyu sadə, qayğıkeş və xeyirxah insan kimi yaşamış və sevilmiş, gördüyü işlər hər zaman mənəvi zənginlik, səmimiyyət və milli dəyərlər üzərində qurulmuş və hər bir qadın üçün dəyərli bir örnəkdir.

Müstəqil Azərbaycanın qurulmasını və ölkəmizin sürətli inkişafını görmək Zərifə xanıma nəsib olmasa da, ölkə başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətləri ilə bütün sahələrdə olduğu kimi, bu gün səhiyyəmizin, tibb elminin tərəqqisi və oftalmologiya sahəsində də əldə edilən uğurlar görkəmli alimin ruhunu hər zaman şad edəcəkdir.

**Respublika.-**2017.-28 aprel.-№89.-S.5.

## Oftalmologiyanın mirvarisi, nəciblik və mənəvi paklıq timsalı

**Nəzakət Ələddinqızı**

Elm aləmində nadir istedadlı elə şəxsiyyətlər var ki, onların elmə gətirdiyi yenilik və çəkdikləri zəhmətin tam həcmi zaman və elmi təfəkkür inkişaf edib zənginləşdikcə, aydın dərk edilir. Azərbaycan qadını kimi Xeyirxahlıq, Ziyalılıq, Analıq simvoluna çevrilən akademik Zərifə xanım Əliyevanın həyat yolu və fəaliyyəti kimi. Alimləri sabaha inamla, gələcəyə – ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani keyfiyyətləri, elmi fəaliyyəti nurdan yaranan, varlığı nur olan təkrarsız bir insan olaraq xatırlanır. Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyət də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir.

Zərifə xanım Əliyeva zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Beynəlxalq aləmdə cəm olunaraq bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycanın səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda ona qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicə işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Eyni zamanda, o, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirmişdir. Zərifə xanım bu problem üzərində iş apararkən, çox vaxt, bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində, alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

### Akademik M.İ. Averbax adina mükafata layiq görülən ilk qadın

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyanın əsasını təşkil etmişdir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – H. Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Elmi tədqiqatarın nəticəsi olaraq, Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən, "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail oldu. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü gördü. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Tibb elmləri

doktoru Zəhra Əliyevanın, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A. Nesterovun, tibb elmləri doktoru, professor Z. Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N. Dobromislovun və başqalarının yazılarında alimin şərəfli, zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B. Şulpina və L.F. Moşetova ilə birlikdə) öz əksini tapıb.

Moskva oftalmoloji məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A. Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M. Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım deyərdim: O, həm Xeyirxah idi, həm Ağıllı idi, həm də Qüdrətli idi!"

Zərifə Əliyeva həkimlik etikası ilə bir nümunə idi. Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verirdi.

**Sədaqətli ömür yoldaşı və qayğıkeş ana**

Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu vurğulayırlar. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq mülayimliyi ilə, həssaslığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında dərindən və qabarıq duyulurdu.

Əziz anam, şirin sözlü anam,
Qəlbin kövrək, eşqin solmaz bahar.
Gülər üzlü, qara gözlü anam,
Hara getsəm gözün mənə baxar,
Ana qəlbin layla olar gəzər,
Doğma səsin ömrü-günü bəzər.

Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq, iki övlad böyüyüb – ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Zərifə xanım ən yüksək mənəvi hazırlığa malik bir xanım və ana idi.

Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq, ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli, zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbir, həya, ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevrildi. Bu dəyərlər içərisində güclü, fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyələri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.

**Səs.**-2017.-19 aprel-№ 67.-S.5.

## Dünya şöhrətli oftalmoloq-alim

**Mübariz ALLAHVERDİYEV,**
ATU-nun insan anatomiyası kafedrasının professoru,
Əməkdar müəllim

***Xalqımız onu dünyada tanıdan və ucaldan zəkalı, təmkinli, müdrik oğul və qızları, görkəmli alim və mütəxəssisləri ilə daim fəxr edib. Azərbaycana belə fəxarət və başucalığı gətirən övladlarından biri də özünün vüqarı və qüruru, peşə xidməti və gündəlik fəaliyyəti, dərin elmi biliyi və fitri istedadı ilə fərqlənərək, dünya şöhrəti qazanan, əbədiyaşarlıq rəmzinə çevrilən, akademik Zərifə Əziz qızı Əliyevadır. Bu il dünya şöhrətli alim-oftalmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 94, əbədiyyətə qovuşmasının 32-ci ildönümüdür. Lakin görkəmli alimin 62 illik parlaq ömür yolu bu təqvim çərçivəsinə sığmayaraq xeyirxah əməlləri sayəsində ölməzlik qazanmışdır.***

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya gələndə, hələ erməni vandalizminin onun ailəsinin başına hansı məhrumiyyətləri gətirdiyindən xəbərsiz idi. Lakin Zərifə xanımın dünyaya gəlişi ailə üçün düşərli oldu. Belə ki, həmin ilin may ayında atası – görkəmli dövlət və elm xadimi, Azərbaycan Respublikasının Əməkdar həkimi, professor Əziz Məmmədkərim oğlu Əliyev ailəsi ilə birlikdə Naxçıvandan Bakıya köçdü. Bundan sonra son dərəcə zəhmətsevər, alicənab və kübarlığı ilə seçilən bu ailənin xalq, vətən üçün yaşanan zəngin ömür yolu, xatirələrlə dolu Bakı həyatı başlandı.

Bununla da gələcəyin görkəmli alimi, məşhur həkim-oftalmoloqu Zərifə xanım Əliyeva parlaq yaradıcılığının əsas hissəsini Bakıda keçirmiş, müəyyən bir hissəsini isə Moskvada yaşayıb-yaratmışdır. Orta məktəbi 1942-ci ildə Bakıda əla qiymətlərlə bitirən Z.Əliyeva atasının yolu ilə gedərək, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. 1947-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək tibbin ən maraqlı, eyni zamanda, ən çətin sahələrindən sayılan həkim-oftalmoloq ixtisasını seçən Zərifə xanım Əliyeva diplomdansonrakı təhsilini davam etdirmək məqsədilə Moskvadakı Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ikiillik ixtisaslaşma kursu keçib. Bundan sonra yetkin mütəxəssis kimi Vətənə qayıdan gənc mütəxəssis ilk əmək fəaliyyətinə 1949-cu ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində ilk əmək fəaliyyətinə başlayıb.

Onun ölkə səhiyyəsində nəzər-diqqətini ən çox cəlb edən sahələrdən biri traxoma xəstəliyinə düçar olmuş xəstələrin gözlərinə nur vermək istəyi olub. Traxoma xəstəliyi müharibədən sonrakı illərdə ölkədə ən çox yayılmış ağır infeksion göz xəstəliklərindən hesab edilirdi. Çünki bu üzücü xəstəlikdən əziyyət çəkən xəstələr tədricən görmə qabiliyyətini itirir, əlilliyə düçar olur, uzunmüddətli yataq xəstələrinə çevrilir, faydalı əməkdən kənarda qalırdılar. Böyük həvəslə, daxildən gələn entuziazmla həkimlik fəaliyyətinə başlayan Zərifə Əliyeva istedadının gücünə, daxili aləminin səliqə-sahmanına arxalanaraq, bu yolda mövcud olan heç bir çətinlikdən çəkinmədi, cəsarətlə Azərbaycanın traxoma xəstəliyi ocaqları aşkar edilən bütün rayonlarına gedərək, bu dəhşətli göz xəstəliyinin yayılmasının qarşısını almaq məqsədilə geniş tədbirlər planı hazırladı. Onun ölkə daxilində ardıcıl olaraq planlı şəkildə apardığı uzunmüddətli müalicə-profilaktika tədbirləri, traxoma əleyhinə tətbiq etdiyi orijinal üsullar sonda öz bəhrəsini verdi. Bununla da fədakar mütəxəssisin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər sayəsində Azərbaycanda traxoma kimi ağır xəstəliyin epidemiya şəklində yayılmasının qarşısı alındı.

Şəfqətli həkimin ölkə əhalisinin sağlamlığının etibarlı şəkildə qorunması naminə həyata keçirdiyi genişmiqyaslı diaqnostika, müalicə-profilaktika, reabilitasiya işləri onun namizədlik dissertasiyasının elmi istiqamətini və əsas məzmununu təşkil etdi. Nəhayət, Zərifə xanım Əliyeva yerinə yetirdiyi elmi-tədqiqat işlərini yekunlaşdıraraq, 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda dissertasiya müdafiə etdi və tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görüldü. Gənc alim bu yolla hələ müharibədən əvvəl atasının traxoma və digər infeksion xəstəliklərin ləğvi istiqamətində başladığı xeyirxah işləridə tamamladı. Bununla da o, Azərbaycanda traxoma xəstəliyi epidemiyasının qarşısının alınması məsələsini birdəfəlik həll etmiş oldu. Bu, alim, həkim və mütəxəssis üçün öz xalqı qarşısında mükəmməl olaraq yerinə yetirilən ən böyük şərəf işi idi.

Zərifə xanım Əliyeva 1960-1967-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışıb və elmi-tədqiqat işlərini yeni istiqamətdə davam etdirib. Gənc mütəxəssis, eyni zamanda, həmin institutda oftalmologiya elminin bütün sahələrinin inkişafına yaxından kömək göstərir, gənc kadrların hazırlanmasına qayğı ilə yanaşırdı.

1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında işə qəbul edilən Zərifə xanım burada həmin vaxtdan etibarən elmi-tədqiqat aparmaqla yanaşı, pedaqoji işlə də yaxından məşğul olmağa başladı.

Onun elmi və pedaqoji fəaliyyəti bir-birinə paralel istiqamətdə gedir, biri-digərini tamamlayırdı. Görkəmli alim rəsmi sənədlərə görə tədris işləri ilə 1967-ci ildən etibarən məşğul olmağa başlasa da, o, həmin tarixə qədər də bir pedaqoq kimi püxtələşmişdi. Pedaqoqluq məharəti, təlim-tərbiyə məsələləri, maariflənmə, eləcə də maarifləndirəbilmə məfkurələri, yüksək və dolğun potensiala malikolma xəzinəsi Zərifə Əliyeva kimi alimin yaradıcılığının daimi müşayiətçiləri olubdur. Bununla belə, Zərifə xanım Əliyevanın Əziz Əliyev adına ADHTİ-nin göz xəstəlikləri kafedrasında işə başlaması onun qarşısında yeni üfüqlər açdı və o, çeşidli planlar diapazonu spektrlərini daha da genişləndirdi.

Bir tərəfdən, uzun illər atasının rəhbərliyi ilə fəaliyyət göstərən, sonra isə onun adını daşıyan institutda işləmək məsuliyyəti, digər tərəfdən, 20 il öncə onun özünün ilk addımlarını atdığı Moskvadakı Elmi-Tədqiqat Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna bənzər bir institutda – Bakıdakı Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda ilk addımlarını atmağa başlayan gənclərin diplomdansonrakı təhsili ilə məşğul olması tükənməz enerjiyə malik alimdən ikiqat güc və qüvvə, ən başlıcası da böyük məsuliyyət tələb edirdi. Təbii ki, həddən artıq dərəcədə məsuliyyətli olmaq duyğusu, təşkilatçılıq bacarığı da Zərifə xanım Əliyevada kifayət qədər yüksək idi. Ona görə də o, yeni işinin də öhdəsindən bacarıqla gələ bildi. Onun ADHTİ-nin göz xəstəlikləri kafedrasında keçən hər mühazirəsi, hər təcrübə dərsi böyük maraqla dinlənilirdi.

Keçən əsrin 60-cı illəri mənimlə bir qrupda təhsil alan tələbələrin yaddaşına əbədi həkk olunub. O vaxtlar biz akademik Zərifə Əliyeva fenomeninin, virtuoz həkimlik sənətinin canlı şahidləri olmuşduq. O dövrün yaddaşımda daimi yer tutan ən kədərli hadisələrindən biri 1962-ci ilin iyul ayında görkəmli dövlət və elm xadimi Əziz Əliyevin qəflətən dünyasını dəyişməsi xəbəri olmuşdusa, digər hadisə nikbinliklə xatırlanan və xoş əhval-ruhiyyə ilə yada düşən bir müəllim-tələbə ünsiyyəti vasitəsi idi ki, bu da böyük səhiyyə təşkilatçısı və qurucusu, Əməkdar həkim, professor Əziz Məmmədkərim oğlu Əliyevin göz həkimi peşəsini seçmiş övladları ilə bizim qrupun tələbələrinin arasında yaranan tanışlıq ünsiyyəti idi.

1964-1965-ci tədris ilində qrupumuzda göz xəstəlikləri üzrə təcrübə dərslərini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının dosenti, tibb elmləri namizədi Ləzifə Əziz qızı Əliyeva aparırdı. O vaxtlar ATİ-nin göz xəstəlikləri kafedrasının məşğələləri Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun bazasında aparılırdı və bu baza indiki İncəsənət Muzeyinin və Dövlət Filarmoniyasının yaxınlığında yerləşirdi. Ləzifə xanım dərs deməklə yanaşı, həm də bizimlə çox mehriban rəftarı ilə seçilirdi. O, bizi tez-tez palatalara aparır, əyani olaraq xəstələri nümayiş etdirirdi.

Bizim ən çox təcrübə məşğələsi keçdiyimiz palatalardan biri həmin institutda böyük elmi işçi vəzifəsində çalışan Zərifə xanım Əliyevanın palatası olurdu və bizi tez-tez o palataya aparan təbii ki, Ləzifə xanım Əliyeva idi. Elə o vaxtlar öyrəndik ki, Zərifə xanımla Ləzifə xanım bacıdırlar və məşhur alim, dövlət və elm xadimi Əziz Əliyevin övladlarıdırlar. Tələbəlik illərimizin həmin dövrlərini xatırlayaraq, bu günlərimizdə də Ləzifə xanımın ruhu qarşısında baş əyirəm. O, bizə əsl müəllimin nə demək olduğunu anlatmaqla yanaşı, həm də dünya şöhrətli alim Zərifə xanım Əliyevanın xəstələri müayinə və müalicə etmə üsullarının müəyyən ştrixlərini, xəstələrdən anamnez toplama anlarını, xəstəliklərin diferensial diaqnostikasının şərhi və təhlilini görməyimizə, eşitməyimizə, dərk etməyimizə münasib imkanlar yaratmışdı. Biz sonralar başa düşdük ki, Ləzifə xanımın köməyi və vasitəçiliyi ilə o vaxtlar dünyanın ən məşhur oftalmoloqlarından birini – akademik Zərifə xanım Əliyevanı lap yaxından görmüş, onun səsini eşitmiş, onunla tələbə-müəllim ünsiyyətində ola bilmişik. Tələbə üçün bu böyük xoşbəxtlikdir və belə xoşbəxtliyin əsl duyumu, təbii ki, dərhal yox, illər ötdükdən, yaşa dolduqdan sonra daha aydın şəkildə dərk olunur.

Mən hesab edirəm ki, 60-cı illərin xatirimdə qalan müqəddəs izləri bu gün dahi alimin möhtəşəm həyat və yaradıcılığı haqqında saf duyğularımı bildirmək riskinə imkan verdi. Həkim-oftalmoloq olmasam da, bizim qrupun bütün tələbələri kimi, mən də özümü dünya şöhrətli alimin mənəvi tələbəsi hesab edirəm. Onun həkimlik deontologiyasına həsr etdiyi "Yüksək etimad" kitabının təsiri altında boy atıb böyümüş minlərlə tibb işçisi kimi biz də həmin kitabın deontoloji təsir qüvvəsini öz mənəvi aləmimizdə dərindən hiss etmişdik və bu kitabın ecazkar məziyyətləri indi də əlimizdən tutur, bizə həkimliyin düzgün, rəvan yollarını göstərir.

Akademik Z. Əliyeva irsinin, onun alim böyüklüyünün, müəllim qayğıkeşliyinin, həkimliyin etik normaları təcəssümçülüyünün pərəstişkarlarının sırasının XXI əsrdə daha da artması hamımızda səmimi məmnunluq hissləri oyadır.

Zərifə xanım Əliyeva çoxsahəli və çoxşaxəli göz xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikasını ölkə miqyasında yüksək səviyyədə düzgün təşkil etməklə bərabər, həm də müasir tipli laboratoriyalar yaradılmasına, insanların sağlam həyat tərzinin mühafizə olunmasına xüsusi diqqət yetirirdi. Görkəmli alim təkcə Bakı şəhərində deyil, eləcə də ölkəmizin digər şəhərlərində və rayon mərkəzlərində insan orqanizmi üçün zərərli olan bir sıra peşələrin təsirindən yaranan göz xəstəliklərini üzə çıxarır, onların müalicə və profilaktika üsullarını göstərirdi. Akademik Z.Əliyevanın bu istiqamətdə göstərdiyi ən mühüm xidmətlərdən biri də ondan ibarət idi ki, alim peşə amillərinin təsiri nəticəsində törənən göz xəstəliklərini müayinə və müalicə etməklə kifayətlənmirdi. O, orqanizmi tam halda, vahid şəkildə qəbul edərək, peşə patologiyalarının təkcə göz xəstəlikləri

ilə məhdudlaşmadığını, onun digər orqanlarda da ciddi dəyişikliklər törətdiyini aşkar edərək, ayrı-ayrı orqanı yox, bütöv orqanizmi müalicə etməyə diqqət yetirir, buna üstünlük verirdi.

Görkəmli alimin bu istiqamətdə yerinə yetirdiyi doktorluq dissertasiyası işi müvəffəqiyyətlə başa çatdıqdan sonra, o, 1976-cı il may ayının 27-də M.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etdi və tibb elmləri doktoru elmi dərəcəsinə layiq görüldü.

Keçmiş SSRİ-nin paytaxtı Moskva şəhəri də daxil olmaqla, onun ayrı-ayrı respublikalarının oftalmoloq alimləri arasında görmə orqanının peşə patologiyasının öyrənilməsinə dair əsərlər içərisində ən yüksək qiymət, ən böyük dəyər akademik Z.Əliyevanın uzun illər boyunca apardığı sanballı və dərin məzmunlu elmi-tədqiqat işinin nəticələrinə əsaslanan fundamental və orijinal dissertasiya əsərinə verilmişdi. SSRİ miqyasında bu tərtibdə və diapazonda ikinci bir əsər tapmaq mümkün deyildi. Bundan sonra alim Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru vəzifəsinə seçildi və onun professor elmi adı təsdiq olundu.

1977-ci ildə görkəmli alim, bacarıqlı təşkilatçı, professor Z.Əliyevanın təşəbbüsü və səyi nəticəsində Bakıda ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyəti plenumunun keçirilməsi ölkəmizdə, yaxşı mənada, geniş rezonansa səbəb oldu və plenum xoş əhval-ruhiyyə ilə öz işini davam etdirdi. Bakıda oftalmologiya sahəsi üzrə ilk dəfə təşkil edilən ümumittifaq miqyaslı belə bir elmi forum Azərbaycanda oftalmologiya elminin inkişafına və alimlər arasında inteqrativ elmi əlaqələrin möhkəmləndirilməsinə əlverişli zəmin yaratdı. Plenumda, həmçinin Zərifə xanım Əliyeva Azərbaycanda gözün peşə patologiyasının tədqiqi üzrə elmi-tədqiqat laboratoriyasının yaradılması təklifini irəli sürdü və plenumun bütün iştirakçıları bu təklifə tərəfdar oldular. Akademik Z.Əliyeva 1979-cu ildə Bakı məişət kondisionerləri zavodu nəzdində Azərbaycan Elmlər Akademiyasının Elmi-Tədqiqat Fiziologiya İnstitutu nəzdindəki "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı laboratoriyanın həm təşkilatçısı, həm də rəhbəri oldu.

Alimin görmə orqanının peşə patologiyaları ilə əlaqədar apardığı tədqiqatların nəticələri "Şin istehsalında gözün peşə patologiayası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" adlı monoqrafiyalarda ətraflı şərh olunubdur.

Azərbaycanın dünya şöhrətli alimi, akademik Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası üzrə yerinə yetirdiyi qlobal işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ. Averbax mükafatına layiq görülmüşdür. Azərbaycan aliminin keçmiş Sovet İttifaqında akademik M.İ. Averbax mükafatına layiq görülən ilk qadın oftalmoloq-alim olması Azərbaycan elmini şərəfləndirən və ona ucalıq gətirən ən dəyərli hadisələrdən olmuşdur.

Zərifə xanım Əliyevanın 1982-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda kafedra müdiri vəzifəsinə seçilməsi göz xəstəlikləri fənninin diplomdansonrakı tədrisinin yeni layihələr əsasında beynəlxalq standartlara müvafiq səviyyədə aparılmasına geniş imkanlar yaratdı. O vaxtlar keçmiş SSRİ-nin əksər respublikalarından gənc həkimlər bu kafedrada təkmilləşmə kursu keçməyə gəlir və burada əldə etdikləri təcrübi vərdişlərdən məmnun qaldıqlarını minnətdarlıq və təşəkkür hissləri ilə söyləyirdilər.

Zərifə xanım Əliyeva oftalmologiya sahəsi üzrə dünya elminə verdiyi dəyərli töhfələrə, yüksəkixtisaslı tibb kadrlarının yetişdirilməsi yolunda göstərdiyi misilsiz xidmətlərinə görə 1983-cü ildə ölkəmizdə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk oftalmoloq-alim olmuşdur.

İnamla demək olar ki, akademik Z.Əliyevanın elmi-tədqiqat işləri oftalmologiyanın bütün sahələrini əhatə edir. Alimin "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün əlaqədar dəyişiklikləri və görmə-sinir yolları", "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi", "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" və digər kitabları onun geniş spektrli yaradıcılığının rəngarənglik çalarlarını təsdiqləyir. Bu kitablar bütün dövrlər üçün yazılmış kitablardır və onlar öz aktuallığını heç vaxt itirmir.

Akademik Zərifə Əliyeva görkəmli ictimai xadim kimi keçmiş Sovet İttifaqının Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini vəzifələrini böyük məsuliyyətlə yerinə yetirmişdir. O, beynəlxalq aləmdə Azərbaycanın sülhsevər ölkə kimi tanıdılmasında mühüm rol oynayır, tərəqqipərvər insanları Yer kürəsinin bütün nöqtələrində sülhün bərqərar olmasına səsləyirdi. Görkəmli alim, Azərbaycan Respublikası "Bilik" Cəmiyyətinin, SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çap olunan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olub.

Akademik Z.Əliyevanın yerinə yetirdiyi elmi-tədqiqat işləri, yazdığı fundamental əsərləri, yetişdirdiyi çoxsaylı elmlər doktoru və elmlər namizədləri, yüksəkixtisaslı tibb kadrları onun əbədiyaşarlığının təminatçılarıdırlar.

Alim haqqında cild-cild əsərlərin, məqalə və xatirələrin, müxtəlif aspektli kitabların yazılması ona olan el məhəbbətinin sevgi dolu təcəssümünün nümunələrindəndir. Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin nümayəndələri də bu baxımdan akademik Zərifə Əliyeva haqqında çoxsaylı xatirələr söyləyib,

məqalələr çap etdiriblər. Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının əməkdaşları özlərini akademik Z.Əliyeva elmi məktəbinin yetirmələri və davamçıları hesab edirlər. Azərbaycan Tibb Universitetinin rəhbərliyi bu ali tibb təhsili ocağının unudulmaz məzunu, akademik Z.Əliyevanın yubileylərini daim yüksək səviyyədə qeyd edir, onun xatirəsinə həsr olunmuş elmi-praktik konfranslar keçirir və onun materiallarını nəfis şəkildə çap etdirir. Ölkəmizin akademik Zərifə Əliyevanın adı ilə bağlı olan digər səhiyyə müəssisələrində olduğu kimi, ATU-nun da tədris binalarında, kitabxanasında alimin həyat və yaradıcılığını əks etdirən foto-stendlər, foto-guşələr yaradılmışdır.

2016-cı il aprel ayının 26-da Azərbaycan Tibb Universitetinin inzibati binasında akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü geniş qeyd edilmişdi və Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli akademik Z.Əliyevanın zəngin yaradıcılıq irsinin və mənalı ömür yolunun ayrı-ayrı mərhələlərindən danışaraq, görkəmli oftalmoloq, Azərbaycan Tibb Universitetinin dünya şöhrətli məzunu haqqında səmimi ürək sözlərini söyləmişdi. Cari il aprel ayının sonlarına yaxın Azərbaycan Tibb Universitetində akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümünə həsr olunmuş yubileyönü tədbir keçiriləcəyi planlaşdırılıb.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1985-ci il aprelin 15-də yayılan acı xəbər hamını sarsıtdı. Lakin bu gündə hamı nikbinliklə deyir ki, Zərifə xanım Əliyeva qələmə aldığı öz orijinal monoqrafiyalarında, monumental kitablarında, çoxsaylı elmi və elmi-kütləvi əsərlərində, ən əsası da hələ sağlığında el məhəbbəti qazandığı, özünün heykəlini ucaltdığı insanların qəlbində daim yaşayır və yaşayacaqdır. Akademik Zərifə Əliyeva irsi həm bu günümüz, həm də gələcəyimiz üçün tükənməz, təkrarsız bir örnəkdir.

**Xalq qəzeti.-**2017.-15 aprel.-№78.-S.3.

# Nurlu ömrün işığı

**Əhliman ƏMİRASLANOV,**
akademik, SSRİ Dövlət mükafatı laureatı, Milli Məclisin Səhiyyə komitəsinin sədri

Yaddaşlarda yaşamaq əbədi ömür qazanmaqdır. Unudulmayanlar, hər zaman xatırlananlar daim bizimlədir. Bu insanlara ölməzlik qazandıran onların nəcib niyyəti, xeyirxah əməlləri, vətən naminə gördükləri böyük işlərdir. Yalnız belə işıqlı simaların adları bəşər tarixinə qızıl hərflərlə yazılır. İmzası, dəst-xətti ilə seçilən belə uca şəxsiyyətlərdən biri – XX əsrin ikinci yarısında fəaliyyət göstərən dünya şöhrətli alim, bacarıqlı həkim, gözəl insan, nur çöhrəli Zərifə Əziz qızı Əliyevanın adı da əbədiyyət ünvanında həmişəlik qərar tutub. Qəlbi vətən sevgisi ilə döyünən, xeyirxah işləri ilə xalqının adını yüksəklərə qaldıran, xəstələrə şəfqət paylayan, insanları ağır epidemiyalardan, peşə xəstəliklərindən mühafizə edib qoruyan, həkim-oftalmoloq kimi doğma Azərbaycanın hüdudlarından kənarda da tanınan, sevilən Zərifə xanım həyatın sınaqlarından, elmin çətin yollarından keçərək şərəfli bir ömür yaşamağın nümunəsinə çevrilib.

Böyük filosoflar əsrlər boyu şəxsiyyət amilini araşdırarkən son nəticədə bu qənaətə gəliblər ki, onun yetişməsində başlıca şərt məhz formalaşdığı mühitdir. Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində – görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş tibb elmləri doktoru Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Cəmiyyət üçün layiqli insan kimi yetişməsində, peşə seçiminin düzgün müəyyənləşməsində boya-başa çatdığı ziyalı mühitinin təsiri böyük idi. Zərifə xanım orta məktəb illərindən tibb sahəsinə maraq göstərərək insanların gözünə nur vermək kimi müqəddəs bir yol seçmişdi. Oftalmologiya ixtisasına bağlılığı həm də onun daxilindən, mənəvi dünyasından, insanlara həssas münasibətindən irəli gəlirdi. Sonralar peşəsində qazandığı uğurlar da məhz bu keyfiyyətləri ilə bağlı idi. Xəstələrini doğmalarından ayırmır, insanları zülmətdən qurtarmaq, onların gözlərini nura boyamaq üçün əlindən gələni əsirgəmirdi. İstedad, zəhmət və ağılla qazanılan uğur illər keçdikcə zənginləşir və ondan bütün cəmiyyətə pay düşür. Zərifə xanım Əliyeva da həyat uğurlarına bu keyfiyyətləri sayəsində nail olmuşdur.

1976-cı ildə akademik Zərifə Əliyeva Q.Helmqolts adına Moskva Dövlət Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edirdi. O zaman mən ulu öndər Heydər Əliyevin gənclərin təhsilinə göstərdiyi qayğıdan bəhrələnərək SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin aspiranturasında təhsil alırdım. Namizədlik dissertasiyası müdafiə etməyə hazırlaşırdım. Bizimlə birlikdə hazırda Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əziz oğlu Əliyev də aspiranturada təhsil alırdı, bir-birimizlə sıx əlaqə saxlayırdıq. Həmin dövrdə Zərifə xanımın vətəndən uzaqlarda çox dəyərli bir mövzuda doktorluq dissertasiyası müdafiə etməsi Moskvada tibb elmi sahəsində çalışan bütün azərbaycanlı həkimləri, elmi işçiləri ürəkdən sevindirirdi. Onun müdafiə zamanı etdiyi parlaq çıxışı, opponentlərin və iştirakçıların suallarına verdiyi məntiqli, dolğun cavabları Rusiyanın paytaxtında oftalmologiya sahəsinin beynəlxalq aləmdə tanınan alimlərini də məftun etmişdi. Oftalmologiya üzrə keçmiş Sovetlər İttifaqı məkanından kənar ölkələrdə də böyük nüfuz sahibi olan rus alimlərindən Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.V.Trutneva, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı A.R.Nesterov, Oftalmologiya və Radiologiya Mərkəzinin rəhbəri, Dövlət mükafatı laureatı, professor A.F.Brovkina və başqaları Zərifə Əliyevanın doktorluq dissertasiyası işinin nəticələrini yüksək qiymətləndirərək bu əsərin dünya oftalmologiya elmində yeni yollar, istiqamətlər açdığını, böyük ideyalara başlanğıc verdiyini, yeni ruhlu və düşüncəli həkim-oftalmoloqların yetişəcəyinə zəmin yaratdığını məmnunluq hissi ilə qeyd etmişdilər. Bu, Zərifə Əliyevanın simasında Azərbaycan oftalmologiya elminə verilən yüksək qiymət idi. Böyük alimin elmin çətin yollarından məharətlə keçərək dünya şöhrəti qazanması biz gənclərə örnək oldu. Zərifə xanımın elmi-tədqiqat işlərinin Moskva alimlərinin təsəvvüründə yaratdığı müsbət rezonans Azərbaycan elminin SSRİ dövründəki inkişafının dayaq nöqtəsinə çevrildi. Xüsusilə də biz gənclər üçün vətəndən uzaqlarda bu, olduqca vacib və zəruri idi, bizə stimul verirdi. Görkəmli alimin elmi məktəbi azərbaycanlı gənclərin hər birinin elmi çalışmalarında əvəzsiz rol oynayırdı. Hamı bu məktəbdən mənəvi qida alırdı. Hadisələrin təhlili göstərirdi ki, Zərifə xanım ilk növbədə dövrün, zamanın nəbzini tutmağı bacarıb, millətinin sağlamlığının qorunması kimi qlobal məsələləri ön plana çəkib. Yeni mövzu götürərkən bunu dissertasiya müdafiə etmək xatirinə yerinə yetirməyib. Elmin yollarında yüksələn xətlə inamla irəliləyib. Alimin bütün elmi-tədqiqat işlərinin bünövrəsində millilik və xəlqilik, vətənpərvərlik və insansevərlik dayanırdı. Böyük alim milli dəyərlərə, milli münasibətlərə, sosial ehtiyaclara söykənərək insanlara bu sahələrdə daha çox lazım olan istiqamətləri seçib və həmin istiqamətlərdə elmi-tədqiqat işləri aparıb. Onun işlədiyi mövzuların məğzində həm də dövlət əhəmiyyətli məsələlər dururdu.

Zərifə Əliyevanı 1940-1950-ci illərdə düşündürən ən mühüm problemlərdən biri Azərbaycanda traxoma xəstəliyinin yayılmasının qarşısının alınması, müalicəsi üsullarının işlənib hazırlanması idi. Ciddi təhlükə törədən

bu qlobal məsələ Zərifə xanımı rahat buraxmırdı. Ona bəlli idi ki, 1941-1945-ci illər müharibəsindən əvvəl Azərbaycanda tüğyan edən traxoma xəstəliyinin qarşısını almaq üçün təşkil edilmiş xüsusi səhiyyə işçiləri komissiyasına atası Əziz Əliyev rəhbərlik etmişdi. Doğrudur, o vaxtlar bu komissiya çox fədakar işlər aparmış və Azərbaycanda traxoma epidemiyasının yayılmasının qarşısı alınmışdı. Lakin İkinci Dünya müharibəsindən sonrakı illərdə bu xəstəlik Azərbaycanda yenidən baş qaldırdı, ağır fəsadlar törədərək insanlarda görmə qabiliyyətindən məhrumluğa, əmək qabiliyyətinin itirilməsinə, gözdən əlillərin sayının kütləvi surətdə artmasına səbəb oldu. Həkimlərin qarşısında sosial dillema kimi dayanan bu problem gənc alimi ciddi narahat edirdi. O, belə patologiyalardan əzab çəkənlərə ixtisaslaşmış həkim yardımı göstərmək məqsədilə bütün imkanlarını səfərbər edərək bu işin icrasına başladı.

Bacarıqlı həkimin daxili aləmində bir xeyirxahlıq çələngi var idi. Belə ağır problemin həllinə çalışmaq da onun xeyirxahlığından, vətənpərvərliyindən irəli gəlirdi. Zərifə xanım bununla həm də atasının bir vaxtlar başladığı xeyirxah işləri davam etdirmək istəyirdi. Ona görə də institutu bitirdikdən sonra Moskvaya gedir və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə

İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olur, praktiki vərdişlərə yiyələnir, oftalmologiya ixtisası üzrə mütəxəssis kimi təkmilləşmə hazırlığı keçir, iki ildən sonra vətənə qayıdır. 1949-cu ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Bununla da gənc mütəxəssisin elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin bünövrəsi qoyulur. Zərifə Əliyeva fəaliyyət göstərdiyi ET Göz Xəstəlikləri İnstitutunda aspiranturaya daxil olur, elmi axtarışları dövründə özünə rahat yollar seçmir, xalqa həqiqi mənada xeyir verə biləcək ən çətin sahələrdə özünü sınamağa can atır. Nəhayət, istəyinə nail ola bilir.

İkinci Dünya müharibəsinin təzəcə başa çatdığı illərdə keçmiş SSRİ-nin bir çox regionlarında olduğu kimi, Azərbaycanda da traxoma xəstəliyinin geniş yayılma təhlükəsi yenidən baş qaldıranda ara-sıra aparılan mübarizə tədbirləri o qədər də effektli təsir göstərmirdi. Gənc alim ölkəmizi bürümüş yoluxucu göz xəstəliklərinin qarışını almaq və bu xəstəliklərin ləğvinə nail olmaq üçün yollar axtarırdı. O dövrdə, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuş, nəticədə 80 milyon insan görmə qabiliyyətini itirmişdi. Çünki bu xəstəliyin müalicəsinə güclü təsir göstərəcək dərman preparatları hələ mövcud deyildi. İkinci Dünya müharibəsindən yenicə çıxmış, iqtisadi-siyasi durumu qənaətbəxş olmayan ölkənin ümumi vəziyyətinin nikbin qiymətləndirilməsinə əsas verən stimul da yox idi. Belə problemlərlə üzləşən gənc tədqiqatçı ruhdan düşməyərək axtarışlarını davam etdirir, traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı həyata keçirməyə başlayır.

Zərifə Əliyeva traxoma ilə əlaqədar ölkədəki real vəziyyəti əyani olaraq müşahidə etmək üçün Azərbaycanın bütün rayonlarına gedərək göz xəstəliklərinin regional lokallığını müəyyənləşdirir, xəstəliyin epidemioloji xüsusiyyətlərini araşdırır, məsləhətlər verir, bir sıra göz xəstəliklərinin profilaktika və müalicəsi haqqında maarifləndirici söhbətlər aparır. Alim traxomanın müalicəsində istifadə edilən mövcud kütləvi müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiklərindən olan sintomitsindən istifadə ilə yeni müalicə üsulu tətbiq edib uğurlu nəticələrə nail olur. Dəyərli elmi kəşflərdən sayılan bu üsulun kompleks profilaktik tədbirlərlə birlikdə praktik səhiyyədə geniş tətbiqindən sonra traxoma xəstəliyinin müalicəsində əsaslı dönüş yaranır, xəstəliyin yayılmasının qarşısı alınır, bu da tədricən ölkə əhalisi üçün təhlükə törədən ağır infeksion xəstəliyin ləğvinə gətirib çıxarır. Beləliklə, Zərifə xanımın fədakar əməyi sayəsində yerinə yetirilən tibbi tədbirlər insanların dünya işığından məhrum qalmalarının, iş qabiliyyətini itirmələrinin, çarəsizlikdən kütləvi depressiya vəziyyətinə düşmələrinin qarşısını alır. Yalnız bundan sonra gənc alim 1959-cu ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi” mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edir və tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülür.

Apardığı elmi-tədqiqat işlərinin nəticələrinə görə görkəmli həkim daim elmi ictimaiyyətin diqqət mərkəzində olur. 1960-1967-ci illərdə Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq bu sahənin inkişafına böyük töhfələr verir.

Zərifə Əliyeva ölkə əhalisi arasında göz xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikasını düzgün təşkil etməklə yanaşı, yeni laboratoriyalar yaradır, insan sağlamlığı amilini daim ön plana çəkir. Alim yalnız ölkəmizin paytaxtı Bakı şəhərində deyil, həmçinin Sumqayıt, Gəncə, Bərdə, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan), Salyan və respublikanın digər şəhər və rayonlarında zərərli iş şəraitlərinin törətdikləri göz xəstəliklərini aşkar edir, həm onların müalicəsinə, iş yerlərində mövcud olan mənfi təsirlərdən qorunmalarına, həm də əmək müəssisələrinin ekologiyasına hərtərəfli diqqət yetirir. Bu müəssisələrdə ekoloji prinsiplərə riayət edilməsi konsepsiyalarının həyata keçirilməsi yollarını göstərir. Bununla da Zərifə xanım Əliyeva peşə amillərinin törətdiyi göz xəstəliklərinin və bütövlükdə orqanizmi tam şəkildə müalicə edərkən təkcə məşhur alim-oftalmoloq kimi deyil, həmçinin bacarıqlı alim-ekoloq kimi də şöhrət qazanır. Zərifə xanım ölkəmizdə həm oftalmologiyanın peşə etiologiyalı xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasının, həm də ekoloji təmizlik ideyasının əsasını qoyur, bu ideyanın praktik səhiyyədə həyata keçirilməsinə nail olur.

Görkəmli alim yerinə yetirdiyi elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də yüksək səviyyədə aparırdı. O, 1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Göz xəstəlikləri kafedrasında əvvəlcə dosent, sonra professor, daha sonra həmin kafedranın müdiri vəzifəsini yüksək səviyyədə yerinə yetirərək həkimlərin diplomdansonrakı hazırlıqlarının tədris-metodiki göstərişlərə və digər tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaradır. Alimin apardığı mühazirə və təcrübə məşğələlərinin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi və s. təşkil edirdi.

Zərifə xanım ADHTİ-də çalışarkən peşə amili etiologiyalı göz xəstəliklərinin yayılma qanunauyğunluqlarını aşkar etmək üçün Bakı Şin Zavodunda, neft-kimya və yod sənayesi müəssisələrində, Sumqayıt "Üzvi sintez" İstehsalat Birliyində, Mingəçevir "İzolit" və rezin-texnika məmulatı zavodlarında, Gəncə Gil-torpaq Kombinatında və digər obyektlərdə işləyənlərin görmə orqanlarına mənfi təsir göstərən amilləri, onların etio-patogenezini diqqətlə öyrənir, zərərli peşələrin törətdiyi göz xəstəliklərinin yaranma mexanizmini elmi surətdə əsaslandıraraq onların qarşısını almaq üçün əməli tədbirlər görür. Dünya şöhrətli alim bu xeyirxah işləri yerinə yetirərkən zərərli amillərin təkcə görmə orqanına deyil, bütövlükdə orqanizmə və onun ayrı-ayrı orqanlarına göstərdiyi təsirləri də mükəmməl araşdırır, profilaktik, diaqnostik və müalicəvi tədbirlərin bu istiqamətdə aparılmasına lazımi şərait yaradır.

Alimin aktual problemin həlli yollarında apardığı səmərəli işlər tezliklə öz bəhrəsini verir və o, bu mövzuda dissertasiya müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülür. Doktorluq dissertasiyası müdafiəsindən bir qədər sonra Zərifə xanım ADHTİ-də müsabiqə yolu ilə professor vəzifəsinə seçilir və qısa müddətdə bu elmi adın təsdiq edilməsi onun gənc kadrların hazırlığı istiqamətində gördüyü işlərin yeni mərhələsinin başlanmasına zəmin yaradır.

1977-ci ildə Bakıda professor Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilir. Bu plenum alimin daha bir müstəsna keyfiyyətinin – mükəmməl təşkilatçılıq bacarığının üzə çıxmasına imkan yaradır. Plenumun işində SSRİ-nin bütün bölgələrindən dəvət olunmuş mütəxəssis-oftalmoloq alimlərin iştirakı təmin olunur. Möhtəşəm elmi məclisdə Zərifə Əliyeva respublikada görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması haqqında təklif irəli sürür və iştirakçılar yekdilliklə bu təklifi müdafiə edir. 1979-cu ildə Bakı Məişət Kondisionerləri Zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı unikal bir laboratoriya yaradılır. Üç şöbədən ibarət olan laboratoriya tezliklə yeni cihazlarla zənginləşdirilir, ölkəmizdə görmə orqanının peşə xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi mərkəzinə çevrilir. Şöbələrdən birində görmə orqanının vəziyyəti yoxlanılır, ikincisində diaqnostik-funksional müayinələr aparılır, üçüncüsündə isə cərrahi əməliyyatlar icra edilir. Zərifə xanımın bu təcrübəsi keçmiş SSRİ-nin digər şəhərlərində də bəyənilərək rəğbətlə qarşılanır, geniş tətbiq edilir. Alimin elmi-tədqiqat işlərinin nəticələri "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində dolğun əksini tapır.

1981-ci ildə ölkəmizin tibb elminin, səhiyyə sisteminin tarixində son dərəcə mühüm bir hadisə baş verir. Moskvadan alınan xəbərdə qeyd edilir ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elm-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Bu mükafatı oftalmologiya sahəsində müstəsna xidmətləri olan və beynəlxalq aləmdə tanınan məşhur oftalmoloq-alimlər alırdılar. Azərbaycan aliminin belə nüfuzlu mükafata layiq görülməsi ölkəmizin elm aləmində xoş ovqat yaratdı. Moskvadan alınan xoş xəbər Zərifə xanımın uzun illərdən bəri insanlara bəxş etdiyi şəfqət işığının davamı kimi Azərbaycan tibb elminin, tibb təhsili sisteminin, respublika səhiyyəsinin yollarını nura qərq etdi. Bir faktı da qeyd edək ki, Zərifə xanım Əliyeva bu mükafata layiq görülən ilk qadın oftalmoloq-alim idi.

Görkəmli alim 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı uğurlara, alınan elmi nəticələrin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilir. Bu sahədə də Zərifə xanım Əliyeva həqiqi üzv seçilmiş ilk alim-oftalmoloq idi.

Akademikin, dünya şöhrətli alimin elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr edib. Alimin "Herpetik göz xəstəliyi", "Ağır virus konyuktivitləri" və s. əsərləri bu qəbildəndir.

Zərifə Əliyevanın elmi tədqiqatlarının bir qismi görmə orqanının bədxassəli şişlərinin, qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün yaşla əlaqədar dəyişiklikləri və görmə-sinir yolları" adlı monoqrafiyaları və digər əsərləri göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" və digər əsərləri isə daktriologiyaya həsr edilib. Akademikin qələmə aldığı fundamental "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri",

"İridodiaqnostikanın əsasları" və s. kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdəndir.

Alim elm və texnologiyaların etikası və həkimlik deontologiyası haqqındakı zərif və saf düşüncələrini öz dəyərli əsərlərində təsbitləndirə bilib. Qələmə aldığı "Yüksək etimad" kitabı və bu mövzuya həsr etdiyi digər əsərləri həm bu gün, həm də gələcəkdə gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların həkim, şəxsiyyət kimi formalaşmalarında ümdə əhəmiyyət kəsb edən əvəzsiz əsərlər olaraq qalacaq, aktuallığını heç vaxt itirməyəcək.

Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifidir. Akademik onlarla elmlər doktoru və elmlər namizədinin rəhbəri və məsləhətçisi olub, böyük bir elmi məktəb yaradıb. Zərifə Əliyeva elmdə əldə etdiyi nailiyyətlərə, həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərə görə Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Bu gün akademik Zərifə Əliyevanın əbədiyyətə qovuşmasından 32 il keçir. Bu illər ərzində o, bir an belə unudulmayıb. Qədirbilən xalqımız, eləcə də ölkəmizin tibb işçiləri əvəzolunmaz alimi daim anır, ehtiramla yad edirlər. Ömrünün hər günü mənəvi ucalığa bir pillə olmuş Zərifə xanım Əliyeva tarixin daş yaddaşına imzasını elm fədaisi, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı kimi həkk edib. Onun bəşəri duyğularının saflığından süzülüb gələn şəfqətli ideyaları bu gün də insanlara xoşbəxtlik bəxş edir.

Akademik Zərifə Əliyeva elm, təhsil, səhiyyə sahələrində, eləcə də ictimai-siyasi sahələrdəki misilsiz xidmətlərinə, həmçinin nadir xeyriyyəçilik xüsusiyyətlərinə görə xalqımızın qəlbində, vətənimizin yaddaşında, ölkəmizin tarix salnaməsində dünya şöhrətli alim, nümunəvi, qayğıkeş pedaqoq, şəfqətli həkim, səmimi və sədaqətli bir vətəndaş, eləcə də məğrur Azərbaycan qadını kimi daim yaşayacaqdır.

**Azərbaycan**.-2017.-15 aprel.-№78.-S.7.

## Dünya şöhrətli alim-oftalmoloq

**Əhliman ƏMİRASLANOV,**
Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik,
SSRİ Dövlət mükafatı laureatı

Dünya tarixində elə şəxsiyyətlər var ki, onlar professional sənətləri, xalqa, vətənə göstərdikləri əvəzsiz xidmətləri ilə yanaşı, həm də mənəvi varlıqları, insansevərlikləri, yüksək erudisiyaya malik təxəyyülləri, mənəvi keyfiyyətləri ilə də bəşəriyyətə sevinc dolu xoş əhval-ruhiyyə, nikbinlik, gələcəyə inam hissləri bəxş edə bilirlər. Onlar insanların dünyanın hansı ölkəsində yaşamalarından, dini mənsubiyyətlərindən, siyasi baxışlarından asılı olmayaraq hamıya eyni rəğbət hissləri ilə yanaşır, nikbin duyğular aşılamağı bacarırlar. Yüksək elmi dəyərlərin və insani keyfiyyətlərin ali vəhdətini özündə cəmləşdirə bilən belə şəxsiyyətlərdən biri də dünya şöhrətli alim-oftalmoloq, akademik Zərifə Əziz qızı Əliyeva idi.

Azərbaycanın nurlu övladı, şəfqət timsalı olan Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də ata-baba yurdu olan İrəvanda deyil, Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açmışdı. Təbii ki, ilk illərdə ermənilərin onun əzizlərinin, doğmalarının başına gətirdikləri soyqırımı faktlarından xəbərsiz idi. Bilmirdi ki, 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri dəhşətli soyqırımından sonra onun dədə-baba torpaqlarından zorla deportasiya edilən ailəsinə qovuşmaq üçün Sankt-Peterdurq Tibb Akademiyasındakı təhsilini yarımçıq qoyan atası Əziz Əliyev həmin ildən 1923-cü ilin may ayına qədər əvvəlcə Cənubi Azərbaycanın Ərəblər kəndində, sonra Naxçıvan torpağının Şahtaxtı kəndində məskunlaşmaq məcburiyyətində qalmışdı. Ancaq Zərifə Əliyevanın dünyaya gəlişi düşərli oldu və Əliyevlər ailəsinə sanki işıq, nur seli axmağa başladı. Ailə bir neçə gündən sonra Naxçıvandan Bakıya köçdü. Öz fitri istedadı, bacarıq və qabiliyyəti ilə hamının diqqətini cəlb edən Əziz Əliyev Bakıda müvafiq işlə təmin edilməklə yanaşı, Sankt-Peterburqda yarımçıq qalan ali tibb təhsilini davam etdirmək məqsədilə Bakı Dövlət Universitetinin tibb fakültəsinə qəbul olundu və oranı əla qiymətlərlə başa vurdu.

O zaman Zərifə Əliyeva orta məktəbdə oxuyarkən paralel olaraq musiqi məktəbində də təhsil alırdı və bu sahədə öz istedadı ilə müəllimlərinin diqqətini cəlb edirdi. Müasirlərinin dediklərinə görə, Zərifə xanımın gözəl musiqi duyumu var idi. Əgər o, tibbi deyil, musiqi sahəsini seçsəydi, heç şübhəsiz ki, bu sahədə də böyük uğurlara sahib olacaqdı. Necə ki, bunu ailənin kiçik övladı, əməkdar incəsənət xadimi, musiqişünas, "Dan ulduzu" ansamblının yaradıcısı və ifaçısı Gülarə xanım Əliyeva edə bilmişdi.

Əziz Əliyev övladlarının heç birinin peşə seçiminə müdaxilə etməmişdi. Zərifə xanımın peşə seçimində isə ola bilsin ki, ondan iki yaş böyük olan qardaşı Tamerlan Əliyevin müəyyən rolu olmuşdu. Çünki o, orta məktəbin son siniflərində oxuyanda sonralar əməkdar elm xadimi, kafedra müdiri və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş terapevti olan Tamerlan Əliyev artıq Azərbaycan Dövlət Tibb İnstitutunun tələbəsi idi və "Stalin təqaüdü"nə layiq görülmüşdü. Zamanın sonrakı gərdişləri göstərdi ki, Zərifə xanım Əliyeva özünün qətiyyəti, insanlara münasibəti, qəlbinin şəfqəti ilə sanki yalnız həkim olmaq üçün yaranıbmış. Bu istiqamət nəhayət ki, onu da Azərbaycan Dövlət Tibb İnstitutuna gətirib. Zərifə Əliyevanın ilk ali təhsil illəri qanlı-qadalı II Dünya müharibəsi dövrünə təsadüf edib. Keçmiş SSRİ-nin hər yerində olduğu kimi, Azərbaycanda da arxa cəbhədə böyük çətinliklər yaşanırdı. Belə çətinliklərdən biri də ondan ibarət idi ki, Zərifə xanımın atası həmin dövrdə ailəsindən uzaqlarda – Dağıstan Muxtar Respublikası Mərkəzi Komitəsinin katibi vəzifəsində çalışırdı. Öz çalışqanlığı, fitri istedadı ilə seçilən Zərifə Əliyeva müharibə qurtarandan iki il sonra – 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini əla qiymətlərlə bitirib tibbin ən vacib sahələrindən olan oftalmologiyanı seçdi.

Xatirimdədir ki, akademik Zərifə Əliyeva 1976-cı ildə Q.Helmqolts adına Moskva Dövlət Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edəndə mən ulu öndər Heydər Əliyevin gənclərin təhsilinə göstərdiyi qayğıdan bəhrələnərək SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin aspiranturasında təhsil alır, namizədlik dissertasiyası müdafiə etməyə hazırlaşırdım. Eyni vaxtda mənimlə birlikdə Zərifə xanımın kiçik qardaşı – Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin indiki baş direktoru akademik Cəmil Əliyev də Moskvada doktoranturada təhsil alırdı və biz ailəliklə bir-birimizlə sıx əlaqə saxlayırdıq. Həmin dövrdə Zərifə xanımın vətəndən uzaqlarda doktorluq dissertasiyası müdafiə etməsi, Moskvada tibb elmi sahəsində çalışan bütün azərbaycanlı həkimləri, elmi işçiləri ürəkdən sevindirmişdi. Zərifə xanımın doktorluq dissertasiyası müdafiəsindən sonra Moskvada tibb elmi sahəsində çalışan azərbaycanlı gənclərin hamısı ondan danışırdı. Görkəmli alimin parlaq çıxışı, opponentlərin və iştirakçıların suallarına verdiyi məntiqli, dolğun cavabları SSRİ paytaxtındakı, beynəlxalq aləmdə tanınan alimləri də məftun etmişdi. Oftalmologiya üzrə keçmiş Sovet İttifaqı məkanından kənar ölkələrdə də böyük nüfuz sahibi olan rus alimlərindən Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.Trutneva, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterov, Oftalmologiya və Radiologiya Mərkəzinin

rəhbəri, dövlət mükafatı laureatı, professor A.Brovkina və başqaları Zərifə Əliyevanın doktorluq işinin nəticələrini yüksək qiymətləndirərək, bu əsərin dünya oftalmologiya elmində yeni yollar, yeni istiqamətlər açdığını böyük məmnunluq hissi ilə qeyd etmişdilər.

Mən 1977-ci ildə Moskvadakı Ümumittifaq Onkoloji Elmi Mərkəzində namizədlik dissertasiyası müdafiə etdikdən sonra akademik Zərifə xanımın alim böyüklüyünü daha aydın şəkildə təsəvvürümdə canlandıra bildim, onun elmin çətin yollarındakı maneələri necə cəsarətlə dəf etdiyinin şahidi oldum. Xatırlayıram ki, akademikin o zamanlar Moskvanın elm məbədlərində qazandığı uğurlar buraya Azərbaycandan gələrək elmi işlə məşğul olan bütün gənc kadrların yollarına işıq saçdı və əsl elmi məktəb oldu. Elm aləmində ilk kövrək addımlarını atan gənclər üçün belə bir məktəbin nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini, onlara hərtərəfli dayaq olduğunu öz üzərlərində daha aydın hiss edirdilər.

Akademik Zərifə Əliyevanın araşdırdığı tədqiqatlar sadəcə, alimin dissertasiya müdafiəsini yerinə yetirmək xatirinə edilməyib. Hadisələrin təhlili göstərir ki, o, ilk növbədə, dövrün, zamanın nəbzini tutmağı bacarıb və xalqının, millətinin sağlamlığının qorunması kimi qlobal məsələləri ön plana çəkib. Zərifə xanım əvvəl Azərbaycan xalqının məruz qaldığı və epidemiya törədə biləcək infeksion göz xəstəliklərinin, müxtəlif peşə xəstəliklərinin görmə orqanında yaratdığı fəsadların aradan qaldırılması üçün geniş tədbirlər planı hazırlayırdı. Onun sosial sferada, tibb aləmində əldə etdiyi nəticələr sonralar özü-özlüyündə elmi-tədqiqat işlərinə çevrilirdi. Zərifə Əliyevanın götürdüyü mövzuların məğzində həm də dövlət əhəmiyyətli məsələlər dururdu. Bu, belə də olmalı idi. Çünki Zərifə xanım dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmış, bu ailənin tərbiyəsi ilə böyümüşdü. Ailə qurduqdan sonra isə dünyanın ən məşhur siyasətçiləri sırasında öncül yerdə dayanan dahi Heydər Əliyevlə birgə şərəfli ömür sürüb. Ona görə də Zərifə xanımda yalnız ona xas olan spesifik xüsusiyyətlər cəmləşmişdi və bu xüsusiyyətlərin də məğzində xeyirxahlıq, ədalət, mərdlik dururdu.

Zərifə Əliyeva 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu müvəffəqiyyətlə bitirdikdən sonra həkimlik təcrübəsində ən vacib peşələrdən sayılan oftalmologiya ixtisasını seçib və bu sahədə mütəxəssis kimi yetişməsi üçün ali məktəbi bitirdikdən sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya ixtisası üzrə mükəmməl ordinatura kursu keçib. Bu illər ərzində Zərifə xanımı düşündürən ən mühüm dövlət əhəmiyyətli elmi problemlərdən biri Azərbaycanda təhlükəli vəziyyət yaradan traxoma xəstəliyinin yayılmasının qarşısının alınması, onun müalicəsi və profilaktikası üsullarının işlənib hazırlanması məsələləri idi. Vətən övladları üçün ciddi təhlükə törədən bu qlobal məsələ Zərifə xanımı rahat buraxmırdı. Eyni zamanda, ona bəlli idi ki, 1941-1945-ci illər müharibəsindən əvvəlki dövrdə Azərbaycanda tüğyan edən traxoma xəstəliyinin qarşısını almaq üçün təşkil edilmiş xüsusi səhiyyə işçiləri komissiyasına atası Əziz Əliyev rəhbərlik etmişdi. Doğrudur, o vaxtlar bu komissiya çox fədakar işlər aparmış və Azərbaycanda traxoma epidemiyasının yayılmasının qarşısı alınmışdı. Lakin II Dünya müharibəsindən sonrakı illərdə bu xəstəlik Azərbaycanda yenidən baş qaldırmışdı və insanlarda ağır fəsadlar törədərək görmə qabiliyyətindən məhrumluğa, əmək qabiliyyətinin itirilməsinə, gözdən əlillərin sayının kütləvi surətdə artmasına səbəb olurdu. Həkimlərin qarşısında sosial dilemma kimi dayanan bu problem Zərifə xanımın diqqətini daha çox cəlb edirdi və o, belə patologiyalardan əzab çəkən insanlara ixtisaslaşmış həkim yardımı göstərmək üçün bütün imkanlarını səfərbər edərək bu işin icrasına başlamışdı.

Zərifə Əliyevanın belə ağır bir problemin həllinə girişməsi də onun insansevərliyindən, vətənpərvərliyindən irəli gəlirdi. O, bununla həm də atasının bir vaxtlar başladığı nəcib işləri davam etdirərək həyata keçirmək istəyirdi. Bu məqsədlə o, institutu bitirdikdən sonra Moskvaya gedib və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olub, praktiki vərdişlərə yiyələnib, oftalmologiya ixtisası üzrə mütəxəssis kimi təkmilləşmə hazırlığı keçib. İki ildən sonra vətənə qayıdan, Z.Əliyeva 1949-cu ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayıb. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin möhkəm bünövrəsi qoyulub. Xalqın sağlamlığının vacibliyini ön plana çəkən gənc alim ölkəmizi bürümüş yoluxucu göz xəstəliklərinin qarşısını almaq və bu xəstəliklərin ləğvinə nail olmaq üçün yollar axtarırdı. O dövrdə Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuş, bunun nəticəsində 80 milyon insan kor olmuşdu. O dövrdə traxoma xəstəliyinin müalicəsinə zəmin yarada biləcək o qədər də güclü təsirə malik dərman preparatları hələ mövcud deyildi. Gənc tədqiqatçı Zərifə xanım Əliyevanın başlıca məqsədlərindən biri Azərbaycanda traxoma xəstəliyinin diaqnostikası, epidemiologiyası, müalicə və profilaktikasını vaxtında və yetərincə həyata keçirməkdən, bu prosesin elmi istiqamətlərini müəyyənləşdirərək səhiyyə praktikasına tətbiqini reallaşdırmaqdan ibarət olmuşdur.

Alim Azərbaycanın rayonlarına gedib göz xəstəliklərinin regional lokallığını müəyyənləşdirir, xəstəliyin epidemioloji xüsusiyyətlərini araşdırır, əhaliyə öz məsləhətlərini verir, bir sıra göz xəstəliklərinin profilaktika və müalicəsi haqqında maarifləndirici söhbətlər keçirirdi. Alim traxomanın müalicəsində o dövrün güclü antibiotiklərindən hesab edilən sintomitsindən isifadə edir və uğurlu nəticələrə nail olurdu. Dəyərli elmi kəşflərdən sayılan Zərifə Əliyeva üsulunun kompleks profilaktik tədbirlərlə birlikdə praktik səhiyyədə geniş tətbiqindən sonra traxoma xəstəliyinin müalicə və profilaktikasında əsaslı dönüş yaranır, xəstəliyin yayılmasının

qarşısı alınır və bu da tədricən ölkə əhalisi üçün təhlükə törədən ağır infeksion xəstəliyin ləğvinə gətirib çıxarır. Yalnız bundan sonra Zərifə xanım dissertasiya müdafiəsi etmək qərarına gəlir və səhiyyə praktikasında göz önündə olan pozitiv reallıqlar əldə edərək 1959-cu ildə yerinə yetirdiyi elmi istiqamətlərinin nəticələrinə əsasən "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edir və tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülür.

Zərifə Əliyeva apardığı elmi-tədqiqat işlərinin nəticələrinə görə daim elmi ictimaiyyətin diqqət mərkəzində olub. O, 1960-1967-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq, fəaliyyət göstərdiyi elm ocağında oftalmologiya elminin bütün sahələrinin inkişafına yaxından kömək göstərib. Alimin xidmətləri yüksək qiymətləndirilib və SSRİ Ali Attestasiya Komissiyası 1963-cü ildə Moskvaya göndərilmiş təqdimat əsasında onun oftalmologiya ixtisası üzrə "Böyük elmi işçi" adını təsdiq edib.

Akademik əhali arasında göz xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikasını düzgün təşkil etməklə yanaşı, yeni laboratoriyalar yaradıb, insan sağlamlığı amilini daim ön plana çəkib. Yalnız Bakıda deyil, Sumqayıt, Gəncə, Bərdə, Mingəçevir, Əli Bayramlı (indi Şirvan), Salyan və respublikanın digər şəhər və rayonlarında zərərli iş şəraitlərinin törətdikləri göz xəstəliklərini, eləcə də insan orqanizminin digər xəstəliklərini aşkar edib, həm xəstələrin müalicəsinə, onların iş yerlərində mövcud olan mənfi təsirlərdən qorunmalarına, həm də əmək müəssisələrinin ekologiyasına hərtərəfli diqqət yetirib, onlarda ekoloji prinsiplərə riayət edilməsi konsepsiyalarının həyata keçirilməsi yollarını göstərib.

Akademik Zərifə Əliyeva yerinə yetirdiyi elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də yüksək səviyyədə aparırdı. 1967-ci ildən etibarən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında pedaqoji fəaliyyətə başlayaraq, əvvəlcə kafedranın dosenti, sonra professoru, daha sonra isə həmin kafedranın müdiri vəzifələrini yerinə yetirib, həkimlərin diplomdansonrakı hazırlıqlarının tədris-metodiki göstərişlərə və digər tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaradıb. Onun Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə təkmilləşmə kursu keçən həkimlərlə apardığı mühazirə və təcrübə məşğələlərinin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktiki vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi və s. təşkil edirdi.

Zərifə xanım Əliyeva ADHTİ-də çalışarkən ilk illərdən görmə orqanının patologiyasına xüsusi diqqət yetirib, zərərli sənaye müəssisələrində çalışan insanların oftalmoloji müayinədən keçmələrini təşkil edib, peşə ilə əlaqədar əmələ gələn göz xəstəliklərini aşkar edərək, belə xəstəliklərin diaqnostikası, profilaktikası və müalicəsi ilə ciddi məşğul olub. Peşə amilli etiologiyaya malik göz xəstəliklərinin yayılma qanunauyğunluqlarını aşkar etmək üçün Bakı Şin zavodunda, neft-kimya və yod sənayesi müəssisələrində, Sumqayıt "Üzvi sintez" İstehsalat Birliyində, Mingəçevir "İzolit" və rezin-texnika məmulatı zavodlarında, Gəncə gil-torpaq kombinatında və digər obyektlərdə işləyənlərin görmə orqanlarına mənfi təsir göstərən amilləri, onların etio-patogenezini diqqətlə öyrənib, zərərli peşələrin törətdikləri göz xəstəliklərinin yaranma mexanizmini elmi surətdə əsaslandırıb, onların qarşısını almaq üçün əməli tədbirlər görüb.

Görkəmli alimin aktual problemin həlli yollarında apardığı səmərəli işlər tezliklə öz bəhrəsini verib və o, qeyd etdiyimiz kimi, bu mövzuda dissertasiya müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsini alıb.

Doktorluq dissertasiyası müdafiəsindən bir qədər sonra akademik Zərifə xanımın ADHTİ-də müsabiqə yolu ilə professor vəzifəsinə seçilməsi və qısa müddətdə bu elmi adın təsdiqi alimin gənc kadrların hazırlığı istiqamətində gördüyü işlərin yeni mərhələsinin başlanmasına zəmin yaratmışdır.

1977-ci ildə Bakıda professor Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti idarə heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir müstəsna keyfiyyətinin mükəmməl təşkilatçılıq bacarığının üzə çıxmasına imkan yaratmışdır. Plenumun işində SSRİ-nin müxtəlif yerlərindən dəvət olunmuş mütəxəssis-oftalmoloq alimlərin iştirakı təmin olunmuşdur. Plenumun ardıcıl plana müvafiq şəkildə aparılan bütün parametrlərinin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə Əliyevanın timsalında Azərbaycan qonaqpərvərliyinin təzahürünə çevrildi. Bakıda ilk dəfə olaraq belə bir Ümumittifaq miqyaslı plenumun təşkili Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan verdi. Plenumda akademik Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması haqqında təklif irəli sürdü və iştirakçılar yekdilliklə bu təklifi müdafiə etdilər. O, 1979-cu ildə Bakı Məişət Kondisionerləri Zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı unikal bir laboratoriyanın yaradılmasına və onun səmərəli fəaliyyət göstərməsinə nail oldu. Elmin və texnikanın ən son nailiyyətlərinə əsaslanan və üç şöbədən ibarət olan laboratoriya tezliklə yeni cihazlarla zənginləşdirildi və ölkəmizdə görmə orqanının peşə xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi mərkəzinə çevrildi. Şöbələrdən birində görmə orqanının vəziyyəti yoxlanılır, ikincisində diaqnostik-funksional müayinələr aparılır, üçüncüsündə cərrahi əməliyyatlar icra edilirdi. Laboratoriyalarda az intensivli toksikliyə malik istehsal

sahələrində görmə orqanına fizioloji, kliniki, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi həyata keçirilirdi.

Zərifə xanımın bu təcrübəsi keçmiş SSRİ-nin digər şəhərlərində də bəyənilərək rəğbətlə qarşılanmış, geniş tətbiq edilmişdir. Akademik Zərifə Əliyevanın elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalında gözün peşə patologiayası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində özünün dolğun əksini tapmışdır.

1981-ci ildə ölkəmizin tibb elminin, səhiyyə sisteminin tarixində son dərəcə mühüm bir hadisə baş verdi. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elm-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Akademik M.İ.Averbax adına mükafata oftalmologiya sahəsində müstəsna xidmətləri olan və beynəlxalq aləmdə tanınan məşhur oftalmoloq-alimlər layiq görülürdü. Azərbaycan aliminin belə nüfuzlu bir mükafata layiq görülməsi ölkəmizin elm aləmində xoş ovqat yaratmışdı. Bu mükafatın diqqəti cəlb edən üstün cəhətlərindən biri də ondan ibarət idi ki, Zərifə xanım akademik M.İ. Averbax adına mükafata layiq görülən ilk qadın oftalmoloq-alim olmuşdur. Belə birincilik fədakar əməyin, böyük zəhmətsevərliyin, sənətə vurğunluğun, insanlara olan bəşəri sevginin sayəsində qazanılmışdır.

Görkəmli alimin 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrinin səhiyyə praktikasında geniş tətbiqinə, yüksək ixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərinə görə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi respublikanın akademiklər ailəsinə yeni istiqamət, yeni nəfəs gətirdi. Adı Azərbaycan oftalmoloqları arasında Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş ilk alim-oftalmoloq kimi tarixə düşdü.

Dünya şöhrətli alimin elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr edib. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" əsərləri bu qəbildəndir.

Akademik Zərifə Əliyevanın elmi-tədqiqat işlərinin bir qismi görmə orqanının bədxassəli şişlərinin, qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün yaşla əlaqədar dəyişiklikləri və görmə-sinir yolları" adlı monoqrafiyaları və digər əsərləri göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, "Göz sulanmasının fiziologyiası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" və digər monoqrafiyaları isə daktriologiyaya həsr edilmişdir. Zərifə xanım Əliyevanın qələmə aldığı fundamental "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" və sair kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, faydalandıqları əsərlərdəndir.

Zərifə xanım elm və texnologiyaların etikası, həkimlik deontologiyası haqqındakı zərif və saf düşüncələrini öz dəyərli əsərlərində təsbitləndirə bilib. Onun qələmə aldığı "Yüksək etimad" kitabı və bu mövzuya həsr etdiyi digər əsərləri həm bu gün, həm də gələcəkdə gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların bir həkim, bir şəxsiyyət kimi formalaşmalarında ümdə əhəmiyyət kəsb edən əsərlər olaraq qalacaq, aktuallığını heç vaxt itirməyəcəkdir.

Akademik çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin də müəllifi olub. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, peşəkar elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərib. Onlarca elmlər doktoru və elmlər namizədlərinin elmi rəhbəri və məsləhətçisi olub, bu sahədə sanballı elmi məktəb yaradıb. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan akademik Zərifə Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərlə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışıb, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr edib, dünya xalqlarını hər çıxışında sülhə, əmin-amanlığa səsləyib. O, respublika "Bilik" cəmiyyəti idarə heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti idarə heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin də üzvü olub.

Bu gün Zərifə xanım Əliyevanın doğum günüdür. Bu gün onun unudulmaz xatirəsi ölkəmizin səhiyyə və tibb işçiləri tərəfindən səmimiyyətlə, hörmət və ehtiramla yad edilir. Təqdirəlayiq haldır ki, akademik Zərifə Əliyevanın adını daşıyan və möhtəşəm elm, tədris, müalicə-diaqnostika, reabilitasiya mərkəzi kimi tanınan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Oftalmologiya Mərkəzi öz xeyirxah qapılarını xəstələrin, həkimlərin, tələbələrin, tədris və elmi-tədqiqat işçilərinin üzünə geniş açaraq, regionlarda xeyriyyə müalicə-profilaktika tədbirləri keçirilməsi ənənəsini yaşadan nümunəvi tibb müəssisəsinə çevrilib. Mərkəzin əməkdaşları akademik Zərifə Əliyeva əməllərini yaşadır və davam etdirirlər. Onun bəşəri duyğularının saflığından süzülüb gələn şəfqətli ideyaları bu gün də insanlara fərəhli anlar yaşatmaqda davam edir.

Dünya siyasətçiləri sırasında ön cərgədə dayanan, müasir Azərbaycanın memarı ümummilli lider dahi Heydər Əliyevlə ömrünün sonuna qədər çiyin-çiyinə çalışan, hər sahədə ulu öndərə dayaq duran Zərifə xanım

Əliyeva həm də dünyaya İlham Əliyev kimi dünya şöhrətli siyasətçi, Azərbaycana isə böyük sərkərdə, Ali Baş Komandan, torpağının, millətinin, vətəninin ləyaqətini qorumaq qüdrətinə malik olan bir Prezident bəxş edib.

Akademik Zərifə Əliyevanın əziz xatirəsi xalqımızın qəlbində, ölkəmizin tibbi salnaməsində dünya şöhrətli alim, nümunəvi qayğıkeş pedaqoq, şəfaverici şəfqətli həkim, səmimi və sədaqətli bir vətəndaş kimi, eləcə də məğrur Azərbaycan qadını, nur çöhrəli Azərbaycan anası kimi daim yaşayacaq.

**Azərbaycan.-**2016.-28 aprel.-№90.-S.15.

## Nəsillərə nümunə olan ömür yolu

### Akademik Zərifə xanım Əliyeva – 93

**Mübarız ALLAHVERDİYEV,**
ATU-nun insan anatomiyası kafedrasının professoru,
Əməkdar müəllim

Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Tibb Elmləri Akademiyasının akademik M. İ. Averbax adına mükafatı laureatı, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 93-cü ildönümüdür. Qədirbilən Azərbaycan xalqı, Azərbaycan tibb ictimaiyyəti, hər il olduğu kimi, bu il də dünya şöhrətli alimin doğum gününü geniş qeyd edir.

Görkəmli ictimai xadim və alim Z.Ə.Əliyeva tarixin yaddaşına qızıl hərflərlə həkk olunan şərəfli və mənalı bir ömür yaşamışdır. 1923-cü il aprel ayının 28-də Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açan Zərifə Əliyevanın ailəsi elə həmin ilin may ayında Bakıya köçüb. Onların Bakıya gəlişi ailənin gələcək nailiyyətlərinin təməl daşına çevrilib. Belə ki, hər şeydən əvvəl, Zərifə xanımın atası — gələcəyin görkəmli dövlət və elm xadimi Əziz Əliyev 1918-ci ildə erməni daşnaklarının onun doğma Vətənində — qədim Azərbaycan torpaqları olan İrəvanda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, qırğınlar, deportasiya aktları nəticəsində Sankt-Peterburqdakı Hərbi-Tibb Akademiyasında yarımçıq qoyulan təhsilini Bakı Dövlət Universitetinin tibb fakültəsində davam etdirməyə başlayıb. Bununla da gələcəyin görkəmli ictimai xadimi, məşhur alim-oftalmoloq Z. Ə. Əliyeva parlaq yaradıcılığının əsas hissəsini Bakıda həyata keçirmiş, müəyyən bir hissəsini isə Moskvada davam etdirmişdir. Orta məktəbi 1942-ci ildə Bakıda əla qiymətlərlə bitirən Zərifə Əliyeva atasının tutduğu yolla gedərək, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. 1947-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək, tibbin ən maraqlı, eyni zamanda, çətin sahələrindən sayılan həkim-oftalmoloq ixtisasını seçib. Zərifə xanım institutu bitirdikdən sonra diplomdansonrakı təhsilini davam etdirmək məqsədilə Moskvadakı Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ikiillik ixtisaslaşma kursu keçib. Həmin institutda indiki rezidenturaya bənzər ixtisaslaşma kursunu müvəffəqiyyətlə bitirdikdən sonra yetkin mütəxəssis kimi Vətənə qayıdıb.

Gənc həkim-oftalmoloq əmək fəaliyyətinə 1949-cu ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində başlayıb. Onun ölkə səhiyyəsində nəzər-diqqətini ən çox cəlb edən sahələrdən biri o zamanlar çox geniş yayılmış traxomaya tutulmuş xəstələrin gözlərinə nur vermək istəyi olub. Traxoma xəstəliyi müharibədən sonrakı illərdə ölkə daxilində çox böyük bir bəlaya çevrilmiş ağır infeksion göz xəstəliklərindən biri hesab edilirdi. Bu üzücü xəstəlikdən əziyyət çəkən xəstələrin böyük əksəriyyəti tədricən görmə qabiliyyətini itirir, əlilliyə düçar olur, uzunmüddətli yataq xəstələrinə çevrilir, faydalı əməkdən kənarda qalırdı.

Böyük həvəslə, daxildən gələn entuziazmla həkimlik fəaliyyətinə başlayan Zərifə Əliyeva istedadının gücünə, qüdrətinə, daxili mənəviyyat və mədəniyyət aləminin səliqə-sahmanına arxalanaraq, bu yolda mövcud olan heç bir çətinlikdən çəkinmədi, cəsarətlə Azərbaycanın traxoma xəstəliyi ocaqları aşkar edilən bütün rayonlarına gedərək, bu dəhşətli göz xəstəliyinin yayılmasının qarşısını almaq məqsədilə geniş tədbirlər planı hazırladı. Onun ölkə daxilində ardıcıl olaraq planlı şəkildə apardığı uzunmüddətli müalicə-profilaktika tədbirləri, traxoma əleyhinə tətbiq etdiyi orijinal üsullar sonda öz bəhrəsini verdi. Bununla da fədakar mütəxəssisin həyata keçirdiyi misilsiz xidmətlər sayəsində Azərbaycanda traxoma xəstəliyinin epidemiya şəklində yayılmasının qarşısı alındı.

Bacarıqlı və şəfqətli həkimin ölkə əhalisinin sağlamlığının etibarlı şəkildə qorunması naminə həyata keçirdiyi genişmiqyaslı diaqnostika, müalicə-profilaktika, reabilitasiya işləri onun namizədlik dissertasiyasının əsas elmi istiqamətini, məğzini təşkil etdi. Nəhayət, fitri istedada, dərin zəkaya, fenomen yaddaşa, bilik və bacarığa, yüksək erudisiyaya malik olan gənc mütəxəssis Zərifə Əliyeva yerinə yetirdiyi elmi-tədqiqat işlərini yekunlaşdıraraq, 1959-cu ildə böyük müvəffəqiyyətlə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi” mövzusunda dissertasiya müdafiə etdi və tibb elmləri namizədi elmi dərəcəsinə layiq görüldü. Gənc alim bu yolla, həm də bir növ, hələ müharibədən əvvəl atasının başladığı xeyirxah işi tamamladı və traxoma xəstəliyi epidemiyasının qarşısının alınması məsələsinə birdəfəlik son qoymuş oldu. Bu, gənc alim, həkim və mütəxəssis üçün ən böyük şücaət, şərəf və fəxarət idi. Zərifə xanım Əliyeva 1960-1967-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq, elmi-tədqiqat işlərini yeni istiqamətdə davam etdirib. O, eyni zamanda, həmin institutda oftalmologiya elminin bütün sahələrinin inkişafına yaxından kömək göstərir, gənc kadrların hazırlanmasına geniş imkanlar yaradırdı. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən Z.Ə.Əliyevanın oftalmologiya ixtisası üzrə “böyük elmi işçi” elmi adı təsdiq olunmuş və o, 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) göz xəstəlikləri kafedrasında işə qəbul edilmişdir.

Zərifə xanımın həm elmi, həm də pedaqoji fəaliyyəti bir-birinə paralel istiqamətdə gedir, biri digərini tamamlayırdı. Görkəmli alim rəsmi sənədlərə görə tədris işləri ilə 1967-cı ildən etibarən məşğul olmağa başlasa da, o, həmin tarixə qədər də bir pedaqoq kimi məşhurlaşmışdı. Pedaqoqluq məharəti, təlim-tərbiyə məsələləri, maariflənmə, eləcə də maarifləndirəbilmə məfkurələri, yüksək və dolğun potensiala malikolma xəzinəsi alimin daimi müşayiətçiləri olubdur. Bununla belə, Z.Əliyevanın Əziz Əliyev adına ADHTİ-nin göz xəstəlikləri kafedrasında işə başlaması onun qarşısında yeni üfüqlər açdı və çeşidli planlar diapazonunu daha da genişləndirdi. Bir tərəfdən, uzun illər atasının rəhbərlik etdiyi, sonra isə onun adını daşıyan institutda işləmək məsuliyyəti, digər tərəfdən 20 il öncə ilk addımlarını atdığı Moskva Elmi-Tədqiqat Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna bənzər bir institutda — ADHTİ-də bu yolda ilk addımlarını atmağa başlayan gənclərin diplomdansonrakı təhsili ilə məşğul olması ondan ikiqat güc, qüvvə, enerji və ən başlıcası da böyük məsuliyyət tələb edirdi. Təbii ki, elmə olan tükənməz həvəsi, müsbət enerjisi və həddən artıq məsuliyyətliliyi Zərifə xanım Əliyevada kifayət qədər idi. Ona görə də o, yeni işinin də öhdəsindən bacarıqla gələ bildi. Onun ADHTİ-nin göz xəstəlikləri kafedrasında hər mühazirəsi, hər təcrübə dərsi böyük maraqla dinlənilirdi.

Keçən əsrin 60-cı illəri mənim və mənimlə bir qrupda təhsil alan tələbələrin yaddaşına əbədi həkk olunub və biz akademik Zərifə Əliyeva fenomeninin virtuoz həkimlik incəsənətinin canlı şahidləri olmuşuq. O dövrün yaddaşımda daimi yer tutan ən kədərli hadisələrindən biri 1962-ci ildə görkəmli dövlət və elm xadimi Əziz Əliyevin qəflətən dünyasını dəyişməsi xəbəri olmuşdusa, digər hadisə nikbinliklə xatırlanan və xoş əhval-ruhiyyə ilə yada düşən bir müəllim-tələbə ünsiyyəti vasitəsi idi ki, bu da böyük səhiyyə təşkilatçısı və qurucusu, Əməkdar həkim, professor Əziz Məmmədkərim oğlu Əliyevin göz həkimi peşəsini seçmiş övladları ilə bizim qrupun tələbələri arasında yaranan tanışlıq ünsiyyəti idi. Belə ki, 1964–1965-ci tədris ilində qrupumuzda göz xəstəlikləri üzrə təcrübə dərslərini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının büllur qəlbli dosenti, tibb elmləri namizədi Ləzifə Əziz qızı Əliyeva aparırdı. O vaxtlar ATİ-nin göz xəstəlikləri kafedrasının məşğələləri Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun bazasında aparılırdı və bu baza indiki İncəsənət Muzeyinin və Dövlət Filarmoniyasının yaxınlığında yerləşirdi. Ləzifə xanım dərs deməklə yanaşı, həm də bizimlə çox mehriban rəftarı ilə seçilirdi. O, bizi tez-tez palatalara aparır, əyani olaraq xəstələri nümayiş etdirirdi. Bizim ən çox təcrübə məşğələsi keçdiyimiz palatalardan biri həmin institutda böyük elmi işçi vəzifəsində çalışan Zərifə xanım Əliyevanın palatası olurdu və bizi tez-tez o palataya aparan təbii ki, Ləzifə xanım Əliyeva idi. Elə o vaxtlar öyrəndik ki, Zərifə xanımla Ləzifə xanım bacıdırlar və məşhur alim, dövlət və elm xadimi Əziz Əliyevin övladlarıdır. Tələbəlik illərimizin həmin dövrlərini xatırlayaraq, bu günlərimizdə də Ləzifə xanımın ruhu qarşısında baş əyirəm ki, o, bizə əsl müəllimin nə demək olduğunu anlatmaqla yanaşı, həm də dünya şöhrətli alim Zərifə xanım Əliyevanın xəstələri müayinə və müalicəetmə üsullarının müəyyən ştrixlərini, onlardan anamnez toplama anlarını, xəstəliklərin diferensial diaqnostikasının şərhi və təhlilini görməyimizə, eşitməyimizə, dərk etməyimizə münasib imkanlar yaratmışdı. Biz sonralar başa düşdük ki, Ləzifə xanımın köməyi ilə o vaxtlar dünyanın ən məşhur oftalmoloqlarından birini — akademik Zərifə xanım Əliyevanı lap yaxından görmüş, onun səsini eşitmiş, onunla tələbə-müəllim ünsiyyətində ola bilmişik. Tələbə üçün bu, böyük xoşbəxtlikdir.

Mən hesab edirəm ki, 60-cı illərin xatirimdə qalan müqəddəs izləri bu gün dahi alimin möhtəşəm həyat və yaradıcılığı haqqında saf duyğularımı bildirmək risqinə imkan verdi. Həkim-oftalmoloq olmasam da, bizim qrupun bütün tələbələri kimi, mən də özümü dünya şöhrətli alimin mənəvi tələbəsi hesab edirəm. Zərifə xanımın həkimlik deontologiyasına həsr etdiyi “Yüksək etimad” kitabının təsiri altında boy atıb böyümüş minlərlə tibb işçisi kimi, biz də həmin kitabın deontoloji təsir qüvvəsini öz mənəvi aləmimizdə dərindən hiss etmişdik və bu kitabın ecazkar məziyyətləri indi də əlimizdən tutur, bizə həkimliyin düzgün, rəvan yollarını göstərir.

Akademik Z.Ə.Əliyeva irsinin, onun alim böyüklüyünün, müəllim qayğıkeşliyinin, həkimliyin etik normaları təcəssümçülüyünün pərəstişkarlarının sırasının XXI əsrdə durmadan artması hamımızda səmimi məmnunluq hissləri oyadır.

Zərifə xanım Əliyeva çoxsahəli və çoxşaxəli göz xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikasını ölkə miqyasında yüksək səviyyədə düzgün təşkil etməklə bərabər, həm də müasir tipli laboratoriyalar yaradılmasına, insanların sağlam həyat tərzinin mühafizə olunmasına xüsusi diqqət yetirirdi. Görkəmli alim təkcə Bakı şəhərində deyil, eləcə də ölkəmizin digər şəhərlərində və rayon mərkəzlərində insan orqanizmi üçün zərərli olan bir sıra peşələrin təsirindən yaranan göz xəstəliklərini üzə çıxarır, onların müalicə və profilaktika üsullarını göstərirdi. Görkəmli oftalmoloqun bu istiqamətdə göstərdiyi ən mühüm xidmətlərdən biri də ondan ibarət oldu ki, o, peşə amillərinin törətdikləri göz xəstəliklərini müayinə və müalicə etməklə kifayətlənmirdi. O, orqanizmi tam şəkildə, vahid şəkildə qəbul edərək, peşə patologiyalarının təkcə göz xəstəlikləri ilə məhdudlaşmadığını və onun digər orqanlarda da ciddi dəyişikliklər törətdiyinə görə ayrıca bir orqanı yox, bütöv orqanizmi müalicə etməyə diqqət yetirir, buna üstünlük verirdi.

Keçmiş SSRİ-nin paytaxtı Moskva şəhəri də daxil olmaqla, onun ayrı-ayrı respublikalarının oftalmoloq alimləri arasında görmə orqanının peşə patologiyasının öyrənilməsinə dair əsərlər içərisində ən yüksək qiymət, ən böyük dəyər akademik Z.Ə.Əliyevanın uzun illər boyunca apardığı sanballı və dərin məzmunlu elmi-tədqiqat

işinin nəticələrinə əsaslanan fundamental və orijinal dissertasiya əsərinə verilmişdi. SSRİ miqyasında bu tərtibdə, bu diapazonda ikinci bir əsər tapmaq mümkün deyildi.

Görkəmli alimin bu istiqamətdə yerinə yetirdiyi doktorluq dissertasiyası işi müvəffəqiyyətlə başa çatdıqdan sonra, o, 1976-cı il may ayının 27-də M.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etdi və tibb elmləri doktoru dərəcəsinə layiq görüldü.

Bundan sonra alim Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru vəzifəsinə seçildi və onun professor elmi adı təsdiq olundu.

1977-ci ildə görkəmli alim, bacarıqlı təşkilatçı, akademik Z.Ə.Əliyevanın səyi nəticəsində Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun keçirilməsi ölkəmizdə, yaxşı mənada, geniş rezonansa səbəb oldu. Bakıda oftalmologiya sahəsi üzrə ilk dəfə təşkil edilən Ümumittifaq miqyaslı belə bir elmi forum Azərbaycanda oftalmologiya elminin inkişafına və alimlər arasında inteqrativ elmi əlaqələrin möhkəmləndirilməsinə əlverişli zəmin yaratdı. Plenumda, həmçinin Zərifə xanım Əliyeva Azərbaycanda gözün peşə patologiyasının tədqiqi üzrə elmi-tədqiqat laboratoriyasının yaradılması təklifini irəli sürdü və tədbir iştirakçıları bu təklifə tərəfdar oldular. Zərifə xanım Əliyeva 1979-cu ildə Bakı məişət kondisionerləri zavodu nəzdində Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı laboratoriyanın həm təşkilatçısı, həm də rəhbəri oldu.

Akademik Z.Ə. Əliyevanın görmə orqanının peşə patologiyaları ilə əlaqədar apardığı tədqiqatların nəticələri "Şin istehsalında gözün peşə patologiayası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" adlı monoqrafiyalarda ətraflı şərh olunubdur.

Azərbaycanın dünya şöhrətli alimi, akademik Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası üzrə yerinə yetirdiyi qlobal işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülmüşdür. Azərbaycan aliminin keçmiş Sovetlər İttifaqında akademik M.İ. Averbax adına mükafata layiq görülən ilk qadın oftalmoloq-alim olması Azərbaycan elmini şərəfləndirən və ona ucalıq gətirən ən dəyərli mükafatlardan olmuşdur.

Akademik Zərifə xanım Əliyevanın 1982-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda kafedra müdiri vəzifəsinə seçilməsi göz xəstəlikləri fənninin diplomdansonrakı tədrisinin yeni layihələr əsasında beynəlxalq standartlara müvafiq səviyyədə aparılmasına geniş imkanlar yaratdı. O vaxtlar keçmiş SSRİ-nin əksər respublikalarından bu kafedrada təkmilləşmə kursu keçməyə gəlir və burada əldə etdikləri təcrübi vərdişlərdən məmnun qaldıqlarını minnətdarlıq və təşəkkür hissləri ilə söyləyirdilər.

Zərifə xanım Əliyeva oftalmologiya sahəsi üzrə dünya elminə verdiyi dəyərli töhfələrə, yüksəkixtisaslı tibb kadrlarının yetişdirilməsi yolunda göstərdiyi misilsiz xidmətlərinə görə 1983-cü ildə ölkəmizdə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk oftalmoloq-alim olmuşdur.

İnamla demək olar ki, akademik Z.Ə.Əliyevanın elmi-tədqiqat işləri oftalmologiyanın bütün sahələrini əhatə edir. Alimin "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün əlaqədar dəyişiklikləri və görmə-sinir yolları", "Göz sulanmasının fiziologyiası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi", "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" və digər kitabları onun geniş spektrli yaradıcılığının rəngarənglik çalarlarını təsdiqləyir. Bu kitablar bütün dövrlər üçün yazılmış kitablardır və onlar öz aktuallığını heç vaxt itirmir.

Akademik Zərifə Əliyeva görkəmli ictimai xadim kimi keçmiş Sovetlər İttifaqının Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini vəzifələrini böyük məsuliyyətlə yerinə yetirmişdir. O, beynəlxalq aləmdə Azərbaycanın sülhsevər ölkə kimi tanıdılmasında mühüm rol oynayır, tərəqqipərvər insanları Yer kürəsinin bütün nöqtələrində sülhün bərqərar olmasına səsləyirdi. Görkəmli alim, həmçinin Azərbaycan Respublikası "Bilik" Cəmiyyətinin, SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çap olunan "Oftalmologiya Xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olub.

Akademik Z.Ə.Əliyevanın yerinə yetirdiyi elmi-tədqiqat işləri, yazdığı fundamental əsərlər, yetişdirdiyi çoxsaylı tibb kadrları onun ölməzliyinin, əbədiyaşarlığının təminatçılarıdır.

Alim haqqında cild-cild əsərlərin, məqalə və xatirələrin, müxtəlif məzmunlu və müxtəlif aspektli kitabların yazılması ona olan el məhəbbətinin sevgi dolu təcəssümünün nümunələrindəndir. Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin nümayəndələri də bu baxımdan akademik Zərifə Əliyeva haqqında çoxsaylı xatirələr söyləyib, məqalələr çap etdiriblər. Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının əməkdaşları özlərini akademik Z.Ə.Əliyeva elmi məktəbinin yetirmələri və davamçıları hesab edirlər. Azərbaycan Tibb Universiteti rəhbərliyi bu ali tibb məktəbinin unudulmaz məzunu akademik Zərifə xanım Əliyevanın yubileylərini daim yüksək səviyyədə qeyd edir, onun xatirəsinə həsr edilmiş elmi-praktik konfranslar keçirir, belə konfransların materiallarını nəfis şəkildə çap etdirir. Ölkəmizin akademik Zərifə xanım Əliyevanın adı ilə bağlı olan digər səhiyyə müəssisələrində olduğu kimi, ATU-nun da tədris binalarında, kitabxanasında alimin həyat və yaradıcılığını əks etdirən fotostendlər, guşələr yaradılmışdır.

Bu il aprel ayının 26-da Azərbaycan Tibb Universitetinin inzibati binasında akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü geniş qeyd edildi. Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli akademik Z.Ə.Əliyevanın zəngin yaradıcılıq irsinin və mənalı ömür yolunun ayrı-ayrı mərhələlərindən danışdı, görkəmli oftalmoloq, Azərbaycan Tibb Universitetinin dünya şöhrətli məzunu haqqında səmimi ürək sözlərini söylədi. Tədbirdə ATU-nun oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinurun, kafedranın dosenti Solmaz Əliyevanın xatirələri, II müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi, Prezident təqaüdçüsü Xatın Məmmədovanın çıxışı dinlənildi.

Qeyd edildi ki, Azərbaycan Tibb Universitetinin dünyada tanınan və ehtiramla yad edilən məzunu, akademik Zərifə xanım Əliyevanın keçdiyi şərəfli ömür yolu, zəngin yaradıcılıq irsi nəsillərə örnək və ən dəyərli nümunədir.

**Xalq qəzeti.-**2016.-28 aprel.-№90.-S.4.

# İnsanlara nur bəxş edən şəxsiyyət

**Nurlana ƏLİYEVA,**
YAP İdarə Heyətinin üzvü,Yeni Azərbaycan Partiyası
Qadınlar Şurasının sədri, professor

**İşıq bizim düşüncəmizdə köklü anlayışlardan biridir. İlk növbədə qaranlığın, zülmətin, fəna və heçliyin qənimidir. Həyatın, diriliyin, əbədiyyət və uğurun rəmzidir. Dilimizdə "işıqlığa çıxasan", "aydınlıq olsun" diləkləri ən ucalardandır. Bunun bir kökü Vətənimizdə qədim tarixi olan atəşpərəstliyə, o biri isə ana təbiətin özünə əsaslanır. Yəqin atəşpərəstlik də ana təbiətdən gəlir. Elektrik işığı, heç şamın və çırağın özü də həmişə olmayıb axı. Yəqin elə o vaxtlardan insanlar işığı – günəşi səhərədək səbirsizliklə gözləyiblər, gecələr isə ay çıxanda seviniblər. İşıq, atəş – xilaskar və uca sayılıb, onlara sitayiş də yəqin ki, bu diləklərdən yaranıb.**

Müqəddəs Quranda Rəbbimiz tərəfindən "Sizə Quranı bir nur endirdik" ayəsi buyurulub. Yəni işıq və aydınlıq Tanrıdandır, səlamətliyin və sülhün bir rəmzidir, müsəlmanın əsas dəyərlərindəndir. Bu dəyərlər yaranandan çox-çox sonralar, XIX əsrin ortalarında daha bir xilaskarlıq anlayışı yarandı: göz həkimi! Yəni peşəsinə görə işıq və nur bəxş edən insan. Vətənimizdə ilk belə insanlardan biri akademik Zərifə Əliyeva olub.

Artıq biz firavan ölkədə yaşayırıq. Akademik Zərifə Əliyevanın xalqımız qarşısında xidmətlərini görmək üçün keçən əsrin 20-30-cu illərinə qayıtmalıyıq, göz xəstəliklərinin müalicəsinin ölkəmiz üçün çətin bir problem olduğunu təsəvvür edə bilməliyik. Hələ inqilabdan əvvəl Azərbaycanın şoran ərazilərində, Kürqırağı məntəqələrdə, küləyin güclü olduğu yerlərdə göz xəstəlikləri kütləvi hal almışdı. Dörd il davam edən Böyük Vətən müharibəsinin yaratdığı problemlərdən də biri 1950-ci illərdə ölkəni bürüyən traxoma epidemiyası oldu. Bu xəstəlik insanlara təkcə əziyyət vermirdi, simalarını eybəcərləşdirirdi, bəzən də ailənin iki-üç üzvünü dünya işığına həsrət qoyurdu. Traxoma bütün üsullarla başqalarına keçən infeksion bəla idi, hətta milçəklər vasitəsilə də yayılırdı. Tropik iqlimli ölkələrdə yayılan bu xəstəlik bataqlıq zonalarda, Kür və Arazın hər il daşdığı və bataqlıqlar yaratdığı yerlərdə epidemiya kimi yayılırdı. Hazırda dünyada 70-80 milyon traxoma xəstəsinin olduğu deyilir.

1950-ci illərdə bu qorxulu infeksiyanın qarşısını Zərifə Əliyevanın fəal iştirak etdiyi həkimlər briqadası aldı. Onlar infeksiyanın ən kütləvi xarakter aldığı yerlərə gedir, öz sağlamlıqlarını riskə qoyaraq insanları traxoma bəlasından xilas etməyə çalışırdılar. Nəhayət, dörd-beş ildə buna nail oldular…

Zərifə xanımın fədakar həyat yolu uzaq və sakit Şahtaxtı kəndindən başlamışdı. Bu, Şərur rayonunun ən qədim obalarından biridir. Atası Əziz Əliyev dədə-baba yurdu olan İrəvandan Naxçıvana könüllü köçməmişdi. Ermənilərin şovinizmi və vəhşiliyi son həddə çatanda 1918-ci il hadisələri, ermənilərin hər yerdə müsəlmanları qəddarlıqla məhv etməsi o zaman Peterburqda Hərbi-Tibbi Akademiyada oxuyan Əziz Əliyevi laqeyd qoya bilməzdi. O, İrəvana qayıtdı, vəziyyətin çox ciddi və dözülməz olduğunu görüb ailəsini Şahtaxtıya köçürdü. Burada onların uzaq qohumları yaşayırdı.

Erməni basqınları ilə əlaqədar ikinci kursdan sonra təhsilini yarımçıq qoyan Əziz Əliyev onu nəyin bahasına olursa-olsun davam etdirmək əzmində idi. Bakıda 1919-cu ildə açılmış universitetin tibb fakültəsində təhsil almaq qərarına gəldi. Nəhayət, 1923-cü ilin mayında ailə həmişəlik Bakıya köçdü. Əziz Əliyev universiteti bitirdikdən sonra aspiranturaya da girdi, namizədlik dissertasiyası da müdafiə etdi. O, təhsili və elmi sevirdi, bunlara güvənirdi. Təsadüfi deyil ki, İrəvan Gimnaziyasını qızıl medalla bitirmişdi. Bakıdakı mədəni inqilab mühiti, savad kultu onun arzularının reallaşmasına geniş imkanlar açdı. Artıq 1932-ci ildə Əziz Əliyev Azərbaycan səhiyyə komissarının müavini vəzifəsini icra edirdi.

Əziz Əliyev sonralar Azərbaycanda yeni tibbi xidmətin təşkilatçılarından biri oldu. "Ot kökü üstə bitər" – deyiblər. Atası Bakıya gələndən sonra Zərifənin həyatı da həmişəlik bu şəhərlə, burada reallaşdırılan tibbi layihələr və işlərlə bağlandı. Atası Əziz Əliyev 1935-ci ildə Azərbaycan Tibb İnstitutunun rektoru təyin olunanda Zərifənin on üç yaşı vardı. Amma o, gözünü açandan evlərində insan sağlamlığı, həkimin xalqa xidməti barədə çox söhbətlər eşitmişdi. 1939-cu ildə Əziz Əliyev Azərbaycanın səhiyyə komissarı təyin olundu. Görünür, tale özü Zərifə xanımı həkim olmağa hazırlayırdı.

Atalarının həkim və böyük səhiyyə təşkilatçısı olması, ailədəki nüfuzu övladlarının peşə seçimində mühüm rol oynadı. Qardaşları Tamerlan və Cəmil də həkim oldular. Zərifə xanımın böyük qardaşı Tamerlan Əliyev (1921-1997) respublikamızın ən yaxşı endokrinoloqlarından biri idi. Atasının yoluna sadiq qaldı, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor kimi adlar aldı. Görkəmli alim 250-dən çox elmi əsərin, 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifi idi.

Zərifə xanımın kiçik qardaşı Cəmil Əliyev isə tibbin ən çətin sahəsini – onkologiyanı seçdi, bu sahədə elmi avtoritetə çevrildi. O, tibb elmləri doktoru, professordur, 2001-ci ildən Milli Elmlər Akademiyasının həqiqi üzvüdür. Cəmil Əliyev həmçinin Nyu York Elmlər Akademiyasının üzvü, Rusiya Tibb Elmləri Akademiyasının

həqiqi üzvü, Rusiya Federasiyasının Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, İngiltərə Nammersmit Kral Universitetinin professoru, Anderson xərçəng əleyhinə Mərkəzin professorudur. Görkəmli alimin 230-dan çox elmi əsəri çapdan çıxıb. 80-nə yaxın elmi əsəri xaricdə çap olunub. Uzun illərdir respublika Milli Onkologiya Mərkəzinə rəhbərlik edir.

İnsanlara nur və sağlamlıq vermək həkim sülaləsinə çevrilən bu ailənin tale yolu oldu.

İnsan xarakterinin öz məntiqi də var: ailənin təsiri, dəyərləri bizim taleyimizdə mühüm məsələdir. Hər birimizin varlığında adsız bir özək var və bu özək bizimlə bir doğulur. Zərifə xanımın da daxilindəki bu özək çox möhkəm idi. Ailələrinin, atasının cəmiyyətdəki mövqeyi yüksək olduğu kimi, o da məktəb illərindən müstəqil şəxsiyyət kimi düşünür və öz gələcək həyatına ciddi yanaşırdı. Axı ailə insanın sosial statusunu həmişəlik müəyyən etmir. Həyatın bəzən amansız sınaqlarında hər kəs öz iradə qüvvəsindən istifadə etməli olur. Zərifə xanım da gəncliyindən öz şəxsiyyətinin, zəhmətinin ən yaxşı keyfiyyətlərinə əsaslanmağa çalışırdı. Digər tərəfdən, atasının nümunəsi, az qala əsgər həyatı yaşaması onun gözünün qarşısında idi. Onların zamanı belə idi: güzəştsiz, tələbkar, hədsiz məsuliyyət tələb edən bir zamanə.

Zərifə orta məktəbi bitirəndə 1942-ci il idi. Sovet-alman cəbhəsində sovet ordusu dalbadal uğursuzluqlara düçar olurdu. Atası da daim əsgər şinelində idi, evdə onun üzünə həsrət idilər. Dövlət onu hara yollayırdısa gedirdi, əlindən gələni əsirgəmirdi. Zərifə də zamana, atasına layıq olmalı idi. Ağır və mürəkkəb bir dövrdə də orta məktəbi uğurla başa vurdu, maksimum bilik toplamağa can atdı. Nəticə də onun zəhmətinə görə oldu: 1942-ci ilin yayında imtahanları uğurla verib Azərbaycan Tibb İnstitutunun müalicə fakültəsinə daxil oldu.

Müharibə də ağır bir sınaq idi: acıları, amansız qayda və tələbləri ilə. Bunların hamısına dözmək lazım idi, stalinizmin total nəzarətinə də həmçinin. Belə şəraitdə büdrəmək, gileylənmək olmazdı, bəlkə də nümunə olmaq lazım idi. Onları böyüdən anaları Leyla xanım bunu həmişə deyirdi. Müdrik, zəhmətkeş, əsl xalq adamı olan anaları hər şeyi nəzarətdə saxlayırdı.

Zərifə və bacısı Gülarə həm də musiqi təhsili almışdılar. Bu maraq onlara atalarından keçmişdi. Ədəbiyyat və musiqi sənətinin görkəmli simaları tez-tez onların evlərində olurdular. Zərifə xanım gözünü açıb evlərində Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Səməd Vurğun, Bülbül kimi böyük şəxsiyyətləri görmüşdü. Onların sözü, söhbəti həmişə yadda qalırdı. Belə ünsiyyət heç bir hafizədə izsiz qala bilməzdi və qalmadı. Bütün bunlar Zərifə Əliyevada şəxsiyyət olmaq, xalqın ümumi işi üçün nə isə etmək istəkləri yaratdı, onu maarifə və elmə bağladı.

Evdəki piano da tez-tez səslənirdi. Həyatın çətin vaxtlarında da, tələbə və məktəb yoldaşları onlara gələndə də… Zərifə xanımın kiçik bacısı Gülarə Əliyeva konservatoriyanı bitirdi, 1966-cı ildə "Dan Ulduzu" instrumental ansamblını yaratdı. Əməkdar incəsənət xadimi adına layiq görüldü, musiqi nəzəriyyəsi kafedrasının müdiri oldu. Ansambl xalq musiqisinin inkişafında və təbliğində mühüm rol oynadı.

1941-1945-ci illər müharibəsinin ən çətin günlərində bu ailənin qapısı tanış və qohumların, məktəb, sonra isə tələbə yoldaşlarının üzünə həmişə açıq idi. Taleyin və tarixin gətirdiyi qıtlığı elnən, obaynan yaşamaq daha asandı. Leyla ana da bunu bilir, ən çətin günlərdə, ən ağır xəbərlər gələndə yaxın insanlara sığınır, onlardan güc alırdı. Bu da böyük xalq dəyərinə sığınmaq idi: xalqla birgə olmaq idi.

1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu əla qiymətlərlə bitirən Zərifə Əliyeva daha artıq praktik biliklərə yiyələnmək üçün Moskvaya Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna getdi. Bu gedişin daha bir məqsədi var idi: Azərbaycanı bürümüş traxoma epidemiyası! Ölkəyə məhz bu yöndə ixtisaslı həkimlər çox lazım idi. Zərifə xanım isə ümumi müalicə fakültəsini bitirmişdi. Göz xəstəlikləri üzrə ixtisaslaşmaq üçün mütləq əlavə təhsil zəruri idi. Həm də göz viruslarının regional fərdiliyi də var idi və infeksiya ilə mübarizə həm də bu fərdiliyi fundamental şəkildə öyrənməyi tələb edirdi. Zərifə xanım məhz bunu qarşıya məqsəd qoydu.

Odur ki, yenə oxumaq və öyrənmək lazım idi, elmin zəhmət tələb edən qapısından keçmək, nur elmi olan oftalmologiyaya dərindən yiyələnmək lazım idi. Xəstəyə diaqnoz qoymaq, xəstədə inam yaratmaq üçün iki min ilə yaxın tarixi olan bu elmi dərindən öyrənmək zəruri idi. Zərifə xanım həkimliyin bu sirlərini cavan yaşından anlamışdı.

1947-ci ilin Moskvası gənc mütəxəssis üçün yeni bir aləm oldu. Bəzi problemlər Bakıdakı kimi idi, məsələn, müharibədən qalmış yoxsulluq və qıtlıq, əlillərin sayının çoxluğu. İnsanların əksəriyyəti cəbhədən gəldikləri geyimdə idilər. Çünki həm təzələri yox idi, həm də almaq üçün vəsait. Yoxsulluq hər addımda görünürdü. Amma bu, bədbinlik yaratmırdı. Müharibədən sonra insanlarda daha böyük həyat eşqi vardı. Hər yanda tikinti və bərpa işləri gedirdi. Moskva Zərifə xanım kimi gəlmələrlə dolu idi. Böyük, ucsuz-bucaqsız ölkənin hər yerindən bura təhsil almağa gəlmişdilər. Ölkədə müasir biliklərin əhəmiyyəti düzgün təyin edilmişdi. İnsanlar metroda belə, əli kitablı idilər, fürsət düşən kimi hamı kitab oxuyurdu. Ən başlıcası, insanlar arasında səmimiyyət, sabaha inam və ümid var idi. Müharibədən qalib çıxmış ölkədə belə də olmalı idi.

Zərifə xanım mərkəzdə sovet nomenklaturasını da gördü və hiss etdi. Bu təbəqəyə daxil olan məmurların balaları xüsusilə seçilirdi. Onların geyimi də, pulu da, əyləncə imkanları və dairələri vardı. Amma Zərifə xanımın qəlbinə sadə ailələrdən çıxmış gənclər daha yaxın idi. Onlarla daha tez ünsiyyət bağlayır, dostlaşır və rəfiqə olurdu. Moskvada Zərifə xanım o dövrün məşhur tibb alimləri ilə tanış oldu. Bir də göz cərrahiyyəsinin sürətli

inkişafı onun nəzərindən yayınmadı. Müharibə tibbin cərrahiyyə sahəsinə böyük təkan vermişdi, ağlasığmaz əməliyyatlar həyata keçirilirdi. Professorlardan biri demişdi ki, cərrahiyyə – müharibələrdən doğmadır. Həqiqətən müharibədən sonra tibbin, xüsusilə cərrahiyyənin misilsiz inkişafı bunun əyani təsdiqi idi.

Zərifə xanım Moskvada iki il yaşadı, elmi işçi kimi püxtələşdi. Özünə elmi mühitdə çoxlu dostlar tapdı, onlara bağlandı, bəziləri ilə sonralar müştərək tədqiqatlar apardı, kitablar çap etdirdi. Belə dostların əksəriyyəti sonralar onun elmi işlərinin rəyçiləri və opponentləri oldular, onun barəsində məqalələr və səmimiyyət dolu xatirələr yazdılar. Məhz Moskvada Zərifə xanım həyatın və elmin çətin yoluna çıxdı. Bu, böyük həyat, fasiləsiz yüksəliş yolu idi.

1949-cu ildə Bakıya qayıdanda Zərifə Əliyeva artıq yüksək ixtisaslı göz həkimi idi. Onu Elmi-Tədqiqat Oftalmologiya İnstitutuna elmi işçi göndərdilər. Bu, ürəyindəki arzulara uyğun idi: göz xəstəlikləri üzrə elmi tədqiqatlar aparmaq. Azərbaycanda traxoma virusunun qarşısını almaq və sonra isə onun kökünü kəsmək, həm praktik, həm də fundamental araşdırmaların kəsişdiyi yerdə həyata keçə bilərdi. Ona görə Zərifə xanım aspiranturaya hazırlaşmağa başladı. Zamanı gələndə sənədlərini verib imtahanlarda iştirak etdi. 1950-ci ildə əla qiymətlərlə aspiranturaya daxil oldu. Namizədlik mövzusu kimi traxoma xəstəliyinin və epidemiyalarının müalicəsi və profilaktikası məsələlərini seçdi.

Bu, fundamental və praktik təbabətin kəsişdiyi problem idi. Onun həlli əvvəllər yazılmış kitab və araşdırmalarda yox idi. Mövzunun açarı traxomanın tüğyan etdiyi məntəqələrə epidemiya əleyhinə ekspedisiyalar idi. Belə ekspedisiyalar praktik tədbirlər kimi təşkil edilirdi. Amma Zərifə xanım onlara həm praktik həkim, həm də fundamental araşdırmalar üçün material və fakt bazası yığan tədqiqatçı kimi qoşuldu. Üstəlik bu ekspedisiyada yoluxmaq riski də, narahat çölçülük həyatı da var idi. Amma cavan tədqiqatçı bunların hamısına dözdü. Həkim yoldaşları da onun sadəliyini, səmimiyyətini görüb ona isinişdilər və həmişəlik dost oldular.

Zərifə xanım təkcə kollektiv ekspedisiyalarla kifayətlənmədi. Traxomanın geniş yayıldığı yetimxanalara, əlil evlərinə, rayonlara, Kürqırağı kəndlərə fərdi qaydada gedir, vəziyyəti öyrənir, müalicənin effektivliyini və gedişini izləməyə çalışırdı. O zaman traxomaya qarşı sintomitsin adlı antibiotikdən istifadə edirdilər. Lakin Azərbaycan arealında bu dərmanın aktivlik və passivlik xüsusiyyətləri öyrənilməmişdi. Bu məsələ isə göz virusologiyası ilə daha çox bağlı idi. Eyni virusların adətən onlarca növlərinin olması elmə məlum idi. Lakin müalicənin effektivliyi baxımından həmişə iki cəhət aydınlaşdırılır: virusların regional növlərinin öyrənilməsi və onların antibiotikə müqavimət xüsusiyyətləri. Belə köklü problemlərin araşdırılması müalicə prosesinin müxtəlif mərhələlərinin diqqətlə izlənilməsi, müalicənin fərdi xüsusiyyətlərinin elmi təsnifi lazım idi. Bu isə zəhmət, səbir, xəstələrlə fərdi iş tələb edirdi. Bütün bunlar cavan alimdə var idi: həmkarları onun müalicə prosesinin gedişini necə diqqətlə izlədiyinə heyran qalırdılar. Amma Zərifə xanım yaxşı bilirdi: zəhmətsiz heç nə olmur.

1960-cı ildə namizədlik dissertasiyasını uğurla müdafiə etdi.

Həmin il Zərifə xanım Oftalmologiya İnstitutunda baş elmi işçi vəzifəsində çalışıb, 1967-ci ilə qədər öz araşdırmalarını burada davam etdirir. Bu dövrdə artıq o, yeni problem – göz xəstəliklərinin ən çox yayılanı olan qlaukoma ilə məşğul olmağa başlayır. İnsanlarda qırx yaşından sonra başlanan bu xəstəlik erkən korluqla da nəticələnə bilir, çox hallarda isə görmə qabiliyyətini aşağı səviyyəyə salır. Zərifə xanımın bu mövzuda yazdığı məqalə və araşdırmaları həkimlərin stolüstü kitabına çevrildi.

1967-ci ildə Zərifə xanım Səhiyyə Nazirliyinin Həkimləri Təkmilləşdirmə İnstitutuna, Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət edilir. Ailə qayğılarının qat-qat artmasına baxmayaraq, praktik həkimlik işindən uzaqlaşmır: çoxlu cərrahiyyə əməliyyatları edir, xəstələri ilə məşğul olur, onların müalicə tarixçəsini izləyirdi. Həm kurslara gələn həkimlərə oftalmologiyanın ən yeni nailiyyətləri, müalicə və cərrahiyyə üsulları barədə mühazirələr oxuyur, həm də cavan kadrlarla, tələbələri ilə iş aparırdı. Bu illərdə o daha mühüm bir problemlə – peşə ilə bağlı göz xəstəlikləri ilə məşğul olmağa başlayır. Həyatın tələbi olan bu problem minlərlə insanların görmə qabiliyyətini qorumağa yönəlmişdi. Azərbaycanda sənayenin sürətli inkişafı, istehsal sahələrinin genişlənməsi, xüsusilə kimya sənayesi bu sahələrlə bağlı göz xəstəliklərini ciddi problemə çevirmişdi.

1968-ci ildən sonrakı elmi fəaliyyətini professional göz xəstəliklərinə həsr etməsi də bununla əlaqədar idi. Sumqayıtda insanlar bütün ömürləri boyu kimyəvi maddələr istehsalı sahəsində çalışırdılar. Bu isə müəyyən xəstəliklərin yaranmasına gətirib çıxarırdı. Kimyəvi istehsal insan orqanizmi üçün ən təhlükəli iş mühitidir. Burada bir sıra digər xəstəliklər də yarana bilir. Amma göz xəstəlikləri bunların bəlkə də ən ağırı idi. Zərifə xanım bunu yaxşı dərk edir və zəhmət adamlarına kömək edən dərmanlar və müalicə üsulları yaratmağa çalışırdı. Bu məqsədlə Bakı və Sumqayıtın bəzi zavodlarında eksperimentlər keçirilirdi. Təcrübi yol kimyəvi maddələrin və zəhərlərin insanın görmə orqanına təsirini əsaslandırmaq üçün zəruri idi. Bu işlərlə bağlı tədqiqatçı tez-tez kimya müəssisələrində olur, xəstələri ilə görüşür, patoloji halları izləyirdi.

Görkəmli alim çoxillik araşdırmalarını professional göz xəstəliklərinə həsr olunmuş doktorluq dissertasiyasında ümumiləşdirdi. Müdafiəsi isə 1977-ci ildə dünya oftalmologiyasının əsas mərkəzlərindən olan Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda oldu. Onun doktorluq işi məşhur alim və həkimlərin ən yüksək qiymətlərini aldı. Elə həmin ildə Zərifə xanıma tibb elmləri doktoru elmi adı verildi, Bakıdakı işində kafedranın professoru seçildi.

1979-cu ildə SSRİ miqyasında görkəmli oftalmoloq kimi tanınan alimin həyatında yeni əlamətdar hadisə baş verdi. Zərifə xanımın təşəbbüsü ilə Elmlər Akademiyasının Ə.Qarayev adına Fiziologiya İnstitutunda Azərbaycanda ilk dəfə professional göz xəstəliklərini öyrənən laboratoriya açıldı və Zərifə xanım onun rəhbəri oldu. Əslində, bu, dünya şöhrətli alimin elmi məktəbi idi. Bu dövrdə onun şin və yod istehsalında göz patologiyasına həsr olunmuş iki monoqrafiyası çıxdı və yüksək qiymətlər aldı. Alim virus mənşəli göz xəstəlikləri barədə də qiymətli əsərlər yazdı. Həmçinin göz cərrahiyyəsi, həkim etikası, gənc kadrların hazırlığı ilə bağlı problemlər onu ömrü boyu narahat edir, bu mövzularda dəyərli əsərlərin yaradılması ilə nəticələnirdi. 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçildi. Bu, onun elmə verdiyi töhfələrin təsdiqi idi.

Ömrü boyu insanlara nur bəxş edən böyük şəxsiyyət – Zərifə xanım Əliyeva 1985-ci ilin 15 aprelində dünyasını dəyişdi. Bu, ağır itki idi…

Ulu öndər Heydər Əliyev xatirələrində deyirdi ki, mən Zərifə xanım kimi həyat yoldaşımın olması ilə xoşbəxt idim. Bu qibtə doğuracaq bir etiraf idi! Üç böyük tarixi şəxsiyyətin həyatında izi olan Zərifə xanım ən çox ailə və övlad dəyərləri ilə yaşadı. Bir də insanlara dünya işığı verən həkim sənətini davam etdirdi, tədqiqatlar apardı. Haqqında oxuduğum sənəd və xatirələrin, məqalə və yazıların hamısında onun sadəliyi, xalq ruhuna və dəyərlərinə bağlılığı barədə heyranlıqla danışılır. Elmi mövqeyinə görə söz və nüfuz sahibi olan məsum insan həmişə öz daxili xarakterinə, tərbiyə aldığı ailədən əxz etdiyi dəyərlərə sadiq qaldı. Sevindirici haldır ki, görkəmli alimin mənəvi və irsi davamçıları onun işlərini, arzu və ideallarını uğurla davam etdirirlər.

**Azərbaycan.-**2015.-28 aprel.-№ 89.-S.5.

**Xeyirxahlıq və humanizm mücəssəməsi**

**Akademik Zərifə Əziz qızı Əliyeva-92**

**Mübariz ALLAHVERDİYEV,**
ATU-nun insan anatomiyası kafedrasının professoru,
tibb elmləri doktoru, əməkdar müəllim

**İnsanlara bitib-tükənməyən sevgi, məhəbbət dolu geniş ürəyə sahib olan, gözlərə işıq, nur bəxş edən, Vətən təəssübünü bütün duyğulardan üstün tutmağı bacaran, özünün fitri istedadı ilə elmin Olimpinə, insanlığın ən yüksək zirvəsinə ucalan akademik Zərifə Əziz qızı Əliyeva bu ecazkar xüsusiyyətləri ilə həm müasir gənclərə, həm də gələcək nəsillərə nümunə göstərdi, örnək oldu.**

Zərifə xanım 92 il bundan əvvəl – 1923-cü il, aprelin 28-də Azərbaycanın zəngin tarixə, əsrarəngiz gözəlliklərə malik füsunkar guşəsində – Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açmışdır. Atası, görkəmli alim və ictimai xadim Əziz Məmmədkərim oğlu Əliyevlə anası Leyli xanımın, eləcə də onların ulu baba və nənələrinin doğulduqları, böyüyüb boya-başa çatdıqları, qurub-yaratdıqları, bəşər tarixinə ilkin və əbədi Azərbaycan yurdu kimi düşən İrəvan torpaqları olmuşdur. Təəssüf ki, sonralar hegemon dövlətlər tərəfindən erməni vandallarının kütləvi surətdə başqa ölkələrdən əzəli və əbədi Azərbaycan torpaqlarına köçürülmələri, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında zorən Ermənistan dövlətini yaratmaları bir müddətdən sonra yerli xalqın – azərbaycanlıların ermənilər tərəfindən deportasiya edilmələrinə, məcburi qaçqın və köçkünə çevrilmələrinə səbəb oldu. O vaxtlar, yəni 1918-ci ildə Sankt-Peterburqdakı Hərbi Tibb Akademiyasında təhsil alan Əziz Əliyevin də ailəsi bu qəddar məhrumiyyətlərlə üzləşdi. Ağır işkəncələrdən, erməni quldur basqınlarından sonra onların ailəsi əvvəl Arazın o tayında – Cənubi Azərbaycanın Ərəblər kəndində, sonra isə Naxçıvanın Şahtaxtı kəndində məskunlaşdı. 1921-ci ildə həmin kənddə bu ailənin böyük oğlu – gələcəyin Əməkdar elm xadimi, görkəmli tibb alimi Tamerlan Əliyev, 1923-cü ildə isə gələcəyin dünya şöhrətli məşhur oftalmoloq-alimi, akademik Zərifə xanım Əliyeva dünyaya gəldi.

Zərifə Əliyevanın dünyaya gəlişi ailə üçün düşərli oldu. Elə həmin il ailənin Bakıya köçməsi ilə onların gələcək uğurlarının özülləri qoyuldu. Ailənin başçısı Əziz Əliyev Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olaraq bir vaxtlar Sankt-Peterburqda yarımçıq qalmış tibb təhsilini davam etdirdi, övladları isə öz arzuları ilə seçdikləri peşələr üzrə ali təhsil aldılar.

Atalarının yolunu davam etdirən dörd övladdan biri də gənc Zərifə xanım Əliyeva oldu. Orta məktəbi əla qiymətlərlə bitirən Zərifə xanım böyük qardaşı Tamerlan Əliyevlə birlikdə İkinci dünya müharibəsi illərində Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil alırdı. Həmin dövrdə onlar, təbii ki, ailənin digər övladları ilə birlikdə anaları Leyli xanımın himayəsi altında yaşayırdılar. Çünki ataları Əziz Əliyev artıq təkcə Azərbaycanda deyil, bütün Sovet İttifaqında müstəsna təşkilatçılıq qabiliyyətinə malik dövlət xadimi, eləcə də görkəmli səhiyyə təşkilatçısı kimi tanındığından SSRİ rəhbərliyi tərəfindən müharibənin ağır illərində Dağıstan Muxtar Respublikası Mərkəzi Komitəsinin I katibi vəzifəsinə təyin edilmişdi. Leyli xanım yalnız uşaqların tətil günlərində, bəzən də şənbə və bazar günlərində onları Mahaçkalaya – atalarının yanına aparır, onun məsləhətlərini, öyüd-nəsihətlərini aldıqdan sonra yenidən Bakıya qayıdırdı. Hərdən ataları da vaxt tapıb Bakıya gəlirdi və belə günlərdə evlərində əsl bayram əhval-ruhiyyəsi yaranırdı. Azərbaycanın görkəmli ziyalıları onların evinə toplaşırdı. Belə görüşlərdə Zərifə Əliyevanın royalda ifa etdiyi musiqi parçaları hamını heyran edirdi.

Tamerlan Əliyev Zərifə Əliyevadan iki kurs yuxarı idi və təhsildə göstərdiyi nümunəvi bacarığına görə "Stalin təqaüdü"nə layiq görülmüşdü. İnstitutda hamı ondan danışırdı, Zərifə Əliyeva da qardaşı ilə fəxr edirdi və ondan geri qalmırdı.

Sonralar Tamerlan Əliyev terapevt, Zərifə və Ləzifə Əliyevalar həkim-oftalmoloq ixtisasını seçdilər. Onların kiçik qardaşları Cəmil Əliyev isə fərqli bir sahə – onkologiya sahəsini seçdi. Bu, onların öz arzuları ilə reallaşdırdıqları bir seçim idi.

Zərifə xanım, bəlkə də, bu ixtisası seçərkən ölkə əhalisinin bu sahəyə böyük ehtiyacı olduğunu düşünmüş və Vətənə bu istiqamətdə daha çox xeyir verəcəyini fikirləşərək, bu addımı atmışdı. Məsələnin məğzi də ondan ibarət idi ki, Zərifə Əliyevanın institutu bitirdiyi 1947-ci ildə müharibə təzə başa çatmışdı və onun fəsadları çətinliklə aradan qaldırılırdı. Əhali arasında mövcud olan və geniş yayılan çətinliklərdən birini də traxoma xəstəliyi yaradırdı. Zərifə xanım institutu bitirdikdən sonra bütün diqqətini bu istiqamətə yönəltmişdi, ən ümdə arzusu xalqı bu ağır bəladan qurtarmaq idi. Ona görə də o, Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda 2 il ərzində diplomdansonrakı təhsillə məşğul olub, oftalmologiya üzrə yüksək ixtisaslı mütəxəssis adını aldı. Yalnız bundan sonra Vətənə qayıdaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində ilk əmək fəaliyyətinə başladı. Bu institutda 18 il fədakarlıqla çalışdı. O, göz xəstəliklərinin, xüsusilə də, traxomanın epidemiyasının qarşısının

alınması üçün gərgin işlərə başladı. Bilirdi ki, bir vaxtlar, hələ müharibədən əvvəlki 30-40-cı illərdə Azərbaycanda traxoma ocağı alovlanırdı. O vaxtlar respublikada onun qarşısının alınması üçün xüsusi həkim komissiyası yaradılmışdı və Əziz Əliyev bu komissiyanın rəhbəri təyin edilmişdi. Zərifə xanım Əliyevaya o da bəlli idi ki, atası digər həkimlərlə birlikdə bu vəzifənin öhdəsindən bacarıqla gəlmiş, müharibədən əvvəlki illərdə aparılan genişmiqyaslı səhiyyə tədbirləri nəticəsində traxoma epidemiyasının yayılma təhlükəsinin qarşısı alınmışdı. Müharibə dövründə bu infeksiya ocaqları yenidən közərmiş və müharibədən sonrakı illərdə insanların həyatı üçün ciddi təhlükəyə çevrilmişdi. Zərifə Əliyeva müharibədən sonrakı illərdə bu ağır yükü öz zərif çiyinlərinə götürdü və sübut etdi ki, ağılın gücündən istifadə etməklə ən ağır yüklərin öhdəsindən gəlmək mümkündür.

O, keçən əsrin 50-ci illərinin əvvəllərində aspiranturada təhsil alarkən də ancaq bu mövzu ətrafında fikirləşirdi. Onun bu istiqamətdə apardığı tədqiqat işləri traxomanın müalicəsində başqa terapevtik maddələrin tərkibinə sintomisinin əlavə edilməsinin effektli nəticə verdiyini müəyyən etdi. Z. Əliyevanın təklif etdiyi üsul tezliklə respublikanın bütün bölgələrində tətbiq edildi və traxomanın yayılmasının qarşısı alındı. Bu, səhiyyədə böyük irəliləyiş, inqilabi bir dönüş idi. Məlumdur ki, tibbdə hər bir elmi-tədqiqat işinin dəyər meyarı onun nəzəri hissəsi ilə yanaşı, praktiki səhiyyəyə tətbiq sahəsinin genişliyi və dürüstlüyü ilə müəyyən edilir. Gənc alimin əldə etdiyi bu nailiyyətlər onu yeni problemlər üzərində düşünməyə sövq etdi. Keçən əsrin 60-cı illərinin əvvəllərində o, Azərbaycan SSR Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda baş elmi işçi vəzifəsində çalışırdı.

Mənim akademik Zərifə xanım Əliyeva haqqındakı ilk təəssüratlarım da elə XX əsrin 60-cı illərinin birinci yarısına təsadüf edir. Həmin illərdə mən Azərbaycan Dövlət Tibb İnstitutunun tələbəsi idim. O zaman ATİ-nin göz xəstəlikləri kafedrası Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun bazasında yerləşirdi. Qrupumuza göz xəstəlikləri fənni üzrə praktik məşğələni kafedranın dosenti Ləzifə xanım Əliyeva aparırdı. Adətən, biz tələbələr yeni dərsə başladığımız kafedralardakı müəllimlərlə, ondan əvvəl dərs keçdiyimiz kafedraların müəllimlərini istər-istəməz müqayisə etməyə başlayırdıq. “Tələbə müəllimin güzgüsüdür” məsəli elə bil ki, bizim qrup üçün deyilmişdi. Çünki biz müəllim haqqında obyektiv qərar verməkdən çəkinmirdik. Pisə pis, yaxşıya yaxşı deməyi, obyektiv qərar çıxarmağı bacarır və bunu müəllimlərin üzünə deyirdik. Ümumiyyətlə, bizə elə gəlirdi ki, keçən əsrin 60-cı illərinin gəncliyi fərqli bir təxəyyülə malik idi, onlarda milli ruh, azərbaycançılıq ideyaları çox güclü idi. Bununla mən başqa dövrlərdə yaşayan gənclərin obyektivliyi üzərinə kölgə salmaq istəmirəm. Bununla belə, qeyd etmək istəyirəm ki, biz “şəxsiyyətə pərəstiş” zülmündən az-çox xilas olub Vətən havası udmağa çalışan gənclər idik. Bəlkə də bu, zamanın gərdişindən, tarixi hadisələrin sürətlə bir-birini əvəz etməsindən, SSRİ miqyasında yaşayan xalqların öz milli mentalitetlərini şüurlu surətdə dərk etmələrindən irəli gəlirdi. Hər halda, biz o illəri ən xoş illər kimi xatırlayırıq və bizə dərs deyən müəllimlər arasında Ləzifə xanım Əliyevaya da xüsusi rəğbət bəsləyirdik. Onun bizə səmimi bir qayğı ilə yanaşması, sadə və təbii ünsiyyət göstərməsi sayəsində biz onu anamız qədər sevirdik.

Müəllimin dərs dediyi tələbələrinə valideyn qədər yaxın olması heç də hamıya müyəssər olmur. Böyük anatom-alim Kamil Balakişiyev deyirdi ki, “Müəllim dərs dediyi tələbələri öz övladı qədər sevməlidir.Əgər müəllimdə belə münasibət yoxdursa, o, fənnini tələbəyə sevdirə bilməz və onu mütaliəyə cəlb edə bilməz”. Bu xüsusiyyətlər Ləzifə xanım Əliyevada qabarıq şəkildə nəzərə çarpırdı və əsas da o idi ki, çox təbii görünürdü. Biz onun izahatlarına da diqqətlə qulaq asır, mövzunu tam mənimsəyirdik, asudə vaxtlarda söylədiyi həyati söhbətlərini də məmnuniyyətlə dinləyirdik. Yadımdadır ki, Ləzifə xanım o vaxtlar bizə kafedranın müdiri Ümnisə Musabəyli barədə, Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun böyük elmi işçisi Zərifə xanım Əliyeva haqqında, onların oftalmologiya sahəsindəki elmi-tədqiqat işləri və bu işlərin elmi-praktik dəyəri haqqında maraqlı söhbətlər aparırdı. Zərifə Əliyevanın traxoma əleyhinə apardığı tədqiqatlar haqqında ilk dəfə Ləzifə xanımdan eşitmişdik. Biz sonradan bildik ki, Zərifə xanımla Ləzifə xanım bacıdır və hər ikisi eyni xəstəxanada çalışır: biri Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda, digəri isə ATİ-nin kafedrasında.

Biz dəfələrlə həm həkim, alim personalının, həm də xəstə kontingentinin onlara necə böyük hörmət və məhəbbətlə yanaşmalarının şahidi olmuşduq, daha doğrusu, bunu hər addımda görür və hiss edirdik. Mən tale qismətimiz olan Ləzifə xanımın ruhu qarşısında indi də baş əyirəm ki, o bizdə hələ tələbəlik illərində Zərifə xanımın alim böyüklüyü, vətəndaş aliliyi, həkim şəfqətliliyi haqqında ilk və unudulmaz təəssüratlar yaratmışdı. Təbii ki, Zərifə xanımla şəxsən birbaşa ünsiyyətdə olmasaq da, Ləzifə xanımın köməyi ilə biz tələbələr onun xəstələri necə müayinə etməsini, onlarla qurduğu ünsiyyəti görmüş, duymuş, hiss etmişdik.

Biz, gənc tələbələr həm Zərifə xanım Əliyevaya, həm də qrup müəllimimiz olan Ləzifə xanım Əliyevaya eyni dərəcədə yüksək hörmət və rəğbətlə yanaşırdıq. O vaxtlar biz bu böyük tarixi an fürsətini bəlkə də tam şəkildə dərk edib dəyərləndirə bilmirdik. Ancaq sevinirik ki, biz o anı yaşamışıq, o ünsiyyəti görmüşük, tələbə qəlbimizlə o anı öz bildiyimiz kimi yozmaqda, obyektiv dəyərləndirə bilməkdə yanılmamışıq.

Yadımdadır ki, biz 1966-cı ildə institutu bitirəndə Maqsud Əlizadə ATU-ya tədris işləri üzrə prorektor göndərilmişdi və o, institutun qrup nümayəndələrini, fəallarını yığıb onlarla söhbətlər keçirdi, hər birimizi dinləyəndən sonra buraxılış gecəsində çıxış etmək üçün 2 nəfəri seçdi. Onlardan biri indiki nevrologiya və tibbi genetika kafedrasının professoru Zakir Əliyev, digəri isə mən oldum. Maqsud Əlizadə bizə çıxış etmək

üçün istiqamət verdi. Filarmoniyanın yay salonunda keçirilən buraxılış gecəsində mən Azərbaycan Dövlət Tibb İnstitutunun ağsaçlı loğmanlarından, qayğıkeş müəllimlərdən danışaraq onlara tələbələrimiz adından təşəkkür və minnətdarlığımızı yetirdim. O şəxsiyyətlər sırasında Zərifə xanım Əliyeva və Ləzifə xanım Əliyevanın da adlarını hörmətlə qeyd etdim. Mən heç bir mübaliğəyə yol vermədən səmimi deyirəm ki, o vaxtlar Zərifə xanımla Ləzifə xanım bizim gözümüzdə, bizim tələbə təfəkkürümüzdə ən əlçatmaz zirvəyə çevrilmişdilər.

Bizim buraxılış bayramımızdan 10 il sonra 1976-cı ildə ölkəmizin elm elitasında rəsmi xəbər çatdırıldı ki, Zərifə xanım Əliyeva Moskvada H.Helmqolts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyası müdafiə edib və tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülüb. Həmin dövrdə mən Azərbaycan Dövlət Tibb İnstitutunun insan anatomiyası kafedrasında baş müəllim vəzifəsində çalışırdım. Bu xəbər bizim institutda fərəh hissilə qarşılandı. Həmin dövrdə Tamerlan müəllim ATU-nun terapiya kafedrasında çalışırdı. Bu xoş xəbərə ən çox sevinənlərdən biri də ATİ-nin rektoru Zəhra xanım Quliyeva oldu. Professor Zəhra Quliyeva ixtisasca oftalmoloq idi və Zərifə xanımı yaxından tanıyırdı. O, Zərifə xanımla olduqca mehriban, səmimi münasibətdə idi. Bunu Zəhra xanımın hər bir çıxışından da aydın sezmək, hiss etmək olurdu. Onun Zərifə xanıma olan bu münasibəti ATU-nun professor-müəllim heyətinin də qanına-canına hopmuşdu. Ümumiyyətlə, sonralar Azərbaycan Tibb Universitetində akademik Zərifə Əliyevanın xatirəsinə həsr olunmuş bütün anım tədbirlərində professor Zəhra Quliyeva çox böyük həvəslə onun haqqında canlı xatirələrini danışar, ürək sözlərini söyləyərdi. Professor Z.T.Quliyeva deyirdi ki, "mənim bəxtimə uzun illər Zərifə xanımla dostluq etmək, onun həssaslığını, qayğıkeşliyini, insansevərliyini, səxavətli xeyirxahlığını, təkrarolunmaz dərəcədə parlaq ruhunu bütün əzəməti ilə hiss etmək səadəti nəsib olub".

1977-ci ildə Azərbaycan Tibb Universitetində görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 80 illik yubileyi keçirilirdi, maraqlı çıxışlar oldu, xatirələr söylənildi. Bu tədbirdə Zərifə xanım Əliyevanın tədbirin təşkilatçılarına, iştirakçılara minnətdarlıq çıxışı maraqla dinlənildi. Bu çıxış o vaxt onu dinləyənlərin yaddaşında həmişəlik qaldı.

Azərbaycan aliminin apardığı tədqiqat işlərinin mövzuları üzrə və digər mövzularda qələmə aldığı çoxsaylı elmi əsərlər, monoqrafiya və kitablar hazırda da oftalmoloq həkimlər, tələbələr tərəfindən geniş istifadə olunur. Bu da o deməkdir ki, bu kitablar bütün dövrlər üçün yazılmış əsərlərdir və öz aktuallığını heç vaxt itirmir.

1977-ci il Zərifə xanımın həyatında daha bir mühüm tarixi hadisənin əbədiləşdirməsi ilə yadda qaldı. Həmin ildə akademik Z.Ə.Əliyevanın təşkilatçılığı ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Rusiyadan, digər ölkələrdən gəlmiş görkəmli oftalmoloqlar bu tədbirin yüksək səviyyədə təşkilinə görə akademik Zərifə Əliyevaya öz təşəkkür və minnətdarlıqlarını bildirdilər. Həmin tədbirdə Zərifə xanımın peşə xəstəliklərinin diaqnostikası və müalicəsini həyata keçirmək üçün yüksək təchizatlı bir laboratoriyanın yaradılmasına ehtiyac olduğunu bildirdi və plenum bu təklifi bəyənərək, onun təşkilinə yekdilliklə qərar verdi.

Akademik Zərifə xanım Əliyevanın doktorluq dissertasiyası müdafiəsindən sonra Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasında əvvəl professor, sonra isə kafedranın müdiri vəzifələrinə seçilməsi alimin tədris sahəsindəki bacarıqlarının tam şəkildə üzə çıxmasına güclü təkan verdi.

Akademik Z.Ə.Əliyevanın qələmə aldığı əsərlər içərisində həkimlik deontologiyasına həsr etdiyi "Yüksək etimad" kitabı da öz orijinallığı, mövzu genişliyi, fəlsəfi motivləri, tərbiyəvi əhəmiyyəti, etik norma meyarları cəhətdən son dərəcə əhəmiyyətli və lazımlı əsərlərdəndir.

Arzulanan hər şeyi etməyə, hər yeni layihəni həyata keçirməyə bir alim ömrü kifayət etməyə bilər. Lakin alimin xalqın gələcəyi naminə yerinə yetirdiyi xeyirli bir hərəkət, söylədiyi tutarlı bir fikir, yazdığı lazımlı bir kitab da onun tarixdə əbədi yaşamasına bəs edir. Akademik Z.Ə.Əliyevanın gördüyü titanik işlər, yazdığı fundamental əsərlər, hazırladığı çoxsaylı tibb kadrları isə onun əbədiyaşarlığına, ölməzliyinə, dünya durduqca yaşayacağına təminat verir.

Alim haqqında cild-cild əsərlərin, məqalə və xatirələrin yazılması, ona olan el məhəbbətinin tükənməsi də onun ölməzliyə qovuşmasının təsdiqidir.

Yadımdadır ki, 1981-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daha bir ildırımsürətli xoş xəbər yayıldı. Əslində, bu xoş xəbər bütün Azərbaycana yayılmış və elmi ictimaiyyətə çatdırılmışdı. Xəbərdə bildirilirdi ki, Azərbaycanın görkəmli oftalmoloq-alimi Zərifə Əziz qızı Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafata layiq görülüb. Bu, o demək idi ki, Z.Ə.Əliyeva keçmiş SSRİ miqyasında belə mötəbər təltifə layiq görülən ilk qadın-oftalmoloq olmuşdu. Vətənə başucalığı gətirən, elmimizi yüksəklərə qaldıran belə şərəfli təltifə kim biganə qala bilərdi? Kim buna sevinməzdi? Ona görə də qəlbən daim xeyirxah olan, öz övladlarının, oğul və qızlarının hər bir uğurunu sevinclə qarşılayan Azərbaycan xalqı bu dəfə də öz ənənəsinə sadiq qaldı. Zərifə xanım Əliyeva bu təltifi də onun timsalında Azərbaycan oftalmologiya elminə verilən ən böyük mükafat kimi qəbul etdi. Bu beynəlxalq əhəmiyyətli mükafat görkəmli alim Z.Ə.Əliyevaya peşə xəstəliklərinin müayinəsi, diaqnostikası, müalicə və profilaktikası istiqamətində apardığı mükəmməl silsilə elmi-tədqiqat işlərinə görə verilmişdi.

Zərifə xanım böyük alim, təcrübəli pedaqoq, qayğıkeş həkim olmaqla yanaşı, sədaqətli həyat yoldaşı, mehriban və əvəzsiz ana idi. Tale elə gətirdi ki, o, xalqımızın ümumilli lideri, müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu Heydər Əliyevlə ailə qurdu və ömrünün sonunadək bu böyük şəxsiyyətin gördüyü bütün işlərdə onun yardımçısı oldu.

Zərifə xanım cəmiyyət üçün layiqli övlad böyüdüb tərbiyə etməyi qarşısına məqsəd qoyaraq, bu çətin missiyanı şərəflə yerinə yetirən fədakar ana idi.

Alimin yubiley tarixləri, anım günləri ölkəmizin hər yerində olduğu kimi, təhsil aldığı Azərbaycan Tibb Universitetində, uzun illər fəaliyyət göstərdiyi və hazırda onun adını daşıyan "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Z.Ə.Əliyeva adına Milli Oftalmologiya Mərkəzində", eləcə də Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda təntənəli surətdə qeyd edilir, alimin anım günlərində elmi-praktik konfranslar keçirilir, xatirəsi ehtiramla yad edilir.

Mənim çalışdığım Azərbaycan Tibb Universitetinin inzibati binasında, əsaslı kitabxananın yerləşdiyi binada, klinika və kafedralarında akademik Zərifə Əliyevanın xatirəsinə həsr olunmuş guşələr, foto-stendlər təşkil edilmişdir.

Azərbaycan Tibb Universitetində akademik Zərifə Əliyevanın xatirəsinə həsr olunmuş anım tədbirlərində ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov hər dəfə geniş nitq söyləyir, professor-müəllim heyətinə, tələbə-gənclərə alimin həyat və yaradıcılığı haqqında dolğun məlumatlar verir, onun vətənpərvərliyini, Zərifə Əliyeva irsinin gənclərə və gələcək nəsillərə örnək olmasını diqqətə çatdırır. Əhliman müəllim mətbuatda – jurnal və qəzet səhifələrində alimin xatirəsinə həsr olunmuş yazılar dərc etdirir, akademik Zərifə Əliyevanı "Azərbaycan Tibb Universitetinin dünya şöhrətli məzunu" adlandırmaqla gənclərə kimdən nümunə götürməyin yollarını göstərir.

Akademik Zərifə Əliyevanın şərəfli həkimlik yolu onun doğmaları tərəfindən hazırda da inamla davam etdirilir. Onların sayı, təbii ki, çoxdur. Mən onlardan yalnız iki gənc alimin adını çəkmək istəyirəm, çünki onlara bir vaxtlar anatomiya fənnindən dərs demişəm, yaxından tanıyıram və potensial istedadlarına bələdəm. Bu gənclərin hər ikisi yüksək erudisiyaya və mədəni səviyyəyə, geniş dünyagörüşünə və dərin zəkaya malik təvazökar gənclərdir. Onlardan biri Zərifə xanımın kiçik qardaşının oğlu, tibb elmləri doktoru, professor Əziz Əliyev (o, həm də babasının adını daşıyır), digəri isə böyük qardaşının nəvəsi, Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Nadir Zeynalovdur. Onlar öz istedadları və zəhmətsevərlikləri hesabına uğurlar qazanan, müasir ideyalı, obyektiv baxışlı, qürurlu gənclərdir.

İnanıram ki, həm onların, həm də bütün Azərbaycan gənclərinin yollarına işıq saçan görkəmli ictimai xadim, akademik Zərifə Əziz qızı Əliyevanın irsindən indiki və gələcək nəsillər hər zaman lazımınca bəhrələnəcək, elmin yeni zirvələrini inamla fəth edəcəklər.

**Xalq qəzeti.**-2015.-28 aprel.-№ 89.-S.4.

**Əbədiyyətə qovuşan ömür**

**Hüseynbala MİRƏLƏMOV,**
Milli Məclisin deputatı, yazıçı-dramaturq

**“Lider formulu” proqramının müəllifi, məşhur həmyerlimiz Mixail Qusman Heydər Əliyevlə bağlı film üzərində işləyərkən rastlaşdığı maraqlı bir detalı misal çəkmişdi: “Əliyevlərin evində “Nuh əyyamından qalmış” sovet kamerası ilə çəkilmiş arxiv kadrları tapdım. Həmin kadrlarda Heydər Əliyevin həyat yoldaşı – fantastik dərəcədə xeyirxah, çox ağıllı və çox nəcib qadın, böyük alim, akademik, təbabət professoru Zərifə Əziz qızı piano arxasında əyləşmişdi. Heydər Əliyev özü isə oxuyurdu. Bu, insanın qəlbini riqqətə gətirən, çox səmimi səhnə idi. Heydər Əliyevin necə cazibəli insan olması hətta bu köhnə kadrlarda da aşkar görünür”.**

**Heydər Əliyevin bu cazibəsi, bu əzmi heç şübhəsiz ki, Zərifə xanımın sevgisindən, vəfasından, ona verdiyi dəyərdən, dəstəkdən güc alırdı.**

**Onlar ilk dəfə görüşəndə Zərifə xanım Əliyevanın 25 yaşı vardı… Bu görüşün müəyyənləşdirdiyi birgəlik taleyi Zərifə xanıma doğulandan bəri daşıdığı Əliyev soyadını dəyişməyə lüzum yaratmayacaqdı. Həyatın qazandırdığı statuslarsa dəyişməli olacaqdı…**

O, ömrünün davamını, tanınmış oftalmoloq-alim, xüsusi xidmət orqanı generalının ömür-gün yoldaşı, ölkənin birinci xanımı, Azərbaycanın gələcək prezidentinin anası kimi yaşayacaqdı…

Zərifə xanımın atası Əziz Məmmədkərim oğlu Əliyev zəmanəsinin ən nüfuzlu şəxsiyyətlərindən olmaqla həm də çətin və şərəfli bir ömür yaşamışdı. İllər sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu ömrü qısa şəkildə belə xarakterizə edəcəkdi: “Əziz Əliyev qeyri-adi insan idi. İrəvanda rus gimnaziyasında təhsil almaq və oranı qızıl medalla bitirmək, gənc ikən kömək üçün milyonçu Hacı Zeynalabdin Tağıyevə müraciət etmək, ondan bu köməyi almaq və bütün dünyada məşhur olan Hərbi Tibb Akademiyasında ali tibb təhsili almaq üçün Peterburqa getmək – gənclik illərində bunu heç də hər kəs bacarmazdı. Heç də hər kəs bu qədər məqsədyönlü ola bilməzdi. Başqa sözlə, bu qeyri-adi istedadı ilahidən gələn insan özünün məqsədyönlülüyü, fədakarlığı, zəhmətsevərliyi, biliklərə can atması sayəsində çox şey qazanmış, hərtərəfli insani keyfiyyətlər əldə etmişdir. O, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda, onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü”.

Gənc yaşlarından ona mühüm dövlət vəzifələrini etibar etmişdilər: Kliniki İnstitutun direktoru, Tibb İnstitutunun rektoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, xalq səhiyyə komissarının müavini, səhiyyə komissarı, Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan K(b)P MK-nın katibi, İranda sovet kontingentinin siyasi rəhbəri, K(b)P Dağıstan Vilayət Komitəsinin birinci katibi, Dağıstan Müdafiə Komitəsinin sədri və ən nəhayət, Azərbaycan Nazirlər Soveti sədrinin birinci müavini…

Artıq Əziz Əliyevin adı ÜİK(b)P Azərbaycan Komitəsinin birinci katibi və hökumət başçısı vəzifəsini əvəz edəcək kadrların siyahısına qeyd olunurdu. Əziz Əliyevin müvəffəqiyyətlə yüksəldiyini çoxdan bəri qısqanclıqla müşahidə edən və onun şəxsində öz rəqibini görən, artan nüfuzuna qərəzli münasibət bəsləyən M.C.Bağırov nəyin bahasına olur-olsun onu siyasət meydanından uzaqlaşdırmaq qərarına gəlir. Respublika Kommunist Partiyası MK-nın 12 iyun 1951-ci il tarixli qərarı ilə M.C.Bağırov ilk zərbəni vurur: Əziz Əliyevə şiddətli töhmət elan edilir. İyunun 24-də isə Ə.Əliyev Nazirlər Soveti sədrinin müavini vəzifəsindən azad edilir. Əziz Əliyevi əvvəlcə Ortopediya və Bərpaedici Cərrahiyyə İnstitutuna direktor təyin edirlər. Ancaq təqib zəncirinin halqaları bununla qurtarmır. Tezliklə onu elmi-tədqiqat institutunun direktorluğundan azad edib Sabunçu xəstəxanasına köçürürlər.

Ola bilər M.Bağırov bununla rəqibini hörmətdən saldığını düşünürdü. Amma yəqin ki, ancaq vəzifəpərəst, mənsəb əsiri olanlar belə bir təzyiq metodundan əzilib sına bilərdilər. Əziz Əliyevçünsə ən böyük cəza, ona işləməyi, fəaliyyət göstərməyi qadağan etmək olardı ki, bu da mümkünsüz idi. O, hər gün sadə zəhmət adamları ilə birgə elektrik qatarına minib bu fəhlə qəsəbəsinə yollanır, xəstələrlə görüşən kimi bir anda “birincinin” düşmən münasibəti də, köhnə tanışların qorxaqlığı – onu görəndə tələsik üzlərini yana çevirmələri də unudulub gedirdi.

Əziz Əliyev ideal ailə başçısı idi. Onun həyat yoldaşı Leyla xanım xeyirxahlıq və incəlik təcəssümü sayıla bilərdi. Bu mehriban ailədə iki oğlan – Tamerlan və Cəmil, dörd qız – Ləzifə, Zərifə, Dilbər və Gülarə ata məhəbbəti, ana nəvazişi ilə böyüyürdü. Uşaqlardan dördü atalarının yolu ilə gedib həkim oldu. Dilbər rabitəçi-mühəndis peşəsini seçdi, ən kiçiyi Gülarə isə istedadlı pianoçu kimi tanındı. Zərifə Əliyeva bütün yüksək keyfiyyətlərini – yaxşılıq etməyi, səxavəti, alicənablığı böyüdüyü ailədən əxz etmişdi. Bunlar hamısı o ailəyə məxsus keyfiyyətlər idi: ziyalılıq, əməksevərlik, səmimilik, doğma ocağa, xalqa və vətənə məhəbbət, bəşəri dəyərlərə bağlılıq… Bu xüsusiyyətlər onun həyatında öz layiqli əksini tapmışdı.

***

Onlar 1948-ci ildə rastlaşmışdılar…

Elə həmin vaxt gənc qəlblərdə zaman ötdükcə əfsanəvi məhəbbətə çevrilən qarşılıqlı rəğbət alovlanmağa başlanmışdı…

Bayırda isə zamanın sərt rüzgarları əsirdi. O illər idi ki, Əziz Əliyevə qarşı repressiya getdikcə güclənir və repressiya maşını onun ailə üzvlərindən də yan keçmirdi.

Bu dalğa görkəmli ictimai-siyasi xadimin qızı Zərifə xanımla ailə həyatı qurmağa hazırlaşan DTK zabiti Heydər Əliyevə də gəlib çatırdı. İş yerində Heydər Əliyevin yuxarıların qəzəbinə tuş gəlmiş məmurun qızıyla görüşdüyündən, şübhəsiz ki, xəbərdar idilər.

Çalışdığı dövlət qurumunun səlahiyyət sahibləri onu çağırıb psixoloji təsir göstərməyə, ölkə rəhbərliyinin düşmən münasibət bəslədiyi şəxsin övladı ilə izdivac fikrindən daşındırmağa çalışırdılar.

Heydər Əliyev xatırlayırdı:

– Zərifə xanımla görüşdüm. O dedi ki, biz daha görüşə bilmərik. Soruşdum: “Niyə?” Dedi: “Bilirsən ki, atamı işdən çıxarıblar. Sən isə orqanda işləyirsən, mənə görə zərər çəkə bilərsən. Düşünürəm ki, əlaqəmiz kəsilməlidir”. Mən etiraz elədim: bizim münasibətlərimiz kimin harada işlədiyindən asılı ola bilməz. Bu münasibətlər nə sənin atandan, nə mənim işimdən asılı deyil… Aramızda səmimi ülfət yaranmışdı. O, məni çox sevirdi, mən də onu. Ona görə dedim: sən narahat olma. Cavab verdi ki, özünə görə narahat deyil, onsuz da atası artıq işdən çıxarılıb. “Mən sənə görə nigaranam. Elə ola bilər ki, bu sənin işinə təsir göstərsin”.

Heydər Əliyev bu vəziyyət haqqında Zərifə xanımdan daha çox xəbərdar idi. Əziz Əliyevi izləyirdilər, telefonlarına gecə-gündüz qulaq asırdılar. Aydındır ki, Heydər Əliyevin zəngləri, Zərifə ilə söhbətləri də qeydə alınırdı. Odur ki, respublika təhlükəsizlik naziri Yemelyanovun hüzuruna çağırış gənc Heydər üçün gözlənilməz olmadı.

– Biz bir qədər iş haqqında danışdıq.

Sonra isə o məndən soruşdu: “Sən filan qızla görüşürsənmi?” “Bəli”, – dedim. “Bəs bilmirsənmi, onun atası Əziz Əliyev tutduğu vəzifədən azad edilib?” “Bilirəm”. “Yoldaş Bağırov onun haqqında çox pis fikirdədir”. “Mənim bu barədə məlumatım yoxdur”. – “Sən gənc və bacarıqlı əməkdaşsan. Leninqradda gözəl təhsil almısan, gələcəyin var. Gərək Əziz Əliyevin ailəsi ilə münasibətlərə son verəsən, yoxsa biz səni işdən azad etməyə məcbur olacağıq”.

Rəis karyerasına mane ola bilər deyə, gənc zabitə Zərifə Əliyeva ilə ünsiyyəti kəsmək məsləhət görüldü. Dövlət təhlükəsizlik orqanlarından çıxarılmaq birdəfəlik “kitabın bağlandı” demək idi.

“Amma yenə də mən öz fikrimdə qaldım və Zərifə ilə münasibətimi üzmədim” – əslində, Heydər Əliyevdən başqa bir qərar da gözləmək olmazdı.

Bu söhbətin ab-havası Heydər Əliyev üçün çıxış yolu qoymurdu, o, artıq anlayırdı ki, “birinci” öz rəqibinə qəti şəkildə divan tutmağa hazırlaşır. Amma, nə baş verirsə, versin, Zərifəsiz həyatı təsəvvür edə bilmirdi. Və artıq onun qəlbində bu məsələ ilə bağlı zərrə qədər də olsun tərəddüd yox idi.

Sonralar Heydər Əliyev o illərdəki düşüncələrini etiraf kimi dilə gətirəcəkdi: “Bilirsiniz, necə fikiləşirdim. Mən DTK-da işləyirdim, bilirdim ki, onun atasının ətrafında nələr baş verir, onu necə izləyirlər. Mən bilirdim, eşitmişdim ki, onların ailəsini Qazaxıstana sürgün etmək istəyirlər. Mən fikirləşirdim ki, əgər onları sürgün etsələr, mən də Zərifənin ardınca Qazaxıstana gedəcəyəm. Orada iş tapmaq bəlkə burdan daha asan oldu”.

Amma ulduzların düzülüşü sevən qəlblərin tərəfində idi…

1953-cü ilin martında tarixin növbəti səhifəsi çevrildi. Moskvada, bağ evində Sovet İttifaqını və dünyanın yarısını idarə edən bir insan – İosif Stalin vəfat etdi. Dörd aydan sonra Beriyanı, ardınca da onun respublikalardakı əsabələrini tutub mühakimə etdilər…

Daha Heydər Əliyevlə Zərifə xanımın gizli görüşmələrinə də ehtiyac qalmadı.

– Görüşlərimiz leqallaşdı, – Heydər Əliyev kövrəkliklə xatırladacaqdı – İkimiz də xoşbəxt idik. İndi bütün bunları bilərək, deyin görüm, məhəbbətimin köklərinin nə qədər dərin olduğunu sübut etməyə dəyərmi? Bizim sevgimiz, məhəbbətimiz çətin sınaqlardan keçdi. Bizi ayırmaq istəyirdilər, amma biz dönmədik. O da dönmədi, mən də… Mənim səmimi məhəbbətin gücünə inamım təsdiqləndi. Və bundan sonra biz otuz il xoşbəxt yaşadıq.

Onların toyları da qəribə və qəribəliyi qədər də yaddaqalan olmuşdu. 1999-cu ildə Biləsuvarda məskunlaşmış dörd məcburi köçkün gəncin toyunda iştirakı zamanı ömrün o xəfif xatirəsi Heydər Əliyevin dilində belə səhifələndi:

– 1954-cü ildə mən evləndim. Ancaq nə təhər evləndim? Biz Bakıda şəhəri gəzirdik. O vaxt Voroşilov küçəsi var idi, indi həmin küçə Yusif Məmmədəliyevin adını daşıyır. Gəlib gördük ki, orada bir ZAQS şöbəsi var. Biz həmin ZAQS-a getdik. Nə şahid, nə də başqa iştirakçı var idi. Heç kəs yox idi. ZAQS-da bir qadın oturmuşdu, ona dedik ki, biz kəbin kəsdirmək istəyirik. Bildirdi ki, yaxşı, gəlin oturun. Heç üzük də yox idi. Biz oturduq. Buradakı kimi belə təntənəli nitqlər olmadı. Həmin qadın bizdən soruşdu ki, ailə qurmağa razısınız? Dedik ki, bəli. Bildirdi ki, buraya imza atın, biz də imza atdıq. Bizim kəbin kağızımızı verdilər. Soruşdum ki, nə edək? O

vaxt "Nizami" kinoteatrının yanında mağazaya getdik, bir kiloqram "Mişka" konfeti aldım. Sonra oradan piyada dəniz kənarına gəldik. Zərifə xanımın ailəsi orada yaşayırdı. Biz onların evinə gəldik, Zərifə xanımın anasına və qohumlarına dedik ki, artıq kəbin kəsdirmişik. Bildirdim ki, bir kiloqram "Mişka" konfeti gətirmişəm ki, ağzımızı şirin edək…

***

İstəkli oğlunun Zərifə xanım kimi bir qızı sevib-seçməsi Heydər Əliyevin anası İzzət xanımı da dünyanın xoşbəxti etmişdi. Ananın müqəddəs arzuları göyərmişdi.

Zərifə xanım da qayınanasını çox sevir, xətrini əziz tutur, bir övladı kimi qayğısına qalır, qulluq edirdi. O, təkcə sadiq, sevən həyat yoldaşı yox, həm də diqqətcil gəlin idi. Dərs, elmi fəaliyyət, tibbi xidmət – bunlar heç biri İzzət xanımın, həyat yoldaşının qayğısına qalmağa mane ola bilməzdi. Zərifə xanım həmişə deyirdi ki, qadın ər evində hər şeydən əvvəl gəlindir və buna görə də onun əsas vəzifələrindən biri evdəki "ab-hava"dır. İzzət xanım da öz növbəsində gəlinini çox sevir, ona ana qayğısı göstərirdi. Zərifə xanım haqqında söhbət düşən kimi deyərdi: "Allah kaş hamıya belə gəlin qismət eləsin".

…İzzət xanıma o, doğma anası kimi baxırdı. 1956-cı ilin yazında Heydər Əliyevin anası ağır diaqnozla xəstəxanada yatanda onun şəfa tapması üçün əlindən gələni edirdi. Qonşu palatada Səməd Vurğun yatırdı. Heydər, Zərifə və onun qardaşı Tamerlan anaya hər gün baş çəkirdilər.

Mərhum akademik Püstəxanım Əzizbəyova belə bir epizod xatırlayır: "Zərifənin bacısı qızı Svetlananın toyu bu gün də yadımdadır… Biz Zərifə ilə məqam tapıb güzgülü qalereyaya, xəlvətə çəkildik. O özü də təzə ərə getmişdi və biz doyunca söhbət edə bilməmişdik. Zərifəyə birinci sualım bu oldu: "Necədi, xoşbəxtsənmi?" O, sevinclə etiraf etdi: "Bəli, xoşbəxtəm, sevgim qarşılıqlıdır". Həyat yoldaşının gözəl xasiyyəti barədə mənə danışdı. Ən maraqlısı budur ki, bu söhbətin üstündən uzun illər keçdikdən sonra da o, həyat yoldaşından və ailəsindən həmin razılıq və sevinc hissi ilə danışırdı…"

***

Tələbəliklə vidalaşıb özünün ilk elmi-tədqiqat mövzusunu müəyyənləşdirərkən Zərifə xanım respublika səhiyyəsi üçün böyük əhəmiyyət kəsb edən sahəni seçmişdi. Onun namizədlik dissertasiyasının mövzusu ictimai nöqteyi-nəzərdən oftalmologiyanın aktual probleminə – traxoma ilə mübarizəyə aid idi.

Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar qazanır.

Zərifə xanım tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, bir az da dəqiq desək, traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən – sintomisindən istifadə olunmasına həsr edir. Bu dövrdə Zərifə xanım yalnız çalışdığı institutda fəaliyyət göstərməklə kifayətlənmirdi, o, respublikanın şəhər və rayonlarını bir-bir gəzərək, xəstəliyin yaranma səbəblərini araşdırır və xəstəlik ocaqlarında kompleks şəkildə müalicə-profilaktik tədbirləri həyata keçirirdi. Böyük alim uşaq evlərində tərbiyə alan kimsəsiz uşaqlar arasında yayılan traxoma xəstəliyinin qarşısının alınması üçün xüsusilə böyük səy göstərirdi. Uğurlu tədqiqatların nəticələri Z.Əliyevanın 1960-cı ildə müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil etmişdi. Bu sahə üzrə ixtisaslaşaraq, elmlər namizədi dərəcəsinə yüksələn Zərifə xanımın təklif etdiyi müalicə metodu tezliklə bütün respublikada tətbiq edilir və ölkə əhalisi bu xəstəlikdən xilas olur. Buna görə də Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə xanımın adı ilə bağlıdır.

Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işləri yekunlaşdırdıqdan sonra Zərifə xanım oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqatlar aparmağa başlayır. O, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı bir sıra tədqiqat işləri aparır.

1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır, 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona "Oftalmologiya" ixtisası üzrə böyük elmi işçi adı verir.

1967-ci ildə Z.Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunur. Bu institut ömrünün son illərində həmin kollektivə rəhbərlik etmiş mərhum professor Əziz Məmmədkərim oğlu Əliyevin – Zərifə xanımın atasının adını daşıyırdı.

Həmin dövrdə Zərifə Əziz qızı həkimlik fəaliyyəti ilə məşğul olur: bir çox cərrahiyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verir, üstəlik onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edir. Bununla yanaşı o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparır.

Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə çox ciddi məşğul olmasına baxmayaraq, Z.Əliyeva elmi-tədqiqat işlərinin davam etdirilməsinə də böyük əhəmiyyət verir. Həmin dövrdə o, oftalmologiyanın bir sıra aktual məsələlərinə diqqət yetirir.

1968-ci ildən başlayaraq Z.Ə.Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayır. Zərifə xanım bu problem üzərində iş apararkən çox vaxt bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Bununla yanaşı, Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparmışdır. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

1977-ci ildə Zərifə Əliyeva Moskvada Gelmqolts adına Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda "Azərbaycan kimya sənayesinin bəzi müəssisə işçilərinin görmə orqanlarının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etdi. Rusiya Tibbi Elmlər Akademiyasının akademiki, Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru Mixail Krasnov bu mövzunun əhəmiyyətindən söhbət açarkən deyirdi:

– Elmimizin Zərifə Əziz qızını ən çox cəlb edən bu sahəsində vəziyyət hətta bir qədər paradoksal şəkil alırdı. İnsanı əmək yaratmışdır, lakin onun şüurlu ömrünün üçdə bir hissəsini keçirdiyi istehsalatda xüsusi yaşam şəraiti də əmələ gəlmişdi. Sanki bütün bunlar aksiomadır, o cümlədən göz və görmə məsələsində də. Tam dəyərli əmək üçün görmə qabiliyyəti nəinki vacibdir, hətta müasir cəmiyyətdə buna tələbat ildən-ilə artır. Bununla əlaqədar indiyə kimi bu mövzuda ümumiləşdirilmiş elmi əsərlər yoxdur. Zərifə Əziz qızının sosial duyumuna malik olmaq gərəkmiş ki, olduqca zəhmətli, mürəkkəb, nəcib, lakin daima şükranlıq gətirməyən qayənin xidmətinə öz istedadını həsr edəsən. Zərifə Əziz qızının səyləriylə ilk dəfə professional görmə patologiyası üzrə elmi-tədqiqat laboratoriyası yaradılmışdır.

Zərifə xanımı tanıyanların hamısı onu xoş sözlərlə yad edirlər. Aleksandr Sergeyeviç Dzasoxov söyləyir: "Mən onu Əliyevlər ailəsinin Bakıda – Zuğulbada qonağı olarkən görmüşdüm. Zərifə xanım nadir xeyirxahlığı ilə fərqlənirdi. O, tibb elmləri doktoru elmi adına tam uyğun gəlirdi. Onlar xoşbəxt ailə sahibi idilər. Əfsus ki, Heydər Əliyev 1985-ci ilin aprelində Moskvada ömür yoldaşını itirdi. Onun bu faciədən necə sarsıldığının şahidi olmuşam. Əminliklə deyə bilərəm ki, Zərifə xanım Əliyevlər ailəsinin yetişməsində, gözəl övladların – şərqşünas-alim Sevilin, bu gün Heydər Əliyevin işini davam etdirərək müstəqil Azərbaycana başçılıq edən İlhamın tərbiyəsində mühüm rol oynamışdır".

***

Zərifə xanım məşhur həkim-oftalmoloq, tibb elmləri doktoru, akademik, Azərbaycanın əməkdar elm xadimi, parlaq alim və eyni zamanda həssas, qayğıkeş pedaqoq, müdrik təşkilatçı idi. Xeyirxahlıq, insanpərvərlik, ziyalılıq Zərifə xanımı əfsanələşdirmişdir. Alim kimi o, fundamental əsərlər qoyub getmişdir. Onun irsi, elmi nailiyyətləri, pedaqoji təcrübəsi daim tədqiqat obyekti olmuşdur.

Görünür, Zərifə Əliyeva şəxsiyyətinin gücü məhz onun insanların qayğı və iztirablarına, niyyət və arzularına fədakarcasına xidmətində idi. Onun 1983-cü ildə nəşr olunmuş "Həkimlərin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" adlı kitabı yalnız tibb işçilərinin stolüstü kitabı olmadı, onu həm də insan münasibətlərinin, cəmiyyət əxlaqının nizamnaməsi saymaq olar.

Zərifə Əliyeva müasir dünyada həkim etikasının məsələləri və prinsipləri mövzulu "Yüksək əqidə" adlı əsərində məxsusi olaraq özünün insan kredosu ilə bütövlük təşkil edən sənətinin əsl mahiyyətini belə açır: "Vicdan bizim əsas hakimimizdir. Çətin dəqiqələrdə də, xoşbəxt saatlarda da onunla baş-başa qalanda o soruşur: Ağ xalat geyməyə haqqın varmı? Sənin əllərin xəstəlikdən əziyyət çəkənə yalnız biliyini deyil, həm də qəlbinin həyəcanını, ürəyinin yanğısını çatdıra bildimi? Düzünü desək, vicdanın şəxsi mühakiməsindən şərəflə keçmək böyük xoşbəxtlikdir. Yaxşı həkim həmişə xəstə ilə birlikdə həyəcan keçirir, pasiyentin ağrısı elə həkimin şəxsi ağrısıdır. Əgər sağlamlığını itirən şəxs yenidən ona malik olursa, deməк, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır".

Zərifə xanım bu prinsipi təkcə qələmə almaqla kifayətlənmirdi, həkim olaraq öz şəxsi nümunəsi ilə də bunu nümayiş etdirirdi, başqaları üçün örnək yaradırdı. Seçdiyi elm sahəsindəki nailiyyətləri Zərifə xanımı ruhlandırırdı, kiçik uğursuzluqlar isə onu mütəəssir etmirdi, təslim olmur, problemi daha da inadla öyrənirdi. Öz təbiətinin misilsiz xüsusiyyətləri sayəsində o, böyük tədqiqat potensialına yiyələnmişdi və buna görə də nəzəri problemlər üzərində işləməyə həvəslə başlayır, bununla belə, nəzəri nəticələri təcrübəyə tətbiq etməyə, tibbi biliklərin praktikada işlədilməsinə çoxlu vaxt və əmək sərf edirdi. Onda yüksək peşəkarlıq və biliklərin vüsəti rəftar, insanpərvərlik və xeyirxahlıq mədəniyyəti ilə üzvi şəkildə birləşmişdi. Bütün çətinliklərə rəğmən, həkimlik onun üçün sadəcə iş deyil, həm də fasiləsiz ilham mənbəyi idi. O, təkcə öz varlığıyla belə həmkarları və pasiyentləri arasında xüsusi inam və xeyirxahlıq atmosferi yaradırdı.

Bununla belə, heç vaxt seçilməyə çalışmırdı, özünü camaata göstərməyə can atmırdı, çətin və şərəfli ömür yolunun hər bir məqamında ciddiyyətini, səmimiyyətini, təvazökarlığını ən qiymətli zinət kimi qoruyub saxlayırdı.

Deyirlər, göz qəlbin aynasıdır. Zərifə Əliyevanın oftalmoloq peşəsini seçməsi də, yəqin ki, gözün insan həyatındakı rolunu dərk etməkdən, bizi əhatə edən dünyanın bitib-tükənməyən rəngarəngliyini qavramaqda və insanın heç də az zəngin olmayan daxili dünyasını əks etdirməkdə gözün əvəzsiz bir nemət olduğunu anlamaqdan irəli gəlirdi.

Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri, əməkdar elm xadimi N.Şulpina həmkarı Zərifə Əliyevaya məqalə və həyəcanlı şeirlər həsr etmişdir. O yazır ki, Zərifə Əliyeva çox gözəl nitq mədəniyyətinə malik idi. Onun Azərbaycan və rus dillərində danışığı, elmi tribunalardan səslənən çıxışları, nitqləri öz dəqiqliyi və aydınlığı ilə bütün həmkarlarının diqqətini özünə cəlb edirdi. O, bir qayda olaraq, mətnə baxmadan, möhkəm yaddaşına bel bağlayaraq, mövzunu diqqətlə hazırlanmış rəngli slaydlarla və cədvəllərlə izah edərək çıxış edirdi.

***

Kənardan onu müşahidə edən heç kimsə, Zərifə Əliyevanın ölkənin birinci xanımı olduğunu güman edə bilməzdi. Zərifə xanım heç zaman Heydər Əliyev şəxsiyyətinin arxasında daldalanmamışdı. Zərifə xanım xarakterinin gücü, səyi, zəhmətli əməyi, ağlı, iradəsi və xeyirxahlığı sayəsində özünə canlı abidə ucaltmışdı.

Zərifə xanım Əliyeva xəstə qarşısında şəfası, şəfqəti ilə nur saçan həkim, kolleqaları arasında mehriban, kömək əli uzatmağa hər an hazır olan həmkar, cəmiyyətdə Azərbaycan qadını adının dəyərini, qadın fəallığı ənənələrinin ən gözəl xüsusiyyətlərini təmsil edən ziyalı Azərbaycan xanımı, evdə, ailədə isə doğmalarından sevgisini bir an belə əsirgəməyən qayğıkeş ana idi.

Sonralar Prezident İlham Əliyev xatırlayacaqdı: “Anam vəfat edəndə mənim böyük qızımın hələ heç bir yaşı da tamam olmamışdı. Qızlarımın öz nənələrini görməmələrini böyük itki hesab edirəm. Anamın vəfatından sonra mənim, eyni zamanda bizim ailənin həyatı çox dəyişdi. Mən daha onun sağlığındakı kimi gülə bilmirəm. İllər keçsə də, həyatımda hansısa sevindirici hadisə baş verirsə, mən təəssüflənirəm ki, anam bunu görmədi, o indi sağ olsaydı, çox sevinərdi”.

Amma bircə təsəlli var ki, Zərifə xanım hər bir ananın ən çox arzuladığı hadisənin sevincini yaşadı, övladının toyunu görmək ona nəsib oldu. Həmin gün iki nəcib ailə – Heydər Əliyev və Zərifə xanımın ailəsi ilə Arif Paşayev və Aida xanım İmanquliyevanın ailəsi qohum oldu: görkəmli yazıçı Mir Cəlalın, ustad jurnalist Nəsir İmanquliyevin nəvəsi Mehriban xanım Heydər Əliyev ocağına gəlin köçdü.

Ulu öndər söz düşəndə xatırlayırdı: “Ölümünə az qalmış Zərifə uşaqların ailə qurması üçün çox israr edirdi. Elə hey deyirdi: “Tezliklə toylarını görsəydim.” Elə bil tezliklə öləcəyini hiss edibmiş. Gəlinimizi də özü gözaltı edib bəyənmişdi. Vəfatından bir az əvvəl Bakıya gəldi, İlhamın gələcək həyat yoldaşı ilə görüşdü, toyu Moskvada etdik. Biz qızım, oğlum və gəlinimlə birlikdə Moskvanın qırx beş kilometrliyində Siyasi Büronun bizim üçün ayırdığı bağ evində yaşayırdıq”.

Onda İlham Əliyev də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna qəbul olmuşdu. Mehriban xanım isə Moskva 1-ci Tibb İnstitutunda təhsil alırdı. Zərifə xanım öz söhbətləri ilə oftalmologiya ixtisasını ona o qədər sevdirmişdi ki, Mehriban Əliyeva da məhz bu peşəni seçməyə qərar vermişdi.

“Təəssüf ki, mən Zərifə xanımla çox az ünsiyyətdə ola bildim” illər sonra Mehriban Əliyeva xatırlayacaqdı: “1983-cü ildə biz tanış olduq, 1985-ci ildə isə o vəfat etdi. Bu istedadlı və cazibədar qadını mən indi də çox böyük ehtiramla xatırlayıram…”

***

Dahilərdən hansınınsa zamanın qiymətli cəvahir kimi cilalayıb atalar sözünə çevirdiyi bir kəlamı var: “Alim olmaq asandır, insan olmaq çətin”. Əslində bunların hər ikisi çətindir. Sadəcə alimlik insanlıqdan sonra başladığından ona doğru aparan yol daha asan gəlir. Həm gözəl alim, həm də gözəl insan olmaqsa, görünür Tanrı tərəfindən seçilmişlərə qismət olan bir taledir.

Həyat Zərifə xanımı da ömrün bu qoşa anı arasında sınağa çəkdi. Və O, həm insanlığı, həm də alimliyi ilə bir insanın və bir alimin yüksələ biləcəyi ən ali məqama ucaldı.

O məqamın adı əbədiyyətdir…

**Azərbaycan.-**2014.-27 aprel.-№ 86.-S.5.

## İşıqlı xatirələrdə yaşayır

**Böyükkişi AĞAYEV,**
Akademik

**XX əsrin ikinci yarısında tibb elminə böyük töhfələr vermiş görkəmli alimlər sırasında Zərifə xanım Əliyevanın özünəməxsus yeri var. Bütün elmi fəaliyyətini oftalmologiyaya həsr edən yorulmaz alim bu sahədə bir çox yeniliklərə imza atmış, dünya oftalmologiyası məkanında yaxından tanınmışdır. Bilik və təcrübəsi, peşə sevgisi və zəhmətsevərliyi onu akademiklik zirvəsinədək yüksəltmişdir. Təsadüfi deyil ki, alimin tədqiqatlarının nəticələri, elmi irsi bu gün də öz əhəmiyyətini, aktuallığını saxlamaqdadır.**

Zərifə Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasında görkəmli elm və dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Onun ilk uşaqlıq illəri Şərur rayonunun Şahtaxtı kəndində keçmişdi. Sonra Bakıya köçmüşdü.

Əziz Əliyevin həyatının bütün mərhələləri övladları üçün həyat dərsi idi. Ona görə də Zərifə xanım Əliyevanın həyat fəlsəfəsinin ilkin qaynaqlarını birinci növbədə onun uşaqlıq çağlarında axtarmaq lazımdır. Sonralar o deyirdi ki, uşaqlıq çağları hər bir kəsin özünü dərk etməsində həlledici mərhələdir və ömrü boyu müraciət etdiyi uşaqlıq dünyasını heç nə ilə əvəz etmək mümkün deyil. İnsan məhz uşaqlıqda xeyrin və şərin nə olduğunu anlayır.

Zərifə xanımın dünyaya göz açdığı ailə sözsüz ki, qeyri-adi bir ailə idi. Azərbaycanın elm, ədəbiyyat və mədəniyyət xadimlərinin çoxu onun ata evində qonaq olurdular. Bu evdə cəmiyyətin mənəviyyatı ilə bağlı çox söhbətlər aparılır, müzakirələr edilirdi və təbii ki, uşaqlar da bunları eşidirdilər. Beləliklə, atasının Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Əbülfəs Qarayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və s. kimi şəxsiyyətlərlə ailəvi dostluq etdiyi bir mühitdə böyüyən Zərifə xanım özündə azərbaycanlı ziyalısının ən yaxşı nümunəsini təcəssüm etdirirdi.

Zərifə Əliyevanın həkimliyi seçməsi gendən, irsən gələn istək və qərar idi. Bu sənəti ona atası sevdirmişdi – həm də şübhəsiz ki, sözlə, əmrlə deyil, həkimliyə məhəbbəti və sədaqəti, parlaq nümunəsi ilə. Bunlarla bahəm, Zərifə xanımın xarakterindəki alicənablıq, insansevərlik, səmimiyyət hələ uşaqlıq və ilk gənclik dövründə də özünü büruzə vermiş və onu bu humanist peşəyə meyilləndirmişdi. Beləliklə, Zərifə Əliyeva 1942-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur.

Tələbəlik illərində əsaslı biliklərə yiyələnən Zərifə xanımın qəlbində məhz göz həkimi olmaq, dünya işığına həsrət qalan insanlara nur bəxş etmək, görmə qabiliyyəti zəif olanlara, o zaman geniş yayılan bir sıra xəstəliklərdən əziyyət çəkənlərə kömək etmək arzusu olmuşdur. Əslində bu da bir qanunauyğunluq idi, çünki zəriflik, incəlik, həssaslıq tələb edən göz həkimliyi Zərifə xanımın xarakterindəki yüksək keyfiyyətlərlə çox yaxın idi.

1947-ci ildə ali məktəbi əla qiymətlərlə bitirdi. Lakin məqsədinə çatmaq – yaxşı oftalmoloq olmaq üçün təkmilləşdirmə kursu keçməli idi. Oftalmologiya üzrə təkmilləşmə kursu keçmək o zaman Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda mümkün olduğundan Zərifə xanım Moskvaya gedir və 1949-cu ildə kursu bitirərək Bakıya qayıdır və Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır.

Burada gənc həkimin elmi tədqiqatlara olan böyük marağı əməli işlərə çevrilir. Həkim-ordinator kimi işləsə də, gələcək tədqiqatları barədə də ciddi düşünür. 1950-ci ildə aspiranturaya qəbul olunur və aspiranturanı bitirdikdən sonra elə həmin institutda elmi işçi kimi çalışmağa başlayır.

Bu həmin vaxt idi ki, Azərbaycanı traxoma adlı göz xəstəliyi bürümüşdü. Dəhşətlisi həm də o idi ki, bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Bu, təkcə oftalmologiya sahəsi üçün deyil, bütövlükdə respublika səhiyyəsi üçün problemə çevrilmişdi. Məhz həmin dövrdə Zərifə xanım traxomaya qarşı aparılan müalicədə və profilaktik tədbirlərdə fəal iştirak etməyə başlayır. Xəstələri müalicə etməkdən əlavə həm də traxomanın daha çox yayıldığı bölgələrə gedir, oftalmoloq-həkimlərə məruzələr oxuyur, əhali ilə söhbətlət aparırdı.

Beləliklə, Zərifə Əliyevanın elmi araşdırmaları üçün həyat özü mövzu verir. O, tədqiqatlarını traxomanın müalicəsi ilə bağlı məsələlərə, əsasən xəstəliyin müalicəsində və onun ağırlaşdığı hallarda təsirli vasitələrin öyrənilməsinə, o zaman üçün yeni olan antibiotikdən – sintomesindən istifadəyə həsr edir. Burada sintomesinin geniş antibakterial spektrləri ilə yanaşı, onun antixelamatik təsirə malik olması da nəzərə alınmışdır.

Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasında öz əksini tapdı.

Zərifə xanım çox məsuliyyətli həkim idi. Tələsik diaqnoz qoymağı heç sevmirdi. Xəstənin şikayətini diqqətlə dinləyir, onun həyat tərzi, nəticə etibarilə xəstəliyi doğuran səbəbləri dərindən öyrənməyə çalışırdı. O, yalnız hərtərəfli müayinədən sonra müalicə təyin edirdi.

Daha sonra Zərifə xanım oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqatlar aparmağa başlayır. O, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı ardıcıl tədqiqatlarla məşğul olur. Bu tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin mətbuatda dərc olunması klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin genişlənməsinə kömək edir.

1960-1967-ci illərdə Zərifə Əliyeva institutda böyük elmi işçi vəzifəsində çalışır. 1967-ci ildə isə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunur. Qeyd edək ki, Əziz Əliyev ömrünün son illərində bu instituta rəhbərlik etmişdi.

Bu dövrdə Zərifə xanım göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyiciləri olan həkimlərlə iş apararaq pedaqoji fəaliyyət göstərir. O, eyni zamanda həkimliklə də məşğul olur, xəstələri müalicə edir və cərrahiyyə əməliyyatları aparır.

Bütün bunlarla yanaşı, həmin illərdə gənc alimin diqqətini oftalmologiyanın bir sıra aktual problemləri cəlb edir. Bunlar xəstəliklərin diaqnostikası, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi və s. idi. Getdikcə onu daha dərin məsələlər narahat etməyə başlayır. Beləliklə, Zərifə Əliyeva oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının patologiyası ilə məşğul olur. Bu problemin aktuallığı kimya və elektronika sənayesinin geniş inkişafı, eləcə də yeni kimyəvi birləşmələrin görmə orqanına təsiri ilə bağlı idi.

Zərifə xanımın tədqiqatlarının üstün cəhəti fundamental elmlə səhiyyə təcrübəsinin sıx əlaqəsində idi.

Sonrakı dövrdə alim onu ən çox maraqlandıran peşə oftalmologiyası ilə mütəmadi məşğul olur. Bu maraq onu Azərbaycanın iri sənaye müəssisələrində genişmiqyaslı elmi-tədqiqat işləri aparmağa sövq edirdi. O illərdə Zərifə xanım yorulmadan Bakının, Sumqayıtın, Mingəçevirin, Gəncənin bir sıra müəəssisələrinə gedərək elmdə axtardığı sualların cavabını tapmağa çalışırdı. Beləliklə, o, elmdə birinci olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və onların profilaktikası üçün tədbirlər işləyib hazırlamışdır. Əldə etdiyi nəticələr alimin “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yod infeksiyası zamanı oftalmologiya”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” kimi dəyərli monoqrafiyalarda öz əksini tapmışdır.

Bu gün biz cəsarətlə deyə bilərik ki, oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi Zərifə Əliyevanın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi əsaslı tədqiqatlar alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiya məkanında tanıtmışdır.

Zərifə Əliyeva 1976-cı ilin mayında M.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda “Azərbaycan kimya sənayesinin bir sıra müəssisələrində işçilərdə görmə orqanlarının vəziyyəti” mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Mövzunun uğurlu reallaşdırılması, ən yeni nəzəri müddəaların meydana çıxarılması elmi işin tətbiqi xarakteri, yəni insanlara gərəkli olması ona halal doktorluq haqqı qazandırmışdı. Üstəlik də, Zərifə xanım müdafiə zamanı özünün dərin mütəxəssis biliyi, cəsarətli eksperimentatorluq bacarığı, toplanmış zəngin materialların hərtərəfli elmi izahı və bütün bunları yığcam və bitkin şəkildə çatdırmaq qabiliyyəti ilə keşmiş SSRİ-nin tanınmış oftalmoloqları qarşısında bir daha nümayiş etdirmişdi.

Doktorluq dissertasiyası müdafiə etdikdən sonra Zərifə Əliyeva Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilir. Burada Zərifə xanımın təkmilləşdirmə kursu keçən həkimlərə oxuduğu mühazirələr məzmunu ilə fərqlənirdi. Oftalmologiyadakı yeniliklər daim öz əksini tapırdı. O həmişə çalışırdı ki, oftalmoloqlar bilik və peşə səviyyələrini daim artırsınlar. Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasında çalışarkən ilk vaxtlardan ətrafına gənc və istedadlı həmkarlarını toplayaraq burada elmi-tədqiqat işlərini, kadrların hazırlanmasını bacarıqla təşkil etmişdi. Kafedraya müdir seçildikdən sonra qısa müddətdə yenidənqurma işləri aparmış, burada bütöv bir məktəb yaratmışdı.

Professor Zərifə Əliyeva 1979-cu ildə Bakı Məişət Kondisionerləri Zavodunda “Görmə orqanının fiziologiyası və peşə patologiyası” adlı unikal bir laboratoriyanın yaradılmasına və səmərəli fəaliyyətinə nail oldu. Bu, dünyada görmə orqanının peşə patologiyasını araşdıran ilk elmi-tədqiqat laboratoriyası idi. Bu laboratoriya o zaman elmin və texnikanın ən son nailiyyətlərinə əsaslanan üç şöbədən ibarət idi. Zərifə xanımın zəhməti və səyi ilə tezliklə laboratoriya ən müasir cihazlarla təchiz edildi, peşə xəstəliklərinin diaqnostikası, profilaktikası və müalicəsi sahəsində mərkəzə çevrildi. Laboratoriyada az intensivli toksikliyə malik istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi həyata keçirilirdi. Təqdirəlayiq haldır ki, sonralar Zərifə xanımın bu təcrübəsi keçmiş sovet ittifaqının bir sıra digər şəhərlərində tətbiq edildi.

Zərifə xanım Əliyeva bir mütəxəssis kimi geniş diapozona malik idi. O, həm həkimlik və müəllimlik fəaliyyəti ilə məşğul olur, həm də ardıcıl surətdə elmi tədqiqatlar aparırdı. Onun elmi işləri də çoxşaxəli və geniş idi. Bunu alimin işlərinin nəticəsi olan əsərlərin adlarında da aydın görmək mümkündür. Məsələn, “Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi”, “Gözün hidrodinamik sisteminin anatomik-fizioloji xarakteristikası” və s. Klinik-diaqnostik istiqamətdə apardığı tədqiqatlar da əhəmiyyətlidir. Bu tədqiqatların nəticələri həkimlər üçün yazılmış dərs vəsaitlərində və monoqrafiyalarda öz əksini tapmışdır. Bu silsilədən “Kəskin virus konyuktivitləri”, “Qlaukoma və gözün hipertenziyası”, “Görmə orqanının zədələnməsi”, “Şəkərli diabetdə göz xəstəlikləri” və bir çox digərlərini göstərmək olar.

Bundan əlavə, Zərifə Əliyeva nadir sahə sayılan iridodiaqnostika və iridoterapiya problemlərini də araşdırmış və sözünü iki iri monoqrafiyada demişdir. Bunlardan biri Bakıda "Azərnəşr" tərəfindən nəşr olunmuş, digəri isə Moskva şəhərində işıq üzü görmüşdür.

1977-ci ilin oktyabr ayında Bakıda Zərifə xanım Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin VII plenumu keçirildi. 200 nəfərin iştirak etdiyi plenumda SSRİ-nin görkəmli alimləri uşaqların görmə qabiliyyətinin mühafizəsinə, qlaukomanın profilaktikasına və müalicəsinə, ağır göz zədələrinə həsr olunmuş məruzələr etdilər.

Zərifə xanım plenumda kimya sanayesi müəssisələrində görmə orqanının peşə xəstəliyinə həsr olunmuş məruzə ilə çıxış etdi. Bu tədbirdə ilk dəfə olaraq peşə patologiyasının problemi müzakirə olunurdu. Zərifə xanım bəyan etdi ki, kimya sənayesinin intensiv inkişafı görmə orqanının peşə patologiyasının müxtəlif növlərinin əmələ gəlməsi üçün real şərait yaradır. Bu problemin öyrənilməsi sənaye oftalmologiyasının aparıcı problemidir.

Ümumittifaq oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin 1981-ci ilin oktyabr ayında keçirilən VIII plenumunda da Zərifə Əliyevanın çıxışı olmuşdu. Onun oftalmologiyada həkim deontologiyası barədə məruzəsi həmişəki kimi yenə hamının diqqətini cəlb etmişdi. Əslində, plenumda bu məsələnin müzakirəyə çıxarılması təşəbbüsünü Zərifə xanım irəli sürmüşdü. Çünki həkim-xəstə münasibətləri həmişə onun diqqət mərkəzində olan məsələ idi.

Təbii ki, səhiyyənin elmi-texniki inkişafı gündəmə yeni tibbi və əxlaqi problemlər gətirir. Belə çıxır ki, gələcəkdə hətta tibb heyətini kompyuter, yaxud robot da əvəz edə bilər? Zərifə xanım hələ o zaman məsələyə bu cür baxışı qəti səhv hesab edirdi. Dəfələrlə demişdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır, bəzən dava-dərmandan da güclü təsir göstərir. Əksinə, həkimin xəstə ilə səhv, düşünülməmiş davranışı, ünsiyyəti xəstəni həyəcanlandırır, ruh düşkünlüyü yaradır, onu ümidsizliyə qapılmağa vadar edir. Xəstənin müalicəsində bir çox ixtisas həkimləri iştirak edə bilər, lakin əsas məsuliyyət müalicə həkiminin üzərinə düşür. Həkimlər qrupunun, əsasən də cərrahların qrup halında məsuliyyət daşıması məsuliyyətsizliyə gətirib çıxarır.

Elə həmin plenumda da bu barədə söhbət getmişdi. Zərifə xanım məruzəsi ilə əslində həkimlə xəstənin qarşılıqlı münasibətinin əsas qaydasını tərtib etmiş, müalicə həkiminin xəstəliyin diaqnostikası və müalicə zamanı aparıcı rolunu vurğulamışdı. O, bütün tibb işçilərinin təkcə təhsilinin deyil, tibbi etikasının da vacib olduğunu göstərmişdi. Gənc həkimlərin peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə həmişə böyük zəhmət sərf edən alim bu mövzuda çoxlu məqalələr yazmış və çıxışlar etmişdi. "Yüksək etimad" kitabı da məhz həkimin cəmiyyətdə şəxsiyyət kimi formalaşması probleminə həsr olunmuşdu.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində çox yüksək hesab edilən akademik M.İ.Averbax adına mükafata layiq görüldü. Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk alim qadın idi.

Zərifə Əliyevanın 1983-cü ildə tibb sahəsindən Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvliyinə seçilməsi onun böyük xidmətlərinin, çoxillik və səmərəli elmi fəaliyyətinin, səhiyyənin nəzəriyyə və təcrübə sahələrinə verdiyi töhfələrin nəticəsi idi. Düşünmək olardı ki, ən uca zirvə artıq fəth edilib. Amma Zərifə xanım yenə də öz axtarışlarında idi. O, yenə də əvvəlki illərdə olduğu kimi xəstələri müalicə edir, həkim kadrları yetişdirir, elmi məqalə və kitablar yazırdı.

Zərifə xanım "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. 1983-cü ildə elə bu jurnalda "Kənd təsərrüfatında pestisidlərlə işləyən mexanizatorların görmə orqanlarının vəziyyəti" adlı məqaləsi dərc olundu. 1984-cü və 1985-ci illərdə də peşə ilə yaranan göz xəstəliklərinin patologiyasına aid iki sanballı məqaləsi çap edildi. Bütün bunlar alimin tədqiqatlarına sədaqətini və inamını bir daha təsdiqləyirdi. Təsadüfi deyil ki, bu tədqiqatların nəticəsi olan ümumiləşdirmələr ölkə oftalmoloqlarının VI qurultayının işləri sırasına daxil edildi və qurultayın yüksək tribunasından səsləndi.

Mən Zərifə xanım Əliyevanı həm bir həkim və alim, həm də insan kimi yaxından tanıyırdım. Ümumiyyətlə, ailə üzvlərinin əksəriyyəti həmkarım olduğundan mənim Əziz Əliyev ailəsi ilə yaxınlığım vardı. Tamerlan müəllimlə təhsil illərimiz demək olar ki, eyni dövrə təsadüf edib. Mən üçüncü kursda oxuyanda Tamerlan aspirant idi. Sonra o, bizim qrup rəhbərimiz oldu. Daha sonra nə az-nə çox – 30 il Tibb İnstitutunun Elmi Şurasında birlikdə fəaliyyət göstərmişik.

Bizim Zərifə xanım Əliyeva ilə dəfələrlə həmkarcasına söhbətlərimiz olub. Belə ki, biz bir sıra xəstəliklərin müalicəsi ilə əlaqədar məsləhətləşmək üçün görüşmüş, dəfələrlə fikir mübadiləsi, bir növ konsilium keçirmişik. Zərifə xanın məsələyə həmişə öz xarakterinə məxsus ciddilik və təmkinlə yanaşır, onun hər cümlə və müddəasında böyük elmilik və həkim savadı nümayiş olunurdu. Bunlarla bahəm sifətində incə və xeyirxah bir təbəssüm görünürdü. Xoş rəftarı boyük ədəb-ərkandan irəli gəlirdi.

Sonuncu dəfə Zərifə xanımla 1982-ci ildə Moskvada, Milli Onkoloji Elmi Mərkəzin akt zalında görüşdük. Orada Tibb Elmləri Akademiyasının prezidenti akademik H.H.Bloxin Zərifə xanıma akademiyanın Aberbax adına mükafatını təqdim etdi. Təqdimetmədən sonra Zərifə xanımın özünün də çıxışı oldu. Həmişə olduğu kimi

çox səlis, tələsmədən, maraqlı məzmunda danışdı və çıxışı alqışlarla qarşılandı. Yeri gəlmişkən qeyd edim ki, ümumiyyətlə, Zərifə xanımın şifahi nitq mədəniyyəti çox yüksək idi. O, danışarkən möhkəm yaddaşına güvənir, yazılı mətnə baxmadan danışır və danışarkən bacarıqla cədvəl və slaydlardan istifadə edirdi. O, mühazirələrini eyni səviyyədə, özü də həm Azərbaycan, həm də rus dilində müvəffəqiyyətlə oxuyurdu.

Mərasimdən sonra yaxınlaşıb Zərifə xanımı təbrik etdim. Xalqımın belə layiqli övladı və tanınmış alimi üçün qəlbimdə böyük qürur hissi yaşadım.

Zərifə xanım haqqında qısaca bunları desək, onun şəxsiyyəti haqqında gənc nəsildə təsəvvür yarada bilərik: akademik Zərifə Əliyevanın rəhbərliyi ilə həkim-oftalmoloqların və alimlərin böyük bir dəstəsi yetişmişdir. Zərifə xanım gənclərə sənət və elmdən əlavə həm də həyat təcrübəsini öyrətmiş, onlara həmişə diqqət və qayğı göstərmişdir. Zərifə xanım sənətini elə sevirdi ki, işdən heç vaxt yorulmur, usanmır, bütün qəlbi və varlığı ilə çalışırdı.

Zərifə xanıma həmkarlarının, yetirmələrinin, xəstələrinin hörmət və məhəbbətini qazandıran ən çox nə idi? Onun həkim fədakarlığı, yüksək vətəndaşlıq mövqeyi, səmimiyyəti, insanlara qayğısı.

Zərifə xanıma irsən bir xüsusiyyət də keçmişdi. Təşkilatçılıq bacarığı, ictimaiyyətlə dil tapıb işləmək istəyi vardı. Ona görə həmişə ictimai işlərdə çalışmışdı. SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini olmuşdu. “Bilik” Cəmiyyəti İdarə Heyətinin üzvü və SSRİ Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü kimi fəaliyyət göstərmişdi. Zərifə xanım Əliyeva müxtəlif illərdə bir sıra ordenlərə və medallara layiq görülmüşdü. Azərbaycanın əməkdar elm xadimi fəxri adını almışdı.

Zərifə xanım zəmanəmizin böyük siyasi və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı idi. Onlar uzun illər birlikdə xoşbəxt və mənalı ömür sürmüşlər. Lakin bu həyat eyni zamanda çətin, ağır və məsuliyyətli olmuşdur. Ulu öndər daim xalqın qayğıları ilə yaşamış, Azəbaycanı hər cəhətdən inkişaf etdirmək, irəliyə çıxarmaq üçün böyük zəhmət və səylər sərf etmişdi. Bu çətin yollarda Zərifə xanım onun mətin, yorulmaz yol yoldaşı olmuşdur. Ulu öndərlə həyat yollarında qoşa addımlayarkən bu zərif xanım da əslində öz çiyinlərinə ağır bir yük götürmüşdür. Heydər Əliyevin istər təhlükəsizlik orqanlarında çalışdığı zaman, istər Azərbaycana başçılıq etdiyi, böyük, sürətli inkişafla səciyyələnən 1969-1982-ci illərdə, istərsə də Moskvada, SSRİ kimi nəhəng bir ölkənin rəhbərliyində işlədiyi vaxt, bir sözlə, birgə yaşadıqları bütün dövrdə Zərifə xanım ulu öndərin ən yaxın dostu, mənəvi dayağı olmuşdur.

Bir-birini elə tamamlayırdılar ki, elə bil Tanrı onları məhz birgə ömür yaşamağa yaratmışdı. Bu ailəni yaxından tanıyanların hamısı belə deyir.

Zərifə xanım bütün varlığı ilə ailəsini, övladlarını sevən həyat yoldaşı və ana idi. O, övladlarının layiqli insan və vətəndaş kimi böyüməsi, tərbiyə alması üçün ömrünü şam kimi əridirdi.

Min təəssüf ki, bu ömür qısa oldu. Mən də hörmətli həmkarım Zərifə xanımın 1985-ci ildə Moskvada dünyasını dəyişməsi xəbərini böyük kədərlə qarşıladım. Onun dəfn mərasimini hələ də xatırlayıram. Azərbaycanın elm və sənət adamlarından böyük bir dəstə əziz Zərifə xanımı son mənzilə yola salmaq üçün Moskvaya getmişdi. Dəfn mərasimi Müslüm Maqomayevin ifasında dahi Üzeyir Hacıbəylinin “Sənsiz” mahnısı ilə müşayiət olunurdu. Qəlbimizdən axan qara qanlarla biz həmin gün Azərbaycan xalqının çox layiqli bir övladını, öz şəxsiyyətində Azərbaycan qadınına xas olan ən yüksək keyfiyyətləri təcəssüm etdirən bir xanımı, böyük alimi itirmişdik.

Çox təəssüf edirəm ki, Zərifə xanım Azərbaycanın müstəqilliyini, bugünkü yüksəlişini görmədi.

Bir həkim kimi onu da vurğulamaq istərdim ki, Heydər Əliyev – Zərifə Əliyeva ailəsinin övladları və indi artıq nəvələri də hər iki böyük şəxsiyyətin və gözəl insanın genlərini özlərində layiqincə daşıyır və təzahür etdirirlər. Bir sözlə, ulu öndərin və Zərifə xanımın qurduqları və yaşatdıqları ailə həmişə ölkəmizin inkişafı, xalqımızın rifahı üçün çalışıb və indi də çalışır.

Zərifə xanımın ruhu şad olsun. Ruhu şad olsun ki, Vətəni Azərbaycan bu gün onun ailəsinin yetirməsinin, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli inkişaf edir.

Ruhu şad olsun ki, indi Azərbaycanın çox inkişaf etmiş – vaxtilə Zərifə xanımın özünün də arzu etdiyi və uğrunda çalışdığı səhiyyəsi var.

Ruhu şad olsun ki, bu gün Azərbaycanda fəaliyyət göstərən Elmi Oftolmologiya Mərkəzi Zərifə Əliyevanın adını daşıyır və burada, eləcə də ölkənin digər tibb müəssisələrində çalışan yüzlərlə göz həkimi onun yolunu davam etdirir, bu böyük alimin qoyduğu irsdən bəhrələnir.

**Azərbaycan.**-2014.-25 apre.-№ 84.-S.3.

## Zəkasının işığı hələ də görünür

**Zərifə SALAHOVA,**
Azərbaycan Qadınları Bakı Assosiasiyasının sədri,
əməkdar mədəniyyət işçisi

**Görkəmli həkim-oftalmoloq, yorulmaz alim, tibb elmində bir çox yeniliklərə imza atmış akademik Zərifə xanım Əliyeva haqqında söz düşəndə tez-tez "işıq", "nur" kəlmələrini işlədirik. Təbii ki, bu, ilk növbədə milyonlara nümunə olan nəcib xanımın ixtisasca göz həkimi olmasından irəli gəlir.**

Geniş mənada götürdükdə isə Zərifə Əliyeva ümumiyyətlə işıqlı insan idi. Çox vaxt deyirlər ki, xəstə həkimin şəfqətli əllərindən şəfa alır. Zərifə xanım elə böyük həkimlərdən idi ki, xəstəsinə bəxş etdiyi işıq onun qəlbinin odundan, hərarətindən, nurundan qidalanırdı, biliyinin, zəkasının ziyasından qaynaqlanırdı. İşıq onun təkcə sənətini deyil, əməllərini və şəxsiyyətini səciyyələndirən ifadə idi.

Alim özünün çoxillik fəaliyyəti dövründə neçə-neçə gözə şəfa bəxş etmiş, ən ağır, mürəkkəb əməliyyatlar aparmış, görmə qabiliyyəti zəif olanların, yaxud tamamilə görməyənlərin qaranlıq dünyasını işıqlandırmışdı. Bu işdə ona təkcə biliyi, savadı və səriştəsi deyil, həm də gendən və böyüdüyü ailədən irəli gələn həmin yüksək keyfiyyətlər dəstəkçi olurdu.

Zərifə xanım görkəmli həkim və alim, dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya gəlmişdi. Bu insan ömrü boyu onu əhatə edənlərin hörmətini qazanmışdı. O, rektor, nazir, baş nazirin müavini olmuş və həmişə də bacarığı və qabiliyyəti ilə böyük nüfuz qazanmışdı. Dövrünün partiya və dövlət xadimləri arasında özünəməxsus geniş siyasi və mədəni dünyagörüşü ilə seçilmişdir. Zərifə xanım həmişə deyirdi ki, atasının keçdiyi ömür yolu onun üçün xalqının tarixinin bir hissəsi idi. Əziz Əliyev şəxsi nümunəsilə uşaqlarına mübariz olmağı aşılamışdı, gələcəyə ümid, inam bəsləməyi öyrətmişdi. Hər zaman hamıya xeyirxah, qayğıkeş münasibətdə olmağı tövsiyə etmişdi. Daim inkişafda olmaq üçün elmə bağlılığı yüksək dəyərləndirərdi, eyni zamanda bir sözü tez-tez təkrar etməyi xoşlayardı: əgər həkim təkcə həkimdirsə, deməli, o, pis həkimdir. Bu mənada Zərifə xanım yüksək peşəkarlıqla yanaşı, səmimi insani münasibətləri hər cür keyfiyyətlərdən üstün tutardı. Zərifə Əliyeva möhkəm iradəyə, böyük təmkinə malik güclü şəxsiyyət idi. Bunlarla bahəm onu həmişə sadəlik, zəriflik müşayiət edirdi.

Əsil-nəcabətli bir ailədə böyüməsinə, adlı-sanlı kişinin övladı və üstəlik, özünün də görkəmli alim kimi tanınmasına, ulu öndər Heydər Əliyev kimi dahi bir şəxsiyyətin ömür-gün yoldaşı olmasına baxmayaraq, həmişə təvazökar idi. Özünü xalqdan ayırmazdı, insanlardan kənarda dayanmazdı. Həkimlik sənəti də ona çox yaraşırdı. Çünki qəlbən insansevər idi…

Bizə, ulu öndər Heydər Əliyev kimi dünya şöhrətli siyasətçi ilə eyni zamanda yaşamaq, bir çoxlarımıza isə hətta bu böyük şəxsiyyətin rəhbərliyi altında çalışmaq xoşbəxtliyi qismət olub. Biz Heydər Əliyevin də, Zərifə xanımın da müasirləriyik.

Mən Zərifə Əliyevanı çox görmüşəm, onu tanımışam, dinləmişəm, insanlığına, xanımlığına heyran olmuşam. Müəyyən vəzifələrdə çalışdığım illərdə də, sonralar da Zərifə xanımla müxtəlif dövlət səviyyəli tədbirlərin iştirakçısı olmuşam.

Zərifə Əliyeva öz ixtisasının dərin bilicisi idi. Alimlərin fikrinə gəldikdə, oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatlarının dəyərini bu sahədə yazdığı əsərlərlə təsdiqləmişdir. Alim həmin tədqiqatların ilkin nəticələrini ümumiləşdirərək 1977-ci ildə Moskvada "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Mən o illəri yaxşı xatırlayıram. Həkim olmasam da, cəmiyyətin qaynarında olan, ətrafdakı bütün hadisələri görən, ayrı-ayrı sahələrdə baş verən yenilikləri diqqətlə izləyən şəxs kimi Zərifə Əliyevanın fəaliyyətindən də xəbərsiz deyildim. O, 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Bundan əvvəl isə gənc mütəxəssis kimi sözügedən xəstəliyin ləğvi yolunda yorulmadan ardıcıl elmi axtarışlar aparmış, tədqiqat işinin əsasını da məhz əldə olunan nəticələr təşkil etmişdi. Zərifə xanım bunun üçün Azərbaycanın bir çox rayonlarında olmuş, kəndləri gəzərək traxoma ocaqlarını aşkara çıxarmışdı. Bu, ikiqat əhəmiyyətə malik bir iş idi. Əvvəla, gənc və istedadlı həkim yerindəcə profilaktik tədbirlər həyata keçirir, xəstələri müalicə edirdi. Eyni zamanda məsələnin mahiyyətini əyani surətdə öyrənərək gələcək elmi fəaliyyəti – yeni müalicə üsullarının tapılması, müxtəlif yolların axtarılması üçün mənbə yaradırdı.

Sonrakı dövrdə alimin göz xəstəliklərinin profilaktika, diaqnostika və müalicəsinin düzgün təşkil edilməsi üçün yeni laboratoriyalar yaratdığı hamımızın gözləri qarşısında baş verirdi. Belə ki, Zərifə xanım təkcə Bakıda deyil, Sumqayıt, Gəncə, Əli Bayramlı (indi Şirvan), Mingəçevir şəhərlərində, Yevlax, Bərdə, Salyan və digər bölgələrdə zərərli maddələrin törətdikləri göz xəstəliklərini, eləcə də digər xəstəlikləri aşkara çıxarır və müalicə edirdi. Bu barədə böyük alimlər və ən başlıcası, alınan elmi nəticələr, nəhayət, zaman öz sözünü deyirdi. Həmin

illərdə peşə oftalmologiyasının öyrənilməsində birinciliyin məhz Zərifə Əliyevaya məxsus olduğunu hamımız əyani görürdük.

Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş, həmin xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Təsadüfi deyil ki, görkəmli alimin bu istiqamətdə apardığı elmi-tədqiqat işləri böyük nəzəri və təcrübi əhəmiyyət daşıyaraq bu gün də dünya tibb ədəbiyyatında analoqu olmayan unikal tədqiqatlar sırasındadır.

Zərifə Əliyeva paytaxtımızın şin və yod, məişət kondisionerləri, elektrotexnika avadanlığı, elektron hesablama maşınları, maşınqayırma zavodlarında, Sumqayıt "Üzvi sintez" İstehsalat Birliyində, Mingəçevirdəki "İzolit" və Rezin-Texnika məmulatları zavodlarında, Gəncə Gil-Torpaq Kombinatında, Salyan rayonunun kənd təsərrüfatı mexanizatorları arasında tədqiqatlar aparırdı. Bu müəssisələrdə zəhərli maddələrin təkcə görmə orqanına deyil, həm də digər orqanlara, o cümlədən ağciyər, böyrək, qaraciyər və ürəyə təsiri də öyrənilmişdir. Alınan nəticələr sonralar neçə-neçə dəyərli əsərin mövzusuna çevrilmişdir.

Bu qeydləri qələmə alarkən xəyal məni yenidən həmin illərə aparır. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin hələ birinci dövründə respublikada saysız-hesabsız yeni müəssisələr və evlər inşa etdirmişdi. Bu tikililər arasında elə nadir zavodlar vardı ki, onların respublikada inşası yalnız və yalnız Heydər Əliyevin nüfuzunun sayəsində mümkün olmuşdu. Bakı Məişət Kondisionerləri Zavodu məhz belələrindən idi. Həmin müəssisədə yüzlərlə insan çalışırdı. Zərifə Əliyeva o dövr üçün çox modern, lakin mürəkkəb olan belə nəhəng bir müəssisədə görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmışdı. Bu, elmdə də, istehsalatda da bir yenilik idi. Deyim ki, bu, təkcə alimlərin deyil, geniş kütlənin də marağına səbəb olmuşdu. Xüsusi vurğulamaq istəyirəm ki, müəssisədə çalışan ən sadə insanlar belə Zərifə xanımın təkcə həkimliyinə deyil, alicənablığına, xeyirxahlığına heyran qalırdılar. Mən bunu zavodda işləmiş insanların öz dillərindən dəfələrlə eşitmişəm.

Doğrusu, o vaxt ekologiya problemi indiki qədər önəm kəsb etmirdi. İndi, XXI əsrdə ekologiya məsələləri bəşəriyyəti ən çox narahat edən problemlərdən biridir. Zərifə xanımı bu məsələlər hələ keçən əsrin ortalarından narahat etməyə başlamışdı. O, bir həkim kimi xəstələrin ətraf mühitin mənfi təsirlərindən qorunmasına, müəssisələrin ekologiyasına xüsusi diqqət yetirir, onlara ekoloji prinsiplərə riayət edilməsi konsepsiyalarının həyata keçirilməsi yollarını göstərirdi. Beləliklə, Zərifə xanım müəssisələrdə işləyənlərin gözlərini müayinə və müalicə edərkən həm də həkim-ekoloq kimi çıxış etmişdir. Odur ki, onun ekologiya sahəsindəki xidmətlərinin öyrənilməli olduğunu və layiqli qiymətini alacağını deyənlər tam haqlıdırlar.

Zərifə xanım həkimlik fəaliyyəti ilə və geniş elmi tədqiqatlarla məşğul olmaqla yanaşı, həm də incə qəlbli bir pedaqoq idi. O, hələ 1967-ci ildə müsabiqə yolu ilə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının dosenti vəzifəsinə seçilmişdi. Zərifə xanım burada professor, kafedra müdiri vəzifələrinə qədər yüksəlmiş, sonralar akademiklik zirvəsinə ucalmışdır. Zərifə Əliyevanın dərsləri yalnız mühazirələr oxumaq və praktik məşğələlərlə bitmirdi. Onu dinləyən gənc həkim və assistentlər, müəllim və elmi işçilər əsl həyat dərsi alır, kamillik və mükəmməllik nümunəsi görür, həkim etikasının sözün həqiqi mənasında nə olduğunu dərk edirdilər.

Mən gənc yaşlarımdan kitab həvəskarı olmuşam. Ömrümü kitab oxumağa, toplamağa, nəşr etməyə həsr etmişəm. Zərifə Əliyevanın həkim etikasına həsr olunmuş əsərlərini şəxsən maraqla mütaliyə etmiş və kitabxanada qoruyub saxlamışam. Düşünürəm ki, onun həkim etikası barədə yazdıqları təkcə tibb mütəxəssisləri üçün deyil, geniş oxucu kütləsi üçün də çox maraqlıdır.

Özünün çoxillik fəaliyyətində Zərifə Əliyeva bu qənaətə gəlir ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin səmərəsini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və bəzən hətta dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, həkimin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdi. O, həkim-xəstə münasibətlərinə toxunaraq insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş və "həkim xəstənin ən doğma adamıdır" demişdir.

Həkim etikası mövzusu Zərifə Əliyevanın bir çox məqalə və çıxışlarında öz əksini tapmışdır. Alimin "Yüksək etimad" kitabı da həkimin cəmiyyətdə şəxsiyyət kimi formalaşması prosesinə həsr olunmuşdur. Onun bu mövzuya aid baxışları "Həkimin yüksək vəzifəsi", "Oftalmologiyanın aktual problemləri" monoqrafiyalarında özünə yer almışdır. "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində Zərifə xanımın həkimin vəzifə borcuna, tibbi etikasına dair baxışları daha geniş şəkildə əks olunmuşdur.

Dediyim kimi, mən Zərifə xanımın bir sıra kitablarını qoruyub saxlayıram. Bunların arasında çox oxunaqlı, rəvan dildə qələmə alınmış "Yüksək əqidə: həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı" kitabı da var. Burada Zərifə xanım yazır: "Xəstəyə düzgün münasibət həkim sənətinin əsas mahiyyətlərindəndir. Bəzən həkim xəstəyə yardım göstərərkən xəstəliyin xüsusiyyətlərindən asılı olaraq, həkim xəstənin və onun qohumlarının yersiz məzəmmətlərini, acı sözlərini, hətta hədələrini dinləməyə məcbur olur. Başqa sənət sahibi olanlar bundan inciyərək onu təhqir edəndən imtina edərdi, üstünə qışqırıb onu qovardı. Lakin həkim belə hərəkəti

özünə rəva bilmir, özünün hissiyyatını və həyəcanını büruzə verməyə ixtiyarı yoxdur. Həmin xəstənin mənafeyini hər şeydən üstün tutmalıdır, öz iş gününün qurtarmasına baxmayaraq, o, xəstəxanada qalaraq xəstəyə yardım edir, hətta onun çarpayısı yanında bir neçə gün qalır, bunun cavabı isə xəstənin təşəkkürlü gülümsəmələri olur".

Bu sözləri yalnız çox böyük qəlbə, yüksək tərbiyə və dünyagörüşünə malik olan, insanlara təmənnasız yaxşılıq etmək üçün doğulmuş bir həkim deyə bilərdi. Bu, bir dərslikdir. Həkimlərin, ümumən gənclərin neçə-neçə nəsilləri üçün əmanət edilmiş bir dərslik.

Yeri gəlmişkən qeyd edim ki, Zərifə Əliyeva 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. O, əməkdar elm xadimi idi və bu adı bütün çoxşaxəli fəaliyyəti ilə doğruldurdu.

Mənə dəfələrlə Zərifə Əliyevanın çıxış etdiyi elmi konfranslarda, tədbirlərdə iştirak etmək qismət olub. Onun istər Azərbaycan, istərsə də rus dilində aydın, səlis nitqi vardı. Danışanda tələsməzdi. Fikirlərini aramla izah edər, elmi nəticələrini dəlil-sübutlarla, doğru-dürüst arqumentlərlə əsaslandırırdı. Auditoriya həmişə onu diqqətlə dinləyərdi.

Ulu öndərin SSRİ rəhbərliyində yüksək vəzifə tutduğu və Moskvada yaşadığı illərdə də mən orada Zərifə xanımı dəfələrlə gördüm.

Həmin illərdə mən vəzifəmlə, ailə vəziyyətimlə əlaqədar Moskvada tez-tez olurdum. Bir neçə dəfə Zərifə xanımın oradakı elmi konfrans və simpoziumlarda çıxışına qulaq asıb onun özünəməxsus natiqlik qabiliyyətinə, danışarkən təmkininə heyran qalmışam.

Zərifə xanım bütün bunlarla yanaşı, ictimai xadim kimi fəaliyyət göstərməyə də vaxt və imkan tapırdı. O, keçmiş SSRİ-də Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi də fəaliyyət göstərirdi. Azərbaycan "Bilik" Cəmiyyəti və SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə heyətlərinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi.

Zərifə xanımın yazdıqları həyatda əyani surətdə etdiklərinin güzgüsü idi. Əslində, bu, bir insanlıq, insanpərvərlik nümunəsidir.

Zərifə Əliyevanın şəxsiyyətinə, yazıb yaratdıqlarına, ailəsinə bəslədiyim ehtiramın əlaməti olaraq mən onun 90 illik yubileyi münasibətilə miniatür kitab nəşr etdirmişəm. Kitabın təqdimat mərasimi də elə Miniatür Kitab Muzeyində keçirildi.

Düşünürəm ki, Heydər Əliyev kimi bir dahinin həyat yoldaşı olmaq, ömrün çətin yollarında onunla qoşa addımlamaq, bütün varlığını xalqına həsr etmiş bu böyük insanın qayğılarını bölüşdürmək o qədər də asan məsələ deyildi. Lakin Zərifə xanım güclü qadın idi. Elə bil Tanrı onları bir-biri üçün yaratmışdı, hər şeyi incəliyinə qədər ölçüb-biçmiş, tarazlamışdı. Heydər Əliyev və Zərifə Əliyeva bir-birini məhz bu dərəcədə tamamlayırdı.

Təsadüfi deyil ki, Heydər Əliyev kimi böyük şəxsiyyət ömrü boyu Zərifə xanıma sevgisini bütün xalq qarşısında bəyan etmiş, bu xanımın necə gözəl insan olduğunu vurğulamışdı.

Zərifə xanım övladlarını bütün varlığı ilə sevən ana idi. Tanrının ona bəxş etdiyi övladları həyatının ən böyük neməti hesab edirdi. Ömrünü övladları üçün şam kimi əridən analardan olaraq onların təhsil, tərbiyə almasına, şəxsiyyət kimi formalaşmasına böyük zəhmət sərf etmişdi. Övladlarına həmişə qayğı, sevgi ilə yanaşmış, ən nəcib keyfiyyətlər aşılamış, onlara ən yaxşı nümunə olmuşdu.

Əfsuslar olsun ki, Zərifə xanım dünyasını tez dəyişdi. Azərbaycan xalqı onun timsalında çox dəyərli bir övladını – gözəl həkim və yorulmaz alim, xeyirxah insan, işıqlı ziyalı itirdi. Kim bilir, o, Azərbaycan üçün, tibb elmi, insanlar üçün hələ hansı xeyirxah işləri gerçəkləşdirəcəkdi?! Böyük oftalmoloq M.Krasnovun Zərifə xanım haqqında yazdıqlarını oxumuşam. Akademik qeyd edir ki, əcəl Zərifə Əziz qızına bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbin banisi ola bilərdi.

**Bəli, min təəssüf!**

Mən o hüznlü günün də iştirakçısı oldum. Azərbaycan xalqına məlumdur ki, ümummilli lider Heydər Əliyev və xalq rəssamı Tahir Salahov arasında mehriban və sıx dostluq telləri vardı. Zərifə xanımın dəfninə də mən qardaşım Tahirlə gəldim. Dəfn mərasimində izdiham vardı. Hamı belə bir alimin və insanın həyatdan vaxtsız getməsinə təəssüf edir, kədərlənirdi. Ailə üzvləri, doğmaları çox sarsılmışdı. Zərifə xanımı yaxından tanıyanlar – istər Moskvada yaşayanlar, istərsə də Bakıdan gedənlər göz yaşlarını saxlaya bilmirdi. Bu, Azərbaycanın layiqli qızına insanların sevgisinin hüzn və kədər dolu nümayişi idi.

Zərifə xanım Moskvada Novodeviçye qəbristanlığında dəfn olunmuşdu. Onun məzarı Bakıya, Fəxri xiyabana köçürüləndən bəri dəfələrlə oranı ziyarət etmişəm. Hər dəfə də o uzaq 1985-ci ilin o hüznlü aprel gününü yenidən yaşayıram…

Zərifə Əliyevanın irsinə, həkimlik, alimlik fəaliyyətinə, şəxsiyyətinə dünyanın bir çox görkəmli adamları yüksək qiymət vermişlər.

Əlbəttə, alimlər, xüsusilə oftalmologiya sahəsində fəaliyyət göstərən həkimlər və elmi işçilər Zərifə xanım Əliyevanın tədqiqatlarının, müalicə üsullarının necə dəyərli və qiymətli olduğunu bizlərdən yaxşı bilirlər. Bir

həkim və alim kimi ona təkcə Azərbaycanın və keçmiş SSRİ məkanının görkəmli professor və akademikləri deyil, eləcə də dünyanın hər yerində yaşayan həmkarları yüksək qiymət veriblər. Məsələn, moskvalı həmkarları Zərifə xanımı "oftalmologiyanın mirvarisi" adlandırıblar. Dünya şöhrətli oftalmoloq, akademik A.Nesterov deyib: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli alim idi".

Akademik N.Ruçkovskaya "xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" – deyərək alimin həmçinin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulayıb.

Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır.

Professor N.Şulpina Zərifə xanımı dünya şöhrətli alim adlandıraraq "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik", – deyib.

Zərifə xanım sözün əsl mənasında saf bir mənəviyyat çeşməsi idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə deyirdi ki, mənəviyyat olmayan yerdə haqdan, ədalətdən, düzgünlükdən söhbət gedə bilməz. İstənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərlərin özünə möhkəm dayaqlar tapması məhz nəcib, alicənab, kamil insanların əzmkar fəaliyyəti sayəsində mümkün olur. Zərifə Əliyeva məhz belə insanlardan idi.

Mən böyük məmnunluq hissi ilə vurğulamaq istəyirəm ki, ulu öndər Heydər Əliyev kursunun layiqli davamçısı İlham Əliyevin yeritdiyi siyasətdə, önəm verdiyi məsələlər sırasında məhz mənəvi dəyərlər də özünə layiqli yer alır. Və bu gün Zərifə xanım Əliyevanı xatırlayarkən, onun insanlıq idealından və zəngin mənəviyyatından söhbət açarkən mən ənənə davamından danışmaya bilmərəm. Bu gün Zərifə Əliyeva ocağındakı xanımların xeyirxahlığı, xalq üçün etdikləri bu ənənənin davamı deməkdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycan xalqının milli mədəniyyətinin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri var. Cəmiyyətdə könüllü sosial müdafiə, xeyriyyəçilik, sosial tərəfdaşlıq, korporativ sosial məsuliyyət və s. prinsiplərin qorunmasına çalışan Mehriban Əliyeva ötən 10 ildə bu məqsədlərə xidmət edən strateji əhəmiyyətli layihələri inamla həyata keçirmişdir.

Azərbaycanın müasir gəncliyinin layiqli, vətənpərvər təmsilçisi kimi Leyla Əliyeva da üzərinə böyük missiya götürmüşdür.

Atalarımız "ot kökü üstə bitər" demişlər. Bu gün Leyla xanım Əliyevanın milli ideallar naminə məqsədyönlü fəliyyəti onun istedadlı və vətənpərvər gənc olduğunu nümayiş etdirməklə yanaşı, həm də irsi-genetik kökdən, sağlam ailə ocağından irəli gəlir. Leyla xanım Əliyeva Azərbaycanın dünya miqyasında tanınmasına, ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasına çalışır. O, Azərbaycanın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının təbliği, diaspor hərəkatının genişləndirilməsi istiqamətində də bütün zəruri tədbirləri həyata keçirir.

Bir sözlə, mən bu gün Heydər Əliyev – Zərifə Əliyeva ocağında böyümüş övladların Azərbaycan dövləti və xalqı üçün etdiklərindən qürur duyuram. Bu, ilk növbədə pak mənəviyyatdan, yüksək amallarla tərbiyə almaqdan irəli gəlir.

Mən bütün bunların şahidi olanda, eləcə də akademik Zərifə Əliyevanın oftalmologiyada vaxtilə başladığı işlərin necə uğurla davam etdirildiyini görəndə bəzən onun haqqında keçmiş zamanda danışa bilmirəm. Zərifə Əliyevanı yaşadan məhz onun dəyərli elmi irsi, əhəmiyyətini bu gün də saxlayan tədqiqatları və əldə etdiyi nəticələr, işıqlı əməlləridir.

**Azərbaycan**.-2014.-15 aprel.-№ 75.-S.7.

## Xalqa dayaq olan nəcib insan

**Rəfiqə MƏSUD,**
kinossenarist, publisist, əməkdar mədəniyyət işçisi.

**Akademik, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, xeyirxah əməlləri ilə insanların qəlbində əbədi yaşayan Zərifə xanım Əliyevanın anadan olmasının 90 illiyi respublikanın hər yerində ehtiramla qeyd olunur. Xatirəsi anılır, tibbin ən çətin və məsuliyyətli sahəsi olan oftalmologiyanın inkişafı üçün göstərdiyi xidmətlər xatırlanır.**

Məşhur oftalmoloq akademik M.Kraskov Zərifə xanım Əliyevanın görmə orqanlarının peşə potalogiyasının öyrənilməsinə həsr etdiyi tədqiqat əsərlərini yüksək qiymətləndirərək belə qeyd etmişdir: “Əcəl bu görkəmli alimə bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbin rəhbəri olacaqdı”.

Zərifə xanım ətirli bir bahar günündə dünyaya gəldi. Bahar ürəkli oldu. Elə bahar kimi qısa bir ömür yaşadı. Cəmi 62 il. Zərifə xanım Əliyeva bu qısa ömürlü həyatında nə qədər böyük işlər gördü, elmin sirlərinə vaqif oldu, hərəkətləri, ağlı, zəkası ilə valideynlərinə gözəl övlad, ömür–gün yoldaşına arxa–dayaq, övladlarına gözəl, nümunəvi ana oldu.

Zərifə xanımın atası tanınmış ictimai–siyasi xadim Əziz Əliyev yüksək dövlət qulluğunda çalışarkən onlara qarşı çox təzyiqlər olmuşdur. Zərifə xanım da çətin anlar yaşamış, mənəvi zərbələrə məruz qalmış, lakin sınmamışdı.

O, həyatını elmə bağlamış, bu yolda gecə–gündüz çalışmış, nəhayət, çəkdiyi sitəmlərin əvəzi olaraq tale onun ömür yoluna Heydər Əliyev kimi parlaq bir şəxsiyyət çıxarmışdı.

Repressiyaya məruz qalan Əziz Əliyevin ailəsinin ən ağır dəqiqələrində belə Heydər Əliyev DTK sistemində çalışmasına baxmayaraq, Zərifə xanımla ailə qurmaqdan çəkinməmişdir. Halbuki buna görə onun karyerası sual altına alınmışdır. Belə bir cəsur, mətin insanın ömür–gün yoldaşı olmaq özü də böyük bir xoşbəxtlik idi.

Sonralar ümummilli liderimiz Heydər Əliyev saf, təmiz duyğularını belə ifadə etmişdi: “Mən onu çox sevirdim, o, da məni çox sevirdi, biz bir–birimizi çox sevirdik”.

Heydər Əliyev—Zərifə xanım sevgisi göylərdən gələn, günəşdən güc alan sevgi dolu bir xoşbəxtlik dünyası idi desək, yanılmarıq.

Dövrünün görkəmli ziyalısı və ictimai–siyasi xadim Əziz Əliyev ixtisasca həkim olmuşdu. Zərifə xanım da həkim olmaq arzusu ilə 1947–ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə və profilaktika fakültəsini bitirdikdən sonra Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma təhsilini davam etdirmişdi.

Elmi–tədqiqat işlərinə böyük marağı olduğundan Zərifə xanım Azərbaycan oftalmologiya Elmi–Tədqiqat İnstitutunda həkim–ordinator kimi fəaliyyətə başlamış, 1950–ci ildə aspiranturaya daxil olmuşdur. Oranı bitirdikdən sonra Respublika Elmi–Tədqiqat İnstitutunda elmi işçi kimi fəaliyyət göstərmişdi.

Həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticələrə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. O zaman, bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə isə nəinki oftalmologiya elmi üçün, bütün Azərbaycan Respublikası üçün mühüm məsələyə çevrilmişdi. Dünya işığına həsrət qalan insanların çoxu məhz bu xəstəlikdən əziyyət çəkirdi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicə və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edirdi. Zərifə xanım respublikada traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim oftalmoloqlara mühazirələr oxuyur, əhali ilə söhbətlər aparırdı. Elə bununla Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirdi.

1960–cı ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomesinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyası işini müdafiə etdi.

Zərifə xanım Səhiyyə Nazirliyinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında həkimlik fəaliyyətini davam etdirməklə tibbi əməliyyatlar aparır, müalicələr edir, məsləhətlər verir, göz xəstəliklərinə aid təkmilləşdirmə kurslarının dinləyiciləri olan həkimlərə mühazirələr oxuyurdu.

Zərifə xanım seçdiyi peşədə zülmətlə işığın mübarizəsində zülmətə qalib gəlməyi bacardı. Ona pənah gətirən hər kəsi vicdanı, biliyi sayəsində zülmətdən xilas etməklə işığa qərq etdi. Sonralar oftalmologiyanın digər vacib istiqamətlərinin tədqiqatı ilə də məşğul oldu. “Qlaukoma”nın öyrənilməsinə aid olan tədqiqatların nəticəsində nəşr olunmuş elmi məqalələr göz xəstəlikləri klinikasında çalışan həkimlərin biliklərinin genişlənməsinə səbəb oldu.

Zərifə xanım Əliyevanın oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin, çoxsahəlidir ki, onun fəaliyyətinə nəzər salarkən bu insanın necə böyük şəxsiyyət olduğunun bir daha şahidi oluruq. Fitri istedada malik olan bu gözəl insanın, novator alimin, pak bir şəxsiyyətin yaşadığı dərin mənalı ömür, keçdiyi şərəfli həyat yolu hər bir azərbaycanlı üçün kamillik, müdriklik məktəbidir.

Zərifə xanım Əliyeva professional oftalmologiyanın problemləri ilə ciddi məşğul olan alim kimi dünyada ilk dəfə olaraq peşə patologiyasını araşdıran elmi–tədqiqat laboratoriyası yaratmaqla praktiki olaraq elm aləmində yeni bir istiqamətin, peşə oftalmologiyasının əsasını qoydu. O, "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" kimi qiymətli elmi məqalələr və monoqrafiyalar yazıb çap etdirmişdi.

Zərifə xanım apardığı tədqiqatlar, müşahidələr nəticəsində "Azərbaycanın kimya səneyesinin bəzi müəssisələrində çalışan işçilərin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, H.Helmqolts adına Moskva Elmi–Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertiyasının müdafiəsi zamanı keçmiş Sovetlər İttifaqının görkəmli alimləri bu böyük elmi əsəri çox yüksək qiymətləndirmişlər.

O, həmçinin nadir sahə sayılan "iridodiaqnostika" və "iridoterapiya" problemləri ilə məşğul olmaqla iki monoqrafiya hazırlamışdı. Qürurla qeyd etmək istərdim ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə azərbaycanlı qadın Zərifə xanım Əliyeva yazmışdır.

Akademik Zərifə xanım Əliyeva görmə orqanlarının peşə patologiyası sahəsində apardığı elmi–tədqiqat işlərinin uğurlu nəticələrinə görə keçmiş SSRİ–nin oftalmologiya sahəsinin ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ.Averbax adına mükafatı alan ilk qadın alim olmuşdur.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının müdiri, professor Zərifə xanım Əliyeva elmi–tədqiqat işlərinin təşkili, kadrların və elmi işçilərin hazırlanması məqsədilə öz ətrafına gənc və istedadlı həkimləri topladı.

Zərifə xanımın təşəbbüsü ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Plenumun keçirilməsi nəinki Azərbaycanın keçmiş Sovetlər İttifaqının səhiyyədə, oftalomologiya xidmətinin inkişafında, eləcə də elmi, pedaqoji kadrların hazırlanmasında da çox böyük rol oynadı.

Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqat əsərləri alimə böyük şöhrət gətirmiş, onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdı.

Azərbaycan Elmlər Akademiyası Ə.İ.Qarayev adına Fiziologiya İnstitutunda Zərifə xanımın təşəbbüsü ilə görmə orqanının fiziologiya və professional patologiyasının problemi ilə məşğul olan bir laboratoriya açıldı. İstehsalatda zərərli maddələrin görmə orqanına fizioloji, kliniki, funksional və kistaloji təsir mexanizminin bir sıra dərin tədqiqatlarının nəticələri həyata keçirilmişdir. Belə elmi axtarışların nəticəsində Zərifə xanımın bir neçə monoqrafiyaları dərc edilmişdi.

Zərifə xanım Əliyeva elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənməklə onun profilaktikası tədbirlərini işləyib hazırlamışdı.

Zərifə xanımın "şin istehsalında gözün peşə patalogiyası", "xroniki yod intaksikasiyası zamanı oftalmologiya", "yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi elmi monoqrafiyaları dünya miqyasında yüksək qiymətləndirilmişdi. Onu qeyd edək ki, Zərifə xanımın maraqları təkcə görmə orqanının professional patalogiyası problemləri ilə məhdudlaşmırdı. Görmə orqanının virusla zədələnmə problemlərinə həsr olunmuş bir çox elmi işləri geniş yayılmışdı. Tədqiqatlar nəticəsində bu xəstəliklərin diferensial diaqnostikasını yaxşılaşdırmaq və onların müalicəsinin effektliyini gücləndirməyə nail olmuşdu.

Zərifə xanım etnologiya, diaqnostika və qlaukomanın müalicəsi məsələlərinə də həsr olunmuş maraqlı tədqiqatlar aparmışdır. Bu tədqiqatların nəticəsinə "Gözün hidrodinamika sisteminin xarakteristikası", "Yaşla bağlı gözün və əsəb yollarının dəyişilməsi" adlı iki monoqrafiya hazırlamışdı.

Zərifə xanım gözün travma ilə mübarizəsi və profilaktikasında cərrahiyyə müalicəsinin metodik üsullarını təhlil etməklə bir neçə faydalı məsləhətlər işləyib hazırlamışdı.

O, gözdə bəzi qorxulu şişin diaqnostikasına dair əsərlərin müəllifi idi. Görkəmli alimizin daktiologiya ilə bağlı "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi", "Göz yaşı ifraz edən yolların hifzi cərrahiyyəsi" adlı monoqrafiyaları təkcə oftalmoloqların deyil, fizioloqların da maraqlarına səbəb olmuşdur. Yaxşı deyiblər: Gözlərin nurunu qoruyanlar hər hörmətə, hər tərifə layiqdir.

Görkəmli alimimiz Zərifə xanım Əliyevanın müəllifi olduğu "İridodiaqnostikanın əsasları" adlı nadir əsəri həm də oftalmoloq həkimlərin geniş yayılmış dərsliyidir.

Zərifə xanım həkim etikası və tibbi deontologiya məsələlərinə çox böyük əhəmiyyət verirdi.

Zərifə xanım Əliyeva haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir:

"Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını, məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə, öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Zərifə xanım Əliyevanın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində daha ətraflı şəkildə əks olunmuşdu.

Bu böyük alimin ömür səhifələri yaradıcı əməyin vətənə, xalqa namusla xidmətin gözəl nümunəsidir, bütün gənclərimiz üçün əsl həyat məktəbidir.

Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Akademik Zərifə xanım Əliyeva 140 elmi əsərin, 10 monoqrafiya, 12 səmərəli təklifin müəllifi olmuşdur. Görkəmli alimimizin xalq qarşısındakı və tibb elmi sahəsindəki böyük xidmətləri yüksək qiymətləndirilmişdir.

Akademik Zərifə xanım Əliyeva əməkdar elm xadimi, professor, müxtəlif mükafatlar laureatı olmaqla orden və medallarla təltif olunmuşdur.

Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının professoru, akademik Filatov adına mükafat laureatı V.Şmelyevanın dediklərini sizə təqdim edirəm:

—Həyatda mənim bəxtim gətirib. Belə ki, taleh mənə qeyri–adi bir insanla ünsiyyətdə olmaq imkanı verib.

Zərifə xanım Əliyeva ömrünün son günlərinədək mənim yaddaşımda məhz həyatda olduğu kimi qeyri–adi insan olaraq qalacaq. Zərifə xanım, hər heydən əvvəl, həyat sevgisi və maraq dairəsinin böyüklüyü ilə fərqlənirdi: – O, həkim–oftalmoloq sənətinin vurğunluğu, elmi–tədqiqatlara çox vaxt sərf edirdi. O oftalmologiyada yeni, çox çətin və az öyrənilən bir sahəni araşdırmış, bu tipli xəstəliklərin profilaktikasına və müalicəsinə böyük töhfə vermişdir. Zərifə xanım həyatda olduğu kimi, elmdə də özünə tapdanmış yol seçməmiş, elmin az öyrənilən, lakin inkişafı günün tələbi olan sahələrini araşdırmışdı.

Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu "Əvəzolunmaz insan haqqında povest" adlandırardım.

Zərifə xanım böyük və tanınmış bir nəslin nümayəndəsi idi. Atası məşhur ictimai–siyasi və dövlət xadimi Əziz Əliyev uzun müddət məsul vəzifələrdə çalışarkən müxtəlif təzyiqlərlə üzləşmişdi. Amma sınmamışdı. Dövrün sayılıb–seçilən ziyalısı, dövlət xadimi olmuşdu.

Əziz Əliyevin keçdiyi böyük bir ömrü bir də onu təsdiqlədi ki, vəzifələr insanı zənginləşdirmir, insanlar vəzifələri zinətləndirirlər.

Zərifə xanım əsl ziyalı ailəsindən idi. Ata nənəsi Əziz Əliyevin anası Zəhra xanım İrəvanın adlı–sanlı adamlarından sayılan İbrahimbəy Süleymanbəyovun qızı idi. Nəcabətli, varlı–hallı bəy nəslindən olan Süleymanbəyovlar ailəsi İrəvanda tanınmış köklərdən idi.

Zərifə xanım Əliyeva ölkənin birinci şəxsinin, Heydər Əliyevin ömür–gün yoldaşı idi. Lakin bu amillər heç də onun sadəliyinə mane olmurdu. Bu sadəlik, alicənablıq onun soykökündən, nəslindən, nəcabətindən gəlirdi.

Deyirlər: Qadın–həyata can verən, insanı yaşadan Allahdan sonra ikinci qüdrət sahibidir!..

Zərifə xanım qeyri–adi qadın idi. Görkəmli alim həyatını elmə, işə həsr etsə də, ailəsinə diqqəti, məhəbbəti ön cərgədə idi.

Qüdrətli dövlət başçısı Heydər Əliyev ömrünün axırına kimi Zərifə xanıma olan məhəbbətini heç nə ilə dəyişmədi. Yaxşı deyiblər: yarananları yaşatmaq eşqi ilə yaşayanlar dünyanın ən gözəl, ən xeyirxah adamlarıdı.

Zərifə xanımın piano arxasına keçməsi onun müşayiəti ilə ulu önədrimizin "Üzüyümün qaşı füruzədəndir", "Küçələrə su səpmişəm" xalq mahnısını ifa etməsi, sözün əsl mənasında, ailə xoşbəxtliyinin məhəbbət haqqında dastanı idi.

Zərifə xanım sözün bütün mənalarında böyük azərbaycanlı qadınıdır. Görkəmli alimimiz Zərifə xanım Əliyeva Azərbaycan tibb elminin korifeylərindən biri, böyük ziyalı, böyük qadın, böyük ana, Azərbaycan qadınının simvoludur.

Zərifə xanım övladlarına çox bağlı bir ana idi. O, ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun davamçısı cənab Prezidentimiz İlham Əliyev kimi xalqına, torpağına, millətinə bağlı bir insanın anasıdır.

Yaxşı deyiblər: "Bir xalqın gələcək nəslinin ağıllı–kamallı olması üçün o xalqın kamil anaları olmalıdır".

Zərifə xanımın xatirəsi oftalmoloq alim, nəcib, xeyirxah insan, anaların anası kimi Azərbaycan xalqının qəlbində yaşayır, yaşayacaqdır.

Zərifə xanım bir ətirli bahar günündə dünyaya gəlmişdi. Bu ətirli bahar günlərində onu sevənlər vətən torpağının ən gözəl güllələrindən, çiçəklərindən dəstə bağlayıb onu yad etməyə, ziyarət etməyə gəlirlər.

İllər illərə calanır. Vaxt, zaman Zərifə xanım Əliyevanın adını, şöhrətini gələcəyə aparır. Zərifə xanım müstəqil Azərbaycan dövlətinin baş memarı və qurucusu, bütün mənalı ömrünü vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin, ümummilli liderimiz Heydər Əliyevin vəfalı ömür–gün yoldaşı, sədaqətli dostu, etibarlı silahdaşı, həm də böyük bir xalqa arxa olan insana arxaydı.

**Respublika.-**2013.-30 aprel.-№ 90.-S.8.

# Nura can atan böyük qəlb sahibi

**Əhliman ƏMİRASLANOV,**
akademik, SSRİ Dövlət Mükafatı laureatı,
Milli Məclisin deputatı

**“Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam”.**

**Heydər ƏLİYEV**

Bütün tarixi mərhələlərdə xalqın döyünən qəlbi, cəmiyyətin düşünən beyni olan ziyalılar həm də milli yaddaşın, milli ruhun daşıyıcısı kimi elm zirvəsinə ucalmışlar. Həyat amalı, nəcib məqsədləri ilə çoxlarından fərqlənən bu şəxsiyyətlərin yaradıcılıq ruhu həm də onların özünütəsdiq əzmindən qaynaqlanmışdır. Tanrının bəxş etdiyi ömür payını ləyaqətlə yaşayan, həyatının mənasını nəcib, xeyirxah əməllərdə taparaq bütövlükdə xalqının tərəqqisinə, maariflənməsinə əvəzsiz töhfələr vermiş zəngin mənəviyyat sahibləri, bu mənada, seçilmiş insanlardır. Bu insanlar gördükləri işlərlə təkcə yaxın çevrəsinin – dostlarının, yaxınlarının deyil, el-obasının sevimlisinə çevrilmiş, bütövlükdə cəmiyyətin tükənməz rəğbətini qazanmışlar. Bununla həm də mənəvi ucalığa qovuşan belə təmənnasız ziyalılar qərinələr boyu xalqımızın özünəməxsus nəcib keyfiyyətlərini, zəngin mənəvi aləmini parlaq şəxsiyyətlərində, savab əməllərində təcəssüm etdirmişlər.

Mənalı ömür yolu, peşə fəaliyyəti və elmi yaradıcılığı insanlıq üçün mənəviyyat, kamillik, müdriklik örnəyi olan Zərifə Əziz qızı Əliyeva da məhz belə nurlu insanlardan biri kimi milyonların qəlbində yaşayır, dərin ehtiramla, rəğbətlə anılır. Tibbin mühüm sahəsi olan oftalmologiya elmi sahəsində uzun illər dəyərli tədqiqatlar aparan, intellektual səviyyəsi, özünəməxsus tədqiqatçılıq məharəti, qələminin qüdrəti ilə elmin ən uca mərtəbələrini fəth edən Zərifə Əliyeva görkəmli alim, müəllim, ictimai proseslərdə fəal Azərbaycan qadını kimi milli elm tarixinə sanballı möhürünü vurmuşdur.

Yüksək yaradıcılıq duyumu ilə fərqlənmək qabiliyyətini, ilk növbədə, insanın kamillik səviyyəsi, şəxsi ləyaqət hissi, sağlam həyat tərzi dünyaya gətirir. Filosoflar əsrlər boyu böyük şəxsiyyətlərin həyat qayəsini açmağa çalışaraq son nəticədə bu qənaətə gəlmişlər ki, başlıca tərbiyəvi faktor bu fenomenal insanların formalaşdığı mühitdir. Görkəmli oftalmoloq Zərifə Əliyeva çox nəcib bir ailədə – ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Yüksək vətəndaşlıq ruhunun daşıyıcısı olmuş Əziz Əliyev ictimai məsuliyyətini dərindən dərk edən ziyalı olaraq daim xalqına, dövlətinə ləyaqətlə xidmət etmiş, övladlarını da bu ruhda böyüdüb ərsəyə çatdırmışdır. Mərhum akademik M.Topçubaşov Əziz Əliyevi təkcə görkəmli tibb xadimi deyil, həm də “cəmiyyəti müalicə edən həkim” hesab edirdi.

Zərifə xanımın anası Leyla xanım da Azərbaycan qadınına xas bütün nəcib keyfiyyətləri xarakterində cəmləşdirmişdi. Həyat tərzinə görə çox sadə davranmağı sevən bu xanım övladlarına da təvazökar olmaq mədəniyyəti aşılamışdı.

Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuş Zərifə Əliyeva orta məktəb illərindən yüksək zəkası, bilik və bacarığı, istedadı ilə fərqlənmiş, gələcək həyat yolunu düzgün müəyyənləşdirmişdir. İnsanlara şəfqət və mərhəmət arzusu ilə həyatını tibb elminə bağlamaq istəyini qətiləşdirərək 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində peşəkar həkim kimi yetişməyi qarşıya məqsəd qoyan Zərifə Əliyeva bu istəyinə doğru əzmlə irəliləmişdir. Onunla bir qrupda, eyni kursda oxuyan məzunların xatirələrində qeyd edildiyi kimi, Zərifə xanım fitri istedada, dərin zəkaya, geniş dünyagörüşə, yüksək mədəni səviyyəyə malik bir tələbə idi. O, tibbi fənlərlə yanaşı, digər fənlərin də tədrisinə eyni dərəcədə maraq göstərir, hərtərəfli biliyə malik həkim kimi formalaşırdı.

Hələ tələbəlik illərindən tibb elminin öyrənilməsinə böyük həvəs göstərən Zərifə Əliyeva təhsil ocağında keçirilən tələbə elmi toplantılarında məruzələrlə çıxışlar edir, sərbəst mülahizələr yürüdür, dəyərli nəticələr çıxararaq tanınmış alimlərlə fikir mübadiləsi aparırdı. Müasirləri, həmyaşıdları onu həm də gözəl musiqi bilicisi kimi tanıyırdılar. Çünki o, hələ orta məktəbdə oxuyarkən paralel olaraq musiqi təhsili də almışdı; fortepianoda ifası qəlbləri riqqətə gətirirdi.

Zərifə Əliyevanın bütün varlığı ilə göz həkimliyinə – oftalmologiya elminə bağlanması, ilk növbədə, dövrün gerçəkliklərindən irəli gələn sosial-mənəvi tələbat idi. Həmin dövrdə Azərbaycanda görmə orqanını zədələyən, ağır fəsadlara, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılsa da, ona qarşı təsirli üsullar, demək olar ki, yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə

məsələsi təkcə oftalmologiya elminin deyil, bütövlükdə respublika səhiyyəsinin qarşısında vacib problem kimi dururdu. Belə bir zamanda Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilinə və həyata keçirilməsinə fəal dəstək verirdi. Konkret müalicə təcrübəsindən əlavə, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirmə tədbirlərində yaxından iştirak edirdi. Həmin dövrdə respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən, gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını, profilaktika tədbirlərini işləyib hazırlamaq da ciddi tələbata çevrilmişdi. Zərifə xanım nursuz gözlərə işıq paylamaq, Günəşin, Ayın hüsnünə, təbiətin çoxçalarlı rənglərinə, füsunkar gözəlliyinə həsrət qalan insanlara həyat eşqini qaytarmaq arzusunda idi.

Məhz bu ülvi arzu onu Moskva şəhərinə aparmış, Zərifə xanım Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına mükəmməl şəkildə yiyələnmişdir. Kursu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə dönərək 1949-cu ildən Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. 1950-ci ildə isə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını da davam etdirmişdir. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini məhz traxoma xəstəliyinin müalicəsinə həsr etmişdir.

Ümumdünya Səhiyyə Təşkilatının həmin dövr üçün məlumatında dünyada 400 milyona qədər insanın traxoma xəstəliyinə tutulduğu, bunun nəticəsində 80 milyondan çox insanın kor olduğu bildirilirdi. O vaxt traxoma xəstəliyinin müalicəsinə zəmin yarada biləcək güclü təsirə malik dərman preparatları da mövcud deyildi. İkinci Dünya müharibəsindən yenicə çıxmış ölkənin iqtisadi-siyasi durumu qənaətbəxş olmadığından, ümumi vəziyyətin nikbin qiymətləndirilməsinə əsas verən hansısa amil yox idi. Belə bir vəziyyətdə qətiyyən ruhdan düşməyən Zərifə Əliyeva elmi axtarışlarını davam etdirmiş, əsl vətəndaş mövqeyində dayanaraq ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlayaraq həyata keçirməyə başlamışdır. İşin çətinliyinə, məsuliyyətinə baxmayaraq, tezliklə bu sahədə böyük nəticələr əldə etmişdir. İstedadlı tədqiqatçı traxomanın müalicəsində o dövrün güclü antibiotiklərindən hesab edilən “Sintomisin”dən isifadə etməklə, yeni üsul tətbiq etmiş, uğurlu nəticələrə nail olmuşdur.

Zərifə Əliyeva yerinə yetirdiyi elmi istiqamətlərinin nəticələrinə əsasən, 1959-cu ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə “Sintomisin”lə müalicəsi” mövzusu üzrə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsinə yiyələnmişdir. Onun təklif etdiyi müalicə metodunun tezliklə respublikada tətbiqinə başlanılmış, beləliklə, ciddi bir göz xəstəliyinin həllində əsaslı dönüşə nail olunmuşdur. Bu baxımdan, dünya oftalmoloqları traxomanın sosial xəstəlik kimi ləğvində Zərifə Əliyevanın tarixi xidmətlərini bu gün də böyük ehtiramla qeyd edirlər.

Görkəmli alim oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə də sanballı tədqiqatlar aparmış, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı mühüm nəticələr əldə etmişdir. Həmin tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin müntəzəm olaraq mətbuatda dərci klinik göz xəstəliyi sahəsində çalışan həkimlər üçün əhəmiyyətli istinad mənbəyi olmuşdur. Böyük alimin tədqiqatlarının mühüm bir istiqamətini də oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının peşə patologiyası təşkil etmişdir. Həmin dövrdə problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin sürətli inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiq olunmaması ilə şərtlənirdi. 1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə bu problemlə məşğul olmağa başlamış, peşə ilə əlaqədar əmələ gələn göz xəstəliklərinin araşdırılmasına xüsusi maraq göstərmişdir. Eyni zamanda, yod sənayesi, neft-kimya müəssisələrində çalışan şəxslərin görmə orqanlarına təsir edən amilləri geniş tədqiq etmişdir.

Tədqiqatçılıq həvəsi yüksək olan alim problem üzərində işləyərkən çox vaxt bilavasitə sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri müayinədən keçirirdi. Bununla yanaşı, Bakı və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov xatirələrində yazır: “O, tibb elmi sahəsində elə tədqiqatlar aparırdı ki, fikrimcə, burada vəziyyət bir qədər paradoksal şəkil almışdı… Bizim zəmanədə tam dəyərli əmək fəaliyyəti üçün görmə vəziyyətinin yaxşı olması nəinki çox vacibdir, həm də müasir cəmiyyətdə ona tələbat ildən-ilə artır. Bununla yanaşı, indiyə qədər həmin mövzuya həsr olunmuş ümumiləşdirilmiş elmi əsərlər yoxdur, yalnız ayrı-ayrı fraqmentlər mövcuddur ki, bunlar da elmi sistemdən hələ ki çox uzaqdırlar. Zərifə Əziz qızı kimi sosial həssaslığa malik olmaq lazım idi ki, öz istedadını olduqca çətin, mürəkkəb və xeyirxah, eyni zamanda, heç də həmişə layiqincə qiymətləndirilməyən bir məsələnin xidmətinə sərf edəsən”.

1960-1967-ci illərdə Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışan Zərifə Əliyeva elmi təşkilatçılıq qabiliyyəti ilə fərqlənmişdir. Tədqiqatçı alim göz xəstəliklərinin diaqnostika, müalicə

və profilaktikasının düzgün təşkili ilə yanaşı, yeni laboratoriyalar yaradır, insan sağlamlığı amilini daim ön plana çəkirdi. Respublikanın müxtəlif şəhər və rayonlarında zərərli iş şəraitinin törətdiyi göz xəstəliklərini, eləcə də insan orqanizminin digər xəstəliklərini aşkar edir, həm onların müalicəsinə, mənfi təsirlərdən qorunmalarına, həm də əmək müəssisələrinin ekologiyasına hərtərəfli diqqət yetirirdi. Zərifə xanım peşə amillərinin törətdikləri göz xəstəliklərini və bütövlükdə orqanizmi tam şəkildə müalicə etməklə, təkcə məşhur alim-oftalmoloq kimi deyil, həmçinin təşkilatçı alim-ekoloq kimi də şöhrət qazanmışdır.

Elmi-tədqiqat işləri ilə yanaşı, Zərifə Əliyeva pedaqoji fəaliyyətlə də məşğul olmuş, biliklərini gənc nəsildən əsirgəməmişdir. 1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında da pedaqoji fəaliyyətə başlayaraq əvvəlcə kafedranın dosenti, professoru, daha sonra müdiri vəzifəsində çalışmış, həkimlərin diplomdan sonrakı hazırlıqlarının tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmışdır. Onun təkmilləşmə kursu keçən həkimlərə oxuduğu mühazirələrin, apardığı praktik məşğələlərin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi kimi mühüm istiqamətlər təşkil edirdi. Həmin dövrdə Zərifə Əliyeva praktik həkimlik fəaliyyəti ilə də məşğul olmuşdur: bir çox cərrahiyyə əməliyyatları aparmış, xəstələrə məsləhətlər vermiş, üstəlik onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmamış, bütün oftalmologiya təşkilatlarını, şöbələrini əhatə etmişdir. Bununla yanaşı, o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparmışdır.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə Əliyevaya doktorluq dissertasiyası üzərində işləmək imkanı yaratmışdır. O, 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda dissertasiya işini uğurla müdafiə edərək əsl elm xadimi olduğunu bir daha təsdiqləmişdir. Dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilmişdir. 1977-ci ilin əvvəllərində tibb elmləri doktoru elmi adına layiq görülmüş Zərifə Əliyeva Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda bir sıra səmərəli elmi-tədqiqat işlərinin təşkilatçısı olmuşdur. Görkəmli alim burada ətrafına istedadlı gənc həmkarlarını toplayaraq elmi-tədqiqat işlərini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bilmişdir.

Zərifə xanım oftalmologiya elminin qlobal problemlərinin elmi həlli yolunda bir sıra konkret təşəbbüslərlə çıxış etmiş, 1977-ci ildə onun təklifi ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Belə bir möhtəşəm tədbir respublikamızda ilk dəfə keçirildiyindən böyük təşkilatçılıq bacarığı, gərgin zəhmət və təcrübə tələb edirdi. Akademik Zərifə Əliyeva bu işlərin öhdəsindən uğurla gəlmiş, Bakıda yüksək səviyyədə təşkil olunmuş plenum ümumən keçmiş ittifaqda böyük maraqla qarşılanmışdır.

Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü də bəyənmişdir. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda Zərifə xanımın rəhbərliyi ilə yaradılmış laboratoriyada az intensivli zərərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparılmışdır.

Hər bir alimin əbədiyaşarlığını təmin edən mühüm amillərdən biri də onun özündən sonra qoyub getdiyi mükəmməl elmi məktəbdir. Akademik Zərifə Əliyevanın böyük zəhmət hesabına ərsəyə gətirdiyi dərs vəsaitləri, dərsliklər, elmi monoqrafiyalar bu gün təkcə Azərbaycanın deyil, ümumilikdə dünya oftalmologiyasının sanballı xəzinəsinə çevrilmişdir. Bu əsərlər arasında “Kəskin virus konyunktivitləri”, “Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar”, “Qlaukoma və gözün hipertenziyası”, “Görmə orqanının zədələnməsi”, “Göz yaşı axmasının fiziologiya və histologiyası”, “Şəkərli diabetdə göz xəstəlikləri”, “Gözün mikrocərrahiyyəsi”, “Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası” və başqaları elmi ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Alim göz yaşı aparatı xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi

“Yaşaparıcı yolların fiziologiyası”, “Yaşaparıcı yolların cərrahi müalicəsi”, “Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları” və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur.

Bunlarla yanaşı, Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan “İridodiaqnostikanın əsasları” rəngli illüstrasiyalarla “Azərnəşr” tərəfindən, digər monoqrafiya isə “İridodiaqnostika” adı ilə 1988-ci ildə Moskvada nəşr edilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya dair ilk kitabları məhz akademik Zərifə Əliyeva yazmışdır.

1980-ci ildə Zərifə Əliyevanın “Şin istehsalında gözün peşə patologiyası”, “Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası”, “Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri” adlı üç monoqrafiyası oftalmologiya elminə sanballı töhfə olmuşdur. Alimin bir sıra elmi işləri görmə orqanında bədxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur. Onun daktriologiyadan bəhs edən – “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi” monoqrafiyaları təkcə oftalmoloqların deyil, həm də fizioloqların diqqətini cəlb etmişdir. Alim müasir dövrdə də hər bir oftalmoloqun

stolüstü kitabı olan “Terapevtik oftalmologiya” əsərinin müəlliflərindən biridir. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) əksini tapmışdır. Bu kitab həm həkim-oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün böyük əhəmiyyətə malikdir.

1980-ci ildə professor Zərifə xanım Əliyevaya elmi xidmətlərinə və pedaqoji kadrların hazırlanmasındakı fəaliyyətinə görə Əməkdar elm xadimi fəxri adı verilmişdir. 1981-ci ildə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işlərinə, o cümlədən “Şin istehsalında gözün peşə patologiyası” monoqrafiyasına görə dünya şöhrətli alim oftalmologiya sahəsində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyası tərəfindən akademik M.İ.Averbax adına mükafata layiq görülmüşdür. SSRİ-də belə yüksək mükafata layiq görülən ilk qadın olması onun fitri istedadını və alimlik keyfiyyətlərini bir daha parlaq təcəssüm etdirirdi. 1983-cü ildə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir. Zərifə Əliyeva heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiyyəti və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Akademik Zərifə Əliyeva bütün fəaliyyəti boyu həkimlik etikasını uca tutmuş, insan sağlamlığını ictimai sərvət, insanların gözlərinə nur bəxş olunmasını isə bəşəri humanizm kimi dəyərləndirmişdir. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, “Yüksək etimad” kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə olmuşdur. Görkəmli alim yazırdı ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır, bəzən dava-dərmandan da güclü təsir göstərir. O, həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Akademik Zərifə Əliyeva həmkarlarına həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi insanı sağaltmaqla onu öz məninə qaytarmaq idi. Bu baxımdan, yüksək peşəkarlığı ilə həmkarları arasında seçilən alim hesab edirdi ki, tibb elminin fəlsəfəsini dərk etmək üçün, ilk növbədə, sağlam mənəvi-intellektual mühit, bütün tibb ictimaiyyətinin mənəvi-əxlaqi meyarlara yiyələnməsi tələb olunur. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir.

Bütün bu etik-fəlsəfi meyarlara hörmətlə yanaşdığı üçün akademik Zərifə Əliyeva yüksək etik-davranış təcəssümü kimi xatırlanır. Tanınmış həkim A.P.Nesterov xatirələrində yazır: “Mən onu öz sahəsinin böyük alimi sayıram: həm oftalmologiya, həm də xüsusilə peşəkar oftalmologiya sahəsində. Oftalmologiya sahəsində o, bir nömrəli alim idi. Peşəkarlıq zirvəsinə Zərifə xanım ona görə yüksələ bilmişdi ki, həkim olmaq, insana tibbi yardım göstərmək məsuliyyətinin əxlaqi-fəlsəfi mahiyyətini bütünlüklə dərk etmiş, bunu tam dünyagörüşü dəyərinə çevirə bilmişdi. Belə bir peşə amalı hər kəsə müyəssər olmur.

Həkimlik sənətini insana sevgi əxlaqından ayırmayan Hippokrat demişdi: “İnsana sevgi olan yerdə sənətə də məhəbbət var”. Zərifə xanım bütün peşəkar həkimlik fəaliyyəti boyu əsrlərin əxlaqi sınağından çıxmış bu ülvi həqiqətə xidmət göstərmiş, nümunəvi həkim-xəstə münasibətlərini gənclərə yadigar qoyub getmişdir”.

Didro yazırdı ki, düzgün həyat tərzi qəlbin içindən gəlir. Lakin həyatın mürəkkəblikləri ilə romantizm çox zaman uyğun olmur. İnsan öz həyat tərzini düşünərkən cəmiyyətin bütün proseslərinin mahiyyətini irəlicədən ölçüb- biçə bilmir. Bu mənada, Zərifə xanımın şəxsiyyətinin mühüm etik mənası onun öz yaradıcılığına yüksək intellektual səviyyədə yanaşmasında, fəal mövqe seçə bilməsindədir. İctimai həyatda fəallığı ilə seçilən fədakar alim keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin üzvü, keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü kimi cəmiyyətin tibbi maarifləndirilməsi prosesində yaxından iştirak etmişdir.

Çoxşaxəli, gərgin fəaliyyətinə baxmayaraq, Zərifə Əliyeva həmişə qadın incəliyini və zərifliyini qoruyub saxlaya bilirdi. Hər kəsin qəlbinə yol tapmağı bacaran bu nəcib insan təkcə öz həmkarları ilə yox, sadə peşə adamları, alimlər, mədəniyyət və incəsənət xadimləri ilə də asanlıqla ünsiyyət qurur, həmişə ətrafında xeyirxahlıq mühiti yaratmağa nail olurdu. Bütün bunlarla yanaşı, Zərifə xanım Əliyeva qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı, yüksək mənəviyyat sahibi olmuşdur.

Bu gün istər ulu öndər Heydər Əliyevin, istərsə də ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyevanın həyata keçməyən ideyalarının gerçəkləşməsində möhtərəm Prezident İlham Əliyevlə birgə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva da yaxından iştirak edir. Yüksək dəyərləri öz şəxsiyyətində cəmləyən Azərbaycan qadını kimi Mehriban xanım Əliyeva demokratik inkişaf, hüquqi dövlət quruculuğu yolunda sürətlə irəliləyərək sivil dəyərləri əxz edən Azərbaycan cəmiyyətinin həyatına birinci xanım ənənəsini də gətirmişdir. Əslində, nə

vaxtsa çağdaş dünyanın bizim dövlətçilik irsimizdən mənimsədiyi, tarixin hansısa mərhələsindəsə unutduğumuz bu ənənələrin müstəqil Azərbaycan dövlətində yenidən bərpası faktı məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Onun həyat müəllimləri isə, özünün də qeyd etdiyi kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Azərbaycan qadınının şərəf mücəssəməsi Zərifə xanım Əliyeva olmuşlar. Azərbaycanın birinci xanımı peşə seçimində görkəmli oftalmoloq Zərifə Əliyevanın təsirini də səmimi şəkildə vurğulayır: "…İxtisas seçimimə İlhamın anası – həkim-oftalmoloq Zərifə xanım təsir göstərmişdir. Çox təəssüf ki, Zərifə xanım ilə ünsiyyətimiz çox çəkmədi. Biz 1983-cü ildə tanış olduq, 1985-ci ildə isə o, dünyasını dəyişdi. Bu istedadlı və gözəl qadınla bağlı ən xoş xatirələrim qalmışdır".

Fərqli zaman və məkanlarda xalqın döyünən qəlbi, düşünən beyni sayılan belə ziyalılar milli yaddaşın, milli ruhun daşıyıcısı olaraq mənəviyyat və kamillik zirvəsinə ucalmış, elm yolunda parlaq ulduzlara çevrilmişlər. Belə şəxsiyyətlər həyatın bütün sevincini, şirinliyini istedadın onları məhkum etdiyi ağır zəhmətdən almış, mənəvi zənginliyi nəfsani nemətlərdən üstün tutmuşlar. Həyatla vaxtsız vidalaşmasına baxmayaraq, akademik Zərifə Əliyeva məhz bu ali mənəvi keyfiyyətləri sayəsində qədirbilən xalqımızın qəlbində daim yaşayır, hörmətlə, ehtiramla anılır. Zərifə xanımın alim, həkim, pedaqoq və insan kimi mənalı ömrü, keçdiyi şərəfli həyat yolu həyat və mənəviyyat dərsi, müdriklik məktəbi olaraq qalır.

**Azərbaycan.-**2013.-28 aprel.-№ 90.-S.7.

## Bir ömrün sönməz işığı

**Nurlana ƏLİYEVA,**
filologiya elmləri doktoru, professor, YAP Qadınlar Şurasının sədri

**“Dünya bir pəncərədir, hər gələn baxar, gedər” – deyiblər. Lakin tarix boyu elə şəxsiyyətlər olub ki, bu pəncərədən yalnız baxmaqla kifayətlənməyib, elə yaşayıb–yaradıblar ki, özlərindən sonra da ürəklərdə silinməz izlər qoyub gediblər. Gələcək nəsillər dünya pəncərəsindən baxdıqca onların saf əməllərini görərək dönə-dönə ibrət, nümunə götürüblər.**

Xoşbəxtlikdən, dönüb uzaq və yaxın tariximizə boylansaq, neçə-neçə belə böyük şəxsiyyətlər, nurlu simalar görərik. “Nurlu” sözünü təsadüfən işlətmədim. Çünki bu günlərdə 90 illiyi tamam olan görkəmli alim və həkim, Azərbaycan xalqının ləyaqətli övladı akademik Zərifə xanım Əliyevanı bir daha dönə-dönə yad edirik. XX əsrdə yaşayıb yaratmış bu xanımı hər dəfə xatırlayanda ruhu qarşısında minnətdar oluruq. Tək ona görə yox ki, əllərinin şəfası, zəkasının nuru ilə minlərin qaranlıq dünyasına işıq bəxş edən oftalmoloq alim kimi neçə-neçə insanın gözlərini müayinə, müalicə və əməliyyat edib. Söhbət həm də bu böyük insanın qəlbinin nurundan, xalqı, ailəsi, övladları, bir sözlə, ətrafındakıların hamısı üçün yanar ürəyindən gedir. Söhbət milli-mənəvi ruhunu, ömrünü insanlığın yolunda şam kimi əridən bir fədakar ali anadan, şəxsiyyətdən gedir.

“Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazmış olsaydım, heç şübhəsiz, onu “Əvəzolunmaz insan haqqında povest” adlandırardım”. Bu sözləri Zərifə xanımı yaxından tanıyan məşhur rus tibb alimlərindən biri deyib. Həmkarı Zərifə xanımı həqiqətən də, çox yaxşı tanıyırmış. O, doğrudan da, təkrarsız bir insan idi. Həkim kimi qayğıkeşliyinin, alim kimi axtarışlarının, həyat yoldaşı kimi vəfasının, ana kimi cəfakeşliyinin, həmkar kimi sadəliyinin, ictimai xadim kimi insanlarla ünsiyyət yaratmaq bacarığının yalnız özünəməxsus çalarları vardı.

Təsadüfi deyil ki, elm və mərifət sahiblərini, qəlbində böyük eşq gəzdirənləri yüksək qiymətləndirən ulu şairimiz Nizami alimin rütbəsini bütün rütbələrdən uca saymışdı. Əgər alim, üstəlik, cənnət ayaqlarının altında olan anadırsa, onda bu ucalığın necə bir zirvəyə çatdığını təsəvvür etmək çətin deyil.

Zərifə xanım valideynlərinin ona verdiyi ada layiq bir xanım idi. Onu yaxından tanıyanların, bir sahədə işləyənlərin, ictimai-mədəni tədbirlərdə birgə iştirak edənlərin hamısı onu belə xatırlayır. Başqa sözlə, Zərifə xanım zərif və nəzakətli, alicənab və ziyalı bir Azərbaycan qadını idi. Onun xarakterini hər məziyyətdən əvvəl məhz sadəlik, səmimilik, ölçülüb-biçilmiş hərəkət və davranış, böyük mədəniyyət səciyyələndirirdi. Xeyirxahlığı onu hamıya sevdirirdi. Laqeydlik nə olduğunu bilməzdi, dara düşənə kömək edərdi.

Bir nəfər isə onu fərqli bir məhəbbətlə sevirdi. Öz sevgisi uğrunda çox çətin sınaqlardan çıxdığını sübut etmiş, bununla da, məhəbbəti yolunda mübarizə, dözüm, qətiyyət nümunəsi göstərmişdi. Bu, az sonra dünyanın siyasət aləmində imzası ilə seçilən böyük azərbaycanlı Heydər Əliyev məhəbbəti idi. Bu müqəddəs duyğu onları yumruq kimi birləşdirmişdi. Bu məhəbbət hər iki ömrün son günlərinə qədər olmuşdu. Zərifə xanım son nəfəsinədək ömür-gün yoldaşını başının tacı bilmişdi. O böyük insan isə Zərifəsindən sonra nə az, nə çox – düz 18 il ömrünün böyük məhəbbətinin nisgilini yaşamışdı.

Hər birimiz şahidik ki, Heydər Əliyev kimi polad iradəli bir insan, qüdrətli bir şəxsiyyət yalnız onun, sonsuz məhəbbətlə sevdiyi qadının xatirəsi qarşısında kövrəlirdi. Və elə yeri gəlmişkən deyim ki, bu saf məhəbbət, İlahi duyğu, sevənlərin yeni-yeni nəsillərinə örnək olmalıdır.

Böyük filosoflar və pedaqoqlar əsrlər boyu insanların həyat qayəsini açmağa çalışarkən bu qənaətə gəliblər ki, başlıca amil tərbiyəvi faktor, insanın formalaşdığı ailə mühitidir. Bu baxımdan tale Zərifə xanımın üzünə gülmüşdü. O, nəcib bir ailədə – görkəmli ictimai-siyasi və dövlət xadimi, tanınmış təbib, alovlu vətənpərvər Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Zərifə xanım Əliyevanın hər bir insanın həsəd apara biləcəyi yüksək keyfiyyətlərinin formalaşmasının kökündə məhz Əziz Əliyev ailəsinin sadə dolanışığı, xeyirxah, nəcib, diqqətli, qonaqpərvər ruhu, burada qərarlaşan mənəvi ovqatın təmizliyi durur. Bu ailənin övladlarının hamısını məhz bu keyfiyyətlər fərqləndirirdi.

Əziz müəllim və əslən bəy nəslindən olan Leyla xanım övladlarını, o cümlədən Zərifəni sonsuz bir məhəbbətlə sevib bəsləyirdilər.

Azərbaycan xalqının tarixində özünəməxsus rolu olan Əziz Əliyev ailəsi sovet dövrünün tipik ziyalı ailələrindən biri idi. Bu ailənin dünyaya pəncərəsi Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun məşhur Şahtaxtlı kəndindən açılmışdı. Ailə buraya 1918-ci ildə ermənilərin növbəti fitnəkarlıqları baş qaldıranda, azərbaycanlılara qarşı deportasiya siyasətinin yeni bir mərhələsi başlayanda, soyqırımı tüğyan edəndə köçmüşdü.

Əziz Əliyev o vaxt böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Peterburq Hərbi Tibb Akademiyasında təhsil alırdı. Ermənilər məkrli planlarını yenidən ortaya atanda təhsilini yarımçıq qoyaraq geriyə qayıtmış və ailəsini Şahtaxtlıya köçürmüşdü. Sonra təhsilini başa vurmuş və kəndə dönərək həkimlik fəaliyyətinə başlamışdı. Onlara böyük sevinc bəxş edən övladları da burada dünyaya gəlmişdilər.

1923-cü ildə ailə Bakıya köçməyi qərara alır. Həmin ilin yayında Bakıya gələn Əziz Əliyev tanışların köməyi ilə rus dilini yaxşı bilən gənc kimi dövlət işinə qəbul olunur və beləliklə, onun vəzifə pillələri ilə yüksəlişi başlanır.

O dövrdə ölkə sanki hərbi rejimlə işləyirdi. Həyat yoldaşı və övladları Əziz Əliyevin üzünü ancaq axşamdan-axşama görə bilirdilər. Ona görə də evdə uşaqların tərbiyəsi ilə əsasən Leyla xanım məşğul olurdu. Həmişə sadə həyat tərzini sevən bu qadın övladlarına da təvazökarlığı aşılamışdı.

Elmə, təhsilə, mədəniyyətə sonsuz həvəs və məhəbbət bəslənən bu ailədə yüksək intellektual mühit hökm sürürdü. Balaca Zərifə və onun bacı-qardaşları məhz bu mühitdə böyüyüb tərbiyə alırdılar. Uşaqlara öz həyat yollarını seçməkdə ata nümunəsinin müəyyənedici rolu oldu. Belə ki, ata tanınmış həkim idi. Üstəlik, o dövrdə həkimlik və müəllimlik cəmiyyətdə ən üstün peşələr hesab olunurdu. Müəllimin və həkimin nüfuzu xalq arasında yüksək idi. Onların hər ikisi cəmiyyətin ən savadlı, hörmətli şəxsləri sayılırdılar. Cəmiyyətdə layiqli yer tutmaq üçün təhsil zəruri vasitə sayılırdı.

Əziz Əliyev səhiyyə sistemində çalışdığından bu sahənin problemləri ailədə hamıya bəlli idi. Ölkədə həkimlər çatışmırdı. Kütləvi epidemiyalar baş alıb gedirdi, uşaq ölümü yüksək olaraq qalırdı. Bu kimi problem və çətinliklərin dəf olunması üçün böyük işlər görülürdü. Əziz Əliyev sonralar bir sıra partiya vəzifələrində işləsə də, onun ailəsində tibb elminin, təbibliyin nüfuzu yüksək olaraq qalırdı.

Bütün bunlar Zərifə xanımın qəlbində hələ kiçik yaşlardan həkim olmaq, xalqın sağlamlığı keşiyində dayanmaq arzusu doğurmuşdu. Keçən əsrin 30-cu illərində orta məktəbdə oxuyanda, xüsusilə, yuxarı siniflərdə onun gələcək sənəti ilə bağlı qərarı artıq dəqiqləşmişdi. O özünü xalqın sağlamlıq durumunun mühafizəçisi kimi görürdü. Həyat amalı da bu idi: “Elə yaşamalı, elə mübarizə aparmalıyıq ki, qəlbimizdəki xeyir həmişə qonşuluqda yaşayan şərə qalib gəlsin”.

“Elə hey düşünürəm, necə edim ki, insanlara sevinc bəxş edim”. Uşaqlıqdan bu cür düşünən qızın gələcəkdə necə böyük bir ürək sahibi olduğunu təsəvvür etmək çətin deyil! Onun ali məktəb həyatının son illəri müharibə dövrünə düşdü. SSRİ boyda nəhəng bir ölkədə ölüm-dirim savaşı gedirdi. Arxa cəbhədə – bir çox iri şəhərlərdə, o cümlədən Bakının təhsil ocaqlarının binalarında hospitallar açılmışdı. Onlar cəbhədən gəlmiş yaralılarla dolu idi. Bir çox azərbaycanlı gənc kimi Zərifə də təhsildənkənar vaxtlarında hospitallara gedir, ağır yaralılara qulluq edirdi. O, qulluq etdiyi əsgərlərə həm də mənəvi dayaq olur, onları yaşamağa ruhlandırırdı. Zəngin daxili aləmə malik olan, başqalarına sevinc bəxş etməyə can atan gənc qız bunun öhdəsindən böyük ustalıqla gəlirdi.

Zərifənin biliyə, elmə marağı böyük idi, ona görə də orta məktəbdə yaxşı oxuyurdu. Çünki yaxşı oxumağın insanların sosial statusunu, şəxsi nüfuzunu müəyyən etdiyini görürdü. Nə orta məktəb illərində, nə də ali məktəbdə oxuyarkən, elmin çətin yolları ilə irəliləyərkən o, atasının və sonralar ölkə başçısı olan həyat yoldaşının nüfuzundan qətiyyən istifadə etməmiş, sadəcə olaraq bunu istəməmişdi. Hər məqsədə özü nail olmağa çalışan Zərifə Əliyevanın qüruru buna yol verməzdi.

Əziz Əliyevin ailəsində musiqiyə böyük maraq və həvəs vardı. Bu maraq da Zərifə xanımda uşaqlıqdan özünü büruzə vermişdi. Maraqdan əlavə, onda qeyri-adi improvizasiya istedadı da var idi. Musiqi dərslərinə də gedirdi. Pianoda və akkardeonda gözəl ifa edirdi. Kiçik bacısı Gülarə ilə birlikdə evdə “konsertlər təşkil edirdilər”.

Gələcək həyatını tibb elminə həsr etməyi qəti müəyyənləşdirmiş gənc Zərifə 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutuna daxil oldu. Onun ali məktəbdə oxuduğu illər Əliyevlər ailəsi üçün çətin dövr idi. Müharibənin ən ağır illərində – 1941-1942-ci illərdə Əziz Əliyev Azərbaycan KP MK-nın katibi, sonra isə 6 il Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi işləmişdi. Böyük təşkilatçılıq bacarığını, partiya, dövlət işinə sədaqətini, ən çətin situasiyalarda belə, ən optimal qərarlar qəbul etmək qabiliyyətini nəzərə alıb onu ən çətin sahələrə göndərirdilər. Hətta bir müddət İranda da səlahiyyətli partiya işçisi kimi çalışmışdı. Bütün bunlar, təbii ki, ailəyə də təsirsiz ötüşmürdü. Evdə daim bir nigarançılıq və gərginlik hiss olunurdu. Zərifə xanım da anası ilə birgə atası üçün həyəcan keçirirdi. Belə gərgin vaxtlarda anası Leyla xanımın səbri, iradəsi, dözümü ona dayaq olurdu.

1947-ci ildə Zərifə Əliyeva Tibb İnstitutunu əla qiymətlərlə bitirdi. Lakin bu, hələ oxumağın, təhsilin sonu deyildi. Gənc həkim təbabətin ən incə, eyni zamanda, ən vacib bir sahəsini – oftalmologiyanı özünə ixtisas seçmişdi. Göz həkimi olmaq, adamlara dünyanın ən böyük, ən əvəzsiz nemətini – dünya işığını qaytarmaq arzusu onun qəlbində hələ özünü təbabətə həsr etmək qərarını verdiyi gündən çox-çox əvvəl baş qaldırmışdı. Bir gün Zərifə xanım rəfiqəsi ilə küçədə gedərkən gözləri görməyən, lakin olduqca gözəl bir qadının necə çətinliklə hərəkət etdiyini görmüşdü və bu mənzərə həssas qızın qəlbini ağrıtmışdı.

Ali məktəbdə oxuduğu illərdə müəllimi, tanınmış göz həkimi Umnisə xanım Musabəyovanın ona göz xəstəlikləri üzrə ixtisaslaşmanı məsləhət görməsi Zərifənin istəkləri ilə üst-üstə düşdü. Yaddaşında bir neçə il əvvəl müşahidə etdiyi həmin mənzərə yenidən canlandı. Sonralar həyat bu seçimin necə düzgün olduğunu sübut etdi. Zərifə xanım bu sahənin ən kamil, bütün dünyada tanınan mütəxəssislərindən biri oldu.

Seçdiyi ixtisasa daha da dərindən yiyələnmək üçün Zərifə Əliyeva 1947-ci ildə Moskvadakı Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun ordinaturasında oxumağa getdi və iki il ixtisası üzrə nəzəri və praktiki hazırlığını artırdı. O zaman bu institut SSRİ-də ən nüfuzlu elmi və klinik mərkəz idi. Burada ölkənin ən

tanınmış oftalmoloq alimləri çalışırdılar. İnstitutda əsl elmi, yaradıcı mühit var idi. Diskussiya və seminarlarda dünyadakı və ölkədəki ən son elmi yeniliklər müzakirə olunur, hərə öz fikrini, nöqteyi-nəzərini ortaya qoyurdu. Bu institutda Zərifə xanım elmi və təcrübi biliklər qazanmaqla, həkimlik sənətinin incəliklərinə yiyələnməklə bir həqiqəti də dərk etdi. Elmdə öz yolunu tapmalı, öz axtarış cığırına düşməlidir. Yaxşı həkim və alim olmağın yolu məhz bundan keçirdi.

Moskva mühiti həm də Zərifə xanımın mənəvi cəhətdən inkişafına güclü təsir göstərdi. Daim ailəsi ilə birlikdə olmuş gənc qız burada müstəqil yaşamaq vərdişləri qazandı. Müharibənin ağır izləri Moskvada da qalmaqda idi. Hər yerdə qıtlıq və yoxsulluq hiss olunurdu. Lakin müharibə səngərlərindən universitetlərə gəlmiş gənc nəsli bütün bunlar qorxutmurdu. Onlar gələcəyə, çətinliklərin aradan qalxacağına, insanların müharibəsiz dünyada, sülh və əmin-amanlıq şəraitində yaşayacağına inanırdılar. Bu inam Zərifə xanımda güclü idi. O, sonralar belə bir dünyanın qurulmasına öz əməli töhfəsini də vermişdi. Sovet Sülhü Müdafiə Komitəsi İdarə Heyətinin üzvü olmuşdu.

İki illik ordinatura başa çatdıqdan sonra Zərifə Əliyeva Bakıya qayıdaraq buradakı Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda çalışmağa, elmi fəaliyyətini davam etdirməyə başladı. İnstitutun aspiranturasına daxil oldu. Moskvada qazandığı nəzəri biliklər və təcrübə gənc araşdırıcının səmərəli işləməsinə imkan verirdi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də həm vaxtilə çiyin-çiyinə çalışdığı həmkarlarını, həm də onun irsini öyrənən gənc alimləri valeh edir.

Zərifə xanım o dövrdə, alim təzə-təzə elmi fəaliyyətə başlayanda Azərbaycanda gözü zədələyən və ağır nəticələrə, hətta tam korluğa səbəb olan traxoma adlı infeksion xəstəlik geniş yayılmışdı. Ona qarşı təsirli müalicə üsulları yox idi. Bu infeksiya və onun ağır nəticəsi ilə səmərəli mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Göz Xəstəlikləri İnstitutuna traxoma epidemiyası əleyhinə preparat və antibiotiklər hazırlamaq tapşırılmışdı. Gənc alim institutun bu yöndəki tədqiqatlarına yaxından qoşulmuşdu.

Zərifə xanım institutdakı fəaliyyəti ilə kifayətlənmir, cavan həkim oftalmoloq həmkarları ilə birlikdə tez-tez xəstəliyin daha geniş yayıldığı rayonlara gedir, ağır xəstələri müalicə edir, yerli həkimlər qarşısında elmi mühazirələr oxuyur, əhali arasında maarifləndirici söhbətlər, izahat işləri aparırdı. Məhz bu ekspedisiyaların səmərəli işi və onun üzvləri olan oftalmoloq alim-həkimlərin fədakarlığı sayəsində traxoma epidemiyası qısa bir zaman ərzində lokallaşdırıldı.

Bəzən bu təşəbbüslərə, gənc həkimin fədakarlığına ağız büzənlər də olurdu. Lakin xalqına xidmətdən dərin mənəvi zövq alan Zərifə xanım belələrinə qətiyyən məhəl qoymur, xəstələrə şəfa verməyi özünün vətəndaşlıq və həkimlik borcu sayırdı.

Gənc tədqiqatçı getdiyi ekspedisiyalarda elmi işlə bağlı çoxlu praktik materiallar toplamış, müşahidələr aparmışdı. Bütün bunları, eləcə də traxomanın müalicəsində tətbiq olunan üsulları yazdığı dissertasiya işində bacarıqla ümumiləşdirdi və 1959-cu ildə onu müvəffəqiyyətlə müdafiə edib tibb elmləri namizədi alimlik dərəcəsi aldı.

Tale Zərifə xanıma bir qadın gözəlliyi və cazibədarlığı da bəxş etmişdi. Onun xarici görkəmi, gür saçları, sifətinin mütənasib cizgiləri, açıq alnı, qaynar, qara gözləri vardı. Şəhərin say-seçmə gözəllərindən, ağır oturub, batman gələn gənc qızlarından biri sayılırdı. Lakin illər ötsə də, o, heç kəsə könül verməyib, öz qismətini gözləyirdi. Elmdə realist olduğu qədər həyatda, xüsusən də, sevib-sevilmək məsələsində romantik olan Zərifənin məhəbbət haqqında öz qənaətləri var idi. Bu qənaətlərini hələ ilk gənclik çağlarında rəfiqələrinin biri ilə bölüşərkən demişdi ki, “əgər mən qəlbimi kiməsə versəm, dəxli yoxdur, bu sevgi ağır olsun, ya da mənə sevinc bəxş etsin, bircə şeyi bilirəm ki, eşqimi bütün ömrüm boyu ürəyimdə daşıyacağam”.

Onun qisməti, qəlbində gözlədiyi insan 1951-ci ildə gəldi. Bu, gələcəyin böyük siyasətçisi, Zərifə Əliyevanın ona verdiyi sevgini ömrünün sonuna qədər ən dəyərli əmanət kimi qoruyub saxlayacaq görkəmli dövlət xadimi Heydər Əliyev idi. O vaxt dövlət təhlükəsizliyi orqanlarında işləyən gənc Heydər Əliyevin arabir Əziz müəllimgilə yolu düşürdü. Çünki Əziz Əliyevin şəhərin mərkəzində yerləşən mənzili o vaxt ziyalıların, tanınmış elm, sənət adamlarının bir növ, görüş yeri idi. Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Səməd Vurğun, Qara Qarayev, Bülbül, Niyazi, Mirəsədulla Mirqasımov və başqaları buraya tez-tez gəlirdilər. Heydər Əliyevin qardaşı, tanınmış alim Həsən Əliyevin də Zərifənin atası ilə ailəvi yaxınlığı vardı. Zərifə ilk gündən Heydər Əliyevin diqqətini cəlb etmişdi. Qız da bunu duymuş və qəlbində bu mavi gözlü, ucaboylu, təndürüst, rus və Azərbaycan dillərində səlis danışan gənc oğlana qarşı məhrəm duyğular baş qaldırmışdı. Bu, gələcəkdə böyük şəxsiyyətlər olacaq iki nəfərin arasında sonralar yaranmış və öz möhkəmliyi, aliliyi ilə örnəyə çevrilmiş məhəbbətin ilk cücərtiləri idi. Tezliklə gənc zabit qızın qəlbinə hakim oldu və onlar görüşməyə başladılar. Elə ilk görüşlərindən, söhbətlərindən həssas qəlbli Zərifə hiss etdi ki, axtardığı bəxt ulduzu elə bu cavan oğlandır, Tanrı onları bir-biri üçün yaradıb!

Lakin aralarında baş qaldıran məhəbbət elə ilk günlərdən ciddi sınaqdan keçməli oldu. Təhlükəsizlik xidməti zabitinin şəxsi həyatı işlədiyi qurumun nəzarəti altında idi. Ona görə də onun respublikada yaxşı tanınan Əziz Əliyevin qızı ilə münasibətləri artıq rəhbərliyə məlum idi. Bu, o vaxt idi ki, artıq Əziz Əliyevin başı üstündə

qara buludlar dolaşmağa başlamışdı. Buna səbəb 1949-cu ilin əvvəllərində Əziz Əliyevin Sov.İKP Mərkəzi Komitəsində rəhbər işə irəli çəkilməsi olmuşdu. Onun bu yüksəlişi isə Azərbaycanın xaraktercə xudbin və qısqanc olan o zamankı rəhbəri Mircəfər Bağırovu qıcıqlandırırdı. Moskvaya dalbadal məktublar yazıb Əziz Əliyevi respublikaya gətirtdi, əvvəlcə gözdən pərdə asaraq baş nazirin müavini qoydu. Sonra isə təqib etdirdi, DTK-da ona qarşı iş qaldırıldı. Nahaq yerə millətçilikdə, sosial mənşəyini gizlətməkdə ittiham olunan Əziz Əliyevi gözdən salmağa çalışdılar. Onu baş nazirin müavini vəzifəsindən uzaqlaşdırıb kiçik bir iş verdilər. Bütün bunları Heydər Əliyev də görürdü. 1952-ci ildə o zaman Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olan Yemelyanov onu iki dəfə kabinetinə çağırıb ölkə rəhbərliyinin gözündən düşmüş Əziz Əliyevin qızı ilə görüşməyin gənc zabit üçün pis nəticələr verə biləcəyini xatırlatmışdı.

Heydər Əliyev çıxılmaz vəziyyətdə qalmışdı. Çox sevdiyi işini də itirmək istəmirdi, Zərifədən də əl çəkməyi ağlına gətirmirdi. Belə qeyri-müəyyən vəziyyət altı ay davam etdi.

Bu müddətdə vəzifəsində işləməkdə davam edən Heydər Əliyev Zərifə xanımla əlaqəsini kəsmirdi. Lakin qaranlıqları aydınlığa çıxaran qüvvə tezliklə onların da üzünə güldü. “Ellər atası” Stalin öldü. Bununla da, Mir Cəfər Bağırovun hakimiyyətinin dayaqları sarsıldı. Heydər Əliyev və gələcək qayınatası da rahat nəfəs aldılar. Bir müddət keçdikdən sonra təqib olunanlar, haqsız incidilənlər nicat tapdılar. Əziz Əliyev də layiq olduğu vəzifəyə qaytarıldı. 1954-cü ildə Heydər Əliyevlə Zərifə Əliyeva ailə qurdular.

Qarşılıqlı məhəbbət üzərində qurulan ailə xoşbəxt idi. Gənc zabit həyat yoldaşının simasında özünə mənəvi bir dayaq tapdı. Məhz o dayağa söykənərək  bütün vaxtını çox sevdiyi dövlət işinə sərf edirdi, evlə, ailə ilə məşğul olmağa çox az vaxtı qalırdı. Bunların hamısı Zərifəlik idi. O, öz elmi işini davam etdirsə də, hər bir azərbaycanlı qadın kimi ailəni əsas sayır, ilk növbədə, onun qayğıları ilə yaşayırdı. Ailədə elə şərait yaratmağa çalışırdı ki, həyat yoldaşı üçün işləmək asan və rahat olsun. Uzun illər rəhbər vəzifələrdə işləmiş atasının nümunəsindən bilirdi ki, dövlət adamlarının əsas dayağı ailədəki sabitlik, mehriban mühitdir. Belə bir mühiti Heydər Əliyev üçün də yaratmağa çalışırdı.

O vaxt Zərifənin ailə üçün göstərdiyi fədakarlıqları ulu öndər sonralar sevimli qadınının artıq həyatda olmadığı vaxtlar onun məzarı önündə durub əziz xatirəsini yad edərkən çox yüksək qiymətləndirirdi. Belə məqamların birində demişdi: “Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm. Bu yolda mənim həmişə səmərəli çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub.

Zərifə xanım kimi həyat yoldaşımın olduğuna və onun ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. O çox istedadlı, çox xeyirxah, çox sadə insan idi”.

Bəli, bu böyük insanın, sadiq ömür-gün yoldaşının həyatını xoşbəxt etmiş insan haqqında etiraflarıdır. Bu, həm də fədakarlığa, ananın, qadının ailədəki əvəzsiz roluna verilən yüksək qiymətdir. Bu, onların məhəbbətinin böyüklüyünün sübutudur.

1955-ci ildə onların ilk övladı – qız payı Sevil dünyaya gələndə gənc ailənin sevincinin həddi-hüdudu yox idi. Dünyanın ən gözəl simfoniyası hesab olunan körpə qığıltısı onların da isti yuvasına yeni arzular, ümidlər, qayğılar gətirdi.

1961-ci il dekabrın 24-də isə ailənin oğlu anadan oldu. O da özü ilə bir dünya sevinc gətirdi. Böyüyəndə bütün ölkəni daha aydın və işıqlı sabaha ilhamlandıracağını sanki duyubmuşlar kimi adını İlham qoydular. Həssas ana qəlbi hiss etmişdi ki, o, təkcə ata ocağı üçün deyil, bütöv bir ölkə üçün layiqli varis böyüdür.

Övladları Zərifə xanımın hədsiz səadət mənbəyi idi. O, balalarını canından da artıq sevən fədakar ana idi.

Zərifə xanım elmi fəaliyyətini ardıcıl davam etdirsə də, övladlarının qayğıları, tərbiyəsi ilə ciddi məşğul olurdu. O, uşaqları ulu Tanrı tərəfindən bəxş olunmuş bir nur payı kimi qəbul edirdi. Analıq borcunu yerinə yetirməkdə özünə rəhm etmirdi. Elmi və ictimai işlər onun həddən artıq vaxtını aparsa da, övladlarının böyüməsi, təhsili ilə bağlı hər şeyə özü diqqət yetirir, hər xırda məsələdə, hadisədə şəxsən iştirak edirdi. Bu baxımdan onu öz ailəsinin fədaisi adlandırmaq olardı. Çünki məhz onun sayəsində ailə rahatlıq tapır, məhz onun ana müdrikliyi, ana ürəyi övladlarını qoruyurdu.

İlhamın 7 yaşı olanda Heydər Əliyev respublikanın rəhbəri seçildi. Təbii ki, bütün xalqımız üçün sevinc, gələcək uğurlu inkişaf mənbəyi olan bu hadisə Zərifə xanım üçün də, ailə üçün də bir fərəh və təntənə anı oldu. Lakin ziyalı ana onu da bilirdi və nəzərə alırdı ki, rəhbərin ailəsində böyüyən uşaqların tərbiyələndirilməsi, təhsil alması çox çətin məsələdir. Elə etmək lazımdır ki, onlara heç bir güzəşt olunmasın, mükəmməl təhsil ala bilsinlər. Sonralar həyat sübut etdi ki, Zərifə xanım vaxtında bu çətin və mürəkkəb işin, vəzifənin öhdəsindən necə bacarıqla gəlib. Zaman onu da göstərdi ki, bu müdrik ana övladlarına zəhməti, təhsili sevməyi çox mükəmməl öyrətmiş, onlarda ailə dəyərlərinin əsasını təşkil edən sadəlik, xeyirxahlıq tərbiyə edə bilmişdir. Bu, əlbəttə, böyük səbir, zəhmət, qətiyyət, məhəbbət tələb etmişdi. Bunlar isə onda bol idi.

Ölkə rəhbərinin xanımı olmaq ona əlavə məsuliyyət gətirsə də, problemlərini artırsa da, xasiyyətində dəyişiklik edə bilmədi. O elə əvvəlki kimi sadə, xeyirxah, üzügülər Zərifə xanım olaraq qaldı. Ailədə də əvvəlki həyat prinsiplərini dəyişməz olaraq saxladı, onun sabitliyini qorudu. Bütün bunlara ustalıqla nail oldu.

Zərifə xanım hər kəsə həyatının çətin anında dayaq olmaq, kömək etmək amalı ilə yaşayan bir insan idi. Bir çox məişət problemlərini həll etməkdə iş yoldaşlarına kömək göstərirdi. O, güclü şəxsiyyət idi. Mənliyində qalmaq şərti ilə bir kimsənin xətrinə dəyməzdi. Hamı bilirdi ki, Zərifə xanım ona üz tutanların hamısına imkanı daxilində əl tutmağa hazırdır. O, bütün bunlardan zövq alırdı.

Zərifə xanım Əliyeva ailənin qayğılarını çəkməklə yanaşı, elmdə də sürətlə irəliləməkdə idi. Göz Xəstəlikləri İnstitutunda çalışır, bir neçə istiqamətlərdə tədqiqat işləri aparırdı. Onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki bu sahə olduqca ağır idi. Onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi biliklər tələb edirdi. Bu keyfiyyətlər isə Zərifə Əliyevada var idi. Peşə oftalmologiyasının pioneri sayılan Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmışdı.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan Zərifə Əliyeva təbabətdə öz dəst-xətti olan novator alim idi. Bu istedadlı alimin gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqi, klinik diaqnostika və s. istiqamətlərdə də dərin elmi araşdırmalar aparırdı. Bütün bu tədqiqatlarının nəticəsi olaraq o, 1976-cı ildə vaxtilə ordinator olduğu Helmholts adına Mərkəzi Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda müvəffəqiyyətlə doktorluq dissertasiyasını müdafiə etdi. Oftalmologiyada hadisəyə çevrilən bu müdafiədən bir müddət sonra o, kafedra müdiri seçildi.

Özü ülvi keyfiyyətlərə malik olan Zərifə Əliyeva elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə də xüsusi yer verirdi. Təkidlə deyirdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və bəzən dava-dərmandan da güclü təsir göstərir. Onun digər istiqamətlər kimi bu sahədəki elmi axtarışlarının nəticələri də monoqrafiya şəklində çap olundu. Ümumiyyətlə isə ailədə və cəmiyyətdə apardığı işlərin çoxluğuna baxmayaraq təbabət elmində məhsuldar alim kimi tanınan Zərifə xanım göz xəstəliklərinə dair 140 elmi məqalə, bir neçə monoqrafiya və kitab yazıb çap etdirdi. Çoxillik elmi axtarışlardan belə qənaətə gəlmişdi ki, insanların xəstə gözlərinin müalicəsi çətin və ağrılı prosesdir. Ona görə də o, göz xəstəlikləri sahəsində profilaktika metodlarına daha çox əhəmiyyət verirdi. Bu, o dövr üçün olduqca uzaqgörən və müasir bir məsələ idi. Zərifə xanım bu zəmində sonralar ona böyük şöhrət gətirmiş göz xəstəliklərinin profilaktikası üçün öz metodikasını hazırladı.

O, artıq elmin zirvəsində idi. 1983-cü ildə Zərifə Əliyevanın Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi bunun təsdiqi oldu. O həm də keçmiş SSRİ-də ilk qadın həkim olaraq Tibb Elmləri Akademiyasının akademik Averbax adına mükafatına layiq görüldü. Bunlar həm də onun apardığı çoxillik elmi-tədqiqatların yüksək səviyyəsinə, sosial əhəmiyyətinə, ictimai fəallığına, pedaqoji istedadına verilən yüksək qiymət idi. Zərifə xanımın alim şöhrəti artıq dünyanı dolaşmaqda idi.

Akademikin bir yüksək keyfiyyəti də vardı: ürəkdən və ilhamla çalışardı! Ətrafındakılar ondakı tükənməz həyat enerjisinə heyran idilər.

1982-ci ildə Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosuna üzv seçilib Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduqdan sonra ailə Moskvaya köçdüE

Gözünün nuru olan əziz oğlunun Azərbaycan Respublikasının Prezidenti kimi ölkəni məharətlə idarə etməsini, onu yüksəklərə qaldırmasını, beynəlxalq aləmdə böyük nüfuz qazanmasını görmək bu anaya qismət olmadı. Zərifə xanımın arzularının fərəhini bu gün bütün Azərbaycan yaşayır. Bu fərəh və qürura görə, övladlarına verdiyi yüksək tərbiyəyə görə Zərifə xanıma çox minnətdarıq.

Deyirlər, dünyada hər şey dəyişir və əbədi heç nə yoxdur. Amma dəyişməyən dəyərlər, həmişəyaşar əməllər, nəsillərə əmanət kimi verilən amallar da çoxdur. Bu mənada Azərbaycan xalqına öz ləyaqətli qızı Zərifə Əliyevadan sönməyən bir işıq, azalmayan bir nur payı da qalıb. O, nurlu əməlləri və örnək həyatı ilə xalqın milli sərvətinə və mənəvi xəzinəsinə çevrilib. Bu mənəvi xəzinədən bundan sonra neçə-neçə nəsillər bəhrələnəcək, öz payını götürəcək. Millətin gənc qızları unudulmaz Zərifə xanımın həyat yolunu öz idealları kimi yaşamağa can atacaqlar.

Bu gün bizim üçün çox əziz olan Zərifə xanım cismən aramızda olmasa da, vaxtilə onun şəfa verdiyi xəstələr, yaxud onların nəvə-nəticələri, işıqlı xatirələrini nəsil-nəsil ötürən tanış və həmkarları, yetirmələri bizimlədir. Zərifə Əliyevanın qanı qanından, canı canından olan övlad və nəvələri, böyüməkdə olan nəticələri bizimlədir.

**Azərbaycan.-**2013.-27 aprel.-№ 89.-S.7.

# BÖYÜK SEVGİNİN ADI

**Hüseynbala MİRƏLƏMOV,**
Milli Məclisin deputatı, yazıçı-dramaturq

**Zərifə xanım Əziz qızı Əliyeva… Bu ləyaqətli xanımın şəxsiyyətinin gücü məhz insanların qayğı və iztirablarına, niyyət və arzularına fədakarçasına vicdanlı xidmətindədir!..**

**Azərbaycan tarixinin XX əsr mərhələsini öyrənənlərin, bu mərhələyə münasibət bildirənlərin yazılarında da onun müsbət obrazı, böyük Əliyevlər nəslini xarakterizə edən əsas simalardan biri kimi qabarıq təqdim olunur. Bu da təsadüfi deyil. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xanımı olaraq ömür yolu keçməsi elə o deməkdir ki, Zərifə xanımın da bizim siyasi tariximizdə müstəsna xidmətləri var.**

Dünyanın gəldi-gedərliyi haqqında çox deyilib. Nə qədər çox deyilsə də, düşünürəm ki, bu qənaətin özü də mübahisəlidir. Çünki nəsillərin yaddaşına adı yazılmış olanlar əbədi dünyanın əbədi sakinləridir. Əgər bu qənaəti həqiqət kimi qəbul etsək, onda dünyanın gəldi-gedərliyi haqqında deyilənlərə də bir qədər yumşaq desək, təbəssümlü bir sükutla cavab vermiş olarıq. Əlbəttə, tarix yolu ilə və bu yolu keçən nəsillərin yaddaşı ilə müqayisədə ömür yolu o qədər qısadır ki, göz qırpdınmı, bitdi getdi. İz qoymadın, nəsillərə söz qoymadın, demək, bu dünyanı heç yaşamadın.

İnsan mənəvi ucalıq yolu ilə yaşayırsa, onun cismani ömrü Tanrıya qovuşmaqla bitir. Zərifə Əliyeva özündən sonra mənalı həyatını yaşadan əməlləri və insanların yaddaşında yaşayan parlaq xatirəsi ilə, həm də elə bizim müasirimizdir. Bizimlə birlikdə yeni dünyanı quranlardandır. Onu tanıyanlar yəqin ki, elə belə də deyərlər: özündən sonra bu dünyada izi, sözü və müqəddəs bir mələk kimi nurlu xatirəsi həmişə örnək olacaq parlaq obrazı qaldı.

Tarixdə iz qoymuş şəxsiyyətlərin ölməzliyi, yaşarılığı dünyanın mənəvi harmoniyasını yaradır. Və bu harmoniyanı qoruyan da elə parlaq zəkaların ruhudur, xatirəsidir. Demək, yaşarı insanların cismani ömrü vəfa etməyəndə cismi köçür, ruhu qalır bu dünyada; əməllərində, qurduqlarında, yaratdıqlarında yaşayır və əbədiyyətə qovuşur.

Hind xalqının dünyanın dahiləri cərgəsində yer alan görkəmli nümayəndəsi İndira Qandi vəfat edəndə böyük rus şairi Andrey Voznesenski yazmışdı: "Qandi tarixə qovuşdu". Zərifə xanım Əliyevanın tarixə qovuşmuş taleyi yalnız bir insanın qisməti deyil. Həm də elə onun mənsub olduğu xalqın tarixinin bir parçasıdır. Bu mənada, Qandi ilə bağlı deyilən qənaət zəkalar, şəxsiyyətlər haqqında düşüncələrə müsbət emosiya, enerji verən bir qaynaqdır. Mükəmməl və layiqli qənaətdir. Başqa şəkildə belə də demək olardı: tarixə qovuşmaq, dünyanın gərdişinə, bəşəriyyətin varlığına şahid kəsilmək, əbədiyyət qazanmaq… Nəsillərin yaddaşında əbədi yaşayacaq Zərifə xanım da məhz bu şərəfə nail oldu və tariximizin şəxsiyyətləri sırasında öz yerini aldı; əbədi və layiqli yerini.

Biz onu tarix yazan salnaməçi kimi yox, tarixi yaradan böyük zəka sahibinin mənəvi dayağı, ona həmişə ilham mənbəyi olmuş, böyük sevginin ünvanı kimi tanıyırıq.

Bu sevgi, bu ünvan həmişə Heydər Əliyevin – tarixdə böyük yol açmaq üçün şərəfli bir missiya daşıyıcısı olan liderin həyatının mənasına çevrildi. Belə bir fikir mövcuddur ki, hər bir dahi kişinin arxasında böyük bir qadın dayanır. Zərifə xanım məhz o böyük qadın idi. Təbii ki, o, layiqli həyat yoldaşı və ana, həkim və alim, birinci xanım və ictimai xadim kimi uca Tanrıdan öz taleyini yaşamaq haqqı almışdı. Bu yaşam, bu həyat məhz Heydər Əliyevin həyatı ilə qovuşduğu üçün daha zəngin oldu.

Zərifə xanım qatı dindar deyildi. Ancaq xalqının dini etiqadına, əqidəsinə dərin inam, hörmət və sədaqət ruhunda tərbiyə almış, islam dəyərlərinin və əxlaqının ən gözəl xüsusiyyətlərini özündə birləşdirmişdi. Böyüdüyü ailədə Allaha və öz ölkəsinə sevgi öyrənmişdi və ona görə də özünü ölkəsinin bir parçası hesab edirdi. Qəlbi xeyirxahlıq duyğuları ilə çırpınır, bu duyğuları əmələ, yaşarı həqiqətlərə çevirmək uğrunda mübarizə aparırdı.

Görənlər, yaxından tanıyanlar onunla ünsiyyət qurmaq xoşbəxtliyinə nail olanlar bu gün də böyük səmimiyyətlə etiraf edirlər: onun yanına ümidsiz gəlmiş hər kəs çöhrəsindəki səmimiyyətdən və nurdan bir təskinlik, inam və rahatlıq tapırdı. Çünki Zərifə xanımın ruhundakı xeyirxahlıq və mərhəmət ulu Tanrının özünə məxsus olan ən ali keyfiyyətlərdir. Axı Tanrı özü bütün insanları xeyirxah və mərhəmətli yaradır. Lakin şeytani hisslər çoxlarını bu keyfiyyətlərdən məhrum edir. Ancaq böyük varlığında Azərbaycan analarına xas, Azərbaycan qadınlarına məxsus hünər və dəyanət, mənəvi zənginlik daşıyan Zərifə xanım inandığı həqiqət uğrunda inam və inadla mübarizə aparırdı. Və bu mübarizəni həyatının mənası bilirdi. Onun xarakterindəki sosial motivlər, xeyirxahlıq, canıyananlıq, mərhəmət gücü olduğundan o, həkim olmaq, daim insanlara yardım göstərmək qərarına gəlir və məqsədinə çatır. Zaman keçdikcə zövq aldığı və sevdiyi bu nemətdə ən üstün mövqeyə, ən kamil zirvəyə qalxdı.

***

Hər bir insanın mənəvi ucalığa yolu müasirlərinə münasibətdən keçir. İnsanı uca tutan, insanın varlığındakı ali duyğuları qiymətləndirənlər də insanların ümidinə və inamına çevrilir. Zərifə xanım da insanlara yüksək dəyər verirdi. Onun üçün hər bir insanın fikrinin və mövqeyinin öz dəyəri vardı. Bu, heç şübhəsiz, sadə həkim mövqeyi deyildi. İnsanların, xəstələrin ona inanması, etibar etməsi və ümid bəsləməsi onun göstərdiyi insani münasibətdən irəli gəlirdi. Özü bu barədə "Yüksək əqidə" kitabında yazır: "Müalicə və diaqnostikanın texniki təminatı nə qədər möhkəmləşsə də, həmişə olduğu kimi, insan sağlamlığı keşiyində duran canlı həkim əsas yer tutur". Zərifə xanımın nə qədər haqlı olduğu zaman-zaman üzə çıxdı və bu gün də etiraf olunur ki, xəstənin səhhətinə, ilk növbədə, həkimin şəxsiyyəti xoş təsir göstərməlidir. Fransua Rable bunu özünəməxsus şəkildə belə ifadə edirdi: "Həkimin ilk vəzifəsi xəstədə nikbinlik hissi yaratmaq, onda sağalacağına ümid hissini gücləndirməkdir".

Bu nəcib insanın həyat yolunu öyrənməklə, cəmiyyət üçün əbədi örnək ola biləcək alimin və ananın zəngin aləminə daxil olarıq, onun kimliyini daha yaxından dərk edərik. Mübarizə üçün həmişə meydan var. İnsan düşünürsə, yaşayırsa, problemlər, çətinliklər də var. Bəlkə Zərifə xanımın qarşılaşdığı çətinliklər və problemlər bizim düşündüyümüzdən də qat-qat artıq olub. Ancaq Zərifə xanım bu çətinlikləri dəf etməyi bacardı, həm də bunu heç kimin bacarmadığı bir səviyyədə bacardı. Çünki onun sahib olduğu üstün keyfiyyətlərdən biri də ünsiyyət mədəniyyəti idi. İnsan sözündən yaranmış ünsiyyət anlamı, əslində, insaniliyin, insana məhəbbətin mənəvi-əxlaqi ifadəsidir. Zərifə Əliyeva milli ünsiyyət mədəniyyətimizin etalonu və əxlaqi zirvəsində durdu. O, insan qəlbinə təbii bir incəlik və həssaslıqla daxil olmağı bacardı. Bir həkim kimi onun xəstəyə münasibət prinsipi belə idi, əks təqdirdə, Zərifə xanım bu sətirləri yazmışdı: "Xəstəyə düzgün münasibət həkim sənətinin mahiyyətlərindəndir… Həkimin gündəlik zəhməti onu əhatə edən insanlara, birinci növbədə, xəstələrlə davranış formasını bilməyi tələb edir". Təbabət tarixi Şərq təfəkküründə zəngin ənənələr, həkim-xəstə münasibətləri ilə bağlı elmi-fəlsəfi sərvətlər yaşadır. Loğman obrazı Şərqin mənəvi mühitində yaranıb. Və yaşarı bir obrazdır. Sanki böyük həkimlərin, zəka sahibi olan təbiblərin taleyindən keçir, zaman-zaman böyük həkimlərin əməllərində özünü təsdiqləyir. Loğmanlığın birinci şərti, bəlkə də səbir və təmkinlə bağlıdır. Bəli, həkim çox səbirli olmalıdır. O, xəstənin daxili aləminə nüfuz etməyi və "Şəhrizadın uzun-uzadı nağılı"nı dinləməyi bacarmalıdır.

Həmişə düşünmüşəm: dahinin dahidən böyüklüyü səbirlə ölçülür. Hətta bu barədə "on iki elmin başı səbirdir" adlı məşhur bir Şərq rəvayəti də var. Zərifə xanım həkim olaraq antik yunan filosofu Platonun "Həkimlərin etdikləri ən böyük xəta ruhu düşünmədən, yalnız bədəni müalicə etməyə təşəbbüs göstərmələridir" fikrinə əsaslanırdı. Bu, artıq onu göstərir ki, o, sadəcə, həkim deyil, həkim-filosofdur. Şərqdə belə həkimlərə loğman deyirdilər. Zərifə xanım XX əsrdə qədim Şərq loğmanlarının ənənələrini yaşadan həkim və filosof idi. Onun mənəvi mühitində loğmanlığın bütün cəhətləri özünü göstərir, əməlində təsdiq olunurdu.

Dünyanın sonuncu müqəddəs kitabı "Quran"ın "Əl-əhzab" surəsində ruh "Allah əmanəti" adlanır. İnsanı bütün varlıqlardan qüdrətli edən onun ruhudur. İnsanın bədəni ruhu yaşatmaq üçün bir qəfəsdir. Həkim insanı ona görə müalicə edir ki, ruha xətər toxunmasın. Zərifə xanım ruhu duymağı bacaran bir ruh adamı idi. O, heç vaxt Allah əmanətinə biganə yanaşmadı.

Elmin dərinliklərinə doğru yol uzandıqca zəkanın işığı daha gur olur. Elmli həkim xəstəliyi daha aydın və daha əhatəli dərk edir. Akademik Zərifə Əliyevanın sanballı tədqiqatları, praktiki həkim kimi gördüyü işlər təkcə Azərbaycanın yox, XX əsrin ən böyük dövləti olmuş SSRİ-nin elmi-tibbi nailiyyətləri idi. Onun fəaliyyət fəzası İşıq və Zülmət arasında idi. O, cərrah bıçağı ilə insanın gözündən işığa yol açırdı. Ömür boyu bu alim xanım işığın mövqeyində dayandı. Həkim cərrah bıçağı ilə zülmətlərin bağrını yardı…

Həkimin elmi və şəxsiyyəti bir-birini tamamlayan cəhətlərdir. İnsanlıq, insanlıq naminə çalışmalar, insana hümanist münasibət Zərifə xanımın həyat meyarı idi. Onun həyat sevgisi – ailəsinə, xalqına, ölkəsinə və peşəsinə olan sevgidə təzahür etdiyindən, bəşəri bir dəyər alırdı və onu ilahiləşdirirdi. Çünki o, Tanrının ona bəxş etdiyi ömür payını insanlığa xidmət üçün ayrılmış vaxt kimi dəyərləndirirdi…

***

Düşünürəm ki, həyatda təsadüfi heç nə yoxdur. Baş verən hadisələr Tanrının nəzarətindədir. Deməк, Heydər Əlirza oğlunun tale yolu Zərifə xanım Əziz qızının ömür yolu ilə təsadüfi birləşməyib. Böyük imperiya hələ inkişaf dövründə olanda bu insanların – Azərbaycan xalqının tarixini yazacaq insanların birliyi, sevgi vəhdəti gələcəyimizə açılan yolun ilk əlamətləri, xilaskarlığın başlanğıcı imiş. Məşhur filmdə bütün ömrünü xalqına həsr etmiş Heydər Əliyev olub-keçənləri xatirəsində canlandıraraq deyirdi: "Əgər nəzərə alsaq ki, bizim sevgimiz böyük sınaqlardan keçdi, demək…" həyatı yaşamaq və həm də mənalı yaşamaq, dəyərli yaşamaq insanın iradəsindən, mənəvi gücündən çox asılıdır.

Görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində böyümüş, bu ailənin tapındığı ən yüksək dəyərləri özünə ehtiva etmiş Zərifə xanım gəlin kimi Əliyevlər ailəsinin qapısından içəri qədəm basanda artıq çox dəyərli bir xəzinə sahibi idi. Bu xəzinənin ən qiymətli daş-qaşı onun əxlaqı, intellekti, ailəsinə sədaqəti, milli-mentaliteti,

həyat yoldaşına sonsuz məhəbbəti, dəyanəti, qüruru və ölkəsinə, xalqına sonsuz sevgisi idi. Ağıllı bir gənc kimi böyümüşdü. Ən başlıcası, sevgisi yolunda cəfalara dözmüşdü. Sonuncu ana qədər inamını qorumuşdu. Gənc Heydərin və gənc Zərifənin sevgisi zamanın qəddarlığına qalib gəlmişdi. Dəyanət və güc, mənəvi ucalıq, mübarizlik keyfiyyətləri sonrakı ömürləri boyu bu insanların varlığında yaşadı, onları tərk etmədi.

Ailədə qadın kimdir? Dərin müşahidə, insanlara zəkalı münasibət bu suala cavabı onun mənəvi mühitində kifayət qədər əhatəliliyi, hərtərəfliliyi ilə hazırlamışdı. Zərifə xanım Azərbaycan ailəsində qadının rolunu və yerini çox gözəl bilirdi. Ailə adət-ənənəsində nə qədər mühafizəkar olsa da, bu adət-ənənələrin nümunə ola biləcək sivil tərəflərini qəbul edirdi.

İnamlı bir həqiqət var; qadının gücü zərifliyində, kişinin gücü müdrikliyindədir. Zərifə xanım həm zərif, həm də mərd qadın idi. O, dünyanın ən güclü şəxsiyyətlərindən olan Heydər Əliyevin xanımı idi. Bu ailə qeyd olunduğu kimi, böyük sevgi əsasında təməl tapmışdı. Etiraf edək ki, Heydər Əliyev kimi sərt bir adamın məhəbbətini qazanmaq çox çətin məsələ, hər qadına nəsib olmayan tükənməz səadət idi. Bu sevgidən müqəddəs bir ailə yarandı. Həmin ailə millətə örnək və şərəf oldu. Kimsəyə sirr deyil ki, gəncliklərindəki sevgi sınaqları həyatlarını qurmaq üçün elə bir özül oldu ki, onlar sonralar da həyatın ən dəhşətli sınaqlarına, bəlkə də böyük məhrumiyyətlərə də sinə gərə bildilər. Heydər Əliyev ömrünün sonlarında Zərifə xanımı necə sevdiyindən böyük məhəbbətlə, onun vaxtsız dünyadan getməsindən sonsuz bir kədərlə, yana-yana danışırdı. Bəli, Heydər Əliyevi məğlub etmək, onu yenmək üçün ən qəddar planlara əl atılırdı. Ancaq o, bütün bunların hamısına müqavimət göstərə bilirdi. Çünki onun böyük mənəvi dayağı, özü qədər mətin və güclü xanımı vardı. Taleyin qədəri elə Zərifə xanımın özünü də yaşayacağı bütün məqamlara hazırlamışdı. Azərbaycanın dövlət başçısının həyat yoldaşı və ölkənin birinci xanımı olarkən dövlətin və siyasi xadimin ölkəsinə və onun vətəndaşlarına necə xidmət etməsini artıq yaxşı bilirdi. O, Əziz Əliyev kimi tanınmış dövlət adamının, siyasi xadimin qızı idi və böyüdüyü ailədə bütün bunları yaşamış və görmüşdü. Atasının simasında xalqın qayğısına qalmaq, əlsiz-ayaqsızlara həyan olmaq, dayaq durmaq kimi insani keyfiyyətlər qazanmışdı. Lakin indi daha böyük və məsuliyyətli bir missiya daşıyırdı. Ölkənin, həm də imperiya boyunduruğunda olan bir ölkənin birinci xanımı, göründüyü kimi, sovet dövlətinin çox tanınmış və tanındığı üçün də daim diqqət mərkəzində olan siyasi liderlərindən birinin xanımı olmaq şərəfini daşımaq asan məsələ deyildi. Yaşadığı bu illərdə onun dini etiqadı, Tanrı sevgisi, milli mənliyi və mentaliteti çox sınaqlarla üzləşdi. Bütün bunlara baxmayaraq, Zərifə Əliyeva Azərbaycan qadını, əsl azərbaycanlı ana olaraq qaldı. Həyat yoldaşının qalxdığı zirvələr onun insanlara səmimiyyətini, xalqına, ölkəsinə məhəbbətini zərrə qədər də dəyişmədi.

Zərifə xanım Əliyeva ən müxtəlif dövlət tədbirlərində oldu, ən müxtəlif insanlarla qarşılaşdı, ən müxtəlif şəraitlərlə üzləşdi, amma özünə, mənliyinə, şəxsiyyətinə, qüruruna, prinsiplərinə sadiq qaldı. Ömrünün son anına qədər üzərinə düşən məsuliyyəti şərəflə daşıdı və təkcə Heydər Əliyev üçün, təkcə övladları üçün yox, bütün Azərbaycan və azərbaycanlılar üçün ilahi bir qadın simvoluna çevrildi. Zərifə xanımın qadınlığı şərəfləndirən keyfiyyətlərindən biri də millətinin gələcəyini uşaqlarının əxlaqında, tərbiyəsində və təhsilində görən bir ana olmasıdır. İstər İlham üçün, istər Sevil üçün Heydər Əliyev qədər Zərifə Əliyeva da ilk və müstəsna nümunə olub. Onlar dünyanın ilk sevgisini də, ilk insanını da, ilk həqiqəti və xeyirxahlığı da, ilk mərhəməti və qayğıkeşliyi də bəlkə öncə Zərifə Əliyevadan öyrəniblər. J.Pixter nahaqdan demir ki, “bizə yaxşı analar verin, biz ən yaxşı adamlar olaq”. İllər keçəndən sonra Azərbaycan xalqının taleyində böyük Əliyevlərin zəngin mənəvi irsini, siyasi təcrübəsini, böyük, ali keyfiyyətlərini yaşadan cavan Əliyevlərin simasında biz bu həqiqətləri görürük və böyük qətiyyətlə təsdiq edirik. Bu varislik qırılmaz oldu. Çünki Zərifə xanım öz dövrünün və ziyalı mühitinin ən qiymətli milli və mənəvi dəyərlərinə sahib çıxmışdı və onları öz övladlarına təlqin edə bilmişdi: əxlaqlı olmaq, ziyalılıq, yuksək biliyə yiyələnmək, xeyirxahlıq, mərhəmət və ən əsası, öz Vətənini, ölkəsini sevmək… Məhz burda ailəsinə, ölkəsinə və xalqına olan sevgisində bu görkəmli Azərbaycan qadınının xarakterinin və xarizmasının gücü özünü parlaq şəkildə nümayiş etdirdi. O, öz əməyi, ağlı iradəsinə, əməlləri və xeyirxahlığı ilə özünə əbədi heykəl ucaldırdı. Bu keyfiyyətləri ilə o, böyük Heydər Əliyevin əzəmətinin görünən tərəflərinə daha gur işıq saldı. Bəlkə də Zərifə xanımın mənəvi hazırlığının mükəmməlliyi, həm də onun həkimliyi ilə bağlı idi. Çünki bir həkim ömrü bir insan ömründən çox-çox böyükdür. Hələ antik yunan ədəbiyyatının dahi sənətkarı Homer deyirdi ki, “məharətlə müalicə aparan bir həkim ömrü bir çox insan ömrünə dəyər”. Zərifə xanım belə bir həkim idi, bəlkə ona görə də ona əbədi şöhrət qismət oldu.

O, dünyanın ən böyük dövlətinin rəhbərlərindən birinin xanımı idi. O, hələ 1969-cu ildə Azərbaycanın birinci xanımı şərəfinə nail olmuşdu, tarix sübut etdi ki, o bu şərəfə tamamilə layiq bir xanım idi. Fəqət, Zərifə xanım təkcə onu görə bilmədi ki, o, bir Prezidentin xanımı və bir Prezidentin də anasıdır. Əgər ruhlar haqqında deyilənlər həqiqətdirsə, demək, o bu həqiqətləri də görür və duyur. Böyütdüyü oğul cəmiyyətin arzuladığı şəxsiyyət oldu. Xalqa yaxın olmaq, insanları duymaq, cəmiyyətin nəbzini tutmaq, bu mənəvi ahəngin içində yaşamaq… bütün bunlar böyük özül üzərində ucalan İlham Əliyevi xarakterizə edən keyfiyyətlərdir. Və bu mənada, tam səmimiyyətlə demək olar ki, Zərifə xanımın xalq və millət üçün ən böyük xidməti və dahiyanə əsəri Azərbaycan Prezidenti cənab İlham Əliyevdir. O, Heydər Əliyevin əzəmətli əlinin sığalı, Zərifə xanımın şirin laylaları ilə böyüyüb. Hələ ana-ata ocağında ikən dövlətçilik dərsləri keçib. Elə buradaca qeyd etmək yerinə düşər

ki, hakimiyyətdə siyasi varislik missiyası İlham Əliyevin öhdəsinə düşəndə o, daha çox çətinliklərlə qarşılaşdı. Amma artıq böyük örnək var idi. Dünyanın təsdiq elədiyi, tanıdığı, Azərbaycanın xilaskarı olan Heydər Əliyev örnəyi.

Heydər Əliyev kimi məşhur atanın övladı olmaq da çox çətindir. O, insanlara qarşı həssaslıq, cəmiyyət qarşısında məsuliyyət, yüksək davranış mədəniyyəti, sadəlik və intellekt tələb edir. Xoşbəxtlikdən bütün bu xüsusiyyətlər İlham Əliyevin genində və qanında var idi. O, Zərifə xanımın qayğısı, Heydər Əliyevin nüfuzu altında yüksək Avropa təhsili alır və Şərq kişisi kimi böyüyürdü. Bu gün "Azərbaycanı iqtisadi böhran dalğalarından məharətlə adladaraq zamandan zamana aparan İlham Əliyev qloballaşan dünyanın müasir lider etalonudur" (Çingiz Aytmatov). Görkəmli dühalar cismani ömürlərini yaşayıb dünyalarını dəyişir. Ancaq onların rəyləri düstur kimi, həqiqətin təsdiqi kimi yaşayır.

***

Zərifə xanım Əliyeva birinci növbədə ana idi. Və ana olaraq analıq duyğuları ilə onun yaşadığı həyəcanları təsəvvür etmək elə də çətin deyil. Amma bir fərqi var; hər bir həyəcan və duyğu fərdidir. Və hər bir insanın özünə xasdır. Danışmaq üçün əsas odur ki, bütün anaları fərqləndirən keyfiyyətlər olduğu kimi, uyğun keyfiyyətlər də az deyil. Bu ümumi keyfiyyətlərdən çıxış etsək, deməliyik; bəlkə də Zərifə xanımın ən xoş və unudulmaz, ən fərəhli günü oğlunun ailə qurduğu toy günüdür. Həmin gün iki nəcib ailə – Heydər Əliyev və Zərifə xanımın ailəsi ilə Arif Paşayev və Aidə xanım İmanquliyevanın ailəsi qohum oldu: görkəmli yazıçı Mir Cəlalın nəvəsi Mehriban xanım Heydər Əliyevin gəlini, İlham Əliyevin həyat yoldaşı oldu.

Bu gün UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri missiyasını böyük şərəflə daşıyan Mehriban xanım düşdüyü ocağın, qohum olduğu ailənin Azərbaycan tarixindəki rolunu gözəl bilən, şərəfini uca tutan, daşıdığı soyadın şərəf və ləyaqətini əzmlə qoruyan bir xanımdır. Həm görkəmli həkim, həm sevimli həyat yoldaşı, həm də ana kimi Zərifə xanımın canlı obrazı Mehriban xanımın da taleyində mühüm rol oynayıb. O, Zərifə Əliyevanın ailə məktəbini keçdi, Heydər Əliyevin canlı dövlətçilik və idarəçilik təcrübələrini mənimsədi. Birinci xanımlıq missiyası da əslində, müəyyən varisliklə bağlıdır. Həm Zərifə Əliyevaya, həm də Mehriban Əliyevaya Azərbaycanın birinci xanımı olmaq şərəfi nəsib oldu.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycan tarixində məşhur olan xanımların – Tomirisin, Nüşabənin, Məhşibanu Şəmiranın, Şirinin, Mömünə Xatunun, Zahirə Xatunun, Mehrican Xatunun, Şahsarayın, Sara Xatunun, Tuti Bikə və başqalarının tarixi-qəhrəmanlıq və idarəçilik ənənələrini əzmlə davam etdirir. O, Prezident İlham Əliyevin sevimli və sədaqətli həyat yoldaşı, etibarlı silahdaşı olmaqla bərabər, üç gözəl övlad – iki qız və bir oğul anasıdır. İndi ailədə bir ana nəvazişi ilə nəvə Heydər böyüyür.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun rəhbəri olaraq genişmiqyaslı, tarixi əhəmiyyətli işlər görür. İlk növbədə, dünyanın böyük siyasətçisi, Heydər Əliyevin irsi həm Azərbaycanda, həm də dünya miqyasında təbliğ olunur. Bu zəngin irsin nəzəri-tarixi mahiyyəti dünya üçün açılır. Böyük diqqət və qayğı ilə Heydər Əliyevin nəzəri irsi Azərbaycanın mənəvi sərvətləri sırasında mükəmməl və nəfis şəkildə nəşr olunur, cildlərə çevrilir. Gələcəyi quran gənclər üçün dərslik kimi daha dərindən öyrənilir. Ümumiyyətlə, Azərbaycanın mənəvi sərvətlərinin yaşarlığının təmin olunmasında Mehriban xanımın əvəzsiz xidmətləri var. Onun ardıcıl və inamlı fəaliyyəti sayəsində, təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda maarifçilik və təhsilin inkişafı layihələri həyata keçirilir. Modern texniki bazaya malik yeni və gözəl məktəblər tikilir. Azərbaycan xalqının ən dəyərli və milli-mədəni sərvəti olan Muğam sənəti dünyaya yayılır, Beynəlxalq Muğam müsabiqələri keçirilir, Azərbaycan muğamları kompakt disklərdə dünyaya yayılır və UNESCO-nun qiymətli mədəni irsi fonduna daxil olur.

Zərifə Əliyevanın mənəvi irsini, təbiətinin zəngin aləmini əxz etmiş Mehriban xanım Əliyeva dünyada öz xeyirxah missiyasının tanınmış, görkəmli lideridir. O, yüksək dövlətçilik hissinə, ciddi tarixçilik duyğusuna malik intellektual şəxsiyyətdir. Gördüyü işlərin misli və miqyası bilinməyən bu iradəli xanım özündə zəriflik və sərtliyi ülvi bir gözəlliklə birləşdirən qadın etalonudur. O, keçmişə güvənir, bu günü yaradır və gələcəyin adamı kimi fəaliyyət göstərir. O özü bu barədə belə yazır: "Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir… Kimsənsə elə də olmalısan – bax budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sənin də dünyada yerin yeganə və bənzərsizdir".

İndi Azərbaycanda ardıcıl olaraq mədəni-kütləvi tədbirlər həyata keçirilir. Böyük təqdimatlar olur. Ayrı-ayrı tədbirlərdə biz Mehriban xanım Əliyevanın çox dəyərli çıxışlarının şahidiyik. Onun dəyərli fikirlərini, cəmiyyət, insan, həyat haqqında ümumiləşdirilmiş mülahizələrini dinləyirik. Mehriban xanımın bu fəlsəfi mülahizələri böyük sufi Mövlanə Cəlaləddin Ruminin məşhur "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol!" kəlamı ilə üst-üstə düşür. Görünür, təfəkkür etibarilə tarixiliyə istinad edən birinci xanım xəyal və idrakın vəhdətini şəxsiyyətin mənəvi qüdrətinin əsası kimi qəbul edir.

A.Lamartinin belə bir fikri var: "Bütün əhəmiyyətli işlərin başında qadınlar dayanır".

Böyük romantik filosof-şair Hüseyn Cavid isə: "Qadın gülürsə, şu işsiz mühitimiz güləcək, sürüklənən bəşəriyyət qadınla yüksələcək", – deyirdi.

Mehriban Əliyeva qloballaşan dünyanın lider xanımı, xoşməramlı səfiridir. Qloballaşma heç də bütün nəticələri müsbət olan bir proses deyil. Qloballaşma mədəniyyətlərin və mənəviyyatın inteqrasiyasını tələb edir. Bu istiqamətdə müəyyən dağıdıcılıq imkanlarına da malikdir. Bunu beynəlxalq səviyyəli həqiqətləri böyük şərqşünas alim, professor Aidə İmanquliyevanın yubileyinə həsr edilmiş Beynəlxalq İbn Ərəbi simpoziumundakı məruzələrindən də eşitdim.

Mehriban xanım Əliyeva "Heydər Əliyev Fondunun gördüyü işlərin dünyəvi əhəmiyyəti bir də bundadır ki, o, Azərbaycan mədəniyyətinin milli müəyyənliyini qoruyur, bizim milli kimliyimizi itməyə qoymur, öz mədəni-tarixi işləri ilə milli özünüdərkə, milli-mənəvi varlığımızın dürüstlüyünə xidmət edir", – deməklə qarşıda duran məqsəd və məramı açıqlayır.

Qəlbində böyük bir Azərbaycan idealı yaşadan, dahi Heydər Əliyevin formalaşdırdığı, Prezident İlham Əliyevin dövlət quruculuğuna uğurla tətbiq etdiyi azərbaycançılıq fəlsəfəsi, istiqlal məfkurəsi Mehriban xanımın milli mədəniyyət və maarifçilik strategiyasının əsasını təşkil edir. Bununla bərabər, Mehriban Əliyeva qloballaşan dünyaya türk dünyası prizmasından nəzər salır. O, tarixi min illərlə ölçülən qədim türk mədəniyyətinin, türk ruhu və mənəviyyatının böyük hamisidir. Mehriban xanım bizim zəngin tariximiz, qədim adət-ənənələrimiz, etnogenimiz, musiqi mədəniyyətimiz, təhsilimiz haqqında ana dilimizdə dərin məzmunlu, məntiqli, başlıcası isə səlis üslubda parlaq nitqlər söyləyir, günü-gündən xalqımızın və sivil dünyanın nüfuzunu qazanır. Onun daha bir mənalı fikrini misal gətirmək istəyirəm: "Mən öhdəmə götürdüyüm hər bir işə çox böyük məsuliyyətlə yanaşıram. Hər zaman öz fəaliyyətimdə çalışıram ki, bir neçə amala əsaslanım. Bunlar – vətənpərvərlik, insanpərvərlik və mərhəmətlikdir".

Mərhəmətlik qadın qəlbinin ucalığını göstərən ən ali hissdir. Yəqin elə buna görədir ki, Mehriban xanım təkcə Azərbaycan uşaqlarına yox, dünyanın bütün körpələrinə öz mərhəmətli qəlbindən sevgi payı verir. Onun fəaliyyətində Prezident İlham Əliyevə sədaqət, ulu öndər Heydər Əliyevə ehtiram ifadə olunur. Buna əminlik üçün aşağıdakı sətirləri oxumaq kifayətdir: "Heydər Əlirza oğlu aydın ifadə olunan xarizmaya malik idi. Onun enerjisi ətrafda hər şeyi dəyişməyə qadir idi, onun gəlişi ilə hər şey dəyişirdi. Onun fantastik yaddaşı, intellekti, hədsiz məlumatlılığı bəzən müşkül görünən problemləri həll etməyə imkan verirdi".

Bu gün Azərbaycan dövlətçiliyinin milli inkişaf strategiyasının əsasında Heydər Əliyevin ideyaları dayanır. Bu ideyalarda həm də Zərifə Əliyevanın həyata keçməmiş arzularının ülvi ifadəsi var. Bu ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun xanımı Mehriban Əliyeva əzmlə, inamla həyata keçirirlər.

***

…Hər dəfə Azərbaycanın müstəqillik tarixinin şərəf simvolu olan Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli filmə baxanda bir məqam qəlbimin ən kövrək hisslərini oyadır və bu böyük dahinin müqəddəs sevgisi heyrətə salır məni. Onun öz böyük sevgisinə, "cismində canı" yana-yana əbədiyyətə yola saldığı, əbədi sevgisi ilə ayrılığa için-için ağladığı səhnəni deyirəm.

Tər güllər, çiçəklər içində qərq olmuş və sanki əbədi sevgisinin heç zaman yaşarmayan gözlərindəki yaşı görməmək üçün gözlərini yumub Zərifə xanım. İlahi, bu əbədi cismani itki ilə barışmaq istəməyən qəlbi necə sakitləşdirəsən?

Heç zaman heç bir qüvvənin qarşısında əyilməyən cəsarət və mərdlik mücəssiməsi olan bu böyük insan həmin gün, bəlkə də həyatında ilk dəfə idi ki, taleyin acı qismətinə dözməyib göz yaşı tökürdü. "Cismindəki can ayrılıb" əbədiyyətə, son mənzilə gedirsə, ona özgə nə qalır ki…

Amma həyatın əbədiyyət dastanı burda bitmirdi. Tanrının əzəli bir missiya üçün hazırladığı böyük şəxsiyyət uzun və gərgin mübarizəyə bir az sonra başlayacaqdır. Yox, Zərifə xanım onu bu mübarizədə tək qoymamışdı. Zərifə xanım ona dayaq, arxa olacaq iki övlad böyütmüşdü və bilirdi ki, onlar ata şərəfini uca tutan layiqli şəxsiyyət kimi böyüyüblər.

…Düz 17 il sonra əbədi sevginin həsrəti bitdi və onlar əbədiyyətdə yenə qovuşdular. Bu gün Azərbaycanın və azərbaycanlıların and yerinə çevrilən müqəddəs bir guşədə – Fəxri xiyabanda Əbədiyyət dastanının iki qəhrəmanının məzarı üzərindəki qranit abidələr sözsüz və danışıqsız sanki hər şeyi başa düşür. Onlarla, yüzlərlə, bəzən minlərlə insanın əlində gül bu ünvanın səcdəsinə gəlir və sanki mənalı həyat yaşamağa heç olmasa azaçıq da olsa, onlara oxşamağa xeyir-dua alırlar.

…Nəsil-nəsil insanların yaddaşında bir ad yaşayacaq: böyük sevginin, əbədi sevginin adı, ünvanı…

**Azərbaycan.-**2013.-26 aprel.-№ 88.-S.10.

# Nurlu insan

**Hicran HÜSEYNOVA,**
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri,
siyasi elmlər doktoru

**Bu il Azərbaycan xalqı iki böyük övladının – ümummilli lider Heydər Əliyevlə onun sədaqətli ömür-gün yoldaşı, görkəmli alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileylərini qeyd edir.**

Artıq neçə illərdir ki, tanınmış oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva bizim aramızda yoxdur. Lakin bu nurlu insanın işıqlı xatirəsi ürəklərdə yaşayır. Bəlkə də bu, bir təsadüfdür ki, o, baharda doğulmuş, baharda da dünyasını dəyişmişdi. Xalqımız hər il aprelin 28-də Zərifə xanımın doğum gününü, 15-də isə vəfatının ildönümünü dərin ehtiramla qeyd edir. Ömrünü humanist ideallara həsr etmiş alimin əziz xatirəsi onu tanıyanlar tərəfindən həmişə minnətdarlıq hissi ilə yad edilir.

Zərifə Əliyeva nəcib insan, qayğıkeş həkim idi. Az yaşadı, ancaq qısa zamanı əhatə edən həyatı boyu səmərəli, faydalı işlər gördü. O, qayğıkeş, mehriban ana, vəfalı, sədaqətli ömür yoldaşı, səmimi dost, saf insan idi.

Zərifə xanım akademik Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Bu ailənin təməli xeyirxahlıq, nəciblik kimi xüsusiyyətlər və milli dəyərlər üzərində qurulmuşdu. Əziz Əliyev və Leyla xanım Abbasova Azərbaycanın çox qədim torpağı olan İrəvan mahalında dünyaya göz açmışdılar. Ermənilərin azərbaycanlılara qarşı o zamankı soyqırımı siyasəti nəticəsində Əziz Əliyevin ailəsi təqiblərə məruz qalmışdı. Bu səbəbdən də o, Sankt-Peterburqda təhsilini yarımçıq qoyub ailəsini Naxçıvanın Şahtaxtı kəndinə köçürür. Zərifə xanım da Şahtaxtıda anadan olur.

İnsan şəxsiyyətinin formalaşması onun əhatə olunduğu mühitdən asılıdır. Zərifə xanım da çox nəcib ailədə, söz, sənət adamlarının əhatəsində böyüyürdü. Ötən əsrin görkəmli elm, mədəniyyət xadimləri Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və digər şəxsiyyətlərin Əliyevlər ailəsi ilə dostluğu və mənəvi yaxınlığı Əziz müəllimin uşaqlarının tərbiyəsinə, dünyagörüşünə müsbət təsir göstərirdi. Bu ailənin övladları ilk növbədə, halal yaşamalı, mükəmməl təhsilə yiyələnməli, cəmiyyətdə hörmət qazanmalı idilər. Belə bir mühitdə tərbiyə alan Zərifə xanım bütün həyatı boyu öz təbiətində yüksək mənəvi keyfiyyətləri birləşdirərək dərin intellekti, geniş dünyagörüşü ilə seçilirdi. O, təmkinli, səbirli, dözümlü və zəhmətsevər idi. Tibb elminə yüksək, zəngin erudisiyaya malik novator alim kimi daxil olmuş, böyük məktəb yaratmışdı. Yüksək intellektual səviyyəsi, sərrast düşüncəsi, səmimi, xoş münasibəti onu hamıya sevdirirdi. Azərbaycan qadınlarının bütün gözəl cəhətlərini özündə cəmləşdirmiş Zərifə xanım bir həkim kimi də insanlara təmənnasız sevgi bəxş edirdi. Belə düşünürdü ki, həkim müalicəsinin uğurlu olması üçün ilk növbədə, insanları sevməli, onların ağrısını hiss etməlidir. Özü məhz belə həkim idi. Əslində, o, başqa peşə sahibi olsaydı belə, yenə insanlara sevgisi ilə fərqlənəcəkdi.

Zərifə xanımın təbabətə gəldiyi illərdə Azərbaycanda traxoma xəstəliyi geniş yayılmışdı. Xüsusən, bölgələrdə bu xəstəlikdən əziyyət çəkənlər daha çox idi. O, həmkarları ilə birlikdə ayrı-ayrı rayonları gəzərək xəstələri müayinə və müalicə edir, ehtiyacı olan insanlara nur bəxş edirdi. İstedadlı alimin qarşısına qoyduğu ali məqsəd insanların faciəsinə səbəb olan traxoma xəstəliyinin kökünün kəsilməsi idi. Onun bu sahədə yorulmaq bilmədən apardığı elmi axtarışlar, əldə etdiyi dəyərli nəticələr namizədlik işində öz əksini tapmışdı. 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomesinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görüldü.

Zərifə Əliyeva ciddi elmi tədqiqatları, mürəkkəb cərrahiyyə əməliyyatları, müalicə işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də uğurla davam etdirirdi. Gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli tibb işçilərinin hazırlanmasında, peşəkar elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdi. O, 1967-ci ildə müsabiqə yolu ilə Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə seçilmişdi. Zərifə xanım dosentlikdən professor, kafedra müdiri vəzifələrinə, akademik zirvəsinə qədər yüksəlmişdi. Azərbaycanda oftalmologiya sahəsində ilk akademik olmuşdur. Onun səyi və təşəbbüsü ilə ölkədə ilk dəfə peşəkar göz patologiyası laboratoriyaları yaradılmışdır. O, ictimai işlərə də vaxt tapır, bu sahədə də yorulmadan fəaliyyət göstərirdi. Zərifə xanım uzun illər Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan "Bilik" Cəmiyyətinin və Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuşdur.

Azərbaycanın əməkdar elm xadimi Zərifə xanım Əliyeva bir həkim kimi xəstələrinə can yandırır, onlara doğmaları kimi münasibət bəsləyirdi. Onun üçün vəzifəsindən, həyatdakı mövqeyindən asılı olmayaraq bütün insanlar bərabər idi. Xəstələrinə, ümumiyyətlə, ehtiyacı olan hər kəsə yardım əli uzadır və həmişə də çalışırdı ki, bunu başqaları hiss etməsin. O, hər gün işə gələndə rayonlardan gəlib xəstəxanada yatan xəstələrinə yemək, geyim gətirirdi ki, onlar ailədən uzaq düşdüklərinə görə narahat olmasınlar. Eyni zamanda, hər bir xəstəsi ilə mehriban rəftar edir, onlarda sağalacaqlarına ümid yaradırdı. Həmişə deyirdi ki, xəstənin həkimə inamı uğurlu müalicəyə

bərabərdir. Onun adının yanında "nur, işıq" sözləri daha çox işlənir. Bu da təbii ki, Zərifə xanımın peşəsi və işıqlı təbiəti ilə bağlıdır.

Onun həyatının məqsədi xeyirxahlıq idi. Elə həmkarlarına bu insandan yadigar qalan da peşəsinə sədaqət, xəstələrə həssas münasibət və onları həyata qaytarmaq istəyidir.

Son dərəcə ləyaqətli, insanpərvər, xeyirxah olan Zərifə xanım ailə səadətinin qoruyucusu, fədakar ana idi. O, Heydər Əliyev kimi dünya şöhrətli siyasətçinin xanımı olmaqla artıq böyük bir məsuliyyət daşıyırdı. Yaxşı bilirdi ki, onun ailəsi diqqət mərkəzində olduğundan həmişə hamıya nümunə olmalıdır. Zərifə xanım həyatını xalqına həsr etmiş bir insanı tükənməz sevgi və qayğı ilə əhatə edərək ona əsl dost, yaxın silahdaş və mənəvi dayaq oldu. Eyni zamanda, ailədə elə bir mühit yaradırdı ki, ömrünü Vətənə, xalqına xidmətə həsr edən ulu öndər evindən, uşaqlarından həmişə arxayın olub dövlət işi ilə məşğul olsun. Onlar birlikdə Vətənə, soy-köklərinə layiq övladlar böyüdürdülər. Zərifə xanım övladlarının düzgün tərbiyəsi üçün hər cür fədakarlığa hazır idi. Həmişə kamilliyə can atan bu insan uşaqlarının tərbiyəsində də şəxsi hisslərini deyil, cəmiyyətin mənafeyini üstün tuturdu. Bu gün Azərbaycanın fəxri, möhtərəm Prezident İlham Əliyevin siyasətdə qazandığı uğurlar, gündən-günə dünyada artan nüfuzu bir ana kimi Zərifə xanımın ruhunu sevindirir. Azərbaycan tarixinin iki böyük şəxsiyyətinin – ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı, möhtərəm Prezident İlham Əliyevin anası olmaq səadətini də tale Zərifə xanıma qismət etmişdir.

Bu gün onun müqəddəs ailə çırağını övladları, nəvələri yandırırlar. Ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam etdirərək Azərbaycanda birinci xanım institutunun daha da möhkəmləndirilməsi üçün çalışır. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirmiş Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. O, Azərbaycanda təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı üçün əlindən gələni edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ictimai fəaliyyəti də göz qabağındadır. Azərbaycan gənclərinin lideri kimi onun vətənpərvərliyi, ölkəmizin dünyada tanınması üçün gördüyü işlər hər birimizdə qürur hissi doğurur. Bu da genetik yaddaşın bir göstəricisidir.

…Həyatda bəzən qazanılan uğurlar insanlarda təkəbbür, özündən razılıq və başqalarına laqeydlik hissləri yaradır. Lakin bu, yalnız güclü mənəviyyata malik insanları dəyişə bilmir. Zərifə xanımın ailəsi şöhrətin zirvəsinə çatdıqca o, daha da sadələşirdi. Onun üçün ad-sandan, şan-şöhrətdən əvvəl mənəvi zənginlik, səmimiyyət və milli dəyərlər əsas idi. Zərifə xanım xalqın yaddaşında belə də qaldı.

**Azərbaycan.-**2013.-25 aprel.-№ 87.-S.9.

## Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva haqqında düşünərkən

**Nurlana ƏLİYEVA**
YAP Qadınlar Şurasının sədri,filologiya elmləri doktoru, professor
yap.org.az

**Dünya xəlq olunandan yer üzünə saysız-hesabsız insanlar gəlib-gedib. Sirrini sirdaşa verməyən dünya indi də, min illər boyu olduğu kimi, bir yandan boşalıb, bir yandan dolmaqdadır. Gələnlər tanrı payı olan ömrünü yaşayır. Gedənlərdən isə iz qalır. Böyüklərdən böyük, kiçiklərdən isə kiçik iz. Əlbəttə, söhbət bütün anaların öz övladlarını sevə-sevə oxşamalarından, qürur duymalarından deyil, əməllərin, arzuların aliliyindən və bütün bunların fövqündə duran, məhəbbətin böyük-kiçikliyindən gedir.**

Elə insanlar var ki, məhəbbəti ilə böyük bir nəsli, eli, obanı isidir və həyatdan köçəndə də el insanlar tərəfindən xatırlanır. Belə anımın ömrü bir qədər uzun olur – bir neçə nəsil boyu.

Lakin elə insanlar da vardır ki, günəş timsallıdırlar. Ömürlərinin məhəbbət işığından həm yaxına, uzağa, doğmaya, yada, həm də bütövlükdə mənsub olduğu xalqa, hamımızın ümumi evi olan planetimizdə bizimlə eyni zaman kəsiyində yaşayan digər xalqlara, eləcə də gələcək nəsillərə işıq və hərarət payı verirlər. Təbii ki, belə insanlar min illər boyu olumdan-ölümə köç edən bəşər övladları arasında dərya-damla nisbətində olur. Bu baxımdan tale həmişə xalqımızın üzünə gülüb. Günəş timsallı insanları tarix boyu xalqımıza bol-bol bəxş etməsi ilə…

Nümunə üçün elə qan yaddaşımıza ötəri bir nəzər salmaq kifayətdir ki yaxın-uzaq tariximizdən bizə boylanan belə insanları görə bilək. Cavanşir, Babək, Qızıl Arslan, Nizami, Möminə xatun, Bəhmənyar, Tusi, Sara xatun, Nəsimi, Füzuli, Şah İsmayıl, Mirzə Fətəli, H.Z.Tağıyev, Ulu öndər Heydər Əliyev və onlarca başqaları. Məgər onların hər biri bir əsrdə Azərbaycanın üzərində doğan qüdrət, zəka, mənəviyyat, xeyirxahlıq, mübarizlik günəşi olmayıblarmı. Mən 20-ci əsrin payına düşən görkəmli Azərbaycan qadınlarından və alimlərindən biri, xalqımızın böyük qızı Zərifə zanım Əliyevanı da bu sırada görürəm. 1923-cü ilin ılıq bir bahar günü dünyaya gələn, ürəyində və əməllərində işıqlı amalları, nəcib duyğuları yaşadan, ləyaqətli bir ömür yaşayan Zərifə xanım Əliyevanın olduqca mənalı və zəngin həyat yolu, ailəsi, övladları, xalqı, dövləti yolundakı fədakarlığı nəinki bugünkü, həm də gələcək nəsillər üçün bir örnək və yaşam etalonudur.

Onu yaxşı tanıyan məşhur rus həkim alimlərindən birinin dediyi və Zərifə xanım Əliyevanın yeganəliyini, təkrarsızlığını çox gözəl və dəqiq ifadə edən bir fikir yadıma düşür. «Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazmış olsaydım, heç şübhəsiz onu «Əvəzolunmaz insan haqqında povest» adlandırardım. Bəli, həmkarı Zərifə xanımı həqiqətən də çox yaxşı tanıyırmış. O bir insan kimi də, ana kimi də vəfalı həyat yoldaşı kimi də, həkim-alim kimi də, ictimai xadim kimi də əvəzolunmaz idi. Elm, bilik, mərifət sahiblərini, qəlbində böyük eşq gəzdirənləri çox yüksək qiymətləndirən ulu Nizami alimin rütbəsini bütün rütbələrdən uca sayırdı. Bu alimi cənnətin fövqundə duran ana olduqda isə bu ucalığın necə əlçatmaz olduğunu təsəvvür etmək çətin deyil.

Zərifə xanımı yaxından tanıyanların, sağlığında onunla birlikdə işləmək, ictimai-mədəni tədbirlərdə birgə iştirak etmək səadətinə nail olanların hamısı bu zərif və nəzakətli, alicənab və ziyalı Azəri xanımını, hər şeydən əvvəl, məhz sadə bir insan, olduqca səmimi, ölçülü-biçili hərəkət və davranış yiyəsi, böyük mədəniyyət sahibi kimi səciyyələndirirlər. Sadəliyi, xeyirxahlığı sevdirirdi onu hər kəsə. Kimsənin dərdinə, kədərinə biganə qalmazdı. Dara düşənə dayaq durardı, yıxılana söykək. Hamı onu belə tanıyırdı. Belə sevirdi. Və onu bir nəfər də sevirdi. Amma fərqli məhəbbətlə.

Öz sevgisi uğrunda çox çətin sınaqlardan çıxdığını da sübut etmiş, bununla da sevgisi yolunda mübarizə, dözüm, qətiyyət nümunəsi göstərmişdi. Bu, az sonra dünyanın siyasət aləmində imzası ilə seçilən böyük azərbaycanlının məhəbbəti idi. Bu, xalqının milli liderinə çevriləcək Heydər Əliyevin sevgisi idi. Bu müqəddəs duyğu onları yumruq kimi birləşdirəcəkdi. Bu sevda iki ürəkdə bir olacaqdı. Və bu məhəbbət ölüncəyə qədərdi. Zərifə xanım son nəfəsinədək onu başının tacı kimi qoruyacaqdı. O isə Zərifəsindən sonra nə az, nə çox, düz 18 il ömrünün ən böyük məhəbbətinin nisgilini yaşayacaqdı.

Hər birimiz şahidik. Heydər Əliyev kimi möhkəm iradəli bir insan, qüdrətli bir şəxsiyyət yalnız onun, sonsuz məhəbbətlə sevdiyi bir qadının xatirələri qarşısında kövrəlirdi.

Bəli, onların arasında olan bu saf və sarsılmaz məhəbbət ilahi bir sevgi idi və onlar bu məhəbbətləri ilə də nəsillərə böyük bir örnək qoymuşlar.

Zərifə xanım Əliyevanın parlaq səhifələrlə dolu zəngin ömür kitabında məni özünə ən çox cəzb edən, ilk növbədə, onun analıq fenomenidir. Mən analığı təbiətin ən böyük möcüzəsi sayıram. Çünki Allahdan sonra yeganə yaradıcı varlıq məhz anadır. Balaca zərif bir ananın necə böyük qüdrət daşıması məgər möcüzə deyilmi? Dünyaya böyük insanlar bəxş etməyə xalqların taleyində misilsiz iz qoymağa məgər analardan başqa kimsə

qadirdirmi? Analar həm də böyük tale, böyük xoşbəxtlik bəxş edə bilmək qüdrətinə malikdirlər. Zərifə xanım Əliyeva da bu baxımdan nadir, unikal bir qadın idi.

Filosoflar və pedaqoqlar əsrlər boyu insanların həyat qayəsini açmağa çalışıblar və son nəticədə bu qənaətə gəliblər ki, buna təsirgöstərən başlıca tərbiyəvi faktor şəxsiyyətin formalaşdığı ailə mühitdir. Bu baxımdan tale Zərifə xanımın üzünə gülmüşdü. O, nəcib bir ailədə, görkəmli ictimai-siyasi və dövlət xadimi, tanınmış təbib, vətənini alovlu məhəbbətlə sevən və bütün ömrü boyu inandığı və xidmət etdiyi ideologiyanın əsgəri olan Əziz Əliyevin ailəsində dünyaya gəlmişdi.

Mən övladların çox şeyi valideynlərindən, xüsusən də analarından irsən miras almasına inanıram. Və buna görə də qəti əminəm ki, Zərifə xanım Əliyevanın hər bir insanın həsəd aparmalı olduğu dərəcədə yüksək xarakterinin formalaşmasının kökündə Zərifənin valideynlərinin, Əliyevlər ailəsinin sadə dolanışığı, xeyirxah, nəcib, diqqətli, qonaqpərvər ruhu, burada qərarlaşan mənəvi ovqatın təmizliyi durur. Ona da qəti surətdə əminəm ki, insanın qəlbini, ruhunu, xeyirxahlığa və gözəlliyə canatmanı yaradan, formalaşdıran ev tərbiyəsini dünyanın heç bir universiteti əvəz edə bilməz. Əliyevlər ailəsindəki uşaqların hamısı məhz belə mühitdə tərbiyə almışdılar.

Zərifə xanımın anası Leyla xanım xoşbəxt taleli bir qadın idi. Bu xoşbəxtlikdən isə dörd övladının dördünə də pay duşmuşdu. Onların hamısı həyatda istedadlı və xoşbəxt taleli insanlar oldu. Qızı Gülarə gözəl ifaçı və bəstəkar kimi şöhrətləndi. İki oğlu – Tamerlan və Cəmil isə görkəmli tibb alimləri kimi ad-san qazandılar. Lakin ailənin ilki olan Zərifə xanıma isə daha nurlu və uğurlu tale payı düşdü. Görünür, həm də buna görə valideynlərinin məhəbbət payınına da çoxu ona çatmışdı. Deyirlər, uşaqlıqdan qismət olan ana məhəbbəti insanı xoşbəxt edir. Zərifə xanımı da anası Leyla xanım və atası Əziz çox istəyirdilər.

Xalqımızın tarixində özünəməxsus izi olan Əliyevlər ailəsi sovet dövrünün tipik ziyalı ailələrindən idi. Ailənin dünyaya pəncərəsi Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun məşhur Şahtaxtlı kəndində açılmışdı. Əziz Əliyevin ailəsi buraya 1918-ci ildə ermənilərin növbəti fitnəkarlıqları baş qaldıranda, azərbaycanlılara qarşı deportasiya siyasətinin ikinci mərhələsi başlayanda, soyqırım tüğyan edəndə köçmüşdü.

Əziz Əliyev o vaxt böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Peterburq Hərbi Tibb Akademiyasında təhsil alırdı. Ermənilərin məkrli planlarını yenidən ortaya atdıqlarını və azərbaycanlıları öz dədə-baba torpaqlarından didərgin salmağa hazırlaşdıqlarını biləndə təhsilini yarımçıq qoyaraq evinə qayıtmış və ailəsini Naxçıvana, Şərurun Şahtaxtlı kəndinə köçürmüşdü. Təhsilini başa vurduqdan sonra Şahtaxtlıya dönən Əziz Əliyev həkimlik fəaliyyətinə də burada başlamışdı. Onlara böyük sevinc bəxş edən elə övladları da burada dünyaya gəlmişdi.

Doğma yerlərdən didərgin düşmüş ailə 1923-cü ildə Bakıya köçməyi qərara alır. Həmin ilin yayında Bakıya gələn Əziz Əliyev tanışların köməyi ilə rus dilini yaxşı bilən gənc kimi dövlət işinə qəbul olunur və beləliklə vəzifə pillələrində yüksəliş başlanır. Əlbəttə, onun karyera yüksəlişinin təməlində aldığı mükəmməl gimnaziya təhsili, Peterburq Hərbi Tibb Akademiyasında əldə etdiyi yüksək nəzəri və praktik hazırlığı çoxlarında qibtə doğuran işgüzarlığı, xalqının, dövlətinin yolunda hər cür fədakarlığa daim hazır olmaq istəyi dururdu. Gimnaziyanı qızıl medalla bitirmiş böyük bir imperiyanın ikinci ən böyük şəhərində ali təhsil almış Əziz Əliyev o vaxt barmaqla sayılacaq yüksək ixtisaslı peşəkar mütəxəssislərdən idi. O həm də ideallarına inandığı və hədsiz sədaqət göstərdiyi partiyanın yorulmaz əsgəri idi. Partiya onu hara göndərirdisə gedir və çox tezliklə də göstərilən etimadı doğruldurdu. 20-30-cu illərdə o maarif, səhiyyə sahəsində çalışmaqla bu sahələrin dirçəlməsinə və inkişafına öz töhfəsini vermiş, bununla da Vətənə olan övladlıq borcunu qaytarmışdı. Yüksək işgüzarlığı və rəhbərlik bacarığı sayəsində o, bir sıra rəhbər vəzifələrə irəli çəkilərək Azərbaycan Tibb Universitetinin ilk rektorlarından biri, sonra isə xalq səhiyyə komissarı oldu.

O dövrdə ölkə sanki hərbi rejimlə işləyirdi. Rəhbər işçilərin və yüksək ranqlı partiya funksionerlərinin həyatı, iş rejimi peşəkar zabitlərinkindən fərqlənmirdi. Hamıdan güclü intizam tələb olunurdu. Belə şəraitdə səhərdən gecə keçmişədək iş başında olmaq, bütün enerjini işə vermək lazım gəlirdi. Həyat yoldaşı və övladları Əziz Əliyevin üzünü ancaq gecələr görə bilirdilər. Ona görə də evdə uşaqların tərbiyəsi ilə əslən bəy nəslindən olan Leyla xanım məşğul olurdu. Leyla xanım ləyaqət mücəssəməsi idi. Həyat tərzinə görə çox sadə davranmağı sevən bu qadın övladlarına da həyatda təvazökar olmaq mədəniyyəti aşılamışdı.

Elm, təhsil, mədəniyyətlə nəfəs alan Əliyevlər ailəsində yüksək intellektual mühit mövcud idi. Balaca Zərifə və onun bacı-qardaşları belə bir ziyalı mühitində böyüyüb tərbiyə alırdılar. Ətraflarında müşahidə etdikləri təhsilə, elmə, müasirliyə maraq onlara da sirayət edir və həyat yollarını seçməkdə müəyyənedici rol oynayırdı. Güclü təsirə malik ailə ənənəsi vardı – ata tanınmış həkim idi. Üstəlik o dövrdə həkimlik və müəllimlik peşələri cəmiyyətdə ən prestijli peşələr hesab olunurdu. Müəllimin və həkimin nüfuzu xalq arasında yüksək idi. Onların hər ikisi cəmiyyətin ən savadlı, hörmətli şəxsləri sayılırdılar. Oxuyana, təhsil alana hamı hörmət edirdi. Cəmiyyətdə layiqli yer tutmaq üçün təhsil zəruri vasitə sayılırdı.

Ata Əziz Əliyev səhiyyə sistemində çalışdığından ölkə səhiyyəsinin problemlərini ailədə də hamı bilirdi. Problemlər isə çox idi. Ölkədə həkimlər çatışmırdı. Kütləvi epidemiyalar baş alıb gedirdi, uşaq ölümünün faizi yüksək olaraq qalırdı. Bu kimi problem və çətinliklərin dəf olunması üçün böyük işlər görülür, yeni Avropa tipli səhiyyə formalaşaraq kütləvi epidemiyalara qarşı mübarizə aparılırdı, yeni dərman preparatları tətbiq olunur,

klinik müalicənin əsası qoyulurdu. Əziz Əliyev sonralar bir sıra partiya vəzifələrində işləsə də onun ailəsində tibb elminin, təbibliyin nüfuzu yüksək olaraq qalırdı.

Bütün bunlar balaca Zərifənin qəlbində hələ kiçik yaşlarından həkim olmaq, xalqın sağlamlığı keşiyində durmaq arzusu doğurmuşdu. 30-cu illərdə orta məktəbdə oxuyanda, xüsusən son siniflərdə onun həyatı gələcək fəaliyyəti haqqında təsəvvürləri artıq dəqiqləşmişdi. O, özünü xalqın sağlamlıq durumunun mühafizəçisi kimi görürdü. Həyat amalı da bu idi: «Elə yaşamalı, elə mübarizə aparmalıyıq ki, qəlbimizdəki xeyir həmişə qonşuluqda yaşayan şərə qalib gəlsin». Bu sözlər isə hələ uşaqlıqdan onun necə böyük bir ürək sahibi olduğunu aydın göstərir: «Elə hey düşünürəm, necə edim ki, insanlara sevinc bəxş edim».

Əliyevlər ailəsində musiqiyə böyük maraq və həvəs vardı. Bu maraq Zərifə xanımda da uşaqlıqdan özünü büruzə vermişdi. Həm də bu təkcə maraq deyildi, onda qeyri-adi improvizasiya istedadı var idi. Orta məktəblə yanaşı musiqi dərslərinə də gedirdi. Pianoda və akkoordeonda gözəl çalırdı. Kiçik bacısı Gülarə ilə birlikdə evdə konsertlər verirdi. Həm də yaxşı rəqs edirdi.

Gələcək həyatını tibb elminə həsr etməyi qəti müəyyənləşdirmiş gənc Zərifə 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutuna daxil oldu. Onun ali məktəbdə oxuduğu illər Əliyevlər ailəsi üçün çətin dövr idi. Müharibənin ən ağır illərində – 1941-1942-ci illərdə Əziz Əliyev Azərbaycan KP MK-nın katibi, sonra isə 6 il Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi işləmişdi. Böyük təşkilatçılıq bacarığını, partiya, dövlət işinə sədaqətini, ən çətin situasiyalarda belə ən optimal qərarlar qəbul etmək qabiliyyətini nəzərə alıb onu ən çətin sahələrə göndərirdilər. Hətta bir müddət İranda da səlahiyyətli partiya işçisi kimi çalışmışdı. Bütün bunlar, təbii ki, ailəyə də təsirsiz ötüşmürdü. Evdə daim bir nigarançılıq və gərginlik hiss olunurdu. Zərifə də anası ilə birgə atası üçün həyəcan keçirirdi. Belə gərgin vaxtlarda anası Leyla xanımın səbri, iradəsi, dözümü, özünün başını bir şeylə qatması, gələcəklə yaşamaq nikbinliyi ona dayaq dururdu.

1947-ci ildə Zərifə Əliyeva Tibb İnstitutunu əla qiymətlərlə bitirdi. Lakin bu hələ oxumağın, təhsilin sonu deyildi. Gənc Zərifə təbabətin ən incə, eyni zamanda, ən vacib bir sahəsini – oftalmologiyanı özünə ixtisas seçmişdi. Göz həkimi olmaq, adamlara dünyanın ən böyük, ən əvəzsiz nemətini – dünya işığını qaytarmaq arzusu onun qəlbində hələ özünü təbabətə həsr etmək qərarını verdiyi gündən çox-çox əvvəl baş qaldırmışdı. Bir gün Zərifə xanım rəfiqəsi ilə küçədə gedərkən gözləri görməyən, lakin olduqca gözəl bir qadının necə çətinliklə hərəkət etdiyini görmüşdü və bu mənzərə qızın həssas qəlbini göynətmişdi.

İnstitutda oxuduğu illərdə müəllimi, tanınmış göz həkimi Umnisə xanım Musabəyovanın ona göz xəstəlikləri üzrə ixtisaslaşmanı məsləhət görəndə bu, onun ürəyindən oldu. Yaddaşında bir-neçə il əvvəl gördüyü həmin mənzərə yenidən canlandı. Sonralar həyat bu seçimin müdrikcəsinə bir seçim olduğunu sübut etdi. Zərifə xanım bu sahənin ən gözəl, ən kamil, bütün dünyada tanınan mütəxəssislərindən oldu.

Seçdiyi ixtisasa daha da dərindən yiyələnmək üçün Zərifə Əliyeva 1947-ci ildə Moskvadakı Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun ordinaturasında oxumağa getdi və iki il ixtisası üzrə nəzəri və praktik hazırlığını artırdı. O zaman bu institut SSRİ-də ən nüfuzlu elmi və klinik mərkəz idi. Burada ölkənin ən tanınmış oftalmoloq alimləri çalışırdılar. İnstitutdakı elmi mühit çox yüksək olub özünəməxsusluğu, inkişafetdiriciliyi, səmimiliyi ilə fərqlənirdi. Elmi diskussiya və seminarlarda dünyadakı və ölkədəki ən son elmi yeniliklər müzakirə olunur, müzakirələrdə hərə öz fikrini, nöqteyi-nəzərini ortaya qoyurdu. Hər bir alimin öz fikri, öz yolu var idi. Heç bir elmi avtoritet bütləşdirilmirdi. Hamı tənqid üçün açıq idi. Bu institutda Zərifə xanım elmi və təcrübi biliklər qazanmaqla, həkimlik sənətinin incəliklərinə yiyələnməklə bir həqiqəti də dərk etdi. Elmdə öz yolunu tapmalı, öz axtarış cığırına düşməlidir. Yaxşı həkim və alim olmağın yolu məhz bundan keçir.

Moskva mühiti həm də Zərifənin mənəvi cəhətdən inkişafına güclü təsir göstərdi. Daim ailəsi ilə birlikdə anasına sığınıb yaşamış gənc qız burada müstəqil yaşamaq vərdişləri qazandı. Böyük bir ölkənin paytaxtı olmasına baxmayaraq Moskvada da müharibənin ağır izləri qalmaqda idi. Hər yerdə qıtlıq və yoxsulluq hiss olunurdu. Lakin müharibə səngərlərindən universitetlərə gəlmiş gənc nəsli bütün bunlar qorxutmurdu. Onlar ölkənin gələcəyinə, çətinliklərin aradan qalxacağına, insanların müharibəsiz dünyada, sülh və əmin-amanlıq şəraitində yaşayacağına inanırdılar. Bu inam Zərifədə də güclü idi. O sonralar belə bir dünyanın qurulmasına Sovet Sülhü Müdafiə Komitəsi İdarə Heyətinin üzvü olaraq öz əməli töhfəsini də vermişdi.

İki illik ordinatura başa çatdıqdan sonra Zərifə Əliyeva Bakıya qayıdaraq buradakı Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda çalışmağa, elmi fəaliyyətini davam etdirməyə başladı və elə həmin il institutun aspiranturasına daxil oldu. Moskvada, mərkəzi institutda qazandığı nəzəri biliklər və təcrübə gənc araşdırıcının səmərəli işləməsinə imkan verirdi.

Zərifə xanımı elmə həyat özü gətirmişdi. O dövrdə, Zərifə xanım təzə-təzə elmi fəaliyyətə başlayanda Azərbaycanda gözü zədələyən və ağır nəticələrə, hətta tam korluğa səbəb olan traxoma adlı infeksion xəstəlik geniş yayılmışdı. Ona qarşı təsirli müalicə üsulları yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticəsi ilə səmərəli mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Göz xəstəlikləri institutuna traxoma epidemiyası əleyhinə preparat və antibiotiklər hazırlamaq tapşırılmışdı. Gənc alim institutun bu yöndəki tədqiqatlarında yaxından iştirak edirdi.

Zərifə xanım institutundakı fəaliyyəti ilə kifayətlənmir, cavan həkim oftalmoloq həmkarları ilə birlikdə tez-tez xəstəliyin daha geniş yayıldığı rayonlara gedir, ağır xəstələri müalicə edir, yerli həkimlər qarşısında elmi mühazirələr oxuyur, əhali arasında maarifləndirici söhbətlər, izahat işləri aparırdı. Məhz bu ekspedisiyaların səmərəli işi və onun üzvləri olan oftalmoloq alim-həkimlərin fədakarlığı sayəsində traxoma epidemiyası qısa bir zaman ərzində lokallaşdırıldı.

Bəzən bu təşəbbüslərə, gənc həkimin fədakarlığına ağız büzənlər də olurdu. Lakin xalqına xidmətdən dərin mənəvi zövq alan Zərifə xanım belələrinə qətiyyən məhəl qoymur, xəstələrə şəfa verməyi özünün vətəndaşlıq və həkimlik borcu sayırdı.

Tale Zərifə xanıma qeyri-adi gözəllik və cazibədarlıq bəxş etmişdi. Onun xarici görkəmi, gur saçları, sifətinin mütənasib cizgiləri, açıq alnı, insanın qəlbini riqqətə gətirən qara gözləri hər kəsi heyran edirdi. O hələ qız vaxtında şəhərin say-seçmə gözlərindən biri sayırdı. Lakin illər bir-bir ötsə də o heç kəsə könül verməyib, öz qismətini gözləyirdi. Elmdə realist olduğu qədər həyatda, xüsusən də sevib-sevilmək məsələsində romantik olan gənc Zərifənin məhəbbət haqqında öz qənaətləri var idi.

Onun qisməti, gözlədiyi romantik qəhrəman 1951-ci ildə gəldi. Bu gələcəyin böyük siyasətçisi, Zərifə Əliyevanın ona verdiyi sevgini ömrünün sonuna qədər ən dəyərli əmanət kimi qoruyub saxlayan Heydər Əliyev idi. O vaxt Dövlət Təhlükəsizliyi orqanlarında işləyən gənc Heydərin ara-bir Əziz Əliyevgilə yolu düşürdü. Çünki Əziz Əliyevin şəhərin mərkəzində yerləşən mənzili o vaxt ziyalıların, tanınmış elm, sənət adamlarının bir növ görüş yeri idi. Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Səməd Vurğun, Qara Qarayev, Bülbül, Niyazi, Mirəsədulla Mirqasımov və başqaları buraya tez-tez gəlirdilər. Heydər Əliyevin qardaşı, tanınmış alim Həsən Əliyevin də Zərifənin atası ilə ailəvi yaxınlığı vardı. Evin böyük qızı onlara gəldiyi ilk gündən Heydərin diqqətini cəlb etmişdi. Zərifə də bunu duymuş və qəlbində bu alagözlü, ucaboylu, təndürüst gəncə, rus və Azərbaycan dillərində səlist danışan gənc oğlana qarşı məhrəm duyğular baş qaldırmışdı. Bu iki böyük şəxsiyyətin arasında sonralar yaranmış və öz möhkəmliyi, aliliyi ilə örnəyə çevrilmiş məhəbbətin ilk cücərtiləri idi. Tezliklə gənc zabit qızın qəlbinə hakim oldu və onlar görüşməyə başladılar. Elə ilk görüşlərindən, söhbətlərindən həssas qəlbli Zərifə hiss etdi ki, axtardığı bəxt ulduzu elə bu cavan oğlandır. Tale onu Zərifəyə bütün ideallarını gerçəkləşdirmək üçün öz lütfi kimi göndərmişdi.

Lakin aralarında baş qaldıran məhəbbət elə ilk günlərdən ciddi sınaqdan keçməli oldu. Təhlükəsizlik xidməti zabitinin şəxsi həyatı işlədiyi qurumun nəzarəti altında idi. Ona görə də onun respublikada yaxşı tanınan Əziz Əliyevin qızı ilə münasibətləri artıq rəhbərliyə məlum idi. Bu o vaxt idi ki, artıq Əziz Əliyevin başı üstündə qara buludlar dolaşmağa başlamışdı. 1952-ci ildə o zaman Dövlət Təhlükəsizliyi naziri olan Yemelyanov onu iki dəfə kabinetinə çağırıb ölkə rəhbərliyinin gözündən düşmüş Əziz Əliyevin qızı ilə görüşməyin gənc zabit üçün pis nəticələr verə biləcəyini xatırlatmışdı.

Gənc Heydər çıxılmaz vəziyyətdə qalmışdı. Çox sevdiyi işini də itirmək istəmirdi, Zərifədən də əl çəkməyi ağlına gətirmirdi. Belə qeyri-müəyyən vəziyyət altı ay davam etdi.

Bu müddətdə vəzifəsində işləməkdə davam edən Heydər Zərifə ilə də əlaqəsini kəsmirdi. Lakin qaranlıqları aydınlığa çıxaran qüvvə tezliklə onların da üzünə güldü. «Ellər atası» Stalin öldü. Bununla da Mir Cəfərin hakimiyyətinin dayaqları sarsıldı. Bir müddət keçdikdən sonra təqib olunanlar, haqsız incidilənlər nicat tapdılar. Əziz Əliyev də layiq olduğu vəzifəyə qaytarıldı. 1954-cü ildə Heydər Əliyevlə Zərifə Əliyeva ailə qurdular.

Qarşılıqlı məhəbbət üzərində qurulan ailə xoşbəxt idi. Gənc zabit həyat yoldaşının simasında özünə həqiqi bir dayaq tapdı. Məhz o dayağa söykənərək o bütün vaxtını çox sevdiyi dövlət işinə ayırır, evlə, ailə ilə məşğul olmağa imkanı qalmırdı.

O vaxt Zərifənin ailə üçün göstərdiyi fədakarlıqları Ulu Öndər sonralar, Zərifənin artıq həyatda olmadığı vaxlar onun məzarı önündə durub əziz xatirəsini yad edərkən çox yüksək qiymətləndirirdi. Blə məqamların birində demişdi: «Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm. Bu yolda mənim həmişə səmərəli çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub.

Zərifə xanım kimi həyat yoldaşımın olduğuna və o ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. O çox istedadlı, çox xeyirxah, çox sadə insan idi».

Bəli, bu böyük insanın, sadiq ömür-gün yoldaşının həyatını xoşbəxt etmiş insan haqqında etiraflarıdır. Bu həm də fədakarlığa, ananın, qadının ailədəki əvəzsiz roluna verilən yüksək qiymət və bu məhəbbətin böyüklüyünün sübutudur.

1955-ci ildə onların ilk övladları Sevil dünyaya gələndə gənc ailənin sevincinin həddi-hüdudu yox idi.

Dünyanın ən gözəl simfoniyası hesab olunan körpə qığıltısı onların da isti yuvasına yeni arzular, ümidlər, qayğılar gətirdi.

1961-ci il dekabrın 24-də isə ikinci övladları dünyaya gəldi. O da özü ilə gənc ailəyə bir dünya bəxş etdi. Böyüyəndə bütün ölkəni daha aydın və işıqlı sabaha ilhamlandıracağını sanki duyubmuşlar kimi uşağın adını İlham qoydular. İlham gənc ailəyə yeni qol-qanad, ilham verdi.

O, qeyri-adi ana idi. Onun övladlarına münasibəti də xüsusi olub başqalarından seçilirdi. Belə münasibətin bənzərini tapmaq çətindir. O uşaqları sanki ulu Tanrı tərəfindən bəxş olunmuş bir nur payı kimi qəbul edirdi. Analıq borcunu yerinə yetirməkdə özünə rəhm etmirdi. Elmi və ictimai işlər onun həddən artıq vaxtını aparsa da İlhamın böyüməsi, təhsili ilə bağlı hər şeyə özü diqqət yetirir, hər xırda məsələdə, hadisədə şəxsən özü iştirak edirdi.

Bu baxımdan onu öz ailəsinin xeyirxah dahisi adlandırmaq olardı. Çünki, məhz onun sayəsində ailə rahatlıq tapır, məhz onun ana müdrikliyi, ana ürəyi övladlarını xəstəliklərdən, bədnəzərdən qoruyur, onun şəfqətli əlləri ağrını və yorğunluğu götürürdü.

İlhamın 7 yaşı olanda Heydər Əliyev respublikanın rəhbəri seçildi.

Təbii ki, bütün xalqımız üçün sevinc, gələcək uğurlu inkişaf mənbəyi olan bu hadisə Zərifə xanım üçün də, ailə üçün də bir fərəh və təntənə anı oldu. Lakin ziyalı ana onu da bilirdi və nəzərə alırdı ki, rəhbərin ailəsində böyüyən uşaqların tərbiyələndirilməsi təhsil alması çox çətin məsələdir. Elə etmək lazımdır ki, onlara heç bir güzəşt olunmasın, ən müasir mükəmməl təhsil ala bilsinlər. Sonralar həyat sübut etdi ki, Zərifə xanım vaxtında bu çətin və mürəkkəb işin, vəzifənin öhdəsindən necə bacarıqla gəlib. Zaman onu da göstərdi ki, bu müdrik ana övladlarına zəhməti, təhsili sevməyi çox mükəmməl öyrətmiş, onlarda ail dəyərlərinin əsasını təşkil edən sadəlik, səmimiyyət, təvəzükarliq, xeyirxahlıq tərbiyə edə bilmişdir. Bu əlbəttə, böyük səbr, zəhmət, qətiyyət, məhəbbət tələb etmişdi. Bunlar isə onda bol idi.

Ölkənin birinci xanımı olmaq ona əlavə məsuliyyət gətirsə də, problemlərini artırsa da, xarakterində, xasiyyətində dəyişiklik edə bilmədi. O elə əvvəlki sadə, xeyirxah, üzügülər Zərifə xanım olaraq qaldı. O, ailədə də əvvəlki həyat prinsiplərini dəyişməz olaraq saxladı, ailənin sabitliyini qorumaq, narahat etməmək. O buna ustalıqla nail olurdu. İşlədiyi kollektivdə də iş yoldaşları ərinin statusunun dəyişilməsi ilə onun davranış və rəftarında heç bir dəyişiklik hiss etmirdilər. O əvvəlki kimi qayğıkeş, mehriban idi. Zərifə xanım hər bir insana həyatının çətin anında dayaq olmaq, ona kömək etmək amalı ilə yaşayan bir insan idi. Bir çox məişət problemlərini həll etməkdə iş yoldaşlarına kömək göstərirdi. O, güclü şəxsiyyət idi. Mənliyində qalmaq şərti ilə bir kimsənin xətrinə dəyməzdi. Hamı bilirdi ki, Zərifə xanım ona üz tutanların hamısına imkanı daxilində kömək etməyə hazırdır. O, insanlara dayaq olmaqdan böyük zövq alırdı.

Zərifə xanım Əliyeva ailənin qayğılarını çəkməklə yanaşı, elmdə də sürətlə irəliləməkdə idi. Göz Xəstəlikləri İnstitutunda çalışır, bir neçə istiqamətlərdə tədqiqat işləri aparırdı. Onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki bu sahə olduqca ağır idi. Onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi biliklər tələb edirdi. Bu keyfiyyətlər isə Zərifə Əliyevada var idi. Peşə oftalmologiyasının pioneri sayılan Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmışdı.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan Zərifə Əliyeva təbabətdə öz dəsti xətti olan novator alim idi. Bu istedadlı alimin gözün oftomoloji, histomikroskopik və histokimyəvi tədqiqi, klinik diaqnostika və s. istiqamətlərdə də dərin elmi araşdırmalar aparırdı. Bütün bu axtarışlarının nəticəsi olaraq o 1976-cı ildə vaxtilə ordinator olduğu Helmholts adına Mərkəzi Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda müvəffəqiyyətlə doktorluq disertasiyasını müdafiə etdi. Oftalmologiyada hadisəyə çevrilən bu müdafiədən bir müddət sonra o, kafedra müdiri seçildi.

Ümumiyyətlə ailədə və cəmiyyətdə apardığı işlərin çoxluğuna baxmayaraq təbabət elmində məhsuldar alim kimi tanınan Zərifə xanım göz xəstəliklərinə dair 140 elmi məqalə, bir neçə monoqrafiya və kitab yazıb, çap etdirdi. Çoxillik elmi axtarışlardan belə qənaətə gəlmişdi ki, insanların xəstə gözlərinin müalicəsi çətin və ağrılı prosesdir. Ona görə də o göz xəstəlikləri sahəsində profilaktika metodlarına daha çox əhəmiyyət verməyə başladı. Bu, dövri üçün olduqca uzaqgörən və müasir bir məsələ idi. Zərifə xanım bu zəmində sonralar ona böyük şöhrət gətirmiş göz xəstəliklərinin profilaktikası üçün öz metodikasını hazırladı.

O artıq elmin zirvəsində idi. 1983-cü ildə Zərifə Əliyevanın Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi bunun təsdiqi oldu. O həm də keçmiş SSRİ-də ilk qadın həkim olaraq Tibb Elmləri Akademiyasının akademik Aberbax mükafatına layiq görüldü. Bunlar həm də onun apardığı çoxillik elmi-tədqiqatların yüksək səviyyəsinə, sosial əhəmiyyətinə, ictimai fəallığına, pedaqoji istedadına verilən yüksk qiymət idi. Onun alim şöhrəti artıq dünyanı dolaşmaqda idi.

Zərifə xanımın bir yüksək keyfiyyəti də vardı; ürəkdən və ilhamla çalışardı. Ətrafındakılar ondakı tükənməz həyat enerjisinə heyran idilər.

1982-ci ildə Heydər Əliyev Siyasi Büroya üzv seçilib Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduqdan sonra ailə Moskvaya köçdü. Bura Zərifə xanımın gəncliyinin şəhəri idi. Moskva elitası ilə təmasda olmaq, ailəsini sevən hörmətli adamlarla ünsiyyətə girmək onun üçün xoş və fərəh mənbəyi idi. İşdə, ailədə hər

şey yaxşı gedirdir. Lakin birdən hər şey dəyişdi. İnsanlara şəfa verən bu ülvi insanın, qadir həkimin özündə sağalmaz xəstəlik tapıldı. Və bu amansız xəstəlik müqtədir həkimi, hamının sevdiyi böyük bir insanı, alimi əbədiyyətə apardı.

Gözünün nuru olan əziz İlhamının uzun illər təhsilinə, tərbiyəsinə, insan və şəxsiyyət kimi yetşməsinə bir fədakar ana kimi özünü həsr edən Zərifə xanıma onun yüksəliş yollarını görmədi, ölkə prezidenti kimi əziz oğlunun andiçmə mərasimində iştirak etmədi. Respublikanı məharətlə idarə etməsini, Azərbaycanı necə yüksəklərə qaldırmasını, beynəlxalq aləmdə yüksək nüfuz qazanmasını görmək ona qismət olmadı. Zərifə xanımın arzularının fərəhini bu gün bütün Azərbaycan yaşayır. Bu fərəh və qürur üçün biz Zərifə xanıma, onun övladlarına verdiyi yüksək tərbiyəyə görə cox minnətdarıq.

Ana məhəbbəti heç vaxt azalmır. O daim güclüdür. Öz gücü ilə də xariqələr yaradır. Bu gün Zərifə Əliyevanın övladları ilə, xüsusən də əziz oglu, Prezident İlham Əliyevlə bütün ölkə fəxr edir. Bu fəxarət hisslərində həm də onu dünyaya gətirib boya-başa çatdırmış, soy-kökə layiqli övlad olaraq tərbiyə etmiş, Zərifə Anaya dərin bir minnətdarlıq duyğuları var.

Bu günlər bu böyük insanın 90 illik yubileyini əziz xatirəsinə sonsuz hörmətlə qeyd edirik. Onunla bağlı hadisələr yaddaşların dərin qatlarından üzə çıxdıqca bu bənzərsiz insanın işıqlı obrazı sönməz günəş kimi gözlərimiz önündə bərq vurur və mənəviyyat tariximizin örnəyinə çevrilir.

**Səs**.-2013.-23 aprel.-№ 72.-S.12-13.

## Sevgisinin və peşəsinin mücahidi

### Zərifə Əliyeva – 90

**İlqar RÜSTƏMOV**

**Heydər Əliyev və Zərifə xanım Əliyevanın qoşalaşan talelərinin bu ötəri dünyada ömürləri bitdiyi yerdə, xatirələri müstəqil Azərbaycanın həmişəyaşar taleyində əbədiyyətə qovuşdu. Bu gün onlar haqqında danışmaq, onlara əsərlər həsr etmək, onların yubileylərini keçirmək nə qədər xoşdursa, onların yoxluğunu düşünmək bir o qədər çətin və nisgillidir…**

**Son 10 ildə bu qoşa taleyin əbədiyyət dastanından bir-birindən fərqli, bəlkə yüzlərlə məclisdə, tədbirdə, elmi-praktik konfranslarda olmuşam. Qəribədir, Heydər Əliyevin adı harada, hansı məclisdə, tədbirdə çəkilirsə orda Zərifə xanım Əliyevanın adı da mütləq çəkilir. Zərifə xanımın işıqlı ruhuna harda dualar oxunursa, orada mütləq Heydər Əliyevin müqəddəs ruhu anılır və uca Tanrıdan ona rəhmət dilənir. Adamı vəcdə gətirən odur ki, bu, Allaha ən mərhəm dilək kimi milyonların qəlbindən sadəcə söz kimi yox, bakirə istək və arzu kimi dünyaya gəlir.**

Dünən, Sumqayıt Dövlət Universitetində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransda da belə oldu. Bu mötəbər məclisdə də Zərifə xanımı Heydər Əliyevdən , Heydər Əliyevi Zərifə xanımdan “ayıra” bilmədilər. Zərifə xanımdan danışanlar Heydər Əliyevə üz tutdular, Heydər Əliyevin xidmətlərindən bəhs edənlər Zərifə xanımı xatırlayıb, nəcib əməllərini yada saldılar. Hətta iclas salonundakılar Zərifə xanımın müqəddəs xatirəsini bir dəqiqəlik sükutla yad edəndə belə, şübhə etmirəm ki, Heydər Əliyevi də andılar. Hamı başa düşürdü ki, bunu etməmək Zərifə xanımın ruhunu incidər…

İlk söz açan ev sahibi kimi Sumqayıt Dövlət Universitetinin rektoru, professor Nadir Qəhrəmanov bildirdi ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva yaddaşlarda gözəl alim, qayğıkeş insan, ləyaqətli ziyalı, sədaqətli ömür yoldaşı, gözəl ana kimi əbədiləşib. Akademik Zərifə Əziz qızı Əliyeva XX əsrin payına düşən görkəmli Azərbaycan qadınlarından və alimlərindən biri idi. Nahaq deyil ki, professor V.V.Şmelyeva bu nəcib Azərbaycan qadını haqqında danışarkən demişdir: “Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu “Əvəzolunmaz insan haqqında povest” adlandırardım”.

1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açmış və məktəb illərindən başlayaraq atasının ömür yolunu özünün əsl həyat məktəbinə çevirmiş Zərifə xanım Əliyevanın bu il anadan olmasının 90 ili tamam olur.

Bu nəcib Azərbaycan qadının elmi fəaliyyətinin çox zəngin və əhatəli olduğunu qeyd edən professor N.Qəhrəmanov bildirdi ki, akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr etmişdir.

1968-ci ildən başlayaraq professional oftalmologiyanın problemləri ilə ciddi məşğul olan alim dünyada ilk dəfə olaraq peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuşdur. Bu sahədə apardığı elmi tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Azərbaycan üçün bu möhtəşəm uğurun əhəmiyyəti ondadır ki, keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi məhz azərbaycanlı xanım Zərifə Əliyevanın adı oftalmologiya elminin tarixinə düşmüşdür.

Sumqayıt Dövlət Universitetinin rektoru, professor Nadir Qəhrəmanov qeyd etdi ki, Zərifə xanım Əliyeva həm müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı kimi, həm də müasir Azərbaycanın lideri olan Prezident İlham Əliyevi dünyaya gətirmiş, onu insanlığın ən yüksək dəyərləri ilə tərbiyə etmiş bir ana kimi xalqımız üçün misilsiz bir şəxsiyyətdir.

Buradaca bütün Azərbaycana işıq saçan Əliyevlər ocağının nəcib və xeyirxah anası, xalqımızın sevimlisi, dünya şöhrətli görkəmli alim akademik Zərifə xanım Əliyevaya həsr ounmuş və Sumqayıt Dövlət Universitetinin pedaqoji kollektivi və tələbələri tərəfindən hazırlanmış videoçarxa baxış keçirildi. Təbii ki, burada da Heydər Əliyevsiz, onun öz əbədi sevgisi haqqında həzin və kövrək duyğular oyadan xatirələri olmadan keçinə bilməmiş, bu iki misilsiz şəxsiyyətin nəsillərə əbədi örnəyə çevrilən sevgi dastanından müxtəlif epizodları ekrana gətirmişdilər.

Elmi praktik konfransda maraqlı çıxışı ilə yadda qalan digər məruzəçi isə, uşaq yaşlarından Zərifə xanımı tanıyan, məhz bu ecazkar göz həkiminin, dövrünün nüfuzlu aliminın məsləhəti ilə oftalmologiyanı özünə peşə seçib azacıq da olsa ona oxşamağa çalışan akdemik Ü.Musabəyov adına Rayonlararası Göz Xəstəxanasının baş həkimi İradə Əliyeva oldu. “Görkəmli oftalmoloq alim akademik Zərifə Əliyevanın elmi fəaliyyəti” adlı geniş məruzə ilə çıxış edən İ.Əliyeva qeyd etdi ki, gözəl ana, vəfalı ömür-gün yoldaşı, yüksək intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim Zərifə xanım Əliyevanın həyatı və elmi fəaliyyəti ilə yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca gözlərimiz önündə ulu Tanrının ən yüksək mənəvi xüsusiyyətləri bəxş etdiyi və heç nəyi əsirgəmədiyi böyük bir insanın obrazı canlanır. Dünya oftalmologiya elminə 1960-cı ildə müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyası elmi işi ilə gələn bu zərif və nəzakətli, alicənab və ziyalı azərbaycanlı xanımı gözün peşə xəstəlikləri probleminə çox böyük maraq göstərmiş və bütün elmi fəaliyyəti boyu bu sahədə ciddi tədqiqatlar aparmışdır. Zərifə xanım Əliyeva apardığı tədqiqatların gedişində “Göz yaşının axmasının fiziologiyası”, “Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri”, “Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti” və s. kimi onlarla elmi məqalələr və monoqrafiyalar yazıb çap etdirmişdir.

Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin “Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti” mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1976-cı ildə Q. Helmqolts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndirmiş və 1977-ci ildə ona tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

İradə Əliyeva çıxışında qeyd etdi ki, Zərifə xanım sadəcə bir elmi tədqiqatçı olmamış , həm də praktik həkim kimi insanların dünya işığına həsrət qalmasına imkan verməməyə çalışmışdır. Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: “Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir”. Özünün zəngin tibb təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyevanın fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmannasızlıq təşkil etməlidir.

Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq “Bilik” Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Zərifə xanım Əliyeva elə insan idi ki, bir dəfə ünsiyyətdə olanlar onu ömrü boyu unuda bilmirdilər. Bu böyük şəxsiyyət elə ilk andan onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi qalırdı. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə hüdudsuz idi.

Elmi -praktik konfransda xüsusi dəvətli kimi iştirak edən yazıçı-dramaturq, Milli Məclisin üzvü, Moskvanın məşhur “Molodaya qvardiya” nəşriyyatının “Görkəmli adamların həyatı” seriyası ilə nəşr etdirdiyi “Heydər Əliyev”, “İlham Əliyev” və “Zərifə Əliyeva” əsərlərinin müəllifi Hüseynbala Mirələmovun çıxışının böyük maraqla gözlənildiyi zaldakı alqışlarldan da görünürdü. Ənənəvi rəsmi üslubdan imtina edib çıxışını səmimi təhkiyə üstündə quran yazıçı qeyd etdi ki, Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur və onların hər biri bizim üçün, bütövlükdə Azərbaycan xalqı üçün qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi, ən müqəddəsi və ən nəcibi sədaqətli həyat yoldaşı və ana adıdır. Bu, içində mələklərə məxsus ilahi xüsusiyyətləri ehtiva edən adların hər birinə monumental bir əsər həsr etmək olar. Amma bunlardan ən möhtəşəmi, mənim yazıçı duyumuma, düşüncəmə görə ilahi bir sevginin bənzərsiz, ecazkar nümunəsi olan sədaqətli həyat yoldaşı obrazıdır.

Biz bilmirik dünyada hansı sevgi dastanı həyatın gerçək faktı olub. Amma biz bilirik və bu gün burada nümayiş olunan kiçicik bir filmdə də gördük ki, Heydər və Zərifə sevgisi əsl məhəbbət haqqında gerçək həyat faktıdır. Müqəddəs ANA da ülvi hisslərin, ilahi sevginin qüdrətindən dünyaya gəlir.

“Hansı daha güclü idi?” sualına cavab axtararkən demək olarmı ki, Heydər Əliyevin sevgisi və yaxud, Zərifə xanım Əliyevanın sevgisi? Ulular nahaq deməyiblər ki, insanlar bu dünyaya cüt gəlirlər. Bax onlar da bu dünyaya cüt gəlmişdilər. Gəlmişdilər ki, insanlığa pak, ilahi sevginin, hörmət və ehtiramın, etibar və sədaqətin bənzərsiz nümunəsini göstərsinlər. Təkcə buna görəmi? Əlbəttə, yox!

“Zərifə Əliyeva şəxsiyyətinin gücü məhz onun insanların qayğı və iztirablarına, niyyət və arzularına fədakarcasına xidmətindədir. Zərifə xanım dövlət və mədəniyyət sahələrində daha böyük səmərə verə bilərdi. Lakin taleyin əmri ilə elə bir insana rast gəldi ki, onun qismətinə millətin lideri olmaq missiyası, qüdrətli dövlət qurucusu, cəmiyyəti dəyişdirən islahatçı olmaq missiyası yazılmışdı. Zərifə xanım bu adamın sevilən və sevən həyat yoldaşı olaraq onun görəcəyi işlərin miqyasını dərk edərək onun arxadaşı olmağı özünə borc bildi”. İlahi sevgidən dünyaya gəlib bu sevginin mahiyyətini hamıdan yaxşı görən və bilən Sevil Əliyeva anası Zərifə xanım haqqında başqa necə danışa bilərdi ki?!

Mən "Zərifə Əliyeva" kitabımda, avtobioqrafik bir əsər olduğu üçün, istedadlı tibb alimi Zərifə Əliyeva ilə görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin – bu iki böyük şəxsiyyətin əfsanəvi məhəbbətə çevrilən qarşılıqlı sevgisinə, səmimi münasibətlərinə, bir-birlərinə olan sonsuz hörmət və ehtiramlarına, böyük sədaqət və etibarlarına bəlkə də çox geniş yer verməmişəm. Ancaq mənə elə gəlir ki, bu məhəbbət bütün dünyaya bir örnək olmağa layiqdir.

Natiq daha sonra üzünü tələbə-gənclərə tutub tövsiyə etdi ki, bütün həyatı və fəaliyyəti yüksək amallar naminə mübarizədə keçən bu iki şəxsiyyətin ailə həyatından daha çox azərbaycanlı gənclər nümunə götürməlidirlər. Son illər cəmiyyətimizdə gedən sosial aşınmalar göstərir ki, məhz bu nümunəyə böyük ehtiyac var və həmişə də olacaq. Çünki bu ailəmin təməlində pak sevgi, təmənnasız, qarşılıqlı məhəbbət və ən başlıcası, sədaqət var.

Zərifə xanımın peşəsinə, həkim kimi insanlara münasibətinə gəldikdə isə, məncə onun "Yüksək əqidə" adlı əsəri ilə tanış olmaq kifayətdir ki, onun bu keyfiyyətləri haqqında insanda dolğun təsəvvür yaransın. Az qala hər fikrində həkimin bu dünyada yüksək xeyirxahlıq missiyası daşıdığını göstərərək yazır: "Vicdan bizim əsas hakimimizdir. Çətin dəqiqələrdə də, xoşbəxt saatlarda da onunla baş-başa qalanda o, soruşur: Ağ xalat geyməyə haqqın varmı? Sənin əllərin xəstəlikdən əziyyət çəkənə yalnız biliyini deyil, həm də qəlbinin həyəcanını, ürəyinin yanğısını çatdıra bildimi?.. Yaxşı həkim həmişə xəstə ilə birlikdə həyəcan keçirir, xəstənin ağrısını şəxsi ağrısı hesab edir. Əgər sağlamlığını itirən şəxs yenidən ona qovuşursa, deməк, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır. Həkim peşəsi mücahidlikdir. O, əsl fədakarlıq, geniş ürək və təmiz niyyət tələb edir". Zərifə xanım sevib seçdiyi, ömrünü həsr etdiyi sənəti ilə ilk növbədə özünün bu amallara sadiq qaldığını fəaliyyəti ilə sübut etdi. Sevgi yolunda olduğu kimi, peşəsi yolunda da mücahidə çevrildi.

Zərifə xanım eyni zamanda, ilahinın sevgisindən pay almış bir ANA idi. Professor N.Şulpina həmkarının əsl qadın keyfiyyətlərinin vurğunu kimi onu belə təsəvvür edirdi: "…Təbiət ona qeyri-adi qadın cazibədarlığı bəxş etmişdi. Onun görkəmi, qalın saçları, sifətinin qövsvari cizgisi, açıq alnı, insanın qəlbini riqqətə gətirən qara gözləri heyranlıq doğurmaya bilməzdi. Zərifə Əziz qızının bütün varlığı hərəkətlərindən və üzünün mimikasından oxunurdu. Mən onu heç zaman əsəbi, qəzəbli görməmişəm. O, həmişə gülərüz, xeyirxah idi. Zərifə xanımın əlləri xüsusilə insanı valeh edirdi. Bu balaca qadın-cərrah əlləri sanki təmasda olduğu hər şeyə istilik verirdi, eyni zamanda, bu əllərdə ailə qayğılarının, qadın əməyinin izlərini də sezmək mümkün idi. Belə ki, Zərifə xanım yüksək təbəqəyə mənsub olsa da ev işlərindən boyun qaçırmazdı".

Bəli, xalqa ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Prezident İlham Əliyev kimi bir oğul verdi bu ana.

Yazıçı Hüseynbala Mirələmov çıxışını yekunlaşdırakən dedi:

-Sənədli filmlərdən, xatirələrdən bilirik ki, polad iradəli insan, mətin və qüdrətli bir şəxsiyyət olan Heydər Əliyev yalnız onunla, Zərifə xanımla son vida mərasimində hönkür-hönkür ağlayıb göz yaşı tökdü. Mən həmişə ekrandan bu ürək dağlayan səhnəni seyr edəndə düşünürəm ki, ilahi, böyük sevgi gör nələrə qadir imiş. Bu əzəmətli, nəhəng insan Zərifəsindən sonra belə düz 18 il ömrünün ilk və son məhəbbətinin nisgilini yaşadı, kövrəldi və kövrəltdi.

Mən zərrə qədər də şübhə etmirəm ki, kimsənin dərdinə, kədərinə biganə qalmayan, dara düşənə dayaq, yıxılana söykək olan, ürəyində və əməllərində işıqlı amallar, nəcib duyğular yaşadan və ləyaqətli bir ömür yaşayan Zərifə xanımın parlaq xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

Bununla da Sumqayıt Dövlət Universitetində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş elmi – praktik konfrans işini başa çatdırdı.

**Xalq qəzeti.**-2013.-20 aprel.-№ 83.-S.5.

## Zərifə xanım Əliyeva öz səxsiyyətində Azərbaycan xanımna layiq anahq əzəməti, qadınlıq ləyaqəti nümayis etdiiir

**Zülfiyyə İsmayıl,**
Filologiya üzrə fəlsəfə doktoru
**Ramiz QASIMOV,**
filologiya üzrə fəlsəfə doktoru.
AMEA Naxçıvan Bölməsinin böyük elmi işçiləri

**Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. ..Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. ..Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm.**

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının ümummilli lideri**

Qadınlıq zirvədirsə, Analıq onun tacıdır, şərəfi, ləyaqəti, dəyəri, zibasıdır. Həm qadın olmaq, qadınların nümunəsi olmaq və cəmiyyətinə, el-obasına bütün ürəyi, şəfqət hissləriIə xidmət etmək, həm də ana olub uşaqlarının başında olmaq, onlara verdiyin tərbiyə ilə xalqına xidmətlə ucalan insanlar yetişdirmək bir qadının taleyində ən böyük nemətdir, nailiyyətdir. Xalqımızın xöşbəxtliyi, bəxtəvərliyi ordadırkı, onun mentalitetində analıq dəyəri qayğıkeşlik, bütün varlığı ilə övladına bağlılıq, bütün ruhu ilə övladlarına sevgi və şəfqət hissləri ilə yovuşmuş, həyat yoldaşına sədaqətli, etibarlılıq kimi səciyyələrlə müəyyənləşir.

Azərbaycan qadınının səciyyəsi Tomris ananın şücaəti, mətanəti, döyüşkənlik və qəhrəmanlığında, Sara xatunun zəka əzmi və siyasətində, diplomatiyasında, Burla Xatunun, Banuçiçəyin, Dəli Domrulun və Dirsə xanın xanımlarının sədaqətində, ərinə qahmarında, arxa-köməkliyində, əfsanə obrazlarımızın iffətində, namusu və şərəfində, ləyaqətliliyində, Məhsətinin, Heyran xanımın, Qönçəbəyimin incə, zərif duyğularını ifadə, bədii söz qüdrətində, laylalarımızın müəllifləri olan analarımızın şirin kəlmələrində, bala məhəbbətində, övlad qayğıkeşliyində, Zərifə xanım Əliyevanın elmi hünərində, xalqa bağlılığındadır. Azərbaycan qadınına ucalıq, şərəf, şan gətirən dünyaşöhrətli alim, təbib kimi böyük şöhrətlərə nailiyyət qüdrəti nümayiş etdirən Zərifə xanım Əliyeva kimi qadınlarımızın cəmiyyətimizin mental müvəffəqiyyətinin təcəssümüdür.

Akademik Zərifə xanım Əliyeva şərəfli ana olmaqla bərabər, cəmiyyəti ucalığa aparan, ailə və cəmiyyət birliyində qadın şəfqətini, qayğıkeşliyini nümunəvi olaraq təcəssüm etdirən qadınlıq və ləyaqət rəmzi olan bir insandır. Zərifə xanım Əliyeva 1923-cü ilin aprel ayının 28-də Naxçıvan Muxtar Respublikası Kəngərli rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Daxilindəki insan sevgisi, qayğı və şəfqət hissləri onu insanların həmişə ehtiyac duyduğu sağlamlıq hamisi – həkim olmağa gətirib çıxarıb. Azərbaycanda göz xəstəliklərinin geniş yayıldığı, insanların bu xəstəliklərdən dəhşətli surətdə əziyyət çəkdiyi bir dönəmdə Zərifə xanım Əliyeva daxilindəki analıq və şəfqət hisslərinin verdiyi yönlə bu xəstəliklərə məlhəm axtarmaq missiyasını qarşısına qoyur, gecəli-gündüzlü çalışmaq əziyyətinə qatlaşır. Onun böyük zəhmət və əqli qabiliyyət hesabına tapıntıları minlərlə insanın həyatına yeni ümid, Günəş boyda işıq gətirdi…

Zərifə xanım Əliyeva 1968-ci ildən etibarən məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayır. Ümumiyyətlə, Zərifə xanım bir sıra ciddi elmi məsələlərlə yanaşı, bütün ömrü boyu peşə ilə əlaqədar əmələ gələn göz xəstəlikləri problemlərlinə dair tədqiqatlarını davam etdirir. Eyni zamanda, digər məsələlərə, habelə yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanına təsir edən amillərə əsas diqqət yetirir. Bu əsnada çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı doktorluq dissertasiyasının əsasını təşkil edir. Zərifə xanım dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri institutunda müdafiə edir. Həmin dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini alaraq oftalmologiyanın bu sahəsində ilk işlər- dən biri olur. Elmi araşdırma- larının nəticəsi olaraq Zərifə xanım bir neçə monoqrafiya, o cümlədən “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” kimi monoqrafiyalarını çap etdirir və bu əsərlər dünyanın elmi ictimaiyyətinin etimadını qazanır.

Oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ. Averbax Mükafatına layiq görülür. Həm də məsələnin bir fərqli tərəfi də onda idi ki, Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın idi.

Akademik Zərifə xanım Əliyeva ömrü boyu öz peşə işindən başqa fəal insan kimi bir sıra ictimai işlərin də ağırlığını çiyinlərində daşımışdır. Zərifə xanım keçmiş SSRI-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş SSRİ Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. Bütün bunlarla bərabər Zərifə xanım Əliyeva bir sıra orden və medallara, həmçinin Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Deyirlər, göz Tanrıdan xəbər verir. Zərifə xanım Əliyeva öz zəkasının nuru ilə məhz insanlara təkcə qəlblərinin gözü ilə deyil, həm də onlara yetirilmiş göz nuru hesabına ilahi gözəllikləri görməyi bəxş etdi. Minlərlə insanın nur qazanmış gözləri Zərifə xanım Əliyevanın şəfqətli əllərinə minnətdardır, onun şəfqətinə, qayğısına duaçıdır. Zərifə xanım Əliyeva bu mənada mübaliğəsiz olaraq demək olar ki, minlərlə insanın nəzərində onlara işıq, nur, xoşbəxtlik, yenidən yaşamağa ümid və sevgi gətirən nurlu şəxsiyyətdir.

Zərifə xanım Əliyeva həm də minlərlə Azərbaycan anasını təmsil edən böyük ürəkli, zərif xarakterli, övlad məhəbbətli bir anadır. Bu böyük insan bir tərəfdən milyonların xidmətində bir həkim kimi ayıq-sayıq dayanır, digər tərəfdən milyonlarca insana, qüdrətli bir ölkəyə rəhbərlik edən dövlət başçısına sədaqət və məhəbbətlə həyat yoldaşlığı edir, digər tərəfdən bu gün Azərbaycan xalqının yolunda böyük ürəklə, bütün varlıqları ilə xidmət edən, xalq üçün, dövlət üçün çalışan, Azərbaycanı uğurdan-uğura aparan vətənpərvər övladlar tərbiyə edirdi. Öhdəsinə düşən bu qədər çoxcəhətli işin öhdəsindən müvəffəqiyyətlə gələn, ömründə bir dəfə də gileylənməyən, həm elmin, öhdəsinə götürdüyü tibbi vəzifənin, milyonlarla insanın ona dikilmiş qaranlıq gözlərinə işıq gətirmək missiyasını yorulmadan icra edən, görkəmli alim, oftalmoloq, həkim kimi zirvələrə qalxan Zərifə xanım Əliyeva həm də sədaqətli, vəfalı bir həyat, ömür-gün yoldaşı kimi, buğun Azərbaycan dövləti və xalqının mənafeyi naminə çalışan Prezident İlham Əliyev, Sevil xanım kimi övladların anası olaraq analıq əzəməti, qadınlıq ləyaqəti nümayiş və təcəssüm etdirdi.

Zərifə xanım Əliyeva həm də milyonların anası olaraq Azərbaycan qadınının adına şərəf gətirdi, analığa yeni məzmun verdi, qadınlıq vəzifəsinə yeni vəzifə qatdı, onun mənəvi, ictimai məzmununu XX əsrdə mentalitetin ölçülərinə – özünə qaytardı, anaların etalonuna çevrildi.

**İki sahil.-**2013.-18 avqust.-№ 67.-S.20.

# Böyük insan, unudulmaz alim

**Akif ƏLİZADƏ,**
Azərbaycan Milli Elmlər Akademiyası prezidentinin
səlahiyyətlərini icra edən, akademik

**2013-cü il aprelin 28-də görkəmli oftalmoloq-alim, akademik, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Zərifə Əziz qızı Əliyevanın 90 yaşı tamam olur. Görkəmli alim Azərbaycanın məşhur dövlət və ictimai-siyasi xadimi, tibb təhsili və səhiyyəsinin qurucularından biri olan professor Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdır.**

Atasının keçdiyi qeyri-adi həyat yolu Zərifə xanım üçün tarixin bir hissəsi idi. Əziz Əliyevin ömür yoluna nəzər salsaq görərik ki, Zərifə xanım necə mürəkkəb bir dövrdə həyata qədəm qoyub. Ailənin yaşadığı bütün çətinliklər onun təbiətində öz əksini tapmış və ona bu anlarda iradəli olmağı öyrətmişdir.

Zərifə Əliyeva üçün insan, vətəndaş və alim anlayışları bölünməz bir vəhdət təşkil edirdi. O, bənzəri olmayan işıqlı bir şəxsiyyət idi. Çünki onun yanında atası Əziz Əliyev və ömür-gün yoldaşı, sadiq dostu, sonralar həyatında böyük rol oynamış, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyev kimi şəxsiyyətlər vardı.

Zərifə xanımın elmə gəlməyi gözlənilən idi. Şübhəsiz ki, onun həkim-oftalmoloq peşəsini seçməsində elmə bağlı olan atanın və ailənin böyük təsiri olmuşdur.

Zərifə xanımın həyat fəlsəfəsinin kökünü hər şeydən öncə onun uşaqlıq çağlarında axtarmaq lazımdır. Ana olduqdan sonra o, həmişə deyirdi ki, uşaqlıq çağları insanın həyatında ən vacib dövrdür və o dövrü heç nə əvəz edə bilməz. Uşaq olarkən insan xeyirxahlığın, şəfqətin nə olduğunu dərk edir və onu başa düşəndə sevincin hədsiz-hüdudsuz olduğunu anlayır.

Zərifə xanım fədakar ana idi. O, uşaqlarına xüsusi qayğı göstərirdi. Onları İlahidən verilən bir mükafat, həyatın hədiyyəsi kimi qəbul edirdi.

Zərifə xanım Əliyevanın ailəsi o dövrün qabaqcıl fikirli ziyalı təbəqəsinə aid idi. Azərbaycanın elm və mədəniyyət xadimləri onların evlərinin daimi qonaqları olardı. Dövrün görkəmli şəxsiyyətləri ilə ailəvi və mənəvi yaxınlıq, onların humanist dəyərlərlə bağlı diqqətəlayiq söhbətləri uşaqların milli ruhda formalaşmasında böyük rol oynayırdı.

Zərifə xanım, eyni zamanda müxtəlif mədəniyyət sahələri ilə maraqlanırdı. Azərbaycan və rus dillərində gözəl danışır, elmi əsərlər yazır, dünya mədəniyyətini dərindən bilirdi.

Onun ədəbiyyat sahəsində bilikləri, incəsənət, xüsusilə təsviri sənət, rəsm əsərləri haqqında mülahizələri adamı heyrətləndirirdi. Musiqi istedadı, musiqiyə olan məhəbbəti ilə seçilirdi. Azərbaycan xalq mahnılarını çox sevirdi, klassik və Azərbaycan bəstəkarlarının əsərlərini yüksək qiymətləndirirdi.

Maraqlıdır, Zərifə xanım kimi geniş dünyagörüşlü insan həyatın kiçik töhfələrinə sevinir, hər şeyi olduğu kimi qəbul edirdi. Amma öncə Zərifə xanım böyük oftalmoloq-alim, gözəl pedaqoq idi. Bu insanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, onun fəaliyyətinə nəzər salarkən, bu dahi insanın geniş diapozonlu şəxsiyyət olduğunu hər an görmək olurdu. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat, mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək olan yüksək mənəvi keyfiyyətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılıb və yazılacaqdır. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq bir səhifəsini təşkil edir.

Akademik Zərifə Əliyeva oftalmologiyanın aktual problemlərinə həsr olunmuş çoxprofilli tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi araşdırmalar aparmışdır.

Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun bir sıra monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır.

Zərifə xanımın elmi fəaliyyətinin digər sahələrindən biri klinik diaqnostik istiqamətdə həyata keçirdiyi tədqiqatlardır ki, onların da nəticələri həkimlər üçün yazılmış dəyərli dərs vəsaiti və monoqrafiyalarda cəmləşmişdir. Onlar oftalmoloji elmi-ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Alim göz yaşı aparatının xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur.

Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiya Moskva şəhərində nəşr

edilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə akademik Zərifə Əliyeva yazmışdır.

Görkəmli alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də peşə oftalmologiyasına həsr edilmişdir.

Zərifə xanım sözün əsl mənasında bu sahənin ilk tədqiqatçısı olmuşdur. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır. Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisələrində genişmiqyaslı elmi-tədqiqat işləri aparmışdır. Görmə orqanının peşə patologiyası sahəsində reallaşdırdığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd olunmalıdır ki, Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk alim-qadın idi. Məşhur oftalmoloq, akademik M.Krasnov alimin görmə orqanının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirərək qeyd etmişdir ki, əcəl Zərifə Əziz qızına bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbin rəhbəri ola bilərdi.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir.

Akademik keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olaraq, böyük ictimai işlər görmüşdür. Alim həmçinin "Oftalmologiya xəbərləri" jurnalının da redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə Əliyeva elmi, yaradıcı, ictimai sahələrdə göstərdiyi xidmətlərə görə orden və medallarla təltif olunmuşdur. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

Zərifə xanımın sadəliyi təkrarolunmaz idi: akademik, əməkdar elm xadimi, professor, müxtəlif mükafatlar laureatı olmağına baxmayaraq o, əlçatmaz deyildi. İşinin çoxluğuna baxmayaraq hamının köməyinə gəlir, heç kəsdən yardımını əsirgəməzdi.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür-gün yoldaşı və qayğıkeş ana idi. Zərifə xanımın mənəvi dünyasına yaxından bələd olan insanlar "sənsiz günəşsiz qaldı günlər" deyirlər.

Zərifə xanım çox böyük həyat yolu keçmişdi: həkim-oftalmoloqdan başlayaraq o, AMEA-nın akademiki, professoru, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəliyi kafedrasının müdiri vəzifələrinə qədər yüksəlmişdir.

Bir təşkilatçı kimi rəhbərlik etdiyi kollektivin gücünü lazımi istiqamətə yönəldirdi. İşinə olan münasibəti, qəlbən təmizliyi hər kəs üçün nümunə idi. Zərifə xanım çox istedadlı insan idi və o bütün işlərində bu istedadı büruzə verə bilirdi.

Ömrünün son günlərinə qədər elmi tədqiqatlarını davam etdirirdi. Zərifə xanım Heydər Əliyevin layiqli həyat yoldaşı, sadiq dostu və məsləkdaşı olmuşdur.

**Azərbaycan.**-2013.-16 aprel.-№ 79.-S.8.

# Böyük qəlbin işığında

**Adilə HEYDƏROVA,**
əməkdar müəllim, Prezident təqaüdçüsü

**Akademik Zərifə Əliyevanın yaşadığı mənalı ömür yolu hər bir Azərbaycan vətəndaşı üçün həyat və mənəviyyat dərsi, kamillik, müdriklik məktəbidir. Zahiri və daxili gözəllik, mehribanlıq, həssaslıq, ziyalılıq, bir sözlə, yüksək insaniyyətə xas bütün müsbət cəhətlər Zərifə xanımın gözəl simasında qovuşmuşdu. Azərbaycanın oftalmologiya elmini bütün dünyada tanıdan, fundamental əsərləri ilə şöhrət qazanan böyük alimin elmdə açdığı yol isə ildən-ilə inkişaf edir və o, milyonların qəlbində dərin hörmət və ehtiramla, rəğbətlə xatırlanır.**

Bu ilin fevral ayında Prezident İlham Əliyev görkəmli alim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdı. Sərəncamda deyilir: "Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir". Sərəncamdakı bu cümlələri dönə-dönə oxudum. Oxuduqca da xəyal məni yenidən uzaq, lakin heç vaxt unudulmayan illərə apardı. Zərifə xanımın heç zaman yaddan çıxmayan işıqlı siması bir daha gözlərim önündə canlandı. Həyatımın onunla, ailəsi ilə birgə keçən anlarını, sevincli və kədərli günləri, nəhayət, ömrümün ən çətin məqamlarında – ömür-gün yoldaşımı qəflətən və vaxtsız itirəndə mənimlə yanaşı olduğu, dərdimə şərik çıxdığı saatları sanki bir daha yaşadım.

Belə bir xanımı yaxından tanımağın, üstəlik, onunla səmimi münasibətdə olmağın özü də bir səadətdir. Zərifə xanım vəfalı rəfiqə idi, qayğıkeş, mehriban, ünsiyyət saxlamağı bacaran səmimi insan idi. Biz onlarla ailəvi dost idik. Daha doğrusu, böyük şəxsiyyət, ulu öndər Heydər Əlirza oğlu Əliyev və ömür-gün yoldaşım, general-leytenant Arif Heydərov dost, yoldaş, silahdaş, məsləkdaş idilər. Zərifə xanımla mənim də münasibətlərim dostluğa çevrilmişdi. Təbiidir ki, mən bu iki böyük insan – ulu öndər Heydər Əliyev və  əziz Zərifə xanım haqqında ayrı-ayrılıqda danışmağa çətinlik çəkirəm.

Ulu öndər Heydər Əliyev və mərhum həyat yoldaşım Arif Heydərov 1950-ci ildə tanış olmuşdular. Elə o vaxtdan da işdəki silaşdaşlıqları ilə yanaşı, həm də həyatda dostluqları başlamışdı. Əgər bu gün mən həmin münasibətlərdən ürək dolusu danışa bilirəmsə, danışdıqca da həm kövrəlir, həm xəyallanır, həm də qürurlanıramsa, deməli, bu dostluq hələ də davam edir. Baxmayaraq ki, ulu öndər də, Zərifə xanım da, Arif Heydərov da cismən aramızda deyillər. Bəli, bu dostluğun artıq 63 yaşı var. Yalnız kamil, mükəmməl, müdrik və pak insanların dostluğunun əbədi olduğunu söyləyənlər heç də səhv etməyiblər.

Ulu öndər 1996-cı ildə Arif Heydərovun 70 illik yubileyində bu barədə xüsusi vurğulamışdı: "Heç vaxt seçməmişəm ki, bu mənim dostumdur, o isə dostum deyildir. Bunlara baxmayaraq gənc yaşlarımda insanlar vardı ki, onlarla rəsmi münasibət saxlayardım, amma insanlar da vardı ki, rəsmi münasibətdən savayı, onlarla şəxsi münasibət də saxlayırdım.  Arif Heydərova münasibətim məhz belə, şəxsi münasibət xarakteri daşıyıbdır. Bir də qeyd edirəm ki, bu şəxsi münasibətimiz də o vaxtdan sona qədər davam edibdir. Bunun da əsası var. Əsası da ondan ibarətdir ki, mən yalnız öz xasiyyətimə uyğun olan adamla şəxsi münasibət saxlaya bilərəm. Arif Heydərovun mənəvi dəyərləri, mənəviyyatı hər şeydən üstün tutması, sadəliyi, işgüzarlığı, öz üzərində daim çalışması, özünü təkmilləşdirməsi, işə sağlam münasibəti, sağlam əxlaqı – bunlar hamısı birlikdə mənim tələblərimə uyğun olduğuna görə mənimlə onun arasında şəxsi münasibətlər yaranmışdı". Ulu öndərin bu sözlərinin müqabilində elə bir fikir söyləmək, söz demək mümkün deyil ki, sonradan şaxələnib ailəvi dostluğa çevrilən həmin münasibətlərin kökünü və mahiyyətini açıqlasın.

Bu dostluğun sayəsində mən Zərifə xanımı çox yaxından tanıya bildim. Onun əsil-nəcabətinə bələd oldum. Bir həkim və alim kimi nələrə qadir olduğunu görə bildim. Əsl ziyalı Azərbaycan qadını, əsl həyat yoldaşı, əsl ana, əsl insan necə olur – sualının cavabını mən məhz Zərifə xanımın timsalında tapdım.

Azərbaycan xalqının ləyaqətli övladı Zərifə Əziz qızı Əliyevanın adı təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da insanlara yaxşı tanışdır. Belə ki, tanınmış oftalmoloq bir həkim və alim kimi özünün çoxillik fəaliyyəti dövründə neçə-neçə gözə şəfa bəxş etmiş, görmə qabiliyyəti zəif olanların, yaxud tamamilə görməyənlərin qaranlıq dünyasını işıqlandırmışdı.

Zərifə xanım xoşbəxt bir insan idi. Ən əvvəl ona görə ki, tale ona tanınmış həkim və görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmaq səadətini nəsib etmişdi. Gendən gələn istedad, üstəlik də, Əziz Əliyev kimi kamil bir şəxsiyyətdən aldıqları milli-mənəvi dəyərlərimizdən qaynaqlanan tərbiyə bu ailənin övladlarının hamısına xalq üçün gərəkli insanlar kimi yetişməyə imkan vermişdi. Zərifə xanıma da əsil-nəcabətindən ən yüksək keyfiyyətlər əmanət, pay kimi verilmişdi. Həkimlik sənətinə məhəbbəti də ona atasından keçmişdi.

Bəli, Zərifə xanım elə bir ailədə dünyaya gəlmişdi ki, orada xeyirxahlıq, alicənablıq, insansevərlik kimi xüsusiyyətlər nəsildən-nəslə genlərlə keçmişdi. Dövrünün böyük şəxsiyyəti Əziz Əliyev övladlarına mənəvi təmizlik, paklıq aşılamışdı. Uşaqlıqda yiyələndiyi xüsusiyyətlər Zərifə xanımın əlindən həmişə tuturdu. O, təmkinli, dözümlü, düşüncəli idi. Ağıllı söhbətlərindən həmişə nə isə əxz edir, nə isə öyrənirdin. Onunla söhbət edəndən, məsləhətləşəndən sonra həmişə daxili sakitlik tapırdın.

Zərifə Əliyeva insanlara şəfa və sevgi bəxş edirdi. İşıq onun həyatının mənası idi. Xəstələrə bəxş etdiyi nur, əslində, qəlbinin işığı idi. Bu xanım insanlara göstərdiyi yaxşılıqların hamısını təmənnasız edirdi. Özü də Zərifə xanım təkcə xəstələrə deyil, problemi, çətinliyi, dərdi olan bütün insanlara işıqlı duyğular bəxş etməyi bacarırdı. Köməyə, dəstəyə ehtiyacı olanlara əl tutmağı özünün insanlıq borcu sayırdı.

Onun təbabətə gəldiyi illərdə Azərbaycanda göz xəstəlikləri geniş yayılmışdı. Əhalinin bir qismi traxoma adlanan xəstəlikdən əziyyət çəkirdi.

Traxomanın müalicəsi üçün yollar axtaran istedadlı həkim ardıcıl elmi axtarışlar aparır, təcrübədə, yəni, gündəlik işində mühüm nəticələr əldə edirdi. Zərifə xanım 1960-cı ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomesinlə müalicəsi” mövzusunda müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etdi.

Mən özüm həkim olmasam da, Zərifə xanımın sevimli sənətinə böyük hörmətlə yanaşırdım. Onun sənət və elm sahəsindəki uğurlarını mütəmadi izləyirdim. Bilirdim ki, Zərifə Əliyeva gənc həmkarlarının da yaxın dostudur. O, geniş diapazonlu pedaqoji fəaliyyətlə məşğul olurdu. 1967-ci ildə müsabiqə yolu ilə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə təkmilləşdirmə kursu keçən həkimlər qarşısında dediyi mühazirələr və apardığı praktik məşğələlər onlar üçün çox faydalı olurdu. 1976-cı ildə Zərifə xanım doktorluq dissertasiyası müdafiə etdi.

Görkəmli alim bu institutda çalışdığı ilk dövrdən görmə orqanının patologiyasına xüsusi diqqət yetirirdi. Yadıma gəlir ki, o, zərərli sənaye müəssisələrində çalışan işçilərin oftalmoloji müayinədən keçirilməsini təşkil etmişdi. Peşə ilə bağlı əmələ gələn göz xəstəliklərinin profilaktikası və müalicəsi ilə məşğul olurdu. Bu xəstəliklərin yayılma qanunauyğunluqlarını aşkar etmək üçün Bakı şin və kondisioner zavodlarında, neft, kimya və yod sənayesi müəssisələrində işləyənlərin gözlərinə mənfi təsir göstərən amilləri öyrənir, onların qarşısını almaq üçün tədbirlər görürdü.

Zərifə xanımı daim düşündürən məsələlərdən biri də həkim etikası, həkim-xəstə münasibətləri idi. Təsadüfi deyil ki, akademik gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf edirdi. Bu məsələ ilə əlaqədar çoxlu məqalələr yazmışdı, çıxışlar etmişdi. “Yüksək etimad” kitabı da cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə həsr olunmuşdu. Onun bu mövzuya aid baxışları “Həkimin yüksək vəzifəsi”, “Oftalmologiyanın aktual problemləri” monoqrafiyalarında özünə yer almışdı. “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” əsərində Zərifə xanımın həkimin vəzifə borcuna, tibbi etikasına dair baxışları daha geniş şəkildə əks olunmuşdu.

Bu mövzuda Zərifə xanımla dəfələrlə söhbətlərimiz də olmuşdu. Akademik deyirdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin səmərəsini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və bəzən hətta dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, həkimin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdi. O, həkim-xəstə münasibətlərinə toxunaraq insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş və “həkim xəstənin ən doğma adamıdır” – demişdi.

Mən bunu həyatda da əyani görə bildim. Ümumiyyətlə, yaxşı insanlar, yaxşı dostlar yaman gündə bəlli olur, çətin günlərdə sınaqdan çıxırlar. Zərifə Əliyeva mənim ən ağır günlərimin rəfiqəsi idi. Və bu, təkcə Arif Heydərovu itirdiyim vaxtlara aid deyil. Valideynlərimlə bağlı da onun xeyirxahlığını unuda bilmirəm. Anam ağır xəstə idi, son günlərini yaşayırdı. Hamımızın başı ona qarışmışdı. Digər tərəfdən də həmin vaxtlarda atamın gözləri tutulmuşdu. Anamın xəstəliyi barədə atama bir söz demədik. Çünki dözə bilməzdi. Gözlərində təcili əməliyyat aparılmalı idi. Həkimi isə təbii ki, Zərifə xanım idi. Yenə də ona müraciət etdik. Xeyli müayinədən sonra dedi ki, vaxt itirmədən əməliyyat etmək lazımdır. Yoxsa, gözündəki azacıq işıqdan da məhrum olar.

Amma iş elə gətirdi ki, atamın göz əməliyyatının təyin olunduğu gün anam dünyasını dəyişdi. Mən Zərifə xanımdan xahiş etdim ki, əməliyyatın vaxtını dəyişdirsin. O isə razılıq vermədi, dedi ki, siz gedin dəfn mərasimini keçirin, yas məclisinizi yola verin, atanın xəstəliyi ilə bağlı nə məsələ varsa, özüm həll edəcəyəm.

Belə də oldu. Zərifə xanım atamın xəstəliyi ilə bağlı bütün qayğıları öz üzərinə götürdü. Gözlərində cərrahiyyə əməliyyatını həyata keçirdikdən sonra xeyli müddət onun çarpayısı yanında oturdu. Sonra da hətta ona evində hazırladığı yeməklərdən gətirdi. Doğma bir insan kimi onu öz əli ilə yedizdirirdi.

Yas məclisi dağılışandan sonra xəstəxanaya atamın yanına gəldik. Zərifə xanım yenə də onun yanında idi. Atamla şirin-şirin söhbət edirdi. Atamın elə bil, hər şey ürəyinə dammışdı, tez-tez anamı soruşur, deyirdi ki, niyə qızlar görünmür. Yəni, məni və bacımı xəbər alırdı. Zərifə xanım isə cavab verirdi ki, buradadırlar, sadəcə olaraq əməliyyatdan təzə çıxdığınız üçün həkimlər onlara içəriyə gəlməyə icazə vermirlər. Beləcə, xəstəsini nigaran qalmağa qoymurdu.

Atam bir gün də qəzetsiz qala bilmirdi. Respublikadakı vəziyyət, bütün SSRİ-də olan sosial-siyasi ab-hava, iqtisadiyyat, mədəniyyət, incəsənət məsələləri onu daim maraqlandırırdı. Çünki savadlı, ziyalı bir insan idi. Gəmi kapitanı işləyirdi, özü də işinin ustası idi. Xidmətlərinə görə o dövrün yüksək mükafatı olan Lenin ordeni almışdı. Bir gün xəstəxanaya gələndə atamın çarpayısının yanında xeyli qəzet gördük. Təəccübləndik. Soruşduq ki, bu dar macalda qəzetlər haradandır, bunları kimə aldırmısan, necə oxuyursan? Dedi ki, mən belə həkim görməmişəm. Zərifə xanımı nəzərdə tuturdu. Qəzetləri mənim üçün o aldırır, vaxtı olanda özü oxuyur, olmayanda tibb bacısına tapşırır ki, onlar oxusunlar. Oxuyurlar, mən də darıxmıram. Sonra yenə də həkimindən razılıq etdi. Dedi ki, elmli, dünyagörüşlü, bütün sahələrdən məlumatı olan xanımdır. Həm də çox xeyirxahdır, mehriban və xoşxasiyyətdir.

Bəli, belə bir kristal xarakterli, qəlbi saf, əməlləri xeyirxah bir insan idi bizim Zərifə xanım!

Zərifə Əliyeva elə bir həkim idi ki, xəstələrini təkcə dərmanla və cərrahiyyə əməliyyatı vasitəsilə deyil, həm də sözün şəfqəti, özünün müsbət aurası və ən incə insani münasibətilə sağaldırdı. Həkimin şirin dilinin, xoş rəftarının, gülər üzünün xəstə üçün dava-dərman və müalicə üsulları qədər vacib olduğunu həmişə gənc həkimlərə xüsusi vurğulayırdı. Beləliklə, xəstələrdə özünə qarşı hörmət, məhəbbət və inam yaratmışdı.

Zərifə xanımın ailəsinin, özünün şöhrəti, adı-sanı ildən-ilə artsa da, o, həmişə eyni cür – səmimi, mehriban, alicənab olaraq qalırdı.

Mənim şəxsi kitabxanamda Zərifə Əliyevanın müəllifi olduğu bir sıra qiymətli kitablar qorunur. Onları vaxtilə mənə özü bağışlamışdı. Deyim ki, bu görkəmli alimin kitabları arasında bir çoxları təkcə həkimlər üçün deyil, geniş oxucu kütləsi üçün də maraqlıdır. Bunlar əsasən həkim etikasına, xəstə-həkim münasibətlərinə aid kitablardır ki, çox oxunaqlı, səlis üslubda yazılıb. “Yüksək əqidə: həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı” kitabında yazırdı: “Xəstəyə düzgün münasibət həkim sənətinin əsas mahiyyətlərindəndir. Bəzən həkim xəstəyə yardım göstərərkən xəstəliyin xüsusiyyətlərindən asılı olaraq, həkim xəstənin və onun qohumlarının yersiz məzəmmətlərini, acı sözlərini, hətta hədələrini dinləməyə məcbur olur. Başqa sənət sahibi olanlar bundan inciyərək onu təhqir edəndən imtina edərdi, üstünə qışqırıb onu qovardı. Lakin həkim belə hərəkəti özünə rəva bilmir, özünün hissiyyatını və həyəcanını büruzə verməyə ixtiyarı yoxdur. Həkim xəstənin mənafeyini hər şeydən üstün tutmalıdır, öz iş gününün qurtarmasına baxmayaraq, o, xəstəxanada qalaraq xəstəyə yardım edir, hətta onun çarpayısı yanında bir neçə sutka qalır, bunun cavabı isə xəstənin təşəkkürlü gülümsəmələri olur”.

Bu gözəl, daxili dünyası zəngin olan alicənab xanıma tale Heydər Əliyev kimi dahi bir şəxsiyyətin ömürgün yoldaşı olmağı qismət etmişdi. Onlar eyni ildə dünyaya göz açmışdılar. Hər ikisi baharda doğulmuşdu. Qurduqları möhkəm ailənin xoşbəxtliyinin mənbəyi də xarakterlərindəki yüksək keyfiyyətləri idi. Bu iki dahi insan sanki bir-birini tamamlayırdı. Hətta deyərdim ki, onlar elə bir-biri üçün və ikisi birlikdə xalqımız üçün yaranmışdılar.

Xatirələr çəkib məni yenə uzaq illərə aparır.

1969-cu ilin yayında Heydər Əliyev Azərbaycanın rəhbəri seçildi. Bildiyimə görə, o vaxt respublikanın daxili işlər orqanlarında ağır vəziyyət yaranmışdı. Odur ki, Daxili İşlər Nazirliyində dəyişikliklər aparmaq zərurəti ortaya çıxmışdı. Biz həmin zaman Türkiyədə idik. Çünki Arif Heydərov dövlət təhlükəsizliyi orqanlarında işlədiyi müddətin çox hissəsini kəşfiyyat sahəsində çalışmışdı. Ulu öndər onu Bakıya çağırdı və nazir vəzifəsini təklif etdi. Arif düşünmədən təklifi qəbul etdi. Bir halda ki, Heydər Əliyev belə qərara gəlmişdi, ikinci bir söhbət ola bilməzdi. O, xalqına, Vətəninə xidmət edir və eyni zamanda, böyük dostuna gördüyü işlərdə kömək göstərir, dəstəkçi olurdu.

Biz ailəliklə bir-birimizin uğurlarına sevinirdik. Mən ulu öndərin rəhbərliyi ilə respublikada vüsət alan genişmiqyaslı işlərə sevinirdim. Zərifə xanım mənim həyat yoldaşımın uğurları ilə maraqlanır, bizim ailənin xoşbəxtliyinə şad olurdu.

Arif Heydərov səkkiz il daxili işlər naziri kimi məsul və çətin vəzifədə çalışdı. Bu illərdə onun təşkilatçılıq qabiliyyəti, yüksək mənəvi keyfiyyətləri, qanunun aliliyinə hörməti, cinayət və cinayətkarlığa qarşı barışmaz olması özünü daha bariz şəkildə göstərdi. O, ictimai-siyasi həyatın qaynağında idi. Bütün bunları ulu öndər çox yüksək dəyərləndirir və görülən işləri həm özünə, həm də Azərbaycanın inkişafına sanballı töhfə sayırdı. 1971-ci ildə Arif Heydərov general-leytenant rütbəsinə layiq görüldü. Daha sonra “Qırmızı Bayraq”, “Şərəf nişanı” ordenləri və medallarla təltif olundu.

Göstərilən etimadı doğrultması ulu öndərin Arif Nəzər oğluna rəğbətini daha da artırırdı. Bu, təbii ki, bizim ailə dostluğumuza müsbət təsir edirdi.

1978-ci il iyunun 29-da bizim üçün böyük bədbəxtlik üz verdi. Bir namərdin gülləsi Arif müəllimin həyatına son qoydu. Amma bu, təvazökarlıqdan kənar olmasın, təkcə bizim ailənin dərdi və faciəsi deyildi. “İnsan var evdən gedir, insan var eldən gedir” – deyiblər. Və bu kədərə də el-obanın şərik çıxması onun doğmalarına təsəlli və səbir verdi. O ağır günlərdə mənim, övladlarımın, Arif Heydərovun bütün doğmalarının mənəvi dayağı, köməyi ulu öndər Heydər Əliyev oldu. Əvvəla deyim ki, onun özü də bu qəfil hadisədən möhkəm sarsılmışdı. Arif dərhal keçinməmişdi, güllə yarası alandan sonra da ölümlə həyat arasında mübarizə aparırdı. Əziz və böyük dostu onu bu amansız ölümün pəncəsindən almaq üçün çox çalışdı, səy göstərdi. Azərbaycan tibbinin, həkimlərinin bütün imkanlarından istifadə olundu. Hətta ulu öndərin çağırışı ilə cəmi bir neçə saatdan sonra

Moskvadan ən yüksək səviyyəli cərrahlar, tibb alimləri gəlib çatdılar. Bütün bunlar Heydər Əliyevin bir çox ali keyfiyyətlərini nümayiş etdirirdi. Mən onun həm necə sədaqətli bir dost olduğunu, həm də xalqına, gərəkli insanlara, öz məsləkdaşı, silahdaşı və etimad göstərdiyi kadra qiymət verən rəhbər olduğunu bir daha əyani görürdüm. Arif Heydərovun iş başında həlak olmasını o, səngərdə son damla qanınadək vuruşan bir əsgərin mərdliyi kimi dəyərləndirirdi. Bu, çox yüksək qiymət idi və ulu öndərin qədirbilənliyini, böyüklüyünü bir daha sübut edirdi.

Nəhayət, Arif Heydərov dəfn olunmağa yola salınanda Heydər Əliyevin onun cənazəsinə çiyin verməsi, onu əziz dost və qardaş kimi son mənzilə yola salması heç vaxt yadımdan çıxmaz. Bəli, o dəhşətli, ağır günlərdə Zərifə xanım da bizim ailə ilə birlikdə idi. Bu ailə bizimlə kədərimizi bölüşürdü.

Zərifə xanımın işi, qayğıları çox olsa da, məni tək buraxmır, bir gün belə, yaddan çıxarmırdı. O qədər təsəlli, o qədər ürək-dirək verirdi ki… Həyatımda baş verən o gözlənilməz faciəni, kədəri yaşamaqda Zərifə xanım mənə böyük mənəvi dayaq oldu.

Ulu öndər Arif Heydərovu ölümündən sonra da unutmadı, onun xatirəsinin əbədiləşdirilməsi üçün mühüm tədbirlər həyata keçirdi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Heydər Əliyev dostu, məsləkdaşı Arif Heydərovun xatirəsinin əbədiləşdirilməsi istiqamətində dörd dəfə xüsusi sərəncam imzalayıb. Bunlardan birincisi ümummilli liderin Azərbaycana rəhbərliyinin sovet dövrünə təsadüf edir. Belə ki, 1979-cu il martın 13-də Heydər Əliyevin təşəbbüsü ilə Mərkəzi Komitənin Bürosu Arif Heydərovun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı xüsusi qərar qəbul etdi. Həmin qərarla Bakıdakı küçələrdən birinə və Xəzər Gəmiçiliyinin bir gəmisinə onun adı verildi.

İllər keçdi, çox hadisələr baş verdi. Bu ailə, şəxsən Zərifə xanım Azərbaycanda yaşamadığı vaxtlarda da bizi yaddan çıxarmırdı. Zəngləşirdik, vəziyyətimizlə maraqlanırdı, yenə də mənə ürək-dirək verirdi, arxa-dayaq olurdu. Axı, iki uşaqla tək qalmışdım…

1985-ci ildə əziz Zərifə xanım Moskvada dünyasını dəyişdi. Mən onun şəxsində əvəzsiz bir insanı itirdim. Ulu öndərin həyatında çox hadisələr oldu. Amma bu həyatın keşməkeşliyində də Heydər Əliyevin öz dostunu unutmaması bizi yaşadan, ruhdan düşməyə qoymayan, sabaha aparan ən güclü amil idi.

İkinci dəfə hakimiyyətə qayıtdıqdan, Azərbaycanın Prezidenti seçildikdən sonra Heydər Əliyev 1996-cı il mayın 24-də Arif Heydərovun 70 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı. Ümummilli liderin 1996-cı il iyunun 27-də imzaladığı “General-leytenant A.N.Heydərovun xatirəsinin əbədiləşdirilməsi haqqında” sərəncamla Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Tədris Mərkəzinə, Milli Təhlükəsizlik Nazirliyinin sərhəd qoşunlarının 4-cü sərhəd zastavasına Arif Heydərovun adı verildi. Eləcə də Bakı Şəhər İcra Hakimiyyəti həmin sərəncama əsasən yaşadığımız binaya xatirə lövhəsi vurdu.

1996-cı il iyunun 28-də Şəhriyar adına Mədəniyyət Sarayında onun 70 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Ulu öndər burada dərin məzmunlu parlaq bir nitq söylədi. O nitqin hər cümləsi, hər sözü ummmilli liderin əhdinə və əqidəsinə sadiq olan insana ehtiramla və həqiqi dostluğa məhəbbətlə doludur.

“Arif Heydərov bir insan kimi çox sadə, təvazökar və yaxşı bir yoldaş idi. Ona görə də mən onunla şəxsən yoldaşlıq edirdim. Arif Heydərovun oğlanları, onun həyat yoldaşı Adilə xanım indi burada iştirak edirlər. Nə qədər vaxt keçib? Arif Heydərovun toyunu biz bir yerdə etmişik. Arif Heydərovun Adilə xanımla evlənmə mərasimində, toyunda mən iştirak etmişdim. Bir yerdə işləyərkən nə qədər asudə vaxtlar da keçirmişdik. Mən bunların hamısını daim keçmişin ən xoş günləri kimi xatırlayıram. Mənim həyatım həmişə çox gərgin olubdur. Həyatımda demək olar ki, gərginliklə yanaşı, asudə bir vaxt kimi xatirimdə qalan günlər çox az olub. Həm də belə günlər mənim gənclik dövrümdə olubdur. Bunların da bir çox hissəsi məhz Arif Heydərovla bir yerdə olubdur. Bunlar hamısı mənim üçün əzizdir. Biz həmin bu binada, salonda, bir yerdə böyük iclaslar da, konsertlər də keçirmişik. Bəzən böyük bir kollektivlə burada Yeni ili bir yerdə qarşılayırdıq. Bir yerdə çox yaxşı, şən axşamlar da keçirmişik”.

Bu nitqi dinlədikcə mən ötən illəri sanki təzədən yaşayırdım. Zərifə xanımla birlikdə keçirdiyimiz xoş günlər, hüznlü məqamlar, atama qayğısı, mənə həmdəm olmasıE çox anlar, çox hadisələr gözlərim önündən keçirdi. Bu gün onun bizimlə yanaşı olmadığı üçün çox acıyırdım.

İndi xalqımız Zərifə Əliyevanın 90 illiyini təntənə ilə qeyd edir.

Bir çoxları onu əlləri şəfalı, qəlbi nurlu həkim kimi, bir çoxları xeyirxah insan, yaxşı dost kimi xatırlayır. Azərbaycan həkimlərinin böyük bir dəstəsi unudulmaz müəllim kimi, alim həmkarları zəkalı elm xadimi kimi yad edir.

Yaşasaydı, indi 90 yaşı olardı… Bu günlərdə tez-tez öz-özümə bu sözləri pıçıldayıram. Azərbaycan kimi uzunömürlülər diyarında 90 yaş nadir ki… Ölüm Zərifə xanımı əlimizdən tez aldı, cəmi 62 yaşında. Təsəllimiz isə budur ki, Zərifə xanım Əliyeva özündən sonra dəyərli əsərlər, layiqli yetirmələr, saf əməllər, gözəl, xalqına, Vətəninə layiqli övladlar qoyub getdi.

O, baharda dünyaya gəlmişdi. Baharda da həyatdan köçdü. Elə xatirələrdə də baharın özü kimi xoş duyğularla yaşayır!

**Azərbaycan.-**2013.-14 aprel.-№ 78.-S.5.

## Dünya şöhrətli alim, görkəmli oftalmoloq, qayğikeş insan

## Akademik Zərifə Əliyeva – 90

**Əhliman ƏMİRASLANOV,**
akademik, SSRİ Dövlət Mükafatı laureatı, Milli Məclisin deputatı

**Bütün ali təhsil ocaqlarında olduğu kimi, Azərbaycan Tibb Universitetinin də təşəkkül tapıb inkişaf etməsində, beynəlxalq aləmdə tanınmasında onun divarları arasında təhsil alıb məşhurlaşan məzunlarının danılmaz xidmətləri olub. ATU-nu, o cümlədən də respublikamızın səhiyyəsini, tibb elmi və təhsili sistemlərini, bütövlükdə doğma Azərbaycanımızı beynəlxalq aləmdə tanıdan, ona şöhrət qazandıran görkəmli elm xadimlərindən biri də dünya şöhrətli oftalmoloq-alim, akademik Zərifə Əziz qızı Əliyevadır.**

Anadan olmasının 90 illik yubileyi həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda geniş qeyd edilən böyük alimin əziz xatirəsi sonsuz məhəbbətlə anılır, yad edilir.

Zərifə xanım Əliyeva mənalı və zəngin bir həyat yolu keçmişdir. Onun qədim Azərbaycan torpağı olan ata yurdu İrəvandan kənarda, Naxçıvanın Şərur rayonunda dünyaya göz açması erməni işğalçıları tərəfindən azərbaycanlılara qarşı planlı şəkildə aparılan soyqırımı siyasətinin törətdiyi fəsadlar nəticəsində baş vermişdir. Tarixi hadisələr nə qədər ağır, nə qədər kədərli olsa da, Zərifə xanımın 1923-cü il aprelin 28-də dünyaya gəlişi həm görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsinə, doğmalarına, yaxınlarına, həm də sonralar bütövlükdə Azərbaycan xalqına düşərli olmuşdur. Onun dünyaya göz açdığı ildə Əziz Əliyevin ailəsi Bakıya köçmüşdür.

Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Onunla bir qrupda, eyni kursda oxuyan məzunların xatirələrində qeyd edildiyi kimi, Zərifə Əliyeva hələ gənclik illərində fitri istedada, dərin zəkaya, geniş dünyagörüşünə, yüksək mədəni səviyyəyə malik, təvazökar bir tələbə olmuşdur. O, tibbi fənlərlə yanaşı, digər elmlərin də tədrisinə xüsusi maraq göstərir, hərtərəfli biliyə malik həkim kimi formalaşırdı. Hələ tələbəlik illərindən tibb elminin öyrənilməsinə sonsuz həvəs göstərən Zərifə Əliyeva Tibb İnstitutunda keçirilən Tələbə Elmi Cəmiyyətinin konfranslarında məruzələrlə çıxışlar edir, elmi təhlillər aparırdı.

Görkəmli oftalmoloq-alim məzunu olduğu və özü üçün “Alma mater” hesab etdiyi Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Azərbaycan Tibb Universiteti) bitirdikdən sonra da onu heç vaxt unutmamış, onunla daim sıx əlaqə saxlamışdır. Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının həm əvvəlki, həm də indiki əməkdaşları da özlərini Zərifə xanımın yetirmələri, onun yaratdığı elmi məktəbin davamçıları hesab edirlər. 1977-ci ildə Zərifə xanımın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda keçirilən 80 illik yubileyindəki çıxışı institut kollektivinin qəlbində silinməz izlər buraxmış, xoş xatirələrə çevrilmişdir. ATU-nun professor-müəllim heyəti, çoxminli tələbələri ali tibb təhsili ocağının dünya şöhrətli məzunu olan unudulmaz Zərifə xanım Əliyevanın xatirəsini həmişə əziz tuturlar. Bu qocaman təhsil ocağında onun xatirəsinə həsr olunmuş elmi-praktik konfranslar, yubiley gecələri keçirilir. Azərbaycan Tibb Universitetinin akt zalının və 11 mərtəbəli tədris binasının foyesində akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən foto-guşə yaradılmışdır. ATU-nun professor-müəllim heyəti və tələbələri hər gün bu guşənin önündən keçərək görkəmli alimin əziz xatirəsini ehtiramla yad edirlər.

Zərifə Əliyeva 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu əla qiymətlərlə bitirdikdən sonra oftalmoloq ixtisasını seçmişdi. Lakin gənc məzun bilirdi ki, dar ixtisas, o cümlədən oftalmoloq ixtisası üzrə kamil mütəxəssis olmaq üçün institutda aldığı diplomaqədərki təhsil kifayət etmir və mütləq bir neçə il də diplomdansonrakı hazırlığa sərf edilməlidir. Bu məqsədlə o, institutu bitirdikdən sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktiki vərdişlərə yiyələnmiş, oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmə hazırlığı keçmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi ET Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə özünə rahat yollar seçmək stereotipindən uzaq olmağa çalışaraq, şablonlardan qaçmış, vətənə, xalqa həqiqi mənada xeyir verə biləcək ən çətin sahələrdə özünü sınamağa can atmış, istəyinə nail ola bilmişdir. Belə ki, o, tapdanmış yollarla getməmiş, hər sahədə özü yeni elmi cığırlar açmış, bu cığırları başqalarının da keçə biləcəyi geniş yollara çevirmişdir. İkinci Dünya müharibəsinin təzəcə başa çatdığı illərdə keçmiş SSRİ-nin çox yerində olduğu kimi Azərbaycanda da traxoma xəstəliyi yenidən baş qaldırmışdı və ona qarşı aparılan ara-sıra mübarizə tədbirləri o qədər də effektli təsir göstərmirdi. Xalqın sağlamlığının vacibliyini ön plana çəkən gənc alim ölkəmizi bürümüş yoluxucu göz xəstəliklərinin qarışısını

almaq və bu xəstəliklərin ləğvinə nail olmaq üçün yollar axtarırdı. O dövrdə Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuş, bunun nəticəsində 80 milyon insan kor olmuşdu, çünki traxoma xəstəliyinin müalicəsinə zəmin yarada biləcək o qədər də güclü təsirə malik dərman preparatları hələ mövcud deyildi. İkinci Dünya müharibəsindən yenicə çıxmış ölkənin iqtisadi-siyasi durumu da qənaətbəxş olmadığından ölkənin ümumi vəziyyətinin nikbin qiymətləndirilməsinə əsas verən stimul belə yox idi. Bu kimi problemlərlə üzləşən gənc tədqiqatçı Zərifə xanım Əliyeva ruhdan düşməyərək axtarışlarını davam etdirmiş, əsl vətəndaş mövqeyində dayanaraq, ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlamış və həyata keçirməyə başlamışdır. Onun başlıca məqsədlərindən biri də Azərbaycanda traxoma xəstəliyinin müalicə və profilaktikasını vaxtında və yetərincə həyata keçirməkdən, bu prosesin elmi istiqamətlərini müəyyənləşdirərək səhiyyə praktikasına tətbiqini reallaşdırmaqdan ibarət olmuşdur.

Gənc oftalmoloq traxoma ilə əlaqədar respublikadakı real vəziyyəti əyani olaraq müşahidə etmək üçün Azərbaycanın bütün rayonlarına gedərək göz xəstəliklərinin regional lokallığını müəyyənləşdirir, xəstəliyin epidemioloji xüsusiyyətlərini araşdırır, xəstələrə öz məsləhətlərini verir, bir sıra göz xəstəliklərinin profilaktika və müalicəsi haqqında maarifləndirici söhbətlər keçirirdi. O, traxomanın müalicəsində istifadə edilən mövcud üsullarla yanaşı, o dövrün güclü antibiotiklərindən hesab edilən sintomitsindən istifadə etməklə yeni və uğurlu nəticələrə nail olmuşdur. Dəyərli elmi kəşflərdən sayılan “Z.Ə.Əliyeva üsulu”nun kompleks profilaktik tədbirlərlə birlikdə praktik səhiyyədə geniş tətbiqindən sonra traxoma xəstəliyinin müalicəsində əsaslı dönüş yaranmış, onun yayılmasının qarşısı alınmış və bu da tədricən xəstəliyin ləğvinə gətirib çıxarmışdır. Beləliklə, Zərifə xanımın fədakar zəhmətsevərliyi sayəsində yerinə yetirilən tibbi tədbirlər əhalinin dünya işığından məhrum olmasının, əlilliyə düçar olaraq əmək qabiliyyətini itirməsinin, çarəsizlikdən kütləvi depressiya vəziyyətinə düşməsinin qarşısını almışdır. Yalnız bundan sonra dissertasiya müdafiə etməyi qərara almış və 1959-cu ildə o, sərbəst surətdə yerinə yetirdiyi elmi istiqamətlərinin nəticələrinə əsasən “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi” mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edərək, tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

O, 1960-1967-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq, fəaliyyət göstərdiyi elm ocağında oftalmologiya elminin bütün sahələrinin inkişafına yaxından kömək göstərmiş, bu istiqamətin tərəqqisinə öz dəyərli töhfələrini vermişdir. SSRİ Ali Attestasiya Komissiyası 1963-cü ildə Moskvaya göndərilmiş təqdimat əsasında onun oftalmologiya ixtisası üzrə “Böyük elmi işçi” elmi adını təsdiq etmişdir.

Zərifə Əziz qızı Əliyeva göz xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikasını düzgün təşkil etməklə yanaşı, daim yeniliyə can atır, yeni laboratoriyalar yaradır, insan sağlamlığı amilini ön plana çəkirdi. O, yalnız ölkəmizin paytaxtı Bakı şəhərində deyil, həmçinin Sumqayıt, Gəncə, Bərdə, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan), Salyanda və respublikanın digər şəhər və rayonlarında zərərli iş şəraitlərinin törətdikləri göz xəstəliklərini, eləcə də insan orqanizminin digər xəstəliklərini aşkar edir, həm xəstələrin müalicəsinə, onların iş yerlərində mövcud olan mənfi təsirlərdən qorunmalarına, həm də əmək müəssisələrinin ekologiyasına diqqət yetirir, onlarda ekoloji prinsiplərə riayət edilməsi konsepsiyalarının həyata keçirilməsi yollarını göstərirdi. Bununla da Zərifə xanım Əliyeva peşə amillərinin törətdikləri göz xəstəliklərinin və bütövlükdə orqanizmi tam şəkildə müalicə edərkən, təkcə məşhur alim-oftalmoloq kimi deyil, həmçinin bacarıqlı alim-ekoloq kimi tanınmışdır. Zərifə xanım ölkəmizdə ilk dəfə olaraq həm oftalmologiyanın peşə etiologiyalı xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasının, həm də ekoloji təmizlik ideyasının əsasını qoymuş, bu ideyanın praktik səhiyyədə həyata keçirilməsinə nail olmuşdur.

O, ardıcıl olaraq yerinə yetirdiyi elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də yüksək səviyyədə aparırdı. 1967-ci ildən etibarən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında pedaqoji fəaliyyətə başlamış, əvvəlcə kafedrranın dosenti, sonra professoru, daha sonra isə həmin kafedranın müdiri vəzifələrini yüksək səviyyədə yerinə yetirərək, həkimlərin diplomdansonrakı hazırlıqlarının tədris-metodiki göstərişlərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmış, müxtəlif mövzulu monoqrafiyaların, tədris-metodik göstərişlərin, dərs vəsaitlərinin yazılmasına böyük əmək sərf etmişdir. Onun Sovet İttifaqında hələ o dövrdə böyük nüfuz qazanmış Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə SSRİ-nin müxtəlif guşələrindən gəlmiş və təkmilləşmə kursu keçən həkimlərlə apardığı mühazirə və praktik məşğələlərinin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi və s. təşkil edirdi.

Zərifə xanım Əliyeva ADHTİ-da çalışarkən ilk illərdən görmə orqanının patologiyasına xüsusi diqqət yetirmiş, zərərli sənaye müəssisələrində çalışan insanların oftalmoloji müayinədən keçmələrini təşkil etmiş, peşə ilə əlaqədar əmələ gələn göz xəstəliklərinin profilaktikası və müalicəsi ilə ciddi məşğul olmuşdur. O, peşə amili etiologiyalı göz xəstəliklərinin yayılma qanunauyğunluqlarını aşkar etmək üçün Bakı Şin zavodunda, neft-kimya və yod sənayesi müəssisələrində, Sumqayıt “Üzvi sintez” istehsalat Birliyində, Mingəçevir “İzolit” və rezin-

texnika məmulatı zavodlarında, Gəncə gil-torpaq kombinatında və digər obyektlərdə işləyənlərin görmə orqanlarına mənfi təsir göstərən amilləri, onların etio-patogenezini diqqətlə öyrənmiş, zərərli peşələrin törətdikləri göz xəstəliklərinin yaranma mexanizmini elmi surətdə əsaslandırmış, onların qarşısını almaq üçün əməli tədbirlər görmüşdür. Zərifə xanım Əliyeva bu xeyirxah işləri yerinə yetirərkən zərərli amillərin təkcə görmə orqanına deyil, bütövlükdə, orqanizmə və onun ayrı-ayrı orqanlarına göstərdiyi təsirləri də mükəmməl öyrənmiş, profilaktik və müalicəvi tədbirlərin bu istiqamətdə aparılmasına lazımi şərait yaratmışdır. Alim zərərli müəssisələrdə çalışanların görmə orqanlarını müalicə etməklə, bütövlükdə onların ayrı-ayrı orqanlarını da müxtəlif növ toksinlərin təsirindən mühafizə edərək birbaşa insanların həyatını qoruyurdu.

Görkəmli alimin aktual problemin həlli yollarında apardığı səmərəli işlər tezliklə öz bəhrəsini vermiş və o, 1976-cı il may ayının 27-də M.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Dissertasiya müdafiəsi günü alim özünün tutarlı əyani dəlillərə əsaslanan nüfuzedici çıxışında elmi istiqamətlərinin üstünlüklərini, elmi kamilliyini, cəsarətli eksperimentatorluq bacarığını Moskvada keçmiş SSRİ-nin məşhur oftalmoloqları qarşısında bir daha təsdiq edərək, onların rəğbətini qazanmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Piroqov adına II Moskva Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı A.R.Nesterov akademik Z.Ə.Əliyevanın doktorluq dissertasiyasının müdafiəsi gününü xatırlayaraq yazır: "Həmişə olduğu kimi, Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu yanındakı İxtisaslaşdırılmış Şuranın iclası adət etdiyimiz rəsmi qaydada başladı. Kürsiyə bəstəboy, qara saçlı, suyu şirin, iri gözlü, qaynar baxışlı bir qadın qalxdı. Onun nitqi dəqiq və aydın tələffüzü ilə, ən çətin məsələləri belə sadə dildə ifadə etmək bacarığı ilə seçilirdi. O, məruzənin ayrı-ayrı məqamlarına rəngli slaydlarla, qrafiklərlə, cədvəllərlə aydınlıq gətirirdi. Zərifə Əziz qızının məruzəsi şurada diqqətlə dinlənildi. Rəsmi və qeyri-rəsmi opponentlərin rəyləri yekdil idi. Gizli səsvermə yolu ilə şura yekdilliklə Zərifə Əziz qızı Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi vermək barədə qərar çıxardı.

Müdafiədən sonra biz Zərifə xanımla bəzi istehsalat məsələlərini müzakirə etmək üçün görüşdük və beləcə, uzunmüddətli ailə dostluğunun əsası qoyuldu. 21-22 oktyabr 1977-ci ildə Zərifə xanımın təşəbbüsü ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin VII plenumunun keçirilməsi cəmiyyətin həyatında mühüm hadisəyə çevrildi. Həmin plenumda 200 nəfər iştirak edirdi. Plenumda ölkənin görkəmli alimləri uşaqların görmə qabiliyyətinin mühafizəsinə, qlaukomanın profilaktikasına və müalicəsinə, ağır göz zədələrinə həsr olunmuş məruzələrlə çıxış etdilər…

Zərifə xanımın həmin plenumda kimya sənayesi müəssisələrində görmə orqanının peşə xəstəliyinə həsr olunmuş məruzəsi hamının diqqətini cəlb etdi. Qeyd etmək lazımdır ki, ÜOEC-nin İdarə Heyətinin plenumunda oftalmologiyada ayrıca əsas istiqamət sahəsi kimi peşə patologiyasının problemləri ilk dəfə müzakirə olunurdu. Zərifə Əziz qızı rəhbərlik etdiyi kollektivin apardığı tədqiqatların əsas nəticələrini şərh edərək kimya və neftkimya sənayesinin sürətli artımına diqqət çəkdi. Z.Ə.Əliyevanın plenumdakı məruzəsi və onun müzakirəsi görmə orqanının peşə patologiyası üzrə tədqiqatların gələcək inkişafına təkan verdi".

Doktorluq dissertasiyası müdafiəsindən bir qədər sonra Zərifə xanım Əliyeva ADHTİ-də müsabiqə yolu ilə professor vəzifəsinə seçilmiş və qısa müddətdə onun çoxdan layiq olduğu bu elmi adı da təsdiq edilmişdir.

Tibb elmləri doktoru, professor Z.M.Skripniçenko "Alim ömrü" adlı xatirəsində akademik Z.Ə.Əliyeva ilə ilk görüşünü belə xatırlayır: "Bizim ilk görüşümüzü daha dəqiq xatırlayıram. Oktyabr 1977-ci il. Akademik V.P.Filatov adına Odessa Göz Xəstəlikləri İnstitutunun nümayəndə heyəti Azərbaycan oftalmoloqlarının elmi konfransında iştirak etmək üçün Bakıya gəlib. Odessadan gələn konfrans nümayəndələrini aeroportda mehribanlıqla qarşılayıb, rahat mehmanxanada yerləşdirdilər. Daha sonra sabah öz işinə başlayacaq konfransın keçiriləcəyi yerə apardılar.

Konfrans başladı. Dinlədiyimiz məruzələrdən ən çox professor Z.Ə.Əliyevanın Azərbaycanın şin istehsalı sahəsində gözün peşə xarakterindən asılı olaraq zədələnməsi barədə etdiyi çıxış yadda qaldı…"

Bakıda ilk dəfə olaraq belə bir Ümumittifaq miqyaslı plenumun təşkili Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan verdi. Plenumda professor Zərifə xanım Əliyeva Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaradılması haqqında təklif irəli sürdü və iştirakçılar yekdilliklə bu təklifi müdafiə etdilər. Professor Z.Əliyeva 1979-cu ildə Bakı məişət kondisionerləri zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı unikal bir laboratoriyanın yaradılmasına və onun səmərəli fəaliyyət göstərməsinə nail oldu. Elmin və texnikanın ən son nailiyyətlərinə əsaslanan üç şöbədən ibarət laboratoriya tezliklə yeni cihazlarla zənginləşdirildi və görmə orqanının peşə xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi mərkəzinə çevrildi. Şöbələrdən birində görmə orqanının vəziyyəti yoxlanılır, ikincisində diaqnostik-funksional müayinələr aparılır, üçüncüsündə isə cərrahi əməliyyatlar icra edilirdi. Laboratoriyalarda az intensivli toksikliyə malik istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi həyata keçirilirdi. Zərifə xanımın bu təcrübəsi keçmiş

SSRİ-nin digər şəhərlərində də bəyənilərək rəğbətlə qarşılanmış, təcrübədə əyani olaraq geniş tətbiq edilmişdir. Professor Zərifə xanım Əliyevanın elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində özünün dolğun əksini tapmışdır.

1981-ci ildə ölkəmizin tibb elminin, səhiyyə sisteminin tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elm-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülmüşdür.

Akademik Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri vəzifəsinə, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrinin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

Zərifə xanımın elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və sair əsərləri bu qəbildəndir.

Akademik Z.Əliyevanın elmi-tədqiqat işlərinin bir qismi görmə orqanının bədxassəli şişlərinin, qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün əlaqədar dəyişiklikləri və görmə-sinir yolları" adlı monoqrafiyaları və digər əsərləri göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyə üsulları ilə müalicəsi" və digər monoqrafiyaları isə daktriologiyaya həsr edilmişdir. Zərifə xanım Əliyevanın qələmə aldığı fundamental "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" və sair kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdəndir.

Zərifə xanım elm və texnologiyaların etikası, həkimlik deontologiyası haqqındakı zərif və saf düşüncələrini öz dəyərli əsərlərində təsbitləndirə bilib. Onun qələmə aldığı "Yüksək etimad" kimi kitabı və bu mövzuya həsr etdiyi digər əsərləri həm bu gün, həm də gələcəkdə gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların bir həkim, bir şəxsiyyət kimi formalaşmalarında böyük əhəmiyyət kəsb edən əsərlər olaraq qalacaq və aktuallığını heç vaxt itirməyəcəkdir.

Akademik Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarca elmlər doktoru və elmlər namizədinin elmi rəhbəri və məsləhətçisi olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Z.Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərlə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Akademik Z.Ə. Əliyeva həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir. O, respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

2010-cu ildə yaranmasının 80 illik yubileyi təntənə ilə qeyd edilən Azərbaycan Tibb Universiteti haqqında tərtib edilən kitabın bir hissəsi onun məşhur məzunlarına həsr edilmişdir və kitabda akademik Zərifə xanım Əliyeva dəsti-xəttinin geniş oxucu kütləsinə çatdırılmasına da geniş yer verilmişdir. Şübhəsiz ki, Azərbaycan Tibb Universitetini uzun illərdən bəri yaşadan, ona beynəlxalq miqyasda uğur və nüfuz qazandıranlardan biri də onun akademik Z.Ə.Əliyeva kimi məzunları, alimləri, müəllimləridir.

Akademik Zərifə Əliyeva 1985-ci ilin aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. Bu il görkəmli alimin anadan olmasının 90 illik yubileyidir. İllər bir-birini əvəz etsə də, əvəzolunmaz alimin əziz xatirəsi heç vaxt yaddan çıxmır, daim ehtiramla yad edilir. Qədirbilən xalqımızın, eləcə də ölkəmizin tibb işçilərinin ona olan məhəbbətinin əbədiliyi artıq vaxt, zaman çərçivəsindən çıxaraq sonsuzlaşmış, daimiləşmişdir.

Azərbaycan Tibb Universitetinin əməkdaşları, tələbə-gəncləri həmişə olduğu kimi, bu il də görkəmli elm xadimi, qayğıkeş müəllim, təvazökar insan kimi qəlblərdə daimi yer tutan, tarixdə əbədiləşən akademik Zərifə xanım Əliyevanın anadan olmasının 90 illik yubileyini geniş qeyd edir, unudulmaz məzununun xatirəsinə həsr olunumuş silsilə tədbirlər keçirir.

Akademik Zərifə Əziz qızı Əliyeva özünün səmimiliyi, xeyirxahlığı, insansevərliyi, vətənpərvərliyi, bəşəri duyğuları ilə ölməzliyə qovuşub. Onun unudulmaz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

**Xalq qəzeti.-**2013.-14 aprel.-№ 78.-S.5.

# İnsanlara nur bəxş edən böyük oftalmoloq alim…

**Səlim Loğmanoğlu**

Müdriklər deyirlər ki, çox vaxt insanın dünyaya gəldiyi fəsil onun təbiəti ilə uyğunluq yaradır. Bu baxımdan, Onu nur və həyat rəmzi də adlandırmaq olar. Çünki O, təbiətin oyandığı, torpağın canlandığı, istinin və işığın artdığı bir fəsildə dünyaya göz açmışdı. O, elə insan idi ki, bir dəfə ünsiyyətdə olanlar onu ömrü boyu unuda bilmirdilər. Bu böyük şəxsiyyət elə ilk andan onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi qalırdı. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə hüdudsuz idi. O, sevib seçdiyi, ömrünü həsr etdiyi sənəti ilə bu istedadını tam gerçəkləşdirə bilmişdi. Ömrü vəfa etsəydi, bir neçə gün sonra, O, 90 yaşını qeyd edəcəkdi. Lakin ətrafındakılara daim nur, eləcə də, yaşamaq və həyat eşqi bəxş edən bu dahi İNSAN bu işıqlı dünya ilə elə aprel ayında da vidalaşdı…

Aprelin 28-də dünya şöhrətli alim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əliyevanın anadan olmasının 90-cı ildönümü tamam olur. Zərifə xanım 1923-cü ildə qədim Naxçıvan torpağının Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Atasının ömür yolu sonradan onun üçün əsl həyat məktəbinə çevrilib. Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – Ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı idi. Vaxtilə Əziz Əliyevin ailəsində görüb-götürdükləri, yaxşı bir təcrübə kimi, ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda ONUN köməyinə çatıb. O, Ulu öndərimizə mənəvi dayaq olub. Zərifə xanım Əliyeva 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb.

## GÖRKƏMLİ ELM XADİMİ

Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəlidir. O, istedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və dəyərli elmi-tədqiqat işləri yazıb. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib. Bu tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın 1960-cı ildə “Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsi” mövzusunda müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil edib. 1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva professional oftalmologiyanın problemləri ilə ciddi məşğul olub. Bu sahənin əhatə dairəsinin çox geniş olmasına baxmayaraq, gözün peşə xəstəlikləri probleminə dərin və çoxsahəli marağını Zərifə xanım Əliyeva bütün həyatı boyu itirməyib. Alim dünyada ilk dəfə olaraq peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktiki olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub. Apardığı tədqiqatların gedişində “Göz yaşının axmasının fiziologiyası”, “Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri”, “Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti” və s. kimi onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirib. Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin “Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti” mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil edib. 1976-cı ildə Q.Helmqolts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndiriblər. Zərifə xanım Əliyevaya 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi verilib.

## SOVET TİBB TARİXİNDƏ İLKƏ İMZA ATAN ALİM

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşüb. Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: “Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir”.

QAYĞIKEŞ İNSAN

Özünün zəngin tibb təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin "sözlə" müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir. Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olub, "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

AZƏRBAYCAN ELMİNDƏ MÜSTƏSNA XİDMƏTİ OLAN ALİM

Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən, "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Zərifə Əliyeva yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir.

HƏMKARLARI ONU BELƏ XATIRLAYIRLAR

Dünya oftalmologiya elminin tanınmış simaları da Zərifə xanım Əliyeva haqqında yüksək fikirlər söyləyiblər. Görkəmli oftalmoloq, akademik A.Nesterov deyib: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi".

Akademik N.Puçkovskaya "xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulayıb.

Professor N.Şulpina Zərifə xanım Əliyevanı belə xarakterizə edib: "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik. Zərifə xanımın bədii duyumu, bədii istedadı bənzərsiz idi. Zərifə xanım necə böyük məharətlə ifa edir, nəğmələr oxuyurdu. Onun incə barmaqları sürətlə pianonun dilləri üstündə gəzir, toplaşdığımız otağı bəzən gur, bəzən də həzin musiqi sədaları bürüyürdü. Bir qadın kimi də Zərifə Əziz qızı haqqında bir neçə kəlmə deməyə bilmərəm. Təbiət ona qeyri-adi qadın cazibədarlığı bəxş etmişdi. Onun görkəmi, qalın saçları, sifətinin qövsvari cizgisi, açıq alnı, insanın qəlbini riqqətə gətirən qara gözləri heyranlıq doğurmaya bilməzdi. Zərifə Əziz qızının bütün varlığı hərəkətlərindən və üzünün mimikasından oxunurdu. Mən onu heç zaman əsəbi, qəzəbli görməmişəm. O, həmişə gülərüz, xeyirxah idi. Zərifə xanımın əlləri xüsusilə insanı valeh edirdi. Bu balaca qadın-cərrah əlləri sanki təmasda olduğu hər şeyə istilik verirdi, eyni zamanda, bu əllərdə ailə qayğılarının, qadın əməyinin izlərini də sezmək mümkün idi. Belə ki, Zərifə xanım yüksək təbəqəyə mənsub olsa da ev işlərindən boyun qaçırmazdı".

Professor A.Brovkina onu "nəciblik və mənəvi paklıq timsalı" adlandırıb. Professor V.V.Şmelyeva isə Zərifə xanımı belə təsvir edib: "Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu "Əvəzolunmaz insan haqqında povest" adlandırardım".

SON SÖZ ƏVƏZİ

Zərifə xanım Əliyeva istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görməyi düşünürdü. Ömrünün sonuncu anına kimi, O, həyatla, gələcək planlarla yaşayırdı. Yüksək səviyyəli peşəkar alim kimi neçə-neçə insanın gözlərinə işıq verən, onları həyata qaytaran akademik Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də Moskva şəhərində bu işıqlı dünyaya gözünü yumaraq, əbədiyyətə qovuşdu. 1994-cü ildə isə Onun nəşi Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda, atasının qəbri yanında dəfn olundu. İndi bura xalqımızın bir anım yerinə, ziyarətgaha çevrilib. İndi Bakıda Göz Xəstəlikləri İnstitutu, Naxçıvanda isə şəhər poliklinikası onun adını daşıyır. Bakının Binəqədi rayonu ərazisində Zərifə xanımın adına istirahət parkı salınıb. Paytaxtda, eləcə də, Naxçıvan şəhərində Zərifə Əliyevanın adını daşıyan küçə var.

Zərifə xanım ləyaqətli, humanist, xeyirxah, mehriban insan idi. Peşəsində qazandığı uğurlar da ONUN bu xüsusiyyətləri ilə bağlıdır. Xeyirxahlıq, bir növ, onun həyat tərzinə çevrilmişdi. O, həmişə xüsusi qayğıya ehtiyacı olan tənha insanlara, kimsəsiz və yetim uşaqlara böyük diqqətlə yanaşırdı. Onun xatirəsini sadə xalqın yaddaşında ehtiramla yaşadan, həm də, bu mərhəmət və şəfqətdir. Ulu öndər Heydər Əliyevin müasir Azərbaycan qadınının problemlərinə böyük diqqət yetirməsində, sözsüz ki, Zərifə xanımın şəxsi nümunəsi də mühüm rol oynayırdı. Güclü şəxsiyyət və dərin zəka sahibi olan Zərifə xanım Ulu öndərə etibarlı mənəvi dayaq idi. Odur ki, Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

**Yeni Azərbaycan.-**2013.-4 aprel.-№ 57.-S.4.

**ZƏRİFƏ ƏLİYEVA – 90**

**Rəfiqə HÜSEYNOVA**

**Prezident İlham Əliyevin Sərəncamından: “Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır”**

**Bu il Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın 90 illiyi tamam olmaqdadır. Ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Zərifə Əliyevanın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirilməsi tapşırılıb.**

**Bir ömrün səhifələri…**

Gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim – Zərifə xanım Əliyeva. Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca yaddaşımızda Ulu Tanrının bu ən yüksək mənəvi xüsusiyyətlərini bəxş etdiyi böyük insanın obrazı canlanır, gözlərimiz önündə onun portreti yaranır. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, Onun fəaliyyətinə nəzər salarkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olur. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək olan yüksək mənəvi keyfiyyətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılıb və yazılacaqdır. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun “Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi”, “Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası” adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır.

Zərifə xanım Əliyevanın elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də peşə oftalmologiyasına həsr edilmişdir. Zərifə xanım, sözün əsil mənasında, bu sahənin ilk pioneri olmuşdur. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə potologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq, elm aləmində yeni bir istiqamətin – “peşə oftalmologiyası”nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları, alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır. Zərifə xanım elmdə, ilk dəfə olaraq, yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Onun bu istiqamətdə apardığı elmi-tədqiqat işləri dünya ədəbiyyatında analoqu olmayan nadir tədqiqatlar sırasındadır. Zərifə xanım uzun illər respblikanın ondan artıq iri sənaye müəssisələrində genişmiqyaslı elmi-tədqiqat işləri aparmışdır. Görmə orqanının peşə potologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə, akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Məşhur oftalmoloq akademik M.Krasnov Zərifə xanımın görmə orqanının peşə potologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirərək, qeyd etmişdir ki, əcəl Zərifə Əziz qızına bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbin rəhbəri ola bilərdi.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva, təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Dünya şöhrətli oftalmoloq akademik A.Nesterov demişdir: “Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm”.

Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu, etibarlı silahdaşı qayğıkeş ana idi. Bu böyük insan həm də Ulu Öndərimiz Heydər Əliyevin ömür-gün yoldaşı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin anasıdır. O, həm də Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin unudulmaz şəxsiyyəti kimi daim hər birimizin qəlbiində yaşamaqdadır.

**Səs.-**2013.-3 aprel.-№ 58.-S.4.

## Ürəklərdə izi var…

**Elmar QASIMOV,**
Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru,
Professor

**Düz 27 il bundan əvvəl Azərbaycan xalqına ağır itki üz verdi: görkəmli alim, ictimai xadim, respublika Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, Əziz Əliyev adına ADHTİ oftalmologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyeva Moskva şəhərində vaxtsız vəfat etdi. Bu itkinin təkcə Azərbaycanda deyil, o vaxtlar respublikamızın da daxil olduğu bütün Sovet İttifaqında necə sonsuz kədər, üzüntü yaratdığını həmin dövrə aid mətbuatı və digər sənədləri nəzərdən keçirməklə bir daha yaşadım.**

Zərifə xanımla vida mərasimi SSRİ Elmlər Akademiyasının Alimlər Evində keçirilmişdi. Sovetlər Birliyinin və Azərbaycan SSR-in, demək olar ki, bütün dövlət qurumları, nazirlik və komitələri, elm ocaqları, səhiyyə təşkilatları adından gətirilən yüzlərlə əklili qoymağa geniş səhnədə yer qalmamışdı. Əllərində təzə-tər gül-çiçək dəstələri, çöhrələrində sonsuz kədər olan, vida mərasiminə gəlmiş insan axınının ardı-arası kəsilmirdi. Rusiya Tibb Elmlər Akademiyasının həqiqi üzvü, Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru, Dövlət mükafatı laureatı M.M. Krasnov həmin kədərli anları belə xatırlayır:

– Alimlər Evinə sonuncu dəfə vida sözünü deməyə insan dənizi axışıb gəlmişdi, onların duruşundan, baxışından, sözündən dərin hüznlü bir kədər oxunurdu. Hətta indi, üstündən xeyli zaman keçdikdən sonra da adama elə gəlir ki, heç vaxt belə izdihamlı dəfn mərasimi görməyəcək. Dəfn mərasimi həmişə ağır olur. Onu bir qədər təntənəli şəkildə də təşkil etmək mümkündür. Hətta bəzən təntənəli dəfn mərasiminə rəsmiyyətçilik də əlavə olunur. Amma Zərifə xanımla sonuncu vida mərasimi tamam başqa cür idi. Hər şeydən əvvəl, hamıda bir ürək yanğısı, ürək ağrısı vardı. Qəbiristanlığın darvazası önündə narın yağış damcıları altında bir qarının dediyi sözlər sanki adamların fikirləri ilə həmahəng idi: “O, müqəddəs imiş”. Əlbəttə, qarının dedikləri bir qədər təsadüf idi. Çünki o, məhz kimin torpağa tapşırıldığı bilmirdi və qarı sadəcə olaraq qədim bir dini inama tapınırdı: Belə ki, pasxada ölənlər cənnətə düşür. Amma heç təsadüfi deyildi ki, dəfn mərasiminə toplaşanlar qarının dediyi “müqəddəs” sözünü Zərifə xanımın işıqlı siması ilə, onun insani saflığı, alicənablığı,ailəsinə və işinə vurğunluğu ilə əlaqələndirirdi. Belə bir ülvi insanla ünsiyyətdə olmaq hamının yaddaşında dərin iz buraxır.

Həmin matəm mərasimini idarə edən o vaxtkı SSRİ səhiyyə naziri S.P. Burenkov Zərifə xanımın vəfatını bütün SSRİ-nin tibb elmi və səhiyyəsi üçün çox ağır itki kimi dəyərləndirmişdir. O qeyd etmişdir ki, Zərifə xanım özünü tibbi tədqiqatların istedadlı təşkilatçısı, sənaye oftalmologiya sahəsində görmə orqanının peşə patologiyası məsələləri üzrə böyük mütəxxəsis, dərin klinik təfəkkürə və zəngin pedaqoji təcrübəyə malik alim kimi göstərmişdi. O, Sovet İttifaqında ilk dəfə olaraq sənaye istehsalının müxtəlif sahələrində göz xəstəliklərinin profilaktikasına dair geniş tədqiqatlar aparmışdır.

Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri, professor N.B.Şulpina isə öz çıxışında diqqəti Zərifə xanımın insani keyfiyyətlərinə, mənəvi ucalığına yönəltmişdir: “O, özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması ilə hamının hörmətini qazanmışdı. Zərifə xanımla ünsiyyət saxlamaq səadəti nəsib olmuş hər bir şəxs onun bu insani keyfiyyətlərini öz üzərində hiss etmişdi. Zərifə Əliyeva seçdiyi sənətin yorulmaz fədaisi idi. Oftalmoloq həkimlərin diplomdan sonrakı hazırlığı sahəsində iş onun fəaliyyətinin əsasını təşkil edirdi. O, uzun illər boyu Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İstitutundakı göz xəstəlikləri kafedrasının dosenti, sonra isə professoru və müdiri vəzifələrində çalışaraq öz sevimli atasının – respublika səhiyyəsinin görkəmli təşkilatçısının işini davam etdirmiş, oftalmoloji kadrların hazırlanmasını yüksək səviyyəyə qaldırmışdır…Lakin Zərifə xanım öz ixtisasının və ictimai fəaliyyətinin çərçivələrinə qapanıb qalmamışdır. Onun maraq dairəsi xeyli geniş idi. O, incəsənətə də həvəslə maraq göstərir, musiqi duyumu ilə adamı heyrətə salırdı. Peşəkar səviyyədə fortepiano çalır. Öz müşayiəti altında həzin səslə gözəl mahnılar oxuyurdu. Onu həmişə insanların əhatəsində görmək olardı. O, ətrafdakıları bir nur kimi özünə cəlb edirdi. Uşaqları sevir, onlara xüsusi zərifliklə yanaşırdı. Yaşayıb, yaratmaq, səhiyyəmizə, öz tələbələrinə, həmkarlarına faydalı olmaq onun ən böyük arzusu idi… Biz öz aramızda o təkrarolunmaz insanı, tükənməz nikbinlik xəzinəsini, şəfqətli qadını, “oftalmologiyanın mirvarisi” adlandırırdıq”.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun sabiq rektoru, akademik M.C.Cavadzadə Zərifə xanımın şəxsi keyfiyyətlərindən danışarkən, onun hədsiz zəhmətsevərliyini, böyük təşkilati iş bacarığını, xeyirxahlığını və eyni zamanda, tələbkarlığını ön plana çəkmişdir. Qeyd etmişdir ki, əsl alimə xas olan bu yüksək insani keyfiyyətlər kafedradakı vəzifəsini yerinə yetirməklə yanaşı, ona ölkəmizdə ilk dəfə olaraq görmə orqanının patologiyasının öyrənilməsi üzrə elmi- tədqiqat laboratoriyası açıb, bu işə uğurla rəhbərlik eləməyə imkan yaratmışdı… Zərifə xanımın xarakterik cəhətlərindən biri də təbabət sahəsindəki

yeniliklərə diqqət göstərməsi, həmin yenilikləri öz elmi yaradıcılıq sferasına daxil edərək, kliniki praktikada tətbiq etməsi idi. Onun rəhbərlik etdiyi kafedra oftalmalogiya üzrə metodik təşkilati mərkəzə çevrilmişdi.

Zərifə xanım böyüdüyü ailəyə xas olan xüsusiyyətləri özündə cəmləşdirmişdi. – Bu fikirlər Zərifə xanımı yaxından tanıyan tibb elmləri doktoru, professor Zəhra Quliyevaya məxsusdur. – Bu ailənin üzvləri çox kübar, ziyalı, mədəni, elmli, işgüzar, təmiz, xalqını, millətini, dövlətini, ölkəsini, torpağını sevən insanlardır. Bu xüsusiyyətlərin hamısı Zərifə xanımda əks olunmuşdur. Biz onu həm də gözəl ailənin xanımı kimi tanıyırdıq. O ailəsinə bağlı, ailəsi və uşaqları ilə nəfəs alan analardan biri idi. Onun həyatı gözümün qabağında bizim yanımızda keçmişdir. Bütün həyatını ailəsinin sağlamlığına, saflığına həsr etmişdir. Çox sədaqətli həyat yoldaşı və ana idi… Əliyevlər ailəsinin bir xüsusiyyəti də var ki, onlar insanları sevməklə bərabər, daim kömək əllərini uzadır, hamıya əl tutmağa çalışırdılar. Zərifə xanım belə insanlardan biri idi.

Zərifə xanımı yaxşı tanıyan N.M.Piroqov adına İkinci Moskva Tibb İnstitutu göz xəstəlikləri kafedrasının müdiri, professor A.P.Nesterov isə bu fikirləri söyləmişdi: “Zərifə xanımı tanıyanlar onu sevməyə bilmirdilər. Qadın zərifliyi, ipək kimi yumşaq xasiyyət, xeyirxahlıq, ailəsinə, dostlarına böyük məhəbbət və sədaqət hissləri onun şəxsiyyətində müstəsna zəhmətsevərlik, qarşıya qoyulmuş məqsədə çatmaq üçün inadkarlıq, tibb elminə təmənnasız xidmət borcu üzvi surətdə qaynayıb qovuşmuşdu. O, oftalmologiyanın inkişafı üçün həddindən artıq böyük işlər görmüşdü. Bu xidmətləri əskiltmək mümkün deyil”.

Tale Zərifə xanıma mənalı və şərəfli ömür bəxş etmişdir. O, 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində görkəmli dövlət və elm xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur. 1947-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirərək, Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. 1950-53-cü illərdə təhsilini aspiranturada davam etdirmişdir. 1957-ci ilədək Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilədək böyük elmi işçi, 1967-ci ildən isə Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti (1977-ci ildə tibb elmləri doktoru alimlik dərəcəsi alıb), professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində işləmişdir.

Zərifə xanım gözəl pedaqoq-alim idi. O, bilik və bacarığını böyük həvəslə gənc həkimlərə və elmi işçilərə verirdi. O, gənc həkimlərin diqqətini həkim-xəstə münasibətinə cəlb edərək deyirdi: “Həkim xəstənin ən doğma adamıdır”. Zərifə xanımın bir çox məqalələri həkimin mənəvi tərbiyəsinə, həkim etikasına və əxlaqına həsr edilmişdir. Həmin məsələlər bu gün də öz aktuallığını itirməyib.

1981-cı ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülüb. Qeyd etmək lazımdır ki, Zərifə Əliyeva həmin mükafatla təltif edilən ilk qadın alim idi.

O, Azərbaycanda elə bir oftalmologiya məktəbi yaratmışdır ki, bu məktəb Sovet İttifaqının parçalanması ilə dağılmamışdır və bu gün də mövqeyini itirməyən sahələrdən biri olaraq qalır.

Görkəmli alim vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, oftalmologiyanın müasir problemlərinə dair bir çox tədqiqatlar aparıb. Eyni zamanda, o, “Terapevtik oftalmologiya”, “İridodiaqnostikanın əsasları”, “Qlaukoma və gözün hipertenziyası”, “Görmə orqanının zədələnməsi”, “Göz yaşı axmasının fiziologiya və histologiyası”, “Şəkərli diabetdə göz xəstəlikləri”, “Gözün mikrocərrahiyyəsi”, “Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası”… əsərlərinin, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 200-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Akademik Zərifə Əliyeva Azərbaycan oftalmologiyasının əsl fədaisi olmuşdur, milli oftalmologiyanın inkişafında danılmaz xidmətləri çoxdur, onlardan biri Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun yeni binasının tikintisi haqqında təşəbbüsüdür. Bakıda müasir Oftalmoloji Mərkəzin yaradılması akademik Zərifə Əliyevanın arzularından biri idi. Vaxtılə Zərifə xanım və Prezident Heydər Əliyev bu arzunun həyata keçirilməsi üçün böyük səy göstərmişlər. Məhz Zərifə xanımın təkidi ilə hələ SSRİ dövründə həmin binanın inşaatı üçün lazım olan vəsait ayrılmış və binanın təməli qoyulmuşdu. Hazırda həmin arzu gerçəkləşib.

Akademik Zərifə Əliyeva fəal ictimai iş aparırdı. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Ümumittifaq Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, “Vestnik oftalmoloqii” jurnalı redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə xanım Əliyevanın əvəzsiz xidmətlərinin etirafı kimi 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi, çoxsaylı orden və medallarla təltif edilməsi olmuşdur. Ona “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adı, 2001-ci ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna akademik Zərifə Əliyevanın adı verilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 115 saylı

qərarı ilə 4 avqust 2009-cu ildə bu institut Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi adlandırılmışdır.

Zərifə xanım Vətəninə, xalqına hədsiz məhəbbət hissi ilə yaşamış, qısa, lakin son dərəcə şərəfli ömür sürmüşdür. O, çox az sayda olan xoşbəxt insanlardandır. İlk növbədə ona görə xoşbəxtdir ki, o, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sədaqətli həyat yoldaşı və silahdaşı idi. Zərifə xanım həm də ona görə xoşbəxtdir ki, o, xalqımıza dəyərli övladlar bəxş etmişdir.

**Xalq qəzeti.-**2012.-15 aprel.-№ 81.-S.3.

# İnsanlara qalan nur

**Hüseynbala MİRƏLƏMOV,**
Milli Məclisin deputatı, yazıçı-publisist

**Zərifə xanımın bioqrafiyası uzaq Naxçıvan kəndi Şahtaxtıda başlamışdı: o, 1923-cü il aprelin 28-də, Azərbaycanın sovetləşdiyi gün dünyaya gəldi. Sonra – məktəb, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu, Moskva Həkimləri Təkmilləşdirmə İnstitutu…**

**Gənc tibb alimi ilə Dövlət Təhlükəsizlik Komitəsi zabitinin şəxsi taleyini müəyyənləşdirən görüş isə 1948-ci ildə olmuşdu. Elə həmin vaxt gənc qəlblərdə zaman ötdükcə əfsanəvi məhəbbətə çevrilən qarşılıqlı rəğbət alovlanmağa başladı… Ən başlıcası da odur ki, bu rəğbətin gizli "əlkimyası" böyük cazibə qüvvəsinin təsiri altında baş verdi. Bu cazibə qüvvəsini meydana çıxaran səbəb isə onların hər ikisinin ağlının, istedadının və mənəvi paklığının kamilliyi, bütövlüyü idi.**

***

1948-ci il. Əks-kəşfiyyatın gənc zabiti Heydər Əliyev Leninqrada oxumağa göndərilir. Zərifə xanım isə Moskvada həkim-oftalmoloq kimi təkmilləşir. Zərifə xanımın atası Əziz Əliyev artıq tanınmış dövlət rəhbəridir, İctimai Elmlər Akademiyasında oxuyur və Azərbaycan Kommunist Partiyasının MK-sında işləyir. Gələcək ümidverici, xoşbəxt görünürdü. Lakin rejim hələ öz üzünü bir daha büruzə verəcəkdi. Sistemin təbiəti dəyişməmişdi. O, gənc insanların, Zərifə Əliyevanın və onun sevib-seçdiyi, adı Azərbaycan tarixində qalacaq dahi insanın taleyinə təsirini göstərəcəkdi…

Zərifə xanımın həyat yolunun başlanğıcı ilk baxışda ən yüksək və qayğısız mühitin içində görünsə də, əslində, tam əksinə idi. Siyasi təlatümlər, repressiya dalğası bu ailənin başının üzərindən əskik olmurdu.

…Əziz Əliyev çox gözəl və mehriban bir ailə başçısı idi. Onun həyat yoldaşı Leyla xanım xeyirxahlıq və incəlik təcəssümü idi. Bu mehriban ailədə iki oğlan – Tamerlan və Cəmil, dörd qız – Ləzifə, Zərifə, Dilbər və Gülarə ata məhəbbəti, ana nəvazişi ilə böyüyürdü. Zərifə Əliyeva bütün yüksək keyfiyyətlərini – yaxşılıq etməyi, səxavəti, alicənablığı böyüdüyü ailədən əxz etmişdi. Bunlar hamısı o ailəyə məxsus keyfiyyətlər idi: ziyalılıq, əməksevərlik, səmimilik, doğma ocağa, xalqa və vətənə məhəbbət, bəşəri dəyərlərə bağlılıq… Bu xüsusiyyətlər onun həyatında öz təcəssümünü tapmışdı.

Əziz Əliyevə gənc yaşlarından mühüm dövlət vəzifələri etibar edilirdi: Kliniki İnstitutun direktoru, Tibb İnstitutunun rektoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, xalq səhiyyə komissarının müavini, səhiyyə komissarı, Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan K(b)P MK-nın katibi, İranda Sovet kontingentinin siyasi rəhbəri, K(b)P Dağıstan Vilayət Komitəsinin birinci katibi, Dağıstan Müdafiə Komitəsinin sədri və ən nəhayət, Azərbaycan Nazirlər Soveti sədrinin birinci müavini… Artıq Əziz Əliyevin adı ÜİK(b)P Azərbaycan Komitəsinin birinci katibi və hökumət başçısı vəzifəsini əvəz edəcək kadrların siyahısına qeyd olunmuşdu. Əziz Əliyevin müvəffəqiyyətlə yüksəldiyini çoxdan bəri qısqanclıqla müşahidə edən və onun şəxsində öz rəqibini görən, artan nüfuzuna qərəzli münasibət bəsləyən M.C.Bağırov nəyin bahasına olur-olsun onu siyasət meydanından uzaqlaşdırmaq qərarına gəlir. Respublika Kommunist Partiyası MK-nın 12 iyun 1951-ci il tarixli qərarı ilə M.C.Bağırov ilk zərbəni vurur: Əziz Əliyevə şiddətli töhmət elan edilir. İyunun 24-də isə Ə.Əliyev Nazirlər Soveti sədrinin müavini vəzifəsindən azad edilir. Əziz Əliyevi əvvəlcə Ortopediya və Bərpaedici Cərrahiyyə İnstitutuna direktor təyin edirlər. Ancaq təqib zəncirinin halqaları bununla qurtarmır. Tezliklə onu elmi-tədqiqat institutunun direktorluğundan azad edib Sabunçu xəstəxanasına köçürürlər.

***

1949-cu ildə Zərifə Əliyeva, bir ildən sonra isə Heydər Əliyev Bakıya qayıdır. Ayrılıq ancaq bu iki gəncin məhəbbətini möhkəmləndirib və onlar ailə qurmaq qərarına gəlirlər. Hər şey yaxşı olardı, bir bu mənzil problemi olmasaydı – Dövlət Təhlükəsizlik Komitəsinin zabiti İçərişəhərdə yarımzirzəmi mənzildə anası və qardaşları ilə birlikdə kirayənişin yaşayırdı. 1952-ci ildə mənzil problemi həll olundu. Heydər Əliyev çoxdan gözlədiyi ikiotaqlı mənzili aldı. Lakin M.C.Bağırovun qəzəbinə gəlmiş Əziz Əliyevin ailəsinin başının üstündə "Domokl qılıncı" asılıb…

İndi bunu təsəvvür etmək çətindir, ancaq o illər elə dövr idi ki, insan hakimiyyətin istəyi ilə yalnız işini, yaradıcılıq, yaxud elmi karyerasını yox, istənilən an şəxsi həyatını, fiziki varlığını da itirə bilərdi. Öz taleyini Zərifə xanımın taleyi ilə birləşdirmək haqda düşünən Heydər Əliyev rejimin ən güclü və mötəbər təməllərindən biri olan M.C.Bağırova meydan oxuyurdu. Belə addımın nəticəsi Dövlət Təhlükəsizlik Komitəsinin zabitinə

əvvəlcədən məlum idi, lakin o, bu addımı atmaqdan qaçmadı. Heydər Əliyev könlünün sevdiyi ilə birgə olmaq hüququnu müdafiə etmək qərarına gəlmişdi.

Heydər Əliyevə "nüfuzunu" itirmiş dövlət qulluqçusunun, respublikanın "birinci" şəxsinin gözündən düşmüş adamın qızı ilə görüşməmək barədə qəti tapşırıq verilir: ya iş və karyera, yaxud məhəbbət… Gənc zabit geri addım atmır, rəhbərliyin "məsləhətinə" məhəl qoymur. O, müəyyənləşdirilmiş "konspirasiyanı" gözləməklə, sevdiyi qızla görüşməyi davam etdirir. Bir-birinə bağlanan iki qəlbin – perspektivli gənc zabit ilə qəzəbə gəlmiş siyasi xadimin qızının məhəbbətinə mane olmağa heç bir qüvvənin gücü çatmazdı. Qeyri-adi mərdliyə malik olmaq lazım idi ki, bu dərəcədə fədakarcasına sevəsən! Xidmətdə müvəffəqiyyətlə irəliləmək imkanından əl çəkməyə, əlinin hər şeydən çıxmasına və hətta "şübhəli" damğası qazanmağa risk edəsən. Bu, Heydər Əliyevin xarakterini, onun yüksək hisslərə sədaqətini, ürəyinin, məhəbbətinin səsinə qulaq asmağını və əgər işlədiyi idarədə, xüsusilə o dövrdəki sərt subordinasiyanı nəzərə alsaq, cəsarətini açıb göstərən dramatik səhnədir.

…İl keçir. "Qeyri-leqal" görüşlər davam edir. Konspirasiya sahəsində peşəkar olan gənc zabit həmkarlarına cəsarətlə meydan oxuyur. Tale aşiqlərin üzünə güldü… 1953-cü ilin martında Stalin öldü. İyun ayında isə artıq Beriya və ətrafındakılar həbs edilmişdilər. Bir müddət sonra Beriya, Merkulov, M.C.Bağırov və digərləri ağır dövlət cinayətlərinə və vətənə xəyanətə görə ən yüksək cəzaya məhkum edildilər. Əliyevlər ailəsi və onlarla birlikdə minlərlə ailə azad nəfəs aldı…

Tarixin son hesabda ədalətli qərar verən məhkəməsi var. Məhz hadisələrin kəskin dönüşü sayəsində iki qəlbdə doğan qovuşmaq arzusunun, iki ailənin taleyinin başı üstündəki buludlar dağıldı. Bu iki gəncin və iki ailənin münasibətləri sədaqətin, xalqa, millətə, vətənə xidmətin ən gözəl nümunəsidir… Heydər və Zərifə Əliyevlərin məhəbbəti onların taleyinə düşən sınaqlara dözdü, öz ziyası ilə ailə ocağını şəfəqləndirdi. 1954-cü ilin noyabrında gənclərin nikahı vətəndaşlıq şöbəsində qeyd olundu və Heydər Əliyevin bir müddət əvvəl aldığı mənzildə sadə toy elədilər.

Müstəqil Azərbaycanın iki prezidentinin, oftalmologiya üzrə akademikin, görkəmli şərqşünasın talelərini müəyyənləşqdirən möhkəm bir AİLƏ nümunəsi yaradıldı. Bu ailənin başında yalnız Sovet Azərbaycanının yüksəlişinə nail olan şəxsiyyət deyil, həm də müstəqil Azərbaycanın qurucusu olacaq ümummilli lider dururdu…

Bu məhəbbətin tarixi haqqında sonralar çoxlu şeirlər yazılıb, kinofilmlər çəkilib. Vaqif Mustafayev bu mövzuya "Əsl məhəbbət haqqında" adlı həyəcanlı, dramatik film həsr edib. Və orada, ekranda biz baş qəhrəmanın – Heydər Əliyevin riqqət doğuran etirafını eşidirik: "Mən həqiqətən onu çox sevirdim. Onun da mənə olan məhəbbətini hiss edirdim. Düşünürəm ki, bizim bir-birimizə olan məhəbbətimizin köklərinin nə qədər dərində olduğunu sübut etməyə ehtiyac yoxdur".

***

Zərifə xanım məşhur həkim-oftalmoloq, tibb elmləri doktoru, akademik, Azərbaycanın əməkdar elm xadimi, parlaq alim və eyni zamanda həssas, qayğıkeş pedaqoq, müdrik təşkilatçı idi. Xeyirxahlıq, insanpərvərlik, ziyalılıq Zərifə xanımı əfsanələşdirmişdir. Alim kimi o, fundamental əsərlər qoyub getmişdir. Onun irsi, elmi nailiyyətləri, pedaqoji təcrübəsi daim tədqiqat obyekti olmuşdur.

Görünür, Zərifə Əliyeva şəxsiyyətinin gücü məhz onun insanların qayğı və iztirablarına, niyyət və arzularına fədakarcasına xidmətində idi. Zərifə xanım yüksək əyarlı əxlaqa malik bir insan idi. O, xəstələri yalnız işdə və klinikada deyil, hər yerdə, zərurət halında hər şəraitdə qəbul edirdi; onlara məsləhətlər verir, əgər şərait tələb edirdisə, təcili surətdə işə qarışırdı; əməliyyat edir, heç kimi köməksiz qoymur, heç kimi ümidsiz qaytarmırdı. Zərifə xanım kənd əhalisi arasında tibbi biliklərin təbliğini də fəal surətdə müdafiə edirdi. "Ailə həkimləri"nin rolunu yüksək qiymətləndirir, ailə həkimliyi institutunun yaradılmasını təkidlə tövsiyə edirdi.

Onun 1983-cü ildə nəşr olunmuş "Həkimlərin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" adlı kitabı yalnız tibb işçilərinin stolüstü kitabı olmadı, onu həm də insan münasibətlərinin, cəmiyyət əxlaqının nizamnaməsi saymaq olar. Zərifə Əliyeva həkimin həyat mövqeyini müəyyənləşdirərkən onun xəstəyə münasibətini əsas götürürdü. O, hesab edirdi ki, həqiqi həkimin xəstənin əzabına laqeyd qalmağa, pasiyentin dərdinə şərik olmamağa haqqı yoxdur. Zərifə Əliyevanın Özbəkistanın "Tibb" nəşriyyatı tərəfindən buraxılan "Şəkərli diabetdə göz xəstəlikləri" kitabı Orta Asiya və Zaqafqaziyada geniş yayılmış bu xəstəliklə mübarizədə böyük rol oynadı. Bu əsər oftalmoloqların stolüstü kitabıdır.

Zərifə xanım hər zaman ön sırada idi. Hələ gənc ikən – elmi-tədqiqat mövzusunu müəyyənləşdirərkən respublika səhiyyəsi üçün böyük əhəmiyyət kəsb edən sahəni seçmişdi. Namizədlik dissertasiyasının mövzusu ictimai nöqteyi-nəzərdən oftalmologiyanın aktual probleminə – traxoma ilə mübarizəyə aid idi. Ümumdünya səhiyyə təşkilatının məlumatına görə, dünyada 400 milyon insan bu xəstəlikdən əzab çəkir, 80 milyon nəfər isə bu xəstəlikdən kor olub. Görmə qabiliyyətinin itirilməsinin çox geniş yayılmış səbəblərindən biri olan traxoma həqiqətən həmin illərdə Azərbaycanda ictimai bəlaya çevrilmişdi. Zərifə xanım dissertasiya üzərində işləyə-işləyə yüzlərlə, minlərlə xəstənin sağlamlığını özünə qaytardı. Uşaq evlərindəki çoxlu yetim uşağı müalicə etdi. Bundan

əlavə, Zərifə xanım qlaukoma və zəif görmənin qarşısını almaq məqsədi ilə tədbirlər keçirmək üçün dəfələrlə respublikanın regionlarına getmişdi. Qlaukomaya meyilli xəstələri aşkar etmək üçün o, uzun illər Əli Bayramlı (indiki Şirvan) şəhərinin sənaye müəssisələrində ciddi diaqnostik iş aparmışdı. Bu xəstəliyə meyilli olanları Zərifə xanım tez dispanser uçotuna götürüb stasionar müayinə və müalicəyə cəlb edirdi. Bundan başqa, o bu şəhərin məktəblərində yaxını görən uşaqları müəyyənləşdirmək üçün böyük iş apardı.

Zərifə xanım sevdiyi təbabətə inamla və ədalətlə xidmət edirdi. Bu xidmət çətin, lakin fərəhli idi. Seçdiyi elm sahəsindəki nailiyyətləri Zərifə xanımı ruhlandırırdı, kiçik uğursuzluqlar isə onu mütəəssir etmirdi, təslim olmur, problemi daha da inadla öyrənirdi. Öz təbiətinin misilsiz xüsusiyyətləri sayəsində o, böyük tədqiqat potensialına yiyələnmişdi və buna görə də nəzəri problemlər üzərində işləməyə həvəslə başlayır, bununla belə, nəzəri nəticələri təcrübəyə tətbiq etməyə, tibbi biliklərin praktikada işlədilməsinə çoxlu vaxt və əmək sərf edirdi. Onda yüksək peşəkarlıq və biliklərin vüsəti rəftar, insanpərvərlik və xeyirxahlıq mədəniyyəti ilə üzvi şəkildə birləşmişdi. Bütün bu keyfiyyətlər Zərifə Əliyevanı peşələrin ən humanisti olan həkimlik peşəsinə fədakarcasına xidmətin simvolu kimi qəbul etməyə əsas verir. Bütün çətinliklərə baxmayaraq, həkimlik onun üçün sadəcə iş deyil, həm də fasiləsiz ilham mənbəyi idi. O, təkcə öz varlığıyla belə həmkarları və pasiyentləri arasında xüsusi inam və xeyirxahlıq atmosferi yaradırdı.

Bununla belə, heç vaxt seçilməyə çalışmırdı, özünü camaata göstərmək üçün işləmirdi. Ordinatordan başlayaraq tanınmış həkimə, alim-akademikə qədər uzanan bu çox çətin və şərəfli yolda ciddiyyətini, səmimiyyətini və təvazökarlığını qoruyub saxladı.

Zərifə Əliyeva müasir dünyada həkim etikasının məsələləri və prinsipləri mövzulu "Yüksək əqidə" adlı əsərində məxsusi olaraq özünün insan kredosu ilə bütövlük təşkil edən sənətinin əsl mahiyyətini belə açır: "Vicdan bizim əsas hakimimizdir. Çətin dəqiqələrdə də, xoşbəxt saatlarda da onunla baş-başa qalanda o soruşur: Ağ xalat geyməyə haqqın varmı? Sənin əllərin xəstəlikdən əziyyət çəkənə yalnız biliyini deyil, həm də qəlbinin həyəcanını, ürəyinin yanğısını çatdıra bildimi? Düzünü desək, vicdanın şəxsi mühakiməsindən şərəflə keçmək böyük xoşbəxtlikdir. Yaxşı həkim həmişə xəstə ilə birlikdə həyəcan keçirir, pasiyentin ağrısı elə həkimin şəxsi ağrısıdır. Əgər sağlamlığını itirən şəxs yenidən ona malik olursa, demək, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır".

***

Zərifə Əliyevanın zəngin intellektual, mənəvi potensialı imkan verir güman edək ki, onun ictimai və peşə fəaliyyəti professional tibb sahəsi ilə bağlı olmasaydı, dövlət və mədəniyyət sahələrində də daha böyük səmərə verə bilərdi. Lakin taleyin gərdişi ilə o, elə bir insana rast gəldi ki, onun alnına millətin lideri olmaq missiyası, qüdrətli dövlət təşkilatçısı, cəmiyyəti dəyişdirən islahatçı olmaq missiyası yazılmışdı. Zərifə xanım bu adamın sevilən və sevən həyat yoldaşı olaraq, onun görəcəyi işlərin miqyasını dərk edərək onun arxadaşı olmağı özünə borc bildi. Buna görə Zərifə xanımın qeyri-adi keyfiyyətləri, özünü yaradıcı şəxsiyyət kimi reallaşdıra bilməsi elmi fəaliyyətlə və ailə çərçivəsi ilə məhdud qaldı.

Biz indi milli-mənəvi dəyərlərimizin qorunması haqqında çox danışırıq, modeli dünya təcrübəsində axtarırıq, tariximizi, adət-ənənələrimizi təhlil edirik, ailənin özülü haqqında düşünürük… Halbuki bizim müasir həyata, Heydər və Zərifə Əliyevlər ailəsinə, onların qarşılıqlı münasibətinə, övladlarına və yaxınlarına, onların insanlara etdikləri xidmətə və vətənə məhəbbətlərinə baxdıqda dərk edirsən: məhz belə insanlar, belə ailələr bizim üçün parlaq nümunə, layiqli örnək ola bilər.

Ailə – müqəddəsdir. Ailə – əsasdır. Ailə – cəmiyyətin özülüdür. Ailənin ən etibarlı dayağı – ocağın qoruyucusu isə Zərifə xanım kimi həyat yoldaşı, Ana və məhəbbət simvoludur. O, Heydər Əliyevin təkcə həyat yoldaşı yox, həm də silahdaşı idi. Qeyd edək ki, Zərifə xanım bir gəlin kimi Əliyevlər ailəsinin kandarına ayaq basanda artıq ən qiymətli insani keyfiyyətlərə yiyələnmişdi. Təmkinlilik, ziyalılıq, ailəyə sədaqət, milli qürur, ərinə sonsuz məhəbbət, mətinlik və vətən sevgisi onun qəlb xəzinəsinin ən qiymətli inciləri idi.

Bu ailə böyük məhəbbət bünövrəsi üstündə qurulmuşdu. Etiraf etmək lazımdır ki, Heydər Əliyev kimi böyük şəxsiyyətin məhəbbətinə layiq olmaq təkcə böyük xoşbəxtlik yox, həm də böyük məsuliyyət idi. Ancaq seçilmiş insan belə məhəbbətə layiq ola bilərdi! Onların məhəbbəti müqəddəs bir ailənin bünövrəsini qoydu. Ona görə müqəddəs ki, millət üçün iftixar mənbəyi və nümunə olmuşdur.

Zərifə xanım heç vaxt Heydər Əliyev şəxsiyyətinin arxasında daldalanmamışdı. Əksinə, xarakterinin gücü, səyi, zəhmətli əməyi, ağlı, iradəsi və xeyirxahlığı sayəsində özünə canlı abidə ucaltmışdı. O, hələ 1969-cu ildə respublika rəhbərinin həyat yoldaşı, Azərbaycanın birinci xanımı olmuşdu, sonrakı tarix sübut etdi ki, onun bu şərəfə layiq olmaq haqqı vardır. Təəssüflər olsun ki, həyat yoldaşının və oğlunun Prezident seçildiyi o xoşbəxt günləri görmək Zərifə xanıma qismət olmadı. Yəqin ki, bir Prezidentin həyat yoldaşı və digərinin anası olduğu xəbərini alanda onun ruhu şad olmuşdur.

Zərifə xanımın həyatında ən xoşbəxt, yaddaqalan və şad gün onun yeganə oğlunun toy günü idi. Həmin gün iki nəcib ailə doğmalaşdı: Heydər Əliyevlə Zərifə xanımın ailəsi və Arif Paşayevlə Aida İmanquliyevanın

ailəsi; məşhur yazıçı Mir Cəlal Paşayevin nəvəsi Mehriban xanım Heydər Əliyevin gəlini və İlham Əliyevin həyat yoldaşı oldu.

Oğlunun ailə xoşbəxtliyi həmişə Zərifə xanımı ruhlandırırdı. Qayınana və gəlin arasındakı qarşılıqlı münasibət xüsusi mehribanlığı, həssaslığı və səmimiliyi ilə seçilirdi. Ailə həyatına yenicə qədəm qoyan cavan gəlin ocağın müdrik qoruyucusundan öyrəndi, demək olar, böyük məktəb keçdi. Mehriban xanım gələcək qayınanasının rəhbərliyi altında müvəffəqiyyətlə həkim-oftalmoloq işləyib. Lakin tale onu başqa vəzifə üçün hazırladı…

Mehriban xanım Əliyeva Azərbaycan tarixində böyük rol oynamış iki nüfuzlu ailəni doğmalaşdırdı və böyük soyadın şərəfli, layiqli davamçısı oldu. O, məşhur ailənin evinə gəlin gəldi. Gələcək dövlət başçısının həyat yolunda sadiq silahdaşı oldu. Əliyevlərin irsini layiqincə davam etdirəcək üç insan yetişdirdi. Əslində, Mehriban xanım da həkimlik peşəsini davam etdirə, diaqnoz qoya, xəstələri müalicə edə, onlara gözlərinin nurunu qaytara, dünyanın sonsuz gözəlliklərini görmək sevincini bəxş edə bilərdi. İnsanlara işıq bəxş eləmək – necə ki, bunu Zərifə Əziz qızı Əliyeva eləmişdi…

Lakin Mehriban Paşayeva Mehriban Əliyeva olaraq elə bir ailəyə daxil oldu ki, dövlət qayğıları güclü bir cərəyan kimi bu ailənin içindən keçirdi; ictimai həyatın, milli arzuların, həyəcanların, ümidlərin… nəbzi bu ailədə atırdı. Həyatın bu yeni ritmi, belə demək mümkünsə, soyadının statusu onu ictimai həyatda daha fəal iştiraka təhrik etdi, şəxsi potensialının açılmamış enerjisini oyatdı.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın keçən əsrin sonundakı ictimai fəaliyyəti gözümüzün qabağına gəlir. O, ümummilli liderimiz Heydər Əliyevin əbədiyaşar ideyalarının həyata keçirilməsində fədakar fəaliyyət göstərir, Prezident İlham Əliyevin siyasətinin uğurla gerçəkləşməsində fəal rol oynayır. Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri, ISESCO-nun xoşməramlı səfiri, “Azərbaycan mədəniyyətinin dostları” fondunun rəhbəri… Bunlar Mehriban xanımın fəaliyyətinin yalnız bir qismidir. Ancaq ən əsas məqam odur ki, Mehriban xanım Əliyevlər ailəsində Zərifə xanımın missiyasını layiqincə, şərəflə davam etdirir.

Mərhəmət – qadın ürəyinin böyüklüyünü nümayiş etdirən ən uca hissdir. Mehriban xanım öz ürəyinin hərarətini və məhəbbətini yalnız Azərbaycanın böyüməkdə olan nəslinə deyil, dünyanın bütün uşaqlarına bağışlayır. Onun bütün fəaliyyəti Prezident İlham Əliyevə sədaqətə və ümummilli lider Heydər Əliyevə ehtirama söykənir.

***

İlham Əliyevin 1995-ci ilin oktyabrında yerli mətbuata verdiyi müsahibədə söhbət oğul məhəbbətindən, heç kimin etinasız qala bilmədiyi ana itkisindən gedir. Həmin müsahibədən bir parça:

“- Siz Zərifə xanımı necə xatırlayırsınız?

– Ən əziz insan kimi. Onun vəfatından sonra mənim həyatım, bütün ailəmizin həyatı dəyişildi. Yəni indi mən o vaxtlardakı kimi gülə bilmirəm, baxmayaraq ki, onun həyatdan getməsindən on ildən çox vaxt ötür. Mənim həyatımda xoşbəxt hadisə olanda düşünürəm: o da bunun üçün sevinərdi. O vəfat edəndə mənim böyük qızımın bir yaşı vardı. Yəni mənim qızlarım öz nənələrini görməyib, bu, onların tərbiyəsində böyük itkidir…”

***

…1995-ci ilin 28 apreli.

Zərifə xanımın ad günü, xatirə günüdür.

Mərasimdə Heydər Əliyev çıxış etdi. Artıq on ildir ki, sədaqətli həyat yoldaşı və silahdaşı – Zərifə xanım həyatda yoxdur.

Və necə on il!

Taleyüklü, faciəli, şücaətli on il… Böyük bir dövlət dağılanda və milyonlarla insanın taleyi onun qalıqları, tör-töküntüləri altında qalanda Heydər Əliyev bu tarixi fəlakətin tam ortasında idi. Dağılan dövləti yaşatmaq və birləşdirmək, ölkədə xaosdan qurtuluşa keçidi təmin etmək, saysız sui-qəsdlərdən, çevriliş cəhdlərindən özünü və respublikanı qorumaq, islahatları həyata keçirmək, ordu formalaşdırmaq, vətəndaşın sosial rifahını yüksəltmək… Bunlar hamısı Heydər Əliyevin taleyindən və ən əsası, əvəzedilməz insanın – Zərifə xanımın itkisinin dinclik vermədən ağrıtdığı ürəyindən keçmişdi.

Heydər Əliyevin həmin aprel günündəki sözləri onun şəxsi və ümumxalq xatirəsinin ən həssas tellərinə toxunan inam, etiqad kimi təsirli səslənirdi:

“Bilirsiniz ki, mənim həyatım gənclik illərimdən dövlət xidməti ilə bağlı olub. Mən bütün həyatımı buna həsr etmişəm və indi də bu sahə ilə məşğul oluram. Hesab edirəm ki, mənim müvəffəqiyyətli xidmətimdə ailəm böyük rol oynamışdır. Mən ona görə xoşbəxt idim ki, mənim Zərifə xanım kimi həyat yoldaşım vardı və o, mənim ailəmdə çox gözəl mənəvi mühit yaratmışdı. Mən həyatımın bütün dövrlərində işlə məşğul olmuşam, ailə

məsələlərinə vaxt ayıra bilməmişəm. Bu, Zərifə xanımın öhdəsinə düşüb və o, bu vəzifəni şərəflə, inamla və qeyri-adi məharətlə yerinə yetirib. Mənim ailəmdə onun rolu əvəzolunmazdır – mənim ailəm bu günə onun tərbiyəsi nəticəsində gəlmişdir. Baxmayaraq ki, on il keçib, mən onu unutmuram və heç vaxt unutmayacağam. Mənim uşaqlarım da öz ürəklərində onun əbədi xatirəsini və məhəbbətini saxlayırlar. Bu gün bizim üçün müqəddəs gündür. Bu gün ona görə xoşbəxt gündür ki, dünyaya məni xoşbəxt edən, mənə gözəl övladlar bəxş edən Zərifə xanım kimi böyük şəxsiyyət gəlmişdir. Eyni zamanda, bu gün kədərli gündür. Aradan on il keçsə də, mən bu kədərdən uzaqlaşa bilmirəm."

"Zərifə" adı kövrək, zərif deməkdir. Və o özünün kövrək çiyinlərində böyük məsuliyyət və fədakar məhəbbət yükünü, millətin lideri, respublikanın rəhbəri, adı böyük dövlət rəhbərləri sırasına daxil olan şəxsiyyət ilə yanaşı olmaq, çiyin-çiyinə getmək, onun dayağı olmaq, qayğısına qalmaq və ağır günlərdə dərdinə şərik olmaq yükünü daşıdı. Uşaqların əsas qayğısını və tərbiyəsini öz üzərinə götürmək və onları vətənin layiqli və şanlı vətəndaşları kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirmək…

Zərifə xanımın həyatı indi də onun övladlarının və nəvələrinin həyatında davam edir. "Elegiya" albomunda onun obrazını təcəssüm etdirən iki heykəl var – mərmər və tunc heykəl. Onun digər böyük abidəsi – mənəvi abidəsi insanların ürəklərindədir.

Zərifə xanımın məhəbbətinin işığı daim onun doğmalarının və yaxınlarının, həmkarlarının, şagirdlərinin yolunu işıqlandırır…

***

Hər halda bizim həyatımız qəribə qurulub… Göz açıb-yumunca, o, artıq sona yaxınlaşır… Güzəştsizdir, amansızdır… Yer kürəsinin yaşı ilə müqayisədə o, cəmi qısa bir işartıdır. Kim isə parlaq bərq vurur, kim isə piltə kimi tutqun, yavaş-yavaş yanır. Burada iş qətiyyən illərin sayında, qocalıqda deyil, daha mühümü odur ki, həyat izsiz keçməsin. Gələcək nəsillər üçün iz qoymamışsansa, ürəyinin bir hissəsini onlarla bölməmisənsə, demək, qətiyyən yanmamısan. Boşluq və faydasızlıq… Bir xatirə belə yoxdur. Öz adını tarixin səhifələrində əbədiləşdirən şəxsiyyətlərin vəziyyəti isə başqa cürdür. Zərifə xanım belə şəxsiyyətlərdən biri idi, o, ömrü boyu fədakarlıqla yanmışdır. Zərifə xanım öz işıqlı xarakteri ilə taleyin onunla eyni yolda addımlamağı qismət etdiyi adamların da, öz ömür yolunda onunla bircə dəfə qarşılaşanların da qəlbində parlaq bir mələk kimi silinməz iz qoymuşdur.

Zərifə xanım tariximizin əfsanəvi şəxsiyyətləri arasında layiqli yer tutaraq bu şərəfi və şöhrəti qazanmışdı. Buna görə də onun haqqında əfsanə burada başa çatmır. Bu əfsanə yeni, gur akkordlarla davam edir və tarixə qovuşur. Buna görə də Zərifə xanım barədə "son söz"ü yoxdur. Onun haqqında xatirələr qurtarmırsa, Zərifə xanımı şəxsən tanıyan müasirləri keçmiş günlərin xatirələrini danışmağa başlayırlarsa, "son söz" yazmaq olarmı?! Xatirələr öz xeyirxahlığı ilə ürəkləri isitmək üçün doğulan bu böyük şəxsiyyətə məhəbbət və hörmətlə doludur.

2010-cu ildə Moskvada "Molodaya Qvardiya" mətbəəsində "Görkəmli adamların həyatı" seriyasında mənim müəllifliyimlə nəşr olunan "Zərifə Əliyeva" kitabı bu günlərdə doğma dilimizdə Azərbaycan oxucularına təqdim olunacaq. Zərifə xanımın əbədiyaşar xatirəsinə ithaf olunan və onun ömür yolundan bəhs edən nəşr arxiv materiallarına, bu görkəmli insanı yaxından tanıyan şəxslərin xatirələrinə əsasən yazılıb və qəhrəmanımızın obrazını daha yaxşı təsvir etməyə kömək edən fotoşəkillərlə zənginləşdirilib. İnanırıq ki, kitab oxucular tərəfindən rəğbətlə qarşılanacaq.

Yox, Zərifə xanım tarix yaratmayıb. Onun rolu bu tarixi yaradan böyük insanın ən böyük məhəbbəti olmaqdan ibarətdir. Filosoflardan biri deyib: "Hər böyük sərkərdənin arxasında bir qadın var". Zərifə xanım məhz belə qadınlardandır – böyük insanlarla yanaşı olduqda, o insanların ulduzlarının daha parlaq bərq vurmasına səbəb olan qadınlardandır. Bu dünyaya məsum, gözəl qız simasında gələn Zərifə xanım mənsub olduğu əsl azərbaycanlı ailəsinin bütün mənəvi dəyərlərini özündə cəmləşdirmişdi. Və bir qadın, bir ana, bir həkim, bir alim, bir ictimai xadim və birinci xanım olaraq o, əfsanəvi taleyə malik olmuş insanların ümumi axınına nə qədər də təbii bir şəkildə qoşulmuşdu!

Bəli, o, az yaşadı. Lakin insan həyatının dəyəri heç də illərin sayı ilə ölçülmür; onun işi ilə, yaradıcılığı ilə, insanlara və cəmiyyətə verdiyi xeyirlə, mənəvi qüvvə ilə ölçülür. Zərifə xanımın həyatının hər günü xalqına səmimi və coşqun xidmətə həsr edilmişdir. Yaşadığı xoşbəxt günlər də, doğmaları, xalqı və vətəniylə bağlı hadisələr də onun nəsillərin əbədi yaddaşında yaşayan xatirəsini və ruhunu hər zaman şad edəcək.

Təəssüf ki, Zərifə xanım bu günləri görə bilmədi. Əfsus, həyat yoldaşının Azərbaycana müstəqil dövlətçilik bəxş etdiyinin şahidi olmadı. Əgər o, İlham Əliyevin Prezident kürsüsündə xalq qarşısında and içməyini görsəydi, ana ürəyi iftixar hissi ilə, xoşbəxtliklə dolub daşardı! Əgər o, oğlunun dövlət başçısı olaraq yerinə yetirdiyi layiqli işləri, respublikanın yüksəlişini, Bakının gündən-günə gözəlləşdiyini görsəydi… Əgər o, Heydər Əliyevin və Əziz Əliyevin müqəddəs vəsiyyətinin – bütün qüvvəni, ürəyini, canını vətənə vermək vəsiyyətinin oğlu tərəfindən layiqincə davam etdirildiyini, müvəffəqiyyətlə həyata keçirildiyini gözüylə görsəydi… Ancaq inanırıq ki, Zərifə xanımın ruhu Azərbaycanın şərəfi, ləyaqəti və müstəqilliyi uğrunda mübarizə aparan doğmalarını bu çətin və şərəfli mübarizədə qorudu, himayə elədi.

***

Hər dəfə Heydər Əliyevin – Müstəqil Azərbaycanın şanlı simvolunun həyat və fəaliyyətinə həsr olunan filmlərə baxdıqda qəlbimizdə həzin hisslər baş qaldırır. Ümummilli liderin öz həyat yoldaşına bəslədiyi müqəddəs məhəbbət ürəyimizi riqqətə gətirir. Zərifə Əliyeva ilə vidalaşma səhnəsini – Heydər Əliyevin öz əbədi məhəbbəti ilə ayrılığına acı göz yaşı ilə ağladığı səhnəni nəzərdə tuturam… Zərifə xanım gül dənizinin içində, sanki həyat yoldaşının, öz əbədi məhəbbətinin göz yaşlarını görməmək üçün gözlərini açmaq istəmir…

Aman Allah, itkiylə barışmaq istəməyən kəsin yanıb-qovrulan ürəyini necə sakitləşdirmək olar?.. Heç vaxt, heç bir dərdin, bədbəxtliyin qarşısında baş əyməyən, mərdlik və igidliyin təcəssümü olan bu güclü insan taleyin o ağır zərbəsinə dözə bilməyərək ömründə ilk dəfə acı göz yaşları axıtdı.

Lakin əbədi həyat və əbədi məhəbbət haqqında əfsanə davam edir. Tanrının cahanşümul işlər görmək üçün yaratdığı böyük insan tezliklə gərgin mübarizəyə girişməli idi. Zərifə xanım onu bu mübarizədə tək qoymamışdı!..

Onun üçün İlham kimi oğul böyütmüşdü!..

Bilirdi ki, oğlu atasının şərəfini hər şeydən yüksək tutan layiqli övlad kimi böyüyüb!..

Ayrılıqlar da, qovuşmalar da taleyin qismətidir… Məhəbbətlə dolu iki ürək on səkkiz ildən sonra əbədi qovuşdu. Bu gün Fəxri xiyabanda – bütün azərbaycanlıların and yeri olan bu müqəddəs guşədə əbədiyyət dastanının iki qəhrəmanın məzarları üstündə, sanki keçmiş xoşbəxt günlərdə olduğu kimi, bir-birini sözsüz başa düşən iki qranit abidə ucalır…

Buraya onlarla, yüzlərlə, bəzən minlərlə azərbaycanlı əllərində gül dəstələriylə bu məzarların önündə baş əyib, xeyir-dua almaq üçün gəlir…

İki qəlbin əbədi məhəbbəti ilə möhkəmlənmiş uzun və xoşbəxt bir həyata xeyir-dua almaq üçün…

Azərbaycan.-2012.-15 aprel.-№ 81.-S.4.

## Şərəfli ömür yolu

**Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub və 1947-ci ildə həmin institutu bitirib. Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçib.**

Zərifə Əliyevanın elmi tədqiqatlara olan sonsuz marağı onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmış və o, orada həkim-ordinator kimi işə başlamışdır. 1950-ci ildə aspiranturaya daxil olmuş, aspiranturanı bitirəndən sonra respublika Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda elmi işçi olmuşdur.

Həmin illərdə Azərbaycanı traxoma göz xəstəliyi bürümüşdü. O zaman xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi və onunla mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir. Konkret müalicə təcrübəsindən başqa o, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında söhbətlər aparırdı.

Beləliklə, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirdi. O, tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, bir az da dəqiq desək, traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, həmin dövr üçün yeni olan antibiotikdən-sintomisindən istifadə olunmasına həsr etdi. Çünki sintomisin geniş antibakterial spektrlərlə yanaşı, antixlamedik fəallığa malik idi. Bu tədqiqatların nəticələri Z. Ə. Əliyevanın 1960-cı ildə uğurla müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etdi. Gənc alim Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi təyin olundu.

Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işləri yekunlaşdırdıqdan sonra Zərifə xanım oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqatlar aparmağa başladı. O, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı bir sıra tədqiqat işləri apardı. Həmin tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin mətbuatda dərc olunması klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin genişlənməsinə kömək etdi. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona “oftalmologiya” ixtisası üzrə böyük elmi işçi adı vermişdir.

1967-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur. Yeri gəlmişkən, bu institut ömrünün son illərində həmin kollektivə rəhbərlik etmiş mərhum professor Əziz Məmmədkərim oğlu Əliyevin – Zərifə xanımın atasının adını daşıyırdı. Həmin dövrdə Zərifə Əziz qızı həkimlik fəaliyyəti ilə məşğul olur: bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verir, üstəlik onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edir. Bununla yanaşı, o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə də pedaqoji iş aparır.

Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə çox ciddi məşğul olmasına baxmayaraq, Z. Ə. Əliyeva elmi tədqiqat işlərinin davam etdirilməsinə böyük əhəmiyyət verir. Həmin dövrdə o, oftalmologiyanın bir sıra aktual məsələlərinə diqqət yetirir. Bu məsələlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin demək olar ki, elmi şəkildə tədqiq olunmaması ilə əlaqədar idi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Qeyd etmək lazımdır ki, bir sıra ciddi elmi məsələlərlə yanaşı, Zərifə xanım bütün ömrü boyu peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemlərinə xüsusi maraq göstərmişdir. Eyni zamanda, o, bir sıra məsələlərə, o cümlədən yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanına təsir edən amillərə əsas diqqət yetirmişdir.

Zərifə xanım bu problem üzərində iş apararkən çox vaxt bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Bununla yanaşı, Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparmışdır. Geniş miqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. O, “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – H. Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Dissertasiya

işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Z. Ə. Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilir. 1983-cü ildə isə həmin kafedranın müdiri olur. Elə ilk gündən Z. Ə. Əliyeva ətrafına istedadlı gənc həmkarlarını toplayaraq, elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bildi. Amma kafedranın mövcud bazası elmi tədqiqatların müasir tələblərinə cavab vermirdi. Təşəbbüs göstərmək lazım gəlirdi və Zərifə xanım bu problemin həlli yolunda bir sıra konkret addımlar atdı. 1977-ci ildə professor Zərifə Əliyevanın təklifi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Belə bir tədbir Bakıda ilk dəfə keçirilirdi və təbii ki, böyük təşkilatçılıq bacarığı və zəngin təcrübə tələb edirdi. Plenuma hazırlığın və onun keçirilməsinin bütün ağırlığı Zərifə xanımın üzərinə düşdü. Bu plenumun keçirilməsi həm Azərbaycanda, həm də keçmiş İttifaqın ən yaxşı akademik müəssisələrində oftalmologiya xidmətinin inkişafında, habelə elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynadı.

Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaradılması barədə professor Z. Ə. Əliyevanın irəli sürdüyü təşəbbüsü bəyəndi. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda Zərifə xanımın təşəbbüsü və təşkilatçılığı ilə yaradılan həmin laboratoriyada az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparıldı. Elmi araşdırmalar nəticəsində Z. Ə. Əliyeva bir neçə monoqrafiya, o cümlədən “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” monoqrafiyalarını çap etdirdi. Bu əsərlər dünyanın elmi ictimaiyyətinin etimadını qazandı.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M. İ. Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın idi.

1983-cü ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu böyük alimin elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin elmi işlərin tədqiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, məsələn, “Herpetik göz xəstəliyi”, “Ağır virus konyuktivləri” və s. məhz bu məsələlərə həsr olunmuşdur.

Həmin dövrdə Zərifə xanım qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş bir sıra maraqlı tədqiqatlar aparmışdır. Gərgin və gərəkli tədqiqatlar nəticəsində o, bir sıra elmi məqalələr və iki monoqrafiya – “Gözün hidrodinamik sisteminin anatomik-fizioloji xarakteristikası” və “Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi” monoqrafiyalarını çap etdirmişdir.

Zərifə Əliyeva gözün zədələnməsinin profilaktikası və müalicəsi imkanlarını da öyrənmişdir. Bir sıra elmi işlərində o, görmə orqanı zədələndikdə mövcud olan cərrahiyyə əməliyyatları üsullarını araşdırmış, həmin üsulların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr işləyib hazırlanmışdır. Bu tövsiyələr cərrahiyyə əməliyyatına məruz qalan zədələnmiş görmə orqanının müalicəsini xeyli yüngülləşdirmişdir.

Alimin bir sıra elmi işləri görmə orqanında bədxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur. Z. Ə. Əliyevanın daktriologiyadan bəhs edən “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi” monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların böyük marağına səbəb olmuşdur.

Zərifə xanım Əliyeva fundamental “Terapevtik oftalmologiya” kitabının müəlliflərindən biridir. Bu kitab indi də hər bir oftalmoloq üçün stolüstü kitab olaraq qalır.

Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını (gözün əlvan təbəqəsində dəyişikliyi, iridodiaqnostikanı) ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, “İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərin müəlliflərindən biridir. Bu kitab bu gün həkimlərin iş təcrübəsində əvəzolunmaz elmi vəsaitdir.

Alimin zəngin pedaqoji, elmi və əməli təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında (professor N. B. Şuplina və L. F. Moşetova ilə birlikdə) öz əksini tapmışdır. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün böyük əhəmiyyət kəsb edir.

Z. Ə. Əliyevanı həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, “Yüksək etimad ” kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. Alim səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir.

Onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və inamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir.

Akademik Z. Ə. Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Bir sıra orden və medallara layiq görülmüş, Azərbaycanın əməkdar elm xadimi fəxri adını almışdır.

Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də Moskva şəhərində dünyasını dəyişmişdir.

**Xalq qəzeti.-**2011.-28 aprel.-№ 90.-S.3.

## Dəyərli alim, qayğıkeş ana, sədaqətli həyat yoldaşı

**Afət SADIQOVA,**
filologiya elmləri namizədi

**Xeyirxahlıq, nəciblik və saflıq yaranışdan insanlığın ən ali zinəti sayılaraq onun bu fani dünyada əbədiyaşarlığını, daim mənəvi ucalıqda dayanmasını təmin edir. Konkret həyat amalına malik yüksək mənəviyyat sahibləri şərəfli və mənalı ömür səhifələri ilə başqalarına örnək olur, dövrünün problemlərinə əsl ziyalı yanğısı, vətəndaş təəssübkeşliyi ilə yanaşır, xalqının işıqlı gələcəyinə xidmət edən xoşməramlı əməllərin müəllifinə çevrilirlər. Bu mənada görkəmli oftalmoloq-alim, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyeva da yüksək daxili mədəniyyəti, incə qəlbi, elmə sədaqəti, insanlara münasibətdə məsuliyyəti ilə qədirbilən xalqımızın yaddaşında həmişə yaşayır, daim böyük ehtiramla anılır.**

Geniş dünyagörüşü, tədqiqatçılıq bacarığı, yüksək ziyalılığı ilə hamının rəğbətini qazanmış fədakar alimin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, elm adamı, habelə tibb işçisi üçün mənəviyyat, kamillik və müdriklik məktəbidir. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Xalqımıza məxsus xeyirxahlıq, mərhəmətlilik kimi nəcib keyfiyyətləri, çeşmə kimi saf mənəvi dəyərləri, eləcə də müasirliyi və əməksevərliyi nurlu şəxsiyyətində cəmləyən bu nəcib qadının, qayğıkeş ananın, dəyərli alimin, təmənnasız ictimai xadimin canlı və parlaq çöhrəsi bütöv bir dövrün, zamanın obrazı kimi qarşımızda durur.

Hər bir şəxsiyyətin formalaşmasında, şübhəsiz, onun doğulub boya-başa çatdığı mühit və ailə dəyərləri öz sözünü deyir. Zərifə xanım Əliyevanın 1923-cü il aprel ayının 28-də Naxçıvan Muxtar Respublikasında görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açması da onun gələcək həyat yoluna müsbət təsirini göstərmişdir. Yüksək vətəndaşlıq ruhunun daşıyıcısı olan atası Əziz Əliyev ictimai borcunu dərindən dərk edərək daim öz xalqına ləyaqətlə xidmət göstərmiş, övladlarını da bu ruhda böyüdüb ərsəyə çatdırmışdır. Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Qara Qarayev, Mirəsədulla Mirqasımov, Bülbül kimi dühalar məhz bu ailənin yaxınları olmuşlar. Mərhum akademik M. Topçubaşov isə Əziz Əliyevi sadəcə tibb xadimi deyil, “cəmiyyəti müalicə edən həkim” adlandırmışdır. O, görkəmli dövlət xadimi kimi xalqının və Azərbaycan dövlətinin inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Geniş ensiklopedik biliyə malik Əziz Əliyev övladı Zərifə xanımı da belə yüksək mənəvi-etik dəyərlər ruhunda tərbiyə etmişdir.

Zərifə xanım Əliyevanın uşaqlığının ilk illəri Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində keçmiş, sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Tələbəlik həyatının ilk günlərindən özünəməxsus fitri istedadı, dərin zəkası, iti məntiqi təfəkkürü, təvazökarlığı və sadəliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdir. Tələbəlik illərində Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək kimi müqəddəs arzu baş qaldırmış, o öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdur. Bilik diapazonu geniş və çoxşaxəli olan Zərifə xanım Əliyeva qısa zamanda həm həkimliyin, həm alimliyin, həm də pedaqoqluğun ən yüksək zirvəsinə yüksələ bilmişdir. Peşəsi yolunda qarşısına çıxan bütün çətinlikləri cəsarətlə adlayaraq Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıtmış, bu sahənin dünyaca məşhur simalarından birinə çevrilmişdir.

1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirən Zərifə xanım Əliyeva qarşısına qoyduğu məqsədə yetişmək üçün Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik təkmilləşmə kursu keçmiş, bu Azərbaycan Tibb Universitetində alınan ümumi tibb təhsilinin diplomdan sonrakı davamı olmuşdur. 1949-cu ildə göz xəstəlikləri üzrə təkmilləşmə kursunu müvəffəqiyyətlə başa çatdıran Zərifə xanım Əliyeva vətənə dönmüş, 1950-ci ildə Azərbaycan Respublikası Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda aspiranturaya daxil olmuş, burada elmi işçi vəzifəsinə qəbul edilmişdir.

Zərifə xanım Əliyevanın ilk elmi araşdırmalarının mövzusunu da həyat özü müəyyənləşdirmiş, görkəmli oftalmoloq həmin illərdə Azərbaycanı bürümüş traxoma xəstəliyi ilə bağlı dərin tədqiqatlara başlamışdır. Elmi fəaliyyətinin ilk dövründə traxomanın erkən diaqnostikasını, müalicəsini öyrənmiş, xəstəliyin profilaktikasına dair aktual elmi tədqiqatlar aparmışdır. Azərbaycanın bütün rayonlarını kəndbəkənd gəzərək traxoma ocaqlarını aşkar edən Zərifə xanım Əliyeva özünün tərtib etdiyi mütərəqqi müalicə üsullarını da uğurla həyata keçirmişdir. Traxomanın ləğvi yolunda yorulmaq bilmədən aparılan intensiv elmi axtarışlar, əldə edilən dəyərli nəticələr görkəmli oftalmoloqun həm də namizədlik dissertasiyasının ana xəttinə çevrilmişdir. Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə uğurla müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyanda dolğun və sistemli şəkildə əksini tapmışdır.

Dissertasiya müdafiəsindən sonra müsabiqə yolu ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsinə seçilmiş, 1963-cü ildə isə SSRİ Ali Attestasiya Komissiyası onun oftalmologiya ixtisası üzrə böyük elmi işçi adını təsdiq etmişdir.

Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işləri yekunlaşdırdıqdan sonra Zərifə xanım oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqatlar aparmış, qlaukoma xəstəliyinin öyrənilməsinə gərgin əmək sərf etmişdir. Həmin tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin mətbuatda dərci klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin genişlənməsinə də kömək etmişdir. Həmin dövrdə akademik Zərifə xanım Əliyeva həmçinin görmə üzvünün peşə xəstəlikləri problemi üzrə geniş elmi axtarışlara başlamışdır. Görkəmli akademikin elmi tədqiqatlarının əsas istiqamətlərindən biri də gözün yod və şin sənayesinin zərərli təsirlərindən zədələnməsinin öyrənilməsi olmuşdur. O zaman bəzi sənaye müəssisələrində zəhərli maddələrin görmə orqanına toksik təsirinin öyrənilməsinə bir sıra elmi əsərlər həsr edilsə də, kimya istehsalının gözlərə təsiri az işıqlandırılmışdı. Zərifə xanım bu problem üzərində işləyərkən sənaye müəssisələrini gəzmiş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinələrdən keçirmiş, hətta şin zavodunun sexlərində laboratoriya şəraitində təcrübələr aparmışdır.

Yaradıcılıq uzaqgörənliyi və həyatın nəbzini tutmaq bacarığı Zərifə Əliyevaya dünya praktikasında ilk dəfə olaraq istehsalat şəraitində – Bakı Məişət Kondisionerləri Zavodunun sexlərində elmi-tədqiqat laboratoriyasını yaratmağa imkan vermişdir. Bu laboratoriya elmi axtarışlar aparmaqla yanaşı, görmə orqanı xəstəliklərinin erkən aşkar olunması və müalicəsində böyük rol oynamışdır. Həmin laboratoriyanın topladığı elmi materiallar sonralar görkəmli alimin üç tələbəsinin namizədlik dissertasiyasının mövzusunu təşkil etmişdir. Zərifə xanımın elmi fəaliyyətinin çoxistiqamətliyini onun rəhbərlik etdiyi kafedra və elmi-tədqiqat laboratoriyasında müasir oftalmologiyanın aktual problemləri ilə bağlı aparılan araşdırmalar da sübut edir. Görkəmli alim əldə edilmiş nəticələrlə kifayətlənməyərək tədqiqatlarının mövzusunu daha da dərinləşdirmiş, mütəmadi olaraq tələbələri ilə elmi axtarışların nəticələrinin təhlilini aparmış, onları elmi məqalə, məruzə və metodik tövsiyə formasında nəşr etdirmişdir.

Zərifə xanım Əliyevanın və onun tələbələrinin elmi fəaliyyətlərinin xüsusiyyətlərini səciyyələndirən əsas cəhət onların möhkəm nəzəri hazırlığı üzərində qurulan klinik təcrübə təşkil etmişdir. Dünya şöhrətli alimin çoxşaxəli elmi yaradıcılığı 12 monoqrafiyada, 160-dan çox elmi işdə, bir ixtira və 12 səmərələşdirici təklifdə əksini tapmışdır. Bu tədqiqatlar yalnız göz xəstəliklərinin müxtəlif bölmələrini əhatə edən elmi işlərdən deyil, həm də problemin həllinə xüsusi yanaşmadan ibarətdir. Həmin xüsusiyyət Zərifə xanımın fəal surətdə inkişaf etdirdiyi yaradıcılıq biliyini əks etdirən faktlarda təsdiqini tapmışdır.

Aparılmış fundamental elmi işlərin nəticələri isə dəyərli alimin 1976-cı ildə Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. İnstitutun nüfuzlu alimləri və ixtisaslaşmış şuranın üzvləri işi yüksək dəyərləndirmiş, oftalmologiyanın bu sahəsində ilk tədqiqatlardan biri olduğunu vurğulamış, Zərifə xanım Əliyevaya çoxillik tədqiqatların nəticələrini monoqrafiya, dərs vəsaiti və metodik tövsiyə şəklində çap etdirməyi məsləhət görmüşlər.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M. İ. Averbax adına mükafatına layiq görülmüşdür. O, belə yüksək mükafata layiq görülən ilk qadın olmuşdur.

1970-1985-ci illərdə oftalmologiya sahəsində aparılan birgə yaradıcılıq axtarışlarının əsası da məhz Zərifə xanım Əliyeva tərəfindən qoyulmuşdur. II Moskva Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, professor A. P. Nesterov, Rusiya Diplomdansonrakı Təhsil Akademiyasının Oftalmologiya kafedrasının müdiri professor L. K. Moşetova, Rusiya İridoloqlar Assosiasiyasının vitse-prezidenti, Rusiyanın əməkdar elm xadimi, professor N. B. Şulpina və digər tanınmış alim-oftalmoloqlarla yaradılan elmi əlaqələr də buna canlı sübutdur.

Böyük alimin təşəbbüsü ilə 1977-ci ildə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmiş, bu tədbir alimin həm də təşkilatçılıq qabiliyyətinin üzə çıxmasına imkan yaratmışdır. Bakıda ilk dəfə olaraq Ümumittifaq miqyaslı plenumun təşkili Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etmişdir. Plenumda professor Zərifə xanım Əliyeva Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış laboratoriya yaradılması haqqında təklif irəli sürmüş, iştirakçılar yekdilliklə həmin təklifi müdafiə etmişlər.

Akademik Zərifə xanım Əliyevanın elmi təcrübəsi keçmiş SSRİ-nin digər şəhərlərində də geniş tətbiq edilmişdir. Elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində dolğun əksini tapmışdır.

Görkəmli alim 1983-cü ildə elmi və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan nəticələrin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan EA-nın akademiki seçilmişdir. O, həm də Azərbaycan oftalmoloqları arasında Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk qadın oftalmoloqdur.

Zərifə xanım vaxt azlığına və səhhətinə mənfi təsirinə rəğmən dəvət edildiyi bütün tədbirlərdə iştirakı özünə sadəcə mənəvi borc bilmişdir. İnsani keyfiyyətləri, hər şeyi incəliyi ilə qiymətləndirmək bacarığı, adamlarla dil tapmaq qabiliyyəti ictimai işdə Zərifə xanıma böyük kömək göstərmişdir. Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin, Azərbaycan "Bilik" Cəmiyyətinin, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Hippokratın nəsillərə miras qoyub getdiyi əsərlərindən biri "Gözəl davranış haqqında" adlanır. Həkimlik sənətini insana sevgi əxlaqından ayırmayan Hippokrat demişdir: "İnsana sevgi olan yerdə sənətə də məhəbbət var". Zərifə xanım bütün peşəkar həkimlik fəaliyyəti boyu əsrlərin əxlaqi sınağından çıxmış bu ülvi həqiqətə xidmət göstərmiş, nümunəvi həkim-xəstə münasibətlərini gənclərə yadigar qoyub getmişdir. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Onun bu mövzuya dair baxışları "Yüksək etimad", "Həkimin yüksək vəzifəsi" və "Oftalmologiyanın aktual problemləri" monoqrafiyalarında dolğun əksini tapmışdır. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair elmi mülahizələri onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində diqqəti daha qabarıq cəlb edir.

Görkəmli alim həmişə bu fikirdə olmuşdur ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır, bəzən dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım Əliyeva həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Alim insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərərək "həkim xəstənin ən doğma adamıdır" demişdir.

Zərifə xanım Əliyeva görkəmli alim olmaqdan savayı, hər zaman geniş dünyagörüşünə malik şəxsiyyət kimi tanınmış, ədəbiyyatı, incəsənəti, musiqini dərindən mənimsəmişdir. Həmkarları fortepiano sinfi üzrə musiqi təhsili almış görkəmli alimin ifasında həm klassik, həm də populyar musiqiləri eşitdiklərini bu gün də böyük rəğbətlə xatırlayırlar. Zərifə xanım eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq kimi tanınmışdır və Azərbaycanın Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında oxuduğu mühazirələr bunu bir daha sübut edir. İstər Oftalmoloqlar Cəmiyyətinin qurultaylarında, plenumlarında, Moskva Oftalmoloqlar Cəmiyyətinin plenar iclaslarında etdiyi məruzələr, istərsə də publisistik çıxışlarında Zərifə Əziz qızı özünün yüksək natiqlik istedadını göstərirdi.

Vaxtilə böyük mütəfəkkir Deni Didro yazırdı ki, yaxşı həyat tərzi qəlbin içindən gəlir. Bu mənada Zərifə xanım Əliyevanın parlaq şəxsiyyətinin mühüm etik mənası onun öz yaradıcılığına yüksək intellektual səviyyədə yanaşmasından, fəal mövqe seçə bilməsindən ibarət olmuşdur. Düşüncəsinin kamilliyi isə alimin əxlaqla peşə dünyagörüşünün tənasübündən yaranmışdır. Zərifə xanımın yüksək intellektual mövqeyini şərtləndirən mühüm amil həm də bu nəcib insanın tibbi praktikada daim əxlaqi meyarlara böyük üstünlük verməsi olmuşdur. Akademik sağlamlığı insanın həyat fəaliyyətinin dinamik atributu hesab etmiş, bəşəriyyəti dərindən düşünməyə vadar edən keyfiyyət amili kimi nəzərdən keçirmişdir.

Zərifə xanım, işinin gərginliyinə baxmayaraq, özünün cazibədarlığı, mülayimliyi, heyranlığı ilə həmişə bir qadın olaraq qalırdı. O, həm görkəmli alim, həm də həyat eşqi, xeyirxahlığı, nəvazişi ilə qayğıkeş ana və həyat yoldaşı, ailəsinə dayaq olan əsl insan idi. İşinin çoxluğuna, cəmiyyətdə tutduğu yüksək mövqeyə baxmayaraq, birinci növbədə ailəsinin qayğıları ilə yaşayırdı. Dünyanın ən böyük azərbaycanlısı Heydər Əliyev qazandığı cahanşümul nailiyyətlərdə vəfalı ömür-gün yoldaşı Zərifə xanımın böyük töhfələrinin olduğunu daim vurğulayırdı. Bu iki dahi insanın səmimi hissləri onilliklər boyu davam edən böyük məhəbbət dastanını, sədaqət timsalını tam ehtiva edir. Hər bir kəsə örnək olası bir ailə quran bu şəxsiyyətlər yüksək mənəviyyat, ali mərhəmət, misilsiz insanpərvərlik, dəyərli vətəndaşlıq xüsusiyyətləri ilə bir-birlərini tamamlamışlar.

Zərifə xanımın vəfatı Heydər Əliyev üçün böyük itki olmuşdur. Həyatın keşməkeşli onilliklərini böyük sədaqət və sonsuz məhəbbətlə, ləyaqətlə yaşadıqlarından bu fiziki yoxluğu ümummilli liderimiz həyatın ölçüyəgəlməz sarsıntısı kimi qarşıladı. 15 il öncə – 1995-ci ilin 28 aprelində ulu öndərimiz Heydər Əliyev vəfalı ömür-gün yoldaşı Zərifə xanım Əliyevanı səmimi sevgi, böyük nisgil və sonsuz ehtiramla anaraq qeyd edirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhvali-ruhiyyədədirlər. Onlar bu əhvali-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür… Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm".

Zərifə xanımın həyatını mənalandıran nə varsa – onun elmi, ailəsi, xeyirxahlığı, səmimiyyəti, insanlara doğma münasibəti – hamısı bu nəcib qadının ruhundan, nurundan şölələnmişdir. Yaxından tanıyan həmkarları həmişə böyük rəğbətlə qeyd edirlər ki, görkəmli alim övladlarına çox bağlı, onların tərbiyəsi üçün bütün enerjisini

sərf edən valideyn olmuşdur. Təsadüfi deyildir ki, Əliyevlər ocağının yetirmələri də öz sələflərinin hər mənada şərəfli davamçılarıdırlar. Cənab İlham Əliyev kimi dünya miqyasında tanınan və qəbul olunan bir şəxsiyyətin qazandığı nailiyyətlərdə, şübhəsiz ki, valideynlərinin düzgün tərbiyəsi, övladı müdrikliklə formalaşdırmaq ənənəsi mühüm rol oynamışdır. Ölkəmizin ictimai və mədəni həyatında mühüm yer tutan Sevil xanımın Əliyevlər şəcərəsinin adını şərəflə, ləyaqətlə ucaltması onun nüfuzunu daha da artırmışdır.

Zərifə xanım İlham Əliyevi əziz oğlu kimi sevməklə yanaşı, onun məsuliyyətli, insanpərvər, Azərbaycana qanıyla-ruhuyla bağlı bir insan kimi formalaşmasına xüsusi önəm verirdi. Xatirələrdən də aydın görünür ki, Heydər və Zərifə Əliyevlərin ailəsində övlada böyük sevgi və məhəbbət bəslənilməklə bahəm, eyni zamanda müstəqil düşünmək və sərbəst qərar qəbul etmək, yeniyetmə yaşlarından məsuliyyətə yiyələnmək, ata və ananın cəmiyyətdəki yüksək nüfuzuna deyil, məhz öz qabiliyyətinə güvənmək kimi hisslər aşılanmışdır. Bu tərbiyənin nəticəsi idi ki, bu ocağın yetirməsi Prezident İlham Əliyev indi prinsipiallığı, qətiyyəti sayəsində məmləkətini ən çətin geosiyasi labirintlərdən üzüağ çıxarır, fövqəldövlətlərin təzyiqləri qarşısında ölkəsinin maraqlarından bir addım belə geri çəkilmir və Azərbaycanı dünyanın ən dinamik inkişafda olan dövlətinə çevirir.

Zərifə xanım daim mərhəmət və nəciblik kimi ali keyfiyyətlərə sadiq insan olaraq tanınmışdır. Bu gün qürur doğuran məqam odur ki, bu ocağın dəyərli üzvü – Zərifə xanımın çox sevdiyi gəlini Mehriban xanım Əliyeva da cəmiyyətdə xeyirxahlığın ali ünvanı kimi qəbul olunur. Zərifə xanım necə Heydər Əliyevin qazandığı nailiyyətlərə töhfə vermiş, həyat yoldaşına mənəvi dayaq olmuşdursa, bu gün Mehriban xanım Əliyeva da eyni əzm və fədakarlıqla Prezident İlham Əliyevin çətin və şərəfli fəaliyyətinə nəcib və xeyirxah əməlləri ilə dəstək olur, daha qüdrətli Azərbaycan quruculuğunda ömür-gün yoldaşının ən yaxın məsləkdaşına çevrilir. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanımın ictimai həyatımızda daşıdığı şərəfli missiya, əslində, elə Heydər Əliyevin, Zərifə xanım Əliyevanın və görkəmli alim Aida İmanquliyevanın irsinin məsuliyyətli və məhsuldar davamıdır.

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, fəaliyyətinə nəzər salarkən bu gözəl insanın nəcib və xeyirxah şəxsiyyət olması faktı bir daha təsdiqini tapır. Bəli, göz həkimi olan Zərifə xanım bütün ömrünü insanlara işıq bağışlamağa həsr etmişdir. Bu ömrün mənası zülmət və qaranlıqla mübarizə aparmaqdan ibarət olmuş, işığını itirmiş gözlərə nur vermək istəyi onun parlaq obrazını qeyri-adi bir nəcibliyə qovuşdurmuşdur. İnsanları zülmət pəncəsindən qoparıb nura qovuşduran bu böyük şəxsiyyətin ömür yolu müasir Azərbaycan gəncliyi üçün də əvəzsiz bir örnəkdir. Akademik Zərifə xanım Əliyeva yazıb-yaratdığı dəyərli əsərləri, qoyub getdiyi elmi nailiyyətləri ilə birgə ideal bir həkim, alim və insan kimi xatirələrdə yaşayır və daim yaşayacaqdır.

**Azərbaycan**.-2010.-28 aprel.-№ 90.-S.4.

## Elmin və insanlığın zirvəsi

### Görkəmli elm xadimləri

**Əhliman ƏMİRASLANOV,**
akademik, SSRİ Dövlət mükafatı laureatı
**Elmar QASIMOV,**
tibb elmləri doktoru, professor

**Azərbaycan tibb elmini dünya miqyasında tanıdan, ölkəmizin elm xəzinəsinə sanballı töhfələr verən, beynəlxalq miqyasda böyük nüfuz qazanan, məhsuldar və yorulmaz fəaliyyəti ilə tibb elminin, səhiyyənin dinamik inkişafına qayğısını əsirgəməyən, əbədiyaşar elm xadimlərindən biri də görkəmli oftalmoloq-alim SSRİ Tibb Elmləri Akademiyasının akademik M. İ. Averbax adına mükafatın laureatı, AEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə Əziz qızı Əliyeva olmuşdur.**

Adı Azərbaycan Tibb Universitetinin dünya şöhrətli məzunu kimi tibb tarixi salnaməsinə böyük hərflərlə yazılan akademik Zərifə Əliyeva həm də vətənpərvər ziyalı, sülhsevər ictimai xadim, təvazökar xeyriyyəçi, həssas qəlbli ana, nəcib təbiətli insan kimi uzun illər ulu öndər Heydər Əliyevlə çiyin-çiyinə addımlayaraq ölkəmizin bütün sahələrinin həmahəng inkişafında yaxından iştirak etmiş, əsl vətəndaş kimi yaddaşlara əbədi həkk olunmuşdur.

Zərifə Əliyeva şərəfli və mənalı ömür yaşamışdır. O, elmin çətin yollarında inamla irəliləyərək akademiklik zirvəsinə – tibb elminin ən uca pillələrinə yüksəlmiş, çətin, məsuliyyətli, eyni zamanda, gərəkli, nümunəvi həyat yolu keçmişdir.

…1923-cü il aprel ayının 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, Azərbaycanın milli-mənəvi dəyərlərinin ən gözəl incilərini özündə qoruyub saxlayan alicənab bir ailədə – görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdır. Bir faktı da qeyd edək ki, 1918-ci ildə Əziz Əliyevin ailəsi də ermənilər tərəfindən İrəvandakı dədə-baba yurdlarından didərgin salınmış, ağır məhrumiyyətlərlə üzləşdikdən sonra, nəhayət, Şərur rayonunda məskunlaşmışdı. Zərifə xanımın atası Əziz Əliyevin 1917-1918-ci illərdə Sankt-Peterburqda Hərbi Tibb Akademiyasında aldığı ali təhsili ermənilər tərəfindən törədilən qırğınlara görə yarımçıq qalmışdı və o, akademiyanın birinci kursunu bitirdikdən sonra 1918-1923-cü illərdə 5 il ərzində Naxçıvanda, Cənubi Azərbaycanda (Ərəblər kəndində), Şərurda məcburi köçkün həyatı keçirmiş, lakin ruhdan düşməmiş, bilik və bacarığını səfərbər edərək həkim köməkçisi vəzifəsində çalışmışdır. Ara sakitləşdikdən sonra Naxçıvan Muxtar Respublikasının rəhbərliyi Əziz Əliyevin istedadını nəzərə alaraq, onun Bakıya getməsini, orada tibb təhsilini davam etdirməsini məsləhət görmüşdü. Elə həmin il Əziz Əliyevin ailəsi Bakıya köçmüş və o, təhsilini Bakı Universitetinin tibb fakültəsində davam etdirmişdir. Ona görə də Zərifə Əliyeva Şərur rayonunda anadan olsa da, onun həyatının sonrakı bütün mərhələləri Bakı ilə bağlı olmuşdur.

Zərifə Əliyeva 1942-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra atasının həkimlik sənətini davam etdirmək arzusunda olduğu üçün sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna vermiş və elə həmin il institutun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Onunla bir qrupda, eyni kursda oxuyan məzunların xatirələrində də qeyd edildiyi kimi, Zərifə Əliyeva fitri istedada, dərin zəkaya, geniş dünyagörüşünə, yüksək mədəni səviyyəyə malik təvazökar bir tələbə idi. O, tibbi fənlərlə yanaşı, digər fənləri də öyrənməyə eyni dərəcədə maraq göstərir, hərtərəfli biliyə malik həkim kimi formalaşırdı. Oxuduğu illərdə institutda keçirilən tələbə elmi toplantılarında məruzələrlə çıxışlar edir, alimlərlə maraqlı fikir mübadiləsi apara bilirdi. Müasirləri, həmyaşıdları onu həm də musiqi bilicisi kimi tanıyırdı, çünki Zərifə xanım hələ orta məktəbdə oxuyarkən paralel olaraq musiqi təhsili də almışdı və onun fortepianoda ifa etdiyi əsərlər qəlbləri oxşayırdı.

Görkəmli oftalmoloq-alim məzunu olduğu Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Azərbaycan Tibb Universiteti) bitirdikdən sonra da təhsil ocağı ilə daim sıx əlaqə saxlamışdır. Bu il yaranmasının 80 illik yubileyini qeyd etməyə hazırlaşan Azərbaycan Tibb Universiteti məhz belə məzunları ilə fəxr edir. ATU-nun oftalmologiya kafedrasının əməkdaşları özlərini böyük alimin yetirmələri, onun yaratdığı elmi məktəbin davamçıları hesab edirlər. 1977-ci ildə görkəmli dövlət və elm xadimi Əziz Əliyevin universitetdə keçirilən 80 illik yubileyində Zərifə xanımın çıxışı kollektivin hər bir üzvünün qəlbində xoş xatirələrə çevrilmişdir. ATU-nun professor-müəllim heyəti, çoxminli tələbələri təhsil ocağının dünya şöhrətli məzunu Zərifə Əliyevanın xatirəsini həmişə əziz tutur. Bu təhsil ocağında onun xatirəsinə həsr olunmuş elmi-praktik konfranslar, yubiley gecələri keçirilir. ATU-nun foyesində akademikin həyat və fəaliyyətini əks etdirən zəngin foto-guşə də yaradılmışdır.

Zərifə xanım Əliyeva diplomaqədərki təhsili dövründə bütün varlığı ilə göz həkimliyinə – oftalmologiya elminə bağlanmışdı və həkimliyin bu çətin, eyni zamanda, maraqlı və məsuliyyətli sahəsi onun diqqətini daha çox cəlb edirdi. Ona görə də 1947-ci ildə institutu əla qiymətlərlə bitirdikdən sonra ixtisas seçməkdə çətinlik çəkməmiş, oftalmoloq ixtisasına yiyələnməyi qərara almışdı. Bununla yanaşı, ona aydın idi ki, dar ixtisas üzrə

kamil mütəxəssis olmaq üçün institut təhsili kifayət etmir. Bu məqsədlə institutu bitirdikdən sonra Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktiki vərdişlərə yiyələnmiş, oftalmologiya ixtisası üzrə kamil mütəxəssis kimi təkmilləşmə hazırlığı keçmiş, iki ildən sonra vətənə qayıdaraq, 1949-cu ildə Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Zərifə Əliyeva fəaliyyət göstərdiyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda aspiranturaya daxil olmuş, elmi axtarışları dövründə özünə rahat yollar seçmiş, xalqa həqiqi mənada xeyir verə biləcək ən çətin sahələrdə özünü sınamağa can atmış və buna nail ola bilmişdir.

İkinci dünya müharibəsinin təzəcə başa çatdığı illərdə keçmiş SSRİ-nin bir çox regionlarında olduğu kimi, Azərbaycanda da traxoma xəstəliyinin geniş yayılma təhlükəsi baş qaldırmışdı. Ona qarşı aparılan ara-sıra mübarizə tədbirləri o qədər də effektli təsir göstərmirdi. Xalqın sağlamlığının vacibliyini ön plana çəkən gənc alim ölkəni bürümüş yoluxucu göz xəstəliklərinin qarşısını almaq və həmin xəstəliklərin ləğvinə nail olmaq üçün yollar axtarırdı. Həmin dövrdə Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuş, bunun nəticəsində 80 milyon insan kor olmuşdu. Çünki traxoma xəstəliyinin müalicəsinə zəmin yarada biləcək o qədər də güclü təsirə malik dərman preparatları hələ mövcud deyildi. İkinci dünya müharibəsindən yenicə çıxmış ölkənin iqtisadi-siyasi durumu da qənaətbəxş olmadığından ölkənin ümumi vəziyyətinin nikbin qiymətləndirilməsinə əsas verən stimul belə yox idi. Bu kimi problemlərlə üzləşən gənc tədqiqatçı ruhdan düşməyərək axtarışlarını davam etdirmiş, əsl vətəndaş mövqeyində dayanaraq, get-gedə ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlamış və həyata keçirməyə başlamışdır. Zərifə Əliyevanın başlıca məqsədlərindən biri də Azərbaycanda traxoma xəstəliyinin müalicə və profilaktikasını vaxtında və yetərincə həyata keçirməkdən, bu prosesin elmi istiqamətlərini müəyyənləşdirərək səhiyyə praktikasına tətbiqini reallaşdırmaqdan ibarət idi.

Ötən əsrin 30-40-cı illərində də Zərifə xanımın atası Əziz Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru olduğu dövrdə və ondan sonrakı illərdə xüsusi komissiya təşkil edərək Azərbaycanda tüğyan edən malyariya, traxoma, vərəm və s. kimi xəstəliklərə qarşı mübarizədə əsl fədakarlıq göstərmişdir. Sonralar XX əsrin 40-cı illərinin əvvəllərində Əziz Əliyev başqa vəzifədə olduğuna görə, bu sahə bir qədər zəifləmişdi. Lakin ötən əsrin 50-ci illərində Azərbaycan miqyasında epidemiya qorxusu olan traxoma xəstəliyinin diaqnostikası, müalicəsi və profilaktikası kompleks şəkildə Zərifə Əliyeva tərəfindən yerinə yetirilmişdir. Bu, Əziz Əliyevin başladığı xeyirxah işlərin davamı idi.

Görkəmli alim traxoma ilə əlaqədar ölkədəki real vəziyyəti əyani olaraq müşahidə etmək üçün rayonlara gedərək göz xəstəliklərinin regional lokallığını müəyyənləşdirir, xəstəliyin epidemioloji xüsusiyyətlərini araşdırır, xəstələrə məsləhətlərini verir, onun profilaktika və müalicəsi haqqında maarifləndirici söhbətlər keçirirdi. Z. Əliyeva traxomanın müalicəsində istifadə edilən mövcud kütləvi müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiklərindən hesab edilən sintomisindən istifadə etməklə yeni müalicə üsulu tətbiq etmiş və uğurlu nəticələrə nail olmuşdur. Dəyərli elmi kəşflərdən sayılan bu üsulun kompleks profilaktik tədbirlərlə birlikdə praktik səhiyyədə geniş tətbiqindən sonra traxoma xəstəliyinin müalicəsində əsaslı dönüş yaranmış, xəstəliyin yayılmasının qarşısı alınmış və bu da tədricən həmin xəstəliyin ləğvinə gətirib çıxarmışdır. Beləliklə, Zərifə Əliyevanın fədakarlığı sayəsində yerinə yetirilən tibbi tədbirlər sayəsində minlərlə insanın dünya işığından məhrum olmasının, əmək qabiliyyətini itirmələrinin, çarəsizlikdən kütləvi depressiya vəziyyətinə düşmələrinin qarşısı alınmışdır. Yalnız bundan sonra Zərifə xanım dissertasiya müdafiə etməyə razılıq vermiş və 1959-cu ildə o, sərbəst surətdə yerinə yetirdiyi elmi istiqamətlərin nəticələrinə əsasən "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusu üzrə doktorluq dissertasiyası işinə bərabər tutulan namizədlik dissertasiyası işini başa çatdırmış və müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Zərifə Əliyeva apardığı tədqiqat işlərinin nəticələrinə görə daim elmi ictimaiyyətin diqqət mərkəzində olmuş və o, 1960-1967-ci illərdə Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq oftalmologiya elminin bütün sahələrinin inkişafına yaxından kömək göstərmiş, bu istiqamətin tərəqqisinə dəyərli töhfələr vermişdir. Alimin xidmətləri yüksək qiymətləndirilmiş və SSRİ Ali Attestasiya Komissiyası 1963-cü ildə Moskvaya göndərilmiş təqdimat əsasında ona oftalmologiya ixtisası üzrə böyük elmi işçi adı vermişdir.

Zərifə Əliyeva göz xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasını düzgün təşkil etməklə yanaşı, yeni laboratoriyalar yaradır, insan sağlamlığı amilini daim ön plana çəkirdi. Görkəmli alim yalnız Bakı şəhərində deyil, həmçinin Sumqayıt, Gəncə, Bərdə, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan), Salyan və respublikanın digər şəhər və rayonlarında zərərli iş şəraitlərinin törətdikləri göz xəstəliklərini, eləcə də insan orqanizminin digər xəstəliklərini aşkar edir, həm onların müalicəsinə, iş yerlərində mövcud olan mənfi təsirlərdən qorunmalarına, həm də əmək müəssisələrinin ekologiyasına hərtərəfli diqqət yetirirdi. Müəssisələrdə ekoloji prinsiplərə riayət edilməsi konsepsiyalarının həyata keçirilməsi yollarını göstərirdi. Bununla da, Zərifə xanım peşə amillərinin törətdikləri göz xəstəliklərinin və bütövlükdə orqanizmi tam şəkildə müalicə edərkən, təkcə məşhur alim-oftalmoloq kimi deyil, həmçinin bacarıqlı alim-ekoloq kimi də şöhrət qazanmışdır. Tədqiqatçı alim ölkədə ilk

dəfə olaraq həm oftalmologiyanın peşə etiologiyalı xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasının, həm də ekoloji təmizlik ideyasının əsasını qoymuş, bu ideyanın praktik səhiyyədə həyata keçirilməsinə nail olmuşdur. Keçmiş SSRİ dövründə peşə amilli göz xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasında çox böyük uğurlar qazanan Zərifə xanım Əliyeva ekologiya elmi üzrə də böyük nailiyyətlər qazanmışdır.

Alim ardıcıl olaraq yerinə yetirdiyi elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də yüksək səviyyədə aparırdı. O, 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdu. Sonra həmin kafedranın professoru və müdiri vəzifələrində çalışaraq həkimlərin diplomdansonrakı hazırlıqlarının tədris-metodiki göstərişlərə və digər tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmışdır. Zərifə xanımın Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə təkmilləşmə kursu keçən həkimlərlə apardığı mühazirə və praktik məşğələlərinin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi və s. təşkil edirdi.

Görkəmli alim ADHTİ-də çalışarkən ilk illərdən görmə orqanının patologiyasına xüsusi diqqət yetirmiş, zərərli sənaye müəssisələrində çalışan insanların oftalmoloji müayinədən keçmələrini təşkil etmiş, peşə ilə əlaqədar əmələ gələn göz xəstəliklərinin profilaktikası və müalicəsi ilə ciddi məşğul olmuşdur. O, peşə amili etiologiyalı göz xəstəliklərinin yayılma qanunauyğunluqlarını aşkar etmək üçün Bakı şin zavodunda, neft-kimya və yod sənayesi müəssisələrində, Sumqayıt “Üzvi sintez” İstehsalat Birliyində, Mingəçevir “İzolit” və rezin-texnika məmulatı zavodlarında, Gəncə gil-torpaq kombinatında və digər obyektlərdə işləyənlərin görmə orqanlarına mənfi təsir göstərən amilləri, onların etio-patogenezini diqqətlə öyrənmiş, zərərli peşələrin törətdikləri göz xəstəliklərinin yaranma mexanizmini elmi surətdə əsaslandırmış, onların qarşısını almaq üçün əməli tədbirlər görmüşdür. Zərifə xanım Əliyeva bu xeyirxah işləri yerinə yetirərkən zərərli amillərin təkcə görmə orqanına deyil, bütövlükdə orqanizmə təsirlərini də mükəmməl öyrənmiş, profilaktik və müalicəvi tədbirlərin bu istiqamətdə aparılmasına lazımi şərait yaratmışdır. Alim zərərli müəssisələrdə çalışanların görmə orqanlarını müalicə etməklə, bütövlükdə onların ayrı-ayrı orqanlarını da müxtəlif növ toksinlərin təsirindən mühafizə edərək birbaşa insanların həyatını qoruyurdu.

Aktual problemin həlli yollarında apardığı səmərəli işlər tezliklə öz bəhrəsini vermiş və o, 1976-cı il may ayının 27-də H. Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda “Azərbaycanın kimya sənayesinin bir sıra müəssisələrində işçilərdə görmə orqanlarının vəziyyəti” mövzusunda dissertasiya müdafiə edərək, tibb elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Dissertasiya müdafiəsi günü alim özünün tutarlı əyani dəlillərə əsaslanan çıxışında elmi istiqamətlərinin üstünlüklərini, kamilliyini, cəsarətli eksperimentatorluq bacarığını Moskvada keçmiş SSRİ-nin məşhur oftalmoloqları qarşısında bir daha təsdiq etmişdir.

Doktorluq dissertasiyası müdafiəsindən bir qədər sonra Zərifə xanım Əliyeva ADHTİ-də müsabiqə yolu ilə professor vəzifəsinə seçilmişdir.

1977-ci ildə Bakıda professorun təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Respublikada ilk dəfə olaraq belə bir ümumittifaq miqyaslı tədbirin təşkili Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Plenumda professor Zərifə xanım Əliyeva Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış laboratoriya yaradılması haqqında təklif irəli sürmüşdü və iştirakçılar yekdilliklə bu təklifi müdafiə etmişdilər. Alim 1979-cu ildə Bakı Məişət Kondisionerləri Zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun “Görmə orqanının fiziologiyası və peşə patologiyası” adlı unikal bir laboratoriyanın yaradılmasına və onun səmərəli fəaliyyət göstərməsinə nail oldu. Elmin və texnikanın ən son nailiyyətlərinə əsaslanan üç şöbədən ibarət laboratoriya tezliklə yeni cihazlarla zənginləşdirildi, peşə xəstəliklərinin profilaktikası, diaqnostikası və müalicəsi mərkəzinə çevrildi. Şöbələrdən birində görmə orqanının vəziyyəti yoxlanılır, ikincisində diaqnostik-funksional müayinələr edilir, üçüncüsündə isə cərrahi əməliyyatlar aparılırdı. Laboratoriyalarda az intensivli toksikliyə malik istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi həyata keçirilirdi. Zərifə xanımın bu təcrübəsi keçmiş SSRİ-nin digər şəhərlərində də bəyənilərək rəğbətlə qarşılanmış, geniş tətbiq edilmişdir. Professorun elmi-tədqiqat işlərinin nəticələri onun “Şin istehsalında gözün peşə patologiayası”, “Xroniki yod intoksikasiyası zamanı oftalmologiya”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” kimi monoqrafiyalarında və digər elmi əsərlərində özünün dolğun əksini tapmışdır.

1981-ci ildə ölkəmizin tibb elminin, səhiyyə sisteminin tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə deyilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M. İ. Averbax adına mükafatına layiq görülmüşdür. Akademik M. İ. Averbax adına mükafata oftalmologiya sahəsində müstəsna xidmətləri olan və beynəlxalq aləmdə tanınan məşhur oftalmoloq-alimlər layiq görülürdü. Azərbaycan aliminə belə bir nüfuzlu mükafatın verilməsi ölkəmizin elm aləmində xoş ovqat yaratmışdı. Moskvadan alınan xoş xəbər Zərifə xanım

Əliyevanın uzun illərdən bəri insanlara bəxş etdiyi şəfqət işığının davamı kimi Azərbaycan tibb elminin, tibb təhsili sisteminin və səhiyyəsinin yollarını nura qərq etmişdir. Bu mükafatın diqqəti cəlb edən üstün cəhətlərindən biri də ondan ibarət idi ki, Azərbaycan alimi akademik M.İ. Averbax adına mükafata layiq görülən ilk qadın oftalmoloq-alim olmuşdur. Belə birincilik fədakar əməyin, böyük zəhmətsevərliyin, sənətə vurğunluğun, insanlara olan bəşəri sevginin sayəsində qazanılmışdır. Bu birincilik həm indiki, həm də gələcək nəsillərin elmi axtarışlarında stimul rolunu oynayacağını, akademik Zərifə Əliyeva irsinin daim gənclərə örnək olacağını göstərən vacib amillərdəndir.

Görkəmli alim Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri vəzifəsində çalışarkən onun həm elmi-tədqiqat, həm də pedaqoji fəaliyyətinin təsir dairəsi daha da genişlənmiş, xalqın sağlamlığının qorunması naminə tibb elminə və bütövlükdə səhiyyə sisteminə verdiyi töhfələrin həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri xeyli dərəcədə artmışdır. Professor qısa müddətdə kafedrada yenidənqurma işləri apararaq onu müasir diaqnostika və müalicə cihazları ilə təmin etmiş, nadir təşkilatçılıq nümunəsi nümayiş etdirərək, kollektivin elmi və pedaqoji səviyyəsini yüksəltmiş, əməkdaşların diqqətini oftalmologiyanın perspektivli istiqamətlərinə yönəldə bilmişdir.

Zərifə Əliyeva 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı uğurlara, alınan elmi nəticələrinin səhiyyə praktikasında geniş tətbiqinə, yüksək ixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk oftalmoloqdur.

Zərifə xanımın elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. Akademik görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. “Herpetik göz xəstəliyi”, “Ağır virus konyunktivitləri” və sair əsərləri bu qəbildəndir.

Zərifə Əliyevanın elmi-tədqiqat işlərinin bir qismi görmə orqanının bədxassəli şişlərinin, qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun “Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası”, “Yaşla bağlı gözün əsəb yollarının dəyişilməsi” və digər monoqrafiyaları göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyə üsulları ilə müalicəsi” və digər monoqrafiyaları isə daktiologiyaya həsr edilmişdir. Zərifə xanım Əliyevanın qələmə aldığı fundamental “Terapevtik oftalmologiya”, “Oftalmologiyanın aktual məsələləri”, “İriodiaqnostikanın əsasları” və sair kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, faydalandıqları əsərlərdəndir.

Zərifə xanım elm və texnologiyaların etikası, həkimlik deontologiyası haqqındakı zərif və saf düşüncələrini öz dəyərli əsərlərində təsbitləndirib. Onun qələmə aldığı “Yüksək etimad” kimi kitabları həm bu gün, həm də gələcəkdə gənc həkimlərə yol göstərən, istiqamət verən, onların həkim, şəxsiyyət kimi formalaşmalarında ümdə əhəmiyyət kəsb edən əvəzsiz əsərlər kimi qalacaq, aktuallığını heç vaxt itirməyəcəkdir.

Ümumiyyətlə, akademik çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuş, gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların hazırlanmasında böyük xidmətlər göstərmişdir. Zərifə Əliyeva onlarca elmlər doktoru və elmlər namizədinin rəhbəri və məsləhətçisi olmuş, böyük bir elmi məktəb yaratmışdır. Akademik oftalmologiya elmində əldə etdiyi nailiyyətlərlə xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi xidmətlərinə görə əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Akademik Zərifə Əliyeva həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi ictimai işlərdə çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirmiş, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir. O, respublika “Bilik” Cəmiyyəti İdarə Heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çıxan “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Bu il 80 illik yubileyini keçirməyə hazırlaşdığımız Azərbaycan Tibb Universiteti haqqında tərtib edilən kitabın bir hissəsi təhsil ocağının şöhrətli məzunlarına həsr edilmişdir və bu məzunlar arasında akademik Zərifə Əliyevanın dəst-xətti aydın görünür. Şübhəsiz ki, Azərbaycan Tibb Universitetini 80 il ərzində yaşadan, ona beynəlxalq miqyasda uğur qazandıran, ilk növbədə, onun akademik Zərifə Əliyeva kimi məzunları, alimləri, müəllimləridir.

1985-ci il aprel ayının 15-də akademik Zərifə Əliyeva əbədiyyətə qovuşmuşdur. İndi o vaxtdan 25 il keçir. Lakin illər bir-birini əvəz etsə də, əbədiyaşar alimin əziz xatirəsi daim ehtiramla yad edilir. Qədirbilən xalqımızın, eləcə də ölkəmizin tibb işçilərinin ona olan məhəbbəti vaxt, zaman çərçivəsindən çıxaraq sonsuzlaşmış, daimiləşmişdir. Fərəhli haldır ki, ötən il akademik Zərifə xanım Əliyevanın adını daşıyan Milli Oftalmologiya Mərkəzinin inşası başa çatdırılmış və bu möhtəşəm elm, tədris, müalicə-diaqnostika, reabilitasiya mərkəzi nümunəvi tibb müəssisəsinə çevrilmişdir. Mərkəzin əməkdaşları akademikin ideyalarını yaşadır və davam etdirir.

Akademik Zərifə Əliyeva elm, təhsil, səhiyyə, eləcə də ictimai-siyasi sahələrdəki misilsiz xidmətlərinə, həmçinin nadir xeyriyyəçilik xüsusiyyətlərinə görə, ölkəmizin tarix salnaməsində dünya şöhrətli alim, nümunəvi

qayğıkeş pedaqoq, şəfaverici, şəfqətli həkim, səmimi və sədaqətli vətəndaş, eləcə də məğrur Azərbaycan qadını kimi xalqımızın qəlbində daim yaşayacaqdır.

**Azərbaycan**.-2010.-15 aprel.-№ 79.-S.6.

## Oftalmologiyada mühüm elmi yeniliklərə imza atmış böyük alim

### Akademik Zərifə Əliyeva SSRİ səhiyyəsində Averbax mükafatını alan ilk xanım idi

**Reyhan MİRZƏZADƏ,**
publisist-politoloq

**Tanınmış ingilis şairi Tomas Strenz Edisonun etirafına görə, uğur qazanmağın bir faizi istedadla, doxsan doqquz faizi isə zəhmət və ağılla bağlıdır. Məhz istedad, zəhmət və ağılla qazanılan bir uğurun illər keçdikdə öz-özünə zənginləşib qüdrətli bir sərmayəyə çevrilən, dünya mədəniyyətinin qiymətli abidələri qədər dəyərli olan bir xatirədən və xatirələrdən bəhs etmək istəyirəm.**

"Bakı" qəzetinin tarixə dönmüş 1982-ci il 27 yanvar tarixli nömrəsini oxuyuram. Əsrlər boyu yetişdirdiyi böyük elm xadimləri ilə qürur duyan xalqımıza və respublikamızın ictimaiyyətinə "Azərbaycan aliminə mükafat" başlığı altında xoş bir xəbər yayılıb. Həmin xəbərdən sətirlər: "SSRİ Tibb Elmləri Akademiyası Rəyasət Heyətinin iclası olmuşdur. Akademiyanın rəyasət heyəti 1981-ci ildə ölkəmizin alimlərindən böyük bir qrupuna adlı mükafatlar və diplomlar vermişdir. Mükafat alanlar arasında Azərbaycandan professor Z. Ə. Əliyeva da vardır.

Professor Z. Ə. Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M. İ. Averbax adına mükafatını almışdır…"

Daha sonra Moskva İkinci Tibb İnstitutu göz xəstəlikləri kafedrasının müdiri, SSRİ Dövlət mükafatı laureatı, RSFSR əməkdar elm xadimi, SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, professor A. Nesterovun "Elm və həyat" jurnalının 1982-ci il tarixli 5-ci nömrəsində dərc olunan "Akademiyanın mükafatı Azərbaycan aliminə verilmişdir" məqaləsində qeyd edilir ki, SSRİ Tibb Elmləri Akademiyası tərəfindən görkəmli sovet alimi, akademik Mixail İosifoviç Averbaxın şərəfinə təsis edilmiş mükafat dörd ildə bir dəfə oftalmologiya sahəsində ən yaxşı elmi tədqiqatlara görə verilir. Mükafata layiq görülmüş əsərlər silsiləsinə "Şin sənayesində gözlərin peşə patologiyası" kitabı, "Rezin sənayesi fəhlələrində gözlərin zədələnməsinin profilaktikası" və "Yod sənayesi fəhlələrində gözlərin zədələnməsinin profilaktikası" adlı metodiki göstərişlər, habelə mərkəzi oftalmoloji jurnallarda və elmi konfransların əsərlərində dərc olunmuş bir sıra elmi məqalə və məruzələr daxildir. Z. Ə. Əliyevanın tədqiqatlarında müəllifin öyrənilən problemə dərin və hərtərəfli münasibəti diqqəti cəlb edir. Eksperimental və laboratoriya tədqiqatları uzun illər aparılmış klinik müşahidələrlə sıx birləşir.

Z. Ə. Əliyeva şin və yod sənayesi fəhlələrində gözlərin peşə xəstəliklərini tədqiq etməyə xüsusi diqqət yetirmişdir. Qeyd etmək lazımdır ki, şin istehsalı ölkəmizin kimya sənayesində getdikcə daha böyük yer tutsa da, Z. Ə. Əliyevanın tədqiqatlarına qədər nə ölkəmizin, nə də xarici ölkələrin tibb ədəbiyyatında şin istehsalının insan orqanizminə və görmə orqanlarına zərərli kimyəvi təsirinə dair müfəssəl əsərlər yox idi. Yodla uzunmüddətli iş prosesində gözlərin zədələnməsinin xüsusiyyətləri də kifayət qədər öyrənilməmişdi…

Sovet mətbuatı onu da yazırdı ki, Zərifə Əziz qızı Əliyeva SSRİ-nin bu ali mükafatına layiq görülən ilk qadın alimdir.

Professor Zərifə xanım Əliyeva məqalələrində bildirirdi ki, Azərbaycanda kimya sənayesi sürətlə inkişaf etdiyi üçün peşə xəstəliklərinə qarşı mübarizə ən vacib tibbi-bioloji problemlərdən biri idi. Geniş miqyasda aparılan profilaktik və müalicə tədbirləri nəticəsində indi kimya sənayesində görmə orqanının peşə xəstəliyinə tutulması hallarına az-az rast gəlinir və özünü intoksikasiyanın yüngül, subklinik forması şəklində büruzə verir.

Zərifə Əliyevanın apardığı fundamental tədqiqatların yeni olduğu məlum idi. Sonralar həmin tədqiqatlar müəllifin 1980-ci ildə Bakıda çap olunan orijinal "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyasının əsasını təşkil etdi.

Zərifə xanımın tədqiqatlarının miqyası geniş idi. Yaşından və iş stajından asılı olmayaraq, şin istehsalında çalışan 1281 işçinin üzərində klinik müşahidə aparılmışdı. Üstəlik bu araşdırmalar uzun illər ərzində müəyyən istehsal şəraitində kimyəvi intoksikasiyaya məruz qalan heyvanlar üzərindəki eksperimentlərlə elmi şəkildə uzlaşdırılmışdı. Göz xəstəliyinin morfoloji və histokimyəvi tədqiqatları bu xəstələrin patogenetik mahiyyətini aşkara çıxarmağa kömək etdi və göstərdi ki, gözün qabaq hissəsində əmələ gələn dəyişikliklər şin zavodunda istehsal amillərinin birbaşa təsiri ilə, gözün daxili hissəsinin zədələnməsi isə bütövlükdə həmin amillərin ümumtoksik təsiri ilə əlaqədardır.

Zərifə xanımın iş günü kabinetdən yox, zəhmətkeş fəhlə əllərinin çalışdığı istehsalatdan başlanırdı. Bakı yod zavodunda istehsal prosesinin, sanitar-gigiyenik xüsusiyyətlərinin, fəhlələrin iş şəraitinin, müxtəlif təcrübə və iş stajına malik peşə sahiblərinin sağlamlığının hərtərəfli vəziyyətini ciddi şəkildə araşdırmaq lazım gəlirdi. Eksperimental tədqiqatlar nəticəsində Zərifə xanım müəyyən etdi ki, yod istehsalında kimyəvi maddələrin buxarının toksik təsirindən görmə orqanı daha çox zərər çəkir. Klinik-eksperimental tədqiqatların nəticələri görmə orqanına toksik maddələrin təsirini daha düzgün qiymətləndirməyə və rasional müalicə üsulları işləyib hazırlamağa imkan yaratdı. Zərifə xanım Əliyevanın "Xronik yod intoksiyasında oftalmopatologiya" mövzusunda yazdığı ikinci monoqrafiya 1981-ci ildə çap olundu. Həmin monoqrafiya orijinal elmi tədqiqat əsəri kimi oftalmologiya elminin inkişafında əhəmiyyətli rol oynadı.

Tibb elmləri doktoru, Ə. Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutu göz xəstəlikləri kafedrasının professoru Z. Ə. Əliyeva "Kommunist" qəzetinin 1982-ci il, 13 iyun tarixli nömrəsində dərc olunmuş "Fəlakətin qarşısını almaq olar!" məqaləsində gözün bəzi irsi xəstəlikləri haqqında məlumat verərək kataraktadan bəhs edib yazırdı: "Gözün anadangəlmə dəyişiklikləri arasında ən tez-tez təsadüf edilən xəstəlik büllurun tutqunlaşması, yəni katarakta xəstəliyidir. Katarakta gözün anadangəlmə dəyişikliklərinin 60 faizini təşkil edir. Valideynlər uşağın bəbəklərinin rənginə fikir verməlidirlər. Bəbək adi halda qara görünür, kataraktada isə boz olur. Katarakta görmə qabiliyyətinin xeyli azalmasına, bəzən isə tamamilə itirilməsinə gətirib çıxarır ki, bu da ətraf aləmin predmetlərini qavramaq qabiliyyətindən məhrum olan uşağın ümumi hərəki və əqli inkişafına mənfi təsir göstərir. Buna görə də valideynlər öz oğlunu və ya qızını cərrahi müdaxilə yolu ilə kataraktadan xilas etmək üçün mütəxəssisə tez müraciət etməlidirlər. Qlaukoması olan uşaqlar müalicə edilmədikdə, onların 55 faizə qədəri adətən məktəb yaşına çatanadək görmə qabiliyyətini tamamilə itirib kor olur. Ömrün ilk aylarında uşaqda qlaukoma olduğunu onun işıqdan qorxmasından, gözlərinin yaşarmasından, iştahı olmamasından və narahat yatmasından bilmək olar. Bu hallar göz almasının böyüməsi ilə müşayiət edilə bilər.

Oftalmoloq belə uşaqlarda xeyli yüksək olan gözdaxili təzyiqi ölçmək yolu ilə diaqnoz qoyur. Vaxtında aparılan dərman müalicəsi və ya cərrahiyyə əməliyyatı anadangəlmə qlaukoması olan uşağın görmə qabiliyyətini hifz edə bilər."

Zərifə Əziz qızı Əliyevanın namizədlik dissertasiyası o dövrdə oftalmologiya üçün sosial baxımdan aktual sayılan traxoma xəstəliyi ilə mübarizəyə həsr edilmişdi. Traxoma korluq hallarının ən geniş yayılan səbəblərindən biri kimi dəhşətli ictimai bəlaya çevrilmişdi. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, dünyada 400 milyon nəfər traxoma xəstəliyinə tutulmuş, 80 milyon nəfər bu səbəbdən kor olmuşdu. O, həmin namizədlik işi üzərində işləyərkən, yüzlərlə, minlərlə xəstəyə şəfa vermiş, uşaq evlərində yaşayan, ata-anasız neçə-neçə uşağı bəlalardan xilas edərək, onların gözlərinə nur, talelərinə həyat işığı bəxş etmişdi.

Zərifə xanımın atası Əziz Məmmədkərim oğlu Əliyev böyük alim, tibb elmləri doktoru, professor olmaqla bərabər, tanınmış dövlət xadimi idi. O, Azərbaycanda səhiyyənin və tibb elminin inkişafındakı xidmətləri ilə xalq arasında nüfuz və ehtiram qazanmışdı. Çoxsaylı elmi əsərləri ilə səhiyyəmizə böyük nailiyyətlər bəxş edən Əziz Əliyev öz şərəfli yolunu övladlarına da aşılamışdı. Zərifə xanım atasının yolunu davam etdirməklə fəxr edirdi. "Mən bununla atamın ruhunu yaşadıram" deyən Zərifə Əziz qızının elm aləmini heyrətə salan, bir-birinin ardınca yüzlərlə məqaləsi, ixtira və səmərələşdirici təklifləri, neçə-neçə monoqrafiyası işıq üzü görməklə milli təbabətimizin üstünə işıq saldı. O, bu əsərlərinə "Atamın ömrü" deyirdi. Öz həyatını bu yolla atasına həsr edirdi.

Həyat yoldaşı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin böyük zəhmətlə tikdirib ərsəyə gətirdiyi Bakı Məişət Kondisionerləri Zavodunun elmi laboratoriyasındakı fəaliyyəti Zərifə xanımın həyatında, əlbəttə ki, əvəzolunmaz izlər qoydu. Həmin illərdə zavodun istehsalat üzrə direktor müavini vəzifəsində çalışmış Məhərrəm Baxşəliyevin dediklərindən:

– Zavodun direktoru Sənan Axundov Moskvada səfərdə idi. Azərbaycan Respublikası Mərkəzi Komitəsindən Həsən Seyidov mənə zəng edib bildirdi ki, Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müvafiq sahələri ilə bağlı müdafiə etdiyi doktorluq işi SSRİ miqyasında böyük rezonans doğurub və o, aparıcı sənaye müəssisəsi kimi kondisioner zavodunda elmi laboratoriya açmaqla, istehsalatın zəhmətkeşlərinin görmə orqanına təsirinə dair tədqiqatları davam etdirmək fikrindədir.

Ertəsi gün səhər saat 8.45-də Zərifə xanım zavodun qarşısında maşından düşdü. Gəlib mənə çatanda mülayim səslə: "Siz yoldaş Baxşəliyevsiniz?" – deyə soruşdu.

– Bəli, Zərifə xanım, – deyə cavab verdim.

– Laboratoriya üçün hansı mərtəbədə otaqlar seçə bilərik?

Üçüncü mərtəbəyədək zavodun idarəsi yerləşdiyini bildirib dördüncü, beşinci və altıncı mərtəbələrə baxdıq. Hər mərtəbəyə diqqət yetirəndən sonra altıncı mərtəbəni bəyəndi. 3-4 otaq seçərək təkliflərini bildirib dedi ki, sabah gəlib sizə deyəcəklər hansı otaq hansı rəngdə boyanacaq. Ancaq sizdən xahiş edirəm, dəm-dəstgahlı təmir olmasın. Artıq xərc çəkməyə ehtiyac yoxdur.

Professor Zəhra Quliyeva məhəbbətlə yazırdı ki, biz Zərifə xanımın Averbax adına ali mükafata layiq görülməsi xəbərini eşidəndə Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin iclasında qərara aldıq ki, əlamətdar hadisəni təntənəli şəkildə qeyd edək. Zərifə xanıma soraq çatanda o, bərk həyəcanlanaraq sıxıla-sıxıla həmkarlarını bu fikirdən çəkindirməyə çalışdı. Cəmiyyətin nümayəndəsi kimi mən min bir əzab-əziyyətdən sonra onu, nəhayət, inandıra bildim ki, bu fakt bütün Azərbaycan oftalmologiyasının şərəf və qüruru deməkdir. Buna görə də Zərifə xanımın öz həmkarlarını bu əlamətdar hadisəni qeyd etmək imkanından məhrum etməsi düzgün deyildir. Təbii təvazökarlığı, yüksək mədəniyyəti, öz uğurlarını çox da nəzərə çarpdırmamaq, təntənə və dəbdəbədən uzaq qaçmaq kimi xüsusiyyətləri Zərifə xanımı bizə daha da sevdirir və doğmalaşdırırdı. Cəmiyyətin dediyim iclası çox xahişlərdən sonra baş tutanda, o, heyranlıq dolu təriflərə imkan vermədən apardığı işdən söz açdı. Biz sidq-ürəkdən təbriklər hazırlamışdıq ki, onun könlü xoş olsun. Zərifə xanım isə təbriklərimizi təqdim etməyə imkan vermirdi. Bu epizod onun böyüklüyünü və sadəliyini təcəssüm etdirirdi.

Biz onu sevir, onunla fəxr edirdik. Zərifə xanım Azərbaycan xalqının, Azərbaycan elminin, Azərbaycan oftalmologiyasının iftixarı idi. Bununla bərabər, Zərifə xanım qeyri-adi dərəcədə təvazökar və ciddi insan idi. Bütün ömrü boyu meşşanlığa, mənəviyyatsızlığa, əxlaqi ideyaların itirilməsinə qarşı barışmaz mübarizə aparmışdı. Kristal dərəcədə təmiz, doğruçu və təmənnasız bir insan kimi o, yüksək keyfiyyətlərin carçısı idi.

Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru, Dövlət mükafatı laureatı M. M. Krasnov Zərifə xanımdan bəhs edərkən qeyd edir ki, o, böyük zəhmət və gərgin axtarışlar hesabına tibb aləminə yeni bir töhfə – “İridodiaqnostika” kimi nəhəng elmi monoqrafiya bəxş etdi ki, həmin dəyərli kitab mağazaların rəflərində görünən kimi dərhal “yoxa çıxırdı”. Zərifə xanımın elmi cəsarəti ilə elmi təvazökarlığı çox təbii və səmimi idi. Hər iki insani keyfiyyət bir-birilə təzadlı olsa da, bunlar Zərifə xanımın xarakterində vəhdət təşkil edirdi. Elmi nailiyyətlərinə görə o, SSRİ Tibb Elmləri Akademiyasının M. İ. Averbax adına mükafatına layiq görüləndə bütün səmimiyyəti ilə təəccüblənmişdi: “Nə üçün məhz mənə ?..”

Zərifə xanım tək elm aləmində deyil, həyatda da insanlığa şərəf gətirən sadə və təvazökar duyğulara malik idi. Yenə dahilərin sözləri yada düşür: Güclü adamlar həmişə sadə olur. Xarakterdə, davranışda və ümumiyyətlə, hər bir işdə ən gözəl şey sadəlikdir. Sadəlik həm də nəcabət əlamətidir. Sadəlik mənəvi gözəlliyin başlıca şərtidir. Ən dəyərli insanlar təvazökar insanlardır. İnsanı gözəlləşdirən, ona zinət verən ən mühüm cəhətlərdən biri də onun təvazökar və sadə olmasıdır.

Əlli ildən artıq Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda həkim, şöbə müdiri işləmiş Suğra xanım Babayeva Zərifə xanımı yad etdiyi zaman həm kövrəlir, həm də gözlərində işıq dolu sevinc parlayırdı. Söhbət edirdi ki, Zərifə xanım sanki hər an insanlara kömək, yaxşılıq etmək üçün dünyaya gəlmişdi. Biz o zaman təcrübəsiz idik, xəstəlik tarixini yazanda çətinlik çəkirdik. Xüsusi ilə rus dilində qeydlər etdikdə Zərifə xanım bizə kömək edir, cümlələrimizdəki ifadələrin, sözlərdəki şəkilçilərin düzgün işlənməsinə diqqət yetirir, redaktələr edirdi. İşə gələndə hamı ilə səmimi salamlaşıb görüşürdü.

Zərifə xanım iş yoldaşlarının xeyrindən – şərindən qalmırdı. Slutski soyadlı bir işçimiz var idi, yeni mənzil almışdı. Hamımız yığışıb onu təbrik etməyə getdik. Slutskinin arvadı musiqi müəlliməsi idi, pianodan dərs deyirdi, odur ki, evdəki piano diqqətini cəlb etdi. Zərifə xanım piano arxasına keçdi. Gözəl musiqi nömrələri, milli operettalarımızdan, musiqili komediyalarımızdan nümunələr ifa etdi. Həkimlərimiz şən əhval – ruhiyyədə qol götürüb rəqs etdilər.

Nəhayət, qədim yunan filosofu Platonun müdrik kəlamlarını xatırlamaq zənnimcə son fikirlərimi söyləməyə bir körpü yaradar: “Həkimlərin etdikləri ən böyük xəta ruhu düşünmədən yalnız bədəni müalicə etməyə təşəbbüs göstərmələridir.” Bu kəlmələr akademik Zərifə xanım Əliyevanın 2003-cü ildə “Azərbaycan” nəşriyyatında çap olunmuş “Yüksək əqidə: həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı” kitabındakı yüksək təfəkkürlü düşüncəsi və tövsiyələri ilə necə də üst-üstə düşür: “Xəstəyə düzgün münasibət həkim sənətinin əsas mahiyyətlərindəndir. Bəzən həkim xəstəyə yardım göstərərkən xəstəliyin xüsusiyyətlərindən asılı olaraq, həkim xəstənin və onun qohumlarının yersiz məzəmmətlərini, acı sözlərini, hətta hədələrini dinləməyə məcbur olur. Başqa sənət sahibi olanlar bundan inciyərək onu təhqir edəndən imtina edərdi, üstünə qışqırıb onu qovardı. Lakin həkim belə hərəkəti özünə rəva bilmir, özünün təhqir olunmuş hissiyyatını və həyəcanını büruzə verməyə ixtiyarı yoxdur… Həkim xəstənin mənafeyini hər şeydən üstün tutmalıdır, öz iş gününün qurtarmasına baxmayaraq, o, xəstəxanada qalaraq xəstəsinə yardım edir, hətta onun çarpayısı yanında bir neçə sutka qalır, bunun cavabı isə xəstənin təşəkkürlü gülümsəmələri olur…

Həkim xeyirxah olmalıdır… Həkimlik fəaliyyətinin xüsusiyyəti xəstə ilə həkim arasında həqiqi hörmət, həkimin xəstənin əziyyətini yüngülləşdirmək üzərində qurulmalıdır… İnsan xəstələnib yorğan-döşəyə düşəndə həkim ona gəlir mənbəyi kimi baxmamalıdır. Bundan biabırçı halı ağla gətirmək olmaz. Biz bununla barışa bilmərik… Ancaq həqiqi həkim odur ki, o, xəstənin əzabını öz şəxsi əzabı kimi qəbul etsin; sağalmış, dirilmiş insanın gülər üzü, şadlığı həkim üçün ən böyük mükafat, şərəfdir… Həkimin ehtiyatsız söylədiyi söz xəstəliyə gətirib çıxara bilər… Ən təhlükəlisi və dəhşətlisi odur ki, əyninə ağ xalat geymiş həkim laqeyd olsun. Həkim insanlardan özünü ayırmamalı, özünü sevən, laqeyd olmamalıdır.”

Bunlar Zərifə xanımın tövsiyələri idi… Tibb aləmində zəngin bir həyat, təcrübə keçmiş akademikin son dərəcə qiymətli tövsiyələri. Nəzakətli, alicənab insan, mehriban həyat yoldaşı, qəlbi övlad, nəvə sevgisi ilə döyünən qayğıkeş ana, vətənpərvər və fədakar bir azəri qızı olan Zərifə xanım dünyadan tez köçsə də, əsl həqiqətdə onun ünvanı milyonlarla insanın məhəbbət dolu ürəyi, əbədiyaşar, müqəddəs bir məkan oldu.

**Xalq qəzeti**.-2010.-26 yanvar.-№ 19.-S.5.

* * *

## Многогранная личность

Зарифа ханым Алиева – не только врач, ученый и педагог…

«Академик Зарифа Алиева прожила содержательную жизнь как истинный представитель интеллигенции, обладающий богатой духовностью, своей многогранной научной деятельностью внесла значительный вклад в развитие медицинской сферы в нашей стране».

Эти строки из Распоряжения Президента Ильхама Алиева емко, но все же неполно охватывают все стороны огромного духовного потенциала Человека с большой буквы, которым была академик Зарифа Алиева, 100-летний юбилей которой мы будем отмечать 28 апреля 2023 года.

Вспоминая Зарифу ханым Алиеву, которая оставила неизгладимый след не только в медицинской науке Азербайджана, перед глазами встает образ уникального человека, являвшегося олицетворением благородства и нравственной чистоты. Она была заботливой матерью, прекрасной, верной супругой. Высокий интеллект и культура, глубокие знания, человеколюбие, любовь к Родине и благородство – эти качества являются основными штрихами, олицетворяющими, но не завершающими целостный портрет.

Будучи еще и подвижницей, она прошла нелегкий жизненный путь вместе с общенациональным лидером Гейдаром Алиевым, наравне с которым испытала и радость побед, и горечь несправедливости. Каждый из наших читателей, пожалуй, хотя бы раз посмотрел искренний и пронзительный фильм «О настоящей любви», отстраненно представив чувства, пережитые великой Женщиной и трепетную священную Любовь, которую испытывал общенациональный лидер Гейдар Алиев к супруге и матери своих незаурядных детей.

Многим сегодня непонятно, но в сталинские времена опасно было даже любить, особенно дочь опального секретаря ЦК и вице-премьера, коим был в ту пору всесильный Азиз Алиев, но общенациональный лидер пошел против общественного и начальственного мнения, положив на стол главы республиканского КГБ служебное удостоверение офицера в ответ на предупреждение о могущих наступить организационных мерах. И любовь эта была не просто юношеским увлечением – все лучшие черты характера Зарифы ханым – благородство, милосердие, сформированные прежде всего под воздействием семейного воспитания, были на виду и сразу бросались в глаза даже стороннему наблюдателю. Присущие членам ее семьи интеллигентность, трудолюбие, искренность, привязанность к родному очагу, любовь к Родине, общечеловеческим ценностям нашли отражение и в характере Зарифы ханым.

Ведь недаром, когда общенациональный лидер Гейдар Алиев говорил о ней, он подчеркивал именно эти ее качества: «С юных лет моя жизнь была связана с государственной работой. Я посвятил этому всю свою жизнь и сегодня работаю в этой сфере. Я считаю, что в моей успешной карьере семейное положение сыграло большую роль. Я счастлив, что у меня есть такая жена, как Зарифа Алиева, и что она создала в моей семье прекрасную душевную атмосферу. Поскольку я всю жизнь много работал, у меня не было времени заниматься семейными делами. Все это выпало на долю Зарифы ханым, и она выполнила эту задачу с честью, преданностью и большим умением».

Гейдар Алиев всегда с ощутимым трепетом говорил о своих искренних чувствах: «Я действительно очень ее любил и чувствовал ее ответную любовь ко мне. Думаю, нет необходимости доказывать, насколько глубока наша любовь друг к другу».

Струны души, о которых писали великие классики, начиная с Гомера, присущи не каждому, но у Зарифы ханым Алиевой они были из особенного материала. Так, в самом начале Великой Отечественной войны, когда в столичные госпитали начали поступать первые раненые, она начала тайно убегать к ним, чтобы кому-то помочь с перевязкой, незрячему раненому помочь написать письмо домой, а затем отправить его по почте, выслушать чьи-то сердечные переживания. Милосердие и предопределило ее окончательный выбор – на следующий год Зарифа ханым, поставившая перед собой цель посвятить свою жизнь медицине, поступила на лечебно-профилактический факультет Азербайджанского государственного медицинского института, который блестяще окончила в 1947 году. А личные переживания при виде незрячих ветеранов войны окончательно утвердили в желании стать офтальмологом, приведшем молодого в ту пору специалиста в Москву, где она завершила двухгодичные курсы во Всесоюзном институте повышения квалификации врачей.

В Распоряжении Президента Ильхам Алиева также говорится: «Зарифа Алиева, которая на протяжении всей своей научной и педагогической деятельности всегда сохраняла в центре внимания врачебную этику, внесла большой вклад в дело подготовки высококвалифицированных кадров в республике, сформировала целое поколение молодых ученых-офтальмологов».

Но это уже было потом, после того как она возвысилась на вершину не только научного, но и нравственного совершенства, так как она, прежде всего, была гуманистом – сравнивая врача с небесным светилом, она неизменно говорила: «Врач важен людям, как солнце».

И она всегда была на передовой армии спасения. Старшее поколение помнит, как в 1950-е годы в республике, да и не только в Азербайджане, были широко распространены глазные болезни, свирепствовала трахома, ставшая настоящей бедой. Необходимо было спасти людей от этой беды, а также провести фундаментальные исследования по профессиональным заболеваниям глаз, являвшимся крайне актуальной проблемой, разработать и подготовить эффективные методы лечения и профилактические меры. Именно тогда Зарифа ханым возвращается из Москвы на родину и в должности научного работника научно-исследовательского института глазных болезней на свой страх и риск посещает районы с наибольшим распространением трахомы, лично выявляя очаги заболевания, читает лекции врачам-офтальмологам, проводит профилактические беседы с населением.

Методы лечения, описанные в ее кандидатской диссертации «Лечение трахомы синтомисом наряду с другими терапевтическими способами» вскоре нашли широкое практическое применение, и в результате трахома в республике была ликвидирована как очаг поражения.

И таких примеров в жизни великого гражданина было немало, когда Зарифа ханым лично бралась за выявление симптомов опасных болезней, несмотря на опасность заражения.

Известный офтальмолог, академик Михаил Краснов, высоко оценив ее исследования, посвященные изучению профессиональной патологии зрительного органа, отметил, что «если бы Зарифа Азиз гызы жила, она могла бы руководить новой совершенной школой в области офтальмологии».

Тем не менее, несмотря на физическое небытие, память о ней живет на всех уровнях, так как под непосредственным руководством Зарифы ханым выросло не только несколько поколений перспективных ученых и офтальмологов, но и достойных носителей семейных ценностей, основанных на гуманизме и ответственности за будущее государства и общества.

**Бакинский рабочий.** – 2022. – 5 ноября. – № 203. – С. 4.

## Великие азербайджанки

Немало женщин Азербайджана прославили страну на различных поприщах — науки, искусства, производства. Их имена навсегда останутся в истории страны.

В политической жизни средневековья женщины Востока играли большую роль. С большим почтением вспоминаются имена матерей, жен и дочерей правителей Азербайджана. Это Гатибаханым — жена Гызыл Арслана и Мехрджанханым — жена Узбек хана, Сара Хатун — мать Узун Гасана и Мехинбану — дочь шаха Исмаила Хатаи, Пери ханым — жена Ширваншаха Халилуллаха и Хейранса Бейим — мать Шаха Аббаса, Туту Бике -жена Фатали хана, правительница Дербента во второй половины XVIII века.

Неоценимый вклад в культурную и общественную жизнь Азербайджана внесла поэтесса Хуршудбану Натаван, дочь последнего карабахского хана Мехтикули хана, внучка Ибрагим Халил хана (XIX век). Она дочь последнего карабахского хана, принимала активное участие в обеспечении городского населения водой и провела водопроводную линию в Шушу. Ее тетя Агабейим ага Агабаджи, супруга иранского шаха Фетх Али-шаха Каджара.

В историю Азербайджана навеки вписаны имена таких женщин, как Нигяр Шихлинская, в 1889 году ставшая первой азербайджанской женщиной, получившей высшее образование и Набат Ашурбекова, построившая мечеть «Тезе Пир».

Это и Сона Велихан, в 1908 году ставшая первой азербайджанкой, получившей диплом врача. Одной из главных черт доктора было стремление делиться знаниями. Ее подолгу не отпускали из аудиторий после лекций студенты, она скрупулезно передавала опыт молодым врачам — все годы выписывая специальную литературу из разных стран на иностранных языках, чтобы изучать все новое, что появлялось в работах теоретиков и практиков, она стремилась идти вперед и знакомить с достижениями науки своих молодых коллег, а также просвещать население.

Сона Велихан (1883-1982)

Это и выпускница Санкт-Петербургского женского медицинского института и Гамида Джаваншир — супруга писателя и публициста Джалила Мамедкулизаде, основавшая первую азербайджанскую общую школу для мальчиков и девочек в 1908 году.

Говхар Газиева в 1910 году стала первой азербайджанкой, появившейся на сцене, Хадиджа Алибекова в 1911 году опубликовала «Ишыг», первый женский журнал на азербайджанском языке, и многие другие.

Во второй половине XIX века во времена нефтяного бума в Баку, изменилось и общественное мнение к азербайджанской женщине, к женщине в чадре. У женщин появилось право голоса на выборах в органы местного самоуправления. Так, в Списке избирателей в Бакинскую городскую думу между 1906-1909 годами в выборах участвовало более 200 женщин.

Таким образом, Азербайджан стал первой в мире мусульманской страной, в которой женщинам было предоставлено подобное право. Азербайджанские женщины даже опередили в этом плане большинство европейских и американских. В годы советской власти эта тенденция независимости женщин, их равные права с мужчинами, сохранилась. И это наглядно видно по их деятельности во многих сферах общественной жизни страны. Вспомним плеяду этих замечательных женщин.

В области науки первой азербайджанкой, членом Академии наук Азербайджанской ССР была Валида Тутаюк, ботаник и морфолог. В области медицины, вернувшие здоровье многим тысячам больных, были академики, доктора медицинских наук, врач-офтальмолог Зарифа Алиева и врач-педиатр Аделя Намазова, академик, профессор Сиддига Рзагызы Мамедова, внесшая свой вклад в безопасность нашего быта от различных насекомых в науку называемую энтомологией, доктор биологических наук Ирада Гусейнова, профессор Машадиханым Нейматова, доктор исторических наук, востоковед историк-эпиграфист и профессор Азада Рустамова — востоковед и литературовед, доктор филологических наук.

Валида Тутаюк (1914-1980)

В этом списке и член-корреспонденты НАНА, профессор, доктор химических наук Фазиля Самедова, химик в области технологии нефтяных масел Рафига Алиева. Нельзя не вспомнить и академика в области химической науки Иззетханым Оруджеву, которая в юности была первой актрисой в кинематографии Азербайджана, снявшись в фильмах «Севиль» и «Алмаз». Это и Адиля Шахтахтинская, первая азербайджанка, получившая докторскую степень.

Женщины Азербайджана прославились и в искусстве. 28 июля было учреждено звание «Народный артист Азербайджанской ССР». Первой столь высокого звания среди женщин в Азербайджане в 1934 году была удостоена оперная певица Шовкет Мамедова, а в 1938 году она получила звание народной артистки СССР. В 1940 году это звание получила первая Кармен азербайджанской оперной сцены — Фатьма Мухтарова.

В последующие годы народными артистами в оперном искусстве стали Агигат Рзаева, Фирангиз Ахмедова (в 1967 году — Народная артистка СССР).

Стоит вспомнить и золотой оперный голос Народной артистки Азербайджанской ССР Рубабы Мурадовой в опере Узеира Гаджибекова «Лейли и Меджнун». Тукезбан Исмайлова — певица, ханенде, Народная артистка Азербайджана. Конечно, это и знаменитая Зейнаб Ханларова, Народная артистка Азербайджанская ССР и СССР (1980 г.). Она и оперная артистка, и исполнительница азербайджанского музыкального стиля — мугам, и популярная в музыкальном жанре эстрады на многих языках мира.

Звания народного артиста Азербайджанской ССР в хореографии были удостоены знаменитые балерины, лауреаты Государственной премии. Это первая балерина Азербайджана Гамэр Алмасзаде, балетмейстер и педагог, народная артистка СССР (1959 г.), Рафига Ахундова и Чимназ Бабаева, лауреат Государственной премии Азербайджанской ССР. Это Лейла Векилова — балерина, балетмейстер, народная артистка СССР (1967 г.) и Тамилла Ширалиева, балетмейстер, лауреат Государственной премии СССР, кавалер ордена «Слава».

Кто не помнит сцену танца приготовления Гюльназ к свадьбе с Мешади Ибадом в фильме «Не та, так эта»? Это была знаменитая танцовщица — хореограф Амина Дильбази. (Супругом Амины Дильбази был композитор Джовдет Гаджиев — Авт.). В ее репертуаре были такие популярны танцы, как «Иннаби», «Терекеме», «Мирзаи» («Вагзалы»), «Тураджи», «Назэлямя».

Звание Народного артиста Азербайджанской ССР получали и певицы народных и эстрадных песен Шовкет Алекперова, Сара Гадимова.

В историю театра и кинематографии Азербайджана также вошла плеяда прекрасных народных артисток. Это, конечно, Марзия Давудова — актриса Азербайджанского драматического театра в Баку, народная артистка СССР (1949 г.), Лейла Бадирбейли — актриса театра и кино, лауреат Сталинской премии второй степени, Барат Шекинская — лауреат Сталинской премии второй степени и Сона Гаджиева.

Это и актриса ТЮЗа Дина Тумаркина и Евгения Оленская. Конечно, такая замечательная актриса, как Фирангиз Шарифова, дочь корифеев национального театра Аббас Мирзы Шарифзаде и Мярзии Давудовой.

В числе народных артистов в Азербайджане присутствуют такие женщины, как Зарош Гамзаева, киноактрисы Наджиба Меликова и Шафига Мамедова, Солмаз Гурбанова — была ведущей актрисой ТЮЗа, Хокума Курбанова — народная артистка СССР. И, конечно же, незабываемая Насиба Зейналова, заслуженная и народная артистка Азербайджанской ССР, лауреат Государственной премии Азербайджана.

Хокума Курбанова (1913-1988)

Женщины — поэты и писатели Азербайджана оставили неизгладимый след в истории развития азербайджанской литературы. Это яркие представительницы мусульманского возрождения — поэтессы Мехсети Гянджеви и Хуршудбану Натаван и ее тетя Гончабейим, дочь последнего нахчыванского хана Эхсан хана. Это Нигяр Рафибейли и Мирварид Дильбази, Медина Гюльгюн и Хокюма Биллури, Азиза Джафарзаде и Ханымана Алибейли.

Первая женщина-художник Азербайджана, заслуженный деятель искусств СССР Рейхан Топчубашева, и Эльмира Шахтахтинская — художник и график, народный художник Азербайджанской ССР, Гюлли Мустафаева — заслуженный художник Азербайджанской ССР, Марал Рахманзаде — график, народный художник Азербайджанской ССР.

Шафига Ахундова — композитор, заслуженный деятель искусств Азербайджанской ССР, народная артистка Азербайджана, первая женщина на Востоке, написавшая оперу.

Видный общественный деятель Айна Султанова — первый редактор журнала «Шарк гадыны», нарком юстиции и председатель Верховного суда. Аида Имангулиева — азербайджанский арабист, востоковед.

Женщины — азербайджанки внесли свою большую лепту и в народное хозяйство Азербайджана. Так, среди 580 Героев социалистического труда Азербайджана, почти третью часть составляли женщины — 171 (29.3%) человек. Это на их плечи легла трудная работа сельского хозяйства- выращивание хлопка, овощей, винограда, табака, животноводство.

Среди этих героинь две женщины были дважды Героями — это Басти Багирова и Шамама Гасанова.

В годы Второй мировой войны азербайджанские женщины заменяли мужчин, ушедших на фронт во многих отраслях. И даже на военном поприще. В этот период появились летчицы Лейла Мамедбекова — первая на Кавказе азербайджанка — женщина-летчик. Она основала школу десантников и парашютистов, где за годы войны подготовила около 4 тысяч парашютистов-десантников и сотни летчиков.

Это Зулейха Сеидмамедова — одна из первых летчиц-азербайджанок, летчик-истребитель, капитан, штурман истребительного авиационного полка. Это и Сона Нуриева — советская летчица, депутат Верховного Совета СССР первого созыва.

Стоит также отметить, что первой азербайджанкой, ставшей капитаном дальнего плавания, была Шовкет Салимова.

Во время активной фазы армяно-азербайджанского нагорно-карабахского конфликта 2000 из 74000 азербайджанских военных составляли женщины, и 600 из них непосредственно принимали участие в военных операциях. Национальные герои Азербайджана, журналист Салатын Аскерова и врач Гюльтекин Аскерова, погибшие на карабахском фронте, стали символом самоотверженности нового периода.

**Новое время.** – 2022. – 4 августа. – № 104. – С. 13.

# Свет неугасимый

## Профессиональное кредо Зарифы Алиевой – поиск новых направлений науки

**Галия Алиева**

Выдающийся азербайджанский офтальмолог Зарифа Алиева, которой 28 апреля исполнилось бы 96 лет, до сих пор служит примером для миллионов азербайджанских женщин – ведь это образец ученого, врача, матери, супруги, общественного деятеля. Она жила и работала во благо своего народа.

Сегодня научная школа академика Зарифы Алиевой – это тысячи квалифицированных специалистов по всему миру. А крупнейший Офтальмологический центр в нашей стране, носящий имя Зарифы ханым Алиевой, это современное медицинское учреждение, соответствующее мировым стандартам – еще один результат ее напряженной работы.

**Быть там, где нужнее**

По словам президента Национальной академии наук Азербайджана академика Акифа Ализаде, Зарифа Алиева была не только прекрасным ученым, она была также человеком большой культуры. «Людей восхищало ее знание нескольких языков, – говорит он. – Своей деятельностью академик Алиева высоко подняла авторитет азербайджанской науки, а за выдающуюся научную деятельность была удостоена высшей награды Академии медицинских наук СССР – премии имени М. И. Авербаха».

Академик-секретарь отделения биологических наук НАНА, председатель парламентского комитета по здравоохранению Ахлиман Амирасланов считает, что Зарифа Алиева для своих исследований никогда не выбирала легкой сферы, вела бескомпромиссную борьбу со свирепствующей в то время трахомой, которая в некоторых регионах Азербайджана приобрела даже характер эпидемии. «Под руководством Зарифы Алиевой, которая прошла в Москве курсы повышения квалификации в данной области, была создана большая группа и началась борьба с этим заболеванием, а в Институте физиологии НАНА ею была создана специализированная научно-исследовательская лаборатория по изучению профессиональной патологии органов зрения», – заключил ученый.

Кадры послевоенной кинохроники донесли до нас боль и ужас людей с обезображенными рубцами лицами, воспаленными отекшими глазами, что видно даже в черно-белом формате документального фильма о подлинной пандемии трахомы в Кура-Аразской зоне Азербайджана. Заболевали целыми семьями, целыми деревнями, и, казалось, жертвы страшной болезни, поразившей хлопкоробов и рыбаков, обречены на слепоту и страдания. Однако помощь пришла вовремя. В пораженные трахомой районы республики был брошен настоящий медицинский десант, группы врачей и фельдшеров – требовалось не только начать лечение больных на местах, но и провести целый профилактический комплекс, чтобы остановить стремительное распространение болезни.

Одну из таких групп возглавила совсем молодой врач-офтальмолог Зарифа Алиева, жена оперативного работника КГБ республики Гейдара Алиева. Она поехала в самый очаг пандемии не по приказу, не по чьей-то воле. Это было добровольное решение – быть там, где ты нужен своей стране и делать то, что нужно делать в самых трудных обстоятельствах. Доктор Алиева не просто лечила людей, объясняла им правила профилактики, вместе с ними разделяя все трудности жизни в послевоенной деревне. Она рискнула применить ею же разработанный метод лечения антибиотиками, собрала огромный фактический материал по предупреждению трахомы и, не боясь заразиться, ездила в отдаленные пастушьи эйлаги к больным, которые не могли в силу обстоятельств добраться до больницы райцентра или клиник азербайджанской столицы.

Пандемия трахомы была остановлена в самые сжатые сроки, тысячам людей было сохранено зрение, но молодой врач уже в НИИ офтальмологии продолжала разрабатывать свой метод лечения. Результатом ее трудов стала кандидатская диссертация «Лечение трахомы синтомицином в комбинации с другими методами терапии», защищенная в 1960 году. Работу высоко оценили специалисты, и, как формулируют медики, «лечение трахомы по методу Алиевой» было широко внедрено в клиническую практику советских офтальмологов. В 1966 году трахома была окончательно побеждена в Азербайджане, что стало беспрецедентной победой отечественной медицины и настоящим научным прорывом молодого врача.

**Сквозь призму достижений**

По мнению директора Офтальмологического центра, доктора медицинских наук профессора Эльмара Гасымова, именно Зарифа ханым Алиева добилась признания азербайджанской офтальмологии во всем мире, проведя ряд ценных исследований по изучению влияния на орган зрения физиологических, клинических, функциональных, гистологических механизмов и став источником света для азербайджанской науки.

Выдающимся ученым было написано порядка 200 научных работ, 14 монографий, на ее счету 12 рационализаторских предложений. Кроме того, она активно вела общественную деятельность, была членом президиума Всесоюзного общества офтальмологов, Советского комитета защиты мира, правления Азербайджанского офтальмологического общества.

Все, кто знал эту неординарную женщину, единодушно отмечали, что она, будучи преданной дочерью, любящей женой и доброй матерью, никогда не находилась в тени своего отца, известного ученого и общественного деятеля Азиза Алиева, и мужа – Гейдара Алиева, человека, которого народ Азербайджана назвал со временем своим общенациональным лидером. Профессиональное кредо замечательного офтальмолога эксперты определяют, как постоянный поиск новых направлений науки. В 60-е годы, когда весь мир смотрел на свое развитие сквозь призму индустриальных достижений и еще не было таких понятий, как «экология производства», доктор Алиева одной из первых в СССР начинает разрабатывать новое научное направление – профессиональные болезни глаз у работников химической промышленности.

В советский период Азербайджан считался одним из центров химической промышленности в Союзе, поэтому именно в это время было чрезвычайно важно изучение влияния химической промышленности на органы зрения. По воспоминаниям директора Института физиологии НАНА доктора биологических наук Улдуз Гашимовой, Зарифа ханым также проводила исследования по изучению влияния пестицидов на органы зрения, в котором приняли участие около 500 человек, находившихся в тесном контакте с пестицидами. В результате исследования стало известно, что под влиянием химикатов значительно увеличиваются воспалительные заболевания глаз.

А начиналось ее увлечение медициной в 1942 году, когда Зарифа Алиева после окончания средней школы поступила на лечебно-профилактический факультет Азербайджанского государственного мединститута, который окончила в 1947 году. Затем прошла курс специализации по офтальмологии в Центральном институте усовершенствования врачей в Москве.

Стремление к научным исследованиям привело Зарифу Алиеву в Азербайджанский НИИ офтальмологии, где она начала работать в качестве врача-ординатора. Затем – аспирантура, дальнейшая научная деятельность, кафедра глазных болезней Азербайджанского государственного института усовершенствования врачей Минздрава, который носил имя ее отца – профессора Азиза Алиева, руководившего последние годы своей жизни этим институтом. В этот период своей жизни доцент Зарифа Азизовна продолжает заниматься врачебной деятельностью – много оперирует, консультирует больных, причем ее практика не ограничивается только своей клиникой, а охватывает все офтальмологические учреждения страны. К этому прибавляется большая педагогическая работа с врачами-слушателями курсов усовершенствования по глазным болезням.

**Ценный образцовый труд**

Несмотря на большую занятость практической медициной и подготовкой кадров, Зарифа Алиева продолжала уделять большое внимание своим научным исследованиям. В это время проявился ее интерес к целому ряду актуальных вопросов клинической и теоретической офтальмологии, среди которых особое место занимают проблемы диагностики, лечения глаукомы и некоторых воспалительных заболеваний органов зрения, травм и др. Ее внимание привлекла такая мало разработанная область офтальмологии, как профессиональная патология органов зрения. Актуальность этой проблемы диктовалась не только значительным развитием химической и электротехнической промышленности, но и тем, что много вопросов, касающихся механизма воздействия на органы зрения целого ряда новых химических соединений, оставались практически неисследованными.

Вопросами профессиональной патологии органов зрения Зарифа Алиева начала целенаправленно заниматься с 1968 года. Несмотря на значительный круг вопросов, которыми она занималась, глубокий и многосторонний интерес к проблеме профессиональных заболеваний глаз она пронесла через всю свою жизнь. При этом главное внимание уделяя широкому кругу проблем, касающихся влияния на микро- и ультра-микроструктуру, функцию и биохимию органов зрения и вспомогательного аппарата неблагоприятных профессиональных факторов, связанных с работой человека на промышленных предприятиях йодовой, резинотехнической и нефтехимической промышленности.

Результаты многолетних наблюдений, клинических исследований и экспериментов составили основу докторской диссертации Зарифы Алиевой, которая была защищена в одном из авторитетных офтальмологических центров мира – Московском НИИ глазных болезней имени Г. Гельмгольца. Диссертация Зарифы Алиевой, результатом которой стало присуждение ей степени доктора медицинских наук, получила высокую оценку и признание ведущих ученых-офтальмологов и имела большой резонанс в научном мире. Известный офтальмолог академик А. Нестеров назвал ее работу «ценным образцовым трудом». А Зарифа ханым, не оставляя своих исследований в области профессиональных патологий, увлеклась новым для отечественной медицины направлением – иридодиагностикой. Она – один из

авторов уникального труда «Основы иридодиагностики», ставшего настольной книгой для многих практикующих врачей.

В 1977 году по инициативе профессора Зарифы Алиевой в Баку был проведен пленум правления Всесоюзного общества офтальмологов, который поддержал ее предложение по созданию первой в Азербайджане специализированной научно-исследовательской лаборатории по изучению профессиональной патологии органов зрения. Это было уникальное научное подразделение, развернутое непосредственно на производстве – Бакинском заводе бытовых кондиционеров, основным научным направлением которого стало изучение влияния на органы зрения производственных вредностей малой интенсивности в условиях современного производства. Наряду с клиническим и функционально-диагностическим отделением в лаборатории было развернуто и хирургическое отделение.

Много сил и времени Зарифа Алиева уделяла делу подготовки кадров для практического здравоохранения и повышению квалификации врачей. Под ее непосредственным руководством подготовлена большая группа молодых ученых и врачей-офтальмологов. Всем своим ученикам Зарифа Алиева щедро дарила свой богатый профессиональный и жизненный опыт, внимание и тепло своего сердца. Она работала упорно, вдохновенно и увлеченно. Врачебная самоотверженность, высокая гражданственность, необычайная душевность и отзывчивость, внимание, проявляемое к людям и их проблемам, и активная жизненная позиция снискали ей заслуженное уважение и любовь коллег, учеников и пациентов.

Признанием больших заслуг, многолетней научно-исследовательской работы стало избрание в 1983 году профессора Зарифы Алиевой академиком Академии наук Азербайджанской Республики. Ее заслуги были оценены высокими правительственными наградами, ей было присвоено почетное звание заслуженного деятеля науки Азербайджана.

Безвременная кончина в возрасте 62 лет прервала научные изыскания выдающегося офтальмолога, которая скончалась 15 апреля 1985 года в Москве.

**Каспiй**. – 2019. – 27 апреля. – № 76. – С. 8.

## Глашатай высоких человеческих качеств

## Ко дню рождения Зарифы ханым Алиевой

**Эльмира Алиева**
заслуженный журналист Азербайджана

Случилось так, что еще до личного знакомства с Зарифой ханым Алиевой я уже много слышала о ней. Помню, коллеги из газеты «Вышка», редакция которой в 50-е годы прошлого столетия располагалась по бывшей улице имени Зевина, в здании напротив дома, где жила семья известного в нашей республике врача, ученого и крупного государственного деятеля Азиза Алиева, с восторгом рассказывали мне, с каким удовольствием слушают они – естественно, в теплую пору, когда открыты окна, – самую разную музыку, начиная с классической и до азербайджанских народных песен, в исполнении на рояле в четыре руки дочерей главы этого семейства, Зарифы и Гюляры…

Спустя годы, уже примерно в первой половине 70-х, посетив как-то в качестве собственного корреспондента газеты «Известия» в Азербайджане уже вступивший тогда в строй Бакинский завод бытовых кондиционеров, я узнала, что ученый-офтальмолог Зарифа Алиева разработала комплекс разносторонних мер профилактики профессиональных заболеваний органа зрения тружеников этого предприятия. Довелось увидеть даже ее рабочий кабинет на заводе…

Много доброго о ней – ее профессионализме, высоких человеческих качествах – говорили мне те, кто работал рядом с ней на кафедре офтальмологии Азербайджанского государственного института усовершенствования врачей, носившего имя ее уже ушедшего из жизни отца – профессора Азиза Алиева, руководившего этим институтом в последние годы своей жизни…

Словом, уже до моей первой и случайной встречи с Зарифой ханым, к сожалению, ставшей единственной, но запомнившейся мне, я уже располагала довольно богатой информацией о ней…

Мне в частности было известно от медиков, которых среди моих друзей и знакомых всегда было немало, что, окончив лечебно-профилактический факультет Азербайджанского государственного медицинского института, Зарифа Алиева прошла курс специализации по офтальмологии в Центральном институте усовершенствования врачей в Москве, а вернувшись домой, в Баку, работала поначалу врачом-ординатором в научно-исследовательском институте офтальмологии, поступила в аспирантуру, завершив которую во второй половине 50-х годов, стала научным сотрудником этого института. Те, кто работал с ней, говорят о ней как о серьезном ученом, всегда с высокой ответственностью относившемся к тому, что стало делом ее жизни.

Помню, мне рассказывали, как активно она участвовала, в частности, в борьбе с таким распространенным в те годы в Азербайджане злом, как трахома, занимаясь лечением и проведением профилактических мер, в связи, с чем довольно часто выезжала в районы республики, где заболеваемость была особенно высока. Результаты связанных с этой глазной болезнью исследований составили основу кандидатской диссертации молодого ученого, после успешной защиты которой Зарифа ханым была избрана старшим научным сотрудником НИИ офтальмологии. А спустя несколько лет в ее жизнь на долгие годы вошел Азербайджанский государственный институт усовершенствования врачей.

Пожалуй, это был период наиболее интенсивной врачебной деятельности Зарифы Алиевой: она много оперирует, консультирует больных, ведет большую педагогическую работу с врачами-слушателями курсов усовершенствования, демонстрируя присущий ей, как выяснилось, педагогический дар.

Однако наряду с деятельностью, направленной на повышение профессионализма специалистов, на усовершенствование их врачебной квалификации, Зарифа ханым уделяла огромное внимание также вопросам врачебной этики и медицинской деонтологии – взаимоотношений между врачом и пациентом, между коллегами, от чего в немалой степени зависит общий успех.

Как-то в одной из посвященных этой удивительной женщине статей я ссылалась на воспоминания о ней ее коллеги, профессора Зары Кулиевой. Напомню их читателю. «Будучи кристально чистым, честным и бескорыстным человеком, – говорила Зара ханым, – она выступала глашатаем высоких человеческих качеств, хотела видеть в каждом медицинском работнике эталон высокой нравственности. Об этом она говорила с высоких трибун, об этом много писала»…

Человек добрый, отзывчивый, она умела дарить окружающим ее людям тепло своего сердца, доброту. Так характеризуют Зарифу Алиеву все, кто хоть раз встречался с ней. И разве не говорит это о ее глубоком интеллекте и духовном богатстве?! При этом Зарифа ханым, утверждают все знавшие ее, была очень скромна, не любила показуху, никогда не выпячивала себя, хотя и была дочерью такого

уважаемого, известного и за пределами Азербайджана человека, как Азиз Алиев, а потом стала спутницей жизни такой выдающейся личности, как Гейдар Алиев.

Успешно занимаясь практической медициной, увлеченно продолжая педагогическую деятельность, Зарифа ханым не отказывалась и от научно-исследовательской работы. Наряду с изучением таких актуальных вопросов, как диагностика, лечение глаукомы и других заболеваний органов зрения, она обратилась и к такой мало разработанной области офтальмологии, как профессиональная патология. В связи с этим часто посещала предприятия получивших в тот период наибольшее развитие в нашей республике химической, электротехнической промышленности, других сопредельных с ними отраслей, где изучала вопросы, касающиеся механизма воздействия на орган зрения ряда новых химических соединений.

Результаты многолетних наблюдений, клинических исследований и экспериментов, касающихся состояния органа зрения у работников некоторых предприятий химической промышленности Азербайджана, нашли яркое отражение в посвященной этой проблеме докторской диссертации, которую Зарифа ханым успешно защитила в Московском научно-исследовательском институте глазных болезней имени Г. Гельмгольца, считающемся одним из авторитетных офтальмологических центров мира. Азербайджанскому ученому, ставшему, можно сказать, пионером в области изучения профессиональной офтальмологии, была присуждена ученая степень доктора медицинских наук.

Продолжая после защиты докторской работать в Азербайджанском государственном институте усовершенствования врачей, Зарифа ханым Алиева избирается здесь профессором, а потом и заведующей кафедрой офтальмологии. И в этом качестве она, собрав вокруг себя молодых способных врачей, продолжает углубленную научно-исследовательскую работу, которой очень помог и организованный в Баку по инициативе профессора Зарифы Алиевой пленум правления Всесоюзного общества офтальмологов.

Проведенный в нашей столице впервые, пленум этот поддержал, в частности, предложение главного его организатора создать в Азербайджане специализированную научно-исследовательскую лабораторию по изучению профессиональной патологии органа зрения. Тогда и появилась на Бакинском заводе бытовых кондиционеров лаборатория, призванная изучать влияние на органы зрения, как говорят ученые, «производственных вредностей». В этой лаборатории действовало и хирургическое отделение.

Надо отметить, что Зарифа ханым, судя по рассказам ее коллег, работавшим рядом с ней, была неугомонным человеком, что способствовало постоянному расширению ее научных интересов. Именно по ее предложению чуть позже в Институте физиологии имени А. И. Гараева Академии наук Азербайджана начала действовать проблемная лаборатория физиологии профессиональной патологии органов зрения. Ее серьезная, углубленная исследовательская работа получила высокое признание: профессор Зарифа Алиева была удостоена высшей награды в области офтальмологии – премии имени академика М. И. Авербаха Академии медицинских наук СССР, став в нашей большой тогда стране первой женщиной-ученым, получившей эту высокую награду.

Научные интересы исследователя были весьма разнообразны. Помимо проблем профессиональной патологии глаза она изучала также вирусные поражения органа зрения, результаты чего нашли отражение в целом цикле ее работ. Словом, диапазон исследований ученого-офтальмолога был достаточно широк: перечислить все, что оставила в наследие своим коллегам профессор Зарифа Алиева, просто невозможно, но еще одну ее работу все же назову. Речь о коллективном фундаментальном труде «Терапевтическая офтальмология», одним из авторов которого является Зарифа ханым. Эта работа, как, впрочем, и подготовленная в соавторстве с российскими учеными монография «Актуальные вопросы офтальмологии», в которой воплощен богатый педагогический, научный и практический опыт нашей соотечественницы, и ныне служит настольной книгой для каждого врача-офтальмолога в практической работе.

Заслуги ученого, конечно же, получили признание. Профессора Зарифу Алиеву избрали академиком Академии наук Азербайджанской Республики. Она по праву стала кавалером ряда орденов и медалей. Ей было присвоено почетное звание заслуженного деятеля науки Азербайджана…

Вот такой богатой событиями, насыщенной делами, отвечающими ее многогранным интересам, была жизнь этой замечательной женщины.

И тут мне бы хотелось особо отметить еще один ее талант – талант Материнства. Зарифу ханым считали добрым гением домашнего очага. Будучи ласковой матерью и мудрой женой, она, всегда поддерживаемая главой семьи, старалась вырастить своих детей не только широко образованными людьми, но и привить им все то хорошее, что хотела видеть в окружавших ее людях: ответственность, целеустремленность, доброту в самом широком понимании этого слова. И, слава Аллаху, мы стали свидетелями того, что такими она, Мать в самом высоком смысле этого слова, и вырастила своих детей – в частности сына, которому мы недавно в очередной раз вверили судьбу нашей Родины…

…Всякий раз, когда я берусь за перо, чтобы вновь представить читателям Зарифу ханым, я с большой теплотой и симпатией к ней вспоминаю и нашу случайную встречу…

Произошла она в клинической больнице тогдашней Лечкомиссии, куда я пришла навестить свою больную маму. Войдя в палату и увидев там известного офтальмолога, к тому же жену первого секретаря ЦК партии, которую многие из нас, естественно, знали в лицо, удивилась. Но это была какая-то доля секунды: Зарифа ханым улыбнулась мне, как знакомому человеку, и сразу объяснила свое присутствие. Оказалось, что мамина соседка по палате приходится ей тетушкой – вот к ней она и пришла. А с мамой вашей, сказала она мне, мы знакомы: она ведь часто отдыхала в мардаканском санатории той же Лечкомиссии вместе с моей мамой, и нередко заранее договорившись о времени отдыха. У них сложились, насколько мне известно, очень добрые отношения. И действительно, о милейшей Лейли ханым мама наша говорила всегда очень тепло…

Разговорившись, мы выяснили, что есть еще одна ниточка, объединявшая нас: дружба ее сестры Гюляры, талантливого музыканта, руководителя получившего признание ансамбля «Дан улдузу», с моей подругой, вместе с ней учившейся в консерватории. Зарифа ханым сетовала, помню, что Гюляра не придает значения своему внешнему виду – кстати, сама Зарифа ханым была всегда подтянута, строго и с большим вкусом одета. Слово за слово мы затронули даже чисто женскую тему: как держать спортивную форму, что модно нынче в мире и многое другое. Честно говоря, я увидела перед собой еще и просто женщину, желавшую, как и все мы, хорошо выглядеть…

Более 40 лет минуло со времени моей незапланированной встречи с Зарифой ханым Алиевой. Но, вспоминая ее, мне почему-то хочется улыбнуться. И я всегда думаю о том, что, наверное, самим Всевышним было предопределено, что именно она, Зарифа Алиева, большой ученый, человек высоких человеческих качеств, оказалась избранницей общенационального лидера азербайджанского народа, став ему верным другом, опорой, умным советчиком…

Уверена, память о них будет жить вечно!

**Каспiй**.-2018.-28 апреля.-№76.-С.9.

## İşıqlı insan

**İradə ƏLİYEVA**

Böyük şəxsiyyətlər, həqiqi elm fədailəri yaşadıqları mühitin hüdudlarına sığmırlar. Onlara insanlığın zirvəsi, bitib-tükənməyən örnək məktəbi desək, yanılmarıq. Çünki belə şəxsiyyətlər həmin zirvəni qeyri-adi əməksevərliyi, təmənnasız xeyirxahlığı, fitri istedad, nadir bilik və qabiliyyətləri hesabına fəth edirlər. Bu baxımdan Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan yüksək intellekt sahibi, akademik, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir, onun yazıb-yaratdığı monumental əsərləri, qoyub getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, mədəni irsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərlərinin mövzusuna çevrilir.

Zərifə xanım Əliyeva gözlərə nur bəxş edən görkəmli həkim-oftalmoloq idi. Sənətinə sevgisi onu bu sahənin dərinliklərinə varmağa sövq etmiş, gərgin elmi axtarışları bir sıra göz xəstəliklərinə çarə tapılmasına səbəb olmuşdu. Bu, eyni zamanda, alimin özünə şan-şöhrət qazandırmış, elm yollarında akademikliyə qədər yüksəltmişdi.

Zərifə xanım Əliyevanın istər bir həkim və alim, istərsə də bir şəxsiyyət kimi həyatı öz xalqının həyatından, bir az da dəqiq ifadə etsək, xalqının tarixindən ayrılmazdır. Ola bilsin ki, onun özü yaşadığı illərdə baş verən böyük ictimai-siyasi hadisələrin heç də hamısında bilavasitə iştirak etməyib. Amma bu hadisələrin əksəriyyəti Zərifə xanımın həyatından qırmızı xətlə keçib. Çünki Zərifə xanım görkəmli ictimai-siyasi xadim, bir-birinin ardınca böyük vəzifələr daşımış və öz dövrünün kəşməkəşlərini yaşamış Əziz Əliyevin övladı idi.

Çünki Zərifə xanım dünya səviyyəli siyasətçi, ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı idi.

Zərifə Əliyeva ana idi. Övladlarını ilahi bir məhəbbətlə sevən, oğul-qız qayğısı və cəfası çəkən, onların təlim-tərbiyəsinə ömrünü həsr edən bir ana!

### Həkimliyə məhəbbəti atasından əxz etmişdi

Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi qurtarıb Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub və oranı 1947-ci ildə bitirib. Sonra Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçib.

Zərifə xanım həkim ailəsində böyümüşdü, sənətinə vurğunluğu atası Əziz Əliyevdən əxz etmişdi. Onun həyat fəlsəfəsi ilk növbədə, uşaqlıq çağlarından qaynaqlanırdı. Sonradan özü də etiraf edirdi ki, uşaqlıq çağları insanın özünü dərk etməsində həlledici mərhələdir və insanın bütün ömrü boyu müraciət etdiyi uşaqlıq dünyasını heç nə ilə əvəz etmək mümkün deyil. İnsan məhz uşaqlıqda xeyrin və şərin nə olduğunu anlayır.

Zərifə xanımın dünyaya göz açdığı ailə Azərbaycanın əsil-nəcabətli, soylu-köklü ailələrdən biri idi. Elm və mədəniyyət xadimlərinin çoxu onun ata evinin daimi qonaqları olurdu. Əziz Əliyevin ailəsində uşaqların tərbiyəsinə böyük diqqət yetirildiyini sonralar şahidlərin hamısı xüsusi vurğu ilə qeyd ediblər.

Bu böyük şəxsiyyətin həyatının bütün mürəkkəb mərhələləri, onun övladları üçün əslində, həyat dərsləri idi. Şəxsi nümunəsi ilə övladlarına mübariz olmağı aşılamışdı. Bunu inam və ümid dərsi də adlandırmaq olar.

Elmi tədqiqatlara olan maraq və irsən qanına-iliyinə hopmuş həmin inam Zərifə Əliyevanı Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirir. Orada həkim-ordinator kimi işə başlayır. 1950-ci ildə aspiranturaya daxil olur. İnstitutda elmi işçi kimi çalışır.

Həmin illərdə Azərbaycanı traxoma göz xəstəliyi bürümüşdü. Üstəlik də, xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Odur ki, onunla mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütünlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edirdi. Həkim Bakıda insanları müalicə etməklə kifayətlənmir, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, oftalmoloqlara mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı.

Başqa sözlə, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü diktə etmişdi. Alim tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, daha doğrusu, traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən - sintomitsindən istifadə olunmasına həsr etdi. Çünki sintomitsin geniş antibakterial spektrlərlə yanaşı, antixlamedik fəallığa malik idi. Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etdi. Alim qlaukomanın öyrənilməsi ilə bağlı sonralar da bir sıra tədqiqat işləri aparır.

1967-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət alır. Həmin dövrdə həkimlik fəaliyyəti ilə məşğul olur, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələri qəbul edirdi. Bir sözlə, fəaliyyəti təkcə klinikada qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını əhatə edirdi. Göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparır, elmi tədqiqatları üzərində çalışırdı.

Getdikcə oftalmologiyanın bir sıra aktual məsələlərinə daha çox diqqət yetirirdi. Bu məsələlər sırasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi və s. xüsusi yer tuturdu. Çox keçmir ki, alimin diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə demək olar ki, tədqiq olunmaması ilə əlaqədar idi.

1968-ci ildən Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlamışdı. Ümumiyyətlə, bir sıra ciddi elmi məsələlərlə yanaşı, görkəmli alim bütün ömrü boyu peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi probleminə xüsusi maraq göstərmişdir. Eyni zamanda, Zərifə xanım yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanına təsir edən amillərə əsas diqqət yetirmişdir.

Alim bu problem üzərində iş apararkən çox vaxt sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Bununla yanaşı, Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparmışdır. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zərərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

Zərifə Əliyevanın elmi nailiyyətlərinin bir çoxu Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutu ilə bağlıdır. Onun yüksək elmi təşkilatçılığı, təşəbbüsü və rəhbərliyi ilə 1979-cu ildə burada yaradılmış göz xəstəliklərinin professional patologiyası laboratoriyası Azərbaycan oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olmuşdur. İndi də bu məktəbin yetirmələri Zərifə xanımın elmi ənənələrini davam və inkişaf etdirirlər. Həmin laboratoriyanın tədqiqat bazası Bakı Məişət Kondisionerləri Zavodu olmuşdur. Burada elmi tədqiqatlarla yanaşı, müalicə işləri də aparılmışdır. Zərifə xanım Əliyeva alimlik istedadı ilə həkimlik bacarığını mahir şəkildə özündə birləşdirirdi. Akademik həm görmə patologiyasının müalicə metodlarını təkmilləşdirmiş, həm də özünün kəşf etdiyi görmə aparatı vasitəsilə kompleks diaqnostika və erkən cərrahi müalicə üsullarını müvəffəqiyyətlə tətbiq etmişdir.

Alimin çoxillik elmi araşdırmalarının nəticəsi olaraq kimya sənayesi işçilərinin göz xəstəliklərinin tədqiqini ümumiləşdirən, ciddi elmi nəticələr doğuran işi 1976-cı ildə doktorluq dərəcəsinə layiq görülmüşdür. Görmə orqanının vəziyyəti və funksiyasının dərin və hərtərəfli nəzərdən keçirilməsi zamanı şin və yod istehsalı sahəsində çalışan 1500-dən çox insan üzərində müşahidələr aparılmış, spesifik iş şəraitinin, sanitar-gigiyenik durumun görmə orqanlarına mənfi təsiri elmi dəlillərlə sübuta yetirilmişdir. Mövzunun aktuallığı, qarşıya qoyulmuş məqsədin uğurla reallaşdırılması, ən yeni nəzəri müddəaların meydana çıxarılması, hər şeydən əvvəl, elmi işin tətbiqi xarakteri alimə halal doktorluq haqqı qazandırmışdır.

Zərifə xanımın tibb elmləri doktoru adına layiq görülməsinə hamı bir nəfər kimi səs vermişdi. Opponentlər bu işi dərin təhlilə söykənən, elmi kəşf kimi qiymətləndirilən bir iş olduğunu söyləmişdilər. Elə Zərifə xanımın müdafiədəki çıxışının özü də dərin mütəxəssis biliyindən, dissertasiya üçün seçilmiş materialların zənginliyindən xəbər verirdi.

**Elmi axtarışlardan yorulmaq bilmirdi**

Doktorluq dissertasiyasını müdafiə etdikdən az sonra Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilir, 1983-cü ildə isə həmin kafedranın müdiri olur. Görkəmli alim öz ətrafına istedadlı həmkarlarını toplayaraq elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını yüksək səviyyədə təşkil edirdi.

1977-ci ildə professor Zərifə Əliyevanın təklifi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Plenuma hazırlığın və onun təşkilinin bütün ağırlığı da elə Zərifə xanımın öz üzərinə düşdü. Bu, çox əhəmiyyətli bir tədbir idi. Belə ki, Azərbaycanda, eləcə də keçmiş SSR İttifaqının oftalmologiya xidmətinin inkişafına və elmi-pedaqoji kadrların hazırlanmasına öz töhfəsini verdi.

Elmi araşdırmaları nəticəsində Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirdi. Bunlar dünya elmi ictimaiyyətinin diqqətini cəlb edən əsərlər idi.

Özünün zəngin iş təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım həkimin xəstə ilə necə davranmasına aid tövsiyələr verir, bu münasibətlərdə həkimin "söz"lə müalicə edə bilmək bacarığını önə çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir.

Xəstələr professor Zərifə xanımdan üzlərində təbəssüm, ürəklərində sağalmaq ümidi ilə ayrılırdılar. Zərifə xanım xəstəyə tez diaqnoz qoymağa tələsmirdi. İlk növbədə, xəstənin daxili aləmini öyrənməyə çalışırdı. Bir həkim kimi onun yaşayış tərzini, vərdişlərini, şikayətini və xəstəliyin başvermə səbəblərini aydınlaşdırmağa səy göstərirdi. Professorun fikrincə, yalnız belə olduqda obyektiv klinik müayinə əsasında düzgün müalicə təyin etmək mümkündür.

1983-cü ildə Zərifə Əliyeva "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri" əsərini nəşr etdirir. Burada da məhz Zərifə xanımın daxili aləmi, vəzifə borcuna, xəstələrə və ümumən

ətrafdakılara münasibəti bir daha öz əksini tapıb. Əsər elmi olsa da, mahiyyət etibarilə daha geniş əhəmiyyət kəsb edir. O, səhiyyə mövzusu çərçivəsindən çıxaraq məişət və ailə əlaqələri də daxil olmaqla bütövlükdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm əhəmiyyət daşıyır.

Zərifə Əliyeva tibb işçisinin ətrafdakıların tərbiyəsində böyük rol oynadığını, cəmiyyətin əxlaq etalonu olduğunu qeyd edirdi. Akademik haqlı olaraq belə hesab edirdi ki, həkimin həyati mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Cazibəli şifahi nitq mədəniyyətinə malik olan Zərifə xanım həkim-oftalmoloq üçün Azərbaycan və rus dillərində müxtəlif ixtisaslar üzrə yüksək elmi səviyyədə mühazirələr oxuyurdu. Milliyyətcə rus olanların özləri də onun həmin dildəki şifahi danışığına, elmi kürsülərdən yüksələn çıxışlarındakı dəqiq və aydın tələffüzünə heyran qalırdılar. Professor tribunada özünəməxsus danışıq manerası ilə fərqlənir, möhkəm yaddaşına güvənərək bir qayda olaraq yazılı mətnə baxmadan əhatə etdiyi mövzunu rəngli slaydlar və cədvəllərlə əsaslandıra bilirdi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə Əliyeva o zaman oftalmologiya aləmində ən yüksək mükafat sayılan SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ.Averbax adına mükafata layiq görüldü. Zərifə xanım həmin mükafatı alan ilk qadın idi.

Lakin professorun elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Alimin görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş "Herpetik göz xəstəliyi", "Ağır virus konyuktivləri" və digər dərs vəsaitləri məhz bu məsələyə həsr olunmuşdu. Bu dövrdə alim həmçinin qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş xeyli tədqiqatlar aparmışdır. Sonralar bu tədqiqatların nəticəsində bir sıra məqalə və monoqrafiyalar yazıb çap etdirmişdir.

Zərifə Əliyeva həm də gözün zədələnməsinin profilaktikası və müalicəsi imkanlarını öyrənmişdir. Görkəmli alim bir sıra elmi işlərində görmə orqanı zədələndikdə mövcud olan cərrahiyyə əməliyyatları üsullarını araşdırmış, həmin üsulların təkmilləşdirilməsi üçün faydalı tövsiyələr işləyib hazırlamışdır. Bu tövsiyələr cərrahiyyə əməliyyatına məruz qalan zədələnmiş gözün müalicəsini xeyli yüngülləşdirmişdir.

Akademikin bir sıra elmi işləri isə görmə orqanında bədxasiyyətli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdu. Onun daktriologiyadan bəhs edən "Göz sulanmasının fiziologiyası". "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların deyil, həm də fizioloqların diqqətini özünə cəlb etmişdi.

Bu gün də oftalmoloqların stolüstü kitablarından olan fundamental "Terapevtik oftalmologiya"nın müəlliflərindən biri Zərifə xanımdır.

**Təbiət onu xoş çağında yaratmışdı**

Zərifə xanım hələ uşaqlıq illərindən elmə və incəsənətə eyni dərəcədə meyilli idi. Atası Əziz Əliyev də bütün varlığı ilə övladlarına bir həqiqəti aşılaya bilmişdi ki, elm insanlara sadəcə olaraq elmi həqiqətləri dərk etdirə bilər. Odur ki, tez-tez bu sözü təkrar etməyi xoşlayardı: "Əgər həkim təkcə həkimdirsə, deməli, o, pis həkimdir". Bu mənada Zərifə xanım yüksək peşəkarlıqla yanaşı, səmimi insani münasibətləri üstün tuturdu.

Təbii ki, Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Əbülfəs Qarayev, Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Bülbül, Səməd Vurğun və başqa görkəmli şəxsiyyətlərlə ailəvi və mənəvi yaxınlıq telləri ilə sıx bağlı olan mühitdə boya-başa çatmış Zərifə xanım özündə azərbaycanlı ziyalı qadınının ən gözəl nümunəsini təcəssüm etdirirdi.

Əziz Əliyevin daşıdığı vəzifələrlə əlaqədar müxtəlif coğrafi məkanlarda yaşaması övladlarının başqa xalqların dilini öyrənməsinə, mədəniyyətinə bələd olmasına imkan verirdi. Ailənin daim bir yerdən başqa yerə köçməsi Zərifə xanımın da dünyagörüşünün genişliyinə səbəb olmuşdu. Uşaqlıqdan rus, tatar, özbək, ləzgi, avar dilini və nəğmələrini eşitmişdi. Lakin bütün bunlardan öncə, onun daxili dünyasını Azərbaycan mədəniyyəti, musiqisi bəzəyirdi. Zərifə xanımın alimliyi də, xarici görünüşü də, daxili aləmi də ata-anasından əxz etdiyi əmanət idi.

Zərifə Əliyevanın hərtərəfli istedadı incəsənət sahəsində də üzə çıxmışdı. O, fortepiano sinfi üzrə musiqi təhsili almışdı. Həm klassik, həm də populyar musiqini ifa edirdi.

Professor A.Dobromıslov yazır: "Mən Zərifə xanımın təkcə musiqi ifa etməsini yox, həm də musiqiyə necə qulaq asmasını görmüşəm. Sanki ifa olunan musiqi onun sifətində öz əksini tapırdı. Tamaşanın gedişində onun üzünə baxmaq kifayət idi ki, tamaşanı bəyənib-bəyənmədiyini müəyyənləşdirəsən. Həmişə baxışlarından ətrafda baş verən hadisələrə fəal münasibət bəslədiyini oxumaq olardı. Onun gözləri valeh olur, təsdiq edir, gülür, bəzən də təəccüblənir, narazılığını və barışmadığını büruzə verirdi. Fəqət heç zaman laqeydlik ifadə etmirdi. Zərifə xanımın gözləri sanki "danışan gözlər" idi. Bir dəfə estrada konsertinə qulaq asırdıq. Hiss olunurdu ki, müasir

ansamblın gur səsi, onu müşayiət edən səs-küyü, ifaçının oxumağı Zərifə xanımın xoşuna gəlmir. Lakin onun alicənablığı, tərbiyəsi əsərdən və onun ifasından narazı qaldığını söyləməyə imkan vermədi: o, sadəcə, zövqlərin müxtəlif olduğunu, həmin musiqinin də kiminsə xoşuna gəlməsinin mümkünlüyünü qeyd etməklə kifayətləndi".

Zərifə xanım hər zaman - siyasət, mədəniyyət, incəsənət barəsində söhbət gedərkən öz dərin duyumu, həssaslığı ilə hamını heyran edirdi. Onun bədii duyumu, istedadı da bənzərsiz idi. Sənət haqqında söhbətlərindən doymaq mümkün deyildi.

Görkəmli alim ünsiyyətdə nəzakətli və mülayim idi, eyni zamanda, öz prinsiplərini müdafiə edəndə inadkarlığı və mübarizliyi də üzə çıxırdı. İnsani münasibətlərdə kimin səmimi və ya qeyri-səmimi olduğunu dərhal hiss edirdi.

Professor, əməkdar elm xadimi N.Şulpina öz xatirələrində yazır: "Azərbaycanda Ukrayna incəsənəti ongünlüyü keçirilərkən onun etdiyi parlaq çıxışı xatırlayıram. Ukrayna artistləri ilə bir dəstədə Xəzər dənizinin məşhur "Neft Daşları"na getmişdik. Zərifə Əziz qızı da bizimlə idi. Bu, mənim həyatımın ən unudulmaz səhifələrindən biridir. Hər şey gözəl idi, dənizin coşqun dalğaları da, sənət adamlarının həmişə maraq doğuran dünyası da, "Neft Daşları" da, orada toplaşdığımız salon da... Amma ki o günə Zərifə xanım xüsusi rövnəq verirdi.

Sanki hamı tərəfindən kəşf olunan Zərifə xanım masa arxasında çıxış etdi, respublikanın qazandığı uğurlardan, səhiyyə və mədəniyyət sahəsindəki önəmli hadisələrdən danışdı. Onun çıxışı həqiqətən, parlaq və faktlarla zəngin idi. Mən eşitdiklərimə heyrət edirdim... Fəxr edirdim ki, bizim aramızda təbiətin xoş çağında yaranmış zəngin mənəviyyatlı bir insan yaşayır".

### Övladlarını Tanrının nurlu payı sayırdı

Və bütün bunlarla yanaşı, bəlkə də bütün bunlardan öncə Zərifə xanım sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana idi. Onun öz ailəsi üçün necə əvəzsiz dəyər kəsb etdiyini həyat yoldaşı - ulu öndərin özü də, övladları da dəfələrlə söyləyib. Bunu onların ailəsini yaxından tanıyanların dili ilə çatdırmaq da çox maraqlıdır.

Tibb elmləri doktoru, professor A.İmaməliyev yazır: "İnsan taleləri bir-birinə oxşayır, ancaq bir-birini təkrarlamır. Bir-birinin tam eyni olan insanlar da yoxdur. Zərifə Əziz qızı və Heydər Əlirza oğlu da bu mənada istisna deyildilər. Onlar da hamı kimi balalarını böyüdür, valideynlərinin qayğısına qalır, hərdən sevinir, hərdən də kədərlənirdilər. Xidməti qulluqda da, ictimai işlərdə də uğurlar və uğursuzluqlar bir-birini əvəz edirdi. Ancaq onlar heç nəyə baxmadan bir-birini mənən zənginləşdirir, çətinliklərə bir yerdə mərdliklə sinə gərirdilər... Zərifə xanım dünyamızdan vaxtsız köçdü. Ancaq onlar birlikdə həqiqətən də, böyük və parlaq bir ömür yaşadılar".

Professor Fatma Abdullazadə öz xatirələrində Zərifə xanımın fədakar bir ana olduğunu vurğulayır: "Zərifə xanım qeyri-adi bir ana idi və övladlarına olan münasibəti də xüsusi idi. Belə münasibətin bənzərini tapmaq çətindir. O, uşaqlarını sanki ulu Tanrı tərəfindən bəxş olunan bir nur payı kimi qəbul edirdi. O, özünə rəhm etmirdi, öz analıq borcunu yerinə yetirməkdə də özünə rəhmi gəlmirdi. Hərdən analar öz uşaqlarına olan məhəbbətdə elə yüksək dərəcələrə çatırlar ki, bununla hamını heyrətə gətirirlər. Zərifə xanım belə analardan idi".

Zərifə xanımın dostu və həmkarı, professor Zəhra Quliyeva onu belə xatırlayırdı: "Zərifə xanım qeyri-adi bir qadın idi. O, heç də hamıya qismət olmayan böyük bir qabiliyyətin sahibi idi. Bu, sevə bilmək qabiliyyəti idi. Həyatda nə edirdisə, sevgi ilə edirdi. Onun sevgisinin qüvvəsi öz ailəsinin hüdudlarında daha parlaq əks olunur, daha artıq duyulurdu. O, uşaqlarına, sonra isə nəvələrinə sevgisində özünü unudurdu. Zərifə xanım Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin ləyaqətli ömür-gün yoldaşı, sədaqətli dostu, sevimli qadını və əqidə yoldaşı idi. Bacımızın xatirəsi ilə bağlı ötən günlərimiz heç vaxt yadımdan çıxmır. Yaddaşımda tələbə Zərifənin şən və qayğısız siması, gəlin Zərifənin xoşbəxtliyi və həyəcanı, ana Zərifənin nəvazişkarlığı, ictimaiyyətçi Zərifənin ehtiraslı, alovlu fəaliyyəti, alim Zərifənin müdrikliyinə aid nə qədər fakt və hadisələrlə əyaniləşib".

Bütün bunlara görə də ulu öndər deyirdi: "Zərifə xanımın həyatdan getməsi bizim ailəmizi, şəxsən məni və mənim övladlarımı çox sarsıtdı. Hər bir ailə üçün itki itkidir. Burada hər şeyə fərq qoymaq olmaz. Ancaq hər bir insan da, ailə də özünün daxili mənəviyyatına, yaxud xüsusiyyətinə uyğun olaraq ailəyə baş vermiş faciəyə, bədbəxt hadisəyə, yaxud itkiyə öz münasibətini bildirir. Ümumiyyətlə, ailəmiz çox həssas ailə olduğuna görə Zərifə xanımın vəfatı bizim üçün çox ağır olmuşdur... Biz bu gün də razılaşa bilmirik ki, onsuz yaşayırıq. Onun xatirəsi bizim qəlbimizdə, nəinki qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində daim yaşayacaqdır".

Zərifə xanımı bu gün təkcə öz ailəsində və öz vətənində deyil, bir çox başqa məmləkətlərdə də yad edir, unutmurlar. Onun xeyirxah əməllərini, bir alim və ictimaiyyətçi kimi görmüş olduğu gərəkli işləri minnətdarlıqla xatırlayırlar.

"Zərifə xanım Rusiya və Azərbaycan oftalmoloqları arasında ünsiyyət körpüsü salmışdı. Oftalmoloqlar bir-biri ilə sıx dostluq və əməkdaşlıq edirdilər. Müştərək elmi əsərlər çap etdirirdilər. Bir-biri ilə xeyirxah münasibətdə olurdular". Akademik Larisa Maşetova belə deyir.

Gürcüstanın tanınmış oftalmoloqu İoni Beradze isə onun qonşu ölkədə də hörmətlə yad edildiyini vurğulayır: "Zərifə xanım Əliyevanı Gürcüstanda çox yaxşı tanıyır, onu sevirlər və yüksək qiymətləndirirlər. O, ölkələrimizin oftalmoloqları arasındakı xeyirxah ənənələri davam etdirmişdir".

Lakin öz xalqı üçün Zərifə Əliyeva beşqat, onqat əzizdir. Həm qoyduğu elmi xəzinəyə, həm də ata-baba ənənəsini davam etdirərək ömrünü, zəkasını, bütün qüvvə və bacarığını xalqına, dövlətinə bəxş edən bir ailənin Anası olduğuna görə!

**Azərbaycan.** - 2010.-19 sentyabr. - № 204. - S. 4.

## Humanizm mücəssəməsi

**Hicran HÜSEYNOVA,**
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri,
siyasi elmlər doktoru, professor

**Artıq 25 ildir ki, aramızda olmayan, böyük bir nəslin yadigarı, bənzərsiz ziyalı, mərhəmətli insan, alicənab xanım, akademik Zərifə Əliyevanın anadan olmasının 87-ci ildönümüdür. Zərifə xanım müasir xanımlarımız üçün alim qadın idealı, mükəmməl insan və bənzərsiz vətəndaş nümunəsidir. O, özünün yüksək intellekti, həssaslığı, insanlara qayğı və diqqəti sayəsində xalqın dərin hörmətini, sevgisini qazanmışdı. Başqa cür ola da bilməzdi, çünki Zərifə xanım görkəmli ictimai xadim, xalqımızın sədaqətli oğlu Əziz Əliyevin ailəsində doğulub böyümüş, gözəl tərbiyə və mükəmməl təhsil almışdı.**

Əsil-nəcabətli ziyalı mühitində formalaşmış Zərifə xanım milli ailə dəyərlərinin qorunub saxlanılması və möhkəmləndirilməsi, uşaqların milli ənənələr ruhunda tərbiyə olunması, Azərbaycan xalqının adətlərinə yüksək hörmət göstərilməsinin vacibliyini çox gözəl dərk edirdi. Onun üçün atası – görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyev əsl həyat məktəbi olmuşdu. Əziz Əliyevin zəhmətkeşliyi, istedadı, elmə marağı Naxçıvan Muxtar Respublikasının rəhbərliyi tərəfindən qiymətləndirilmiş və tibbi təhsilini Bakıda davam etdirmək ona məsləhət görülmüşdür. Buna görə də Əziz Əliyev ailəsi ilə birlikdə Bakıya köçmüş və təhsilini Azərbaycan Dövlət Tibb İnstitutunda davam etdirmişdir.

Dünyaya Şərur rayonunda göz açmış və həyatının sonrakı mərhələləri Bakı ilə bağlı olan Zərifə Əliyeva 1942-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra atasına və onun peşəsinə olan məhəbbəti ilə əlaqədar Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə -profilaktika fakültəsinə daxil olmuşdur. Fitri istedada, dərin zəkaya malik olan Zərifə Əliyeva institutda keçirilən tələbə elmi toplantılarında məruzələrlə çıxış edir və alimlərlə maraqlı fikir mübadiləsi aparırdı.

Onu da qeyd etmək lazımdır ki, Zərifə xanım tibbi fənləri dərindən mənimsəyən əsl həkim olmaqla yanaşı, digər fənləri də öyrənməyə eyni dərəcədə maraq göstərir, hərtərəfli inkişaf edirdi.

Onu yaxından tanıyanlar yaxşı bilirlər ki, Zərifə xanım ləyaqətli, insanpərvər, çox xeyirxah, mehriban bir qadın idi. Hamıya kömək əli uzadır, hamının qəlbinə yol tapmağı bacarırdı. Bu humanist insan başqalarının dərdini, problemini özününkü hesab edirdi. O, insanları sevirdi, peşəsində qazandığı uğurlar da, əsasən bununla bağlı idi. Xəstələrini doğmalarından ayırmırdı. Buna görə də müalicə etdiyi xəstələr onu çox sevirdilər. Onlara bəxş etdiyi nura, xeyirxahlığa və qayğıkeşliyə, xoş sözlərinə görə onu əziz, doğma adamları hesab edirdilər.

Həyatda qazandıqları hər hansı bir müvəffəqiyyət, çox vaxt bəzi insanları dəyişdirir, onlarda təkəbbür, özündən razılıq hissləri yaradır. Lakin güclü mənəviyyata malik, özündə yüksək dəyərləri birləşdirən kamil insanın dəmir iradəsi qarşısında zaman da aciz qalır. Ömrünün üstünə gələn qayğılı-qayğısız illərin Zərifə xanımı dəyişməyə gücü çatmadı. Ailəsinin şöhrəti artdıqca özü sadə insanlara daha çox yaxınlaşdı. Qarşısına çıxan uğurlar onu başqalarına daha çox yaxşılıq etməyə sövq edirdi. Həmişə hamının mehriban, istiqanlı, bilik və bacarığını xalqına xidmətə yönəldən böyük bir insan, ətrafına nur saçan ziyalı kimi tanıdığı Zərifə xanım bu gün də yaddaşlarda ilahi duyğulara malik qadınlıq rəmzi kimi yaşayır.

### Böyük ziyalı

Zərifə xanımın elmi fəaliyyəti çoxcəhətli idi. Özünün qısa, lakin mənalı həyatı boyunca o, saysız-hesabsız elmi kitablar və monoqrafiyalar çap etdirmişdi. Kimya sənayesində göz zədələnmələrinin öyrənilməsinə və profilaktikasına dair silsilə orijinal əsərlərinə görə Zərifə xanım M.İ.Averbax adına mükafata layiq görülmüşdü. O, respublikamızdan SSRİ Tibb Elmləri Akademiyasının belə yüksək mükafatını almış ilk oftalmoloq qadın idi. Zərifə xanım həm də, eyni zamanda, bu sahədə ilk oftalmoloq qadın idi ki, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdi. O, bütün elmi yaradıcılığı və fəaliyyəti ilə Azərbaycan elminin, Azərbaycan oftalmologiyasının iftixarı idi.

Akademik Zərifə Əliyeva hesab edirdi ki, insan özünün biliyi ilə cəmiyyətə fayda verməli, özündən sonra bir iz qoymalıdır. Zərifə xanım insanın mənəvi keyfiyyətlərinə yüksək qiymət verirdi.O, ünsiyyətdə olduğu hər bir kəsin qayğıları ilə yaxından maraqlanırdı. Bir çoxları vaxtı ilə Zərifə xanımın onlara göstərdiyi köməyi indi də minnətdarlıq hissi ilə yad edirlər. Müraciət edib-etməməsindən asılı olmayaraq, ona ehtiyacı olan hər kəsə kömək əli uzadan, hamının qəlbinə yol və dərdinə çarə tapmağı bacaran bu humanist insan öz xəstələrinə sonsuz qayğı və xeyirxahlıqla yanaşırdı. Zərifə xanımı tanıyan hər kəs, hətta onunla bircə dəfə ünsiyyətdə olmuş insanlar da ona valeh olurdular. Onlara bəxş etdiyi nura, mehribanlığa, xeyirxahlığa və qayğıkeşliyə görə Zərifə xanımı əziz və doğma hesab edirdilər.

Zərifə xanımın taleyinə məhz Azərbaycanın ümummilli lideri Heydər Əliyev kimi şəxsiyyətin ömür-gün yoldaşı olmaq düşmüşdü. Zərifə xanım bu çətin, lakin şərəfli missiyanı ömrü boyu layiqincə yerinə yetirdi. Zərifə xanım ulu öndərə etibarlı mənəvi dayaq idi. O, Heydər Əliyevin fəaliyyəti boyunca qarşılaşdığı bütün çətinlikləri paylaşırdı. Ulu öndərin əsl həmfikri, sadiq silahdaşı idi. Ümummilli liderimizin ölkə rəhbəri kimi fəaliyyətinin ilk

günlərindən etibarən respublikada dəyişikliklər prosesi başlandı, Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu. Bu inkişaf dinamikasında ölkənin mədəni və elmi həyatında canlanma yarandı. Azərbaycanın digər ölkələrlə əlaqələri sürətlə genişlənməyə başladı.

Vətənin sadiq övladı olan Zərifə xanım ulu öndərlə birlikdə bu əlaqələrin möhkəmləndirilməsində bilavasitə iştirak edirdi. O, Azərbaycanda keçirilən mədəniyyət günlərində, konfranslarda, digər tədbirlərdə istər Sovet İttifaqından, istərsə də xarici ölkələrdən dəyərli nümayəndələrin iştirakını təşkil edirdi. Bununla da ölkənin nüfuzunu yüksəldir, Azərbaycanın tanınmasına xidmət edirdi.

Zərifə xanımın gələcəyi görmə qabiliyyəti, geniş erudisiyası, böyük zəkası, müdrikliyi, yüksək təhsili, klassik ümumbəşəri irsin rolunu dərindən dərk etməsi ona bütün respublikada müasir elmin, incəsənətin əsaslarının, digər ümumbəşəri humanitar nailiyyətlərin öyrənilməsini və mənimsənilməsini tətbiq etməyə imkan vermişdi. Ulu öndər Heydər Əliyevin və Zərifə xanımın təşəbbüsü ilə keçən əsrin 70-80-ci illərində Azərbaycanda milli elm, təhsil, ədəbiyyat, incəsənət çiçəklənmə dövrünü yaşayırdı.

Əməkdar elm xadimi, akademik Zərifə Əliyeva ölkənin ictimai həyatında yaxından iştirak edirdi. O, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, SSRİ və Azərbaycan sülhü müdafiə komitələrinin rəhbər orqanlarının, respublika “Bilik” Cəmiyyəti İdarə Heyətinin və “Novosti oftalmoloqii” jurnalı redaksiya heyətinin üzvü kimi ən müxtəlif ictimai vəzifələri böyük məsuliyyət və ləyaqətlə yerinə yetirirdi. Səmərəli ictimai fəaliyyət üçün xüsusi istedad tələb olunur. Tanrı Zərifə xanıma belə bir qabiliyyət vermişdi. O, insanlarla ünsiyyət qurmağı, hər kəsin qəlbinə yol tapmağı bacarırdı. Zərifə xanım təkcə öz həmkarları ilə yox, həm də sadə insanlar, mədəniyyət və incəsənət xadimləri ilə asanlıqla dil tapırdı.

Zərifə xanım həmişə ətrafında xeyirxahlıq mühiti yaratmağa nail olurdu. O, daim gərgin işləməsinə baxmayaraq incəliyini və zərifliyini qoruyub saxlamağı bacarır, özünün parlaq şəxsiyyətində əsl Azərbaycan xanımının keyfiyyətlərini yaşadırdı.

Zərifə xanımın xeyirxah və nəcib qəlbi sayəsində respublikada xeyriyyəçilik ənənələri dirçəldilmişdi, istedadlara hərtərəfli dəstək verilirdi, xüsusi qayğıya ehtiyacı olan insanlar dövlət səviyyəsində himayə olunurdu. Onun mərhəmət və şəfqəti saysız-hesabsız uşağı taleyin zərbələrindən xilas etməyə imkan yaratmışdı.

O dövrdə Zərifə xanım özünün ardıcıl fəaliyyəti sayəsində respublika qadınlarının liderinə çevrilmişdi. Ulu öndərin qadın problemlərinə böyük diqqət yetirməsində Zərifə xanımın şəxsi nümunəsi mühüm rol oynayırdı. Azərbaycanın ümummilli lideri Heydər Əliyev həyatda qazandığı böyük uğurlarda Zərifə xanımın fədakar məhəbbətinin, diqqət və qayğısının mühüm əhəmiyyətini yüksək qiymətləndirirdi.

**Fədakar ana**

Ulu öndərimiz Heydər Əliyev və akademik Zərifə xanım Əliyeva insan kimi bir-birini üzvi surətdə tamamlayırdılar. Bu iki parlaq şəxsiyyətin ailə həyatı bütün cəmiyyət üçün nümunə idi. Zərifə xanım nə qədər işlə məşğul olsa da, ailəsinə daim böyük diqqət və qayğı ilə yanaşırdı. O, ailədə mənəvi rahatlıq yaratmağa nail olmuşdu.

Çox təəssüf ki, özünün və ulu öndər Heydər Əliyevin birgə yorulmaz zəhmətinin bəhrəsi olan azad, müstəqil, sürətlə inkişaf edən, gələcəyə inamla baxan müasir Azərbaycanı görmək Zərifə xanıma qismət olmadı. Lakin biz olduqca xoşbəxtik ki, bu gün Zərifə xanımın və Heydər Əliyevin siyasi dühası sayəsində qurulmuş gözəl bir ölkədə yaşayırıq. Ulu öndərin əsasını qoyduğu geniş quruculuq işləri və Zərifə xanımın çoxşaxəli humanitar missiyası bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Bu gün onun ruhu şaddır ki, möhtərəm Prezidentimiz İlham Əliyev böyük öndərin ən layiqli davamçısı kimi Azərbaycan dövlətçiliyini daha da möhkəmləndirir. Bu gün təkcə Azərbaycanda deyil, bütün dünyada YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri kimi tanınan, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın cəmiyyətin ən imkansız üzvlərinə, xəstələrə qayğısı, elmə, mədəni irsimizə təmənnasız xidməti də Zərifə xanımın ocağından güc alır. İndi bu ocaqda nəslin ən gözəl ənənələrini ləyaqətlə daşıyan nəvələr böyüyürlər. Bu müdrik, ziyalı, kübar qadının keçdiyi həyat yolu hər bir azərbaycanlı qadın üçün məktəbdir.

Bu gün qlobal ziddiyyətlər və münaqişələrlə zəngin olan müasir dünyamızda ümumbəşəri dəyərlərin qorunub saxlanmasına, demokratik inkişafın əsaslarının möhkəmləndirilməsinə ehtiyac artmaqdadır. Bu şəraitdə qadın sabitlik, harmoniya və firavanlıq simvoluna, ümid və inam rəmzinə çevrilmişdir. Müasir Azərbaycan üçün bu mənəvi dəyərlər şəxsiyyətində nəcib hissləri və əməlləri birləşdirən akademik Zərifə xanım Əliyevanın işıqlı obrazı ilə bağlıdır. Zərifə xanımın nurlu siması humanizmi, ailəyə və övladlara tükənməz məhəbbəti, müdriklik və elm mənbəyini təcəssüm etdirir.

Xalqımız Zərifə xanım kimi şərəfli, ləyaqətli övladının adını qəlbində yaşatmaq, xatirəsini əbədiləşdirmək istəyir. Bunun üçün Zərifə xanımın ad gününü Azərbaycan Anaları Günü elan etmək üçün komitəmizə minlərlə müraciət daxil olub. Biz də bu çağırışa qoşuluruq, ümid edirik ki, ölkəmizdə belə bir günün elan olunması ailə dəyərlərinin, milli ənənələrimizin gücləndirilməsinə xidmət edə bilər.

**Xalq qəzeti.** - 2010.-28 aprel. - № 90. - S. 3.

# Böyük nəslin dastanı

**Nizaməddin ŞƏMSİZADƏ,**
Professor

Əsası 1890-cı ildə F.Pavlenko tərəfindən qoyulan, 1933-cü ildən ömrünün sonunadək böyük yazıçı M.Qorkinin redaktorluğu ilə nəşr olunub şöhrət qazanan JZL dünyada ən çox oxunan bioqrafik seriyadır. Son illər bu məşhur seriyadan görkəmli Azərbaycan yazıçı və publisisti Hüseynbala Mirələmovun "Heydər Əliyev" və "İlham Əliyev" kitabları çap olunub. Bu kitabları H.Mirələmov rus yazıçısı Yuri Andriyanovla birlikdə yazmışdı. Nəhayət bu günlərdə böyük nəslin dastanının üçüncü kitabı – "Zərifə Əliyeva" (2010) Moskvada həmin seriyadan çap olundu. Bu kitabı H.Mirələmov tək yazıb.

H.Mirələmov Azərbaycan xalqının tarixi taleyi üzərində aramsız düşünən, ümummilli lider Heydər Əliyevin ideallarına hədsiz sadiq bir yazıçı, alim və ictimai xadimdir. O, Heydər Əliyev mövzusuna birdən-birə gəlməyib, böyük həssaslıqla, addım-addım daxil olub. Onun "Amalın işığında" (2002), "Həqiqət" (2003), "Zəfər yolu" (2003), "Bir günəş var" (2004), "İşığın izi ilə" (2004), "Millətin atası" (2004) kimi sanballı kitabları, adlarından da göründüyü kimi, Ulu Öndərin, yazıçının öz obrazı ilə desək, Böyük İnsanın möhtəşəm tarixi fəaliyyətini müxtəlif rakurslardan əks etdirən əsərlərdir. Mən deyərdim ki, bu kitablar təkcə fundamental "Heydər Əliyev" monoqrafiyasının deyil, həm də "İlham Əliyev" və "Zərifə Əliyeva" monoqrafiyalarının yazılması üçün etibarlı zəmin rolunu oynayıb. Çünki adları qeyd olunan kitabların hamısında Heydər Əliyevin əzəmətli şəxsiyyəti həm onun nəcib xanımı Zərifə Əliyeva, həm də övladları, xüsusilə də Azərbaycanın prezidenti İlham Əliyevlə birlikdə təqdim olunur.

H.Mirələmov "Zərifə Əliyeva" kitabı üçün cazibədar forma tapıb. Monoqrafiya bədii əsərlərə – romanlara xas "Dastanın başlanğıcı" adlı epiloqa başlanır və "Əbədiyyət dastanı" adlı proloqla tamamlanır. Bu əsər, nəcib bir Azərbaycan qadını, görkəmli oftalmoloq alim-akademik, ağıllı və sədaqətli həyat yoldaşı, fədakar ana – nəslin ocağının odunu qoruyan və bütün Azərbaycan üçün saxlayan böyük insan haqqında əbədiyyət dastanıdır. Yazıçı öz qəhrəmanının nurlu obrazına onun müasirlərinin xatirələri prizmasından nəzər salır... Fəqət "dastan" ata ocağından başlanır. İstər qız olsun, istərsə oğlan şəxsiyyətin yetişməsinə üç başlıca amil təsir göstərir: ana qucağı, ata ocağı və təhsil ocağı! Zərifə xanım Azərbaycanda sovet dövrü səhiyyəsinin qurucularından biri, "daxili azadlıq və yüksək ləyaqətə, böyük ağıl və iradəyə malik" bütöv şəxsiyyət, tibb elmləri doktoru, professor Əziz Əliyevin ailəsində dünyaya gəlmiş altı xoşbəxt uşaqdan biri idi: Tamerlan, Cəmil, Ləzifə, Zərifə, Dilbər, Gülara! Dilbər rabitəçi mühəndis, Gülarə pianoçu sənətini seçdi. Qalan dörd övlad isə şöhrətli atanın şərəfli yolu ilə gedib həkimlik sənətinə yiyələndi.

H.Mirələmov kitabının Əziz Əliyevdən bəhs edən fəslini "Əvəzolunmaz insan" adlandırır. Bu həqiqətən belə idi. Yazıçı bunun səbəbini hər şeydən öncə Ə.Əliyevin mühitində axtarır, onun müasirlərinin xatirələrində izahını tapır. Əziz Əliyev 1897-ci il yanvarın 1-də qədim Azərbaycan yurdu İrəvan quberniyasının Hamamlı kəndində hörmətli bir kişinin, Məmmədkərim Kərbəlayi Qurbanəli oğlunun ailəsində dünyaya gəlib. Rus-tatar məktəbini, sonra isə gimnaziyanı bitirib. 1918-də atasını, 1920-ci ildə anasını itirir. Ruhdan düşmür. Yeni yaradılmış Azərbaycan Dövlət Universitetinin tibb fakültəsində 1927-ci ildə təhsilini başa vurur. Böyük istedad, dərin savad və idarəçilik qabiliyyəti sayəsində o 1930-cu ildə artıq səhiyyə naziri idi... H.Mirələmov onu uşaqlıq yoldaşı, akademik Mustafa Topçubaşovun bir cümləsi ilə dəqiq xarakterizə edir: "Görünür, səhiyyənin atası Hippokrat özünün həkimlik andını Əziz kimi həkimlərə baxıb yazmışdır".

Zərifə xanım Əliyeva belə bir atanın həkim və ictimai xadimin əlinin sığalı ilə böyümüşdü. Ə.Əliyev 1935-ci ildə Tibb İnstitutunun rektoru, 1937-də isə eyni zamanda Azərbaycan Dövlət Universitetinin – iki ali məktəbin rektoru təyin olunur. 1941-ci ildə isə o artıq Azərbaycan KP (b) MK-nın katibi idi. Ə.Mirələmov öz qəhrəmanlarının yetişdiyi mühit haqqında təsəvvür yaratmaq üçün Ə.Əliyevin 1942-ci ildən etibarən səkkiz il Dağıstana rəhbərlik etdiyi dövr də xüsusi diqqət yetirir. Bu zaman o təkcə Dağıstanın obkomu deyil, həm də Mahaçqala Müdafiə Komitəsinin sədri idi. Məhz buradakı fəaliyyəti, şablondan uzaq şəxsiyyəti, humanizmi, insansevərliyi, sadəliyi və əlbəttə, yüksək siyasi iradəsi və dövlət quruculuğu sahəsindəki istedadı ilə həqiqətən əvəzolunmaz şəxsiyyət olduğunu sübut etmişdir.

1950-ci ildə Moskvada İctimai Elmlər Akademiyasını bitirib Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini təyin edildikdən sonra ona təzyiqlər başlanır. Şübhəsiz ki, Ə.Əliyevin gündən günə artan nüfuzu ətrafındakıları narahat edirdi.

Kitabın "Zərifə və Heydər" fəslini həyəcansız oxumaq olmur. Zərifə xanım 1949-cu ildə təhsilini başa vurub Moskvadan, DTK zabiti Heydər Əliyev isə 1950-ci ildə Leninqraddan Bakıya qayıdırlar. Müəllif yazır: "Ayrılıq onların sevgi hisslərini daha da möhkəmlətmişdi və o, ailə qurmağı qərara alır". Bu Ə.Əliyevin ailəsinin nəzarətə alındığı, izlənildiyi, özünün yüksək vəzifələrdən çıxarıldığı dövr idi. Bundan sonra məhəbbətin sınağı, sevgi "Dastan"ının çətin səhifələri başlayır. İndi təkcə Ə.Əliyev deyil, gənc Heydər Əliyev də təzyiqlərə məruz qalır. Azərbaycan SSR DTK-nın rəhbəri general S.Yemelyanov onu yanına çağırıb Ə.Əliyevin ailəsi ilə əlaqələri kəsməyi tələb edir. 1953-cü ilin əvvəllərində S.Yemelyanov onu bir də çağırıb xəbərdarlıq edir və işdən çıxarılacağı ilə hədələyir. Fəqət, heç bir qüvvə bu məhəbbətin qarşısını ala bilmir. Çünki bu qarşılıqlı təmənnasız məhəbbət, iki sədaqətli və qüvvətli insanın duyğularının qarşısıalınmaz seli idi. Bu məhəbbət əsasında 1954-cü

ildə qurulmuş ailə Əziz Əliyevin böyük ümid və rəğbətinə səbəb oldu. H.Mirələmov dəqiq faktlarla onun öz kürəkəninə olan ehtiramını, onun böyük gələcəyinə dönməz ümidini əks etdirir. Lakin, şübhəsiz o vaxt Allahdan savayı heç kəs bilmirdi ki, bu sadə ailə Azərbaycan tarixində yeni səhifə açacaq, tarixin yeni mərhələsinin əsasını qoyacaq.

H.Mirələmov yazır: "Bu məhəbbətin tarixi haqqında sonralar çoxlu şeirlər yazıldı, filmlər çəkildi. Rejissor Vaqif Mustafayev bu mövzuda "Əsl məhəbbət haqqında" adlı insanı riqqətə gətirən dramatik bir film çəkdi. Və biz burada ekrandan filmin əsas qəhrəmanı Heydər Əliyevin təsirli etirafını eşidirik: "Mən onu həqiqətən çox sevirdim. Onun da mənə olan məhəbbətini hiss edirdim. Düşünürəm ki, bizim bir-birimizə olan məhəbbətimizin nə qədər dərin köklərə malik olduğunu sübut etməyə ehtiyac yoxdur". Sonralar xalq şairi Zəlimxan Yaqub Heydər Əliyevin nəhəng şəxsiyyətinə, cahanşümul əməllərinə həsr etdiyi "Böyük ömrün dastanı" poemasında bu qeyri-adi məhəbbətin vəsfinə xüsusi bir fəsil ayırdı".

Elə kitablar var ki, öz zəmanələri üçün, elə kitablar var ki, yalnız kitabxanalar üçün yazılır. H.Mirələmovun trilogiyası – "Heydər Əliyev", "İlham Əliyev" və "Zərifə Əliyeva" kitabları yaddaş üçün, əbədiyyət üçün yazılıb. Çünki bu kitablar bir nəslin üç böyük şəxsiyyətinə müəllifin dərin ehtiramını, səmimi ziyalı duyğularını əks etdirir. Dərin və ciddi araşdırmalar, tutarlı faktlar, dövrə və dövlətçiliyə dərindən bələdlik, yüksək tarixilik duyğusu və yazıçının peşəkarlığı bu kitabların hər səhifəsində aydın hiss olunur. Yazıçı-publisist H.Mirələmov bu dünya şöhrətli qəhrəmanlarının həyat və fəaliyyətinə, xalqımızın tarixi taleyindəki rollarına qlobal şəkildə yanaşa bilmiş və H.Əliyev, İ.Əliyev və Z.Əliyeva haqqında yazmağın böyük məsuliyyətini bir an da unutmamışdır. Artıq qeyd etdik ki, "Zərifə Əliyeva" kitabının qəhrəmanı dərin və ülvi məhəbbətdir. H.Əliyevin və Zərifə xanımın simasında bu məhəbbət ağır sınaqlara məruz qalır, hədə-qorxu ilə üz-üzə gəlir. Hər iki tərəfin böyük iradəsi sayəsində yenilmir. Müəllif yazır: "Sonralar H.Əliyev etiraf etmişdi: "Bilirsinizmi nə kimi fikirlər mövcud idi, çünki mən DTK-da işləyirdim, onun atasının ətrafında nələr baş verir, onu necə izləyirlər. Bilirdim və mən bilirdim, eşitmişdim ki, onu bütün ailəsi ilə buradan Qazaxıstana sürgün etmək planı var. Mən düşünmüşdüm: əgər onları sürgün etsələr, mən onun ardınca Qazaxıstana gedəcəyəm, bəlkə də mənə orada iş tapmaq buradakından asan olacaq".

Bu insanın öz sevgisi yolunda həqiqi bir fədakarlığı idi. Biz eşq yolunda belə fədakarlıqlar haqqında nağıllarda, dastanlarda, Nizaminin, Füzulinin, Nəvainin, Şekspirin əsərlərində oxumuşuq. "Eşqdir mehrabı uca göylərin // Eşqsiz ey dünya nədir dəyərin?!" – deyirdi Şeyx Nizami, "Yarəb, bəlayi-eşq ilə qıl aşina məni // Bir dəm bəlayi-eşqdən etmə cüda məni" – deyə fəryad edirdi Mövlanə Məhəmməd Füzuli, dünya ədəbiyyatında məhəbbət haqqında ikinci böyük dastanı – "Romeo və Cülyetta"nı yaratmış U.Şekspir isə eşqi xoşbəxtlik adlandırırdı: "Xoşbəxtliyin nə olduğunu, nəhayət ki, dərk etdim, çünki sevirdim". H.Əliyevin Zərifə xanıma məhəbbəti övladlarına keçdi, xalqa, millətə böyük sevgiyə çevrildi.

"Zərifə Əliyeva" kitabı, beləliklə də, nümunəvi Azərbaycan xanımı, H.Əliyev kimi böyük bir şəxsiyyətlə həyatda yanaşı addımlamış həyat yoldaşı, qayğıkeş və mehriban ana haqqında maraqlı bioqrafik əsərdir. Həqiqətən də zirvədən-zirvəyə addımlamış və əbədiyyətə qovuşmuş tarixi şəxsiyyətlər haqqında mənalı bir dastandır.

Dastan xalqın epos təfəkkürünün yaratdığı ən möhtəşəm bədii abidədir. Dastanın yaranması üçün əvvəlcə xalq yaranmalı, öz mifini yaratmalıdır... Və türkün ən böyük dastanında "Kitabi Dədə Qorqud" eposunda "Ana haqqı tanrı haqqı" adlandırılır, "Ana südü-dağ çiçəyi" ölümcül qəhrəmanı cana gətirir."Cənnət anaların ayaqları altındadır"- deyib Məhəmməd əleyhüssəlam, "Anamın bircə öpüşü məni rəssam elədi" – yazıb Rafael, "Ana bir əli ilə beşiyi, o biri əli ilə dünyanı yırğalayır"bu sözlər də böyük sərkərdə Napoleonun dilindən çıxıb, İ.V.Höte isə belə yazıb: "Təbiətin ən böyük möcüzəsi anadır". Zərifə Əliyeva kitabının qəhrəmanı belə böyük bir ana, xoşbəxt taleli tarixi bir şəxsiyyətdir. Və müəllif onun parlaq surətini ən isti boyalarla, ən ülvi və nəcib sözlərlə nəqş edib. Ümumiyyətlə bu kitab böyük bir dövrün konteksti, fakt və sənəd mənzərəsi nəzərə alınmaqla yüksək tarixilik və müasirlik duyğusu ilə yazılmış konseptual tədqiqat əsəridir.Dilinin şirinliyinə, bədii tutumuna, müəllif mövqeyinin səmimiliyinə görə onu xatirələrdən hörülmüş yaddaş romanı da adlandırmaq olur. Əsərdəki xatirələr hər şeydən öncə Zərifə Əliyevanı dünya şöhrətli bir oftalmoloq kimi səciyyələndirir. Müəllif xatirələrin kontekstoloji əsasını düzgün müəyyən edərək, elə bir fikri-mənəvi sistem qurur ki, maraq oxucunu ahənrüba kimi öz arxasınca çəkib aparır.

Kitabda akademik Püstəxanım Əzizbəyovanın xatirələri gənc məktəbli qız Zərifə Əliyevanın vətənpərvər fədakarlığı haqqında məxəz kimi təqdim olunur. O danışır ki, biz indiki İqtisad Universitetində yerləşən qospitalın bir palatasını şefliyə götürmüşdük. Məktəbli qız Zərifə dərhal vəziyyəti ələ aldı. Pəncərənin qarşısında üzü tamam yanmış və bədəni sınıq-sınıq olmuş təyyarəçi yatır, heç nə yemir, heç nə danışmır, gözünü belə açmırdı. Nəhayət Zərifə, öz söhbətləri və istiqanlılığı ilə onu dilə gətirdi. Məlum oldu ki, yaralı təyyarəçinin biz yaşda qızı var. O, Zərifəyə bir məktub diqtə elədi və biz məktubu onun qızına yolladıq.

Bir dəfə biz xəstələrə baş çəkib Zevin küçəsinə endik. Yolun kənarında gözəl, ucaboy bir qadın başını dik tutub dayanmışdı. Zərifə mənə dedi: "Gördün, gördün? O, kordur". Bu iki fakt adicə müşahidə deyil, Zərifə Əliyevanı həkimliyə, özü də göz həkimliyinə aparan tale məqamlarıdır.

Professor Umnisə Musabəyova ona uğurla dövlət imtahanı vermiş tələbəsi Zərifə Əliyevaya deyir: "Həkimlik gözəl, şərəfli sənətdir. Fəqət, tibb elmləri içərisində ən şərəflisi oftalmologiyadır. Mən istərdim ki, sən oftalmoloq olasan". Zərifə Əliyeva Bakıdan sonra 1948-ci ildə Moskva məktəbini keçib, istedadlı və bacarıqlı

həkim kimi oftalmoloq peşəsinə yiyələnir. 1949-50-ci illərdə bu nəcib və şərəfli ixtisas üzrə ordinatura keçir, 1950-53-cü illərdə isə aspiranturanı bitirir. 1954-cü ildə Heydər Əliyevlə ailə həyatı qurur, 1955-ci il oktyabr ayının 18-də onların ilk övladı – Sevil xanım dünyaya gəlir. Zərifə xanım 1960-cı ildə "Traxoma xəstəliyinin sintomisin və onun başqa terapiya metodları ilə əlaqəli müalicəsi" mövzusunda uğurla müdafiə edərək oftalmologiya üzrə tibb elmləri namizədi alimlik dərəcəsi alır. Və 24 dekabr 1961-ci ildə Heydər və Zərifə Əliyevlərin oğul övladı – Azərbaycanın gələcək prezidenti İlham Əliyev anadan olur. Zərifə xanım 1976-cı ildə Moskvada çox çətin bir mövzuda – "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsi alır, 1977-ci ildə professor, 1983-cü ildə isə akademik seçilir... Bura qədər elmi axtarışlarla dolu böyük həyat yolu var. Gəlin biz də H.Mirələmovun qələminin izi ilə xatirələrə qayıdaq...

Xatirə yaddaşın gəncliyi, şəxsiyyətin özünüifadəsidir. Xatirə şəxsiyyətin yaddaşında bitən elə bir ağacdır ki, onun bəhrəsi bütöv bir cəmiyyətə məxsusdur. Xatirələr ən yaxşı etirafdır: insan həm özü, həm də müasirləri barəsində həqiqəti söyləyir. Xatirələr bədii mədəniyyətin unikal bir növüdür. "Zərifə Əliyeva" kitabında da fakt və xatirə, bədii təsvir, lirik tərənnüm və fəlsəfi mühakimə həssaslıqla bir-birini tamamlayır. Məsələn, kitabda tibb elmləri doktoru Həcər xanım Nəsrullayevanın, Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru Kərim Kərimovun, Fərhad Məmmədovun, tibb xidməti polkovniki, tibb elmləri doktoru V.Vaynşteynin, professor A.Dobromıslovun, tibb elmləri doktoru, professor M.Sultanovun, baş tibb bacısı N.İsmayılovanın, professor T.Hüseynovun göz həkimi, humanist insan kimi Zərifə xanım barəsində bir-birindən maraqlı xatirələri kitabda yer alıb. Həmin xatirələr işığında onun obrazı daha nəcib, səmimi və ülvi təsir bağışlayır. Bu xatirələrdə Zərifə xanım ilk cərrahiyyə əməliyyatının uğurundan hədsiz sevinən uşaq qəlbli həkim (akademik P.Əzizbəyova) 60-cı illərdə Azərbaycan rayonlarında traxomaya qarşı fədakarcasına mübarizə aparan, bilik və bacarığını əsirgəməyən tibb alimi (t.e.d. H.Nəsrullayeva), öz peşəkarlığı və insani keyfiyyətləri ilə seçilən... traxomanın ləğv edilməsində xüsusi xidmətləri olan, səhiyyəyə inam və əqidə ilə xidmət edən göz cərrahı (K.Kərimov), təkcə özünün yox, həm də peşəsinin – oftalmologiyanın şərəfini qoruyan prinsipial alim (t.e.d. V.Vaynşteyn) xəstəni təkcə dərmanla yox, həm də sözlə müalicə etməyi bacaran, təmənna və tərif güdməyən səmimi, ciddi və xeyirxah həkim (prof.A.Dobromıslov) kimi fikirlər və ifadələrlə səciyyələndirilir. Xatirələrdə həm də belə bir unikal cəhət ön plana çəkir ki, Zərifə xanım müasirlərinə, xüsusilə həmkarlarına qarşı həssas, acı qəlbə toxunan söz işlətməkdən uzaq, xəstələrə qayğı ilə yanaşan, fəqət öz həyatı və elmi prinsiplərindən dönməyən, elmdə və həyatda öz haqlı mövqeyini inadkar bir inamla müdafiə etməyi bacaran mütəxəssis və şəxsiyyət idi. H.Mirələmov onun xarakterində peşəkarlığa və prinsipiallığa hörməti ön plana çəkir. O, düşüncəsi saf, əqidəsi dürüst, əlləri şəfalı fenomenal bir həkim, yüksək nəzəri biliyə, intellektual səviyyəyə malik alim idi.

Ulu Öndər Heydər Əliyev Azərbaycan qadınlarına böyük qiymət verərək demişdir: "Azərbaycan qadınları həmişə milli iftixara çevrilən işlər görüblər" Belə qadınlardan biri də onun öz xanımı Zərifə Əliyeva idi. H.Əliyev kimi dahi bir şəxsiyyətin sevilən xanımı olmaq həm böyük bir şərəf və səadət, həm də məsuliyyət idi. Tarixən böyük kişilərin arxasında böyük xanımlar dayanıb. Azərbaycan xanımları təkcə zəriflik və gözəllik mücəssəməsi deyil, həm də müdriklik, mərdlik, sədaqət, mənəvi dayaq timsalıdır. Biz belə hesab edirik ki, sevmək özü də bir qəhrəmanlıqdır. Azərbaycanın belə qəhrəman xanımları çox olub: Tomris, Nüşabə, Məhinbanu, Şirin, Möminə xatun, Zahidə xatun, Mehrican xatun, Səlcuqşah bəyim, Pərixan xatun, Məhinbanu Sultan, Tuti Bikə, Ağabəyim Ağa, Natəvan... Zərifə xanım və onun gəlini, ölkənin birinci xanımı Mehriban xanım da məhz belə xanımlardandır.

Əsl-nəcabət, yüksək mənəvi mədəniyyət, ali analıq və qadınlıq duyğusu, millətə və dövlətə sevgi, humanizm və insanpərvərlik, tarixi keçmişimizə hörmət, sivil dünyanı heyrətə salan böyük intellekt bu xanımları tarixi şəxsiyyətlər kimi səciyyələndirən, onlara ümumxalq ehtiramı gətirən başlıca cəhətlərdir.

Bu gün Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva bütün sahələrdə – həm dövlətçilikdə, həm xalqla mənəvi ünsiyyətdə, həm millətə və milli mədəniyyətə məhəbbətdə ümummilli lider Heydər Əliyevin və Zərifə Əliyevanın müqəddəs ənənələrini şərəf və ləyaqətlə qoruyub saxlayır, yüksək əxlaqi dəyərlər kimi gələcək nəsillərə çatdırırlar.

H.Mirələmovun "Heydər Əliyev", "İlham Əliyev", "Zərifə Əliyeva" kitabları – JZL trilogiyası bir tarixi həqiqəti reallıqla təsdiq etdi ki, tarixi kütlə yox, liderlər yaradır. Bu kitablar Əliyevlər nəslinin tarixdəki rolunu aydınlaşdırır və təsdiq edir. H.Mirələmovun "Zərifə Əliyeva" kitabını oxuyur və düşünürəm: bu kitabın konseptual əsasında nə dayanır? İlk cavabım: Zərifə Əliyevanın simasında milli əxlaqi dəyərlərimizin ülvi təcəssümünü, uca zirvəsini əks etdirib H.Mirələmov. Bu qadın məhəbbəti, qadın sədaqəti, pak qadın mənəviyyatı, qadın şəxsiyyəti, qadın dəyanəti, xanımlıq məktəbi, sadəlik və səmimiyyət haqqında ensiklopediyadır. Əslində ərə gedən bütün qızlarımızın ən qiymətli cehizi olmalıdır bu kitab! Qoy onlar sevəndə, həyat yoldaşına arxa durmalı olanda, sevgiləri sınaq qarşısında qalanda, elmi axtarışların əzabını intixab edəndə, xoşbəxtlik anlarını yaşayanda "Zərifə Əliyeva" kitabını oxusunlar.

Böyük fransız maarifçi filosofu J.J.Russo deyirdi: "O şey ki, əxlaqi cəhətdən doğru deyil, o heç bir baxımdan məqbul sayıla bilməz" H.Mirələmovun kitabı yüksək əxlaqi dəyərlər haqqında, onu qorumaq, nəsildən-nəslə ötürmək barəsində qəlbi Allah nuru ilə dolu bir insanın əsəridir.

Prezident İlham Əliyev 1995-ci ildə "Günay" qəzetinə müsahibəsində "Zərifə xanım yadınızda necə qalıb?" sualına belə cavab verir: "Ən əziz insan kimi. Onun vəfatından sonra mənim həyatım, ümumiyyətlə bütün

ailəmizin həyatı dəyişdi. Belə ki, mən indi onun sağlığında güldüyüm kimi gülə bilmirəm. Doğrudur, onun vəfatından on ildən artıq vaxt keçir, lakin indi də həyatımda hər hansı bir xoşbəxt hadisə baş verəndə düşünürəm: kaş o bu hadisənin sevincini yaşaya biləydi. O vəfat edəndə mənim böyük qızımın bir yaşı var idi. Belə ki, mənim qızlarım nənələrini görə bilmədilər – bu onların tərbiyəsi üçün böyük itki idi". Müəllif bu mənalı fikrə önəm verir: Zərifə Əliyevanın həyat tərzi, davranışı, həkimliyə olan sevgisi, ailəcanlılığı böyük mənəvi tərbiyə və əxlaqi gözəllik məktəbi və gənc qızlarımız üçün misilsiz nümunədir.

H.Mirələmov Zərifə xanımın 1985-ci ildə Moskvada vaxtsız vəfatını ümumxalq kədəri kimi qələmə alır. Bu hər kəsdən öncə qüdrətli şəxsiyyət H.Əliyev üçün ağır mənəvi zərbə idi. Bütün ailə bu itkini böyük acısı-ağrısı ilə yaşadı. Azərbaycan xalqı öz qiymətli qızına matəm saxladı. "Zərifə Əliyeva" kitabında bu ağır itki ilə bağlı görkəmli adamların xatirələri bu itkinin ağırlığını səmimi bir tərzdə əks etdirir. Jurnalistlərdən birinin "Sizin üçün ən sevimli adam kimdir? – sualına Heydər Əliyev çox müxtəsər cavab vermişdi: "Zərifə xanım".

Zərifə Əliyevanın son məktubunda isə bu sözlər yazılmışdı: "Mənə görə narahat olma, uşaqlara yaxşı bax. Unutma ki, mən səni sevirəm..." Bəli, H.Mirələmov öz qəhrəmanının obrazını bu sevginin nurunda yaradır. Bu sevgi, ər, ailə, övlad qarşısında bir borc deyil, mənəvi tələbat idi və öz səmimiyyəti ilə insanlığa işıq saçırdı. Zərifə xanım öz sevgisini qəlbinin hərarətini təkcə ailəsinə və övladlarına həsr etmir, bir həkim kimi onun mehriban təbəssümü, mərhəmətli sözləri ilə xəstələrinə də bəxş edirdi. O, yunan filosofu Platonun bir fikrini həkimlik peşəsi üçün məram seçmişdi: "Həkimin edə biləcəyi ən böyük səhv xəstənin qəlbini, ruhunu nəzərə almadan onun bədənini müalicə etməyə başlamasıdır". Kitabda müəllifin gətirdiyi onlarla fakt və xatirə belə bir həqiqəti aydınlaşdırır ki, Zərifə xanım xəstələrinə qarşı olduqca səbirli və təmkinli, onun dərdlərinə həssas, istəklərinə qayğıkeş münasibət bəsləyən bir həkim idi. Doğrudur, bədənin hər bir üzvü insan üçün gərəklidir. Lakin, göz insanı dünyaya bağlayan, insanın dünya haqqında təsəvvürlərini formalaşdıran əsas orqandır. Göz həkimi olmaq nur həkimi olmaq deməkdir. Hürufilər deyirdi ki, İnsan Həqdən qopmuş nur parçasıdır. Tanrının nuru insanın gözündə əks olunur. Göz qəlbə açılan nur pəncərəsidir. Keçmişdə babalar bir kişi ağır xəstələnəndə demirdilər ki, filankəs ölür, deyirdilər ki, gözünün nuru çəkilir. Zərifə xanım Allahın nurunu insana qaytaran qüdrətli bir loğman idi.

"Zərifə Əliyeva" kitabının qəhrəmanını H.Mirələmov təbiətən şərqli, təfəkkürən qərbli kimi vermiş, onun şəxsiyyətində Şərq və Qərb dəyərlərinin vəhdətini əks etdirmişdir...

Hər insan özü bir dünyadır. Hər ömürün öz dastanı var. Hərə öz taleyini yaşayır, tarixini yaradır. Ömür sürmək hələ tale yaşamaq deyil. Çünki, insan yaşadığı illərin sayı ilə yox, gördüyü işlərin sanbalı ilə yaddaşlara köçür, tarixə daxil olur. Taleyi Allah insanın alnına ana bətnində yazır. Hərənin heç kimə bənzəməyən öz alın yazısı var. Nə yazılıbsa, o da olacaq.

Zərifə Əliyevanın taleyinə Əziz Əliyev kimi böyük bir həkimin, ictimai xadimin, diplomatın, ölkənin rəhbərlərindən birinin ağıllı qızı olmaq, eyni zamanda atasına ədalətsiz münasibətin şahidi olmaq, Heydər Əliyev kimi dahi bir şəxsiyyətin sevgisini qazanmaq və 1969-cu ildən Azərbaycanın birinci xanımı olmaq, həkim oftalmoloq kimi akademiklik zirvəsinə yüksəlmək, İlham Əliyev kimi prezident oğulun anası olmaq, Mehriban xanım kimi nadir xislətə, nurlu qəlbə, böyük istedada malik gəlinin qaynanası olmaq şərəfi yazılmışdı. Bu gün prezident İlham Əliyev və Mehriban xanım ülvi bir sədaqətlə, nəcib ehtiramla böyük siyasi iradə və qalibiyyət əzmi ilə dahi Heydər Əliyevin və nəcib alim Zərifə xanımın arzularını həyata keçirir, Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanı qoruyub möhkəmlədir, böyük nəslin dastanının yeni səhifələrini yaradırlar... Tarixin yeni zirvələrinə zəfərli yürüşü əks etdirən Əbədiyyət Dastanı davam edir.

Əminik ki, görkəmli yazıçı H.Mirələmov Azərbaycan prezidenti İlham Əliyevin qalibiyyət əzmini yeni epopeyalarda daha böyük istedadla əks etdirəcək.

**525-ci qəzet.** - 2010.-26 aprel. - № 74. - S. 4.

## Analar tarix yaşadır

**Nəzakət ƏLƏDDİNQIZI**

**Kərəm Kərimov:"Bu gün Azərbaycan qadını xeyirxahlıq, Analıq simvoluna çevrilmiş Akademik Zərifə xanım Əliyevanın həyat yolu biz alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandırır."**

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zəngin və çoxcəhətlidir. Onun fəaliyyətinə nəzər salarkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olur. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək olan yüksək mənəvi keyfiyyəti haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılıb və yazılacaqdır.

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Akademik Zərifə xanım Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən, Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi-tədqiqatlar aparmışdır. Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir. Alim göz yaşı aparatının xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və b. əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur. Zərifə xanım dünyada ilk dəfə olaraq, görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq, elm aləmində yeni bir istiqamətin, "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır. Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisələrində genişmiqyaslı elmi-tədqiqat işləri aparmışdır. Elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Məşhur oftalmoloq akademik M.Krasnov Zərifə xanımın görmə orqanının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirmişdir.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında tarixi sözlər demişlər.

Tibb elmləri doktoru, professor, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin şöbə müdiri, Beynəlxalq Göz Klinikasının direktoru Kərəm Kərimov onun geniş məzmunlu fəaliyyəti ilə bağlı fikirlərini bildirdi:

- Zərifə xanım Əliyevanın adını hər yerdə yaxşı tanıyırlar. Ona görə ki, Zərifə xanım elmi tədqiqatları ilə yanaşı, ölkənin ictimai-siyasi həyatında da mühüm rol oynamışdır. Bununla yanaşı, dövlət xadimi Əziz Əliyevin qızı, ümummilli lider Heydər Əliyevin həyat yoldaşı, Azərbaycan Prezidenti İlham Əliyevin anasıdır. Siyasətçilər, tədqiqatçılar Heydər Əliyev irsini araşdırarkən Ümummilli Liderlə yanaşı, ikinci böyük bir şəxsiyyətin adına diqqəti cəlb etməyə bilməz. Bu, akademik Zərifə xanım Əliyevanın adıdır. O, hazırda respublikaya rəhbərlik edən, dünya siyasətində öz dəst-xəttilə seçilən, atasının yaratdığı böyük siyasi məktəbin layiqli və uğurlu davamçısına çevrilən İlham Əliyevin anasıdır. Şübhəsiz ki, İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə əldə etdiyi nailiyyətlərdə, əhali arasında və eləcə də, beynəlxalq arenada özünə layiqli yer tutmasında, təbii ki, ümummilli liderlə yanaşı, anası Zərifə xanım Əliyeva şəxsiyyətinin də böyük xidmətləri olmuşdur. Vaxtilə bu fikri ulu öndər Heydər Əliyev özü də etiraf edirdi. Bu, Zərifə xanımın ailədə, evdə roluna verilən yüksək insani qiymət idi. O, həm də ömür-gün yoldaşının bütün çətin məqamlarda onunla birgə addımladığını, Vətənə layiq övladlar bəxş etməklə onun əvəzolunmaz xidmətlərini cəmiyyətə, insanlara bəyan etmək istəyirdi. Bununla müdrik siyasəti çoxlarına sonralar məlum olacaq ölkə Prezidenti İlham Əliyev haqda bir həqiqəti xüsusi vurğulamaq istəyirdi. Zaman öz sözünü dedi. Möhtərəm İlham Əliyev xalqın böyük əksəriyyətinin səsini qazanaraq Azərbaycan Prezidenti seçildi, valideynlərinin etimadını doğrultdu, eyni zamanda, əhalinin və regionun ləyaqətli liderinə çevrildi.

Akademik Zərifə xanım Əliyeva ən yüksək mənəvi hazırlığa malik bir xanım - ana idi. Çünki o, böyük şəxsiyyət Əziz Əliyevin qızı idi. Əziz Əliyev isə respublikanın ictimai-siyasi həyatında özünü təsdiqləmiş və böyük nüfuza malik siyasətçi, ictimai-siyasi xadim kimi tanınır. O, mənsub olduğu cəmiyyət tərəfindən, hətta Dağıstanda keçmiş postsovet məkanının müxtəlif guşələrində tanınır və sevilirdi. Əziz Əliyev böyük ziyalı idi.

Belə bir ailədə Zərifə xanım Əliyeva kimi bir şəxsiyyətin boya-başa çatmasını, formalaşmasını təbii qəbul etmək lazımdır.

Akademik Zərifə xanım Əliyevanın ecazkar bir dünyası olub. İstedadlı göz həkimi oftalmologiya sahəsində böyük zəka sahibi kimi tanınan Zərifə xanım Əliyeva minlərlə insanı vaxtsız günəş işığından məhrum olmaqdan qoruyub. İnsanlara ilahi nur bəxş edib. İnsanların böyük əksəriyyətinin mənəvi yaddaşında Zərifə xanımı axtarıb tapa bilərik.

1923-cü il 28 aprel... Zərifə xanım Əliyevanın doğum günü. Naxçıvan Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində həmin gün dünyaya gəlmiş, 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə həmin institutu bitirmişdir. Sonralar Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisasartırma kursunu keçmişdir. Elmi tədqiqatlara sonsuz marağı onu Azərbaycan göz xəstəlikləri elmi-tədqiqat institutuna gətirib çıxarmış və orada həkim-ordinator kimi işə başlamışdır.

Zərifə xanım Əliyevanın aspiranturanı bitirib elmi əməkdaş kimi fəaliyyət göstərdiyi illərdə respublikanı traxoma xəstəliyi ağuşuna almışdı. O vaxtlar bu xəstəliyə qarşı təsirli müalicə üsullarının olmamasından onunla mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə, ölkənin səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin keçirilməsində fəal iştirak edirdi. Respublikada traxoma xəstəliyinin daha çox yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara mühazirələr oxuyur, əhali arasında maariflənmə işi aparırdı. Beləliklə, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirdi. 1960-cı ildə bu mövzuda namizədlik dissertasiyasını müdafiə etdi. Bundan sonra gənc alim çalışdığı institutda böyük elmi işçi seçilərək elmi tədqiqatlarını genişləndirməyə başladı.

1967-ci ildə bacarıqlı tədqiqatçı Azərbaycan Dövlət həkimləri təkmilləşdirmə institutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuş və 1968-ci ildən məqsədyönlü şəkildə görmə orqanının peşə patologiyası ilə məşğul olmağa başlamışdır. 1977-ci ildə isə Zərifə xanım dünyanın ən nüfuzlu oftalmologoya mərkəzlərindən birində H.Helmoqds adına Moskva elmi-tədqiqat göz xəstəlikləri institutunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi.

Görkəmli alim 15 monoqrafiyanın, 200 qədər elmi məqalənin, məruzə, metodik vəsaitlərdən ibarət elmi irsi bu gündə aktualdır, yüksək səviyyəsi ilə fərqlənir. O, tədqiqat üçün elmi mövzular seçərkən məsələlərə milli və dövlətçilik marağıdan yanaşırdı. Zərifə xanım insanları çox sevirdi və bu sevgini onlara paylamağa heç vaxt xəsislik etmirdi. Elə bu sevgi ilə də onların işığa həsrət dolu gözlərinə nur olurdu. Həmişə tələsirdi. Sanki taleyin ona ömür payı ayıranda xəsislik etdiyini bilir və daha çox iş görməyə çalışırdı.

Əliyevlər ailəsi böyük ailə məktəbi kimi, zaman-zaman öyrəniləcək tədqiqat məktəbi olacaqdır. Bu ailənin Qüdrətli Ata adı, Böyük Ana adı daşıyan nümayəndələri mənəvi abidə olaraq, həm övladlarının, həm də xalqımızın qəlbində əbədi yaşayacaqdır. Böyük analar xalqın, millətin anasıdır. Akademik Zərifə xanım Əliyevanın timsalında da belə böyük analığı görə bilirik.

Bu gün Azərbaycan qadını xeyirxahlıq, Analıq simvoluna çevrilmiş Akademik Zərifə xanım Əliyevanın həyat yolu yüksək mənəviyyat, qayğıkeşlik biz alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandırır.

**Səs.** - 2010.-27 aprel. - № 72. - S. 4.

## Mənəviyyat tariximizin örnəyi

**Əliyeva NURLANA,**
YAP Qadınlar Şurasının sədri, professor

Yaranışdan bütün bəşər övladına məxsus ali bir duyğu doğulub köksümüzün altında, göyərib, boy göstərir. Zaman keçdikcə daha da əlvanlaşan, daha da müqəddəsləşən, hiss və düşüncələrimizə hakim kəsilən o duyğu ən dar məqamlarda ən yaxın köməkçimizə çevrilir. Həyatdan əlimizi üzəndə o duyğu əlimizdən tutur, inamımızı, istinadgahımızı itirəndə o duyğu bizim üçün inanma, istinadgaha çevrilir. Nə vaxtsa o duyğunu Sevgi adlandırırıq. Mental yaddaşımız Leyli və Məcnun, Əsli və Kərəm, Yusif və Züleyxa, Tahir və Zöhrə, İlham və Fərizə misalında ilahi sevginin mükəmməl nümunələrini xatırlayır. Ulu öndərimiz Heydər Əliyev öz ömür-gün yoldaşı, mərhum akademik Zərifə xanım Əliyevaya olan sonsuz sevgisi və bu sevginin etirafi ilə mənəviyyat tariximizdə bütöv nəsillərə örnək ola biləcək bir sevgi rəvayəti də yaratdı.

Təməlində həqiqətin olduğu bu rəvayətin bir qütbündə xalqın böyük oğlu Heydər Əliyev dayanırsa, digər qütbündə Azərbaycan qadınlığının mücəssəməsi Zərifə Əliyeva dururdu. Onun parlaq həyatı hadisələr və mənalarla zəngindir. Məni isə ən çox düşündürən Onun analıq fenomenidir. Zərif bir ana necə böyük bir qüdrət daşıya bilir. Dünyaya necə böyük insanlar bəxş edə bilər, xalqın taleyində necə misilsiz iz qoya bilər. Analıq doğrudan da təbiətin ən böyük möcüzəsidir! Analar həyatda ən çətin olan iki şeyə qadirdirlər: həm böyük tale, həm də böyük xoşbəxtlik bəxş edə bilmək qüdrətinə. Bu cəhətdən də Zərifə xanım nadir, unikal bir qadın idi.

Mən həyatda hər şeyin anadan miras olduğuna inanıram. Zərifə xanımın anası Leyla xanım da xoşbəxt taleli bir qadın idi. O, dörd övladın ilki idi. Bu dörd övladın hamısı həyatda istedadlı və xoşbəxt taleli insanlar oldu. Bir qızı Gülarə gözəl ifaçı və bəstəkar, iki oğlu - Tamerlan və Cəmil görkəmli tibb alimi oldular. Lakin Zərifə xanımın taleyi onların hamısından nurlu, uğurlu oldu. Yəqin ona görə ki, ailənin ilki idi və valideynlərin məhəbbət payının çoxu ona qismət olmuşdu.

Deyirlər ki, uşaqlıqdan qismət olan ana məhəbbəti insanı xoşbəxt edir. Zərifə xanımı anası da, görkəmli dövlət adamı və həkim olan atası da çox istəyirdi. Xalqın tarixində iz qoymuş bu ailə sovet dövründə Azərbaycan elitasının seçmə və tipik nümunəsi idi. Yüzlərlə bolşevik xadimləri kimi onların da yolu kənddən - Naxçıvanın Şaxtaxtlı kəndindən çıxmışdı. Zərifənin atası öz həkimlik fəaliyyətinə burada başlamış, ilk övladı da burada anadan olmuşdu. Əziz Əliyevin İrəvan yaxınlığındakı kənddən başlayan həyatı demək olar ki, təkərlər üzərində keçmişdi. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı soyqırımı bu ailədən də yan ötmədi: onları didərgin salıb Naxçıvana, oradan isə Bakıya gətirdi. 1923-cü ilin yayında Bakıya gələn Əziz Əliyev dövlət işinə girir və onun fasiləsiz yüksəlişi başlanır.

Bu yüksəlişin təməlində qızıl medalla bitirilmiş İrəvan gimnaziyasının təhsili dururdu. Təhsilə, elmə, müasirliyə maraq onun övladlarının da həyat yolunu təyin etdi. Kökləri bəy nəslindən olan Leyla xanım uşaqlarının təhsil və tərbiyəsi ilə özü məşğul olurdu. Əri isə Mədəni İnqilabın yorulmaz əsgərlərindən biri idi. O, ali təhsil almaq üçün Peterburq Hərbi Tibb akademiyasına daxil ola bilmişdi. 20-30-cu illərdə Əziz Əliyev Azərbaycan maarifinə öz övladlıq borcunu qaytardı, maarif və səhiyyənin təşkilində var qüvvəsi ilə çalışdı. Ömrünün sonunda yenə səhiyyəyə qayıtdı, bütün təcrübəsini gənc kadrların yetişdirilməsinə həsr etdi.

Stalin rejimi şəraitində partiya işçisi ilə peşəkar zabitin iş rejimi arasında elə bir fərq yox idi. Partiya aparatında intizam hərbidən də yüksək idi. Evdə Əziz Əliyevin üzünü uşaqlar ancaq gecələr görürdü. Qalan vaxtlarda bu böyük insan bütün enerjisini işə verirdi. Azərbaycan Tibb İnstitutunun ilk rektorlarından biri, sonra isə Xalq Səhiyyə Komissarı oldu.

1920-30-cu illərdə Azərbaycanda həkimlər çatmırdı, ona görə xalq arasında həkimlərin böyük nüfuzu var idi. Yeni Avropa tipli səhiyyə Azərbaycanda kütləvi epidemiyalara qarşı mübarizə aparır, klinik müalicənin əsasını qoyur, uşaq ölümünün qarşısını almaq üçün böyük işlər görürdü. Əziz Əliyev sonra bir sıra siyasi postlarda işləsə də, onun ailəsində tibb elminin nüfuzu yüksək olaraq qalırdı. Zərifə Əliyeva da 30-cu illərdə orta məktəbdə oxuduğu vaxtlarda həkim olmaq, xalqına xidmət etmək haqqında düşünürdü. Bütün rəhbər partiya işçilərinin uşaqları kimi o da rus dilində oxumalı oldu.

Lakin ailədə ana dilində danışmaq və düşünmək ənənəsi möhkəm idi. Zərifə xanımın anası Leyla xanım ana dilinin canlı daşıyıcısı idi. Digər tərəfdən ailə qaçqınlıq aqibətini yaşamışdı. Kənd kökləri, İrəvan dövrü ilə bağlı qohumlar və tanışlar daim bir-birini axtarıb arayır, görüşür, imkan olduqca kənddəki əqrəbaları ilə əlaqələri saxlamağa çalışırdılar. Uşaqlıqda Zərifənin böyüdüyü ocaq nadir hallarda qonaqsız olurdu. Hamısının problemləri, xahişləri, umduqları yardımların sayı-hesabı yox idi. O zaman insanlar bununla fəxr edir, qohum və tanışlara yardımlarını əsirgəmirdilər. Bu xeyirxahlıq dərsini Zərifə xanım da anasından alır, onun sadə, lakin xeyirxah əməllərini örnək götürürdü.

O zamanlar təhsilin, məktəbin, müəllimin nüfuzu müqayisəyə gəlməz dərəcədə yüksək idi. Ona görə yaxşı oxumaq, savada can atmaq gənc yaşlarından insanların sosial statusunu, şəxsi nüfuzunu müəyyən edirdi. Qürurlu və çalışqan bir qız olan Zərifə də atasının nüfuzundan istifadə etmək istəmirdi, səylə oxuyur, kitabı əlindən qoymurdu. Paralel olaraq fortepiano üzrə musiqi dərslərinə gedirdi. Onun zəhmətləri hədər getmədi: uğurla Tibb İnstitutuna daxil oldu və müharibənin ağır illərində təhsilini başa vura bildi.

Bu illər Zərifənin ailəsi üçün çətin dövr idi. Atası 1941-1942-ci illərdə Azərbaycan KP MK katibi, sonra isə altı il Dağıstan Respublikası MK-nin birinci katibi işləmişdi. Bu, müharibənin ən ağır illəri idi. Onu ən çətin sahələrə yollayırdılar. Bir müddət İranda da səlahiyyətli partiya işçisi kimi çalışmışdı. Bütün bunlar ailədə də gərginlik və nigaranlıq yaradır, Zərifə də atasına görə anası ilə birgə həyəcan keçirirdi. Belə gərgin vaxtlarda onun dayağı anası Leyla xanımın səbri, iradəsi, dözümü, dərslərlə başını qatmaq, gələcəklə yaşamaq nikbinliyi idi.

Pis günün ömrü az olar deyiblər. Müharibə qurtaranda Zərifə xanım Əliyevanın ailəsində də bayram oldu, atası da arada əsgər şinelini, zabit geyimini əynindən çıxardı. İstirahət günləri evdə görünməyə başladı. 1947-ci ildə Zərifə xanım nəhayət ki, Tibb İnstitutunu bitirmək barədə diplomunu aldı. Hələ tələbəlik illərində görkəmli həkim, institutun müəllimi Umnisə Musabəyova onun çalışqanlığını görüb göz xəstəlikləri üzrə ixtisaslaşmağı məsləhət bilmişdi. Həyat göstərdi ki, müdrik müəllimə yanılmamışdı. Zərifə xanım ömrü boyu öz elmi seçiminə sadiq oldu və nadir əsərləri ilə oftalmologiya elmini zənginləşdirdi.

1947-ci ilin payızından Zərifə Əliyeva gənc mütəxəssis kimi iki il Moskvada çalışdı və biliklərini artırdı. Onun ezam olunduğu Qolmqolts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu bu sahədə SSRİ-nin aparıcı elmi müəssisəsi idi, orada ölkənin ən nüfuzlu göz həkimləri çalışırdılar. Gələcək elmi fəaliyyət üçün buradakı elmi mühit kifayət qədər əlverişlidir. Elmi diskussiya və seminarlarda, şuralarda, müdafiə məclislərində iştirak etdi. Burada Zərifə xanımın gəldiyi əsas nəticə belə oldu: elmdə öz yolunu tapmaq, öz axtarış cığırına düşmək əsas məsələdir. Bunsuz orta həkim olarsan, amma həqiqi alim olmaq mümkün deyildir.

Moskva mühiti mənəvi cəhətdən də gənc həkim qızın inkişafına təkan verdi. 24 yaşlı azərbaycanlı qızı, daim anasına sığınıb yaşayan Zərifə institutun yataqxanasında müstəqil yaşamağa başladı. Bu romantik bir dövrlə dolu tələbəlik həyatının davamı idi. Ətrafda davadan qalma qəhətlik və kasıblıq hökm sürsə də, o zamankı tələbə gənclik əksərən müharibə səngərlərindən universitetlərə gəlmiş nəsil idi. Böyük qanlar və qurbanlar hesabına faşizmi əzmiş bu nəsil gələcəyə, çətinliklərin aradan gedəcəyinə, insanların müharibəsiz dünyada xoşbəxt olacağına necə inanırdılarsa, Zərifə də bu gələcəyə elə inanırdı.

1949-cu ildə göz xəstəlikləri üzrə dərin elmi biliklərlə Bakıya qayıdan Zərifə Əliyeva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi çalışmağa başladı və həmin ildə də aspiranturaya daxil oldu. Onun elmi marağını da həyat özü diktə etmişdi. Müharibədən sonra Azərbaycanda traxoma adlı göz xəstəliyi geniş yayılmışdı. Müalicəsiz bu xəstəlik insanları dünya işığına həsrət də qoya bilirdi. Dövlət səviyyəsində Zərifə xanımın çalışdığı bu instituta traxoma epidemiyası əleyhinə preparat və antibiotiklər hazırlamaq tapşırılmışdı. Gənc alim çalışdığı institutun bu yöndəki araşdırmalarında yaxından iştirak edirdi.

Lakin o, bununla kifayətlənmirdi. Nüfuzlu alim və həkim həmkarlarının xatirələrindən öyrənirik ki, Zərifə xanım Əliyeva Azərbaycanın rayonlarında traxoma epidemiyalarının mərkəzi olan kənd və qəsəbələrə yollanan elmi ekspedisiyaların könüllü iştirakçısı olmuşdur. Bir neçə cavan qadın həmkarı ilə birgə o, ağır xəstələri müalicə edir, elmi mühazirələr oxuyur, insanlarla ünsiyyətə girib ev-ev izahat işləri aparırdı. Məhz Zərifə xanımın daxil olduğu ekspedisiyanın üzvlərinin fədakarlığı, zəhməti sayəsində qısa bir vaxtda traxoma epidemiyaları lokallaşdırıldı, problemin kəskinliyi aradan götürüldü.

Gənc həkimin fədakarlığına tərəddüdlə baxanlara o məhəl qoymurdu. Çünki traxoma kimi bəlaya qarşı mübarizəni öz həkim borcu sayırdı. Sözü gedən ekspedisiyalarda qazanılan elmi müşahidələr, müalicə üsulları onun karına gəldi: bütün bu materialları diqqətlə ümumiləşdirdi və onların əsasında namizədlik dissertasiyasını tamamladı. 1959-cu ildə bu dissertasiyanı uğurla müdafiə edib tibb elmləri namizədi elmi dərəcəsi aldı.

Zərifə xanım, bir azərbaycanlı qızı kimi, elmdə nə qədər realist idisə, həyatda da bir o qədər romantik idi. İllər sürətlə gedir, o isə öz romantik qəhrəmanını gözləyirdi. O, gözəl piano çalır, tələbə məclislərində Azərbaycan və rus dillərində məlahətli səslə oxuyurdu. O, görkəmli sənət və söz adamlarının əhatəsində böyümüşdü. Əziz Əliyevin keçmiş Zevin küçəsindəki evi Azərbaycan ziyalılarının toplaşdığı bir yer idi: Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Səməd Vurğun, Qara Qarayev, Bülbül, Niyazi və başqaları burada tez-tez olurdular. Ulu öndər Heydər Əliyevin böyük qardaşı Həsən Əliyevin də Zərifənin atası ilə yaxşı ailə münasibətləri vardı.

Tale Zərifənin üzünə güldü: arabir müxtəlif səbəblərlə onlara gələn Heydər Əliyev evin böyük qızına meyil saldı. Zərifə bunu hiss etməyə bilməzdi. 1951-ci ildə Heydər Əliyev Dövlət Təhlükəsizliyi orqanlarında çalışan göygöz, ucaboylu, həmişə hərbi formada olan zabit idi. Bu zabit həm Azərbaycan, həm də rus dilində gözəl danışırdı. Tezliklə bu zabit qızın qəlbinə hakim oldu. Allah bu insanı Zərifə xanıma bütün ideallarını gerçəkləşdirmək üçün yollamışdı. Bu, bəxt ulduzu idi.

Lakin hələ Stalin sağ, Mir Cəfər Bağırov isə öz taxtında idi. Gənclərin münasibətləri çətin sınaqlardan keçməli oldu. Təhlükəsizlik xidməti zabitinin şəxsi həyatı da dövlət nəzarətində idi. Ona görə operativ işçinin respublikada hamının tanıdığı Əziz Əliyevin qızı ilə münasibətləri artıq yuxarılara məlum idi. Elə bu vaxtlarda da, Əziz Əliyevin başı üzərində qara buludlar dolaşırdı...

Hər şey 1949-cu ilin əvvəllərində Əziz Əliyevin Moskvaya MK-ya rəhbər işə aparılmağından sonra başladı. Bu yüksəliş Mir Cəfər Bağırovda qorxu və dərin qısqanclıq yaratdı. O, Moskvaya dalbadal məktublar yazıb Əziz Əliyevi Baş nazirin müavini vəzifəsinə gətirməyə nail oldu. Lakin vəzifəyə təyin olunan kimi DTK-da ona qarşı iş açdırdı: onu “millətçi”likdə və sosial mənşəyini gizlətməkdə ittiham etdilər. Ona tezliklə partiya töhməti verib kiçik bir vəzifəyə keçirdilər. Onun ailəsini Qazaxıstana köçürmək planları ortaya gəldi...

Mərkəzi aparatda çalışan Heydər Əliyevin şübhəsiz, bunlardan xəbəri vardı. Bu çətin günlər barədə Əziz Əliyevin 1997-ci ildə qeyd olunan 100 illik yubileyində Ulu öndər Heydər Əliyev şəxsən özü danışdı. 1952-ci

ildə o zaman Dövlət Təhlükəsizliyi naziri olan Yemelyanov onu iki dəfə kabinetinə çağırdı: onun tələbi qısa idi: yuxarıların gözündən düşmüş Əziz Əliyevin evinə gedib-gəlmək, onun qızı ilə görüşmək məsul işdə çalışan zabit üçün arzuolunmazdır. Ona açıq deyildi ki, vəzifəsini və işini itirə bilər. Gənc zabit çətin vəziyyətdə qalmışdı. Amma o, asan təslim olan adamlardan deyildi. O, Zərifəni sevirdi və ondan ayrılmağı təsəvvürünə də gətirmirdi. Bu mülahizələri o, açıq şəkildə nazir Yemelyanova demişdi. O, eyham vurmuşdu ki, Mir Cəfərin tapşırığını icra edir, qəti qərar qəbul etmək cavan zabitin öz işidir.

Gənc Heydərin Zərifə ilə münasibətləri də, məsul işdə xidməti də davam etdi. Amma tarix də cavanların məhəbbətinə "əl tutdu". Nazirlə Heydər Əliyevin söhbətindən yarım il sonra İosif Stalin öldü. Bu, Mir Cəfər Bağırovun hakimiyyətinə də öldürücü zərbə idi. Bütün ölkə, o cümlədən, Heydər Əliyev və gələcək qayınatası da rahat nəfəs aldılar. Bir qədər sonra Əziz Əliyev layiq olduğu vəzifəyə qaytarıldı...

Gənclərin ailə qurması üçün sonuncu mənzil maneəsi də aradan qalxdı və 1954-cü ilin noyabrında onların toyu oldu. Bu yığcam, rəsmi tələblərə uyğun musiqisiz bir məclis idi. Gənclər nikah mərasimindən sonra evə gəlib stol arxasında oturdular. Məclisdə Əziz Əliyev, Həsən Əliyev, akademik Murtuza Nağıyev, bəylə gəlinin anaları və yaxın qohumları iştirak edirdilər. Toyun tamadalığı Heydər Əliyevin uşaqlıq dostu İbrahim İsmayılova həvalə edilmişdi.

Qarşılıqlı məhəbbət üzərində qurulan ailə xoşbəxt idi. Gənc zabit olan Heydər Əliyev həyat yoldaşının simasında özünə həqiqi bir dayaq tapdı. Təhlükəsizlik orqanlarında iş mürəkkəb idi və çoxlu vaxt tələb edirdi. Heydər Əliyev də öz işini sevir və çalışmaqdan yorulmurdu. O, bilirdi ki, ürəyindəki böyük planları icra etmək üçün zəhmətdən yaxşı heç nə yoxdur. Zərifə Əliyev öz elmi işini davam etdirsə də, həqiqi bir azərbaycanlı qadını kimi ailəni və onun qayğılarını birinci sayırdı. Ümumiyyətlə, məişət xırdalıqlarından yüksək olmaq, uzaqgörənlik və səbr onun xasiyyətinin əsas cəhətləri idi. Zərifə xanım fitri, sağlam düşüncəsi olan bir qadın kimi ərinə nədəsə məsləhətlər də verə bilərdi. Lakin o, belə təşəbbüslərdən uzaq idi, bütün diqqətini ailədə ılıq və rahat şəraitin yaradılmasına yönəltmişdi.

Atasının taleyindən bilirdi ki, dövlət adamlarının əsas dayağı ailədəki sabitlikdir. Dövlət işində tez-tez fırtınalar qopurdu. Bunlara tab gətirmək üçün məhəbbət və qarşılıqlı anlaşma əsasında qurulmuş ailə onun əsas dayağı idi. 1955-ci ildə onların ilk övladları Sevil dünyaya gələndə gənc ailənin fərəhinin həddi-hüdudu yox idi. Evdə səslənən uşaq səsi onların da yuvasını yeni ümid və xoşbəxt planlarla doldurdu. 1961-ci il dekabrın 24-də onların ikinci övladları İlham dünyaya gəldi. Zərifə xanım elmi fəaliyyətini davam etdirsə də, övladlarının qayğıları və tərbiyəsi ilə özü məşğul olurdu. O, böyük zövq alır, onların həyatdakı kiçik addımlarından belə fərəhlənirdi.

Zərifə xanım oğlu İlhama xüsusilə bağlı idi. Onun sağlamlığı, gözəl və nikbin siması ilə nəfəs alırdı. Bu, həm də azərbaycanlı mentalitetində kök salmış bir ənənə ilə bağlı idi. Oğlan uşaqları ocağın dayağı və varisi sayılır. Zərifə xanım bu ümidlərində, bu məhəbbətində necə də haqlı idi. Elmi və ictimai işlərlə ciddi məşğul olsa da, İlhamın böyüməsi və təhsili ilə bağlı hər bir prosesdə şəxsən iştirak edir, övladına məhəbbət və qayğını heç vaxt əsirgəmirdi. İlhamın yeddi yaşı olanda Heydər Əliyev respublikanın birinci şəxsi seçildi. Bu, Zərifə xanım üçün, ailə üçün sevinc və təntənə idi. Amma uşaqların tərbiyəsi baxımından problemlər yaradırdı. Ana kimi başa düşürdü ki, övladlarını heç bir güzəşt olmadan tərbiyə etmək və onlara ən müasir təhsil vermək lazımdır. Ətrafda bunu anlamayanlar da vardı. Birinci növbədə zəhməti, məktəbi, təhsili sevməyi öyrətmək, sadəliyi və xeyirxahlığı tərbiyə etmək lazım idi. Bu ana borcu idi və böyük səbr və zəhmət,qətiyyət və məhəbbət tələb edirdi. Bunların hamısı onda var idi...

Respublikanın birinci şəxsinin həyat yoldaşı olmaq da məsuliyyətli idi, Zərifə xanımın üzərinə ictimai vəzifələr qoyurdu. Lakin bu problemdə də Zərifə xanım davamlı bir mövqe tutdu və Ulu öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməzdən əvvəlki həyat prinsiplərini dəyişməz olaraq saxladı: ailənin sabitliyini qorumaq, uşaqların problemlərinin atanı narahat etməməsinə çalışmaq. O, buna ustalıqla nail olurdu, cəmiyyətdə, dövlət tədbirlərində diqqəti cəlb etməməyə, sadə həyat tərzini davam etdirməyə çalışırdı. O, yenə öz doğma Göz Xəstəlikləri İnstitutunda çalışırdı. İş yoldaşları onun davranışında heç bir dəyişiklik hiss etmirdilər. Əksinə, Zərifə xanım kollektivdə daha qayğıkeş olmuşdu, iş yoldaşlarının məişət problemlərinin həlli üçün müxtəlif orqanlara müraciətlər göndərir və insanlara kömək etməkdən zövq alırdı.

Göz Xəstəlikləri İnstitutu onun üçün doğma bir yer olmuşdu. 1976-cı ildə oftalmologiyada hadisəyə çevrilən doktorluq dissertasiyası müdafiə etdi. Bir müddət sonra kafedra müdiri oldu. Ailədə və cəmiyyətdə apardığı işlərin ağırlığına baxmayaraq, o, 140 elmi məqalə, bir necə monoqrafiya və kitab dərc etdirdi. Çoxillik elmi təcrübədən o bir qənaətə gəlmişdi: insanların xəstə gözlərinin müalicəsi çətin və ağrılı bir proses idi. Ona görə göz xəstəlikləri sahəsində profilaktika metodikalarına artıq əhəmiyyət verməyə başladı. Bu, uzaqgörən və müasir bir elmi nəticə idi, oftalmologiyanın gələcək inkişafını qabaqlayırdı. Onun 70-ci illərdən sonrakı bütün elmi axtarışları bu nəticə ilə bağlı oldu. Zərifə xanım göz xəstəliklərinin profilaktikası üçün öz metodikasını hazırladı və bu metodika ona oftalmologiyada şöhrət gətirdi. O, gənc vaxtlarından axtardığı elmin böyük yolunu tapmışdı. Bu, həm də Azərbaycan tibb elminin nailiyyəti idi. Bütün bunlar 1983-cü ildə Zərifə Əliyevanın Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə elmi etirafını tapdı. Onun alim şöhrəti artıq Azərbaycanın sərhədlərini çoxdan aşmışdı.

1982-ci ildə Ulu öndər Heydər Əliyev Siyasi Büronun üzvü seçildi və Moskvada SSRİ hökuməti sədrinin birinci müavini təyin olundu. Zərifə xanım uşaqlarla birgə Moskvaya köçdü. Bu, onun gəncliyinin şəhəri idi.

Moskva elitasının mərkəzində yaşamaq, Heydər Əliyevin və ailənin tanışı olan elm və sənət adamları ilə ünsiyyət necə də xoş idi. Ərinin, övladlarının taleyində və təhsilində hər şey əla idi, insanlar bu xoşbəxt qadını barmaqla göstərir ona qibtə edirdilər. Lakin təbiətin də amansız hökmü var. Zərifə xanım müalicə olunmayan xəstəliyə dücar oldu. 1985-ci ildə Zərifə Əliyeva dünyasını dəyişdi.

Bu, ağır bir itki idi. Onun sevimli İlhamının hələ 24 yaşı vardı. Həyatda o, ən çox övladları ilə fəxr etmək istəyirdi... Gözünün nuru olan əziz İlhamının uzun illər təhsilinə, tərbiyəsinə, insan və şəxsiyyət kimi yetişməsinə ana kimi özünü həsr edən Zərifə xanıma onun Prezident kimi andiçmə mərasimini görmək qismət olmadı. Bu gün isə bu fərəhi bütün Azərbaycan yaşayır. Bu, Zərifə xanımın tərbiyəsinin təntənəsidir.

Ana məhəbbəti itmir, xariqələr yaradır. Bu gün Zərifə Əliyevanın övladları ilə bütün Vətən fəxr edir. Onların fərəhində və qürurunda özünü həsr etmiş bir anaya böyük bir millətin məhəbbəti də var. Bu gün bu məhəbbət çiçəklənir, pöhrələr verir və mənəviyyat tariximizin örnəyinə çevrilir.

**Yeni Azərbaycan. -** 2010.-27 aprel. - № 72. - S. 5.

# Zərif bir insandı gözdə nur kimi...

**İradə HÜSEYNOVA,**
təhsil nazirinin müavini, tarix elmləri doktoru, professor,
əməkdar müəllim

**Nəcib keyfiyyətləri, saf mənəvi dəyərləri parlaq şəxsiyyətində cəmləyən böyük insanların nurlu çöhrəsi bəzən bütöv bir dövrün obrazı kimi göz önündə canlanır. Yaşadıqları dövrün real imkanlarını mənimsəyib zamanın fövqünə qalxmağı bacaran belə insanlar xalqın mənəvi-intellektual potensialını qoruyur, milli intibaha xidmət edən çətin və şərəfli yolda öz həyat ideallarını tapırlar. Fitri istedada malik novator ziyalı, pak və nəcib insan, yaşadığı mənalı ömür yolu hər bir Azərbaycan vətəndaşı üçün həyat və mənəviyyat nümunəsi, kamillik, müdriklik məktəbi olan Zərifə Əliyeva da məhz belə nəcib insanlardan biri kimi milyonların qəlbində dərin ehtiramla, rəğbətlə xatırlanır.**

Akademik Zərifə Əliyeva nurlu şəxsiyyətində Uca Yaradanın yalnız sevdiklərinə bəxş edə biləcəyi gözəl, bənzərsiz keyfiyyətləri tamamlayırdı. Zahiri və daxili gözəllik, mehribanlıq, həssaslıq, ziyalılıq, bir sözlə, yüksək insaniyyətə xas bütün müsbət cəhətlər onun xarakterində cəmləşmişdi. İnsanpərvər, xeyirxah, mehriban insan olaraq hamının dərdini, problemini özününkü hesab etməyi bacarır, insanları sevirdi. Bütün bunlarla yanaşı, o, həm də oftalmologiya elmi sahəsində söz sahibi olan nüfuzlu alim idi. Zəngin elmi yaradıcılıq irsi ilə Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan, yüksək intellekt sahibi akademik Zərifə Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir. Görkəmli alimin yazıb-yaratdığı monumental əsərləri, elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, yüksək səviyyəli mədəni irsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Bir daha məlum olur ki, Zərifə Əliyeva uzun illər gərgin elmi-praktik çalışmaları ilə peşə təcrübəsini artırarkən belə bir sadə həqiqət formulunu həyatının devizinə çevirmişdir: həqiqi elm həyata, Vətənə, xalqa xidmət vasitəsidir.

Bu nəcib şəxsiyyətin cəmiyyət üçün layiqli insan kimi yetişməsində, erkən yaşlarından ülvi məqsədlər uğrunda mübarizə aparmasında böyüyüb boya-başa çatdığı ailə mühitinin təsiri böyük olmuş, halal zəhməti başı üstündə görən valideynləri onu daim düzgün yola yönəltmişlər. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş, tibb elmləri doktoru olan atası Əziz Əliyevin yolunu davam etdirən Zərifə xanım insanların gözünə nur vermək kimi müqəddəs bir yol seçmişdi. Oftalmologiya ixtisasına bağlılığı onun daxilindən, mənəvi dünyasından irəli gəlirdi. Elə peşəsində qazandığı uğurlar da məhz bu keyfiyyətləri ilə bağlı idi. Xəstələrini doğmalarından ayırmır, insanları zülmətdən qurtarmaq, onların gözlərini nura boyamaq üçün qəlbinin odunu əsirgəmirdi.

Filosoflar əsrlər boyu böyük insanların obrazının həyat qayəsini açmağa çalışmış, son nəticədə belə qənaətə gəlmişlər ki, başlıca tərbiyəvi amil şəxsiyyətin formalaşdığı mühitdir. Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində ziyalı ailəsində dünyaya göz açmış, 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1947-ci ildə ali təhsilini bitirdikdən sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. Elmi tədqiqatlara olan sonsuz marağı Zərifə xanımı Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmış və o, orada həkim-ordinator kimi işə başlamışdır. 1950-ci ildə aspiranturaya daxil olmuş, aspiranturanı bitirdikdən sonra Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda elmi işçi olmuşdur.

Həmin illərdə Azərbaycanı traxoma göz xəstəliyi bürüsə də, buna qarşı təsirli müalicə üsulları yox idi. Xəstəliklə mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublika səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edirdi. Konkret müalicə təcrübəsindən başqa o, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında söhbətlər aparırdı.

Əslində, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu da həyat özü müəyyənləşdirdi. Zərifə xanım tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, bir az da dəqiq desək, traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən – sintomitsindən istifadə olunmasına həsr etdi. Çünki sintomitsin geniş antibakterial spektrlərlə yanaşı, antixlamedik fəallığa malik idi. Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə uğurla müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etdi. Gənc alim bu uğurlarına görə Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi seçildi. Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işləri yekunlaşdırdıqdan sonra isə alim oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqatlar aparmağa başladı, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı bir sıra tədqiqat işləri apardı. Həmin araşdırmaların nəticələrindən bəhs edən elmi işlərin mətbuatda dərc olunması klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin genişlənməsinə kömək etdi. 1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmış, 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona “Oftalmologiya” ixtisası üzrə böyük elmi işçi adı vermişdir.

1967-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur. Bu institut ömrünün son illərində həmin kollektivə rəhbərlik etmiş mərhum professor, görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin - Zərifə xanımın atasının adını daşıyırdı. Həmin dövrdə Zərifə Əliyeva həkimlik fəaliyyəti ilə məşğul olur, cərrahiyyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verir, üstəlik onun fəaliyyəti yalnız öz klinikasını deyil, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edirdi. Bununla yanaşı, o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparırdı. Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə çox ciddi məşğul olmasına baxmayaraq, Zərifə Əliyeva elmi tədqiqat işlərinin davam etdirilməsinə də böyük əhəmiyyət verirdi. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının patologiyası cəlb edirdi. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin, demək olar ki, elmi şəkildə tədqiq olunmaması ilə əlaqədar idi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Bir sıra ciddi elmi məsələlərlə yanaşı, Zərifə xanım bütün ömrü boyu peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemlərinə xüsusi maraq göstərmişdir. Eyni zamanda, o, bir sıra problemlərə, o cümlədən yod-sənaye müəssisələrində, neft-kimya sənayəsində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirmişdir. Zərifə xanım bu problem üzərində iş apararkən çox vaxt sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Bununla yanaşı, Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən Bakı şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparmışdır. Geniş miqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri isə Zərifə Əliyevanın doktorluq dissertasiyanın əsasını təşkil etmişdir. O, “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Zərifə xanımın dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilir, 1983-cü ildə isə həmin kafedranın müdiri olur. Elə ilk gündən görkəmli alim ətrafına istedadlı gənc həmkarlarını toplayaraq, elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bildi. Amma kafedranın mövcud bazası elmi tədqiqatların keçirilməsi tələblərinə cavab vermirdi. Təşəbbüs göstərmək lazım gəlirdi və Zərifə xanım bu problemin həlli yolunda bir sıra konkret addımlar atdı.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Beləliklə, Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın olmuşdur.

1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Professorun elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, məsələn “Herpetik göz xəstəliyi”, “Ağır virus konyuktivitləri” və s. məhz bu məsələlərə həsr olunmuşdur.

Həmin dövrdə Zərifə xanım qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş bir sıra maraqlı tədqiqatlar aparmışdır. Gərgin və gərəkli tədqiqatlar nəticəsində o, ciddi elmi məqalələr və iki monoqrafiya – “Gözün hidrodinamik sistemin anatomo-fizioloji xarakteristikası” və “Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi” monoqrafiyalarını çap etdirmişdir.

Akademik Zərifə Əliyeva həm də gözün zədələnməsinin profilaktikası və müalicəsi imkanlarını öyrənmişdir. Bir sıra elmi işlərində o, görmə orqanı zədələndikdə mövcud olan cərrahiyə əməliyyatları üsullarını araşdırmış, həmin üsulların təkmilləşdirilməsi üçün faydalı tövsiyələr işləyib hazırlamışdır. Bu tövsiyələr cərrahiyyə əməliyyatına məruz qalan zədələnmiş görmə orqanının müalicəsini xeyli yüngülləşdirmişdir. Alimin bir sıra elmi işləri görmə orqanında bədxasiyyətli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur. Professor Zərifə Əliyevanın “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyə üsulları ilə müalicəsi” monoqrafiyaları təkcə oftalmoloqların deyil, həm də fizioloqların diqqətini özünə cəlb etmişdir.

Həkim etikası və tibbi deontologiya məsələləri də alimi həmişə düşündürmüşdür. Akademik gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, “Yüksək etimad” kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. Onun bu mövzuya dair baxışları “Həkimin yüksək vəzifəsi” və “Oftalmologiyanın aktual problemləri” monoqrafiyalarında da ətraflı yer almışdır. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” əsərində daha ətraflı şəkildə əks

olunmuşdur. Zərifə xanım dəfələrlə deyirdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və bəzən dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım həkimlə xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Alim həkim-xəstə münasibətlərinə toxunaraq, insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş və "həkim xəstənin ən doğma adamıdır" demişdir.

Görkəmli oftalmoloq həmkarlarına həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, onun sağlamlığı uğrunda mübarizə aparmaq həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi idi – insanı sağaltmaqla onu öz "mən"inə qaytarmaq. Bu baxımdan yüksək peşəkarlığı ilə həmkarları arasında seçilən Zərifə xanım xüsusilə gənclərə təlqin edirdi ki, əxlaqi-tibbi düşüncə "sənətini" dərk etmək üçün ilk növbədə sağlam mənəvi-intellektual mühit, bütün tibb ictimaiyyətinin mənəvi-əxlaqi meyarlara yiyələnməsi tələb olunur. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir. Həkim öz peşəsini həyata keçirərkən müalicədən əvvəl xəstənin xarakterini öyrənmək kimi mürəkkəb psixoloji prosesdə olur. Təbabət aləmində belə fəaliyyət elmi-tədqiqat işinə bərabər tutulur.

Zərifə xanımın elmi fəaliyyətinin digər sahələrindən biri klinik diaqnostik istiqamətdə apardığı tədqiqatlardır və onların da nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmləşmişdir. Bu əsərlər arasında "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və b. oftalmoloji elmi-ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Alim göz yaşı aparatının xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur.

Bunlarla yanaşı, Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan "İridodiaqnostikanın əsasları" rəngli illüstrasiyalarla "Azərnəşr" tərəfindən, digər monoqrafiya isə "İridodiaqnostika" adı ilə 1988-ci ildə Moskvada nəşr edilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazmışdır. Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. O, ömrü boyu fəal ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Ümummilli lider Heydər Əliyev kimi böyük şəxsiyyətin, dahi bir insanın ömür-gün yoldaşı olmağın özü də həyatda böyük bir məsuliyyət, cavabdehlik deməkdir. Zərifə xanım Əliyeva isə hər iki işi uğurla birləşdirməyi bacararaq, həm ailəsində, həm də peşəsində nümunə göstərirdi. Elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək sayılacaq şəxsi keyfiyyətləri, xeyirxah məqsədlərə köklənmiş nəcib xarakteri, ziyalılığı və sadəliyi ilə Zərifə xanım həm də ailəsinin sağlam təməl üzərində qurulmasına çalışmışdır. Məhz zəngin daxili dünyasının əzəməti ilə ailəsinin mənəvi və fiziki cəhətdən sağlamlığını, milli ruhda formalaşmasını təmin etmişdir. Zərifə Əliyeva məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı olmaqla yanaşı, qayğıkeş ana idi! Onun geniş dünyagörüşü, nəcibliyi, sadəliyi və qayğıkeşliyi, ulu öndər Heydər Əliyevin isə ailə rəhbəri kimi mənəvi bütövlüyü, kristal xarakteri, yüksək daxili "mən"i, mütərəqqi dəyərlərə bağlılığı, müdrik ata nəsihəti bu ocaqda böyüyüb boya-başa çatmış yeniyetmələrin də həyatında silinməz izlər buraxmışdır. Ulu öndər Heydər Əliyevin sonralar əbədiyyətə qovuşmuş ömür-gün yoldaşı Zərifə xanım haqqında söylədiyi xatirələr gənclərimiz üçün mənəvi paklıq nümunəsi kimi insanın qəlbini riqqətə gətirir: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

Bəli, pak qəlbi nurla dolu olan akademik Zərifə Əliyeva bütün ömrünü insanlara işıq bağışlamağa həsr etmiş, zülmət və qaranlıqla mübarizə aparmışdır. İşığını itirmiş gözlərə nur bəxş etmək istəyi onun parlaq obrazını qeyri-adi bir nəcibliyə qovuşdurmuşdur. Böyük insan cismən bizlərdən ayrılsa da, qoyub getdiyi nur çeşməsi aydınlığını bircə damla belə azaltmayıb. Əksinə, bu işıq onun yenidən Günəşi görmək imkanını qaytardığı adamlarda, bu xeyirxah və nəcib xanımla bağlı kövrək xatirələrdə əbədiləşmişdir.

**Xalq qəzeti.** - 2010.-15 aprel. - № 79. - S. 5.

# O, əsl gözəllik mücəssəməsi idi

**T.HÜSEYNOVA,**
professor

**Mən bu sətirləri yaza-yaza özümü heç cür inandıra bilmirəm ki, Zərifə xanım artıq aramızda yoxdur. (Bir də axı bu necə ola bilər?) Bir insan ki, öz yurduna, öz xalqına bu qədər bağlı ola, onu tanıyan adamların qəlbində əbədi iz sala, bir insandan ötrü ki, biz hamımız bu boyda qürur hissi duyaq, o insanın yoxluğuna necə inanmaq olar.**

Zərifə xanımla hər görüş onu tanıyanlara həqiqi sevinc gətirirdi. Elə birinci görüşdən insanlarda yaratdığı xoş təəssürat uzun illərin ünsiyyəti boyunca sabit qalar, dəyişməzdi. Çünki o, insanlara münasibətində sabitqədəm idi. Həmsöhbətini dinləmək, yerinə çatmamış hər hansı bir məsələdə nəticə çıxarmağa tələsməmək bacarığı, imdad istəyənlərin taleyində şüurlu və xeyirxah rol oynamaq onun şəxsiyyətinin səciyyəvi xüsusiyyətlərindən sayılırdı. O, elə bir qadındı ki, bütün müsbət keyfiyyətləri öz şəxsində ahəngdar bir tərzdə cəmləşdirə bilmişdi. Yüksək erudisiyası, mənəvi məziyyətləri, gözəllik duyğusu ilə hər kəsi heyrətə sala bilərdi. "İnsanda hər şey gözəl olmalıdır - qəlbi də, sifəti də, fikri-düşüncəsi də, geyimi də". Bu məşhur kəlam sanki ondan ötrü deyilmişdi. İrili-xırdalı bütün görüşlərimiz ərzində mən bir şeyi dəqiq müəyyənləşdirmişdim ki, Zərifə xanımın gördüyü bütün işlərdə xeyir başlanğıc nöqtəsi, əsas istinadgah idi. Onun təbiətinə xas olan ən mühüm cəhətlər xeyirxahlıq və humanizm, insanlara sevinc bəxş etmək arzusu idi.

Zərifə xanımın işi ilə bağlı bir sıra hadisələr yaddaşımda əbədilik həkk olunub. İndiki kimi yadımdadır, bir dəfə onunla görüşmək üçün iş yerinə getmişdim. Xəstələrlə məşğul olduğu üçün oturub gözləməli oldum. Birdən Zərifə xanım çöhrəsində işıqlı təbəssüm otağa daxil oldu. Üzündən bəxtəvərlik yağırdı. Sanki dünyanı ona bağışlamışdılar. Sən demə, ağır xəstələrindən birinin qızı ona böyük bir gül dəstəsi gətiribmiş. Zərifə xanım isə al qərənfilləri qızından alıb, xəstənin özünə bağışlayıb. Ağır göz xəstəliyindən sonra bu güllərin gözəlliyini bir daha görən xəstənin xoşbəxtliyi Zərifə xanıma ləzzət verirdi. Əlbəttə, bu, yüksək peşəkar ustalığa malik hər bir həkim üçün uğurlu fəaliyyətin adi bir təzahürü idi, ancaq inanmaq olmurdu ki, bütün həkimlər xəstələrə bəxş etdikləri səadətdən Zərifə xanım kimi sonsuz həzz alsınlar. Yadımdadır, o vaxt Lev Nikolayeviç Tolstoyun sözlərini xatırlamışdım: "Həyatda şəksiz-şübhəsiz, bircə həqiqi xoşbəxtlik var - başqaları üçün yaşamaq səadəti". Mən bu sözləri söyləyəndə Zərifə xanım gülümsəyib, bu müdrik kəlamı təsdiqləmişdi. Mənə elə gəlir ki, bu sözləri onun həyat devizi də saymaq olardı: Zərifə xanım gözəl ana, qayğıkeş bacı, fədakar ömür-gün yoldaşı və etibarlı dost idi. Xatırladığım bu epizod da onun insanpərvərliyini, adamlara sevinc bəxş etməkdən doymadığını bir daha göstərir.

Həddən artıq nizam-intizamlı adamdı. Ciddi və özünə qarşı tələbkar idi, başqalarından da bunu umurdu. Mənəvi borc və məsuliyyət duyğuları onu bircə an da tərk etmirdi. Vədinə xilaf çıxmaq ona yad idi. Kifayət qədər nüfuzlu bir şəxsiyyət kimi, ətrafındakıların böyük hörmət və ehtiramını qazansa belə, həmişə özünü sadə və təvazökar tutardı. Başqalarının vaxtına qiymət verməyi də bacarırdı, ünsiyyətdə olduğu insanlarda yalnız yaxşı keyfiyyətlərə də. Mən elmi işimlə əlaqədar onun yanına tez-tez gedib-gəldiyim üçün bunu başqalarından yaxşı bilirəm: Zərifə xanımın sənədləri, yazıları həmişə təkmil olar, savadlı tərtib edilər və öz vaxtında ünvanına çatdırılardı. Bütün qapılar onun üzünə açıq olsa da, həmişə işdən ötrü bir yerə getmək istəyəndə əvvəlcədən razılıq alardı.

Mən Zərifə xanımı ölkənin görkəmli qadın alimləri arasında da müşahidə etmişdim. O, söhbəti peşəkar səviyyədə aparmağı da, sözün ən yüksək mənasında qadın olaraq qalmağı da bacarırdı. Belə görüşlərdən birində akademik Valentina Aleksandrovna Nasanovanın dediyi sözləri öz qulaqlarımla eşitmişəm: "Mən məsul vəzifələrdə işləyən çoxlarının xanımları ilə tanış olmuşam. Ancaq sizinlə təmasdan sonra heyrətə gəlməyə bilmirəm ki, siz bu qədər müdrik, yüksək mədəniyyət və elm sahibi olmaqla yanaşı, həm də bu qədər incə hissiyyata maliksiniz. Zərifə xanım, qınayan olmasaydı, mən deyərdim ki, siz ərinizin sadəcə qadını və dostu yox, tən yarısısınız".

Bu lətafətli qadın mənim yaddaşımda həm də ən çətin məqamlarda insana kömək əli uzada bilməsi ilə həkk olunub. O, insan kimi ömrünün mənasını bunda görürdü. Mən özüm də çıxılmaz anlarımda ona müraciət etmişəm. Zərifə xanım məni təmkinlə axıra qədər dinləyib, qiymətli məsləhətlər verib, inandırıb ki, belə həll olunan şeylərdən ötrü bu qədər həyəcanlanmağa dəyməz, gərginliyimi götürüb, məni ruhlandırıb. Belə vaxtlarımdan birində nikbin söhbətdən sonra təzəcə çapdan çıxmış monoqrafiyasının üstünü yazaraq mənə bağışlamışdı. Yadımdadır, o vaxt evə döndükdən sonra mən uzun müddət bu qadındakı insanların qəlbinə yol tapmaq, onların dərdinə-sərinə şərik olmaq, səmimiyyətlə kömək göstərmək kimi qeyri-adi məziyyətlərinin təsiri altından çıxa bilməmişdim.

İndinin özündə də Zərifə xanımın könül hərarətinin bir parçası kimi həmin kitabı ən əziz bir xatirə kimi saxlayıram.

**Xalq qəzeti.** - 2011.-16 aprel. - № 80. - S. 6.

## Gözlərə nur, qəlblərə mərhəmət bəxş edən böyük insan

**Kamran ASLANOV,**
respublikanın baş stomatoloqu, tibb üzrə fəlsəfə doktoru,
əməkdar həkim

Cəmiyyətə, xalqa fayda verərək həyat amallarını saf təməllər üzərində quran yüksək mənəviyyat sahiblərinin cəmiyyətdəki mövqeyini onların dərk edilmiş məsuliyyətə əsaslanan fəaliyyəti müəyyənləşdirir. İnsanlıq naminə yalnız özü üçün deyil, başqaları üçün də yaşaya bilmək bacarığını hər kəsin kamillik səviyyəsi, ləyaqət hissi, sağlam həyat tərzi dünyaya gətirir.

Sağlığında xalqı üçün gördüyü işlərlə mənəvi ucalığa yüksələn belə şəxsiyyətlərdən biri görkəmli oftalmoloq-alim, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyeva idi. Geniş dünyagörüşü, tədqiqatçılıq bacarığı, yüksək ziyalılığı ilə cəmiyyətdə layiqli yer tutan Zərifə xanım Əliyevanın şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, elm adamı, habelə tibb işçisi üçün mənəviyyat, kamillik və müdriklik məktəbidir. Zəngin elmi yaradıcılıq irsi ilə Azərbaycan oftalmologiyasını dünyada tanıdan yüksək intellekt sahibi akademik Zərifə Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir. Monumental əsərləri, elmi nailiyyətləri, pedaqoqluq səriştəsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Aydın görünür ki, Zərifə xanım Əliyeva uzun illər gərgin elmi-praktik çalışmaları ilə peşə təcrübəsini artırarkən bu sadə həqiqəti özünün həyat kredosu seçib: həqiqi elm təkcə özünütəsdiq imkanı deyil, həm də vətənə, xalqa, dövlətə layiqli xidmət vasitəsidir.

Yüksək mənəvi keyfiyyətləri ilə, elmi, dünyagörüşü bir-birini tamamlayan insanlar əsl şəxsiyyətlər kimi cəmiyyətdə layiqli mövqe qazanırlar. Akademik Zərifə xanım Əliyeva da belə nurlu şəxsiyyətlərdən biri idi. Mehribanlıq, həssaslıq, ziyalılıq, bir sözlə, insanlığa xas bütün müsbət cəhətlər onun nəcib simasında qovuşmuşdu. Hamının dərdini, problemini özününkü hesab etməyi bacarır, ətrafındakılara hər zaman səmimiyyətlə, hörmətlə yanaşırdı.

Böyük filosoflar əsrlər boyu şəxsiyyət amilini tədqiq edərkən son nəticədə bu qənaətə gəliblər ki, onun yetişməsində başlıca amil məhz formalaşdığı mühitdir. Zərifə xanım 1923-cü il aprelin

28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində - görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş tibb elmləri doktoru Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Onun cəmiyyət üçün layiqli insan kimi yetişməsində, peşə seçiminin düzgün müəyyənləşməsində böyüyüb boya-başa çatdığı ziyalı mühitinin təsiri çox böyük idi. Orta məktəb illərindən tibb sahəsinə sonsuz maraq göstərərək insanların gözünə nur vermək kimi müqəddəs bir yol seçmişdi. Oftalmologiya ixtisasına bağlılığı həm də onun daxilindən, mənəvi dünyasından, insanlara həssas münasibətindən irəli gəlirdi. Sonralar qazandığı uğurlar da məhz bu keyfiyyətləri ilə bağlı idi. Xəstələrini doğmalarından ayırmır, insanları zülmətdən qurtarmaq, onların gözlərinə nur vermək üçün əlindən gələni əsirgəmirdi.

İstedad, zəhmət və ağılla qazanılan uğur illər keçdikdə zənginləşir və ondan bütün cəmiyyətə pay düşür. Zərifə xanım Əliyeva da həyat uğurlarına məhz bu keyfiyyətləri sayəsində nail olmuşdu. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə təhsilini əla qiymətlərlə başa vuraraq Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. Elmi tədqiqatlara sonsuz marağı Zərifə Əliyevanı Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmış, orada həkim-ordinator kimi işə başlamışdır. Həmin institutda onun elmi tədqiqatlara marağı bir qədər də yüksəlmişdir: 1950-ci ildə aspiranturaya daxil olmuş, aspiranturanı bitirdikdən sonra respublika Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır.

Həmin illərdə Azərbaycanı traxoma göz xəstəliyi bürüsə də, buna qarşı təsirli müalicə üsulları yox idi. Xəstəliklə mübarizə təkçə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublika səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım Əliyeva traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edirdi. Konkret müalicə təcrübəsindən başqa, o, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında söhbətlər aparırdı.

Beləliklə, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirirdi. İstedadlı həkim tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, dəqiq desək, traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən - sintomitsindən istifadə olunmasına həsr etdi. Bu tədqiqatların nəticələri alimin 1960-cı ildə müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etdi. Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işlərini yekunlaşdırdıqdan sonra Zərifə xanım oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqatlar aparmağa başladı, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı araşdırma işlərini genişləndirdi. Həmin tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin mətbuatda dərc olunması klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin artırılmasına da kömək etdi.

1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışdı, 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən ona "Oftalmologiya" ixtisası üzrə böyük elmi işçi adı

verildi. 1967-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olundu. Həmin dövrdə Zərifə xanım Əliyeva həkimlik fəaliyyəti ilə məşğul olur, cərrahiyyə əməliyyatları edir, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparırdı. Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə ciddi məşğul olmasına baxmayaraq, elmi-tədqiqat işlərinin davam etdirilməsinə də böyük əhəmiyyət verirdi. Həmin dövrdə onun diqqət yetirdiyi aktual məsələlər sırasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi və s. xüsusi yer tuturdu.

Zərifə xanım Əliyevanın diqqətini əsasən oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının patologiyası da cəlb edirdi. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin demək olar ki, elmi şəkildə tədqiq olunmaması ilə əlaqədar idi. 1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Bir sıra mühüm elmi məsələlərlə yanaşı, müxtəlif peşələrlə əlaqədar əmələ gələn göz xəstəliyi problemlərinə xüsusi diqqət yetirir, yod sənayesi, neft-kimya müəssisələrində çalışan şəxslərin görmə orqanlarına təsir edən amilləri araşdırırdı. Tədqiqatçılıq qabiliyyəti yüksək olan Zərifə xanım həmin problem üzərində işləyərkən tez-tez sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Bununla yanaşı, Bakı və Sumqayıtdakı bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevaya doktorluq dissertasiyasının yazılması zamanı da çox gərəkli olmuşdu. Tədqiqatçı-alim "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində - H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Dissertasiyanın mövzusu və məzmunu bu sahədə ilk tədqiqat əsərlərindən biri kimi alim-oftalmoloqlar tərəfindən yüksək qiymətləndirilmişdir. 1977-ci ildə alimə tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru, 1983-cü ildə isə həmin kafedranın müdiri seçilmişdir. İlk gündən ətrafına istedadlı gəncləri toplayaraq elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil etməyə başlamışdır.

Görkəmli professorun elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, "Herpetik göz xəstəliyi", "Ağır virus konyuktivləri" və s. məhz bu məsələlərə həsr olunmuşdu.

Həkim etikası və tibbi deontologiya məsələləri də Zərifə xanım Əliyevanı həmişə düşündürürdü. Akademik gənc həkimlərin peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə xeyli əmək sərf etmişdi. Bu məsələyə həsr olunmuş "Yüksək etimad" kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfədir. Onun bu mövzuya dair baxışları "Həkimin yüksək vəzifəsi" və "Oftalmologiyanın aktual problemləri" monoqrafiyalarında da ətraflı yer alıb.

Görkəmli alim həmişə bu fikirdə idi ki, həkimlə xəstənin birbaşa münasibəti müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır, bəzən dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım Əliyeva həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib edir, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərir, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkirdi. "Yüksək əqidə: həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı" kitabında yazırdı: "Xəstəyə düzgün münasibət həkim sənətinin əsas mahiyyətlərindəndir. Bəzən həkim xəstəyə yardım göstərərkən xəstəliyin xüsusiyyətlərindən asılı olaraq o, xəstənin və onun qohumlarının yersiz məzəmmətlərini, acı sözlərini, hətta hədələrini dinləməyə məcbur olur. Başqa sənət sahibi olanlar bundan inciyərək onu təhqir edəndən imtina edərdi, üstünə qışqırıb onu qovardı. Lakin həkim belə hərəkəti özünə rəva bilmir, özünün təhqir olunmuş hissiyyatını və həyəcanını büruzə verməyə ixtiyarı yoxdur. Həkim xəstənin mənafeyini hər şeydən üstün tutmalıdır, öz iş gününün qurtarmasına baxmayaraq, o, xəstəxanada qalaraq xəstəsinə yardım edir, hətta onun çarpayısı yanında bir neçə sutka qalır, bunun cavabı isə xəstənin təşəkkürlü gülümsəmələri olur".

Dünya şöhrətli alimin çoxşaxəli elmi yaradıcılığı 12 monoqrafiyada, 160-dan çox elmi işdə, bir ixtira və 12 səmərələşdirici təklifdə əksini tapmışdır. Həmin tədqiqatlar yalnız göz xəstəliklərinin müxtəlif bölmələrini əhatə edən elmi işlərdən deyil, həm də problemin həllinə xüsusi yanaşmadan ibarətdir. "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" əsərləri və başqaları oftalmoloji elmi-ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Zərifə xanım Əliyeva fundamental "Terapevtik oftalmologiya" kitabının müəlliflərindən biridir. Akademikin "İridodiaqnostikanın əsasları" əsəri həkimlərin iş təcrübəsində bu gün də əvəzolunmaz nadir elmi vəsaitdir. Zərifə xanım xəstəliyin

diaqnostikasının yeni istiqamətdə inkişafını (gözün əlvan təbəqəsində dəyişikliyi, iridodiaqnostikanı) ilk dəfə tədqiq edən alimlərdən olmuşdur. Bundan başqa, Zərifə Əliyevanın doktriologiyadan bəhs edən "Göz sulanmasının fiziologiyası" və "Göz sulanmasının müasir cərrahiyyə üsulları və müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların deyil, fizioloqların da diqqətini cəlb etmişdir.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. Professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk alim qadın idi.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdi. O, ömrü boyu fəal ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə xanım Əliyeva sağlığında geniş dünyagörüşə malik şəxsiyyət kimi tanınmış, ədəbiyyatı, incəsənəti, musiqini dərindən mənimsəmişdi. Həmkarları fortepianoda görkəmli alimin ifasında həm klassik, həm də populyar musiqiləri eşitdiklərini bu gün də rəğbətlə xatırlayırlar. Zərifə xanım eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq kimi tanınırdı. İstər Oftalmoloqlar Cəmiyyətinin qurultaylarında, plenumlarında, Moskva Oftalmoloqlar Cəmiyyətinin plenar iclaslarında etdiyi məruzələr, istərsə də publisistik çıxışlarında özünün yüksək natiqlik istedadını göstərirdi.

Onu yaxından tanıyanlar xatirələrində qeyd edirlər ki, Zərifə xanım Əliyeva zəngin mənəviyyat sahibi kimi ailəsinə daim bağlı insan olub. Ümummilli lider Heydər Əliyev kimi böyük şəxsiyyətin, dahi bir insanın ömürgün yoldaşı olmağın özü də həyatda böyük məsuliyyət, cavabdehlik deməkdir. Zərifə xanım Əliyeva hər iki işi uğurla birləşdirməyi bacararaq həm ailəsində, həm də peşəsində nümunə göstərirdi. Elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək sayılacaq şəxsi keyfiyyətləri, xeyirxah məqsədlərə köklənmiş nəcib xarakteri, ziyalılığı və sadəliyi ilə həm də ailəsinin sağlam təməl üzərində qurulmasına çalışmışdır.

Zərifə Əliyeva valideynləri üçün layiqli övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı olmaqla yanaşı, qayğıkeş ana idi! Onun geniş dünyagörüşü, nəcibliyi, sadəliyi və qayğıkeşliyi, ulu öndər Heydər Əliyevin mənəvi bütövlüyü, kristal xarakteri, yüksək daxili "Mən"i, mütərəqqi dəyərlərə bağlılığı, müdrik ata nəsihəti bu ocaqda böyüyüb boya-başa çatmış övladlarının da həyatında silinməz izlər qoymuşdur.

Ömrünün hər günü mənəvi ucalığa bir pillə olmuş Zərifə xanım Əliyeva 1985-ci ildə əbədiyyətə qovuşdu, tarixin daş yaddaşına imzasını elm fədaisi, nur çeşməsi, qayğıkeş ana, vəfalı ömürgün yoldaşı kimi həkk etdi. Böyük insan cismən aramızda olmasa da, qoyub getdiyi nur çeşməsi aydınlığını bir damla belə azaltmayıb. Əksinə, bu işıq onun yenidən günəşi görmək imkanını qaytardığı insanlarda, onunla bağlı kövrək xatirələrdə əbədiləşib.

**Azərbaycan.** - 2011.-15 aprel. - №79. - S. 6.

## Ömrü dastana çevrilmiş insan haqqinda həyat hekayəti

**Nahid HACIZADƏ**

**Bir neçə il qabaq dünya şöhrətli "Molodaya qvardiya" nəşriyyatının "Görkəmli adamların həyatı" seriyasından Hüseynbala Mirələmovun Moskvada çapdan çıxmış "Zərifə Əliyeva" kitabını oxuyarkən öz–özümə sual vermişdim: "Bu kitab niyə əvvəlcə Bakıda çıxmayıb?" Tezcə də beynimdən başqa fikir keçdi: "Bəlkə də müəllif özü bilə–bilə belə edib ki, "Molodaya qvardiya"nın şöhrəti, auditoriyası çox böyük, rusdilli oxucuların əhatə dairəsi daha genişdir".**

**Açığı, o zaman düşünmürdüm ki, bu nəşrin Azərbaycan variantını da oxuyacaq, sonra da onu redaktə etməli olacağam. Bunu da deyək ki, əvvəllər müəllif "Molodaya qvardiya" nəşriyyatında Heydər Əliyev və İlham Əliyevə həsr edilmiş kitablarını nəşr etdirmişdi. "Zərifə Əliyeva" hörmətli ədəbiyyatşünaslardan birinin təbiri ilə desək, "Əliyevnamə" trilogiyasının üçüncü kitabıdır.**

Əsər geniş, əhatəli, oxunaqlıdır. Ələ götürəndə, yerə qoya bilmirsən. "Zərifə Əliyeva" adlı bədii–publisistik, sənədli romanın Azərbaycan dilində nəşrə hazırlanan variantını yenidən vərəqləyirəm. Bir–birilə əl verib görüşən, körpülənən, bir–birini tamamlayan poetik fəsillərin sayı on altıya çatır.

Əsərin öncəsi — "Dastanın əvvəli" fəsli belə bir cümlə ilə başlayır: "Zərifə xanım ilk dəfə dövlət təhlükəsizliyi zabiti Heydər Əliyevlə görüşəndə iyirmi beş yaşı var idi".

Səhifələr bir–birini əvəz edir. Biz hadisələrin burulğanına düşür, xəyalən Zərifə Əliyevanın bəlkə də romanlara belə sığmayan enişli–yoxuşlu, zəhmətlə yoğrulmuş romantik həyatının aylarından, illərindən keçir, çox–çox insanların bu nəcib şəxsiyyət haqqında ürəkdən gələn hərarətli sözlərini, bizi kövrəldən, düşüncələrə daldıran həzin xatirələrini oxuyur, ondan ayrıla bilmirik.

…Ədəbi–mədəni həyatımızın axarını izləyəndə aydın görürük ki, müəllifin imzası heç vədə gözdən yayınmayıb, həmişə diqqət mərkəzində olub. Həmkarları hərdən qibtə hissi ilə deyirlər: "Qələm həmişə əlindədir, gecə–gündüz yazıb–yaradır".

Qəzet, jurnal səhifələrində, teatr afişalarında, kitab mağazalarında, sərgilərdə adının tez–tez görünməsi, onun gərgin yaradıcılıq yolunun genişliyindən, janr rəngarəngliyindən xəbər verir. O, nəsr, dramaturgiya və publisistikada qələmini uğurla sınayır, vaxtaşırı oxucuların, tamaşaçıların görüşünə yeni–yeni əsərlərlə gəlir. Bəlkə də onun sözə, qələmə sevgisi, yazmaq eşqi oxucunu heyrətləndirir. O, daim həyatın qoynunda, insanların arasında, yaşadığımız günlərin burulğanındadır. Bu da onu yazı stolundan aralanmağa qoymur. Hekayələr, pyeslər, povestlər, romanlar… bir–birinə qovuşur, yazıçının ədəbi taleyində işıq yandırır, onu gələcək illərə səsləyir.

Söhbət yazıçı–dramaturq Hüseynbala Mirələmovun çoxşaxəli yaradıcılığından gedir. O, tarixə baş vurur, əsrlərin dolaylarında, dolanbaclarında nəsillərə nümunə ola biləcək hadisələri silkələyir, keçmişdən bu günə körpü salır, oxucunu heyrət dalğasına bürüyür, sehrləyir.

Bu yaxınlarda akademik Bəkir Nəbiyevin sanballı ön sözü ilə nəşr olunmuş "Sonuncu fateh" trilogiyası çoxillik zəhmətin, inamlı, inadlı yaradıcılıq axtarışlarının səsi, müjdəsidir. "Sonuncu fateh" yazıçının ədəbi taleyində,yüksəlişində uğurlu bir mərhələdir.

Əlbəttə, bizim söhbətimiz bu fundamental əsər haqqında deyil, başqa bir nəşrdən—"Zərifə Əliyeva" sənədli–publisistik romanından gedəcək. Kitabın səhifələrini çevirdikcə ondan ayrıla bilmir, fəsildən–fəslə keçir, hadisələrin cazibəsinə düşürsən. Gözlərin qarşısında Əziz Əliyevn övladları içərisində öz ağlı, biliyi, istedadı ilə seçilən, illər keçdikcə mübarizləşən Zərifə xanımın zəngin hadisələrlə dolu qaynar ömrünün ayrı–ayrı çağlarını, yüksəliş yolunun mərhələlərini öyrənirsən, xəyalında bu cazibədar Azərbaycan qadınının dolğun obrazı canlanır.

Əziz oxucu, bəlkə də sən onun üzünü görüb, qayğıkeş səsini eşitməmisən. Ancaq bu kitab elə bil səni onunla görüşdürür, onunla ülfət bağlayır, doğmalaşırsan.

Ailənin nəsil şəcərəsi qədim İrəvanla bağlı olsa da, Zərifənin ömür yolu Naxçıvanın Şahtaxtı kəndindən başlayıb. Ailə İrəvandan qaçqın düşüb Şahtaxtıya pənah gətirsə də, burada çox duruş gətirməyib, Arazın o tayına keçib, Cənubi Azərbaycanın Ərəblər kəndində sığınacaq tapıb. Hamının fikri–xəyalı isə Azərbaycanda idi. Valideynlər də, uşaqlar da Bakı arzusu ilə yaşayırdılar. Günlərin birində bu arzuya qovuşdular. Rusiyada Hərbi Tibb Akademiyasında təhsili yarımçıq qalmış Əziz Əliyev Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə daxil olur.

Necə romantik, unudulmaz günlər idi!

Tələbəlik illəri başa çatır. Əziz Əliyev həyatın qoynuna atılır. Gecə–gündüz ömrünü insanların taleyi, sağlamlığı ilə bağlayır. Və illərin qanadında yüksəlidikdcə yüksəlir… Tibb İnstitutunda müxtəlif vəzifələr, Bakı şəhər Səhiyyə Şöbəsinin müdiri, xalq komissarının müavini, xalq komissarı, Tibb İnstitutunun, Azərbaycan Dövlət Universitetinin rektoru… Əziz Əliyev səhiyyənin yorulmaz mücahidi kimi tanınır, gündən–günə şöhrətlənirdi.

Zərifə xanımın atası, görkəmli həkim, alim, partiya və dövlət xadimi kimi şərəfli həyat yolu keçmiş Əziz Əliyev! O, Stalinin tapşırığı ilə müharibə illərində və sonrakı dövrdə, düz 8 il Dağıstan Vilayət Partiya

Komitəsinin birinci katibi işləmişdir. Dağlar diyarında çoxmillətli xalqlarla doğmalaşıb, onlarla bir nəfəs alıb və ürəklərdə özünə əbədi heykəl ucaltmışdı.

Müəllif bütün sovetlər ölkəsində məşhur olan Həmzətovlar ailəsinin— Dağıstan poeziyasının klassiki Həmzət Sadasanın, xalq şairi Rəsul Həmzətovun, görkəmli elm xadimi Hacı Həmzətovun dediklərini kitaba iri hərflərlə daxil etmişdir. Xalq şairi Həmzət Sadasa xatırlayırdı ki, mən indiyəcən Əziz Məmmədkərim oğlunun yüksək mədəniyyətinə, xeyirxahlığına və alicənablığına kölgə sala biləcək heç bir söz və eyham eşitməmişəm. O, həqiqətən çox gözəl insan idi!

Rəsul Həmzətov isə onu "Mənim Dağıstanımın və mənim Azərbaycanımın böyük oğlu" adlandırmışdır.

Kitabı oxuduqca sənə elə gəlir ki, kövrək xatirələr çələnginin çeşid–çeşid güllərini, çiçəklərini dərirsən. Zərifə xanımın ürəkdən, candan sevdiyi, bağlandığı doğma qardaşlarının öz bacıları haqqında xatirələri ürəkləri titrədir, oxucunu düşüncələrə daldırır…

"Zərifə Əliyeva" kitabının "Əvəzolunmaz insan" fəslində müəllif qəhrəmanın doğulub boya–başa çatdığı ailə, nəsil–nəcabət, xüsusilə də onun atası — görkəmli həkim, alim və dövlət xadimi Əziz Əliyev haqqında çox zəngin, tutarlı faktlara, epizodlara, xatirələrə üz tutur…

"Zərifə və Heydər" fəslində isə yazıçı bu iki ölməz insanın ülvi məhəbbətindən, ailə sevinclərindən bəhs edən unudulmaz epizodlar canlandırır. Onlar tanış olduqları ilk gündən ömrün qürubuna qədər bir nəfəs almış, ürəkləri bir döyünmüş, bir–birinə arxa–dayaq olmuş və iki övlad böyüdüb boya–başa çatdırmışlar.

Zərifə xanım bir qadın, ana, həkim, alim, ictimai xadim, birinci xanım olaraq əfsanəvi taleyə malik olmuş, insanların ümumi axınına nə qədər də təbii bir şəkildə qoşulmuşdu! O, özündən çox ailəsi, əri, balaları, hələ o zaman tək olan nəvəsi Zərifə haqqında düşünürdü. Son nəfəsində Heydər Əliyevə yazdığı bu məktub insanı sarsıdır: "Məndən ötrü narahat olma, uşaqlara yaxşı bax. Unutma ki, mən səni sevirəm… Unutma ki, mən səni sevirəm!.."

Heydər Əliyev ömrü xatirəyə dönmüş Zərifə Əziz qızını belə kövrək duyğularla xatırlayırdı: "Bilirsiniz ki, həyatım gənclik illərimdən dövlət xidməti ilə bağlı olub. Bütün həyatımı buna həsr etmişəm və indi də bu sahə ilə məşğul oluram. Hesab edirəm ki, mənim müvəffəqiyyətli xidmətimdə ailəm böyük rol oynamışdır. Mən ona görə xoşbəxt idim ki, mənim Zərifə xanım kimi həyat yoldaşım vardı və o, mənim ailəmdə çox gözəl mənəvi mühit yaratmışdı".

Ailənin övladları—Sevil və İlham Əliyevlərin öz anaları haqqında dediklərini oxuyanda istər–istəməz riqqətlənirsən, qəlbin işıqla dolur. Budur, övladların ana ürəyi, ana əzəməti haqqında düşüncələri… Sevil Əliyeva: "Anam sadəcə olaraq, özünü tamamilə atama, bizə həsr eləmişdi. Bununla belə, elmi fəaliyyətlə, ictimai işlərlə məşğul olmaqdan da heç vaxt ayrılmayıb".

İlham Əliyev: "O, həmişə qəlbimdədir".

Kitabda Zərifə xanımın gəlini Mehriban Əliyevanın və nəvəsi Leyla Əliyevanın da müsahibələrinə, ürək sözlərinə yer verilmişdir.

Dahi sənətkar, SSRİ xalq artisti Müslüm Maqomayev Əliyevlər ailəsinin sevimlisi idi. Konsertlərdə, görüşlərdə, ad günlərində vaxtaşırı görüşürdülər. Sevil Əliyevanın bəstəkarlığı da onun bu ailə ilə bağlılığını bir az da möhkəmlətmişdi. O, Sevil xanımın anasına həsr etdiyi məşhur "Qayıt, əzizim" mahnısını televiziyada ilk dəfə ifa etmiş, bəstəkarın şöhrətini ellərdən–ellərə yaymışdı.

Müslüm Maqomayev xatirələrində gah xoş məqamlardan söz açır, gah da oxucuları riqqətə gətirir, gözlərdə yaş gilələnir.

"İlk dəfə Heydər Əlirza oğlunu Zərifə xanımla vida mərasimində gözü yaşlı gördüm. Mən onu güclü, vüqarlı, dözümlü insan kimi tanıyırdım. Burada isə… Biz ona yaxınlaşanda, tamamilə başqa şey gördük— elə bil o, atılmış böyük uşaq idi. Bu mənzərə adamın ürəyini sıxırdı. O, ayağa qalxdı, bizi öpdü, dedi: "Siz təsəvvür edə bilməzsiniz ki, o, sizi necə sevirdi. Öz uşaqları kimi".

Zərifə xanımın həyatdan getməsinin bir ili keçiriləndə onun qəbri üstünə getdik. Heydər Əlirza oğlu məndən oxumağı xahiş etdi. Mən Zərifə xanımın çox sevdiyi, Üzeyir Hacıbəyovun "Sənsiz"ini astadan oxudum. Biz onunla bir daha vidalaşdıq. Sonralar Heydər Əlirza oğlu onun cənazəsini Azərbaycana gətirdi, burada dəfn elədi".

O, ağlar–sızlar dəfn günlərində sanki bütün Azərbaycan Əliyevlər ailəsinin yanında idi. Hamı Heydər Əliyevə, onun doğmalarına ürək–dirək verirdi. Onların arasında söz ustaları da var idi. Xalq şairi Bəxtiyar Vahabzadənin qəlbində dərin kədərlə təzəcə yazdığı "Mərsiyə–rekviyem"in misraları ağlayırdı:

Axır qəbristana el axın–axın,
Başlarda çətirlər yaşıl, qırmızı.
Qəbrin nurla dolsun!
Mənim xalqımın
Novodeviçyedə yatan tək qızı!
Sən hörmət qazandın ləyaqətinlə,
Hörmət qazanılmaz qəzəblə, kinlə,
Hər şeyi dərk edir; insan büt deyil,
İçində yatdığın o tabut deyil,

Ləyaqət taxtıdır, ləyaqət taxtı!

Hüseynbala Mirələmov kitab üzərində işləyərkən Zərifə Əliyevanın uşaqlıq, gənclik illərini, dostlarını, onun bacı və qardaşlarını, bir yerdə işlədiyi həkimləri, alimləri, Moskva, Sankt–Peterburq oftalmoloqlarını, tanınmış elm adamlarını dindirmiş, onların ürək sözlərini, xatirələrini qələmə almışdır. Bu cərgədə Mirvarid Dilbazi, Püstəxanım Əzizbəyova, Alimə Əliyeva, Zəhra Quliyeva, Əlfəddin Abdullayev, Rəfiqə Axundova, Paşa Qəlbinur,.. jurnalistlərdən Aydın Vəlixanov, Nəriman Həsənəli, Telman Qafar, Zərifə Başirşızı, Svetlana Nəcəfova, Elmira Axundova və onlarca başqalarının dediklərini oxuyanda adam Zərifə xanımın necə mehriban, işıqlı bir insan, loğman–filosof olduğuna ürəkdən inanır, onun obrazını təsəvvüründə canlandırır, ürəyinin dərinliyində ona dönə–dönə rəhmət diləyir. Klinikada işləyən bir süpürgəçinin, sadə bir Dağıstan kəndlisinin Zərifə xanım haqqında kövrək söhbətləri adamın qəlbini titrədir.

Hörmətli həkim–akademikin 90 illiyinəcən işıq üzü görəcək bu kitab “Zərifə Əliyeva” adlansa da, onun Əziz Əliyevə və Heydər Əliyevə həsr olunmuş oxunaqlı, zəngin fəsilləri qəhrəmanın obrazını tamamlayır. Və adama elə gəlir ki, bu fəsillərin hər biri kitab içində ayrıca bir kitabdır. “Zərifə Əliyeva” publisistik–sənədli romanı ömrü əfsanəyə çevrilmiş həkim–loğman, sədaqətli ömür–gün dostu, istedadlı insan və dünyaşöhrətli alim haqqında böyük hörmətlə, ehtiramla yazılmış və sevilə–sevilə oxunan həyat hekayətidir. İnanırıq ki, oxucular bu yeni nəşri — Azərbaycan variantını da sevəcək, alqışlayacaq, müəllifə sağ ol deyəcək.

Mübarəkdir!

**Respublika.** - 2012.-30 dekabr. - № 293. - S. 10.

# Kamillik və müdriklik mücəssəməsi

**Surxay MUSAYEV,**
Azərbaycan Tibb UniversitetiTədris Terapevtik Klinikasının direktoru,
əməkdar elm xadimi, professor

Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Akademikin fəaliyyəti geniş və zəngindir. Alicənablığına, səmimiyyətinə, xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hamının hörmət və məhəbbətini qazanmış bu insan ilk növbədə böyük ziyalı, nurlu şəxsiyyət idi. Sözün həqiqi mənasında bu böyük ziyalının insanlara bəxş etdiyi nur onun elminin dərinliyindən, mənəvi paklığından, intellektinin kamilliyindən, şəxsiyyət ucalığından və bütövlüyündən qidalanmışdır. Görkəmli alimin bütün uğur və nailiyyətlərinin bünövrəsində daim gərgin zəhməti, oftalmologiya elminin inkişafı yolundakı səmərəli fəaliyyəti və möhtəşəm xidmətləri dururdu.

Akademik Zərifə Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi, mahir səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Azərbaycanın səhiyyə sisteminin inkişafında misilsiz xidmətləri olan Əziz Əliyev ömrü boyu onu əhatə edənlərin dərin hörmətini qazanmışdı. O, rektor, nazir, Mərkəzi Komitənin katibi, Baş nazirin müavini olmuş və həmişə yüksək intellekti, təşkilatçılıq bacarığı ilə böyük nüfuz qazanmışdır. Dövrünün partiya və dövlət xadimləri arasında özünəmsəxsus geniş siyasi və mədəni dünyagörüşü ilə seçilmişdir. Əziz Əliyevin həyatının bütün mürəkkəb mərhələləri əslində onun övladları üçün həyat dərsləri olmuşdur. Belə bir ailədə böyüyən Zərifə xanım təbii ki, səmimiyyəti, zərifliyi, insanlara olan sevgisi ilə başqalarından tamamilə fərqlənirdi. Öz gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir. Oftalmologiya peşəsinə yiyələnmək arzusu isə gənc mütəxəssisi Moskva şəhərinə gətirir və o, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnir. O dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı və traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. Xalqımızı bu müdhiş bəladan xilas etmək, Azərbaycanda regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq tələb olunurdu. Zərifə xanım Əliyeva məhz belə bir dövrdə Moskva şəhərindən vətənə qayıdır və Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Konkret müalicə təcrübəsindən başqa alim Azərbaycanda bu xəstəliyin daha geniş yayıldığı rayonlara gedir, traxoma ocaqları aşkar edir, həkim-oftalmoloqlara mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Həmçinin uşaq evlərində olan ata-ana himayəsindən məhrum yeniyetmələr arasında traxomanın aradan qaldırılmasında müstəsna xidmətlər göstərirdi. Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində müvəffəqiyyətli nəticələr alır. Çünki sintomisin geniş antibakterial spektrlərlə yanaşı, antixlamedik fəallığa da malik idi. Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1959-cu ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil edir.

Zərifə xanımın təklifi ilə yeni müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapır və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv edilir. Ona görə də qətiyyətlə demək olar ki, Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğv edilməsi Zərifə Əliyevanın adı ilə bağlıdır. El məhəbbətindən, insanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi təbii ki, böyük zəhmət, fiziki və zehni gərginlik çox vaxt tələb edirdi. Zərifə xanım bu ağırlığın və çətinliyin öhdəsindən uğurla gəlmişdi.

Böyük alim Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutundan sonra öz fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, daha sonra isə kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə Zərifə xanım həkimlik fəaliyyəti ilə daha çox məşğul olmağa başlayır: cərrahiyyə əməliyyatları aparır, xəstələrə yeni üsullu müalicələr yazır, üstəlik onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmır, bütün oftalmologiya şöbələrini, təşkilatları əhatə edir. Bununla yanaşı o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparır.

Tibbi təcrübə və kadr hazırlığı ilə ciddi məşğul olmasına baxmayaraq alim elmi-tədqiqat işlərinin davam etdirilməsinə böyük əhəmiyyət verirdi. Həmin dövrdə Zərifə xanım oftalmologiyanın zəruri problemlərinə xüsusi diqqət yetirir. Bu problemlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi və s. xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının peşə patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiq olunması ilə əlaqədar idi.

Zərifə xanım sözün əsl mənasında bu sahənin ilk tədqiqatçısı olmuşdur. Görkəmli alim bütün dünyada birinci olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoymuşdur. Bakı Məişət Kondisionerləri Zavodunda təşkil edilmiş bu laboratoriyada elmi-tədqiqat işləri ilə yanaşı, həmin zavodun və digər iri sənaye müəssisələrinin işçilərinə müalicə köməyi də göstərilmişdir. Oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi məhz Zərifə xanımın adı ilə bağlıdır. Alimin apardığı fundamental tədqiqatlar ona böyük şöhrət gətirmiş və dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır. Zərifə xanım Əliyeva bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1977-ci ildə Zərifə xanıma tibb elmləri doktoru alimlik dərəcəsi verilmişdir.

Bir fakt xüsusi qeyd olunmalıdır ki, o dövrdə sənaye zəhərlərinin görmə orqanına toksik təsirinin öyrənilməsinə bir sıra elmi əsərlər həsr edilsə də, kimya istehsalının müxtəlif inqrediyentlərinin görmə orqanlarına təsiri elmi ədəbiyyatda az işıqlandırılmışdı. Kimya istehsalının bəzi yeni sahələri ilə əlaqədar olan peşə xəstəlikləri isə xüsusilə az öyrənilmişdi. Halbuki kimyəvi inqrediyentlərin müxtəlif kombinasiyaları bir çox hallarda insan orqanizminə və görmə orqanlarına ağır təsir göstərir. İnkişaf etmiş ölkələrdə şin və yod istehsalı yüksək səviyyədə olsa da, bu sahələrdə istehsalat tullantılarının görmə orqanlarına toksik təsirinin öyrənilməsinə aid müfəssəl işlər yox idi. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və həmin xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Onun bu istiqamətdə apardığı elmi-tədqiqat işləri böyük nəzəri və təcrübi əhəmiyyət daşıyaraq dünya ədəbiyyatında analoqu olmayan unikal tədqiqatlar sırasına daxil edilmişdir. Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparmışdır. Bu işlər Bakı şin və yod, məişət kondisionerləri, elektrotexnika avadanlığı, elektron hesablama maşınları, maşınqayırma zavodlarında, Sumqayıt "Üzvi Sintez" İstehsalat Birliyində, Mingəçevir "İzolit", Mingəçevir Rezin-Texnika Məmulatı zavodunda, Gəncə Gil-Torpaq Kombinatında, Salyan rayon kənd təsərrüfatı mexanizatorları arasında aparılmışdır. Həmin müəssisələrdə zəhərli maddələrin təkcə görmə orqanına deyil, həm də digər orqanlara, o cümlədən ağciyər, böyrək, qaraciyər və ürəyə təsiri də öyrənilmişdir. Göstərilən istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi dəyərli monoqrafiyalarında öz əksini tapmışdır.

1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə, akademik Zərifə Əliyeva keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Yeri gəlmişkən, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk alim-qadın idi. Məhz akademikin apardığı tədqiqatlardan sonra istehsalatda əmələ gələn zərərli maddələrin görmə orqanlarına mənfi təsirinin qarşısını almaq üçün bir sıra profilaktik tədbirlər həyata keçirmək mümkün olmuşdur. Alim bu müəssisələrdə işçilərin gözlərinin peşə zədələnmələrinə qarşı kompleks sanitar-gigiyenik, texnoloji tədbirlərin işlənilməsi və həyata keçirilməsinə nail olmuş, əmək şəraitinin yaxşılaşdırılması, hava hövzəsinin təmizlənməsi, zavod və ona bitişik ərazilərdə çirklənmə və qazla zəhərlənmənin aşağı salınmasında misilsiz işlər görmüşdür.

Məşhur oftalmoloq M.Krasnov Zərifə xanımın görmə orqanının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirərək qeyd etmişdir ki, Zərifə Əziz qızı yaşasaydı, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbə rəhbərlik edə bilərdi.

Doktorluq dissertasiyasını müdafiə etdikdən sonra görkəmli alim Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilir. Elə ilk gündən akademik ətrafına istedadlı, gənc həmkarlarını toplayaraq elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edir. O zaman kafedranın mövcud maddi-texniki bazası elmi tədqiqatların keçirilməsi tələblərinə cavab vermirdi. Zərifə xanım bu problemin də həlli yolunda konkret addımlar atır.

Professor Zərifə Əliyevanın təşəbbüsü ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilir. Belə bir mötəbər tədbirin ilk dəfə Azərbaycanda keçirilməsi təbii ki, böyük təşkilatçılıq bacarığı və zəngin təcrübə tələb edirdi. Plenuma hazırlığın bütün ağırlığı Zərifə xanımın üzərinə düşürdü. Bu plenum həm Azərbaycanda, həm də keçmiş ittifaqın ən nüfuzlu akademik müəssisələrində oftalmologiya xidmətinin inkişafında, habelə elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynamışdır.

1983-cü ildə Zərifə Əliyeva ADHTİ-nin oftalmologiya kafedrasının müdiri seçildikdən sonra fəaliyyət dairəsini daha da genişləndirdi. Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqi ilə bağlı idi. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri akademikin "Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə şərh edilmişdir.

Zərifə xanımın elmi fəaliyyətinin digər sahələrindən biri klinik-diaqnostik istiqamətdə apardığı tədqiqatlardır ki, onların da nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmləşmişdir. Bu əsərlər arasında "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı

axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və başqa oftalmoloji elmi işlər ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Alim göz yaşı xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, onun bu sahəyə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və başqa əsərləri tibb ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdır.

Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan "İridodiaqnostikanın əsasları" rəngli illüstrasiyalarla "Azərnəşr" tərəfindən, digər monoqrafiya isə "İridodiaqnostika" adı ilə 1988-ci ildə Moskvada nəşr edilmişdir. Xüsusi vurğulamaq lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazmışdır.

Görkəmli alim fundamental "Terapevtik oftalmologiya" kitabının müəlliflərindən biri idi. Elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə xüsusi yer vermişdir. Onun bu mövzuya dair baxışları oftalmoloji ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmış, "Həkimin yüksək vəzifəsi" və "Oftalmologiyanın aktual problemləri" monoqrafiyalarında ətraflı işıqlandırılmışdır. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində daha ətraflı şəkildə əks olunmuşdur. Görkəmli oftalmoloq alim dəfələrlə deyirdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və bəzən dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin yalnız təhsilinin deyil, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Alim həkim-xəstə münasibətlərinə toxunaraq insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş və "həkim xəstənin ən doğma adamıdır" demişdir. Zərifə xanımın tibbi etika və deontologiyaya dair məqalə və əsərləri ilə yaxından tanışlıq onun bu sahəyə dair işlərinin daha geniş miqyasda olduğu və təkcə tibbdə deyil, bütövlükdə cəmiyyətdə insanlar arasında münasibətlərə həsr edildiyi məlum olur.

1983-cü ildə gərgin elmi-təşkilati fəaliyyətinə və oftalmologiyanın inkişafındakı xidmətlərinə görə Zərifə xanım Əliyeva Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Böyük alim səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında gənc elmi işçilərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsi öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. Görkəmli alim heç zaman gərgin işdən usanmamış, həmişə ilhamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiyyəti və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin, xəstələrinin dərin ehtiramını qazandırmışdır.

Ötən əsrin 60-80-ci illərində Zərifə xanımın yazdığı dəyərli əsərlər bu gün də öz aktuallığını saxlayır. Onun oftalmologiyanın müxtəlif sahələrinə həsr etdiyi monoqrafiyaları alimlərin və həkimlərin, həmçinin ali tibb məktəblərində təhsil alan tələbələrin stolüstü kitablarıdır.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında həmişə xoş sözlər demişlər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi adlandırırdı. Dünya şöhrətli oftalmoloq, akademik A.Nesterov demişdir: "Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm". Akademik N.Puçkovskaya "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.Trutneva Zərifə xanımın elmi tədqiqatlarının səciyyəvi xüsusiyyətlərini yüksək dəyərləndirərək yazırdı: "Bu cür tədqiqatlar həcminə və vacibliyinə görə seçilsə də, çox zəhmət tələb etsə də, sosial-iqtisadi baxımdan əvəzsizdir. Bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalışanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyələr işlənib hazırlanmış, istehsalata tətbiq edilmişdir. Zərifə xanımın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarətdir". Tibb elmləri doktoru, professor Z.Skripniçenko alimin elmi fəaliyyəti barədə deyirdi: "Zərifə xanımın elmi maraq dairəsi çox geniş idi. Bir ümumi dəftərə o yeni kitab üçün nəzərdə tutduğumuz fikirləri qeyd etmişdi. Bunlar əsasən toksik kataraktalara və toksik qlaukomalara həsr olunmuş elmi işlərdən, tələbələr və oftalmoloq həkimlər üçün nəzərdə tutulan məruzələrdən ibarət idi". Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Professor N.Şulpina Zərifə xanımı dünyaşöhrətli alim adlandıraraq "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik" - demişdir.

Akademik Zərifə Əliyeva 150-dən artıq elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifi idi. Alim onlarca elmlər doktorunun və elmlər namizədinin rəhbəri olmuşdur. Akademik Zərifə Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərinə görə Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Görkəmli alim həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, respublika "Bilik" Cəmiyyəti

İdarə Heyətinin və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi.

Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan, yüksək intellekt sahibi, dünya şöhrətli alim Zərifə Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir, geniş vüsət alır, onun yazıb-yaratdığı monumental əsərləri, qoyub getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, yüksək səviyyəli mədəni irsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Zərifə xanım insanları çox sevirdi. Peşəsində qazandığı uğurlar da bu xüsusiyyəti ilə bağlı idi. Bütün yaradıcılığında yüksək vətənpərvərlik hissi özünü büruzə verirdi. Bu xüsusiyyət ətrafındakılara münasibətində də aydın görünürdü.

Bir sözlə, Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator alim idi. Onun oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər öz qiymətini heç zaman itirməyən misilsiz elmi nailiyyətlərimizdir.

**Azərbaycan. -** 2012.-28 aprel. - № 92. - S. 6.

## Nur heykəli

**Hüseynbala MİRƏLƏMOV,**
Milli Məclisin deputatı

Elə şəxsiyyətlər var ki, onların ömür yolu haqqında söhbət açarkən istər-istəməz hansısa tarixi dövrün, müəyyən ənənələrin formalaşması prosesinin də salnaməçisinə çevrilmiş olursan.

Əsas niyyətim Zərifə xanım Əliyeva haqqında düşüncələrimi qarşımdakı ağ vərəqlərə köçürməkdir.

Bu gün bu böyük insanın - azərbaycanlı xanımın əbədiyyətə qovuşmasından tam 30 il ötür...

Yazımın baş qəhrəmanı da odur...

Dünya oftalmologiya elminin parlaq simalarından olan Azərbaycan alimi, tibb elmləri doktoru, akademik...

Şəfalı əlləri ilə yüzlərlə xəstənin gözlərindəki zülməti qovub, onlara işıq bəxş etmiş loğman...

Azərbaycan tarixində adı hər zaman rəğbətlə xatırlanan bir kişinin - Əziz Əliyevin övladı...

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı...

Dünyaya xeyirli övlad bəxş etmiş, dövlətinin və xalqının qüruruna çevrilən bir oğul yetişdirmiş fədakar, qayğıkeş ana...

Bütün bunlarla yanaşı, həm də Azərbaycanda qadın fəallığı ənənələrinin parlaq təmsilçisi, bu ənənəni formalaşdıran unudulmaz qadın liderlərimizdən biri...

***

Adətən, Azərbaycanda qadın fəallığı ənənələrindən söhbət düşərkən tarixin yaxın, uzaq dönəmlərinə nəzər salırıq. O dönəmlərdə qəhrəmanlıqları, sözü, ictimai-siyasi mövqeyi və yaradıcılığı ilə tarixdə özünə əbədi yer tutmuş zəriflərimizi xatırlayırıq.

Bu ənənələr bizim üçün Tomrisdən, Məhsəti Gəncəvidən, Sara xatundan, Tuti Bikədən, epos təfəkkürümüzün zərif çiçəkləri olan Banu Çiçəkdən, Nigardan, Həcərdən başlanır.

İbtidai dövrlərdən Azərbaycan ictimai düşüncəsində qadına olan münasibət Ana Kitabımız - "Kitabi-Dədə Qorqud" dastanlarından süzülüb gələn və dəyərli sənətkarımız Yalçın Rzazadənin azacıq improvizələrlə hər oxusunda qəlbimi riqqətlə dolduran sevgi, vəfa, inam ətirli misralardan boy göstərir:

"Bəri gəlgil, başım baxtı, evim taxtı,
Evdən çıxıb yürüyəndə səlvi boylum!
Topuğunda sarmaşanda qara saçlım!
Qurulu yaya bənzər çatma qaşlım!
Qoşa badam sığmayan dar ağızlım!
Küz almasına bənzər al yanaqlım!
Qadınım, dirəyim, döləyim!"

Qadının mənəvi dünyamızdakı ucalığı öz igid aşiqi üçün canını belə əsirgəməyən türk xatunlarının sevgi ucalığında qərarlaşır.

Bu motivlər epik təfəkkürümüzdə norma kimi sabitləşəndən hələ əsrlər keçəndən sonra da, indi inkişaf etmiş Qərb dünyası kimi qəbul etdiyimiz cəmiyyətlərə orta çağlarda on minlərlə qadın cadugərlik ittihamı ilə inkivizasiyanın tonqallarında yandırılırdı.

Amma gəlin bir reallığı da etiraf edək: cəmiyyətimizdə qadın fəallığı ənənələri nə qədər güclü, qadının ictimai təfəkkürdəki məqamı nə qədər uca idisə də, biz bu ənənələrin gücünü XX əsrin əvvəllərinə qədər qoruyub saxlaya bilməmişdik. Yaxud bu ənənələri daha da inkişaf etdirməyə müvəffəq olmamışdıq.

Yad mədəniyyətlərin təsiri ilə din, islam ehkamları altında, əslində cəhalətin, nadanlığın diktəsi ilə Azərbaycan qadınının həyatı başındakı qara çarşabın rənginə bürünmüşdü. Qızlarımız təhsildən uzaq düşmüşdülər, xurafatın, geriliyin əsirinə çevrilmişdilər.

Dastanlarımızın qəhrəman səviyyəsinə yüksəltdiyi, kişilərlə birgə döyüş meydanlarında cəngə girişib at çapan, qılınc vuran Azərbaycan qadını XX əsrin əvvəllərində böyük Sabirin əsərlərindəki Fatma, Tükəzban obrazlarının səviyyəsinə, əslində isə həyatın dibinə enmişdi.

Ona görə də cəmiyyətin düşünən insanları Azərbaycan qadınını bu ictimai bataqlıqdan çıxarmaq üçün yollar axtarırdılar. Azərbaycanın mərkəzi şəhərlərində qız məktəbləri açılırdı. Hacı Zeynalabdin Tağıyev kimi vətənpərvər mesenatlarımız bu cür təşəbbüslərin uğur qazanması, qız balalarımızın oxumaları üçün maddi və mənəvi dəstəklərini əsirgəmirdilər. Əli qələmli müsəlman ziyalıları qəzetlərdə dərc etdirdikləri yazılarda ictimai diqqəti qadınlarımızın vəziyyətinə yönəldirdilər. Onların ictimai fəallığının artırılmasından ötrü qeyrət göstərirdilər.

Elə Azərbaycan Xalq Cümhuriyyəti dövründə müsəlman Şərqində ilk dəfə olaraq qadınlara səsvermə hüququnun verilməsi də o cümhuriyyəti qurub yaratmış mütəfəkkir kişilərimizin narahat vicdanının diktəsi, uzun illər ərzində bu yolda göstərilən çabaların nəticəsi idi.

Qarşıya qoyulmuş məqsəd bütün bunlardan sonra cəmi bir neçə gün və ya ay, il içində əldə edilməyəcəkdi. Bunun üçün bir neçə onilin tamamını gözləmək lazım gələcəkdi.

Və bir neçə onildən sonra Azərbaycan ictimai mühitində Zərifə xanım Əliyeva kimi qadın liderlərimizin görünməsi xalqın düşünən zəka sahiblərinin o illərdəki nəcib əməllərinin xoş bəhrəsi idi.

***

Həmişə bi fikirdə olmuşam ki, istənilən bir insanın həyat uğurlarında onun aldığı ilk tərbiyə ən mühüm amildir.

Azərbaycanın görkəmli yazıçı və maarifpərvəri Məhəmməd Tağı Sidqinin bir fikrini müxtəlif çevrələrdə tez-tez yada salmaqdan usanmıram. Düşünürəm ki, bu məqamda xatırlamağımda da fayda var. O yazırdı ki, bir insanın xoşbəxtliyi dörd əsasdan ibarətdir: təmiz nəsil, saf ürək, təmiz əllər və niyyətin dürüstlüyü.

Məncə, digər üç keyfiyyət də elə təmiz nəsildən gəlir. İnsanın mənəvi kökləri sağlam olanda, onun qəlbi saf, əlləri təmiz, niyyəti dürüst olur.

Bu mənada Zərifə xanım Əliyeva əslində çox xoşbəxt bir insan idi...

O, Əziz Əbdülkərim oğlu Əliyevin ailəsində dünyaya gəlmişdi. Daxili azadlığı, Azərbaycan sevdası, ləyaqəti, comərdliyi, nəcibliyi ilə Cümhuriyyətdən sonrakı milli ziyalılığımızın zirvəsində qərar tutan bir kişinin qızı idi.

Əziz Əliyev öz sələfləri N.Nərimanov, S.Əfəndiyev, T.Musabəyov, T.İsrafilbəyov, T.Şahbazi, T.Vəkilov və başqaları kimi fədakar mücahid və maarifçilərin şanlı ənənələrini davam etdirən ziyalılarımızdan sayılırdı. O, Azərbaycanda ilk səhiyyə ocağının qurucularından idi.

Ömrünün müxtəlif dönəmlərində üzləşdiyi məhrumiyyətlərə, təzyiq və təhdidlərə rəğmən Əziz Əliyev həm insanlara şəfa bəxş edən tanınmış həkim, həm də görkəmli ictimai-siyasi xadim kimi həyatda çox uğurlar qazanmışdı.

Və onun həyatı boyu əldə etdiyi ən böyük uğurlardan biri də nümunəvi ailəsi, ömür-gün yoldaşı Leyla xanımla birgə ailəsində böyütdüyü övladlar Ləzifə, Zərifə, Dilarə, Gülarə, Tamerlan və Cəmil idi.

Həkimlik sənətinə könül vermiş iki qardaşı və bir bacısı kimi Zərifə xanım Əliyeva da atasının yolunu davam etdirməyi qərara almışdı.

***

Valideynlərinin mənəvi dünyasından, böyüyüb boya-başa çatdıqları ailə ocağından gələn nəciblik, kübarlıq, insanlara sevgi, şəfqət hissi bu ocaqdan çıxmış övladları bir ömür boyu müşayiət edən ali keyfiyyətlər idi.

“Sizlərdən yaxşılıq edənlər, saleh əməl sahibi olanlar və günahlardan çəkinənlər həqiqətən nicat tapanlardır” - bu, müqəddəs Qurani-Kərimin təlqinidir.

Zərifə xanım Əliyeva da aid olduğu bütün sahələrdə - həm praktik həkimlik fəaliyyətində, həm elmdə, həm də ictimai fəaliyyətində, insanlarla münasibətlərində öz şəxsiyyəti ilə saleh əməllər sahibinin gerçək portretini yaradırdı.

***

Həyat onun qismətinə xalqının milli dövlətçilik tarixində müstəsna xidmətləri olan tarixi şəxsiyyətin - ümummilli lider Heydər Əlirza oğlu Əliyevin ömür-gün yoldaşı olmaq taleyini yazacaqdı...

Öz parlaq həyatını bölüşdüyü şəxsin uğurlarında onun da əməyinin, istedadının, ürək atəşinin bir zərrəsi, qığılcımı parlayacaqdı.

Heydər Əliyev kimi tarixi şəxsiyyətin həyat yoldaşı timsalında tale yolları boyunca onunla birgə addımlamaq, ulu öndərin yüksəlişinə mənəvi dəstək vermək bəlkə də Zərifə xanım üçün həyatın o qədər də asan olmayan bir sınağı idi.

Heydər Əliyevlə Zərifə xanım Əliyevanın qurduqları ailə ocağı saf sevgiyə, sarsılmaz sədaqətə əsaslanırdı. Bu sevgi taleyin və tarixin sərt imtahanlarından keçmişdi.

Müasir gəncliyə də örnək olası bu məhəbbətin maraqlı tarixçəsi haqqında çox mənbələrdən oxumuşuq. Heydər Əliyevin ömrünün gənclik çağlarına həsr olunmuş “Əsl məhəbbət haqqında” sənədli filmində ulu öndərin riqqətli etirafını da eşitmişik: “Mən onu həqiqətən sevirdim. Onun da məni sevdiyini hiss edirdim. Belə fikirləşirəm ki, bizim bir-birimizə məhəbbətimizin köklərinin nə qədər dərin olduğunu sübut etməyə ehtiyac yoxdur”.

Repressiya rejiminin qüdrətli və nüfuzlu əlaltılarından olan Mir Cəfər Bağırovun Əziz Əliyev şəxsiyyətinə qısqanc münasibətini və bu üzdən müxtəlif illərdə ona qarşı bitmək bilməyən təzyiqləri nəzərə alaraq xüsusi xidmət orqanlarının perspektivli gənc zabitini bu sevdadan çəkindirməyə çalışanlar da tapılacaqdı...

Və Əziz Əliyevin öz ailə üzvləri ilə birgə Azərbaycandan sürgün edilməsinin an məsələsi olduğu 1953-cü ilin lap əvvəlində hətta Heydər Əliyevin bu münasibətlərə görə xüsusi xidmət orqanlarında qalıb işləməsi sual altına düşəcəkdi...

Amma nə olursa-olsun, Heydər Əliyev gələcək həyatını Zərifəsiz təsəvvür etmirdi və öz sevgisi uğrunda ən təhlükəli sınaqlara belə hazır idi.

İllər sonra ulu öndər xatırlayacaqdı: "Bilirsiniz necə fikirləşirdim. Mən DTK-da işləyirdim, bilirdim ki, onun atasının ətrafında nələr baş verir, onu necə izləyirlər. Mən bilirdim, eşitmişdim ki, onların ailəsini Qazaxıstana sürgün etmək istəyirlər. Mən fikirləşirdim ki, əgər onları sürgün etsələr, mən də Zərifənin ardınca Qazaxıstana gedəcəyəm. Orada iş tapmaq bəlkə buradan da asan oldu".

Amma onların qovuşmağı, birgə həyatı taleyin qədəri idi və tarixin təlatümləri, insanların təshih cəhdləri bu qədəri dəyişə bilməzdi.

***

Peşə, elmi fəaliyyət, insani münasibətlər, ailə...

Ayrı-ayrılıqda bunların hər birində böyük uğurlara çatmış insanlar var. Amma bir insanın bunların hər birinə eyni dərəcədə nail olması yalnız taleyin xoş bir bəxşişidir. Etiraf edin ki, bu, çox az adama nəsib olan bir səadətdir.

Öz sənətində qibtəediləsi uğurlara çatmış, amma xarakterindəki naqisliklər, ziddiyyətlər haqqında tez-tez eşitdiyimiz nə qədər insan tanıyırıq?!

Yaxud da bunun əksi, öz şəxsi keyfiyyətləri ilə hamının rəğbətini qazanan, amma peşəsində, sənətində, lap elə yaradıcılığında da yarımçıq olan nə qədər adamlar var.

Bunların hər ikisinə nail olmuş, lakin ailə həyatında uğursuzluqla üzləşmiş insanlar da, əfsus ki, az deyil. Görünür, həyat belə məsələlərdə insanlarla çox xəsis davranır.

Amma həyat, tale ilahəsi Zərifə xanım Əliyevadan öz səxavətini əsirgəməmişdi. O, çox az şəxsiyyətlərdən idi ki, insanlarla münasibətləri də, ailə ocağının hərarəti də, elmdə, həkimlik fəaliyyətindəki uğurları da harmoniya təşkil edirdi, tam idi.

Və bu tamlığı təmin edən Zərifə xanım Əliyevanın özünün bütöv şəxsiyyəti idi.

Tanrı Zərifə xanım Əliyevaya misilsiz nəciblik, zəriflik bəxş etmişdi. Ünsiyyətdə olduğu hər bir xəstənin, onun şəfalı əllərinə ehtiyacı olan hər bir şəxsin ürəyinə yol tapa bilirdi.

Xarakterindəki yüksək ali keyfiyyətlər, ətrafındakılara mənəvi təsir gücü ona insanların böyük rəğbətini qazandırmışdı. Ona hamı böyük rəğbətlə yanaşır, sözünə, mövqeyinə böyük dəyər verirdi. Zərifə xanım bundan heç zaman sui-istifadə etməzdi, təkəbbürü, qeyri-təvazökarlığı özünə yaxın buraxmazdı, ətrafdakı hər kəsin şəxsiyyətinə, mövqeyinə böyük hörmətlə yanaşardı.

Zərifə xanım üçün ən böyük dəyər, həyatın mənası başqalarına lazım olduğunu, insanların onun köməyinə ehtiyac duyduqlarını hiss etdiyi məqamlar idi. O həmişə deyərdi ki, xəstələr həkimin yanına ümidlə gəlib ondan yardım istəyəndə hiss edirsən ki, sən insanlara nə qədər lazımsan.

***

Tanıyanlar öz xatirələrində onu dünyanın ən təvazökar qadını kimi yada salırlar. Geniş qəlbi, sadəliyi, insanlara sevgi dolu şəfqətli baxışları onun ən böyük zinəti idi.

Şəfa üçün ona pənah gətirən xəstələrin çoxu Zərifə xanım Əliyevanın Azərbaycanın birinci şəxsinin həyat yoldaşı olduğunu bilmirdi. Özü də heç zaman bunu nəzərə çarpdırmazdı. Bütün insanlar onu hər şeydən əvvəl bir şəxsiyyət kimi sevir, hörmətini tuturdular. O, son dərəcə alicənab bir qadın idi. Tərifdən zəhləsi gedər, kiməsə boşboğazlıq, yaltaqlıq fürsəti verməzdi. Bir çoxları onun nəzakətli davranışlarından nümunə götürərdilər.

Zərifə xanımın kabineti həm xəstələrin, həm də hər hansı problemin həllində onun şəxsi nüfuzuna güvənən insanların ümid ünvanı idi. Zərifə xanım ziyarətçilərinin heç birini ümidsiz və yardımsız yola salmazdı, adamlar arasında sosial status fərqi qoymazdı. Bu böyük şəxsiyyətin kabinetinin qapısı hər kəsin üzünə açıq idi.

Onun insanlara çox böyük məhəbbəti vardı. Bu, qəlbin genişliyindən, səxavətindən, müdrikliyindən irəli gəlirdi.

***

Zəmanəsinin görkəmli oftalmoloq-alimlərindən biri kimi Zərifə xanım Əliyeva öz tədqiqat sahəsində fundamental əsərlərin müəllifi idi. Onun elmi irsi, nailiyyətləri, pedaqoji təcrübəsi bu gün də tədqiqatçılar üçün böyük maraq doğurur və müasir tibdə tətbiq olunur.

Zərifə xanım Əliyeva üçün elm də, praktik həkimlik də bir könül işi idi. O öz peşəsini ürəkdən sevirdi. Elmi axtarışlardan, tədqiqatçıların nəzər-diqqətini nisbətən az cəlb etmiş, daha doğrusu, çətinliyinə görə onları yayındırmış müxtəlif istiqamətlər üzrə elmi araşdırmaların aparılmasından böyük mənəvi zövq alırdı.

O, oftalmologiyada yeni, çətin və az tədqiq olunmuş bir sahəni seçmişdi və bu sahənin inkişafına öz töhfələrini vermişdi. Həyatda da, elmdə də Zərifə xanım öz yolu ilə addımlamağı sevərdi və yaşadığı ömür nümunəsi, həyat və fəaliyyəti ilə təlqin etdiyi dəyərlər bu yolda Zərifə xanımın ardıcıllarını yetişdirirdi.

Respublika Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri vəzifəsində çalışarkən o öz tələbələrinə böyük məhəbbətlə elmin incəliklərini öyrədir, gənc oftalmoloq-alimlərin yetişməsinə ömür sərf edirdi. Tələbələrinin mehriban, qayğıkeş hamisi idi Zərifə xanım. Yetirməsi olan gənclər onu ana gözündə görürdülər.

Onun öz mənəvi övladlarına ən mühüm tövsiyəsi isə harada olurlarsa-olsunlar, səmimiyyət hissini qorumaqları, həyatda da, elmi fəaliyyətdə də səmimi olmaları, çətinliklərdən, həyatın sınaqlarından çəkinməmələri idi.

***

Zərifə xanım Əliyevanın elmi fəaliyyəti bütün sovet məkanında yüksək qiymətləndirilirdi. Təsadüfi deyil ki, o dövr üçün oftalmologiya sahəsində T.İ.Averbax adına ən yüksək mükafat məhz Zərifə Əliyevaya verilmişdi.

Ötən əsrin 70-80-ci illərində Zərifə Əliyevanın təşəbbüsü ilə bir sıra sənaye müəssisələrində elmi-tədqiqat laboratoriyaları yaradılmışdı. Bu laboratoriyaların təşkilində əsas məqsəd zərərli istehsal prosesinin insanların görmə qabiliyyətinə təsirinin tədqiqi idi.

Həmin sənaye müəssisələrində çalışan insanlar bu laboratoriyalarda peşəkar tibbi yardım alır, Zərifə xanımın təməlini qoyduğu bu nəcib iş minlərlə insanın gözünə işıq verirdi.

***

O, əsas fəaliyyət istiqaməti olan oftalmologiya ilə yanaşı, həkim etikası, kadrların təkcə professional baxımdan yox, mənəvi baxımdan da tərbiyə edilməsi məsələlərinə ciddi diqqət yetirirdi.

Elmi dünyagörüşlərini mümkün qədər genişləndirmək Zərifə xanımın gənc həkimlərə, öz tələbələrinə ən mühüm tövsiyələrindən idi. O, gənclərə peşə maraqları dairəsində qapanıb qalmamağı, dar bir çərçivənin mütəxəssisi olmamağı təlqin edirdi. İnsanların həyat və sağlamlığı uğrunda mübarizə aparmaqdan ötrü hər bir insana sevgi göstərmək, onları başa düşmək qəhrəmanımızın gənc nəslə daimi nəsihəti idi.

Həkim və xəstə münasibətlərində ortaya çıxan problemlər onu həmişə narahat edirdi.

Bu narahatlıqlar günümüz üçün xüsusilə aktualdır.

Tibb sahəsində də informasiya texnologiyalarının fantastik inkişafı, səhiyyə sahəsində tətbiq olunan innovasiyalar, yeni aparat və cihazların ixtirası müxtəlif profilli həkim, texnik və laborantlar mühitini formalaşdırır.

Bütün bunlar çox yaxşıdır, tibb sahəsində texniki yeniliklər müayinənin, diaqnozun dəqiqliyinə, müalicənin düzgün təyin olunmasına çox kömək göstərir. Amma bunun təəssüf doğuran məqamlarını da izləməkdəyik. Texnologiyalar inkişaf etdikcə insanın peşəkarlığı geriləyir. Texnikanın gücünə arxayınlıq insanın peşəkar vərdişlərini korşaldır.

Bir zamanlar xəstənin çöhrəsinin rənginə, gözlərinin ifadəsinə, əllərinin hərəkətinə baxan kimi onun canındakı mərəzi üzə çıxaran, ibtidai alətlərlə ən çətin cərrahiyyə əməliyyatlarını mükəmməl həyata keçirən həkimlərin sayı indi bütün dünyada azalmaqdadır.

Çünki texnologiya xəstə ilə həkimin arasına girir, onların canlı təmasına müəyyən qədər xələl gətirir və həkimdə peşəkar qabiliyyətlərin formalaşmasına mane olur.

Zərifə xanım Əliyeva isə tibdə yeni texnologiyaların tətbiqini, müasir müalicə üsullarını təqdir etsə də, xəstə ilə həkimin birbaşa canlı təmasını müayinə və müalicə prosesinin ən vacib halqası hesab edirdi. Bildirirdi ki, bu cür ünsiyyət xəstənin psixi qüvvələrinin və imkanlarının, xəstəliklə mübarizə üçün iradəsinin səfərbər edilməsinə, onda nikbinlik ruhunun oyanmasına təkan verir.

Vəzifəsindən, sosial statusundan, məqamından, maddi vəziyyətindən asılı olmayaraq, xəstəyə mənəvi dayaq olmağı, onun həyat iradəsini ayaqda saxlamağı Zərifə xanım hər bir həkimin əsas vəzifə borcu kimi önə çəkirdi. İnsanın ruhi-mənəvi sağlamlığını fiziki sağlamlığının əsası hesab edirdi.

Həkimləri insanın təkcə konkret xəstəliyini deyil, həm də ruhunun sağalması qeydinə qalmağa çağırırdı və bunun düsturunu təklif edirdi. Onun insanlara ünvanladığı bu fikirlər bütün zamanlarda, tarixin bütün dövrlərində ruhun sağlamlığını qorumağın yeganə yoludur. “Milli xarakterin ən yaxşı xüsusiyyətlərini, sadəliyi, ürək genişliyini qoruyun, - deyirdi Zərifə xanım. - Axı ruhun sağlamlığı fiziki sağlamlığın rəhnidir”.

O, həmişə qeyd edirdi ki, peşə həvəsi ilə yanaşı, həkim həm də yüksək mədəniyyətli bir insan olmalı, incəsənət, musiqi, ədəbiyyat dünyasını anlamalıdır...

***

Zərifə xanım özü bu dünyaların adamı idi...

O, peşəkar musiqi təhsili almışdı. Bu nəcib insanın, böyük qəlb sahibinin ifasına qulaq asmaq fürsəti dinləyicilər üçün hər dəfə böyük bir zövq idi. Royalda ifa edərkən onun şirmayı dillər üzərində gəzişən barmaqları ən zərif hisslərin tərcümanına çevrilir, insanları duyğular aləminə aparırdı.

Bir zamanlar o ifaları dinləmiş insanlar xatırlayırlar ki, Zərifə xanımın ifalarında qəribə bir duyumluluq vardı. Musiqi əsərini o özündən, öz duyğularından keçirə bilirdi. Yaxından tanıyanlar onun təkcə ifalarını deyil, musiqi dinləməsini də böyük rəğbət hissi ilə yada salırlar. Zərifə xanım musiqinin ecazına elə dərindən qapılardı ki, onun işıq saçan aydın çöhrəsində sanki musiqinin özü görünərdi, səsin surəti canlanardı.

İstənilən musiqi əsərini dinlədikcə bu musiqinin onun qəlbindəki əks-sədasını Zərifə xanımın gözlərindən oxumaq mümkün idi. Akkordlar bir-birini əvəzləyər, əvəzlədikcə də onun gözləri heyranlıq nümayiş etdirər, razılıqla gülümsünər, bəzən isə qəti etiraz ifadə edərdi.

Amma o gözlərdən heç zaman laqeydlik, biganəlik oxumazdın.

Danışan gözləri vardı Zərifə xanımın və o gözlər hər baxışında dünyaya, insanlara bir ömürlük sevgisini çatdırırdı.

***

Zərifə xanım qayğıkeş, fədakar bir ana idi...

Ömür-gün yoldaşının vaxtının böyük hissəsi dövlət işlərinə sərf olunduğundan, bir çox analar kimi, övladlarının təhsilini-tərbiyəsini ana öz üzərinə götürmüşdü.

Əslində vaxt Zərifə xanım üçün də həyatın ən çox arzulanan neməti idi.

Bununla belə, o, övladlarının tərbiyəsinə daim vaxt tapırdı.

Tanrının əta etdiyi qısa ömrün övladlara, həyat yoldaşına, ailəsinə aid hissəsini gərgin zəhmət tələb edən elmi işlərinə, sənətinə həsr etməyi özünə rəva görməzdi.

Bu məqam məni həmişə düşündürüb. Nədənsə qadının çalışmağı məsələsi bizim cəmiyyətdə hər zaman diskussiya mövzusu olur. Öz qazancı ilə evin firavanlığını tam təmin etməyi bacaran bir çox kişilərimiz bəzən qadının çalışmasına qarşı çıxırlar. Onlara elə gəlir ki, nə qədər yüksək təhsil alır-alsın, öz sənətində nə qədər böyük perspektivlərə malik olursa-olsun, qadının yeganə vəzifəsi evə-ailəyə baxmaqdır. Həyat yoldaşının, övladlarının qulluğunda durmaqdır.

Əfsus ki, bu məsələdə hələ də Səməd Vurğunun "Aygün" poemasının qəhrəmanı Əmirxanın düşüncələrindən çox da uzağa gedə bilməmişik.

Evin, ailənin qayğıları, bəli, əsasən qadının üzərinə düşür. Qadının ev təsərrüfatını idarə etməsi, uşaqların təhsil-tərbiyəsi ilə daha ardıcıl və sistemli şəkildə məşğul olması, məişət məsələlərinin həllində həyat yoldaşına fədakarcasına dəstək verməsi bizim milli mentalitetimizin xoş, gələcək nəsillərə ötürülməli olan cəhətlərindəndir. Amma cəmiyyətin inkişafı, qadınların ictimai fəallığı, iqtisadi azadlığı, sosiallaşması üçün onların çalışması çox mühümdür.

Bu mənada Heydər Əliyevin ailəsi hələ o illərdən cəmiyyət üçün bir nümunə sayılırdı. O illər Sovet İttifaqında yüksək vəzifə tutan şəxslərin, baş katib də daxil olmaqla Mərkəzi Komitə katiblərinin və ittifaq respublikalarının partiya katiblərinin, nazirlərin, hətta aşağı rütbəli məmurların həyat yoldaşları ümumiyyətlə heç yerdə işləməsə də, Zərifə xanım Əliyeva istisna təşkil edirdi.

Onun öz elmi işlərini, həkimlik fəaliyyətini davam etdirməsi peşəsini qəlbən sevən Zərifə xanım qədər Heydər Əliyevin də arzusu idi və ulu öndər bu məsələdə həyat yoldaşına mənəvi köməyini heç zaman əsirgəmirdi.

Ömür-gün yoldaşına, övladlarına fədakarlıqla qulluq etməyi həkimlik borcu ilə, elmi fəaliyyəti ilə ahəngdar şəkildə birləşdirməyə müvəffəq olmuş Zərifə xanım bununla da bir həyat örnəyi yaradırdı.

***

Uşaq tərbiyəsi məsələlərinə onun özünəməxsus yanaşması vardı.

Övladlarını nə qədər sevsə belə, onlara nə qədər böyük məhəbbət göstərsə də, bir çox məqamlarda əsla güzəştə getməzdi.

Ana tərbiyəsi ilə övladlarına çox dəyərlər ötürmüşdü Zərifə xanım. Atası Əziz Əliyevin, həyat yoldaşı Heydər Əliyevin ailə ocağından gələn halallığı, nəcabəti, comərdliyi, kübarlığı, ziyalılığı, intellekti, insanlara məhəbbəti...

Amma Azərbaycan sevgisi, torpağa, yurda, onun dəyərlərinə bağlılıq bütün bunların başında gəlirdi.

...Onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır, - böyük alimin 90 illik yubileyi münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyirdi: - Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda yüksək mədəniyyət, alicənablıq - bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi.

...Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".

Öz valideynlərinə bağlılıq, ata-anaya sevgi dünyanın ən saf, ən səmimi və doğma hissləridir.

Zərifə xanımın, Heydər Əliyevin verdiyi tərbiyə isə bu ocağın övladları üçün ata-ana sevgisi ilə Vətən sevgisini bərabərləşdirmişdi, eyniləşdirmişdi.

Və bu gün İlham Əliyevin Azərbaycan naminə, Azərbaycan adına gördüyü işlər, etdiyi tarixi fədakarlıqlar əslində bu sevginin izharıdır.

İlham Əliyevin Azərbaycana olan sevgisi bir övladın anaya olan sevgisidir.

Necə ki, bir zamanlar Zərifə xanım öz sevimli oğluna Vətənə də Ana kimi sevgi bəsləməyi öyrətmişdi...

**Azərbaycan. -** 2015.-15 aprel. - № 78. - S. 6.

## Müdrik alim, qayğıkeş ana

### Akademik Zərifə Əliyevanın xatirəsi sonsuz məhəbbətlə yad edilir

**F.ABASOĞLU**

O, insan kimi ətrafdakılara nümunə idi. O, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, işini mükəmməl bilən həkim idi. O, nursuz gözlərə işıq paylayan, Günəşin, Ayın hüsnünə, təbiətin çoxçalarlı rənglərinə, füsunkar gözəlliyinə həsrət qalan insanlara həyat eşqini qaytaran idi. O, Ümummilli lider Heydər Əliyevin həyat yoldaşı idi. Aprelin 28-də o böyük insanın, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 93-cü ildönümü tamam oldu. Bu hadisə ölkəmizdə geniş qeyd edilir, onun əziz xatirəsi sonsuz məhəbbətlə yad edilir.

Zərifə Əliyevanın ömür yolu zəngin elmi fəaliyyət, qazanılan uğurlarla zəngindir. Zərifə xanıma həmkarlarının, yetirmələrinin, xəstələrinin hörmət və məhəbbətini qazandıran onun həkim fədakarlığı, yüksək vətəndaşlıq mövqeyi, səmimiyyəti, insanlara qayğısı idi. Son dərəcə xeyirxah insan olan Zərifə xanım Əliyeva yaşamaqdan, işləməkdən xüsusi zövq alırdı, nikbin insan idi, ətrafında xeyirxahlıq və etimad abı-havası yaratmaq üçün çox çalışırdı. Bu parlaq şəxsiyyət xeyrin təntənəsi, xalqın xoşbəxtliyi üçün əlindən gələni edirdi.

Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. 23-cü ilin yazı dövrünün görkəmli dövlət və ictimai-siyasi xadimi, elm fədaisi, böyük şəxsiyyət Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində onilliklər sonra ailənin adını daha da ucalıqlara qaldıracaq, Vətənə layiqli övlad olacaq, xalqına xidməti hər şeydən ümdə biləcək parlaq bir simanın gəlişi ilə yaddaqalan olub. Orta təhsilini başa vurduqdan sonra gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub və 1947-ci ildə institutu əla qiymətlərlə bitirib.

Qeyd edək ki, məhz həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılıb. Ona qarşı təsirli müalicə üsulları isə olmayıb. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyıb. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edib, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedib, həkim-oftalmoloqlara məruzələr oxuyub, əhali arasında çoxlu söhbətlər aparıb. Amma ağır xəstəliklə mübarizədə bu kifayət etməyib. Respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən, gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını və profilaktika tədbirlərini işləyib hazırlamaq tələb olunub.

Həkim olmaq arzusu onu Moskva şəhərinə aparıb və Zərifə xanım Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnib. O, ixtisaslaşdırma kursunu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə qayıdıb, 1949-cu ildən başlayaraq, Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayıb. 1950-ci ildə isə aspiranturaya daxil olub, praktik əməli həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını da davam etdirib. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini traxoma infeksion xəstəliyinin müalicəsinə həsr edib. Beləliklə, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirib.

Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilib. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edib. Zərifə xanım tədqiqat işini traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən – sintomisindən istifadə olunmasına həsr edib. Bu dövrdə Zərifə xanım yalnız çalışdığı institutda fəaliyyət göstərməklə kifayətlənməyib, o, respublikanın şəhər və rayonlarını bir-bir gəzərək, xəstəliyin yaranma səbəblərini araşdırıb və xəstəlik ocaqlarında kompleks şəkildə müalicə-profilaktik tədbirləri həyata keçirib. Böyük alim uşaq evlərində tərbiyə alan kimsəsiz uşaqlar arasında yayılan traxoma xəstəliyinin qarşısını almaqda xüsusi xidmət göstərib. Uğurlu tədqiqatların nəticələri Z.Ə.Əliyevanın 1960-cı ildə müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edib. Bu sahə üzrə ixtisaslaşaraq, elmlər namizədi dərəcəsinə yüksələn Zərifə xanımın təklif etdiyi müalicə metodu tezliklə bütün respublikada tətbiq edilib və ölkəmiz bu xəstəlikdən xilas olub. Buna görə də Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə xanımın adı ilə bağlıdır.

1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışıb. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona "Oftalmologiya" ixtisası üzrə böyük elmi işçi adı verib. 1967-ci ildə Z.Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri

kafedrasına dosent vəzifəsinə dəvət olunub. Həmin dövrdə Zərifə xanım həkimlik fəaliyyəti ilə məşğul olaraq, bir çox cərrahiyə əməliyyatları aparıb, xəstələrə məsləhətlər verib, üstəlik onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmayıb, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edib. Bununla yanaşı o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparıb. Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə çox ciddi məşğul olmasına baxmayaraq Z.Əliyeva elmi tədqiqat işlərinin davam etdirilməsinə böyük əhəmiyyət verib. Həmin dövrdə o, oftalmologiyanın bir sıra aktual məsələlərinə diqqət yetirib. Bu məsələlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi və s. xüsusi yer tutub. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının patologiyası da cəlb edib. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin demək olar ki, elmi şəkildə tədqiq olunmaması ilə əlaqədar idi.

1968-ci ildən başlayaraq Z.Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayıb. Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyanın əsasını təşkil edib. O, "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edib. Z.Əliyevanın dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini alıb, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olub. 1977-ci ildə Z.Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilib.

Doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilib, 1983-cü ildə isə həmin kafedranın müdiri olub. Elə ilk gündən Z.Əliyeva ətrafına istedadlı gənc həmkarlarını toplayaraq, elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bilib.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülüb. Bununla da professor Z.Əliyeva həmin mükafata layiq görülən ilk qadın kimi tarixə düşüb. 1983-cü ildə Z.Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişlənib. Səhiyyə sahəsindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Z.Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilib. Z.Əliyeva fəaliyyəti müddətində bir sıra orden və medallara layiq görülüb, Azərbaycanın əməkdar elm xadimi fəxri adını alıb.

Bütün bu elmi fəaliyyəti ilə yanaşı, Zərifə xanım eyni zamanda övladlarına qayğıkeş ana, ümummilli lider Heydər Əliyevə vəfalı ömür-gün yoldaşı olub. O, ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də Moskva şəhərində dünyasını dəyişib.

Zərifə Əliyevanın adı bu gün də Azərbaycanda böyük fəxrlə, sonsuz qürur hissi ilə səslənir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, nurlu həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir. O, tibb elmimizin zirvəsində parlayan əbədiyyət Günəşi kimi səciyyələndirilir.

Zərifə xanım Əliyeva qədirbilən xalqımızın, onu yaxınlardan tanıyanların, qohum və doğmalarının yaddaşında görkəmli ziyalı, elm xadimi, gözəl insan, vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana, bənzərsiz vətəndaş kimi qalmışdır. Ömrünü insanların sağlamlığının qorunmasına həsr etmiş bu nəcib xanım, həm də körpələri, balacaları sonsuz məhəbbətlə sevir, onları Tanrının ən müqəddəs payı hesab edirdi. Məhz bütün bu keyfiyyətlərinə görədir ki, Zərifə xanım hər zaman hamı tərəfindən sevilir, əziz xatirəsi ehtiramla yad olunur.

Zərifə xanım eyni zamanda müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub.

**Kaspi.** - 2016.- 28 aprel. - № 72. - S. 7.

## Mehriban ana, gözəl insan, görkəmli alim

### Ədilə Namazova: “Zərifə Əliyeva böyük fəlsəfi fikirlərə malik şəxsiyyət idi, həmişə sadə insanların arasında olurdu”

**Təranə Məhərrəmova**

"Zərifə xanım Əliyevanın timsalında öncə ideal qadın və əsl Azərbaycan xanımı obrazı canlanır. Zərifə xanımın bu obrazı və keçdiyi həyat yolu gənc xanımlarımızın həyatının formalaşması baxımından parlaq nümunədir. Onun şəxsiyyəti, həyat və fəaliyyəti geniş təbliğ olunmalıdır ki, bugünkü xanımlarımız nümunə götürsünlər”. Görkəmli oftalmoloq alim Zərifə Əliyeva haqqında söhbət düşəndə təkcə onu tanıyanlar, onunla ünsiyyətdə olanlar deyil, həmçinin həyat yolu haqqında oxuyanlar, eşidənlər də bu mehriban ana, gözəl, sadə insan, eyni zamanda görkəmli alim haqqında eyni cür düşünürlər. Akademikin anım günündə onu yaxından tanıyan həmkarı, akademik Ədilə Namazova ilə söhbətləşdik.

**Gənc həkimlərin pənahı**

**- Ədilə xanım, aprelin 15-də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anım günüdür. Bir insan kimi Zərifə Əliyeva yaddaşınızda necə qalıb?**

- Zərifə xanım daxilən çox gözəl, məzmunlu insan idi. Onunla görüşəndə elə bilirdin ki, ən yaxın və əziz insanınla görüşürsən. O, adama elə bir münasibət göstərirdi ki, bütün ürəyini ona aça bilirdin. O, insanın qayğısına qalırdı. Öz övladlarını böyüdəndə onun necə nümunəvi ana olmasının şahidi olmuşam. Sonra da nümunəvi nənə oldu. Zərifə xanım övladlarının hər bir uğurunu görəndə sevincinin həddi-hüdudu olmurdu. O, övladlarının uğurları ilə yaşayırdı. Zərifə xanım həyat yoldaşına sadiq insan idi, ona mənəvi dayaq olurdu. O, ətrafındakı bütün insanlara kömək edirdi, problemlərinin həllinə çalışırdı. İşlədiyi kollektivdə də gənc həkimlərin pənahı idi. Məsələn, məşhur oftalmoloq Çingiz Cərullazadənin bir alim kimi uğur qazanmasında Zərifə xanımın böyük rolu olub. O zaman ulu öndərin göstərişi ilə 25 nəfər gənc alim peşəkarlıqlarını artırmaqdan ötrü Rusiyaya göndərildi. Onlar ittifaqın məşhur alimlərinin yanında təcrübə keçəcəkdilər. Onlardan biri də Çingiz Cərullazadə idi. Mən onların hamısını Moskvaya aparıb məşhur alimlərə təhvil verdim və xahiş etdim ki, respublikamız üçün peşəkar həkimlər yetişdirilməsinə köməklərini əsirgəməsinlər. Alimlərin çoxu məmnuniyyətlə razı oldu. Bəzi akademiklər isə «bu gəncləri elmlər doktoru kimi yetişdirmək üçün gərək bizi lazımi müasir avadanlıqla təmin edəsiniz» şərtini qoydular. Mən Moskvadan qayıdıb Zərifə xanımla görüşdüm və akademiklərlə olan söhbəti danışdım. «Darıxma, nə qədər baha da olsa, biz respublika hesabına həmin avadanlığı alıb təmin edəcəyik» - dedi. Bir neçə gündən sonra zəng edib "narahat olma, avadanlıq alınıb» - deyə məni sevindirdi. Beləcə, Çingiz Cərullazadə elmlər doktoru kimi yetişdi. İndi o hazırda təkcə respublikada deyil, bütün dünyada məşhur oftalmoloqdur. Onun alim kimi yetişməsinə isə Zərifə xanım dəstək oldu. Zərifə xanım böyük fəlsəfi fikirlərə malik insan idi. Zərifə xanım həmişə insanların arasında idi. Baxmayaraq ki o vəzifəli bir insanın həyat yoldaşı idi, sadə insanlardan heç vaxt ayrılmırdı. Bizim çox yaxşı münasibətimiz var idi. Mən SSRİ Tİbb Elmləri Akademiyasına üzv seçiləndə, ilk zəng edib təbrik edən o oldu. Çünki o vaxt həmin akademiyaya seçilmək çox çətin idi. Daha sonra biz onunla birlikdə əməkdar elm xadimi adına layiq görüldük. Mən Dövlət mükafatına layiq görüləndə isə, o, məndən də çox sevinirdi. Zərifə xanım kimi insanlar nadir hallarda dünyaya gəlirlər. Onun insanlara yanaşması, onlarla rəftarı xüsusi idi. Onunla işləyən oftalmoloqlar onu öz anaları kimi bilirdilər. Zərifə xanımın qardaşı Tamerlanla da bir yerdə işləyirdim. Onlar Əziz Əliyev kimi görkəmli alim və şəxsiyyətin ailəsində tərbiyə almışdılar.

**Azərbaycan oftalmologiyasının əsil fədaisi**

**- Zərifə xanım Əliyevanın oftalmologiya elminin inkişafında böyük xidmətləri var. Onun elmi fəaliyyəti cəmiyyətimizə hansı töhfələr verib?**

- Zərifə xanım bütün həyatını, fəaliyyətini tibb elminin inkişafına həsr edib. Azərbaycan oftalmologiyasının əsl fədaisi olaraq, dünyada onun tanınmasında həlledici rol oynayıb. Görkəmli alim, yüksək insani keyfiyyətlərə malik olan, böyük elmi əsərləri ilə Azərbaycan oftalmologiya elmini yüksəklərə qaldıran akademik Zərifə xanım Əliyevanın əvəzsiz xidmətlərini hər zaman qeyd etmək lazımdır. Şamaxı yaxınlığında Məlhəm adlı yaşayış məntəqəsində 11-ci əsrdə mədrəsə fəaliyyət göstərib. Həmin mədrəsədə ilahiyyat, astronomiya, riyaziyyat, həmçinin təbabət üzrə mütəxəssislər hazırlanıb. İlk dəfə o məktəbdə tibbi etikadan dərslər keçilib. Təbabəti öyrənməyə Çin, Hindistan və s. ölkələrdən tələbələr gəliblər. Təkcə Azərbaycanın zənginliyi deyil, eyni zamanda təhsili də əcnəbiləri cəlb edirmiş. Əfzələddin Xəqaninin dayısı Ömər Osmanoğlu o mədrəsəyə rəhbərlik edib. Zərifə xanım ilk dəfə olaraq bu faktı araşdırıb və bütün dünyaya sübut edib ki, Azərbaycanda təbabətin belə qədim tarixi var. XX əsrin 40-50-ci illərində Azərbaycanın bir çox cənub rayonlarının əhalisi arasında traxoma xəstəliyinin yayılması ciddi bir problem olub. Akademik Zərifə Əliyeva traxomaya qarşı mübarizədə fəal iştirak edib, ona həvalə edilmiş Əli Bayramlı rayonunda çətinliklərə

baxmayaraq, traxomaya qarşı tədbirlər kompleksini inadla yerinə yetirib. Zərifə xanımın bu fədakar əməyinin respublikada traxomanın ləğv edilməsi işində mühüm rolu olub. Aparılan böyük praktiki iş Zərifə xanımın ilk elmi əsərlərinin əsasını qoyub. Traxomanın sintomisinlə müalicəsi mövzusunda namizədlik dissertasiyası işləyib. Zərifə xanımın elmi fəaliyyətinin ən maraqlı və perspektiv istiqamətlərindən biri iridodiaqnostika və iridoterapiya problemi olub. İridodiaqnostika çox dəyərli bir ekspress üsuludur. Bu istiqamətdə aparılmış elmi axtarışların nəticəsi tayı olmayan «İridodiaqnostika əsasları» və «İridodiaqnostika monoqrafiyası» olub. O, müxtəlif peşə zərərlərinin, o cümlədən toz, talk, his, kanifol kimi toksik amillərin təsirini öyrənib. Bu tədqiqatlar respublikanın 10-dan çox iri sənaye müəssisələrində, məsələn, Bakı şin və yod, məişət kondisionerləri zavodlarında, Sumqayıt «Üzvi sintez» istehsalat birliyində, digər müəssisələrdə aparılıb. Görmə üzvünün peşə patologiyası problemləri ilə yanaşı, Zərifə Əliyeva oftalmologiyanın digər aktual istiqamətlərində tədqiqatlar aparırdı. Bu tədqiqatların nəticəsində «Gözün və görmə sinirinin yaşla əlaqədar dəyişiklikləri», «Gözün hidrodinamik sisteminin anatomik və fizioloji xüsusiyyətləri», «İridodiaqnostika», «Şəkərli diabet zamanı gözün patologiyası», «Oftalmologiyanın aktual problemləri», «Terapevtik oftalmologiya» və başqa monoqrafiyalar çap edilib. Ümumiyyətlə, onun 200-ə qədər elmi işi, 14 monoqrafiyası və 12 səmərələşdirici təklifləri var. Kimya istehsalında görmə üzvünün profilaktikasına həsr olunmuş orijinal elmi əsərlərin çap olunması ilə əlaqədar olaraq, 1981-ci ildə akademik Zərifə Əliyeva keçmiş Sovet İttifaqının Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatı ilə təltif edilib. Zərifə xanım bu yüksək mükafata layiq görülən ilk alim qadın idi.

**- Zərifə xanım ictimai işlər sahəsində də fəal idimi?**

- Akademik Zərifə Əliyeva böyük ictimai iş də aparırdı. O, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, «Bilik» Ümumittifaq Cəmiyyətinin sədr heyətinin üzvü, Ümumittifaq Oftalmioloqlar Cəmiyyətinin rəyasət heyətinin üzvü, «Vestnik oftalmoloqii» jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə Əliyevanın əvəzsiz xidmətlərinin etirafı kimi 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi, orden və medallarla təltif edilməsi olub. Zərifə xanımın vətən oftalmologiyasının inkişafında qiymətsiz xidmətləri çoxdur, onlardan biri 1977-ci ildə Bakıda yeni Oftalmoloji mərkəzin tikintisi haqqında irəli sürülmüş təşəbbüsüdür. Vaxtilə Heydər Əliyev və Zərifə xanım bu arzunun həyata keçirilməsi üçün böyük səy göstəriblər. 2001-ci ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna akademik Zərifə Əliyevanın adı verildi. Görkəmli alimə xas olan vətənpərvərlik, sadəlik akademik Zərifə Əliyevaya məxsus idi. Zərifə xanım Əliyeva ölkəmizdə və bütün dünyada oftalmoloqların və pasiyentlərin hörmətini və məhəbbətini, bütün Azərbaycan xalqının etimadını qazanmışdı. Akademik Zərifə xanım Əliyeva sözün yüksək anlayışında insan olub, onun həyatı bizim üçün əbədi nümunə qalacaq, xatirəsi ürəyimizdə həmi°ə əziz tutulacaq. Biz indi o ailədə dünyaya gələn prezident İlham Əliyevin yenidən ölkəmizin rəhbəri seçilməsinin sevincini yaşayırıq. Bu qələbəyə bütün ölkə sevinir. Əminik ki, ölkəmiz bundan sonra da inkişaf edəcək. Mən respublikamızın 2000-dən çox pediatrı, 43,5 faiz uşaq və onların valideynləri, Tibb Universitetinin professor və müəllim heyəti, eləcə də 8000-dən çox tələbəsi adından prezident İlham Əliyevi təbrik edirəm! Biz ona səs verməklə öz gələcəyimizin təminatına səs verdik.

**Kaspi**. - 2018.- 14-16 aprel. - № 66. - S. 8.

## Günəş timsallı insan

**Nurlana ƏLİYEVA,**
Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü,
Qadınlar Şurasının sədri, professor

İşıq həyatdır. Zülmət isə onun əsrarəngiz rənglərini üzümüzə qapayan kabus. Ömrümüzdə gözəl olan nə varsa işıqdan yaranıb, öz başlanğıcını işıqdan alıb. Zülmət isə işığın olmadığı, gözəl dünyanın görünmədiyi məkandır. Biz fiziki mənada işığın xassəsini öyrənə bilərik. Amma qaranlığın heç bir fiziki xüsusiyyəti yoxdur. İnsanın varlığı, yaşadığı ömür, qazandığı uğurlar, əbədiyyətə qovuşan hər şey məhz öz mənbəyini işıqdan alır.

Dilimizdəki ən gözəl diləklər sırasında "işıqlığa çıxasan”, "aydınlıq olsun” kimi ifadələrimiz var. Həmişə bu diləklər haqqında düşünəndə fikirlər məni o deyimləri yaratmış insanların yaşadıqları qədim əyyamlara aparır. Atəşpərəstliyə tapınan, yeni günə başlamaqdan ötrü günəşin doğmasını səbirsizliklə gözləyən ulularımızı xəyalən görürəm. Gecələr ay çıxanda sevinən, ay tutulanda bunu faciə kimi qarşılayan, ayı üzə çıxarmaq üçün ayinlər fikirləşib tapan əcdadlarımızla eyni duyğuları bölüşürük. İşığı, atəşi min illərdən bəri xilaskar sayan, müqəddəs bilib onlara sitayiş edən ulu babalarımızın müdrikliyi, iti bəsirəti heyrətləndirir insanı.

Ulularımız "işıq və aydınlıq Tanrıdandır” deyirlər. İşıq, nur sülhün rəmzidir, səadətin, xoşbəxtliyin güzgüsüdür, odlar yurdu Azərbaycanımızın əsas dəyərlərindəndir. Düşünürəm ki, hər bir insan əməlləri ilə bir işığa çevrilsə, ziyalılıq dəyərlərinə sahiblənsə dünyamızın çırağı gur yanar...

### Zülmətlə döyüşənlər

"Min dərd varsa, min bir də əlac var” demişlər atalarımız. İnsanın mübtəla olduğu mərəzlər o qədər çoxdur ki... Amma bu mərəzləri sağaldacaq həkimlərin fərasəti, biliyi də genişdir. Bu sətirləri qələmə alarkən göz həkimi ixtisasının təbabət tarixinin hansı mərhələsində formalaşdığını öyrənmək maraqlı gəldi. Bu maraqla bəzi mənbələrə müraciət etdim. Məlum oldu ki, tarixi soraqlar göz həkimliyinin yaşının ən azı 4400 il olduğunu göstərir. Soraqlar bu sənətin tarixi vətəni kimi qədim Misir sivilizasiyasına aparıb çıxarır.

Yaxından, uzaqdan tanıdığım, haqqında oxuduğum, yaxud həyatda ünsiyyətdə olduğum həkimlərin hər birinin xəyal dünyamda öz yeri, öz hörməti, ehtiramı, nurlu obrazı var. Göz həkimlərini təxəyyülümdə həmişə döyüşçü obrazında təsəvvür edirəm. Mənə görə onlar zülmətlə döyüşə girən qəhrəmanlardır. Qaranlıqla döyüşüb onu geri çəkilməyə məcbur edən, işığı, nuru, Günəşin zərrin şəfəqlərini yenidən insana qaytaran cəsur insanlar...

4 min ildən artıq yaşı olan oftalmologiya tarixini onlar yaradıblar. Bu tarixdə minlərlə insanın gözlərinə işıq bəxş edərək özü də nur heykəlinə çevrilmiş, gözəl əməlləri ilə əbədiyyət qazanmış bir nurlu şəxsiyyət də xəyalımda canlanır.

Nurdan yaranmış və insanlara nur paylayan təkrarsız, yeganə Azərbaycan qadını. Məşhur göz həkimi, akademik Zərifə xanım Əliyeva. Qəlblərində böyük məhəbbət gəzdirən elm, bilik, mərifət sahiblərinə sonsuz dəyər verən ulu Nizami Gəncəvi alimin rütbəsini bütün rütbələrdən uca hesab edirdi. Bu alim cənnətin fövqündə qərar tutmuş Ana olduqda həmin ucalığın nə qədər əlçatmaz olduğunu təsəvvür etmək çətin deyil.

### Həkim fədakarlığı

Yeni nəslə səhiyyəmizin indiki inkişaf mərhələsinə hansı çətinliklərdən keçib gəldiyini izah etmək, düşünürəm ki, xeyli çətindir. Cərrahın min kilometrlərlə aralıdan xəstənin üzərində internet vasitəsilə əməliyyat apara bildiyi yeni minilliyin gənclərinə o dövrlərin çətinliklərini necə izah edəsən?! Bəlkə onlara elə gəlir ki, insanın xəstəliklərini bir anda üzə çıxaran müasir cihazlar elə əvvəldən varmış?! Xüsusi texniki vasitələrin köməyi ilə xəstələrə diaqnoz qoyan mütəxəssislər xəstəxanalarda əzəldən çalışırmışlar. Xəstəxanalar elə həmişə belə abad, müasirmiş. Tibb xidmətləri hər kəsə əlçatanmış.

Amma qətiyyən belə olmayıb. İnsanların adicə bir xəstəlikdən dünya işığına kor qaldıqları vaxtlar vardı. Zərifə xanım Əliyevanın xalqımız qarşısında xidmətlərini görməkdən ötrü mütləq keçən əsrin 20-30-cu illərinə qayıtmalıyıq. Göz xəstəliklərinin müalicəsinin ölkəmiz üçün o zamanlar nə qədər çətin bir problem olduğunu təsəvvürümüzdə canlandırmalıyıq. Hələ inqilabdan əvvəl Azərbaycanın şoran ərazilərində, Kürqırağı yaşayış məntəqələrində, küləklərin at oynatdığı məkanlarda göz xəstəlikləri kütləvi hal almışdı.

Dörd il davam edən İkinci Dünya müharibəsinin yaratdığı problemlərdən biri də elə 1950-ci illərdə ölkəni bürüyən traxoma epidemiyası idi. Bu xəstəlik insanlara böyük əziyyət verirdi. Onların simasını eybəcərləşdirir, bəzən ailənin bir neçə üzvünü dünya işığına həsrət qoyurdu. Daha çox tropik iqlimli ölkələrə xas infeksion xəstəlik müxtəlif vasitələrlə böyük bir bəla kimi bir insandan başqasına keçirdi. Hətta milçəklər vasitəsilə də yayıla bilirdi. O vaxtlar, xüsusən yaz vaxtları Kür və Araz çaylarında daşqınlar olurdu. Ətrafda bataqlıqlar yaranırdı və bu bataqlıqlar yaxınlıqda yaşayan insanlar arasında traxomanın yayılması üçün mənbəyə çevrilirdi. Hazırda dünyada 70-80 milyon traxoma xəstəsinin olduğu deyilir. Amma o dövrlərdə bu statistika daha böyük idi. Dünya bu qorxulu bəlanın çevrəsini məhz Zərifə Əliyeva kimi comərd həkimlərin fədakarlığı hesabına məhdudlaşdıra bildi.

1950-ci illərdə ölkəmizdə traxoma xəstəliyinin qarşısını Zərifə Əliyevanın fəal iştirak etdiyi həkimlər briqadası aldı. Onlar infeksiyanın ən kütləvi xarakter aldığı yerlərə gedir, sağlamlıqlarını riskə qoyaraq insanları traxoma bəlasından xilas etməyə güc tapırdılar. Nəhayət, dörd-beş ildən sonra buna nail oldular. Və tarix onların qəhrəmanlığını öz yaddaşında əbədiləşdirdi.

Düşünürəm ki, bu gün bütün dünyanı silkələyən koronavirus epidemiyası ilə Azərbaycanda cəngə çıxan, döyüşən, hər bir vətəndaşımızın həyatını xilas etmək naminə dövlətimizin, onun rəhbərinin müdrik siyasətindən ilham alaraq "Biz birlikdə güclüyük!" şüarını həyat qayəsinə çevirib əsl fədakarlıq nümayiş etdirən, sinələrini qəddar xəstəliyə sipər edən rəşadətli həkimlərimiz, həm də millətini, dövlətini sevən və bu gün bütün sahələrdə inanılmaz cəngavərlik hünəri nümayiş etdirən peşə adamlarımız - həkimlər, müəllimlər, polis, mətbuat işçiləri, iqtisadçılar, dövlət məmurları bəlkə də bu çətin günlərdə qəlbən, ruhən öz güclərini, dəyanətlərini, cəsarətlərini ən ağır, çətin zamanların sınaqlarından mərdliklə, məharətlə çıxmış Zərifə ana kimi cəfakeş insanların qətiyyətindən, məhəbbətindən güc alıblar.

**Əziz Əliyevin qızı**

Zərifə xanımın fədakar ömründə bir ünvanın xüsusi yeri var. Bu ömür o ünvandan başlanır. Şərur rayonunun Şahtaxtı kəndindən. Şahtaxtı Şərur rayonunun ən qədim obalarından biridir. Zərifə xanım bu kənddə dünyaya gəlmişdi. Atası Əziz Əliyevin dədə-baba yurdu İrəvanda olsa da, erməni zülmü onları öz doğma yurdlarından didərgin salıb bu kənddə məskunlaşmağa məcbur etmişdi.

Ermənilər azərbaycanlılara qarşı kütləvi qırğınlara başlayanda Əziz Əliyev tələbə idi. Peterburqdakı Hərbi-Tibbi Akademiyada oxuyurdu. O dövrdəki Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndələrindən olan Hacı Zeynalabdin Tağıyev bu istedadlı gəncin təhsil almaq, həkim olub xalqa fayda vermək həvəsini görüb, ona təqaüd ayırmışdı. Əziz Əliyev akademiyada təhsilinə uğurla başlamışdı. Gələcək sənəti ilə bağlı ülvi arzuları vardı. Amma ermənilərin azğınlığı hər şeyi bir anda alt-üst etdi. Əziz Əliyev yaranmış vəziyyətə laqeyd qala bilmədi. Həmin günlərdə onu ən çox düşündürən təhsilindən də savayı doğmalarının təhlükəsizliyi idi. Ona görə də dərhal İrəvana qayıtdı. Vəziyyətin ciddi və dözülməz olduğunu görüb ailəsini buradan çıxarmaq qərarına gəldi. Şahtaxtıda uzaq qohumları yaşayırdı. Həmin kənddə məskunlaşdılar. Beləliklə, Əziz müəllim tibb təhsilini erməni basqınlarına görə yarımçıq qoymalı oldu. Bununla belə elmdən, kitablardan bir an da uzaq düşmədi. Özünün səyi sayəsində tibb sənətinin bir çox incəliklərinə yiyələndi. O, tibb kadrlarının olmadığı ən çətin dövrlərdə Peterburqdakı Hərbi-Tibbi Akademiyadan, kitablarından əldə etdiyi ilkin tibbi biliklərlə feldşer kimi insanların köməyinə çatırdı. Bəzi yüngül xəstəlikləri müalicə edə bilirdi. Amma nəyin bahasına olursa-olsun tibb təhsilini davam etdirmək arzusunda idi. Çünki bir neçə il təhsil aldığı Hərbi-Tibbi Akademiyada gördüyü professorlar kimi yüksək peşəkarlığa malik həkim, alim kimi yetişmək istəyirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ildə Bakıda universitet açması və universitetin tərkibində Tibb fakültəsinin də yaradılması Əziz Əliyevin arzularına yol açdı. O, təhsilini həmin fakültədə davam etdirmək qərarına gəldi və buna nail oldu.

1923-cü ilin mayında ailə həmişəlik Bakıya köçdü. Əziz müəllim universiteti bitirdikdən dərhal sonra aspiranturaya daxil oldu. Namizədlik işini uğurla müdafiə edib, gələcək elmi karyerasına doğru böyük bir addım atdı. Elm, təhsil onun üçün çox böyük dəyər idi. Bilirdi ki, insan həyatda yalnız bu dəyərlərin gücü ilə ucala bilər. İrəvan Gimnaziyasını da qızıl medalla bitirmişdi. Bakıdakı mədəni inqilab mühiti, savad kultu geniş dünyagörüşünə, dərin biliklərə malik gənc alimin arzularının reallaşmasına geniş imkanlar açırdı. Bu mühitdə onun kimi ziyalılara tələbat böyük idi. Tədricən vəzifə pillələrində irəliləyişlər başlandı. 1932-ci ildə Əziz Əliyev Azərbaycan səhiyyə komissarının müavini vəzifəsini icra edirdi. Sonralar isə Azərbaycanda yeni tibbi xidmətin təşkilatçılarından biri kimi ad çıxardı. İsrarla öz arzularına, amalına qovuşmaq, çətinlikləri yara-yara istəklərinə nail olmaq onun həyat qayəsinə çevrildi. Bu nadir, prinsipial xarakter Zərifə xanımda özünə yer almışdı. Buna görə də bütün çətinliklərə mərdliklə dözərək Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan novator alim kimi məşhurlaşdı.

**İnsan öz mühitinin övladıdır**

"Ot kökü üstə bitər" demişlər. Zərifə xanım elm-təhsil mühitində yetişmişdi. Əziz müəllim o vaxt xeyli gənc olsa da, Bakının ziyalı mühitində böyük hörmət qazanmışdı. Özü kimi dövrünün nüfuzlu elm, mədəniyyət, incəsənət xadimləri ilə ailəvi dostluq münasibətləri vardı. Azərbaycan ictimai fikir tarixinin Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və digər görkəmli nümayəndələri onun evinin əziz qonaqları idi. Onlar tez-tez yığışar, sağlam düşüncə mühitində maraqlı müzakirələr aparar, biliklərini bölüşərdilər. Belə insanların mühitində olmaq, onlardan görüb-götürmək bu ailədə böyüyən övladlar üçün az qala bir neçə universitetə bərabər təsirə malik idi. Mühit, təbii ki, Zərifə xanımın dünyagörüşünə, yaşın erkən çağlarından formalaşan mənəvi dəyərlərinə təsirsiz ötüşmürdü. Elmi, təhsili vacib saymaq onun üçün də bir kulta çevrilirdi.

Zərifə xanım özü də sonralar uşaqlığının əhatə olunduğu ziyalı mühitini tez-tez yada salardı. Belə bir fikri xüsusi vurğulayardı ki, uşaqlıq mühiti özünüdərk üçün insan ömrünün ən vacib çağlarıdır. İnsanın həyat keyfiyyətləri, prinsipləri bu çağlardan formalaşmağa başlamalıdır. Onun şəxsiyyət kimi yüksəlməsində çox nəcib, ləyaqətli bir qadın olan anası Leyli xanımın da böyük rolu vardı. Zərifə xanım onun mənəviyyatında yer alan xanım-xatınlığı, əsl Azərbaycan qadınına xas abır-ismət, fədakarlıq hissini, ziyalılığı, nəcibliyi anası Leyli xanımdan əxz etmişdi.

Onun uşaqlıq mühitində təbabətin xüsusi yeri vardı. Gözünü açandan evlərində insan sağlamlığı, həkimin xalqa xidməti kimi mövzularda söhbətlər eşitmişdi. Atası Azərbaycanın tibb təşkilatçılarından idi. 1935-ci ildə, Zərifə xanımın hələ 13 yaşı olanda Əziz müəllimə o vaxt yeni yaranmış Tibb Universitetinin rektorluğu kimi çətin və məsuliyyətli vəzifə həvalə etmişdilər. Bundan 4 il sonra isə 1939-cu ildə Əziz Əliyev Azərbaycanın səhiyyə komissarı təyin olundu. Görünür həkimlik Zərifə xanımın özündən çox taleyinin seçimi idi.

Atalarının həkim və böyük səhiyyə təşkilatçısı olması, onun ailədəki nüfuzu övladlarının peşə seçimində mühüm rol oynadı. Qardaşları Tamerlan və Cəmil də həkim oldular. Zərifə xanımın böyük qardaşı Tamerlan Əliyev (1921-1997) respublikamızın ən yaxşı endokrinoloqlarından biri idi. Atasının yoluna sadiq qaldı, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, dövlət mükafatı laureatı kimi elmi ictimaiyyətdə böyük nüfuz qazandı. Elmi əsərləri, monoqrafiyaları, dərslik və dərs vəsaitləri ilə tibb elminə böyük töhfələr verdi.

Zərifə xanımın kiçik qardaşı Cəmil Əliyev isə tibbin ən çətin sahəsini, zamanında çoxları üçün o qədər də cəlbedici olmayan onkologiyanı seçdi. Bu sahədə elmi avtoritet kimi böyük şöhrət tapdı. Tibb elmləri doktoru, akademik Cəmil Əliyev Əməkdar elm xadimi, bir çox beynəlxalq elmi mərkəzlərin üzvüdür. İngiltərə Nammersmit Kral Universitetinin, Anderson xərçəng əleyhinə mərkəzin professorudur. İndiyə qədər görkəmli alimin 230-dan çox elmi əsəri çapdan çıxıb. Onlardan 80-ə yaxını xaricdə işıq üzü görüb. Cəmil müəllim uzun illərdir ki, respublika Milli Onkologiya Mərkəzinə rəhbərlik edir. Düşünürəm ki, ailəlikcə insan sağlamlığı keşiyində dayanmaq həm tərbiyədən, təcrübədən, həm də Tanrının lütfündən gəlir.

### Missiya

Orta məktəbi bitirdiyi il qanlı-qadalı dövrə təsadüf edirdi. 1942-ci il idi. İkinci Dünya müharibəsi yeni başlamışdı. Sovet ordusu cəbhədə ardıcıl uğursuzluqlarla üzləşirdi. Bakıdakı bir çox binalar hospitallara çevrilmişdi. Cəbhədən müalicə üçün göndərilən yaralılarla dolub-daşırdı. Zərifə də dərsdən sonra rəfiqələri ilə evlərinin yaxınlığındakı hospitala gedir, tibb işçilərinə kömək göstərir, yaralılara evlərinə, doğmalarına məktub yazmaqda yardım edirdi. O zaman Bakı əsl əmək cəbhəsini xatırladırdı. Burada həyat qaynayırdı. Ordunu yanacaqla, ərzaqla, lazımi vasitələrlə təmin etməkdən ötrü insanlar gecə-gündüz çalışırdılar. Atası da daim əsgər şinelində idi. Dövlət onu siyasi rəhbər kimi hara yollayırdısa gedir, təşkilati, siyasi işləri yüksək məsuliyyətlə yerinə yetirirdi. Faşizm üzərində qələbə üçün əlindən gələni əsirgəmirdi.

Zərifə artıq baş verənlərin mahiyyətini tam anlayacaq yaşda idi. Bilirdi ki, həyatda yaxşılıqların, xeyirin qələbəsi üçün hər kəsin bir missiyası var. Onun da əsas vəzifəsi biliklərə yiyələnmək, özünü gələcək həyata hazırlamaq, düzgün bir sənət seçib insanlığa xidmət göstərməkdir. Fikrini də qətiləşdirmişdi: həkim olacaqdı. Bu sənətdə isə onu oftalmologiya istiqaməti özünə daha çox cəlb edirdi. Bəzən küçələrdə gözü görməyən adamlarla rastlaşmaq onun üçün əsl insan faciəsi idi. Səhiyyə lazımi səviyyədə inkişaf etmədiyindən o zaman istənilən şəhərdə, kənddə dünya işığına həsrət insanlarla tez-tez qarşılaşmaq olurdu. Zərifə xanımı göz həkimliyinə cəlb edən isə belə insanlara kömək göstərmək arzusu idi. O bilirdi ki, elm inkişaf etdikcə, həkimlərin sayı artdıqca bu dərdlərə əlac tapılacaq. O da işıqlı dünyanı görməyən insanların müalicəsinə özünü həsr etmək istəyirdi.

1942-ci ilin yayında imtahanları uğurla verib Azərbaycan Tibb İnstitutunun Müalicə fakültəsinə daxil oldu. Tələbəliyin ilk aylarından bütün ruhu ilə gələcək sənətinə bağlandı. Bu sahədə biliklərə yiyələnməyə başladı. Müharibə hələ qorxunc bir kabus kimi bəşəriyyətin başı üzərində qərar tutmuşdu. Bu, həm də acıları, amansız qayda və tələbləri ilə çox ağır sınaq idi. Bunların hamısına dözmək lazım gəlirdi.

### Moskva mühiti

Zərifə və bacısı Gülarə musiqi təhsili də almışdılar. Bu maraq onlara atalarından keçmişdi. Evlərində piano vardı. Tez-tez səslənirdi. Müharibə illərinin ağırlıqlarını, qaramatını musiqinin həzin ruhu ilə ortadan götürməyə çalışardılar. Musiqi hər kəs kimi, onlarda da sabaha böyük ümidlər yaradardı.

Bu evdə peşəkar musiqiyə maraq o qədər güclü idi ki, Zərifə xanımın kiçik bacısı Gülarə Əliyeva məhz həmin sənətin ardınca getdi. 1966-cı ildə sonralar milli musiqi tariximizin parlaq səhifəsinə çevriləcək "Dan ulduzu" instrumental ansamblını yaratdı. Əməkdar incəsənət xadimi adına layiq görüldü, musiqi nəzəriyyəsi kafedrasının müdiri oldu. Onun rəhbərlik etdiyi ansambl xalq musiqisinin inkişafında və təbliğində mühüm rol oynadı.

1941-1945-ci illər müharibəsinin ən çətin günlərində Əziz Əliyevin qapısı hansısa köməyə ehtiyac duyan qohum-əqrəbanın, tanışların, yoldaşların üzünə həmişə açıq idi. Taleyin və tarixin gətirdiyi qıtlığı elnən, obaynan yaşamaq daha asan idi. Anaları da bunu bilir, ən çətin günlərdə, ən ağır xəbərlər gələndə yaxın insanlara sığınır,

onlardan güc alırdı. Elnən gələn qara gün toy-bayramdır. Yaman günün ömrü az olar. Xalqın belə deyimlərinə inana-inana yaşayırdılar.

Zərifə Əliyeva 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu əla qiymətlərlə bitirdi. Nəzəri bilikləri yüksək səviyyədə mənimsəmişdi. Amma hiss edirdi ki, praktik bacarıqlara yiyələnmək ehtiyacı var. O zamanlar tək ittifaq məkanında yox, ümumən dünyada həkimlər üçün bu cür peşəkar inkişafın əsas mərkəzlərindən biri Moskva sayılırdı. Zərifə xanım da praktik biliklərini inkişaf etdirməkdən ötrü Moskvaya, Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna getdi, təhsilini davam etdirməyə başladı. Burada onun bir əsas məqsədi də vardı. Azərbaycanı bürümüş traxoma infeksiyasına qarşı mübarizə üçün təcrübəsini artırmaq. Çünki hələ institutdakı təhsil dövründən Zərifə xanım bu infeksiyanın insanlarımıza necə ağır bəla kəsildiyini yaxşı bilirdi. Moskva mühiti bu xəstəliyə qarşı effektiv mübarizə metodlarını öyrənmək, təcrübəli həmkarlarla birgə bu istiqamətdə araşdırmalar aparmaq üçün yaxşı imkanlar yaradırdı.

**Traxoma ilə mübarizə**

Ölkəyə bu sahədə Moskva məktəbi keçmiş təcrübəli həkimlər o zaman hava və su kimi lazım idi. Zərifə xanım da Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya ixtisasının sirlərini dərindən öyrəndi. Bilavasitə göz xəstəlikləri üzrə ixtisaslaşdı. Xüsusilə traxoma infeksiyasına qarşı zəruri bilik və təcrübələrlə silahlandı. Onda ölkə müharibədən yenicə çıxmışdı. Yoxsulluq, maddi sıxıntılar hər yerdə, demək olar ki, eyni idi. Bununla belə insanlar gələcəyə ümidlə baxırdılar. Hamı inanırdı ki, gələcək bu gündən daha yaxşı olacaq. Və hamı gələcəyin biliklərlə yaradılacağını dərk edirdi. İnsanlar kitaba, elmə, təhsilə böyük maraq göstərirdilər. Ən mühümü isə, insanlar arasında sadəlik, səmimiyyət, qarşılıqlı inam güclü idi. O zaman sovet nomenklaturası yenicə formalaşırdı. Görkəmli ictimai-siyasi xadim Əziz Əliyevin qızı Zərifə xanım yüksək təbəqəyə məxsus alimin övladı olsa da, sadə ailələrdən çıxmış gənclər onun ürəyinə, ruhuna yaxın və doğma idilər. Məmur övladlarının meşşan həyat tərzinə meylini, bayağı maraqlarını, təkəbbürünü əsla bəyənmirdi. Çünki özü heç zaman belə olmamışdı, öz ailələrində belə hallar ona yad idi.

Moskvada Zərifə xanım o dövrün məşhur tibb alimləri ilə tanış oldu. Müharibə tibbin cərrahiyyə sahəsinə böyük təkan vermişdi, müxtəlif uğurlu əməliyyatlar həyata keçirilirdi. Bu, elə göz cərrahiyyəsinə də aid idi. Zərifə xanım da bu inkişaf meyillərini tez bir zamanda mənimsədi.

İki il yaşadığı Moskva mühitində elmi işçi kimi püxtələşməklə bərabər, çoxlu dostlar, elmi tərəfdaşlar tapdı. Onlardan bəziləri ilə müştərək tədqiqatlar apardı, elmi əsərlər yazdı, nəşr edilmiş monoqrafiyalar müəllifi kimi tanındı.

Zərifə xanım 1949-cu ildə Bakıya artıq oftalmologiya sahəsində yüksəkixtisaslı peşəkar kimi qayıtmışdı. O, Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi kimi işə başladı. O, həm müalicə işi ilə məşğul olmağa, həm də elmi tədqiqatlarını davam etdirməyə çalışırdı. Azərbaycanda traxoma virusunun qarşısını almaq və sonra isə onun kökünü kəsmək arzusu ancaq praktika ilə nəzəriyyənin vəhdəti sayəsində mümkün ola bilərdi. Zərifə xanım da öz fəaliyyətində bu vəhdəti təmin etdi. Həkimlik fəaliyyəti ilə yanaşı 1950-ci ildə aspiranturaya daxil oldu. Namizədlik mövzusu traxoma xəstəliyinin və epidemiyalarının müalicəsi və profilaktikası məsələləri idi. Bu, oftalmologiya elmi üçün tamam yeni bir mövzu idi. Ona qədər aparılmış tədqiqatlarda bu xəstəliyin müalicəsi ilə bağlı konkret üsullar təklif edilmirdi. Mövzunu dərindən tədqiq etməkdən ötrü epidemiyanın geniş yayıldığı bölgələrə elmi ekspedisiyalar lazım gəlirdi. Zərifə xanım böyük həvəs və fəallıqla bu ekspedisiyalarda iştirak edirdi. O, həm praktik həkim kimi insanların müalicəsi ilə məşğul olur, onlara traxoma infeksiyasından qorunmaq üçün tibbi məsləhətlər verir, əhali arasında maarifləndirmə işləri aparır, həm də fundamental elmi araşdırmaları üçün zəngin materiallar toplayırdı. Bütün bunlar o qədər də asan iş deyildi. Ekspedisiyada iştirak edən tibb işçiləri narahat çölçülük həyatı yaşayırdılar. Üstəlik, traxomalı insanlarla gündəlik ünsiyyət zamanı bu xəstəliyə yoluxma riski də böyük idi. Bununla belə öyrənmək, araşdırmaq, insanlara, elmə faydalı olmaq əzmi bütün narahatlıqlara, qorxulara üstün gəlirdi.

Zərifə xanım təkcə kollektiv ekspedisiyalarla işini məhdudlaşdırmırdı. Traxomanın geniş yayıldığı uşaq evlərinə, əlillər üçün müəssisələrə, rayonlara, Kürqırağı kəndlərə fərdi qaydada baş çəkir, vəziyyəti yerində öyrənir, müalicənin effektivliyini və gedişini izləməyə çalışırdı. O zaman traxomaya qarşı sintomitsin adlı antibiotikdən istifadə edirdilər. Lakin Azərbaycan arealında bu dərmanın aktivlik və passivlik xüsusiyyətləri öyrənilməmişdi. Bundan ötrü müalicə prosesinin müxtəlif mərhələlərinin diqqətlə izlənilməsi, müalicənin fərdi xüsusiyyətlərinin elmi təsnifi lazım idi. Böyük zəhmət, səbir, iradə tələb edən bu işi məhz Zərifə xanım öz çiyinlərinə götürmüşdü. İllərin gərgin zəhməti, nəhayət, öz bəhrəsini verdi. 1960-cı ildə namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Əsl uğuru alim adı almasından daha çox əldə etdiyi elmi nəticədən sonra şəfa tapan, gözləri həyat işığına açılan insanların böyük bir bəladan qurtuluşu idi.

**O, əsl məktəb formalaşdırdı**

Bu qalibiyyət onu elmdə yeni nəticələrə ruhlandırırdı. 1960-cı ildən Oftalmologiya İnstitutunda baş elmi işçi kimi çalışmağa başladı. 1967-ci ilə qədər burada xüsusilə ən çox yayılmış göz xəstəliklərindən olan qlaukoma ilə bağlı tədqiqatlar apardı. O dövrdə bu xəstəlik böyük bir bəla olaraq insanlarda daha çox qırx yaşından sonra özünü

göstərir, hətta erkən korluqla nəticələnirdi. Zərifə xanımın bu mövzuda araşdırmaları da həkimlərin stolüstü kitabına çevrildi. Bu, həm də Azərbaycan elminin nailiyyəti idi.

1967-ci ildə Zərifə xanım Səhiyyə Nazirliyinin Həkimləri Təkmilləşdirmə İnstitutuna, Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət edildi. O, elmi fəaliyyətini davam etdirməklə bərabər praktik həkimlikdən də kənar düşmür, çoxsaylı cərrahiyyə əməliyyatları həyata keçirir, insanlara şəfa verirdi. Zərifə xanımın bir əsas missiyası da müxtəlif tibb müəssisələrindən gəlmiş həkimlərə, tələbələrə oftalmologiyanın incəlikləri barədə mühazirələr oxumaq, onların tibb sahəsində fərdi inkişafına kömək göstərmək idi. Bu illərdə yüzlərlə xəstə üzərində apardığı uğurlu cərrahiyyə əməliyyatları, işıq bəxş etdiyi insanların peşə mənsubiyyəti onun üçün xüsusilə aktuallaşmışdı. Zərifə xanım görürdü ki, insanların peşə mənsubiyyəti onların göz xəstəliklərinə müəyyən təsirlər göstərir. O zaman Azərbaycanda sənaye sürətlə inkişaf edirdi. İstehsal sahələri genişlənirdi. Xüsusilə kimya sənayesində çalışanlar arasında göz xəstəliklərinin artması müşahidə olunurdu. Ona görə də Zərifə xanım bu mövzunun elmi tədqiqi ilə məşğul olmağa başladı. 1968-ci ildən sonrakı elmi fəaliyyətini sırf professional göz xəstəliklərinə həsr etdi. Zəhmət adamlarının gözlərini qoruyan dərmanlar, effektiv müalicə üsulları yaratmaq məqsədilə o, Bakı və Sumqayıtın zavodlarında eksperimentlər aparır, tez-tez müəssisələrdə olur, xəstələri ilə görüşür, patoloji halları izləyirdi. Görkəmli alim bu istiqamətdə çoxillik araşdırmalarının nəticəsi kimi professional göz xəstəliklərinə həsr olunmuş doktorluq dissertasiyasını 1977-ci ildə dünya oftalmologiyasının əsas mərkəzlərindən olan Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda uğurla müdafiə etdi.

1979-cu ildə Zərifə xanımın təşəbbüsü ilə Elmlər Akademiyasının Ə.Qarayev adına Fiziologiya İnstitutunda Azərbaycanda ilk dəfə professional göz xəstəliklərini öyrənən laboratoriya açıldı və Zərifə xanım onun rəhbəri oldu. Əslində, bu, dünya şöhrətli alimin elmi məktəbi idi.

Amma bu məktəbi Zərifə xanım təkcə həmin laboratoriya ilə məhdudlaşdırmır, gənclərə göstərdiyi həkimlik, alimlik, ən əsası isə, insanlıq örnəyi ilə əsl məktəb formalaşdırırdı. Böyük alimin göz xəstəliklərinin müxtəlif problemləri, həkim etikası, gənc kadrların elmi hazırlığı ilə bağlı qələmə aldığı neçə-neçə kitablar, faydalı vəsaitlər bu gün də tibb sahəsində fəaliyyət göstərən gənc kadrların gələcəyinə işıq salan bələdçidir. O zamanlar Zərifə xanımı yaxından tanıyanlar, onunla çiyin-çiyinə işləmək, təmasda olmaq səadətinə çatanlar bu nəzakətli, alicənab, ölçülü-biçili hərəkətləri, zərif davranışı ilə ürəklərə yol tapmış yüksək mədəniyyət sahibini, sadə, təvazökar, xeyirxah insanı qəlblərdə özünə bir doğmalıq abidəsi yaratmış şəxsiyyət kimi səciyyələndirirlər.

1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi də akademik Zərifə Əliyevanın elmi fəaliyyətinə, kadrların yetişdirilməsi prosesinə verdiyi dəyərli töhfələrə yüksək qiymət idi.

### Günəşdən pay

Zərifə xanım öz unikal fəaliyyəti ilə sanki insanlara günəşdən nur paylayırdı. Elmdən doğulan, zəhmətdən gələn bir ziya bəxş edirdi.

Onunla bərabər çalışmış həmkarları, həkimlər, adi insan kimi ünsiyyətdə olmuş hər kəs Zərifə xanımı işıq abidəsi, nur heykəli kimi xatırlayırlar. O, görkəmli alim, əlləri "qızıl" şəfalı həkim, nəcib, xeyirxah, həssas, qənimət insan idi. Zərifə xanım bütün bunlarla bərabər Azərbaycan qadınına xas ən gözəl keyfiyyətləri öz varlığında bir araya gətirmiş şəxsiyyət kimi ucalmış, örnəyə çevrilmiş nəciblik, nur, işıq mücəssəməsi, əsl ana, ləyaqətli ömür-gün yoldaşı idi.

Ulu Öndər Heydər Əliyev xatirələrində hər zaman Zərifə xanım kimi həyat yoldaşının olması ilə özünü xoşbəxt sandığını deyirdi. Bildirirdi ki, Zərifə xanım onun üçün sadəcə ömür-gün yoldaşı deyildi. "O, mənə dost, dayaq idi. İşimin çətin olduğu bütün dövrlərdə ailəm haqqında çox rahat düşünürdüm. Çünki mənim Zərifə Əliyeva kimi sədaqətli, cəfakeş, fədakar ana olan ömür-gün yoldaşım var idi". Bəli, Zərifə xanım Azərbaycan xalqının yetirdiyi ən böyük dövlət adamına, müasir Azərbaycan dövlətinin memarı və qurucusuna, bütün həyatını xalqına həsr etmiş Liderə xoşbəxtlik və dəyanət bəxş etmiş, onun həyatında əsl dayağa çevrilmiş Azərbaycan qadınıdır. Vətən uğrunda gördüyü ali işlərdə ona hər zaman mənəvi dəstək olmuş ən yaxın silahdaş idi. Zərifə xanım Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kimi dərin dühalı, müdrik dövlət xadimini yetirmiş, ona Azərbaycan sevgisindən, yüksək ali dəyərlərdən, ağıl və zəkadan, qətiyyət və cəsarətdən pay vermiş, yoluna işıq tutmuşdur. Ocağına gur çırağını yandırmağa qadir ləyaqətli bir Azərbaycan gözəli gətirməklə də bu xalqa dəyərə gəlməyən mənəvi, etibarlı xəzinə qoyub getmişdir, xariqə yaratmışdır.

Təbiətin amansız hökmü ilə fədakar ömür əfsus ki, çox tez - 1985-ci ilin 15 aprelində başa çatdı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bu itkinin acısını müsahibələrinin birində belə bölüşürdü: "Təəssüf ki, mənim Zərifə xanımla ünsiyyətim qısa oldu. Biz 1983-cü ildə tanış olduq, 1985-ci ildə Zərifə Əliyeva həyatdan getdi. Bu istedadlı və gözəl qadınla bağlı xatirələr hələ də mənim qəlbimdə yaşayır".

Bu xatirələrdə həm də Zərifə xanımın arzuları, idealları, amalları yaşayır. Prezident İlham Əliyevin, Mehriban xanım Əliyevanın, onların övladlarının bu gün Azərbaycan və ümumən bəşəriyyət üçün gördükləri nəcib işlər bu arzuları, idealları, amalları reallığa çevirir.

Zaman keçəcək, amma akademik Zərifə Əliyevanın əbədiyyət ömrü gələcək nəsillərin nurlu əməllərinə çevriləcək, yüksəliş yolları ilə irəliləyənlərin başı üstündə günəş kimi yanacaq.

**Azərbaycan.** - 2020.- 28 aprel. - № 81. - S. 5.

**Yüksək əqidə paklığının MÜCƏSSƏMƏSİ**

**Əli NƏCƏFXANLI**

**Hər bir ölkəni, milləti tanıdan əbədiyyət üfüqlərindən boy göstərən böyük şəxsiyyətlərdir. Onların ibrətamiz həyatı, işıqlı amalları daim tariximizə nur saçır, milli-mənəvi xarakteristikamızı şərəfləndirir. Belə əbədiyaşar şəxsiyyətlərdən biri də zəmanəsinin görkəmli oftalmoloq-alimi, akademik Zərifə Əziz qızı Əliyevadır.**

Ulu öndər Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, fəal ictimai xadim kimi ürəklərdə yaşayan Zərifə xanım Əliyevanın anım günləri onun ruhuna böyük ehtiramla qeyd edilir. Hər dəfə Bakıda onun adını daşıyan istirahət parkında olarkən böyük məhəbbətlə ucaldılmış abidəsinin qarşısında durub ölməz xatirəsinə baş əyirik. Ümummilli liderin abidə ilə kövrək, səssiz həsb-halını əks etdirən həzin musiqili videokadrları yada salırıq. Veteran sənayeçilər Zərifə xanımın tez-tez Sumqayıt şəhərinə, buradakı Peşə Xəstəlikləri İnstitutuna gəldiyini, o zamanlar ekoloji problemləri əskik olmayan kimya müəssisələrinin fəhlələrini müayinədən keçirdiyini, onların sağlamlıqları üçün necə yorulmaz səylər göstərdiyini, habelə sexlərdə laboratoriya şəraitində elmi təcrübələr apardığını yaxşı xatırlayırlar. Beləcə, həkim peşəsini vicdanla yerinə yetirmiş, xəstəliklərin qarşısının alınmasında fədakar səylər göstərmiş, daim öz həmvətənlərinin qayğısına qalmış humanist insanın işıqlı obrazı gözlər önündə canlanır.

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Öz dövrünün qabaqcıl düşüncəli insanlarının, cəmiyyətə təmənnasız xidmət etmiş şəxsiyyətlərin ailəsində böyüyüb, tərbiyə alıb. Bu mühit onu da əsl tarixi şəxsiyyət kimi formalaşdırıb. Atası – Azərbaycanın tanınmış ictimai-siyasi və dövlət xadimi Əziz Əliyev ixtisasca həkim idi. Çalışdığı bütün vəzifələrdə daim xalqımıza, dövlətimizə ləyaqətlə xidmət göstərib və həyat yoldaşı Leyla xanımla birgə ailə ocağında yüksək insani keyfiyyətlərə malik övladlar böyüdərək tərbiyə edib. Akademik Mustafa bəy Topçubaşov onu "cəmiyyəti müalicə edən həkim" kimi xarakterizə etmişdir.

Zərifə xanım məhz atasının sayəsində uşaqlıqdan tibb sahəsinə könül verib. Onun yeniyetməlik və gənclik çağları İkinci Dünya müharibəsinə təsadüf edib. Oxuduğu orta məktəbdə dərsləri bitəndən sonra hər gün şagird rəfiqələri ilə birgə yaxınlıqdakı hərbi hospitala gedir, həkimlərə, tibb bacılarına kömək etməyə çalışır, yaralı hərbçilərə öz ailələrinə məktub yazmaqda kömək göstərirdi. Elə o vaxtdan qayğıya, diqqətə ehtiyacı olanlara pasibanlıq etmək onun ömür amalına çevrilib. 1942-ci ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub. Özünün dərin zəkası, dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə müəllimlərinin və tələbə yoldaşlarının dərin rəğbətini qazanıb. İnstitutda təşkil olunan tələbə elmi toplantılarında məruzələrlə çıxışlar edən gələcək həkim cəsarətli fikirlər irəli sürür, sərbəst mülahizələr yürüdür, dəyərli nəticələr çıxararaq, tanınmış alimlərlə fikir mübadiləsi aparırdı.

Zərifə Əliyeva oftalmoloq ixtisasına yiyələnmişdir. Ötən əsrin ortalarında dünyada traxoma xəstəliyi geniş yayılmışdı, 400 milyona qədər insan bu infeksion xəstəlikdən əziyyət çəkirdi və onların bir qismi fiziki korluğa düçar olmuşdu. Elmin oftalmologiya sahəsi isə o qədər də inkişaf etməmişdi, ixtisaslı kadrlar çatışmırdı. Buna görə də Zərifə xanım görmə orqanlarını sıradan çıxaran bu xəstəliyə qarşı mübarizə aparmağı qərara almışdı. İnsanların dünyada ən böyük nemət olan işığa həsrət qalması ilə barışmaq istəmirdi, onların xilası naminə əlindən gələni edirdi və ömrünün sonuna qədər bu əqidədə qaldı.

Zərifə xanım Əliyevanın üstünlüyü onun biliyi, təcrübəsi, əli yüngül olan bir həkim kimi şəfa vermək bacarığı onun əsl insani keyfiyyətləri ilə daha da dolğunlaşaraq, böyük azərbaycanlı qadın alimin ideal obrazını yaradıb. Müharibədən sonra da Azərbaycanda regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən, gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin səmərəli müalicə üsullarını və profilaktika tədbirlərini işləyib hazırlamaq istiqamətində Zərifə xanım Əliyevanın fəaliyyəti danılmazdır. Onun effektiv mübarizə üsulları təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm önəm daşıyır.

Gənc həkim Azərbaycan Tibb İnstitutunda təhsilini başa vurandan sonra iki il Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçib. Vətənə qayıdınca Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayıb. 1950-ci ildə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlar aparıb. Bu sahədə çalışmalarının ilk mərhələsini məhz traxoma xəstəliyinin müalicəsinə həsr edib. Eyni zamanda, digər göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olub. Konkret müalicə təcrübəsindən əlavə, tez-tez rayonlara gedib, həkim-oftalmoloqlara məruzələr oxuyub, əhali arasında geniş maarifləndirmə işləri aparıb. Bütün bunlara ciddi tələbat olduğuna görə Zərifə xanım elmi axtarışlarını əzmlə davam etdirib. "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi alıb. Böyük alimlər bu gün də etiraf edirlər ki, Zərifə xanım traxomanın müalicəsində o dövrün güclü antibiotiklərindən hesab edilən "Sintomisin"dən isifadə etməklə, yeni üsul tətbiq etmiş, uğurlu nəticələrə nail olmuşdur.

Altmışıncı illərdə Zərifə xanım bir müddət Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışıb. Göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparıb, elmi tədqiqatları üzərində çalışıb. Xüsusilə qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı mühüm elmi nəticələr əldə edib. Sonra Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının dosenti olub. Eyni zamanda, ona qədər çox az tədqiq olunmuş bir mövzunu – görmə orqanının patologiyası məsələlərini araşdırıb. Görkəmli alim gözün peşə xəstəliyi problemləri ilə ömrü boyu məşğul olub. Neft-kimya zavodlarında, yod-sənaye müəssisələrində çalışan şəxslərin görmə orqanına təsir edən amillərə xüsusi diqqət yetirib.

Bu illərdə Zərifə Əliyeva praktik həkimlik fəaliyyətini də unutmayaraq, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələri qəbul edirdi. İllərcə diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlayaraq həyata keçirirdi. Əldə etdiyi nəticələr də həmişə sanballı olurdu.

Görkəmli alim çoxillik elmi araşdırmalarının nəticəsi olaraq, kimya sənayesi işçilərinin göz xəstəliklərinin tədqiqini ümumiləşdirən, ciddi elmi nəticələr doğuran “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” adlı doktorluq dissertasiyasını 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla müdafiə edib. O, tədqiqatı zamanı şin və yod istehsalı sahəsində çalışan 1500-dən çox insan üzərində müşahidələr aparıb, spesifik iş şəraitinin, sanitar-gigiyenik durumun görmə orqanına mənfi təsirini elmi dəlillərlə sübuta yetirib. Dissertasiya işi ünlü alim-oftalmoloqların yüksək qiymətini almış, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilmişdir.

Zərifə Əliyevanın pedaqoji fəaliyyəti geniş olmuşdur. 1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda dosent kimi fəaliyyətə başlamış, çox keçmədən professor, daha sonra kafedra müdiri vəzifəsində çalışmışdır. Onun təşəbbüsü ilə 1977-ci ildə Bakıda böyük uğurla Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü bəyənmiş və iki il sonra AEA-nın Fiziologiya İnstitutunda həmin laboratoriya təşkil edilmişdir. Laboratoriyanın tədqiqat bazası Bakı Məişət Kondisionerləri zavodu idi. Burada elmi tədqiqatlarla yanaşı, müalicə işləri də aparılırdı. Zərifə xanım özünün kəşf etdiyi görmə aparatı vasitəsilə kompleks diaqnostika və erkən cərrahi müalicə üsullarını uğurla tətbiq edirdi.

“Kəskin virus konyunktivitləri”, “Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar”, “Qlaukoma və gözün hipertenziyası”, “Görmə orqanının zədələnməsi”, “Göz yaşı axmasının fiziologiya və histologiyası”, “Şəkərli diabetdə göz xəstəlikləri”, “Gözün mikrocərrahiyyəsi”, “Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası” və digər əsərləri Zərifə xanımın tibb elminə sanballı töhfələridir.

Alim göz yaşı aparatı xəstəliklərinin öyrənilməsinə də xüsusi diqqət yetirmiş, bu mövzuya həsr etdiyi “Yaşaparıcı yolların fiziologiyası”, “Yaşaparıcı yolların cərrahi müalicəsi”, “Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları” və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının banisinə çevrilmişdir. Tibb elminin nadir sahələrindən olan iridodiaqnostika və iridoterapiya problemlərinə həsr etdiyi “İridodiaqnostikanın əsasları” və “İridodiaqnostika” adlı monoqrafiyaları da qeyd etmək lazımdır. Fərəhli haldır ki, iridodiaqnostikaya dair ilk kitabları məhz akademik Zərifə Əliyeva yazmışdır. Alim müasir dövrdə də həkimlərin əl-əl gəzdirdiyi “Terapevtik oftalmologiya” əsərinin və “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasın müəlliflərindən biridir.

Zəhməti, zəkası daim bəhrə verən Zərifə xanım Əliyeva 1980-ci ildə “Əməkdar elm xadimi” fəxri adına, 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına Mükafatına layiq görülmüşdür. O, Sovet İttifaqında belə yüksək mükafata layiq görülən ilk qadın alim idi. 1983-cü ildə görkəmli alim Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Zərifə xanım, həmçinin Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, “Vestnik oftalmoloqu” (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Bütün bu elmi-pedaqoji və tibbi uğurları ilə yanaşı, Zərifə xanım zərif qadın, qayğıkeş ana, mehriban ömür-gün yoldaşı kimi də qürurla anılır. Vətənimiz üçün iki layiqli övlad tərbiyələndirmişdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı olaraq dünyada şöhrət qazanmış İlham Əliyev həyat və fəaliyyətindəki möhtəşəm uğurlarına görə özünü ilk növbədə atası Heydər Əliyevin və anası Zərifə xanım Əliyevanın ruhuna borclu sayır.

...Akademik Zərifə xanım Əliyeva günəşli bir aprel günündə dünyaya gəlmişdi. Elə günəşli bir aprel günündə də budünyadan köç etdi. Bəlkə də buna görədir ki, hər dəfə onu xatırlayanda üzümüzə Günəş təbəssümü qonur. Yüksək əqidəsi, duyğulu həkim ürəyinin və fikirlərinin paklığı düşüncələrimizə hakim kəsilir.

**Xalq qəzeti.** - 2022.- 16 aprel. - № 78. - S. 5.

# Zərifə Əliyeva tarixə yalnız istedadlı alim, elm təşkilatçısı deyil, eyni zamanda gözəl pedaqoq kimi daxil olub

**Ədalət Fərəcov,**
YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən biri,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor

**Zərifə xanım istedadlı alim, görkəmli ictimai və dövlət xadimi, Azərbaycanda səhiyyənin qurucusu Əziz Əliyevin ailəsində 1923-cü il 28 apreldə Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açmışdır. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısında məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb Universitetinin müalicə profilaktikası fakültəsinə daxil olur və 1947-ci ildə institutu əla qiymətlərlə bitirəndən sonra 1947-1949-cu illərdə Moskva şəhərində Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisasartırma kursunda həkim-oftalmoloq kimi fəaliyyət göstərir.**

1950-1953-cü illərdə aspiranturada təhsil almış və Azərbaycan Oftalmologiya institutunda o vaxtlar Azərbaycanda insanlar arasında geniş yayılmış görmə orqanının ən qorxulu xəstəliklərindən olan traxoma infeksion xəstəliyinin müalicəsi istiqamətində uğurlu elmi-tədqiqat işləri aparmışdır. Traxoma xəstəliyi görmə qabiliyyətinin zəifləməsi və hətta tam kor olma kimi ağır fəsadlarla nəticələnir. Zərifə xanımın traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı yeni olan antibiotiklərin tətbiqindən səmərəli istifadə etməyi bacarmış və apardığı tədqiqat işlərinin nəticələrini ümumiləşdirib, 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsi" mövzusunda nəzəri və praktik dəyərinə görə mühüm əhəmiyyət kəsb edən namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Deyilənlərlə əlaqədar olaraq qeyd etmək lazımdır ki, traxoma xəstəliyinin kompleks effektli müalicəsi və Azərbaycanda bu xəstəliyin ləğv edilməsi sahəsindəki xidmət bilavasitə Zərifə xanım Əliyevanın adı ilə bağlıdır.

Keçən əsrin 60-cı illərində Zərifə xanım keçmiş Sovetlər İttifaqında ilk həkim oftalmoloqlardan olmuşdur ki, görmə orqanının peşə patologoyasının öyrənilməsi istiqamətində geniş tədqiqat işi aparmışdır. Elmi-tədqiqatda mənimsənilən yenilikləri praktik oftalmologiyaya tətbiq etməyi müstəsna məharətlə bacarmışdır. Bu vaxtdan başlayaraq Zərifə xanım Azərbaycanın bəzi kimya sənayesində işçilərin görmə orqanının vəziyyətinə zəhərli kimyəvi maddələrin zərərli təsirini öyrənmişdir. Aşağı konsentrasiyalı stirol, tetraxloretilen buxarının, pestişitlərin və başqa peşə istehsalat faktorlarının orqanizmə təsiri nəticəsində görmə orqanının morfologiyasında və funksiyasında yaranan dəyişimələrin səviyyəsinə aid tədqiqat materialları 30-dan artıq elmi iş şəklində ən nüfuzlu jurnallarda çap olunmuşdur.

Zərifə xanım heç vaxt qazandığı uğurlarla kifayətlənməyib, apardığı tədqiqatın mövzusunu daha da zənginləşdirmiş və dünya praktikasında ilk dəfə olaraq aşağı konsentrasiyalı faktorların görmə orqanına erkən xroniki təsirini aşkar etmişdir. Zərifə xanım apardığı fundamental tədqiqat işlərinin nəticələrinə əsasən "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyanı ümumiləşdirmiş və müdafiəyə təqdim etmişdir. O, 1976-cı ildə Moskvada Helmhols adına Elmi - tədqiqat göz xəstəlikləri İnstitutunda Tibb elmləri doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Zərifə xanımın və onun rəhbərliyi altında çalışan elmi oftalmologiya məktəbinin əməkdaşları bütün hallarda kliniki - eksperimental istiqamətdə fəaliyyət göstərmişdir. Zərifə xanım həmişə görmə orqanının peşə patologiyası ilə əlaqəli aparılan elmi-tədqiqat işlərində müvəffəqiyyət qazanmaq üçün xəstəni və onun fəaliyyətinin fiziki metodların vasitəsilə öyrənmək azdır qənaətində olunmuş və eyni zamanda xəstənin orqanizminin fizioloji vəziyyətini, biokimyəvi göstəricilərini, metabolizm proseslərinin də, ətraf mühitlə əlaqəli şəkildə öyrənilməsinə müstəsna əhəmiyyət vermişdir. Bu xüsusiyyətlər onun oftalmologiya sahəsində digər görkəmli mütəxəssislərlə olan elmi əməkdaşlıq yaradıcılığında da özünü daha yüksək səviyyədə göstərmişdir. Zərifə xanımın Rusiya Təhsil sonrası Akademiyasının "Oftalmologiya" kafedrasının müdiri, professor L.K.Moşetova, Rusiya İridologiya Assosiasiyasının vitse-prezidenti professor N.B.Şulpina və digər görkəmli oftalmoloq mütəxəssisləri ilə olan elmi əməkdaşlıq münasibətləri daha məhsuldar olmuşdur. 1977-ci ildə Zərifə xanımın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyətinin Plenumunun Bakıda keçirilməsinin alim oftalmoloqların elmi yaradıcılıq münasibətlərinin formalaşmasında, həmçinin də elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna əhəmiyyəti olmuşdur.

Professor Zərifə Əliyeva elmi-tədqiqat fəaliyyəti ilə yanaşı, daha effektli elmi-pedaqoji işlərin təşkilinə müstəsna əhəmiyyət vermişdir. Belə ki, 1979-cu ildə Zərifə xanımın müəllifliyi ilə "Gözün herpetik xəstəliyi" və "Kəskin viruslu konyuktivit" dərs vəsaitləri çap olunmuşdur. 1980-ci ildə professor Zərifə Əliyevanın üç monoqrafiyası çap olunmuşdur: "Şin istehsalında gözün peşə patologoyasının", "Görmə sisteminin anatomik - fizioloji hidrodinamikasının xüsusiyyətləri" (professor N.B.Şulpina ilə birlikdə), həmçinin də 1981-ci ildə "Xroniki yod intoksikasiyasının oftalmologiyası". Elmi-pedaqoji və elmi kadrlar hazırlanması sahəsindəki xidmətlərinə görə 1980-ci ildə Zərifə Əliyevaya Azərbaycanın Əməkdar elm xadimi adı verilmişdir. 1981-ci ildə istehsalat faktorlarının görmə analizatorunun morfoloji və funksional vəziyyətinə zədələyici təsirinin öyrənilməsi, onların profilaktikası, erkən diaqnostikasının və müalicəsinin icrası sahəsində apardığı fundamental elmi-tədqiqat işlərinin nəticələrinə və çap olunan əsərlərinə görə professor Zərifə Əliyeva M.İ.Averbax adına SSRİ Tibb

Elmləri Akademiyasının mükafatına layiq bilinmişdir. Elmi xidmətlərinin nəzəri və praktik dəyərini yüksək qiymətləndirərək 1983-cü ildə tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Zərifə Əliyeva Azərbaycan Elmlər Akademiyasının Həqiqi üzvü seçilmişdir.

Zərifə Əliyeva dünya tibb elmində aparıcı alimlərdən biri kimi tanınmış və yüksək hörmət qazanmışdır. Akademik Zərifə Əliyeva mühüm ictimai işlər aparmış: Ümumi İttifaq oftalmologiya cəmiyyəti İdarə Heyətinin və Ümumittifaq "Bilik" cəmiyyəti İdarə Heyətinin, həmçinin də keçmiş Sovetlər İttifaqında Sülhü müdafiə komitəsinin üzvü və Azərbaycanda Sülhü müdafiə komitəsi sədrinin müavini olmuşdur.

Akademik Zərifə Əliyeva elmi uğurlarına, elmi pedaqoji və dövlət səviyyəli təşkilatı qurumlarda aktiv iştirakına görə orden və medallarla təltif olunmuşdur.

Zərifə Əliyeva tarixə yalnız istedadlı alim, klinist və elm təşkilatçısı deyil, eyni zamanda gözəl pedaqoq və tərbiyəçi alim kimi də  daxil olmuşdur. O, Azərbaycanda ən aparıcı oftalmologiya elmi məktəbini yaratmışdır. Onun rəhbərliyi altında yüzlərlə həkim oftalmologiya elminin sirlərinə yiyələnmiş və çox sayda insanların sağlamlığını bərpa etmiş və onları faydalı əməyə qaytarmışlar.

Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları  çoxdur. Ancaq bu adlar sırasında ən ucası və daha şərəflisi Ana adıdır. Zərifə xanım ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyevin anasıdır. Zərifə xanım az yaşadı. O, özünün yüksək istedadı, həyat enerjisi sayəsində gələcəkdə daha çox elmi yeniliklər görə bilərdi. Zərifə xanım Əliyeva 1985-ci il aprelin 15-i Moskva şəhərində əbədiyyata qovuşub. Zərifə xanım Əliyevanın dəyərli və praktik elmi irsi 14 monoqrafiyada, 150-dən artıq fundamental məqalədə Moskvada, Bakıda və xarici ölkələrdə çap olunub. Görkəmli alim - oftalmoloqun elmi irsi bütün tarixi dövrlərdə gənc alimlər üçün fədakarlıq nümunəsi elmə, xalqına və vətənə xidmətin yüksək meyarı olaraq öz aktuallığını saxlaya biləcəkdir.

Zərifə xanımı yaxından tanıyan elm və mədəniyyət xadimləri, həkim-kolleqləri onun xidmətlərini həmişə yüksək qiymətləndirmişlər. Məsələn, dünya şöhrətli oftaloq alimlıər – Rusiya Tibb Elmlər Akademiyasının akademiki A.P.Nesterov, professor L.K.Moşatova, professor N.B.Şulpina, akademik M.Cavadzadə, professorlar Z.Quliyeva, Q.Nəsrullayeva, M.Sultanov və b. Azərbaycan elmi - ictimaiyyəti akademik Zərifə xanım Əliyevanın xatirəsini uca tutur və fəaliyyətini yüksək qiymətləndirir. Akademik Zərifə Əliyevanın adı liseylər, kolleclər və Universitetlər üçün yazılan müvafiq dərsliklərə və tərtib olunan fənn proqramlarına daxil edilmişdir.

Fəxri xiyabanda məzarı üstündə tuncdan heykəli ucaldılmışdır. Bakıda Göz xəstəlikləri institutu, Naxçıvan şəhər poliklinikası onun adını daşıyır. Bakının Binəqədi rayonunun ərazisində Zərifə xanımın adına park salınmışdır. Bakı və Naxçıvanda Zərifə Əliyevanın adını daşıyan küçə var. Bakı şəhəri Yasamal rayon ərazisində akademik Zərifə Əliyevanın adını daşıyan Lisey fəaliyyət göstərir.

**İki sahil.** - 2022.- 16 aprel. - № 66. - S. 7.

# Nurlu şəxsiyyət

**İradə Əliyeva**
**Azərbaycan.** - 2023.- 3 fevral. - № 24. - S. 10.

**Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin elmi irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Bu il aprelin 28-də akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu əlamətdar tarixlə bağlı ötən il noyabrın 3-də "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.**

Sərəncamda akademikin zəngin mənəvi irsinə layiqli qiymət verilib. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərlərinə, elmi təşəbbüslərinə, pedaqoji fəaliyyətinə, respublikamızda yüksəkixtisaslı kadrların hazırlanmasındakı xidmətlərinə xüsusi diqqət yönəlib.

Zərifə Əliyevanın fəaliyyəti geniş və zəngindir. Xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hamının hörmət və məhəbbətini qazanmış bu insan ilk növbədə əsl ziyalı, işıqlı, nurlu şəxsiyyət idi. Sözün həqiqi mənasında bu böyük ziyalının insanlara bəxş etdiyi nur mənəvi paklığından, intellektinin kamilliyindən, şəxsiyyət ucalığından və bütövlüyündən qidalanmışdır.

## 100 illik ömür tarixi

Aradan ötən bu 100 il mənalı həyat yolu, peşə fəaliyyəti və elmi yaradıcılığı ilə mənəviyyat, kamillik, müdriklik örnəyinə çevrilmiş nurlu bir şəxsiyyətin ömür tarixidir. Belə şəxsiyyətlərimizin xatirəsini yaşatmaq, onların ömür salnaməsini yeni nəsillərə tanıtmaq çox əhəmiyyətlidir. Çünki belə insanlar nəsillərə örnəkdirlər. Onların da bu insanlardan öyrənəcəyi çox dəyərlər var. Hər bir insanın dünyaya gəldiyi zaman məkan, böyüdüyü ailə mühiti onun gələcəyində mühüm rol oynayır. Zərifə xanım Əliyeva da bu baxımdan istisna deyil.

Böyük alim 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, zəmanəsinin görkəmli ictimai-siyasi, dövlət xadimlərindən olan Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Bu ailədəki səmimiyyət, dəyərlərə yüksək ehtiram belə bir mühitdə böyüyən övladlar üçün böyük bir məktəb idi. Onlar vətəndaşlıq ruhunun daşıyıcısı olan atalarının, Azərbaycan qadını adının bütün gözəl cəhətlərini şəxsiyyətində cəmləşdirmiş anaları Leyla xanımın tərbiyəsini alırdılar.

Əziz Əliyevin evi həm də mənəviyyat məbədi idi. Onun dostluq etdiyi böyük şəxsiyyətlər, zəmanəsinin görkəmli elm, mədəniyyət, incəsənət xadimləri tez-tez bu evdə qonaq olar, dövrün mədəni inkişaf proseslərini müəyyən edən müzakirələr aparar, ali ziyalılıq dəyərlərini paylaşar, bu sağlam düşüncə mühitindən Əziz Əliyevin ailə ocağında böyüyən uşaqların da hafizələrinə işıq düşərdi.

## Göz həkimi

Zərifə xanım orta məktəbin sonuncu siniflərində oxuyarkən artıq həkimliyi seçmişdi. İkinci Dünya müharibəsinin ən qaynar vaxtları idi. Bakıdakı bir çox binanı hospitala çevirmişdilər. Bu hospitallarda cəbhə bölgəsindən gətirilmiş yaralılar müalicə olunurdu. Zərifə Əliyeva dərsdən sonra digər məktəb yoldaşları ilə evlərinin yaxınlığındakı hospitala gedər, tibbi heyətə kömək göstərməyə çalışar, yaralı hərbçilərin adından ailələrinə məktublar yazardı.

O dövrdən düşüncələrində həkimlik haqqında aydın münasibət formalaşmış, insanların həyatını xilas edən bu sənət gənc qız üçün dünyanın ən müqəddəs peşəsinə çevrilmişdi. Zərifə xanım 1942-ci ildə orta məktəbi müvəffəqiyyətlə tamamlayıb Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinin tələbəsi oldu. Fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə elə ali təhsilin ilk illərindən institutun nümunəvi tələbələrindən biri kimi tanındı. Onun maraq dairəsi təbabət elminin hüdudlarını aşırdı. Tibb elmi qədər ədəbiyyata, fəlsəfəyə, musiqiyə və başqa sahələrə də sevgisi böyük idi. Bu maraq Əziz Əliyevin ailə mühitindən gəlirdi.

İnstitutda ixtisas seçimi zamanı Zərifə Əliyeva göz həkimliyini seçdi. Bu da o dövrdə traxoma xəstəliyinin bütün dünyada və Azərbaycanda tüğyan etməsindən irəli gəlirdi. Ümumdünya Səhiyyə Təşkilatının ötən əsrin 40-cı illərinin sonlarına dair hesabatına görə, həmin dövrdə bütün dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuşdu və effektiv müalicə üsulları olmadığından onlardan 80 milyonu dünya işığına həsrət

qalmışdı. Azərbaycanın çoxlu sayda göl və bataqlıqlar olan bölgələrində, o cümlədən aran zonalarında bu xəstəlik daha geniş yayılmışdı. Tibb elmi bu xəstəliklə mübarizə üçün bütün gücünü səfərbərliyə alır, traxomaya qarşı effektv vasitələrin tapılması məqsədilə tədqiqatlar genişlənirdi. Zərifə Əliyeva da insanlara maksimum faydalı olmağa çalışırdı. Ona görə də özünü oftalmologiya sahəsində sınamağa qərar vermişdi.

**Onun elmi araşdırmalarının mövzusunu həyat özü diktə edirdi**

Zərifə xanım 1947-ci ildə Azərbaycan Tibb Universitetini müvəffəqiyyətlə başa vurandan sonra müvafiq ixtisas üzrə bilik və bacarıqlarını təkmilləşdirmək üçün həmin illərdə bu istiqamətdə elmi araşdırmaların mərkəzləşdiyi Moskvaya yollandı. Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçdi. Buradakı ikiillik kurs onun həkimlik və alimlik taleyində çox böyük rol oynadı. 1949-cu ildə ixtisasartırma kursunu uğurla başa vurub, peşəkar imkanlarını təkmilləşdirib Azərbaycana qayıtdı. 1949-cu ildən Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başladı. 1950-ci ildə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlara da başladı. O, müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olur, traxoma xəstəliyinin müalicəsinə isə xüsusi diqqət ayırırdı.

Gənc alim həkim həmkarları ilə birgə traxomanın geniş yayıldığı bölgələrə gedir, xəstələrin müalicəsi ilə məşğul olur, bu xəstəlikdən qorunmaq üçün əhali arasında maarifləndirmə işləri aparırdı. Tədqiqatçı traxoma ilə effektiv mübarizə üçün kompleks tədbirlər planı da hazırlamışdı. Bu plan xəstəliyin diaqnostikası, müalicəsi və profilaktika üsullarının tətbiqini əhatə edirdi. Gənc alim elmi tədqiqatlarını davam etdirir, traxoma bəlasını aradan qaldırmaq üçün təsirli həllər axtarırdı. Zərifə Əliyeva traxomanın müalicəsində o illərin ən güclü antibiotiklərindən sayılan "Sintomisin"dən isifadə etməklə mühüm bir yeniliyə imza atır, bununla minlərlə insanın gözünün nurunu qorumuş olur. O, əldə etdiyi elmi nəticələri 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasında ümumiləşdirib uğurla müdafiə edir. Bu elmi nailiyyətinə görə tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülür. Beləliklə, Zərifə xanımın təklif etdiyi müalicə metodunun bütün ölkə ərazisində geniş tətbiqinə başlanılır. Tibb elminin ondan sonrakı illərdə bu xəstəliyi, demək olar ki, tam məğlub edə bilməsində Zərifə Əliyevanın böyük xidmətləri var.

**İnsanlara işıq verən böyük alim**

1960-1967-ci illərdə Zərifə Əliyeva Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır, cərrahiyyə əməliyyatları aparır, xəstələrin müalicə və müayinəsi ilə məşğul olurdu. Eyni zamanda elmi fəaliyyətini də davam etdirir, göz xəstəlikləri sırasında xüsusi yer tutan qlaukoma xəstəliyinə qarşı effektiv həllər üzərində çalışır, tapıntılarını elmi nəşrlərdə dərc etdirirdi. Zərifə xanımın əsas fəaliyyət istiqamətlərindən biri də müxtəlif tibb müəssisələrindən təkmilləşdirmə kurslarına cəlb olunmuş dinləyici həkimlərlə pedaqoji işin aparılması idi. O, kursların fəaliyyətində yaxından iştirak edir, öz bilik və bacarıqlarını gənc həmkarlarına ötürürdü.

Zərifə xanımın 1967-ci ildən sonrakı fəaliyyəti daha çox Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrası ilə bağlıdır. Həmin il o, bu kafedranın dosenti oldu. Sonrakı dövrlərdə isə professor kafedra müdiri vəzifəsində çalışdı. 1968-ci ildən görmə orqanının patologiyası məsələləri ilə məşğul olmağa başladı. Bu mövzu o dövrdə çox az tədqiq olunmuşdu. Ümumiyyətlə, Zərifə xanımın elmi araşdırmalarına diqqət yönəltdikdə onun az araşdırılmış sahələrə daha çox maraq göstərdiyini, bu sahələrdə Zərifə Əliyevanın elmi ardıcıllarına yol açdığını görürük. Onun məşğul olduğu elmi problemləri yerində tədqiq etməsi, yalnız nəzəri məlumatlarla kifayətlənmədən bilavasitə yerlərdən özünün faktlar toplaması, təcrübələr aparması, real fakt materialları üzərində çalışması bu görkəmli alimin fəaliyyətinin diqqətçəkən məqamlarındandır. Bu da Zərifə xanımın alim kimi fədakarlığından, elmi tədqiqatlara məsuliyyətlə yanaşmasından, insanlara real fayda vermək istəyindən irəli gəlirdi.

O, elmi tədqiqat prosesində ölkənin əsas sənaye şəhərləri Bakı və Sumqayıtın bir sıra müəssisələrinə gedir, burada çalışan əməkdaşların gözlərini müalicə edir, laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Zərifə xanım genişmiqyaslı klinik və təcrübi tədqiqatları nəticəsində zərərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxarmış, beləliklə, gələcəkdə on minlərlə insanın peşəsi ilə bağlı göz xəstəliklərinə tutulması riskinin qarşısını ala bilən həllər təqdim etmişdi. "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasını o, 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır. Bu doktorluq dissertasiyası öz dövrünə görə və sonrakı zamanlarda da həmin mövzuda fundamental tədqiqat işlərindəndir.

**"Yüksək etimad"**

Zərifə xanım bacarıqlı elm təşkilatçısı kimi də nümunə yaradırdı. 1977-ci ildə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu məhz Zərifə xanım Əliyevanın təklifi və təşkilatçılığı ilə keçirilmişdi. Plenum uğurla baş tutmuş, Azərbaycanın evsahibliyi etdiyi tədbir ümumən ittifaq misqyasında müsbət mənada böyük əks-səda yaratmışdı. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda milli oftalmologiya məktəbimizin ilk tədqiqat mərkəzi kimi göz xəstəlikləri ilə bağlı xüsusi laboratoriyanın yaradılması, Bakı Məişət Kondisionerləri Zavodunda bu laboratoriyanın tədqiqat bazasının formalaşdırılması da Zərifə xanımın həmin plenumda irəli sürdüyü təklif əsasında mümkün olmuşdu. Bu laboratoriyada həm elmi tədqiqat işləri aparılır, həm də göz xəstəliklərinin müalicəsi ilə məşğul olurdular. Akademikin kəşf etdiyi görmə aparatı da göz xəstəliklərinin kompleks diaqnostikası və erkən cərrahi müalicə üsullarının tətbiqinə geniş imkanlar yaradırdı. Onun "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərləri, müəllifi olduğu 12 monoqrafiyası, hazırladığı dərslik və dərs vəsaitləri, 150-yə yaxın elmi işi, 1 ixtira və 12 səmərələşdirici təklifi dünya tibb elminə sanballı töhfələrdir.

Zərifə xanım Əliyeva elmi xidmətlərinə və pedaqoji kadrların hazırlanmasındakı fəaliyyətinə görə 1980-ci ildə Əməkdar elm xadimi fəxri adını almış, 1981-ci ildə alimin "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyası oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyası tərəfindən akademik M.İ.Averbax adına mükafata layiq görülmüşdü. 1983-cü ildə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Könül verdiyi həkimlik peşəsinə hər zaman müqəddəs dəyər kimi yanaşan Zərifə xanımın fəaliyyətinin mühüm bir istiqaməti də məhz həkimlik etikası ilə bağlı idi. Alimin qələmə aldığı "Yüksək etimad" kitabı bütün dövrlərdə əsl həkim kimi yetişmək istəyən, insanların inamını qazanmağa can atan, sənətini, "Hippokrat andı"nı uca tutan hər bir həkimin oxumalı və oxuyub əməl etməli olduğu kitabdır.

## Sülh uğrunda

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, Moskvada nəşr olunan "Vestnik oftalmoloqa" jurnalının redaksiya heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin üzvü idi. Zərifə xanım sülhü insanın missiyası sayır və deyirdi: "Elə şeylər var ki, biz onları tarixin soyuq məhkəməsinə saxlaya bilmərik, onlar haqqında indi danışmalı və qiymət verməliyik. Sülh uğrunda mübarizə bizim missiyamız, borcumuzdur. Bu həm də bütün elm və mədəniyyət xadimlərinin və ilk növbədə ziyalıların işidir. Çünki Yer üzündə sülhü qorumaq insanların firavan həyatını, tələbatını təmin etmək və onların xoşbəxt olmaq hüququnu qorumaq deməkdir. Eyni zamanda təfəkkürə və xeyirxahlığa xidmət etməkdən böyük xoşbəxtlik yoxdur".

Zərifə xanım Əliyeva bütün bu elmi-ictimai fəaliyyətləri ilə yanaşı, həm də vəfalı ömür-gün yoldaşı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ən yaxın silahdaşı, Vətən üçün layiqli övladlar böyütmüş ləyaqətli Ana idi. Bu gün müstəqil dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə yüksəltmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətənə sevgisi həm də Zərifə xanımdan gəlir.

"...Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda yüksək mədəniyyət, alicənablıq - bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi.

...Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur" - bu, dövlət rəhbərimizin onu böyüdüb boya-başa çatdırmış Ana haqqında fikirləridir. Bu il ömür tarixinin 100-cü zirvəsinə ucalan Zərifə xanım Əliyevanın arzuları, amalları Azərbaycan Prezidentinin Vətən üçün gördüyü işlərdə yaşayır, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yerinə yetirdiyi nəcib missiyada davam edir. Azərbaycan adına bəşəriyyətə verilən hər töhfə bizə Zərifə xanımın gülümsər çöhrəsini xatırladır.

**Azərbaycan.** - 2023.- 3 fevral. - № 24. - S. 10.

## Великая женщина

### Состоялся вечер памяти, посвященный 100-летию выдающегося азербайджанского ученого-офтальмолога, - академика Зарифы Алиевой

**В апреле 2023 года исполняется 100 лет со дня рождения выдающегося ученого Азербайджана, заслуженного деятеля науки, доктора медицинских наук, профессора, действительного члена Академии наук Азербайджана Зарифы Азиз гызы Алиевой.**

В связи со знаменательной датой в Бакинском конгресс-центре состоялся вечер памяти, посвященный 100-летнему юбилею Зарифы ханым Алиевой.

В вечере памяти приняли участие руководители Министерства здравоохранения, Национальной академии наук Азербайджана (НАНА) и других государственных учреждений, депутаты Милли Меджлиса, а также видные общественные деятели.

В начале мероприятия прозвучал Государственный гимн Азербайджанской Республики. Затем участникам мероприятия был продемонстрирован видеоролик, повествующий о жизни и деятельности выдающегося ученого.

Выступивший на вечере памяти министр здравоохранения Азербайджана Теймур Мусаев подчеркнул, что 2023 год в Азербайджане ознаменован празднованием 100-летнего юбилея двух незабываемых личностей - общенационального лидера нашего народа, архитектора и основателя современного независимого Азербайджанского государства Гейдара Алиева и выдающегося ученого-офтальмолога, академика Зарифы ханым Алиевой.

«Зарифа ханым, прошедшая путь от рядового врача до академика, внесла ценный вклад в развитие отечественной медицинской науки, - подчеркнул министр здравоохранения. - Многогранная научная деятельность академика Зарифы Алиевой является ярким примером для будущих поколений. Зарифа ханым не искала легких путей, проводила многопрофильные исследования, посвященные актуальным вопросам офтальмологии».

Указав на ценный вклад, который академик Зарифа Алиева внесла в развитие офтальмологической науки в Азербайджане, министр отметил, что научно-практическая и санитарно-просветительская деятельность выдающегося ученого сыграла определяющую роль в искоренении в нашей стране трахомы. Помимо этого, академик Зарифа Алиева впервые в мире создала научно-исследовательскую лабораторию, изучающую профессиональную патологию органов зрения, и практически заложила основу нового научного направления - «профессиональную офтальмологию».

«Жизненный путь академика Зарифы Алиевой, ее одаренность как ученого-новатора, чистота и благородство являются для каждого гражданина Азербайджана, для каждого ученого и врача образцом настоящей жизни и нравственности, школой совершенства и мудрости. Сегодня, когда мы говорим о Зарифе ханым Алиевой, оживает светлый образ - образ настоящей азербайджанской женщины», - подчеркнул министр здравоохранения.

В своем выступлении президент НАНА Иса Габиббейли отметил, что большие успехи академика Зарифы Алиевой как ученого составляют отдельный этап в истории медицинской науки Азербайджана. Зарифа ханым уделяла особое внимание актуальным проблемам офтальмологии, подчеркнул академик, указав, что среди этих проблем особое место занимают диагностика, лечение глаукомы и воспаления органов зрения.

Выступившая на вечере председатель Государственного комитета по проблемам семьи, женщин и детей Бахар Мурадова подчеркнула, что Зарифа Алиева пользовалась большим уважением в академических кругах как выдающийся ученый-новатор и истинный подвижник науки. В то же время, ее образ олицетворяет благородную азербайджанскую женщину, верную спутницу жизни, самоотверженную мать.

Своими теплыми воспоминаниями о Зарифе ханым Алиевой поделился председатель парламентского комитета по здравоохранению Ахлиман Амирасланов. Он отметил, что научные достижения выдающегося ученого внесли вклад в развитие медицинской науки не только Азербайджана, но и всего мира: «Академик Зарифа Алиева в своей научно-педагогической деятельности не ограничивалась проведением многогранных научно-исследовательских работ, она уделяла особое внимание подготовке молодых кадров и повышению их квалификации».

Директор Бакинского медицинского колледжа №1 Наиля Алиева подчеркнула, что Зарифа ханым Алиева прожила неповторимую, светлую жизнь: «Частицу этого света получали все - ее семья, каждый,

кто находился в окружении». Научно-педагогическая деятельность академика Зарифы Алиевой оказала сильное влияние на формирование высококвалифицированных кадров Медицинского колледжа.

Мероприятие продолжилось литературно-художественной композицией.

**Бакинский рабочий.** - 2023. - 17 марта. - № 49. - С. 9.

## Ürək odu – göz işığı

**Unudulmaz müəllimim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə…**

**Paşa Qəlbinur,**
ATU-nun oftalmologiya kafedrasının müdiri, professor

**ANA! Öz tutumuyla bu varlıqla müqayisə olunası iki ruhi-müqəddəs tanıyıram: Çörək və Qurani-Kərim. Bu sözün – varlığın bütün canlılarda gücü, anlamı eynidir. Bala-övlad yolunda, dünyaya gətirdiyinin yolunda həyatından belə keçmək qüdrəti. Mütləq məhəbbətin bir nümunəsi. Gəlin etiraf edək ki, bu qan yaddaşından gələn məhəbbətin də dərəcələri olur, belə deyək ki, daha böyükləri, nəhəngləri olur. Və bu nəhəng hisslər, sevgilər zərif analarımızın qəlbində olur. Analar övladlarını laylalarla, bayatılarla oxşayırlar. Övladlar analarını "Ana" Cəfər Cabbarlı şeiriylə...**

Zərifə xanım haqqında bir Ana kimi danışanda öz müşahidələrimdən başqa, xatirəsi həmişə mənə əziz olan iki gözəl insanın – müəllimlərimin sözləri yada dü-şür. Professor Zəhra xanım Quliyeva və dosent Ləzifə xanım Əliyevanın (Ləzifə xanım Zərifə xanımın böyük bacısı idi). Onlar danışırdılar ki, Zərifə xanım övlad-larına fanatik məhəbbətli bir Ana idi. İşdə müxtəlif otaqlardakı telefonlardan (çox nəzərə çarpmasın deyə) dəfələrlə zəng edib evdə qoyub gəldiyi ciyərparalarını soruşardı. Və bu telefon danışıqlarından yalnız birini dinləyən adam heç vaxt onu unutmaz, bir ananın övladlarına olan məhəbbətinin ifadəsini ömrü boyu özüylə gəzdirərdi...

Onun həyat yoldaşı – o zamanlar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyevə olan müna-sibətindən bir anın şahidi olmuşdum: Ləzifə xanımgildə balaca nəvəsi Eminin ad günündə (anam İldız xanımla mən də orada idim) dünənki televiziya ilə verilən iclasda Heydər Əlirza oğlunun böyük çıxışından söhbət düşəndə Zərifə xanı-mın gözlərini, üzünün ifadəsini heç za-man unutmaram. Bircə onu dedi ki, mən nəfəsimi dərmədən bütün çıxışı dinlədim, heyran olmuşdum.

Zərifə xanım yeri gələndə çox incə yumorla danışardı. Gülarə xanım da (Zərifə xanımın bacısı) doğmaları, çox yaxınları ilə şux zarafatlar edərdi. O məc-lisdə Ləzifə xanım bir balaca soyuqlamış-dı, Gülarə xanım bunu görcək gülə-gülə dedi ki, Ləzi bacı ( o, Ləzifə xanımı meh-ribancasına belə çağırardı) eybi yoxdu, keçib gedəcək, təki xəstələnək, ancaq ölməyək. Zərifə xanımın zərif, olduqca yerində olan yumorundan Zəhra xanım, Ləzifə xanım, kafedramızın onunla həm-yaş olan dosentləri Səkinə xanım, Rəfiqə xanım saatlarla gözəl xatirələr danışar-dılar. Səkinə xanım və Rəfiqə xanım indi də danışırlar. İncə, zərif, yerinə düşən yu-mor, yüksək zövq sahiblərinə, geniş dün-yagörüşünə əslzadələrə məxsus əlamət-dir və çox təəssüf ki, bu, dünyada bütün yaranmışlara nəsib olan xoşbəxtlik deyil. Bu səadət Zərifə xanımın saysız bəzək-lərindən, tale vergilərindən biri idi.

Allah-təala onu valideynlərindən də yarıtmışdı. Dünyanın ən dəyərli kişilə-rindən biri, xeyirxahlarından biri, alim-lərindən biri, siyasi xadimlərindən biri, ləyaqət sahiblərindən, seçilmişlərindən, tanınmışlarından biri, varlığıyla Azər-baycanın tarixi bir mərhələsi olan Əziz Əliyevin ailəsində dünyaya gəlmişdi Zərifə xanım. Anası Leyli xanım xanım-lar xanımı, ağlı-zəkası bir dünyanı idarə edəcək bir güc, nur sahibi idi. Leyli xa-nımın da söhbətləri heç vaxt unudulma-yacaq gözəllikdə idi. O söhbətlərdən bir epizodu xatırladım. Leyli xanım danışır-dı ki, həyat yoldaşı Əziz müəllim uzun müddət Vətəndən uzaqda işləyirmiş. O vaxt uşaqların böyüyü Ləzifənin (Leyli xanımın dilindən deyirəm) əlindən tutub Mircəfərin (Mircəfər Bağırov) qəbuluna getdim, xahiş elədim ki, Əzizi (Əziz Əli-yev) Azərbaycana qaytarsın, nə iş verir, versin, lap adi iş olsun. O da qayıtdı ki: Leyli xanım, Əziz Azərbaycana gəlsə o heç bir işdə işləyə bilməz, ona layiq olan yer ancaq mənim yerimdir, onu da mən tutmuşam. Bunu deyib bir xeyli susdu. Mən də gözləmədiyim cavabdan sonra heç bilmədim nə deyəm, sağollaşıb gəl-dim evimizə.

Zərifə xanımın böyük qardaşı, profes-sor Tamerlan Əziz oğlu Əliyev Tibb Uni-versitetində terapiya kafedrasının müdiri idi. Ürəyimdə bir kitablıq söz, məhəbbət var onun ünvanına. İnşallah, ömür vəfa eləsə yazacağam. Ancaq bircə onu de-yim ki, bu yaşıma qədər doğmalarım, dostlarım, müəllimlərim qarışıq lap yaxın-dan tanıdığım əzizlərimin bir siyahısı var ürəyimdə. Mən Allahımı heç vaxt unutma-ram, ancaq o adamların Tanrı dərgahın-dakı hörmətlərinə güvənib dara düşəndə yalnız ürəyimdə pıçıltıyla Allahdan sonra onları köməyimə çağırıram. O kiçik siya-hıda Hüseyn babam var. Onlardan biri də Tamerlan müəllimdir. Böyük, çox böyük ləyaqət sahibi, nur daşıyıcısı, professor Tamerlan Əziz oğlu Əliyev! Mənim üçün həmişə canlı olan müqəddəs insan!

Bu böyük ailənin, nəsil-şəcərənin Zərifə xanımla bağlı hər bir üzvü Dilbər xanım, akademik Cəmil Əliyev haqqında saatlarla danışmaq imkanım var. Ancaq bu xatirə yazının qəbul olunmuş reqla-mentinə uyğunlaşmalıyam.

Bir ailənin iki üzvü – olduqca böyük şəxsiyyətlərdən dünyaya gələn övladla-rın genetik varisliyi valideynlərin və öv-ladların böyük xoşbəxtliyidir.

Sevil xanımın qeyri-adi çoxşaxəli is-tedadının, savadının, təvazökarlığının, mədəniyyətinin bu səviyyədə olmasında atasının və Zərifə xanımın müstəsna rolu olmuşdur. Uzun illər bundan əvvəl Zərifə xanımla anamın arasında olan bir söh-bəti heç cürə unuda bilmirəm. O söhbət Ləzifə xanımgilin evində Ləzifə xanım, qızı Svetlana xanım və Gülarə xanımın yanında olmuşdu. Zərifə xanım deyirdi ki, Sevil (o vaxtlar Sevilin 16-17 yaşı olardı) bir tikə çörəyi (arasında pendir) qalanda belə atmır, tullamır, bükүb qoyur ki, son-ra yeyərəm. Atası ölkənin birinci yox, lap yüzüncü adamı olan qız ya oğlan uşağın-dan bu cür nümunə, hətta deyərdim ki, müqəddəs davranış nadir hadisə idi, lap elə indinin özündə də heyrət və qibtə do-ğurardı...

Zərifə xanım alim idi. Adı böyük hərf-lərlə yazılan alim. Zamanı qabaqlayan. Onun bir neçə istiqamətdə apardığı iş-lər illər keçəndən sonra daha da aktu-allaşır, gərəkli olur, qiyməti daha da ar-tır. Məsələn, gözün peşə xəstəlikləri ilə əlaqədar Sovet İttifaqında yaradılan ilk sanballı elmi laboratoriya. Onun rəhbər-lik etdiyi, böyük ideyaları reallaşdıran bu kollektivin gördüyü işlərin elmi nəticələri bütün dünyada qəbul olunurdu. Əslində, akademik Zərifə xanım Əliyeva dünya-da bu elmi istiqamətin pioneridir. Heç də təsadüfi deyil ki, o, SSRİ Tibb Elmləri Akademiyasının yüksək Averbax Müka-fatına layiq görülmüşdü. Akademik Zərifə xanım Əliyevanın məşğul olduğu elmi is-tiqamətlərdən biri də iridodiaqnostikaya həsr olunan ilk elmi monoqrafiyanın apa-rıcı müəlliflərindən olması idi.

Zərifə xanım bu günü uzun illər əvvəl görüb, tibbi deontologiyaya aid qiymətli elmi-fəlsəfi əsərlər yazıb mərkəzi mətbu-atda çap elətdirmişdi.

O, Moskvada nəşr olunan o zamankı SSRİ-nin ən nüfuzlu oftalmoloji elmi dər-gisi olan "Vestnik oftalmologii" jurnalının redaksiya heyyətinin üzvü idi. O jurnalın baş redaktoru Ümumittifaq Göz Xəstə-likləri İnstitutunun direktoru, akademik M.M.Krasnov idi. Həmin illərdə mən bu elm ocağında aspiranturada, sonra isə doktoranturada təhsil alırdım. Zərifə xa-nımla vaxtaşırı həmin elmi mərkəzdə, müxtəlif elmi toplantılarda, ya da jurnalın redaksiya heyətinin yığıncaqlarına gələn-də görüşərdik. Bu qısa görüşlərdə, o, həmişə çox səmimi olardı, qayğılarımla maraqlanırdı.

Bir dəfə mənə dedi ki, Heydər Əli-yeviç də sənin boyartımını izləyir, uğur-ların haqqında bizim evimizdə söhbətlər olur. Mən bir az utanaraq ona və Heydər Əlirza oğluna təşəkkür etdim. Bir müd-dət sonra Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun təqdimatı ilə elm sahəsin-də Ümumittifaq Lenin Komsomolu Mü-kafatına layiq görüləndə Heydər Əlirza oğlu məni Moskvadan Bakıya telefonla şəxsən təbrik elədi.

Heydər Əlirza oğlu sonralar illər keçəndən sonra mənfur Qorbaçovun həsədinə tuş gəlib Bakıya dönəndən sonra, (yerli hakimiyyətlə də müxalif mövqedə olanda) yazıçıların Filarmoni-yada keçirilən qurultayında təsadüfən mənə yaxın oturacaqda əyləşdi. Xəlil Rza ilə birgə idilər. Görüşdük. Fasilədə həmin İdrak ətri (esselər) 77 zəngə görə bir daha təşəkkür etdim. Və bir də dedim ki, Siz Moskvadan məni təbrik etdiniz, ancaq burada Kamran Bağırov heç elə bil ki, yoxuymuş. Gülümsündü: "Fikir ver-mə, hamı bir olmaz ki", – dedi.

Akademik Zərifə xanım Əliyevanın elmi-pedaqoji, ictimai fəaliyyəti haqqın-da yazılanlardan fərqli qısaca öz mü-şahidələrimi qələmə aldım. O, bir övlad kimi, bir evin, bir kişinin xanımı kimi, bir ana kimi, alim, müəllim, vətəndaş kimi, həmişə ucalardan ucadaydı. Elmi konf-ranslardan sonrakı toplantılarda, ya bay-ramlarda, ad günlərində əksər hallarda unudulmaz Gülarə xanım da iştirak edər-di, həmişə birinci mahnı sifarişi "Anamın anasısan, Azərbaycan" olardı. "Ana" və "Azərbaycan" sözlərini heç kim onun kimi tələffüz elə bilməzdi.

44 günlük müharibəmizin cahanşü-mül Qələbə ilə şərəflənən günlərində onun da ruhu şad oldu!

Akademik Zərifə xanım Əliyeva pre-zident xanımı, prezidentin Anasıdır. Bu, onun taleyi idi. Böyük, olduqca böyük həssaslıqla duymaq, görmək, heyran ol-maq, zəhməti sevmək, insanları, Vətəni sevmək onun tükənməz istedadı idi.

Böyük sevgidən yaranıb, böyük məhəbbətlə insanları, Vətəni sevənlər əbədi yaşayanlardır...

**Xalq qəzeti**. - 2023.- 5 aprel. - № 69. - S. 5.

## Xalqına müzəffər sərkərdə bəxş edən ana

**Mətanət Məmmədova**

Həmişə adını böyük hörmət və sayğı ilə andığımız, əsl azərbaycanlı xanıma məxsus geyimi, səliqəsi, danışığı ilə yaddaşlarımıza həkk olan, insanlara nur bəxş edən nurlu bir qadından yenə də söhbət açmaq istəyirəm. Ulu Öndər Heydər Əliyevin sədaqətli, vəfalı ömür-gün yoldaşından, evinin işığı, nuru olan qadından danışmaq istəyirəm. Özü kimi dünyaya lider gətirən qayınanasının sevimli gəlinindən-Zərifə xanımdan, xalqımıza müzəffər sərkərdə bəxş edən anadan bəhs etmək istəyirəm.

Böyük bir sevgi ilə Heydər Əliyevlə ailə həyatı quran, Yaradan tərəfindən bir oğul, bir qız övladı ilə mükafatlandırılan, həyat yoldaşının hər zaman arxa-dayağı olan Zərifə xanım həm də ziyalı bir qadın idi. O, yaşamaq, həyatın bütün gözəlliklərini duymaq üçün insana gərək olan ən vacib orqanın-gözün patologiyasını o qədər dərindən əxz etmişdi, bu sahəni mükəmməl öyrənməsinə o qədər zaman və zəhmət sərf etmişdi ki, insanlara nur paylamağı Allah-təala bu zəhmətin qarşılığı olaraq ona bəxş etmişdi. Zərifə xanım Əliyeva haqqında, nurlu insan, deyə bəhs edirlər. Bu sözün böyük mənası var. Həqiqətən də Zərifə xanım nurlu bir insan idi. Bunu onun həyat səhifələrini çevirdikcə aydın şəkildə görmək olur. Bu səhifələrlə tanış olduqdan sonra o qənaətə gəlirsən ki, Zərifə xanım harada olubsa, ora işıqlı, nurlu olub.

Bu nurdan təbii ki, cənab İlham Əliyev də öz payını almışdır ki, düşmənin bir qərinəyə yaxın işğalına məruz qalan, üzərinə qaranlıq çökən Qarabağımızı 30 ilin sonunda nura boyadı. Bu nur üçün 30 ilin 20 ilə yaxın zamanını dünya miqyasında mübarizəyə həsr etdi, böyük uzaqgörənliklə elə planlar hazırladı, problemə elə zərgər baxışı ilə yanaşdı ki, sonda Qarabağı anası Azərbaycana qaytarmağı bacardı.

### Torpaq həsrətinə son qoyan Sərkərdə

Zərifə xanımın dünyaya gətirdiyi övladı Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 200 illik zaman kəsiyinin axarını dəyişdi. Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal olunan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı.

Bəli, Zərifə xanımın dünyaya gətirdiyi övladı tək ailəsinə məxsus olmadı, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Deyirlər, yaxşı ataların yaxşı oğulları olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın işğalına ürək ağrısının, onların bir gün geri qaytarılması üçün mübarizələrinin davamını cənab İlham Əliyevdə gördük. Gördük ki, dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib. Gördük ki, Qarabağ məsələsi bir an da unudulmayıb. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizin Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistanın dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi və tarixin 200 illik axını dəyişib göstərdi ki, analar dünyaya 200-300 ildə bir elə oğullar gətirir ki, o oğullar zamana hökm oxuya bilir...

### 90-ların səhvini 2020-də düzəldən Lider

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onlarin hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında məcburi köçkünlükdə əzab çəkən minlərlə insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilmən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdilər.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXC-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, yaxın gələcəkdə soydaşlarımız ata-baba yurdlarına qayıtsalar da, AXC-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduqları maddi və mənəvi zərər heç vaxt unudulmayacaq.

## Liderimizin fikirləri gənclərimizin sosial şəbəkə manşetidir

Zərifə xanım Əliyevanın böyüdüb tərbiyə etdiyi övladı öncə ata-anadan, ailədəki dəyərlərdən, sonra isə xalqın bu ailəyə etimadından, böyük Heydər Əliyevə nüfuzundan, onun mənəvi və siyasi varisinin Heydər Əliyev yolunu uğurla davam etdirəcəyinə böyük inamından aldığı güclə böyük Liderə çevrilə bildi. Xalq öz liderinin ətrafında sıx birləşdi. Müharibədə Prezidentimizin düşmənə göstərdiyi dəmir yumruğun rəmzi mənası var idi. Bu, bütün xalqın gücünü özündə toplayan bir yumruq idi. Düşmənin üzərinə endirilən birgə həmlə idi.

Xalqın birlik, həmrəylik nümayiş etdirməsi öz Liderinə inamından, arxalanmasından irəli gəlirdi. Gənclərimizin cəbhəyə axın etməsi, səfərbərlik məntəqələri qarşısında gecəli-gündüzlü Ali Baş Komandanın əmrini gözləmələri ötən 30 ilin əvvəlindəki hakimiyyət nümayəndələri ilə müqayisə belə edilə bilməyəcək bir Liderə sahib olmağımızın nəticələri idi. Minlərlə gəncimizin böyük sərkərdənin bir əmri ilə döyüşə yollanması gənc nəslin dövlətinin başçısına etimadının göstəricisi idi. Hansı ki, Ermənistan tərəfdə vəziyyət heç də belə deyildi. Bu, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan tərəfindən də etiraf olundu. Onun söylədiyinə görə 2020-ci ildə 44 günlük müharibədə Ermənistan ordusunun təxminən 25%-i - 11 min nəfəri fərarilik edib, döyüşlərdən qaçıb. O, Paşinyanın və özünün könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətlərinə, çağırışlarına da cəmiyyətdən tutarlı reaksiya gəlmədiyini etiraf etdi. Başqa sözlə, erməni gəncləri Paşinyanın çağırışlarını cavabsız buraxıb - zorla ordu sıralarına cəlb edilənlər isə çıxış yolunu qaçmaqda görüb.

Bəli, bütün bunlar cənab İlham Əliyevin son 20 ildə Azərbaycanda yarada bildiyi ictimai mühitin bəhrələri idi. Vətəndaşına yanaşmasının, hər yaş qrupunda olan insanlara eyni qayğı göstərməsinin, gənclər üçün yaradılan hərtərəfli şəraitin, ən əsası isə onlara vətənpərvərliyin aşılanmasının nəticələri idi. Bizim Prezidentimiz Azərbaycan gəncliyinə özü bir nümunə idi. Gənclik Liderimizin beynəlxalq kürsülərdə səsləndirdikləri fikirləri sosial şəbəkələrdə paylaşırdı. Liderimizin müharibə dövründə xarici mətbuat nümayəndələrinə verdiyi onlarla müsahibədəki qətiyyətli cavablar hər bir gəncin sosial şəbəkə manşetinə çevrilmişdi. Bu gün də elədir. Bu gün Azərbaycanda Prezientimizin fəaliyyətini, dəyərli fikirlərini dərhal gənclərimizin sosial şəbəkələrdəki paylaşımlarında görmək olur. Bu, inamdır, arxalanmaq, etibar etməkdir. Bir də xalqın Liderinə sevgisidir. Bu sevgi isə düz sərhədlərimizə qədər uzanır. Ölkəmizin sərhədlərinin, ərazi bütövlüyünün qorunması üçün hər kəsin sinəsini sipər etməsini şərtləndirir.

## Müzəffər sərkərdə ilə xoşbəxt gələcəyə doğru

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılası soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın inkişaf etdirilməsi, hər bir

işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərlərinə düşən vəzifələrin icrasını gecikdirməyə çalışsalar da, bizim Liderimiz bütün məsələlərin həllinin öhdəsindən gələcəkdir. Çünki artıq dünyanın böyük ölkələri də bizi dinləyir, haqqın tərəfimizdə olduğunu anlayır.

Beləliklə Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrı-ayrılıqda Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin və xalqımıza müzəffər sərkərdə bəxş edən Zərifə xanım Əliyevanın parlaq ruhları bizimlədir. Çünki ağsaqqal, ağbircək olan yerdə Allah var. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu. Nə xoşdur ki, gənclərimiz hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənirlər. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər.

**Səs.-**2023.-6 aprel.-№58.-S.4.

## Görkəmli alim, mərhəmətli insan, müqəddəs ana

### Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə elmi konfransı

Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib. Tədbirdən əvvəl konfrans iştirakçıları Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.

AMEA Rəyasət Heyətinin binasında keçirilən konfransda AMEA-nın prezidenti, akademik İsa HƏBİBBƏYLİ, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman ƏMİRASLANOV, səhiyyə nazirinin müavini Nadir ZEYNALOV, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV çıxış etmişlər. Konfrans materiallarının davamını təqdim edirik.

AMEA-nın vitse-prezidenti, akademik İradə HÜSEYNOVA qeyd etdi ki, dünya tarixində az sayda alim, pedaqoq və ictimai xadimlər olmuşdur ki, yaşayıb-yaratdıqları, insanlıq qarşısında əvəzsiz xidmətləri, xeyirxah əməlləri, yolunu davam və inkişaf etdirən mötəbər ardıcılları, gözəl tərbiyə və təhsil almış övladları ilə sağlığında müqəddəslik qazansın, cismani yoxluğuna baxmayaraq, əbədi həyatla mükafatlandırılsın.

- Qədirbilən Azərbaycan xalqının əziz övladı, yüksək mənəviyyata, güclü genetik istedada, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə və milli ruha sahib olması ilə fərqlənmiş görkəmli alim və təbib, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyeva məhz xalqımızın yaddaşında heç zaman silinməyəcək şərəfli bir yer tutmuş bu cür şəxsiyyətlərdəndir.

Nursuz gözlərə işıq, qəlblərə həyat eşqi bəxş edən, ətrafına gözəlliklər saçan mələk misallı bu böyük insanın əməl dəftəri yoxluğunda belə təsirini itirməyən xeyirxah işləri, insanlara və insanlığa fayda verən elmi, valideynlərinə və Vətəninə daim xeyir-dua ilə yanaşan gözəl övladları səbəbindən, məşhur bir hədisdə deyildiyi kimi, bu gün də qapanmamışdır və heç zaman qapanmayacaqdır.

Azərbaycanda olduğu kimi, onun hüdudlarından kənarda da tanınmış ziyalı nəslin layiqli davamçısı, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş görkəmli oftalmoloq alim və xeyirxah insan kimi şərəfli bir ömür yaşamış Zərifə xanımın həyatının hər bir anı mənəvi kamillik və müdriklik məktəbidir. Geniş dünyagörüşü, fitri istedadı və intellekti ilə seçilmiş bu böyük insan ömrünü zərrə-zərrə ailəsinin, övladlarının və xalqının gələcəyi üçün şam kimi əritmiş, insanlara sevgisi, geniş dünyagörüşü və dərin bilikləri sayəsində böyük uğurlara imza atmışdır.

Oftalmologiya elminin korifeyinin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Zərifə Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvanın Şahtaxtı kəndində seçilən Əməkdar həkim, professor Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Əziz müəllim ömür-gün yoldaşı Leyla xanımla övladlarını Vətənə, torpağa, xalqa sədaqət, əslə, kökə bağlılıq, elmə, biliyə, zəhmətə hörmət və məhəbbət ruhunda böyüdə bilmişdi. Uşaqların şəxsiyyət kimi formalaşmasında ailə mühiti və genetik faktorlarla yanaşı, Əziz Əliyevin yaxın dostları olan Üzeyir bəy Hacıbəyli, Müslim Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və digər öz dövrünün tanınmış elm və mədəniyyət xadimlərinin onların evində apardıqları söhbətlər, dünyaya və həyata baxışlara dair fikir mübadilələri önəmli rol oynamışdır.

Əziz Əliyev 1941-1942-ci illərdə Azərbaycan KP MK katibi, sonra isə altı il Dağıstan Respublikası MK-nin birinci katibi işləmiş, həmçinin müəyyən müddət İranda səlahiyyətli partiya işçisi kimi fəaliyyət göstərmişdi. Ailə başçısını evdə az gördüklərindən ailə qayğıları, uşaqların təhsil məsələlərinə nəzarət Leyla xanımın üzərinə düşürdü. Leyla xanım da Əziz müəllim kimi, qızının institut seçimini dəstəkləmiş, ona ürəkdən xeyir-dua vermişdi.

Zərifə xanım 1947-ci ildə institutu əla qiymətlərlə bitirdikdən sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ikiillik ixtisas kursu keçmiş, SSRİ-nin bu nüfuzlu elm müəssisəsində Bakıda əldə etdiyi biliklərini xeyli zənginləşdirmişdir. Qarşısına qoyduğu məqsədlərə sadiqliyi və elmi tədqiqatlara böyük marağı Zərifə xanımı vətənə dönərək Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna gətirmişdir. O, 1949-cu ildə bu institutda ordinator kimi fəaliyyətə başlamış, eyni zamanda aspiranturaya daxil olmuşdur. Zərifə xanımın ilk tədqiqatının mövzusunu yaşadığı dövr özü diktə etmişdi. 1953-cü ildə aspiranturanı bitirdikdən sonra Zərifə Əliyeva traxoma ilə mübarizə üzrə müalicə-profilaktika tədbirlərinin təşkilində və həyata keçirilməsində fəal iştirak edirdi.

Alim tərəfindən hazırlanmış və apardığı ciddi əsaslı tədqiqatlarla effektivliyi həm nəzəri, həm də praktiki şəkildə isbat olunmuş müalicə metodu traxomanın sosial xəstəlik kimi ləğv edilməsində əhəmiyyətli rol oynamışdır. Bu istiqamətdə Zərifə xanım Əliyevanın tarixi xidmətləri danılmazdır və dünya elmi ictimaiyyəti tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir.

Zərifə Əliyeva 1967-ci ildə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti vəzifəsinə dəvət olunmuş, 1969-cu ildən burada Göz xəstəlikləri kafedrasının Görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. Ömrünün sonuna kimi institutda çalışan Zərifə xanım 1977-1979-cu illərdə kafedranın professor əvəzi, 1979-1982-ci illərdə professoru, 1982-1985-ci illərdə müdiri vəzifələrində çalışmışdır.

Həmin illərdə alim-təbib təcrübi təbiblik fəaliyyəti ilə məşğul olur, çoxsaylı mürəkkəb əməliyyatları icra edir, xəstələrə və müxtəlif peşə sahibləri olan sağlam insanlara məsləhətlər verirdi.

1968-ci ildən Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının əsas istiqamətini görmə orqanının patologiyaları və xüsusən peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemləri təşkil etmişdir. Həmin dövrlərə qədər müxtəlif sənaye müəssisələrində çalışan şəxslərin görmə orqanına təsir edən amillər, bu amillərin doğurduğu patologiyalar az tədqiq edilmişdi. Zərifə xanım məhz yüksəkixtisaslı həkim-oftalmoloq və həssas qəlbli, yüksək insani keyfiyyətlərə malik alim kimi qeyd edilən problemlərə diqqət yetirməyə bilməzdi.

Alim bu problem üzərində iş apararkən çox vaxt sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən Şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Bununla da Zərifə xanım genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində zərərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

Görkəmli alim oftalmologiyanın müxtəlif istiqamətlərinə aid 150-dən çox elmi məqalə, 14 monoqrafiya, 12 səmərələşdirici təklifin müəllifi kimi dünya tibb elmində silinməz izlər buraxmışdır. Bir alim kimi çox böyük zirvələri fəth etməyi bacarmış Zərifə Əliyevanın əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını qoruyub saxlamaqla, oftalmoloqların stolüstü kitablarına çevrilmişdir.

Zərifə xanımın elmi-pedaqoji fəaliyyəti bununla məhdudlaşmır, bütün oftalmoloji müəssisə və şöbələri, kadrların təkmilləşdirilməsi prosesini də əhatə edirdi. Qeyd etmək lazımdır ki, Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin elmi təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

Zərifə Əliyeva hər zaman ətrafına bacarıqlı və savadlı gənc həkimləri toplamaqla elmi tədqiqat işlərini uğurla təşkil etmişdi. 1977-ci ildə onun təşəbbüsü ilə ilk dəfə olaraq Bakıda keçirilən Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun təşkilati işləri böyük təcrübə və idarəçilik qabiliyyəti tələb edirdi ki, Zərifə xanım bunun öhdəsindən uğurla gələ bilmişdi. Bu plenum həm Azərbaycanda, həm də keçmiş ittifaqın tanınmış akademik müəssisələrində oftalmoloji xidmətin inkişafında, elmi və elmi-pedaqoji kadrların hazırlanmasında böyük rol oynamışdı.

Akademik Zərifə Əliyeva çoxillik gərgin elmi axtarışlar və eksperimental tədqiqatlar nəticəsində istehsalatda aşağı intensivlikli zərərli maddələrin görmə orqanına təsirinin mühüm qanunauyğunluqlarını aşkar etmişdir. Onun çoxşaxəli elmi fəaliyyətinin əsas istiqamətlərini traxoma xəstəliyinin klinikası, görmə orqanının fiziologiyası və peşə xəstəliklərinin təsiri nəticəsində baş verən göz patologiyalarının profilaktikası, diaqnostikası və müalicəsi, kimya sənayesi müəssisələrinin işçilərində görmə orqanının vəziyyəti, herpetik göz xəstəlikləri, görmə orqanının virusla zədələnməsi, ağır virus konyunktivitləri, gözün hidrodinamik sisteminin fizioloji-anatomik xarakteristikası, göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi, şəkərli diabet zamanı göz xəstəlikləri, terapevtik oftalmologiya, iridodiaqnostikanın əsasları, qlaukoma problemləri və sair təşkil etmişdir.

Alimin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyması və buna nail olmasıdır.

Zərifə Əliyeva həmçinin göz zədələrinin qarşısının alınması və onlara nəzarət imkanlarını öyrənmişdir. O, gözün zədələnməsinin nəticələrinin cərrahi müalicəsinə mövcud metodoloji yanaşmaları təhlil etmiş və onların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr vermişdir.

Tibb elmində "peşə oftalmologiyası"nın əsasını qoymuş Zərifə xanım Əliyeva keçmiş SSRİ-nin oftalmologiya elminə görmə orqanının peşə xəstəliklərinin öyrənilməsi və profilaktikası üçün yeni üsulların işlənməsi kimi elmi yenilik gətirmişdir. Bu yeniliklər "Görmə orqanının peşə patologiyası", "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Şin istehsalında gözün peşə patologiyası" kimi kitab və monoqrafiyalarında əks edilmişdir. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə dünya miqyasında böyük şöhrət qazandırmışdır.

Zərifə xanımın təxminən 40-50 il bundan əvvəl apardığı tədqiqatlarda müasir elm qarşısında qoyulan əsas tələblərdən birinin, yəni elmlə istehsalatın sıx əlaqəsinin təmin edilməsinin bariz nümunəsini görmək mümkündür.

Zərifə Əliyeva gözün çoxsaylı oftalmoloji müayinələri ilə yanaşı, ilk dəfə olaraq, elektrofizioloji metodlardan da geniş istifadə etmişdir. Aparılan eksperimental tədqiqatlarda toksik maddələrin və bəzi fiziki amillərin gözün torlu qişasında funksional vəziyyətə, sərbəst radikal proseslərə, neyromediatorların səviyyəsinə təsiri öyrənilirdi. Həmin tədqiqatların nəticələri bu gün də mütəxəssislər arasında böyük maraq doğurur.

Zərifə xanım əsl ziyalılığın genetik yaddaşına malik bir insan idi. Ziyalı zəkası onun bilik və təhsilində, ətrafına yaydığı işıqda, zəriflik, təmkin və nəcibliyində, insanlığa və insanlara sevgisində, sevimli peşəsinə və ailəsinə bağlılığında özünü göstərirdi.

Ulu Tanrının ən yüksək mənəvi xüsusiyyətlər bəxş etdiyi  Zərifə xanım müasir Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Ulu Öndər Heydər Əliyevin məslək, əqidə və əməl silahdaşı, vəfalı ömür-gün yoldaşı olmuş, müasir Azərbaycanın lideri, millətin müzəffərlik və qalibiyyət tarixinə yeni-yeni səhifələr yazan görkəmli dövlət xadimi, cənab Prezident İlham Əliyevin insan və şəxsiyyət kimi təşəkkülündə şəfqətli ana kimi həlledici rol oynamışdır.

Zərifə xanım oftalmologiya elminin korifeyi, ziyalı və işıqlı bir şəxsiyyət, görmə problemli insanlara və ümumən ətrafındakı hər kəsə nur paylayan, gözlərə işıq, qəlblərə həyat eşqi bəxş edən, ətrafına gözəlliklər saçan mələk misallı bir insan olmuşdur.

Görkəmli alim və təbibin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Bəşəriyyətin ən qiymətli sərvəti olan xeyirxahlıq, həya və saflıq fani aləmdə əbədiyyəti, daimi mənəvi ucalığı təmin edir. Yüksək mənəviyyata, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə sahib olmuş Zərifə xanım Əliyeva həyatı və əməlləri ilə hələ sağlığında müqəddəslik qazanmış bir şəxsiyyətdir. Onun malik olduğu və qazandığı nə varsa, Allah tərəfindən verilmiş nemətlərdir.

Ölkəmizin sürətli inkişafı, möhtəşəm uğurları, dünyadakı nüfuzu ilə fəxr edərək, cənab Prezidentin bilik və bacarıqlarının, qətiyyət və müdrikliyinin əsasında həm Ulu Öndərin, həm də Zərifə xanımın təsirini aydın görürük.

Dünyasını dəyişsə də, böyük alimin elmdə açdığı cığırlar nəinki boş qalmadı, hətta genişləndikcə genişləndi, elmi məktəbi inkişaf edərək şaxələndi, xalqa, insanlara fayda verməyə, nur paylamağa davam etdi, ərsəyə gətirdiyi elmi və həkim kadrlar öz fəaliyyətləri, gözəl əməlləri ilə müəllimlərinin adını daha da ucaltdılar.

Elmdə və həkimlik fəaliyyətində əldə etdiyi nailiyyətlər, irəli sürdüyü ideyalar, yeni metodlar həm ölkədə, həm də xaricdə bu günə qədər tətbiq olunmaqda, yeni-yeni tədqiqatlara başlanğıc verməkdədir.

Zərifə xanımın əsas həyat amalının insanların gözlərinə nur vermək, onların həyatlarına işıq bəxş etmək olduğunu söyləyən akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü Elmar QASIMOV bildirdi ki, bu müqəddəs yolda əlindən gələni əsirgəməyən, hər zaman öz peşəsini uca zirvələrə qaldıran güclü və əzmkar alim həm də oftalmologiya elmi üçün əvəzsiz miras qoyub:

- Akademik Zərifə Əliyeva deyirdi ki, "Həkim insanlardan özünü ayırmamalı, özünü sevən, laqeyd insan olmamalıdır".  Onun həyatı özündən sonrakı nəsillər üçün bir örnək olmuşdur. Elə şəxslər var ki, onların xalqı qarşısında xidmətləri əvəzolunmazdır. Belə insanlar həmin zirvəni qeyri-adi əməksevərliyi, təmənnasız xeyirxahlığı, fitri istedadı, nadir bilik və qabiliyyətləri hesabına fəth edirlər. Məhz bu insanlardan biri humanist, görkəmli ictimai xadim, oftalmoloq-alim Zərifə xanim Əliyevadır. Zərifə xanımın çox mənalı və şərəfli həyat yolu olmuşdur.

1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda təhsilini tam yekunlaşdırdıqdan sonra Zərifə xanım Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursunu bitirmiş və əmək fəaliyyətini 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda ordinator vəzifəsində başlamışdır. 1950-1953-cü illərdə akademik Zərifə Əliyeva institutun aspiranturasında elmi hazırlığını keçib, burada kiçik elmi işçi vəzifəsində fəaliyyətinə başlamışdır.

XX əsrin 40-50-ci illərində Azərbaycanın bir çox cənub rayonlarının əhalisi arasında traxoma xəstəliyinin şiddətli yayılması ilə əlaqədar Zərifə xanım Elmi-Tədqiqat Oftalmologiya İnstitutu tərəfindən bu xəstəliyə qarşı aparılan mübarizədə fəal iştirak etmiş, ona həvalə edilmiş Əli Bayramlı (indiki Şirvan) rayonunda çətinliklərə baxmayaraq traxomaya qarşı tədbirlər kompleksini yerinə yetirmişdir. Aparılan böyük praktiki iş Zərifə xanımın ilk elmi əsərlərinin əsası olmuşdu. Fəal elmi axtarışlar traxomanın və onun fəsadlarının bir neçə müalicə üsullarının işlənilməsi ilə nəticələnmişdir. 1959-cu ildə Zərifə Əliyeva "Traxomanın digər terapiya üsulları ilə birgə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Zərifə xanım Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda 1967-ci ilə qədər 18 il ərzində böyük əmək yolu keçmişdir.

Həmin illərdə o, virus və bakterial konyunktivitləri, keratitlər və gözün ön kəsiyinin digər kəskin və xroniki xəstəliklərinə dair bir sıra elmi əsərləri, o cümlədən "Kəskin virus konyunktivitləri" və "Gözün herpetik xəstəliyi" əsərlərini yaratmışdır. 1960-ci illərin sonunda Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına keçmiş və burada əvvəl assistent, sonralar professor və 1982-ci ildə kafedra müdiri vəzifələrini tutaraq, oftalmologiyanın yeni istiqaməti olan görmə üzvünün peşə patologiyası problemi ilə yaxından məşğul olmağa başlamışdır. O, müxtəlif peşə zərərlərinin, o cümlədən toz, talk, his, kanifol, təbaşir kimi şin və yod istehsalının toksik amillərinin, respublikada inkişaf etmiş kimya istehsalının digər toksik maddə və məhsullarının görmə orqanına zərərli təsirinin biokimyəvi mexanizmini öyrənmiş və bir çox yeni elmi faktlar aşkar etmişdir. Dünya ədəbiyyatında belə fundamental tədqiqatların analoqu yoxdur.

Bu klinik-eksperimental tədqiqatlar Zərifə xanımın 1976-cı ildə Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müvəffəqiyyətlə müdafiə olunmuş "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının materialını təşkil etmişdir. Bu gün oftalmologiyanın həmin istiqamətdə inkişafı davam edir. Hal-hazırda bir neçə gənc oftalmoloq bu istiqamətdə elmi işləri davam etdirir və yaxın zamanda bu elmi işlər işıq üzü görəcək.

1979-cu ildə Zərifə xanımın böyük təşkilatçılıq qabiliyyəti sayəsində, şəxsi təşəbbüsü və iştirakı ilə Azərbaycan Elmlər Akademiyasının A.İ.Qarayev adına Fiziologiya İnstitutu ilə birgə Bakı məişət kondisionerləri zavodunda işçilərin görmə üzvünün fiziologiyası və peşə patologiyası üzrə problem laboratoriyası yaradılmışdır. Burada Zərifə xanım müxtəlif kimyəvi maddələrin və istehsalat tullantılarının görmə üzvünə və onun əlavə aparatına xroniki təsiri mexanizminin tədqiqi, bu təsirə qarşı profilaktik tədbirlərin və tətbiq üsullarının işlənilməsində böyük müvəffəqiyyətlər qazanmışdır.

Gənc, qabiliyyətli, geniş elmi planlarını həyata keçirməyə qadir olan mütəxəssisləri öz ətrafında toplayaraq Zərifə xanım zərərli maddələrin fəhlələrin görmə orqanına təsirini hərtərəfli öyrənmişdir. Müayinə edilmiş kontingentdə göz qapaqları, konyunktiva, gözyaşı yollarının dəyişikliklərinin, buynuzlu qişa həssaslığının zəifləməsinin, torlu qişanın, damarlı yolların, görmə sinirinin distrofik dəyişikliklərinin, işıq-rəng duyğularının zəifləməsi tezliyinin artması təsdiq olunmuşdur. Stirol buxarının təsirindən əmələ gələn inadlı, residiv verən və qapaqların dermatiti ilə müşayiət edilən peşə konyunktivitinin klinikasını məhz Zərifə xanım ilk dəfə təsvir etmişdir.

Zərifə xanım kimya istehsalat müəssisələrində işçilərin gözlərinin peşə zədələnmələrinə qarşı kompleks sanitar-gigiyenik tədbirlərin işlənilməsi və həyata keçirilməsinə nail olmuş, əmək şəraitinin yaxşılaşdırılması üçün misilsiz işlər görmüşdür. Onun görmə üzvünün peşə patologiyası probleminə həsr olunmuş fundamental tədqiqatlarının nəzəri və təcrübi əhəmiyyəti çox böyükdür. Bu tədqiqatlar 1980-ci ildə çap olunmuş "Şin istehsalatında görmə üzvünün peşə patologiyası" monoqrafiyasında, 1981-ci ildə isə dərc edilmiş "Xroniki yod intoksikasiyası nəticəsində oftalmopatologiya" monoqrafiyasında öz əksini tapmışdır.

Kimya istehsalında görmə üzvünün zədələnmələrinin profilaktikasına həsr olunmuş orijinal elmi əsərləri silsiləsinin çap olunması ilə əlaqədar, 1981-ci ildə Z.Əliyeva keçmiş Sovet İttifaqının Tibb Elmləri Akademiyasının oftalmoloqlar üçün ən nüfuzlu olan akademik M.İ.Averbax adına mükafatı ilə təltif edilmişdir. Zərifə xanım bu yüksək mükafata layiq görülmüş ilk qadın alim olmuşdur.

Görkəmli alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də gözyaşı aparatının fiziologiyası, gözyaşı yollarının xəstəlikləri patogenezinin öyrənilməsi və onların cərrahi müalicəsi üsullarının işlənilməsi olmuşdur. Zərifə xanımın rəhbərliyi altında dakriosistitin yeni, daha effektiv və fizioloji cərrahi müalicə üsulları işlənib təcrübədə tətbiq edilmiş, həmin cərrahi əməliyyatların aparılması üçün yeni alətlər ixtira olunmuş və gözyaşı kisəsi fleqmonasının kompleks müalicə üsulu işlənilmişdir. Bu problemə Zərifə xanımın bir sıra elmi əsərləri həsr olunmuşdur, onların arasında "Gözyaşı axmasının fiziologiyası" monoqrafiyası xüsusi yer tutur. Zərifə xanım oftalmomorfoloji, histomikroskopik və histokimyəvi tədqiqatlara həsr olunmuş elmi əsərlərin də müəllifidir. Onların arasında "Gözün və görmə sinirinin yaşla əlaqədar dəyişiklikləri" və "Gözün hidrodinamik sisteminin anatomik-fizioloji xüsusiyyətləri" monoqrafiyalarını qeyd etmək olar.

Onun elmi fəaliyyətinin bir istiqaməti də klinik-diaqnostik müayinələr olmuşdur ki, bunların nəticəsində həkimlər üçün hazırlanmış bir sıra tədris kitabları nəşr edilmişdir, bu sırada ilk növbədə "Terapevtik oftalmologiya" və oftalmoloji cəmiyyətdə böyük məmnuniyyətlə qəbul edilmiş "Oftalmologiyanın aktual problemləri" kimi gözəl monoqrafiyaları göstərmək lazımdır. Zərifə xanım deontologiya və həkim etikası məsələləri ilə yaxından məşğul olmuş və bu haqda öz fikirlərini "Yüksək əqidə" adlı gözəl monoqrafiyasında yekunlaşdırmışdır.

Zərifə xanım Əliyevanın elmi fəaliyyətinin çox maraqlı və perspektiv istiqamətlərindən biri iridodiaqnostika və iridoterapiya problemi olmuşdur. Bu tədqiqatların əhəmiyyəti oftalmologiya çərçivəsindən çıxır. Zərifə xanımın elmi axtarışlarının nəticəsi "Gözün bəbək haşiyəsinin adaptasiya-qoruyucu vəzifəsi haqda" elmi işinin və o zaman Sovet İttifaqında ilk dəfə çıxan, tayı-bərabəri olmayan iki monoqrafiyanın nəşr edilməsi olmuşdur. Bu monoqrafiyaların biri "İridodiaqnostikanın əsasları" Bakıda, ikincisi "İridodiaqnostika" Moskvada çapdan çıxmışdır. O, buynuzlu qişa, sklera, büllur kimi parairidal strukturların patoloji dəyişiklikləri və qüzehli

qişada olan markerlər arasında diaqnostik əlaqələrin mövcudluğu haqda gözəl fikirlər söyləmişdir, bu da yeni maraqlı tədqiqatların başlanğıcı üçün bir təkan olmuşdur. Zərifə xanım Əliyevanın tibbi elm və təcrübəyə, tibbi kadrların hazırlanması işinə töhfəsi çox böyük və qiymətli olub. Onun elmi irsinə 14 monoqrafiya, 170-dən artıq elmi əsər, o cümlədən ixtiralar, metodik tövsiyələr və səmərələşdirici təkliflər daxildir.

Zərifə xanımın çoxtərəfli elmi fəaliyyətinin, nəzəri və təcrübi təbabəti zənginləşdirmiş şəxsi töhfəsinin, elmi və həkim kadrlarının hazırlanması işinin nəticəsi 1983-cü ildə onun Azərbaycan Respublikasının Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə əlamətdar olmuşdur. Gərgin elmi fəaliyyəti ilə yanaşı, Zərifə xanım müəllimlik işinə və tədris prosesinin təşkilinə böyük diqqət yetirirdi. O, istedadlı müəllim və çox gözəl mühazirəçi idi, gənc həkimlərə və elmi əməkdaşlarına öz geniş biliklərini böyük məmnuniyyətlə çatdırırdı. Üslubunun sadəliyi və gözəl, bədii ifadəsi, fikir dərinliyi və aydınlığı, yüksək nəzəri səviyyəsi, qeyri-adi erudisiyası, məharətlə hazırlanmış əyani material, zəngin klinik təcrübəsindən çəkilmiş misallar, ziyalı siması dinləyiciləri heyran edirdi. Zərifə xanımın təcrübi, həkimlik işini də xüsusi qeyd etmək lazımdır. Məntiqli zəkaya, aydın təfəkkürə malik olaraq, Zərifə xanım çox gözəl, diqqətli, xəstəliyin gözə çarpmayan əlamətlərinin axtarışında yorulmaz bir diaqnost və klinisist olmuşdur. O, müşahidələrini bir anda ümumiləşdirməyi bacarırdı və yeganə düzgün qərara gələ bilirdi. Akademikin praktiki oftalmologiyada geniş bilikləri, bir çox dərman preparatının xüsusiyyətlərinə əla bələd olması xəstələrin müalicəsini yüksək səviyyədə aparmağa imkan verirdi. Onun prinsipiallığı, vətəndaş cəsarəti Elmi Şuranın iclaslarındakı, konfrans və qurultaylardakı, digər yüksəksəviyyəli toplantılardakı gözəl çıxışlarında həmişə öz əksini tapırdı.

Akademik Zərifə Əliyeva böyük ictimai iş də aparırdı. O, keçmiş ittifaqın Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, Ümumittifaq "Bilik" Cəmiyyətinin İdarə Heyətinin üzvü, Ümumittifaq Oftalmoloqlar Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Akademik Zərifə Əliyevanın xidmətləri orden və medallarla mükafatlandırılmışdır. Ona Azərbaycan Respublikası Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu 2001-ci ildən akademik Zərifə Əliyevanın adını daşıyır. Zərifə xanım Əliyeva bütün şüurlu həyatını, əməli fəaliyyətini milli oftalmologiyanın inkişafına həsr etmişdir, Azərbaycan oftalmologiyasının əsl fədaisi olaraq, dünyada onun tanınmasında mühüm rol oynamışdır. Zərifə xanımın oftalmologiyanın inkişafında xidmətləri çoxdur, onlardan biri 1977-ci ildə Bakıda yeni Oftalmoloji Mərkəzin tikintisi haqqında irəli sürülmüş təşəbbüsüdür. Belə mərkəzin yaradılması Zərifə xanımın arzularından biri idi.

Vaxtilə Ulu Öndər Heydər Əliyev və Zərifə xanım bu arzunun həyata keçirilməsi üçün böyük səy göstərmişlər, onların sayəsində mərkəzin təməli hələ SSRİ dövründə qoyulmuşdur. Həmin arzu artıq həyata keçmişdir. Bu işdə instituta Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva dəstək olmuşlar. Yüksək keyfiyyətli, dünya səviyyəli diaqnostik və cərrahi avadanlıqla təchiz edilmiş mərkəz on dörd ildir ki, fəaliyyət göstərir. Burada oftalmologiya sahəsində olan bütün texnoloji yeniliklərin tətbiqi nəticəsində elmi tədqiqatların və müalicə prosesinin dünya oftalmologiyasında qəbul olunmuş səviyyəyə yüksəlməsi məsələsi həll edilmişdir. Mərkəzdə hər bir şərait yaradılmışdır.

Respublika əhalisinə humanitar yardımın göstərilməsi çərçivəsinə mərkəzin səyyar avtomobil və dəmiryolu klinikalarının fəaliyyəti də daxildir. Müasir diaqnostik və cərrahi oftalmoloji avadanlıqla, muxtar elektrik, istilik, kondisioner sistemləri ilə təchiz edilmiş avtomobil və dəmiryolu qatarı hər bir şəraitdə işləyə bilirlər. Səyyar klinikalarda xəstənin müayinəsi və lazım gəldikdə cərrahi əməliyyatının aparılması üçün bütün imkanlar yaradılıb. Bu klinikalar 15 ildən artıqdır ki, ölkəmizin ən ucqar rayon və kəndlərinə müntəzəm şəkildə gedərək, əhaliyə yüksəkixtisaslı, müasir texnologiyalı cərrahi və terapevtik oftalmoloji yardım göstərirlər, Bakı şəhərinin müxtəlif ali tədris və digər müəssisələrində, məktəblərində və uşaq bağçalarında dispanserizasiya işini aparırlar. Bu günə qədər səyyar klinikalarda on minlərlə xəstə müayinə olunmuş, minlərlə xəstədə cərrahi əməliyyat aparılmışdır.

Mərkəzdə Zərifə xanımın əziz xatirəsinə həsr edilərək yaradılmış muzey hazırda bütün oftalmoloqların qürur hissi ilə ziyarət etdiyi bir məkandır. Burada Zərifə xanımın iş otağında istifadə etdiyi əşyalar, xəstələri müayinə etdiyi tibbi avadanlıqlar, müəllifi olduğu kitablar, elmi əsərlər, həyat yolunu əks etdirən çox dəyərli şəkillər, onunla ünsiyyətdə olmuş şəxslərin haqqında yazdıqları məqalələr yerləşdirilib. Bu muzeyə daxil olmuş hər bir şəxs üçün buradakı elmi kitablar və Zərifə xanımın elm və həyat yaradıcılığını əks etdirən dəyərli əsərlər əvəzsiz xəzinədir. Muzeydə qeyd olunmuş Zərifə xanımın dəyərli sözləri bütün insanlar üçün bir örnəkdir: "Həyatı nağıla çevirmək hər insanın öz əlindədir. Əsas odur ki, öz xeyirxahlığınla şərə qalib gələsən".

Bütün bu elmi fəaliyyəti ilə yanaşı, Zərifə xanım eyni zamanda qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olmuşdur. Bu ocaqda iki övlad böyüyüb. Onlar ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlardır. Zərifə xanım Əliyevanın adı Azərbaycanda fəxrlə, sonsuz qürur hissi ilə çəkilir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir.

Bütün ömrü boyu insanlara xidmət etmiş bir insanın, görkəmli alimin, xeyirxah, qayğıkeş ananın adının xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün fəxrdir. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq və qəlblərdə yaşayacaqdır.

AMEA-nın Qadınlar Şurasının sədri, professor Rəna MİRZƏZADƏ qeyd etdi ki, dünya gender elmi tarixində qadın şəxsiyyətlər var ki, onların həyat və fəaliyyətinə nəzər yetirəndə yaşadığı dövrün ictimai-siyasi hadisələrinin təsirinə də diqqət etmək gərəkdir.

- İstənilən millətin özünəməxsus tarixiləşən qadın şəxsiyyətləri vardır ki, onların xalq qarşısında xidmətləri unudulmazdır. İstedad, bilik, qabiliyyətləri ilə seçilənlər həm də əməksevər, xeyirxah olurlar. Belə qadın şəxsiyyətlərdən biri də Azərbaycan elmi və ictimai-siyasi dövlətçilik tarixində yeri olan akademik Zərifə Əliyevadır.

Yüzlərlə insanın gözünə nur, işıq verən Böyük Qadın, Böyük Ana olan akademik Zərifə Əliyevanın həyat yolu bir örnək, bir ailə məktəbidir. Bu məktəbin davamçısı Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin milli idarəçilik məktəbinin yetirməsi olaraq, Zərifə Əliyevanın elmi-ictimai dərslərindən örnək alaraq onun insani nəciblik və mərhəmət ənənələrini davam etdirir. Oxşar ictimai tale, oxşar yol və bu yolda paralelləşən əməllər…

Ulu Öndər Heydər Əliyev deyir ki: "Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam". Eləcə də Prezident İlham Əliyev söyləyir ki: "Mən xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur, Mənim anam əsl alim idi". Bu kəlamlar xoşbəxtliyin nümunəvi komponentləridir.

Zərifə Əliyeva Azərbaycan tibbşünaslıq və ictimai-elm tarixində möhtəşəm adı olan qadın alimdir. Mehriban xanım Əliyeva söyləyir: "İxtisas seçimimə həkim-oftalmoloq Zərifə xanım təsir göstərmişdi".

Zərifə Əliyeva - üç dövlət xadimini qovuşdurub birləşdirən akademik, oftalmoloq həkim, birinci xanım, ictimai xadim, Prezident anasıdırsa, bu paralellər vəhdətində Mehriban xanım da oftalmoloq həkim, humanizmdən elmi fəlsəfi iş yazan, Prezident gəlini, Prezident xanımı, ictimai-siyasi dövlət xadimidir. Bənzər tale yolları aydın görünür.

Mehriban Əliyeva qadının ailədəki rolunu və ailəyə münasibətini hər zaman önə çəkir və vurğulayır ki: "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hadisəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm". Mehriban Əliyeva akademik Zərifə Əliyevadan əxz etdiyi ənənələri yaşadır, milli-mənəvi dəyərlərin hamisi olmaqla ölkədə təhsilin, tibbin, mədəniyyət, mənəviyyat və digər sahələrin tərəqqisinə diqqət göstərir, müasir Azərbaycanı dünyada tanıdır. Azərbaycan qadınının - anasının yüksək mənəvi-mədəni keyfiyyətlərini ümumbəşəri dəyərlərlə əks etdirir.

Hər iki böyük qadının Azərbaycanın ictimai humanitar həyatında öz mərhəmət və şəfqət prinsipləri paralellər təşkil edir. Zərifə Əliyeva Sülhü Müdafiə Komitəsinin üzvü idi və sülh, barış məsələlərinə dair daim çağırışlar edərdi. Akademik Zərifə Əliyeva qeyd edirdi ki: "Nifrət edirəm müharibəyə, insanların əzab çəkməsinə dözmürəm". Mehriban xanım Əliyeva da bütün dünyada sülhü, ədaləti, barışı təbliğ edir, sülhməramlı səfirdir.

Zərifə xanım ailəcanlı ictimai xadim idi. Ulu Öndər söyləyirdi ki: "Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o, bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib". Mehriban Əliyeva qadını ailədə sülhün, razılığın və məhəbbətin təminatçısı hessab edərək deyir ki: "Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır, dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər".

Digər bir paralelliyə diqqət edək. Ulu Öndər Heydər Əliyev "Əsl məhəbbət haqqında" filmində vurğulayır: "Biz Zərifə xanımla Kislovodskidə tanış olduq.... və onu görən kimi bildim ki, ürəyimə girdi". Prezident İlham Əliyev müqəddəs dediyi anası Zərifə xanım və ömür dostu Mehriban xanım haqda deyir: "Təbii ki, hər bir ana kimi, mənim də anam gəlin tapmağa çalışırdı. Mehribanla tanış olanda özlüyümdə qərara aldım ki, bu qız xoşuma gəlir".

Zərifə xanımın taleyinə ali bir missiya - Heydər Əliyev kimi strateq şəxsiyyətin həyatının əbədi sevgisi, Mehriban xanımın da taleyinə eynən ali bir missiya - Qarabağı işğaldan azad edən Qalib Prezidentin həyat və əqidə yoldaşı olmaq yazıldı.

Akademik Zərifə Əliyevanın Azərbaycan oftalmologiya elminin tanıdılmasında xidmətləri çox istiqamətli olub, eləcə də Mehriban Əliyevanın müasir Azərbaycan mədəniyyəti, təhsili, tibb sahəsinin inkişafında fəaliyyəti geniş və çoxcəhətlidir. Akademik Zərifə Əliyeva novator alim, peşəsində yenilikçi idi. Zərifə xanımın həyatı, ailə və cəmiyyətdə rolu və yeri bir mənəviyyat, müdriklik, şəfqət məktəbidirsə, həmin məktəbin ardıcılı Mehriban Əliyeva da humanist modern rəhbər, xalqının "sevimli Mehribanı"dır.

Zərifə Əliyeva deyirdi ki: "Həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir və həkim xəstənin ən doğma adamıdır". Akademik N.Puşkovskaya "xeyirxahlıq Zərifə Əliyevanın həyat tərzi idi" deyərək onun yüksək keyfiyyətlərini dəyərləndirmişdi. Professor A.Brovkina ona "nəciblik və mənəvi paklıq timsalı" qiymətini vermişdisə, professor N.Şulpina "dünyaşöhrətli alim" adlandırmışdı. Mehriban Əliyeva da həkim-

filosof, ictimai-siyasi xadim və "sizin Mehriban" müraciətli Azərbaycan xalqının mərhəmət, xeyirxahlıq ünvanıdır.

Azərbaycan qadınının ənənəvi dəyərlərinin təcəssümü olan Zərifə xanım dövlət xadiminin qızı, dövlət başçısının xanımı, gələcəkdə Prezident olacaq oğulun, alim qızın anası, yüzlərlə insana nur, işıq verən peşəkar həkim, görkəmli alim, kübar, alicənab, insanları sevən, heç kimi incitməyən, hər kəsə kömək edən Böyük Qadın idi. Bütün bu keyfiyyətlər mərhəmət, şəfqət, humanizm kimi ali dəyərlərlə vəhdətdə ona əsl insan, əsl xanım, əsl həkim statusu qazandırmışdı.

Prezident İlham Əliyev Zərifə xanım haqda söyləyir: "Onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda yüksək mədəniyyət, alicənablıq - bütün bu müsbət keyfiyyətləri özündə birləşdirmişdi. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir. Bir alim kimi Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir".

Bu kontekstdən Prezident İlham Əliyev Mehriban Əliyeva haqda deyir: "Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük sevgi və rəğbətlə yanaşır". Prezidentin bu fikirləri həyat tərzinin elmi-etik, mədəni-mənəvi paradiqmal komponentləridir.

Prezident İlham Əliyev kədərli notlarla, bir övlad kimi söyləyir: "Onun (Zərifə xanımın) vəfatından sonra mənim həyatım, bütün ailəmizin həyatı dəyişildi. Yəni mən indi o vaxtlardakı kimi gülə bilmirəm, həyatımda xoşbəxt hadisə olanda düşünürəm ki, o da bunun üçün sevinərdi".

Çox ağrılıdır ki, Azərbaycanın müstəqilliyini, sevgili həyat dostu Ulu Öndərin və bütün şəfqəti ilə böyütdüyü yeganə oğlunun Prezidentliyini, bəyənib seçdiyi Mehriban xanımın fəaliyyətini, nəvələrini, doğma Vətəninin müasir inkişafını görə bilmədi, həyatdan tez getdi, amma ürəklərdə nəcib, mərhəmətli həkim, xeyirxah ictimai xadim, Azərbaycanın kübar qadını - böyük anası adını abidələşdirdi. Dövlət xadimi atasından aldığı nur, dövlət xadimi ömür dostu ilə keçirdiyi işıqlı mənəvi həyat, sevə-sevə böyütdüyü dövlət xadimi oğlunun "müqəddəs Anam" kəlamı ilə hər zaman nur-işıq saçan möhtəşəm qadın, daim anılacaq şəxsiyyətdir.

Fiziologiya İnstitutunun laboratoriya müdiri, biologiya elmləri doktoru, professor Elmira PƏNAHOVA qeyd etdi ki, Zərifə xanım Əliyevanın elmi araşdırmalarının əsasını təşkil edən ətraf mühit amillərinin görmə orqanına təsirinin mexanizmlərinin və qanunauyğunlarının tədqiqi həm də görmə sisteminin fiziologiyası haqqında biliklərin genişləndirilməsini tələb edirdi.

- Məhz buna görə akademik Zərifə Əliyevanın keçdiyi uğurlu elm yolunun böyük bir hissəsi akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu ilə bağlıdır. Burada alimin təşəbbüsü və bilavasitə rəhbərliyi altında 1979-cu ildə keçmis SSRİ məkanında ilk dəfə olaraq görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası yaradılmışdı. Yeni laboratoriyanın ilk tədqiqat işlərinin "Müxtəlif kimyəvi faktorların təsiri şəraitində işləyən insanların görmə orqanının kliniki-fizioloji və morfohistokimyəvi xüsusiyyətləri" mövzusu ətrafında qurulması da təsadüfi deyildi. Azərbaycan keçmiş SSRİ məkanında kimya sənayesinin mərkəzlərindən biri sayılırdı və müvafiq olaraq laboratoriyada aparılan tədqiqatların əsas məqsədi istehsalatda istifadə edilən müxtəlif kimyəvi maddələrin görmə orqanına uzunmüddətli xroniki təsirinin kompleks analizi və bu təsirin nəticəsi kimi baş verə biləcək dəyişikliklərin erkən diaqnostikası idi.

O dövrdə səhiyyənin, tibb elminin qarşısında duran fundamental problemlərdən biri peşə ilə bağlı az zərərli faktorların, aşağı dozaların xroniki təsiri altında orqanizmdə baş verən qeyri-spesifik, üzdə olmayan pozulmaların öyrənilməsi idi. Başqa sözlə, ətraf mühitin əlverişsiz faktorlarının təsiri zamanı orqanizmin adaptiv-kompensator mexanizmlərinin öyrənilməsi kimi fundamental, bu gün də öz aktuallığını itirməyən problem ön plana çıxmışdı. Bu problemlə bağlı nəinki Azərbaycanda, hətta keçmiş SSRİ-də oftalmologiya elmində yeni səhifənin açılması - görmə orqanının peşə xəstəliklərinin öyrənilməsi və profilaktikası üçün yeni üsulların işlənməsi Zərifə xanım Əliyevanın adı ilə bağlıdır.

Zərifə xanım öz tədqiqatlarında, gözün çoxsaylı oftalmoloji müayinələri ilə yanaşı, ilk dəfə olaraq elektrofizioloji metodlardan da geniş istifadə edirdi. İş yerlərində toksik maddələrlə təmasda olan işçilərin gözlərinin elektroretinoqrafik, elektrookuloqrafik, reooftalmoqrafik müayinəsi torlu qişanın müxtəlif hüceyrə elementlərinin funksional vəziyyətində baş verən dəyişiklikləri üzə çıxarmağa imkan yaradırdı. Paralel olaraq aparılan eksperimental tədqiqatlarda toksik maddələrin və bəzi fiziki faktorların gözün torlu qişasında funksional vəziyyətə, sərbəst radikal proseslərinə, neyromediatorların səviyyəsinə təsiri öyrənilirdi.

Zərifə xanımın elmi maraq dairəsində görmə orqanının, görmə analizatorunun yaşla bağlı dəyişikliklərinin tədqiqi xüsusi yer tutur. Onun "Gözün və görmə-sinir traktının yaş dəyişmələri" kitabı haqqında görkəmli rus oftalmoloq-alimi, akademik A.Brovkina demişdi: "Bu elmi əsər mahiyyət etibarilə oftalmologiyada yeni bir istiqamətin - oftalmoloji herontologiyanın başlanğıcını qoyur". Zərifə xanımın bu kitabı bu gün AMEA-nın Fiziologiya İnstitutunda həyata keçirilən herontoloji tədqiqatlar fonunda daha da aktual və qiymətli təsir bağışlayır.

Təəssüf ki, keçən əsrin 90-cı illərində respublikadakı ictimai-siyasi vəziyyətlə bağlı elmin inkişafında yaranan tənəzzül dövründə Zərifə xanımın laboratoriyasının fəaliyyəti dayandırıldı. Yalnız 2016-cı ildə həmin laboratoriyanın fəaliyyəti bərpa olundu. Əvvəlcə institutda Görmənin Fiziologiyası yaradıcı qrupu yaradıldı və onun qarşısına görmə sisteminin pozuntularının neyrofizioloji mexanizmlərinin araşdırılması məqsədi qoyuldu. Çox qısa müddətdə yaradıcı qrup yaddaş, koqnitiv proseslər və görmə ilə bağlı davranış ilə əlaqəli neyrodegenerativ pozuntuların eksperimental modelləşdirilməsi üzrə tədqiqatları həyata keçirməyə nail oldu və həm nəzəri, həm də tətbiqi baxımdan əhəmiyyətli nəticələri əldə etdi. Tədqiqatların miqyası Elmin İnkişafı Fondunun dəstəyi ilə Belarus MEA-nın Fiziologiya İnstitutu ilə müştərək əməkdaşlıq layihəsi çərçivəsində daha da genişləndi, neyrodegenerativ xəstəliklər zamanı görmə funksiyasının pozulma mexanizmlərinin kliniki-neyrofizioloji tədqiqinə və bu pozulmaların reabilitasiyası üçün innovativ üsulların işlənməsinə istiqamətlənmə ideyası yarandı, bunun üçün qrupun kadr potensialı gücləndirilərək onun əsasında artıq 2021-ci ildə müstəqil "Görmənin və neyrodegenerativ xəstəliklərin fiziologiyası" laboratoriyası yaradıldı.

Hazırda bizim laboratoriyada elektrofizioloji eksperimentlər əsasında aparılan araşdırmaların və elmi tədqiqatların nəticələri həm oftalmoloji, həm də nevroloji klinikalar üçün əhəmiyyət kəsb edir. Onların əsasında biri xaricdə (Amerika) olmaqla 2 monoqrafiya çap olunmuşdur. Xüsusilə qeyd etmək istəyirəm ki, bu tədqiqatlar geniş beynəlxalq əməkdaşlıqla həyata keçirilir. O cümlədən Rusiya Elmlər Akademiyasının İ.Pavlov adına Fiziologiya İnstitutunun təklifi ilə bu istiqamətdə birgə tədqiqatların həyata keçirilməsi üçün institutlarımız arasında elmi əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqavilə çərçivəsində "Neyrodegenerativ proseslərin inkişafının proqnozlaşdırılması və psixofizioloji nəzarətin modelləşdirilməsi" adlı layihə işlənib hazırlanmışdır. Layihə üzrə fəaliyyət artıq başlanmışdır.

Akademik Zərifə Əliyevanın elmi ideyaları zaman keçdikcə öz aktuallığını daha da artırır və görmə haqqındakı elmin yeni istiqamətlərində öz əksini tapır.

Çıxışımın sonunda Zərifə xanımla bağlı xatirəmi sizinlə bölüşmək istəyirəm. O, cox sadə, insanlara qarşı diqqətli bir xanım idi. Onunla Fiziologiya İnstitutunun dəhlizində ilk görüşüm indiyə kimi yadımdadır. Mən onu ilk dəfə görəndə özümü itirdim və kim olduğunu bildiyim üçün çaşqınlıq hissi keçirdim. O, mənim çaşqınlığımı hiss edərək özü birinci salamlaşdı. Bu mənim ücün bir unudulmaz an olaraq yadımda qaldı. Gözəl insan, görkəmli alim, oftalmoloq Zərifə xanımın xatirəsi həmişə bizimlədir.

**Azərbaycan.** - 2023.- 9 aprel. - № 73. - S. 4-5.

## Görkəmli alim, mərhəmətli insan, müqəddəs ana

### Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə elmi konfransı

**Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib.**

Tədbirdən əvvəl konfrans iştirakçıları Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.

AMEA Rəyasət Heyətinin binasında keçirilən konfransı giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa HƏBİBBƏYLİ diqqətə çatdırdı ki, dövlət başçısı İlham Əliyevin "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 3 noyabr 2022-ci il tarixli Sərəncamından sonra ölkəmizin elm və təhsil müəssisələrində, səhiyyə sistemində görkəmli elm xadiminin yubileyi geniş şəkildə qeyd olunur.

Zərifə xanım Əliyevanın çoxcəhətli elmi və tibbi fəaliyyəti təkcə öz dövrü üçün deyil, bu gün üçün də mühüm əhəmiyyət kəsb edir və aktuallığını qoruyur. Ölkəmizdə XX əsrin birinci yarısına qədər daha çox terapiya və cərrahiyyə sahələrinin inkişaf etdiyini vurğulayan AMEA rəhbəri məhz Zərifə xanım Əliyevanın xidmətləri sayəsində əsrin ikinci yarısından başlayaraq Azərbaycanda oftalmologiya elminin və göz xəstəlikləri tədqiqatlarının inkişaf edən sahələrdən birinə çevrildiyini söyləyib.

"Bu, Zərifə Əliyevanın Azərbaycan tibb elmi qarşısındakı böyük məqsədlərindən biri idi. Zərifə xanım Əliyeva respublikamızı keçmiş Sovetlər İttifaqında və onun hüdudlarından kənarda da oftalmologiya üzrə elmi tədqiqat işləri aparılan nüfuzlu mərkəzə çevirmişdir. Zərifə xanımın göz həkimi kimi məşhurlaşması, bu sahədə məktəb yaratması ilə Azərbaycandan kənardakı tibb mərkəzlərinə xəstələrin axınının qarşısı alınmışdır. Zərifə xanımın bir məqsədi də ondan ibarət idi ki, o, rus həkimlərindən ibarət heyət yaradaraq, onları Azərbaycanın regionlarına aparır, müalicə işi təşkil edirdi. Zərifə xanım Əliyeva dünya tibb elminə yeni müalicə üsulları gətirmiş, bu istiqamətdə apardığı tədqiqatları təkcə nəzəri müddəalarla deyil, həm də o müddəaları formalaşdırmaqda ona əsas verən təcrübə ilə əlaqələndirməklə fərqlənmişdir", - deyə akademik İsa Həbibbəyli bildirib.

Qeyd edib ki, Zərifə xanım Əliyevanın Bakı Məişət Kondisionerləri Zavodu və Bakı Şin Zavodunda apardığı müşahidələr, yaratdığı tibbi müalicə və diaqnostika mərkəzi oftalmologiya sahəsində özünə qədər və ondan sonra aparılan tədqiqatlardan tam fərqli elmi nəticələrin əldə olunmasına öz töhfəsini verib. Məhz bunun nəticəsində ölkəmizdə 1960-cı illərə qədər geridə qalmış tibb sahələrindən biri sayılan oftalmologiya elmi artıq 1970-ci illərdə Moskva, Sankt-Peterburq kimi elm sahəsində əsas mərkəzlərlə bir sırada dayanmışdı və bir çox hallarda onlardan önə keçmişdi. Həmin illərdə dünyanın bir sıra ölkələrinin, həmçinin keçmiş SSRİ-nin görkəmli alimlərinin məqsədlərinin Bakıda keçirilən konfranslarda iştirak etmək, müzakirələr aparmaq, reallıqları görmək olduğunu deyən akademik İsa Həbibbəyli bunun birbaşa Zərifə Əliyevanın praktik və elmi fəaliyyəti ilə əlaqədar olduğunu söyləyib.

Həmçinin vurğulayıb ki, akademik A.Qarayev adına Fiziologiya İnstitutunda Zərifə xanımın yaratdığı və rəhbərlik etdiyi göz xəstəliklərinin diaqnostikası və profilaktikasına həsr olunmuş laboratoriya Azərbaycanda göz xəstəlikləri elminin hüdudlarını Səhiyyə Nazirliyinin dairəsində genişləndirərək akademik mühitə daşınmasında ən yeganə nümunədir.

"Zərifə xanım Əliyeva həm də ölkəmizdə böyük ictimai xadim kimi qəbul olunmuşdur. Zərifə xanımın obrazını canlandırarkən onun sədaqətli olması mütləq ön sırada gəlir. O, Əziz Əliyevin ocağında qazandığı sədaqət andını Heydər Əliyev kimi görkəmli dövlət xadiminin sədaqətli yoldaşı olmaqla, bütün dünyanın gözü qarşısında isbat etmişdir. Zərifə xanım Əliyevanın çoxcəhətli fəaliyyəti ölkəmizdə hər zaman yüksək qiymətləndirilmişdir. O, Əməkdar elm xadimi adına, "Qırmızı əmək bayrağı" ordeninə layiq görülmüş, o zaman üçün əlçatmaz sayılan "Averbax" mükafatının Azərbaycana gətirilməsinin mümkünlüyünü sübut etmişdir. Milli Oftalmologiya Mərkəzi Zərifə xanım Əliyevanın adını daşıyaraq ölkəmizin nüfuzlu tibb mərkəzlərindən biri kimi inkişaf etmişdir. Akademiyada Zərifə xanımın adına mükafat təsis olunmuşdur. Bakıda məktəb-lisey Zərifə xanımın adını daşıyır. Ən başlıcası isə Zərifə xanım Əliyeva Heydər Əliyev kimi görkəmli siyasi xadimin həyat yoldaşı, XXI əsrdə Azərbaycanın zəfər tarixinə adını yazdırmış Prezident İlham Əliyevin anasıdır", - deyə AMEA rəhbəri bildirib.

Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman ƏMİRASLANOV ölkəmizdə görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş silsilə tədbirlərin keçirildiyini, tədbirin isə tamamilə yeni formatda təqdim olunduğunu söylədi. Tədbirin "Azərbaycan" qəzeti, AMEA və Milli Məclisin Səhiyyə Komitəsinin birgə təşkilatçılığı ilə keçirildiyini qeyd edən akademik əlavə edib ki, belə bir mötəbər tədbirin ölkəmizin nüfuzlu əsas mətbu orqanı olan "Azərbaycan" qəzetində geniş işıqlandırılması böyük əhəmiyyət kəsb edir.

- Hər bir xalq öz şəxsiyyətləri ilə ucalır. Onların ömür nümunələri böyük ideallara aydın istiqamət verir. Məhz bu keyfiyyətlər, insanlara və insanlığa fayda gətirən əməllər həmin şəxsiyyətləri zamanın fövqünə qaldırır, əbədi abidələrini ucaldır. Xalqımızın belə əbədiyaşar şəxsiyyətlərindən biri də zəmanəsinin görkəmli oftalmoloq alimi, akademik Zərifə Əziz qızı Əliyevadır.

Mənalı ömür yolu, peşə fəaliyyəti və elmi yaradıcılığı ilə mənəviyyat, kamillik, müdriklik örnəyinə çevrilmiş Zərifə xanım Əliyeva bu gün də milyonlarla insanın qəlbində yaşayır, adı daim dərin ehtiramla, rəğbətlə anılır. O, tibbin mühüm istiqamətlərindən olan oftalmologiya sahəsində uzun illər dəyərli tədqiqatlar aparmış, elmə sanballı töhfələri, intellektual səviyyəsi, özünəməxsus tədqiqatçılıq məharəti ilə yüksək zirvələri fəth etmişdir.

Zərifə xanım 1923-cü ilin 28 aprelində Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində Azərbaycanın tanınmış ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Sonralar ailə Əziz müəllimin işi ilə əlaqədar Bakıya köçüb. Məktəbin son siniflərində Zərifə xanım artıq gələcək peşə seçimini müəyyən etmişdi. O da atası Əziz Əliyev kimi həkim olmaqda qərarlı idi. Bu bir tərəfdən atasının sənətinə vurğunluğundan irəli gəlirdi, digər tərəfdən də həkimliyin insan həyatı üçün nə qədər vacib olmasından, insanların bu müqəddəs peşə sahiblərinə böyük ehtiyacını duyub hiss etməsindən qaynaqlanırdı.

1941-1942-ci illər ən ağır, ən məşəqqətli dövr idi. II Dünya müharibəsi yenicə başlanmışdı. Bakıdakı bir çox binaları hospitallara çevirmişdilər. Zərifə xanımın yaşadıqları evin yaxınlığında da bir neçə hospital vardı. Buralar cəbhədən gətirilmiş yaralı hərbçilərlə dolub-daşırdı. Onların müalicəsi üçün tibbi heyət çatışmırdı. Zərifə Əliyeva dərsdən sonra rəfiqələri ilə birgə bu hospitallara gəlir, həkimlərə, tibb bacılarına kömək etməyə çalışır, yaralı hərbçilərə öz ailələrinə məktub yazmaqda yardımçı olurdu.

Zərifə xanımın yaşının erkən çağlarından şəxsiyyət kimi formalaşmasında böyüdüyü ailənin də çox mühüm rolu vardı. Azərbaycanın o dövrdə yaşayıb-yaratmış bir çox tanınmış elm və mədəniyyət xadimləri Əziz Əliyevin yaxın dostları idilər, onun evində tez-tez qonaq olardılar. Məktəbdəki yüksək təhsildən əlavə bu evdə mövcud olan sağlam düşüncə mühiti, aparılan söhbətlər Əziz Əliyevin övladları üçün böyük bir universitet təhsilinə bərabər idi. Bu mənada həkimlik sənəti erkən yaşlarından Zərifə xanım üçün tale seçiminə çevrilmişdi.

Zərifə xanım Əliyeva 1942-ci ildə orta məktəbi bitirib Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil oldu. O, fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə ona dərs deyən müəllimlərin də, tələbə yoldaşlarının da dərin rəğbətini qazanmışdı. İnstitutda təşkil olunan tələbə-elmi toplantılarında məruzələrlə çıxışlar edir, sərbəst mülahizələr yürüdür, dəyərli nəticələr çıxararaq tanınmış alimlərlə fikir mübadiləsi aparırdı.

Zərifə Əliyevanın özünə ixtisas kimi məhz göz həkimliyini seçməsi də təsadüfi deyildi. Onda bütün dünyada və Azərbaycanda traxoma xəstəliyi geniş yayılmışdı. Problemin miqyası haqqında təsəvvür yaratmaq üçün Ümumdünya Səhiyyə Təşkilatının həmin dövr üçün bir hesabatına diqqət yetirək: hesabatda bütün dünyada 400 milyona qədər insanın traxoma xəstəliyinə tutulduğu, bunun nəticəsində 80 milyondan çox adamın korluğa düçar olduğu bildirilirdi.

Bu xəstəlik Azərbaycanın bölgələrində xüsusilə tüğyan edirdi. Görmə orqanını sıradan çıxaran, bəzən hətta insanların tam korluğuna səbəb olan bu infeksion xəstəliyə qarşı təsirli vasitələr lazımi səviyyədə deyildi. Belə bir zamanda Zərifə xanım Əliyeva məhz oftalmologiyanı seçdi.

1947-ci ildə gənc həkim Azərbaycan Tibb İnstitutunda təhsilini başa vurub Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçməyə getdi. Buradakı iki illik kurs onun üçün böyük bir məktəb oldu. Zərifə xanım ixtisasına daha mükəmməl yiyələndi. 1949-cu ildə Vətənə döndü. Həmin ildən Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başladı. 1950-ci ildə isə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlara da başladı. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini məhz traxoma xəstəliyinin müalicəsinə həsr etdi. O illərdə gənc həkim bu xəstəliyə qarşı mübarizə aparan həmkarları sırasında traxoma xəstəliyinə qarşı həyata keçirilən müalicəvi və profilaktik tədbirlərin ön cərgəsində idi. Konkret müalicə təcrübəsindən əlavə, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirmə işləri aparırdı. Həmin dövrdə respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını, profilaktika tədbirlərini işləyib hazırlamaq da ciddi tələbata çevrilmişdi. Bu zərurəti görən Zərifə xanım elmi axtarışlarını əzmlə davam etdirirdi. Əsl vətəndaş mövqeyində dayanaraq ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin

qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlayaraq həyata keçirirdi. İşin çətinliyinə, məsuliyyətinə baxmayaraq, tezliklə bu sahədə böyük nəticələr əldə etdi. Bacarıqlı tədqiqatçı traxomanın müalicəsində o dövrün güclü antibiotiklərindən hesab edilən "Sintomisin"dən isifadə etməklə, yeni üsul tətbiq etmiş, uğurlu nəticələrə nail olmuşdu.

Zərifə Əliyeva apardığı elmi tədqiqatların nəticələrini 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edib tibb elmləri namizədi elmi dərəcəsi aldı. Onun təklif etdiyi müalicə metodunun tezliklə bütün respublikada tətbiqinə başlandı. Beləliklə, bu xəstəliyə qarşı mübarizədə ciddi dönüş əldə olundu. Bu baxımdan, dünya oftalmoloqları traxomanın sosial xəstəlik kimi ləğvində Zərifə Əliyevanın tarixi xidmətlərini bu gün də böyük ehtiramla qeyd edirlər.

Namizədlik dissertasiyasının müdafiəsindən sonra o, 1960-cı ildən 1967-ci ilədək Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışdı. Bu illərdə Zərifə Əliyeva praktik həkimlik fəaliyyəti ilə məşğul olur, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələri qəbul edirdi. Bir sözlə, fəaliyyəti təkcə klinikada qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını əhatə edirdi. Göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparır, elmi tədqiqatları üzərində çalışırdı. Zərifə xanım xüsusilə qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı mühüm elmi nəticələr əldə etmişdi.

1967-ci ildə oftalmoloq alim Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət alır. 1968-ci ildən o, sistemli şəkildə həmin dövrə qədər çox az tədqiq olunmuş mövzu - görmə orqanının patologiyası məsələləri ilə məşğul olmağa başlayır. Peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemi bütün ömrü boyu bu fədakar alimin maraq dairəsində idi. Zərifə xanım yod-sənaye müəssisələrində, neft-kimya zavodlarında çalışan şəxslərin görmə orqanına təsir edən amillərə xüsusi diqqət yetirməyə başlayır.

Alim bu problem üzərində iş apararkən çox vaxt sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Bununla da genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zərərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

Alimin çoxillik elmi araşdırmalarının nəticəsi olaraq kimya sənayesi işçilərinin göz xəstəliklərinin tədqiqini ümumiləşdirən, ciddi elmi nəticələr doğuran "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasını 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla müdafiə edir. O, öz tədqiqatı zamanı şin və yod istehsalı sahəsində çalışan 1500-dən çox insan üzərində müşahidələr aparmış, spesifik iş şəraitinin, sanitar-gigiyenik durumun görmə orqanlarına mənfi təsirini elmi dəlillərlə sübuta yetirmişdi. Dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilmişdir.

Zərifə xanımın elmi araşdırmaları əmək müəssisələrinin ekologiyası məsələsini gündəmə gətirir və günümüz üçün də son dərəcə aktualdır. Elmi-tədqiqat işlərinə paralel olaraq Zərifə Əliyeva pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında əvvəlcə kafedranın dosenti, professoru, daha sonra müdiri vəzifəsində çalışmışdır. Həkimlərin diplomdan sonrakı hazırlıqlarının tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmışdır. Onun təkmilləşmə kursu keçən həkimlərə oxuduğu mühazirələrin, apardığı praktik məşğələlərin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi kimi mühüm istiqamətlər təşkil edirdi.

Bu illərdə Zərifə xanım praktik həkimlik fəaliyyətindən də bir an olsun kənarda qalmırdı: müntəzəm şəkildə cərrahiyyə əməliyyatları aparır, xəstələrin müalicə və müayinəsi ilə məşğul olurdu. Görkəmli alim həm də əsl elm təşkilatçısı idi. O, ətrafına istedadlı gənc həmkarlarını toplayaraq elmi-tədqiqat işlərini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil etmişdi.

Zərifə xanım oftalmologiyanın qlobal problemlərinin elmi həlli yolunda bir sıra konkret təşəbbüslərlə çıxış etmiş, 1977-ci ildə onun təklifi ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Belə bir möhtəşəm tədbir respublikamızda ilk dəfə keçirildiyindən böyük təşkilatçılıq bacarığı, gərgin zəhmət və təcrübə tələb edirdi. Akademik Zərifə Əliyeva bu işlərin öhdəsindən uğurla gəlmiş, Bakıda yüksək səviyyədə təşkil olunmuş plenum ümumən keçmiş ittifaqda böyük maraqla qarşılanmışdır. Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü də bəyənmişdir. Zərifə xanımın elmi nailiyyətlərinin bir çoxu Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutu ilə bağlıdır. Çünki onun təklif etdiyi laboratoriya 1979-cu ildə burada yaradılmışdı. Bu laboratoriya Azərbaycan oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi sayılırdı. İndi də həmin məktəbin yetirmələri Zərifə xanımın elmi ənənələrini davam və inkişaf etdirirlər. Laboratoriyanın tədqiqat bazası Bakı Məişət Kondisionerləri Zavodu idi. Burada elmi tədqiqatlarla yanaşı, müalicə işləri də aparılırdı. Bu mənada, Zərifə xanım Əliyeva alimlik istedadı ilə həkimlik bacarığını mahir şəkildə özündə birləşdirmişdi. Akademik həm görmə patologiyasının müalicə metodlarını

təkmilləşdirmiş, həm də özünün kəşf etdiyi görmə aparatı vasitəsilə kompleks diaqnostika və erkən cərrahi müalicə üsullarının müvəffəqiyyətlə tətbiqinə başlamışdı.

Akademik Zərifə Əliyeva böyük elmi məktəb yaratmış alimlərdən idi. Onun fədakar zəhməti sayəsində ərsəyə gəlmiş dərs vəsaitləri, dərsliklər, monoqrafiyalar bu gün də təkcə Azərbaycanda deyil, ümumən dünyada oftalmologiya elminin inkişafına xidmət edir. Gənc ixtisaslı həkimlərin və bu sahədə tədqiqatlar aparan alimlərin yetişməsinə kömək göstərir. "Kəskin virus konyunktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Gözyaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və digər əsərləri Zərifə xanım Əliyevanın tibb elminə sanballı töhfələridir. Alim gözyaşı aparatı xəstəliklərinin öyrənilməsinə də xüsusi diqqət yetirmiş, bu mövzuya həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Gözyaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının banisinə çevrilmişdir.

Zərifə xanım tibb elminin nadir sahələrindən olan iridodiaqnostika və iridoterapiya problemlərinə də diqqət yönəltmişdir. Onun bu mövzuda iki monoqrafiyası çapdan çıxmışdır. Bunlar "İridodiaqnostikanın əsasları" və "İridodiaqnostika" monoqrafiyalarıdır. Onu da xüsusi qeyd edək ki, dünya miqyasında iridodiaqnostikaya dair ilk kitablar məhz akademik Zərifə Əliyevaya məxsusdur.

1980-ci ildə Zərifə Əliyevanın "Şin istehsalında gözün peşə patologiyası", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri" adlı üç monoqrafiyası çapdan çıxmışdır. Alimin daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların deyil, həm də fizioloqların diqqətini cəlb etmişdir. Alim müasir dövrdə də hər bir oftalmoloqun stolüstü kitabı olan "Terapevtik oftalmologiya" əsərinin müəlliflərindən biridir.

Həkimlik etikası Zərifə xanım Əliyevanı daim maraqlandıran əsas məsələlərdən idi. Çünki o, özü həkimlik sənətini bu peşənin yüksək etikası işığında sevmişdi. Onun üçün əsl həkimlik meyarı atası Əziz Əliyevin bütöv şəxsiyyəti idi. Uşaqkən ilk gördüyü, insanların sağlamlığı, milli səhiyyəmizin inkişafı üçün hər cür fədakarlığa qatlaşan həkimlər idi. Zərifə xanım həkimliyi bu insanların nurlu simasında təsəvvür edirdi və özü də həkimlik etikasını uca tuturdu. İnsan sağlamlığını ictimai sərvət, insanların gözlərinə nur bəxş olunmasını bəşəri humanizm kimi səciyyələndirirdi. O, belə bir ali dəyəri gənc həkimlərə də ötürməyə çalışırdı. Onların mənəvi tərbiyəsi, həkimlərin peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsi və həlli üçün əməyini əsirgəmirdi. Zərifə xanımın bir çox məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuşdu. Alimin "Yüksək etimad" kitabı bu gün də "Hippokrat andı"na sadiq qalan, özünü əsl tibb işçisi kimi, yetişdirmək istəyən həkimlərin stolüstü kitabıdır. Zərifə xanım bu kitabında həkimlə xəstənin birbaşa əlaqəsinin müalicənin əhəmiyyətini yüksəltdiyini, xəstəyə ümid verdiyini, orqanizmin xəstəliyə qarşı müqavimətini artırdığını, bəzən dava-dərmandan da güclü təsir göstərdiyini yazır.

Alim kitabında həkim və xəstənin qarşılıqlı münasibətlərinin başlıca qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Akademik Zərifə Əliyeva həmkarlarına həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi insanı sağaltmaqla onu öz məninə qaytarmaq idi. Bu baxımdan, alim hesab edirdi ki, tibb elminin fəlsəfəsini dərk etmək üçün, ilk növbədə, sağlam mənəvi-intellektual mühit, bütün tibb ictimaiyyətinin mənəvi-əxlaqi meyarlara yiyələnməsi tələb olunur.

Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini idi. Bu sahədə fədakarcasına çalışırdı. Bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirir, dəyərli çıxışlar, məruzələr edir, dünya xalqlarını hər çıxışında sülhə, əmin-amanlığa səsləyirdi.

O, respublika "Bilik" cəmiyyəti idarə heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti idarə heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü kimi maarifçilərimizdən gələn ənənələri də uğurla davam etdirirdi.

Zərifə xanım Əliyevanın tibb elminin inkişafı və pedaqoji kadrların hazırlanması sahəsindəki xidmətləri daim yüksək qiymətləndirilmişdir. 1980-ci ildə bu xidmətləri nəzərə alınaraq ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. 1981-ci ildə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işləri, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyası oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Onu da qeyd edək ki, Zərifə xanım keçmiş SSRİ-də belə yüksək mükafata layiq görülən ilk qadın alim idi. 1983-cü ildə isə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir.

Həyatın, taleyin ona bəxş etdiyi ən böyük mükafat isə Zərifə Əliyevanın malik olduğu və elmi-ictimai işlərinin gərginliyinə rəğmən hər zaman qoruduğu qadın incəliyi və zərifliyi idi. Zərifə xanım Əliyeva qayğıkeş

ana, gözəl, vəfalı ömür-gün yoldaşı missiyasını da uğurla yerinə yetirirdi. O, Ümummilli Lider Heydər Əliyevin ən sadiq silahdaşı olmuşdur. Zərifə xanım Əliyeva Vətənimiz üçün iki layiqli övlad tərbiyələndirmişdi. Bu gün Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirmiş dövlət rəhbərimiz cənab İlham Əliyevə bu torpağa, bu Vətənə tükənməz sevgini aşılamış dəyərli anadır.

Akademik Zərifə xanım Əliyeva ilə bağlı düşüncələrdən bir həqiqəti dərk edirsən ki, ömrünü böyük mənəvi ideallara həsr etmiş şəxsiyyətlər heç zaman unudulmur. O ideallar yaşadıqca, var olduqca Zərifə xanım kimi şəxsiyyətlər də yaşayır.

2023-cü ilin xalqımız üçün əhəmiyyətli dövr olduğunu qeyd edən səhiyyə nazirinin müavini Nadir ZEYNALOV vurğuladı ki, bu il tanınmış oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə bərabər, onun ömür-gün yoldaşı, dahi şəxsiyyət, görkəmli siyasi xadim, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də 100 illik yubileyi təntənə ilə qeyd olunur.

Akademikin şəxsi keyfiyyətlərindən, humanistliyi ilə seçilən peşəsi haqqında ətraflı bəhs edən Nadir Zeynalov Zərifə Əliyevanın oftalmologiya sahəsində həm praktik həkim kimi çalışdığını, həm də uzun illər ərzində elmi tədqiqatlar apardığını, yaşadığı dövrdə respublikamız üçün real problem olan gözün traxoma xəstəliyi ilə yaxından maraqlandığını, öz araşdırmalarını bu problemin həllinə yönəltdiyini bildirdi. Traxoma xəstəliyi gözlərin infeksion xlomidi törəyicisi tərəfindən yaranan bir xəstəlikdir ki, müalicə olunmasa, tam korluğa gətirə bilər və keçən əsrin ortalarında bu, Azərbaycanda ciddi bir problem idi. Zərifə Əliyevanın tədqiqatları nəticəsində traxoma xəstəliyinin müalicəsində yeni bir üsul meydana gəldi, tədricən bu xəstəliyin ölkəmizdə yayılmasının qarşısı alındı.

Ötən əsrin 60-70-ci illərində keçmiş SSRİ məkanında sənayenin, o cümlədən kimya sənayesinin sürətli inkişafının iqtisadi artıma səbəb olması ilə yanaşı, insan sağlamlığına mənfi təsirlər göstərdiyini də qeyd edən Nadir Zeynalov akademik Zərifə Əliyevanın göz xəstəliklərinin peşə amili ilə bağlı məsələ ilə ciddi məşğul olduğunu, həm praktik, həm elmi, həm də təşkilati baxımdan nizamlı bir sistem yaratdığını bildirdi: "Akademikin təşəbbüsü ilə müəssisələrdə tibb məntəqələri təşkil olunmuşdu ki, burada yaradılan peşə ilə bağlı göz xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicə sistemi keçmiş SSRİ respublikaları üçün bir nümunə olmuşdur".

Nazir müavini qeyd etdi ki, 1982-ci ildə Zərifə Əliyevanın həmmüəlliflərlə birgə "İridodiaqnostikanın əsasları" kitabı işıq üzü görüb və burada alternativ təbabət, Şərq xalq təbabəti sahəsinə aid olan diaqnostika üsulları geniş şərh edilib. Akademikin tibbi etika və deontologiya sahəsində də araşdırmalar apardığını bildirən Nadir Zeynalov əlavə etdi ki, Zərifə xanım Əliyeva həkim və pasiyent, həkim və cəmiyyət arasında münasibətlərin necə olması ilə əlaqədar elmi əsərlər yaradıb.

Çıxışının sonunda görkəmli akademikin oftalmologiya sahəsi üzrə elmi məktəb yaratdığını deyən nazir müavini o məktəbin yetirmələrinin bu gün də respublikanın tibb sahəsində çalışdıqlarını vurğuladı.

Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illik yubileyini yalnız elm ictimaiyyətinin deyil, bütün xalqımızın əlamətdar tarixi məqamı kimi səciyyələndirən "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV bildirdi ki, görkəmli alim ictimai sferada da fəal olmuş, respublikamızda qadın hərəkatının inkişafında yaxından iştirak etmişdir:

- Adını respublikamızın elm tarixinə həkk etmiş görkəmli şəxsiyyətlərimizin arasında Zərifə Əliyevanın xüsusi yeri var. Çünki Zərifə xanım elmlə yanaşı, həm də ölkəmizin ictimai həyatında, qadın hərəkatının inkişafında iz qoymuş, böyük xidmətlər göstərmiş dəyərli insandır. Bu baxımdan biz Zərifə Əliyevanın həyat və yaradıcılığına hansı prizmadan müraciət etsək görərik ki, görkəmli alimimizin həyat amalı yalnız öz vətəninə və xalqına xidmətdən ibarət olub.

Haşiyə çıxaraq diqqətinizə çatdırmaq istərdim ki, bu günlərdə akademik Zərifə Əliyevanın "Yüksək əqidə" kitabını yenidən oxudum. Xatırladım ki, kitabdan parçalar "Azərbaycan" qəzetində dərc olunur. Bu əsərdə özünün ifadə etdiyi kimi, Zərifə Əliyevanın həyat amalını insanlara sevgi, onların xoşbəxt və sağlamlığı naminə fədakarlıqla pərvanəyə çevrilmək təşkil edib. Qızıl hərflərlə yazdığı ömür kitabının səhifələrini vərəqlədikcə də görürük ki, Zərifə xanım həyat yolunda yalnız nəcibliyi və mərhəməti özünün mayakı sanıb, insanların gözünə, könlünə nur çiləyərək neçə-neçə zülmət dünyalara ziya bəxş edib.

Burada dəyərli alimlərimiz Zərifə Əliyevanın alim kimi fəaliyyəti, tibb elminə töhfələri barədə ətraflı bəhs etdilər və növbəti çıxışlarda da bu barədə söz açılacaq. Mən onu qeyd etmək istərdim ki, Zərifə xanımın respublikamızın tibb elminə və oftalmologiyanın inkişafına töhfələri nə qədər misilsizdirsə, onun həkim peşəsinə vurğunluğu, bu peşəyə verdiyi dəyər və önəm bir o qədər qüdrətlidir. "Yüksək əqidə" əsərində həkimlik peşəsinin ucalığından bəhs edən Zərifə Əliyevanın vurğuladığı kimi, həkim xeyirxah olmalıdır. Həkimlərin "Hippokrat andı"nın da yüksək humanizm və insani dəyərlərə söykəndiyini yazan görkəmli alimimiz qeyd edir ki, xəstəlik fiziki cəhətdən nə qədər mürəkkəbdirsə, xəstənin ruhi aləmi də o qədər incə, nazik olur. Kömək etmək və onu qala kimi möhkəmlətmək üçün həkim ürəyinin atəşini və öz gücünü əsirgəməməlidir.

Zərifə Əliyevanın bir həkim kimi fəaliyyətində ali insani keyfiyyətlər hər zaman özünü qabarıq büruzə verib. "Yüksək əqidə" əsərindən də aydın olur ki, o, müraicət edən pasientlərinə sadəcə bir həkim kimi yanaşmayıb. Zərifə xanım onlara həm də dərdlərinə şərik çıxan insan kimi yanaşıb və xəstəliklə üzləşmiş şəxsləri müalicə etdikdə özünü dünyanın xoşbəxti sanıb. Pasientlərə yardımını əsirgəməyən, ümidsizliyə qapılmağa qoymayan Zərifə Əliyeva özünün yüksək mənəviyyatından irəli gələrək həmin insanların fiziki sağlamlıqlarının keşiyində möhkəm dayanıb, böyük ürək sahibi kimi onlara dayaq durub.

Zərifə xanım bunu həm peşə, həm də insanlıq vəzifəsi hesab edib. Əsərində Zərifə Əliyeva bu barədə yazır: "Vicdan bizim əsas hakimimizdir. Çətin dəqiqələrdə də, xoşbəxt saatlarda da onunla baş-başa qalanda o soruşur: Ağ xalat geyinməyə haqqın varmı? Sənin əllərin xəstəlikdən əziyyət çəkənə yalnız biliyini deyil, həm də qəlbinin həyəcanını, ürəyinin yanğısını çatdıra bildimi? Düzünü desək, vicdanın şəxsi mühakiməsindən şərəflə keçmək böyük xoşbəxtlikdir. Yaxşı həkim həmişə xəstə ilə birlikdə həyəcan keçirir, pasientin ağrısı elə həkimin şəxsi ağrısıdır. Əgər sağlamlığını itirən şəxs yenidən ona malik olursa, demək, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır".

Bəli, o, öz tibbi fəaliyyətini ilk növbədə insan sağlamlığına həsr etmişdir. Amma onun fəaliyyətində diqqəti çəkən bir nüans da var ki, Zərifə Əliyeva öz işini yalnız xəstəxanada görməklə kifayətlənmirdi. Bu baxımdan həkimlik və elmi fəaliyyətini bilavasitə insan orqanizmi üçün zərərli olan sənaye müəssisələrində həyata keçirməsi isə Zərifə Əliyevanın yüksək mənəvi dünyasının təcəssümü idi. Belə müəssisələrdə yaratdığı laboratoriyalarda apardığı genişmiqyaslı təcrübi tədqiqatlar nəticəsində görkəmli alim, həm də zəhərli maddələrin görmə orqanına təsirlərini öyrənərək tibb elmində mühüm yeniliklərə imza atmışdır. Çıxışlarda da qeyd olunduğu kimi, təcrübələrinin, tədqiqatlarının nəticələri Zərifə xanımın doktorluq işinin əsasını təşkil etmişdir. Respublikamızda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə Əliyevanın adı ilə bağlıdır.

"Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamında da qeyd olunduğu kimi, alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə xanım oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülməsi isə bütün Azərbaycan elminin böyük uğuru idi. Zərifə Əliyeva həm də bu mükafata layiq görülən ilk qadındır.

Akademik Zərifə Əliyevanın tariximizdəki möhtəşəm izlərindən ən alisi məhz müasir Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyevin ən böyük çiyindaşı, ilham mənbəyi olmasıdır. 1969-cu ildə Heydər Əliyevin respublikamızın rəhbəri seçilməsi Zərifə Əliyevanın da həyatında yeni mərhələnin başlanması idi. Əlbəttə, ölkə rəhbərinin xanımı olmaq mühüm sosial status, eyni zamanda böyük məsuliyyət idi. Bu baxımdan böyük şəxsiyyət, əbədiyaşar Heydər Əliyevin ən etibarlı silahdaşı kimi Zərifə xanım bu məsuliyyətin də öhdəsindən layiqincə gəlmişdir. Zərifə Əliyeva haqqında xatirələri oxuyanda, foto və videoxronikaları izləyəndə görürük ki, o, heç vaxt xüsusi seçilməyə, fərqlənməyə çalışmamış, müxtəlif imtiyazlar qazanmaqdan uzaq olmuş, təvazökarlığını və sadəliyini qoruyub saxlamışdır. Bütün bunlar onun zəngin mənəvi dünyasının təcəssümüdür.

Zərifə Əliyeva bir azərbaycanlı xanımı kimi nümunəvi həyat yoldaşı olmaqla bərabər, qayğıkeş ana kimi də örnək idi. Bu baxımdan Zərifə Əliyevanın həyatdakı digər möhtəşəm imzası onun Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, millətimizə zəfər yaşadan cənab İlham Əliyevi bəxş etməsidir. Dövlətimizin başçısının daşıyıcısı olduğu yüksək keyfiyyətlər, milli dəyərlərimizə son dərəcə bağlılığı da öz mənbəyini Heydər Əliyev və Zərifə Əliyeva dünyasından götürür. Bu iki böyük və mənəvi baxımdan zəngin insanın təlim-tərbiyəsi başqa cür ola da bilməzdi.

Bir alim, həkim kimi Zərifə Əliyevanın fəaliyyəti çoxşaxəli olduğu üçün işi də az olmamışdır. Amma bütün bunlara baxmayaraq, ailə qayğısı və övladlarının təlim-tərbiyəsi məsələsi Zərifə Əliyeva üçün hər şeyin fövqündə dayanmışdır. Zərifə Əliyevanı yaxından tanıyanlar onu ailəsinə və övladlarına olduqca bağlı, eyni zamanda gərgin iş qrafikinin olmasına baxmayaraq, övladlarının tərbiyəsini xüsusi diqqət mərkəzində saxlayan fədakar ana kimi xatırlayırlar. O, xarakterindəki ən gözəl xüsusiyyətləri, insanlara qayğı ilə yanaşmağı və vətənə məhəbbət hissini övladlarına da ötürmüşdür. Sözsüz ki, möhtərəm Prezident İlham Əliyevin qazandığı bütün uğurlarda, bu gün dünyanın ehiram olunan siyasi liderləri ilə bir cərgədə dayanmasında, xalqımızın sevgisini qazanmasında Heydər Əliyevin və Zərifə xanımın təlim-tərbiyəsi əvəzolunmaz rol oynamışdır.

Bütün bunlara görə biz Zərifə Əliyevanı yalnız görkəmli alim, insanlara nur verən şəfqət mücəssəməsi kimi deyil, həm də mükəmməl ömür-gün yoldaşı, fədakar ana kimi anırıq. 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin Zərifə xanımla bağlı söylədiyi fikirlər, əslində, Azərbaycan qadınının ailədəki rolu barədə ən dolğun təəssürat formalaşdırır: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab

edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

Zərifə Əliyeva həm də icitmai fəaliyyətlə məşğul olmuşdur. O, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. İctimai sferadakı fəallığının daha bir nümunəsi kimi Zərifə Əliyeva ötən əsrin 70-ci illərində respublikamızda qadın hərəkatının liderlərindən biri kimi diqqət çəkmişdir. Zərifə Əliyeva ictimai sferadakı uğurlarına respublikanın birinci şəxsinin həyat yoldaşı olduğuna görə nail olmamışdı. O, yüksək statuslara özünün elmi fəaliyyəti, zəngin mənəviyyatı ilə sahib olmuşdu. Alimlərin, yaradıcı insanların dostu olmaqla yanaşı, Zərifə Əliyeva öz xeyirxah əməlləri ilə həm də sıravi vətəndaşların himayədarı idi və bu gerçəklik heç vaxt diqqətdən qaçmayıb.

Bu gün biz həmin xeyirxahlığı Heydər Əliyev, Zərifə xanım ocağının gəlini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin ayrı-ayrı nümunələrində görürük. Bütün bunlar göstərir ki, Zərifə Əliyevanın irsi yaşayır, xeyirxahlıq missiyası davam etdirilir. Zərifə Əliyeva kimi Mehriban Əliyeva da çoxşaxəli fəaliyyətini insanların rifahına yönəldir, köməyə ehtiyacı olanlara dayaq durur.

Cəmi 62 il yaşasa da, Zərifə Əliyeva şərəfli bir ömür sürmüş, öz elmi yaradıcılığı ilə adını Azərbaycan tibb elminə həkk etmişdir. Onun yaratdığı elmi irs isə bu gün də Azərbaycanı dünyada tanıdır, ölkəmizə uğurlar qazandırır. Ona görə Zərifə Əliyevanın əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulacaq, ehtiramla anılacaq.

**(Ardı var)**

**Azərbaycan.** - 2023.- 8 aprel. - № 72. - S. 1,6-7.

**Xatirələrdə yaşayan böyük alim, dəyərli ziyalı**

**Zərifə xanım Əliyeva - 100**

**Təranə Paşayeva,**
psixologiya üzrə fəlsəfə doktoru

**Azərbaycan oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftalmoloq, Azərbaycanın Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın 100 illik yubileyi qeyd edilir.**

Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanı xatırlayanda həm də göz önündə mənəvi kamilliyinin ən uca zirvəsində dayanan görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Eyni zamanda, onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük. Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın portretini tamamlayan əsas cizgilərdir.

Ümummilli Lider Heydər Əliyevin öz ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbət duyğuları insanı riqqətə gətirəcək qədər təsirlidir. Zərifə xanım Ümummilli Liderlə çiyin-çiyinə addımlayır, qayğısına qalır, çətin günlərdə ona arxa-dayaq olurdu. Bu yükü kövrək çiyinlərində böyük mətanət və fədakarlıqla daşıyırdı. Eyni zamanda, övladlarını Vətənin layiqli övladları kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirirdi.

Sıravi həkimlikdən akademikliyə qədər yüksəlmiş Zərifə xanım oftalmologiya elminin inkişafına dəyərli töhfələr verib, bu sahə üzrə yüksək ixtisaslı kadrlar yetişdirilməsinə böyük əmək sərf edib. Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Bütün bu uğurların kökündə isə akademik Zərifə Əliyevanın aldığı həyat dərsi dayanırdı. Doğulub boya-başa çatdığı mühitin onun taleyində həlledici rolu olub. Zərifə xanım 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Atası Əziz Əliyev rektor, nazir, Mərkəzi Komitənin katibi, Baş nazirin müavini kimi yüksək vəzifələrdə çalışmış, dərin intellekti və təşkilatçılıq bacarığı ilə böyük nüfuz qazanmışdı. Atasının yolunu davam etdirməyi, gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir. Oftalmologiya peşəsinə yiyələnmək arzusu isə gənc mütəxəssisi Moskva şəhərinə aparıb çıxarır və o, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnir.

Zərifə xanım ilk növbədə həkim idi, bu peşəni çox uca tuturdu. Həkimi günəşə bənzədərək deyirdi: “Həkim insanlara Günəş qədər lazımdır”.

Həmin dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı, traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. İnsanları bu bəladan xilas etmək, eləcə də digər aktual problem olan gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq lazım idi. Zərifə xanım Əliyeva məhz belə bir vaxtda Moskvadan Vətənə qayıdır və Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Çox keçmədən Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində uğurlu nəticələrə nail oldu. Tədqiqatlarının yekunu olaraq 1960-cı ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapdı və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olundu.

Görkəmli alim sonra fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə Zərifə xanım oftalmologiyanın aktual problemlərinə xüsusi diqqət yetirirdi. Bu problemlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının peşə patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiqi ilə əlaqədar idi. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. Görkəmli alim dünyada ilk olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və

elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub. Zərifə xanım Əliyeva bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparıb. Bu tədqiqatların nəticələri "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyevaya keçmiş İttifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatı verilmişdi. O, həmin mükafata layiq görülən ilk qadın alim idi.

Zərifə xanım bir sıra dərs vəsaiti və monoqrafiyaların da müəllifi olub. Onların arasında "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri", "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" əsərləri xüsusi yer tutur. Alimin göz yaşı xəstəliklərinə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri tibb ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdı. Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. Dünya miqyasında iridodiaqnostikaya aid kitabları da ilk dəfə Zərifə xanım Əliyeva yazıb.

Təsadüfi deyildi ki, Zərifə xanımın birbaşa rəhbərliyi altında gənc elmi işçilərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmiş, o özündən sonra dəyərli məktəb qoymuşdu.

Biri-birindən dəyərli 150-dən çox elmi əsərin, 12 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

Təbabətdə öz dəst-xətti olan novator alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər müasir dövrdə də aktuallığını itirməyib. Böyük alimin əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır.

**İki sahil.-**2023.-8 aprel.-№60.-S.11.

**Evdən yox, eldən gedən insan – "Zərifə Əliyeva-100"**

**Həmkarlarının və pasiyentlərinin "qoruyucu mələk" adlandırdığı görkəmli alim**

**Lalə Mehralı**

Azərbaycan azsaylı ölkələrdəndir ki, tarixi boyunca çox güclü, savadlı, hökmran, qüdrətli qadınlara vətən olub. Doğrudur, hər xalqın tarixində böyük qadınlar, sözün həqiqi mənasında qeyrətli analar olur. O qadınlara ona görə "böyük analar" deyirlər ki, təkcə öz övladlarının deyil, bütün xalqın anası olurlar. Onlar üçün öz ömrü yox, başqalarının ömrü əsas olur. Elə bu səbəbdəndir ki, bu nümunəvi insanlar öz həyatlarını insanların sağlamlığına, cəmiyyətin xoşbəxt gələcəyinə həsr edirlər. Azərbaycan tarixində silinməz iz qoymuş belə böyük insanlardan biri də Zərifə Əliyevadır. İnsan var, vəfatı ilə bir evdən gedir, insan var, bütöv bir eldən. Zərifə Əliyeva eldən gedən insanlardan idi.

**Oftalmologiya elminə yeniliklər gətirən alim**

Görkəmli pedaqoq, istedadlı alim, bacarıqlı həkim, böyük ictimai xadim və ən əsası gözəl qadın, dəyərli ana kimi tanıdığımız Zərifə Əliyevanın 100 illik yubileyi ərəfəsindəyik. Azərbaycan xalqı onu həmişə böyük ehtiramla yad edir. Dəyərli oftalmoloq alimimiz Zərifə Əliyevanın yüzlərlə insana işıq bəxş edib, qaranlıqdan çəkib çıxarıb. O zülmətə qərq olan gözlərə nur verib, köməksizlərə həmdəm olub- əsl insan olub, əsl həkim olub.

"Hippokrat andı" Zərifə xanım Əliyeva üçün toxunulmaz dəyər olub, o öz peşəsinə ömrü boyu vicdanla yanaşıb. Səmərəli və zəhmətsevər fəaliyyətində əsil insani dəyər olan vicdana, səmimiyyətə böyük önəm verib. Bütün bilik və gücünü, istedad və bacarığını insanların sağlamlığının qorunmasına və yaxşılaşmasına sərf edib, saysız-hesabsız müalicələri ilə göz xəstəliklərinin qarşısını almağa səy göstərib.

Zərifə Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib.

Fəaliyyəti boyunca onlarla araşdırmaya, elmi məqalələrə imza atan Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb.

Qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb. Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olub.

Zərifə xanım Azərbaycan tibb elminin tarixində, onun şöhrətlənməsində ləyaqətli yer tutmuş görkəmli alim və mütəxəssislərdən biri idi. Dünya tibb elminə yeni nailiyyətlər bəxş edib akademik adına yüksələn Zərifə xanım Əliyeva dəyərli ziyalı və alim kimi respublikamızın hüdudlarından kənarda da yaxşı tanınmışdı. Onunla birlikdə elmi iş aparanlar onun nailiyyətlərindən, yüksək mədəniyyətindən, nəcib xüsusiyyətlərindən hər zaman iftixarla danışıblar.

**Zərifə Əliyeva məşhur həmkarlarının gözü ilə...**

Görkəmli alim N.Puçkovskaya xatirələrində yazır ki, Zərifə Əliyevanın fəal təşkilatçısı olduğu oftalmoloqların qurultaylarının birində nümayəndələrdən birinin ayağının sındığını və onun müalicəsinə Zərifə xanımın necə can yandırdığını yaxşı xatırlayır: "O, hər gün xəstəxanaya gəlir, xəstənin halına qəlbən yanır, hətta lazım olan şeyləri öz evindən gətirirdi ki, müalicəyə xeyri dəysin. Zərifə xanım xəstəyə bir-iki gün deyil, bütün müalicə müddətində hər gün baş çəkdi".

1979-cu ildə Oftalmoloqlar Cəmiyyətinin Moskvada keçirilmiş iclasında Zərifə xanımın möhtəşəm çıxışı həmin illərdə mətbuatda çox yazıldı. Zərifə Əliyeva peşəkar bir natiq kimi həkimin mənəvi tərbiyəsi, dövrün ən müasir tibb etikası və mənəviyyatı məsələləri haqqında çox maraqlı məruzə ilə çıxış edib. Çıxışdan sonra Sovet oftalmologiyasının patriarxı, akademik M.M.Krasnov ona yaxınlaşaraq qarşısında baş əyib və onun əlindən öpüb: "Mənim sadəcə sözüm yoxdur! Sizə heyranam!" – deyib.

Rusiyalı məşhur oftalmoloq, tibb elmləri doktoru, professor Z.M.Skripçenko Zərifə xanım Əliyeva haqqında xatirələrində onu "Qoruyucu mələk" adlandırır: "Bir dəfə Zərifə xanımla birlikdə həmkarlarımızın evində qonaq idik. O, yüksək intellektli adamların əhatəsində öz cəlbedici sadəliyi və həyat eşqi ilə seçilirdi. Siz təsəvvür edirsiniz, bir həkim fortepianoda musiqiyə xüsusi rəng verərək populyar melodiyalar, rəqslər ifa edirdi! O sanki həm də peşəkar pianoçu idi. Zərifə xanım dinləyiciyə əsərin varlığını, mahiyyətini çatdırmağı bacarırdı. Zərifə Əliyevanın tələbələri ona professionallığın və müdrikliyin canlı nümunəsi olan professor kimi baxırdılar.

O, həmişə məntiqli və eyni zamanda, səmimi danışırdı, yüksək nitq mədəniyyəti ilə seçilir və tələbələrində xüsusi həvəs yaradırdı".

Məşhur oftalmoloq, akademik A.Nesterov onun haqqında böyük ehtiramla "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli həkim idi." deyə danışıb.

"O, ailəmizin möhkəmliyinin memarıdır"

Onun saf məhəbbəti ömür-gün yoldaşına, Ümummilli Lider Heydər Əliyevə də güc verirdi. Zərifə xanım ömrünün axırına qədər həyat yoldaşına ləyaqətli ömür-gün yoldaşı, arxa-dayaq olub. Vəfatından uzun illər sonra belə Heydər Əliyev onunla bağlı danışanda hər dəfə kövrəlir, göz yaşlarını boğa bilmirdi. Bir qadının qiymətini bundan artıq necə ifadə etmək olar ki?

Ulu Öndər Heydər Əliyevin xatirələrindən: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

**Müzəffər lider yetişdirən ana oğlunun gözündə necədir?**

Prezident İlham Əliyev anası haqqında hər zaman böyük ehtiram və məhəbbətlə danışıb. O Zərifə xanımın xüsusiyyətlərinə, mehribanlığına, təvazökarlığına heyran olduğunu deyir: "Anam atamın yalnız ömür-gün yoldaşı deyildi, eyni zamanda bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq".

Prezident xatırlayır: "1970-ci illərdə atam Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. Çox təvazökar idi. Anam bəziləri üçün o, necə deyərlər, son ümid yeri idi. Hətta tanımadığı adamlar belə müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O, çalışırdı ki, hər kəsə kömək göstərsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı və o məsələlərin böyük əksəriyyəti öz həllini ədalətlə tapırdı. Zərifə xanım daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı".

İlham Əliyev anasının böyük musiqi zövqünü də xatırlayır: "O çox istedadlı insan idi, hərtərəfli istedadlı idi. Yalnız öz sahəsini yox, musiqini də çox sevirdi. Anam istənilən melodiyanı, istənilən mahnını notlarsız çox böyük məharətlə, ustalıqla pianoda ifa edə bilirdi. Teatrı çox sevirdi və yadımdadır ki, 1970-ci illərdə onunla bərabər dəfələrlə Azərbaycan teatrlarında olmuşam, bütün tamaşalara baxmışam. Elə tamaşalar var idi ki, biz o tamaşalara bir neçə dəfə bir yerdə baxırdıq. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olub. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, o hələ çox iş görə bilərdi".

Zərifə Əliyevanın bütün həyatı insanlara xidmətə həsr olunub. Bu, yüksək vətəndaş mövqeyi, həssaslığı, insanlara qayğı və diqqəti sayəsində xalqın dərin hörmət və məhəbbətini qazanan Zərifə xanımın, ilk növbədə, böyük və parlaq şəxsiyyət olmasından irəli gəlirdi. Görünür, onun insanlara faydalı təsirinin sirri məhz bu yaradıcı qüvvədə, tükənməz mənəviyyatdadır və bu, hamının onu sevməsi və hörmət etməsi ilə bağlıdır.

**Səs.**-2023.-11 aprel.-№61.-S.8-9.

**Yüksək əqidə**

**(Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)**

**Dünyada ən qiymətli nemət sağlamlıqdır deyirlər!**
**Və bəzən biz bunu sağlamlığımızı itirdikdən sonra dərindən dərk edirik.**
**El-oba, xalq üçün gərəkli insanlar da belədir!**
**Onları itirdikdən sonra yerləri boş qalır, gözlərimiz daim axtarır-arayır...**
**Akademik Zərifə xanım Əliyeva xalqımızın qəlbində özünə yurd salmış gərəkli, fədakar, həm də təvazökar insanlardandır.**
**Ömrünü-gününü təkcə ailəsinə, övladlarına deyil, həm də insanların sağlamlığına həsr etmişdir.**
**İnsanların gözünə nur, ürəklərə işıq bəxş edərdi...**
**Bir alim kimi daim arayıb-axtarmış, Azərbaycan üçün xarakterik sayılan göz xəstəliklərinin müalicəsi üçün uzun illər tədqiqatlar aparmış, üsul və vasitələr tapmışdır.**
**Zərifə xanım Əliyevanın həm də özünəməxsus həkim fəlsəfəsi, xəstələrə yanaşma metodu, prinsipləri olmuşdur.**
**Bütün bunları o, qələmə aldığı "Yüksək əqidə" kitabında həssaslıqla əks etdirmişdir.**
**Dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə bu il həm də akademik Zərifə xanım Əliyevanın yüz illik yubileyi qeyd olunacaqdır.**
**Şanlı yubiley ərəfəsində akademik Zərifə xanım Əliyevanın "Yüksək əqidə" (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı) kitabından parçaları dərc edir, onun əziz və unudulmaz xatirəsini ehtiramla anırıq.**

Rusiyanın 50 quberniyasında cəmi 34 yerli başçı var idi. Bakı quberniyasında, Orta Asiyada, Sibirdə, başqa uzaq əyalətlərdə isə tamamilə yox idi. Bakı quberniyalarında - əhalisinin sayı 80000-dən 150000-ə qədər, ərazi sahəsi 5-10 min kvadrat verst olan dairədə cəmi 4 çarpayılıq məntəqə var idi. Məlum işdir ki, bu məntəqə əhalinin ən minimal tələbatını belə ödəmək imkanından məhrum idi.

Quberniya, qəza həkimlərinin çoxillik məlumatlarına (L.R.Kobilyanski, L.Nazareviç, N.D.Beqalov, Y.Kaminski və b.) görə əhalinin 60-70% ya məsafənin uzaqlığından, nəqliyyat xərcinin olmamasından, ya da normal yolun olmamasından, hətta bu 4 çarpayılıq məntəqəyə belə müraciət etmirdilər. Bu məntəqələrdə qəbulu əsasən feldşerlər aparırdı. Əgər məntəqədə həkim var idisə də, onlar daima (ayda 4-5 dəfə) tibbi məhkəmə fəaliyyətini ifa etdikləri üçün məntəqədə, yəni qəbulda, demək olar ki, heç olmurdular. İl uzunu bir çox ərazilərdə yoluxucu xəstəliklər tüğyan edərək insanları, demək olar ki, biçdiyi, məhv etdiyi halda tibb personalının çatışmaması və ya onların işinin həddindən artıq dərəcədə çox olması nəticəsində sanitariya və epidemiya əleyhinə işlər sıfır dərəcəsində idi.

Qəza həkimlərinin təkidi ilə şəhər rəhbərliyi Moskva Universitetinin görkəmli professoru, məşhur gigiyenaçı F.F.Erismana xahişlə müraciət etdilər ki, Bakıya bir sanitar həkimi göndərsin. Onun laboratoriyasında çalışan gigiyenaçı-həkim, elmlər namizədi N.R.Raak Bakıya ezam olundu.

Qəza həkimləri öz materiallarını açıq-aşkar şərh edərək, tibbi xidmətin çox pis vəziyyətdə olmasını sübut edərək, təkid etdilər ki, xüsusi komissiya yaradılsın. Təzyiq nəticəsində yaradılmış komissiya belə nəticəyə gəldi ki, Zaqafqaziya kəndlərində tibb, səhiyyə işləri son dərəcə yarıtmaz, dözülməz vəziyyətdə olduğu üçün o, yenidən təşkil olunmalı, genişləndirilməlidir. Kənd əhalisinə tibbi yardım göstərməyin əsasını yerli tibbi xidmət təşkil etməlidir. Lakin hökumət komissiyanın təklifini nəzərə almadı və Zaqafqaziyada yerli tibbi xidmət təşkil edilmədi.

Bir daha həkimlərin protestləri, onların toplayıb, şərh etdikləri faktiki məlumatlar hökuməti məcbur etdi ki, Zaqafqaziyada kənd həkimliyi haqqında qanun qəbul etsin.

Bu, həkimlərin öz mənafeyinə deyil, kapitalın təzyiqi altında əzilən xalqın mənafeyini qorumaq, humanizm məqsədini həyata keçirməkdə əlbəttə, böyük mənəvi qələbəsi idi. Onlar bu qələbəni möhkəm iradə, fədakarlıq, öz işlərində ardıcıl mübarizə hesabına qazandılar.

Bundan sonra əvvəlki qəbul məntəqələrinin əvəzinə hər qəzada 6 çarpayılıq kənd xəstəxanası və 2 fcldşer məntəqəsi açılması üçün qanun qəbul edildi. Bunlar təşkil ol-duqdan sonra orada ilk dəfə olaraq azərbaycanlılar - G.B.Mehmandarov, B.Q.Həsənbəyov, D.N.Ləmbəranski işləməyə başladılar. Əsas məsələlərin ən ümdəsi uşaq ölümü ilə mübarizə etmək, yetim qalmış uşaqların tərbiyəsi idi. Bu məsələni həyata keçirmək üçün Bakı həkim cəmiyyəti həm fiziki, həm də mənəvi cəhətdən son dərəcə böyük, ağlabatmaz fəaliyyət göstərdi. Bu işlə bizim respublikada tanınmış məşhur həkim Y.Y.Gindes çox böyük fəaliyyət göstərdi. O, yetim qalmış uşaqlar və yoxsulların uşaqları üçün xüsusi uşaq evləri açmağa nail oldu. O zamankı hökuməti Bakıda yenicə təşkil olunmuş Bakı həkim cəmiyyətinin fəaliyyəti narahat etməyə bilməzdi.

İnqilabın birinci ilində məşhur fövqəladə Piroqov qurultayı açıldı. Bu qurultayda Azərbaycanda tüğyan edən xolera, malyariya ilə mübarizədən başqa bir sıra siyasi məsələlər də gündəliyə çıxarılmışdı.

Qurultay iştirakçıları - bakılı həkimlər yerlərinə qayıtdıqdan sonra öz cəmiyyətlərinin yığıncağını keçirərək, heç nədən qorxmayaraq aşağıdakı qətnaməni irəli sürdülər.

"62 nəfərdən ibarət həkim əksər səslə Moskva şəhərində 21-24 martda keçirilən xoleraya həsr olunmuş qurultayın (bir nəfər əleyhinə olmaqla) qəbul etdiyi qətnaməyə qoşulmağı və onu özləri üçün mənəvi borc hesab edirlər".

Orta əsrin hər şeyi məhv edən, soyğunçuluq, sonradan ancaq çox az bir təbəqə üçün cənnət, əksər insanlar üçün isə cəhənnəm yaratmış kapitalizm şəraitində, kəskin müba-rizə nəticəsində həkimlərin çox yüksək mənəvi keyfiyyətləri cilalanırdı. Sonralar bu keyfiyyətlər təbabətdə çalışan zəhmətkeşlər və mütərəqqi düşüncəli bütün həkimlər üçün etalona çevrildi.

## HƏKİM - MƏĞRUR ADDIR

Əli Qubad oğlu Cavadov şosedə asfaltın üstündə uzanmışdı. Adamlar qaçır... Maşınlar sürətlərini azaldırdılar. Bir az aralıda isə əzilmiş və çevrilmiş təcili yardım maşını dayanmışdı.

Telefon zəng edən zaman doktor Cavadov tibb bacısı Tamara Əbiyeva ilə birlikdə poliklinikada növbədə idi. Telefon xəttinin o biri başında qadın səsi yalvarırdı: "Təcili həkim göndərin! Ürək tutması var!"

Təcili yardım maşını sirenasını işə salaraq magistrala çıxan zaman döngədən qəflətən "Zaparojes" maşını çıxdı və "Volqa" ilə toqquşdu.

...Cavadov cəld özünə nəzər saldı: deyəsən ciddi bir xəsarət almamışdı. Tez tibb bacısına tərəf qaçdı, onu müayinə edib, öz işlərinin öhdəsindən gələ bilib-bilməyəcəyini soruşaraq, yoldan keçən maşını saxlayıb xəstənin ünvanını dedi. Kömək tezliklə gəldi. Sonra 60 yaşlı həkim Ə. Cavadovu iki qabırğasının sınığı və tibb bacısı T. Əliyevanı orta dərəcəli beyin silkələnməsi diaqnozu ilə xəstəxanaya apardılar.

Bu yaxınlarda yol qəzasından xəsarət almış tibb işçiləri xəstəxanadan çıxdılar. Azərbaycan Respublikası səhiyyə nazirinin əmri ilə öz xidməti borclarını yerinə ye-tirərkən fədakarlıq göstərdiklərinə görə onlara təşəkkür elan olundu və qiymətli hədiyyələr təqdim edildi.

"Trud" qəzetində bu hadisə işıqlandırıldığına görə xüsusi müzakirəyə ehtiyac yoxdur. Tibb işçilərinin bu hərəkəti bizdə onlara qarşı dərin minnətdarlıq hissi oyatmış, onların fədakarlığı, təmənnasız işi və geniş qəlbə malik insanlar olmasını göstərmişdir. Buna baxmayaraq, bu fakt barəsində düşündükcə qənaətə gəlirsən ki, belə ağır və çətin vəziyyətdə demək olar ki, bütün həkimlərdə bu cür təbii reaksiyalar əmələ gəlir.

Şəxsən mənim özümə bəllidir ki, miokard infarktı ilə xəstəxanada müalicə olunan həkim cərrahiyyə əməliyyatı aparan növbətçi həkimi əvəz edərək, qonşu palatadakı xəstəyə təxirəsalınmaz yardım göstərmişdir.

Buna oxşar nümunələrdən çox göstərmək olar. Bununla əlaqədar olaraq həkim A.P.Çexovun sözlərini xatırlamaya bilmərəm:

"Həkim sənəti - qəhrəmanlıqdır. O, əsl fədakarlıq, qəlb genişliyi və fikirlərin paklığını tələb edir. Heç də hamı buna qabil deyil".

Təhsil aldığım beş il müddətində oxuduğum institutun dəhlizində ağ kağız üzərində səliqə ilə yazılmış bu sözləri demək olar ki, hər gün oxuyurdum. Bu sözlər mənim və həmkarlarımın qəlbinə elə hakim kəsilmişdi ki, biz seçdiyimiz bu sənətlə fəxr edir və gündəlik qəhrəmanlığa can atırdıq. Sevdiyimiz sənətlə fəxr etmək və sona qədər özümüzü bu işə fəda etməyimiz sanki təbii tələbat şəkli almış və daim qəlbimizdə qorunub saxlanmışdı.

Bəlkə də Çexov bunları deyərkən həkimin peşəkar xüsusiyyətlərini nəzərdə tutmuşdur.

Aydındır ki, həkimlik etikasının formalaşmasında sosial mühitin həlledici rolu var. Lakin hansı quruluş olur-olsun həkim, ümumiyyətlə tibb işçisi humanist, insansevər, qayğıkeş olmalı və hər zaman istənilən vəziyyətdə tibbi yardım göstərməyə daxilən hazır olmalıdır. Əgər hər hansı həkimdə bu daxili tələbat, yardıma çatmaq istəyi olmazsa, o insandan heç vaxt yaxşı həkim olmaz. Həkimin ürəyi, qəlbi daş olmamalıdır. O. lap varlı biznesmen də olsa belə, birinci növbədə öz həkimlik sənətinə sadiq qalmalıdır.

Amerika qəzetlərində həkimin xəstəyə soyuq və demək olar ki, vəhşi münasibətini əks etdirən materiallar dərc edilmişdir. Budur, bunlardan biri:

Baton-ruj (Luiziana ştatı) özəl xəstəxanaya avtomobil qəzasında ciddi xəsarət almış çox ağır vəziyyətdə olan iki gənc çatdırılmışdır. Ancaq həkimlər onların sığorta olub-olunmamasını bilmədiklərinə görə qəti surətdə onları xəstəxanaya qəbul etməkdən boyun qaçırmışlar. Xəstəxananın sahibi demişdir: "Düzdür, bizim ürəyimiz daşdan deyil, ancaq neyniyəsən, biz birinci növbədə biznesmenik".

... Və yaxud başqa misal. Klinikalardan birinin reanimasiya palatasında xəstənin həyatını saxlamağa kömək edən cihaz söndürülmüşdür. Düzdür, xəstənin sağalmasına ümid yox idi, lakin cihazlar qohumlarının xahişi ilə ölüm baş verməmişdən əvvəl söndürülmüşdü. Səbəb isə xəstəxanada qalmağın hər dəqiqəsinin çox yüksək xərcə başa gəlməsi idi.

Beyrutun "Ən-Nida" qəzetinin məlumatına görə, Misir Ərəb Respublikasının Prezidenti Camal Əbdül-Nasirin ölümünə səbəb İsrail kəşfiyyatının agenti Uteyfl adlı hə- kim-masajist olmuşdur. O, masaj zamanı get-gedə ürəyi iflic eləyən xüsusi məlhəmlə prezidenti masaj etmişdir...

1929-cu ildə ictimai xadim Qraden Millətlər Liqasının sessiyasındakı çıxışında bu cür həkim adlananların insana nifrət, eybəcərliklərlə müşayiət olunan mənəviyyatını açıb göstərmişdir. O, bildirmişdir: "Tibb sənəti sosial-siyasi kompleksdən ayrı götürülə bilməz. Müasir iqtisadi şəraitdə həkim sərbəst peşə sahibi kimi işləyir. Ancaq demək olar ki, həkim öz sağlamlığını ona etibar etmiş xəstələrin sağlamlığı ilə alver edən xırda sahibkara çevrilmişdir. Bu vəziyyət əsasən iqtisadi şəraitin nəticəsində yaranır. Həkim sanki öz xəstələrinin sağlamlığını qorumağa çalışır. Ancaq öz qazancı xatirinə onların sağlamlığının əleyhinədir. O, sağlamlıqla yox, xəstəliklə qazanır. Buradan da mənəvi düşgünlük, rəzalət üzə çıxır. Həkim nə qədər pula ehtiyac duyursa, bu düşgünlük daha sürətlə baş verir".

Xalqın sağlamlığı - xalqın nailiyyətidir. O da dövlət tərəfindən qorunmalıdır. Əgər insan xəstələnibsə, müraciət etdiyi həkim bütün tədbirləri görməlidir ki, onu tez bir zamanda sağaldıb əmək fəaliyyətinə qaytarsın.

Müasir həkim ən müasir müalicə üsullarından və ən səmərəli dərman vasitələrindən istifadə etməyə çalışır. Əgər ona nə isə aydın deyilsə, onun köməyinə daha təcrübəli iş yoldaşları gəlirlər.

N.N.Semaşko qeyd edir: "Həkim vəzifəsinin əsl humanistliyi ondadır ki, onunla xəstə arasında təmənna olmur və o, əhaliyə qarşı öz borcunu bu şəkildə yerinə yetirmiş olur".

Tarixə özünün təhlükəliyi və çoxlu insan tələfatına səbəb olan epidemiyalar məlumdur. Azərbaycanda belə epidemiyalardan biri - Taun epidemiyası zamanı tibb işçiləri əsl qəhrəmanlıq mücəssəməsi oldular.

1919-cu ilin qışı idi. Minlərlə insan tələfatına səbəb olan səpgili yatalağın epidemiyası özünün dağıdıcılığının zirvəsinə çatmışdı. Elə bu dövrdə V.İ.Lenin tərəfindən imzalanmış XKS-nin "Səpgili yatalaq haqqında" dekreti çap olundu.

Dekret əsasında və V.İ.Leninin göstərişlərinə uyğun təmizlik yaratmaq barədə fəhlə komissiyaları yaradıldı. Bununla da epidemiya ilə mübarizəyə geniş xalq kütlələri cəlb edildi.

(Ardı var)

Azərbaycan. - 2023.- 14 aprel. - № 77. - S. 7.

## Xalqımız qarşısında xidmətləri olan alim

**Əbədiyaşar dünyəvi ictimai-siyasi xadim bəşər tarixinə aftolmologiya elminin banisi olaraq daxil olmuş Zərifə xanım Əliyevanın xalqımız qarşısında, dünya xalqları qarşısında xidmətləri daim yüksək qiymətləndirilir**

**Dəmir Qurbanlı**
Heydər Əliyev siyasi kursunun təbliğatçısı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü,
"Azad Azərbaycan" qəzetinin şöbə müdiri, "Qızıl Qələm",- "Azərbaycan Bayrağı",
"Xalqın nüfuzlu ziyalısı", "Media" mükafatları laureatı

Müdrik rəhbərimiz, bənzərsiz dünyəvi siyasi xadim, Azərbaycan adlı şah əsərinin müəllifi və baş memarı, müasir, müstəqil dövlətçilik tariximizin banisi Heydər Əliyevin siyasi fəaliyyətinin ayrı-ayrı dövürlərindən müasir, müstəqil, demokratik, hüquqi, dünyəvi Azərbaycan Respublikasının qurucusu olaraq fəaliyyətindən bəhs edən çıxışlarımın davamı olaraq Ulu öndərin həyat yoldaşı, vətənpərvər qayğıkeş ana, akademik, dövlətimizin, xalqımızın müasir, müstəqil dövlətçilik tarixində xüsusi xidmətləri olan, keçmiş Sovetlər İttifaqında və dünyada çox böyük alim, ictimai-siyasi xadim olaraq tanınmış və fəaliyyətinə, işinə, mövqeyinə yüksək qiymət verilmiş Azərbaycanda və dünyada nümunəvi ailə modelini yaratmış, Ulu öndərimizə həmişə işdə, ailə həyatında dayaq olmuş, xalqımıza, dünya azərbaycanlılarına, türk dünyasına, mədəni, mənəvi, əxlaqi, insani keyfiyyətlərə malik olan humanizm ideyalarına sadiq vətənpərvər, ata vəsiyyətinə, siyasətinə əməl edən, yerinə yetirən, yüksək intellektli, siyasi təfəkkürə, biliyə, savada malik, dünya siyasətini, iqtisadiyyatını dərindən bilən, dünyanın qəbul etdiyi və məsləhətləşdiyi, XXI əsrin ən görkəmli siyasi xadimi, tarixi əvəz olunmaz siyasi xadim, xalqımızın xilaskarı, XXI əsr Azərbaycanını müdrik rəhbərin siyasətinin davamı olaraq iqtisadi, siyasi, hərbi üstünlüklərə gətirib çıxararaq, ərazi bütövlüyümüzü təmin edən dövlət başçımız, Milli Qəhrəmanımızı bəxş etmiş, dünyaya gətirmiş Zərifə xanım Əliyevanın fəaliyyəti barəsində də yüz illiyi münasibətilə geniş və əhatəli analitik təhlili məqalələr yazmağı vacib hesab edirəm. Müdrik rəhbərimiz Heydər Əliyev öz çıxışlarında, xatirələrində Zərifə xanımın onun həyatında, övladlarının sağlam ruhda, düşüncədə, savadlı, yüksək intellektli, yüksək mədəniyyətə malik, siyasi təfəkkürə, dünyagörüşə malik olmaqla böyüməlırində Zərifə xanımın bir ana kimi xidmətlərini yüksək qiymətləndirmişdir.

Zərifə xanım kimi ən yüksək insani keyfiyyətləri özündə cəmləşdirən, Azərbaycan qadınlarının ən parlaq siması olan insanla həyat yoldaşı olmaqla həmişə fəxrlə danışan Heydər Əliyev onun "Elegiya" abidəsini çox yüksək səviyyədə ucaltdırmışdır.

1997-ci il aprelin 15-də abidənin açılışında demişdir: "Deyə bilərəm ki, Zərifə xanımın ata-anası da bəlkə onu mənim kimi tanımayıblar, ona görə də mən Zərifə xanımın daxili mənəviyyatını tam bildiyim üçün görürəm ki, bu əsrdə bunların hamısı öz əksini nə qədər tapıbdır. Ona görə də bu əsər həm bədii, həm də fəlsəfi xarakter daşıyır və yüksək heykəltaraşlıq səviyyəsini nümayiş etdirir".

"Eligiya" əsəri Zərifə xanımın simasında ağıllı, gözəl, mərd, vətənpərvər, qeyrətli Azərbaycan qadınının ümumiləşdirilmiş bədii obrazını əks etdirir. Zərifə xanımı Heydər Əliyev qədər heç kəs o dərəcədə gözəl və əzəmətli təsəvvür edə bilməzdi. Ağ mərmər üzərində pak, zərif insanın heyranedici obrazı yaradılmışdır. Azərbaycan heç vaxt belə incəsənət incisi, abidəsi görməyib. Bu böyük sərvəti də xalqımıza məhz Heydər Əliyev dühası bəxş edib.

Bəşər tarixinə humanist, görkəmli ictimai xadim, oftalmoloq-alim olaraq daxil olan Zərifə xanım Əliyevanın dövlətimiz qarşısında xidmətləri əvəzsizdir. Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şaxtaxtlı kəndində dünyaya göz açıb. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub və 1947-ci ildə həmin institutu bitirib. Sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçib.

Zərifə Əliyevanın elmi tədqiqatlara olan sonsuz marağı onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmış və orada həkim-ordinator kimi işə başlamışdır. Zərifə xanım 1950-ci ildə aspiranturaya daxil olmuş, aspiranturanı bitirdikdən sonra Respublika Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. Həmin illərdə Azərbaycanı traxoma göz xəstəliyi bürümüşdü. O zaman xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi və onunla mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəlinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir. Konkret müalicə təcrübəsindən başqa o, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı.

Beləliklə, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirdi. Zərifə xanım tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə, bir az da dəqiq desək, traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsində, o dövr üçün yeni olan antibiotikdən-sintomitsindən istifadə olunmasına həsr etdi. Çünki sintomitsin geniş antibakterial spektrlərlə yanaşı, antixlamedik fəallığa malik idi. Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etdi.

Gənc alim Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi seçildi. Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işləri yekunlaşdırdıqdan sonra Zərifə xanım oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqat işləri apardı. Həmin tədqiqatların nəticələrindən bəhs edən elmi işlərin mətbuatda dərc olunması klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin genişlənməsinə kömək etdi. 1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmışdır. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona Oftalmologiya ixtisası üzrə böyük elmi işçi adı verilmişdir.

1967-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunur. Yeri gəlmişkən, bu institut ömrünün son illərində kollektivə rəhbərlik etmiş mərhum professor Əziz Məmmədkərim oğlu Əliyevin-Zərifə xanımın atasının adını daşıyırdı.

Həmin dövrdə Zərifə Əziz qızı həkimlik fəaliyyəti ilə məşğul olur, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verir, üstəlik onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edir. Bununla yanaşı o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyicisi həkimləri ilə pedaqoji iş aparır. Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə çox ciddi məşğul olmasına baxmayaraq Zərifə xanım elmi tədqiqat işlərinin davam etdirilməsinə böyük əhəmiyyət verir. Həmin dövrdə o, oftalmologiyanın bir sıra aktual məsələlərinə diqqət yetirir. Bu məsələlər arasında diaqnostika, qlaukomanın və görmə orqanını iltihabının müalicəsi və s. Xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi-görmə orqanının patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə yox, həm də bir çox yeni birləşmələrin görmə orqanına təsirini demək olar ki, elmi şəkildə tədqiq olunması ilə əlaqədar idi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsəd yönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayır. Qeyd etmək lazımdır ki, bir sıra ciddi elmi məsələlərlə yanaşı Zərifə xanım bütün ömrü boyu peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemlərinə xüsusi maraq göstərmişdir. Zərifə xanım bir problem üzərində iş apararkən çox vaxt bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Bununla yanaşı Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən Şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparmışdır.

Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir. Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanımın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. O, Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində - H. Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir.

Zərifə Əliyevanın dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur.

1977-ci ildə Zərifə xanım tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilir. 1983-cü ildə isə həmin kafedranın müdiri olur. Elə ilk gündən alim ətrafına istedadlı gənc həmkarlarını toplayaraq, elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bilir. Amma kafedranın mövcud bazası elmi tədqiqatların keçirilməsi tələblərinə cavab vermirdi. Təşəbbüs göstərmək lazım gəlirdi və Zərifə xanım bu problemin həlli yolunda bir sıra konkret addımlar atdı.

1977-ci ildə Bakı şəhərində Ümumittifaq Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin Plenumu keçirilir. Belə bir tədbir Bakıda ilk dəfə olaraq keçirilirdi və təbii ki, böyük təşkilatçılıq bacarığı və zəngin təcrübə tələb olunurdu. Plenuma hazırlığın və onun keçirilməsinin bütün ağırlığı Zərifə xanımın üzərinə düşdü. Bu plenumun keçirilməsi həm Azərbaycanda, həm də keçmiş ittifaqın ən yüksək akademik müəssisələrində oftalmologiya xidmətinin inkişafında, habelə elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynadı.

Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaradılması barədə professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü bəyəndi.

1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda Zərifə xanımın təşəbbüsü və təşkilatçılığı ilə yaradılan həmin laboratoriyada az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparıldı. Elmi araşdırmalar nəticəsində Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod

intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirdi. Bu əsərlər dünyanın elmi ictimaiyyətinin etimadını qazandı.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə-görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə, professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata- SSRİ Tibb Elmləri Akademiyasının M.İ. Averbax adına mükafata layiq görülür. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadındır.

1983-cü ildə Zərifə xanım Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki. Zərifə xanımın elmi maraqları yalnız görmə orqanının peşə patologiya problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin diferensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir.

Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, "Herpetik göz xəstəliyi", "Ağır virus konyuktivləri" və s. Məhz bu məsələlərə həsr olunmuşdur.

Həmin dövrdə Zərifə xanım qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş bir sıra maraqlı tədqiqatlar aparmışdır. Gərgin və gərəkli tədqiqatlar nəticəsində o, bir sıra elmi məqalələr və iki monoqrafiya - "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" və "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi" monoqrafiyalarını çap etdirmişdir.

Zərifə Əliyeva həm də gözün zədələnməsinin profilaktikası və müalicəsi imkanlarını öyrənmişdir. Bir sıra elmi işlərin o, görmə orqanı zədələndikdə mövcud ola cərrahiyyə əməliyyatları üsullarını araşdırmış, həmin üsulların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr işləyib hazırlamışdır. Bu tövsiyələr cərrahiyyə əməliyyatına məruz qalan zədələnmiş görmə orqanının müalicəsini xeyli yüngülləşdirmişdir.

Alimin bir sıra elmi işləri gömə orqanında bədxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur. Zərifə xanımın daktriologiyadan bəhs edən - "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini özünə cəlb edir.

Zərifə xanım Əliyeva fundamental "Terapevtik oftalmologiya" kitabının müəlliflərindən biridir. Bu kitab indi də oftalmoloq üçün stolüstü kitab olaraq qalır. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafına (gözün əlvan təbəqəsində dəyişikliyi, iridodiaqnostikanı) ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Həmin kitab bu gün həkimlərin iş təcrübəsində əvəzolunmaz elmi vəsaitdir.

Zərifə xanımın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor V.B. Şulpina və L.F. Moşetova ilə birlikdə) öz əksini tapmışdır. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün böyük əhəmiyyət kəsb edir.

Zərifə Əliyevanı həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf edib. Onun çoxşaxəli məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş "Yüksək etimad" kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət ki-mi formalaşması prosesinə dəyərli töhfə vermişdir.

Alim səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə də gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin təcrübə öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. O, heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır.

Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır. Böyük xidmətlərinə, çoxillik elmi tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilib.

Akademik Zərifə Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Dülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqların Elmi Cəmiyyəti İdarə Heyətində "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə xanım bir sıra orden və medallara layiq görülmüş, Azərbaycanın Əməkdar Elm xadimi fəxri adını almışdır.

Akademik Zərifə Əliyeva 1985-ci ilin aprel ayının 15-də Moskva şəhərində vəfat etmişdir.

Zərifə xanımın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxşaxəlidir ki, onun fəaliyyətinə nəzər salarkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olar. Onun fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, alim və həkimi üçün həyat, mənəviyyat dərsi, kamillik, müdriklik məktəbidir.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım haqqında tarixi sözlər demişlər. Məşhur oftalmoloq , akademik A. Nesterov demişdir: “Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən ona öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi”.

Akademik N. Puçkovskaya isə “Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi” deyərək - alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır.

Professor A. Burovkina ona nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır.

Professor N. Şurpina Zərifə xanımı dünya şöhrətli alim adlandıraraq “Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik” demişdir.

Zərifə xanım Əliyeva elmi, ictimai fəaliyyəti ilə yanaşı eyni zamanda özünün sadəliyi, insanpərvərliyi, humanist fəlsəfi dünyagörüşü, qayğıkeşliyi ilə nəinki respublikamızda, eyni zamanda SSRİ miqyasında ən öncül yerdə özünə layiq yer tutmuşdur.

Bu gün onun bu humanist dünya görüşündən bütün dünya iftixarla söhbət açır. Zərifə xanımın möhtəşəm abidəsi dünya dövlətləri başçılarının və xalqlarının, xalqımızın, türk dünyasının, bəşəriyyətin ziyarətgahına çevrilmişdir. O, eyni zamanda bəşər tarixinə bənzəri olmayan siyasi xadim olaraq daxil olmuş, əbədiyaşar Heydər Əliyevin ömür-gün yoldaşı olmaqla, ona həmişə mənəvi dəstək olmuşdur.

**Azad Azərbaycan.**-2023.-13 aprel.-№ 8.-S.4.

## Azərbaycanın ilk oftalmoloq akademiki

***Zərifə xanım Əliyeva – 100***

**Yazgül Abdıyeva,**
Azərbaycan Oftalmoloqlar Cəmiyyəti sədrinin müavini,
tibb üzrə fəlsəfə doktoru

Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan, oftalmologiya sahəsi üzrə ilk qadın akademik, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyevanın elmi tədqiqatları, təsirli müalicə üsulları ilə yanaşı, pedaqoji fəaliyyəti, peşəkar elmi kadrların yetişdirilməsindəki xidmətləri də danılmazdır. Fəaliyyəti müddətində hər zaman ciddi problemlərə toxunmuş, göz xəstəliklərinin qarşısını almaq və onları ən effektiv yolla müalicə etmək üçün çalışmışdır. Alimin bu gün də aktual olan elmi araşdırmaları və əldə etdiyi nailiyyətlər bir daha onun uzaqgörənliyini, böyük hədəflərə nail olduğunu sübut edir. Zərifə xanımın fəaliyyətində elmi bilikləri gənc alimlərə çatdırması böyük əhəmiyyət kəsb edir.

Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademi yasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-pro filaktika fakültəsini bitirmiş və Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İns titutunda oftalmologiya üzrə ixtisaslaş dırma kursu keçmişdir. 1953-cü ildə aspiranturanı bitirdikdən sonra 1957-ci ilədək Azərbaycan Elmi–Tədqiqat Of talmologiya İnstitutunda elmi işçi, bö yük elmi işçi, 1967-ci ildən isə Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstə likləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası la boratoriyasının və oftalmologiya kafed rasının müdiri (1982–1985) vəzifələrin də çalışmışdır.

İllər boyu apardığı müşahidələ rin, klinik tədqiqatların və təcrübələ rin nəticələri Zərifə xanım Əliyevanın “Azərbaycanın bir sıra kimya müəs sisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda doktorluq dis sertasiyasının əsasını təşkil etmişdir. O, elmi işini dünyada ən məşhur of talmologiya mərkəzlərinin birində – H.Helmqolts adına Moskva Göz Xəstə likləri Elmi-Tədqiqat İnstitutunda mü dafiə edərək, 1977-ci ildə tibb elmləri doktoru alimlik dərəcəsi almışdır.

Onun Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətləri ölçüyə gəlməzdir. Görkəmli alim vaxtilə Azər baycanda geniş yayılmış traxomanın, xüsusilə, kimya və elektron səna yelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktika sı və müalicəsinə, habelə oftalmologi yanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar aparmışdır. Eyni zamanda, “Terapevtik oftalmologiya”, “İridodiaqnostikanın əsasları” kimi na dir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi idi.

Zərifə xanım Əliyevanın rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmo loqların böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin hə yat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

O, Ümumittifaq Oftalmoloqlar Cə miyyəti Rəyasət Heyətinin, Sovet Sül hü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyə tinin, “Vestnik oftalmologiyi” (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuş dur.

1981-cı ildə oftalmologiyanın inki şafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsin də apardığı elmi tədqiqatlara görə, professor Z. Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax Mükafatına layiq görül müşdür. Qeyd etmək lazımdır ki, pro fessor Zərifə xanım Əliyeva həmin mü kafata layiq görülən ilk qadın olmuşdur.

Apardığı elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ic timai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlə ri layiqincə qiymətləndirilərək, 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan SSR Elmlər Akademiyasının akade miki seçilmişdir. O, fəal ictimai xadim kimi orden və medallarla təltif olunmuş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

…Onun həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişa fındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, fəaliyyətinə nəzər sa larkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olur. Zərifə xanımın fitri istedada ma lik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdi yi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün nümunə olan yüksək mənəvi keyfiy yətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılmış və bundan sonra da yazılacaqdır. Zərifə xanım Əliye vanın zəngin elmi irsi, oftalmologiya nın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, ya ratdığı fundamental əsərlər Azərbay can tibb elminin parlaq səhifələridir.

Akademik oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofil li tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müali cəsində, o cümlədən, Azərbaycanda traxomanın kökünün

kəsilməsində bö yük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi-tədqiqatlar aparmışdır. Ali min elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmiş dir.

Zərifə xanım Əliyevanın elmi fəa liyyətinin digər sahələrindən biri klinik diaqnostik istiqamətdə apardığı tədqiqatlardır. Bu tədqiqatların nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmlənmişdir. “Kəs kin virus konyunktivitləri”, “Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, katarakta lar”, “Qlaukoma və gözün hipertenzi yası”, “Görmə orqanının zədələnmə si”, “Göz yaşı axmasının fiziologiya və histologiyası”, “Şəkərli diabetdə göz xəstəlikləri”, “Gözün mikrocərrahiyyə si”, “Göz bəbəyi haşiyəsinin adaptasi ya və müdafiə funksiyası” və s. xüsusi qeyd edilməlidir. Alim göz yaşı xəstə liklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi “Yaşa parıcı yolların fiziologiyası”, “Yaşaparı cı yolların cərrahi müalicəsi”, “Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları” və digər əsərləri ilə Azərbaycan lakri mologiyasının əsasını qoymuşdur.

Bunlarla yanaşı, akademik nadir sahə olan iridodiaqnostika və iridotera piya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya – “İrido diaqnostikanın əsasları” və “İridodiaq nostika”nı hazırlamışdır. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazmışdır.

Görkəmli alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də peşə of talmologiyasına həsr edilmişdir. Alim dünyada ilk dəfə olaraq görmə orqa nının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin – “peşə oftalmologiyası”nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənil məsi Zərifə xanım Əliyevanın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatla rı alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır.

Böyük alim elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklə rini öyrənmiş və bu xəstəliklərin pro filaktikası tədbirlərini işləyib hazırla mışdır. Onun bu istiqamətdə apardığı elmi-tədqiqat işləri dünya ədəbiyya tında bənzəri olmayan nadir tədqiqat lar sırasındadır. Böyük alim uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparmışdır. Bu elmi-tədqiqat işlərinin nəticələri alimin “Şin istehsala tında gözün peşə patologiyası”, “Xro nik yod intoksikasiyası zamanı oftal mologiya” və “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” kimi qiymətli monoqrafiyalarında öz əksini tapmışdır.

Ülvi keyfiyyətlərə malik olan Zərifə xanım öz elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə xü susi yer vermişdir. Onun bu mövzuya dair baxışları oftalmoloji ictimaiyyət və praktik həkimlər tərəfindən bö yük rəğbətlə qarşılanmış və “Yüksək əqidə – həkimin yüksək vəzifəsi” və “Oftalmologiyanın aktual problemləri” adlı monoqrafiyalarında ətraflı işıqlan dırılmışdır. Zərifə xanım Əliyevanın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun “Həkimin əxlaqi tərbiyəsi, deonto logiya, tibbi etika və əxlaq məsələləri” əsərində daha ətraflı şəkildə əks olun muşdur.

Alim həkim və xəstənin qarşılıq lı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaq nostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin deyil, həm də tərbiyə sinin vacibliyini ön plana çəkmişdir. O, həkim–xəstə münasibətlərinə toxuna raq, insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkim lə xəstə arasında olduğunu göstərmiş və “Həkim xəstənin ən doğma adamı dır” – demişdir. Zərifə xanım ƏIiyeva nın tibbi etika və deontologiyaya dair məqalə və əsərləri ilə yaxından tanış olduqda, onun bu sahəyə dair işlərinin daha genişmiqyaslılığı və təkcə sə hiyyədə deyil, bütövlükdə cəmiyyətdə insanlar arasında münasibətlərə həsr edildiyi məlum olur.

Görkəmli dövlət və elm xadimi, bü tün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dün yaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan idi. O, eyni zamanda, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyə tin– ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dos tu və etibarlı silahdaşı olmuşdur.

Bütün həyatı boyu ona pənah gə tirənlərin gözlərinə şəfa verən Zərifə Əliyevanın alim kimi xidmətlərində daha bir məqam diqqəti xüsusilə cəlb edir. O da malyariya və traxomaya qar şı fədakarlıqla mübarizə aparan atası Əziz Əliyevin yolunu bacarıqla davam etdirməsi, oftalmologiya elminə çox bö yük töhfələr verməsidir.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbi ristanlığından Bakıya gətirilərək Fəxri xiyabanda, atasının məzarı yanında dəfn olunmuşdur. Lakin görkəmli alim, xeyirxah insan, qayğıkeş ananın adı nın xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəllidir. Biz onu sevir, onunla fəxr edirik.

Dünya oftalmologiya elminin ta nınmış simaları Zərifə xanım Əliyeva haqqında dəyərli fikirlər söyləyiblər. Görkəmli oftalmoloq, akademik A.Nes terov deyib: “Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi”. Akademik N.Puçkovskaya “Xe yirxahlıq Zərifə xanımın həyat tərzi idi”,– deyərək, onun yüksək insani key fiyyətlərə malik olduğunu

vurğulayıb. Professor A.Brovkina onu “nəciblik və mənəvi paklıq timsalı” adlandırıb. Pro fessor V.V.Şmelyeva demişdir: “Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu “Əvə zolunmaz insan haqqında povest” ad landırardım”.

Ruhu şad olsun!

**Xalq qəzeti**. - 2023.- 16 aprel. - № 79. - S. 5.

## Qayıt, əzizim...

**Günel Abbasova**

Bilmirəm, nə vaxtsa, qan bağınız olmasa da birinin yoxluğu sizi üzüb, ya yox. Amma mən bunu bir müddət əvvəl yaşamışam. Ötən ilin avqust ayında Müslüm Maqomayevin 80 illik yubiley konsertində idim. Hamı Müslüm Maqomayevlə bağlı xatirələrini bölüşürdü, ona ithaf edilən, onun vaxtilə oxuduğu ifaları səsləndirirdi. Həmin ifalar arasında bir mahnı mənə xüsusilə təsir etmişdi...

Mən o ifada insanın çox sevdiyi birini itirməsinin necə ağrılı olduğunu, öz əzizini qayıtmağa necə səslədiyini dərindən hiss etdim, yaşadım, hətta kövrəldim. Bu elə bir hiss idi ki, o acını bir neçə gün öz qəlbimdə hiss etdim. Söhbət Zərifə Əliyevaya həsr edilən “Qayıt, əzizim...” ifasından gedir. Bu mahnının qəlbimdəki yeri fərqlidir. Bilmirəm, indi başqa bir dərdi bölüşmək üçün dinlədiyim bu ifayla bəlkə də nə vaxtsa, kimisə itirəndə təsəlli tapacağam...

İtirmək nə qədər çətin olsa da, qovuşmaq da bir o qədər sevinclidir. Boşuna deməyiblər, vüsalın şirin dadını həsrət çəkənlər bilər. Zərifə xanım Heydər Əliyev üçün bütün şeirlərin, mahnıların ən üst səviyyəsini ifadə edirdi. Əminəm ki, Heydər Əliyevin hisslərinin yüzdə biri belə bu gün məni kədərləndirən o misralardan daha da ülvi idi...

Yaranışdan bütün bəşər övladına məxsus ali bir duyğu doğulub köksümüzdə, göyərib, boy göstərir. Zaman keçdikcə daha da əlvanlaşan, daha da müqəddəsləşən, hiss və düşüncələrimizə hakim kəsilən o duyğu ən dar məqamlarda ən yaxın köməkçimizə çevrilir. Həyatdan əlimizi üzəndə o duyğu əlimizdən tutur, inamımızı, istinadgahımızı itirəndə o duyğu bizim üçün inanma, istinadgaha çevrilir. Nə vaxtsa o duyğunu Sevgi adlandırırıq. Mental yaddaşımız Leyli və Məcnun, Əsli və Kərəm, Tahir və Zöhrə, İlham və Fərizə misalında ilahi sevginin mükəmməl nümunələrini xatırlayır. Ulu öndərimiz Heydər Əliyev öz ömür-gün yoldaşı, mərhum akademik Zərifə xanım Əliyevaya olan sonsuz sevgisi və bu sevginin etirafi ilə mənəviyyat tariximizdə bütöv nəsillərə örnək ola biləcək bir sevgi rəvayəti də yaratdı.

Təməlində həqiqətin olduğu bu rəvayətin bir qütbündə xalqın böyük oğlu Heydər Əliyev dayanırsa, digər qütbündə Azərbaycan qadınlığının mücəssəməsi Zərifə Əliyeva dururdu. Onun parlaq həyatı hadisələr və mənalarla zəngindir. Məni isə ən çox düşündürən Onun analıq fenomenidir. Zərif bir ana necə böyük bir qüdrət daşıya bilir. Dünyaya necə böyük insanlar bəxş edə bilər, xalqın taleyində necə misilsiz iz qoya bilər. Analıq doğrudan da təbiətin ən böyük möcüzəsidir! Analar həyatda ən çətin olan iki şeyə qadirdirlər: həm böyük tale, həm də böyük xoşbəxtlik bəxş edə bilmək qüdrətinə. Bu cəhətdən də Zərifə xanım unikal bir qadın idi.

Tale onları sanki qırmızı bir iplə bir-birinə bağlamış, heç kimin, heç nəyin bu münasibətə qarşı çıxmasına şərait yaratmamışdı. Bu da həyatın bizə bəzi hallarda verdiyi hədiyyələrdən biridir. Bunu Heydər Əliyevin özü də bilirdi. Bilirdi ki, Zərifə xanım onun üçün ilahinin bir bəxşidir. Bilirdi ki, onu öz çıxışlarında daim böyük məhəbbəti və fədakar, sədaqətli həyat yoldaşı kimi təqdim edirdi.

Şübhəsiz, böyük sevgilər insanın cismi bu dünyadan köçəndə ölmür. Əksinə, ruhumuza hoparaq hər iki dünyada əbədi yaşayır...

**Yeni Azərbaycan.-**2023.-15 aprel.-№65.-S.4.

## Bitməyən bir eşq hekayəti

***Xalq yazıçısı Elmira Axundovanın "Əbədiyaşar məhəbbət" kitabına sözardı***

**Vilayət Quliyev**

.

2023-cü il çağdaş Azərbaycan tarixində silinməz izlər qoymuş iki önəmli şəxsiyyətin, iki örnək insanın - böyük siyasi xadim, keçmiş Azərbaycan SSR-nin (1969-1983) və müstəqil Azərbaycan Respublikasının (1993-2003) dövlət rəhbəri Heydər Əliyevin və xanımı, görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmalarının 100 illik yubileyidir.

Əliyevlər fenomeni haqda çoxsaylı tarixi-publisist əsərlərin müəllifi, Xalq yazıçısı Elmira Axundovanın növbəti kitabını oxuyanların ilk qənaəti, yəqin ki, belə olacaq: onları tale bir-biri üçün yaradıb! Zərifə və Heydər Əliyevlərin ailə ittifaqı yalnız iki unikal insanın şəxsi xoşbəxtliyi zəminində qurulmayıb, həm də minlərlə insanın həyatında və taleyində, Azərbaycan xalqının XX əsrdəki mədəni-mənəvi mövcudluğunda əcib, xeyirxah iz qoyub.

Uzun illərin dostu, filoloq və diplomat həmkarım, tanınmış yazıçı-publisist Elmira Axundova "Zərifə və Heydər Əliyevlər: Əbədiyaşar məhəbbət" kitabını ərsəyə gətirmək üçün xeyli müddət material toplayıb. Tək Azərbaycanda deyil, keçmiş SSRİ-nin müxtəlif guşələrində Əliyevlər ailəsini yaxından tanıyan onlarla insanla görüşərək xatirə və təəssüratlarını qələmə alıb. Həmsöhbətlər arasında siyasi xadimlər və rəhbər partiya işçiləri, tanınmış alimlər və görkəmli sənət adamları, yaxın qohumlar, iş yoldaşları, xidməti personal təmsilçiləri var. Zərifə və Heydər Əliyevlər təmasda olduqları bu insanların hər birinin yaddaşında silinməz izlər qoyub, qeyri-adi məhəbbətlərinin işıq və istiliyini onlarla da paylaşıblar. Azərbaycan xalqının tarixində və taleyində Heydər Əliyev fenomenini çoxcildlik "Şəxsiyyət və zaman" sənədli romanında ictimai-siyasi çalarlarla rəsm edən Elmira xanım yeni kitabında şəxsi həyat tarixçəsinə əsaslanaraq iki görkəmli şəxsiyyətin qarşılıqlı münasibətləri zəminində həssas və insani mövzuya toxunub.

Müəllifin rusca qələmə aldığı bu əsəri ana dilimizə böyük məmnuniyyət və məsuliyyət duyğusu ilə çevirdim...

***

Heydər Əliyevi ilk dəfə 1970-ci ildə görmüşdüm. O zaman Azərbaycan Dövlət Universiteti adlanan, hələ Cümhuriyyət yadigarı olduğunu bilmədiyimiz ilk universitetimizin yarıməsrlik yubiley təntənələrinə gəlmişdi. Zərifə xanımı isə heç zaman görməmişdim. Amma hələ o vaxtlar - 1970-ci illərin sonlarında yenicə tanınmağa başladığım ədəbi-elmi mühitdə onun haqqında heyranlıqla dolu rəylər, bir-birindən maraqlı fikir və xatirələr eşitmişdim. Xüsusən də nisbətən geniş əlaqələrə malik yaşlı həmkarlarım Zərifə xanımın bütün SSRİ miqyasında görkəmli oftalmoloq - alim olmaqla yanaşı nəcib, xeyirxah, rəhmdil və ürəyiyumşaq insan kimi tanındığını, sadəliyi və səmimiliyi ilə seçildiyini, çətinliyə düşənlərə daim yardım əli uzatdığını, bütün keyfiyyətləri ilə respublikanın birinci şəxsinə, həyat yoldaşı Heydər Əliyevə layiq olduğunu deyirdilər. O zaman hələ mühafizəkarlığı ilə seçilən kommunist dövlətində - Sovet İttifaqında "birinci xanım" - "first lady" institutu rəsmən mövcud olmasa da, Zərifə xanım öz nüfuzu ilə bu adı cəmiyyətdə və xalq arasında qazanmışdı.

İlk gənclik illərindən indiyə qədər dostluq etdiyim tanınmış cərrah-oftalmoloq və maraqlı bədii əsərlər müəllifi, tibb elmləri doktoru, professor Paşa Qəlbinur hələ o zamanlar, yəni 1980-ci illərin əvvəlində Bakıda və Moskvada dəfələrlə görüşdüyü, ünsiyyətdə olduğu Zərifə xanım haqda böyük heyranlıq hissi ilə danışırdı. Həm də tək Zərifə xanımı deyil, Tibb İnstitutunda birlikdə çalışdığı böyük bacısı Ləzifə xanımı, qardaşları Tamerlan və Cəmil Əliyevləri də yaxşı tanıyırdı. Həmkar olmaqdan başqa ailələri - baba və nənələri arasında əlaqə XX əsrin əvvəlində, hələ tam bir Azərbaycan şəhəri olan İrəvanda başlanmışdı.

Yadımdadır ki, poetik təbiətli gənc Paşa respublika rəhbərinin xanımından danışanda onu gözə görünmədən nəcib işlər görən xeyirxahlıq mələyi, şəfqət ilahəsi ilə müqayisə edirdi. Yüzlərlə insana təmənnasız yardım əli uzadan Zərifə xanım gənc həmkarından da diqqət və qayğısını əsirgəməmişdi. Sonralar Paşa Qəlbinur "Vətən sevgisi" adlı xatirə yazısında bacarıqlı həkim - oftalmoloq kimi yetişməsində akademik Zərifə Əliyevanın rolundan bəhs edərək yazmışdı:

"Zərifə xanım Moskvada nəşr olunan və keçmiş Sovet İttifaqının ən nüfuzlu tibbi nəşrlərindən sayılan "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinin üzvü idi. Baş redaktor isə Ümumittifaq Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru, akademik M.M.Krasnov idi. Mən bu elm ocağında əvvəl aspiranturada, sonra isə doktoranturada təhsil almışdım. Zərifə xanımla vaxtaşırı həmin elmi mərkəzdə, müxtəlif elmi

toplantılarda, yaxud jurnalın redaksiya heyətinin yığıncaqlarında görüşürdük. Bu qısa görüşlərdə həmişə çox səmimi olurdu. Elmi işimlə, qayğılarımla maraqlanırdı.

Bir dəfə mənə dedi ki, Heydər Əliyeviç də sənin uğurlarını izləyir, elmi nailiyyətlərin haqda evimizdə söhbətlər olur. Mən bir az utanaraq Heydər Əlirza oğluna və ona təşəkkür etdim. Bir müddət sonra Göz Xəstəlikləri İnstitutunun təqdimatı ilə elm sahəsində Ümumittifaq Lenin komsomolu mükafatına layiq görüləndə Heydər Əlirza oğlu Moskvadan zəng vurub məni təbrik etdi".

Heç şübhəsiz, Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin gənc oftalmoloq- alimin elmi ilə belə yaxından maraqlanmasında Zərifə xanımın rolu, xidmətləri olmaya bilməzdi. Mənə elə gəlir ki, bu alicənab xanım heç vaxt dövlət idarəçiliyi məsələlərinə qarışmasa da, ölkənin və xalqın gələcəyi ilə bağlı hadisələr və insanlar haqqında Heydər Əliyevə söz demək, fikir və mülahizələrini açıq bildirmək, pozitiv rəy yaratmaq, yaxud haqsız hücumlardan qorumaq missiyasını bütün həyatı boyu davam etdirmişdi.

Sovet dövründə Sumqayıt, Gəncə şəhər partiya komitələrinin birinci katibi, Azərbaycan KP MK katibi vəzifələrində çalışmış və Heydər Əliyevin ən yaxın silahdaşlarından olmuş diplomat həmkarım Həsən Həsənovun danışdığı bir epizod da çox səciyyəvidir. Zərifə xanımın milli mənəviyyat və dövlətçilik işinə ilk baxışdan nəzəri cəlb etməyən, amma çox lazımlı, faydalı töhfəsindən xəbər verir. Həsən müəllim Gəncədə işə başlayanda şəhərdəki tarixi abidələr sırasında yarıuçuq vəziyyətə düşmüş bir neçə məscidi də təmir etdirmişdi. Amma məlum səbəblər üzündən bu "özfəaliyyətini" xüsusi nəzərə çarpdırmamışdı.

Bir müddət sonra Zərifə xanımın çalışdığı Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun bir qrup əməkdaşı o zaman hələ tarixi Gəncə adı bərpa edilməmiş Kirovabadda olmuşdu. Əslində, Zərifə xanım özü də gəlməli imiş, lakin son məqamda proqram dəyişmişdi. Görünür, şəhərdəki abadlıq və quruculuq işləri ilə maraqlanan əməkdaşlar geri qayıdandan sonra çox təəccübləndikləri bir yenilik - qısa zamanda Gəncədəki digər tarixi abidələr kimi məscidlərin də yüksək zövqlə təmir və bərpa edilməsi haqda ona məlumat vermişdilər. Həmin günlərdə Azərbaycan KP MK birinci katibinin Gəncəyə gəlişi gözlənilirmiş. Təbii ki, şəhər partiya komitəsinin hazırladığı səfər proqramında Heydər Əliyevin tanış olacağı "obyektlər" arasında təzə təmirdən çıxmış dini abidələr yox idi. Çünki bu məsələ öncədən "yuxarılarla" razılaşdırılmadığı üçün Həsən müəllim işin çox da açılıb-ağardılmasını istəmirmiş. Amma gözləmədiyi halda MK-dan zəng vururlar ki, bəs yeni təmir edilmiş məscidlərlə tanışlığı niyə proqrama salmamısınız? Yoldaş Əliyev onlara da baxmaq istəyir. Sonra məlum olmuşdu ki, məsələ haqda ölkə başçısına xəbər çatdıran da, onu Gəncənin yeni həyat verilmiş dini abidələri ilə tanışlığa təşviq edən də Zərifə xanımdır. Məhz Zərifə xanımın təşəbbüs və istəyi ilə MK-nın birinci katibi sovet dövrü üçün qeyri-ordinar görünən bir addım atmış, məscidlərlə tanış olmuşdu.

Xatırlatdığım epizodlar kitabda yer almasa da, Zərifə xanımın nəciblik, təşəbbüskarlıq və vətənpərvərliyinə dəlalət edən analoji nümunələr onlarladır.

***

Çoxsaylı sənəd və xatirələrə, şəxsi təəssüratlara əsaslanan əsər üzərində işləyərkən Elmira xanımın görüşüb söhbət etdiyi tanınmış elm, mədəniyyət, incəsənət xadimlərinin, siyasətçilərin, sıravi adamların hamısı Zərifə xanımın əsas insani keyfiyyətləri sırasında nəciblik, sadəlik və səmimiliyini vurğulayıblar. Mərhum Prezident Heydər Əliyevi yaxından tanıyanlar sərtliyinə, tələbkarlığına baxmayaraq, eyni xüsusiyyətlərin onun da təbiətinə xas olduğunu təsdiq edə bilərlər. Birgə iş prosesində dəfələrlə bunun şahidi olmuşdum.

Təbii ki, yaş, mövqe və həyat təcrübələri arasındakı böyük fərq və iyerarxik asılılıq dövlət başçısı ilə münasibətlərimin sırf rəsmi müstəvidən kənara çıxmaması təəssüratını yarada bilər. Əslində, yəqin ki, belə olmalıdır və burada qeyri-adi, gözlənilməz heç nə yoxdur. Amma Prezident Heydər Əliyev yüksək insani taktı, səmimiyyəti nəticəsində bu sətirlərin müəllifi ilə yalnız iş haqqında, rəsmiyyət dilində danışmamışdı.

Lazım biləndə, yaxud zərurət yarananda şəxsi motivli məsələlər, keçdiyi mürəkkəb ömür yolu, ailəsi, yaxınları haqda da söhbət açmışdı. Bir neçə dəfə müxtəlif münasibətlərlə mərhum həyat yoldaşı Zərifə xanımı yada salmışdı. Onun yüksək insani keyfiyyətlərini - həyat yoldaşına və övladlarına bağlılığını, nəcibliyini, alicənablığını, xeyirxahlığını xatırlamışdı. Hər dəfə belə söhbətlər zamanı Prezidentin sərt, cingiltili səsinin yumşaldığını, üzünün ifadəsinin dəyişdiyini, xəyalən keçmişə qayıtdığını hiss etmişdim.

Bir dəfə əhvalının yaxşı vaxtında 1970-ci illərdə MK-nın birinci katib olduğu dövrdə rəsmi şəxsə qarşı avtoxuliqanlıq etdiyinə görə yaxın qohumlarından birinin maşınını cərimə meydançasına qoydurduğunu xatırladı:

- Özü də tapşırdım ki, o maşına heç bir diqqət yetirməsinlər. Nə bilim, üstünə tent çəkməsinlər, aparıb kölgədə saxlamasınlar. Qoy günün, küləyin, yağışın altında qalıb çürüsün. O vaxt avtomobil böyük roskoş (cah-calal) sayılırdı. Hər adam ala bilmirdi. Qohumlar çox narahat olmuşdular. Düşünürdülər ki, maşın birdəfəlik əldən getdi. Amma qorxularından mənə bir söz deyə bilmirdilər. Gedib mərhum Zərifə xanıma minnətçi düşmüşdülər. Çünki yaxşı bilirdilər ki, belə məqamlarda yalnız Zərifə xanım mənə söz deyə bilər.

Həm də birinci dəfə deyildi. Başqa işlər də olurdu. Qohumlar mənim idi, amma çətinliyə düşən kimi Zərifə xanımın yanına qaçırdılar. Arxayın idilər ki, ürəyiyumşaqlığına, xeyirxahlığına görə hər şey edəcək. Yanına gələnləri əliboş qaytarmayacaq.

XİN-də işlədiyim dövrdə belə ərköyün qohumlardan biri mənə sifariş göndərmişdi. Guya xahiş edirdi, əslində, xahişdən çox tapşırıq, bəlkə də, əmr idi. Nə etməli olduğum barədə Prezidentdən məsləhət istəyəndə sərt səslə dedi:

- Heç nə eləmə! Yadında saxla: mənim yaxın qohumum oğlum, qızım, nəvələrimdir. Onların da aydın məsələdir ki, sənə bir işi düşməz.

Bir qədər susandan sonra gözləmədiyim halda soruşdu:

- Sən Zərifə xanımı görmüşdün?

- Xeyr, cənab Prezident. Amma haqqında çox eşitmişəm.

- Bilirsən, - dedi. - Qohum da özü üçündür. Övlad - uşaq da. Amma yaş keçdikcə başa düşürsən ki, insana qalan ömür-gün yoldaşıdır. Yeganə dost da ömür-gün yoldaşıdır. Rəhmətlik Zərifə xanım da belə insan idi. Həqiqi dost idi. Çox təəssüf ki, onu da vaxtsız itirdik... Mənə elə gəlir ki, Zərifə xanım bir an da olsun Heydər Əliyevin fikrindən çıxmır, asossiativ şəkildə hər yerdə, hər zaman xatırlanırdı. Və Zərifə xanımla bağlı olan hər xatirə onun üçün əziz idi, unudulmaz idi.

2000-2005-ci illərdə BMT baş katibi Kofi Annanın siyasi məsələlər üzrə müavini vardı: sloven əsilli Danilo Türk. Həm də BMT-də milli azlıqlar məsələsinə baxırdı. Sonralar Sloveniyanın prezidenti seçildi. 2013-cü ildə rəsmi səfərlə ölkəmizdə də olmuşdu.

Deməli, Nyu-Yorkda, Baş Assambleyanın Danilo Türkün də çıxış etdiyi iclasından sonra Heydər Əliyev birdən məndən soruşdu:

- Sən dilçisən, ədəbiyyatçısan. Bəlkə, bilərsən: bunun familiyası niyə Türkdür? Türklərlə nə əlaqəsi var?

- Slovenlər də əksər Balkan xalqları kimi Osmanlıya bac-xərac ödəyiblər, - dedim. - Ola bilsin ki, qanında türk qarışığı var. Ya da əcdadları türklərlə yaxınlıq elədiyinə, Osmanlının xidmətində dayandığına görə xalq elə o vaxtdan istehza ilə, bəlkə də, nifrətlə nəslinə "türk" adı verib...

- Bunlar ehtimallardır. Görünür, sən də dəqiq bir şey bilmirsən. Amma Sloveniya çox gözəl ölkədir, - deyə ani pauzadan sonra sözünə davam etdi. - 1976-cı ildə Zərifə xanımla orada dincəlmişdik. Lyublyananın yaxınlığında, Bled gölünün sahilində. Titonun iqamətgahında qalırdıq...

Gözləri uzaq bir nöqtəyə zillənmiş Prezidenti Zərifə xanımla bağlı düşüncələrindən ayırmamaq üçün sakitcə otaqdan çıxdım.

Budapeştdə işləyəndə bir dəfə maraq üçün Bled gölünə getdim. Həqiqətən də, çox füsunkar yerlər idi. İnsana rahatlıq və sükun təlqin edirdi. Ətrafdakı gözəlliyə Heydər Əliyevin və Zərifə xanımın gözləri ilə baxmağa çalışdım...

18 oktyabr 2002-ci ildə Dövlət Müstəqilliyi Günü "Gülüstan" sarayında ilk dəfə "ailəvi formatda" qeyd edildi. Hamı həyat yoldaşı ilə gəlmişdi. Prezident Heydər Əliyev təbrik nitqi söyləyəndən sonra zalda gəzib əksəriyyətini ilk dəfə gördüyü xanım qonaqlarla tanış olurdu. Bizə yaxınlaşanda həyat yoldaşım Şəhla xanımı təqdim etdim. Əlini sıxıb gülümsər ifadə ilə:

- Sən də ədəbiyyatçısan? - deyə soruşdu.

- Xeyr, həkiməm.

- Həkimsən? Hansı sahə üzrə?

- Kardioloqam.

- Həkimlik yaxşı peşədir, - deyə bir anlıq fikrə gedən

Prezident təqdiredici ahənglə başını tərpətdi. - Yoxsa... ədəbiyyatçılar həmişə göynən uçurlar...

Təbii ki, daş mənim bostanıma atılmışdı.

Amma mənə elə gəlir ki, həmin anlarda Prezident Heydər Əliyevin öz xəyalı da səmalarda idi. Unudulmaz Zərifə xanımın yanında...

***

2001-ci il aprelin 28-də Rəşid Behbudov adına Mahnı Teatrında görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın xatirə gecəsi keçirildi. Aradan iyirmi ildən çox vaxt ötməsinə baxmayaraq, həmin gecənin həzin-nisgilli atmosferi, ilk dəfə tamam fərqli ampluada gördüyüm Prezident Heydər Əliyevin kövrək səsi, yaşaran gözləri və ağrılı xatirələrin təsiri altında tez-tez dəyişən siması indi də yadımdadır. Ədəbi-musiqili gecənin rejissoru Cənnət xanım Səlimova rəsmiyyətdən qaçaraq tədbirə ailəvi ton, səmimiyyət və doğmalıq atmosferi verməyə çalışmışdı. Sanki Zərifə xanımı tanıyan, sevən adamlar ailə mühitində toplaşıb onu yad edirdilər. Əslində də belə idi.

Prezident salona daxil olarkən ənənəvi alqış səsləri eşidilmədi. Elan olunmasa da, ortaya bir dəqiqəlik sükut çökdü. Sonra həzin musiqinin müşayiəti ilə rejissor Eldar Quliyevin Zərifə xanımın ömür yolundan bəhs edən

"Elegiya" filmindən parçalar göstərildi. Filmdə Zərifə xanıma həsr olunan sənət əsərləri, ailəvi fotoşəkillər, onunla birgə işləmiş həmkarlarının xatirələri əksini tapmışdı.

Bir-birini əvəz edən aparıcılar Zərifə xanımın həyat yolu, elmi fəaliyyəti, yüksək insani keyfiyyətləri: nəcibliyi, xeyirxahlığı haqda danışdılar. Ona ithaf olunmuş şeirlərdən parçalar oxundu. Tanınmış müğənnilərin ifasında xüsusi həssaslıqla seçilmiş və xatirə gecəsinin ruhu ilə həmahəng səslənən muğam və xalq mahnıları səsləndi. Sevil xanım Əliyevanın Fikrət Qocanın sözlərinə bəstələdiyi "Ana" mahnısı sanki salondakı şəkillərdən bizə baxan Zərifə xanımın obrazını daha da canlandırdı. Onu xalqımızın ən gözəl mənəvi xüsusiyyətlərini özündə birləşdirən əsl Azərbaycan qadını, ailəsinə qırılmaz tellərlə bağlanan, övladları ilə nəfəs alan, həyat yoldaşının yaxın dostu və silahdaşı olan qayğıkeş ana, gözəl ailə xanımı, sədaqətli ömür-gün yoldaşı kimi gözlərimizdə daha da ucaltdı.

Prezidentin nitqi xüsusilə təsirli idi. Adətən, polad kimi cingildəyən səsi həmin axşam bəzən titrəyirdi, hətta bir-iki dəfə gözlərində yaş parıldadığını da gördüm. Mənə elə gəldi ki, son dərəcə həssas insan kimi tanıdığım Prezident Heydər Əliyev elə bil xatirə gecəsinin çox nisgilli, kədərli alınmasından bir qədər narahat olmuşdu. İştirakçıların salondan yalnız təəssüf hissi, qəm-qüssə ilə deyil, əksinə, Zərifə xanımın doğum günündə bu nəcib, xeyirxah qadının adına, əməllərinə, şəxsiyyətinə layiq işıqlı duyğularla ayrılmasını istəyirdi. Ona görə də üzünü hamıya, ilk növbədə isə proqramı hazırlayanlara tutub dedi:

"Təbiidir ki, bu, xatirə gecəsidir və siz də xatirə gecəsində onun bizdən ayrılması ilə əlaqədar həm sözlərinizlə, həm çıxışlarınızla, həm də ifanızla bizim üçün bu ayrılığın nə qədər çətin olduğunu göstərmək istədiniz. Ona görə də burada bir kədər, qəm, qüssə əhvali-ruhiyyəsi yarandı. Ancaq eyni zamanda bu gün onun anadan olan günüdür. Biz Zərifə xanımı xatırlayaraq bu gün onun uşaqları, onun nəvələri, onun dostları ilə ad gününü qeyd edirik. Ona görə də mən istərdim ki, artıq bu əhvali-ruhiyyə salondan götürülsün".

Bu sözləri deyəndə isə mərhum Heydər Əliyev əməlli-başlı kövrəldi: "İndi Allahın yazısı belə gətirib ki, o, aprel ayında doğulub, aprel ayında da həyatdan gedibdir. Xatirimdədir, Moskvada xəstəxanada müalicə edilərkən, onun artıq ağır xəstəliyə düçar olduğunu bilərkən mən arzu edirdim ki, o, doğum gününə qədər, anadan olan gününə qədər yaşasın. Ancaq mənim bu arzum yerinə yetmədi və aprelin 15-də o vəfat etdi".

Xatirə gecəsində ölkəmizin tanınmış mədəniyyət, elm, incəsənət xadimləri də iştirak edirdilər. Tədbirin sonunda onların hər biri Heydər Əliyevə yaxınlaşıb Zərifə xanımla, birinci ledinin həyatlarında oynadığı xeyirxah rolla bağlı yaddaşlarında yaşatdıqları maraqlı epizodlar danışırdılar. Prezident xatirə bölüşənlərin hər birini diqqət və maraqla dinləyir, bəzən hansısa əlavələr edir, xoş xatirələrə görə minnətdarlığını bildirirdi. Zərifə xanımın xatirə gecəsi yaddaşımda həm də ömürlük eşqin, bitməyən bir sevginin təntənə gecəsi kimi qalıb. Prezident Heydər Əliyev həyatının bütün sahələrində olduğu kimi, sevgisində, xanımına bağlılığında, onun işıqlı xatirəsinə sədaqətində də, həqiqətən, bir örnək, nümunə idi.

***

Başqa bir tarixi də yaxşı xatırlayıram. 16 may 1998-ci il. Həmin axşam Respublika Sarayında (indi Heydər Əliyev sarayı) Dağıstandan gəlmiş böyük bir nümayəndə heyətinin iştirakı ilə görkəmli dövlət, ictimai və elm xadimi Əziz Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirildi. Əgər amansız xəstəlik həyatdan vaxtsız aparmasaydı, 75 yaşlı Zərifə Əziz qızı da atasının yubiley mərasimində iştirakçıları arasında ola bilərdi...

Prezident Heydər Əliyev geniş nitq söylədi. Burada Əziz Əliyevin təkcə dövlət xadimi, milli ruhlu ziyalı, elm təşkilatçısı kimi Azərbaycan və Dağıstan qarşısındakı xidmətlərinə qiymət verilmirdi. Təkcə naməlum faktlar əsasında onun çətin, mürəkkəb, amma şərəfli ömür yoluna nəzər salınmırdı. Təkcə gördüyü böyük işlərdən və üzləşdiyi sınaqlardan, repressiya maşınının dişləri arasından necə xilas olduğundan söz açılmırdı.

Yaxınlarla ürək söhbəti təsiri bağışlayan bu səmimi nitq həm də munis bir sevgi etirafı idi. Salona toplaşmış 2500 nəfərin nəfəs çəkmədən dinlədiyi, televiziya vasitəsilə milyonlarla insana çatdırılan sevgi etirafı... Çətin sınaqlardan çıxan, amma sınmayan, əksilməyən, şər və bədxahlıq üzərində qələbə çalan, yalnız iki insanın deyil, minlərlə insanın həyatını dəyişən sevgi etirafı..

Heydər Əliyev danışırdı və zal qəddar sistemə qarşı mübarizədə yeganə silahı yalnız bir-birinə inam olan iki gəncin məhəbbət hekayəsini dinləyirdi:

"Zərifə xanımla 1948-ci ildə tanış olmuşdum. Az sonra mən Leninqrada oxumağa getdim. 1950-ci ildə oradan Bakıya qayıdandan sonra şübhəsiz ki, öz ailə həyatımı qurmaq, evlənmək fikirndə idim. Ancaq mənim mənzil-məişət şəraitim buna imkan vermirdi. Anam və qardaşlarımla İçərişəhərdə zirzəmidə kirayədə yaşayırdım. Şərait yox idi və mən mənzil almağımı gözləyirdim.

1952-ci ildə ikiotaqlı mənzil aldım. Lakin o vaxt mənə Əziz Əliyevin ailəsi ilə ünsiyyətdə olmaq qadağan edilmişdi. Xatirimdədir, 1951-ci ildə Əziz Əliyev işdən çıxarılanda Zərifə xanımla görüşdük və o mənə dedi: "Deyəsən, biz bir daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irəli sürüblər.

Sən isə dövlət təhlükəsizlik orqanlarında işləyirsən və bu sənə zərər gətirə bilər. Odur ki, deyəsən bizə birlikdə olmaq qismət deyilmiş". Mən, əlbəttə, eti- razımı bildirdim və münasibətlərimiz davam etdi".

1948-ci ildən başlanan və tədricən qarşılıqlı məhəb- bətə çevrilən tanışlıq bir-birindən ciddi maneələri, müxtəlif hədə və riskləri aşaraq 1954-cü ildə xoşbəxt və nümunəvi ailə həyatına çevrildi.

Zərifə xanım və Heydər Əliyevlərin cəmi otuz ildən çox birlikdə keçən ömür tarixçəsini izləyəndə düşünürsən: "Nə yaxşı ki, dövrün və cəmiyyətin bütün maneələrinə rəğmən belə oldu və davamı nəsillər üçün nümunəyə çevrilən, insanlara işıq və nur bəxş edən intəhasız bir eşq hekayəti yaşandı...

**525-ci qəzet**. - 2023. - 15 aprel. - № 65. - S. 16-17.

## Yüksək əqidə

### (Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)

Dünyada ən qiymətli nemət sağlamlıqdır deyirlər!

Və bəzən biz bunu sağlamlığımızı itirdikdən sonra dərindən dərk edirik.

El-oba, xalq üçün gərəkli insanlar da belədir!

Onları itirdikdən sonra yerləri boş qalır, gözlərimiz daim axtarır-arayır...

Akademik Zərifə xanım Əliyeva xalqımızın qəlbində özünə yurd salmış gərəkli, fədakar, həm də təvazökar insanlardandır.

Ömrünü-gününü təkcə ailəsinə, övladlarına
deyil, həm də insanların sağlamlığına həsr etmişdir.

İnsanların gözünə nur, ürəklərə işıq bəxş edərdi...

Bir alim kimi daim arayıb-axtarmış, Azərbaycan üçün xarakterik sayılan göz xəstəliklərinin müalicəsi üçün uzun illər tədqiqatlar aparmış, üsul və vasitələr tapmışdır.

Zərifə xanım Əliyevanın həm də özünəməxsus həkim fəlsəfəsi, xəstələrə yanaşma metodu, prinsipləri olmuşdur.

Bütün bunları o, qələmə aldığı "Yüksək əqidə" kitabında həssaslıqla əks etdirmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə bu il həm də akademik Zərifə xanım Əliyevanın yüz illik yubileyi qeyd olunacaqdır.

Şanlı yubiley ərəfəsində akademik Zərifə xanım Əliyevanın "Yüksək əqidə" (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı) kitabından parçaları dərc edir, onun əziz və unudulmaz xatirəsini ehtiramla anırıq.

İxtisasca həkim olan Nəriman Nərimanov Azərbaycandakı vəziyyət barədə mərkəzə məruzə edərkən qeyd edirdi ki, taun ilə mübarizədə onlarla tibb işçisi qəhrəmanlıqla həlak olmuşdur.

Ancaq doktor Nəriman (fəhlələr onu belə çağırırdılar) V.İ.Leninə özünün soyuq boranlarda xəstələnmiş və ölmüş həkim və sanitarları əvəz etməsindən, sutka ərzində 1-2 saat az yatmasından bircə kəlmə belə söz açmırdı. Çünki epidemiya ocaqlarında o doktor Nəriman olurdu. Buradan kənarda isə taunlu xəstələrin yerləşdirilməsi, onlara su gətirilməsi və başqa sanitar-gigiyenik problemlərin həll edilməsini təşkil etməyi öz vəzifəsi bilirdi.

N.Nərimanov tibbi biliklərin yayılmasına, vacib tibbi problemlərin həll edilməsinə xüsusi diqqət yetirirdi. O, "Traxoma haqqında", "Vərəm haqqında", "Taun haqqında", "Qadın aləmi" və s. elmi-kütləvi əsərlər yazmışdır.

Hər gün, hətta bazar günlərində belə haqqı ödənilməyən xəstəxanada işləyən N.Nərimanov gecə və gündüz çağırışlara gedir, ictimai yerlərdə və fəhlə klublarında məruzə və mühazirələr oxuyur, sanitar- maarif işi haqqında qəzetlərdə məqalələr yazırdı. "Neft sənayesi işçilərinə həkim yardımının təşkili və qaydaları məsələlərinə dair" məqaləni buna misal göstərmək olar. N.Nərimanov bu məqalədə çox vacib olan sosial məsələlərə toxunaraq cəmiyyətdə həkimin yeri və vəzifələrini bir-biri ilə uzlaşdırmışdır. Demək olar ki, yeni formasiyada həkimin mənəvi inkişafının yollarını göstərir və yazırdı:

"Zəhmətkeşlərin səhhətinin qorunmasının yaxşılaşdırılması məsələlərini həll edərkən tibb elminin inkişafına Lenin çox fikir verirdi. Elm adamlarına, onların iş və məişət şəraitinə xüsusi qayğı göstərirdi".

Azərbaycanın döyüş səhnəsində epidemiya əleyhinə mübarizə əsas yeri tuturdu. Tibb işçilərinin özlərinin müxtəlif və qeyri-stabil siyasi baxışlarına baxmayaraq, Bakı şəhəri partiya təşkilatının apardığı partiyasiyasi işin nəticəsində özlərinin həkim və inqilabi borclarını başa düşərək epidemiya əleyhinə tədbirlərdə fəal iştirak edirdilər.

Qafqaz ordusunun baş cərrahı professor V.İ.Razumovskinin rəhbərliyi ilə Zaqafqaziya universitetinin (Tiflis ş.) Tibb fakültəsinin bir qrup əməkdaşları Bakıda universitet açılması qərarına gələrək tezliklə bu işi həyata keçirməyə başladılar. Azərbaycanın qabaqcıl ziyalıları S.Ağamalıoğlu, Q.X.Şahtaxtinski, A.D.Orucəliyev, K.A.Camalbəyov və başqaları universitetin açılması üçün heç nəyə baxmadan mübarizəyə qalxdılar, universitetin açılmasında yardımçı oldular.

Beləliklə, mədəniyyət və elm ocağının yaradılması əleyhinə olunan cəhdlər iflasa uğradı. Azərbaycanda tibb, tarix və fəlsəfə fakültəsi olan ilk ali təhsil ocağı - Bakı Universiteti açıldı. Onun rektoru V.İ.Razumovski oldu. Tezliklə professor V.İ.Razumovski Bakıdan köçdü. Lakin o, respublika ilə əlaqəni kəsmədi. Öz məktublarının birində yazırdı:

"Şərq və Qərbin sərhədində yerləşən Bakı Universiteti Şərqi və Qərbi Avropanın ənənələri və məsləhətlərini elmi əsaslarla uzlaşdıraraq (insanlığın) bəşəriyyətin elmi dairəsini genişləndirərək, bizi sosial məsələlərin də həllinə yaxınlaşdırır. Mən Bakı Universitetinin böyük gələcəyinə inanıram. Mən onun gənc, cəsarətli ilk yaradıcılarının səyləri nəticəsində gələcəkdə inkişaf edən yeni nəslin tələblərinin möhkəm təməlini görürəm". Belə gənc, cəsarətli səylərə malik, Tibb fakültəsinin ilk xadimlərindən olan və Peterburqdan Azərbaycana gələn professor A.M.Levin, Cərrahiyyə fakültəsinin professoru - A.A.Oşman və bakılılar - hospital

cərrahiyyəsi kafedrasının professoru - B.K.Finkelşteyn, histologiya və embriologiya kafedrasının professoru M.S.Milman, farmasiya magistri M.K.Qolberq, kimyaçı L.Q.Qureviç, zooloq A.N.Derjavin və başqaları daxil idi. Onların arasında milli təbabəti inkişaf etdirən azərbaycanlı həkimləri də qeyd etmək lazımdır. Bunlar - Azərbaycan Epidemiya əleyhinə tədbirlərin təşkili və aparılması üçün lazımi həkim briqadaları formalaşırdı. 1943-cü ildə təkcə rayonlarda malyariya ilə mübarizə üçün 17 həkim briqadası ezam edildi. Həkim briqadaları Azərbaycanın 40 rayonunda fəaliyyət göstərirdi. Bu dövrün ağır problemlərinin olduqca çox olmasına baxmayaraq, respublikamız və gələcəyimiz olan uşaqlar diqqətdən kənarda qalmırdılar, onlar həmişə qayğı mərkəzində idilər. Komandir və döyüşçülərin uşaqları üçün Hacıkənddə, Şuşada, Bilgəh və Mərdəkanda sanatoriyalar yaradıldı. Gəncə şəhərində 50 yerlik südəmər uşaq evi və 100 yerlik körpələr evi açıldı. Körpələr evlərinin əksəriyyətində sanitar qrupları təşkil edildi, bir çoxu isə sutkalıq işə keçirildi.

1941-ci ildə Azərbaycanın dövlət büdcəsində uşaq evləri, bağçaları və internatları saxlamaq üçün ümumi xərcləri 52,3 mln. rubldan 74,8 mln. rubla qədər artdı. Təxirəsalınmaz mühüm məsələ uşaq qidalanmasının təşkili idi. Partiya və hökumət təşkilatlarında bu məsələ dəfələrlə müzakirə olundu.

Hökumətin qərarı ilə ticarət təşkilatlarına həvalə edildi ki, uşaq müalicə müəssisələrini fasiləsiz olaraq qida məhsulları, əsasən, 2 ton süd məhsulları, 5 ton kisel, bir milyon insan dozasından az olmamaq şərti ilə dozasız "S" vitamini ilə təmin etsin.

Bu və digər çoxsaylı dəlillər bəşəriyyəti tibbi əxlaqi keyfiyyətlərin aliliyinə cəlb etməlidir. Lakin bu mənəvi keyfiyyətlər faşist-həkimlər tərəfindən pozularaq, zəbt olunmuş ərazidə və konslagerlərdə insanlar üzərində müxtəlif eksperimentlər və vəhşiliklər aparılırdı.

Sonralar məlum oldu ki, faşistlər sovet ordusunda olan 73% yaralıların döyüş meydanına qayıtmasını təmin edən tibbi xidmət maşınını yarada bilməmişdilər. Yaralı hit-lerçilərin yalnız 40 %-dən azı döyüş meydanına qayıda bilirdi. Bu isə bizim həkimlərin gərgin əməyini, yüksək-mənəvi siyasi, qəhrəmanlıq keyfiyyətlərini əks etdirirdi.

Tibb işçiləri 10 mindən artıq yaralının qorunması, toxumalarının, müxtəlif zədələnmələrinin müalicəsi üçün çoxsaylı yeni metodlar işləyib hazırlayırdılar. Belə tədqiqatlar F.Əfəndiyevin "Döş qəfəsinin zədələnmələri zamanı plevral boşluğa qansızmalar" mövzusunda doktorluq dissertasiyası, M.A.Mir-Qasımovun "Kəllə sümüklərinin travmatik osteomieliti və onun müalicəsi", professor Trubinin "Gözün odlu silahla yaralarının müalicəsi", prof. Z.Məmmədovun "Yumşaq toxumanın zədələnməsində naftalan müalicəsi" mövzusunda doktorluq dissertasiyaları aiddir.

Həqiqətən belə elmi işlər, yeni müalicə metodlarının işlənib hazırlanması, yaralıların sağlamlıqlarının bərpasına kömək etdi. SSRİ Tibb Elmləri Akademiyasının prezidenti N.Burdenko sovet tibb işçilərinin bu əməyini yüksək qiymətləndirərək, vüqarla yazırdı: "Bizim vətənimizin ağır sınaq dövründə, hitlerçilərin bəşəri mədəniyyət nümunələrinin məhv etdikləri bir vaxtda, bizim elmimiz müdrik xalqımızla birlikdə mübarizə aparmış, məhz elmimiz sırf xalq elmidir.

İkinci Dünya müharibəsi illərində 115 mindən artıq tibb işçisi, o cümlədən də Azərbaycandan da olan çoxlu sayda həkimlər də orden və medallar ilə təltif olunmuşlar. Sovet İttifaqı Qəhrəmanı adına 13 həkim layiq görüldü.

Onların arasında həkim-təyyarəçi kosmonavt B.B.Yeqorov və Saratov Tibb İnstitutunun məzunu V.Q.Lazarev də var idi.

Bunlar nəinki tibb elminin, eləcə də bütün sovet xalqının şöhrəti olmaqla, Vətən qarşısında vətəndaşlıq borcunu yüksək əxlaqi-mənəvi keyfiyyətlərlə yerinə yetirməklə hamıya nümunədirlər.

Müharibədən sonrakı illərdə respublikanın minlərlə sıravi həkimləri öz əməyi ilə zəhmətkeşlərin sağlamlığının keşiyində dayanırdı. Onlardan bəziləri tibb elminin inkişafında sərf etdikləri yüksək əməyə, insanların müalicəsində göstərdikləri yüksəkkeyfiyyətli müalicəyə və ictimai işlərdə fəal iştirakına görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdülər. Onlar arasında Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, görkəmli həkim və alim M. A. Topçubaşov, Azərbaycan Tibb İnstitutunu bitirmiş, Astara kənd xəstəxanasında uzun müddət işləyən həkim B. Əliyeva da var idi. Bütün bu həkimlərin hər biri haqqında ətraflı və çox yazmaq olar. Güman edirik ki, onlar haqqında ayrıca kitab nəşr olunacaq. Onlar ümumxalq məhəbbəti qazanmışlar və buna layiqdirlər.

Elmlər Akademiyasının gələcək birinci prezidenti, xalqın böyük hörmətini qazanmış M.A.Mir-Qasımov, məşhur cərrah, vitse-prezident M.A.Topçubaşov, prof. M.B.Sultanov, A.K.Əlibəyov və B.B.Qayıbov idi.

Tibb fakültəsinin dekanı İ.İ.Şirokoqorov belə yazırdı: "Tibb fakültəsi öz görkəmli professor he-yətinin tərkibinə görə öz vaxtının ən yaxşı fakültələri sırasında dayanırdı".

1922-ci ilin yayında həkimlərin ilk buraxılışı oldu. 30 nəfər həkim adına layiq görüldü. Belə qiymətli diplomun sahibləri içərisində ilk qadınlar A.İ.Şaxtaxtinskaya və D.P.Sultanova da var idi. Onlar milli səhiyyənin çox görkəmli mütəxəssisləri oldular.

Sonralar respublika zəhmətkeşlərinin sağlamlığının keşiyində 10 minlərlə qadın-həkim ordusu dayandı. Onlar bütün Azərbaycan tibb işçilərinin 70 faizini təşkil edirdi.

1922-ci ildə Tibb fakültəsində ilk doktorluq dissertasiyası müdafiə olundu. Bir neçə ildən sonra isə bir neçə nəfər azərbaycanlı həkimlər tibb elmləri doktoru elmi dərəcəsini alaraq, nəticədə professor, kafedra müdiri, elmi məktəblərin əsasını təşkil etdilər. Onlar öz yetirmələrinə ixtisas bilikləri öyrətməklə yanaşı, yüksək mənəvi-əxlaqi keyfiyyətləri inkişaf etdirirdilər. Bunlar - M.A.Mir-Qasımov, M.B.Sultanov, S.İ.Vəlixan, A.X.Cəfərov, İ.M.İsmayılzadə, A.Əlibəyov, M.A.Topçubaşov, M.Ə.Əfəndiyev və başqaları idi.

Azərbaycanın gənc həkim-mütəxəssisləri Şərq və Qərbin yüzilliklərlə formalaşmış ən yaxşı ənənələri əsasında tərbiyə edilib böyüyürdülər. Onlar öz müəllimlərinə ehtiram, yüksək etik münasibət, yüksək insanpərvərlik və öz ölkəsinə, torpağına son dərəcə sadiqliklə inkişaf edirdilər. Bu planda məşhur N.Nərimanovun öz oğluna yazdığı məktub-vəsiyyətnaməsi təqdirəlayiqdir:

"Əziz oğlum, Nəcəf! Əgər mənə yaşamaq qismət olsa, mən səni elə tərbiyə eləməyə çalışacağam ki, sən bəşəriyyətə xeyir gətirə biləsən. Əgər mənim nəsibim ölmək olsa, onda mən səndən xahiş edəcəyəm ki, sən insanlara heç olmasa atanın azca da olsa edə bilmədiyi qədər yaxşılıq et. İnanıram ki, mənim başladığım işləri sən davam etdirəcəksən".

Sonralar zabit Nəcəf Nərimanov İkinci Dünya müharibəsi illərində döyüş meydanında cəsarətli, fədakar döyüşçü kimi həlak olmuşdur. O, komandiri olduğu hissəni düşmən üzərinə hücuma apararkən həlak olmuşdur. İnanırıq ki, o, düşmən üzərinə hücuma keçəndən axır anlanna qədər qələbəyə inanmışdır. Atasının keçirdiyi qələbə sevinci, ona vəsiyyət olunmuş "sənin atanın bacardığı qədər etdiyi azacıq yaxşılıq qədər də sən et" idi.

İkinci Dünya müharibəsinin odlu illərində azərbaycanlıların yüksək mənəvi-əxlaqi keyfiyyətləri aydın şəkildə özünü göstərdi. Belə bir sərt imtahanda, yoxlamada bizim həkimlər davamlılıq, öz yüksək məğrurluğunu göstərməyib, harada göstərəcəkdilər? Bu imtahandan onlar namusla, polad kimi möhkəmliklə çıxdılar. Qeyri-insani gərginlik şəraitində yuxusuz gecələrdə, aclıqda respublika həkimləri qısa müddətdə hospitallar yaratdılar və onları yeni tibbi ləvazimatlarla, yüksəkixtisaslı mütəxəssislər və tibb işçiləri ilə təmin etməyə nail oldular. Hərbi travmaların, sağalmayan yaraların, yanıqların, donmaların müalicəsində Azərbaycanın möcüzəli təsirə malik kurort mənbələrindən (palçıq, naftalan, mineral odlar və s.) geniş istifadə olunurdu.

(Ardı var)

Azərbaycan. - 2023.- 15 aprel. - № 78. - S. 1,7.

## Görkəmli alim, təkrarsız insan ömrünün işıqlı xatirələri

**Zöhrə Fərəcova**

Elə insanlar var ki, olduqları hər yerə sanki nur bəxş edir. Hər zaman seçilir, sevilirlər. Onları fərqləndirən yaxşı cəhətləri saymaqla bitməz.

Böyük zəkaları, bacarıqları, zəhmətsevərlikləri, sadəlikləri, səmimiyyətləri, mehribanlıqları və qayğıkeşlikləri ilə hər kəsə nümunə olurlar. Fitri istedadlarının dəyərini yaxşı bilir, onu hədər etmirlər. Yorulmadan çalışır, səy göstərirlər. Yalnız özlərinin deyil, bütövlükdə mənsub olduqları xalqın adını ucaldan, bütün dünyada tanıdan işlər görür, əsərlər yaradırlar. Eyni zamanda istedadlılara qayğı ilə yanaşır, yol göstərirlər. Taleyin hökmü ilə bu dünyadan köçüb gedəndə onlardan işıqlı xatirələr qalır. Bu il 100 illik yubileyi qeyd edilən görkəmli alim, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi Zərifə Əziz qızı Əliyeva belə işıqlı insanlardan, böyük şəxsiyyətlərdən biridir.

Onun uzun illər çalışdığı, inkişafında böyük xidmətlər göstərdiyi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov deyir ki, Zərifə xanım Əliyevanın nurlu xatirəsi bu institutda daim yaşayır. Yüksək insani keyfiyyətləri ilə mənəvi ucalığın zirvəsinə çataraq əbədiyyətə qovuşmuş 100 illik yubileyini qeyd etdiyimiz unudulmaz Zərifə xanım Əliyeva təkrarsız bir insan idi: "Elə buna görə də təsadüfi deyil ki, onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Onun təbib əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir".

Müsahibimiz diqqətə çatdırır ki, tarix bizə bir şəxsin simasında rəhbərlik və elmi tədqiqatçılıq istedadının, tükənməz əməksevərlik və ramedici nəzakətliliyin xoşbəxt vəhdətini birləşdirən çox az nümunələr vermişdir: "Akademik Zərifə xanım Əliyeva məhz bütün bu keyfiyyətlərə malik olmuşdur. Akademik Zərifə Əziz qızı müasir Azərbaycan oftalmologiya elminin zirvələrindəndir".

Nazim Qasımov bu həqiqətə də diqqəti çəkir ki, bütün potensial imkanlarını realizə və inkişaf etdirmək onu formalaşdıran mühitdə mümkün olub: "Axı Zərifə xanım istedadlı və gözəl bir ailədə - görkəmli dövlət xadimi, Azərbaycanın böyük səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya gəlib. Belə ki, bu böyük insanın əksər xüsusiyyətləri qızı Zərifə xanıma da xas olub". Müsahibimiz vurğulayır ki, ən yüksək keyfiyyətlər - səmimilik, alicənablıq, qayğıkeşlik, birinci növbədə özünə, daha sonra ətrafdakılara qarşı tələbkarlıq, sözü ilə işinin birliyi, vətənpərvərlik, xalqına, Vətəninə və torpağına sönməz məhəbbət Zərifə xanım Əliyevaya xas cəhətlər idi.

Zərifə xanım Əliyeva mənalı, zəngin ömür yaşayıb. Bu ömür 1923-cü ilin 28 aprelindən 1985-ci ilin 15 aprelinədək davam edib. Ancaq onun bu dünyadan köçməsi ilə bitməyib. Böyüklüyü qədər sadə olmağı bacaran, qayğıkeşliyi, səmimiyyəti ilə tanıyanları heyran edən Zərifə xanım Əliyeva işığa bürünmüş xatirələrdə yaşayır. Zərifə xanım Əliyevanın alim ömrü isə qoyub getdiyi dəyərli elmi əsərlərində, yetirmələrinin, eləcə də ona istinad edən hər bir alimin tədqiqatlarında davam edir.

O, xəstələrə şəfa vermək, ümid olmaq üçün müqəddəs həkimlik peşəsini seçib. 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. 1948-ci ildə Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçib. 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi fəaliyyətə başlayıb, ordinatorluqdan baş elmi işçiyədək uğurlu yol keçərək böyük mütəxəssis kimi formalaşıb.

Zərifə Əliyevanın elmi fəaliyyətinin ilk dövründən söz açan Nazim Qasımov həmin vaxtlar alimin traxomanın erkən diaqnostikası, müalicəsi və profilaktikasına dair aktual elmi araşdırmalar apardığını qeyd edir: "Namizədlik dissertasiyasında əksini tapmış bu elmi axtarışların nəinki elmi, həmçinin böyük praktik əhəmiyyəti vardır. Minlərlə insanın korluqdan xilas olaraq ictimai faydalı əməyə qayıtmasını mümkün etməsi bu elmi tədqiqatların mühümlüyünə dəlalət edir. Beləliklə, Azərbaycanda traxoma xəstəliyinin ləğvinə yönəldilmiş kompleks tibbi tədbirlər məhz Zərifə xanım Əliyevaya məxsusdur. Malyariya və traxomaya qarşı fədakar mübarizə aparan Əziz Əliyev estafeti qızına vermiş oldu. Fundamental elmi axtarışlardan maksimum praktik nəticə əldə etmək xüsusiyyəti Zərifə xanım Əliyevanın həm bu, həm də sonrakı işləri üçün xarakterikdir".

Yorulmadan oxuyub öyrənən, araşdırmalar aparan alim 1960-cı illərdə dünya təcrübəsində birincilər sırasında görmə üzvünün peşə xəstəlikləri problemi üzrə geniş elmi axtarışlara başlayıb. Müsahibimiz Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının əsas istiqamətlərindən birinin də məhz yod və şin sənayesinin zərərli təsirlərindən gözün zədələnməsinin öyrənilməsi olduğunu vurğulayır: "Dünya ədəbiyyatında bu fundamental tədqiqatın analoqu yoxdur. Bu problem üzrə Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının nəticələri haqqında dərc olunmuş 30-dan çox elmi işdə tetraxloretilen, pestisid, stirol buxarlarının orqanizmə xroniki təsiri zamanı görmə üzvünün və onun funksiyalarının vəziyyəti əks etdirilir".

Aparılmış fundamental elmi işlərin nəticələri Zərifə xanımın 1976-cı ildə Helmhols adına Elmi-tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil edirdi. Bu məşhur institutun

dahi alimləri və ixtisaslaşmış şuranın üzvləri işə yüksək qiymət verməklə çoxillik tədqiqatların nəticələrini monoqrafiya, dərs vəsaiti və metodik tövsiyə şəklində çap etdirməyi məsləhət görürlər: "Zərifə Əliyevanın doktorluq dissertasiyasının müdafiəsi zamanı elmi şuranın sədri tərəfindən deyilən ifadə yadda qalır: Əməkdar elmlər doktorunu parlaq müdafiə ilə təbrik edirəm. Bu böyük xoşbəxtlik idi!"

Tibb elminin inkişafında böyük işlər həyata keçirən alimin səmərəli fəaliyyətindən danışan müsahibimiz deyir ki, yaradıcılıq uzaqgörənliyi və həyatın nəbzini düzgün təyin etmək bacarığı Zərifə xanım Əliyevaya dünya praktikasında ilk dəfə olaraq istehsalat şəraitində - Bakı Məişət Kondisionerləri Zavodunun sexlərində elmi-tədqiqat laboratoriyasını yaratmağa imkan verdi. Bu laboratoriya elmi axtarışlar aparmaqla yanaşı, görmə orqanının xəstəliklərinin erkən aşkar olunması və müalicəsində böyük rol oynayırdı. Zərifə xanım elmi axtarışlarda müəyyən qanunauyğunluğa riayət edirdi. O deyərdi: "Tədqiqatları təkmilləşdirməklə biz daha bir pillə yüksəlir və qarşımızda yeni geniş üfüqlər açılır". Zərifə Əliyeva hərbi-səhra cərrahı N.İ.Piroqovun sözlərini tez-tez tələbələrinə xatırladırdı: "Elmi axtarışlarda istiqamət və metod - ən əsasıdır. Düzgün üsulları və istiqaməti tapmadan çox vaxt itirməklə özün də çaşırsan".

1967-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunub. Onun əmək fəaliyyətinin böyük bir hissəsi bu institut ilə bağlıdır. Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti, sonra professoru və ömrünün sonunadək müdiri vəzifəsində çalışıb. Nazim Qasımov Zərifə Əliyevanın bu institutun fəaliyyətində, inkişafında gördüyü böyük işlərdən danışır: "1977-ci ildə tibb elmləri doktoru Zərifə xanım Əliyeva Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının professoru seçilib, pedaqoji işlə bərabər daha effektli elmi-tədqiqat işinin təşkilinə böyük enerji ilə başlayıb. Belə ki, 1974-cü ildə "Gözün herpetiv xəstəliyi" və "Kəskin virus könyüktivitləri" elmi tədqiqatları həkimlər üçün dərs vəsaiti kimi dərc edilib.

1980-ci ildə Zərifə Əliyeva tərəfindən üç monoqrafiya - "Rezin istehsalında gözün peşə xəstəliyi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri" çapdan çıxıb".

Böyük istedadı və gərgin əməyi bəhrəsini verirdi. Alimin fəaliyyəti dəyərli tədqiqat əsərləri ilə diqqəti cəlb edirdi. Professor Zərifə Əziz qızı Əliyevaya 1980-ci ildə elmi xidmətlərinə və elmi pedaqoji kadrların hazırlanmasına görə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adı verilib. 1981-ci ildə isə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işlərinə, həmçinin "Rezin istehsalında gözün peşə patologiyası" monoqrafiyasına görə SSRİ elmlər akademiyası tərəfindən Zərifə Əliyeva akademik M.İ.Averbax adına mükafata layiq görülüb. Bu, professor Z.Əliyevanın elmi xidmətlərinə verilən qiymət idi.

"1982-ci ildə professor Zərifə Əliyevanı Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasına kafedra müdiri seçirlər. Onun elmi fikirləri və kompleks elmi tədqiqatları daha geniş vüsət alır. Zərifə Əliyevanın rəhbərlik etdiyi kafedra oftalmologiyanın aktual problemlərinin, xəstənin müasir incə klinik müayinə üsullarının işlənib hazırlanması üzrə Azərbaycanın aparıcı mərkəzinə çevrilir. Zərifə xanım Əliyevanın klinikası və kafedrası ilə Azərbaycan Dövlət Tibb İnstitutunun digər profilli kafedra və klinikaları, həm də Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutu kollektivləri arasında elmi yaradıcılıq əlaqələri çox məhsuldar olub. Zərifə Əliyeva məktəbinin yetirmələri və davamçıları olan, kafedranın və görmə üzvünün fiziologiyası və peşə patologiyası elmi-tədqiqat laboratoriyasının bütün əməkdaşları elmi yaradıcılıqlarının rəngarəngliyi ilə özlərini istedadlı həmfikirlər və müasirlər kimi göstərirlər.

Nazim Qasımov Zərifə xanım Əliyevanın elmi və elmi-pedaqoji kadrların hazırlanması və tədqiqatların aparılması üçün kafedra və laboratoriyanın təchizatına böyük diqqət yetirdiyini nəzərə çarpdırır. Qeyd edir ki, o, çox qısa vaxtda kafedra və laboratoriyanın maddi-texniki bazasını zənginləşdirdi.

Müsahibimiz professor Zərifə Əliyevanın bu gün də unudulmayan mühazirələrindən də danışır: "Zərifə xanım Əliyeva gözəl mühazirəçi olub. Onun mühazirələri, çıxışları həmişə yeniliyi və orijinallığı ilə diqqəti cəlb edib. Zərifə Əliyeva aydın danışıq və ifadə mədəniyyətinin zirvəsinə çatmış və "Elə fikir yoxdur ki, onu sadə, aydın və qəbul ediləcək ifadə etmək mümkün olmasın" (A.İ.Kersen) düsturu ilə yüksək sözün məxsusi məktəbini yaradıb".

Zərifə Əliyevanın rəhbərliyi ilə mühazirələrin, məşğələlərin metodik işlənib hazırlanmaları yeni məlumatları genişləndirilib. Nəticədə, kafedranın təhsil-metodik işi keyfiyyətcə yeni səviyyəyə yüksəlib və daha effektli olub. Alim böyük həvəslə öz biliyini gənc həkimlərə və elmi işçilərə verirdi. Hədsiz yığcamlığı, ciddi intizamı, yüksək məsuliyyət hissi, fikrinin məntiqi ardıcıllığı, yüksək ümumi mədəniyyəti və insanlara diqqəti ümumi və tematik təkmilləşmə kurslarının dinləyicilərində böyük təəssüratlar yaradırdı. İnstitutun Elmi Şurasının yığıncaqlarında, elmi konqreslərdə, simpoziumlarda, konfranslarda çıxış edərkən Zərifə xanım öz prinsipiallığı, savadlılığı, geniş düşüncəsi, ideya yeniliyi, yüksək humanizmi ilə həmişə seçilirdi.

Zərifə xanımın praktik həkimlik fəaliyyəti xüsusən qeyd edilməlidir. O, həmişə əməkdaşlarından xəstələrə böyük məhəbbət və hörmət tələb edirdi, çox vaxt təkrarlayırdı: "Müalicə həkimi xəstənin ən doğma adamıdır". Zərifə xanımı həkimlərin mənəvi tərbiyəsi, tibbi etika və deontologiyası düşündürürdü. Bu sahəyə "Yüksək

istedad" adlı monoqrafiyası həsr edilib. Zərifə xanım Əliyeva təkmilləşmə kurslarında dinləyicilərinə həkimlik deontologiyası barəsində belə deyirdi: "Xəstə sənin əlini sıxıb səmimi-qəlbdən - həkim, çox sağ ol! - deyəndə öz elminin nailiyyətinə sevin".

Müsahibimiz Zərifə Əliyevanın ömrünün son illərini də xatırlayır: "1982-ci ildə professor Zərifə Əliyevanın Moskva alimlərinin əməkdaşlığı ilə "İridodiaqnostikanın əsasları" və "Şəkərli diabet zamanı göz xəstəlikləri" kimi nəhəng işləri çapdan çıxdı. Professor Z.Əliyeva və onun şagirdlərinin dakriologiyanın mühüm problemlərindən birinin işlənib hazırlanmasında elmi tədqiqatları əhəmiyyətli dərəcədə müvəffəqiyyətlidir. Bu problem üzrə 1983-cü ildə professor Z.Əliyeva və tibb elmləri doktoru professor M.Y.Sultanov tərəfindən hazırlanmış iki monoqrafiya "Gözyaşı axıtmanın fiziologiyası" və "Gözyaşı axıtmanın cərrahi müalicəsinin müasir üsulları" çap olunub. Zərifə Əliyevanın tibb elmindəki böyük xidmətləri 1983-cü ildə onu Azərbaycan Elmlər Akademiyasına akademik seçilməsinə gətirdi. Əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının akademiki, professor Zərifə Əliyevanın vaxtsız ölümü olmasaydı, onun elmi-pedaqoji fəaliyyəti daha da möhtəşəm olardı".

Bütün fəaliyyəti boyu tibb elminin və səhiyyənin ön sıralarında olmuş Zərifə Əliyeva Oftalmoloqların Ümumittifaq Elmi-Tibbi Cəmiyyətinin və Ümumittifaq "Bilik" Cəmiyyətinin İdarə Heyətinin üzvü, sovetlər birliyində Sülhü Müdafiə Komitəsinin üzvü və Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavin olub. "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinə daxil idi. Xidmətləri orden və medallarla təltif edilmişdi. Eyni zamanda onu yaxından tanıyan elm və mədəniyyət xadimləri görkəmli alimin xidmətlərini yüksək qiymətləndirirdilər. Tanınmış oftalmoloqlar, RTEA-nın akademiki A.P.Nesterovun, PTEA-nın müxbir üzvü L.K.Moşetovanın, professor A.B.Şulpinanın akademik Zərifə Əliyeva haqqında dedikləri dəyərli sözlər buna nümunədir.

Zərifə xanım Əliyeva özü müvəffəqiyyətlərinə çox tənqidi yanaşırdı. Uğurları onu arxayınlaşdırmır, daha böyük işlərə sövq edirdi. Akademik Zərifə Əziz qızı Əliyeva tarixə nəinki istedadlı alim, klinisist, elmin təşkilatçısı kimi, eyni zamanda gözəl pedaqoq və yeni alimlər nəslinin tərbiyəçisi kimi daxil olub. Azərbaycanda aparıcı oftalmoloji məktəblərdən birini o yaradıb. Minlərlə həkim onun rəhbərliyi altında insanlara sağlamlıq və yaradıcı əmək sevinci qaytarmağı öyrənib.

Rektor müsahibəmizin sonlarında Zərifə Əliyevanın bu institutun fəaliyyətində yüksək xidmətlərini bir daha vurğuladı: "Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professor-müəllim heyəti minnətdarlıq hissi ilə Z.Ə.Əliyevanı yad edir, onun xatirəsi qarşısında baş əyir. O, öz yaradıcılıq enerjisi ilə instituta hərarət verib və sonrakı inkişafını müəyyən edib. Zərifə xanım Əliyeva yaradıcı insan idi. Onun, insanlara məhəbbətdən ruhlanan əməyi onlara mübarizədə qalib gəlməkdə kömək etməyə yönəlmişdi".

Görkəmli dövlət xadimi, böyük siyasətçi Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı olan Zərifə xanım bacarıqlı ailə başçısının qüdrətli dövlət başçısı kimi mənsub olduğu xalqı işıqlı ideallara qovuşdurmaq yollarındakı qətiyyətli mübarizəsinə etibarlı dayaq olub. Övladları İlham Əliyev və Sevil Əliyevanın parlaq, işıqlı Vətən övladları kimi tərbiyə olunmalarında da cəmiyyətşünaz göz həkiminin, ziyalı Azərbaycan qadınının əvəzsiz rolu minnətdarlıqla qeyd olunmalıdır. O, müstəqil Azərbaycanın son 200 ildə ən böyük qələbəsini qazanan, Müzəffər Ali Baş Komandan, Ulu Öndərin layiqli davamçısı İlham Əliyev kimi böyük dövlət xadimini Azərbaycan xalqına bəxş edib. Zərifə Əliyevanın xatirəsi Azərbaycan xalqının yaddaşında daim yaşayacaq.

**Azərbaycan.** - 2023.- 15 aprel. - № 78. - S. 8.

**Böyük alim, gözlərə nur bəxş edən insan**

**Tamilla Naibova,**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti, k.ü.f.d.

**Görkəmli akademik Zərifə xanım Əliyeva mənim hafizəmdə böyük alim, alicənab insan, Azərbaycan qadınının şərəf və ləyaqət rəmzi kimi qalmışdır.**

Bu qənaəti istər tələbə və ya aspirant olduğum illərdə apardığım elmi-tədqiqat işlərinin nəticələrinin sınağı zamanı, istərsə də tələbələrin tədris-istehsalat təcrübələrinin rəhbəri kimi Bakı Şin Zavodunda, Yod Zavodunda, Sumqayıt Üzvi Sintez İstehsalat Birliyində, Mingəçevir Rezin-Texniki Məmulatlar zavodunda və "Azərelektroizolit" Zavodunda Zərifə xanımın müayinə etdiyi mühəndis-texniki işçilərdən onun haqqında eşitdiyim xoş xatirələr daha da gücləndirmişdir.

Zərifə xanım Əliyeva görkəmli elmi-tədqiqatçı olmaqla yanaşı, həm də çox böyük praktiki işlər görürdü. O, zərərli sənaye müəssisələrində çalışan insanların oftalmoloji müayinədən keçmələrini təşkil etmiş, peşə ilə əlaqədar əmələ gələn göz xəstəliklərinin yayılma qanunauyğunluqlarını aşkarlamaq üçün çoxlu müayinələr aparmış və görmə orqanlarına mənfi təsir göstərən amilləri diqqətlə araşdırmış, zərərli peşələrin törətdiyi göz xəstəliklərini elmi surətdə əsaslandırmış, onların qarşısını almaq üçün əməli təkliflər vermişdir. Eyni zamanda, zərərli amillərin, məsələn, Bakı Şin Zavodunda və Mingəçevir Rezin-Texniki Məmulatlar Zavodunda ağ və qara dudanın, kaptaksın, tiuramin, tiazolların, ksantogenatların, platifikatorların və digər onlarla zəhərli inqredientlərin, Mingəçevir “Azərelektroizolit” Zavodunda fenolun, formaldehidin, Sumqayıt Üzvü Sintez İstehsalat birliyində diafraqma və civə üsulu ilə qələvi istehsalı, xlorid turşusu istehsalı, sulfanol istehsalı və başqa üzvi birləşmələrin istehsalı, Gəncə Gil-Torpaq Zavodunda metal tozlarının, o cümlədən boksit şlamının təkcə görmə orqanına deyil, bütövlükdə orqanizmə və onun ayrı-ayrı orqanlarına göstərdiyi təsirləri də öyrənmişdir. Zərifə Əliyeva yodla uzun müddət əlaqədar olan işçilərin görmə orqanının zədələnməsinin kompleks əlamətlərini də tədqiq etmişdir. Tədqiqatlarının nəticələri göstərmişdir ki, yodla uzun müddət təmasda olan işçilərin görmə qabiliyyəti zəifləyir, gözün işığa qarşı həssaslığı pisləşir və göz təzyiqi artır. Görkəmli alim sanki bu istehsalat sahələrində həyəcan təbili çalmışdır. Yuxarıda göstərilən istehsal sahələrində yenidənqurma işlərinin aparıldığı bir vaxtda Zərifə xanımın dəyərli elmi-tədqiqat işlərinin nəticələri bütün zəhərli istehsal sahələrində nəzərə alınmalı və sənaye ekologiyasına xüsusi diqqət yetirilməlidir.

Alimin elmi-tədqiqat işlərinin nəticələri “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yod intoksikasiyası zamanı oftalmologiya”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” kimi monoqrafiyalarda öz əksini tapmışdır. Bu monoqrafiyalar təkcə tibb işçiləri üçün yox, eyni zamanda, göstərilən istehsal sahələrində çalışan insanlar üçün də çox lazımlı əsərlərdir. Zərifə xanımın apardığı elmi-tədqiqat işlərinin nəticələri “Azərbaycanın kimya sənayesinin bir sıra müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya işində öz əksini tapmışdır. O, bu mövzuya həsr olunmuş doktorluq dissertasiyasını böyük müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Zərifə xanım üçün elm məqsəd olmamışdır. Onun elmdə seçdiyi yol bunu təsdiqləyir. Xalqına, vətəninə xidmət etmək sevinci onu bu istiqamətdə tədqiqat işləri aparmağa sövq etmişdir. Vətəndaşlıq mövqeyi, elitar ziyalılıq, parlaq zəka, geniş erudisiya onun elmi fəaliyyətinin səciyyəvi xüsusiyyətləri idi. O, Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıtmışdır. Dünyanın tanınmış oftalmoloqları Zərifə xanımın elmi tədqiqatları haqqında yüksək fikirlər söyləmişlər. Akademik Zərifə xanım Əliyeva ilk azərbaycanlı qadındır ki, beynəlxalq aləmdə tanınmış bir mükafata-akademik Mixail Averbax adına mükafata layiq görülmüşdür.

Keçmişə nəzər salmaq lazımdır, çünki dünən bu günün bünövrəsidir. Tarixən Azərbaycan qadınları həm ağıllı, həm də güclü olublar. Bununla Azərbaycan qadınları öz sələfləri ilə fəxr ediblər. Bu gün Azərbaycan qadını Zərifə xanım kimi görkəmli alim-ləyaqətli qadınla fəxr edir. Bugünkü gənc qızlarımız, qadınlarımız Zərifə xanımdan nümunə götürməli və gələcək nəsillərin yad etməsi üçün iz qoymalıdırlar. Zərifə xanım daim Azərbaycan xalqının yaddaşında həm görkəmli alim, həm də ləyaqətli qadın kimi yaşayacaqdır. Çünki o, vətənpərvər, insanpərvər, sadə, milli dəyərlərimizi qoruyan, təbliğ edən bu şəxsiyyət idi.

**İki sahil.-**2023.-15 aprel.-№65.-S.14.

## Tibb elminin inkişafında misilsiz xidmət

**Nəzrin Cavadzadə**

***15 aprel görkəmli oftalmoloq-alim, tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyevanın anım günüdür. Onun vəfatından 38 il ötür.***

***Zərifə Əliyeva orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktikası fakültəsinə daxil olub. Ali təhsilini başa vurduqdan sonra aspirantura təhsili alıb və eyni zamanda o vaxtlar ölkəmizdə geniş yayılmış traxoma infeksion xəstəliyinin müalicəsi istiqamətində uğurlu elmi-tədqiqat işləri aparıb. Zərifə xanım xəstəliyi araşdıraraq səbəbini və müalicəsini tapmaq məqsədilə Moskvaya üz tutur. Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçdikdən sonra Azərbaycana həkim-oftalmoloq kimi qayıdır.***

***Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayan Zərifə xanım həkim kimi fəaliyyəti ilə yanaşı, elmi araşdırmalarını da davam etdirir. O, elmi fəaliyyətinin ilk mərhələsini məhz traxoma xəstəliyinin müalicəsinə həsr edir. Zərifə xanım elmi axtarışlarını əzmlə davam etdirir. Namizədlik dissertasiyasını uğurla müdafiə edib tibb elmləri namizədi elmi dərəcəsi alır. Alimin təklif etdiyi müalicə metodunun tezliklə bütün respublikada istifadəsinə başlanılır. Beləliklə, bu xəstəliyə qarşı mübarizədə ciddi dönüş əldə olunur.***

Zərifə xanım həm də gözəl pedaqoq idi. O, gənc həkimlərin diqqətini həkim-xəstə münasibətinə cəlb edərək deyirdi: "Həkim xəstənin ən doğma adamıdır". Zərifə xanımın bir çox məqalələri həkimin mənəvi tərbiyəsinə, həkim etikasına və əxlaqına həsr edilib. Həmin məsələlər bu gün də öz aktuallığını itirməyib.

Ömrünü insanlara yardım etməyə, gözlərinə işıq verməyə həsr edən görkəmli alim traxoma xəstəliyi ilə apardığı mübarizədən sonra qlaukoma adlanan göz xəstəliyinin tədqiqinə başlayır. Həm elmi tədqiqatlarına davam edir, göz xəstəliklərinin müalicə yollarını axtarır, həm də cərrahiyyə əməliyyatları aparırdı. Zərifə xanım heç vaxt qazandığı uğurlarla kifayətlənməmiş, tədqiqatlarının mövzusunu daha da zənginləşdirmiş və dünya təcrübəsində ilk olaraq aşağı konsentrasiyalı faktorların görmə orqanına erkən xroniki təsirini aşkar etmişdir. Zərifə xanım apardığı fundamental tədqiqat işlərinin nəticələrinə əsasən "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Zərifə Əliyeva doktorluq dissertasiyasını müdafiəsindən sonra həm də Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdir. 1983-cü ildə o, həmin kafedranın müdiri vəzifəsinə yüksəlib. Həmin il görkəmli alimin təklifi ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdi. Belə bir möhtəşəm tədbir respublikamızda ilk dəfə keçirildiyindən böyük təşkilatçılıq bacarığı, gərgin zəhmət və təcrübə tələb edirdi və bu işin ağırlığı Zərifə xanımın üzərinə düşürdü. Akademik Zərifə Əliyeva bu işlərin öhdəsindən uğurla gəldi. Bu plenum həm Azərbaycanda, həm də keçmiş ittifaqda maraqla qarşılandı. Zərifə Əliyeva 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə o zaman oftalmologiya aləmində ən yüksək mükafat sayılan SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ.Averbax adına mükafata layiq görüldü. Zərifə xanım həmin mükafatı alan ilk qadın idi. Akademik Zərifə Əliyeva ictimai işlərdə də fəal iştirak etmiş, keçmiş SSRİ-nin Sülh Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülh Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyətin İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi.

Görkəmli alim Zərifə Əliyeva böyük elmi məktəb yaratmış alimlərdəndir. Onun gərgin əməyi sayəsində ərsəyə gələn dərs vəsaitləri, monoqrafiyalar bu gün təkcə Azərbaycanda deyil, dünya oftalmologiya elminin inkişafında gənc həkimlərin və bu sahədə tədqiqatlar aparan alimlərin yetişməsində mühüm rol oynayır. "Kəskin virus konyunktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və digər elmi əsərləri Zərifə xanımın tibb elminə sanballı töhfələridir. Alim göz yaşı aparatı xəstəliklərinin öyrənilməsinə də xüsusi diqqət yetirmiş, bu mövzuya həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının banisinə çevrilmişdir. Elmi araşdırmaları nəticəsində Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirdi. Bütün bunlar dünya elmi ictimaiyyətinin diqqətini cəlb edən əsərlər idi.

Zərifə xanım həm xeyirxah, həm də qüdrətli şəxsiyyət idi. O, elmi fəaliyyətləri, uğurları ilə yanaşı, həm də insani keyfiyyətləri ilə seçilirdi. Elə insansevərliyi sayəsində tibb sahəsində bu qədər uğurlara imza ata bilmişdi.

Zərifə xanım hər zaman öz dərin duyumu, həssaslığı ilə hamını heyran edirdi. Onun bədii duyumu, istedadı da bənzərsiz idi. Professor, əməkdar elm xadimi N.Şulpina öz xatirələrində yazır: "Azərbaycanda Ukrayna incəsənəti ongünlüyü keçirilərkən onun etdiyi parlaq çıxışı xatırlayıram. Ukrayna artistləri ilə bir qrupda Xəzər dənizinin məşhur "Neft Daşları"na getmişdik. Zərifə Əziz qızı da bizimlə idi. Bu, mənim həyatımın ən unudulmaz səhifələrindən biridir. Hər şey gözəl idi, dənizin coşqun dalğaları da, sənət adamlarının həmişə maraq doğuran dünyası da, "Neft Daşları" da, orada toplaşdığımız salon da... Amma ki, o günə Zərifə xanım xüsusi rövnəq verirdi. Sanki hamı tərəfindən kəşf olunan Zərifə xanım masa arxasında çıxış etdi, respublikanın qazandığı uğurlardan, səhiyyə və mədəniyyət sahəsindəki önəmli hadisələrdən danışdı. Onun çıxışı həqiqətən, parlaq və faktlarla zəngin idi. Mən eşitdiklərimə heyrət edirdim... Fəxr edirdim ki, bizim aramızda təbiətin xoş çağında yaranmış zəngin mənəviyyatlı bir insan yaşayır". Yüksək insani keyfiyyətləri, hər şeyi incəliyi ilə qiymətləndirmək bacarığı, insanlarla dil tapmaq qabiliyyəti ictimai fəaliyyətində Zərifə xanıma böyük kömək göstərmişdir. Zərifə xanımın zəngin daxili aləminin formalaşmasında valideynlərinin böyük rolu olmuşdur. Tanınmış alim və həkim, keçmiş SSRİ-də böyük nüfuz qazanmış Əziz Əliyevin qızı məhz Zərifə xanım kimi olmalı idi.

Zərifə Əliyeva qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı missiyasını da uğurla yerinə yetirirdi. O, ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı olmuşdur. Zərifə xanım həm də ona görə xoşbəxt idi ki, o, xalqımıza dəyərli övladlar bəxş etmişdir. Zərifə Əliyevanın fəxri adları, elmi titulları, mükafatlarının sayı-hesabı yoxdur. Onun dəyərli və praktik elmi irsi 14 monoqrafiyada, 150-dən artıq fundamental məqalədə Moskvada, Bakıda və xarici ölkələrdə çap olunub. Lakin bunlar arasında ən şərəflisi ana adıdır. Zərifə xanım cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə edib. Bəlkə də, bəşər tarixində nadir şəxslərə qismət olmuşdur ki, dövlət xadiminin övladı, həyat yoldaşı və anası kimi şöhrətin ən uca mərtəbəsinə yüksəlsin, lakin özünün qazandığı insanlıq zirvəsini hər şeydən uca tuta bilsin.

Ulu öndər Heydər Əliyev xatirələrində deyirdi ki, mən Zərifə xanım kimi həyat yoldaşımın olması ilə xoşbəxt idim. Üç böyük tarixi şəxsiyyətin həyatında izi olan Zərifə xanım həm də ailə və övlad dəyərləri ilə yaşadı.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novodeviçye qəbiristanlığından Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn olunmuşdur. Ümummilli lider Heydər Əliyev dünyasını vaxtsız dəyişən ömür-gün yoldaşını həmişə böyük məhəbbətlə və ehtiramla xatırlayırdı: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla ailə həyatı quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhvali-ruhiyyədədirlər".

İnsanların həyatında böyük rol oynayan, xoş əməl sahibi olan Zərifə xanım kimi şəxsiyyətlər heç zaman unudulmur. Görkəmli alimin həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngindir ki, bütün fəaliyyətində bu gözəl insanın nəcib və xeyirxah şəxsiyyət olması bir daha öz təsdiqini tapır. Zərifə Əliyeva elmə verdiyi töhfələri və ən əsası da gözəl şəxsiyyəti ilə hər zaman Azərbaycan xalqının xatirəsində yaşayacaqdır.

**Respublika.** - 2023.- 15 aprel. - № 78. - S. 6.

## Görkəmli elm xadimi, nəcib insan, qayğıkeş ana

### 15 aprel dünyaşöhrətli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anım günüdür

**Mehparə Əliyeva**

***Həyatda elə insanlar var ki, onlar əbədiyyətə qovuşandan illər, əsrlər sonra da milyonlar tərəfindən sevgi və ehtiram hissi ilə xatırlanır, haqqında böyük məhəbbət və doğmalıq hissi ilə bəhs edilir. Görkəmli alim, pedaqoq, dərin bilikli həkim, sadə, qayğıkeş, mehriban insan olan Zərifə xanım Əliyeva da belə işıqlı şəxsiyyətlərdəndir. Mənalı ömür yolu keçmiş, geniş dünyagörüşü, zəngin biliyi, elmi baxışları ilə milli səhiyyəmizin tərəqqisinə böyük töhfələr vermiş Zərifə xanım Əliyeva elmi və pedaqoji fəaliyyəti boyu respublikamızda yüksəkixtisaslı kadrların hazırlanmasına, oftalmologiya sahəsində mütəxəssislərin yetişməsinə gərgin əmək sərf etmişdir. Görkəmli alimin uzunmüddətli araşdırmaları, tədqiqat işləri sayəsində göz xəstəliklərinin müalicəsində yeni metodlar tətbiq edilmiş, bu sahədə bir sıra ilklərə imza atılmışdır. Tibb elminin inkişafında əvəzsiz xidmətləri olan Zərifə xanım Əliyevanın təşəbbüsü ilə respublikamızda oftalmologiya sahəsində ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaradılmışdır. Akademikin tibb elmindəki geniş, dərin biliyi sayəsində ötən əsrin ortalarından etibarən ölkəmizdə oftalmologiya elmi milli səhiyyəmizin inkişaf edən sahələrindən birinə çevrilmişdir.***

### Elmə həsr edilən ömür

Zərifə Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi, mahir səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Hələ uşaq vaxtlarından təhsilə böyük maraq göstərən Zərifə xanım bütün ömrünü elmə həsr etmiş, oftalmologiya sahəsində böyük uğurlara nail olmuşdur. O, 1942-ci ildə orta məktəbi, 1947-ci ildə isə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, 1949-1950-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır. Həmin dövrdə respublikamızda insanda gözü zədələyərək ağır fəsadlar törədən, korluğa səbəb olan traxoma xəstəliyi geniş yayılmışdı. Xəstəliklə mübarizə aparmaq və bu sahədə effektiv nəticələr əldə etmək üçün ciddi addımlar atılır, insan həyatı üçün təhlükəli olan infeksion xəstəliklə mübarizə yolları axtarılırdı. Öz üzərində ciddi şəkildə işləyən Zərifə xanım gecə-gündüz mütaliə edir, elmi biliklərini dərinləşdirir, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda müalicə və profilaktik tədbirlərin təşkilində fəal iştirak edirdi. O, bu xəstəliyin ən çox yayıldığı bölgələrə gedir, oradakı həkim-oftalmoloqlara traxoma xəstəliyi barədə məruzələr söyləyir, ümumiyyətlə göz xəstəliklərinin müayinə və müalicəsi ilə bağlı elmi biliklərini həmkarları ilə bölüşürdü. Zərifə xanım həkimlik fəaliyyəti ilə yanaşı, eyni zamanda elmi axtarışlarını da davam etdirir, traxoma xəstəliyinin müalicəsi zamanı antibiotiklərdən istifadə imkanlarını araşdırırdı. 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsində" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası alimin bu sahədəki gərgin əməyinin nəticəsidir.

1968-ci ildən etibarən professional oftalmologiya məsələləri ilə məşğul olan Zərifə Əliyeva görmə orqanı və köməkçi aparatın funksiyasına və biokimyasına, mikro və ultramikrostrukturuna yod, rezin və neft-kimya sənayesi müəssisələrində işləyənlərə zərərli peşə faktorlarının təsirinə dair çoxsahəli məsələlərin həllinə diqqətini yönəltmişdi. 1969-cu ildən Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, 1977-ci ildə professoru olmuşdur. Zərifə xanım Əliyevanın təklifi ilə 1979-cu ildə akademik A.Qarayev adına Fiziologiya İnstitutunda görmə üzvünün peşə patologiyası və fiziologiyasının problemləri laboratoriyası yaradılmış, burada gözün və köməkçi üzvün həm normada, həm də rezin və neft-kimya sənayesinin müəssisələrində uzun müddət işləyən insanlarda yaranan peşə intoksikasiyası şəraitində funksiyalarının reallaşdırılmasının fizioloji və biokimyəvi mexanizmlərinin öyrənilməsinə dair bir sıra tədqiqat işləri aparılmışdır. Zərifə xanım bu tədqiqatların nəticəsində alınan materiallar əsasında bir sıra elmi məqalə və monoqrafiyalar yazmışdır. Bu monoqrafiyalar təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da böyük maraqla qarşılanmışdır.

Zərifə Əliyeva 1982-1985-ci illərdə görmə orqanlarının peşə patologiyası laboratoriyasının, bir müddət sonra isə oftalmologiya kafedrasının müdiri vəzifəsində çalışmış, bu illərdə vərəm, şəkər və qlaukoma xəstəlikləri nəticəsində gözün zədələnməsi ilə bağlı apardığı mühüm tədqiqat işlərinin nəticəsi Azərbaycan tibb elminin inkişafına əhəmiyyətli təsirini göstərmişdi. Belə ki, alimin tədqiqat işlərinin böyük bir qismi də oftalmologiyanın problemlərindən biri olan qlaukoma xəstəliyinin diaqnostikası və müalicəsinə həsr olunmuşdur. Bu tədqiqat işlərinin birində gözdaxili təzyiqi ölçmə üsulu təkmilləşdirilmişdir ki, bu da xəstəliyin müalicəsində mühüm əhəmiyyət kəsb etmişdir. O, nəzəri biliklərini təcrübədə geniş tətbiq edir, bu sahədə yeni elmi müddəa və

nəzəriyyələrlə çıxış edirdi. Alim həmçinin, göz travmatizminin profilaktikası və onunla mübarizə, oftalmologiya sahəsində fizioterapevtik üsullardan istifadə sahəsində də uğurlu nəticələr əldə etmiş, iridodiaqnostikanın əsasını qoymuşdur.

Fədakar alim kimya və elektron sənayelərində də peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi məsələsinə xüsusi diqqət yetirmişdir. Onun bu sahədəki zəngin bilik və təcrübəsi sənaye sektorunda çalışan və peşə fəaliyyəti ilə əlaqədar olaraq göz xəstəliyi ilə üzləşən minlərlə insana şəfa bəxş etmiş, onları nura, işığa qovuşdurmuşdur. Görkəmli alimin oftalmologiya elminə bəxş etdiyi yeniliklər bu gün də mütəxəssislər tərəfindən öyrənilməkdə, qiymətli elmi irs kimi təbliğ və tətbiq olunmaqdadır.

## Yüksək əqidə, həkimlik etikası

Zərifə Əliyevanın bir alim kimi böyüklüyü onun oftalmologiya sahəsinə yeni bir yol, yeni baxış tərzi, yeni müalicə metodologiyası gətirməklə məhdudlaşmırdı. Onun böyüklüyü atdığı hər bir addımda, gördüyü hər bir işdə həkimlik peşəsini müqəddəs bilməsi, bütün həmkarlarını bu müqəddəsliyi qorumağa səsləməsi idi. Oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan Zərifə xanım vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar aparmışdır. O, hesab edirdi ki, həkimlik sənəti hər bir mütəxəssisdən bilik və bacarıqla yanaşı, həm də mənəvi saflıq tələb edir. Həkimin qəlbi və düşüncəsi nə qədər pakdırsa, bu, onun peşəsinə, apardığı müalicəyə bir o qədər dərindən sirayət edir və müsbət nəticə verir.

Zərifə Əliyevaya görə həkimlik həm də yüksək etika, ali mədəniyyət tələb edən bir sənət idi. Buna görə də o, həkimliklə məşğul olan hər bir insanın öncə yüksək etikaya malik olmasını vacib hesab edirdi. Onun fikrincə, hər bir həkim öncə yüksək etikaya, ali mədəni davranışa, düşüncə paklığına malik olmalı, peşəkarlığı ilə yanaşı, həm də bu xüsusiyyətləri ilə ətrafdakı insanların rəğbətini qazanmalıdır.

Zərifə Əliyevanın peşə fəaliyyəti ilə bağlı bütün bu fikirləri sonrakı dönəmlərdə ümumiləşdirilmiş və bütün bunların əsasında 2003-cü ildə fundamental bir əsər - "Yüksək əqidə: həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı" əsəri yaranmışdır.

Zərifə Əliyeva oftalmologiya tarixində yenilikçi alim olmaqla yanaşı, həm də həkimlik sənətinə özünəməxsus həlimlik və zəriflik gətirən bir insan kimi qalmışdır. Prezident İlham Əliyev 2013-cü ildə Zərifə Əliyevanın 90 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdəki çıxışında görkəmli oftalmoloqun həkimlik peşəsinə gətirdiyi, bu peşənin ayrılmaz tərkib hissəsi hesab etdiyi nəcib xüsusiyyətlər haqqında ətraflı bəhs etmiş, onun peşəkar həkim olmaqla yanaşı, həm də xeyirxah insan olduğunu qeyd etmişdir: "Zərifə xanım, sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir".

Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, eyni zamanda Sovet İttifaqının oftalmologiya elmində ən yüksək mükafat olan Averbax mükafatına layiq görülmüş Zərifə xanımın fəaliyyəti, gördüyü işlər insan amilinə xidmət edirdi. Çünki o, hər bir həkimdə çox yüksək qiymətləndirilən peşəkarlıq, eyni zamanda xeyirxahlıq kimi müsbət keyfiyyətlərə malik insan idi. O, təlqin edirdi ki, insanların həyatında, onların sağlamlığında birbaşa cavabdehlik daşıyan həkim peşəkar olmalı, dərin biliyi, geniş dünyagörüşü ilə insanlara xidmət göstərməlidir. Zərifə xanımın həkimin, insanların sağlamlığının keşiyində dayanan tibb işçisinin etik davranışı ilə bağlı dəyərli fikirləri bu gün də hər bir həkim üçün böyük önəm daşıyır. Zərifə Əliyevanın insani dəyərlərə mühüm önəm verməsi, həyatı boyunca bu dəyərlərə sadiq qalması hər şeydən əvvəl, onun mənəvi zənginliyinin göstəricisi idi.

## Vəfalı ömür-gün yoldaşı

Zərifə Əliyevanın xarakterik xüsusiyyətlərindən biri onun nümunəvi ana və həyat yoldaşı, etibarlı dost, əsl mübariz qadın olması ilə bağlıdır. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı, mənəvi güc mənbəyi, ilham qaynağı olmuşdur. İstər Azərbaycanda birinci dəfə hakimiyyətə gəldiyi dönəmlərdə, istərsə də SSRİ hakimiyyətində təmsil olunduğu vaxtlarda ağır siyasi mübarizələrdə Heydər Əliyev bu mübarizələrin hər bir mərhələsində Zərifə xanımın mənəvi dəstəyini yaxından hiss etmişdir. Heydər Əliyev hər zaman Zərifə Əliyevadan böyük məhəbbət hissi ilə bəhs etmiş, əldə etdiyi uğurlarda həyat yoldaşının böyük payının olduğunu dönə-dönə vurğulamışdır: "…Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu

yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi"…

Sədaqəti, mübarizliyi, saflığı, əzmkarlığı ilə əsl Azərbaycan qadınının bütün gözəlliklərini özündə birləşdirən Zərifə Əliyeva həm də milli dəyərlərə hədsiz bağlı olmuş, övladlarını da bu dəyərlərə sadiqlik ruhunda yetişdirmişdir. Zərifə Əliyeva cəmiyyətdəki yüksək statusuna və qazandığı böyük şöhrətə rəğmən öz sadəliyi və təmənnasızlığı ilə diqqət çəkir, mümkün qədər ondan yardım istəyən hər bir insanın probleminin həllinə çalışırdı. O, hesab edirdi ki, xeyirxahlıq hər bir insanın yaradılışının tərkib hissəsidir və bunsuz hansısa insanı bir tam, bir bütöv kimi xarakterizə etmək yanlışdır. Akademik, tanınmış alim Zərifə Əliyeva öz status və mövqeyindən hər zaman yalnız bir məqsədlə - sadə vətəndaşlara yardım etmək, onların qayğısına qalmaq məqsədilə istifadə etmişdir. Elə bu səbəbdən də görkəmli oftalmoloq Azərbaycan xalqı tərəfindən məhz bu cür xatırlanır: sadə və xeyirxah insan, böyük alim…

**Respublika**. - 2023.- 15 aprel. - № 78. - S. 6.

**Nurlu ömrün böyük salnaməsi – Zərifə xanım Əliyeva**

**Zümrüd Bayramova**

Qeyri-adi peşəkarlığı ilə şöhrətlənən, dünya oftamologiya elminə töhfələrini verən, böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyeva öz əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək, onlara bu dünyanın gözəlliyini görmək kimi böyük xoşbəxlik bəxş etmişdir. Hər insan əməli fəaliyyətində bu səadətə – insanlara nur bəxş etmək səadətinə qovuşa bilmir. Böyük istedad, zəhmət və geniş qəlb insanı bu yüksəkliyə ucalda bilir. Gərgin əməyi ilə uzun illər elmi nailiyyətlərə imza atan Zərifə xanım elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınır. Elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə dünya oftamologiya elmində öz möhrünü vurub.

Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftamoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın bu gün anım günüdür. Alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani kefiyyətləri, elmi fəaliyyəti təkrarsız bir insan olaraq hər zaman xatırlanır. Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir.

O, elm sahəsində elə bir yüksək zirvədədir ki, zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Özü də yaşadığı illərdə araşdırmalar aparmış, elmi zəkası ilə gəldiyi qənaətlər və nəticələr böyük uğurlara yol açmışdır. Bu uğur bir şəxsin olmuş olsa da, bundan minlərlə, milyonlarla insan bəhrələnmişdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir.

Onun keçdiyi həyat və elmi yoluna nəzər salaq. Şərəfli bir ömür yolu. Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu elə bir zaman idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Öz həyatını tibb elminə bağlayan Zərifə xanım mərhələ-mərhələ buna nail olub.

Onun elmi nailiyyətlərinə nəzər saldıqda nə qədər böyük əhəmiyyətə malik olduğunu görürük. Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbüssündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N.Dobromislovun və başqalarının yazılarında alimin şərəfli və zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb. Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!"

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır.

Onun elmi nailiyyətləri ilə yanaşı, ziyalı işığı da daim insanlara nur, qüvvət verib. Zərifə Əliyevanın hər sözü, hər bir hərəkəti nümunəyə çevrilib. Hətta həmkarlarına verdiyi tövsiyələr onun ziyalılığının nümunəsidir. İnsana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir kimi tövsiyələri diqqəti çəkir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verib.

Çox alimlər, ziyalılar onun ünvanına – şəxsiyyətinə, elmi uğurlarına, tədqiqatlarına yüksək fikirlərini bildiriblər. Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu qeyd ediblər. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın kimi mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda, bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, bir alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə və zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan əlvan çalarlı ömrünü yazılı salnamələrdə əks etdirdi.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq iki övlad böyüdüb - ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevirildi. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Səs.-**2023.-18 aprel.-№66.-S.3.

## Zərifə xanım Əliyeva: Azərbaycanın qürurla andığı qadın

**Mətanət Məmmədova**

Bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli və eyni zamanda ən yüksək insani dəyərlərə malik həkim, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, ölkəmizə iki layiqli övlad, eyni zamanda müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana Zərifə xanım Əliyevanın bu il 100 yaşı tamam olur. Bu 100 yaşın fövqündə Zərifə xanım Əliyeva nur saçır. Onun həyat yoluna nəzər saldıqca gözlər qarşısında Azərbaycanın hər zaman qürurla andığı bir qadın canlanır. Tarix məhz belə insanların sayəsində yaranır, onların nəcibləşən ömürləri gələcək nəsillərə örnək, nümunə olur.

### Bahar ömürlü insan

Bir bahar günündə dünyaya göz açan, həyatının bütün illərini bahar ömrü yaşadığı üçün elə baharda da dünyadan köçən Zərifə xanım Əliyeva görkəmli həkim, sədaqətli və mehriban həyat yoldaşı, qayğıkeş ana, əsl insan kimi hər an gözəl duyğularla anılır.

Zərifə xanım Əliyeva qədim Naxçıvan diyarında, Şərur rayonunun Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdı. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdı. Zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi.

Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi.

Fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və O, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır.

### Gözlərə nur həkim

Zərifə xanım Əliyeva ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Onun başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi.

Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır.

Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq indi də tətbiq edilir və insanlara nur bəxş edir.

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir.

Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım daim həkim-xəstə münasibətinə xüsusi diqqət yetirmişdir. O, dəfələrlə demişdir ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır. Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində yazırdı: “Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?”

## Tibb elminə saysız töhfə

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun “Herpetik göz xəstəliyi”, “Ağır virus konyunktivitləri” əsərləri bu qəbildəndir.

Görkəmli alimin qələmə aldığı “Terapevtik oftalmologiya”, “Oftalmologiyanın aktual məsələləri”, “İridodiaqnostikanın əsasları” kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.

Zərifə xanım Əliyevanın “Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti” mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı.

Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndərimiz deyirdi: “Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın”.

Akademik Zərifə xanım Əliyeva göz xəstəlikləri mütəxəssisi kimi Azərbaycanda bu sahədə elmin əsas yaradıcılarındandır. O, göz xəstəliklərinin müalicəsi problemini elmi məktəb səviyyəsinə çatdırmışdır.

## Sədaqətli həyat yoldaşı, qayğıkeş ana

Deyirlər ki, hər bir kişinin arxasında güclü bir qadın vardır. Bəli, çox yerində deyilmiş fikirdir. Ümummilli Liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsinə etibarlı dayaq olmuşdur. Daim yüksək vəzifələrdə çalışan Ulu Öndərin, iki övladının və xəstələrinin qayğıları Zərifə xanımın mənalı ömrünün eyni ahəngli akkordları olmuşdur. Bütün

bunlar haqqında Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə tamaşa edəndə baxmayaraq ki, orta nəsil bu böyük şəxsiyyətlərin nümunəvi, gözəl, səmimi münasibətlərinin şahidi də olublar, lakin bu film insanın qəlbində dəruni hisslər oyadır. Ümummilli Liderin Zərifə xanımı xatırlamasındakı bütün cümlələr qarşısında onun ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbətə heyran qalırsan. Bəli, əsl məhəbbət budur: illərin dəyişə bilmədiyi məhəbbət...

Ömrünün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də o cəhətdən xoşbəxt idi ki, xalqımız, dövlətimiz üçün gərəkli olan iki övladın anası idi. Zərifə xanım Azərbaycana onun xilaskarını bəxş etmişdir. 30 illik işğal altında qalan torpaqlarımızın qurtuluşçusunu bəxş etmişdir. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmağı bacaran, müzəffər sərkərdə, sevilən lider olan Ali Baş Komandanımızı bəxş etmişdir.

Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".

Cənab İlham Əliyev bu gün Azərbaycanı dünya dövlətləri içərisində sözü və yeri olan bir ölkə kimi tanıdıb. Heydər Əliyev ideyalarını davam etdirməklə Azərbaycanı inkişaf etmiş ölkələrdən birinə çevirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Zərifə xanımın sevimli gəlini Mehriban xanım Əliyeva onun ənənələrini davam etdirir. Hər iki ailədən aldığı yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördükləri işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının yüksək intellektual səviyyəsini və vətənpərvərliyini, eyni zamanda bu ailənin ənənələrinin davam etdirildiyini təsdiq edir.

Gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əbədiyaşar alimin əziz xatirəsi daim ehtiramla yad edilir, işıqlı və nurlu əməlləri bu gün də yaşayır və xatırlanır. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür.

**Səs.**-2023.-15 aprel.-№65.-S.4-5.

## “Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva: həkimlik andı və vətəndaş missiyası

**Aprelin 19-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş “Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva: həkimlik andı və vətəndaş missiyası” mövzusunda yubiley tədbiri keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.

AMEA-nın Əsas binasında keçirilən tədbirdən öncə akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və səhiyyə naziri Teymur Musayev çıxış edərək akademik Zərifə Əliyevanın həyatı və zəngin elmi fəaliyyətindən söz açıblar. Bildirilib ki, Prezident İlham Əliyevin “Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2022-ci il 3 noyabr tarixli Sərəncamından irəli gələrək respublikanın elm və təhsil müəssisələrində, səhiyyə qurumlarında görkəmli alimin yubileyi ilə bağlı silsilə tədbirlər keçirilir, Zərifə xanımın zəngin irsi yenidən sistemli tədqiqata cəlb edilir. Zərifə xanım Əliyevanın xidmətləri sayəsində XX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda oftalmologiya elminin və göz xəstəlikləri tədqiqatlarının inkişaf edən sahələrdən birinə çevrilib. Onun yaratdığı tibbi müalicə və diaqnostika mərkəzi oftalmologiya sahəsində özünə qədər və ondan sonra aparılan tədqiqatlardan tam fərqli elmi nəticələrin əldə olunmasına öz töhfəsini verib. Məhz bunun nəticəsində ölkəmizdə 1960-cı illərə qədər geridə qalmış tibb sahələrindən biri sayılan oftalmologiya elmi artıq 1970-ci illərdə Moskva, Sankt-Peterburq kimi bu elm sahəsində əsas mərkəzlərlə bir sırada dayanırdı və bir çox hallarda onlardan önə keçmişdi. Akademik A.Qarayev adına Fiziologiya İnstitutunda Zərifə xanımın yaratdığı və rəhbərlik etdiyi göz xəstəliklərinin diaqnostikası və profilaktikasına həsr olunmuş laboratoriya Azərbaycanda göz xəstəlikləri elminin hüdudlarını Səhiyyə Nazirliyinin dairəsində genişləndirərək akademik mühitə daşınmasında ən yeganə nümunədir.

AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova “Akademik Zərifə Əliyevanın həyatı və elmi fəaliyyəti” mövzusunda məruzəsində qeyd edib ki, Zərifə xanımın ilk tədqiqatları traxomanın və onun fəsadlarının müalicəsində o zamanlar yeni antibiotikin – sintomisinin effektiv istifadə imkanlarının və üsullarının öyrənilməsinə həsr olunmuşdu. Bu tədqiqatların mühüm nəticələri Zərifə Əliyevanın 1959-cu ildə uğurla müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil edib. Zərifə Əliyeva göz zədələrinin qarşısının alınması və onlara nəzarət imkanlarını öyrənib, gözün zədələnməsinin nəticələrinin cərrahi müalicəsinə mövcud metodoloji yanaşmaları təhlil edib və onların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr verib.

“Zərifə xanımın gözün virus xəstəlikləri sahəsində əldə etdiyi elmi nailiyyətlərin tətbiqi bir çox xəstəliklərin differensial diaqnostikası və müalicəsində mühüm irəliləyişlərə səbəb olub. Zərifə Əliyeva gözün bəzi bədxassəli şişlərinin diaqnostikası və müalicəsinə də diqqət göstərib, eyni zamanda, göz melanomasının klinik gedişatının xüsusiyyətlərini öyrənib, əldə etdiyi nəticələri məqalələrdə əks etdirib, konfranslarda məruzə edib. Onun “Göz yaşı drenajının fiziologiyası”, “Göz yaşı axmasının cərrahi müalicəsinin müasir üsulları”, “Göz yaşı yollarının ehtiyatlı cərrahiyyəsi”, “Göz yaşı axmasının fiziologiya və histologiyası” monoqrafik əsərləri təkcə oftalmoloqların deyil, həm də fizioloqların stolüstü kitabına çevrilib. Bu əsərlərlə alim Azərbaycan lakrimologiyasının əsasını qoyub. Zərifə Əliyeva tibbi etika məsələləri ilə də maraqlanır, həkimlərin cəmiyyətdəki roluna, müvafiq peşə fəaliyyətində əxlaqi prinsiplərin tərbiyəsinə xeyli vaxt ayırırdı. Onun həkimin etik davranışı haqqında çox dəyərli fikirləri, bu mövzuda çoxsaylı məqalə və çıxışları, kitabları həkim şəxsiyyətinin formalaşması işinə mühüm töhfələr verib”, - deyə akademik İradə Hüseynova diqqətə çatdırıb.

Xalq rəssamı, akademik Ömər Eldarov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və digər çıxış edənlər də Ulu Öndərin ömür-gün yoldaşı, akademik Zərifə Əliyevanın görkəmli alim, sədaqətli həyat yoldaşı, qayğıkeş ana olmasından danışıblar.

Tədbirdə, həmçinin akademik Fiziologiya İnstitutunun baş direktoru professor Ulduz Həşimovanın “Akademik Zərifə Əliyevanın görmənin fiziologiyası və patologiyası sahəsindəki elmi xidmətləri” mövzusunda məruzəsi dinlənilib.

Konfransa görkəmli akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr edilmiş sənədli film nümayiş olunub.

**Azərbaycan.** - 2023.- 20 aprel. - № 82. - S. 9.

## Əziz ana - Zərifə xanım Əliyeva

**Qənirə Paşayeva**

O böyük və şərəfli ömür yolu keçmiş, həyatı, əməlləri ilə başqalarının da ömrünü işıqlandırmışdı. Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gələn görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 62 illik ömür yolu nəsillərə örnəkdir. Zərifə xanım çağdaş, güclü Azərbaycan dövlətçiliyinin memarı, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyət - Umummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu idi.

O, hər zaman Ulu Öndərimizin yaxın sirdaşı, həyat dostu, ən böyük mənəvi dayağı olub.

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də, təravətli bir yaz günündə qədim Naxçıvanın Şərur elinin Şaxtaxtı kəndində, görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Atasının örnək davranışları və yaşam tərzi onun üçün əsl həyat məktəbi olmuş, zəngin və mənalı ömür yaşamağın sirlərini ondan öyrənmişdi. Ailədə böyüyən dörd övladın üçü - Zərifə Əliyeva, Tamerlan Əliyev, Cəmil Əliyev atalarının yolunu davam etdirərək həkimlik ixtisasını seçmiş, bu sahənin görkəmli mütəxəssisləri kimi tanınmış, Gülarə Əliyeva isə şöhrətli musiqiçi olmuşdur. Zərifə xanım 1932-1942-ci illərdə orta məktəbdə təhsil almışdır. 1942-ci ildə orta məktəbi bitirərək, Azərbaycan Tibb İnstitutunun (indiki ATU) Müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə təhsilini uğurla başa vurmuşdur. İnsanlara həyat işığı bəxş etmək arzusu onu 1948-ci ildə Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna gətirib çıxarmış, burada oftalmologiya ixtisası üzrə kurs keçərək, göz xəstəliklərinin profilaktikası və müalicəsinin incəliklərini mənimsəmişdir.

Zərifə xanım Əliyeva 1950-1953-cü illərdə aspirantura təhsili almış, 1957-ci ilədək Azərbaycan Elmi Tədqiqat Oftalmologiya institutunda elmi işçi kimi fəaliyyət göstərmişdir. 1960-cı ildə uğurla dissertasiya müdafiə edib, tibb elmləri namizədi elmi dərəcəsi aldığı vaxtdan 1967-ci ilədək bu institutun böyük elmi işçisi, 1967-ci ildən isə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun “Göz xəstəlikləri” kafedrasının dosenti vəzifəsində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanım Əliyevanın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində - H. Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanlarının vəziyyəti” mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmişdi. O, 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi alaraq, Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, Görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifəsində çalışmışdır. Zərifə xanım Azərbaycan tibb elminə və səhiyyəsinə önəmli töhfələr vermişdir.

**Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələni təşkil edir. Onun elmi fəaliyyəti zəngin və əhatəli olmuş, oftalmologiyanın ən aktual mövzularına həsr edilmiş çoxşaxəli, konseptual tədqiqatları tibb elmimizi zənginləşdirmişdir. Bir-birindən dəyərli 150-dən çox elmi əsər, 10 monoqrafiya, 12 səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı elm yolu bu gün də yeni nəsilləri elmin zirvəsinə doğru aparmaqdadır. Alimin zəngin elmi irsi ilə yanaşı, pedaqoji fəaliyyəti də çoxsaylı araşdırmaların mövzusu olaraq tədqiq edilir, yeni tədqiqatlara stimul və material verir.**

O, bir çox fəxri adlar, elmi titullar və mükafatlara layiq görülmüşdür. Qürur mənbəyi olan bu adların hər biri uzun illərin fədakar alim zəhmətinin bəhrəsi idi. Zərifə xanımın həyatda qazandığı ən mötəbər, şərəfli ad isə Ana adıdır. Zərifə xanım Əliyeva Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin anasıdır.

Onun adı Azərbaycan oftalmologiya elmi tarixində misilsiz xidmətləri ilə yadda qalmışdır. Zərifə Əliyeva vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında olan peşə fəaliyyəti ilə (özəlliklə kimya və elektron sənayelərində çalışanlarla) bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə həsr etdiyi tədqiqatları ilə elmə ciddi yeniliklər gətirmişdir. Oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar ərsəyə gətirən alim, həmçinin “Terapevik oftalmologiya”, “İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərlərin müəlliflərindən biridir.

Alimin tədqiqatlarının nəticələri yalnız Azərbaycan və ya keçmiş SSRİ səhiyyəsində deyil, bütövlükdə dünya oftalmologiyasında yeni cığırlar açmışdır. O, dünyada ilk dəfə görmə orqanının peşə patologiyasını araşdıran elmi tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni istiqamətin - “peşə oftalmologiya”sının əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemlərinin öyrənilməsi məhz Zərifə xanım Əliyevanın adı ilə bağlıdır.

**O, elm tarixində ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş, bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Böyük alimin uzun**

**illər respublikanın 10-dan artıq iri sənaye müəssisəsində apardığı genişmiqyaslı elmi tədqiqat işləri nadir araşdırmalar sırasındadır. Həmin tədqiqatların nəticələri onun "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" adlı qiymətli monoqrafiyalarında öz əksini tapmışdır.**

Akademik Zərifə Əliyeva elm təşkilatçısı və ictimai xadim kimi də Azərbaycana böyük xidmətlər göstərirdi. O, Ümumittifaq Oftalmologiya Cəmiyyəti Rəyasət Heyətinin, "Sovet Sülhü Müdafiə Komitəsi"nin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqii" ("Вестник офтальмологии», Moskva) jurnalının redaksiya heyətinin üzvü idi. Yüksək elmi uğurlarına görə keçmiş SSRİ-nin Tibb Elmləri Akademiyasının M.İ. Averbax adına mükafatına, Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdü.

Vəfalı ömür-gün yoldaşı, gözəl ana, yüksək intellektual səviyyəsi ilə hələ gənclik illərindən sayılıb-seçilən alim Zərifə xanım Əliyevanın həyatı, elmi uğurları və həkimlik fəaliyyəti təsəvvürümüzdə mükəmməl bir şəxsiyyətin əzəmətli portretini canlandırır. Atası - görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevdən əxz etdiyi ali mənəvi keyfiyyətlər onu xalqcanlı bir vətənpərvər aydın kimi yetişdirmişdi. Zərifə xanım ata-anasına layiqli övlad, tələbkar və yüksək erudisiyalı alim, tanınmış həkim, sədaqətli həyat yoldaşı və çox qayğıkeş ana idi. Pak mənəviyyatı, bütün ruhu ilə öz işini sevən, ailəsinə bağlı, böyük ürəyi vətən sevgisiylə döyünən Zərifə Əliyevanın mənalı ömrü, keçdiyi şərəfli həyat yolu Azərbaycan xanımları, hər bir alim və həkim üçün örnəkdir.

Zərifə xanım zəngin elmi irs, dəyərli fundamental tədqiqatlar və onu tanıyanların yaddaşında gözəl xatirələr yadigar qoyaraq əbədiyyətə qovuşdu. Akademik Zərifə Əliyeva 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat etdi. Məzarı Bakıda, I Fəxri Xiyabandadır. Görkəmli heykəltəraş Ömər Eldarovun yaratdığı, Zərifə xanımın məzarı üstündə ucaldılan mükəmməl tunc heykəl onun kübarlığını, xarakterik cizgilərini incəliklərinə qədər özündə əks etdirir.

**İqtisadiyyat.**-2023.-20-26 aprel.-№15.-S.5.

**NUR - Unudulmaz müəllimim akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə...**

**Paşa Qəlbinur,**
ATU-nun oftalmologiya kafedrasının müdiri

ANA! Öz tutumuyla bu varlıqla müqayisə olunası iki ruhi-müqəddəs tanıyıram: Çörək, "Qurani-Kərim". Bu sözün - varlığın bütün canlılarda gücü, anlamı eynidir. Bala - övlad yolunda, dünyaya gətirdiyinin yolunda həyatından belə keçmək qüdrəti. Mütləq məhəbbətin bir nümunəsi. Gəlin etiraf edək ki, bu qan yaddaşından gələn məhəbbətin də dərəcələri olur, belə deyək ki, daha böyükləri, nəhəngləri olur. Və bu nəhəng hisslər, sevgilər zərif analarımızın qəlbində olur. Analar övladlarını laylalarla, bayatılarla oxşayırlar. Övladlar analarını (Cəfər Cabbarlının) "Ana" şeiriylə...

Zərifə xanım haqqında bir Ana kimi danışanda öz müşahidələrimdən başqa, xatirəsi həmişə mənə əziz olan iki gözəl insanın - müəllimələrimin sözləri yada düşür. Professor Zəhra xanım Quliyeva və dosent Ləzifə xanım Əliyeva. (Ləzifə xanım Zərifə xanımın böyük bacısı idi). Onlar danışırdılar ki, Zərifə xanım övladlarına fanatik məhəbbətli bir Ana idi. İşdə müxtəlif otaqlardakı telefonlardan (çox nəzərə çarpmasın deyə) saysız dəfələr zəng edib evdə qoyub gəldiyi ciyərparalarını soruşardı. Və bu telefon danışıqlarından yalnız birini dinləyən adam heç vaxt onu unutmaz, bir ananın övladlarına olan məhəbbətinin ifadəsini ömrü boyu özüylə gəzdirərdi...

Onun həyat yoldaşı - o zamanlar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğluna olan münasibətindən bir anın şahidi olmuşdum: Ləzifə xanımgildə balaca nəvəsi Eminin ad günündə (anam İldız xanımla mən də orada idim) dünənki televiziya ilə verilən iclasda Heydər Əlirza oğlunun böyük çıxışından söhbət düşəndə Zərifə xanımın gözlərini, üzünün ifadəsini heç zaman unutmaram. Bircə onu dedi ki, mən nəfəsimi dərmədən bütün çıxışı dinlədim, heyran olmuşdum.

Zərifə xanım yeri gələndə çox incə yumorla danışardı. Gülarə xanım da doğmaları, çox yaxınları ilə şux zarafatlar edərdi. O məclisdə Ləzifə xanım azca soyuqlamışdı, Gülarə xanım bunu görcək gülə-gülə dedi ki, Ləzi bacı (o Ləzifə xanımı mehribancasına belə çağırardı), eybi yoxdu, keçib gedəcək, təki xəstələnək, ancaq ölməyək. Zərifə xanımın zərif, olduqca yerində olan yumorundan Zəhra xanım, Ləzifə xanım, kafedramızın onunla həmyaş olan dosentləri Səkinə xanım, Rəfiqə xanım saatlarla gözəl xatirələr danışardılar. Səkinə xanım və Rəfiqə xanım indi də danışırlar. İncə, zərif, yerinə düşən yumor, yüksək zövq sahiblərinə, geniş dünyagörüşünə əsilzadələrə məxsus əlamətdir və çox təəssüf ki, bu dünyada bütün yaranmışlara nəsib olan xoşbəxtlik deyil. Bu səadət Zərifə xanımın saysız bəzəklərindən, tale vergilərindən biriydi.

Allah-təala onu valideynlərindən də yarıtmışdı. Dünyanın ən gözəl kişilərindən biri, xeyirxahlarından biri, alimlərindən biri, siyasi xadimlərindən biri, ləyaqət sahiblərindən, seçilmişlərindən, tanınmışlarından biri, varlığıyla Azərbaycanın tarixi bir mərhələsi olan Əziz Əliyevin ailəsində dünyaya gəlmişdi Zərifə xanım. Anası Leyli xanım xanımlar xanımı, ağlı, zəkası bir dünyanı idarə edəcək bir güc, nur idi. Leyli xanımın da söhbətləri heç vaxt unudulmayacaq gözəllikdə idi. O söhbətlərdən bir epizodu, bir yarpağı xatırladım. Leyli xanım danışırdı ki, həyat yoldaşı Əziz müəllim uzun müddət vətəndən uzaqda işləyirmiş. O vaxt uşaqların böyüyü Ləzifənin (Leyli xanımın dilindən deyirəm) əlindən tutub Mircəfərin (Mircəfər Bağırov) qəbuluna getdim, xahiş elədim ki, Əzizi (Əziz Əliyev) Azərbaycana qaytarsın, nə iş verir-versin, lap adi iş olsun. O da qayıtdı ki: Leyli xanım, Əziz Azərbaycana gəlsə, o heç bir işdə işləyə bilməz, ona layiq olan yer ancaq mənim yerimdir, onu da mən tutmuşam. Bunu deyib bir xeyli susdu. Mən də gözləmədiyim cavabdan sonra heç bilmədim nə deyəm, sağollaşıb gəldim evimizə.

Zərifə xanımın böyük qardaşı professor Tamerlan Əziz oğlu Əliyev Tibb Universitetində terapiya kafedrasının müdiri idi. Ürəyimdə bir kitablıq söz, məhəbbət var onun ünvanına. İnşallah, ömür vəfa eləsə yazacağam. Ancaq bircə onu deyim ki, bu yaşıma qədər doğmalarım, dostlarım, müəllimlərim qarışıq lap yaxından tanıdığım müqəddəslərimin bir siyahısı var ürəyimdə. Mən Allahımı heç vaxt unutmaram, ancaq o adamların Tanrı dərgahındakı hörmətlərinə güvənib dara düşəndə yalnız ürəyimdə pıçıltıyla Allahdan sonra köməyimə çağırıram. O kiçik siyahıda Hüseyn babam var. Var olanlardan biri də Tamerlan müəllimdir. Böyük, çox böyük ləyaqət sahibi, nur daşıyıcısı professor Tamerlan Əziz oğlu Əliyev! Mənimçün həmişə canlı olan müqəddəs İnsan!

Bu böyük ailənin, nəsil-səcərənin Zərifə xanımla bağlı hər bir üzvü - Dilbər xanım, akademik Cəmil Əliyev haqqında saatlarla danışmaq imkanım var. Ancaq bu xatirə yazının qəbul olunmuş reqlamentinə uyğunlaşmalıyam.

Bir ailənin iki üzvü - olduqca böyük şəxsiyyətlərdən dünyaya gələn övladların genetik varisliyi valideynlərin və övladların böyük xoşbəxtliyidir.

Sevil xanımın qeyri-adi çoxşaxəli istedadı, savadı, təvazökarlığı, mədəniyyətin bu səviyyədə olmasında atasının və Zərifə xanımın müstəsna rolu olmuşdur. Uzun illər bundan əvvəl Zərifə xanımla anamın arasında olan bir söhbəti heç cür unuda bilmirəm. O söhbət Ləzifə xanımgilin evində Ləzifə xanım, qızı Svetlana xanım, Gülarə

xanımın yanında olmuşdu. Zərifə xanım deyirdi ki, Sevil (mənim yaddaşımda o vaxtlar Sevilin 16-17 yaşı olardı) bir tikə çörəyi (arasında pendir) qalanda belə atmır, tullamır, büküb qoyur ki, sonra yeyərəm. Atası ölkənin birinci yox, lap yüzüncü adamı olan qız, ya oğlan uşağından bu cür nümunə, hətta deyərdim ki, müqəddəs davranış nadir hadisəydi, lap elə indinin özündə də heyrət və qibtə doğurardı...

Zərifə xanım alim idi. Adı böyük hərflərlə yazılan ALİM. Zamanı qabaqlayan. Onun bir neçə istiqamətdə apardığı işlər illər keçəndən sonra daha da aktuallaşır, gərəkli olur, qiyməti daha da artır. Məsələn, gözün peşə xəstəlikləri ilə əlaqədar Sovetlər birliyində yaradılan ilk sanballı elmi laboratoriya. Onun rəhbərlik etdiyi, böyük ideyaları reallaşdıran bu kollektivin gördüyü işlərin elmi nəticələri bütün dünyada qəbul olunurdu. Əslində, akademik Zərifə xanım Əliyeva dünyada bu elmi istiqamətin pioneridir. Heç də təsadüfi deyil ki, o SSRİ Tibb Elmləri Akademiyasının yüksək Averbax mükafatına layiq görülmüşdü. Akademik Zərifə xanım Əliyevanın məşğul olduğu elmi istiqamətlərdən biri də iridodiaqnostikaya həsr olunan ilk elmi monoqrafiyanın aparıcı müəlliflərindən olması idi.

Zərifə xanım bu günü uzun illər əvvəl görüb, tibbi deontologiyaya aid qiymətli elmi-fəlsəfi əsərlər yazıb mərkəzi mətbuatda çap elətdirirdi.

O, Moskvada nəşr olunan o zamankı Sovetlər birliyinin ən nüfuzlu oftalmoloji elmi dərgisi "Vestnik oftalmologii" jurnalının redaksiya heyətinin üzvü idi. O jurnalın baş redaktoru Ümumittifaq Göz xəstəlikləri institutunun direktoru, akademik M.M.Krasnov idi. Həmin illərdə mən bu elm ocağında aspiranturada, sonra isə doktoranturada təhsil alırdım. Zərifə xanımla vaxtaşırı həmin elmi mərkəzdə, müxtəlif elmi toplantılarda, ya da jurnalın redaksiya heyətinin yığıncaqlarına gələndə görüşərdik. Bu qısa görüşlərdə o həmişə çox səmimi olardı, qayğılarımla maraqlanırdı.

Bir dəfə mənə dedi ki, Heydər Əliyeviç də sənin boyartımını izləyir, uğurların haqqında bizim evimizdə söhbətlər olur. Mən bir az utanaraq ona və Heydər Əlirza oğluna təşəkkür etdim. Bir müddət sonra Ümumittifaq Göz xəstəlikləri institutunun təqdimatıyla elm sahəsində Ümumittifaq Lenin komsomolu mükafatına layiq görüləndə Heydər Əlirza oğlu məni Moskvadan Bakıya telefonla şəxsən təbrik elədi.

Heydər Əlirza oğlu sonralar, illər keçəndən sonra mənfur Qorbaçovun həsədinə tuş gəlib Bakıya dönüşündə (yerli hakimiyyətlə də müxalif mövqedə olanda), Filarmoniyada yazıçıların qurultayında təsadüfən mənə yaxın oturacaqda əyləşdi. Xəlil Rzayla birgə idilər. Görüşdük. Fasilədə həmin İdrak ətri (esselər) 77 zəngə görə bir daha təşəkkür etdim. Və bir də dedim ki, Siz Moskvadan məni təbrik etdiniz, ancaq burada Kamran Bağırov heç elə bil ki, yoxuymuş. Gülümsündü: "Fikir vermə, hamı bir olmaz ki", - dedi.

Akademik Zərifə xanım Əliyevanın elmi-pedaqoji, ictimai fəaliyyəti haqqında yazılanlardan fərqli qısaca öz müşahidələrimi qələmə aldım. O, bir övlad kimi, bir evin, bir kişinin xanımı kimi, bir ana kimi, alim, müəllim, vətəndaş kimi, həmişə ucalardan ucadaydı. Elmi konfranslardan sonrakı toplantılarda, ya bayramlarda, ad günlərində əksər hallarda unudulmaz Gülarə xanım da iştirak edərdi, həmişə birinci mahnı sifarişi "Anamın anasısan, Azərbaycan" olardı. "Ana" və "Azərbaycan" sözlərini heç kim onun kimi tələffüz elə bilməzdi.

44 günlük müharibəmizin, qələbə ilə şərəflənən günlərində onun da ruhu şad oldu!

Akademik Zərifə xanım Əliyeva prezident qızı*, xanımı, prezidentin Anasıdır. Bu, onun taleyi idi. Böyük, olduqca böyük həssaslıqla duymaq, görmək, heyran olmaq, zəhməti sevmək, insanları, Vətəni sevmək onun böyük istedadı idi.

Böyük sevgidən yaranıb, böyük məhəbbətlə insanları, Vətəni sevənlər əbədi yaşayanlardır...

**2023**

** - Z.Əliyevanın bioqrafları unudurlar ki, Dağıstanın Mərkəzi Komitəsinin I katibi indiki meyarlarla prezident demək idi.*

**Ədəbiyyat qəzeti.-**2023.-21 aprel.-№15.-S.2.

## Zərifə xanımın yetirmələri onu qədirbilənliklə xatırlayırlar

**Rasim Hacıyev**,
Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin şöbə rəhbəri,
tibb elmləri doktoru, professor

**Dünyasını dəyişən insan əməllərinə görə xatırlanır. Akademik Zərifə xanım Əliyeva haqqında danışarkən onun həkim, alim kimi geniş erudisiyasından, professionallığından, insan kimi xeyirxahlığından söz açmaq yerinə düşür. Çünki, bilik diapazonu geniş və çoxşaxəli olan Zərifə xanım qısa zamanda həm həkimliyin, həm alimliyin, həm də pedaqoqluğun ən yüksək zirvəsinə yüksələ bilmişdi.**

Fəaliyyəti müddətində hər zaman cid-di problemlərə toxunan, göz xəstəlikləri-nin qarşısını almaq və onları ən effektiv yolla müalicə etmək üçün çalışan Zərifə xanımın bu gün də aktual olan elmi araş-dırmaları və əldə etdiyi nailiyyətlər onun uzaqgörənliyini, böyük hədəflərə nail olduğunun sübutudur. Akademikin rəh-bərliyi ilə gənc alimlərin və həkim-oftal-moloqların bu gün də fəaliyyət göstərən böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin həyat təcrübəsini öy-rətmiş, onlara diqqət və qayğı ilə yanaş-mışdır.

1978-ci il idi. Zərifə xanım elmi təcrü-bəsini oftalmoloqlara öyrətmək, peşəkar mütəxəssis və alim kimi yetişdirmək üçün ətrafına gənc göz həkimlərini toplayırdı. Xoşbəxtlikdən onların arasında biri də mən idim. Onunla ilk tanışlığımda, məni oftalmologiyadan kiçik bir "imtahanla" sınadığını bu gün də xatırlayıram. "İmta-handan" uğurla keçdiyimə görə məni öz yanında işə götürdü. Bir müddət sonra isə diabetik retinopatiya ilə bağlı namizədlik mövzusunu müdafiə etməyi təklif etdi. Belə bir mövzu seçimini onunla əsas-landırdı ki, bu xəstəlik korluğun əsas sə-bəblərindəndir və 4 saylı Klinik Xəstəxa-nanın endokrinologiya şöbəsində şəkərli diabetdən əziyyət çəkən xəstələr var ki, onları müşahidə etmək olar.

Şöbəyə Zərifə xanımın qardaşı, nəcib və mülayim insan, professor Ta-merlan Əliyev rəhbərlik edirdi. Tamerlan müəllim elə şöbə müdirlərindən idi ki, on-dan hər zaman məsləhət almaq mümkün idi. Həmin mövzuda hazırladığım refe-rata Zərifə xanım geniş rəy yazdı. Onun imzası olan bu rəy hələ də kafedranın muzeyində saxlanılır.

Zərifə xanım, diabetik retinopatiya-nın səbəbinin, əvvəllər düşünüldüyü kimi, qan damarlarının deyil, xüsusi retinal hü-ceyrələrin zədələnməsi ilə əlaqədar ol-ması fərziyyəsini irəli sürmüşdü. 1982-ci ildə ilk dəfə olaraq, Azərbaycan Tibb Jur-nalında bu mövzuda məqalə dərc edildi. Məqalədə deyilirdi ki, gələcəkdə diabetik retinopatiyanın gedişatını sabitləşdirmək üçün vitreotexnika üsullarından istifadə etmək mümkün olacaq. Əlavə araşdır-malar onun fərziyyələrini təsdiqlədi. Əs-lində, bu fərziyyələrin irəli sürülməsi ilə oftalmologiyada əsas vəzifələrdən biri öz həllini tapdı.

Onun fəaliyyəti çoxşaxəli idi. 70-ci illərin əvvəllərində yeni istiqamət axtarı-şında olan Zərifə xanım peşə göz pato-logiyasına üstünlük verdi. O, həmçinin professor N.B. Şulpina ilə birgə hazır-lanmış "Gözün hidrodinamik sisteminin anatomik və fizioloji xüsusiyyətləri" mo-noqrafiyasında təqdim olunan gözün hid-rodinamik sisteminin fizioloji əsaslarını öyrənmişdi. Zərifə Əliyevanın "Şəkərli diabetdə göz xəstəlikləri" monoqrafiyası böyük praktiki əhəmiyyətə malikdir. Ümu-miyyətlə, akademik Z.Əliyevanın elmi fəaliyyətinin nəticələri nəzərəçarpandır. O, 14 monoqrafiyanın və 160-dan çox elmi məqalənin və təlimatın müəllifi ol-muşdur.

Zərifə xanımın insani keyfiyyətləri onun xəstələrə münasibətində özünü göstərirdi. O, həmişə bu fikirdə idi ki, hə-kimlə xəstənin birbaşa əlaqəsi müalicə-nin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqa-vimətini artırır, bəzən dava-dərmandan da güclü təsir göstərir. Xəstələrdən söz düşəndə "həkim xəstənin ən doğma ada-mıdır,"– deyirdi.

Bir dəfə 4 saylı xəstəxanada xəstələrə baxış keçirilirdi. Xəstələri necə müayinə edirdi, onlarla necə danışırdı, bunu yal-nız görmək lazım idi. Bu şöbədə tez-tez yaşlı, xəstə qadınlar müalicə alırdılar. Zə-rifə xanım səbirlə onları dinləyir, başları-na sığal çəkir, öpür, qucaqlayırdı. Onlar çox vaxt öz problemlərindən söhbət açır, bəzən ona məktublar verirdilər. Onu heç vaxt cangüdənlər müşayiət etməzdi. Sa-dəcə olaraq, Volodya adlı sürücüsü gələr və onu evə apardı.

Onun xeyirxahlığı haqqında indiyə qədər unuda bilmədiyim bir xatirə də var. Bir dəfə gözləmədiyim halda mənə xəbər verdilər ki, Zərifə xanım məni namizəd-lik dissertasiyamın "qaralama variantı" ilə birlikdə görmək istəyir. Kondisioner zavodunun laboratoriyasında gözləyirdi. Rəhmətlik professor Məmməd Yusufoviç və Nazim Tağızadə də orada idi. Zərifə xanım dissertasiyalarımızı nəzərdən ke-çirdi, xeyli dəyərli məsləhətlər verdi və təəssüf ki, bu görüşdən sonra onu bir daha görmədik...

Az sonra onun dünyasını dəyişdiyini eşitdik. Bu xəbər, bizim üçün böyük zərbə oldu, sanki yetim qaldıq. Sonra anladıq ki, son görüşümüzdə o, xəstə olduğunu bilsə də, işlərimizin müdafiyəyə hazır və layiq olduğuna əmin olmaq üçün xüsusi olaraq bizi çağırıbmış. Amma, biz həmin gün onun zahiri görünüşündən heç nə başa düşməmişdik.

Ölümündən sonra bizə xəbər ver-dilər ki, Zərifə xanımın sonuncu vəsiy-yəti o olub ki, onun yetirmələri olan biz namizədlik dissertasiyamızı Moskvada Helmqolts adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edək. Onun bu xahişini bizə o zaman Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazir-lər Soveti Sədrinin birinci müavini Heydər Əliyev çatdırmışdı. Biz Moskvaya getdik və namizədlik dissertasiyamızı uğurla müdafiə etdik. Ölümündən sonra da Zə-rifə xanımın qayğısını hiss etmişik. İllər keçməsinə baxmayaraq, xeyirxah insan, böyük alim Zərifə Əziz qızı Əliyevanın nurlu xatirəsi qəlbimizdə yaşayır və öm-rümüzün sonunadək yaşayacaqdır.

**Xalq qəzeti.** - 2023.- 26 aprel. - № 84. - S. 7.

**Akademik Zərifə Əliyeva haqqında elektron resurs**

**Azərbaycan xalqına mənsub elə qadın simalar var ki, onlar heç vaxt unudulmur, xatirələri həmişə yad edilir və əziz tutulur. Belə qadın şəxsiyyətlərdən biri də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevadır.**

Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümü münasibətilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşları tərəfindən hazırlanan elektron resurs (https://zarifaaliyeva.preslib.az/) istifadəçilərin ixtiyarına verilib.

Elektron resursda Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti geniş şəkildə istifadəçilərə təqdim edilir. Resursda materiallar 8 bölmədə qruplaşdırılıb.

"Bioqrafiya" bölməsində Zərifə xanım Əliyeva və onun ailə üzvləri barədə qısa məlumat verilib, həmçinin Zərifə xanımın elmi və ictimai sahədə fəaliyyətinin mühüm məqamları öz əksini tapıb.

"Xronologiya" bölməsində isə bir alim kimi onun keçdiyi həyat yolu, oftalmologiya sahəsində əldə etdiyi uğurlar təqdim olunub.

"Xatirəsinin əbədiləşdirilməsi" bölməsində ölkə daxilində və xaricdə Zərifə xanım Əliyevanın xatirəsinə ucaldılan abidələr, adının verildiyi təsisatlar, parklar, küçələr haqqında məlumatlar əksini tapıb.

Elektron resursda həmçinin "E-Kitablar", "E-Məqalələr", "Biblioqrafiya", "Rəsmi sənədlər" və "Fotoqalereya" bölmələri yer alıb. Elektron resursun materialları müntəzəm olaraq yenilənir.

**Mədəniyyət.** - 2023.- 26 aprel. - № 31. - S. 2.

## Nəcib insan, əzəmətli ana, unudulmaz şəxsiyyət

### Dünyaşöhrətli alim akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə

**Ramiz Qasımov,**
AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent

Xalqımızın xoşbəxtliyi, bəxtəvərliyi ordadır ki, onun mentalitetində analıq dəyəri qayğıkeşlik, bütün varlığı ilə övladına bağlılıq, bütün ruhu ilə övladlarına sevgi və şəfqət hissləri ilə bağlanmaq, ərinə sədaqətlilik, namusuna düşkünlük, etibarlılıq kimi səciyyələrlə müəyyənləşir. Azərbaycan qadının səciyyəsi Tomris ananın şücaəti, mətanəti, döyüşkənlik və qəhrəmanlığında, Sara xatunun zəka əzmi və siyaəsitində, diplomatiyasında, Burla xatunun, Banuçiçəyin, Dəli Domrulun və Dirsə xanın xanımlarının sədaqətində, ərinə qahmarında, arxa-köməkliyində, əfsanə obrazlarımızın iffətində, namusu və şərəfində, ləyaqətliliyində, Məhsətinin, Heyran xanımın, Qönçəbəyimin incə, zərif duğularını ifadə, bədii söz qüdrətində, laylalarımızın müəllifləri olan analarımızın şirin kəlməliyinidə, bala məhəbbətində, övlad qayğıkeşliyində, Zərifə xanım Əliyevanın elmi hünərində, şəfqət duyğuları ilə xalqına xidmətindədir.

Akademik Zərifə xanım Əliyeva... Şərəfli ana olmaqla bərabər cəmiyyəti ucalığa aparan, ailə və cəmiyyət birliyində qadın şəfqətini, qayğıkeşliyini nümunəvi olaraq təcəssüm etdirən insanlıq, qadınlıq və ləyaqət rəmzi olan bir insan. Azərbaycan qadınına ucalıq, şərəf, şan gətirən dünyaşöhrətli alim, təbib kimi böyük şöhrətlərə nailiyyət qüdrəti nümayiş etdirən Zərifə xanım Əliyeva kimi qadınlarımız cəmiyyətimizin mental müvəffəqiyyətinin təcəssümüdür.

Qadınlıq zirvədirsə, Analıq onun tacıdır, şərəfi, ləyaqəti, dəyəri, zibasıdır. Həm qadın olmaq, qadınların nümunəsi olmaq və cəmiyyətinə, el-obasına bütün ürəyi, şəfqət hissləri̇lə xidmət etmək, həm də ana olub uşaqlarının başında olmaq, onlara verdiyin tərbiyə ilə xalqına xidmətlə ucalan insanlar yetişdirmək bir qadının taleyində ən böyük nemətdir, nailiyyətdir, bəlkə də hər şeydir.

Akademik Zərifə xanım Əliyeva ləyaqətli, uca, şərəfli bir ANA adını daşıyır. Zərifə xanım Əliyeva minlərlə Azərbaycan anasını müvəffəqiyyətlə təmsil edən böyük ürəkli, zərif xarakterli, övlad, bala məhəbbətli bir ANADIR. Bu böyük insan bir tərəfdən milyonların xidmətində dayanan bir həkim, tibb işçisi kimi qeyrətlə dayanmış, digər tərəfdən milyonlarca insana, qüdrətli bir ölkəyə rəhbərlik edən dövlət başçısı olan ömür-gün yoldaşına sədaqət və məhəbbətlə həyat yoldaşlığı etmişdir. Onun uzun illər Azərbaycan Respublikasına uğurla rəhbərlik edən Heydər Əliyevin həyat yoldaşı olması, ailədə mötəbər və sevilən ana kimi müxtəlif işlərin öhdəsindən layiqincə gəlməsi böyük qadın ürəyinin genişliyi və əzəmətli insan xarakterini təcəssüm etdirir. Bu böyük ürəkli qadın haqqında liderlər əsrinin lideri, adı, qəlbi, mənəviyyatı xalqı boyda böyük, uca olan, nəhəng, əzəmətli şəxsiyyət - xalqımızın ümummilli lideri, vəfalı və sədaqətli HƏYAT YOLDAŞI HEYDƏR ƏLİYEV məhz belə demişdir: ***"Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. ...Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam".***

Bu böyük ANA həm də bu gün Azərbaycan xalqının yolunda böyük ürəklə, bütün varlığı və qeyrətilə xidmət edən, xalq üçün, dövlət üçün çalışan, Azərbaycanı uğurdan-uğura aparan vəfalı, vətənpərvər övladlar tərbiyə etmişdir. Öhdəsinə düşən bu qədər çoxcəhətli işin öhdəsindən müvəffəqiyyətlə gələn, ömründə bir dəfə də gileylənməyən, həm elmin, öhdəsinə götürdüyü tibbi vəzifənin, milyonlarla insanın ona dikilmiş qaranlıq gözlərinə işıq gətrmək missiyasını yorulmadan icra edən, görkəmli alim, oftalmoloq, həkim kimi zirvələrə qalxan Zərifə xanım Əliyeva həm də ürəyi sevgi dolu ANA kimi bu gün Azərbaycan xalqının xidmətində ləyaqətlə dayanan və ona liderlik edən Müzəffər Ali Baş Komandan İlham Əliyev kimi bir övlad tərbiyə etmiş, Azərbaycan xalqına bəxş etmişdir.

Cəmiyyəti ucalığa aparan, ailə və cəmiyyət birliyində qadın şəfqətini, qayğıkeşliyini nümunəvi olaraq təcəssüm etdirən insanlıq, qadınlıq və ləyaqət rəmzi olan bir insandır Zərifə xanım. Deyirlər, göz Tanrıdan xəbər verir. Zərifə xanım Əliyeva öz zəkasının nuru ilə məhz insanlara təkcə qəlblərinin gözü ilə deyil, həm də onlara yetirilmiş göz nuru hesabına ilahi gözəllikləri görməyi bəxş etdi. Minlərlə insanın nur qazanmış gözləri Zərifə

xanım Əliyevanın şəfqətli əllərinə minnətdardır, onun şəfqətinə, qayğısına duaçıdır. Zərifə xanım Əliyeva, bu mənada, mübaliğəsiz olaraq demək olar ki, minlərlə insanın nəzərində onlara işıq, nur, xöşbəxtlik, yenidən yaşamağa ümid və sevgi gətirən İŞIQ İLAHƏSİDİR.

Akademik Zərifə xanım Əliyevanın adını milyonlarla insan çox yaxşı xatırlayır. Onun adı mehriban insan, nəcib qadın, qayğıkeş ana və bunların hamısını özündə ümumiləşdirən qəlbigeniş, insanlara nur bəxş edən ilahə kimi əbədiləşib. Onu tanıyanlar bu insanın nəcibliyi, qayğıkeşliyi qarşısında həmişə heyrət duyublar. İşlədiyi uzun illər ərzində onu həm Azərbaycanda, həm də ölkəmizin sərhədlərindən kənarda Azərbaycan qadınının uca timsalı kimi tanıyıblar. Doğrudan da, onun adı milyonlarla insanın qəlbində əzəmətli heykəl salmış, işıq ilahəsi kimi qəlbləri fəth etmişdir.

Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın Naxçıvan Muxtar Respublikası Şərur rayonunun (indiki Kəngərli) Şahtaxtı kəndində dünyaya göz açıb. 1942-ci ildə orta məktəbi bitirib və Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. 1947-ci ildə institutu bitirən Zərifə xanım Əliyeva Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçib.

"Böyük SSRİ"-nin hamını zəhmətkeşliyə səsləyib əməyini istismar etdiyi bu zamanlarda traxoma insanların gözündə dünyanı qaranlığa bürüyürdü. Bütün ölkədə traxoma göz xəstəliyi öz acımasızlığı ilə tüğyan edir, sanki kimsəsiz görüb insanlara acı çəkdirirdi. Belə bir vaxtda gənc qız Zərifə xanım Əliyevanın taleyini Tanrı özü müəyyənləşdirir: onu işıq ilahəsi olaraq Azərbaycan xalqının taleyinə bəxş edir. Əbəs demirlər ki, "dərdi də verən Allahdır, dərmanını da". Bu gənc xanımın elmi-tədqiqat işi gözləri qaranlığa bütüyən traxoma xəstəliyinin axırına çıxır. Qəlbi insan sevgisi dolu bu gənc xanım elə bir həvəs və zəhmətlə işləyir ki, onun elmi-tədqiqatları qısa müddət ərzində öz müsbət nəticəsini göstərir və milyonlarla insanın qəlbindən gələn, gözlərindən görünən yollara düşür. Çünki o zaman bir bəlaya çevrilmiş traxoma xəstəliyinə qarşı təsirli müalicə üsulu nəinki Azərbaycanda, heş bütün SSRİ-də yox idi. Bu mənada gənc azərbaycanlı xanım Zərifə Əliyevanın elmi kəşfi bütün SSRİ respublikaları üçün ümid işığı idi və bütövlükdə oftalmologiya elmi qarşısında əvəzsiz xidmət idi. İnsanların üzünə baxmağa üzü olmayan oftalmologiya elmi yalnız Zərifə xanımın kəşfindən sonra başını dikəltməyə özündə güc tapdı.

Zərifə xanım o həkimlərdən idi ki, xəstələrlə, ümumən insanlarla ünsiyyətdə üstün əxlaqi davranışa, incə danışığa və qayğıkeş münasibətə üstünlük verirdi. Bu baxımdan görkəmli alim təkcə güclü elmi bilik və tibbi məharətə malik həkim kadrların yetişməsi üçün yox, həm də elmi və ictimai əxlaqi davranış və münasibətə malik olan kadrların yetişməsi və tərbiyəsi üçün səy göstərirdi. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, "Yüksək etimad" əsəri isə məhz cəmiyyətdə həkimin şəxiyyət kimi formalaşması prosesinə həsr olunaraq özünün əvəzedilməz töhfələrini vermişdir. "Xalqın sağlamlığı - xalqın nailiyyətidir", "Həkimin gündəlik zəhməti onu əhatə edən insanlarla, birinci növbədə xəstələrlə davranış qaydalarını və formasını bilməyi tələb edir", "Həkimin fəaliyyətinin əsasını xəstənin həkimə inamı ... təşkil edir", "Həkim çox səbirli olmalıdır. O, xəstənin daxili aləminə girib, onu başa düşməsi üçün ... dinləməyi bacarmalıdır", "Həkim xəstənin mənafeyini hər şeydən üstün tutmalıdır", "Həkimin əsas borcu xəstəyə imkan dairəsində nə varsa hamısını edib, onu sağaltmaqdır" və başqa fikriləri səhiyyə sahəsində Hippokrat andının işığında həkimlik sənətini seçənlər üçün ən zəngin etik davranış nümunəsidir. Zərifə xanım səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərqin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsulliyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazanmışdır.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, sıra orden və medallara layiq görülmüş, Azərbaycanın əməkdar elm xadimi fəxri adını almışdır.

Zərifə xanım Əliyeva 1985-ci ildə aprel ayının 15-də Moskva şəhərində vəfat edib. Özü milyonlarla insana nur, işıq bəxş edən bu insan öz gözlərini dünyaya əbədi olaraq yumdu. Amma artıq o dünyadan köçəndə milyonlarla insanın qəlbində özünə əbədi yer tutmuş. həmişəyaşarlıq qazanmışdı. Şair yaxşı deyib:

Ölüm sevinməsin qoy! Ömrünü vermir bada,
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirətək qalacaqdır dünyada,
Sevərək yaşayanlar, sevilərək ölənlər...

***Bəli, akademik Zərifə xanım Əliyevanın adı artıq özünə əbədi ünvan, əzəmətli yer, möhtəşəm yurd salmış bir şəxsiyyətdir. Bu böyük insan Şahtaxtı kimi bir kənddə doğuldu, amma bütün Azərbaycana, milyonlarla insana nur, işıq bəxş etdi... Zərifə xanım öz adı, ləyaqəti və əməli ilə MİLYONLARIN ANASI olaraq Azərbaycan qadınının adına şərəf gətirdi, analığa yeni məzmun verdi, qadınlıq vəzifəsinə yeni vəzifə qatdı,***

***onun mənəvi, ictimai məzmununu XX əsrdə mentalitetin ölçülərinə - özünə qaytardı, anaların və analığın etalonuna çevrildi.***

**Olaylar.-**2023.-21-27 aprel.-№15.-S.5.

# Millət Anası

**Kərəm Kərimov**,
Bakı Göz Klinikasının direktoru, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor

**Əvəzolunmaz iki müqəddəs mövhum vardır: "Qurani-Kərim", çörək. Ana anlayışı da bu müqəddəs dəyərlərlə eynilik təşkil edir. Bütün canlılarda bu varlığın anlamı oxşardır. Hər bir insan öz istəyini və sevgisini ifadə edəndə deyir: səni öz anam qədər sevirəm. Dünyaya gətirdiyi övladın yolunda ana öz həyatını qurban verməyə belə hazır olur.**

Akademik Zərifə Əliyeva ən yüksək mənəvi hazırlığa malik bir xanım - ANA idi. Bu adı hər yerdə yaxşı tanıyırlar. O, insanları, öz millətini, torpağını çox sevir, elmi-tədqiqatları ilə yanaşı, ölkənin ictimai-siyasi həyatında da böyük rol oynayırdı. Dövlət xadimi Əziz Əliyevin qızı, ümummilli lider Heydər Əliyevin həyat yoldaşı, Azərbaycan Prezidenti İlham Əliyevin anası idi. Siyasətçilər, tədqiqatçılar Heydər Əliyev irsini araşdırarkən həmişə ümummilli liderlə yanaşı, ikinci böyük bir şəxsiyyətə, akademik Zərifə xanıma diqqət yetirirdilər. Şübhəsiz ki, İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə əldə etdiyi nailiyyətlərdə, əhali arasında və eləcə də beynəlxalq arenada böyük nüfuz qazanmasında təbii ki, ümummilli liderlə yanaşı, anası Zərifə xanım Əliyevanın da böyük xidmətləri olmuşdur. Vaxtilə bu fikri ulu öndər Heydər Əliyev özü də etiraf edirdi. Bu, Zərifə xanımın ailədə, evdə roluna verilən yüksək qiymət idi. O, həm də ömür-gün yoldaşının çətin məqamlarda onunla birgə addımladığını, vətənə layiq övladlar bəxş etməklə onun əvəzolunmaz xidmətlərini cəmiyyətə, insanlara bəyan etmək, bununla çoxlarına sonralar məlum olacaq bir həqiqəti xüsusi vurğulamaq istəyirdi. Zaman öz sözünü dedi. Bu gün İlham Əliyev Prezident olaraq, xalqın böyük hörmətini qazandı, valideynlərinin etimadını doğrultdu, eyni zamanda xalqın ləyaqətli lideri statusunu qazandı. Azərbaycanda stabillik bərqərar oldu və sürətli inkişaf yolu başlandı. Xalqın rifahı durmadan artdı.

Zərifə xanım Əliyevanın şəxsiyyəti, onun elmi potensialı, bir sözlə, Əliyevlər ailəsindəki mövqeyi öyrənilməli və təhlil olunmalıdır. Qeyd etmək yerinə düşər ki, İlham Əliyev atasının təcrübəsindən bəhrələnərək onu kifayət qədər elmi əsaslarla siyasətə tətbiq edə bilən siyasi liderdir. Məhz cənab İlham Əliyev kimi güclü bir siyasətçinin formalaşmasında isə Zərifə xanım Əliyevanın əməyi böyükdür.

Akademik Zərifə Əliyevanın ecazkar bir dünyası olub. İstedadlı göz həkimi oftalmologiya sahəsində böyük zəka sahibi kimi tanınmış, minlərlə insanı günəş işığından məhrum olmaqdan xilas etmiş, onlara ilahi nur bəxş etmişdir.

1923-cü il 28 aprel... Zərifə xanım Əliyevanın doğum günü. Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şaxtaxtı kəndində həmin gün dünyaya gəlmiş, 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə həmin institutu bitirmişdir. Sonralar Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisasartırma kursunu keçmişdir. Elmi-tədqiqatlara sonsuz marağı onu Azərbaycan Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmış və orada həkim kimi işə başlamışdır.

Zərifə xanım Əliyevanın aspiranturanı bitirib elmi əməkdaş kimi fəaliyyət göstərdiyi illərdə respublikanı traxoma xəstəliyi ağuşuna almışdı. 1960-cı ildə traxoma xəstəliyinin müalicəsinə dair namizədlik, 1977-ci ildə peşə potologiyasından doktorluq dissertasiyası müdafiə etmiş və alimlik dərəcəsi adını almışdır.

Akademik Zərifə xanım Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparmış, gözün oftalmoloji histomikroskopik, histokimyəvi araşdırmalarının nəticələri əsasında 15 monoqrafiya və 200-ə yaxın elmi məqalə yazmışdır.

Tibb aləmində "iridologiya və iridodiaqnostika" adlı bir elm də mövcuddur. Bir vaxtlar bu elmə ciddi yanaşılmırdı. Bütün bunlara baxmayaraq, alim oftalmologiya sahəsinə aid olan hər problemə diqqətlə yanaşır, yeni araşdırmaların mahiyyətini aydınlaşdırmağa çalışırdı. Akademik Zərifə xanım Əliyeva və tibb elmləri doktoru, professor Nina Şulpinanın birgə əməyinin bəhrəsi olan "İridologiyanın əsasları" (1980) və "İridodiaqnostika" adlı (1988) monoqrafıyaları Bakıda işıq üzü gördü. Sevindirici haldır ki, Sovetlər dönəmində ilk iridoloji monoqrafiya akademik Zərifə Əliyevanın müəllifliyi ilə, "İridodiaqnostikanın əsasları" əsəri çapdan çıxdı. Alim bu sahənin perspektivini öncədən görür, təqdim etdiyi bu nəhəng əsərində bunları xüsusilə vurğulayırdı... Hazırda iridoloji müayinələr diaqnostik metod kimi Avropa ölkələrində, ABŞ, Kanada, Yaponiya, Almaniya, Fransa, Bolqarıstan və digər xarici dövlətlərin təbabətində iridologiya və iridodiaqnostika kabinetləri fəaliyyət göstərir. Akademik Zərifə xanım Əliyeva dünyasını dəyişəndən sonra da onun elmi əsərləri işıq üzü görür. Zərifə Əliyeva və Nina Şulpinanın həmmüəllif olduqları "Göz orqanında vərəm" əsəri də Bakıda çap olunmuşdur. Elmi və praktiki tibbi işlərlə yanaşı, kadr hazırlığı ilə də məşğul olan Zərifə xanım Əliyevanın geniş fəaliyyət dairəsinə malik olmasını göstərir. Professor Əziz Əliyevin adını daşıyan Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında dosent, sonradan kafedra müdiri, professor kimi

fəaliyyətə başlayaraq, dövlət maraqlarını nəzərə alaraq, dünya səviyyəsində ən yaxşı yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında əvəzsiz xidmətlər göstərmiş, istedadlı gəncləri öz ətrafında toplayaraq, elmi kadrların və elmi əməkdaşların hazırlanması prosesini uğurla davam etdirmişdir.

Onu da qeyd edim ki, hazırkı Milli Oftalmologiya Mərkəzinin yeni binası məhz onun ideyası ilə tikilən elmi-tibbi mərkəzdir.

Zərifə xanım Əliyevanın adına parklar, meydanlar, küçələr, elmi-tədqiqat institutu var. Hər gün yüzlərlə insan abidələşmiş adın ünvanı olan yerlərdən keçir və onu xoş duyğularla yad edirlər. Ən başlıcası, bu mənəvi yaddaş abidəsi əslində, özünün yaşam formasını dəyişmiş, övladlarının, nəvələrinin genetik yaddaşına köçmüşdür.

Bu gün İlham Əliyevlə birgə dünyanın siyasi arenasında, xalqımızın mənəvi dünyasında özünü təsdiq etmiş Mehriban xanım Əliyevanın zəkasını, mədəniyyət fədaisi olduğunu qeyd etməli olsaq, burada da Zərifə xanım Əliyeva ənənələrini görə bilərik. Nəvələri - Leyla xanım, Arzu xanım, Heydər hər biri zaman keçdikcə baba və nənə ocağının ləyaqətli davamçıları kimi böyüyəcək və xalqımız tərəfindən həmişə seviləcəklər.

Analar yaşayır. Və yəqin ki, nəsillər dəyişdikcə, nəsil ağacı böyüdükcə, məlum adlar əfsanələrə qovuşaraq, rəvayətlərə dönərək yenə yaşamağında davam edir. Ancaq bir vaxt gəlir ki, bu adlar, bu ünvanlar mənəvi abidəyə çevrilir. Doğrudur, həqiqətən xalqımızın mənəvi dünyasında özünə yer tutan Zərifə xanım Əliyeva çoxdan abidələşmişdir.

Dünyasını dəyişmək insanın qismətidir. Analar da dünyasını dəyişir. Amma analarını bir əbədiyyət məkanındakı dünyası var, bir də övladlarının ürəyində, qəlbində, mənəvi dünyasında yaşamaq məkanı var. Bu, çox böyük ucalıq, müqəddəslik mərtəbəsidir. Anasını, atasını, ulularını dünyasında yaşadan övladlar varsa, demək, anaların da, ataların da zəhmətləri hədər getməyib.

Əliyevlər ailəsi böyük ailə məktəbi kimi, zaman-zaman öyrəniləcək, tədqiqat məktəbi olacaq. Bu ailənin qüdrətli ata adı, böyük ana adı daşıyan nümayəndələri mənəvi abidə olaraq həm övladlarının, həm də xalqımızın qəlbində əbədi yaşayacaqlar. Böyük analar xalqın anası, millətin anasıdır. Zərifə xanım Əliyevanın timsalında bunu biz aydın görə bilirik.

Bu gün Azərbaycan qadınının xeyirxahlıq, Analıq simvoluna çevrilmiş akademik Zərifə xanım Əliyevanın həyat yolu yüksək mənəviyyatı, biz alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa səsləyir.

Zərifə xanım Əliyevanın parlaq və unudulmaz xatirəsi xalqımızın, elmi ictimaiyyətin, səhiyyə işçilərinin, onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

**Respublika.** - 2023.- 27 aprel. - № 85. - S. 6.

## Şərəfli ömür yolu və zəngin yaradıcılıq

**Humay Əfəndıyeva**,
Konstitusiya Məhkəməsinin hakimi

***Böyük elm, incəsənət xadimlərinin bəşəriyyətə bəxş etdiyi əsərləri kimi, onların xatirəsi də xalqın mənəvi dəyəri, incisidir. Azərbaycan elm və incəsənətinin hansı sahəsinə nəzər salsaq, xalqımızın böyük şəxsiyyətləri və onların yaratdığı elm və sənət nümunələri ilə rastlaşarıq. Azərbaycan tibb elminin inkişafından söz düşəndə ilk olaraq insanın gözü önündə canlanan alimlərdən biri görkəmli oftalmoloq, pedaqoq, akademik Zərifə Əliyevadır.***

Zərifə xanımın atası Əziz Əliyev görkəmli təşkilatçı, dövlət və elm xadimi kimi böyük nüfuza malik idi. 1998-ci ildə Əziz Əliyevin anadan olmasının 100 illik yubiley tədbirində çıxış edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idi, onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox görkəmli xadimləri ilə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər".

Bu mənada Zərifə xanımın doğulub boya-başa çatdığı mühit onun şəxsiyyətinin formalaşmasını, mənəvi zənginliyə və geniş dünyagörüşünə malik xanım olmasını şərtləndirmiş, gələcək taleyini müəyyən etmişdi.

Atasının yolunu davam etdirmək qərarına gələn Zərifə Əliyeva Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini əla qiymətlərlə bitirmiş, yüksək ixtisaslı və nüfuzlu həkim-oftalmoloq ixtisasına yiyələnmişdi.

Bütün bunlar olduqca mürəkkəb və çətin şəraitdə baş verirdi. Stalin dövrünün siyasi damğaları çox ağır nəticələr verirdi. 1940-cı illərdə - ağır müharibə illərində və müharibədən sonrakı quruculuq dövründə Əziz Əliyev çoxmillətli Dağıstan Respublikasında rəhbərlik edirdi. Onun böyük quruculuq fəaliyyəti, qayğıkeşliyi, mədəniyyətin və maarifin inkişafındakı çox əhəmiyyətli xidmətləri bu gün də Dağıstan xalqı tərəfindən yüksək qiymətləndirilir və unudulmur. Ancaq Azərbaycana qayıtdıqdan sonra - 1940-cı illərin sonu - 1950-ci illərin əvvəllərində Əziz Əliyev siyasi qısqanclıq nəticəsində ədalətsiz siyasi ittihamlarla üzləşmişdi.

O dövrdə nəinki siyasi ittihama məruz qalmış şəxslə, hətta onun ailə üzvləri ilə münasibətdə olmaq, əlaqə saxlamaq cəsarət və mərdlik tələb edirdi, çünki həmin adamların özləri də siyasi təqiblərə məruz qalırdı. Ancaq o dövrün bu qorxulu səciyyəsi də Heydər Əliyevlə Zərifə xanımın məhəbbəti qarşısında aciz idi. Gələcək karyerasına yarana biləcək maneələrə, təzyiqlərə baxmayaraq, Heydər Əliyev və Zərifə xanım xoşbəxt və nümunəvi ailə həyatı qurdu.

Zərifə xanımın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev söylədiyi nitqdə deyirdi: "Zərifə xanım böyük lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər, əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə - Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının, əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin - birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi".

Təbiətcə zəhmətkeş insan olan Zərifə xanım həyat yoldaşının yüksək vəzifələrdə çalışmasına baxmayaraq, həmişə işləyirdi, çünki insanlar üçün, cəmiyyət üçün əlindən gələni etmək onun təbiətinin, mənəvi dünyasının ifadəsi idi. Bu fəaliyyətinin nəticəsində o, minlərlə insana nur bəxş etmişdi. Praktiki fəaliyyəti ilə bərabər Zərifə xanım ciddi elmi tədqiqatlar aparırdı və 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını, sonralar isə dünyaca məşhur oftalmologiya mərkəzi olan H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını böyük uğurla müdafiə etmişdi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən nüfuzlu mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. O, bu böyük mükafata layiq görülmüş ilk qadın idi.

Ümumiyyətlə, Zərifə xanım Əliyevanın elmi fəaliyyətinə nəzər salanda bu fəaliyyətin həcmi, onun tibb ictimaiyyəti arasındakı nüfuzu insanı heyrətləndirir. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.Krasnov

xatirələrində bunları yazmışdır: "Zərifə Əliyeva tibb elmi sahəsində elə tədqiqatlar aparırdı ki, fikrimcə, vəziyyət hətta paradoksal idi… Bizim zəmanədə səmərəli tam əmək fəaliyyəti üçün görmə qabiliyyətinin nəinki yaxşı olması vacibdir, buna olan tələbat da ildən-ilə artır. Bununla belə, indiyə qədər həmin mövzuya həsr edilmiş, ümumiləşdirilmiş elmi əsər yoxdur. Zərifə Əzizovna kimi sosial həssaslığa malik olmaq lazım idi ki, öz istedadını belə çətin, mürəkkəb və xeyirxah, eyni zamanda, heç də həmişə layiqincə qiymətləndirilməyən bir məsələnin həllinə həsr edəsən".

Zərifə xanım bir çox elmi məqalələrin, monoqrafiyaların müəllifi idi. Ancaq onun elmi yaradıcılığında, istedadlı və səmimi bir publisist qələmi də var idi. Onun həkim etikası və məsuliyyəti haqqında səriştəli surətdə söylədiyi fikirlər yalnız həmkarları üçün yox, geniş oxucu kütləsi üçün də çox maraqlı olurdu.

Bu mənada Zərifə xanımın "Həkimin yüksək vəzifəsi" monoqrafiyası yüksək ixtisaslı həkim-alim tədqiqatlarının elmi nəticəsi olmaqla bərabər, həm də mənəvi zənginliyin, insan və həyat haqqında düşüncələrin, sırf insani baxımdan xeyirxahlığın, xoşməramlı olmağın nəticəsi idi.

Zərifə xanım həmişə xüsusilə vurğulayırdı ki, həkimlə xəstənin etibara əsaslanan birbaşa əlaqəsi müalicənin əhəmiyyətini artırır, xəstədə ümid yaradır, immuniteti yüksəldir və bəzən dərmandan da güclü təsir göstərir.

Ümumiyyətlə, onun elmi yaradıcılığı ilə insani xüsusiyyətləri həmişə qoşa olmuşdu. O, həkim ilə pasiyentin kommunikasiya üsul və qaydaları üzərində işləmiş, belə qarşılıqlı münasibətlərin diaqnostika və müalicə prosesində mühüm rola malik olmasını daim qeyd etmiş, tibb işçilərinin savadı ilə yanaşı, mənəvi-əxlaqi xüsusiyyətlərinin də nə qədər vacib olduğunu həm elmi, həm də insani cəhətdən izah etmişdi. Zərifə xanımın fikrinə görə, "həkim xəstənin ən doğma adamıdır", çünki həkim ilə xəstə arasındakı münasibətlər olduqca həssas, etibara və ümidə əsaslanan münasibətlərdir.

Ümumiyyətlə, Zərifə xanımın həkim-xəstə münasibətləri haqqında araşdırmaları ilə hətta tibb sahəsində çalışmayan oxucuların tanış olması belə kifayətdir ki, onun nə qədər yüksək ideallara inandığını, həmin ideallara qulluq etdiyini, nə qədər mehriban və incə qəlbli bir insan olduğunu anlayasan.

Zərifə xanım Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycanda bütöv bir nəsil oftalmoloq yetişmişdir. Təsadüfi deyil ki, bu gün də Azərbaycanda ən çox inkişaf etmiş və daim inkişafda olan tibb sahələrindən biri məhz oftalmologiyadır. Fenomenal biliyi və parlaq istedadı, məhz öz zəhməti sayəsində bütün Sovet İttifaqında məşhur professor, akademik Zərifə xanım elmi zirvələri bir-birinin ardınca fəth etmişdi.

Zərifə xanım Əliyevanın şəxsiyyəti və fəaliyyəti 1920-1930-cu illərdə Cəfər Cabbarlının teatr səhnəsində yaratdığı Almasların, Sevillərin XX əsrin 60-70-80-ci illərində artıq səhnədə deyil, həyatda hansı yüksəkliyə qalxdığını göstərən ən parlaq nümunədir.

Onun təməlini qoyduğu elmi istiqamətlər və yaratdığı elmi məktəb müasir Azərbaycan milli tibb elminin özüllərindən biri sayılır.

Zərifə xanım haqqında xatirələri oxuduqca, bir daha əmin olursan ki, o, çox nadir bir insan olub. Elə nadir bir insan ki, şəxsiyyət və alim kimi hətta qısqanclıq edənlər tərəfindən də qəbul olunurdu.

Ulu Öndər Heydər Əliyevə paxıllıq edən, ona qibtəsini gizlədə bilməyən, həsəd aparan Mixail Qorbaçov da müsahibələrindən birində Zərifə xanımın necə nəzakətli, kübar bir xanım olduğunu dilə gətirir.

Zərifə xanım insanların yalnız gözünə şəfa vermirdi, onun xeyirxahlığı, insanpərvərliyi, həkim nəvazişi həmin insanlara mənən dayaq olurdu. Təsadüfi deyil ki, Zərifə xanımın iş yoldaşları xatirələrində onun insani keyfiyyətlərini - xeyirxahlığını, mehribanlığını, humanizmini daim qeyd edirdi.

Məşhur pediatr, professor Ədilə Namazova Zərifə xanım haqqında xatirələrində belə deyir: "Zərifə xanım daxilən çox gözəl, məzmunlu insan idi. Onunla görüşəndə elə bilirdin ki, ən yaxın və əziz insanınla görüşürsən. O, adama elə bir münasibət göstərirdi ki, bütün ürəyini ona aça bilirdin. O, insanın qayğısına qalırdı. Öz övladlarını böyüdəndə onun necə nümunəvi ana olmasının şahidi olmuşam. Sonra da nümunəvi nənə oldu. Zərifə xanım övladlarının hər bir uğurunu görəndə sevincinin həddi-hüdudu olmurdu. O, övladlarının uğurları ilə yaşayırdı. Zərifə xanım həyat yoldaşına sadiq insan idi, ona mənəvi dayaq olurdu. O, ətrafındakı bütün insanlara kömək edirdi, problemlərinin həllinə çalışırdı. İşlədiyi kollektivdə də gənc həkimlərin pənahı idi. Zərifə xanım bütün həyatını, fəaliyyətini tibb elminin inkişafına həsr edib. Azərbaycan oftalmologiyasının əsl fədaisi olaraq, dünyada onun tanınmasında həlledici rol oynayıb. Görkəmli alim, yüksək insani keyfiyyətlərə malik olan, böyük elmi əsərləri ilə Azərbaycan oftalmologiya elmini yüksəklərə qaldıran akademik Zərifə xanım Əliyevanın əvəzsiz xidmətlərini hər zaman qeyd etmək lazımdır…".

Zərifə xanımın iş yoldaşları və tələbələri hər zaman onun nə qədər gözəl zövqə malik olduğunu da xüsusi qeyd edirlər. Onların xatirələrinə görə, Zərifə xanım hətta laboratoriya, palata və iş otağını da özü zövqlə qaydaya salır, orada gözəl ab-hava, xoş əhvali-ruhiyyə yaradırdı. Bunların hamısını o, həmin məkana gələn xəstələrin özlərini daha rahat hiss etmələri üçün edirdi.

Zərifə xanım haqqında xatirələri yalnız Azərbaycanda onu tanıyanlar, onunla bir yerdə çalışanlar söyləmirdi. Onun şəxsiyyətinin və elmi yaradıcılığının qiymətləndirilməsi, onun sırf insani keyfiyyətlərinin emosional təsiri Azərbaycanın hüdudlarını aşmışdır. Akademik A.Nesterov Zərifə xanım haqqında deyirdi ki, "O çox nadir mənəviyyata malik, olduqca təvazökar insanlardan idi. Müsahiblərini dinləməyi bacarırdı, onların

problemlərini ürəyinə salıb, öz problemlərindən ayırmırdı. İnanılmaz qədər insanpərvər idi. Gözəl həyat yoldaşı və gözəl ana idi. Ailəsini nə qədər sevdiyini sözlərlə ifadə etmək mümkün deyil".

Bəli, Zərifə xanım Əliyeva, ilk növbədə, fədakar ömür-gün yoldaşı, fədakar ana idi.

Ulu Öndərin gənclik illərində çətin günləri az olmamışdı. Sonralar artıq böyük dövlət xadimi olduğu dövrdə də Heydər Əliyev namərdliklə, etibarsızlıqla, dönüklüklə az rastlaşmamışdı. Vaxtilə ötəri bir salamı ilə fəxr edənlər, qürurlananlar ona qarşı çıxmışdı. Zərifə xanım belə anlarda Ulu Öndərə mənəvi dəstək, mənəvi güc verirdi.

Ümummilli Lider deyirdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

Heydər Əliyevin yüksək statusu Zərifə xanımın üzərinə daha böyük məsuliyyət qoyurdu. Bu incə, zərif xanımın inanılmaz daxili gücü var idi, o, hər şey üçün zaman və güc tapırdı.

Zərifə xanım Heydər Əliyevin ən sədaqətli dostu, ən etibarlı məsləhətçisi idi. Hətta qızları Sevil xanım Əliyeva deyir ki, atası Heydər Əliyev etiraf etmişdi: Zərifə xanıma rast gəlməsəydi, ailə qurmayacaqdı.

Mən Sevil xanımın Xalq şairi Fikrət Qocanın sözlərinə yazılmış məşhur "Ana" elegiyasını xatırlayıram. Bu qəmli nəğmə o qədər dərin bir kədərin səmimi ifadəsidir ki, onu həyəcansız dinləmək mümkün deyil. Müslüm Maqomayevin ifasında bu hüznlü nəğmə Zərifə xanımla bərabər onun timsalında, onun nümunəsində bütün analara həsr edilmiş bir elegiya təsiri bağışlayır.

Bəzən televiziya ilə göstərilən bir epizodda Heydər Əliyevin necə dərin bir kədərlə bu nəğməni dinləməsinin şahidi oluruq. Ulu Öndərin bu kədəri məhəbbətlə, sevgi ilə yaşanılmış bir ömrün unudulmazlığından xəbər verir.

Zərifə xanım amansız xəstəliklə iki il mübarizə apardı. Lakin çəkdiyi əziyyətlərə baxmayaraq, o, həmin gülərüz, hər zaman yardım əlini uzatmağa hazır olan, insanpərvər Zərifə xanım olaraq qalırdı. Akademik M.Krasnov Zərifə xanımın ömrünün son aylarını belə xatırlayırdı: "Müalicə çox çətin və əzablı idi. İnsanı nəinki fiziki, mənəvi də sarsıdırdı. Lakin Zərifə xanım heç vaxt şikayət etmirdi. Son anına qədər gələcək planlar qururdu... 1984-cü ildə Tibb işçisi günü qeyd edilirdi. Zərifə xanım ağır xəstəliklə mübarizə etdiyi vaxtlar idi, lakin xəstəliyin müalicəsi olmayan olduğunu bilənlərin sayı az idi. Mən prezidiumda əyləşmişdim. Birdən zalda onun ən sevimli professor həmkarlarından biri ilə bərabər əyləşdiyini gördüm. Onlar danışıb-gülür, söhbətlərindən həzz alırdılar. Zərifə xanım bu gücü, bu həyat eşqini haradan alırdı? Vəfatından iki həftə öncə işgüzar ezamiyyətə getməyi planlaşdırırdı. Deyirdi ki, "aspirantlarıma kömək etməliyəm".

Həyatın amansız qanunları var. Bu amansızlıq Zərifə xanımı 62 yaşında həyatdan aparsa da, onun parlaq obrazının xatirələrdə yaşamasına mane ola bilmədi. O xatirələrdə hələ də canlıdır.

Ulu Öndər ağır bir zamanda xalqın tələbi ilə yenidən Azərbaycana rəhbər kimi gəldikdən sonra Zərifə xanımın cənazəsi Bakıya gətirildi, doğma Vətəndə atası və qardaşı ilə yanaşı dəfn edildi. Bu, onların mənəvi birliyinin, ruhən ayrılmazlıqlarının təzahürü idi...

Zərifə xanım özünə xas gözəl xüsusiyyətləri övladlarına da ötürüb. O, Ümummilli Lider Heydər Əliyevin nümunəvi həyat yoldaşı, otuzillik Qarabağ nisgilinə son qoymuş Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin anasıdır. İlham Əliyevin Vətən sevgisi, siyasi uzaqgörənliyi, iradəsi - bu yüksək keyfiyyətlərin hamısı məhz Heydər Əliyevin və Zərifə xanımın yaratdığı ailə mühitindən, eləcə də genetikadan irəli gəlir.

Zərifə xanım bu dünyanı çox tez tərk etsə də, onun həm elmi, həm də insani keyfiyyətləri ilə bağlı işıqlı ənənələri yaşayır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi verdiyi dəstəyin nəticəsində Milli Oftalmologiya Mərkəzinin səyyar klinikasının fəaliyyəti təmin olunub, Zərifə xanım Əliyevanın arzuları gerçəkliyə çevrilib. Bu gün Milli Oftalmologiya Mərkəzi regionun ən nüfuzlu və böyük müayinə, müalicə və müasir cərrahiyyə mərkəzidir.

Zərifə xanımın şərəfli həyatı və zəngin yaradıcılığı Azərbaycan qadınının həm bir alim və elm təşkilatçısı, həm sədaqətli və sevimli bir həyat yoldaşı, həm də böyük qəlbli bir ana kimi fəxredici bir örnəkdir. Bu gün Qərbdə də, Şərqdə də qadın hüquqlarından, gender problemlərindən çox danışılır, tələb edilir, arzu və istəklər bildirilir.

Onun həyatı və yaradıcılığı, fəaliyyəti bir-birini tamamlayırdı, vəhdət təşkil edirdi. Bu vəhdət Zərifə Əliyevanın vəfatından keçən onilliklərdən sonra da qadın hüquqlarının, gender problemlərinin həllinə aparan yolda mənəvi bir mayakdır. Bu mənəvi mayakın işığı heç vaxt sönməyəcək.

**Respublika.** - 2023.- 27 aprel. - № 85. - S. 5.

## Azərbaycan oftalmologiyasını dünyada şöhrətləndirən alim

**Asif Əsgərov,**
Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı

**Azərbaycanın elmi-mədəni tarixində silinməz iz qoymuş, xalqımızın parlaq simaları sırasında əbədi yer almış görkəmli alim və həkim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümü ölkəmizdə təntənəli surətdə qeyd edilir. Həyatdan vaxtsız köçmüş dünya şöhrətli oftalmoloqun əziz xatirəsinə dərin ehtiram ifadə olunur, təbabət elminin inkişafında alimin xidmətləri qədirbilənliklə yada salınır.**

Hər bir xalq onun ümumi tərəqqi-sində, sivil dəyərlərə qovuşmasında müstəsna xidmətləri olan övladları ilə, haqlı olaraq, öyünür, belə yetirmələri-nin həyat və mübarizə yolunu milli yet-kinləşmə örnəyi kimi qəbul edir. Azər-baycan xalqının belə şəxsiyyətlərindən biri də humanist insan, görkəmli ictimai xadim, oftalmoloq-alim Zərifə xanım Əliyevadır. Milli-mənəvi dəyərlərimi-zin qorunmasında, yeni nəsillərin tə-lim-tərbiyəsində Azərbaycan qadınının oynadığı tarixi rolu şəxsi nümunəsi və çoxsaylı xidmətləri ilə zənginləşdirmiş istedadlı alim və təcrübəli oftalmoloq Zərifə xanım Əliyeva xalqın sonsuz sevgisini qazanaraq yaddaşlarda silin-məz izlər qoyub.

Görkəmli alimə və şəfalı təbibə belə bir zirvəyə yüksəlməkdə dərin zəkası, yüksək mənəviyyatı, böyük zəhmət-sevərliyi ilə yanaşı, həm də gendən və böyüdüyü ailənin ictimai statusun-dan irəli gələn keyfiyyətlər də dəstəkçi olub. Zərifə xanım atasının – görkəmli dövlət adamı və ictimai xadim, nüfuz-lu pedaqoq-alim, professor Əziz Əli-yevin xalqa xidmət və elmi yaradıcılıq yolunu uğurla davam etdirib. Ailəyə məxsus ziyalılıq, əməksevərlik, səmi-milik, doğma ocağa, xalqa və Vətənə məhəbbət bu nəcib və fədakar insanın həyatında yüksək təcəssümünü tapıb. Azərbaycan qadınının yüksək məramı-nı və şərəfli adını daim uca tutan Zərifə xanım xalqımızın şöhrət çələnginə sol-maz güllər əlavə edib.

Yüksək mədəniyyəti, ünsiyyətdə səmimiliyi, qayğıkeşliyi, ehtiyacı ola-nın köməyinə çatmaq bacarığı Zərifə xanımın xarakterinin başlıca keyfiyyət-ləri olub. Hədsiz dərəcədə xeyirxah bir insan olaraq o, yaşamaqdan, işləmək-dən xüsusi zövq alıb, insanlara gərəkli olmaq üçün bütün bilik və bacarığını sərf edib. Bu dəyərlər onun həyatının əsas yönünü mənalandırıb, uğurlarına yol açıb.

Zərifə xanım Əliyevanın həyat fəl-səfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zən-ginliyi və çoxcəhətliyi ilə nadir bir nü-munə təşkil edir. Novator alim, pak və nəcib bir insan kimi onun mənalı ömür yolu hər bir soydaşımız, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Dünya şöhrətli alimin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiy-yətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifə-si olmaqla yanaşı, dünya təbabətinə də layiqli töhfə sayılır. Nadir elmi əsərlərin, səmərələşdirici təklif və ixtiranın müəl-lifi olan Zərifə xanımın irsi bu gün də öz aktuallığını itirməyib.

Sevib-seçdiyi peşəsinə müstəsna bir həvəslə yanaşan, daim yeniliklər axtarışında olan Zərifə xanımın elmi tədqiqatları ilk illərdən böyük maraq doğurub, təcrübi əhəmiyyət daşıyıb. Onun elmi irsində peşə ilə bağlı gör-mə problemi xüsusi yer tutur. İlk dəfə olaraq doktor Əliyeva sənaye obyekt-lərində müxtəlif maddələrin insan gö-zünə təsiri sahəsində elmi tədqiqatlar aparıb. Azərbaycanlı oftalmoloq dün-yada peşə patologiyasını araşdıran ilk elmi-tədqiqat laboratoriyası yaradıb və bununla təbabət elmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub.

Uzun illər apardığı müşahidələr, kliniki tədqiqatlar əsasında Zərifə xa-nım Əliyeva 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmoloji mərkəzlərindən biri olan Moskva Elmi Tədqiqat Göz Xəstə-likləri İnstitutunda doktorluq dissertasi-yasını müdafiə edib. Peşə xəstəlikləri ilə bağlı elmi araşdırmalarının uğurlu nəticələrinə görə professor Zərifə Əli-yeva oftalmologiya sahəsində ən mö-təbər mükafata – SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Zərifə xanım Əliyeva bu mükafatla təltif olunan ilk qadın alim idi.

Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azər-baycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. O, elmi-pedaqoji fəaliyyətində səmərəli tədqiqat işləri ilə yanaşı, yüksək ixtisaslı kadrların ha-zırlanmasına və oftalmoloq-həkimlərin ixtisaslarının artırılmasına da xüsusi diqqət yetirib, böyük zəhmət sərf edib. Görkəmli oftalmoloqun birbaşa rəhbər-liyi ilə gənc alimlərin və ğöz həkimlə-rinin böyük bir nəsli yetişdirilib. Zərifə xanım həmişə tələbələrinə peşə təcrü-bəsini həvəslə öyrədib, onlara insani həssaslıqla yanaşıb. Bu gün də onun yetişdirdiyi kadrlar insanlara sağlamlıq bəxş edirlər.

Zərifə xanımın həkim fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, insan-ların problemlərinə qayğısı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələ-rinin və xəstələrinin dərin hörmətini qazandırıb. Bütün bunlardan əlavə, akademik Zərifə Əliyeva Azərbaycan oftalmologiyasını keçmiş İttifaq və dün-ya səviyyəsində tanıdan, təbabətdə öz dəst-xətti olan peşəkar həkim və yenilikçi alim kimi məşhurlaşıb. Təba-bət elminə sanballı

töhfələrinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva Azərbaycan Respubli-kası Elmlər Akademiyasının akademiki seçilib. Zərifə xanım bir sıra orden və medallarla təltif olunub, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Zərifə xanımın keçdiyi şərəfli hə-yat yolu müasir qadının bitkin və kamil simasının formalaşması üçün həyat dərsliyidir. Bu insanın işgüzar key-fiyyətləri onun şəxsi davranışları ilə ahəngdarlıq təşkil edirdi. Təkcə alim-liyi, həkimliyi ilə yox, dövlət xadiminin qızı, dünya şöhrətli siyasətçinin ömür-gün yoldaşı kimi də Zərifə xanım qibtə ediləcək bir tale yaşayıb. Siyasətçilər, politoloqlar Heydər Əliyev irsini araş-dırarkən ulu öndərlə bir yerdə ikinci böyük bir şəxsiyyətin adına da mütləq diqqət yetirməli olurlar. Bu mənada onun bioqrafiyası "Hər bir güclü kişi-nin arxasında güclü bir qadın dayanır" həqiqətini bir daha təsdiqləyir.

Zərifə Əliyevanın müstəqil Azərbay-can dövlətinin memarı və qurucusu, bü-tün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Heydər Əliyevin vəfalı ömür-gün yolda-şı, sədaqətli dostu və etibarlı silahdaşı olması hər bir azərbaycanlı üçün ikiqat önəmli və öyünclüdür. Heydər Əliyev və Zərifə xanım gənclik illərindən həyatın ağrı-acılarını da dadıblar, amma bütün çətinliklərə sinə gərərək talelərini ortaq-laşdırmağı bacarıblar, mənalı və şərəfli ömür yaşayıblar.

Ulu öndər Heydər Əliyev həyatda qazandığı böyük uğurlarda Zərifə xanı-mın diqqət və qayğısını, mənəvi dəstə-yini yüksək qiymətləndirirdi.

Bir-birini üzvi surətdə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı bütün cəmiyyət üçün nümunə, gənclə-rimizə örnək, ən yaxşı milli dəyərlərimi-zin cəmləşdiyi zəngin bir qaynaqdır.

Ümummilli lider Heydər Əliyev ölkə rəhbəri kimi fəaliyyətinin ilk günlərin-dən respublikada ciddi dəyişikliklər prosesi başlayıb, Azərbaycan sürətli inkişaf yoluna qədəm qoyub. Bu ye-niləşmə ölkənin mədəni və elmi həya-tında da canlanma yaradıb. Sovet döv-ründə məhz ulu öndər Heydər Əliyevin cəsarəti, fədakarlığı və ona dayaq olan Zərifə xanımın xalqına dərin bağlılığı milli dəyərlərimizi məhv olmaqdan qo-ruyub, Azərbaycanda milli elm və təh-silin, ədəbiyyat və incəsənətin tərəqqi-sinə əlavə təkan olub.

Zərifə xanım Əliyevanın fəxri ad-ları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Bu iki dahi şəx-siyyətin övladı, müstəqil Azərbaycanın rəhbəri İlham Əliyev məhz Heydər Əli-yev siyasət məktəbindən dərs alaraq, Zərifə xanımın ana məhəbbətindən səmimiyyət əxz edərək xalqa xidmət amalını bir ailə ənənəsi kimi qəbul edib. Ulu öndərin həyat və mübarizə yolunun ən layiqli davamçısı kimi Oğul Əliyev Ata Əliyevin arzu və əməllərini yüksək səviyyədə gerçəkləşdirir.

Dövlət başçısı İlham Əliyev Ata və-siyyətinə, Ana öyüdünə sədaqəti ilə bu gün Azərbaycanın taleyüklü məsələlə-rini məharətlə həll edir və haqlı olaraq xalqın böyük inam və güvənc ünvanına çevrilib. Ölkəmizin sürətli inkişafına, dünyadakı nüfuzuna, möhtəşəm uğur-larına nəzər salarkən dövlət başçısının bilik və bacarığının, qətiyyət və müdrikli-yinin təməlində ulu öndər Heydər Əliyev ilə yanaşı, Zərifə xanımın da arzu-istək-lərinin seçilən izlərini görürük.

Ulu öndər Heydər Əliyevin müəy-yənləşdirdiyi və Prezident İlham Əliye-vin davam etdirdiyi yolla sürətlə inkişaf edən, azad, müstəqil, gələcəyə inamla baxan müasir Azərbaycanı görmək, çox təəssüf ki, Zərifə xanıma qismət olmadı. Lakin Azərbaycanın bugünkü uğurları bu nəcib və nurlu şəxsiyyətin ruhunu daim şad edir.

Zərifə xanım Əliyeva xalqımızın mənəvi dünyasında daim yaşayacaq bir insan kimi artıq çoxdan abidələş-mişdir. Azərbaycan səhiyyəsinin və bütünlükdə tibb elminin inkişafında unudulmaz xidmətləri olan böyük alim, istedadlı göz həkimi Zərifə Əliyeva qəl-bimizdə dahi insan, kübar qadın, meh-riban və qayğıkeş ana kimi yaşamaq-dadır. Zərifə xanım bir insanın və bir alimin yüksələ biləcəyi ən ali məqam-dadır. O məqamın adı əbədiyyətdir.

**Xalq qəzeti**. - 2023.- 27 aprel. - № 85. - S. 8.

## Böyük qəlbin işığı

**İradə ƏLİYEVA**

Ayrı-ayrı fəaliyyət sahələri ilə məşğul olan görkəmli simalar arasında elə şəxsiyyətlər var ki, onların nailiyyətləri ilə bütövlükdə həmin sahələrin özü də yeni bir inkişaf səviyyəsinə yüksəlir. Bu insanların əldə etdikləri nəticələr konkret istiqamətlərdə ayrıca mərhələ formalaşdırır. Belə şəxsiyyətlərdən biri də bu il anadan olmasının 100-cü ildönümü tamamlanan böyük alim, Azərbaycan və dünya oftalmologiya elminin görkəmli nümayəndəsi, akademik Zərifə Əziz qızı Əliyevadır.

Zərifə Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir. Görkəmli alim milyonların qəlbində daim dərin hörmət və ehtiramla, rəğbətlə xatırlanır. Hər şeydən öncə o, böyük bir mənəvi dünyanın adamı idi. İşıqlı və nurlu şəxsiyyət, xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hamının hörmət və məhəbbətini qazanmış təkrarsız bir ziyalı idi. Sözün həqiqi mənasında bu böyük ziyalının insanlara bəxş etdiyi nur onun elminin dərinliyindən, intellektinin kamilliyindən, şəxsiyyət ucalığından qidalanmışdır.

### Həkimin yüksək vəzifəsi

Zərifə xanım xoşbəxt insan idi. Əvvəla ona görə ki, tale ona tanınmış həkim və görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmaq səadətini nəsib etmişdi. Gendən gələn istedad, üstəlik də Əziz Əliyev kimi kamil bir şəxsiyyətdən aldıqları milli-mənəvi dəyərlərimizdən qaynaqlanan tərbiyə bu ailənin övladlarının hamısına xalq üçün gərəkli insanlar kimi yetişməyə imkan yaratmışdı. Zərifə xanıma da əsil-nəcabətindən ən yüksək keyfiyyətlər əmanət kimi verilmişdi. Həkimlik sənətinə məhəbbəti də ona atasından keçmişdi. Zərifə Əliyeva elə bir ailədə dünyaya gəlmişdi ki, orada xeyirxahlıq, alicənablıq, insansevərlik kimi xüsusiyyətlər nəsildən-nəslə genlərlə keçmişdi. Dövrünün böyük şəxsiyyəti Əziz Əliyev övladlarına mənəvi təmizlik, paklıq aşılamışdı. Zərifə xanım təmkinli, dözümlü, düşüncəli idi. Ağıllı söhbətlərindən insanlar həmişə nə isə əxz edir, nə isə öyrənirdi. Həmkarları xatirələrində yazırdılar ki, bu xanımla söhbət edəndən, məsləhətləşəndən sonra həmişə daxili sakitlik tapırdılar. İşıq onun həyatının mənası, xəstələrə bəxş etdiyi nur, əslində, qəlbinin sevgisi və çırağı idi.

Onun təbabətə gəldiyi illərdə Azərbaycanda göz xəstəlikləri geniş yayılmışdı. Əhalinin bir qismi traxoma adlanan xəstəlikdən əziyyət çəkirdi. Bu sosial bəlanın müalicəsi üçün yollar axtaran istedadlı həkim ardıcıl elmi axtarışlar aparır, təcrübədə, yəni gündəlik işində mühüm nəticələr göstərirdi. Zərifə xanım 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etdi. 1967-ci ildə müsabiqə yolu ilə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda işə başladı. 1976-cı ildə doktorluq dissertasiyasını tamamladı və uğurla müdafiə etdi.

Görkəmli alim bu institutda çalışdığı ilk dövrdən görmə orqanının patologiyasına xüsusi diqqət yetirirdi. Alim zərərli sənaye müəssisələrində çalışan işçilərin oftalmoloji müayinədən keçirilməsini təşkil etmişdi. Peşə ilə bağlı əmələ gələn göz xəstəliklərinin profilaktikası və müalicəsi ilə məşğul olurdu. Bu xəstəliklərin yayılma qanunauyğunluqlarını aşkar etmək üçün Bakının şin və kondisioner zavodlarında, neft, kimya və yod sənayesi müəssisələrində işləyənlərin gözlərinə mənfi təsir göstərən amilləri öyrənir, onların qarşısını almaq üçün tədbirlər görürdü.

Zərifə xanımı daim düşündürən məsələlərdən biri də həkim etikası, həkim-xəstə münasibətləri idi. Təsadüfi deyil ki, akademik gənc həkimlərin peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə xeyli zəhmət sərf edirdi. Bu məsələ ilə əlaqədar çoxlu məqalələr yazmışdı, çıxışlar etmişdi. "Yüksək etimad" kitabı da cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə həsr olunmuşdu. Onun bu mövzuya aid baxışları "Həkimin yüksək vəzifəsi", "Oftalmologiyanın aktual problemləri" monoqrafiyalarında özünə yer almışdı. "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində Zərifə xanımın həkimin vəzifə borcuna, tibbi etikasına dair baxışları daha geniş şəkildə əks olunmuşdu. Akademik deyirdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin səmərəsini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və hətta dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım həkim və xəstə münasibətlərinin əsas qaydalarını tərtib etmiş, həkimin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, insanlar arasında ən yaxın və həssas ünsiyyətin məhz həkimlə xəstə arasında olduğunu ön plana çəkmiş və "həkim xəstənin ən doğma adamıdır" demişdi.

### Həkim əxlaqı və xeyirxah əməllər

Akademik Zərifə Əliyeva insanlara göstərdiyi yaxşılıqların hamısını böyük şəfqətlə edirdi. Özü də təkcə pasiyentlərinə deyil, problemi, çətinliyi, dərdi olan bütün insanlara işıqlı duyğular bəxş etməyi bacarırdı. Köməyə, dəstəyə ehtiyacı olanlara əl tutmağı özünün insanlıq borcu sayırdı. Pespublikanın əməkdar müəllimi, Prezident təqaüdçüsü Adilə Heydərova illər əvvəl Zərifə xanım Əliyeva ilə bağlı xatirələrində yazırdı ki, valideynlərimlə bağlı onun xeyirxahlığını unuda bilmirəm. Anam ağır xəstə idi, son günlərini yaşayırdı. Hamımızın başı ona qarışmışdı. Digər tərəfdən də həmin vaxtlarda atamın gözləri tutulmuşdu. Anamın xəstəliyi barədə atama bir söz demədik. Çünki dözə bilməzdi. Gözlərində təcili əməliyyat aparılmalı idi. Həkimi isə Zərifə xanım idi. Yenə də ona müraciət etdik. Xeyli müayinədən sonra dedi ki, vaxt itirmədən əməliyyat etmək lazımdır. Yoxsa gözündəki azacıq işıqdan da məhrum olar.

Amma iş elə gətirdi ki, atamın göz əməliyyatının təyin olunduğu gün anam dünyasını dəyişdi. Mən Zərifə xanımdan xahiş etdim ki, əməliyyatın vaxtını dəyişdirsin. O isə razılıq vermədi, dedi ki, siz gedin dəfn mərasimini keçirin, yas məclisinizi yola verin, atanın xəstəliyi ilə bağlı nə məsələ varsa, özüm həll edəcəyəm.

Belə də oldu. Zərifə xanım atamın xəstəliyi ilə bağlı bütün qayğıları öz üzərinə götürdü. Gözlərində cərrahiyyə əməliyyatını həyata keçirdikdən sonra xeyli müddət onun yanında oldu. Yas məclisi dağılışandan sonra xəstəxanaya atamın yanına gəldik. Zərifə xanım yenə də xəstəsinin yanında idi. Atamla şirin-şirin söhbət edirdi. Bəli, belə bir kristal xarakterli, qəlbi saf, əməlləri xeyirxah bir insan idi bizim Zərifə xanım!

**Böyük alimin zəngin irsi**

Elm spesifik fəaliyyət sahəsidir. Onun ayrı-ayrı istiqamətləri, həmin istiqamətlərin də müxtəlif tərəfləri ilə maraqlandıqca bu özünəməxsusluğun böyük əhəmiyyət kəsb etdiyini görürsən. Ona görə də qeyri-ixtisas sahiblərinin, o cümlədən jurnalistlərin hansısa alimlərin fəaliyyəti, elmə gətirdikləri yeniliklər haqqında bilgilərində adətən müəyyən məhdudiyyətlər olur. Kənardan bir alimin həyat və fəaliyyətini ətraflı öyrənib, şəxsiyyət kimi onun portretini təsvir edə bilirsən, amma həmin alimin öz fəaliyyəti sahəsindəki yerini və rolunu tam dəqiq təsəvvür edə bilməkdən ötrü həmin sahənin adamı, mütəxəssisi olmalısan.

Bu baxımdan zəmanəsinin ən görkəmli oftalmoloq-alimlərinin akademik Zərifə Əliyeva şəxsiyyəti, onun zəngin elmi irsi haqqında fikirləri bu dəyərli Azərbaycan aliminin elm tariximiz üçün, əslində, kim olduğunu anlamağa kömək göstərir.

Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, vaxtilə Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru olmuş, Dövlət mükafatı laureatı M.M.Krasnov Zərifə xanım Əliyeva haqqında xatirələrində oftalmoloq həmkarının dünyagörüşünün genişliyini, tibb elminin "xam sahələrinə" böyük maraq göstərdiyini yazır və onun iridodiaqnostikaya həsr olunmuş kitabını yada salır, bu mövzuda qələmə alınmış ilk nəşr olduğunu xatırladır: "Zərifə xanım "İridodiaqnostika" kimi nəhəng elmi monoqrafiyanı yazmağa və nəşr etməyə başlamışdı. Həmin monoqrafiya elə kitab mağazalarının rəflərində görünən kimi yoxa çıxmışdı. Zərifə xanımın elmi cəsarəti onun elmi təvazökarlığı ilə üst-üstə düşmüşdü".

Helmqolts adına Moskva Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun vaxtilə direktoru olmuş K.V.Trutneva da öz xatirələrində Zərifə Əziz qızını görkəmli alim-oftalmoloq olmaqla yanaşı, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq kimi təqdim edirdi: "Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik yüksək təşkilatçılıq bacarığının olması da vacibdir. Məhz bütün bu keyfiyyətlər isə Zərifə xanım Əliyevaya xas idi".

K.V.Trutneva bu cür tədqiqatların vacibliyinə görə seçildiyini, çox zəhmət tələb etdiyini, amma sosial-iqtisadi baxımdan əvəzsiz olduğunu xüsusi vurğulayırdı. Çünki məhz bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalışanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyələr işlənib hazırlanaraq istehsalata tətbiq edilmişdir. Zərifə Əliyevanın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarət idi.

**Ailəsinə dayaq olan əsl insan**

Zərifə xanım ailəsinə dayaq olan əsl insan idi. Bu fikir həmkarlarının xatirələrində də dəfələrlə xüsusi vurğulanırdı. "Şəxsən mən Zərifə Əliyevanı ailəsindən ayrı düşünə bilmirəm. Zərifə xanım həm görkəmli alim, həm də gözəl qadın, qaygıkeş ana idi", - deyə professor K.V.Trutneva yazırdı: "Çoxillik işgüzar və səmimi ailəvi görüşlər mənim qəlbimdə dərin iz buraxıb və həmin görüşlərdə bir daha əmin olmuşam ki, Zərifə xanım ailəsinə dayaq olan əsl insan idi. Həyat eşqi, xeyirxahlığı, qayğıkeşliyi ilə! İşinin çoxluğuna, cəmiyyətdə tutduğu yüksək mövqeyə baxmayaraq, həmişə birinci növbədə ailəsinin, habelə adamların qayğıları ilə yaşayırdı".

Professor Z.M.Skripniçenko 1977-ci ildə Zərifə xanımın təşəbbüsü ilə Bakıda təşkil olunmuş Azərbaycan oftalmoloqlarının elmi konfransında iştirak edən akademik V.P.Filatov adına Odessa Göz Xəstəlikləri İnstitutunun nümayəndə heyətinin tərkibində olub. Görkəmli alim bu nüfuzlu elmi toplantı haqqında təəssüratları

barədə yazırdı: "Zərifə xanım Əliyeva... bizi hamıdan daha çox səmimiyyətlə salamladı. Onun gözlərindən nur boylanır, üzündə isə mehriban bir təbəssüm var idi... Zərifə xanım həm də gözəl natiq idi, olduqca inamla və böyük maraqla özünün orijinal elmi tədqiqatlarının nəticələrini şərh edə bilirdi. Bir daha vurğulamaq istərdim ki, onun məruzəsinin məğzində dövlət əhəmiyyətli tədqiqat problemi - kimya sənayesində görmə orqanının peşə xəstəliyinin araşdırılması dayanırdı. Professor Zərifə Əliyeva qeyd edirdi ki, geniş miqyasda aparılan profilaktik və müalicə tədbirləri nəticəsində indi kimya sənayesində görmə orqanının peşə xəstəliyinə tutulması hallarına az-az rast gəlinir və özünü intoksikasiyanın yüngül, subklinik forması şəklində büruzə verir".

Ölkənin təsərrüfat həyatına, regional və sahəvi özünəməxsusluqlarına dərindən bələd olan Ümummilli Lider Heydər Əliyev də alimlərin belə müzakirələrindən birində iştirak edərək bu cür tədqiqatların aktuallığını və vacibliyini göstərmiş, qiymətli əməli məsləhətlərini vermişdir.

**Fundamental elmlə səhiyyə təcrübəsini birləşdirən araşdırmalar**

Əməkdar elm xadimi, Rusiya Tibb Elmləri Akademiyasının laureatı, akademik Zərifə Əliyeva dünyanın ən görkəmli tibb tədqiqatçıları tərəfindən nüfuzlu alim kimi qəbul edilirdi. Elmi-praktik yaradıcılıq fəaliyyəti boyu onun 140 elmi əsəri, 10 monoqrafiyası çapdan çıxmış, görkəmli alim məşğul olduğu elm sahəsində 12 səmərəli təklif irəli sürmüşdür.

Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, dövlət mükafatı laureatı A.P.Nesterovla professor A.F.Brovkina akademik Zərifə Əliyevanın tədqiqatlarında fundamental elmlə səhiyyə təcrübəsinin sıx əlaqəsini elmi araşdırmaların ən üstün məziyyətlərindən biri kimi vurğulayırdılar.

Alimlər Zərifə xanımın şin və yod istehsalı ilə məşğul olan işçilərin görmə orqanının vəziyyətinin öyrənilməsinə həsr olunmuş iki monoqrafiyasının xüsusilə daha çox diqqət cəlb etdiyini bildirirdilər və qeyd edirdilər ki, bu kitablarda aparılan konkret tədqiqatlar harmonik şəkildə görmə orqanının peşə patologiyasının öyrənilməsinə ümumi metodik yanaşma prinsiplərinin inkişafı ilə səsləşir.

Professor N.A.Dobromıslov Zərifə Əliyevanın gözün virus xəstəliklərinin öyrənilməsi sahəsindəki tədqiqatlarını elmi yenilik adlandırır: "Virus və peşə konyuktivləri arasında differensial diaqnostikaya aid tövsiyələr işlənib hazırlanmış, gözün herpetik xəstəliyinin diaqnostikasına və müalicəsinə aid dərs vəsaiti nəşr edilmişdir. Zərifə Əziz qızı müasir mikrocərrahiyyə səviyyəsində qlaukoma, katarakta xəstəliklərinin cərrahiyyə əməliyyatlarını araşdırmış və həyata keçirmişdir".

Alim Zərifə xanımın 1983-cü ildə nəştr etdirdiyi "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri" əsərini də yüksək qiymətləndirir: "...Onun çap etdirdiyi elmi əsər mahiyyət etibarilə daha geniş əhəmiyyət kəsb edir, təkcə səhiyyə aləmində deyil, məişət və ailə əlaqələri də daxil olmaqla bütövlükdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm rol oynayır".

Zərifə xanımla yaxın ünsiyyətdə olmuş professor O.P.Dobromıslova da bu görkəmli alimi xoş xatirələrlə yada salır və onu ömür-gün yoldaşına hər zaman mənəvi dəstək olan əsl Azərbaycan qadını kimi xatırlayır. Professor N.B.Şulpina alimin iştirakı ilə 1985-ci ildə "Medisina" nəşriyyatında çapdan çıxmış "Terapevtik oftalmologiya" kitabını Zərifə xanımın pedaqoji ustalığının zirvəsi kimi dəyərləndirir: "Burada dünya oftalmoloji təcrübənin yenilikləri öz əksini tapmışdır... Zərifə xanım həmin kitabın ən sanballı bölmələrini yazarkən, təbii ki, özünün zəngin klinik təcrübəsinə və elmi tədqiqatlarına əsaslanmışdır". Professor N.B.Şulpina onu da vurğulayır ki, Zərifə Əliyevanın 1983-cü ildə tibb sahəsində Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlüyünə seçilməsi onun böyük xidmətlərini, çoxillik səmərəli elmi tədqiqat işlərini, səhiyyənin nəzəri və təcrübi sahələrinə nəhəng qüvvə sərf etdiyini bir daha sübuta yetirir. Zərifə Əliyevanın qeyri-adi insan olduğunu xüsusi vurğulayan professor V.V.Şmelyeva qeyd edirdi ki, görkəmli alim hər şeydən əvvəl həyat sevgisi və maraq dairəsinin böyüklüyü ilə fərqlənirdi. Oftalmologiyada yeni, çox çətin və az öyrənilən bir sahəni araşdıraraq, bu tipli xəstəliklərin profilaktikasına və müalicəsinə böyük töhfə vermişdir.

Zəmanəsinin bu sanballı alimlərinin düşüncələri akademik Zərifə xanım Əliyevanın nə qədər böyük alim olduğunu bir daha göstərir, onun Azərbaycan və dünya elminə zəngin töhfələri haqqında aydın təsəvvür yaradır.

**Azərbaycan**. - 2023.- 28 aprel. - № 86. - S. 5.

## Şəxsiyyət zirvəsi

**Əhliman Əmiraslanov**,
akademik, SSRİ Dövlət mükafatı laureatı

**Bütün tarixi mərhələlərdə xalqın döyünən qəlbi, cəmiyyətin düşünən beyni olan ziyalılar həm də milli yaddaşın, milli ruhun daşıyıcısı kimi elm zirvəsinə ucalırlar. Həyat amalı, nəcib məqsədləri ilə çoxlarından fərqlənən bu kimi şəxsiyyətlərin yaradıcılıq ruhu həm də onların özünütəsdiq əzmindən qaynaqlanır. Yaratdığı irslə ümumən bəşəriyyətin mənəvi nailiyyətlər xəzinəsini daha da zənginləşdirir, həyatının mənasına çevrilən əməlləri ilə mənsub olduğu xalqın başucalığına çevrilirlər. Şəxsiyyəti ilə, təlqin etdiyi dəyərlərlə milyonlarla insan üçün ornəyə çevrilirlər.**

Mənalı həyat yolu, həkimlik fəaliyyəti, elmi uğurları, ən əsası isə fərdi keyfiyyətləri ilə insanlıq mücəssəməsinə çevrilmiş akademik Zərifə Əziz qızı Əliyeva da belə örnək şəxsiyyətlərdən biri kimi milyonların qəlbində yaşayır, haqqındakı xoş xatirələr bu dəyərli Azərbaycan qadınının əbədiyyət ömrünə işıq salır.

### Şahtaxtıdan başlanan ömür

Müdriklərin belə bir sözü var ki, insan öz zəmanəsinin övladıdır. Bu kəlamda böyük həqiqət var. Eyni zamanda zəmanənin çağırışlarını müəyyən edən, inkişaf istiqamətlərinə yön verən, bu proseslərin önündə irəliləyən valideynin övladı olmaq da insana taleyin gözəl bir töhfəsidir.

Zərifə Əziz qızı Əliyeva da düz bir əsr bundan əvvəl 1923-cü il aprelin 28-də Naxçıvanın Şahtaxtı kəndində illər sonra xalqımızın ən görkəmli şəxsiyyətlərindən biri kimi şöhrət tapan ictimai-siyasi xadim Əziz Əbdülkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Yüksək vətəndaşlıq ruhunun daşıyıcısı olmuş Əziz Əliyev ictimai məsuliyyətini dərindən dərk edən ziyalı olaraq daim xalqına, dövlətinə ləyaqətlə xidmət etmiş, övladlarını da bu ruhda böyüdüb ərsəyə çatdırmışdır. Mərhum akademik M.Topçubaşov Əziz Əliyevi təkcə görkəmli tibb xadimi deyil, həm də "cəmiyyəti müalicə edən həkim" hesab edirdi.

Zərifə xanımın ata-baba yurdu əzəli şəhərimiz olan İrəvanda deyil, Şahtaxtıda dünyaya gəlməsi, ömürlüyündə bu toponimin xüsusi qeyd edilməsi xalqımız üçün kədərli bir tarixlə bağlı olduğundan bu tarixin milli yaddaşımızın sorağı kimi xüsusi xatırlanmasına ehtiyac görürük.

Erməni daşnaklarının 1918-ci ildə Azərbaycanın başqa bölgələri kimi, İrəvanda da dinc azərbaycanlılara qarşı törətdikləri kütləvi soyqırımı nəticəsində Əziz Əliyevin ailəsi də bir çox azərbaycanlı ailəsi kimi sağ qalmaq üçün doğma şəhərdən Şahtaxtıya pənah gətirmişdi. Onda Əziz Əliyev xalqımızın tanınmış messenatlarından olan Hacı Zeynalabdin Tağıyevin ayırdığı təqaüdlə Sankt-Peterburq Tibb Akademiyasında təhsil alırdı. O, həkim olmaq arzusu ilə akademiyada qısa müddətdə zəngin biliklər əldə etmişdi. Amma erməni zülmü planlarını yarımçıq qoymuşdu. Əziz Əliyev İrəvandakı doğma ev-eşiyindən didərgin düşərək əvvəlcə Arazın o tayında, Cənubi Azərbaycanın Ərəblər kəndində, sonra isə Naxçıvanın Şahtaxtı kəndində məskunlaşmış ailə üzvlərinin yanında olmaq, onların çoxsaylı qayğılarını həll etmək üçün təhsilini yarımçıq qoyub Sankt-Peterburqdan geri qayıtmaq məcburiyyətində qalmışdı. O ağır günlərdə ailəsinin yanında olmuşdu. Akademiyada qısa müddət ərzində əldə etdiyi ilkin tibbi bilik və bacarıqları ilə həmin çətin vaxtlarda soydaşlarımıza da fayda verməyə çalışmışdı. Bütün keşməkeşlərə, məhrumiyyətlərə baxmayaraq həkimlik xəyalını, gələcəklə bağlı arzularını da yarımçıq qoymamışdı.

### Ailə mühiti

1923-cü ilin aprelində Zərifə xanımın dünyaya gəlməsi ilə bu ailə üçün yeni bir həyat başlandı. Bakıya köçdülər, Əziz Əliyev burada işə düzəldi, eyni zamanda arzularını reallaşdırmağa doğru böyük bir addım atdı.

Cümhuriyyət hökumətinun ən dəyərli yadigarlarından olan Bakı Dövlət Universiteti onda yenicə yaradılmışdı. Universitetdə o dövrdə ölkə əhalisinə tibbi xidmətin təşkili üçün hava və su kimi zəruri olan Tibb fakültəsi də fəaliyyət göstərirdi. Əziz Əliyev işləyə-işləyə Bakı Dövlət Universitetinin Tibb fakültəsinə qəbul olundu və ali məktəbi əla qiymətlərlə başa vuraraq çox tezliklə bacarıqlı həkim, səhiyyə təşkilatçısı kimi ölkənin ictimai həyatında parlamağa başladı.

Övladlarını cəmiyyət üçün layiqli vətəndaş kimi yetişdirmək, onlara zamanın inkişaf ruhuna uyğun təhsil və tərbiyə vermək ailənin böyüklərinin ən ülvi arzusu idi. Onda sovet cəmiyyəti öz ziyalı elitasını formalaşdırmaqda idi və Əziz Əliyevin ailəsi də bu elitanın ən parlaq təmsilçilərindən sayılırdı. Bu, uşaqların təhsil və tərbiyəsinə göstərilən diqqətdə, ailə ocağındakı mədəni ruhda, maraqlarda, zövqlərdə, sənətə bağlılıqda

da özünü hiss etdirirdi. Eyni zamanda bu ailədə ulularımızdan gələn milli-mənəvi dəyərlərimizə böyük hörmət ruhu vardı.

Əziz müəllimin ömür-gün yoldaşı Leyla xanım Azərbaycan xanımına xas ən gözəl keyfiyyətləri özündə birləşdirmişdi. Övladların tərbiyəsində, ailə ocağının hərarətinin, hüzurunun qorunmasında onun üzərinə çox böyük yük düşürdü.

Əziz Əliyevin evi o dövrün mədəni mərkəzi timsalında idi. Əziz müəllim zəmanəsinin ən görkəmli şəxsiyyətləri - alimləri, şair və yazıçıları, bəstəkarları ilə ailəvi dostluq edirdi. Böyük şəxsiyyətlər tez-tez bu evdə qonaq olar, müzakirələr aparar, sənət yenilikləri ilə bağlı fikirlərini, ideyalarını bölüşərdilər. Bu görüşlər, söhbətlər, müzakirələr, həmin şəxsiyyətlərin yaratdığı sağlam düşüncə mühiti ailədə böyüyən övladlar üçün dünyanın ən nüfuzlu universitetlərindəkindən də üstün təhsilə bərabər idi.

## Ağ xalatın işığı

Ailədə musiqiyə, ədəbiyyata və başqa mədəni dəyərlərə böyük maraq vardı. Zərifə xanımın peşə seçimi isə fərqli oldu. O, atasının yolunu davam etdirərək həkim olmağa qərar verdi. Orta məktəb illərindən yüksək zəkası, bilik və bacarığı, istedadı ilə fərqlənən Zərifə Əliyeva söhbətlərində həmişə gələcək həyat yolunu düzgün müəyyənləşdirdiyini söyləyirdı.

O, insanlara şəfqət və mərhəmət arzusu ilə həyatını tibb elminə bağlamaq istəyini qətiləşdirərək 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur. Tələbəlik illərində peşəkar həkim kimi yetişməyi qarşıya məqsəd qoyan Zərifə Əliyeva bu istəyinə doğru əzmlə irəliləyir. Onunla bir qrupda, eyni kursda oxuyan məzunların xatirələrində qeyd edildiyi kimi, Zərifə xanım fitri istedada, dərin zəkaya, geniş dünyagörüşə, yüksək mədəni səviyyəyə malik bir tələbə idi. O, tibbi fənlərlə yanaşı, digər fənlərin də tədrisinə eyni dərəcədə yüksək maraq göstərir, hərtərəfli biliyə malik həkim kimi formalaşırdı. Bu seçimində, güman ki, İkinci Dünya Müharibəsi zamanı Bakıda yaradılmış hospitallarda gördüklərinin də böyük rolu olmuşdu. Onda ön cəbhədən Bakıda müalicə olunmağa minlərlə yaralı gətirilirdi. Hospitallarda tibbi heyət çatışmırdı. Xəstəxanalardan biri də Əziz müəllimin evinin yaxınlığında idi. Zərifə xanım dərsdən sonra rəfiqələri ilə hospitala gedər, fədakarlıqla çalışan tibb işçilərinə bacardığı köməyi göstərməyə çalışar, yaralılara mənəvi dəstək olar, onlar üçün evlərinə məktublar yazardı. Bir tərəfdən, Əziz müəllimin o dövrün ən aparıcı səhiyyə təşkilatçılarından biri kimi önəmli rolundan, fədakar əməyindən, digər tərəfdən də xəstəxanalarda gecə-gündüz bilmədən çalışan tibb işçilərinin gərgin fəaliyyətindən həkimlik sənətinə Zərifə xanımda çox böyük sevgi yaranmışdı.

Ağxalatlı həkimlər ona xilasedici mələklər kimi görünürdülər. Ağ xalatın rənginin, işığının onun xəyallarında özünəməxsus əsrarı vardı.

## Elmə doğru

O, istəyinə doğru addım-addım irəliləyirdi. Tələbə elmi toplantılarında çıxışları, sərbəst mülahizə irəli sürmək istedadı, yeni ideyalar üzərində düşünmək əzmi, dəyərli nəticələr çıxararaq tanınmış alimlərlə fikir mübadiləsi aparmaq qabiliyyəti, mənbələrlə işləmək istedadı, dərin müşahidələri onda hələ ali məktəbdə oxuduğu illərdən zəruri elmi vərdişlər formalaşdırmışdı. Zərifə xanım musiqi marağını da diqqətdən kənarda qoymamışdı. İmkan düşdükcə, pianoda ifa vərdişlərini inkişaf etdirir, musiqi istedadı ilə dinləyicilərdə heyranlıq yaradırdı.

Tələbəlik illərinin sonlarına doğru artıq ixtisas seçimini etmişdi. Göz həkimi olmağa qərar vermişdi. Onu bu qərara sövq edən böyük sosial-mənəvi tələbat idi. Həmin dövrdə traxoma infeksiyon xəstəliyi Azərbaycanda və eləcə də dünyanın bir çox ölkəsində böyük bəla kimi yayılmışdı. Minlərlə insan bu xəstəliyə tutulub düzgün müalicə almaması səbəbindən dünya işığına həsrət qalmışdı. Düzgün müalicə isə ona görə mümkün olmurdu ki, həmin dövrlərdə traxomaya qarşı effektiv vasitələr, təsirli müalicə üsulları hələ tapılmamışdı. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə mübarizə məsələsi təkcə oftalmologiya elminin deyil, bütövlükdə, respublika səhiyyəsinin qarşısında vacib problem kimi dururdu.

Zərifə xanım da bu problem barədə məlumatlı idi və tibb təhsilinin qazandırdığı bütün bilik və bacarıqlarını səfərbərliyə alaraq insanları bu bəladan xilas etməyin yolları barədə düşünürdü. O, fərqində idi ki, öz məqsədinə oftalmologiya üzrə daha geniş biliklərə yiyələnməklə, bu problemi ən xırda incəliklərinə qədər araşdırmaqla nail ola bilər. O dövrdə Moskvada oftalmologiya sahəsində kifayət qədər güclü məktəb formalaşırdı. Gənc həkim təhsilini davam etdirmək üçün Moskvaya getməyə qərar verdi. Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda həkim-oftalmoloq ixtisasına mükəmməl şəkildə yiyələndi. Moskva dövrü gənc mütəxəssis üçün yeni bir aləm oldu. Müharibədən sonra insanlarda daha böyük həyat eşqi vardı. Hər yanda tikinti, bərpa və quruculuq işləri gedirdi. Ən başlıcası, insanlar arasında səmimiyyət, sabaha inam və ümid var idi. Moskvada Zərifə xanım o dövrün məşhur tibb alimləri ilə tanış oldu. Bir də göz cərrahiyyəsinin sürətli inkişafı onun nəzərindən yayınmadı. Müharibə tibbin cərrahiyyə sahəsinə böyük təkan vermişdi, ağlasığmaz əməliyyatlar həyata keçirilirdi.

Professorlardan biri demişdi ki, cərrahiyyə müharibələrdən doğmadır. Həqiqətən, müharibədən sonra tibbin, xüsusilə cərrahiyyənin misilsiz inkişafı bunun əyani təsdiqi idi.

Zərifə xanım Moskvada iki il yaşadı, elmi işçi kimi püxtələşdi. Özünə elmi mühitdə çoxlu dostlar tapdı, onlara bağlandı, bəziləri ilə sonralar müştərək elmi tədqiqatlar apardı, kitablar çap etdirdi. Belə dostların əksəriyyəti sonralar onun elmi işlərinin rəyçiləri və opponentləri oldular, onun barəsində məqalələr və səmimiyyət dolu xatirələr yazdılar. Məhz Moskvada Zərifə xanım həyatın və elmin çətin yoluna çıxdı. Bu, böyük həyat və fasiləsiz yüksəliş yolu idi.

1949-cu ildə Bakıya qayıdanda Zərifə Əliyeva artıq yüksəkixtisaslı göz həkimi idi. Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başladı. 1950-ci ildə aspiranturaya daxil oldu. O, praktik həkimlik fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını da apardı. Elmi fəaliyyətinin ilk mərhələsini məhz traxoma xəstəliyinin müalicəsinə həsr etdi.

### Sosial bəla ilə mübarizə

Həmin dövrdə Zərifə xanım həm elmi araşdırmalarını müntəzəm şəkildə davam etdirir, həm praktik həkimlik fəaliyyəti ilə məşğul olaraq bu xəstəliyə tutulmuş insanların müalicəsinə kömək göstərir, həm də həkim briqadaları ilə infeksiyanın xüsusilə geniş yayıldığı rayonlarımıza gedərək, həkim-oftalmoloqlara, indiki dildə desək, təlimlər keçir, eyni zamanda əhali ilə bu xəstəlikdən qorunmaq üçün maarifləndirici iş aparırdı. Təbii ki, həmin illərdə insanları bu ağır bəladan və onun fəsadlarından qorumaq üçün maarifləndirmənin rolu çox böyük idi.

Rayonlarda keçirilən bu tədbirlər zamanı Zərifə xanım müşahidə edirdi ki, həmin dövrdə respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatların aparılmasına, bu xəstəliklərin effektli müalicə üsullarının, profilaktika tədbirlərinin işlənib hazırlanmasına çox ciddi tələbat var. O, elmi fəaliyyətində bu istiqamətlərə də xüsusi yer ayırırdı.

Gərgin elmi fəaliyyətinin, eləcə də həkim kimi gündəlik təcrübədə apardığı müşahidələrin və tətbiq etdiyi müalicə metodlarının nəticəsi kimi Zərifə xanım Əliyeva traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlayaraq həyata keçirməyə başladı. Traxomanın müalicəsində o dövrün güclü antibiotiklərindən hesab edilən sintomisindən istifadə etməklə uğurlu nəticələr əldə etdi. Bununla minlərlə xəstənin gözlərinə şəfa verdi və digər həkim həmkarlarının da effektiv fəaliyyətinə yol açdı. Dəyərli elmi kəşflərdən sayılan bu üsulun kompleks profilaktik tədbirlərlə birlikdə praktik səhiyyədə geniş tətbiqindən sonra traxoma xəstəliyinin müalicəsində əsaslı dönüş yarandı, xəstəliyin yayılmasının qarşısı alındı, bu da tədricən ölkə əhalisi üçün təhlükə törədən ağır infeksion xəstəliyin ləğvinə gətirib çıxardı. Beləliklə, Zərifə xanımın fədakar əməyi sayəsində həyata keçirilən tibbi tədbirlər insanların dünya işığından məhrum qalmalarının, iş qabiliyyətini itirmələrinin, çarəsizlikdən kütləvi depressiya vəziyyətinə düşmələrinin qarşısını aldı. Yalnız bundan sonra gənc alim 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda dissertasiya işini uğurla müdafiə edib tibb elmləri namizədi elmi dərəcəsi aldı. Onun təklif etdiyi müalicə metodundan tezliklə bütün ittifaq məkanında istifadə edərək parlaq nəticələrə nail olmağa başladılar. Təsadüfi deyil ki, dünya oftalmologiyasında traxomanın sosial xəstəlik kimi ləğvində Zərifə Əliyevanın tarixi xidmətləri bu gün də böyük ehtiramla xatırlanır.

### Yeni istiqamətlər

Böyük alim öz elmi fəaliyyətini təkcə bir istiqamətlə məhdudlaşdırmırdı. Traxoma ilə yanaşı, o dövrdə insanların daha bir bəlası olan və tibb elmini ciddi narahat edən qlaukoma xəstəliyinin öyrənilməsi də Zərifə xanımı maraqlandırırdı. O, həmin xəstəliklə mübarizə sahəsində də tədqiqatlar aparır, nəticələrini elmi nəşrlərdə dərc etdirir, klinik göz xəstəliyi sahəsində çalışan həkimlər üçün əhəmiyyətli elmi resurslar yaradırdı.

O dövrdə oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahələrindən biri də görmə orqanının peşə patologiyası ilə bağlı idi. Sənayeləşmə genişləndikcə, xüsusilə kimya və elektronika sahəsində yaradılan müəssisələrin və bu müəssisələrə cəlb edilən işçilərin sayı artdıqca bu problemin aktuallığı da güclənirdi. Bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin ona qədər elmi şəkildə tədqiq olunmaması bu müəssisələrin əməkdaşları üçün ciddi problemlər yaradırdı. Onlar çalışdıqları məkanlarda peşə ilə bağlı müxtəlif göz xəstəlikləri "qazanırdılar". Problemin fundamental şəkildə tədqiqi, real hallərin ortaya qoyulması son dərəcə vacib idi. 1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə bu problemlə məşğul olmağa başladı. Peşə ilə əlaqədar əmələ gələn göz xəstəliklərinin tədqiqini fəaliyyətinin əsas istiqamətlərindən birinə çevirdi. Xüsusilə yod sənayesi, neft-kimya müəssisələrində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərin öyrənilməsi və müvafiq həll yollarının tapılması onun maraq dairəsində idi.

Problemin aktuallığını o, daha çox praktik həkimlik fəaliyyəti zamanı üzə çıxarmışdı. Müxtəlif göz xəstəliklərinin müalicəsi üçün müraciət edən şəxslərin əhəmiyyətli hissəsinin müvafiq sənaye müəssisələrində

çalışan insanlardan ibarət olması Zərifə xanıma çox maraqlı gəlir, o, həmin insanları birləşdirən müxtəlif amillər arasında paralellər aparırdı. Problem üzərində işləməyə başlayarkən alim özü bilavasitə sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri müayinədən keçirirdi. Bununla yanaşı, Bakı və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən Şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar artıq ilk mühüm nəticələrini verirdi. Alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxarmağı bacarmışdı. Səbəblərin, qanunauyğunluqların tapılması onların aradan qaldırılması üçün effektiv həllərə doğru açılan yol demək idi. Görkəmli alimin müəyyən etdiyi yolla oftalmologiya elmi qısa müddət ərzində gözün peşə xəstəlikləri ilə bağlı da bir sıra mühüm nəticələr ortaya qoydu.

## Elm təşkilatçısı

Zərifə xanım Əliyeva həm də bacarıqlı elm təşkilatçısı idi. 1960-1967-ci illərdə o, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışırdı. Eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olur, əldə etdiyi bilik və bacarıqları gənc həkim nəslinə ötürürdü. 1967-ci ildən o, fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında davam etdirməyə başladı. Əvvəlcə kafedranın dosenti, professoru, daha sonra müdiri vəzifəsində çalışdı. Həkimlərin diplomdan sonrakı hazırlıqlarının tələblərə uyğun şəkildə aparılmasına əlverişli şəraitin yaradılması, kafedranın fəaliyyətinin dövrün tələblərinə uyğun qurulması Zərifə xanım Əliyevanın institutun fəaliyyətinə verdiyi ciddi töhfələrdir.

Görkəmli alim ölkənin müxtəlif bölgələrində çalışan həkimlərə mühazirələr oxuyur, biliklərini onlarla bölüşür, tibbin əhəmiyyətli sahələrindən olan oftalmologiyadakı yeniliklər barədə məlumatlandırır, gənc həkimlərin praktik bacarıqlara, müasir tibbi cihazlardan gündəlik təcrübədə istifadə vərdişlərinə yiyələnmələrinə kömək göstərirdi. Zərifə xanım paralel olaraq cərrahiyyə əməliyyatları aparır, xəstələrə faydalı məsləhətlərini əsirgəmir, ümumən ölkədə oftalmologiya sahəsində aparılan işlərə töhfə verməyə çalışırdı.

Çoxillik müşahidələrinin, klinik tədqiqatlarının və eksperimentlərin nəticələrini o, "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasında ümumiləşdirdi. 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda dissertasiyasını uğurla müdafiə edərək tibb elmləri doktoru elmi adına layiq görüldü.

1977-ci ildə onun təşəbbüsü ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun keçirilməsi böyük alimin oftalmologiya elminin qlobal problemlərinin həllinə, bu istiqamətdə imkanların bir araya gətirilməsinə mühüm töhfələrindəndir. Azərbaycanın evsahibliyi etdiyi bu tədbir çox böyük uğurla keçmiş, bütün ittifaq miqyasında maraq doğurmuşdu. Bu faktın özü də Zərifə xanımın nə qədər yüksək təşkilatçılıq bacarığına malik olduğunu, bəşəriyyət üçün faydalı işlər görməyə çalışdığını, bu yöndə gərgin zəhmətini əsirgəmədiyini göstərir.

Həmin plenumda Zərifə xanımın Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı təşəbbüsü yüksək qiymətləndirildi və bu təşəbbüsün reallaşdırılmasına doğru addımlar atıldı. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda görkəmli alimın rəhbərliyi ilə belə bir laboratoriya yaradıldı. Bu laboratoriya az intensivli zərərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar ortaya qoydu.

## Elmi məktəbini yaratmış alim

Akademik Zərifə xanım Əliyeva öz elmi məktəbini yaratmış alimdir. Onun uzunmüddətli araşdırmalar əsasında ərsəyə gətirdiyi dərsliklər, elmi monoqrafiyalar bu gün də həm Azərbaycanda, həm də dünyada zəngin bilik resursları kimi oftalmoloqlara böyük fayda verir.

Təsadüfi deyil ki, 1980-ci ildə Zərifə xanım Əliyeva elmi xidmətlərinə və pedaqoji kadrların hazırlanması sahəsindəki fəaliyyətinə görə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. 1981-ci ildə isə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işlərinə, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyasına görə ona oftalmologiya sahəsində ən yüksək mükafat - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatı təqdim edilmişdir. Bu mükafatı oftalmologiya sahəsində müstəsna xidmətləri olan və beynəlxalq aləmdə tanınan məşhur alim-oftalmoloqlar alırdılar. Azərbaycan aliminin belə nüfuzlu mükafata layiq görülməsi ölkəmizin elm aləmində xoş ovqat yaratdı. Moskvadan alınan xəbər Zərifə xanımın uzun illərdən bəri insanlara bəxş etdiyi şəfqət işığının davamı kimi Azərbaycan tibb elminin, tibb təhsili sisteminin, respublika səhiyyəsinin yollarını nura qərq etdi. Bir faktı da qeyd edək ki, Zərifə xanım Əliyeva bu mükafata layiq görülən ilk qadın alim-oftalmoloq idi. 1983-cü ildə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir.

İctimai həyatda da Zərifə xanım kifayət qədər fəal idi. Keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin, keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətində təmsil olunurdu.

Həkim adı Zərifə xanım Əliyeva üçün müqəddəs bir dəyər idi. O, özü sənətinin şərəfini daim uca tutur və bunu həkimlik peşəsinə könül vermiş bütün həmkarlarına da tövsiyə edirdi. Bu baxımdan alimin qələmə aldığı "Yüksək etimad" kitabı gənc həkimlərin təlim-tərbiyəsi, onların peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsi və həlli üçün hər zaman öz elmi-mənəvi dəyərini qoruyan xəzinədir.

Əslində, bu kitab təkcə həkimlərin deyil, bütün insanların oxuyub əməl etməli olduqları bələdçidir. Həyatda uğur qazanmaq istəyən, başqalarının yaddaşında yaxşı bir insan kimi xatırlanmaq arzusunda olan hər kəs yüksək mənəvi dəyərlərə sadiq qalmalıdır. "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam". Bu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ömür-gün yoldaşı haqqında həzin düşüncələrindən bir yarpaqdır. Bu kəlmələrdə gərgin elmi-pedaqoji fəaliyyətinə, gündəlik həkimlik işinə, ictimai roluna rəğmən eyni zamanda Zərifə xanımın vəfalı, qayğıkeş ömür-gün yoldaşı, cəmiyyətimiz üçün layiqli övladlar böyütmüş ana kimi də nurlu abidəsi ucalır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Vətən sevgisi, milli-mənəvi dəyərlərimizə bağlılığı, yüksək insani keyfiyyətləri həm də onu dünyaya gətirmiş anadan, böyüdüyü ailə ocağının işığından gəlir.

***

Akademik Zərifə xanım Əliyevanın dünyamızın, insanlarımızın gələcəyi ilə bağlı arzuları bu gün Azərbaycan Prezidenti İlham Əliyevin zəmanəmizin ən parlaq lideri kimi gördüyü işlərdə reallaşır, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi sosial-humanitar layihələrin uğurlarında öz ifadəsini tapır.

Zərifə xanım Əliyeva zirvəyə yüksəlmiş görkəmli elm xadimlərindəndir və aradan keçən zaman belə şəxsiyyətlərin ucalığını daha aydın göstərir.

**Azərbaycan.** - 2023.- 28 aprel. - № 86. - S. 4.

## Nurlu ömrün işığında

**Elmira Süleymanova**,
Azərbaycan Respublikasının Ağsaqqallar Şurasının sədr müavini, professor

**Zəngin elmi, pedaqoji və ictimai-siyasi fəaliyyəti ilə böyük işlərə imza atmış görkəmli alim, oftalmoloq, tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyeva və taleyi ondan ayrılmaz ömür-gün yoldaşı Ulu Öndər Heydər Əliyev eyni amalla xalqına, insanlara, vətəninə sədaqətlə xidmət edərək bir-birinə mənəvi dəstək, stimul və enerji verən, bir-birini tamamlayan iki dahilik nişanəsi olan nurlu şəxslər olmuş, Azərbaycan xalqının tarixinə şərəflə öz adlarını yazmışlar.**

Onlar milyonlarla insanın, sözün əsl mənasında, gözlərinə, ömrünə, həyatına nur saçmışlar.

Tanınmış dövlət xadimi, əməkdar həkim Əziz Əliyevin ailəsində dünyaya gəlmiş Zərifə xanım gənc yaşlarından təhsildə uğurları, insanlarla rəftarı, davranışı ilə valideynlərini sevindirmiş, arzularını və ümidlərini doğrultmuşdur.

Ailənin qonaqları olmuş, Azərbaycan xalqının məşhur elm, təhsil, incəsənət, mədəniyyət xadimləri onun uşaqlıq və gənclik illərində öz izlərini qoymuş, gələcəkdə geniş intellektinə, insanpərvərliyinə və vətənpərvərliyinə təsirini göstərmişdir. Peşə seçmək yaşına çatdıqda Zərifə xanım birdəfəlik və qətiyyətlə özünü müqəddəs bir sahəyə, tibb elminə bağlayacağını müəyyən etmişdir.

O, Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur. Burada oxuduğu illərdə Zərifə xanım məşhur müəllimlərdən dərs alır, həm peşə üzrə mükəmməl biliklərə yiyələnir, həm də tibb sahəsində ilk təcrübələrini keçir. Eyni zamanda bu müəllimlər onun üçün yalnız bilik mənbəyi deyil, həm də həyat məktəbi olmuşdur.

İnstitutu yüksək qiymətlərlə bitirmiş Zərifə xanım o illərdə ölkəmizi bürüyən, əhali arasında geniş yayılmış ağır göz xəstəliyi olan traxoma ilə mübarizə aparmağa qoşulur və bu sahədə elmi fəaliyyətə başlayır, aspiranturaya daxil olur, praktiki həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını davam etdirir. Beləliklə, müxtəlif göz xəstəliklərinin müalicə və profilaktik tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi axtarışlarını da əvvəlcə traxoma kimi infeksion göz xəstəliyini dərindən öyrənməyə və onun müalicəsinə həsr edir.

Zərifə xanımı göz həkimi olmağa istiqamətləndirmiş və Azərbaycanda tibbin bu sahəsinin özülünü qoymuş, inkişafında böyük rol oynamış Umnisə xanım Musabəyova gənc həkimin gələcəkdə məşhur tibb xadimi olacağını əvvəlcədən duyurdu. Ali məktəbdə aldığı mükəmməl biliklərdən Zərifə xanım kamil göz həkimi kimi görmə qabiliyyətini itirmiş insanlara işıq verir, onların gözlərinin nurunu bərpa edirdi.

Müdriklər deyiblər ki, xoşbəxt o kəsdir ki, ürəyi başqaları üçün də çırpınır: Zərifə xanım da bu qəbildən olan insanlardan idi. Ona elmi, tibbi yardım və məsləhət üçün müraciət edən heç kəsə diqqətsiz, laqeyd yanaşmazdı, bacardığı köməyi göstərərdi, gözü zədələnmiş xəstəyə əlindən gələn bütün biliklərini və ürəyinin hərarətini sərf edərək, görmə qabiliyyətini bərpa edər, bununla da həmin insanlara, sözün əsl mənasında, xoşbəxtlik bəxş edərdi. Odur ki, sadə, nəcib, xeyirxah və mərhəmətli olduğuna görə insanların böyük hörmətini qazanmışdı.

Zərifə xanımın elmdə ilk böyük nailiyyətləri məhz o zaman ölkəmizdə geniş yayılmış traxoma xəstəliyinə qarşı müalicəvi və profilaktik tədbirlərin təşkili sahəsində olur. Görkəmli alimin yaxın rəfiqəsi olan professor Zəhra xanım Quliyevanın dediklərinə görə, o ağır illərdə Zərifə xanım əməkdaşları ilə ucqar kəndlərdə, rayonlarda yaşayan və bu xəstəliyə düçar olmuş insanlarla bilavasitə yerlərdə görüşür, onları təmənnasız müayinə və müalicə edirdi. Bu zaman topladığı zəngin təcrübə onun traxoma xəstəliyinin aradan qaldırılmasına yönəlmiş yeni üsulların, vasitələrin işlənib hazırlanması və tətbiqi üçün dəyərli mənbə idi.

Eyni zamanda traxoma xəstəliyi geniş yayılmış ərazilərdə yaşayan göz həkimləri, xəstələr üçün, ümumiyyətlə, əhali arasında geniş maarifləndirici söhbətlər aparır və bu bəlanın qarşısının alınmasının, profilaktikasının yollarını öyrədir, yorulmadan çalışır, insanların gözlərinin nurunu qaytarırdı.

Minlərlə xəstə üzərində sistemli müşahidələr, müayinələr aparmış Zərifə xanım ilk dəfə olaraq aşkar edir ki, o zaman yeni antibiotik kimi tanınmış sintomisin traxomanın müalicəsində böyük səmərə verə bilər. Odur ki, bu mövzuda məqalələr çap edir, 1960-cı ildə namizədlik dissertasiyasını ərsəyə gətirir və SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə oftalmologiya üzrə tibb elmləri namizədi elmi dərəcəsini alır. Zərifə xanım minlərlə soydaşımızı bu ağır bəladan xilas edir və ölkəmizdə keçici, asanlıqla yayılan xəstəliyin kökünü kəsməyə nail olur. Bu, təkcə tibbi problemin deyil, həm də ağır sosial problemin həlli idi.

Bir sıra ciddi elmi məsələlərlə yanaşı, Zərifə xanım ömrü boyu insanların peşə və iş şəraiti ilə bağlı əmələ gələn göz xəstəlikləri problemlərinə xüsusi diqqət yetirmişdir. Belə ki, o, bir sıra məsələlərə, o cümlədən yod-sənaye müəssisələrində, neft-kimya və başqa sənaye sahələrində çalışan şəxslərin görmə orqanlarına təsir edən

amillərə əsas diqqəti yönəltmiş və dəyərli tövsiyələr vermişdir. Həmin illərdə Zərifə xanım Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində və laboratoriya şəraitində geniş sistemli elmi müşahidələr və təcrübələr aparmışdır. Oftalmologiya sahəsində ilk dəfə imza atmış nəticələri ilə, o cümlədən gözün peşə xəstəlikləri kimi mühüm sahəni dünya səviyyəsində təqdim etmiş və ölkəmizdə geniş praktiki göstəricilərə nail olmuşdu. Alim bu problemin müxtəlif aspektlərinin öyrənilməsində gözəçarpan uğurlar əldə etmişdir. Onların çoxu birbaşa ölkəmizin sənayesi və kənd təsərrüfatı ilə bağlı idi. Belə ki, zərərli iş prosesinin, o cümlədən pambıq yığanların sağlamlığına təsir edən kimyəvi maddələrin minlərlə insanın sağlamlığında törətdikləri fəsadları araşdırıb, bunun qarşısının alınması, xüsusən gözlərin qorunması üçün belə konkret sanitar-gigiyenik tövsiyələri müxtəlif sahələrdə çalışan əməkçilərə çatdırmışdır ki, bu da onların sağlamlığının qorunmasına xidmət etmişdir. Eyni zamanda elmi araşdırmaların yüksək praktiki əhəmiyyətini, səmərəsini şərtləndirmişdir.

Genişmiqyaslı klinik, təcrübi tədqiqatlar nəticəsində Zərifə xanım zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluqlarını müəyyən etmişdir. Bu, oftalmologiya elmində tam yeni nəticə idi. Beləliklə, Zərifə xanım bu sahəni yalnız ölkəmizdə deyil, dünya miqyasında oftalmologiyada ilk dəfə yeni problem kimi qaldırmış və dəyərli elmi-praktiki nəticələrlə həllinə nail olmuşdur.

Zərifə xanımın ən çox yayılmış göz xəstəliyi olan konyuktivit, onun diaqnostikası, müalicəsi, aradan qaldırılması və profilaktikası, yəni yoluxmadan qorunması ilə bağlı çoxsaylı elmi işləri və məqalələri olmuşdur. "Gözünüzü qoruyun: kəskin konyuktivitlər" adlı 1981-ci ildə "Kommunist" qəzetində çap olunmuş maraqlı məqaləsində bu xəstəliyin viruslu formaları haqqında, onların yayılması, fəsadları ilə bağlı geniş maarifləndirici məlumatlar verir və yazırdı: "Bu haqda sanitar gigiyenik əsaslara bütün respublika əhalisinin bələd olması vacibdir". Beləliklə, o, belə hallarda insan gözünün qorunmasının zəruriliyi, qaydaları haqqında geniş məlumat verir, əhalini məsuliyyətlə maarifləndirirdi.

Zərifə xanımın maraqlı geniş biblioqrafiyasını, məqalələrini və çıxışlarının mətnini oxuduqca, həm də həmkarlarından eşitdiklərindən, rəylərindən, aşkar görünür ki, o, həqiqətən, həyatını həsr etdiyi oftalmologiya üzrə alim və praktiki həkim olaraq, həm də tibbin təşkilatçısı və təbliğatçısı kimi geniş intellektə, güclü yaradıcılıq enerjisinə malik bir şəxs idi. Yeni ideyaları, onların gerçəkləşməsinin həllini tapmaq və təcrübədə reallaşdırmaq məharəti yalnız belə xüsusiyyətlərə malik şəxsə mənsub ola bilərdi. Bu haqda çox yazmaq olardı, mən yalnız onun bir neçə xüsusi əhəmiyyət və maraq kəsb edən innovativ, ixtira səviyyəli nəticələrinə diqqəti cəlb etmək istərdim. Bunlar həm də Azərbaycan elminin nüfuzunu dünya səviyyəsinə qaldırmış, dünya elminə dəyərli töhfələr vermişdir.

Azərbaycanda oftalmologiya sahəsində yeni, müasir üsullardan olan iridodiaqnostikanın, yəni gözün selikli qişasında gözün səthinə baxdıqda müşahidə olunan dəyişikliklər əsasında insanın daxili orqanlarında xəstəliyi müəyyən etmək, onun elmi əsaslandırılması və təcrübədə tətbiq olunması üzrə də Zərifə xanımın dəyərli tövsiyələri maraqla qarşılanmış və dəyərləndirilmişdir. Alimin müəllifi olduğu işlərin nəticələri

12 monoqrafiyada, dərslik və dərs vəsaitlərində, 200-ə qədər elmi nəşrdə, bir ixtira və 12 səmərələşdirici təklifdə özünə yer tapmışdır.

Fəaliyyəti dövründə Zərifə Əliyeva həm də praktik həkim kimi uğurlu cərrahiyyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verirdi. Bununla yanaşı, o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarında dinləyici olan həkimlərlə də həm pedaqoji, həm də geniş auditoriyalarda, əhali arasında, icmalarda maarifləndirmə işi aparırdı. Zərifə xanım öz fəaliyyəti və elmi yenilikləri ilə Azərbaycan oftalmologiyasının adını dünyada yüksəklərə qaldırmışdı.

1977-ci ildə onun təşəbbüsü ilə fəal üzvü olduğu, Bakıda Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin ilk plenumu keçirilmişdir. Dünyaşöhrətli alimlərin və mütəxəssislərin iştirak etdiyi bu mötəbər tədbir Azərbaycanda tibb elminin bu sahəsinin gələcəyi, onun inkişafı naminə ən tanınmış elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlanması üçün böyük imkanlar yaratmışdı. Xüsusi əhəmiyyət kəsb edən bu tədbirin ərsəyə gəlməsində Zərifə xanımın uğurlu təşkilatçılıq məharəti Azərbaycan və xarici mütəxəssisləri heyran etmişdir.

Azərbaycan oftalmologiya elminin yüksəlişində böyük xidmətlərin, fundamental elmi əsərlərin müəllifi olan Zərifə xanım gənc alimlərin yetişdirilməsinə yönəlmiş mühüm işlər görmüşdür. Onun tibb elmi və səhiyyə sahəsində çoxşaxəli, səmərəli fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən öz layiqli qiymətini almışdır. Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinin nəticələrinə görə, professor Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Zərifə xanımın fəaliyyətinə daim yüksək qiymət verilmiş, o, bir sıra orden və medallarla təltif olunmuş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Görkəmli alimin əldə etdiyi elmi nəticələr xarici, o cümlədən Rusiyanın bu sahədə aparıcı alimləri tərəfindən oftalmologiya elminin inkişafında hətta dünya əhəmiyyətli yeniliklər kimi tanınmışdır. Bu isə hər alimə nəsib olmur. Elmi nailiyyətlərinə görə Zərifə xanım SSRİ TİBB Elmləri Akademiyasının yüksək M.İ.Averbax adına mükafatı ilə təltif olunmuşdur.

Bu uğurlarının səbəbi isə həm seçdiyi sahə üzrə böyük elmi fəaliyyəti, axtarışları, nəticələri, tapıntıları, həm də bunları təcrübədə tətbiq edib, minlərlə insana gözünün nurunu qaytarması olmuşdur.

Görkəmli oftalmoloq alim Zərifə xanımın həyat amalı və həkim mövqeyi bu gün də bir örnəkdir. O deyirdi: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək, həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

O, hesab edirdi ki, həkim xəstənin ən yaxın dostu olmalıdır.

Bir çox ictimai tədbirdə, o cümlədən tibbi biliklərin təbliğinin təkmilləşdirilməsi mövzusunda respublika elmi-praktik konfransında (1982-ci ildə) əsl həkimin siması haqqında çıxışında öz fikirlərini belə paylaşmışdı: "Həkim yer üzündə həyat naminə, insanın səadəti naminə işləyir, zəhmət çəkir, öz mehribanlığı və həssaslığı, professional biliyi və müstəsna əməksevərliyi, təmənnasızlığı və mənəvi gözəlliyi ilə fərqlənməlidir".

Əgər soruşsalar, həkimin fəal həyat mövqeyi hansı mənəvi bünövrəyə əsaslanır, iki kəlmə ilə belə cavab vermək olar: xəstəyə münasibət bünövrəsinə! Əsl həkim o həkimdir ki, xəstə əzab çəkdikdə o da əzab çəkir, sağalıb həyata qayıdan adamın təbəssümünü özü üçün ən yüksək mükafat sayır...

"Vicdan bizim baş hakimimiz, həkim etikasının başlıca və həlledici cəhətidir. Həkimlə xəstənin qarşılıqlı münasibətidir. Əsl həkimin mənəvi siması yüksək peşə mədəniyyəti və mənəvi mədəniyyətidir, mənəvi paklıq, təmənnasızlıq və vicdanlılıq, fədailikdir". Bunlar Zərifə xanımın ömrü boyu əməl etdiyi həyat kredosu idi.

Zəngin elmi tədqiqatları və elm təşkilatçısı kimi fəaliyyəti ilə yanaşı, Zərifə xanım ölkəmizdə və onun hüdudlarından kənarda da geniş ictimai fəaliyyəti ilə tanınmışdı. O, keçmiş SSRİ Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, "Sovet Sülhü Müdafiə Komitəsinin" üzvü kimi fəaliyyət göstərirdi və bu nüfuzlu qurumlarda Azərbaycanın problemlərini, müharibədən çəkdiyi əzabları, həm də müntəzəm sülh təşəbbüslərini dünyaya çatdırırdı. Zərifə xanım hətta həmin illərdə qadın hərəkatının və sülh hərəkatının ön sıralarında olan ictimai-siyasi xadim kimi nüfuz qazanmışdı.

Zərifə xanımın hər bir əməli onun istedadı, zəhmətsevərliyi, tələbkar, məsuliyyətli, nizam-intizamlı həyatı, insanpərvərliyi və vətənpərvərliyi, bir sözlə, onun fərqli keyfiyyətlər, dəyərlər çələnginin sahibi olan bir şəxs olduğunu təsdiqləyir. Bütün bunlar göstərir ki, geniş elmi, praktiki, ictimai xadim kimi fəaliyyəti ilə yanaşı, Zərifə xanım dəyərli insani keyfiyyətləri ilə də fərqlənirdi. Məhz bu xüsusiyyətlərinə görə Ulu Tanrı Zərifə xanımı fenomenal, dahi şəxs olan Heydər Əliyevin ülvi məhəbbəti ilə mükafatlandırmış və dahiliyindən ona pay vermişdir.

Müstəqil dövlətimizin banisi, xalqımızın Ulu Öndəri, dünyaşöhrətli dövlət və siyasi xadim, ölçüyəgəlməz xidmətləri olan şəxsin ömür-gün yoldaşı olsa da, Zərifə xanım təvazökarlığı, danışığı, nitq mədəniyyəti, sadəliyi, insanlarla davranışı, seçdiyi insani dəyərlərə daha məsuliyyətlə yanaşması ilə fərqlənirdi.

O, ömür-gün yoldaşına sədaqətli, vəfalı dost, övladlarına, ailəsinə, nəvələrinə mehriban və qayğıkeş ana, nənə, xalqına müzəffər sərkərdə bağışlayan ana kimi insanların böyük hörmətinə malik idi. Zərifə Əliyeva Heydər Əliyevin məsləkdaşı və etibarlı dayağı olmuşdur. Zərifə Əliyeva Heydər Əliyevlə birgə həyatını sevərək və sevilərək yaşamışdır. Bu haqda Ulu Öndər özü belə demişdir: "O, yaxşı ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri cəm halda özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr verən həkim-oftalmoloq idi".

O, bəzən ağır iş günündən sonra ağıllı, təmkinli məsləhətləri, təbəssümü, xoş sözləri ilə Heydər Əliyevin əhvali-ruhiyyəsində gərginliyi aradan qaldırmağı bacarırdı, onun sağlamlığını qoruyurdu.

Ailə üzvlərinin xatirələrinə görə, o, evdə hər zaman yüksək əhvali-ruhiyyə, mehribançılıq yaradırdı.

Zərifə Əliyeva Azərbaycan dövlətinə, xalqına iki Prezident bəxş etmiş ailənin xanımı olmuşdur. O həm Ulu Öndər Heydər Əliyevin həyat yoldaşı, həm də müzəffər Prezidentimiz İlham Əliyevin anası olaraq ailənin möhkəm və uzunömürlülüyünün qarşılıqlı məhəbbət, sədaqət, əqidə və saflıq üzərində qurulmuş zəmanəti olmuşdur.

Ulu Öndərin Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədə çox kövrəkliklə söylədiyi kimi: "...Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır..."

Cənab İlham Əliyev anasının 90 illik yubileyində bu sözləri demişdi: "Zərifə xanım böyük lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər, əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə - Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin - birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi".

Zərifə xanımın fəaliyyəti hər zaman insanlara yönəlmiş xeyriyyəçiliklə bağlı olub. Onun simasında yüksək mədəniyyət, əsl ziyalılıq, alicənablıq - bütün bu gözəl amillər birləşmişdi. Tam əminliklə demək olar ki, Zərifə

Əliyeva Azərbaycan xanımına xas olan bütün xüsusiyyətləri özündə toplamışdır. Milli dəyərlərimizə əsaslanmış ailə ənənələri, bir-birinə ən çətin gündə belə dayaq olmaq bu gün də hər bir azərbaycanlı ailəsi, xüsusilə də gənc ailələr üçün böyük örnək və kamillik məktəbidir.

Təəssüf ki, Zərifə xanımın həyatı çox uzun sürmədi, tez qırıldı. Lakin o, qısa dövrdə böyük ömürlərə sığmayan şərəfli və mənalı bir həyat yaşadı. Onun əməlləri, adı bu gün də nəinki yaxınlarının və həmkarlarının, hər bir soydaşımızın xatirəsində qalır. Bu gün də Zərifə xanımın vaxtilə yaşadığı küçə, Azərbaycana böyük töhfəsi olan Milli Oftalmologiya Mərkəzi, paytaxtda və regionlarda bir çox təhsil və səhiyyə ocaqları onun adını daşıyır.

Azərbaycanı dünyada tanıdan, ölkəmizin hərtərəfli uğurlu inkişafına nail olan və bayrağımızı daim zirvələrdə yüksəldən möhtərəm Prezidentimiz İlham Əliyevin insanlara yönəlik fəaliyyəti, vətənpərvərliyi, insanpərvərliyi, ailəsinə münasibəti də şübhəsiz ki, valideynlərinin təsiri altında yetişməsi olmuşdur.

Heydər Əliyev və Zərifə Əliyevanın - bu dahi şəxsiyyətlərin varisi olan, müstəqil dövlətin yaranmasında və inkişafında ölçüyəgəlməz xidmətlərinin şah əsəri - dünyaya bəxş etdikləri, zəngin genetik köklərin varisi İlham Əliyev xalqımızın ümid çırağı kimi Prezident vəzifəsində işğalda qalmış torpaqlarımızı azad etdi, ərazi bütövlüyümüzün bərpasına nail oldu və atasının məzarı önündə "Mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim" deyərək, valideynlərinin ruhunu, xalqımızı bir daha şərəfləndirdi.

Adlarını Azərbaycan tarixinə yazmış Heydər Əliyev və Zərifə Əliyeva əbədiyyət haqqını qazanmışlar.

Bu ailənin ənənələrini yaşadan, səhiyyəmizin, təhsilimizin, mədəniyyətimizin inkişafına böyük töhfələr verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti də xalq tərəfindən yüksək qiymətləndirilir. Tanınmış ailənin övladı və daha sonra belə nüfuzlu bir ailənin gəlini olan Mehriban xanımın bugünkü geniş, çoxşaxəli fəaliyyəti də müasir dövrdə Azərbaycan xanımının simasını dünyaya layiqincə tanıdır.

Bakıdakı Fəxri xiyabanda Zərifə xanımın sanki arxasında dağ kimi durmuş Heydər Əliyevin əzəmətli abidəsi xalqımızın və şəhərimizin müxtəlif ölkələrindən gələn çoxsaylı xarici qonaqların ziyarətgahına çevrilmişdir.

Bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz əbədiyaşarlıq haqqını qazanmış Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva nəsil-nəsil hər bir azərbaycanlının ürəyində silinməz iz qoymuşlar. Bu dahilər daim fəxrlə ürəklərimizdə yaşayacaqlar.

**Azərbaycan.** - 2023.- 28 aprel. - № 86. - S. 6.

# Azərbaycan oftalmologiya elmi məktəbinin banisi

**İsa Həbibbəyli,**
AMEA-nın prezidenti, Milli Məclisin deputatı

**Görkəmli elm xadimi, Azərbaycan oftalmologiya elmi məktəbinin banisi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illik yubileyi ölkəmizdə geniş şəkildə qeyd edilməkdədir. Azərbaycan Milli Elmlər Akademiyası akademik Zərifə xanım Əliyevanın yubileyini onun təbabətin inkişafı sahəsindəki böyük xidmətlərinin elmi cəhətdən qiymətləndirilməsi ilə yanaşı, Azərbaycan tibb elminin inkişaf etdirilməsinə verdiyi böyük töhfələrlə əlaqədar olaraq həm də müasir dövrdə elmin təntənəsi səviyyəsində qeyd edir.**

Akademik Zərifə xanım Əliyeva şərəfli və mənalı bir həyat yolu keçmişdir. O, Azərbaycanın görkəmli dövlət xadimi və elm xadimi Əziz Əliyevin ailəsində mükəmməl tərbiyə məktəbi keçmiş, Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunda yüksək səviyyədə ali təhsil almışdır. Praktik göz həkimi kimi fəaliyyətə başlayan Zərifə xanım Əliyeva həm də ardıcıl olaraq elmi fəaliyyətlə məşğul olmuş, aktual mövzularda namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş, elm sahəsində Azərbaycan Milli Elmlər Akademiyasının akademiki səviyyəsinə qədər yüksəlmişdir. O, keçmiş Sovetlər İttifaqı miqyasında və onun hüdudlarından kənarlarda tibb elminə mühüm yeniliklər gətirmiş görkəmli elm xadimi kimi tanınmış və qəbul olunmuşdur.

Akademik Zərifə xanım Əliyevanın fəaliyyəti çoxcəhətli olub, tibb elminin, həkimlik peşəsinin və ictimai fəaliyyətin müxtəlif sahələrini əhatə edir. Məşğul olduğu sahələrin hər birində o, yüksək professionallıq və Azərbaycan xalqına məxsus olan əsl vətəndaşlıq nümunəsi göstərmişdir.

Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, Azərbaycan tibb elmi uzun illər ərzində əsasən müalicə, terapiya və cərrahiyyə sahələri üzrə ixtisaslaşmışdır. Ölkəmizdə neyrologiya, göz xəstəlikləri, onkologiya və sair kimi istiqamətlər üzrə həm təbabət elmi, həm də müalicə işi XX əsrin altmışıncı-yetmişinci illərindən etibarən inkişaf etməyə başlamışdır. Xüsusən oftalmologiya bu dövrdə nisbətən geridə qalmış sahələrdən biri idi. Məhz görkəmli elm xadimi, akademik Zərifə xanım Əliyevanın səmərəli elmi və praktik fəaliyyəti ilə Azərbaycan göz xəstəlikləri sahəsində ilkin tibbi müalicələr aparan respublikadan inkişaf etmiş əsas elmi-tibbi mərkəzlərdən birinə çevrilmişdir.

Zərifə xanım Əliyevanın həkim kimi səmərəli və yorulmaz fəaliyyəti sayəsində göz xəstəlikləri üzrə Azərbaycandan digər müttəfiq respublikalara getməyə məcbur olan xəstələrin axını dayandırılmışdır. Zərifə xanım Əliyeva geniş yayılmış göz xəstəliklərinin, traxomanın müalicəsi üçün regiondan paytaxta axının da qarşısını almışdır. Onun rəhbərliyi ilə traxoma üzrə ixtisaslaşmış həkim heyətləri Azərbaycanın regionlarına gedərək yerlərdə xəstələrə lazımi yardımlar göstərmişdir. Zərifə xanım Əliyevanın başçılıq etdiyi həkim heyətləri Gəncə şəhəri, Əli Bayramlı (indiki Şirvan - İ.H.) və Salyan rayonlarında mütəşəkkil surətdə traxoma ilə mübarizənin əsl nümunəsini göstərmişlər. Onun traxoma ilə mübarizə aparan tibb briqadasının Bakı şəhərində və kəndlərində, Abşeron rayonunda və digər rayonlarda apardıqları müalicə işləri minlərlə insan tərəfindən yüksək minnətdarlıqla qarşılanmışdır. Bundan başqa, akademik Zərifə xanım Əliyeva ilk dəfə olaraq Bakı şəhərinin sənaye müəssisələrində göz xəstəliklərinin müalicəsini və araşdırılmasını aparan xüsusi bir laboratoriya yaratmış və bu yolla istehsalat sahəsi ilə təbabət elmi arasındakı baryeri də aradan qaldırmışdır. Beləliklə, Zərifə xanım Əliyeva özünün fədakar zəhməti ilə xalqın gözü önündə əsl xalq həkimi adını və nüfuzunu qazanmağı bacarmışdır.

Akademik Zərifə xanım Əliyeva keçmiş Sovetlər İttifaqında və onun hüdudlarından kənarda oftalmologiya elminin yeni bir sahəsini -peşə xəstəlikləri elmi istiqamətini yaradan elm xadimi kimi qəbul edilir. Akademik Zərifə xanım Əliyevanın peşə xəstəliklərinə həsr olunmuş qiymətli elmi əsərləri oftalmologiya elmində əsl peşəkarlıq, professionallıq nümunəsi olan nəzəri-praktik təlimdir. O, xüsusən kimya sənayesi kimi göz xəstəlikləri üçün həssas olan istehsalat müəssisələrində apardığı təcrübələr əsasında yaranan peşə xəstəliklərinin sirlərini Bakı Şin zavodunda, ölkəmizin kimya-texnologiya müəssisələrində təşkil etdiyi müalicə-diaqnostika laboratoriyası vasitəsilə real surətdə araşdırıb öyrənmiş, elmi cəhətdən əsaslandırılmış diaqnostika əsasında uğurlu müalicə işlərini təşkil etmişdir. Onun peşə xəstəliklərinə həsr olunmuş və təcrübədə təsdiq edilmiş doktorluq dissertasiyası da təcrübi materiallarla elmi-nəzəri təhlillərin vəhdəti əsasında yazılmış mükəmməl elmi əsər kimi qəbul edilmişdir. Görkəmli alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliklərinin profilaktikası" kimi monoqrafik tədqiqatları nəinki Azərbaycanda, keçmiş Sovetlər İttifaqında təbabətin istehsalatla əlaqələri əsasında yazılmış əhəmiyyətli elmi əsərlərdir. Zərifə xanım Əliyevanın göz xəstəliklərində irsiyyət məsələlərinə dair müşahidələri və qənaətləri də tibb elmi üçün mühüm yeniliklərdən biridir. Bundan başqa, Zərifə Əliyeva "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi

müalicəsi", "Göz yollarının qoruyucu cərrahiyyə üsulları" kimi əsərləri ilə oftalmologiyanın bu istiqaməti üzrə də yüksəkixtisaslı həkim və alim olduğunu nümayiş etdirir. Zərifə xanım Əliyeva "Şəkərli diabetdə göz xəstəlikləri" əsəri ilə oftalmologiyada fərqli bir elmi istiqamətə də imza atmışdır.

Oftalmologiya sahəsində Azərbaycan elmi məhz akademik Zərifə xanım Əliyevanın xidmətləri sayəsində əsas mərkəzlərdən biri kimi tanınmışdır. Akademik Zərifə xanım Əliyeva Azərbaycan oftalmologiya elmini keçmiş SSRİ-də ad qazanmış Moskva və Peterburq məktəbləri səviyyəsinə qaldırmışdır. Göz xəstəliklərinin aktual problemlərinə həsr edilmiş böyük elmi forumların Bakı şəhərində keçirilməsi, tanınmış dünya oftalmoloqlarının Azərbaycanda təşkil olunan beynəlxalq səviyyəli elmi tədbirlərdə görüşüb müzakirələr aparmaları akademik Zərifə xanım Əliyevanın oftalmologiya elmi sahəsində qazandığı böyük nüfuzun real təcəssümüdür.

XX əsrin yetmişinci illərində Azərbaycan Elmlər Akademiyasının Abdulla Qarayev adına Fiziologiya İnstitutunda yaratdığı laboratoriya və Bakı Şin zavodunda və Məişət Kondisionerləri zavodunda təşkil etdiyi müalicə-diaqnostika laboratoriyaları dünya tibb elmində analoqu olmayan nadir göz xəstəlikləri tədqiqatları mərkəzləri olmuşdur. Göz xəstəliklərinin araşdırılıb öyrənilməsinin Səhiyyə Nazirliyindən Elmlər Akademiyasına və istehsalat müəssisələrinə daşınması nəinki Azərbaycanda, geniş mənada Sovetlər İttifaqında akademik Zərifə xanım Əliyevanın adı ilə bağlıdır. Beləliklə, akademiyanın 1979-cu ildə Fiziologiya İnstitutundakı akademik Zərifə Əliyeva tərəfindən yaradılmış "Görmə orqanının peşə patologiyası və fiziologiyasının problemləri" laboratoriyasında alınan fundamental elmi nəticələr təcrübi xarakter daşıyaraq oftalmologiya sahəsinə akademik ağırlıq gətirmişdir. Bütün bunlarla, yəni Azərbaycanın regionlarında göz xəstəliklərinin müalicəsini təşkil etməklə, sənaye müəssisələrində müalicə-diaqnostika üçün münasib imkanlar yaratmaqla, təbabət mövzusunu akademik elmi mühitə gətirməklə, həmin istiqamətlərdəki çoxcəhətli elmi-praktik fəaliyyəti ilə akademik Zərifə xanım Əliyeva həyat yoldaşı - o illərdə Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri kimi ölkəmizi hərtərəfli şəkildə inkişaf etdirmək uğrunda qətiyyətlə mübarizə aparan görkəmli dövlət xadimi Heydər Əliyevin əsl silahdaşı olduğunu da gerçək surətdə meydana qoymuşdur.

Peşəsinə sədaqətlə xidmət edən Zərifə xanım Əliyeva ailə həyatında və Azərbaycan cəmiyyətində hər addımda əsl sədaqət nümunəsi nümayiş etdirmişdir. Zərifə xanım Əliyeva dünyaşöhrətli görkəmli dövlət xadimi Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, layiqli silahdaşı olmağın əsl nümunəsini göstərmişdir. Ulu Öndər Heydər Əliyev kimi misilsiz Ata ilə bərabər, Zərifə xanım Əliyeva dünya liderlərindən biri olan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kimi övladı ölkəmizə bəxş etmiş əsl Ana olmağın da ucalığına və əlçatmazlığına nümunə olmuşdur. Müasirləri onu insanlara münasibətdə sadəlik, nəzakət, ehtiram və səmimiyyət nümayiş etdirən qayğıkeş insan kimi səciyyələndirirlər. Məqalələri əsasında sonradan, 2003-cü ildə çap edilmiş "Yüksək əqidə: həkimlik etikası, həkim ürəyinin və fikirlərinin paklığı" kitabı Zərifə xanımın əsl həkim kimi obrazını canlandırmaqla bərabər, həm də onun gələcək həkimlərə çağırışlarını və şəxsən özünün əqidə bütövlüyünü də diqqətə çatdırır.

Ölkəmizin elmi ictimaiyyəti Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanı həm də tanınmış ictimai xadim kimi böyük ehtiramla xatırlayır. Sülhü Müdafiə Komitəsi, Bilik Cəmiyyəti və Oftalmoloqların Elmi Cəmiyyəti xətti ilə gördüyü işlər, həyata keçirdiyi tədbirlər onun çoxcəhətli elmi-ictimai fəaliyyətinin pozulmaz izlərini indi də yaşadır. Elmi fəaliyyətində olduğu kimi, ictimai fəaliyyətində də Zərifə xanım Əliyeva əsl vətəndaş azərbaycanlı mövqeyindən çıxış etmişdir. Elmdə də, həyatda da və ictimai fəaliyyətdə də görkəmli dövlət xadimi Heydər Əliyevin idealları və azərbaycançılıq ideyası həmişə onun idealını müəyyən etmişdir.

Geniş elmi pedaqoji və ictimai fəaliyyətə malik olan akademik Zərifə xanım Əliyevanın xidmətləri yüksək qiymətləndirilmişdir. Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuş akademik Zərifə xanım Əliyeva elm sahəsində əldə etdiyi mühüm elmi nəticələrlə SSRİ Tibb Elmləri Akademiyasının Averbax mükafatının da Azərbaycana gətirilməsinin mümkünlüyünü isbat etmişdir. O, Averbax mükafatına layiq görülmüş ilk qadın oftalmoloq kimi də tarixə düşmüşdür. Zərifə xanım Əliyeva Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Görkəmli oftalmoloq alim, tanınmış ictimai xadim Zərifə Əliyevanın adı Azərbaycanda əbədiləşdirilmişdir. Bu gün akademik Zərifə xanım Əliyevanın adını daşıyan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Oftalmologiya Mərkəzi ölkəmizdə nüfuzlu tibb müəssisələrindən və göz xəstəlikləri üzrə əsas elmi mərkəzlərdən biri kimi qəbul edilir. Azərbaycan Milli Elmlər Akademiyasında akademik Zərifə Əliyeva adına mükafat təsis edilmişdir. Bakı şəhərindəki ən böyük küçələrdən biri və məktəb-lisey Zərifə xanım Əliyevanın adını daşıyır. Bu gün Müstəqil Azərbaycan Respublikasında göz xəstəlikləri elminin irəliyə doğru atdığı addımlar milli oftalmologiya elmi məktəbinin banisi, akademik Zərifə xanım Əliyevanın davam etməkdə olan elmi ideyalarının əks-sədasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 3 noyabr 2022-ci il tarixli sərəncamı yeni nəsillərin akademik Zərifə xanım Əliyevanın nümunəsində tərbiyə olunmasına, peşəkar həkim və professional alim kimi formalaşdırılmasına, tibb elmində

mütərəqqi elmi ideyaların davam etdirilməsinə dövlət səviyyəsində göstərilən böyük qayğının daha bir əyani ifadəsidir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tale yoldaşı və mübarizədə silahdaşı olan Zərifə xanım Əliyevanın çoxcəhətli fəaliyyətinə, elmi xidmətlərinə və mənəvi dəyərlərinə yüksək qiymət vermişdir: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna həsr etmişəm... Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam... O, bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi... Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə bir insan idi".

Ölkəmizin Prezidenti İlham Əliyev də görkəmli elm xadimi və ictimai xadim, akademik Zərifə xanım Əliyevanın çoxcəhətli xidmətlərinin nəsillər üçün nümunə olduğunu diqqətə çatdırmışdır: "Zərifə xanım Əliyeva böyük həkim, böyük alim idi.

O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir.

Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir.

Hər bir insan üçün onun valideynləri, onun anası əzizdir, müqəddəsdir... Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur.

Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar və tanımayanlar, haqqında kitablarda, məqalələrdə oxuyanlar da hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır... Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır".

Beləliklə, Heydər Əliyev kimi dünyamiqyaslı görkəmli dövlət xadiminin ömür-gün yoldaşı və silahdaşı, XXI əsrin görkəmli liderlərindən biri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin anası və milli oftalmologiya elminin banisi kimi akademik Zərifə xanım Əliyeva əfsanəyə çevrilərək xalqımızın qəlbində və yaddaşında yaşamaqda davam edir.

**Azərbaycan.** - 2023.- 28 aprel. - № 86. - S. 7.

## Görkəmli alim, dəyərli ziyalı, fədakar ana

**Novruzəli Aslanov,**
Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti

**Bu gün Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 ili tamam olur. Aradan illər ötsə də, Azərbaycan icitmaiyyəti Zərifə Əliyevanı görkəmli alim, öz peşəsinə sadiq həkim, fədakar ana və dəyərli ziyalı kimi hər zaman dərin ehtiramla xatırlayacaq.**

XX əsrdə böyük inkişaf yolu keçmiş Azərbaycan tibb elminin və milli səhiyyəmizin əldə etdiyi uğurlarda Zərifə xanım Əliyevanın tarixi və əvəzolunmaz xidmətləri var. Onun oftalmologiyanın müxtəlif istiqamətləri üzrə apardığı tədqiqatlar və ortaya qoyduğu fundamental elmi nailiyyətlər respublikamızda tibb elminin parlaq bir salnaməsini təşkil edir. Elmi tədqiqatlarının nəticəsi olaraq yaratdığı mükəmməl müalicə metodu ilə respublikamızda traxoma infeksion xəstəliyinin kökünün birdəfəlik kəsilməsi Zərifə Əliyevanın tibb elminə gətirdiyi ilk yenilik idi. Ötən əsrin ortalarında respublikamızda geniş yayılmış, hətta tam korluğa səbəb olan traxoma xəstəliyinin qarşısının alınması məhz Zərifə Əliyevanın adı ilə bağlıdır.

Sonrakı dövrdə Zərifə Əliyeva göz xəstəlikləri ilə bağlı elmi araşdırmalarını uğurla davam etdirib, oftalmologiyanın digər aktual məsələlərinə böyük diqqət yetirib. Bunların arasında görmə orqanının iltihabının müalicəsi, eləcə də oftalmologiyanın araşdırılmamış istiqaməti olan görmə orqanının patologiyası kimi problemlərin araşdırılması Zərifə Əliyevanın elmi fəaliyyətində xüsusi yer tutur. Ötən əsrin 60-70-ci illərində ölkəmizdə sənaye müəssisələrinin fəaliyyətində görmə orqanına təsir edən məsələlər məhz Zərifə Əliyeva tərəfindən uğurlu şəkildə tədqiq olunaraq, tibbin oftalmologiya sahəsinə böyük uğurlar gətirib. Xüsusilə qeyd olunmalıdır ki, Zərifə Əliyeva öz elmi araşdırmalarını birbaşa sənaye müəssisələrində həyata keçirir və bu zaman zərərli peşə sahələrində işləyən neçə-neçə insanı həm də müayinə edirdi.

Zərifə Əliyevanın məhz bu istiqamətdə araşdırmaları nəinki Azərbaycanda, bütün keçmiş sovet məkanında oftalmologiyanın inkişafına böyük töhfələr verib. Təsadüfi deyil ki, bu araşdırmalarının nəticəsi kimi Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etdiyi doktorluq dissertasiyası bütün alim-oftalmoloqların yüksək qiymətini almışdı. Prezident İlham Əliyevin "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamında bununla bağlı deyildiyi kimi: "Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır".

Zərifə Əliyevanın Azərbaycanda oftalmologiyanın və bütövlükdə tibb elminin inkişafına verdiyi töhfələr nə qədər misilsiz və əvəzolunmazdırsa, onun bir həkim kimi fəaliyyəti də bir o qədər nümunəvi olmaqla, ən yüksək mənəvi keyfiyyətlərə söykənir. Qələmə aldığı "Yüksək əqidə" adlı kitabında özünün də qeyd etdiyi kimi, xəstəlik fiziki cəhətdən nə qədər mürəkkəbdirsə, xəstənin ruhi aləmi də o qədər incə, nazik olur. Kömək etmək və onu qala kimi möhkəmlətmək üçün həkim ürəyinin atəşini və öz gücünü əsirgəməməlidir. Bu baxımdan Zərifə xanım Əliyevanın həkimlik fəaliyyətində xalqımıza, Azərbaycan qadınına məxsus ən gözəl mənəvi keyfiyyətlər daim özünü qabarıq şəkildə göstərib. Zərifə xanımla bağlı xatirələrlə tanış olduqda görürük ki, o, göz xəstəliyindən əziyyət çəkənlərə yalnız həkim kimi münasibət göstərməyib. Zərifə Əliyeva həm də onların dərdinə şərik olub, ümidsizliyə qapılmağa qoymayıb, pasiyentlərə bu cür yanaşmağı özünün peşə borcu və mənəvi vəzifəsi hesab edib. Ona müraciət etmiş insanlara nur bəxş edəndə isə özünü xoşbəxt insan sanıb. Zərifə xanım həyat yolunda mərhəməti özünün mayakı sanıb, insanların gözünə, könlünə nur çiləyərək neçə-neçə zülmət dünyalara ziya bəxş edib. Öz kitabında bu məsələlərə toxunan Zərifə xanım Əliyeva yazır: "Vicdan bizim əsas hakimimizdir. Çətin dəqiqələrdə də, xoşbəxt saatlarda da onunla baş-başa qalanda o, soruşur: Ağ xalat geyinməyə haqqın varmı? Sənin əllərin xəstəlikdən əziyyət çəkənə yalnız biliyini deyil, həm də qəlbinin həyəcanını, ürəyinin yanğısını çatdıra bildimi? Düzünü desək, vicdanın şəxsi mühakiməsindən şərəflə keçmək böyük xoşbəxtlikdir. Yaxşı həkim həmişə xəstə ilə birlikdə həyəcan keçirir, pasiyentin ağrısı elə həkimin şəxsi ağrısıdır. Əgər sağlamlığını itirən şəxs yenidən ona malik olursa, demək, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır". Elə bu sözlər Zərifə Əliyevanın bir həkim, bir insan kimi nə qədər yüksək mənəvi dəyərlərə sahib olduğunu göstərir.

Bəli, Əziz Əliyev kimi görkəmli dövlət və elm xadiminin övladı, onun şəcərəsinin davamçısı elə bu cür də olmalı idi. Həyatının hər bir anı müdriklik məktəbi olan görkəmli alim xeyirxahlığı, nəcibliyi, əməksevərliyi, insansevərliyi, elmə və həkimlik peşəsinə bağlılığı ilə Əziz Əliyevin yolunu layiqincə davam etdirirdi. Eyni

zamanda özünün yüksək mənəvi keyfiyyətləri və insanpərvərliyi ilə, Azərbaycan tibb elminin və səhiyyəsinin inkişafına verdiyi misilsiz töhfələrlə, o cümlədən ictimai fəaliyyətilə Zərifə xanım Əliyeva həm də ömür-gün yoldaşı Heydər Əliyevin respublikamızın yüksəlişini təmin edən siyasi kursunu uğurla tamamlayırdı.

Görkəmli alim Zərifə Əliyeva həm də nəcib azərbaycanlı xanımı kimi yüksək ailə dəyərlərinin daşıyıcısı idi. Bu baxımdan Zərifə xanım həm nümunəvi həyat yoldaşı, həm də cəfakeş ana idi. Bu gün Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, bizi müharibədə qalib gəlmiş xalq kimi qürurlandıran, ərazi bütövlüyümüzü bərpa edən möhtərəm Prezident İlham Əliyevin malik olduğu yüksək mənəvi keyfiyyətlər də Heydər Əliyev və Zərifə Əliyeva dünyasından ilhamlanır. Xatirələrdən də oxuyuruq ki, həm elmi yaradıcılıq, həm də həkimlik fəaliyyəti ilə əlaqədar gərgin iş qrafikinin olmasına rəğmən Zərifə Əliyeva övladlarının təlim-tərbiyəsinə daim xüsusi diqqət yetirib. O, malik olduğu gözəl xüsusiyyətləri, insanlara sevgi ilə yanaşmağı, vətəni ucaltmağı övladlarına da aşılayıb. Ulu Öndər Heydər Əliyev Zərifə xanımla bağlı deyib: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib". Ümummilli Liderimizin bu fikirləri həm də onun ailəsinin timsalında əsl azərbaycanlı ailəsinin dolğun obrazını yaradır.

Akademik Zərifə Əliyevanın adı xalqımızın yaddaşına, Azərbaycanın elm tarixinə əbədi həkk olunub. Çünki elm dühası, həkim, ictimai xadim və bir ziyalı kimi onun həyat kredosu yalnız və yalnız vətəninə və xalqına xidmət etmək olub. Bu missiyasında Zərifə Əliyeva öz elmi yaradıcılığı, həkimlik fəaliyyəti ilə qarşısına qoyduğu məqsədlərə inamla, qətiyyətlə çatıb. Ona görə Zərifə Əliyevanın işıqlı ömür yolu hər birimiz üçün əsl nümunədir, həyat dərsidir.

Anadan olmasının 100 illiyində bir daha mənəvi kamillik mücəssəməsi olan Zərifə Əliyevanı dərin hörmətlə anır, əziz xatirəsini ehtiramla yad edirik.

**Azərbaycan.** - 2023.- 28 aprel. - № 86. - S. 7.

## Zavodda... oftalmologiya laboratoriyası

### Bunu böyük alim Zərifə Əliyeva fəhlələrin gözlərinin sağlamlığı üçün yaratmışdı

**Flora Sadıqlı**

**O illər Bakı Məişət Kondisionerləri Zavodunda fəaliyyət göstərən bu laboratoriya böyük marağa səbəb olmuşdu. Laboratoriyanı Zərifə xanım Əliyeva yaratmışdı. İstedadlı həkim və görkəmli alim burada peşə ilə əlaqədar istehsalatda əmələ gələn göz xəstəliklərinin öyrənilməsi ilə bağlı tədqiqatlarını davam etdirirdi.**

Ən diqqətçəkən isə o idi ki, Zərifə xanım burada təkcə tədqiqat aparmaqla kifayətlənmirdi. Bununla yanaşı, bilavasitə müalicə işləri ilə də məşğul olurdu. Peşə ilə bağlı görmə qabiliyyəti zəifləyənlərə bir həkim kimi lazımi köməyi göstərirdi.

Zərifə Əliyevanın bu tədqiqat mərkəzi o zamanlar Ulu Öndərin təşəbbüsü və səyi ilə tikilmiş şan-şöhrətli Kondisionerlər Zavodunun ayrılmaz bir hissəsinə çevrilmişdi. Müəssisədə çalışan əməkçilər isə geniş ürəyə, sonsuz mərhəmətə sahib olan bu xeyirxah insanı, böyük alimi və həkimi doğma, əziz insan kimi sevmişdilər.

Əslində, oftalmoloq-alim peşə ilə əlaqədar əmələ gələn göz xəstəlikləri problemi ilə xeyli vaxt idi ki, məşğul olurdu. 1968-ci ildən başlayaraq həmin dövrə qədər çox az tədqiq olunmuş bu məsələ ilə bağlı elmi araşdırmalar aparırdı. Bunun üçün o, yod sənayesi, neft-kimya müəssisələrində çalışan əməkçilərin görmə orqanına təsir göstərən amillərə xüsusi diqqət yetirərək onları mütəmadi müşahidə edirdi.

Təbii ki, bu problem üzərində işləyərkən alim sənaye müəssisələrinə gedir, zərərli sahələrdə işləyən insanların gözlərini müayinədən keçirirdi. Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrində, o cümlədən şin zavodunun istehsal sahələrində laboratoriya şəraitində tədqiqatlarını davam etdirirdi. Beləliklə, ardıcıl tədqiqatlar alimə zərərli maddələrin görmə orqanına necə və hansı dərəcədə təsir etdiyini aşkara çıxarmağa imkan vermişdi.

1976-cı ildə Zərifə Əliyeva H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanlarının vəziyyəti" adlı doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir. Bu, alimin uzunmüddətli elmi araşdırmalarının nəticəsi idi. Belə ki, o, tədqiqatları zamanı şin və yod istehsalı sahəsində çalışan 1500-dən çox insanın gözlərində müşahidələr aparmış, spesifik iş şəraitinin, sanitar-gigiyenik durumun görmə orqanlarına mənfi təsirini elmi dəlillərlə sübuta yetirmişdi. Təsadüfi deyil ki, həmin elmi iş alim-oftalmoloqlar tərəfindən yüksək qiymətləndirilmiş, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilmişdir.

Qeyd edək ki, Zərifə xanım Əliyeva oftalmologiyanın qlobal problemlərinin elmi həlli üçün bir sıra konkret təşəbbüslərlə çıxış etmişdir. 1974-cü ildə alimin təklifi ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Belə bir tədbir respublikamızda ilk dəfə idi baş tuturdu. Zərifə xanım bu tədbirin yüksək səviyyədə keçməsi üçün gərgin zəhmət və böyük təşkilatçılıq bacarığı nümayiş etdirmişdir.

Plenum professor Zərifə Əliyevanın Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşmış elmi-tədqiqat laboratoriyasının yaradılması barədə təşəbbüsünü də bəyəndi. Zərifə xanımın elmi nailiyyətlərinin bir çoxu Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutu ilə bağlı olduğundan onun təklif etdiyi laboratoriya da 1979-cu ildə orada yaradılmışdı. Bu laboratoriya Azərbaycan oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi sayılırdı. Laboratoriyanın tədqiqat bazası kimi isə Bakı Məişət Kondisionerləri Zavodu seçilmişdi...

İllər keçir. Tibb elminin bütün sahələri, o cümlədən oftalmologiya daha da inkişaf edir, təkmilləşir. Akademik Zərifə xanım Əliyevanın elmi ənənələri də yaşayır, davam edir, zamanla birlikdə irəliyə, gələcəyə gedir...

**Azərbaycan.** - 2023.- 28 aprel. - № 86. - S. 8.

## Şəfqət işığına bürünən nurlu insan

**Züleyxa Əliyeva**

**Şəfqətli həkim, qaygıkeş ana, mehriban həyat yoldaşı...**

Bu keyfiyyətlərin daşıyıcısı Zərifə xanım Əliyevadır - Azərbaycanın dövlət və elm xadimi Əziz Əliyevin sevimli qızı, müstəqil Azərbaycanın banisi, Ulu Öndər Heydər Əliyevin ömür-gün dostu, Müzəffər Ali Baş Komandan, Azərbaycan tarixinə zəfər yazmış Prezident İlham Əliyevin əziz anası, Azərbaycan xalqının qeyrətli, şərəfli və şöhrətli qızı, gözlərə nur paylamış, özü nurdan yoğrulmuş alim, həkim, əsl insan, şəxsiyyət.

Bunlar Zərifə xanımın taleyinə yazılan qismətdir, Tanrı payıdır. Bu qismət, bu pay hər insana eyni vaxtda nəsib olmur. Nəsib olsa belə hər qadın da bu qədər sanballı, bu qədər ağır çəkili "yük"ü daşıya bilməz. Bunun üçün qadın özü sanbal sahibi olmalı, şərəf və ləyaqətin ağır çəkisini asanlıqla götürə bilən xanım olmalıdır. Zərifə xanım məhz bu cür - mənən səxavətli, zəngin və dəyərli olub.

Zərifə Əliyevanı yaxından tanıyanlar onun haqqında o qədər xoş sözlər, mehriban ifadələr söyləyirlər ki, insan dinlədikcə ruhu dincəlir. Onun necə romantik bir xanım olduğunu, musiqini sevdiyini, pianoda çox gözəl ifa etdiyini, hətta institut illərində tələbə məclislərində məlahətli səslə mahnılar oxuduğunu deyirlər. Bu keyfiyyətləri o, dövrünün görkəmli söz və sənət adamlarının əhatəsində böyüdüyü illərdə əxz etmişdi. Çünki Əziz Əliyevin evində həmişə ziyalılar toplaşıb. Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Səməd Vurğun, Qara Qarayev, Bülbül, Niyazi və başqaları Zərifə xanımın dünyagörüşündə rol oynayan insanlar olub.

Zərifə xanım kimi mərd, dəyanətli qadınlarımızın cəfakeşliyini görən oğullarımız deyib ki, hər bir qüdrətli, hünərvər kişinin arxasında müdrik qadın dayanır. Tarixin daşlaşmış, yaddaşlaşmış vərəqlərində Tomris ananın, Burla Xatunun, Sara xanımın, Tuti Bikənin, Məhsətinin, Natəvanın adlarını oxumaq kifayətdir ki, bu gün inamla deyək: bizim kim olduğumuzu, haradan gəlib haraya getdiyimizi təsdiqləyən Əliyevlər şəcərəsinin etibarlı bəndləri, körpüləri bu gün də yaşamaqda, var olmaqdadır. Zərifə xanım bu tarixi köklər üzərində pərvəriş tapan bir nəslin, bir ailənin övladıdır, yetirməsidir.

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva... Bu adlar çəkiləndə iki şəxsiyyətin bir-birinə olan sevgisindən yaranan məhəbbət dastanı yada düşür, ilahi sevginin mükəmməl nümunəsi göz önünə gəlir. Onları bir-birinə bağlayan əbədi eşq mənəviyyat tariximizdə nəsillərə örnək ola biləcək duyğu idi. Dövlət Təhlükəsizlik orqanlarında çalışan yaraşıqlı, mavi gözlü, ucaboylu, hər zaman uniformada olan Heydər Əliyev gənc həkim Zərifə xanımın diqqətini cəlb etməklə yanaşı, həm də qəlbini ovsunlamışdı. Aralarındakı səmimi və romantik duyğu, mehriban münasibət ailə həyatına gedən yolda əllərindən tutmuşdu. Amma bu əlləri bir-birindən ayırmağa çalışan qüvvələr hələ sağ idi. Stalin və Mircəfər Bağırov Əziz Əliyevin başı üzərində qara bulud olmuşdular. Əziz Əliyevin siyasi elitada hörməti, ictimaiyyət arasında nüfuzu Mircəfərdə paxıllıq və qorxu hissi yaratdığı üçün ona "millətçi" damğası vurmuş, hətta Əliyevlər ailəsini sürgünə göndərmək planı qurmuşdu. Təbii ki, DTK-də çalışan Heydər Əliyevin bu planlardan xəbəri var idi. Ona Əziz Əliyevin evinə gedib-gəlmək qadağan olunmuşdu, qızı ilə görüşmək olmazdı. Mircəfərin tapşırığını yerinə yetirən DTK rəhbəri demişdi ki, gənc zabit olaraq işini itirə bilər. Amma o, yolundan dönmədi, sevdiyi qızdan ayrılmadı. Çox keçmədi ki, tale bir-birini sevən gənclərin üzünə güldü. İosif Vissarionoviç Stalin öldü, Mircəfər Bağırov da taxtdan düşdü. Gələcək illərdə Azərbaycan tarixində xüsusi xidmətləri olacaq iki gənc evləndi. Qarşılıqlı sevgi üzərində qurulan çox gözəl bir ailə tablosu indi də hər bir azərbaycanlının üzündə səmimi və xoş təbəssüm yaradır.

Zərifə xanım Heydər Əliyevin təkcə həyat yoldaşı deyil, həm də dostu, sirdaşı olub. Üstəlik də ailədə "icra" etdiyi vəzifələrdən başqa öz elmi işini də davam etdirib, göz həkimi olaraq tibbin yollarında çox böyük uğurlara imza atıb. Amma Zərifə xanımın bir qadın olaraq qazandığı ən böyük uğuru ailəsi idi. Bu gözəl xanım həmin qayğını analıq missiyası ilə yerinə yetirirdi. Çünki Zərifə Əliyeva Azərbaycan qadınlığının adına, ünvanına şərəf gətirən, onu ucada tutan xanım-xatın ana idi. Bütün şüurlu həyatını ailəsinə, sənətinə və xalqına həsr edən nümunəvi insan idi. Yaranışdan bəşər qadınına verilən analıq duyğusu qadının həyatına parlaqlıq qatır, onu rəngarəng edir, taleyini mənalı hadisələrlə zənginləşdirir. Zərifə xanım məhz belə zənginliyin daşıyıcısı idi. Sadəliyi, nəcibliyi, mehribanlığı ilə yadda qalan Zərifə xanım Ulu Öndərin həyat yoldaşı kimi onunla çiyin-çiyinə dayanıb, onun şəxsiyyətinin tamlığına xidmət edib. Vaxtilə onun tükənməz enerjisinə, analıq missiyasına həsəd aparanlar olub. Amma kimsə bu həsəddən o yana keçə bilməyib. Çünki bütün üstün keyfiyyətlər ata Əliyevlərdən keçərək, ər Əliyevlərdə tamamlanmışdı.

Övladlarına canı-qanı ilə bağlı olub. Onların orta və ali təhsil almaları üçün var qüvvəsini sərf edib. Bir Azərbaycan qadını və məsuliyyətli ana olaraq ər oğul yetişdirib. Prezident İlham Əliyev bu gün dünyanın hesablaşdığı lider və Azərbaycan tarixinə zəfər yazan Ali Baş Komandan olmaqla yanaşı, anaya dəyər verən, onu sevən, unutmayan, xatirəsini əziz tutan, necə deyərlər, halal süd əmmiş bir oğuldur. Oğullar böyük olanda analar unudulmur. "Mən xoşbəxtəm ki, Zərifə xanım kimi anam olub" sözlərinin müəllifi də məhz həmin ər oğuldur.

Nadir və unikal qadın olaraq övlad tərbiyəsini hər şeydən üstün tutan, bütün dəyərlərdən ucada saxlayan Zərifə xanımın üzündəki səmimi ifadə, xoş təbəssüm, ümid və sevgi dolu baxışlar bütün fotolarında aydın görünür. Hiss olunur ki, həmin sirayətedici təbəssüm ona müraciət edən istər xəstələrin, istərsə də digər insanların ürəyinə qədər gedib, qəlbinə hopub. Şəfqət işığına bürünən nurlu insan olmaq böyük xoşbəxtlikdir. Zərifə xanım bu duyğularını ondan məhrum olanlara səxavətlə paylayırdı.

***Zəriflik, incəlik mənəvi zənginlikdən qidalanır.***
***Ədalət, əqidə saflığı, əsrarəngizlik üstün keyfiyyətdir.***
***Rəhmli, xeyirxah və şəfqətli olmaq Tanrıya yaxınlıqdır.***
***İradəli, səbirli, dözümlü olmaq başucalığıdır, qəlb genişliyidir.***
***Fədakar olmaq xalqa, millətə xidmət göstərməkdir.***
***Əsilzadəlik qan yaddaşında olan ali dəyərdir.***

**Azərbaycan.** - 2023.- 28 aprel. - № 86. - S. 8.

## Vətənin zərif rəmzi

**Yasəmən Musayeva**

**"...Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər, mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir".**

Tanrının dünyaya göndərdiyi seçilmiş və xoşbəxt insanlardan olan akademik Zərifə Əziz qızı Əliyeva haqqında oğlu, Prezident İlham Əliyevin kövrək hisslərlə dilə gətirdiyi fikirlərində olduğu kimi, bu zərif xüsusiyyətli qadın əsl alim ömrü yaşamış, həyatını peşəsinin sirlərini dərindən öyrənməyə həsr etmişdi, amma onun yaşam fəlsəfəsinin əsasını, heç şübhəsiz, yurduna, torpağına bağlılıq, vətəndaşlıq mövqeyi təşkil edirdi.

Humanizmi, mərhəməti, şəfqəti daim həyat bələdçisi sayan, usanmadan insanlara kömək əli uzadan, zülmət dünyalara nur bəxş edən Zərifə xanım heyrətamiz əzmlə bu qədər çətin və məsuliyyətli işlərin öhdəsindən mükəmməl şəkildə gəlirdi. Zərif çiyinlərində bir qadın, həyat yoldaşı, həkim, alim, ictimai xadim məsuliyyətini şərəflə daşımağı bacaran bu nəcib azərbaycanlı xanım həm də qayğıkeş ana idi. Zərifə xanım əsilzadə bir ailənin üzvü olmasından, karyerasında fəth etdiyi zirvələrdən, ən ümdəsi dövlətə rəhbərlik edən Heydər Əliyev kimi bir şəxsiyyətin həyat yoldaşı, yəni ölkənin birinci xanımı olmaq kimi yüksək statusundan asılı olmayaraq, evində sadəcə uşaqlarının qayğıkeş və tələbkar anası idi. Həm də bu kübar qadın təkcə övladlarına qayğı göstərməklə kifayətlənmir, onlara əsl vətənpərvərlik hisslərini aşılayır, Azərbaycanın layiqli övladları kimi tərbiyə edirdi.

Hər zaman xalqının xoşbəxtliyini tükənməz sərvəti sanan Zərifə xanım bir vətəndaş kimi bu xalqa ən böyük töhfəsinin də məhz gələcəkdə vətəninə can-başla xidmət edəcək övladlar yetişdirmək olduğunu bilirdi. Necə ki Zərifə xanımın özünü ailəsi vaxtikən belə vətənpərvər yetişdirmişdi.

### Ot kökü üstündə bitər

Görkəmli ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım yüksək vətəndaşlıq mövqeyini atasından əxz etmiş, anası ləyaqətli Leyla xanımdan əsl Azərbaycan qadınının nəcib xüsusiyyətlərini götürmüşdü.

Prezident İlham Əliyev də Zərifə xanım haqqında xatirələrində vurğulayır ki, anasının ailəsi ovaxtkı cəmiyyətin ən ziyalı hissəsinə mənsub olub. Bu ailədə uşaqların tərbiyəsinə böyük əhəmiyyət verilirdi və musiqi dərslərindən başqa, onlara öz biliklərini inkişaf etdirmələri də aşılanırdı: "Atasının - Əziz Əliyevin həyatı Zərifə xanım üçün doğma xalqının tarixinin ayrılmaz hissəsi idi.

...Ailədə mənim nənəmin, Leyla xanımın təsiri güclü olub. Zərifə xanım ondan çox şey öyrənmişdi. O, hər şeyi bacarırdı: əla aşpaz kimi xörək hazırlayır, elmi işlə məşğul olurdu; qəlblərə təsir edən oxumağı vardı; zərif və sadə olmağı bacarırdı".

Belə ziyalı, vətənpərvər ailədə yetişən Zərifə xanımın da bu cür yüksək mənəvi dəyərlərə malik bir şəxsiyyət kimi yetişməsi heç də təəccüb doğurmur, əksinə, ot kökü üstündə bitər, atalar sözünün təsdiqi misalı öz soy-kökünə bağlılığını bir daha nümayiş etdirir.

Tale yolu Heydər Əliyev kimi nəhəng siyasətçi, dünyaşöhrətli dövlət xadimi ilə birləşən Zərifə xanım ömrünü xalqının səadətinə, rifahına həsr edən Ulu Öndərə daim mənəvi dayaq, əsl dost olub. Doğmalarının, onu tanıyanların xatirələrində də yer aldığı kimi, Zərifə xanım bir həyat yoldaşı, ana olaraq hər zaman fədakarlıqla çalışırdı ki, elmlə, ictimai işlərlə məşğul olması ailəsinə də kifayət qədər zaman ayrımasına mane olmasın. Necə deyərlər, həm ictimai məsuliyyətini zərgər dəqiqliyi ilə yerinə yetirərərək vurğunu olduğu peşəsi üzərində daim çalışır, auditoriyalarda tələbələrinə mükəmməl dərs verir, pasiyentlərini sağaldır, həm də eyni zəhmət, çalışqanlıq və qayğıkeşliklə ailəsinə diqqət yetirir, uşaqlarının tərbiyəsinə, onların vətənpərvər ruhda yetişməsinə xüsusi həssaslıqla yanaşırdı.

### Qəhrəman ana, igid oğul

İlham Əliyevin timsalında müasir Azərbaycanı tarixindəki ən yüksək zirvəyə daşıyan, ölkəsinin nüfuzunu dünya səviyyəsinə yüksəldən, ən ümdəsi xalqına şərəfli zəfər qazandıran bir oğul yetişdirən qəhrəman ana Zərifə xanımın çəkdiyi zəhmətlərin hədər getmədiyinin qürurlu şahidi olduq.

Lakin acı təəssüflə qeyd edək ki, zalım tale Zərifə xanımı çox erkən bu dünyadan qopardı və o, müstəqilliyimizi, Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident

İlham Əliyevin ölkəmizin inkişafı, rifahı üçün gördüyü nəhəng işləri görə bilmədi. Böyüdüb boya-başa çatdırdığı, tərbiyə verdiyi, Azərbaycana layiqli vətəndaş kimi yetişdirdiyi oğlu

İlham Əliyevin qazandığı uğurları dünya gözü ilə görüb sevinə bilmədi...

Amma əminik ki, bu gün böyük alimimiz Zərifə xanımın da ruhu şaddır, Azərbaycan xalqına tarixinin ən şanlı zəfərini bəxş edən İlham Əliyev kimi oğul böyütdüyü üçün.

İlham Əliyev tariximizin iki böyük şəxsiyyətinin - Ulu Öndər Heydər Əliyevin və böyük oftalmoloq alim Zərifə xanım Əliyevanın yetişdirdiyi layiqli Azərbaycan vətəndaşı olaraq ölkəmizin, xalqımızın taleyüklü məsələlərində oynadığı misilsiz rolla həm də valideynlərinin arzularındakı zirvəyə yüksəlib.

Məhz İlham Əliyevin sayəsində torpaqlarımızın 30 illik işğalına, yüzminlərlə keçmiş məcburi köçkünümüzün yurd həsrətinə son qoyulub. Bir zamanlar yalnız top-tüfəng səsləri gələn Qarabağdan və Şərqi Zəngəzurdan quruculuğun xoş sədaları yüksəlir. Bir sözlə, qalib lider İlham Əliyevin Şuşada dalğalandırdığı Zəfər bayrağı xalqımızın qəlbini xoşbəxtlik hissi ilə riqqətləndirir.

**Bu həyatda yalnız yaxşılıqdır əbədi bərqərar olan**

Bəli, Zərifə xanımın da həyat amalı elə bu idi...

Bilavasitə, yaxud da dolayısı yolla insanlara yaxşılıq etmək, onları xoşbəxt etmək.

Bu iki amal uğrunda, sözün əsl mənasında, bir pərvanə kimi ömrünü şam kimi əridirdi, ölüm belə onu qorxutmurdu, çünki, bu fani dünyada yalnız yaxşılığın əbədi bərqərar olduğunu bilirdi böyük alim.

"Bizimlə keçirdiyi son günlərdə Zərifə xanım bilirdi ki, ömrü sona çatır, özü də, bütün həkimlər də tam açıq danışırdılar, üstüörtülü danışıqlardan uzaq idilər. Onun ürəyi elə işıqlı qalırdı. Ölüm fikri onu qorxutmurdu. Onu narahat edən onsuz qalacaq adamlar idi. Gücdən, qüvvədən düşmüşdü. Bütün ömrü boyu olduğu kimi, səssiz bir məğrurluqla əriyirdi. Ölümü də ona həyatı kimi dərin hörmət gətirdi. O, çox gözəl başa düşürdü ki, əbədiyyət qarşısında hər şey kiçikdir, müvəqqətidir, qalan ancaq yaxşılıqdır. Onu sakitləşdirən məhz bu idi", - deyə xatirələrində Prezident İlham Əliyev unudulmaz şəxsiyyət Zərifə xanımın qürurlu yaşam amalından bəhs edib.

Azərbaycan xalqının hər bir üzvünün xoş sözlərlə, minnətdarlıq hissi ilə andığı, qəlblərdə əbədi abidə ucaldan, Tanrının sevimli bəndəsi akademik Zərifə Əziz qızı Əliyeva ilə həm də xalqımıza zəfər qazandıran Müzəffər Ali Baş Komandan İlham Əliyevin anası, obrazlı ifadə etsək, "Zəfərin anası" kimi qürur duyur, fəxr edirik.

Ruhun şad olsun, elimizin vətənpərvər qızı Zərifə xanım!

**Azərbaycan.** - 2023.- 28 aprel. - № 86. - S. 1,8.

# Bitməyən bir eşq hekayəti

**Vilayət Quliyev,**
Professor

**2023-cü il çağdaş Azərbaycan tarixində silinməz izlər qoymuş iki önəmli şəxsiyyətin, iki örnək insa-nın – böyük siyasi xadim, keçmiş Azərbaycan SSR-nin (1969-1983) və müstəqil Azərbaycan Res-publikasının (1993-2003) rəhbəri Heydər Əliyevin və xanımı, görkəm-li oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmalarının 100 illik yubileyidir.**

Əliyevlər fenomeni haqda çoxsaylı tarixi-publisist əsərlərin müəllifi, Xalq ya-zıçısı Elmira Axundovanın növbəti kitabı-nı oxuyanların ilk qənaəti, yəqin ki, belə olacaq: onları tale bir-biri üçün yaradıb! Zərifə və Heydər Əliyevlərin ailə ittifaqı yalnız iki unikal insanın şəxsi xoşbəxtliyi zəminində qurulmayıb, həm də minlərlə insanın həyatında və taleyində, Azərbay-can xalqının XX əsrdəki mədəni-mənəvi mövcudluğunda əcib, xeyirxah iz qoyub.

Uzun illərin dostu, filoloq və diplomat həmkarım, tanınmış yazıçı-publisist Elmi-ra Axundova “Zərifə və Heydər Əliyevlər: Əbədiyaşar məhəbbət” kitabını ərsəyə gətirmək üçün xeyli müddət material top-layıb. Tək Azərbaycanda deyil, keçmiş SSRİ-nin müxtəlif guşələrində Əliyevlər ailəsini yaxından tanıyan onlarla insan-la görüşərək xatirə və təəssüratlarını qələmə alıb. Həmsöhbətlər arasında si-yasi xadimlər və rəhbər partiya işçilə-ri, tanınmış alimlər və görkəmli sənət adamları, yaxın qohumlar, iş yoldaşları, xidməti personal təmsilçiləri var. Zərifə və Heydər Əliyevlər təmasda olduqları bu insanların hər birinin yaddaşında silin-məz izlər qoyub, qeyri-adi məhəbbətləri-nin işıq və istiliyini onlarla da paylaşıblar. Azərbaycan xalqının tarixində və taleyin-də Heydər Əliyev fenomenini çoxcildlik “Şəxsiyyət və zaman” sənədli romanında ictimai-siyasi çalarlarla rəsm edən Elmira xanım yeni kitabında şəxsi həyat tarixçə-sinə əsaslanaraq iki görkəmli şəxsiyyətin qarşılıqlı münasibətləri zəminində həs-sas və insani mövzuya toxunub.

Müəllifin rusca qələmə aldığı bu əsəri ana dilimizə böyük məmnuniyyət və mə-suliyyət duyğusu ilə çevirdim...

***

Heydər Əliyevi ilk dəfə 1970-ci ildə görmüşdüm. O zaman Azərbaycan Dövlət Universiteti adlanan, hələ Cüm-huriyyət yadigarı olduğunu bilmədiyimiz ilk universitetimizin yarıməsrlik yubiley təntənələrinə gəlmişdi. Zərifə xanımı isə heç zaman görməmişdim. Amma hələ o vaxtlar – 1970-ci illərin sonlarında yenicə tanınmağa başladığım ədəbi-elmi mü-hitdə onun haqqında rəylər, bir-birindən maraqlı fikir və xatirələr eşitmişdim. Xü-susən də nisbətən geniş əlaqələrə malik yaşlı həmkarlarım Zərifə xanımın bütün SSRİ miqyasında görkəmli oftalmoloq – alim olmaqla yanaşı nəcib, xeyirxah, rəhmdil və ürəyiyumşaq insan kimi ta-nındığını, sadəliyi və səmimiliyi ilə seçil-diyini, çətinliyə düşənlərə daim yardım əli uzatdığını, bütün keyfiyyətləri ilə res-publikanın birinci şəxsinə, həyat yoldaşı Heydər Əliyevə layiq olduğunu deyirdilər. O zaman hələ mühafizəkarlığı ilə seçilən kommunist dövlətində – Sovet İttifaqında “birinci xanım” – “first lady” institutu rəs-mən mövcud olmasa da, Zərifə xanım öz nüfuzu ilə bu adı cəmiyyətdə və xalq ara-sında qazanmışdı.

İlk gənclik illərindən indiyə qədər dostluq etdiyim tanınmış cərrah-oftalmo-loq və maraqlı bədii əsərlər müəllifi, tibb elmləri doktoru, professor Paşa Qəlbinur hələ o zamanlar, yəni 1980-ci illərin əv-vəlində Bakıda və Moskvada dəfələrlə görüşdüyü, ünsiyyətdə olduğu Zərifə xa-nım haqda böyük heyranlıq hissi ilə da-nışırdı. Həm də tək Zərifə xanımı deyil, Tibb İnstitutunda birlikdə çalışdığı böyük bacısı Ləzifə xanımı, qardaşları Tamer-lan və Cəmil Əliyevləri də yaxşı tanıyırdı. Həmkar olmaqdan başqa ailələri – baba və nənələri arasında əlaqə XX əsrin əv-vəlində, hələ tam bir Azərbaycan şəhəri olan İrəvanda başlanmışdı.

Yadımdadır ki, poetik təbiətli gənc Paşa respublika rəhbərinin xanımından danışanda onu gözə görünmədən nə-cib işlər görən xeyirxahlıq mələyi, şəfqət ilahəsi ilə müqayisə edirdi. Yüzlərlə insa-na təmənnasız yardım əli uzadan Zərifə xanım gənc həmkarından da diqqət və qayğısını əsirgəməmişdi. Sonralar Paşa Qəlbinur “Vətən sevgisi” adlı xatirə yazı-sında bacarıqlı həkim – oftalmoloq kimi yetişməsində akademik Zərifə Əliyeva-nın rolundan bəhs edərək yazmışdı:

“Zərifə xanım Moskvada nəşr olunan və keçmiş Sovet İttifaqının ən nüfuzlu tibbi nəşrlərindən sayılan “Vestnik oftal-moloqii” jurnalının redaksiya heyətinin üzvü idi. Baş redaktor isə Ümumittifaq Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutu-nun direktoru, akademik M.M.Krasnov idi. Mən bu elm ocağında əvvəl aspiran-turada, sonra isə doktoranturada təhsil almışdım. Zərifə xanımla vaxtaşırı həmin elmi mərkəzdə, müxtəlif elmi toplantılar-da, yaxud jurnalın redaksiya heyətinin yığıncaqlarında görüşürdük. Bu qısa gö-rüşlərdə həmişə çox səmimi olurdu. Elmi işimlə, qayğılarımla maraqlanırdı.

Bir dəfə mənə dedi ki, Heydər Əliye-viç də sənin uğurlarını izləyir, elmi nailiy-yətlərin haqda evimizdə söhbətlər olur. Mən bir az utanaraq Heydər Əlirza oğ-luna və ona təşəkkür etdim. Bir müddət sonra Göz Xəstəlikləri İnstitutunun təqdi-matı ilə elm sahəsində Ümumittifaq Lenin komsomolu mükafatına layiq görüləndə Heydər Əlirza oğlu Moskvadan zəng vu-rub məni təbrik etdi".

Heç şübhəsiz, Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin gənc oftalmoloq-alimin elmi uğurları ilə belə yaxından maraqlan-masında Zərifə xanımın rolu, xidmətləri olmaya bilməzdi. Mənə elə gəlir ki, bu alicənab xanım heç vaxt dövlət idarəçi-liyi məsələlərinə qarışmasa da, ölkənin və xalqın gələcəyi ilə bağlı hadisələr və insanlar haqqında Heydər Əliyevə söz demək, fikir və mülahizələrini açıq bildir-mək, pozitiv rəy yaratmaq, yaxud haqsız hücumlardan qorumaq missiyasını bütün həyatı boyu davam etdirmişdi.

Sovet dövründə Sumqayıt, Gəncə şəhər partiya komitələrinin birinci katibi, Azərbaycan KP MK katibi vəzifələrində çalışmış və Heydər Əliyevin ən yaxın silahdaşlarından olmuş diplomat həm-karım Həsən Həsənovun danışdığı bir epizod da çox səciyyəvidir. Zərifə xanı-mın milli mənəviyyat və dövlətçilik işinə ilk baxışdan nəzəri cəlb etməyən, amma çox lazımlı, faydalı töhfəsindən xəbər verir. Həsən müəllim Gəncədə işə baş-layanda şəhərdəki tarixi abidələr sırasın-da yarıuçuq vəziyyətə düşmüş bir neçə məscidi də təmir etdirmişdi. Amma mə-lum səbəblər üzündən bu "özfəaliyyətini" xüsusi nəzərə çarpdırmamışdı.

Bir müddət sonra Zərifə xanımın ça-lışdığı Əziz Əliyev adına Həkimləri Tək-milləşdirmə İnstitutunun bir qrup əmək-daşı o zaman hələ tarixi Gəncə adı bərpa edilməmiş Kirovabadda olmuşdu. Əs-lində, Zərifə xanım özü də gəlməli imiş, lakin son məqamda proqram dəyişmişdi. Görünür, şəhərdəki abadlıq və qurucu-luq işləri ilə maraqlanan əməkdaşlar geri qayıdandan sonra çox təəccübləndikləri bir yenilik – qısa zamanda Gəncədəki digər tarixi abidələr kimi məscidlərin də yüksək zövqlə təmir və bərpa edilməsi haqda ona məlumat vermişdilər. Həmin günlərdə Azərbaycan KP MK birinci ka-tibinin Gəncəyə gəlişi gözlənilirmiş. Təbii ki, şəhər partiya komitəsinin hazırladığı səfər proqramında Heydər Əliyevin tanış olacağı "obyektlər" arasında təzə təmir-dən çıxmış dini abidələr yox idi. Çünki bu məsələ öncədən "yuxarılarla" razılaşdırıl-madığı üçün Həsən müəllim işin çox da açılıb-ağardılmasını istəmirmiş. Amma gözləmədiyi halda MK-dan zəng vurur-lar ki, bəs yeni təmir edilmiş məscidlərlə tanışlığı niyə proqrama salmamısınız? Yoldaş Əliyev onlara da baxmaq istəyir. Sonra məlum olmuşdu ki, məsələ haqda ölkə başçısına xəbər çatdıran da, onu Gəncənin yeni həyat verilmiş dini abi-dələri ilə tanışlığa təşviq edən də Zərifə xanımdır. Məhz Zərifə xanımın təşəbbüs və istəyi ilə MK-nın birinci katibi sovet dövrü üçün qeyri-ordinar görünən bir ad-dım atmış, məscidlərlə tanış olmuşdu.

Xatırlatdığım epizodlar kitabda yer al-masa da, Zərifə xanımın nəciblik, təşəb-büskarlıq və vətənpərvərliyinə dəlalət edən analoji nümunələr onlarladır.

***

Çoxsaylı sənəd və xatirələrə, şəxsi təəssüratlara əsaslanan əsər üzərində işləyərkən Elmira xanımın görüşüb söh-bət etdiyi tanınmış elm, mədəniyyət, in-cəsənət xadimlərinin, siyasətçilərin, sıra-vi adamların hamısı Zərifə xanımın əsas insani keyfiyyətləri sırasında nəciblik, sa-dəlik və səmimiliyini vurğulayıblar. Mər-hum Prezident Heydər Əliyevi yaxından tanıyanlar sərtliyinə, tələbkarlığına bax-mayaraq, eyni xüsusiyyətlərin onun da təbiətinə xas olduğunu təsdiq edə bilər-lər. Birgə iş prosesində dəfələrlə bunun şahidi olmuşdum.

Təbii ki, yaş, mövqe və həyat təcrü-bələri arasındakı böyük fərq və iyerarxik asılılıq dövlət başçısı ilə münasibətləri-min sırf rəsmi müstəvidən kənara çıxma-ması təəssüratını yarada bilər. Əslində, yəqin ki, belə olmalıdır və burada qey-ri-adi, gözlənilməz heç nə yoxdur. Amma Prezident Heydər Əliyev yüksək insani taktı, səmimiyyəti nəticəsində bu sətirlə-rin müəllifi ilə yalnız iş haqqında, rəsmiy-yət dilində danışmamışdı. Lazım biləndə, yaxud zərurət yarananda şəxsi motivli məsələlər, keçdiyi mürəkkəb ömür yolu, ailəsi, yaxınları haqda da söhbət açmış-dı. Bir neçə dəfə müxtəlif münasibətlər-lə mərhum həyat yoldaşı Zərifə xanımı yada salmışdı. Onun yüksək insani key-fiyyətlərini – həyat yoldaşına və övladla-rına bağlılığını, nəcibliyini, alicənablığını, xeyirxahlığını xatırlamışdı. Hər dəfə belə söhbətlər zamanı Prezidentin sərt, cingil-tili səsinin yumşaldığını, üzünün ifadəsi-nin dəyişdiyini, xəyalən keçmişə qayıtdı-ğını hiss etmişdim.

Bir dəfə əhvalının yaxşı vaxtında 1970-ci illərdə MK-nın birinci katib olduğu dövrdə rəsmi şəxsə qarşı avtoxuliqanlıq etdiyinə görə yaxın qohumlarından biri-nin maşınını cərimə meydançasına qoy-durduğunu xatırladı:

– Özü də tapşırdım ki, o maşına heç bir diqqət yetirməsinlər. Nə bilim, üstünə tent çəkməsinlər, aparıb kölgədə saxla-masınlar. Qoy günün, küləyin, yağışın altında qalıb çürüsün. O vaxt avtomobil böyük roskoş (cah-calal) sayılırdı. Hər adam ala bilmirdi. Qohumlar çox nara-hat olmuşdular. Düşünürdülər ki, maşın birdəfəlik əldən getdi. Amma qorxuların-dan mənə bir söz deyə bilmirdilər. Gedib mərhum Zərifə xanıma minnətçi düş-müşdülər. Çünki yaxşı bilirdilər ki, belə məqamlarda yalnız Zərifə xanım mənə söz deyə bilər. Həm də birinci dəfə de-yildi. Başqa işlər də olurdu. Qohumlar mənim idi, amma çətinliyə düşən kimi Zərifə xanımın yanına

qaçırdılar. Arxayın idilər ki, ürəyiyumşaqlığına, xeyirxahlığı-na görə hər şey edəcək. Yanına gələnləri əliboş qaytarmayacaq..

XİN-də işlədiyim dövrdə belə ərkö-yün qohumlardan biri mənə sifariş gön-dərmişdi. Guya, xahiş edirdi, əslində, xahişdən çox tapşırıq, bəlkə də, əmr idi. Nə etməli olduğum barədə Prezidentdən məsləhət istəyəndə sərt səslə dedi:

– Heç nə eləmə! Yadında saxla: mənim yaxın qohumum oğlum, qızım, nəvələrimdir. Onların da aydın məsələdir ki, sənə bir işi düşməz.

Bir qədər susandan sonra gözləmədi-yim halda soruşdu:

– Sən Zərifə xanımı görmüşdün?

– Xeyr, cənab Prezident. Amma haqqında çox eşitmişəm.

– Bilirsən, – dedi, – Qohum da özü üçündür. Övlad-uşaq da. Amma yaş keç-dikcə başa düşürsən ki, insana qalan ömür-gün yoldaşıdır. Yeganə dost da ömür-gün yoldaşıdır. Rəhmətlik Zərifə xanım da belə insan idi. Həqiqi dost idi. Çox təəssüf ki, onu da vaxtsız itirdik... Mənə elə gəlir ki, Zərifə xanım bir an da olsun Heydər Əliyevin fikrindən çıxmır, asossiativ şəkildə hər yerdə, hər zaman xatırlanırdı. Zərifə xanımla bağlı olan hər xatirə onun üçün əziz idi, unudulmaz idi.

2000–2005-ci illərdə BMT baş ka-tibi Kofi Annanın siyasi məsələlər üzrə müavini vardı: sloven əsilli Danilo Türk. Həm də BMT-də milli azlıqlar məsələsinə baxırdı. Sonralar Sloveniyanın prezidenti seçildi. 2013-cü ildə rəsmi səfərlə ölkə-mizdə də olmuşdu.

Deməli, Nyu-Yorkda, Baş Assamble-yanın Danilo Türkün də çıxış etdiyi icla-sından sonra Heydər Əliyev birdən mən-dən soruşdu:

– Sən dilçisən, ədəbiyyatçısan. Bəlkə, bilərsən: bunun familiyası niyə Türkdür? Türklərlə nə əlaqəsi var?

– Slovenlər də əksər Balkan xalqları kimi Osmanlıya bac-xərac ödəyiblər, – dedim. – Ola bilsin ki, qanında türk qarı-şığı var. Ya da əcdadları türklərlə yaxınlıq elədiyinə, Osmanlının xidmətində dayan-dığına görə xalq elə o vaxtdan istehza ilə, bəlkə də, nifrətlə nəslinə “türk” adı verib...

– Bunlar ehtimallardır. Görünür, sən də dəqiq bir şey bilmirsən. Amma Slove-niya çox gözəl ölkədir, – deyə ani pauza-dan sonra sözünə davam etdi. – 1976-cı ildə Zərifə xanımla orada dincəlmişdik. Lyublyananın yaxınlığında, Bled gölünün sahilində. Titonun iqamətgahında qalır-dıq...

Gözləri uzaq bir nöqtəyə zillənmiş Prezidenti Zərifə xanımla bağlı düşün-cələrindən ayırmamaq üçün sakitcə otaqdan çıxdım.

Budapeştdə işləyəndə bir dəfə maraq üçün Bled gölünə getdim. Həqiqətən də, çox füsunkar yerlər idi. İnsana rahatlıq və sükun təlqin edirdi. Ətrafdakı gözəlliyə Heydər Əliyevin və Zərifə xanımın gözləri ilə baxmağa çalışdım...

18 oktyabr 2002-ci ildə Dövlət Müstəqilliyi Günü “Gülüstan” sarayın-da ilk dəfə “ailəvi formatda” qeyd edildi. Hamı həyat yoldaşı ilə gəlmişdi. Prezi-dent Heydər Əliyev təbrik nitqi söyləyən-dən sonra zalda gəzib əksəriyyətini ilk dəfə gördüyü xanım qonaqlarla tanış olurdu. Bizə yaxınlaşanda həyat yolda-şım Şəhla xanımı təqdim etdim. Əlini sıxıb gülümsər ifadə ilə:

– Sən də ədəbiyyatçısan? – deyə so-ruşdu.

– Xeyr, həkiməm.

– Həkimsən? Hansı sahə üzrə?

– Kardioloqam.

– Həkimlik yaxşı peşədir, – deyə bir anlıq fikrə gedən Prezident təqdiredici ahənglə başını tərpətdi. – Yoxsa... ədə-biyyatçılar həmişə göynən uçurlar...

Təbii ki, “daş” mənim bostanıma atıl-mışdı.

Amma mənə elə gəlir ki, həmin an-larda Prezident Heydər Əliyevin öz xəyalı da səmalarda idi. Unudulmaz Zərifə xanı-mın yanında...

***

2001-ci il aprelin 28-də Rəşid Beh-budov adına Mahnı Teatrında görkəmli oftalmoloq alim, akademik Zərifə Əliye-vanın xatirə gecəsi keçirildi. Aradan iyir-mi ildən çox vaxt ötməsinə baxmayaraq, həmin gecənin həzin-nisgilli atmosferi, ilk dəfə tamam fərqli ampluada gördüyüm Prezident Heydər Əliyevin kövrək səsi, yaşaran gözləri və ağrılı xatirələrin təsiri altında tez-tez dəyişən siması indi də ya-dımdadır. Ədəbi-musiqili gecənin rejisso-ru Cənnət xanım Səlimova rəsmiyyətdən qaçaraq tədbirə ailəvi ton, səmimiyyət və doğmalıq atmosferi verməyə çalışmış-dı. Sanki o Zərifə xanımı tanıyan, sevən adamlar ailə mühitində toplaşıb onu yad edirdilər. Əslində də belə idi.

Prezident salona daxil olarkən ənənəvi alqış səsləri eşidilmədi. Elan olunmasa da, ortaya bir dəqiqəlik sükut çökdü. Sonra həzin musiqinin müşayiəti ilə rejissor Eldar Quliyevin Zərifə xanımın ömür yolundan bəhs edən “Elegiya” fil-mindən parçalar göstərildi. Filmdə Zərifə xanıma həsr olunan sənət əsərləri, ailəvi fotoşəkillər, onunla birgə işləmiş həmkar-larının xatirələri əksini tapmışdı.

Bir-birini əvəz edən aparıcılar Zə-rifə xanımın həyat yolu, elmi fəaliyyə-ti, yüksək insani keyfiyyətləri: nəcibliyi, xeyirxahlığı haqda danışdılar. Ona ithaf olunmuş şeirlərdən parçalar oxundu. Ta-nınmış müğənnilərin ifasında xüsusi həs-saslıqla seçilmiş və xatirə gecəsinin ruhu ilə həmahəng səslənən muğam və xalq mahnıları səsləndi. Sevil xanım Əliyeva-nın Fikrət Qocanın sözlərinə bəstələdiyi "Ana" mahnısı sanki salondakı şəkillər-dən bizə baxan Zərifə xanımın obrazını daha da canlandırdı. Onu xalqımızın ən gözəl mənəvi xüsusiyyətlərini özündə bir-ləşdirən əsl Azərbaycan qadını, ailəsinə qırılmaz tellərlə bağlanan, övladları ilə nəfəs alan, həyat yoldaşının yaxın dos-tu və silahdaşı olan qayğıkeş ana, gözəl ailə xanımı, sədaqətli ömür-gün yoldaşı kimi gözlərimizdə daha da ucaltdı.

Prezidentin nitqi xüsusilə təsirli idi. Adətən, polad kimi cingildəyən səsi hə-min axşam bəzən titrəyirdi, hətta bir-iki dəfə gözlərində yaş parıldadığını da gördüm. Mənə elə gəldi ki, son dərəcə həssas insan kimi tanıdığım Prezident Heydər Əliyev elə bil xatirə gecəsinin çox nisgilli, kədərli alınmasından bir qədər narahat olmuşdu. İştirakçıların salondan yalnız təəssüf hissi, qəm-qüssə ilə deyil, əksinə, Zərifə xanımın doğum günündə bu nəcib, xeyirxah qadının adına, əməl-lərinə, şəxsiyyətinə layiq işıqlı duyğularla ayrılmasını istəyirdi. Ona görə də üzünü hamıya, ilk növbədə isə proqramı hazır-layanlara tutub dedi:

"Təbiidir ki, bu, xatirə gecəsidir və siz də xatirə gecəsində onun bizdən ayrılması ilə əlaqədar həm sözlərinizlə, həm çıxışlarınızla, həm də ifanızla bizim üçün bu ayrılığın nə qədər çətin oldu-ğunu göstərmək istədiniz. Ona görə də burada bir kədər, qəm, qüssə əhvali-ru-hiyyəsi yarandı. Ancaq eyni zamanda bu gün onun anadan olan günüdür. Biz Zərifə xanımı xatırlayaraq bu gün onun uşaqları, onun nəvələri, onun dostları ilə ad gününü qeyd edirik. Ona görə də mən istərdim ki, artıq bu əhvali-ruhiyyə salon-dan götürülsün".

Bu sözləri deyəndə isə mərhum Hey-dər Əliyev əməlli-başlı kövrəldi: "İndi Alla-hın yazısı belə gətirib ki, o, aprel ayında doğulub, aprel ayında da həyatdan ge-dibdir. Xatirimdədir, Moskvada xəstəxa-nada müalicə edilərkən, onun artıq ağır xəstəliyə düçar olduğunu bilərkən mən arzu edirdim ki, o, doğum gününə qədər, anadan olan gününə qədər yaşasın. An-caq mənim bu arzum yerinə yetmədi və aprelin 15-də o vəfat etdi".

Xatirə gecəsində ölkəmizin tanınmış mədəniyyət, elm, incəsənət xadimləri də iştirak edirdilər. Tədbirin sonunda onların hər biri Heydər Əliyevə yaxınlaşıb Zərifə xanımla, birinci ledinin həyatlarında oy-nadığı xeyirxah rolla bağlı yaddaşlarında yaşatdıqları maraqlı epizodlar danışır-dılar. Prezident xatirə bölüşənlərin hər birini diqqət və maraqla dinləyir, bəzən hansısa əlavələr edir, xoş xatirələrə görə minnətdarlığını bildirirdi. Zərifə xanımın xatirə gecəsi yaddaşımda həm də ömür-lük eşqin, bitməyən bir sevginin təntənə gecəsi kimi qalıb. Prezident Heydər Əli-yev həyatının bütün sahələrində olduğu kimi, sevgisində, xanımına bağlılığında, onun işıqlı xatirəsinə sədaqətində də, həqiqətən, bir örnək, nümunə idi.

***

Başqa bir tarixi də yaxşı xatırlayıram. 16 may 1998-ci il. Həmin axşam Respub-lika sarayında (indi Heydər Əliyev sarayı) Dağıstandan gəlmiş böyük bir nümayən-də heyətinin iştirakı ilə görkəmli dövlət, ictimai və elm xadimi Əziz Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirildi. Əgər amansız xəstəlik həyatdan vaxtsız aparmasaydı, 75 yaşlı Zərifə Əziz qızı da atasının yubiley məra-simində iştirakçıları arasında ola bilərdi...

Prezident Heydər Əliyev geniş nitq söylədi. Burada Əziz Əliyevin təkcə döv-lət xadimi, milli ruhlu ziyalı, elm təşkilat-çısı kimi Azərbaycan və Dağıstan qar-şısındakı xidmətlərinə qiymət verilmirdi. Təkcə naməlum faktlar əsasında onun çətin, mürəkkəb, amma şərəfli ömür yo-luna nəzər salınmırdı. Təkcə gördüyü böyük işlərdən və üzləşdiyi sınaqlardan, repressiya maşınının dişləri arasından necə xilas olduğundan söz açılmırdı.

Yaxınlarla ürək söhbəti təsiri bağışla-yan bu səmimi nitq həm də munis bir sev-gi etirafı idi. Salona toplaşmış 2500 nəfə-rin nəfəs çəkmədən dinlədiyi, televiziya vasitəsilə milyonlarla insana çatdırılan sevgi etirafı... Çətin sınaqlardan çıxan, amma sınmayan, əksilməyən, şər vəbədxahlıq üzərində qələbə çalan, yalnız iki insanın deyil, minlərlə insanın həyatını dəyişən sevgi etirafı..

Heydər Əliyev danışırdı və zal qəd-dar sistemə qarşı mübarizədə yeganə si-lahı yalnız bir-birinə inam olan iki gəncin məhəbbət hekayəsini dinləyirdi:

"Zərifə xanımla 1948-ci ildə tanış olmuşdum. Az sonra mən Leninqrada oxumağa getdim. 1950-ci ildə oradan Bakıya qayıdandan sonra şübhəsiz ki, öz ailə həyatımı qurmaq, evlənmək fik-rində idim. Ancaq mənim mənzil-məişət şəraitim buna imkan vermirdi. Anam və qardaşlarımla İçərişəhərdə zirzəmidə ki-rayədə yaşayırdım. Şərait yox idi və mən mənzil almağımı gözləyirdim.

1952-ci ildə ikiotaqlı mənzil aldım. Lakin o vaxt mənə Əziz Əliyevin ailəsi ilə ünsiyyətdə olmaq qadağan edilmişdi. Xatirimdədir, 1951-ci ildə Əziz Əliyev iş-dən çıxarılanda Zərifə xanımla görüşdük və o mənə dedi: "Deyəsən, biz bir daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irə-li sürüblər. Sən isə dövlət təhlükəsizlik orqanlarında işləyirsən və bu sənə zərər gətirə bilər. Odur ki, deyəsən bizə birlik-də olmaq qismət deyilmiş". Mən, əlbəttə, etirazımı bildirdim və münasibətlərimiz davam etdi".

1948-ci ildən başlanan və tədricən qarşılıqlı məhəbbətə çevrilən tanışlıq ciddi maneələri, müxtəlif hədə və riskləri aşaraq 1954-cü ildə xoşbəxt və nümunə-vi ailə həyatına çevrildi.

Zərifə xanım və Heydər Əliyevlə-rin otuz ildən çox birlikdə keçən ömür tarixçəsini izləyəndə düşünürsən: “Nə yaxşı ki, dövrün və cəmiyyətin bütün ma-neələrinə rəğmən belə oldu və davamı nəsillər üçün nümunəyə çevrilən, insan-lara işıq və nur bəxş edən intəhasız bir eşq hekayəti yaşandı...

**Xalq qəzeti.** - 2023.- 28 aprel. - № 86. - S. 9.

## Sadəlik, xeyirxahlıq və kübarlıq mücəssəməsi

**Musa Quliyev**,
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri

**Tarixin ən qədim qatlarından üzü bəri cəmiyyətdə qadının ən yüksək dəyəri ana olmaq məqamı mərtəbəsində müəyyən edilmişdir. Heç də təsadüfi deyildir ki, bu məsələ İslam peyğəmbərinin (s.) adı keçən bir hədisdə "cənnət anaların ayağı altındadır" ifadəsi şəklində öz təsdiqini tapmışdır.**

Təbii ki, qadın üçün ana məqamı ən yüksək dəyərdir. Lakin yeganə və son dəyər deyildir. Bəşəriyyətin inkişafında kişilərlə bərabər, qadınlar da zaman-za-man qadın- vətəndaş, qadın-ictimai-si-yasi xadım, qadın-alim, qadın-yaradıcı şəxsiyyət kimi böyük töhfələr vermişlər. Bu mənada azərbaycanlı qadınlar nəin-ki istisna deyildir, hətta bir çox hallarda nümunədir. Heç də təsadüfi deyildir ki, Şərq və İslam aləmində ilk respublika ya-radan xalqımız qadınlara seçib-seçilmək hüququ verən dünya öncülü kimi tarixə öz şərəfli adını yazdırmışdır.

Azərbaycan qadının bütün dövrlər üçün ən müsbət keyfiyyətini özündə bir-ləşdirən görkəmli alim və ictimai xadim akademik Zərifə xanım Əliyevanın həyatı və fəaliyyəti müasirlərinə və gələcək nə-sillərə gözəl bir nümunədir. Heç şübhəsiz ki, həyatda uğur qazanmaq üçün insa-nın şəxsi keyfiyyətləri ilə yanaşı, onun əsil-nəcabətinin, doğulub böyüdüyü , tər-biyə aldığı, yaşadığı, fəaliyyət göstərdiyi mühitin əhəmiyyəti və təsiri vacib şərtlər-dir.

Bu il 100 illik yubileyi xalqımız tərə-findən böyük sevgi, hörmət və ehtiram-la qeyd olunan akademik Zərifə xanımƏliyeva böyük alim olmaqla yanaşı, sa-dəlik, xeyirxahlıq və kübarlıq mücəs-səməsi kimi yaddaşlarda yaşamaqdadır. Ömrü və həyatı üç dahi şəxsiyyətin– professor Əziz Əliyevin, ümummilli lider Heydər Əliyevin və müzəffər Ali Baş Komandan İlham Əliyevin həyatı ilə bir-başa bağlı olan Zərifə xanım keşməkeşli və zəngin bir mühitdə doğulub böyümək-lə yanaşı, bu üç dahinin birinə övlad, birinə həyat yoldaşı və digərinə ana kimi həyan olmuş, onlara mərhəm və pozitiv təsir göstərmiş, xoş əhval və rahat fəa-liyyət mühiti yaratmışdır.

Zərifə xanımın babaları İrəvanda məşhur əsilzadələrdən olublar. Əziz Əliyevin atası Məmmədkərim Qurbanəli oğlunun və ana babası İbrahim bəy Sü-leymanbəyovun İrəvan yaxınlığındakı Hamamlı kəndində mülkləri, İrəvanda bö-yük imarətləri və dükanları var idi. Heyif ki, o gözəl yurdlar 1918-ci ildə erməni-daş-nak başkəsənləri tərəfindən qəsb olundu, dağıdıldı, sakinləri dədə-baba yurdların-dan didərgin düşdülər və bir daha doğma ocaqlarına qayıda bilmədilər.

Ermənilərin 1918-20-ci illərdə xalqı-mıza qarşı törətdikləri soyqırımı ci-nayətləri Zərifə xanımın mənsub oldu-ğu nəsildən yan keçməmişdir. Erməni daşnak başkəsənlərinin etnik təmiz-ləmə əməliyyatları nəticəsində bu ailə uzun əsrlər boyu yaşadıqları doğma İrəvan şəhərindən qaçqın düşərək Nax-çıvana, oradan Cənubi Azərbaycanın Ərəblər kəndinə getmiş, sonra isə Şə-rurun Şahtaxtı kəndində məskunlaş-mışdır. Zərifə xanım Əliyeva 28 aprel1923-cü ildə Naxçıvanın Şahtaxtı kən-dində dünyaya göz açmışdır. Elə həmun ildə də ailəsi Bakıya köçən Zərifə xanım Əliyeva böyük ziyalı və intellektual-mənə-vi mühitdə böyümüşdür.

Zərifə xanımın atası, Azərbaycanın dövlətçilik və səhiyyə tarixində mühüm xidmətləri olan görkəmli dövlət xadimi Əziz Əliyev Bakı ziyalıları arasında bö-yük nüfuza malik idi.

1998-ci ildə Əziz Əliyevin anadan ol-masının 100 illik yubiley tədbirində çıxış edən ümummilli lider Heydər Əliyev onun şəxsiyyəti ilə fəaliyyəti arasındakı vəh-dəti xarakterizə edərək demişdir: “Azər-baycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idi, onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süley-man Rüstəm, Qara Qarayev və bir çox görkəmli xadimləri ilə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə sa-vadlı, mədəni adam olduğuna görə hə-mişə məhz bu mühitlə təmasda olmağa çalışırdı.”

Zərifə xanımn həkimlik sənətini seç-məsində də yəqin ki, ailə ənənələrinin böyük təsiri olmuşdur. Atası Əziz Əliyev, böyük qardaşı Tamerlan Əliyev, bacısı Ləzifə xanım, bibisi Göyçək xanım, əmisi Ziyad Əliyev, bibisi Şamama xanım Ələs-gərova, bibisi oğlanları Qurban Əliyev (Ali və Orta ixtisas təhsili naziri işləyib), Yusif Əliyev görkəmli həkim, səhiyyə təş-kilatçısı və tibb alimləri olmuşlar.

Zərifə Əliyeva 1942-ci ildə Azərbay-can Dövlət Tibb Universitetini müali-cə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymət-lərlə bitirirərək Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnsti-tutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnir. Ali ixtisaslı həkim-oftalmoloq kimi Vətənə qayıdan gənc doktor Azərbaycan El-mi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır, 1950-ci ildə isə aspiranturaya daxil olur, həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını da-vam etdirir.

Zərifə xanımın həyatını, elmi və icti-mai fəaliyyətini araşdıran tədqiqatçılar çox haqlı olaraq bu dəyərli şəxsiyyəti bir neçə keyfiyyət üzrə xarakterizə edirlər: övlad, həyat yoldaşı, ana, həkim, pe-daqoq, alim, maarifçi,

ictimai xadim. Bu siyahını uzatmaq da olar. Amma fikrimcə, o, hər şeydən əvvəl, istedadlı genlərə, möhkəm milli və ailə ənənələrinə malik, ziyalı və kübar mühitdə böyümüş, yüksək mədəniyyətə və zəngin mənəviyyata, də-rin biliklərə yiyələnmiş, hər cür fədakar-lığa hazır olan mükəmməl bir İnsan idi.

Bu barədə Azərbaycan Respublika-sının Prezidenti cənab İlham Əliyevin sözləri olduqca dəqiq və təsirlidir: “Mə-nim anamın həyat fəlsəfəsinin köklərini, hər şeydən əvvəl, onun uşaqlığında ax-tarmaq lazımdır. O, bizə tez-tez deyərdi ki, uşaqlıq – insan həyatının çox mühüm dövrüdür və heç nə bu dövrü əvəz edə bilməz. Uşaqlıq insanın ömrü boyu tək-rar-təkrar müraciət etdiyi dünyadır. İnsan xeyirxahlığın, şəfqətin nə olduğunu uşaq-lıqda dərk edir. O, çox xoşbəxt uşaq olub, uşaqlıq onun yaddaşında məhəbbət və əziz xatirələr mənbəyi kimi qalmışdı.

Mənim anamın ailəsi o vaxtkı cəmiy-yətin ən ziyalı hissəsinə mənsub olub. Uşaqların yanında çox vaxt cəmiyyətin mənəvi həyatının bir çox sahəsini əhatə edən söhbətlər olurdu. Bu ailədə uşaqla-rın tərbiyəsinə böyük əhəmiyyət verilirdi və musiqi dərslərindən başqa, onlara öz biliklərini inkişaf etdirmələri də aşılanırdı.

Atasının – Əziz Əliyevin həyatı Zə-rifə xanım üçün doğma xalqının tarixinin ayrılmaz hissəsi idi. Zərifə xanım həkim etikasına həsr olunmuş kitabının fəsillə-rindən birini belə adlandırıb: "Fədakarla-ra Günəş kimi ehtiyacımız var".

Bütün dahi şəxsiyyətlər kimi, akade-mik Zərifə xanım Əliyeva da son dərəcə təvəzökar, sadə, ünsiyyətcil, xeyirxah insan olmuşdur. O zaman təkcə Azər-baycanda deyil, bütün SSRİ məkanında tanınmış elm və dövlət xadimi olan pro-fessor Əziz Əliyevin ailəsində doğulub böyüməsinə baxmayaraq, Zərifə xanım tələbə yoldaşlarından, rəfiqələrindən fərqli geyimə, davranışa, həyat tərzinə malik deyildi, əksinə, daha çox mehriban-lığı və çalışqanlığı ilə seçilərdi. Tələbəlik illərindən Zərifə xanımla dostluq edən, onun peşə həmkarı Azərbaycan oftalmo-logiya məktəbinin başqa bir görkəmli nü-mayəndəsi professor Zəhra Quliyeva öz xatirələrində yazır:

“O, xeyirxah, təkrarolunmaz şəxsiy-yət idi. Tez-tez həkimlik sənəti barədə diskussiyalar edər, sevincli, kədərli dü-şüncələrimizi bölüşərdik. Xəstələr göz-lərə nur bəxş edən Zərifə xanımın vurğu-nu idi, onu çox istəyirdilər, çünki qayğıkeş həkim onların əsl ürək dostuna, sirdaşına çevrilmişdir.”

Zərifə xanım Əliyevanın bütün tibbi və elmi fəaliyyəti ictimai və dövlət əhə-miyyəti kəsb edən xəstəliklərlə müba-rizəyə həsr olunmuşdur.

Zərifə xanımın həkimlik fəaliyyətinin ilk illərində SSRİ-də bir çox infeksion xəstəliklər geniş yayılmışdı. Bunlardan biri də gözün selikli və buynuz qişaları-nı zədələyən bakteriya mənşəli traxoma xəstəliyi idi ki, görmə orqanının zədələn-məsi nəticəsində yaranan çapıq toxuma tam korluğa gətirib çıxarırdı.

İkinci dünya müharibəsindən sonrakı vaxtlarda Azərbaycanda da olduqca ge-niş yayılmış, dünyada 400 milyon insanın gözünü zədələyən, 80 milyondan çox in-sanı isə dünya işığından məhrum edən dəhşətli traxoma xəstəliyi ilə mübarizə həkimdən dərin biliklə yanaşı, təşkilatçı-lıq, humanizm və fədakarlıq tələb edirdi. Çox sonralar kitablarının birində "Fə-dakarlara Günəş kimi ehtiyacımız var" , – yazarkən yəqin ki, akademik Zərifə xanım Əliyeva həkimlik praktikasının ilk illərində traxoma ilə mübarizədə keçirdiyi çətin anları xatırlamışdır. Günəş dünya işığı deməkdir. Goz həkiminin fədakarlı-ğı insanlara Günəş bəxş etmək uğrunda mübarizədir. Əgər o illərdə Zərifə həki-min və onun yoldaşlarının fədakarlıqla-rı olmasaydı ötən əsrin əllinci illərində Azərbaycanda on minlərlə insan dünya işığına həsrət qala bilərdi.

Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçiril-məsində fəal iştirak edir, konkret müali-cə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldı-ğı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarif-ləndirici söhbətlər aparırdı.

Zərifə xanım Əliyevanın xəstəliklərin profilaktikası sahəsində tibbi biliklərin geniş yayılması, maarifləndirmə işində jurnalistlər, təbliğatçılarla yanaşı peşə-kar ixtisaslı həkimlərin iştirakının vacibliyi barədə fikirləri o vaxtkı SSRİ-də səhiyyə maarifi sahəsində ciddi yeniliklərdən biri idi.

Akademik Zərifə Əliyevanın elmitədqiqatları əsasən ictimai-sosial əhə-miyyət daşıyan göz xəstəlikləri, onla-rın qarşısının alınması və müalicəsi istiqamətində olmişdur. Zərifə xanımın həkimlik və alimlik fəaliyyətinin böyük bir hissəsi, o cümlədən, doktorluq dissertasi-yası sənaye sahələri sürətlə inkişaf edən Azərbaycanda gözün yeni bir spesifik xəstəliyinin-peşə xəstəliyinin müalicə və profilaktikasına həsr edilmişdir. Ötən əsrin 60-70-ci illərində Bakı və Sumqa-yıt şəhərləri regionun ən böyük sənaye mərkəzlərinə çevrilmişdi, burada onlarca neft – maşınqayırma, kimya zavodları fəaliyyət göstərirdi. Bu zavodlarda isteh-sal edilən, istifadə olunan müxtəlif kimyə-vi maddələrin gözə təsirinin öyrənilməsi, qarşısının alınması və müalicəsi sahə-sində o vaxtkı SSRİ miqyasında ilk ön-cüllərdən biri, bəlkə də birincisi akademik Zərifə xanım Əliyeva olmuşdur.

Fikrimcə, alimin tədqiqatlarının bu sahələrə yönəlməsində onun ömür-gün yoldaşı, böyük dövlət xadimi, Heydər Əliyevin müəyyən istiqamətverici təsiri də olmuşdur. Bu barədə akademikin qızı Sevil xanım Əliyeva anası haqqında xa-tirələrində yazır:

“Anam uşaqlara, ailəyə çox bağlı idi. Bu onun üçün həmişə birinci yerdə du-rurdu. Atam bilirdi ki, anamın böyük elmi potensialı, qabiliyyəti var. Buna görə də, onun irəli getməsinə çalışırdı. Yadımda-dır, gecə biz

hamımız yatandan sonra anam öz elmi işini, məqalələrini, monoq-rafiyalarını yazmaq üçün otururdu. Biz Moskvaya gedəndə o, həmişə həmkarla-rı ilə – oftalmoloqlarla görüşərdi. O, təbrik nitqlərinə meyilli deyildi, məşhurlaşmaq, başqalarından seçilmək arzusu yox idi. Nail olduğu hər şey gərgin elmi axtarışla-rın və böyük zəhmətin nəticəsi idi. Onun imkanlarını bilən atam icazə verə bil-məzdi ki, bu potensial gerçəkləşməmiş, istifadəsiz qalsın. Siz fikir ayrılıqları, mü-bahisələr haqqında bilmək istəyirsiniz. Onların mübahisələri məhz bundan ötrü idi: atam deyirdi ki, dayanmaq olmaz, tədqiqatları davam etdirmək lazımdır. O, anamı həmişə buna ruhlandırırdı”.

Zərifə xanım 1968-ci ildən başla-yaraq elmi fəaliyyətinin əsas hissəsini professional oftalmologiyanın problem-lərinin öyrənilməsinə həsr etmişdir. Dün-yada peşə patologiyasını araşdıran ilk elmi-tədqiqat laboratoriyası məhz azər-baycanlı alim Zərifə Əliyeva tərəfindən Bakıda yaradılmışdır. O, praktiki olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuşdur. Apardığı tədqiqatların gedişində "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik siste-minin anatomik fizioloji təbiəti" və s. kimi onlarca elmi məqalə və monoqrafiyalar çap etdirmişdir.

Uzunmüddətli araşdırmaların və tə-dqiqatların nəticələri görkəmli alimin "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvü-nün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmniş və bu tədqiqatlara görə Zərifə xanım Əliye-va 1977-ci ildə tibb elmləri doktoru elmi adına layiq görülmüşdür.

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işləri-nin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmo-logiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına Mükafatına layiq gö-rülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşmüşdür.

Zərifə xanımın həkimlik və alimlik fəaliyyətində yüksək mədəniyyət, ziyalı-lıq, kübarlıq, alim və vətəndaş məsuliy-yəti kimi yüksək insani keyfiyyətlər hə-mişə diqqəti cəlb etmiş, həmkarlarına və tələbələrinə gözəl bir nümunə olmuşdur. Onunla yaxından elmi əməkdaşlıq etmiş, birgə araşdırmalar aparmış SSRİ Mərkə-zi Həkimləri Təkmilləşdirmə İnstitutunun göz kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Nina Borisovna Şulpi-na öz alim həmkarı haqqında böyük sə-mimiyyətlə yazmışdı:

“Zərifə xanım elə bir insan idi ki, bir dəfə ünsiyyətdə olan adam onu ömür boyu unuda bilmir. Bu cür şəxsiyyətlər yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi yad-da qalır. Zərifə xanım Əziz qızı haqqında ürəyimdən keçənləri ifadə etməyə söz tapmıram. Obyektivlik naminə qeyd et-mək lazımdır ki, Zərifə xanım Əziz qızı elmi tədqiqatların rəhbəri, alim, pedaqoq, həkim, ictimai xadim kimi öz missiyasını yüksək səviyyədə yerinə yetirməklə ya-naşı, həm də gözəl ana və həyat yoldaşı idi. O, bütün varlığı ilə həyat yoldaşının, daha sonra isə nəvələrinin də qayğıları ilə yaşayırdı”.

Akademik Zərifə Əliyeva gözəl pe-daqoq, tədqiqatçı alim, xəstəliklərin pro-filaktikası və tibbi biliklərin yayılmasında fəal təbliğatçı olmaqla yanaşı, Azərbay-canda müasir oftalmologiya məktəbini yaradan tibb korifeylərimizdən biridir.

Zərifə xanım səhiyyədə kadr hazırlı-ğına və həkimlərin ixtisasının təkmilləş-dirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında tibb alim-lərinin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Bu barədə onun tələ-bələrindən biri oftalmoloq-alim, professor Kərəm Kərimov yazır: “Mən özümü xoş-bəxt sayıram, çünki vaxtilə bir çox gənc, istedadlı mütəxəssis kimi Zərifə xanım Əliyevanın diqqət əhatəsində olmuşam. Öz fəaliyyət sahəmdə daha böyük nailiy-yətlərə çatmaq, uğurlar əldə etmək üçün, böyük hörmət bəslədiyim Zərifə xanımın qarşısında layiqli hesabat vermək üçün yorulmaq bilmədən öyrənirdim, təkmil-ləşirdim. O. bir məktəb yaratmışdır. İndi o böyük məktəbin yetirmələri: professor Nazim Tağızadə, professor Rasim Ha-cıyev, professor Qalib İskəndərov, tibb elmləri doktorları, professor Paşa Qəlbi-nur, professor Çingiz Cərullazadə, Rafiq Təhməzov və bir çox başqaları oftalmo-logiya sahəsində öz sözlərini demiş alim-lərdir və Azərbaycanı dünyada layiqincə təmsil edirlər. Zərifə xanım Əliyevanın yetirmələri olduğumuzdan bütün tələ-bələri kimi, mən də həmişə böyük qürur hissi duyur, fəxr edirəm”.

Zərifə xanım heç zaman gərgin iş-dən usanmamış, ürəkdən və ilhamla ça-lışmışdır. Onun həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmi-miliyi və qayğıkeşliyi, insanlara və onla-rın problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetir-mələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Akademik Zərifə Əliyevanı həmişə həkim etikası və tibbi deontologiya məsələləri düşündürmüşdür. O, gənc həkimlərin insan və vətəndaş kimi yetiş-məsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə böyük diqqət vermiş, həkim xəstə mü-nasibətlərinin tədqiqi sahəsində elmi araşdırmalar aparmışdır. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, “Yüksək etimad” kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir.

Zərifə xanım, haqlı olaraq, belə he-sab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləş-dirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özü-nün ağrıları hesab

edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək , hər dəfə xəstəliyə düçar olmuş insanla söh-bət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Özünün zəngin tibbi təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin sözlə müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düş-mək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir.

Tibb elminin inkişafına verdiyi böyük töhfələrə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Akademik Zərifə Əliyeva həm də görkəm-li ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müa-vini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Akademik Zərifə xanım Əliyeva So-vet və Azərbaycan oftalmologiya elminin görkəmli xadimlərindən biri, 12 monoqra-fiya və dərslik vəsaitinin, 150 yaxın elmi işin, bir ixtira və 12 səmərələşdirici təklifin müəllifi, yüzlərlə yüksək ixtisaslı tibb kad-rlarının hazırlanmasında böyük əməyi olan nüfuzlu alim kimi müasirləri tərəfin-dən xoş xatirələrlə anılır.

Dünya şöhrətli oftolmoloq, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutu-nun direktoru, akademik M. Krasnov Zə-rifə xanım Əliyeva haqqında xatirəsində yazırdı: “Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsay-dım deyərdim: o, həm xeyirxah idi, həm ağıllı, həm də qüdrətli... Əgər mən peşə-kar ədəbiyyatçı kimi Zərifə xanım Əliye-va haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu “Əvəzolunmaz insan haqqında povest” adlandırardım”.

Əbəs yerə demirlər ki, insanın bö-yüklüyü onun sadəliyindədir. Bir təbib, bir müəllim, bir alim, bir ictimai xadim kimi qazandığı şöhrətinin ən yüksək zirvə-də olduğu vaxtlarda da akademik Zərifə xanım Əliyeva belə də qaldı: qayğıkeş, mehriban, gülərüz, Bəlkə də bəşər ta-rixində nadir şəxslərə qismət olmuşdur ki, dövlət xadiminin övladı, həyat yoldaşı və anası kimi şöhrətin ən uca mərtəbə-sinə yüksəlsin, lakin özünün qazandığı İnsanlıq zirvəsini bütün şan-şöhrətlərdən uca tuta bilsin.

Belə bir deyim də var: “hər uğurlu ki-şinin arxasında bir ağıllı qadın dayanır”. Böyük bir məhəbbətlə sevdiyi ömür-gün yoldaşını həmişə dərin hörmət və ehti-ramla xatırlayan ulu öndər Heydər Əliyev deyirdi:

Zərifə xanımın Ana obrazı da mükəm-məldir, təkrarsızdır. Hər bir valideynin öz övladlarını sevməsi təbii hissdir. Lakin övladı sevərək sağlam, mədəni, təhsilli, vətənpərvər böyütmək, xoşbəxt yaşat-maq, ədəb-ərkan, tərbiyə vermək, kamil insan kimi yetişdirmək hər valideyinin imkanı və bacarığı daxilində deyildir. Bu mənada Zərifə xanım həm də xoşbəxt anadır ki, mənsub olduğu xalqa dəyərli övladlar bəxş etmişdir. Oğlu İlham Əliye-vin şagird, tələbə, gənc alim kimi uğur-larına sevinsə də, Zərifə ana müstəqil Azərbaycanı qüdrətli dövlətə çevirən, ərazi bütövlüyünü təmin edən Prezident və Ali Baş Komandan İlham Əliyevin zəfər təntənəsini görə bilmədi. Amma ruhlar yaşayır. Və bu gün Zərifə xanımın ruhu şad və arxayındır.

Heç şübhəsiz ki, hər bir insan kimi Zərifə xanımın da həyatı, ailəsi, yaxınları barədə bir çox arzuları var idi. Onun ar-zularından biri Azərbaycanda elmi-kliniki Oftalmoloji Mərkəzin yaradılması idi. Ötən əsrin 80-ci illərinin əvvəllərində mərkəzin tikintisinə başlanılsa da, Heydər Əliyevin 1982-ci ildə iş yerinin Moskvaya dəyiş-məsi ilə əlaqədar bu işlər ləngidi, sonrakı illərdə isə tamamilə dayandırıldı. Yalnız Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində Milli Oftalmologiya Mərkəzi tikilib başa çatdırıldı. 2009-cu il mayın 22-də Prezident İlham Əliyevin iştirakı ilə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin yeni bina-sının açılışı oldu.

Hazırda regionun ən böyük tibb ocaqlarından biri olan akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkə-zi görkəmli alim və böyük insan Zərifə xanım Əliyevanın xatirəsini və arzularını yaşadan qiymətli bir abidədir.

Zərifə xanımın ən böyük abidəsi isə gözünə nur verdiyi, şəfqət bəxş etdiyi insanlar, onların övladları, yetişdirdiyi tələbələr, yazdığı kitablar, insanlıq üçün irs qoyub getdiyi zəriflik və alicənablıq, xeyirxahlıq və insan sevgisidir. Akade-mik Zərifə xanım Əliyeva həm də ona görə xoşbəxt insandır ki, onun xeyirxah əməlləri yaşayır və davam edir. Onun elmi tədqiqatları, yazdığı əsərlər bu gün də insanlara fayda verir.

Zərifə xanımın humanist həkimlik peşəsi, alim, ictimai xadim kimi fəaliyyəti, ləyaqətli həyat yoldaşı, ana, nənə missi-yası bu gün də ulu öndər Heydər Əliyevin ocağında Mehriban xanım Əliyevanın şəx-sində yeni, daha böyük məna kəsb edərək davam edir. Hörmətli Mehriban xanım Əli-yeva da istedadlı göz həkimi, görkəmli alim və səhiyyə təşkilatçısı, dövlət xadimi kimi humanizmi və xeyirxahlığı təcəssüm etdi-rir, həm də ailə ənənələrindən gələn şərəfli missiyanı yaşadır, öz yorulmaz fəaliyyəti ilə milyonlarla insana sevinc, xoşbəxtlik və gələcəyə inam bəxş edir.

**Xalq qəzeti.** - 2023.- 28 aprel. - № 86. - S. 8.

## Nəsillərə örnək olan həyat yolu

**Sahibə Qafarova,**
Azərbaycan Respublikası Milli Məclisinin sədri

**Tanrının Azərbaycan xalqına, dünya tibb elminə bəxş etdiyi dünya şöhrətli alimlər sırasında akademik Zərifə xanım Əliyevanın xüsusi yeri var. Azərbaycan oftalmologiya məktəbini dünyaya tanıdan böyük alim, şəfalı əlləri ilə gözlərə nur bəxş edən mahir həkim, dərin biliklərini tələbələri və həmkarları ilə bölüşən bacarıqlı pedaqoq, maarifçi və vətənpərvər, eyni zamanda, fədakar ömür-gün yoldaşı, qayğıkeş ana, zəngin daxili aləmə malik şəxsiyyət, səmimi və xeyirxah insan Zərifə Əliyeva bütün həyatını, enerjisini və istedadını Azərbaycan xalqına təmənnasız xidmətə həsr etmişdir. Onun həyatının hər səhifəsi mənəvi kamillik zirvəsinə aparan yolun ayrı-ayrı mərhələləridir.**

### Peşəkar və yorulmaz fəaliyyəti ilə insanlara daim nur bəxş edən oftalmoloq-alim

Zərifə xanımın dünyaya göz açdı-ğı və böyüyüb boya-başa çatdığı ailə respublikada və onun hüdudlarından kənarda yaxşı tanınırdı. Atası Əziz Əliyev görkəmli dövlət xadimi, istedadlı alim olmaqla yanaşı, həm də bacarıqlı səhiyyə təşkilatçısı idi. Əlbəttə, zəngin biliklərə və yüksək mənəviyyata malik olan bu nüfuzlu şəxsiyyətin nümunəsi övladları üçün bir həyat məktəbi idi. Qardaşları Tamerlan və Cəmil kimi, Zərifə xanımın da həkimlik peşəsini seçməsində bu məqam mühüm rol oy-namışdı.

1942-ci ildə Zərifə Əliyeva Azər-baycan Dövlət Tibb İnstitutunun müa-licə-profilaktika fakültəsinə daxil olaraq 5 il sonra institutu fərqlənmə diplomu ilə bitirir. Oftalmoloq ixtisasına yiyələn-mək arzusunda olduğuna görə sonra Moskvada Ümumittifaq Həkimləri Tək-milləşdirmə İnstitutunda ixtisasartırma kursu keçir.

Zərifə xanım fəaliyyətinin bütün mər-hələlərində öz yüksək bilik və bacarıq-larını xalqının sağlamlığına həsr edib, bu yolda fədakar xidmətlər göstərib. 1950-ci illərdə Azərbaycanda da geniş yayılmış traxoma xəstəliyinin müalicə yollarının tapılması Zərifə xanım Əliye-vanı düşündürür və o, bütün diqqətini və səylərini xəstəliklə mübarizəyə həsr edir. Zərifə xanım Əliyeva Azərbayca-nın traxoma ocağı aşkar edilən bütün rayonları qarış-qarış gəzərək, traxoma və digər göz xəstəliklərinin profilaktika-sı, diaqnostikası və müalicəsi haqqında əməli Tədbirlər Planını yüksək səmərə ilə həyata keçirir.

Ölkəmizdə traxoma əleyhinə işlə-dilən mövcud dərman preparatları ilə yanaşı, güclü antibiotik sayılan sinto-misindən istifadənin ilk təşəbbüsçüsü də məhz Zərifə xanım Əliyeva olur. Traxomanın ləğvi yolunda yorulmaq bilmədən aparılan intensiv elmi araş-dırmalar, əldə edilən dəyərli nəticələr Zərifə xanım Əliyevanın namizədlik dissertasiyasının ana xəttini təşkil edir, o, 1959-cu ildə “Traxomanın digər te-rapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizəd-lik dissertasiyasını uğurla müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi alır.

Zərifə Əliyevanın zəngin elmi fəaliyyəti, tədqiqatları, Azərbaycan səhiyyəsinin inkişafına sanballı töhfələri

Akademik Zərifə Əliyevanın tə-dqiqatları, alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixin-də xüsusi mərhələ təşkil edir. 1960-cı ildən 1967-ci ilədək Oftalmologiya İns-titutunda böyük elmi işçi vəzifəsində, 1967-ci ildən əmək fəaliyyətinin sonu-nadək Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnsti-tutunda çalışan Zərifə xanım Əliyeva apardığı elmi tədqiqatların nəticələrini ümumiləşdirərək, 1977-ci ildə dünya-nın ən nüfuzlu oftalmoloji mərkəzlə-rindən biri olan Moskva Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyasını uğurla müdafiə etmiş-dir. Elə həmin il Zərifə xanım Azər-baycan Dövlət Həkimləri Təkmilləşdir-mə İnstitutunun professoru, bir qədər sonra isə oftalmologiya kafedrasının müdiri seçilmişdir. 1981-ci ildə o, of-talmologiya sahəsində ən yüksək mü-kafata – SSRİ Elmlər Akademiyasının professor Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd edilməlidir ki, Zərifə xanım Əliyeva həmin ali mükafa-tı alan ilk qadın alim olmuşdur. 1983-cü ildə isə Zərifə xanım Azərbaycan Elm-lər Akademiyasının həqiqi üzvü seçilir.

Bütün bunlar onun tibb elminə və praktikasına verdiyi töhfələrin nə qə-dər yüksək qiymətləndirildiyini bir daha ifadə edirdi. O, bir sıra orden və me-dallara layiq görülmüş, Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Zərifə Əliyeva dünya təcrübəsində birincilər sırasında peşə fəaliyyəti, xü-susən kimya və elektron sənayelərin-də peşə fəaliyyəti ilə bağlı göz xəstə-liklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın aktual problemlərinə dair tədqiqatlar aparmışdır. Bu gün mütəxəssislərin, bu sahədə fəaliyyət göstərən dəyərli alimlərin də qeyd etdiyi kimi, Zərifə xa-nım Əliyevanın elmi fəaliyyətinin əsas sahələrindən biri olan klinik diaqnosti-ka istiqamətində apardığı tədqiqatlar və onların nəticələri əsasında həkimlər üçün yazılmış dərs vəsaiti və monoq-rafiyalarda əks olunmuşdur. Bu əsər-lər və araşdırmalar elmi ictimaiyyət və praktik

həkimlər tərəfindən böyük rəğ-bətlə qarşılanmışdır. O, Azərbaycanda lakrimologiyanın əsasını qoyan alim kimi qəbul edilir. Bütün bunlarla ya-naşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya yazmışdır. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid ki-tabları ilk dəfə akademik Zərifə Əliyeva yazmışdır.

Beləliklə, əminliklə qeyd edə bilərik ki, Zərifə xanım Əliyevanın zəngin elmi fəaliyyəti, nüfuzlu tədqiqatları Azərbay-can səhiyyəsinin inkişafına sanballı töhfələr vermişdir. Onun elmi nəticələri geniş miqyasda tətbiq edilməklə ya-naşı, respublikada səhiyyənin digər sahələrinin də inkişafına stimul vermiş-dir. Akademik Zərifə Əliyevanın zəngin elmi irsi Azərbaycan tibb elminin sərvə-tidir. Onun elmi təfəkkürünün məhsulu olan 150-yə yaxın elmi tədqiqat işi, 12 monoqrafiya, dərslik və dərs vəsaiti, 1 ixtira və 12 səmərələşdirmə təklifi bu gün də aktuallığını qoruyub saxlayır.

Zərifə Əliyevanın çoxşaxəli fəaliy-yətinin ən mühüm istiqamətlərindən birini pedaqogika sahəsi təşkil edib. Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, Oftalmologiya kafedrasının müdiri kimi, o, yüksəkix-tisaslı səhiyyə kadrlarının hazırlanma-sına böyük əmək sərf edib, həkimlərin biliyinin artırılması üçün qüvvəsini və vaxtını əsirgəməmişdir. Onun birba-şa rəhbərliyi altında gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım Əliyevanın yetirmələri olan alimlər oftalmologiya sahəsində onun başladığı genişmiq-yaslı elmi araşdırmaları bu gün də uğurla davam etdirirlər.

Zərifə xanım Əliyeva Azərbaycan qadınının ən gözəl xüsusiyyətlərini öz şəxsiyyətində təcəssüm etdirən əsl zi-yalı idi. Görkəmli oftalmoloq-alimin də-rin biliyi və mədəniyyəti, insanpərvərli-yi, səmimiliyi və təvazökarlığı, Vətənə məhəbbəti və xeyirxahlığı onun şəx-siyyətini tərənnüm edən gözəl insani keyfiyyətlər idi.

Zərifə xanımın daxili aləmi, vəzifə borcuna, xəstələrə və ətrafdakılara münasibəti 1983-cü ildə nəşr edilmiş “Həkimin əxlaqi tərbiyəsi, deontologi-ya, səhiyyə etikası və əxlaq məsələlə-ri” əsərində özünü daha parlaq büruzə verir. Qeyd etmək lazımdır ki, onun bu əsəri mahiyyət etibarilə daha geniş əhəmiyyət kəsb edir, təkcə səhiyyə aləmində deyil, həm də məişət və ailə əlaqələri də daxil olmaqla, bütövlükdə cəmiyyətdə insanların qarşılıqlı müna-sibətlərinin öyrənilməsində önəmli rol oynayır.

Zərifə Əliyeva tibb işçisinin ətrafda-kıların tərbiyəsində mühüm rol oynadı-ğını, cəmiyyətin əxlaq etalonu olduğu-nu qeyd edirdi. Həkimin borcu insanın sağlamlığı, həyatı və xoşbəxtliyi na-minə çalışmaqdır. Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin həyati mövqeyi onun xəstəyə münasi-bətini müəyyənləşdirən başlıca amildir: “Yalnız o şəxs əsl həkimdir ki, xəstə-nin ağrılarını məhz özünün ağrıları he-sab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısın-da, başlıcası isə öz vicdanı qarşısında mənəvi məsuliyyəti deməkdir”.

### Ağıllı, yüksək insani keyfiyyətlərə malik insan, nəciblik və mənəvi paklıq timsalı

Dünya oftalmologiya elminin ta-nınmış simaları Zərifə xanım Əliyeva haqqında dəyərli fikirlər söyləmişlər. SSRİ Mərkəzi Həkimləri Təkmilləşdir-mə İnstitutu Oftalmologiya kafedrasının professoru, akademik Filatov adına mükafatın laureatı V. V. Şmelyova Zərifə xanımın elmi fəaliy-yətinə belə qiymət vermişdir: “Zərifə xanım, hər şeydən əvvəl, həyat sev-gisi və maraq dairəsinin böyüklüyü ilə fərqlənirdi: o, həkim-oftalmoloq sənə-tinin vurğunu idi, elmi tədqiqatlara çox vaxt sərf edirdi, oftalmologiyada yeni, çox çətin və az öyrənilən bir sahəni araşdırmış, bu tipli xəstəliklərin profi-laktikasına və müalicəsinə böyük töhfə vermişdir. Zərifə Əziz qızı həyatda ol-duğu kimi, elmdə də özünə asan yol seçməmiş, elmin az öyrənilən, lakin inkişafı günün tələbi olan sahələrini araşdırmışdır”.

Dünya şöhrətli oftalmoloq, akade-mik A.Nesterov demişdir: “Zərifə Əliye-va çox ağıllı insan və böyük professio-nal idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi”. Akademik N.Puç-kovskaya “Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi” deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Professor N.Şulpina Zərifə xanımı dünya şöhrətli alim ad-landıraraq, “biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcə-yik” demişdir.

Akademik Zərifə Əliyeva ölkənin ictimai həyatında da yaxından iştirak etmişdir. O, SSRİ Sülhü Müdafiə Ko-mitəsinin üzvü, Azərbaycan Sülhü Mü-dafiə Komitəsi sədrinin müavini kimi dünya xalqlarını sülhə, əmin-amanlığa səsləyirdi. Oftalmoloqların qurultayları-nın, konfranslarının, simpoziumlarının fəal iştirakçısı və bir sıra hallarda təş-kilatçılarından biri olmuşdur. 1977-ci ildə onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Dünya şöhrətli alimlərin iştirak etdiyi bu mötəbər tədbir Azər-baycan elminin inkişafı naminə nüfuz-lu elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlan-ması üçün böyük imkanlar yaratmışdır.

Zərifə xanım Əliyeva respublika “Bilik” Cəmiyyəti İdarə Heyətinin, SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, həmçinin Moskvada çıxan “Oftalmologiya xəbərləri” (“Вестник офтальмологии”) jurnalının

redaksiya heyətinin üzvü olmuşdur. Bütün bunlar Zərifə xanımın zəngin potensialının ic-timai fəaliyyət sahəsində parlaq təza-hürləri idi.

**Zərifə Əliyeva ulu öndərin ən sədaqətli dostu və etibarlı sirdaşı idi**

Tale Zərifə xanıma başqa bir yüksək missiyanı da həvalə etmişdi. O, müasir müstəqil Azərbaycanın qurucusu, dahi şəxsiyyət, nəhəng siyasətçi Heydər Əliyevin həyat yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı idi.

Uzun illər Azərbaycanın təhlükə-sizlik orqanlarında işlədikdən, 1964-cü ildən respublika Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci il-dən isə bu qurumun sədri vəzifələrində çalışdıqdan sonra ulu öndərin respubli-kaya ilk dəfə rəhbərlik etməyə başladığı 1960-cı illərin sonlarını xalqımız yaxşı xatırlayır. O dövrdə respublikanı ictimai, siyasi, sosial-iqtisadi və mənəvi böhran bürümüşdü. Üstəlik, respublikada rüş-vətxorluq və korrupsiya geniş miqyas almışdı. Tənəzzülün qarşısını almaq, quruculuq proseslərinə geniş vüsət vermək üçün həyata keçirilən işlərdən əlavə, Heydər Əliyev keçmiş SSRİ mə-kanında ilk dəfə olaraq neqativ hallara qarşı məqsədyönlü və barışmaz müba-rizəyə başlamışdı. Vəzifə səlahiyyətlə-rindən sui-istifadə edənlərə, xalq malını mənimsəyənlərə güzəşt edilmirdi. Təbi-idir ki, narazı qalanlar da az deyildi. On-lar respublikada həyata keçirilən dərin islahatlara müxtəlif yollarla mane olma-ğa çalışırdılar.

Bütün bunlara baxmayaraq, gö-rülən ardıcıl tədbirlər nəticəsində döv-lət və cəmiyyət həyatında əsaslı dəyi-şikliklər baş verdi. Sovet İttifaqının ən geridə qalan respublikalarından biri olan Azərbaycan tənəzzüldən çıxaraq yüksəliş yoluna qədəm qoydu.

1982-ci ildən etibarən ulu öndər Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bü-rosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini olaraq, çox-saylı digər məsələlər ilə yanaşı, sovet dövlətinin son dərəcə önəmli sahələri üçün məsuliyyət daşıyırdı. Moskva-da hakimiyyətin ən yüksək zirvəsində olan bu böyük dövlət xadimi öhdəsinə düşən vəzifələri uğurla yerinə yetirmək üçün həddindən artıq gərgin bir şərait-də çalışmalı olurdu.

Xoşbəxtlikdən, bu cür ağır iş pro-sesində Heydər Əliyevin bir dayağı da ailəsindən aldığı mənəvi dəstək idi. Sonralar, 1995-ci ildə ulu öndər Zərifə Əliyevanın abidəsinin açılışı zamanı ömür-gün yoldaşının onun həyatında oynadığı rol haqqında belə demişdi: “Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə ça-lışmağımda, hesab edirəm ki, ailə və-ziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mü-hit yaratdığına görə mən xoşbəxt olmu-şam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlə-rinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sə-daqətlə, çox böyük məharətlə yerinə yetirib”.

Zaman bizi Zərifə Əliyeva kimi bö-yük şəxsiyyətlərdən uzaqlaşdırdıqca biz onların dəyərini daha dərindən dərk edirik. Zərifə xanım zəngin elmi-pe-daqoji fəaliyyəti ilə adını elm və pe-daqogika tariximizə qızıl hərflərlə yaz-mış böyük alim və müəllim, xeyirxah əməlləri ilə könülləri sevindirmiş nurlu insan, eyni zamanda, müasir Azərbay-canın qurucusu Heydər Əliyevin ömür-gün yoldaşı olmuş şərəfli Azərbaycan qadını və daim Azərbaycan sevgisi ilə yaşayan iki övlad böyütmüş, Vətəni-mizə Qarabağın və Şərqi Zəngəzurun xilaskarı İlham Əliyev kimi uzaqgörən rəhbər bəxş etmiş bir ana olaraq xalqı-mızın qəlbində özünə əbədi abidə ucaltmışdır.

Düşünürəm ki, Azərbaycan Res-publikasının Prezidenti cənab İlham Əliyevin Zərifə xanım haqqında söy-lədiyi sözlər bu böyük insanla bağlı keçirdiyimiz duyğuları dəqiq ifadə edir: “Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar və tanımayanlar, haqqında kitablar-da, məqalələrdə oxuyanlar da, hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır. Zərifə xanım böyük həkim, böyük alim, böyük insan idi. Onun əziz xatirəsi onu tanıyanların qəl-bində daim yaşayacaqdır”.

Bu gün ulu öndər Heydər Əliyevin başladığı böyük quruculuq işlərinin Pre-zident İlham Əliyev tərəfindən zamanın çağırışlarına uyğun olaraq yaradıcı surətdə davam etdirilməsi nəticəsində Azərbaycan geniş bir bölgədə söz sa-hibi olmuş və dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilmişdir. Zə-rifə xanımın qəlbinin bütün hərarətini verdiyi ailə ocağı bu gün də gur yanır, onun şöləsi bütün Azərbaycana yayı-lıb. Möhtərəm Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xa-nım Əliyevanın qoruduqları bu ocağın nuru vətənimizin və xalqımızın xoşbəxt gələcəyinə gedən yolu aydınladır.

**Xalq qəzeti.** - 2023.- 28 aprel. - № 86. - S. 1,7.

## Xoş xatirələrin işığında...

**Zümrüd Qurbanqızı**

***1986-cı il 15 aprel. Moskva. Novodeviçye qəbiristanlığı. Hardansa, yaxınlıqda doğma bir melodiya eşidilir, ana dilimizdə kimsə asta-asta, aramla oxuyurdu:***

**Hər gecəm oldu kədər,**
**qüssə-fəlakət sənsiz,**
**Hər nəfəs çəkdim hədər**
**getdi, o saət sənsiz...**

Müslüm idi, Zərifə xanımın məzarı başında, o böyük insanın ən sevimli mahnısı "Sənsiz"i oxuyan. Əliyevlər ailəsinin yaxın dostu, SSRİ Xalq artisti Müslüm Maqomayev illər sonra o hüznlü günü belə xatırlayırdı: "Zərifə xanımın həyatdan getməsinin bir ilini qeyd edəndə biz qəbir üstünə getdik. Heydər Əlirza oğlu məndən onun qəbrinin üstündə oxumağı xahiş etdi. Mən Zərifə xanımın çox sevdiyi Üzeyir bəy Hacıbəylinin "Sənsiz"ini astadan oxudum. Beləliklə, biz onunla bir daha vidalaşdıq (sonralar Heydər Əlirza oğlu onun nəşini Azərbaycana gətirdi, burada dəfn elədi).

Nikolay Dobronravovun sözlərinə "Elegiya" adlı mahnını mən Zərifə Əzizovnaya həsr etmişəm. Yadımdadır, mən bu mahnını ilk dəfə televiziyada ifa edəndə Heydər Əlirza oğlu mənə zəng etdi: "Sən necə mahnı oxudun! Mən bu mahnını eşidəndə ağladım!" - demişdi...".

Zərifə Əliyeva: ürəklərdə əbədi yaşayan xoş bir xatirə. 1923-cü il 28 aprel. Bu xoşbəxt taleli insanın doğum günündən 100 il ötür. 62 yaşında bu dünyanı tərk edən Zərifə xanım artıq 38 ildir ki, xoş bir xatirəyə dönüb...

Akademik Zərifə Əliyeva hər şeydən əvvəl, görkəmli alim-oftalmoloqdur. Təkcə oftalmoloqmu?! O, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Elmdə məqsədyönlü fəaliyyəti indi də insanı heyrətə gətirir. Axı, onun elmi fəaliyyətinin əsas istiqaməti görmə orqanının peşə patologiyasının müəyyənləşdirilməsi kimi mühüm sahəyə yönəlmişdi. O vaxtlar bu problemin həllinə çoxları girişə bilməmişdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik, yüksək təşkilatçılıq bacarığı da vacibdir. Zərifə xanım Əliyevaya məhz bütün bu keyfiyyətlər xas idi.

Ümummilli liderin həyatından bəhs edən "Heydər Əliyev: Tale yolları" kitabının müəllifi Nikolay Zenkoviç Zərifə xanımın təvazökarlığından, mehribanlığından, yüksək keyfiyyətlərindən, mənəvi zənginliyindən də bəhs edir: "Mən Siyasi Büro üzvlərinin arvadları barədə bioqrafik məlumatları diqqətlə araşdırmışam, müqayisə etmişəm. Hansı nəticəyə gəlmişəm. Aydın olub ki, onlar arasında ən savadlı qadın Siyasi Büro üzvü Heydər Əliyevin xanımı olub. O, hətta Sov. İKP MK baş katibinin arvadı Raisa Maksimovnadan da savadlı idi. Özü də təkcə savadlı yox, Zərifə xanım hərtərəfli bir şəxsiyyət idi...".

Hələ 1976-cı ildə Helmqolts adına İnstitutun İxtisaslaşmış Elmi Şurasında onun tibb elmləri doktoru alimlik dərəcəsi adı almaq üçün etdiyi dissertasiya müdafiəsini indi də həmkarları böyük rəğbətlə xatırlayır və öz xatirələrində qeyd edirlər ki, əgər əcəl Zərifə xanıma bir neçə il də möhlət versəydi, o, elm aləmində yeni bir istiqamətin yaradıcısı və rəhbəri ola bilərdi.

Geniş dünyagörüşə malik şəxsiyyət kimi tanınan Zərifə xanım görkəmli oftalmoloq-alim olmaqla bərabər, həm də ədəbiyyatı, incəsənəti gözəl bilirdi. O, fortepiano üzrə musiqi təhsili almışdı, kolleqaları onun ifasında həm klassik, həm də populyar musiqiləri tez-tez eşidirdilər. Çünki Zərifə xanım çalışdığı kollektivlə tez-tez bir yerə yığışar, ad günlərini, övladlarının uğurlarını birgə qeyd edərdilər. O, ailədə də belə idi. Royalın ağ, qara şırmayı dillərini tez-tez dilləndirər, bu işdə ona ömür-gün yoldaşı Heydər Əliyev də dəstək olardı. Sevimli mahnılarını birgə ifa edərdilər...

Zərifə xanım gözəl natiq idi. Azərbaycanın Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında oxuduğu mühazirələr, Oftalmoloqlar Cəmiyyətinin qurultay və plenumlarında, Moskva Oftalmoloqlar Cəmiyyətinin plenar iclaslarında etdiyi məruzələr, istərsə də publisistik çıxışlarında Zərifə Əliyeva özünün yüksək natiqlik istedadını göstərirdi.

Yüksək həkimlik etikasının təmsilçisi olan Zərifə xanım insan sağlamlığını ictimai sərvət, insanların gözünə nur vermək kimi müqəddəs bir işi isə bəşəri humanizm hesab edirdi. O, öz həmkarlarına həmişə deyirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi idi - insanı sağaltmaqla onu öz məninə qaytarmaq. Bu baxımdan, yüksək peşəkarlığı ilə həmkarları arasında seçilən Zərifə xanım xüsusilə gənclərə təlqin edirdi ki, əxlaqi-tibbi düşüncə "sənəti"ni dərk etmək üçün ilk növbədə, sağlam mənəvi-intellektual mühit, bütün tibb ictimaiyyətinin mənəvi-əxlaqi meyarlara yiyələnməsi tələb olunur. Həkimin başlıca peşəsi müalicə kursunu

müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir. O, özü bir nümunə idi.

Professor Zəhra Quliyevanın aşağıdakı fikirləri də dediklərimizi təsdiq edir. O yazırdı: "Bilirsiniz, yaxşı həkim olmaq və eyni zamanda yaxşı insan olmaq xüsusi məna daşıyır. Onu tanıyanlar, ona müraciət edən pasiyentlər təsdiq edə bilərlər ki, onun necə böyük ürəyi vardı, o necə sadə insan idi. Xəstələrinin çoxu bilmirdi ki, o, respublikanın rəhbəri Heydər Əliyevin həyat yoldaşıdır. Onun özü də bunu hiss etdirmək, nəzərə çarpdırmaq istəmirdi. Bütün xəstələr onu şəxsiyyət kimi sevirdilər...".

Onu hamı mərhəmət ünvanı kimi də tanıyırdı. Kimsənin xətrinə dəyməz, onun mərhəmətinə pənah gətirənləri ümidsiz qaytarmazdı. İşinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq qalmağı bacarır, ailəsinə dayaq olurdu. Qayğıkeş ana idi. Prezident İlham Əliyevin biologiya müəllimi Emma Kazımova öz xatirələrində yazırdı: "... Bir dəfə gördüm ki, Zərifə xanım dəhlizdə İlhamın ayaqqabısının bağını bərkidir. Onda o, birinci sinifdə oxuyurdu. Mən ərklə Zərifə xanıma dedim: "Zərifə xanım, İlhamın ayaqqabısının bağını siz niyə bağlayırsınız, böyük oğlandır, qoyun özü bağlasın". Olduqca mehriban, səmimi, mələk üzlü Zərifə xanım gülüb dedi: "...İlhamın belə görünməyinə baxmayın, onun hələ məktəb yaşı çatmır. Sinif yoldaşlarının hamısından kiçikdir...". Zərifə xanım uşaqlarını aşağı sinifdə oxuyanda məktəbə özü gətirir, özü də gəlib aparırdı. Çox sadə, səmimi, ziyalı bir xanım idi. Özünü başqa valideynlərdən qətiyyən fərqləndirmirdi".

Sadəlik mücəssəməsi idi Zərifə xanım. Bütün ömrünü insanlara işıq bağışlamağa həsr etmişdi. Hamı ictimai xadim kimi də onun fəaliyyətini dəyərləndirir, Azərbaycan dövlətçiliyində birinci xanım ənənələrinin formalaşma tarixinin tədqiqinə meyil göstərən araşdırmaçılar bu ənənələrin təzahürlərini daha çox Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyini əhatə edən dövrdə axtarmağa çalışırlar. Çünki nə ümummilli lider Heydər Əliyevə qədər, nə də ondan sonra Azərbaycana rəhbərlik edən şəxslərin həyat yoldaşlarının ictimai fəaliyyəti Azərbaycan dövlətçiliyində birinci xanım ənənələrinin təşəkkülü və inkişafı ilə bağlı hər hansı faktı diqqətə çatdırmır. Bu baxımdan, Zərifə xanım Əliyevanın ictimai fəaliyyəti ilə bağlı zəngin faktlar istisna sayıla bilər. Sovet idarəçilik sistemi birinci xanım anlayışını qəbul etmədiyindən, Zərifə xanımın ictimai fəaliyyəti onun bir alim kimi cəmiyyətdə böyük nüfuzundan, dünya şöhrətindən irəli gəlirdi. Azərbaycanda birinci xanım ənənələrinin formalaşmasına gəlincə isə taleyin xoş bir qanunauyğunluğu bunu Zərifə xanım Əliyevanın həyat məktəbindən öyrənən, bu nəcib irsin daşıyıcısı olan şəxsə nəsib edəcəkmiş...

**Respublika.** - 2023.- 28 aprel. - № 86. - S. 8.

## Ümid ünvanı...

### Unudulmaz müəllimim akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə…

**Paşa Qəlbinur**,
ATU-nun oftalmologiya kafedrasının müdiri, professor

***ANA! Öz tutumuyla bu varlıqla müqayisə olunası iki ruhi-müqəddəs tanıyıram: Çörək, "Qurani-Kərim". Bu sözün - varlığın bütün canlılarda, gücü, anlamı eynidir. Övlad yolunda, dünyaya gətirdiyinin yolunda həyatından belə keçmək qüdrəti. Mütləq məhəbbətin bir nümunəsi. Gəlin etiraf edək ki, bu qan yaddaşından gələn məhəbbətin də dərəcələri olur, belə deyək ki, daha böyükləri, nəhəngləri olur. Və bu nəhəng hisslər, sevgilər zərif analarımızın qəlbində olur. Analar övladlarını laylalarla, bayatılarla oxşayırlar. Zərifə xanım haqqında bir Ana kimi danışanda öz müşahidələrimdən başqa, xatirəsi həmişə mənə əziz olan iki gözəl insanın - müəllimlərimin sözləri yada düşür. Professor Zəhra xanım Quliyeva və dosent Ləzifə xanım Əliyeva (Ləzifə xanım Zərifə xanımın böyük bacısı idi). Onlar danışırdılar ki, Zərifə xanım övladlarına fanatik məhəbbətli bir Ana idi. İşdə müxtəlif otaqlardakı telefonlardan dəfələrlə zəng edib evdə qoyub gəldiyi ciyərparalarını soruşardı. Və bu telefon danışıqlarından yalnız birini dinləyən adam heç vaxt onu unutmaz, bir ananın övladlarına olan məhəbbətinin ifadəsini ömrü boyu özüylə gəzdirərdi...***

Onun həyat yoldaşı - o zamanlar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğluna olan münasibətində bir anın şahidi olmuşdum: Ləzifə xanımgildə balaca nəvəsi Eminin ad günündə televiziya ilə verilən dünənki iclasda Heydər Əlirza oğlunun geniş çıxışından söhbət düşəndə Zərifə xanımın gözlərini, üzünün ifadəsini heç zaman unutmaram. Bircə onu dedi ki, mən nəfəsimi dərmədən bütün çıxışı dinlədim, heyran olmuşdum.

Zərifə xanım yeri gələndə çox incə yumorla danışardı. Gülarə xanım da doğmaları, çox yaxınları ilə şux zarafatlar edərdi. O məclisdə Ləzifə xanım azca soyuqlamışdı, Gülarə xanım bunu görcək gülə-gülə dedi ki, Ləzi bacı (o, Ləzifə xanımı mehribancasına belə çağırardı) eybi yoxdu keçib gedəcək. Zərifə xanımın zərif, olduqca yerində olan yumorundan Zəhra xanım, Ləzifə xanım, kafedramızın onunla həmyaş olan dosentləri Səkinə xanım, Rəfiqə xanım saatlarla gözəl xatirələr danışardılar. İncə, zərif, yerinə düşən yumor, yüksək zövq sahiblərinə, geniş dünyagörüşünə malik əslzadələrə məxsus əlamətdir və çox təəssüf ki, bu dünyada bütün yaranmışlara nəsib olan xoşbəxtlik deyil. Bu səadət Zərifə xanımın saysız bəzəklərindən, tale vergilərindən biri idi.

Allah-təala onu valideynlərindən də yarıtmışdı. Zərifə xanım xeyirxah insan, tanınmış alim, siyasi xadim Əziz Əliyevin ailəsində dünyaya gəlmişdi. Anası Leyli xanım ağlı, zəkası ilə dünyanı idarə edəcək bir güc, nur idi. Leyli xanımın da söhbətləri heç vaxt unudulmayacaq gözəllikdə idi. O söhbətlərdən bir epizodu, bir yarpağı xatırladım. Leyli xanım danışırdı ki, həyat yoldaşı Əziz müəllim uzun müddət vətəndən uzaqda işləyirmiş. O vaxt uşaqların böyüyü Ləzifənin əlindən tutub Mircəfərin (Mircəfər Bağırov) qəbuluna getdim, xahiş elədim ki, Əzizi (Əziz Əliyev) Azərbaycana qaytarsın, nə iş verir, versin, lap adi iş olsun. O da qayıtdı ki: Leyli xanım, Əziz Azərbaycana gəlsə o, heç bir işdə işləyə bilməz, ona layiq olan yer, ancaq mənim yerimdir, onu da mən tutmuşam. Bunu deyib bir xeyli susdu. Mən də gözləmədiyim cavabdan sonra heç bilmədim nə deyəm, sağollaşıb gəldim evimizə.

Zərifə xanımın böyük qardaşı professor Tamerlan Əziz oğlu Əliyev Tibb Universitetində terapiya kafedrasının müdiri idi. Ürəyimdə bir kitablıq söz, məhəbbət var onun ünvanına. Ancaq bircə onu deyim ki, bu yaşıma qədər doğmalarım, dostlarım, müəllimlərim qarışıq lap yaxından tanıdığım müqəddəslərimin bir siyahısı var ürəyimdə. Mən Allahımı heç vaxt unutmaram, ancaq o adamların Tanrı dərgahındakı hörmətlərinə güvənib dara düşəndə yalnız ürəyimdə pıçıltıyla Allahdan sonra köməyimə çağırıram. O kiçik siyahıda Hüseyn babam var. Var olanlardan biri də Tamerlan müəllimdir. Böyük ləyaqət sahibi, nur daşıyıcısı, professor Tamerlan Əziz oğlu Əliyev! Mənim üçün həmişə yaşayan müqəddəs İnsan!

Bu böyük ailənin, nəsil-şəcərənin Zərifə xanımla bağlı hər bir üzvü Dilbər xanım, akademik Cəmil Əliyev haqqında saatlarla danışmaq imkanım var.

Bir ailənin iki üzvü - olduqca böyük şəxsiyyətlərdən dünyaya gələn övladların genetik varisliyi valideynlərin və övladların böyük xoşbəxtliyidir.

Sevil xanımın qeyri-adi çoxşaxəli istedadı, savadı, təvazökarlığı, mədəniyyətinin bu səviyyədə olmasında atasının və Zərifə xanımın müstəsna rolu olmuşdur. Uzun illər bundan əvvəl Zərifə xanımla anamın arasında olan bir söhbəti unuda bilmirəm. O söhbət Ləzifə xanımgilin evində Ləzifə xanım, qızı Svetlana xanım, Gülarə xanımın yanında olmuşdu. Zərifə xanım deyirdi ki, Sevil bir tikə çörəyi qalanda belə atmır, tullamır, büküb qoyur ki, sonra yeyərəm. Atası ölkənin birinci yox, lap yüzüncü adamı olan qız, ya oğlan uşağından bu cür nümunə, hətta deyərdim ki, müqəddəs davranış nadir hadisə idi, lap elə indinin özündə də heyrət və qibtə doğurardı...

Zərifə xanım alim idi. Adı böyük hərflərlə yazılan ALİM. Zamanı qabaqlayan. Onun bir neçə istiqamətdə apardığı işlər illər keçəndən sonra daha da aktuallaşır, gərəkli olur, qiyməti daha da artır. Məsələn, gözün peşə xəstəlikləri ilə əlaqədar Sovetlər birliyində yaradılan ilk sanballı elmi laboratoriya. Onun rəhbərlik etdiyi, böyük ideyaları reallaşdıran bu kollektivin gördüyü işlərin elmi nəticələri bütün dünyada qəbul olunurdu. Əslində, akademik Zərifə xanım Əliyeva dünyada bu elmi istiqamətin pioneridir. Heç də təsadüfi deyil ki, o SSRİ Tibb Elmləri Akademiyasının yüksək Averbax mükafatına layiq görülmüşdü. Akademik Zərifə xanım Əliyevanın məşğul olduğu elmi istiqamətlərdən biri də iridodiaqnostikaya həsr olunan ilk elmi monoqrafiyanın aparıcı müəlliflərindən olması idi.

Zərifə xanım bu günü uzun illər əvvəl görmüş, tibbi deontologiyaya aid qiymətli elmi-fəlsəfi əsərlər yazmış mərkəzi mətbuatda çap elətdirmişdi.

O, Moskvada nəşr olunan o zamankı Sovetlər birliyinin ən nüfuzlu oftalmoloji elmi dərgisi "Vestnik oftalmologii" jurnalının redaksiya heyətinin üzvü idi. Jurnalın baş redaktoru Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun direktoru, akademik M.M.Krasnov idi. Həmin illərdə mən bu elm ocağında aspiranturada, sonra isə doktoranturada təhsil alırdım. Zərifə xanımla vaxtaşırı həmin elmi mərkəzdə, müxtəlif elmi toplantılarda, ya da jurnalın redaksiya heyətinin yığıncaqlarına gələndə görüşərdik. Bu qısa görüşlərdə o, həmişə çox səmimi olar, qayğılarımla maraqlanardı.

Bir dəfə mənə dedi ki, Heydər Əliyev də sənin fəaliyyətini izləyir, uğurların haqqında bizim evimizdə söhbətlər olur. Mən bir az utanaraq ona və Heydər Əlirza oğluna təşəkkür etdim. Bir müddət sonra Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun təqdimatı ilə elm sahəsində Ümumittifaq Lenin komsomolu mükafatına layiq görüləndə Heydər Əlirza oğlu məni Moskvadan Bakıya zəng edib şəxsən təbrik elədi.

Heydər Əlirza oğlu sonralar mənfur Qorbaçovun həsədinə tuş gəlib Bakıya dönüşündə Filarmoniyada yazıçıların qurultayında təsadüfən mənə yaxın oturacaqda əyləşdi. Xəlil Rzayla birgə idilər. Görüşdük. Fasilədə zəngə görə bir daha təşəkkür etdim. Və bir də dedim ki, Siz Moskvadan məni təbrik etdiniz, ancaq burada Kamran Bağırov heç elə bil ki, yoxuymuş. Gülümsündü: "Fikir vermə, hamı bir olmaz ki", - dedi.

Akademik Zərifə xanım Əliyevanın elmi-pedaqoji, ictimai fəaliyyəti haqqında yazılanlardan fərqli qısaca öz müşahidələrimi qələmə aldım. O, bir övlad kimi, bir evin, bir kişinin xanımı kimi, bir ana kimi, alim, müəllim, vətəndaş kimi, həmişə ucalardan ucadır. Elmi konfranslardan sonrakı toplantılarda, ya bayramlarda, ad günlərində əksər hallarda unudulmaz Gülarə xanım da iştirak edərdi, həmişə birinci mahnı sifarişi "Anamın anasısan Azərbaycan" olardı. "Ana" və "Azərbaycan" sözlərini heç kim onun kimi tələffüz elə bilməzdi.

44 günlük müharibənin qələbə ilə şərəflənən günlərində Zərifə xanımın da ruhu şad oldu!

Zərifə Əliyevanın bioqrafları unudurlar ki, Dağıstanın Mərkəzi Komitəsinin Birinci katibi indiki meyarlarla prezident demək idi. Bu mənada akademik Zərifə xanım Əliyeva prezident qızı, xanımı, prezident Anasıdır. Bu, onun taleyi idi. Böyük, olduqca böyük həssaslıqla duymaq, görmək, heyran olmaq, zəhməti sevmək, insanları, Vətəni sevmək onun böyük istedadı idi.

Böyük sevgidən yaranıb, böyük məhəbbətlə insanları, Vətəni sevənlər əbədi yaşayanlardır...

**Respublika.** - 2023.- 28 aprel. - № 86. - S. 8.

## Böyük alim və mənəvi paklıq timsalı

**İradə Hüseynova,**
AMEA-nın vitse-prezidenti, akademik

***Bu günlər həyatının hər anı mənəvi kamillik və saflıq, xeyirxahlıq və humanizm nümunəsi olmuş Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, tibb elmləri doktoru, professor Zərifə Əliyevanın 100 illik yubileyi təntənə ilə qeyd edilir.***

***Akademik Zərifə Əliyeva - haqqında böyük hərflərlə övlad - ardıcıl, həyat yoldaşı - silahdaş, ana - tərbiyə məktəbi, görkəmli alim - novator tədqiqatçı, ictimai xadim - sadə insanların adamı yaza biləcəyimiz bir insan, Azərbaycan tarixində özünəməxsus iz qoyub getmiş işıqlı bir şəxsiyyət olmuşdur.***

Həyatının hər dönəmi sanki əvvəldən düşünülərək yazılmış, zərurətlərdən doğan əsrarəngiz təsadüflərin zəncir kimi bir-birini izlədiyi Zərifə xanım Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvanın Şahtaxtı kəndində Azərbaycanın səhiyyə və dövlətçilik tarixində özünəməxsus yeri olan ictimai və dövlət xadimi, Əməkdar həkim, professor Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. 1918-ci ildə İrəvan Quberniyasında erməni quldur dəstələri tərəfindən yaradılmış dözülməz vəziyyət Əziz Əliyevin Sankt-Peterburqda tibb təhsilini yarımçıq qoyaraq vətənə dönməsinə və ailənin bütünlüklə Naxçıvana köçməsinə səbəb olmuşdu.

Daha sonra Əziz müəllim yarımçıq qalmış tibb təhsilini davam etdirmək üçün ailəsi ilə birgə Bakıya köçdüyünə görə Zərifə xanım orta təhsilini 1932-1942-ci illərdə Bakıda almışdır.

Əziz müəllim ömür-gün yoldaşı Leyli xanımla övladlarını vətənə, torpağa, xalqa sədaqət, milli kökə bağlılıq, elmə, biliyə, zəhmətə hörmət və məhəbbət ruhunda böyüdə bilmişdi. Uşaqların şəxsiyyət kimi formalaşmasında ailə mühiti və genetik faktorlarla yanaşı, Əziz Əliyevin yaxın dostları olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və b. kimi öz dövrünün tanınmış elm və mədəniyyət xadimlərinin onların evində apardıqları söhbətlər, dünyaya və həyata baxışlara dair fikir mübadilələri önəmli rol oynamışdır.

Ata nümunəsi və orta məktəbin son, ali təhsilinin ilk illərinin tibb işçisi imicinin yüksək olduğu İkinci Dünya müharibəsinin gərgin dövrlərinə düşməsi, eləcə də ölkədə tibbi kadr kasadlığı barədə məlumatlar Zərifə Əliyevanın gələcək peşə seçimində əsas rol oynamış və o, həyatını insanların sağlamlığına həsr etməyi qərara almışdı.

1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olan Zərifə Əliyeva burada təhsil aldığı illərdə fitri istedadı və dərin savadı, əməksevərliyi, elmi biliklərə və elmi-tədqiqatlara böyük maraq göstərməsi ilə seçilmiş, eyni zamanda elmi tədbirlərdə, tələbə cəmiyyətinin işində fəal iştirak etmişdir. Zərifə Əliyevanın konkret ixtisas seçimində isə bir çox halda korluğa səbəb olan traxoma xəstəliyinin Azərbaycanın müxtəlif regionlarında geniş vüsət alması və eləcə də Azərbaycan Dövlət Tibb İnstitutunun müəllimi Umnisə Musabəyovanın tövsiyələri əsas rol oynamışdır.

Zərifə Əliyeva 1947-ci ildə institutu fərqlənmə diplomu ilə bitirdikdən sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ikiillik ixtisas kursu keçmiş, SSRİ-nin bu nüfuzlu elm müəssisəsində Bakıda əldə etdiyi bilikləri xeyli zənginləşdirmişdir.

Zərifə xanım 1949-cu ildə vətənə dönərək Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda ordinator kimi fəaliyyətə başlamış, 1950-ci ildə bu institutun aspiranturasına daxil olmuşdur. 1953-cü ildə aspiranturanı fərqlənmə diplomu ilə bitirdikdən sonra Zərifə Əliyeva traxoma ilə mübarizə üzrə müalicə-profilaktika tədbirlərinin təşkilində və həyata keçirilməsində yüksəkixtisaslı, elmi axtarışlarda olan bir həkim kimi fəal iştirak etmişdir.

O illər Zərifə xanımın şəxsi həyatında da yeni bir dönəmin başlanğıcı olmuşdur. Azərbaycanın gələcək tarixində misilsiz rol oynayacaq bir insanla tanışlıq, aralarında yaranan sevgi, inam, sədaqət andı, həyatlarını birləşdirməyə qərar vermələri sankı ilahidən gələn bir seçim, alın yazısı idi. Onların qovuşması Azərbaycan xalqının və dövlətinin taleyində, xoşbəxt gələcəyinin qurulmasında mühüm rol oynayacaq bir ailənin yaranması demək idi...

Zərifə xanımla bağlı hər işdə, elmi fəaliyyətində, şəxsi həyatında sanki mələklərin nəfəsi, ruhu hiss olunur. O, özü də milləti, onun sağlamlığı üçün qoruyucu mələk misallı bir şəxsiyyət olmuşdur. Tanrı bu adamı yer üzərinə insanlara nur bəxş etmək, yeni elmi istiqamətlərin əsasını qoymaqla onları mövcud və gələcək təhlükələrdən qorumaq üçün göndərmişdi.

Zərifə xanımın ilk tədqiqatının mövzusunu da yaşadığı dövr özü diktə etmişdi. O zamanlar traxomanın ölkədə ciddi bir epidemiya kimi tüğyan etməsi bu zərif qəlbli, kövrək insanı narahat etməyə bilməzdi. Zərifə Əliyeva bütün qüvvəsini traxomanın və onun fəsadlarının müalicəsində o zamanlar yeni antibiotikin - sintomisinin effektiv istifadə imkanlarının və üsullarının öyrənilməsinə həsr etmişdi. Bu tədqiqatların mühüm nəticələri Zərifə

Əliyevanın 1959-cu ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etmişdir.

Zərifə Əliyeva 1960-1967-ci illərdə Göz Xəstəlikləri İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmış, burada öz tədqiqatlarını daha da dərinləşdirmişdir. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən Oftalmologiya ixtisası üzrə baş elmi işçi elmi adı verilmiş alimin hazırladığı, effektivliyini həm nəzəri, həm də praktiki şəkildə isbat etdiyi müalicə metodu traxomanın sosial xəstəlik kimi ləğv edilməsində əhəmiyyətli rol oynamışdır. Bu istiqamətdə Zərifə Əliyevanın tarixi xidmətləri danılmazdır və dünya elmi ictimaiyyəti tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir.

Zərifə Əliyeva 1967-ci ildə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti vəzifəsinə dəvət olunmuş, 1969-cu ildən burada Göz xəstəlikləri kafedrasının Görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. Ömrünün sonuna kimi institutda çalışan Zərifə Əliyeva 1977-1979-cu illərdə kafedranın professor əvəzi, 1979-1982-ci illərdə professoru, 1982-1985-ci illərdə həmin kafedranın müdiri olmuşdur.

Milli oftalmologiyanın əsasını qoymuş, 1968-ci ildən görmə orqanının peşəkar patologiyaları ilə məqsədyönlü şəkildə məşğul olmuş və bu istiqamətdə bir çox yeni elmi ideyaların müəllifi kimi bütün dünyada tanınmış Zərifə Əliyeva sonrakı illərdə bu sahədə apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələrinə həsr edilmiş "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını 1976-cı ildə Moskvada, nüfuzlu elmi mərkəz kimi tanınan M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmiş, 1977-ci ildə SSRİ Nazirlər Kabineti yanında Ali Attestasiya Komissiyası tərəfindən ona tibb elmləri doktoru elmi dərəcəsi, 1979-cu ildə Göz xəstəlikləri kafedrası üzrə professor elmi adı verilmişdir.

Elmi və elmi-təşkilati fəaliyyətində və kadr hazırlığında əldə etdiyi mühüm nailiyyətlər, onların sosial-iqtisadi əhəmiyyəti nəzərə alınaraq, professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmişdir. Akademik Zərifə Əliyevanın çoxşaxəli elmi fəaliyyəti görmə orqanı ilə bağlı bütün məsələləri, problemləri, profilaktika, diaqnostika və müalicə üsullarını əhatə etmişdir.

Onun tədqiqatlarının əsas istiqamətlərini traxoma xəstəliyinin klinikası, görmə orqanının fiziologiyası və peşə xəstəliklərinin təsiri nəticəsində baş verən göz patologiyalarının profilaktikası, diaqnostikası və müalicəsi, kimya sənayesi müəssisələrinin işçilərində görmə orqanının vəziyyəti, herpetik göz xəstəlikləri, görmə orqanının virusla zədələnməsi, ağır virus konyunktivitləri, gözün hidrodinamik sisteminin fizioloji-anatomik xarakteristikası, göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi, şəkərli diabet zamanı göz xəstəlikləri, göz zədələnmələri, terapevtik oftalmologiya, iridodiaqnostikanın əsasları, göz vərəmi, qlaukoma problemləri və s. təşkil etmişdir. Bütün bu məsələlərin ümumi şəkildə əhatə edildiyi "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual problemləri" kimi monoqrafiyaları dünya oftalmologiya elminə mühüm töhfələrdir. Üç hissədən ibarət "Oftalmologiyanın aktual problemləri" kitabı həkimin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri, gözün mikroskopiyasının əsasları, oftalmovirusologiyanın müasir aspektləri, görmə orqanının müxtəlif mənşəli zədələnmə məsələləri, göz mikrocərrahiyyəsinin propedevtikası bölmələrindən ibarət olmaqla, göz xəstəlikləri, onların diaqnostika və müalicəsinə aid fundamental əsərdir.

Qeyd edilən istiqamətlərin bəziləri və onlardan əldə edilmiş nailiyyətlər barədə bir qədər geniş məlumat vermək istəyirəm. Fikrimcə, bunlar Zərifə xanımın nə qədər geniş diapazonlu və mükəmməl tədqiqatçı olduğunun, görkəmli alim kimi qoyub getdiyi zəngin elmi irsin aşkar göstəriciləri ola bilər.

Göz zədələnmələri: Zərifə Əliyeva göz zədələrinin qarşısının alınması və onlara nəzarət imkanlarını öyrənmiş, gözün zədələnməsinin nəticələrinin cərrahi müalicəsinə mövcud metodoloji yanaşmaları təhlil etmiş və onların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr vermişdir. Burada digər elmi əsərlərlə yanaşı, bütün müvafiq məsələləri özündə əks etdirən "Görmə orqanının zədələnməsi" kitabını xüsusi qeyd etmək lazımdır.

Gözün virus xəstəlikləri: Onun gözün virus xəstəlikləri sahəsində əldə etdiyi elmi nailiyyətlərin tətbiqi bir çox xəstəliklərin differensial diaqnostikası və müalicəsində mühüm irəliləyişlərə səbəb olmuşdur. Alimin bu sahədə yazdığı "Herpetik göz xəstəliyi", "Kəskin virus konyunktivitləri" və s. kimi kitabları və dərs vəsaitləri bu gün də tələbə və gənc həkim kadrlar üçün mühüm bilik mənbəyidir.

Gözün bəzi bədxassəli şişləri: Zərifə Əliyeva gözün bəzi bədxassəli şişlərinin diaqnostikası və müalicəsinə də diqqət göstərmiş, eyni zamanda göz melanomasının klinik gedişatının xüsusiyyətlərini öyrənmiş, əldə etdiyi nəticələri məqalələrdə əks etdirmiş, konfranslarda məruzə etmişdir.

Göz yaşı ilə bağlı problemlər: Alimin hər zaman aktual olmuş bu sahədə yazdığı müvafiq monoqrafik əsərləri - "Göz yaşı drenajının fiziologiyası", "Göz yaşı axmasının cərrahi müalicəsinin müasir üsulları", "Göz yaşı yollarının ehtiyatlı cərrahiyyəsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası" təkcə oftalmoloqların deyil, həm də fizioloqların stolüstü kitabına çevrilmişdir. Bu əsərlərlə alim Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur.

İridologiya və iridodiaqnostika: Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitablar ("İridodiaqnostikanın əsasları" adlı monoqrafiya illüstrasiyalarla Bakıda, "İridodiaqnostika" adlı

monoqrafiya isə 1988-ci ildə Moskvada nəşr edilmişdir) ilk dəfə məhz akademik Zərifə Əliyeva tərəfindən və ya onun iştirakı ilə yazılmışdır. Klassik təbabətin perspektiv, lakin az öyrənilmiş məsələlərinə həsr edilmiş "İridodiaqnostikanın əsasları" monoqrafiyasında gözün bəbəyi, qüzehli qişanın stroması və xromatofor strukturların dəyişikliklərinə əsasən insan orqanları və sistemləri xəstəliklərinin qeyri-spesifik topik diaqnostikasının yeni və olduqca perspektivli üsulunun - iridodiaqnostikanın mahiyyəti, məzmunu və metodik xüsusiyyətləri təqdim edilmişdir.

Görkəmli alim Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Tibbi etika, həkimlik şərəfi: Zərifə Əliyeva tibbi etika məsələləri ilə də maraqlanır, həkimlərin cəmiyyətdəki roluna, müvafiq peşə fəaliyyətində əxlaqi prinsiplərin tərbiyəsinə xeyli vaxt ayırırdı. Onun həkimin etik davranışı haqqında çox dəyərli fikirləri, bu mövzuda çoxsaylı məqalə və çıxışları, kitabları həkim şəxsiyyətinin formalaşması işinə mühüm töhfələr vermişdir.

Zərifə xanımın bütün fəaliyyəti, atdığı hər bir addım insan amilinə əsaslanırdı. Bu məqam görkəmli alimin bütün tibbi fəaliyyətinin əsasında dururdu. O, sadə insanlara həmişə xüsusi diqqət və qayğı ilə yanaşır, onların problemlərini dinləyir və həll etməyə çalışırdı.

Yüksəkixtisaslı həkim və alim olmaqla yanaşı, çox mehriban, xeyirxah bir insan olan Zərifə xanımın "Yüksək əqidə: (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)" kitabı həkimlə xəstənin birbaşa əlaqəsinin, tibb işçisi əxlaqının müalicəyə əhəmiyyətli təsirinə, onlar arasında qarşılıqlı münasibətlərin başlıca qaydalarına həsr edilmiş maraqlı bir əsərdir. Bu kitabda əsl humanist alim xəstəliklərə qalib gəlmək üçün sağlam mənəvi-intellektual mühitin, tibb ictimaiyyətinin mənəvi-əxlaqi meyarlara yiyələnməsinin vacibliyinə diqqət çəkirdi.

Müxtəlif istiqamətlərdə klinik diaqnostika məsələləri: Alimin "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və s. kimi qiymətli əsərlərində müxtəlif göz xəstəlikləri üzrə klinik diaqnostik istiqamətdə apardığı tədqiqatların mühüm nəticələri əks olunmuşdur.

Peşə oftalmologiyası və görmə orqanının peşə patologiyaları: Tibb elmində "peşə oftalmologiyası"nın əsasını qoymuş Zərifə xanım Əliyeva keçmiş SSRİ-nin oftalmologiya elminə görmə orqanının peşə xəstəliklərinin öyrənilməsi və profilaktikası üçün yeni üsulların işlənməsi kimi elmi yenilik gətirmişdir. Bu yeniliklər onun "Görmə orqanının peşə patologiyası", "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Şin istehsalında gözün peşə patologiyası" kimi kitab və monoqrafiyalarında əks edilmişdir.

Elmdə ilk dəfə olaraq, yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənən və bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlayan alimin dünyada analoqu olmayan elmi-tədqiqatları uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisəsini, neftayırma zavodlarını əhatə etmiş, ümumilikdə, müayinələrə 4000-dən çox fəhlə və mütəxəssis cəlb olunmuşdur.

Zərifə Əliyevanın rəhbərliyi ilə Salyan rayonunun kənd təsərrüfatı müəssisələrində çalışan və əmək fəaliyyəti zamanı pestisidlərlə təmasda olan 500-ə yaxın insanı əhatə edən unikal tədqiqat nəticəsində ilk dəfə olaraq kənd təsərrüfatı işçilərində görmə orqanının vəziyyəti haqqında müvafiq biliklərin əldə edilməsinə imkan yaranmışdı. O cümlədən göstərilmişdi ki, gözün ön şöbəsində iltihab xəstəliklərinin tezliyi pestisidlərin təsiri altında əhəmiyyətli dərəcədə yüksəlir.

Zərifə Əliyevanın Əməkdar elm xadimi, akademik A.P.Nesterov və tibb elmləri doktoru, professor Z.M.Skripniçenko ilə həmmüəlliflikdə hazırladığı 2 hissədən ibarət "Görmə orqanının peşə patologiyası" monoqrafiyasında istehsalat amillərinin təsiri altında görmə orqanında yaranan əsas xəstəliklər haqqında geniş məlumat verilmiş, peşə patologiyasının öyrənilməsinin metodları və nəticələri şərh olunmuşdur. Əsərdə sənaye oftalmotoksikologiyası, kənd təsərrüfatı işçilərində gözlərin zəhərli kimyəvi preparatlarla zədələnməsi, görmə orqanının fiziki amillərdən doğan yoluxucu və parazitar xəstəliklər təsvir edilmişdir.

Alim toksik maddələrin gözün torlu qişasının funksional vəziyyətinə, sərbəst radikal proseslərə, neyromediatorların səviyyəsinə təsirini öyrənmişdir və o tədqiqatların nəticələri bu gün də mütəxəssislər arasında böyük maraq doğurur. Bu istiqamətdə yazılmış əsərlərində Zərifə Əliyeva müxtəlif sahələrdə çalışan işçilərin görmə orqanlarında baş verən funksional və orqanik dəyişiklikləri təhlil etmiş, onların qarşısını alan profilaktik tədbirlərə diqqət çəkmiş, ilk dəfə olaraq, toksiki amillərin təsiri ilə əlaqədar orqanizmin və gözün intoksikasiyasının erkən əlamətlərini üzə çıxarmışdır.

Ümumiyyətlə, oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə dünya miqyasında böyük şöhrət qazandırmışdır.

Ən müasir metodikalardan istifadə: Gözün çoxsaylı oftalmoloji müayinələri ilə yanaşı, ilk dəfə olaraq, elektrofizioloji metodlardan da geniş istifadə etmişdir. Toksik maddələrlə təmasda olan işçilərin gözlərinin

elektroretinoqrafik, elektrookuloqrafik, reooftalmoqrafik müayinəsi torlu qişanın müxtəlif hüceyrə elementlərinin funksional vəziyyətində baş verən dəyişiklikləri üzə çıxarmağa imkan yaradırdı.

Gözün fiziologiyası məsələləri: Zərifə Əliyeva tərəfindən aparılmış və görmə orqanına ətraf mühit amillərinin göstərdiyi təsirin mexanizm və qanunauyğunluqlarına həsr olunmuş elmi araşdırmalar biotibb elminə yaxın sahələrin, ilk növbədə multidissiplinar formatda fiziologiya elminin cəlb edilməsinə, gözün fiziologiyası haqqında təsəvvürlərin genişləndirilməsinə ehtiyac yaradırdı. Məhz bu səbəblərdən alimin keçdiyi uğurlu elm yolunun əhəmiyyətli bir hissəsi Azərbaycan SSR Elmlər Akademiyasının Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu ilə bağlı olmuşdur.

Məlumdur ki, tədqiqatların daha da dərinləşdirilməsi və elmi əsaslı sınaqların keçirilməsi üçün müvafiq laboratoriyanın varlığı zəruri şərtdir. Hələ 1977-ci ildə Zərifə xanımın təşəbbüsü və təşkilatçılığı ilə ilk dəfə olaraq Bakıda keçirilmiş Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu alimin Azərbaycanda görmə orqanının peşə patologiyasının tədqiqi üzrə ilk ixtisaslaşmış elmi-tədqiqat laboratoriyasının yaradılması təşəbbüsünü dəstəkləmişdi. Zərifə xanımın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1979-cı ildə Fiziologiya İnstitutunda SSRİ-də ilk dəfə olaraq Görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası yaradılmışdır.

Yeri gəlmişkən, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin yuxarıda qeyd edilən plenumunun təşkilati işləri böyük təcrübə və idarəçilik qabiliyyəti tələb edirdi və Zərifə xanım bunun öhdəsindən uğurla gələ bilmişdi. Bu plenum həm Azərbaycanda, həm də keçmiş İttifaqın tanınmış akademik müəssisələrində oftalmoloji xidmətin inkişafında, elmi və elmi-pedaqoji kadrların hazırlanmasında böyük rol oynamışdı.

Oftalmoloji herontologiya: Zərifə Əliyevanın elmi maraq dairəsində görmə orqanının, görmə analizatorunun yaşla bağlı dəyişikliklərinin tədqiqi də xüsusi yer tuturdu. Zərifə xanımın "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri: morfohistokimyəvi tədqiqatlar" kitabı oftalmoloji herontologiya sahəsində ilk fundamental əsərlərdən biri olmuşdur. Görkəmli rus oftalmoloq-alimi, akademik A.Brovkina Zərifə xanımın bu kitabı haqqında demişdi: "Bu elmi əsər mahiyyət etibarilə oftalmologiyada yeni bir istiqamətin - oftalmoloji herontologiyanın başlanğıcını qoyur". Bu kitab AR ETN Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda bu gün həyata keçirilən herontoloji tədqiqatlar fonunda daha da aktual və dəyərlidir.

Görkəmli alim oftalmologiyanın müxtəlif istiqamətlərinə aid 200-ə qədər elmi əsərin, o cümlədən 14 monoqrafiyanın, 12 səmərələşdirici təklifin müəllifi kimi dünya tibb elmində silinməz iz buraxmışdır. Bir alim kimi çox böyük zirvələri fəth etməyi bacarmış akademik Zərifə Əliyevanın əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını qoruyub saxlamaqla, oftalmoloqların stolüstü kitablarına çevrilmişdir.

Alimin elmi-pedaqoji fəaliyyəti bununla məhdudlaşmır, bütün oftalmoloji müəssisə və şöbələri, kadrların təkmilləşdirilməsi prosesini də əhatə edirdi. Qeyd etmək lazımdır ki, Zərifə Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. O, hər zaman ətrafına bacarıqlı və savadlı gənc həkimləri toplamaqla elmi-tədqiqat işlərini uğurla təşkil etmiş, tələbələrinə zəngin elmi təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

Tədqiqatlardan alınmış və monoqrafiyalarında (xüsusən, "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyası) dərc edilmiş uğurlu nəticələrə görə akademik Zərifə Əliyeva 1981-ci ildə oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Əlamətdar faktdır ki, Zərifə xanım keçmiş SSRİ-də bu mükafata layiq görülən ilk qadın mütəxəssis olmuşdur.

Akademik Zərifə xanım Əliyevanın elmi-ictimai fəaliyyəti də geniş və əhatəli olmuş, sülh, insanlıq, əmin-amanlıq, ehtiyaclı insanlara dəstək istiqamətində gördüyü işlər ona cəmiyyətdə böyük nüfuz qazandırmışdır. O, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyətinin İdarə Heyətinin və Elmi-Tədqiqatlar Komitəsinin Rəyasət Heyətinin, SSRİ Oftalmoloqlar Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinin üzvü kimi dövlət və xalq qarşısında böyük xidmətlər göstərmişdir.

Zərifə xanım haqqında tanınmış alimlərin fikirləri də böyük maraq doğurmaqla onu bir şəxsiyyət kimi xarakterizə etməyə imkan verir. Dünyaşöhrətli oftalmoloq alim, akademik A.Nesterov: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi"; akademik N.Puçkovskaya: "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi"; professor A.Brovkina: "Zərifə xanım nəciblik və mənəvi paklıq timsalı idi"; professor N.Şulpina: "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik".

Ölkəmizin sürətli inkişafı, möhtəşəm uğurları, dünyadakı nüfuzu ilə fəxr edərək, bugünkü dünyanın ən güclü dövlət başçılarından olan cənab Prezidentin bilik və bacarıqlarının, qətiyyət və müdrikliyinin əsasında həm ulu öndərin, həm də Zərifə xanımın təsirini aydın görürük.

Zərifə xanım Azərbaycan xalqına iki çox dəyərli övlad yetişdirib vermişdir. Dünyanın siyasi və iqtisadi coğrafiyasında Azərbaycanın nail olduğu bugünkü yüksək mövqedə, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış Böyük Zəfərdə o böyük ananın da payı var desək, əsla yanılmarıq.

Bu mənada bir övlad, həyat yoldaşı, ana kimi ucalığın ən yüksək zirvəsinə çatmış Zərifə Əliyevanın əziz xatirəsi, onun elmi və elmi-ictimai fəaliyyəti ilə bağlı ulu öndərin və cənab Prezidentin fikirləri də böyük maraq doğurur.

Ümummilli lider Heydər Əliyev: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Zərifə xanım Əliyeva böyük həkim, böyük alim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir".

Görkəmli alim Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Görkəmli alim və şəxsiyyətin həkimlik, elmi və ictimai xidmətləri layiqincə qiymətləndirilmiş, o, orden və medallarla təltif edilmiş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Bütün elmi ictimaiyyət, xalq tərəfindən çox sevilən və heç zaman unudulmayacaq Zərifə xanım Əliyeva ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də Moskva şəhərində onu sevənləri, Azərbaycan xalqının ümummilli liderini, həyatı qədər sevdiyi iki gözəl övladını əbədi olaraq tərk etdi.

Dünyasını dəyişsə də, nə yaxşı ki, böyük alimin elmdə açdığı cığırlar nəinki boş qalmadı, hətta genişləndikcə genişləndi, elmi məktəbi inkişaf edərək şaxələndi, xalqa, insanlara fayda verməyə, nur paylamağa davam etdi, hazırlayaraq ərsəyə gətirdiyi elmi və həkim kadrlar öz fəaliyyətləri, gözəl əməlləri ilə müəllimlərinin adını daha da ucaltdılar.

Nə yaxşı ki, elmdə və həkimlik fəaliyyətində əldə etdiyi nailiyyətlər, irəli sürdüyü ideyalar, yeni metodlar həm ölkədə, həm də xaricdə bu günə qədər tətbiq olunmaqda, yeni-yeni tədqiqatlara başlanğıc verməkdədir.

Nə yaxşı ki, Zərifə xanımın insanların qəlbində və ölkənin tarixində dərin iz qoymuş şərəfli fəaliyyəti bu gün cənab Prezidentin silahdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, yüksək insani keyfiyyətləri, vətəndaş mövqeyi, intellekti və vətənpərvərliyi ilə örnək şəxsiyyət olan Mehriban xanım Əliyeva tərəfindən daha geniş miqyasda davam etdirilir.

Həm Zərifə xanımın, həm də Mehriban xanımın nümunəsi Azərbaycan qadınlarının nələrə qadir olduğunun bariz göstəricisidir. Bu gün qadınlarımızın elm və təhsildə, cəmiyyət həyatında qazandıqları nailiyyətlər dünyanın orta statistik göstəricilərindən xeyli yüksəkdir və bu uğurlarda onların da böyük əməyi və haqqı vardır.

Məlumdur ki, 2023-cü il BMT tərəfindən həmçinin "Fundamental Elm İli" elan edilmişdir. Akademik Zərifə Əliyevanın yaradıcılığına bu kontekstdən də yanaşdıqda, onun oftalmologiyanın problemləri üzrə apardığı fundamental tədqiqatların dəyərini bir daha anlayarıq, bu tədqiqatlardan alınmış mühüm nəticələrin qeyd edilən problemlərin həllinə nə qədər önəmli töhfələr verdiyinin, öz dövrünü nə qədər qabaqladığının şahidi olarıq.

Sağlığında olduğu kimi, bu gün də şöhrəti sərhədləri aşan oftalmoloq-alimin elm, təhsil və səhiyyədə qoyub getdiyi izlər əsla silinməmişdir, yaratdığı elmi məktəbin nümayəndələri sağlam cəmiyyət naminə çalışmaqla bu gün də insanların gözlərinə işıq verməkdə, müxtəlif peşələrdən olan pasiyentlərin görmə qabiliyyətini bərpa etməkdədirlər.

Dərin zəkası, elmə sədaqəti, yüksək daxili mədəniyyəti, insanlıq qarşısında məsuliyyəti ilə qəlblərə yol tapmış akademik Zərifə Əliyevanın parlaq xatirəsi, işıqlı obrazı xalqımızın qan yaddaşına əbədi həkk edilməklə heç zaman unudulmayacaqdır.

**Respublika.** - 2023.- 28 aprel. - № 86. - S. 9.

## Xeyirxahlıq, nəciblik mücəssiməsi

**Rəfiqə Məsud**,
kinossenarist, publisist, Əməkdar mədəniyyət işçisi.

***Akademik, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, xeyirxah əməlləri ilə insanların qəlbində əbədi yaşayan Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi respublikamızın hər yerində ehtiramla qeyd olunur. Xatirəsi anılır, tibbin ən çətin və məsuliyyətli sahəsi olan oftalmologiyanın inkişafı üçün göstərdiyi xidmətlər xatırlanır.***

Məşhur oftalmoloq, akademik M.Kraskov Zərifə xanım Əliyevanın görmə orqanlarının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqat əsərlərini yüksək qiymətləndirərək belə qeyd etmişdir: əcəl bu görkəmli alimə bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbin rəhbəri olacaqdı.

Zərifə xanım ətirli bir bahar günündə dünyaya gəldi. Bahar ürəkli oldu. Görkəmli alim qısa bir ömür yaşadı. Cəmi 62 il. Zərifə xanım Əliyeva bu qısa ömürlü həyatında elmin sirlərinə vaqif alim, hərəkətləri, əqli, zəkası ilə valideynlərinə bənzəyən mükəmməl övlad, həyat və davranışları ilə bütün qadınlara örnək, kamil bir qadın, ömür-gün yoldaşına böyük arxa, övladlarına gözəl ana olmuşdur.

Zərifə xanımın atası, tanınmış ictimai-siyasi xadim Əziz Əliyev yüksək dövlət qulluğunda çalışarkən onlara qarşı çox təzyiqlər olmuşdur. Zərifə xanım da çətin anlar yaşamış, mənəvi zərbələrə məruz qalmış, lakin sınmamışdı.

O, həyatını elmə bağlamış, bu yolda gecə-gündüz çalışmış, nəhayət, çəkdiyi sitəmlərin əvəzi olaraq tale onun ömür yoluna Heydər Əliyev kimi bir şəxsiyyət çıxarmışdı.

Əziz Əliyevin ailəsinin ən ağır vaxtlarında belə Heydər Əliyev DTK sistemində çalışmasına baxmayaraq, Zərifə xanımla ailə qurmaqdan çəkinməmişdir. Halbuki, buna görə onun karyerası sual altına alınmışdır. Belə bir cəsur, mətin insanın ömür-gün yoldaşı olmaq böyük bir xoşbəxtlik idi.

Sonralar ümummilli liderimiz Heydər Əliyev saf, təmiz duyğularını belə ifadə etmişdi: "Mən onu çox sevirdim, o, da məni çox sevirdi, biz bir-birimizi çox sevirdik".

Heydər Əliyev-Zərifə xanım sevgisi kainatdan gələn, günəşdən güc alan sevgi dolu bir xoşbəxtlik dünyası idi - desək, yanılmarıq.

Dövrünün görkəmli ziyalısı və ictimai-siyasi xadim Əziz Əliyev ixtisasca həkim olmuşdur. Zərifə xanım da həkim olmaq arzusu ilə 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə və profilaktika fakültəsini bitirdikdən sonra Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma təhsilini davam etdirmişdi. O, qəlbinin nurundan insanlara işıq paylamaq üçün taleyini ömürlük səhiyyəyə bağlayır... Görəsən, bu işıqlı dünyanın nurundan məhrum olmuş insanlara nur paylayan bir təbib üçün bundan böyük bəxtiyarlıq ola bilərdimi?

Elmi-tədqiqat işlərinə marağı olduğundan Zərifə xanım Azərbaycan oftalmologiya Elmi-Tədqiqat İnstitutunda həkim-ordinator kimi fəaliyyətə başlamışdır. 1950-ci ildə aspiranturaya daxil olmuş, oranı bitirdikdən sonra Respublika Elmi-Tədqiqat İnstitutunda elmi işçi kimi çalışmışdır.

Həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticələrə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. O zaman bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə nəinki oftalmologiya elmi üçün, bütün Azərbaycan Respublikası üçün mühüm məsələyə çevrilmişdi. Dünya işığına həsrət qalan insanların çoxu məhz bu xəstəlikdən əziyyət çəkirdi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicə və profilaktik tədbirlərin təşkilində fəal iştirak edirdi. O, respublikada traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim oftalmoloqlara mühazirələr oxuyur, əhali ilə söhbətlər aparırdı. Elə bununla Zərifə xanımın ilk elmi araşdırmasının mövzusunu həyat özü müəyyənləşdirdi. 1960-cı ildə "traxomanın digər terapiya üsulları ilə birlikdə sintomesinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası işini müdafiə etdi.

Zərifə xanım Səhiyyə Nazirliyinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında həkimlik fəaliyyətini davam etdirməklə tibbi əməliyyatlar aparır, müalicələr edir, məsləhətlər verir, göz xəstəliklərinə aid təkmilləşdirmə kurslarının dinləyiciləri olan həkimlərə mühazirələr oxuyurdu.

Zərifə xanım seçdiyi peşədə zülmətlə işığın mübarizəsində zülmətə qalib gəlməyi bacardı. Ona pənah gətirən hər kəsi vicdanı, biliyi sayəsində zülmətdən xilas etməklə işığa qərq etdi. Sonralar Zərifə xanım oftalmologiyanın digər vacib istiqamətlərinin tədqiqatı ilə də məşğul oldu. "Qlaukoma"nın öyrənilməsinə aid olan tədqiqatların nəticəsində nəşr olunmuş elmi məqalələr göz xəstəlikləri klinikasında çalışan həkimlərin biliklərinin genişlənməsinə töhfə oldu.

Zərifə xanım Əliyevanın oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxsahəlidir ki, onun fəaliyyətinə nəzər salarkən, bu insanın necə böyük şəxsiyyət olduğunu bir daha görürük. Fitri istedada malik olan bu gözəl insanın, novator alimin pak bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir azərbaycanlı üçün kamillik, müdriklik məktəbidir.

Zərifə xanım Əliyeva professional oftalmologiyanın problemləri ilə ciddi məşğul olan alim kimi dünyada ilk dəfə olaraq peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmaqla praktiki olaraq elm aləmində yeni bir istiqamətin, peşə oftalmologiyasının əsasını qoydu. Apardığı tədqiqatlarda "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" kimi qiymətli elmi məqalələr və monoqrafiyaları yazıb çap etdirmişdi.

"Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrində çalışan işçilərin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyasının müdafiəsi zamanı keçmiş sovetlər ittifaqının görkəmli alimləri bu böyük elmi əsəri çox yüksək qiymətləndirmişlər.

Görkəmli alim, həmçinin nadir sahə sayılan "iridodiaqnostika" və "iridoterapiya" problemləri ilə məşğul olmaqla iki monoqrafiya hazırlamışdı. Qürurla qeyd etmək istərdim ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə azərbaycanlı qadın Zərifə xanım Əliyeva yazmışdır.

Görmə orqanlarının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə keçmiş SSRİ-nin oftalmologiya sahəsinin ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatını alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşmüşdür.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının müdiri, professor Zərifə xanım Əliyeva elmi-tədqiqat işlərinin təşkili, kadrların və elmi işçilərin hazırlanması məqsədilə öz ətrafına gənc və istedadlı həkimləri topladı. Zərifə xanımın təşəbbüsü ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Plenumun keçirilməsi nəinki Azərbaycanın, keçmiş sovetlər ittifaqının səhiyyədə oftalmologiya xidmətinin inkişafında, eləcə də elmi-pedaqoji kadrların hazırlanmasında çox böyük rol oynadı.

Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqat əsərləri alimə böyük şöhrət gətirmiş, onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdı.

Azərbaycan Elmlər Akademiyası A.Qarayev adına Fiziologiya İnstitutunda Zərifə xanımın təşəbbüsü ilə görmə orqanının fiziologiyası və professional patologiyasının problemi ilə məşğul olan laboratoriya açıldı. Burada istehsalatda zərərli maddələrin görmə orqanına fizioloji, klinik, funksional və kistaloji təsir mexanizminin bir sıra dərin tədqiqatlarının nəticələri həyata keçirilmişdi. Belə elmi axtarışların nəticəsində Zərifə xanımın bir neçə monoqrafiyaları dərc edilmişdi.

Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesində çalışan işçilərin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənməklə onun profilaktikası tədbirlərini işləyib hazırlamışdı.

Onun "şin istehsalında gözün peşə patologiyası", "xroniki yod intaksikasiyası zamanı oftalmologiya", "yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi elmi monoqrafiyaları dünya miqyasında yüksək qiymətləndirilmişdi. Zərifə xanımın maraqları təkcə görmə orqanının professional patologiyası problemləri ilə məhdudlaşmırdı. Alimin görmə orqanının virusla zədələnmə problemlərinə həsr olunmuş bir çox elmi işləri də geniş yayılmış, tədqiqatlar nəticəsində bu xəstəliklərin diferensial diaqnostikasını yaxşılaşdırmaq və onların müalicəsinin effektliyini gücləndirməyə nail olmuşdu.

Zərifə xanım etnologiya, diaqnostika və qlaukomanın müalicəsi məsələlərinə də həsr olunmuş maraqlı tədqiqatlar aparmış və bu tədqiqatların nəticəsində "gözün hidrodinamika sisteminin xarakteristikası", "yaşla bağlı gözün və əsəb yollarının dəyişilməsi" adlı iki monoqrafiya hazırlamışdı.

Zərifə xanım gözün travma ilə mübarizəsi və profilaktikasında cərrahiyyə müalicəsinin metodik üsullarını təhlil etməklə bir neçə faydalı məsləhətlər işləmişdir. O, gözdə bəzi qorxulu şişin diaqnostikasına dair əsərlərin müəllifidir. Görkəmli alimin daktiologiya ilə bağlı "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi", "Göz yaşı ifraz edən yolların hifzi cərrahiyyəsi" adlı monoqrafiyaları təkcə oftalmoloqların deyil, fızioloqların da marağına səbəb olmuşdu. Yaxşı deyiblər: Gözlərin nurunu qoruyanlar hər hörmətə, hər tərifə layiqdir.

Görkəmli alimin müəllifi olduğu "İridodiaqnostikanın əsasları" adlı nadir əsəri həm də oftalmoloq həkimlərin mükəmməl dərsliyidir.

Zərifə xanım həkim etikası və tibbi deontologiya məsələlərinə çox böyük əhəmiyyət verirdi. O, haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir:

"Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Zərifə xanım Əliyevanın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun "həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində daha ətraflı şəkildə əks olunmuşdu.

Bu böyük alimin ömür səhifələri yaradıcı əməyin vətənə, xalqa namusla xidmətin gözəl nümunəsidir, bütün gənclərimiz üçün əsl həyat məktəbidir.

Alimin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Akademik Zərifə xanım Əliyeva 140 elmi əsərin, 10 monoqrafiya, 12 səmərəli təklifin müəllifi olmuşdur. Görkəmli alimin xalq qarşısındakı və tibb elmi sahəsindəki böyük xidmətləri yüksək qiymətləndirilmişdir. Əməkdar elm xadimi, professor Zərifə Əliyeva müxtəlif mükafatlar, orden və medallarla təltif olunmuşdur.

Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının professoru, akademik Filatov mükafatı laureatı V.Şmelyeva akademik Zərifə Əliyeva haqqında demişdir:

"Həyatda mənim bəxtim gətirib. Belə ki, taleh mənə qeyri-adi bir insanla ünsiyyətdə olmaq imkanı verib. Zərifə xanım Əliyeva ömrünün son günlərinədək mənim yaddaşımda məhz, həyatda olduğu kimi, qeyri-adi insan olaraq qalacaq. Zərifə xanım hər şeydən əvvəl, həyat sevgisi və maraq dairəsinin böyüklüyü ilə fərqlənirdi. O, həkim-oftalmoloq sənətinin vurğunu idi, elmi-tədqiqatlara çox vaxt sərf edirdi. O, oftalmologiyada yeni, çox çətin və az öyrənilən bir sahəni araşdırmış, bu tipli xəstəliklərin profilaktikasına və müalicəsinə böyük töhfə vermişdir. Zərifə xanım həyatda olduğu kimi, elmdə də özünə tapdanmış yol seçməmiş, elmin az öyrənilən, lakin inkişafı günün tələbi olan sahələrini araşdırmışdı. Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu "Əvəzolunmaz insan haqqında povest" adlandırardım".

Zərifə xanım böyük və tanınmış bir nəslin nümayəndəsi idi. Atası məşhur ictimai-siyasi və dövlət xadimi Əziz Əliyev uzun müddət məsul vəzifələrdə çalışarkən müxtəlif təzyiqlərlə üzləşmiş, amma sınmamışdı. Dövrünün sayılıb-seçilən ziyalısı, dövlət xadimi olmuşdu. Əziz Əliyevin keçdiyi böyük bir ömür yolu bir də onu təsdiqlədi ki, vəzifələr insanı zənginləşdirmir, insanlar vəzifələri zinətləndirirlər.

Zərifə xanım əsl ziyalı ailəsindən idi. Ata nənəsi Əziz Əliyevin anası Zəhra xanım İrəvanın adlı-sanlı adamlarından sayılan İbrahimbəy Süleymanbəyovun qızı idi.

Zərifə xanım Əliyeva ölkənin birinci şəxsinin, Heydər Əliyevin ömür-gün yoldaşı idi. Lakin bu amillər heç də onun sadəliyinə mane olmurdu. Bu sadəlik, alicənablıq, nəcabətlik, ziyalılıq onun soykökündən, bəyzadəliyindən və genindən gəlirdi.

Deyirlər, - qadın, həyata can verən, insanı yaşadan Allahdan sonra ikinci qüdrət sahibidir!..

Zərifə xanım qeyri-adi qadın idi. Görkəmli alim həyatını elmə, işə həsr etsə də, ailəsinə diqqəti, məhəbbəti ön cərgədə idi. Qüdrətli dövlət başçısı Heydər Əliyev ömrünün axırına kimi Zərifə xanıma olan məhəbbətini heç nə ilə dəyişmədi. Zərifə xanımın piano arxasına keçməsi onun müşayiəti ilə ulu öndərimizin "Üzüyümün qaşı firuzədəndir", "Küçələrə su səpmişəm" xalq mahnısını ifa etməsi, sözün əsl mənasında ailə xoşbəxtliyinin məhəbbət haqqında dastanı idi.

Zərifə xanım sözün bütün mənalarında böyük Azərbaycan qadınıdır. Görkəmli alim Azərbaycan tibb elminin korifeylərindən biri, böyük ziyalı, böyük qadın, böyük ana - Azərbaycan qadınının simvoludur.

Zərifə xanım övladlarına çox bağlı bir ana idi. Ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun davamçısı, cənab Prezidentimiz İlham Əliyev kimi xalqına, torpağına, millətinin qayğısına qalan görkəmli bir insanın anasıdır. Yaxşı deyiblər: "Bir xalqın gələcək nəslinin ağıllı-kamallı olması üçün o xalqın kamil anaları olmalıdır"...

Zərifə xanımın xatirəsi oftalmoloq alim, nəcib xeyirxah insan, anaların anası kimi Azərbaycan xalqının qəlbində yaşayır, yaşayacaqdır.

Zərifə xanım bir ətirli bahar günündə dünyaya gəlmişdi. Bu ətirli bahar günlərində vətən torpağının ən gözəl güllərindən, çiçəklərindən dəstə bağlayıb onu yad edib, ziyarətinə gəlirlər.

İllər illərə calanır. Tarix isə öz işini görür. Tarix Zərifə xanım Əliyevanın adını, şöhrətini gələcəyə aparır.

Görkəmli alim Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin baş memarı və qurucusu, bütün mənalı ömrünü vətənin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin, ümummilli liderimiz Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu, etibarlı silahdaşı olmaqla, böyük bir xalqa arxa olan insana arxa idi.

**Respublika.** - 2023.- 28 aprel. - № 86. - S. 10.

## Zərif ömrün işığı

**Əhliman Əmiraslanov**,
akademik, SSRİ Dövlət Mükafatı laureatı, Milli Məclisin Səhiyyə Komitəsinin sədri

***Anadan olmasının 100 illik yubileyi həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda geniş qeyd edilən dünyaşöhrətli oftalmoloq-alim, akademik Zərifə Əziz qızı Əliyevanın əziz xatirəsi sonsuz məhəbbətlə anılır.***

Zərifə xanım Əliyeva mənalı və zəngin bir həyat yolu keçmişdir. Onun qədim Azərbaycan torpağı olan ata yurdu İrəvandan kənarda, Naxçıvanın Şərur rayonunda dünyaya göz açması erməni işğalçıları tərəfindən azərbaycanlılara qarşı planlı şəkildə aparılan soyqırımı siyasətinin törətdiyi fəsadlar nəticəsində baş vermişdir. Tarixi hadisələr nə qədər ağır, kədərli olsa da, Zərifə xanımın 1923-cü il aprelin 28-də dünyaya gəlişi həm görkəmli dövlət və elm xadimi Əziz Əliyevin ailəsinə, doğmalarına, yaxınlarına, həm də sonralar bütövlükdə Azərbaycan xalqına düşərli olmuşdur. Onun dünyaya göz açdığı ildə Əziz Əliyevin ailəsi Bakıya köçmüşdür.

Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Onunla bir qrupda, eyni kursda oxuyan məzunların xatirələrində qeyd edildiyi kimi, Zərifə Əliyeva hələ gənclik illərində fitri istedada, dərin zəkaya, geniş dünyagörüşünə, yüksək mədəni səviyyəyə malik, təvazökar bir tələbə olmuşdur. O, tibbi fənlərlə yanaşı, digər elmlərin də tədrisinə xüsusi maraq göstərir, hərtərəfli biliyə malik həkim kimi formalaşırdı. Hələ tələbəlik illərindən tibb elminin öyrənilməsinə sonsuz həvəs göstərən Zərifə Əliyeva Tibb İnstitutunda keçirilən Tələbə Elmi Cəmiyyətinin konfranslarında məruzələrlə çıxışlar edir, elmi təhlillər aparırdı.

Görkəmli oftalmoloq-alim məzunu olduğu və özü üçün "Alma mater" hesab etdiyi Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Azərbaycan Tibb Universiteti) bitirdikdən sonra da onu heç vaxt unutmamış, onunla daim sıx əlaqə saxlamışdır. Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının həm əvvəlki, həm də indiki əməkdaşları da özlərini Zərifə xanımın yetirmələri, onun yaratdığı elmi məktəbin davamçıları hesab edirlər.

Zərifə Əliyeva 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu əla qiymətlərlə bitirdikdən sonra oftalmoloq ixtisasını seçmişdi. Lakin gənc məzun bilirdi ki, dar ixtisas, o cümlədən oftalmoloq ixtisası üzrə kamil mütəxəssis olmaq üçün institutda aldığı diplomaqədərki təhsil kifayət etmir və mütləq bir neçə il də diplomdansonrakı hazırlığa sərf edilməlidir. Bu məqsədlə o, institutu bitirdikdən sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktiki vərdişlərə yiyələnmiş, oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmə hazırlığı keçmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi ET Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə özünə rahat yollar seçmək stereotipindən uzaq olmağa çalışaraq, şablonlardan qaçmış, vətənə, xalqa həqiqi mənada xeyir verə biləcək ən çətin sahələrdə özünü sınamağa can atmış, istəyinə nail ola bilmişdir. Belə ki, o, tapdanmış yollarla getməmiş, hər sahədə özü yeni elmi cığırlar açmış, bu cığırları başqalarının da keçə biləcəyi geniş yollara çevirmişdir. İkinci Dünya müharibəsinin təzəcə başa çatdığı illərdə keçmiş SSRİ-nin çox yerində olduğu kimi, Azərbaycanda da traxoma xəstəliyi yenidən baş qaldırmış və ona qarşı aparılan ara-sıra mübarizə tədbirləri o qədər də effektli təsir göstərmirdi. Xalqın sağlamlığının vacibliyini ön plana çəkən gənc alim ölkəmizi bürümüş yoluxucu göz xəstəliklərinin qarışısını almaq və bu xəstəliklərin ləğvinə nail olmaq üçün yollar axtarırdı. O dövrdə Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuş, bunun nəticəsində 80 milyon insan kor olmuşdu, çünki traxoma xəstəliyinin müalicəsinə zəmin yarada biləcək o qədər də güclü təsirə malik dərman preparatları hələ mövcud deyildi. İkinci Dünya müharibəsindən yenicə çıxmış ölkənin iqtisadi-siyasi durumu da qənaətbəxş olmadığından ölkənin ümumi vəziyyətinin nikbin qiymətləndirilməsinə əsas verən stimul belə yox idi. Bu kimi problemlərlə üzləşən gənc tədqiqatçı Zərifə xanım Əliyeva ruhdan düşməyərək axtarışlarını davam etdirmiş, əsl vətəndaş mövqeyində dayanaraq, ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlamış və həyata keçirməyə başlamışdır. Onun başlıca məqsədlərindən biri də Azərbaycanda traxoma xəstəliyinin müalicə və profilaktikasını vaxtında və yetərincə həyata keçirməkdən, bu prosesin elmi istiqamətlərini müəyyənləşdirərək səhiyyə praktikasına tətbiqini reallaşdırmaqdan ibarət olmuşdur.

Zərifə xanım Əliyeva peşə amillərinin törətdikləri göz xəstəliklərinin və bütövlükdə orqanizmi tam şəkildə müalicə edərkən, təkcə məşhur alim-oftalmoloq kimi deyil, həmçinin bacarıqlı alim-ekoloq kimi tanınmışdır. Zərifə xanım ölkəmizdə ilk dəfə olaraq həm oftalmologiyanın peşə etiologiyalı xəstəliklərinin diaqnostika,

müalicə və profilaktikasının, həm də ekoloji təmizlik ideyasının əsasını qoymuş, bu ideyanın praktik səhiyyədə həyata keçirilməsinə nail olmuşdur.

Gənc oftalmoloq traxoma ilə əlaqədar respublikadakı real vəziyyəti əyani olaraq müşahidə etmək üçün Azərbaycanın bütün rayonlarına gedərək göz xəstəliklərinin regional lokallığını müəyyənləşdirir, xəstəliyin epidemioloji xüsusiyyətlərini araşdırır, xəstələrə öz məsləhətlərini verir, bir sıra göz xəstəliklərinin profilaktika və müalicəsi haqqında maarifləndirici söhbətlər keçirirdi. O, traxomanın müalicəsində istifadə edilən mövcud üsullarla yanaşı, o dövrün güclü antibiotiklərindən hesab edilən sintomitsindən istifadə etməklə yeni və uğurlu nəticələrə nail olmuşdur. Dəyərli elmi kəşflərdən sayılan "Z.Ə.Əliyeva üsulu"nun kompleks profilaktik tədbirlərlə birlikdə praktik səhiyyədə geniş tətbiqindən sonra traxoma xəstəliyinin müalicəsində əsaslı dönüş yaranmış, onun yayılmasının qarşısı alınmış və bu da tədricən xəstəliyin ləğvinə gətirib çıxarmışdır. Beləliklə, Zərifə xanımın fədakar zəhmətsevərliyi sayəsində yerinə yetirilən tibbi tədbirlər əhalinin dünya işığından məhrum olmasının, əlilliyə düçar olaraq əmək qabiliyyətini itirməsinin, çarəsizlikdən kütləvi depressiya vəziyyətinə düşməsinin qarşısını almışdır. Yalnız bundan sonra dissertasiya müdafiə etməyi qərara almış və 1959-cu ildə o, sərbəst surətdə yerinə yetirdiyi elmi istiqamətlərinin nəticələrinə əsasən "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edərək, tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

O, 1960-1967-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq, fəaliyyət göstərdiyi elm ocağında oftalmologiya elminin bütün sahələrinin inkişafına yaxından kömək göstərmiş, bu istiqamətin tərəqqisinə öz dəyərli töhfələrini vermişdir. SSRİ Ali Attestasiya Komissiyası 1963-cü ildə Moskvaya göndərilmiş təqdimat əsasında onun oftalmologiya ixtisası üzrə Böyük elmi işçi elmi adını təsdiq etmişdir.

Zərifə Əliyeva göz xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikasını düzgün təşkil etməklə yanaşı, daim yeniliyə can atır, yeni laboratoriyalar yaradır, insan sağlamlığı amilini ön plana çəkirdi. O, yalnız ölkəmizin paytaxtı Bakı şəhərində deyil, həmçinin Sumqayıt, Gəncə, Bərdə, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan), Salyanda və respublikanın digər şəhər və rayonlarında zərərli iş şəraitlərinin törətdikləri göz xəstəliklərini, eləcə də insan orqanizminin digər xəstəliklərini aşkar edir, həm xəstələrin müalicəsinə, onların iş yerlərində mövcud olan mənfi təsirlərdən qorunmalarına, həm də əmək müəssisələrinin ekologiyasına diqqət yetirir, onlarda ekoloji prinsiplərə riayət edilməsi konsepsiyalarının həyata keçirilməsi yollarını göstərirdi. Bununla da Zərifə xanım Əliyeva peşə amillərinin törətdikləri göz xəstəliklərinin və bütövlükdə orqanizmi tam şəkildə müalicə edərkən, təkcə məşhur alim-oftalmoloq kimi deyil, həmçinin bacarıqlı alim-ekoloq kimi tanınmışdır. Zərifə xanım ölkəmizdə ilk dəfə olaraq həm oftalmologiyanın peşə etiologiyalı xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasının, həm də ekoloji təmizlik ideyasının əsasını qoymuş, bu ideyanın praktik səhiyyədə həyata keçirilməsinə nail olmuşdur.

O, ardıcıl olaraq yerinə yetirdiyi elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də yüksək səviyyədə aparırdı. 1967-ci ildən etibarən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında pedaqoji fəaliyyətə başlamış, əvvəlcə kafedranın dosenti, sonra professoru, daha sonra isə həmin kafedranın müdiri vəzifələrini yüksək səviyyədə yerinə yetirərək, həkimlərin diplomdansonrakı hazırlıqlarının tədris-metodiki göstərişlərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmış, müxtəlif mövzulu monoqrafiyaların, tədris-metodik göstərişlərin, dərs vəsaitlərinin yazılmasına böyük əmək sərf etmişdir. Onun Sovet İttifaqında hələ o dövrdə böyük nüfuz qazanmış Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə SSRİ-nin müxtəlif guşələrindən gəlmiş və təkmilləşmə kursu keçən həkimlərlə apardığı mühazirə və praktik məşğələlərinin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi və s. təşkil edirdi.

Zərifə xanım Əliyeva ADHTİ-da çalışarkən ilk illərdən görmə orqanının patologiyasına xüsusi diqqət yetirmiş, zərərli sənaye müəssisələrində çalışan insanların oftalmoloji müayinədən keçmələrini təşkil etmiş, peşə ilə əlaqədar əmələ gələn göz xəstəliklərinin profilaktikası və müalicəsi ilə ciddi məşğul olmuşdur. O, peşə amili etiologiyalı göz xəstəliklərinin yayılma qanunauyğunluqlarını aşkar etmək üçün Bakı Şin zavodunda, neft-kimya və yod sənayesi müəssisələrində, Sumqayıt "Üzvi sintez" istehsalat Birliyində, Mingəçevir "İzolit" və rezin-texnika məmulatı zavodlarında, Gəncə gil-torpaq kombinatında və digər obyektlərdə işləyənlərin görmə orqanlarına mənfi təsir göstərən amilləri, onların etio patogenezini diqqətlə öyrənmiş, zərərli peşələrin törətdikləri göz xəstəliklərinin yaranma mexanizmini elmi surətdə əsaslandırmış, onların qarşısını almaq üçün əməli tədbirlər görmüşdür. Zərifə xanım Əliyeva bu xeyirxah işləri yerinə yetirərkən zərərli amillərin təkcə görmə orqanına deyil, bütövlükdə, orqanizmə və onun ayrı-ayrı orqanlarına göstərdiyi təsirləri də mükəmməl öyrənmiş, profilaktik və müalicəvi tədbirlərin bu istiqamətdə aparılmasına lazımi şərait yaratmışdır. Alim zərərli müəssisələrdə çalışanların görmə orqanlarını müalicə etməklə, bütövlükdə onların ayrı-ayrı orqanlarını da müxtəlif növ toksinlərin təsirindən mühafizə edərək birbaşa insanların həyatını qoruyurdu.

Görkəmli alimin aktual problemin həlli yollarında apardığı səmərəli işlər tezliklə öz bəhrəsini vermiş və o, 1976-cı il may ayının 27-də M.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Dissertasiya müdafiəsi günü alim özünün tutarlı əyani dəlillərə əsaslanan nüfuzedici çıxışında elmi istiqamətlərinin üstünlüklərini, elmi kamilliyini, cəsarətli eksperimentatorluq bacarığını Moskvada keçmiş SSRİ-nin məşhur oftalmoloqları qarşısında bir daha təsdiq edərək, onların rəğbətini qazanmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Piroqov adına II Moskva Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı A.R.Nesterov akademik Z.Ə.Əliyevanın doktorluq dissertasiyasının müdafiəsi gününü xatırlayaraq yazır: "Həmişə olduğu kimi, Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu yanındakı İxtisaslaşdırılmış Şuranın iclası adət etdiyimiz rəsmi qaydada başladı. Kürsüyə bəstəboy, qarasaçlı, suyuşirin, irigözlü, qaynar baxışlı bir qadın qalxdı. Onun nitqi dəqiq və aydın tələffüzü ilə, ən çətin məsələləri belə sadə dildə ifadə etmək bacarığı ilə seçilirdi. O, məruzənin ayrı-ayrı məqamlarına rəngli slaydlarla, qrafiklərlə, cədvəllərlə aydınlıq gətirirdi. Zərifə Əziz qızının məruzəsi şurada diqqətlə dinlənildi. Rəsmi və qeyri-rəsmi opponentlərin rəyləri yekdil idi. Gizli səsvermə yolu ilə şura yekdilliklə Zərifə Əziz qızı Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi vermək barədə qərar çıxardı.

Müdafiədən sonra biz Zərifə xanımla bəzi istehsalat məsələlərini müzakirə etmək üçün görüşdük və beləcə, uzunmüddətli ailə dostluğunun əsası qoyuldu. 21-22 oktyabr 1977-ci ildə Zərifə xanımın təşəbbüsü ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin VII plenumunun keçirilməsi cəmiyyətin həyatında mühüm hadisəyə çevrildi. Həmin plenumda 200 nəfər iştirak edirdi. Plenumda ölkənin görkəmli alimləri uşaqların görmə qabiliyyətinin mühafizəsinə, qlaukomanın profilaktikasına və müalicəsinə, ağır göz zədələrinə həsr olunmuş məruzələrlə çıxış etdilər...

Zərifə xanımın həmin plenumda kimya sənayesi müəssisələrində görmə orqanının peşə xəstəliyinə həsr olunmuş məruzəsi hamının diqqətini cəlb etdi. Qeyd etmək lazımdır ki, ÜOEC-nin İdarə Heyətinin plenumunda oftalmologiyada ayrıca əsas istiqamət sahəsi kimi peşə patologiyasının problemləri ilk dəfə müzakirə olunurdu. Zərifə Əziz qızı rəhbərlik etdiyi kollektivin apardığı tədqiqatların əsas nəticələrini şərh edərək kimya və neft-kimya sənayesinin sürətli artımına diqqət çəkdi. Z.Ə.Əliyevanın plenumdakı məruzəsi və onun müzakirəsi görmə orqanının peşə patologiyası üzrə tədqiqatların gələcək inkişafına təkan verdi".

Doktorluq dissertasiyası müdafiəsindən bir qədər sonra Zərifə xanım Əliyeva ADHTİ-də müsabiqə yolu ilə professor vəzifəsinə seçilmiş və qısa müddətdə onun çoxdan layiq olduğu bu elmi adı da təsdiq edilmişdir.

Tibb elmləri doktoru, professor Z.M.Skripniçenko "Alim ömrü" adlı xatirəsində akademik Z.Ə.Əliyeva ilə ilk görüşünü belə xatırlayır: "Bizim ilk görüşümüzü daha dəqiq xatırlayıram. Oktyabr 1977-ci il. Akademik V.P.Filatov adına Odessa Göz Xəstəlikləri İnstitutunun nümayəndə heyəti Azərbaycan oftalmoloqlarının elmi konfransında iştirak etmək üçün Bakıya gəlib. Odessadan gələn konfrans nümayəndələrini aeroportda mehribanlıqla qarşılayıb, rahat mehmanxanada yerləşdirdilər. Daha sonra sabah öz işinə başlayacaq konfransın keçiriləcəyi yerə apardılar.

Konfrans başladı. Dinlədiyimiz məruzələrdən ən çox professor Z.Ə.Əliyevanın Azərbaycanın şin istehsalı sahəsində gözün peşə xarakterindən asılı olaraq zədələnməsi barədə etdiyi çıxış yadda qaldı...".

Bakıda ilk dəfə olaraq belə bir Ümumittifaq miqyaslı plenumun təşkili Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan verdi. Plenumda professor Zərifə xanım Əliyeva Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaradılması haqqında təklif irəli sürdü və iştirakçılar yekdilliklə bu təklifi müdafiə etdilər. Professor Z.Əliyeva 1979-cu ildə Bakı məişət kondisionerləri zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı unikal bir laboratoriyanın yaradılmasına və onun səmərəli fəaliyyət göstərməsinə nail oldu. Elmin və texnikanın ən son nailiyyətlərinə əsaslanan üç şöbədən ibarət laboratoriya tezliklə yeni cihazlarla zənginləşdirildi və görmə orqanının peşə xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi mərkəzinə çevrildi. Şöbələrdən birində görmə orqanının vəziyyəti yoxlanılır, ikincisində diaqnostik-funksional müayinələr aparılır, üçüncüsündə isə cərrahi əməliyyatlar icra edilirdi. Laboratoriyalarda az intensivli toksikliyə malik istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi həyata keçirilirdi. Zərifə xanımın bu təcrübəsi keçmiş SSRİ-nin digər şəhərlərində də bəyənilərək rəğbətlə qarşılanmış, təcrübədə əyani olaraq geniş tətbiq edilmişdir. Professor Zərifə xanım Əliyevanın elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində özünün dolğun əksini tapmışdır.

1981-ci ildə ölkəmizin tibb elminin, səhiyyə sisteminin tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elm-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Görkəmli oftalmoloq-alim məzunu olduğu və özü üçün "Alma mater" hesab etdiyi Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Azərbaycan Tibb Universiteti) bitirdikdən sonra da onu heç vaxt unutmamış, onunla daim sıx əlaqə saxlamışdır. Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının həm əvvəlki, həm də indiki əməkdaşları da özlərini Zərifə xanımın yetirmələri, onun yaratdığı elmi məktəbin davamçıları hesab edirlər.

Akademik Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri vəzifəsinə, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrinin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

Zərifə xanımın elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və sair əsərləri bu qəbildəndir.

Akademik Z.Əliyevanın elmi-tədqiqat işlərinin bir qismi görmə orqanının bədxassəli şişlərinin, qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün əlaqədar dəyişiklikləri və görmə-sinir yolları" adlı monoqrafiyaları və digər əsərləri göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" və digər monoqrafiyaları isə daktriologiyaya həsr edilmişdir. Zərifə xanım Əliyevanın qələmə aldığı fundamental "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" və sair kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdəndir.

Zərifə xanım elm və texnologiyaların etikası, həkimlik deontologiyası haqqındakı zərif və saf düşüncələrini öz dəyərli əsərlərində təsbitləndirə bilib. Onun qələmə aldığı "Yüksək etimad" kimi kitabı və bu mövzuya həsr etdiyi digər əsərləri həm bu gün, həm də gələcəkdə gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların bir həkim, bir şəxsiyyət kimi formalaşmalarında böyük əhəmiyyət kəsb edən əsərlər olaraq qalacaq və aktuallığını heç vaxt itirməyəcəkdir.

Akademik Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarca elmlər doktoru və elmlər namizədinin elmi rəhbəri və məsləhətçisi olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Z.Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərlə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Akademik Z.Ə.Əliyeva həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir. O, respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Akademik Zərifə Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. Bu il görkəmli alimin anadan olmasının 100 illik yubileyidir. İllər bir-birini əvəz etsə də, əvəzolunmaz alimin əziz xatirəsi heç vaxt yaddan çıxmır, daim ehtiramla yad edilir. Qədirbilən xalqımızın, eləcə də ölkəmizin tibb işçilərinin ona olan məhəbbətinin əbədiliyi artıq vaxt, zaman çərçivəsindən çıxaraq sonsuzlaşmış, daimiləşmişdir.

Akademik Zərifə Əliyeva özünün səmimiliyi, xeyirxahlığı, insansevərliyi, vətənpərvərliyi, bəşəri duyğuları ilə ölməzliyə qovuşub. Onun unudulmaz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

**Respublika.** - 2023.- 28 aprel. - № 86. - S. 7.

**Böyük ziyalılıq və xeyirxahlıq nümunəsi – Zərifə xanım Əliyeva**

**Prezident İlham Əliyev: "O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir"**

**Zümrüd Bayramova**

Bu gün əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Zərifə xanım Əliyevanın doğum günüdür. Akademik Zərifə Əliyeva təkcə öz adını tibb tarixinə yazmadı, eyni zamanda, Azərbaycan oftalmologiyasının adını bütün dünyada ucaltdı. 1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanım xalqına ləyaqətlə xidmət edən parlaq simaya çevrilib. Öz parlaq istedadını zəhməti ilə vəhdətdə ortaya qoyan Zərifə xanım elm, ədalət, səxavət, səbr, ismət kimi keyfiyyətləri əməli fəaliyyətində və özündə birləşdirib. Bu dəyərlər içərisində güclü, fədakar ziyalı kimi tanınıb və şöhrətlənib. Məxsusi dəyərləri ilə seçilən və sevilən, ən yüksək bir pillədə dayanan Zərifə xanım Əliyevanın adı əbədidir. Yaşanılan ömür yolunun sərlövhələri Onu hər zaman örnək olacaq bir simaya çevirib.

Özünəməxsus nümunəvi yolu olan Zərifə xanımın zəngin və şaxəli həyat yoluna nəzər saldıqda bu həyat yolunda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqətdən yayınmır: ana ömrü, tədqiqatçı ömrü, həkim ömrü, alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çalarları və zəkası ilə qaranlıq dünyalara şəfa verdi. Duyğulu, düşüncəli, fərqli bir dünyası ilə əməli fəaliyyəti cəmləşdirib həyat fəlsəfəsinin silinməyən izlərini özü də hiss etmədən gərgin axtarışları, zəhməti, elmi biliyi ilə bu aləmə həkk etdi. Bu ömrün yazılmış səhifələrində Zərifə xanımın portretini sezməmək mümkün deyildi.

Qəlb dünyasının işığı tez bir zamanda Onun Azərbaycan məkanında tanınmasına gətirib çıxardı. Sonralar bunun coğrafi məkanı daha da genişləndi. Sərhədləri ilə tanınan dünyamızı yaratdığı əsərləri, elmi kəşfləri, axtarışların nəticəsi birləşdirdi.

**OFTALMOLOGİYA SAHƏSİNDƏ ƏN MÖTƏBƏR MÜKAFATA – SSRİ TİBB ELMLƏRİ AKADEMİYASININ M.İ.AVERBAX ADINA MÜKAFATINA LAYİQ GÖRÜLƏN İLK QADIN**

Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda, ona qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayır. Eyni zamanda, O, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirirdi. Zərifə xanım bu problem üzərində iş apararkən, çox vaxt, bilavasitə sənaye müəssisələrində olaraq, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilir.

**"ONUN ƏSƏRLƏRİ, ELMİ MONOQRAFİYALARI BU GÜN DƏ ÖZ AKTUALLIĞINI İTİRMİR"**

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil edir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edir.

1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilir. Elmi tədqiqatların nəticəsi olaraq, Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən, "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail olur. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü görür. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülür. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Zərifə xanımın, sözün əsl mənasında, böyük həkim olduğunu bildirmişdi: "O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir".

## AZƏRBAYCAN OFTALMOLOGİYASININ ADINI BÜTÜN DÜNYADA UCALDAN ALİM

1977-ci ildə onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Dünya şöhrətli alimlərin iştirak etdiyi bu mötəbər tədbir Azərbaycan elminin gələcəyi, onun inkişafı naminə ən tanınmış elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlanması üçün böyük imkanlar yaratdı.

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Görkəmli alim, ictimai xadim, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın əməkdar elm xadimi, Tibb Elmləri Akademiyası mükafatı laureatı Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Zərifə Əliyevanın Azərbaycan EA-nın akademiki seçilməsi Onun böyük xidmətlərinin, çoxillik səmərəli elmi tədqiqat işinin etirafıdır.

Akademik Zərifə Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə xanım zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi.

## PEŞƏKAR HƏKİM VƏ XEYİRXAH İNSAN

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyevanın elmi fəaliyyətini, peşəkarlığını yüksək qiymətləndirmişdilər. Belə ki, Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm Xeyirxah idi, həm Ağıllı idi, həm də Qüdrətli idi!"

Zərifə xanımın gördüyü bütün işlərdə insan amili dayanırdı. İnsanlara şəfa vermək istəyi daynırdı. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Çünki O, həm peşəkar həkim, eyni zamanda, çox xeyirxah insan idi və hər bir həkimdə bu iki amil birləşməlidir. Çünki həkim peşəkar olmalıdır, insanlara xidmət göstərməlidir. Eyni zamanda, həkim xeyirxah insan olmalıdır. Zərifə xanımın bu məsələlərlə bağlı da fikirləri, məqalələri var idi. Həkimin etik davranışı ilə bağlı onun çox dəyərli fikirləri olmuşdur. Hesab edirəm ki, bu fikirlər bu gün də hər bir həkim üçün əsas olmalıdır".

## "AZƏRBAYCAN QADINI BÜTÜN DÜNYADAKI QADINLARDAN GÖZƏLDİR"

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib.

Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ANA olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi.

Əziz anam, şirin sözlü anam,
Qəlbin kövrək, eşqin solmaz bahar.
Gülər üzlü, qara gözlü anam,
Hara getsəm gözün mənə baxar.
Ana qəlbin layla olar gəzər,
Doğma səsin ömrü-günü bəzər.

Zərifə xanım Əliyeva işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Ümumiyyətlə, Zərifə xanımın həyatı Azərbaycan qadınları üçün bir məktəbdir. Elə bir məktəbdir ki, uzun illər boyu öyrəniləcəkdir. Unudulmaz və əziz xatirəsinin yad etdikcə bu parlaq Şəxsiyyətin elmimizə, səhiyyəmizə, milli və mənəvi varlığımıza bəxş etdiyi dəyərləri təkrarən dərk edir, Onun ölməz ruhu qarşısında bir daha baş əyirik.

## "ZƏRİFƏ XANIM KİMİ HƏYAT YOLDAŞIM OLDUĞUNA VƏ O, AİLƏMDƏ ÇOX YÜKSƏK MƏNƏVİ MÜHİT YARATDIĞINA GÖRƏ MƏN XOŞBƏXT OLMUŞAM"

Zərifə xanımın ömür-gün yoldaşı dünya şöhrətli Şəxsiyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycan qadınları haqqında deyirdi: "Azərbaycan qadını mərd, sədaqətli, qeyrətli, namuslu qadındır. Mən dünyanın çox yerini gəzmişəm, dünya qadınlarını görmüşəm, fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir".

Həqiqətən də Azərbaycan qadınları dünyada yaxşı nə varsa ona layiqdir. İnsanlığa və insanlara qiymət verməkdə mahir, səriştəli olan Müdrik Siyasətçi Ulu Öndər Heydər Əliyev bu cəhətdən də gözəl sədaqətli həyat yoldaşı, peşəkar alim, qayğıkeş ana, mehriban nənə kimi Zərifə xanım Əliyeva seçimində yanılmamışdır. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm… Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib".

Zərifə xanım Azərbaycan xalqına məxsus, milli-mənəvi, əxlaqı dəyərləri özündə cəmləşdirmiş bir Ana idi. İşinin çox olmasına baxmayaraq, Zərifə xanımın gözəl övladlar yetişdirməsi və ictimai fəaliyyəti bu gün də örnək olacaq bir fəaliyyətdir. O, əməli işin xoş təəsüratları ilə hamının qəlbində daim yaşayır və yaşayacaqdır.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda dəfn olunub.

Böyük ziyalılığı, xeyirxahlığı ilə sevilən Zərifə Əliyeva 62 illik ömrünə elə əməlləri sığdırmışdır ki, onu məhəbbətlə duymamaq mümkün deyildir.

**Səs.**-2023.-28 aprel.-№72.-S.4.

## Qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, böyük alim, əsl müəllim

*"Tələbələrə, gənc həkimlərə diqqəti təkcə müəllimlik məharəti yox, həm də analıq qayğısı idi"*

**Mübariz Allahverdiyev,**
Azərbaycan Tibb Universitetinin rektorunun müşaviri, professor, Əməkdar müəllim

- 80 illik həyatımın dərkedicilik dövrü boyunca tanıdığım, gördüyüm, yaxın ünsiyyətdə olduğum yüksək mənəviyyata malik nadir insanlar, çoxsaylı sanballı elmi əsərləri ilə dünyada tanınan məşhur alimlər arasında daim anılan, yad edilən, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyeva xüsusi yer tutur.

Bizlər Zərifə Əliyeva məktəbinin yetirmələri kimi özümüzü çox xoşbəxt hesab edirik. Xoşbəxt hesab edirik ona görə ki, hələ gənc yaşlarımızda 60-cı illərdəki tələbəlik dövrümüzdə ilk növbədə akademik Zərifə xanım Əliyevanın şəfqətli həkimlik, peşəkar müəllimlik, pedaqoqluq xüsusiyyətlərini, həmçinin onun genetik kodlarından, ailəsinin və mənsub olduğu millətin millilik və xəlqilik tərbiyəsindən gələn yüksək insani keyfiyyətlərini görmüş, mümkün qədər də bu gözəl xüsusiyyətləri əxz edə bilmək imkanına malik olmuşuq.

Zərifə Əliyevanın yaratdığı elmi-pedaqoji və təlim-tərbiyə məktəbi həyat, mənəvi zənginliklərlə dolu insani keyfiyyətlər, elmi və pedaqoji yüksəkliklərin tükənməz, solmaz əlaqələrinin qarşılıqlı vəhdətindən doğan əsl elm və təhsil məbədidir.

Həyat bizi Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu (indiki Azərbaycan Tibb Universiteti) Göz xəstəlikləri kafedrasında o zamankı nomenklatura ilə desək, tibb elmləri namizədi, həkim-oftalmoloq dosent Ləzifə xanım Əliyeva ilə rastlaşdırdı. Ləzifə xanım o vaxtlar mənim qrup nümayəndəsi olduğum qrupumuzun həmin fənn üzrə təcrübə dərslərini aparırdı. Biz tələbələr ilk gündən onun ünsiyyətinə, gənclərə münasibətinə, göz xəstəliklərinin maraqlı izahına diqqət yetirərək keçilən dərslərimizin adi praktik gedişini məşğələ çərçivəsindən fərqli yeni elementlərlə zənginləşdirilmiş bir yenilik kimi qəbul edirdik. Dərs keçdiyimiz otaq həcmcə kiçik sahəli olmaqla yanaşı, həm də günün günorta çağı elektrik lampası ilə işıqlandırılırdı. Lakin Ləzifə xanımın ilk andan göstərdiyi xoş münasibəti tələbələrə otaq amili çatışmazlıqlarını tamam unutdururdu. O, söhbət əsnasında dərsin ikinci yarısında bizi geniş və işıqlı otaqlardan birinə aparacağını dedi. Qeyd etdi ki, Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru kafedra müdirinin icazəsi ilə bundan sonra bütün semestr boyu dərslərimizin ikinci yarısını Zərifə xanıma məxsus otaqda, onun iştirakı və köməkliyi ilə keçəcəyik. Biz həmin otağın qarşısında çoxsaylı xəstələr görürdük. Ləzifə xanım bizi otaqda xəstəni müayinə edən ağxalatlı, üzündən nur yağan bir həkim xanımla tanış etdi. Həmin xanım bizim gələcək həyatımızda önəmli yer tutan Zərifə Əliyeva idi. Bildirdi ki, Zərifə xanımın xəstələri çox olur və keçdiyimiz məşğələnin nəzəri hissəsindən sonra onun xəstələri necə müayinə etməyi, göz xəstəliklərinin diaqnostikası və müalicəsilə bağlı təcrübəsi ilə tanış olmaq imkanı əldə edə biləcəksiniz. Adını ilk dəfə eşitdiyimiz bu dəyərli xanımın bizə göstərdiyi mehribanlığı, səmimiyyəti dərsin ilk anlarındakı həyəcanımızdan doğan gərginliyi tədricən tam unutdurdu. Sonrakı gəlişlərdə biz onun cəlbedici izahlarına maraqla qulaq asır, hər sözünü, kəlməsini insana həyat bəxş edən suiçimi, havaudumu kimi qəbul edirdik. Biz hələ birinci kursda olanda ATİ-nin Normal anatomiya kafedrasında dosent Bikəxanım Əlizadədə gördüyümüz müəllim-tələbə münasibətlərinin ılıq çalarlarını Zərifə xanımla Ləzifə xanımın simasında daha dərin incəliklərlə duyaraq, onlardan özümüzə qarşı sadəcə mehriban bir müəllim münasibətini yox, əsl doğma ana qayğısını hiss edirdik. Zərifə Əliyeva dərslərimizdə bizə aparatda xəstənin görmə orqanının anatomik struktur elementlərinə baxmağımıza, ondan sərbəst istifadə etməyimizə imkan yaradır, bu sahəyə marağımızı artırırdı. Biz tələbələr, eyni zamanda ondan oftalmologiya sahəsi üzrə yeni-yeni məlumatlar, bilgilər əldə edirdik. Ən maraqlı anlarımız isə çoxlu sayda xəstələrin müalicədən sonra Zərifə xanıma yanaşaraq ona necə səmimi-qəlbdən təşəkkür etmələrinin şahidinə çevrilməyimiz olurdu. Sonralar öyrəndik ki, Zərifə xanımla Ləzifə xanım eyni ailənin - görkəmli dövlət və elm xadimi, professor Əziz Əliyevlə Leyla xanımın övladlarıdırlar. Biz bu iki bacının xasiyyətcə qürurlu və təmkinli olmaları, təvazökarlıqları ilə yanaşı, həlim bir istiqanlılıqla hədsiz dərəcədə bir-birlərinə bənzəmələrinin, dəstək olmalarının şahidiydik.

Zərifə xanım daha çox elmi-tədqiqat işləri ilə məşğul olurdu. Bizlər pedaqoqluğun, müəllim-tələbə münasibətlərinin, həkimlik deontologiyasının sirlərini qəlbimizdə dərin izlər qoymuş Zərifə xanım Əliyevadan əxz etmişik və buna görə özümüzü çox şanslı hesab edirdik.

Yaxşı xatırlayıram,1966-cı ildə ATİ-nin növbəti məzunlarının buraxılış gecəsi keçirilirdi. İnstitutun tədris işləri üzrə prorektoru Maqsud Əlizadə buraxılış gecəsi ərəfəsində qrup nümayəndələri ilə söhbət apararaq bizi dinlədi. Onların arasından iki nəfərə - mənə və professor Zakir Əliyevə həmin tədbirdə məzun kimi çıxış etməyi tövsiyə elədi. Mən çıxışımda təhsil illərində bizə bilik verən, doğru yol göstərən loğmanlara- sevimli müəllimlərimizə minnətdarlıq hisslərimi ifadə etmişdim. Təbii ki, həmin müəllimlər sırasında ilk olaraq Zərifə xanım və Ləzifə xanım Əliyevaların adlarına istinad edərək tələbələrimiz adından onlara və digər pedaqoq

həkimlərimizə təşəkkürlərimi bildirmişdim. İndi də qürur hissləri keçirirəm ki, mənə o zaman bir məzun olaraq dünyanın tibb sahəsi üzrə tanınan alimləri sırasında özünəməxsus rolu və yeri olan, SSRİ Tibb Elmləri Akademiyasının akademik A.İ.Averbax adına mükafatına layiq görülən, dünyaşöhrətli pedaqoqların ön cərgəsində dayanan, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevaya bizlərə göstərdiyi diqqət və qayğıya, bir həkim kimi cəmiyyətdə layiqli yer tutmağımızda əvəzsiz rolu olduğuna görə minnətdarlığımı, səmimi fikirlərimi çatdırmaq müyəssər olmuşdur.

Sonralar mən ATİ-nin Normal anatomiya kafedrasının müəllimi oldum və Zərifə xanımın yaradıcılıq yolunu izləməkdə davam etdim.

Bilirsiniz, Zərifə Əliyeva dissertasiya işlərini daha tez başa çatdırıb müdafiə edə bilərdi, lakin qarşısına qoyduğu elmi yeniliyi insanlara xeyirli olacaq bir həddə çatdırmayana qədər müdafiə etməyə tələsmirdi. O, yalnız uzun illər tələb edən problemin həllini başa çatdırdıqdan sonra müdafiə etməyə razılıq verirdi. Ona görə də akademik Zərifə Əliyevanın elmi işlərinin dəyərli nəticələri bu gün də aktual olaraq qalmaqdadır. Dəyərli müəllimimiz elmi fəaliyyəti, apardığı uzunmüddətli uğurlu araşdırmaları, sanballı tədqiqat əsərləri ilə sübut etdi ki, alim böyüklüyü yüksək zəka və ağır zəhmətin vəhdəti hesabına əldə edilir. Zərifə xanım gözəl pedaqoq idi.

Görkəmli ictimai və elm xadimi akademik Zərifə Əliyevanın elmi-tədqiqat işlərinin parlaq nəticələri əsasında qələmə alınan 12 fundamental klassik monoqrafiyasına, çoxsaylı elmi məqalələrinə, digər kitab və tədris vəsaitlərinə hazırda da dünya alimləri tərəfindən geniş miqyasda istinadlar edilməsi, sitatlar gətirilməsi onun alimlik qüdrətinin tükənməzliyinə, elmi nəticələrinin aktuallığının daimiliyinə, müasirliyinə, həmişəyaşarlığına, onun simasında Azərbaycan oftalmologiya elminin beynəlxalq aləmə inteqrasiyasına dəlalət edir.

Fikrimcə, bu da Azərbaycanın dünyaşöhrətli aliminin xüsusilə də, dərindən və hərtərəfli tədqiq etdiyi peşə xəstəliklərinin və digər xəstəliklərin təkcə görmə orqanına deyil, bütövlükdə orqanizmdə törətdiyi fəsadların qarşısının vaxtında alınması yollarının elmi istiqamətlərinin, həmçinin əldə olunan elmi nəticələrin bütün dövrlər üçün aktual olmasının tutarlı göstəricilərindəndir.

Görkəmli alimin uzun illərin təcrübəsinə, onun özünün daxili aləminin bənzərsiz gözəlliklərinin təcəssümünə, həkimlik deontologiyasının incəliklərinə həsr olunmuş “Yüksək əqidə” kitabı isə bütün həkim və tələbələrin, müəllimlərin stolüstü kitabıdır.

Akademik Zərifə Əliyeva insanlarla ünsiyyətində, təlim-tərbiyə ilə bağlı tələbə və müdavimlərə verdiyi tövsiyələrində, xəstələrlə münasibətində nümayiş etdirdiyi həssaslıq və etik norma deontologiyasında hər şey təbii, hər şey göz bülluru kimi təmiz, hər şey büllur bulaqlar kimi saf idi. Tələbələrə, gənc həkimlərə diqqəti təkcə müəllimlik məharəti yox, həm də ona xas olan mehriban bir analıq münasibəti, qayğısı idi. Bu səmimi münasibəti görən tələbə və həkimlər, sağlamlığına qovuşan xəstələri qəlbən ona daha da yaxınlaşırdı.

Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı bir Azərbaycan xanımı, gözəl həkim, qayğıkeş müəllim kimi nəinki onu tanıyan, ünsiyyətdə olan müəllim və tələbələri, eləcə də gözlərinə dünya nuru bəxş etdiyi xəstələri, bütövlükdə Azərbaycan elmi ictimaiyyəti tərəfindən hər zaman xoş xatirələrlə anılan bir şəxsiyyətdir.

**Azərbaycan müəllimi**. - 2023. - 28 aprel. - № 16. - S. 7.

## Qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, böyük alim, əsl müəllim

### Akademik Zərifə Əliyevanı tələbələri belə xatırlayırlar

**Paşa Musayev (Qəlbinur),**
Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, professor

Dünyaya həm insanlara nur bəxş etmək, oftalmologiya sahəsində öz dəst-xətti olan bir alim, gözəl həyat yoldaşı, həm də qayğıkeş ana olmaq üçün gəlmişdi. Bütün bu missiyaların öhdəsindən layiqincə gələn, tibb sahəsində etdiyi yeniliklərlə, araşdırmaları ilə Azərbaycan elminə dəyərli töhfələr verən, sözün əsl mənasında, böyük ALİM, akademik Zərifə xanım Əliyevanın bu gün doğum günüdür.

Tanınmış alimin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin tarixinə parlaq səhifələr kimi daxil olmuşdur.

Ölkəmizdə oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır.

Görkəmli dövlət və ictimai-siyasi xadim, səhiyyə təşkilatçısı, böyük şəxsiyyət Əziz Əliyevin ailəsində doğulub boya-başa çatan, zəngin dünyagörüşü, yüksək mədəniyyəti məhz bu cür ailədə formalaşan Zərifə xanımın həkimlik peşəsini seçməsi təbii idi. Zərifə xanım gözlərə nur vermək, insanlara həyat eşqini qaytarmaq arzusunda idi. Və bu istəyinə də nail olaraq neçə-neçə insana sevinc bəxş edib, könüllərdə özünə taxt qurdu. Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi də məhz Zərifə Əliyevanın adı ilə bağlıdır.

Bu nəcib əməllər sahibinin elmi fəaliyyəti çox zəngin və hərtərəfli olub. İstedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və tibb elmi üçün qiymətli elmi-tədqiqat işləri yazıb. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktikası istiqamətində bir sıra mühüm işlər reallaşdıran, müvafiq tədbirlərin işlənib hazırlanmasının, eyni zamanda keçirilməsinin bilavasitə təşəbbüskarı olan Zərifə xanım özünün tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə həsr edib.

Dəyərli alim keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi adı oftalmologiya elmində tarixə düşüb.

Zərifə Əliyevanın elmi fəaliyyəti qeyd etdiyimiz kimi çoxşaxəli olmuşdur. Tanınmış alimi həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. Onun gənc həkimlərin tərbiyəsi, peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsi və həlli istiqamətində gördüyü işlər, çəkdiyi əziyyət öz bəhrəsini vermişdir. Çoxsaylı məqalələri, çıxışları, məhz bu məsələyə həsr olunan “Yüksək etimad” kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfədir.

Görkəmli akademik fəaliyyəti boyu həmçinin, böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. Zərifə xanım, eyni zamanda “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü idi.

Bir sıra orden və medallarla təltif olunan dəyərli alim Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın gərgin və məhsuldar fəaliyyətində xüsusilə kadr hazırlığı və həkimlərin ixtisasının təkmilləşdirilməsi önəmli yerlərdən birini tuturdu. Məhz onun birbaşa rəhbərliyi altında gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Gözəl alim tələbələrinə zəngin həyat təcrübəsi öyrətmiş, onlara qarşı yüksək həssaslıq nümayiş etdirərək diqqət və qayğısını əsirgəməmişdir.

Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100-cü ildönümündə onun haqqında bir də məhz yetirmələrinin-vaxtilə bu əvəzsiz insanla yaxından ünsiyyətdə olmuş respublikanın tanınmış alimlərinin xatirələrini dinləmək istədik.

- Mənim üçün müəllim valideynlərlə eyni səviyyədədir. Vaxtilə mənə dərs demiş gözəl müəllimlərim arasında Zərifə xanım Əliyevanın xüsusi yeri var. Biz ondan təkcə elm yox, həm də etika, insana, xəstəyə, tələbəyə münasibət öyrənmişik. O, böyük hərflərlə yazılan Ana, Azərbaycan xanımı idi. Zərifə xanım görkəmli alim, həm də çox peşəkar, qayğıkeş həkim idi. Onun xəstələrinə, tələbələrinə, müəllimlərinə qarşı münasibəti mənim üçün örnəkdir.

Bilirsiniz, Umnisə xanım Musabəyova həm mənim, həm də akademik Zərifə xanımla professor Zəhra Quliyevanın müəllimi olub. Yadımdadır ki, Umnisə xanımın ayağı sınmışdı, xəstəxanada idi. Mən onda institutun son kursunda oxuyurdum. Umnisə xanımın yanına gedəndə gördüm ki, Zərifə xanımla Zəhra xanım da palataya gəliblər. Umnisə xanım həkimlə danışırdı, onlar təxminən 15 dəqiqə şagird kimi ayaq üstə durdular. Biri ölkə rəhbərinin xanımı, o biri Tibb Universitetinin rektoru, SSRİ-nin deputatı idi. Amma ikisi də müəllimlərinin

yanında uşaq kimi dayanaraq tərpənmirdilər. Umnisə xanım söhbətini qurtardı və onlara "əyləşin" deyiləndən sonra oturdular. Kənardan bu prosesi maraqla izləyirdim və bu, mənim heç zaman yaddan çıxarmadığım bir hadisə oldu.

Zərifə xanım zamanı qabaqlayan, onun fövqündə dayanan dəyərli alim idi. Bir neçə istiqamətdə apardığı işlər illər keçəndən sonra daha da aktuallaşır, gərəkli olur, qiyməti daha da artır. Məsələn, gözün peşə xəstəlikləri ilə əlaqədar Sovetlər Birliyində yaradılan ilk sanballı elmi laboratoriya. Onun rəhbərlik etdiyi, böyük ideyaları reallaşdıran bu kollektivin gördüyü işlərin elmi nəticələri bütün dünyada qəbul olunurdu. Onu da xüsusi qeyd edim ki, akademik Zərifə xanım Əliyeva əslində, dünyada bu elmi istiqamətin pioneridir. Heç də təsadüfi deyil ki, o, SSRİ Tibb Elmləri Akademiyasının yüksək M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. Zərifə Əliyevanın məşğul olduğu elmi istiqamətlərdən biri də iridodiaqnostikaya həsr olunan ilk elmi monoqrafiyanın aparıcı müəlliflərindən olması idi.

Zərifə xanım sanki bu günü uzun illər əvvəl görərək tibbi deontologiyaya aid qiymətli elmi-fəlsəfi əsərlər yazıb mərkəzi mətbuatda çap etdirirdi. 1983-cü ildə nəşr etdirdiyi "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri" əsərində isə tanınmış tibb mütəxəssislərinin qeyd etdiyi kimi onun daxili aləmi, vəzifə borcuna, xəstələrə və ətrafdakılara münasibəti özünü daha parlaq büruzə verir. Çap etdirdiyi elmi əsər təkcə səhiyyə aləmində deyil, ailə və məişət əlaqələri də daxil olmaqla, bütövlükdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm rol oynayır.

Zərifə xanım Azərbaycan tibb elmində xüsusi çəkisi olan bir alimdir. Azərbaycan tarixində xanım şəxsiyyətlər içərisində onun özünəməxsus yeri var. Alim, ictimai xadim kimi ölkəmizi dünyada çox gözəl təmsil edə bilirdi.

Zərifə Əliyeva hesab edirdi ki, həkimin həyati mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Onu da vurğulayım ki, özünün zəngin tibbi təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə Əliyevanın həkimin xəstə ilə necə davranmasına dair tövsiyələri də əvəzsiz idi. Bu münasibətlərdə həkimin "sözlə" müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Ona görə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir.

Bir dəfə mənə Zərifə xanımın xəstələri necə qəbul etməsini görmək nəsib olmuşdu. Xəstələr üzlərində təbəssüm, müayinə və müalicə təyin edildikdən sonra tezliklə sağalmaq ümidiylə professor Zərifə Əliyevaya olan inam hissi ilə otağı tərk edirdilər. Bax budur, həkimin qazandığı sevgi və etibar...

Zərifə xanımı tanıdığım üçün hər cəhətdən örnək şəxsiyyət olduğunu deyə bilərəm. Dəyərli alim Moskvada nəşr olunan o zamankı Sovet İttifaqının ən nüfuzlu oftalmoloji elmi dərgisi "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinin üzvü idi. Həmin jurnala Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun direktoru, akademik M.M.Krasnov baş redaktorluq edirdi. O dövrlərdə mən bu elm ocağında aspiranturada, sonradan isə doktoranturada təhsil alırdım. Zərifə xanımla vaxtaşırı adıçəkilən elmi mərkəzdə, müxtəlif elmi toplantılarda, jurnalın redaksiya heyətinin yığıncaqlarına gələndə görüşərdik. Bu qısa görüşlərdə o, çox səmimi olaraq qayğılarımla maraqlanırdı.

Zərifə xanım bir dəfə mənə söylədi ki, Heydər Əliyeviç də uğurlarını izləyir, sənin haqqında evimizdə söhbətlər olur. Mən sevinc hissi ilə ona və Heydər Əlirza oğluna təşəkkür etdim. Bir müddət keçdikdən sonra Ümumittifaq Göz Xəstəlikləri İnstitutunun təqdimatı ilə elm sahəsində Ümumittifaq Lenin komsomolu mükafatına layiq görüləndə Ulu Öndər Heydər Əliyev Moskvadan Bakıya zəng edərək məni şəxsən təbrik etdi.

Zərifə xanım haqqında bir ana kimi danışanda öz müşahidələrimdən başqa, xatirələri mənə həmişə əziz olan iki gözəl insanın - müəllimlərim professor Zəhra xanım Quliyeva və dosent Ləzifə xanım Əliyevanın ( Ləzifə Əliyeva Zərifə xanımın böyük bacısı idi) sözləri yada düşür. Onlar söyləyirdilər ki, Zərifə xanım övladlarına ülvi məhəbbət bəsləyən bir ana idi. İşdə müxtəlif kabinetlərdəki telefonlardan (çox nəzərə çarpmasın deyə) ara vermədən zəng edib, evdə qoyub gəldiyi övladlarını soruşardı. Və bu telefon danışıqlarından yalnız birini dinləyən adam heç vaxt onu unutmaz, bir ananın övladlarına olan sonsuz məhəbbətinin ifadəsini ömrü boyu özüylə gəzdirərdi...

Onun həyat yoldaşı - o zamanlar Azərbaycan KP MK-nın birinci katibi işləyən Heydər Əliyevə olan münasibətindən bir məqamın şahidi olmuşdum. Ləzifə xanımgildə balaca nəvəsi Eminin ad günündə (anam İldız xanımla mən də orada idim) bir gün əvvəl televiziya ilə verilən iclasda Heydər Əliyevin parlaq çıxışından söhbət düşəndə Zərifə xanımın gözlərinin, üzünün ifadəsini heç zaman unutmaram. Bircə onu dedi ki, mən nəfəsimi dərmədən bütün çıxışı dinlədim, heyran olmuşdum.

Zərifə xanım yeri gələndə çox incə yumorla danışardı. Yerində olan incə yumorlarından Zəhra xanım, Ləzifə xanım, kafedramızın onunla həmyaşıd olan dosentləri Səkinə xanım, Rəfiqə xanım saatlarla gözəl xatirələr danışardılar.

Bilirsiniz, incə, zərif, yerinə düşən yumor yüksək zövq sahiblərinə, geniş dünyagörüşlü əsilzadələrə məxsus əlamətdir və çox təəssüf ki, bu dünyada bütün yaranmışlara nəsib olan xoşbəxtlik deyil. Bu gözəl xüsusiyyət Zərifə xanımın saysız üstünlüklərindən, taleyin ona bəxş etdyi vergilərindən biri idi.

Akademik Zərifə xanım Əliyeva bir övlad, bir evin, dahi şəxsiyyətin xanımı, bir ana kimi, alim, müəllim, vətəndaş kimi həmişə ucalıqdaydı. Elmi konfranslardan sonrakı toplantılarda və ya bayramlarda, ad günlərində əksər hallarda unudulmaz Gülarə xanım Əliyeva da iştirak edərdi. Hər zaman onun birinci mahnı sifarişi "Anamın anasısan, Azərbaycan" olardı. "Ana" və "Azərbaycan" sözlərini içdən gələn sonsuz sevgi ilə, insanı riqqətə gətirə biləcək şəkildə söyləyərdi.

Qürurla qeyd etmək istərdim ki, akademik Zərifə xanım Əliyevanın ardıcılları onun ideyalarını daim yaşadır və uğurla davam etdirirlər. Onun işıqlı xatirəsi bizlərin hər zaman qəlbindədir.

**Azərbaycan müəllimi. -** 2023. - 28 aprel. - № 16. - S. 6.

**Gözlərə işıq, qəlblərə nur bəxş edən böyük alim**

**Bu gün görkəmli oftalmoloq alim Zərifə Əliyevanın 100 illik yubileyidir**

**Həmkarları kimi, xəstələri də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanı belə xatırlayırlar**

**Xuraman İsmayılqızı**

«İnsana cəmiyyətdə hörmət qazandıran, sevdirən əməli, xeyirxahlığıdır» sözləri sınaqdan çıxmış aforizmlərdəndir. Səmimiyyət, humanist duyğular şəxsiyyəti formalaşdırdığı kimi, insanlıq naminə göstərilən fədakarlıq Tanrının ən çox sevdiyi bəndələrinə nəsib olan xarakterdir. «Elm sahibləri biliklərinin çoxluğu ilə deyil, əməllərinin faydalılığı, əxlaqlarının saflığı və özlərinin xeyirxahlığı ilə sınaqdan keçir» müdrik kəlamı həyatının mənasını xəstələrinə şəfa verməkdə görən akademik Zərifə xanım Əliyevanın ömür yoluna işıq salır. Vaxtilə eyni kollektivdə çalışdığı həmkarları Zərifə xanımı belə xarakterizə edirlər: Xeyirxahlığı varlığına hakim kəsilmiş insan, ideal şəxsiyyət!

Tibbin bütün sahələrində çalışan, insanlarda yaşamaq ümidini artıran ağxalatlıların hamısının əməyi məsuliyyətli, şərəflidir. Xəstələrinə həyat mənbəyi olan Günəş işığını bəxş edənlərin yeri fərqlidir. Bu baxımdan Zərifə xanımın xəstələri üçün çəkdiyi zəhmət, keçirdiyi həyəcanlı anlar daha məsuliyyətlidir. Həyatının mənasını insanlara səadət, şəfa, ən qiymətli nemət olan sağlamlıq bəxş etməkdə görən, Zərifə xanım haqqında danışılanda istər-istəməz bu sözlər yada düşür: Tale yazısına gözəl əməllərdən başqa heç nə yazmayan şəfqətli əllər sahibi. Çünki o, təkcə həkim kimi xəstələrinin sağlamlığının qayğısına qalmır, onlara mənəvi dəstək verir, problemləri ilə maraqlanır, dərdlərinə şərik olurdu. Dünyadan köçdükdən sonra da adı hörmətlə çəkilən, xəstələrinin simasında ikinci həyatını yaşayan, bilik və bacarığını tibbin ən çətin sahəsində sınayan, əməlləri ilə insanlığın zirvəsinə ucalan şəfqətli xanım kimi xatırlanan Zərifə Əliyevanı sevdirən ən ülvi xüsusiyyəti insanlarla ünsiyyəti kamilliyin vəhdətində görməsi idi.

Azərbaycanın tibb elminə yeniliklər gətirmiş, rektor, nazir, Mərkəzi Komitənin katibi, Baş nazirin müavini kimi yüksək vəzifələrdə çalışmış, dərin intellekti və təşkilatçılıq bacarığı ilə böyük nüfuz qazanmış, tanınmış həkim Əziz Əliyevin ailəsində dünyaya göz açan, tez-tez eşitdiyi «Həkim hər şeydən öncə xeyirxah olmalıdır. Əsl həkim xəstələrinin ağrısını, əziyyətini özündə hiss etməlidir» sözləri Zərifə xanımın həyat fəlsəfəsinin ana xəttini təşkil edirdi. Atasının yolunu davam etdirmək arzusu onu tibbin ən çətin sahəsinə yönəltdi. Zərifə xanım biliyini oftalmologiya sahəsində sınamaq istədiyini bildirdikdə ailə üzvləri bu çətin yolda ona uğurlar arzladılar. Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə- profilaktika fakültəsində ali təhsilini başa vurduqdan sonra Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisasartırma kursunda oxuduğu illərdə daim xatırladığı «Elmlə dirilən ölməz» ifadəsi onu daha çətin sınaqlara səslədi. Zərifə xanım həkimlik peşəsinin müqəddəsliyini Günəşə bənzədirdi: «Həkim insanlara günəş qədər lazımdır.»

Belə işıqlı, mənəvi zənginliyi ilə ictimaiyyət arasında böyük hörmət qazanan Zərifə xanım qısa ömür sürsə də onun haqqında deyilən xoş sözlər mənalı bir ömür yolunun salnaməsidir. Xəstələrinin gözlərinə nur verən, Günəşin işığını ilk görənlərin, təbiətin gözəlliyindən zövq alanların sevincini qəlbən yaşayan Zərifə xanıma dikilən minnətdarlıq dolu baxışların hər biri onun üçün yeni başlanan bir həyat yolu idi.

Həkim kimi diplomunu alan Zərifə hiss etdi ki, aldığı bilik və təcrübə ilə kifayətlənsə zamanın tələbi ilə ayaqlaşa bilməz. Yenilik həvəsi ilə biliyini təkmilləşdirməyə çalışan gənc mütəxəssis Zərifə institutda qazandığı elmi bilikləri təcrübədə sınamaq üçün öz üzərində çalışdı. Tədqiqat işlərinə başlamaqla biliyini zənginləşdirdi. İlk mərhələ kimi Azərbaycan Oftalmologiya Elmi -Tədqiqat İnstitutunda həkim-ordinator kimi fəaliyyətə başlayan Zərifə Əliyeva qısa müddətdə çalışqanlığı ilə dünyada tətbiq olunan tibb elminin ən müasir texnologiyaları ilə maraqlandı. Oftalmologiyaya yenilik gətirən araşdırmaları ilə sözünü deməyi də bacardı. Tibbi kadrların, xüsusilə göz həkimlərinin azlıq etdiyi o dövrlərdə respublikada troxoma xəstəliyi ilə mübarizə aparan Zərifə xanım tez-tez ucqar kəndlərə gedir, əhali arasında olur, maarifləndirmə işlərinə xüsusi diqqət yetirirdi. «Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicə» adlı namizədlik dissertasiyasında xəstəliklə mübarizə yollarını tibb ictimaiyyətinin diqqətinə çatdırdı. Eyni zamanda, qlaukoma xəstəliyinin öyrənilməsi istiqamətində elmi işini davam etdirirdi. Gözün zədələnməsinin profilaktikası, görmə orqanlarında bədxassəli şişlərin diaqnostikası və öyrənilməsinə aid kitablar, monoqrafiyalar yazırdı. Çətinliklə qazanılan qələbədən daha çox zövq alan, «həyat mübarizlər üçün sınaq meydanıdır» söyləyən alim elmə gətirdiyi yeniliklərlə xəstəliyi törədən simptomların tam öyrənilməsi üçün mütəmadi sənaye müəssisələrində olur, zəhərli maddələrin görmə orqanlarına təsiretmə yollarını araşdırırdı. Çoxillik təcrübə və tədqiqatlarının nəticəsi olan «Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti» mövzusunda yazdığı dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsini aldı. Zəhmətinin bəhrəsi isə 1983- cü ildə AMEA-nın akademiki adını qazanması

oldu. Misilsiz xidmətləri yüksək dəyərləndirilən Zərifə xanım oftalmologiya elmində ən yüksək təltif olan M.İ.Averbax adına mükafata layiq görüldü. Qazandığı uğurlarla kifayətlənməyən Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru, sonra isə kafedra müdiri oldu. Akademikin görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk elmi nailiyyəti Bakı Məişət Kondinsionerləri Zavodunda yaratdığı laboratoriya oldu. Bu laboratoriya keçmiş İttifaq miqyasında ilk təşəbbüs olmaqla Zərifə xanımın qarşıdakı uğurlarına bələdçilik etdi. Həmin laboratoriyada zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparıldı. Bu problemlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tuturdu. Laboratoriyada çalışdığı illərdə onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının peşə patologiyası sahəsi cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin öyrənilməsi baxımından zəruri idi. Bu sahənin ilk tədqiqatçısı olan, elmi-tədqiqat laboratoriyası yaratmaqla dünyada ilk olaraq görmə orqanının peşə patologiyasını araşdıran alim elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub. Dünya elmi ictimaiyyətinin marağına səbəb olan «Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya», «Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası», «Şin istehsalında gözün peşə patologiyası» adlı monoqrafiyalar həmin elmi axtarışların nəticəsi kimi bu gün də tətbiq edilir.

Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanı xatırlayanların göz önündə kamilliyin ən uca zirvəsində dayanan görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Eyni zamanda, onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük. Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın portretini tamamlayan əsas cizgilərdir. İnsanlar tərəfindən bu dərəcədə sevilmək hər kəsə nəsib olmur. Laboratoriyada elmi-tədqiqatlarını davam etdirdiyi illərdə istehsalatda çalışan qadınlarla ünsiyyətdə olan, onların qayğıları, problemləri ilə maraqlanan Zərifə xanım kiminə ana, kiminə övlad kimi yanaşaraq nəcib şəxsi keyfiyyətləri ilə çoxlarına nümunə oldu, qadın adının ucalığını öyrətdi. Sadə, xeyirxah insan kimi həkimlik fəaliyyətinə vətəndaş mövqeyindən yanaşan Zərifə xanım çalışdığı kollektivdə olduğu kimi zavodda işləyən qadınların da hamisi idi.

Bilik və bacarığı, oftalmologiya elminə gətirdiyi yenilikləri ilə keçmiş İttifaq səviyyəsində tanınan, alim, əsl ziyalı adını insanlarla ünsiyyəti ilə doğruldan akademikin şeirə, musiqiyə, insanlara olan sevgisi onu daha da kamilləşdirmiş, cəmiyyətdə, çalışdığı kollektivdə yeri daim görünən şəxsiyyət kimi formalaşdırmışdır. Onun haqqında deyilən «Bu bizim Zərifədir!» sözləri yüzlərlə xəstəyə həyatın şirinliyini bəxş edən gözəl insanın mərhəmət, xeyirxahlıq əməllərinin simvolu kimi səslənirdi. Bu hörməti isə peşəsinə vurğunluğu, elmə gətirdiyi yeniliklərlə başqalarına xeyir vermək amalı ilə qazanmışdı. Bu gün də oftalmologiya ilə bağlı bütün simpoziumlarda, konfranslarda Zərifə xanım Əliyevanın tibb elminə gətirdiyi yeniliklərdən səmərəli müalicə üsulu kimi bəhs olunur. Elə buna görə də Zərifə xanımın adı əvəzsiz insan, bacarıqlı həkim, böyük şəxsiyyət kimi hörmətlə çəkilir. Zərifə xanım Əliyeva haqqında söhbət açılanda nəzərlərdə ilk olaraq nur, işıq canlanır. Təkcə ona görə yox ki, Zərifə xanım həkim kimi gözlərə nur verirdi. Onun yaşadığı ömrün özü bir işıq mücəssəməsidir. Bu işıqdan hamıya pay çatırdı: Ailəsinə, övladlarına, əhatəsində olanlara, gözünün nurunu itirmiş insanlara… Onun əməyinə verilən ən dəyərli ifadə isə bu idi: «Nurdan yaranmışdı, nurdu baxışı..»

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyevanın elmi fəaliyyətini yüksək qiymətləndiriblər.

Akademik A.Nesterovun «Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm», Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.Trutnevanın «Bu cür tədqiqatlar həcminə və vacibliyinə görə seçilsə də, çox zəhmət tələb etsə də, sosial-iqtisadi baxımdan əvəzsizdir. Bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalışanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyələr işlənib hazırlanmış, istehsalata tətbiq edilmişdir. Zərifə xanımın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarətdir» kimi sözlərdən çox nümunələr gətirmək olar”.

Bu gün biri -birindən dəyərli 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın yolunu davam etdirənlərin sayı artmaqdadır. Təbabətdə öz dəst-xətti olan novator alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər müasir dövrdə də aktuallığını itirməyib. Böyük alimin əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır. Zərifə xanım tipik Şərq qadını, ailəsini, ocağını qoruyan, cəfakeş həyat yoldaşı üçün etibarlı dost, övladlarını əsl vətənpərvər kimi yetişdirən və hamıya nümunə olan bir ana obrazıdır. O, eyni zamanda, sədaqətli ömür -gün yoldaşı, bəşəri dəyərlərə hörmətlə yanaşan, yüksək mədəniyyəti ilə də seçilən ziyalılardan olub.

Ulu Öndər Heydər Əliyev Kremldə çalışdığı illərdə Moskvada yaşayan Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, tibb elmləri doktoru, oftolmologiyada yeni müalicə metodlarının müəllifi Zərifə xanım Siyasi Büro üzvlərinin həyat yoldaşları arasında yüksək erudisiyaya malik sayılıb-seçilən qadınlardan idi. Nikolay Zenkoviçin müəllifi olduğu «Heydər Əliyev: Tale yolları» kitabında Zərifə xanımın təvazökarlığından,

mehribanlığından, yüksək keyfiyyətlərindən, mənəvi zənginliyindən bəhs olunan bir nümunəni xatırladaq: «Mən Siyasi Büro üzvlərinin arvadları barədə bioqrafik məlumatları diqqətlə araşdırmışam, müqayisə etmişəm. Hansı nəticəyə gəlmişəm. Aydın olub ki, onlar arasında ən savadlı qadın Siyasi Büro üzvü Heydər Əliyevin xanımı olub. O, hətta Sov. İKP MK baş katibinin arvadı Raisə Maksimovnadan da savadlı idi. Özü də təkcə savadlı yox, Zərifə xanım hərtərəfli bir şəxsiyyət idi. SSRİ siyasi rəhbərlərinin o biri üzvlərinin evdar qadın olan maraqsız arvadlarından fərqli olaraq Heydər Əliyevin həyat yoldaşı dünyada tanınan bir insan idi.»

Ulu Öndər Heydər Əliyev kimi müdrik, dahi bir insanın həyat yoldaşı Zərifə xanım başqa cür ola da bilməzdi. Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında tanınmış oftalmoloqun həyatına, elmi fəaliyyətinə həsr olunmuş müzeyin açılışında iştirak edən ümummilli lider Heydər Əliyevin xatirə kitabında yazdığı «Mənim ömür-gün yoldaşım mərhum Zərifə xanımın adını daşıyan poliklinika ilə tanış olmaq, onun xatirəsinə həsr edilmiş guşəni seyr etmək məni dərin hissiyyatlara gətirdi. Xatirimdən heç vaxt çıxmayan, mənim üçün çox əziz olan insanın həyat və yaradıcılığını əks etdirən bu guşə məni coşdurdu. Bunların hamısı onun insani keyfiyyətlərinin böyüklüyünə, böyük elmi və həkimlik xidmətinə layiqli abidədir» sözləri isə müdrik şəxsiyyət Heydər Əliyevin ömür gün yoldaşına sədaqət nümunəsi, vəfa borcu idi.

Bu gün Prezident İlham Əliyev dünya liderləri arasında tanınıb, adı hörmətlə çəkilirsə bu yüksəlişdə analıq vəzifəsinin müqəddəsliyini diqqət və qayğısı ilə yerinə yetirən Zərifə xanımın da payı vardır. Yuxarıda adı çəkilən kitabdan daha bir nümunə. Zərifə xanımın ictimai işlərdə fəallığını, cəmiyyətdə tutduğu mövqeyi yüksək dəyərləndirən, tanınmışların övladları barədə də münasibətini bildirən müəllif yazır: «Yuxarılarda» əyləşən 229 nəfərin uşaqlarından ən böyük uğur qazananlar 3 nəfərdir. Birinci yerdə Heydər Əliyevin oğlu İlham durur. O, Azərbaycan Respublikasının Prezidentidir. Siyasi Büronun o biri üzvlərinin övladlarından heç biri bu cür böyük uğura nail olmamışlar. Dünyanın aparıcı dövlətlərinin başçıları ONU səmimi qəbul etmişlər, onunla yaxşı, işgüzar münasibətlər qurmuşlar.»

…Həyata sonsuz dərəcədə vurğun olan, akademik, Əməkdar elm xadimi Zərifə xanımın böyüklüyü onda idi ki, hamıya ürək yanğısı ilə qayğı göstərir, ürək- dirək verir, həyatın qanunauyğunluğundan qacmağı mümkünsüz sayırdı. Xeyirxahlıq onun varlığına hakim kəsilmiş ən böyük xüsusiyyəti idi. Belə deyirlər ki, gözlər qəlbin aynasıdır. O xəstələrinin gözlərinə nur verməklə onların istəklərini, ürəklərindən keçənləri gözlərindən oxumaq istəyirdi. Akademikin şəfalı əlləri ilə nurlanan baxışlarda hiss olunan duyğular Zərifə Əliyevaya əbədi minnətdarlıq ifadəsidir.

**İki sahil.-**2023.-28 aprel.-№72.-S.5.

## Zərif ruhun güclü təcəssümü

**Könül Bünyadzadə,**
fəlsəfə elmləri doktoru, AMEA-nın müxbir üzvü

**XX əsrin görkəmli alimlərindən biri, öz sahəsində böyük yeniliklərə imza atmış, eyni zamanda zəriflik mücəssəməsi olan akademik Zərifə xanım Əliyeva aydın, işıqlı və nurlu bir şəxsiyyət idi.**

Zərifə xanım Əliyevanın doğulduğu ailə ziyalı olmaqla yanaşı, həm də mübariz olub, öz arzusuna doğru cəsarətlə getməyi bacarıb. Bunu onun atası, görkəmli dövlət və ictimai-siyasi xadimi, elm fədaisi, böyük şəxsiyyət Əziz Əliyevin həyat yolunda, bütün çətinliklərə baxmayaraq, öz xalqına, Vətəninə layiqli xidmətində görmək mümkündür. Təbii ki, bu ruh övlada da sirayət edib.

Zərifə xanım bir alim, şəxsiyyət kimi nə qədər böyük əzmə malik idisə, onun bir o qədər də yüksək və zərif bir mənəviyyatı vardı. Tarixdə Şərqdə qadın ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətində səs və söz hüququ qazanıb. Məsələyə daha geniş spektrdə baxanda belə məlum olur ki, əslində, bu, şəraitə baxmayaraq, öz üzərində işləyən, təhsil alan, savadlanan, ictimai vəziyyəti düzgün dəyərləndirməyi bacaran, hətta bu istiqamətdə müəyyən işlər görən qadınların hüquqlarının tanınması, inkişaf yollarının süni maneələrdən təmizlənməsi, gənc respublikanın quruculuğunda onların da xidmətindən istifadə edilməsi idi. Başqa sözlə desək, Azərbaycan qadını hər zaman düşünməyi və düşündürməyi, öz şəxsiyyətinə hörməti qorumaqla yanaşı, sözünü ən yüksək kürsüdən deməyi bacarıb. Buna Zərifə Əliyevanın nümunəsində bir daha şahid oluruq.

Görkəmli alim öz sahəsinin bacarıqlı və novator mütəxəssisi olmaqla yanaşı, həm də ictimai xadim idi, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü idi. Azərbaycanın Əməkdar elm xadimi fəxri adını almışdı.

Zərifə xanım Əliyeva seçdiyi peşədə öz izini qoymuş, sözünü deyə bilmiş alim və həkim idi. Onun yazdığı monoqrafiyalar və məqalələr bu gün də aktualdır və oftalmoloqların stolüstü kitabıdır. Onu da vurğulayaq ki, bu, sadə bir elm yolu deyildi. Akademik Krasnovun yazdığına görə, "məktəb yaradan", tibb elminin, necə deyərlər, "xam sahələri"nə müraciət edən Zərifə xanım Əliyeva öz sahəsində ən cəsarətli, yeni addımlar atmaqdan çəkinmirdi. O, dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin - "peşə oftalmologiyası"nın, yaxud "sosial oftalmologiya"nın təməlini qurmuşdu. "İridodiaqnostika", "Göz yaşının axmasının cərrahi müalicəsinin müasir üsulları", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və daha neçə fundamental tədqiqatı onun elmi cəsarətinin göstəricisi idi.

Həmkarlarının yazdığına görə, Zərifə xanım Əliyeva hər işinə yüksək diqqətlə və məsuliyyətlə yanaşırdı. Əhəmiyyətli bir məqamdır ki, o, hətta xəstə olanda da elmi tədqiqatını davam etdirirmiş. Tibb elmləri doktoru, professor Z.M. Skripniçenko yazır: "Beləcə, mənim üçün olduqca əziz və doğma olan Zərifə xanımın sonuncu xahişini - birgə başladığımız kitabı yazıb qurtarmağı vəzifə borcu hesab edirəm. Çünki onun zəhməti özündən sonra da işıq üzü görməli, onun fikirləri mütəxəssislərə gedib çatmalıdır". "Görmə orqanının peşə patalogiyası" adlı həmin kitab 1988-ci ildə işıq gördü və həmkarının dediyi kimi, Zərifə xanımın əməyinin, şəxsiyyətinin nuru parlamaqda davam etdi.

Azərbaycanda gedən quruculuq işlərində Zərifə xanım Əliyeva diqqətini məhz peşə xəstəliklərinə yönəldirdi. Böyük alim haqqında məlumatda deyildiyinə görə, "o, elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Onun bu istiqamətdə apardığı elmi-tədqiqat işləri dünya ədəbiyyatında analoqu olmayan nadir tədqiqatlar sırasındadır. Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparmışdır. Göstərilən istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalatında gözün peşə patologiyası", "Xronik yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi qiymətli monoqrafiyalarında öz əksini tapmışdır. Başqa sözlə desək, Zərifə xanım Azərbaycanın inkişafına öz xidmətini göstərirdi və çalışırdı ki, əsasən yaddan çıxmış, sağlamlıq üçün ən təhlükəli sahələrin insanlarını ön plana çəksin, onlara qayğı göstərsin. Bu, yalnız bir mütəxəssis diqqəti deyildi, həm də vətəndaş borcu idi. Skripniçenkonun dediyinə görə, o, Moskvada, Vətənindən uzaqda olanda da, "yenə də özünəməxsus tərzdə maraqla Bakıda Məişət Kondisionerlər Zavodunda apardığı tədqiqatlardan - stirol və tetraxloretilen buxarının təsirinə məruz qalan fəhlələri necə müayinə etməsindən danışırdı. Öz yurdunun əsl övladı kimi Zərifə xanım yenə də Azərbaycanla yaşayır, xalq təsərrüfatının aparıcı sahələrində peşə oftalmopatologiyasına aid tədqiqatlar aparırdı".

Azərbaycan dünyada nadir ölkələrdəndir ki, qadın cəmiyyətdə öz yerini tutmaq üçün kişi ilə mübarizə aparmayıb, buna ağlı, istedadı ilə nail olub. Hətta kənar qüvvələr süni şəkildə bu istəyi onda körükləməyə

çalışsalar da, Azərbaycan qadınına xas müdriklik, xanımlıq tez bir zamanda hər şeyi təkrar öz axarına salıb. Maraqlıdır, çox vaxt dövlət xadimləri, şair və yazıçılar, filosof və alimlər arasında qadınların azlığı xüsusi arqument kimi gətirilir. Həqiqətən də, əksər hallarda qadın yüksək materiyalar haqqında düşünməyə, günlərlə elmi eksperimentlər üzərində çalışmağa, hər şeydən təcrid olunaraq yalnız öz yaradıcılığını gerçəkləşdirməyə vaxt tapmır, ancaq öz övladına milli-mənəvi dəyərləri çatdırmağa, ona yüksək əxlaq təlqin etməyə, onun çətinə düşmüş düşüncəsinin işıqlanmasına, öz həyat yoldaşına arxa durmağa onun vaxtı həmişə olur. Zərifə xanımın ömür-gün yoldaşı, Ulu Öndər Heydər Əliyev deyir: "Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər".

Kişilərdən fərqli olaraq qadınlar cəmiyyətə sanki içdən bələd olurlar. Axı yazılmamış bir qanunla ailə ocağını isti saxlamaq, cəmiyyətin bütün şərt və tələblərini bilib gələcək nəsli də o ruhda böyütmək, qorumaq və ya həvəsləndirmək onun öhdəliyindədir. Buna görə də, istənilən şəxsin ən yaxın ətrafı ilk növbədə qadındır - ana, həyat yoldaşı, bacı, övlad və sairə. Bir şəxsi tanımaq üçün onun ətrafındakı qadına baxmaq kifayət edir. 1995-ci ildə Ulu Öndər Heydər Əliyev Zərifə xanım haqqında deyir: "Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

Bəli, cəmiyyəti sözsüz təqdim edən də qadın və ona münasibətdir. O, nə qədər işıqlı, yüksək intellekt və əxlaq sahibidirsə, deməli, həmin cəmiyyəti də təsvir edəcək sözlər məhz bunlar olacaq. Bir millət məhz qadına verdiyi dəyər qədər özünə hörmət edir, öz gələcəyini görür. Akademik Zərifə xanım Əliyevanın şəxsində Azərbaycan xalqı bir daha yüksək bir səviyyədə təqdim olunur, tanınır.

**Azərbaycan.** - 2023.- 29 aprel. - № 87. - S. 8.

## Gözlərə nur verən həkim

**Esmira Mirzəyeva,**
Dünyagöz-Azərbaycan Xəstəxanasının müdiri

***Səhiyyənin inkişafı dövlətimizin siyasətinin əsas istiqamətlərindəndir. Yeni tibb ocaqlarının yaradılması, onların müasir avadanlıqlarla təchiz edilməsi, yerli tibb kadrlarının yetişdirilməsi, bilik və təcrübələrinin artırılması və s. əsas məqsədlərdən biridir. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra digər sahələr kimi, səhiyyə sistemində də zəruri islahatlar həyata keçirilmiş, nöqsanların aradan qaldırılması istiqamətində ciddi tədbirlər görülmüş və gələcək layihələrin konturları müəyyənləşdirilmişdir. Son illərdə ümummilli lider Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz inkişaf, tərəqqi yolunda inamla addımlayır. Bütün bölgələrimizdə yüzlərlə tibb ocağı tikilərək əhalinin istifadəsinə verilib, tibb müəssisələrində fəaliyyət göstərən kollektivin əsasən yerli kadrlardan ibarət olması, beynəlxalq tibbi standartlara cavab verən yüksəkkeyfiyyətli avadanlıqlarla təchizatı təmin edilib, əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyəti daha da yaxşılaşdırılıb. Tibb sahəsində ən qabaqcıl və müasir müalicə üsullarının tətbiqi əvvəllər müalicəsi respublikamızda mümkün olmayan xəstəliklərin də qarşısını almağa geniş şərait yaradıb.***

Prezident İlham Əliyev tərəfindən dərman-əczaçılıq preparatlarının keyfiyyətinə və qiymətləndirilməsinə nəzarətin gücləndirilməsi, əhalinin rifahının yüksəldilməsi və keyfiyyətli tibb xidmətləri ilə təchiz olunması məqsədilə təsdiqlənən "Əhalinin sağlamlığının qorunması haqqında" Qanun, "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Dərman vasitələri haqqında" və s. kimi müxtəlif Fərman və sərəncamlar, həmçinin əczaçılıq zavodlarının tikintisinə start verilməsi bir daha göstərir ki, əhaliyə yüksək keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi prioritetdir.

Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanı xatırlayanda göz önündə mənəvi kamilliyin ən uca zirvəsində dayanan görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Zərifə xanım Əliyeva deyirdi: "Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə-eşiyinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Buna görə də hər dəfə xəstələri qəbul edəndə, onlarla söhbət aparanda həkim həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında mənəvi məsuliyyət hiss edir. Vicdan əsas hakimimizdir. Ən çətin məqamda və ən xoş saatımızda o bizimlə üz-üzə dayanıb soruşacaq: "Sənin ağ xalat geyinməyə haqqın varmı? Onilliklər boyu təkcə biliklərini deyil, həm də ürəyinin hərarətini öz əllərinlə insanlara çatdırmalısan".

Zərifə xanım Əliyevanı həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüş, gənc həkimlərin peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alim və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsi öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmış, heç zaman işdən usanmamış, ilhamla çalışmışdır. Həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi bu böyük şəxsiyyətə həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Ulu öndər Heydər Əliyevin təbirincə desək, "Özünü həkimlik, təbiblik peşəsinə həsr edən insanlar xoşbəxtdirlər. Çünki cəmiyyətin onlara həmişə ehtiyacı var". Amma bu məqamda gözlərə işıq verən həkimlərin zəhməti daha aydın görünür. Akademik Zərifə xanım Əliyeva Azərbaycanda müasir oftalmologiya elminin yaradıcılarından və banilərindən biridir. İllərlə fəaliyyət göstərdiyi sahə üzrə minlərlə xəstənin sağalması, göz xəstəliklərindən xilas olması üçün çalışmışdır. 1947-ci ildə Azərbaycan Tibb Universitetini bitirdikdən sonra əmək fəaliyyətinə başlayan zaman Azərbaycanda traxoma infeksion xəstəliyi tüğyan edirdi. Təəssüf ki, o zamanlarda bu xəstəliyin etimologiyası və yaranma səbəbləri kifayət qədər öyrənilmədiyinə və müalicə üsulu olmadığına görə yüzlərlə xəstə dünya işığından məhrum olurdu. Bu səbəbdən Zərifə xanım əmək fəaliyyətinin ilk illərindən etibarən bu xəstəliklə mübarizəyə başlayır, onun başvermə səbəblərinin dərindən öyrənilməsi üçün Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Bu səbəbdən təhsilini Moskva şəhərində Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda davam etdirmiş və ixtisaslaşdırma kursunu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə qayıtmış, 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. Uğurlu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları

ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etmişdir. Bu sahə üzrə ixtisaslaşaraq, elmlər namizədi dərəcəsinə yüksələn Zərifə xanımın təklif etdiyi müalicə metodu tezliklə bütün respublikada tətbiq edilir və bu xəstəliyin kökü birdəfəlik kəsilir. Buna görə də Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə xanımın adı ilə bağlıdır.

İlləri sistemli şəkildə nəzərdən keçirdikdə Zərifə xanım Əliyevanın oftalmologiya tarixində zəngin səhifələr yazdığını daha aydın görürük. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Zərifə xanım Əliyevanın elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Onun həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri ("Herpetik göz xəstəliyi", "Ağır virus konyuktivləri" və s.), bir çox elmi məqalələri və monoqrafiyaları - "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" və "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi", "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edib. Zərifə xanım Əliyeva fundamental "Terapevtik oftalmologiya" və "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biridir. Bu əsərlər indi də hər bir oftalmoloq üçün stolüstü kitabdır. Onun zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında da öz əksini tapıb.

Zərifə xanım Əliyevanın xidmətləri daim yüksək dəyərləndirilib. 1983-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilib. O, bütün fəaliyyəti boyu böyük ictimai iş aparmış, keçmiş İttifaqın Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə xanım Əliyeva bir sıra orden və medallarla təltif olunmuş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Təbii ki, bu qiymətləndirmələr sırasında Zərifə xanım Əliyevaya milyonların sevgisi isə daha əsas yer tutur. Bu sevgi onun ən böyük mükafatıdır.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Mənalı ömür, şərəfli həyat yolu keçmiş görkəmli alim, oftalmoloq-həkim, ana kimi örnək olan, bütün həyatını insanlara, onların gözlərinə və qəlblərinə nur səpməklə kamillik zirvəsini fəth etmiş Zərifə xanım Əliyevanın parlaq xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.

**Respublika.** - 2023.- 29 aprel. - № 87. - S. 9.

## İnsanlara işıqlı həyat bəxş etmiş görkəmli alim

**Zahir Qəhrəmanov,**
YAP Şirvan şəhər təşkilatının sədri

***Zərifə xanım Əliyeva 100 il bundan əvvəl - 1923-cü il aprelin 28-də Azərbaycanın zəngin tarixə, əsrarəngiz gözəlliklərə malik füsunkar guşəsində - Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açmışdır. Atası görkəmli alim və ictimai xadim Əziz Məmmədkərim oğlu Əliyev və anası Leyli xanım, isə qədim İrəvanda böyüyüb boya-başa çatmışlar. Təəssüf ki, hegemon dövlətlərin Erməniləri kütləvi surətdə başqa ölkələrdən əzəli və əbədi Azərbaycan torpaqlarına köçürmələri, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında zorən Ermənistan dövlətini yaratmaları bir müddətdən sonra yerli xalqın - azərbaycanlıların ermənilər tərəfindən deportasiyasına, məcburi qaçqın və köçkünə çevrilmələrinə səbəb oldu. O vaxtlar, yəni 1918-ci ildə Sankt-Peterburqdakı Hərbi Tibb Akademiyasında təhsil alan Əziz Əliyevin də ailəsi bu qəddar məhrumiyyətlərlə üzləşdi. Ağır işgəncələr, erməni basqınları nəticəsində ailəsi əvvəl Arazın o tayında Cənubi Azərbaycanın Ərəblər kəndində, sonra isə Naxçıvanın Şahtaxtı kəndində məskunlaşdı. 1921-ci ildə həmin kənddə bu ailənin böyük oğlu, gələcəyin Əməkdar elm xadimi, görkəmli alimi Tamerlan Əliyev, 1923-cü ildə isə gələcəyin dünya şöhrətli məşhur oftalmoloq-alimi, akademik Zərifə xanım Əliyeva dünyaya gəldi.***

Zərifə Əliyevanın dünyaya gəlişi ailə üçün düşərli oldu. Elə həmin il ailənin Bakıya köçməsi ilə gələcək uğurların təməli qoyuldu. Ailənin başçısı Əziz Əliyev Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olaraq bir vaxtlar Sankt-Peterburqda yarımçıq qalmış təhsilini davam etdirdi.

Sonralar atalarının yolunu davam etdirən dörd övladdan biri də gənc Zərifə xanım Əliyeva oldu. Orta məktəbi əla qiymətlərlə bitirən Zərifə xanım böyük qardaşı Tamerlan Əliyevlə birlikdə İkinci Dünya müharibəsi illərində Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil alırdı. Tamerlan Əliyev Zərifə Əliyevadan iki kurs yuxarı idi və təhsildə göstərdiyi nailiyyətlərə görə "Stalin təqaüdü"nə layiq görülmüşdü. Zərifə Əliyeva da qardaşı ilə fəxr edir və ondan geri qalmırdı.

Tamerlan Əliyev terapevt, Zərifə Əliyeva həkim-oftalmoloq ixtisası üzrə təhsil alırdılar. Onların kiçik qardaşları Cəmil Əliyev isə fərqli bir sahə onkologiya sahəsini seçmişdi.

Zərifə xanım, bəlkə də, bu ixtisası seçərkən ölkə əhalisinin bu sahəyə böyük ehtiyacı olduğunu düşünmüş və xalqına bu istiqamətdə daha çox xeyir verəcəyini fikirləşərək bu addımı atmışdı. Zərifə Əliyevanın institutu bitirdiyi 1947-ci ildə müharibə təzə başa çatmışdı və onun fəsadları çətinliklə aradan qaldırılırdı. Əhali arasında traxoma xəstəliyi geniş yayılmışdı. Zərifə xanım institutu bitirdikdən sonra bütün diqqətini bu istiqamətə yönəltmişdi və ən ümdə arzusu xalqı bu bəladan qurtarmaq idi. Ona görə də o, Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda 2 il ərzində diplomdan sonrakı təhsillə bağlı kurs keçərək oftalmologiya üzrə yüksəkixtisaslı mütəxəssis adını aldı. Bundan sonra Vətənə qayıdaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində ilk əmək fəaliyyətinə başladı və burada 18 il fədakarlıqla çalışdı. O, göz xəstəliklərinin, xüsusilə də, traxomanın qarşısının alınması üçün gərgin işlərə başladı.

Zərifə xanım bilirdi ki, hələ müharibədən əvvəl, 30-40-cı illərdə Azərbaycanda traxoma ocağı alovlanırdı. O vaxtlar respublikada bu xəstəliyin qarşısının alınması üçün xüsusi həkim komissiyası yaradılmış və Əziz Əliyev bu komissiyanın rəhbəri təyin edilmişdi. Zərifə xanım Əliyevaya o da bəlli idi ki, atası digər həkimlərlə birlikdə bu vəzifənin öhdəsindən bacarıqla gəlmiş, müharibədən əvvəlki illərdə aparılan genişmiqyaslı səhiyyə tədbirləri nəticəsində traxoma epidemiyasının yayılma təhlükəsinin qarşısı alınmışdı. Müharibə dövründə bu infeksiya ocaqları yenidən közərmiş və müharibədən sonrakı illərdə insanların həyatı üçün ciddi təhlükəyə çevrilmişdi. Zərifə Əliyeva müharibədən sonrakı illərdə bu ağır yükü öz zərif çiyinlərinə götürdü.

O, keçən əsrin 50-ci illərinin əvvəllərində aspiranturada təhsil alarkən də ancaq bu mövzu ətrafında fikirləşirdi. Onun bu istiqamətdə apardığı tədqiqat işləri traxomanın müalicəsində başqa terapevtik maddələrin tərkibinə sintomisinin əlavə edilməsinin effektli nəticə verdiyini müəyyən etdi. Z.Əliyevanın təklif etdiyi üsul tezliklə respublikanın bütün bölgələrində tətbiq edildi və traxomanın yayılmasının qarşısı alındı. Bu, səhiyyədə böyük irəliləyiş, inqilabi bir dönüş idi. Məlumdur ki, tibbdə hər bir elmi-tədqiqat işinin dəyər meyarı onun nəzəri hissəsi ilə yanaşı, praktiki səhiyyəyə tətbiq sahəsinin genişliyi ilə müəyyən edilir. Gənc alimin əldə etdiyi bu nailiyyətlər onu yeni problemlər üzərində düşünməyə sövq etdi. Keçən əsrin 60-cı illərinin əvvəllərində o, Azərbaycan SSR Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda baş elmi işçi vəzifəsində çalışırdı.

### 1977-ci il Zərifə xanımın həyatında da

ha bir mühüm tarixi hadisə ilə yadda qaldı. Həmin ildə akademik Z.Əliyevanın təşkilatçılığı ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Rusiyadan və digər ölkələrdən gəlmiş görkəmli oftalmoloqlar bu tədbirin yüksək səviyyədə təşkilinə görə akademik Zərifə Əliyevaya öz təşəkkür və minnətdarlıqlarını bildirdilər. Həmin tədbirdə Zərifə xanım peşə xəstəliklərinin diaqnostikası və müalicəsini həyata keçirmək üçün yüksək təchizatlı laboratoriyanın yaradılmasına ehtiyac olduğunu bildirdi və plenum bu təklifi bəyənərək, onun təşkilinə yekdilliklə qərar verdi.

Akademik Zərifə xanım Əliyevanın doktorluq dissertasiyası müdafiəsindən sonra Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasında əvvəl professor, sonra isə kafedranın müdiri vəzifələrinə seçilməsi alimin tədris sahəsindəki bacarıqlarının tam şəkildə üzə çıxmasına güclü təkan verdi. Alimin elmi əsərlər içərisində həkimlik deontologiyasına həsr etdiyi "Yüksək etimad" kitabı öz orijinallığı, mövzu genişliyi, fəlsəfi motivləri, tərbiyəvi əhəmiyyəti, etik norma meyarları cəhətdən son dərəcə əhəmiyyətli və lazımlı əsərlərdəndir.

Arzulanan hər şeyi etməyə, hər yeni layihəni həyata keçirməyə bir alim ömrü kifayət etməyə bilər. Lakin alimin xalqın gələcəyi naminə yerinə yetirdiyi missiya, söylədiyi tutarlı bir fikir, yazdığı lazımlı bir kitab onun tarixdə əbədi yaşamasına bəs edir. Akademik Z.Əliyevanın gördüyü titanik işlər, yazdığı fundamental əsərlər, hazırladığı çoxsaylı tibb kadrları isə onun əbədiyaşarlığına, ölməzliyinə, dünya durduqca yaşayacağına təminat verir.

Azərbaycanın görkəmli oftalmoloq-alimi Zərifə Əziz qızı Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülüb. Z.Əliyeva keçmiş SSRİ miqyasında mötəbər təltifə layiq görülən ilk qadın oftalmoloq olmuşdur. Zərifə xanım Əliyeva bu təltifi onun timsalında Azərbaycan oftalmologiya elminə verilən ən böyük mükafat kimi qəbul etdi. Bu beynəlxalq əhəmiyyətli mükafat görkəmli alimə peşə xəstəliklərinin müayinəsi, diaqnostikası, müalicə və profilaktikası istiqamətində apardığı mükəmməl silsilə elmi-tədqiqat işlərinə görə verilmişdi.

Zərifə xanım böyük alim, təcrübəli pedaqoq, qayğıkeş həkim olmaqla yanaşı, sədaqətli həyat yoldaşı, mehriban və əvəzsiz ana idi. Tale elə gətirdi ki, o, xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu Heydər Əliyevlə ailə qurdu və ömrünün sonunadək bu böyük şəxsiyyətin gördüyü bütün işlərdə ona dəstək oldu. Zərifə xanım cəmiyyət üçün layiqli övlad böyüdüb tərbiyə etməyi qarşısına məqsəd qoyaraq, bu çətin missiyanı şərəflə yerinə yetirən fədakar ana idi. İnsanlara bitib-tükənməyən sevgi, məhəbbət dolu geniş ürəyə sahib olan, gözlərə işıq, nur bəxş edən, Vətən təəssübünü bütün duyğulardan üstün tutmağı bacaran, özünün fitri istedadı ilə elmin, insanlığın ən yüksək zirvəsinə ucalan akademik Zərifə Əziz qızı Əliyeva bu ecazkar xüsusiyyətləri ilə həm müasir gəncliyə, həm də gələcək nəsillərə örnəkdir.

**Respublika.** - 2023.- 29 aprel. - № 87. - S. 9.

# İnsanların taleyinə nur saçan görkəmli oftalmoloq

## Yüksək əqidə - örnək həkim amalı

**Tağızadə Təranə,**
Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti,
Azərbaycan Pediatrlar Assosiasiyasının prezidenti,
tibb üzrə fəlsəfə doktoru, dosent.

Dünyada hər bir məslək bəlli bir dəyər daşıyır. Hippokratın təbirincə desək, söz ağrıları dindirən ilahi bir sənətdən, həkimlikdən düşübsə, bu məslək xüsusilə incəlik, mədəniyyət, duyğusallıq, dərinlik, insan sevgisi tələb edir.

Yüksək əqidəli, insani dəyərlərə malik həkim xəstəyə mənəvi güc verir, həyat eşqi aşılayır. O, həyatın dəyişkənliyini, ölümün qaçılmazlığını hamıdan yaxşı bilir, ancaq bu ağrını xəstəsindən almaq, bu sonluğu gecikdirmək üçün gecə-gündüz çalışır. Azərbaycanın səhiyyə tarixinə adı qızıl hərflərlə yazılmış görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanı bu vəsilə ilə yad edirik.

Atasının - görkəmli dövlət və elm xadimi, pedaqoq-alim, professor Əziz Əliyevin yolunu davam etdirmək istəyi Zərifə xanıma nəsib olmuş və bu arzu ilə o, həkimlik məsləyini, oftalmologiya sahəsini seçmişdir. Azərbaycan tibb elmində öz dəst-xətti olan yenilikçi alim Zərifə xanım Əliyeva oftalmologiya sahəsinin inkişafında müstəsna xidmətlər göstərmiş, həkim-oftalmoloqların böyük bir nəslini yetişdirməklə özündən sonra dəyərli məktəb qoymuşdur.

## Həkim cəmiyyətdə əxlaq etalonudur...

Zərifə xanımın vaxtilə söylədiyi və hər zaman öz aktuallığını qoruyan bu hikmətdən yola çıxaraq böyük alimin həkim və xəstə münasibətlərinin həssas məqamları, həkimin müayinə və müalicə prosesində aparıcı rolu, tibb işçilərinin yalnız yüksək peşəkarlıq deyil, həm də əqidəsinin vacibliyini göstərən, həkimin əxlaq məsələləri haqqında qələmə aldığı "Yüksək əqidə" kitabından bəhs edəcəyik.

Ciddi elmi əhəmiyyətə malik olan bu qiymətli monoqrafiya haqqında akademik Adilə Namazova yazırdı: "Zərifə xanımın əvəzolunmaz əsərlərinin içərisindən birini - "Yüksək əqidə" adlı kitabını xüsusi dəyərləndirirəm. Bu kitab məndə böyük təəssürat yaratdı. Onu Azərbaycan dilinə tərcümə etdim ki, insanlarımız faydalansınlar. SSRİ məkanında keçən əsrin ortalarında ilk dəfə idi ki, belə bir əsər çap olunmuşdu. Bu fəlsəfi mənalı kitab təbabət ilə fəlsəfə arasında möhtəşəm bir körpü salmışdı. Zərifə xanım hamının diqqətini insan, həkim və tibb işçisinin mənəviyyatına yönəltmişdir".

Akademik Zərifə Əliyevanın 2003-cü ildə rus dilindən dilimizə tərcümə edilən "Yüksək əqidə" monoqrafiyası orijinallığı, mövzu əhatəliliyi, tibbi-fəlsəfi məzmunu, praktiki əhəmiyyəti nöqteyi-nəzərdən son dərəcə dəyərli və aktual əsərlərdəndir. Kitabda Zərifə xanım gənc həkimlərə və tibb işçilərinə verdiyi etik norma və prinsiplərə aid tövsiyələri, həkim-xəstə münasibətlərində həssaslıq, səmimiyyət, ən gərgin anlarda bəslənən ümid, qətiyyət hissini maraqlı nümunələrlə publisistik üslubda təqdim edir.

Müəllif əsərində yazır: "Təbabət gələcəyə yönəlib və onunla yaşayır, irəliləyir. Yeniliklər, ixtiralar, həssas elektron cihazlar təbabətdə uğurla tətbiq edilir... Lakin müalicə və diaqnostikanın texniki təminatı nə qədər mükəmməlləşsə də, həmişə olduğu kimi, insan sağlamlığı keşiyində duran canlı həkim əsas yeri tutur. Təbabət gündən-günə inkişaf edir, o dəyişməyə, yeniləşməyə bilməz, yeganə dəyişməyən həkimin qarşısında duran yüksək mənəvi etik, peşəkarlıq tələbləridir".

Xəstəsini dinləyən, onun diaqnozunu qoymaq istəyən bir həkimi düşünün. Analiz etməli, fikrindəki imkanları dəyərləndirməli, tibbi bilgilərə baş vurmalı, sorğular aparmalıdır. Bir sözlə, onun işi çox çətin yox, çox-çox çətindir. Bu məqamda, hər şeydən əvvəl həkimin şəxsi mədəniyyəti, əxlaqı, alicənablığı, səbri, əqidəsi önə çıxır. Zərifə xanımın həkimlərə başlıca tövsiyəsinin əsasında da məhz bu amil dayanırdı. Bir həkimin mənəvi dəyərləri ilə əqli biliklərini harmoniyada görmək. O, həkimin daxili aləmində sevgi, qətiyyət və həqiqət kimi müsbət xüsusiyyətlərin bəşəriyyətin gələcəyi üçün hava və su qədər həyati əhəmiyyətli olduğunu izah edirdi.

Zərifə xanım həkimlə xəstə arasında ünsiyyətə psixoloq həssaslığı ilə yanaşır və sual edirdi: "Həkimin fəal həyat mövqeyi hansı bünövrə üzərində qurulub? Cavab çox qısa olar: xəstəyə münasibət! Ancaq əsl həkim odur ki, o, xəstənin əzabını öz şəxsi əzabı kimi qəbul etsin; sağalmış, dirilmiş insanın gülər üzü, sevinci həkim üçün ən böyük mükafat, şərəfdir. Ona görə də həkimin insanla hər söhbəti, onu qəbul etməsi həm xəstə, həm də cəmiyyət qarşısında böyük mənəvi məsuliyyətdir. Başlıcası isə onun öz vicdanı qarşısında olan məsuliyyətidir. Vicdan bizim əsas hakimimizdir. Ağır dəqiqələrdə və sevincli saatlarda onunla təkbətək qalanda soruşur: ağ xalat geyinməyə sənin mənəvi haqqın varmı?".

Monoqrafiyasında Zərifə xanım dünya və Azərbaycan ədəbiyyatının qədim mənbələrinə istinad edərək mütəfəkkirlərin əxlaqi saflığın və mənəvi təmizliyin həkim üçün nə qədər zəruri olduğunu anladan müdrik fikirlərini, faydalı məsləhətlərini oxucusu ilə bölüşür, böyük şəxsiyyətlərin ömür yoluna nəzər salır.

**Cəmiyyətin ən şairanə və gülərüzlü şəxsiyyətləri olmaqla onlar həvəsləndirir, fərəhləndirir və nəcibləşdirirlər**

Monoqrafiyada oxuyuruq ki, tanınmış rus yazıçısı, həkim A. P. Çexov bu sözləri həkimlərin və onların köməkçilərinin ünvanına söyləmişdi. Müəllif həkim əməyini, təkcə onun işinin müəyyən dərəcədə öz sağlamlığı və həyatını təhlükəyə məruz qoyması xüsusiyyətinə görə deyil, həm də daimi fiziki və mənəvi gərginliyinə görə gündəlik fədakarlıq hesab edirdi.

Kitabda bir zamanlar tibbi yardımın elmi təbabət ilə heç bir əlaqəsi olmayan insanların - əsasən ara adamlarının, falçıların, cadugərlərin, ruhanilərin əlində olduğu tarixi dövrlərə nəzər salınır. Tibb elmi inkişaf etdikcə bu cür "biliciləre" qarşı Azərbaycanın qabaqcıl mütəfəkkirləri - M. F. Axundov, Həsən bəy Zərdabi, N. Nərimanov, C. Məmmədquluzadə və başqalarının kəskin mübarizəsindən bəhs olunur. Onların çoxsaylı əsərlərində təbabət haqqında proqressiv fikirləri, cəmiyyətdə həkimin rolunun və onun yerinin düzgün qiymətləndirilməsi istiqamətində maarifpərvər ideyaları oxucuya çatdırılır.

Zərifə xanım yazır: "Həkim etikasının elementar qaydalarını tapdalayanda müəyyən "yatrogen" adlanan xəstəlik başlaya bilər. Bu çox vaxt yüksək hissiyyatı olan insanlarda baş verir. Bunun səbəbi odur ki, həkim xəstəliyin nəticəsi haqqında lazım olmayan izahatlar verir, xəstə bilir ki, bu diaqnozla onun "axırı yaxşı qurtarmır". Yatrogen hal əsas xəstəliklə yanaşı, ümumi vəziyyəti ağırlaşdırır, yeni patoloji simptomların inkişaf etməsinə səbəb olur... Həkimin ehtiyatsızlıqla söylədiyi fikir xəstəyə olduqca zərərli təsir göstərir. Elə bu, bizim fikrimizcə, tamamilə "yatrogen" termininə uyğun, həkimin fikirləşmədən, ehtiyatsızlıqla söylədiyi sözün insana zərərli təsiridir".

Monoqrafiya beş bölmədən ibarətdir və hər bir hissədə həkimin mənəvi-əxlaqi xüsusiyyətləri və məsuliyyəti mövzusu ana xətt təşkil edir. Nəşrdə akademik Zərifə xanımın sağlamlığın qorunmasında, həkimə olan ictimai etimadın yüksəldilməsində tibb işçisinin peşəkar fəaliyyəti ilə yanaşı, onun mənəvi mövqeyinin, etik davranış keyfiyyətlərinin hər şeydən öndə duran norma kimi qiymətləndirdiyinin şahidi oluruq. Zərifə xanım bu kitabında həkimin yüksək əqidə meyarlarına özünəməxsus həssaslıq və dünyəvi norma və prinsiplər prizmasından yanaşaraq görmək istədiyi müasir dünyagörüşlü Azərbaycan həkimini göz önünə gətirir.

"Yüksək əqidə" əsərində müəllif həkim-pasiyent münasibətlərində tibbi etikanın zəruriliyinə diqqət çəkir, etik məsələləri ibrətamiz örnəklər əsasında oxucuya təqdim edir. Akademik Zərifə Əliyevanın bu əsərində aşıladığı yüksək mənəviyyat keyfiyyətləri səhiyyə sahəsində çalışan bütün mütəxəssislər üçün etalon, sabahkı gəncliyə ərməğan edilən müdrik tövsiyələrdir. Akademik bu tədqiqat əsərində tarixi ədəbiyyatları araşdıraraq, Azərbaycan səhiyyəsinin tarixinə dair maraqlı məqamları üzə çıxarır. Zərifə xanımın tibb tarixi qaynaqlarından seçdiyi və təqdim etdiyi tibbi maarifçi ideyalar dövrün mühüm çağırışları ilə səsləşir.

Ümumilikdə, 150-dən çox elmi əsərin, monoqrafiyanın, dərs vəsaitlərinin, səmərələşdirici təkliflərin və ixtiranın müəllifi olan Zərifə xanım Əliyevanın digər əsərləri kimi, "Yüksək əqidə" əsəri də araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

**Respublika.** - 2023.- 21 may. - № 106. - S. 6.

## Titrəməyən əllər

### Zərifə xanım zərifliyi, biliyi, bacarığı insanlara işıq, xoşbəxtlik bağışlayırdı

**Məlahət Rzayeva**

**...Professor Şahbazov əsəbi halda:**
**- Oftalmologiya elmi 3 şey tələb edir: cəsarət, titrəməyən əl, bir də cərrah bıçağı!**
**Doktor İradə (qətiyyətlə):**
**-Göz isə çox zərifdir. Onun cərrahı da zərif olmalıdır!..**
Bu dialoqu xatırlayanlar olacaq yəqin. Unudulmaz şair və dramaturq İslam Səfərlinin "Göz həkimi" pyesindəndir. İslam Səfərli bu pyesi Azərbaycanın görkəmli oftalmoloq alimi, akademik Zərifə xanım Əliyevanın şəxsiyyətinə hörmət, ehtiram əlaməti olaraq qələmə alıb.

**Zərif və cəsarətli qadın**

Və ən maraqlısı həm də budur ki, müəllif pyes üzərində çalışarkən bir neçə dəfə Zərifə xanımla görüşüb, ondan məsləhətlər alıb. Bu faktı fəlsəfə elmləri doktoru mərhum Adil Nəcəfovun xatirələrindən öyrəndim: "Zərifə xanım Əliyeva haqqında düşünərkən 50-ci illərin əvvəllərində baş vermiş hadisələri xatırlayıram. O zaman "Göz həkimi" pyesi üzərində işləyən uşaqlıq dostum, istedadlı şair və dramaturq İslam Səfərli tez-tez Göz İnstitutuna gedərdi ki, yaradıcılıq prosesinin gedişində tibb işçilərinin fəaliyyətinin bir sıra peşə məsələlərini düzgün açа bilsin. Gənc və istedadlı həkim Zərifə Əliyeva isə müəllifə məsləhətlər verir, köhnəlmiş və zərərli baxışlara qarşı mübarizə aparan pyesin baş qəhrəmanının – göz həkiminin bədii obrazının yaradılmasında ona kömək edirdi". A.Nəcəfov xatirələrində qeyd edir ki, İslam Səfərli ilə birlikdə Göz Xəstəlikləri İnstituna gedib: "Yaxşı yadımdadır, bu görüşdən sonra Zərifə xanımın hüdudsuz erudisiyasından, zəngin ədəbi biliyindən, dərin ziyalılığından mütəəssir olmuşduq". Göz Xəstəlikləri İnstitutunda müşahidə aparmağının, Zərifə xanımla söhbətlərinin şair və yazıçının parlaq təxəyyülü ilə birləşməsinin nəticəsi idi ki "Göz həkimi" kimi möhtəşəm bir pyes ərsəyə gəldi. Həkim İradə xanımın obrazı Zərifə xanımın şəxsiyyəti ilə həmahəngdir. Cəsarətli, eyni zamanda zərif bir həkim. Biliyi, bacarığı, titrəməyən əlləri və iti gözləri ilə insanların xidmətində dayanan, onlara səadət, xoşbəxtlik nəsib edən nəcib peşə sahibi, göz həkimi – Zərifə xanım Əliyeva. Həyatda təsadüf yoxdur, qanunauyğunluq vardır, deyirlər, doğrudur. Zərifə xanımın məhz həkimlik sənətini, həm də göz həkimi peşəsini seçməsi də qanunauyğunluq idi. Bu sevgi və istək, həmçinin məqsədə doğru inamla irəliləmək xüsusiyyəti ona nəslinin ötürdüyü ali keyfiyyətlər idi.

**"Peşə xəstəlikləri ilə ilk dəfə Zərifə xanım məşğul olub"**

**"Göz həkimi" pyesində doktor İradə kafedra müdürü Nina Nkolayevna ilə söhbəti zamanı belə deyir:**
- Təsəvvür edin, uzun ilər kor olmuş bir insanın gözləri açıla!.. Günəş, işıq, təbiət haqqında təsəvvürü olmayan insan üçün bundan böyük səadət olarmı?!
Sözsüz, Zərifə xanım həkimlik fəaliyyəti dövründə neçə-neçə insana səadət bəxş edib. Pyesdə Zərifə xanımın oftalmoloq alim kimi fəaliyyəti ilə üst-üstə düşən bir məqam da var. Pyesin qəhrəmanı həkim İradə xanım məhz iş başında zədə almış geoloq-neftçi İvanovun gözlərinin müalicəsini üzərinə götürüb, cərrahiyyə əməliyyatı keçirməlidir. Zərifə xanım da neft-kimya sənayesində çalışanların peşə xəstəliklərinin müalicəsiylə bağlı elmi araşdırmalar aparırdı və bu sahədə yüksək nəticələr əldə etmişdi. Bu haqda akademik Əhliman Əmiraslanov öz məqaləsində qeyd edir: "Görmə orqanının peşə xəstəlikləri ilə ilk dəfə Zərifə xanım məşğul olub. ADHTİ-də çalışarkən ilk illərdən zərərli sənaye müəssisələrində çalışan insanların oftalmoloji müayinədən keçmələrini təşkil edirdi, peşə ilə əlaqədar əmələ gələn göz xəstəliklərinin profilaktikasını və müalicəsini ön plana çəkir, bir sıra sənaye müəssisələrində tədqiqat aparıb, zərərli peşələrin törətdikləri göz xəstəliklərini elmi surətdə əsaslandırır, onların qarşısını almaq üçün əməli tədbirlər görür, zərərli peşə sahiblərinin gözlərini xilas edirdi. O, 1976-cı il may ayının 27-də Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesinin bir sıra müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdü. Bununla da Z.Əliyeva cəsarətli eksperimentatorluq bacarığını SSRİ-nin məşhur oftalmoloqları qarşısında bir daha sübuta yetirdi. Professor Zərifə Əliyeva oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.Averbax adına mükafatına layiq görülüb".

**“Zərifə xanım anamın gözlərini əməliyyat etmişdi”**

**Yazını hazırlayarkən Zərifə xanımın öz əlləri ilə səadət bəxş etdiyi ailələrdən birinin nümayəndəsi ilə həmsöhbət olduq. Bu, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Həvva Məmmədovadır. Həvva xanım bizimlə söhbətində ümummilli lider Heydər Əliyev kimi Zərifə xanım Əliyevanın da adının Azərbaycan tarixinə əbədi həkk olunduğunu dedi.**

- Zərifə xanım humanist insan, görkəmli ictimai xadim, oftalmoloq-alim idi. Sözün əsl mənasında HƏKİM idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini verib, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərib. Zərifə xanım özünün çoxillik fəaliyyəti dövründə neçə-neçə gözə şəfa bəxş ediş, ən ağır, mürəkkəb cərrahi əməliyyatlar aparıb, insanları qaranlıq dünyasını işıqlandırıb. Belə nəhəng və xeyirxah işlər görə bilməsinin səbəbi həm öz biliyi, savadı və səriştəsi, həm də nəsil-şəcərəsindən, böyüdüyü ailədən irəli gələn yüksək keyfiyyətlərə malik olması idi. Zərifə xanımın adını fəxrlə, sonsuz qürur hissi ilə çəkirik, onun məhz bizim xalqın nümayəndəsi, Azərbaycan qadını olmasından qürur hissi duyuruq. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir. Zərifə xanım xalqımıza müzəffər Ali Baş Komandan bəxş etmiş bir anadır. Mənim üçün dəyərli olan bir məsələni xatırladım ki, vaxtilə anamın gözlərini Zərifə xanım əməliyyat edib. Anamın gözləri iki dəfə əməliyyat olunmuşdu. Həkimlərdən birinin adı Ceyran xanım idi, digəri isə Zərifə xanım olub. O zaman biz Zərifə xanımın hansı ailəyə mənsub olduğunu bilmirdik. İllər sonra bunu bildik. Bu xanım o qədər səmimi, xeyirxah, sadə, təvazökar idi ki, Heydər Əliyev kimi bir siyasi rəhbərin həyat yoldaşı olmasını qabartmayıb, özünü üstün hesab etməyib. Çalışdığı səhiyyə müəssisəsində hamı onun xeyirxahlığının, sadəliyinin, səmimiliyinin vurğunu olub. Təsəvvür edin ki, bişirdiyi xörəklərdən gətirib gözətçiyə, ehtiyacı olanlara paylayırmış. Hamıyla səmimi ünsiyyət yaradırmış. Zərifə xanımın kollektivlə birlikdə çəkdirdiyi fotolardan da görünür ki, o necə səmimi, nəcib insan olub. Zərifə xanım adət-ənənəyə bağlı, milli xüsusiyyətləri özündə cəmləmiş və bu xüsusiyyətlərə hər zaman sayğı göstərən əsl Azərbaycan qadını idi. Bu mənada Zərifə xanım bütün həyatı, fəaliyyəti ilə, davranışları ilə örnək bir qadındır. Və xalqımızın qəlbində daim yaşayacaq.

**Şərq**. - 2023. - 28 noyabr. - № 216. - S. 5.

## İki prezidentin həyatına toxunan həkim – Zərifə Əliyeva

**Lalə Mehralı**

**Şam yanmırsa, yaşamır demək,**
**Onun da yaşamağı yanmağındadır...**

Bəlkə də, xarakterinin, adına və peşəsinə həkk olunduğu nadir insanlardandır o. Adının haqqını verəcək qədər zərif, incə ruhlu, peşəsinin qiymətini verəcək qədər lətif, loğman insan idi Zərifə Əliyeva. Həkim üçün lazım olan bütün keyfiyyətlər –dürüstlük, məsuliyyət, zəka, xeyirxahlıq, etibarlılıq, fədakarlıq, nəzakət, iradə, cəsarət, təmkin, qətiyyət - bütün bunlar onun şəxsində cəmləşmişdi. Öz ömrünü şam edib xəstələrinə işıq olan dəyərli alimin bu il 100 illik yubileyidir.

Tarixən bütün ləyaqətli loğmanlar üçün öz ömrü yox, başqalarının ömrü əhəmiyyətli olub. Onları təbib, loğman edən də məhz bu xüsusiyyətləri olub. Azərbaycanın ictimai-tibb tarixində silinməz iz qoymuş belə böyük insanlardan biri də Zərifə Əliyevadır. Vəfatının 38-ci ilində belə insanların dünən aramızda imiş kimi xatırladığı, haqqında keçmiş zamanda danışmadığı böyük alim, dəyərli loğman... İnsan var, vəfatı ilə bir evdən gedir, insan var, bütöv bir eldən. Zərifə Əliyeva vaxtsız vəfatı ilə eldən gedən insanlardan idi.

### Nur paylayan şəfalı əllər

Bu il görkəmli pedaqoq, istedadlı alim, bacarıqlı həkim, böyük ictimai xadim və ən əsası gözəl qadın, dəyərli ana kimi tanıdığımız Zərifə Əliyevanın 100 illik yubileyi tamam olur. Azərbaycan xalqı onu həmişə böyük ehtiramla yad edir. Dəyərli oftalmoloq alimimiz Zərifə Əliyevanın yüzlərlə insana işıq bəxş edib, qaranlığa həkk olan minlərlə insanı qərq olduğu qaranlıqdan çəkib çıxarıb. O zülmətə qərq olan gözlərə nur verib, köməksizlərə həmdəm olub- əsl insan, əsl həkim olub.

Dövrünün və dövrümüzün bir çox həkimi üçün əhəmiyyətsiz olan "Hippokrat andı" Zərifə xanım Əliyeva üçün toxunulmaz dəyər olub, o öz peşəsinə ömrü boyu vicdanla yanaşıb. Səmərəli və zəhmətsevər fəaliyyətində əsl insani dəyər olan vicdana, səmimiyyətə böyük önəm verib. Bütün bilik və gücünü, istedad və bacarığını insanların sağlamlığının qorunmasına və yaxşılaşmasına sərf edib, saysız-hesabsız müalicələri ilə göz xəstəliklərinin qarşısını almağa səy göstərib. Tibb elminin dövrümüzdəki texnoloji imkanlarının olmadığı bir zamanda o öz yenilikçi ideyaları ilə "olmaz!" deyilən çox şeyi oldurub, müalicəsi mümkünsüz hesab edilən çox xəstənin dərdinə əlacı mümkün qılıb.

Zərifə Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib. Fəaliyyəti boyunca onlarla araşdırmaya, elmi məqalələrə imza atan Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. Onun monoqrafiyaları özündən sonra bir çox xələfinə mayak olub.

Qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb. Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. O, həmçinin, Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olub.

Zərifə xanım Azərbaycan tibb elminin tarixində, onun şöhrətlənməsində ləyaqətli yer tutmuş görkəmli alim və mütəxəssislərdən biri idi. Dünya tibb elminə yeni nailiyyətlər bəxş edib akademik adına yüksələn Zərifə xanım Əliyeva dəyərli ziyalı və alim kimi respublikamızın hüdudlarından kənarda da yaxşı tanınmışdı. Onunla birlikdə elmi iş aparanlar, çiyin-çiyinə çalışanlar, onun nailiyyətlərindən, yüksək mədəniyyətindən, nəcib xüsusiyyətlərindən hər zaman hörmət və ehtiramla danışıblar.

### Hətta oftalmologiya patriarxı belə ona heyran idi

1979-cu ildə Oftalmoloqlar Cəmiyyətinin Moskvada keçirilmiş iclasında Zərifə xanımın möhtəşəm çıxışı həmin illərdə mətbuatda çox yazıldı. Zərifə Əliyeva peşəkar bir natiq kimi həkimin mənəvi tərbiyəsi, dövrün ən müasir tibb etikası və mənəviyyatı məsələləri haqqında çox maraqlı məruzə ilə çıxış edib. Onun bu məruzəsi o vaxt dünya mətbuatında, tibbi məcmularda böyük-əks səda doğurub. Həmin çıxışdan sonra Sovet oftalmologiyasının patriarxı, akademik M.M.Krasnov ona yaxınlaşaraq qarşısında baş əyib və onun əlindən öpüb: "Mənim sadəcə sözüm yoxdur! Sizə heyranam!" – deyib.

Görkəmli alim Nadejda Puçkovskaya da öz xatirələrində Zərifə xanımı böyük ehtiramla yad edir. O yazır ki, Zərifə Əliyevanın fəal təşkilatçısı olduğu oftalmoloq qurultaylarının birində iştirak edən nümayəndələrdən

birinin ayağı sınır. Puçkovskaya onun müalicəsinə Zərifə xanımın necə can yandırdığını yaxşı xatırlayır: "O, hər gün xəstəxanaya gəlir, xəstənin halına qəlbən yanır, hətta lazım olan şeyləri öz evindən gətirirdi ki, müalicəyə xeyri dəysin. Zərifə xanım xəstəyə bir-iki gün deyil, bütün müalicə müddətində istisnasız hər gün baş çəkdi".

Rusiyalı məşhur oftalmoloq, tibb elmləri doktoru, professor Z.M.Skripçenko Zərifə xanım Əliyeva haqqında xatirələrində onu "Qoruyucu mələk" adlandırır: "Bir dəfə Zərifə xanımla birlikdə həmkarlarımızdan birinin evində qonaq idik. O, yüksək intellektli adamların əhatəsində öz cəlbedici sadəliyi və həyat eşqi ilə seçilirdi. Siz təsəvvür edirsiniz, bir həkim fortepianoda musiqiyə xüsusi rəng verərək populyar melodiyalar, rəqslər ifa edirdi! O sanki tək həkim deyil, həm də peşəkar pianoçu idi. Zərifə xanım dinləyiciyə əsərin varlığını, mahiyyətini çatdırmağı bacarırdı. Zərifə Əliyevanın tələbələri ona professionallığın və müdrikliyin canlı nümunəsi olan professor kimi baxırdılar. O, həmişə məntiqli və eyni zamanda, səmimi danışırdı, yüksək nitq mədəniyyəti ilə seçilir və tələbələrində xüsusi həvəs yaradırdı".

Məşhur oftalmoloq, akademik A.Nesterov da onun haqqında həmişə böyük ehtiramla "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli həkim idi." deyə danışırdı.

## Ömrünü iki prezidentə həsr edən qadın

Ümummilli Lider Heydər Əliyev öz ömür-gün yoldaşı haqqında danışanda həmişə ondan güc aldığını, enerji qaynağının məhz Zərifə xanım olduğunu deyirdi. O, Zərifə xanımın ömrünün axırına qədər ləyaqətli ömür-gün yoldaşı, arxa-dayaq olmasından, həm işini, həm ailəsini hər şeydən uca tutduğunu qeyd edirdi. Zərifə xanımın vəfatından uzun illər sonra belə Heydər Əliyev onunla bağlı danışanda hər dəfə kövrəlir, göz yaşlarını boğa bilmirdi. Bir qadının dəyərini bundan artıq necə ifadə etmək olar ki?

Vəfatının 10-cu ildönümündə Ulu Öndər Heydər Əliyevin onun haqqında xatirələrindən: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti hamıya məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

## Müzəffər lider yetişdirən ana

Bütün anaların ortaq dəyəri övladıdır. Bütün anaların ortaq sevinci tərbiyə etdiyi övladının böyüyüb vətəninə, xalqına faydalı insan olmasıdır. Analar bu zaman öz əsəri ilə qürur duyur. Zərifə xanım bu gün haqq dünyasında olsa da övladının – müzəffər liderin nailiyyətlərini görür, yetişdirdiyi övladı ilə fəxr edir.

Prezident İlham Əliyev anası haqqında hər zaman böyük ehtiram və məhəbbətlə danışıb. O Zərifə xanımın xüsusiyyətlərinə, mehribanlığına, təvazökarlığına həmişə heyran olduğunu deyir: "Anam, atamın yalnız ömür-gün yoldaşı deyildi, eyni zamanda bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərimizin bir-birinə münasibətlərini görərək alırdıq".

Prezident xatırlayır: "1970-ci illərdə atam Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. Anam çox təvazökar idi. Bəziləri üçün o, necə deyərlər, son ümid yeri idi. Hətta tanımadığı adamlar belə müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O, çalışırdı ki, hər kəsə kömək göstərsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı və o məsələlərin böyük əksəriyyəti öz həllini ədalətlə tapırdı. Zərifə xanım daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı".

Zərifə Əliyevanın bütün həyatı insanlara xidmətə həsr olunub. Yüksək vətəndaş mövqeyi, həssaslığı, insanlara qayğı və diqqəti sayəsində xalqın etimadını qazanan Zərifə xanımın insanlara faydalı təsirinin sirri məhz bu yaradıcı qüvvədə, tükənməz mənəviyyatdadır. Zərifə xanım dəyərdir, yaxşılığın insan formasıdır, hörmətdir, əxlaqdır, təvazödür, doğruluqdur. Dünyaya gəlməsinin 100-cü il dönümündə tibb elmində əvəzsiz izlər qoyan, bir ömür xalqının xidmətində olan böyük alimi hörmət və sevgi ilə xatırlayırıq.

**Səs.**-2023.-28 noyabr.-№217.-S.3.

**Azərbaycan səhiyyəsinin nuru**

**Yüksək mənəviyyata, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə sahib olmuş Zərifə xanım Əliyeva həyatı və əməlləri ilə hələ sağlığında əbədiyyət qazanmış bir şəxsiyyətdir**

**Yaqut Ağaşahqızı**

Bəşər tarixində dövlət xadiminin övladı, həyat yoldaşı və anası kimi şöhrətin ən uca mərtəbəsinə yüksəlsə də, özünün qazandığı insanlıq zirvəsini bütün şan-şöhrətlərdən uca tutmağı bacarmaq hər adama qismət olmayan mənəvi keyfiyyətdir. Zərifə xanım Əliyeva məhz belə bir mənəvi keyfiyyətin daşıyıcısı olmuş nadir şəxsiyyətlərdən biridir. O, sağlığında insanlığın zirvəsində qərar tutmuş Azərbaycan ziyalısının ən gözəl nümunəsini təcəssüm etdirirdi. Neçə-neçə gözə şəfa bəxş etmiş, ən ağır, mürəkkəb əməliyyatlar aparmış, görmə qabiliyyəti zəif olanların, yaxud tamamilə görməyənlərin qaranlıq dünyasını nurlandıran humanist insan, görkəmli ictimai xadim, oftalmoloq-alim Zərifə xanım Əliyeva XX əsr Azərbayca səhiyyəsində heç zaman silinməyəcək iz qoyub getmişdir. Zərifə xanım Əliyeva haqqında söhbət açılanda yada ilk olaraq işıq düşür. Təkcə ona görə yox ki, Zərifə xanım həkim kimi gözlərə nur verirdi. Həm də ona görə ki, onun yaşadığı ömrün özü bir işıq mücəssəməsidir. Bu işıqdan hamıya pay çatırdı: ailəsinə, övladlarına, əhatəsində olanlara, gözünün nurunu itirmiş insanlara…

**Gözəl övlad, vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana…**

1923-cü ilin 28 aprel tarixi Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində dövrünün görkəmli dövlət və ictimai-siyasi xadimi, elm fədaisi, böyük şəxsiyyət Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində onilliklər sonra ailənin adını daha da ucalıqlara qaldıracaq, Vətənə layiqli övlad olacaq, xalqına xidməti hər şeydən ümdə biləcək parlaq bir simanın dünyaya gəlişi ilə yaddaqalan olmuşdu. Zərifə xanım Əliyeva atasının – görkəmli dövlət və elm xadimi, pedaqoq-alim, professor Əziz Əliyevin yolunu davam etdirmişdir. Zərifə xanım, eyni zamanda, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur. İncə təbiətli, bu kövrək qadın öz zərif çiyinlərində dünya şöhrətli siyasətçinin inam və etibarını hər addımda doğrultmuşdur. Ən ağır və təhlükəli vaxtlarda belə Zərifə xanım həyat yoldaşını bir an belə tək qoymamış, onun dayağına çevrilmişdir. Öz analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən bu xanımı bir qadın, bir alim və həkim kimi cəmiyyətin inkişafına xidmət edən ailəsindən ayrı düşünmək olmazdı. Zərifə xanım analıq vəzifəsinin öhdəsindən də çox gözəl gəlmişdir. Onun təmkinliliyi, səbri, ağlı, savadı və digər müsbət xüsusiyyətləri övladları - İlham Əliyevin və Sevil Əliyevanın da gələcək həyat yollarının nurlanmasına yardımçı olmuşdur.

**Elm fədaisinin işıqlı çöhrəsinin tibb elminə verdiyi dəyərli töhfələr**

Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə institutu "əla" qiymətlərlə bitirir. Məhz həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Ona qarşı təsirli müalicə üsulları isə yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və həyata keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı.

Zərifə xanım nursuz gözlərə işıq paylamaq insanlara həyat eşqini qaytarmaq arzusunda idi. Bu arzu onu Moskva şəhərinə aparır və Zərifə xanım Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnir. O, ixtisaslaşdırma kursunu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə qayıdır. 1949-cu ildən başlayaraq Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır, 1950-ci ildə isə aspiranturaya daxil olur, praktik əməli həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını davam etdirir. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini traxoma infeksion xəstəliyinin müalicəsinə həsr edir. Beləliklə, Zərifə xanımın ilk elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir.

Uğurlu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə müdafiə etdiyi «Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi» mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil etmişdir. Bu sahə üzrə ixtisaslaşaraq, elmlər namizədi dərəcəsinə yüksələn Zərifə xanımın təklif etdiyi müalicə metodu tezliklə bütün respublikada tətbiq edilir və ölkəmiz bu xəstəlikdən xilas olur. Buna görə də Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə xanımın adı ilə bağlıdır.

Elmi araşdırmalar nəticəsində Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən «Şin istehsalında gözün peşə patologiyası», «Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya», «Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası» monoqrafiyalarını çap etdirdi. Bu əsərlər dünyanın elmi ictimaiyyətinin etimadını qazandı.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Zərifə Əliyevanın elmi maraqları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Zərifə xanım Əliyeva qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş maraqlı tədqiqatlar aparmışdır. O, həm də gözün zədələnməsinin profilaktikası və müalicəsi imkanlarını öyrənmişdir. Zərifə Əliyevanın daktriologiyadan bəhs edən – "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edib.

Oftalmologiya elmi sahəsində əvəzsiz xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. Akademik Zərifə Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, «Bilik» Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə xanım bir sıra orden və medallara layiq görülmüş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adını almışdır. Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir.

**Nurlu obrazı davamçılarının yolunu işıqlandırır**

Zərifə xanım Əliyeva elmi-pedaqoji fəaliyyətində təkcə elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, eyni zamanda, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftolmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Zərifə xanım haqlı olaraq hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Zərifə xanım Əliyeva adını daşıyan Milli Oftalmologiya Mərkəzi, Naxçıvan şəhər poliklinikası, Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu, küçələr, xəstəxanalar, körpələr evləri, təlim-təhsil ocaqları və s. bu böyük insanın xatirəsinin əbədiləşdirilməsinin layiqli göstəricisi, ona qoyulan hörmətin, bəslənilən rəğbətin, göstərilən ehtiramın nəticəsidir. Bakıda müasir Oftalmologiya Mərkəzinin yaradılması Zərifə xanımın çoxdankı arzularından idi. Bu gün Zərifə Əliyevanın adını daşıyan Oftalmologiya Mərkəzi görmə qabiliyyətində problem olan hər kəsin pənah gətirdiyi yerdir. Klinikanın fəaliyyəti dövründə respublikamızın şəhər və rayonlarından gələn yüz minlərlə xəstəyə yüksək səviyyəli xidmət göstərilmişdir. O cümlədən, yaşadığı müddətdə respublikamızın ən yüksək keyfiyyətli oftalmoloji avadanlıqlarla təchiz edilməsində də Zərifə xanımın misilsiz xidmətləri olmuşdur.

Biri-birindən dəyərli 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, onun zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Tibb aləmində bir çox yeniliklərə imza atmış, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanınmış, yüksək intellekt sahibi, yorulmaz alim, akademik, Zərifə xanım Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir. Onun zəngin elmi irsi, oftolmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir. İnsanlara bitib-tükənməyən sevgi, məhəbbət dolu geniş ürəyə sahib olan, gözlərə işıq, nur bəxş edən, Vətən təəsübünü hər şeydən üstün tutmağı bacaran, özünün fitri istedadı ilə elmin, insanlığın ən yüksək zirvəsinə ucalan akademik Zərifə xanım Əliyeva bu xüsusiyyətləri ilə həm müasir gənclərə, həm də gələcək nəsillərə nümunə və örnəkdir.

Heç şübhəsiz ki, bütün həyatını insanlara, onların gözlərinə və qəlblərinə nur səpməklə kamillik zirvəsini fəth etmiş Zərifə xanım Əliyevanın xeyirxah əməl dəftəri heç zaman bağlanmayacaq, nur çeşməsi əsla qurumayacaq, əziz xatirəsi isə qürur mənbəyimiz kimi dünya durduqca yüksək tutulacaq.

**İki sahil.**-2023.-29 noyabr.-№218.-S.5.

## Nurlu ömrün yolları

## Bütün varlıqların zirvəsi Ana

**Səadət Sultan,**
yazıçı-publisist

**Dünyada bir neçə müqəddəs varlıq mövcuddur: vətən, ana, müəllim… Demək olar ki, bütün qələm sahibləri ananı vəsf ediblər. Bəli, ana elə müqəddəs varlıqdır ki, vətənə də Ana Vətən deyirlər.**

Biz elə bir müqəddəs varlıq olan anadan söz açırıq ki, vətənin tamlığı, bütövləşməsini təmin edən İlham Əliyev kimi liderə analıq edib. Eyni zamanda, min ildə bir dəfə doğulan, Şərqdə öndər, Qərbdə diplomat olan, ömrünün qalan hissəsini Azərbaycan dövlətçiliyinin hifz edilməsinə, xalqın xoşbəxtliyinə sərf etmiş Heydər Əliyev kimi şəxsiyyətə dayaq olub.

Akademik Zərifə Əliyeva anaların anası, yüksək intellektə malik ziyalı, vəfalı ömür-gün yoldaşı, dünya tibb elminə əvəzolunmaz töhfələr verən həkim-oftolmoloq, bir sözlə, Allahın öz bəndəsinə bəxş elədiyi bütün müsbət keyfiyyətləri özündə birləşdirən bir insandır. Zərifə xanım bütün həyatını, əməli fəaliyyətini Azərbaycanda təbabət elminin inkişafına həsr etmiş, göz xəstəliklərinin tədqiqi sahəsində elmi kəşflərin müəllifi kimi dünyada tanınmışdır. Zərifə xanımın zəkasının dərinliyi və aydınlığı, geniş erudisiyası, zəngin klinik təcrübəsi zəngin elmi yaradıcılığında öz əksini tapmışdır.

### Elmin çırağı

Akademik Zərifə xanım Azərbaycan oftalmologiyasının əsl fədaisi olaraq, onun dünyada tanınması işində gərgin əmək sərf etmişdir. Loğman həkim çalışırdı ki, ölkəmizin oftalmoloqları əsla dünya oftalmologiyası səviyyəsindən geri qalmasın və digər ölkələrin həkimləri ilə bərabər, müasir oftalmologiya elminin inkişafında yaxından iştirak etsinlər, beynəlxalq simpoziumlarda yeni və maraqlı çıxışlarla özlərini tanıtsınlar.

Məşhur oftalmoloq-alim M.Krasnov Zərifə xanım Əliyevanın görmə orqanlarının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqat əsərlərini yüksək qiymətləndirərək demişdir: “Əcəl bu görkəmli alimə bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbin rəhbəri olacaqdı”.

Zərifə xanım Əliyeva 1960-cı ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi” mövzusunda namizədlik, 1977-ci ildə Moskva Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda, “Azərbaycanın kimya sənayesinin bir sıra müəssisələrində işçilərin görmə orqanlarının vəziyyəti” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilib, 1983-cü ildə isə həmin kafedranın müdiri olmuşdur. O dövrdə ümumittifaq mükafatları müttəfiq respublikaların alimlərinə nadir hallarda verildiyi bir vaxtda Zərifə xanım peşə patologiyası sahəsində apardığı elmi tədqiqat işlərinin uğurlu nəticələrinə görə oftalmologiya sahəsində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. O, bu nüfuzlu mükafatla təltif edilən ilk qadın alim idi. Böyük xidmətləri, çoxillik elmi tədqiqat işlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının akademiki seçilmişdi.

### Nur seli

Fitri istedada malik olan görkəmli alim Zərifə xanım zərifliyin və humanizmin timsalı olmaqla yanaşı, dünyada ilk dəfə olaraq peşə patologiyasını araşdıran elmi tədqiqat laboratoriyası yaratmaqla praktik olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoydu. Onun “Göz yaşının axmasının fiziologiyası”, “Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri”, “Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti” kimi qiymətli məqalələri və monoqrafiyaları indi də aktualdır, təbabətə, insanlara gərəklidir. Əməkdar elm xadimi Zərifə xanımın dünya miqyasında yüksək qiymətləndirilən əsərləri də var: “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yol intaksikasiyası zamanı oftalmologiya”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası”. Zərifə xanım Əliyevanın çoxşaxəli elmi yaradıcılığı 12 monoqrafiya, dərslik və dərs vəsaitində, 160-dan çox elmi işdə, bir ixtira və 18 səmərələşdirici təklifdə öz əksini tapmışdır.

### O, insanlara yaxşılıq etmək üçün gəlmişdi

Zərifə xanım Əliyevanın həyat yolu böyük ziyalı və dövlət xadimi Əziz Əliyevin ailəsindən və işıqlı bir kənddən – Şahtaxtıdan başlamışdı. Zərifə xanım bu ailənin tapındığı ən yüksək dəyərləri özündə ehtiva etmiş xanım, gəlin kimi Əliyevlər ailəsinin qapısından içəri qədəm basanda artıq çox dəyərli bir xəzinə sahibi idi. Bu

xəzinənin qiymətli daş-qaşı onun əxlaqı, intellekti, ailəsinə sədaqəti, milli mentaliteti, həyat yoldaşına böyük məhəbbəti və ölkəsinə sonsuz sevgisi idi. O, Əziz Əliyevin ailəsində ağıllı, kamallı, həmyaşıdlarına örnək göstərilən bir gənc kimi böyümüşdü. Ən başlıcası isə sevgisi, amalı yolunda cəfalara dözmüşdü. Onun həyat sevgisi – ailəsinə, xalqına, ölkəsinə və peşəsinə sevgidə təzahür etdiyindən, bəşəri bir dəyər alırdı və onu ilahiləşdirirdi. Çünki o, Tanrının bəxş etdiyi ömür payını insanlığa xidmət üçün ayrılmış vaxt kimi dəyərləndirirdi. Zərifə Əliyeva milli ünsiyyət mədəniyyətimizin etalonu və əxlaqi zirvəsində durdu. O, insan qəlbinə təbii bir incəlik və həssaslıqla daxil olmağı bacardı. Bir həkim kimi onun xəstəyə yanaşma prinsipi belə idi: "Xəstəyə düzgün münasibət həkim sənətinin mahiyyətlərindədir… Həkimin gündəlik zəhməti onu əhatə edən insanlarla, birinci növbədə, xəstələrlə davranış formasını bilməyi tələb edir". Sanki onun həyat yolu böyük həkimlərin, zəka sahibləri olan təbiblərin taleyindən keçir, zaman-zaman məşhur həkimlərin əməllərində özünü təsdiqləyir. Zərifə xanım öz həyat yolunu insanlara işıq bəxş etmək kimi ali keyfiyyətlər üzərində qurmuşdu. Loğmanlığın birinci şərti bəlkə də səbir və təmkinlə bağlıdır. Bütün bunlar isə Zərifə xanıma xas olan keyfiyyətlərdir.

**Zəmanəmizin təbibi**

*Bu nəcib insanın həyat yolunu öyrənməklə, cəmiyyət üçün əbədi örnək ola biləcək alimin və ananın zəngin aləminə daxil olarıq, onun kimliyini daha yaxından dərk edərik. Zərifə xanım Əliyeva da hər şeydən öncə ANA idi. Və ANA olaraq analıq duyğuları ilə yaşadığı həyəcanları təsəvvür etmək heç də çətin deyil. Zərifə xanım 1969-cu ildə Azərbaycanın birinci xanımı şərəfinə nail olmuşdur. O, həm də dünyanın ən böyük dövlətinin rəhbərlərindən birinin xanımı idi. O, bir Prezidentin xanımı və bir Prezidentin anasıdır. Böyütdüyü oğul cəmiyyətin arzuladığı şəxsiyyət oldu. Xalqa yaxın olmaq, insanları duymaq, cəmiyyətin nəbzini tutmaq… Bütün bunlar böyük özül üzərində ucalan İlham Əliyevi xarakterizə edən keyfiyyətlərdir. Deməli, Zərifə xanımın xalq və millət üçün ən böyük xidməti və dahiyanə əsəri Müstəqil Azərbaycanın Prezidenti İlham Əliyevdir. O, Heydər Əliyevin əzəmətli əlinin sığalı, Zərifə xanımın şirin laylaları ilə böyüyüb. Hələ ata-ana ocağında ikən dövlətçilik dərsləri keçib. Elə buna görə də milli dövlətçiliyimizin qoruyucusuna çevrilib, Azərbaycanı dünya arenasında tanıtmaq üçün əzmini və iradəsini əsirgəməyib.*

**Heydər Əliyevin məsləkdaşı**

Zərifə xanım həm zərif, həm də mərd qadın idi. O, dünyanın ən güclü şəxsiyyətlərindən olan Heydər Əliyevin xanımı idi. Heydər Əliyevin sevgisini qazanmaq, onun iztirablarını hiss etmək və dözümlü olmaq heç də asan deyildi. Bu ailə böyük bir sevgi əsasında təməl tapmışdı. Bu sevgidən müqəddəs bir ailə yaranmışdı. Həmin ailə millətə örnək və şərəf oldu. O ailənin tükənməz gücü, qüvvəsi hesabına Azərbaycan parçalanmaqdan xilas oldu. Tanrı Heydər Əliyevə elə güc, qüvvət vermişdi ki, onu yenmək, təslim etmək heç də asan deyildi. O, bütün bunların hamısına müqavimət göstərə bilirdi. Çünki onun böyük mənəvi dayağı, özü qədər mətin və güclü xanımı vardı. Taleyin qədəri elə Zərifə xanımın özünü də yaşayacağı bütün məqamlara hazırlamışdı. O, dövlət başçısının həyat yoldaşı və ölkənin birinci xanımı olarkən, artıq dövlətin və siyasi xadimin ölkəsinə, vətəndaşlarına necə xidmət etməsini yaxşı bilirdi. Bir şey də aydındır ki, çox tanındığı üçün də daim diqqət mərkəzində olan siyasi liderlərdən birinin xanımı olmaq şərəfini daşımaq çox da asan məsələ deyildi. Zərifə Əliyeva Azərbaycan qadını, əsl azərbaycanlı ana olaraq həyat yoldaşının qalxdığı zirvələrə qürurla baxırdı. Zərifə xanım Əliyeva ömrünün son anına qədər üzərinə düşən məsuliyyəti şərəflə daşıdı və təkcə Heydər Əliyev üçün, İlham və Sevil Əliyeva üçün, Mehriban Əliyeva üçün yox, bütün Azərbaycan və azərbaycanlılar üçün ilahi bir qadın simvoluna çevrildi.

Zərifə xanım Əliyeva Azərbaycanda Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dünya siyasətində öz nüfuzu və yeri olan İlham Əliyev kimi milli lider bəxş edən ana kimi unudulmazdır. O, milyonların anası olaraq Azərbaycan qadınının adına şərəf gətirdi, analığa yeni məzmun verdi, qadınlıq vəzifəsinə yeni vəzifə qatdı, onun mənəvi, ictimai məzmununu XX əsrdə mentalitetin ölçülərinə – özünə qaytardı, anaların etalonuna çevrildi.

**Azad Azərbaycan.-**2023.-7 dekabr.-№40.-S.4.

## Zərifə Əliyeva şəxsiyyəti, tibbdə fenomenallıq və Azərbaycan oftalmologiya elmi

### "Bir ömür xidmətinizdə..."

**Samirə Səfərova**

**Azərbaycanda oftalmologiya elminin inkişafından danışarkən ilk göz önünə gələnlərdən biridir Zərifə Əliyeva. Onun zərif və şəfalı əlləri neçə insanın gözünə nur verib, həyatına rəng qatıb, yəqin ki, sayı bilinmir.**

Elə yetişdirdiyi və sonradan tibb elminə öz töhfələrini verən tələbələrinin – peşəkar oftalmoloqların da sayı bilinmir çox güman. Budur, mənalı ömür yaşamanın bəhrəsi - o həm qaranlıq gözlərə işıq bəxş etdi, həm də bu yolda yürüyərək bu müqəddəs peşəni davam etdirən həkimlər ordusu yetişdirdi. "Yaşamaq yanmaqdır, yanasan gərək..." – deyirdi ustad Bəxtiyar Vahabzadə. Zərifə xanım Əliyeva da belə bir ömür yaşadı, ömrünü şam kimi əridərək, işığı sönmüş gözlərə nur çilədi...

Zərifə xanım Əliyeva şəxsiyyətindəki alicənablıqla şarmın mükəmməl sintezi onun Azərbaycan milli-mənəvi dəyərlərinin incilərini özündə qoruyub saxlayan bir ailənin - görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində doğulmasının işartıları idi yəqin. Deyilənə görə, Zərifə xanımın bir şəxsiyyət kimi yetişməsində anası Leyli xanımın əməyi əvəzsiz olub. Aristokratlıq gendən gəlir deyirlər. Görünür, bunun nəticəsidir ki, əsl aristokrat ailələrdə olduğu kimi, Zərifə xanım gənc yaşlarından həm elmlə, həm də musiqi ilə məşğul olub. Onun ömür-gün yoldaşı, görkəmli dövlət xadimi Heydər Əliyevi mahnı ifa edərkən pianoda müşayiət etməsi səhnəsi kimləri riqqətə gətirməyib ki?! Axı bu mükəmməl ailə tablosunda xoşbəxt bir ailəyə xas hər şey var – qarşılıqlı hörmət, sevgi, ehtiram və hüzur...

**"Əsl həkim yalnız o şəxsdir ki..."**

Zərifə xanım Əliyeva sənətinin dəyərini bilən və onu uca tutan həkimlərdən idi. Təsadüfi deyil ki, o öz mühazirələrində də yetişdirmələrinə həkimlik peşəsinin necə uca və gərəkli sahə olduğunu təlqin edirdi.

"Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə-eşiyinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır" – deyirdi Zərifə xanım. Elə təkcə bu iki cümlə bu böyük şəxsiyyətin mənəvi cəhətdən necə zəngin bir insan olduğunu ortaya qoymuş olur.

Vikipediya məlumatlarında deyilir ki, Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şaxtaxtı kəndində dünyaya göz açan Zərifə xanımın musiqiyə çox böyük həvəsi olsa da, özünə həyat yolu kimi tibb sahəsini seçib. Elə təbabətin ən incə sahəsi olan oftamologiyanı seçməsi də bu incə ruhlu xanımın xarakterik cəhətlərinə işıq tutur. Zərifə xanımın özəl xüsusiyyətlərindən biri isə onun təkcə həkimlik fəaliyyətilə kifayətlənməyib, daim axtarışda olması idi. Belə ki, o bu sahədə işləyən zaman çox fəal elmi işlə məşğul olmağa başlayıb. Xüsusən də, Zərifə xanım Azərbaycanın bölgələrində yayılan traxomaya qarşı mübarizədə fəal iştirak edib, traxoma kimi ağır xəstəliyin çox sadə müalicə üsulunu kəşf edib: onun "Sintometsin"lə müalicəsini apararaq, bu işləri tibb elmləri namizədi dissertasiyası ilə başa çatdırıb. Bundan sonra Zərifə xanımın elmi fəaliyyəti peşə xəstəliklərinə həsr olunub. Zərifə xanım Əliyeva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun laboratoriyasında çalışmaqla yanaşı, Bakıda fəaliyyət göstərən Bakı Kondisonerlər Zavodunda laboratoriyanın açılmasına nail olaraq, orada da eksperimentlər aparmağa başlayıb və doktorluq dissertasiyasını müdafiə edib. Beləliklə, Zərifə Əliyeva traxomanın ləğvində böyük bir təcrübi bilik yaradıb. Maraqlıdır ki, tibb elminin sürətlə inkişaf etməsinə baxmayaraq, Azərbaycan tibb təcrübəsində hələ də həkim diantologiyası, irididiaqnostika və onun müəyyən etdiyi bir sıra üsullardan geniş istifadə olunur və nailiyyətlər əldə edilir.

Zərifə xanım irididiaqnostika, diantologiya, həkim-xəstə münasibətlərinə və s. həsr olunmuş bir sıra elmi işlərin də müəllifi olub. Onun 150-yə yaxın elmi işi və çap olunmuş 10 monoqrafiyası mövcuddur. Daim axtarışda olan Zərifə xanım Əliyeva elmi fəaliyyətdən əlavə, çox fəal ictimai işlərlə məşğul olub. Eyni zamanda bir sıra tibbi jurnal redaksiyalarının üzvü kimi çalışan Zərifə Əliyeva bir neçə doktorluq dissertasiyasının elmi rəhbəri və çox sayda namizədlik dissertasiyasının müəllifi olub. Zərifə xanımın ən böyük xidmətlərindən biri isə onun oftamologiyanı, nəinki Azərbaycanda, eləcə də çox uzaq xarici ölkələrdə də tanıtması olub. Ünlü doktor daha çox Moskva alimləri ilə sıx əlaqədə olaraq, onlarla bərabər elmi monoqrafiyalar yazıb. Elə bu yöndə yorulmaz fəaliyyətinə görə də Zərifə Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ.Averbax mükafatına layiq görülüb. Zərifə Əliyevaya verilən bu ad əslində Azərbaycan oftamologiyasına verilən böyük qiymət idi. Çünki Zərifə Əliyevanın tibb sahəsində gördüyü işlərin elmi dairəsi çox geniş idi və o, öz yorulmaz fəaliyyəti ilə həm də Azərbaycan tibb elminin adını ucaldırdı.

**"Gözəl həkim, sadə insan, qayğıkeş ANA..."**

Tanıyanlar, zamanında ünsiyyətdə olanlar onu məhz belə xarakterizə edir – gözəl həkim, sadə insan, qayğıkeş ana və həyat yoldaşı. Bu dəyərli insan haqqında hər kəs - istər xəstələri, istər tələbələri, istərsə də çiyin-

çiyinə çalışdığı insanlar yalnız xoş sözlər söyləyir ki, bu da Zərifə xanımın daxilən necə zəngin, alicənab bir insan olduğundan xəbər verir. Bu sadə və səmimi xanımın hər kəslə öz dilində danışması onu hər kəsə sevdirirdı. Barəsində yazılanlardan aydın olur ki, nə qədər yumşaq təbiətli insan olsa da, akademik Zərifə xanım özünə və ətrafdakılara qarşı çox tələbkar idi. Onun hər cür laborant və doktorluq işlərini öz öhdəsinə götürdüyü, işlərini çox tələskən və vaxtında yerinə yetirən bir insan olduğu qeyd olunur. Eyni zamanda bildirilir ki, gənclərə çoxlu tövsiyələr verən, onları tərbiyələndirən Zərifə xanım gənclərlə işləməkdən böyük qürur duyurdu. Onlara öyrədirdi ki, "Həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir və həkim xəstənin ən doğma adamıdır"...

**"…Mənim üçün o, birinci növbədə böyük bir insan idi..."**

Deyirlər, o insanlar xoşbəxt ömür yaşamış sayılır ki, həyatdan getdikdən illər, hətta onilliklər sonra da rəğbətlə anılır, sevgi ilə xatırlanır. Zərifə xanım Əliyevanın məhz bu xoşbəxtlərdən olduğunu isə onun haqqında söylənilən nostalji fikirlər sübut edir.

"Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır".

Bu sözləri mərhum prezident, ümummilli lider Heydər Əliyev ömür-gün yoldaşı Zərifə Əliyeva haqqında deyib. Ulu öndər deyirdi: "Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam"... Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üstünə düşüb və o, bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

Heydər Əliyev xatirələrində Zərifə xanımla tanış olmalarından bəhs edərkən isə deyir: "Biz Zərifə xanımla Kislovodskda tanış olduq.... və onu görən kimi bildim ki, ürəyimə girdi".

Eləcə də Prezident İlham Əliyev "Mən xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur... Mənim anam əsl alim idi... Onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda yüksək mədəniyyət, alicənablıq – bütün bu müsbət keyfiyyətləri özündə birləşdirmişdi. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir"- deyə bildirir, yoxluğuna isə "Onun vəfatından sonra mənim həyatım, bütün ailəmizin həyatı dəyişildi. Yəni mən indi o vaxtlardakı kimi gülə bilmirəm, həyatımda xoşbəxt hadisə olanda düşünürəm ki, o da bunun üçün sevinərdi"- sözlərilə şərh verir.

Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Prezident Sərəncamında yer alan bu fikirlər də maraqlıdır: "Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır".

Azərbaycanın Birinci vitse-prezidenti, gəlini Mehriban Əliyeva isə xanım akademik haqqında "Bu xeyirxah, mehriban, səmimi insanı tanıyan hər kəs kimi, mən də onun nurlu simasını yaddaşımda qoruyub saxlayıram!" – deyə bildirir.

Zərifə Əliyeva haqqında elm adamlarının fikirləri də maraqlıdır. Akademik N.Puşkovskaya Zərifə xanım Əliyevanı "xeyirxahlıq Zərifə Əliyevanın həyat tərzi idi" sözlərilə xatırlayır, professor A.Brovkina onu "nəciblik və mənəvi paklıq timsalı" kimi dəyərləndirir, professor N.Şulpina isə "dünya şöhrətli alim" adlandırır. Bütün bu dəyərləndirmələr isə Zərifə xanım Əliyevanın işıqlı obrazını bir daha gözlər önündə canlandırır və onun mənəvi aləminin zənginliyini göstərir.

Bu gün adını daşıyan Milli Oftalmologiya Mərkəzində Zərifə Əliyevanın müəyyənləşdirdiyi ənənə davam edir. Yəqin ki, elmin ən son nailiyyətlərini əks etdirən ən müasir tibb avadanlıqları və qayğıkeş, savadlı həkim heyətilə xalqın xidmətində dayanan bu Mərkəzin bugünkü uğurlu fəaliyyəti elə Zərifə xanımın görmək istədiyi reallıq idi. Bütün bu deyilənlər isə onu deməyə əsas verir ki, oftalmologiya elminin inkişafında və Azərbaycanda tibb elminin bu sahəsinin nailiyyətlərində əvəzsiz rola malik olan akademik Zərifə Əliyeva xatirələrdə hər zaman səmimi, işıqlı və fədakar bir insan kimi qalacaq, neçə belə 100 illər keçsə də...

**Bakı Xəbər.** - 2023. - 8 dekabr. - № 223. - S. 13.

## Nəciblik və şəfqətin uğurlu təcəssümü

### Akademik Zərifə Əliyevanın yeni portreti haqqında düşüncələr

**Ziyadxan Əliyev,**
Əməkdar incəsənət xadimi, professor

Azərbaycan cəmiyyətində işıqlı əməlləri ilə yoxluğundan sonra anılmaq hüququ əldə edən, özünə ölməzlik qazandıran şəxsiyyətlərdən biri də akademik Zərifə xanım Əliyevadır. Səhiyyə sahəsində görkəmli alim - tibb elmləri doktoru kimi tanınan Zərifə xanımın həm sağlığında, həm də vəfatından sonra çoxsayı bədii obrazları yaradılıb. Rəssam və heykəltaraşlarımız dəfələrlə Azərbaycan xalqının Ümummilli liderinin - unudulmaz Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım şəxsiyyətinə müraciət etməklə, onun timsalında qadın incəliyinin və nəcibliyinin yaddaqalan obrazını ərsəyə gətiriblər.

Xalq rəssamı Ömər Eldarovun hazırladığı iki əsər (burada heykəltaraşın Azərbaycan Milli İncəsənət Muzeyindəki mərmər "Elegiya" kompozisıyası və Fəxri xiyabandakı məzarüstü tunc abidəsi nəzərdə tutulur), həmçinin Xalq rəssamı Oqtay Sadıqzadənin ərsəyə gətirdiyi rəngkarlıq portreti Zərifə xanıma həsr olunmuş sənət nümunələri arasında zəngin bədii tutuma malik olmaları ilə diqqət çəkir. Oftalmologiya sahəsində yüksək elmi nailiyyətlərə imza atmış akademik Zərifə xanım Əliyevanın (1923-1985) bu il qeyd olunan 100 illik yubileyi ərəfəsində daha bir yaddaqalan rəngkarlıq obrazı yaradıldı. Onun müəllifi gənc fırça ustası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdindəki incəsənət kollecinin müəllimi Təranə Seyiddir. Yağlı boya ilə kətan üzərində çəkilmiş bu portreti (110x90 sm) bədii tutumunun fərqli məziyyətlərinə görə Azərbaycan rəngkarlığında bu janrın ifadə imkanlarının nəhayətsizliyini özündə hifz edən sənət nümunəsi hesab etmək olar. Daha dəqiq desək, özünəməxsus bədii xüsusiyyətləri ilə diqqət çəkən əsər özündə portret janrının bu vaxta kimi ifadə olunmuş estetetikasına yeni çalarlar əlavə olunması ilə seçilir. Əsərin il ərzində ictimailəşdirilməsi - təşkil olunan müxtəlif sərgilərdə nümayiş olunması qarşılığında, onun barəsində çoxsaylı təqdir dolu fikirlərin səsləndirilməsi də portretin uğurlu olmasından xəbər verir.

Qeyd etmək lazımdır ki, çox vaxt ikonoqrafik əlamətləri hamıya yaxşı tanış olan görkəmli şəxsiyyətlərin portretlərinə bədii-estetik tutum vermək elə də asan olmur. Başqa sözlə desək, məşhurların obrazlaşdırılması prosesi hər bir yaradıcı üçün davamlı axtarışlardan keçir. Qənaətimizcə, portret janrının estetikasını yeni yanaşma tərzi ilə zənginləşdirmək istəyi bu prosesdə Təranə Seyid üçün əsas yaradıcı meyar olub.

Müəllifin Zərifə xanım Əliyeva ünvanlı əsərlərin bir çox müəlliflərindən fərqli olaraq portretdə rəsmi-təntənəli təqdimata yox, obrazın şəxsiyyətinin böyüklüyünü şərtləndirən çoxsaylı mənəvi-insani keyfiyyətlərin qabardılmasına üstünlük verməsi də buradan qaynaqlanır. Gənc rəssamın kətan üzərindən "boylanan" rəng qatına, kompozisiyanı tərtibində iştirak edən ayrıntıların məna-məzmun daşıyıcılığına münasibətinin süni rəsmiyyətçilikdən çox uzaq ifadəsi də bunu təsdiqləyir. Doğrudan da milli naxışlardan tərtib olunmuş haşiyə ilə əhatələnən portretin ümumi estetikasında təsvirin cəlbedicilyini təsdiqləyən bədii-rəmzi məziyyətlər kifayət qədərdir. Burada kətan səthinə özünəməxsus texniki münasibət göstərməklə kompozisiyanın bədii tutumda gerçəkləşməsinə çalışan rəssamın, inamlı yaxı improvizələri ilə yeni bir "rəng - çalar qatı" yaratdığını görmək mümkündür. Etiraf edək ki, müəllifin kətana bu cür fərdi və fərqli yanaşması Azərbaycan rəssamlığı üçün yeni və özünəməxsus cəhət hesab oluna bilər.

Əlavə edək ki, portret hər şeydən əvvəl özünəməxsus kompozisıya həllinə görə diqqət çəkir. Belə ki, müəllif, Zərifə xanımın təsvirini şaquli formatın dominantı kimi təqdim etməklə, onun nurlu çöhrəsinin daha artıq diqqət çəkməsinə nail olub. Portretin məna-məzmun daşıyıcılığını onu əhatələyən yığcam ayrıntılar - qızılgül təsvirləri ilə əldə edən rəssam, həm də obrazın lirik-romantik tutum almasını şərtləndirib. Başqa sözlə desək, portret üçün yerlik - fon rolunu oynayan maviliyi qırmızı güllərlə bəzədilməsi, gözəllik və məhəbbət rəmzi olan bu zərif ayrıntının ümumi kompozisiyaya həm də rəmzi-fəlsəfi məna bəxş etdiyini görmək mümkündür. Məhz bunun sayəsində Zərifə xanımın portreti nikbin boyalardan "hörülmüş" ümumi koloriti ilə birlikdə çox duyğulandırıcı qəbul olunur. Görkəmli alimin nurlu çöhrəsinin rəmzə çevrilmiş qızılgüllərlə vəhdətdə görüntüyə gətirilməsi, son nəticədə, cəlbedici əsərin arzulanan bədii tutum almasına səbəb olub. Odur ki, portret bütünlükdə, milli tariximizdə qürurverici əməlləri ilə hər birimizə başucalığı gətirən Azərbaycan qadınlarının ümumiləşdirilmiş obrazı kimi qəbul olunur...

Tanışlıq üçün deyək ki, gənc rəssamın tədricən formalaşan bədii irsində tamaşaçı rəğbətini qazanmış müxtəlif janrlı əsərlər geniş yer tutur. Onların həm yerli, həm də xarici sərgilərdə uğurlu nümayişi həm də müasir Azərbaycan təsviri sənətinin təbliğinə xudmət edir, desək, yanılmarıq. Onun "Xurşidbanu Natəvan", "I Şah Təhmasib", "Eşq", "Yuxu", "Tək ağac", "Bakı mənzərəsi", "Arzularımın gəmisi", "Göy göl", "Sahil", "Nar ağacı", "Balıq", "Xınalıq", "Çay dəstgahı", "Tutuquşular", "Narlar" və digər lövhələri bu qəbildəndir.

**525-ci qəzet.** - 2023. - 22 dekabr. - № 232. - S. 10.